Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2011

I hissə

18329

Bakı
2014

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

66.4(5Azc)
A 99

Redaksiya kollegiyasının sədri:

Elmar Məmmədyarov - *Xarici işlər naziri*

Redaksiya kollegiyasının üzvləri:

Əzimov Araz - *Nazir müavini*
Hüseynov Nadir - *Nazir müavini*
Xələfov Xələf - *Nazir müavini*
Məmməd-Quliyev Mahmud - *Nazir müavini*
Paşayev Hafiz - *Nazir müavini*
Əliyev Famil - *Tarix-Arxiv idarəsinin rəisi*
Həsənov Ramin - *Beynəlxalq Hüquq və Müqavilələr idarəsinin rəisi*
Köçərli Qabil - *Tarix-Arxiv idarəsinin müşaviri*
Maqsudov Araz - *Tarix-Arxiv idarəsinin I katibi*
Əhmədov Ruslan - *Tarix-Arxiv idarəsinin I katibi*

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2011. Birinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "Season" MMC, 2014-cü il. - 912 səh.

ISBN 978-9952-455-42-7



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi"nin silsilə nəşrini davam etdirir. Məcmuənin Məcmuənin növbəti buraxılışı 2011-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Buraxılışın böyük hissəsini AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Kitabın ərsəyə gəlməsindəki köməklərinə görə AzərTac-ın bütün kollektivinə minnətdarlığımızı bildiririk.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

Hörmətli cənab Prezident,

Urmiye şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə baş sağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 10 yanvar 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN NEFT NAZİRİ SEYİD MƏSUD MİRKAZİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də İran İslam Respublikasının neft naziri Seyid Məsud Mirkaziminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İki ölkə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini xatırladan Prezident İlham Əliyev enerji sektorunda əlaqələrin böyük tarixinin olduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığın yeni sahələrinin müəyyən edilməsinin önəmini vurğulayaraq, hazırkı mərhələdə enerji sahəsində də əməkdaşlığın yeni imkanlarını araşdırmağın zəruriliyini söylədi və bunun üçün yaxşı potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev enerji sahəsində əlaqələrin genişləndirilməsi ilə bağlı artıq yüksək səviyyədə fikir mübadiləsinin aparıldığını qeyd etdi və razılaşdırılmış məsələlərin həyata keçirilməsinin vacibliyini vurğuladı.

Seyid Məsud Mirkazimi İran Prezidenti Mahmud Əhmədinejadın səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. İkitərəfli münasibətlərin, xüsusilə enerji sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı ötən il dövlət başçılarının imzaladığı sənədin əhəmiyyətinə toxunan nazir Bakıya səfəri zamanı bu məsələ ilə bağlı müzakirələrin davam etdiriləcəyini dedi. Seyid Məsud Mirkazimi tarixən iki ölkə arasında əlaqələrin bütün sahələrdə, o cümlədən enerji sektorunda yaxşı səviyyədə olduğunu vurğuladı və bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi və özünün də səmimi salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ

Hörmətli xanım Prezident,

Hindistan Respublikasının milli bayramı - Respublika günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin daim genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 12 yanvar 2011-ci il.

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM KVENTİN BRAYSA

Hörmətli xanım General-Qubernator,

Ölkənizin milli bayramı - Avstraliya günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Avstraliya arasında yaranmış dostluq münasibətlərinin möhkəmləndirilməsi yolunda səylərimiz əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstraliya xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 12 yanvar 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ SVEN ALKALAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Bosniya və Hersеqovinanın xarici İşlər naziri Sven Alkalayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Bosniya və Herseqovinanın xarici İşlər naziri Sven Alkalayın ölkəmizə ilk səfərinin qarşılıqlı əlaqələrin inkişafı baxımından önəmli olduğunu vurğulayaraq, bu səfərin uğurlu olacağına və əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradacağına əminliyini bildirdi. İkitərəfli münasibətləri genişləndirməyin zəruriliyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycan ilə Bosniya və Herseqovinanın dost ölkələr olduğunu, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı üçün də yaxşı imkanlar yarandığını bildirdi.

Ölkəmizə ilk dəfə gəldiyini deyən Bosniya və Herseqovinanın xarici işlər naziri Sven Alkalay bu səfərin ikitərəfli əlaqələrin inkişafına xidmət edəcəyinə ümidvar olduğunu söylədi. O, Azərbaycan ilə Bosniya və Herseqovina arasında əlaqələri təkcə ikitərəfli müstəvidə deyil, eləcə də ölkələrimizin üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirməyin vacibliyini bildirdi. İki ölkə arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu bildirən nazir ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV EURONEWS TELEKANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİ PYER LUİCİ MALEZANİNİ VƏ TELEKANALIN BAŞ İCRAÇI DİREKTORU FİLİP KAYLANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Euronews telekanalının Müşahidə Şurasının sədri Pyer Luici Malezanini və telekanalın baş icraçı direktoru Filip Kaylanı qəbul etmişdir.

Görüşdə Euronews telekanalı ilə Azərbaycanın müvafiq qurumları arasında əlaqələrin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparıldı, informasiya sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətinə toxunularaq, müasir dövrdə informasiya mübadiləsinin önəmi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Avropa Komissiyasının sədri Xose Manuel Barrozunu hörmətlə qarşıladı.

Prezident İlham Əliyev və Xose Manuel Barrozu rəsmi foto çəkdirdilər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun təkbətək görüşü oldu.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, enerji sahəsində əməkdaşlığın yaxşı potensialının olduğu vurğulandı. Əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

Yanvarın 13-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Avropa İttifaqı sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə"ni imzaladılar.

"Azərbaycan Respublikası və Avropa Komissiyası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama dair Anlaşma memorandumu"nu, "Azərbaycan Respublikası və Avropa Komissiyası arasında hərtərəfli institusional quruculuq proqramının çərçivə sənədi üzrə Anlaşma memorandumu" nu Azərbaycanın Avropa İttifaqı yanında daimi nümayəndəliyinin rəhbəri Emin Eyyubov və Avropa Komissiyasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Roland Kobia imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN MƏTBUAT KONFRANSI

Yanvarın 13-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun mətbuat konfransı olmuşdur.

Prezident İlham Əliyev və Xose Manuel Barrozu bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli cənab sədr!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən sizi, Avropa Komissiyasının sədri cənab Barrozunu bir daha burada salamlamaq istərdim. Eyni zamanda, dəvətimizi qəbul edib 2011-ci ilin əvvəlində ölkəmizə səfər etdiyinizə görə minnətdarlığımızı bildiririk. Bu, ilin çox yaxşı bir başlanğıcıdır və hesab edirik ki, Avropa təsisatları ilə Azərbaycan arasında olan münasibətlərin çox gözəl göstəricisidir. Bu münasibətlərin çox yaxşı tarixi var. Müstəqilliyimizin ilk günlərindən biz Avropa İttifaqının dəstəyini hiss etmişik və indi də hiss edirik.

Eyni zamanda, Avropa Komissiyası sədrinin səfəri tərəfdaşlığımızın bugünkü səviyyəsinin göstəricisidir və təbii ki, bu səfər bizim münasibətlərimizin gələcək inkişafına yönəlibdir. Biz bu münasibətləri çox yüksək dəyərləndiririk. Biz uzun illər ərzində müxtəlif formatlarda ümumi nəticələr əldə etmək üçün birgə çalışırıq. Hazırda Azərbaycanın da üzv olduğu "Şərq tərəfdaşlığı" proqramı var. Bu da bizim əməkdaşlığımız üçün yeni üfüqlər açır. Bizim ikitərəfli münasibətlərimizə aid geniş gündəliyimiz mövcuddur və burada bir çox sahələr əhatə olunmuşdur.

Bu gün apardığımız müzakirələr, səmimi və çox mehriban söhbət zamanı biz, demək olar ki, ikitərəfli əlaqələrimizin hər bir aspektini nəzərdən keçirdik. Biz iqtisadi inkişafa, iqtisadi əməkdaşlığa aid olan məsələləri, siyasi islahatları müzakirə etdik, Azərbaycanda aparılan islahatları, demokratikləşmə prosesini nəzərdən keçirdik, regional vəziyyət və təhlükəsizliklə bağlı olan vəziyyət haqqında fikir mübadiləsi etdik. Enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərindən də danışdıq və eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini də müzakirə etdik. Bir sözlə, biz gördük ki, hər iki tərəfin ümumi bir istəyi, arzusu vardır ki, bu münasibətlər inkişaf etdirilsin və gələcək illərdə, onilliklərdə tərəfdaşlıq daha da güclənsin.

Bu gün söhbətimizin əsas mövzuları arasında enerji sahəsində əməkdaşlıq məsələsi dayanır. Biz elə indicə Cənub qaz dəhlizi haqqında Birgə bəyannaməyə imza atdıq. Bu da çox məzmunlu, mühüm bir sənəddir və enerji əməkdaşlığının bütün aspektlərini, Avropa təsisatları ilə Azərbaycan arasında bu sahədə əməkdaşlığı əhatə edir.

Azərbaycan etibarlı tərəfdaşdır və Azərbaycanın neft əməliyyatlarının uzun tarixi var. Dünyada ilk dəfə Azərbaycanda neft hasil edilmiş, o cümlədən sənaye üsulu ilə dənizdə neft hasilatı dünyada ilk dəfə məhz Azərbaycanda baş vermişdir. Müstəqil ölkə olaraq biz öz enerji siyasətimizi 1990-cı illərin ortalarından bu günə qədər aparırıq və bu baxımdan Azərbaycanın siyasəti çox açıq, səmimi, şəffaf olmuşdur. Biz milyardlarla dollar xarici sərmayə cəlb edə bildik və bu gün artıq bizim müxtəlif marşrutlarımız vardır. Bizim 7 boru kəmərimiz mövcuddur. Bu infrastruktur neft və qaz yataqlarımızdan enerji resurslarımızı müxtəlif istiqamətlərdə nəql etməyə imkan yaradır. Biz çoxlu maliyyə resursları əldə etmişik və bu, bizim enerji siyasətimiz nəticəsində mümkün olmuşdur. Bu gün isə biz enerji inkişafımızın yeni bir mərhələsindəyik və Avropa təsisatları ilə münasibətlərimiz bizim üçün çox əhəmiyyətlidir. Enerji təhlükəsizliyi məsələsi, enerji təchizatının şaxələndirilməsi hasilatçılar, istehlakçılar, tranzit ölkələr üçün eyni dərəcədə vacibdir. Zənnimcə, maraqların kombinasiyası və səylərin bir araya yönəldilməsi və bunun bir növ sinxronlaşdırılması bizim planlarımızın uğurla həyata keçirilməsi üçün əsas ilkin şərtdir. Azərbaycan əvvəldən Cənub enerji dəhlizinə dəstək vermişdir. Əslində, bu, elə Azərbaycanın başladığı layihəyə yönəlir: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərləri - məhz bunlar, bu istiqamətdə həyata keçirilən ilk təşəbbüs olmuşdur. Bundan sonra isə biz nəql dəhlizləri üzərində işləməyə başladıq, çünki bilirik ki, bu dəhlizlər bizim prioritetlərimizdən biridir və bu istiqamətdə apardığımız ciddi bir işdir. Zənnimcə, bu gün imzaladığımız Birgə bəyannamənin yaxşı gələcəyi vardır. Əminəm ki, gələn aylar ərzində biz bir çox mühüm hadisələrin şahidi olacağıq. Bu baxımdan enerji tərəfdaşlığı, Avropa İttifaqı, Avropa təsisatları ilə Azərbaycan arasında olan bu əməkdaşlıq uğurla davam edəcəkdir.

Bu gün biz Azərbaycanda siyasi və iqtisadi islahatlara aid vəziyyəti də müzakirə etdik və bu, çox açıq, səmimi və dostluq şəraitində keçdi. Bu söhbət dostlar arasında idi və biz bir-birimizi etibarlı tərəfdaş və dost hesab edirik. Biz, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini müzakirə etdik. Fakt ondan ibarətdir ki, artıq uzun illərdir, Azərbaycanın əraziləri Ermənistanın işğalı altındadır. Təbii ki, bu, Azərbaycanda bir çox narahatlıqlar doğurur. Bu, regional təhlükəsizliyə potensial hədədir. Biz beynəlxalq təsisatlara, xüsusən də Avropa Parlamentinə çox minnətdarıq ki, ötən il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə aid qətnamə qəbul etdilər. Bu qətnamə əvvəl qəbul olunmuş qətnamələrə - BMT-nin, Avropa Şurasının və ATƏT-in qətnamələrinə uyğundur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqi-

şəsinin tezliklə həlli nəinki bizim qaçqın və məcburi köçkünlərimizi öz yerlərinə qaytaracaq, həm də bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyümüzü bərpa etməyə gətirib çıxaracaq, habelə regiona proqnozlaşdırma, təhlükəsizlik gətirəcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, bizim ikitərəfli gündəliyimiz çox genişdir. Çox şadam ki, cənab sədri Azərbaycanda qəbul edirəm. Mən çox şadam ki, 2011-ci il məhz burada, Bakıda belə mühüm səfərlə başlayır. Əminəm ki, belə tərəfdaşlıq ruhu bizim ikitərəfli münasibətlərimizdə həmişə əsas yer tutacaq və gələn aylar ərzində daha çox müsbət nəticələrimiz olacaqdır. Cənab sədr, ölkəmizə səfər etdiyinizə görə çox sağ olun və mən sizə səfərinizin yaxşı keçməsini arzulayıram.

* * *

AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN BƏYANATI

-Sağ olun, cənab Prezident. Mən də, bu gün burada, Bakıda olmaqdan çox məmnunam və Sizin xeyirxah dəvətinizi, Prezident Əliyevin dəvətini qəbul etdim.

Prezident Əliyevlə görüş çox açıq və səmimi, dostluq, mehribanlıq şəraitində keçdi və biz olduqca strateji əhəmiyyət daşıyan məsələləri müzakirə etdik. Bildiyiniz kimi, bu məsələlər həm Avropa İttifaqı, həm də Azərbaycan üçün əhəmiyyətlidir. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında olan tərəfdaşlığı əhatə etdik və bir meyil kimi bu tərəfdaşlıq artıq reallıqdır. Eyni zamanda, mən bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə minnətdaram. Mən sabah da buradayam və hesab edirəm ki, çıxışlarım olacaqdır. Mən Bakı Dövlət Universitetində çıxış edəcəyəm və bilirəm ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında ilk olaraq bir çox mütərəqqi işlər görmüşdür. Çox sağ olun, mənə belə bir fürsət yaratmısınız ki, səfərimi belə başlayım və eyni zamanda, sabah həmin ali təhsil ocağında çıxış edim.

Avropa İttifaqı Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatları dəstəkləyir. Bu gün Prezident bildirdi ki, o, Avropa İttifaqının "Şərq tərəfdaşlığı"nda üstün tutulmuş dəyərlərini ölkəsinin inkişafı üçün bir ilhamlandırıcı amil kimi qəbul edir. Bu, əlbəttə ki, həm də bizim prinsiplərimizin aliliyini nəzərdə tutur. Biz bunu açıq şəkildə cənab Prezidentlə müzakirə etdik və bildirdik ki, demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmətlə yanaşma - bunlar da bizim münasibətlərimizdə vacib bir məqamdır.

İkitərəfli tərəfdaşlığımıza gəldikdə, bildiyiniz kimi, yeni Assosiasiya Sazişi mövcuddur ki, bununla bağlı artıq danışıqlar başlanıbdır. Məqsəd bizim strateji əlaqələrimizi daha da dərinləşdirmək və Azərbaycanı Avropa İttifaqının bazarına daha da yaxın etməkdən ibarətdir. Eyni zamanda, mən böyük məmnunluqla bildirirəm ki, biz vizanın asanlaşdırılması sazişi üzərində də danışıqlara başlayacağıq. Bu da yaxın gələcəkdə baş verəcək, Azərbaycan vətəndaşlarının Avropa İttifaqı ölkələrinə səfərlərini daha da asanlaşdıracaqdır. Hesab edirəm ki, bu, olduqca əhəmiyyətli məsələdir ki, insanlar arasında təmaslar daha da sıx olsun.

Eyni zamanda, Avropa İttifaqı siyasi və iqtisadi islahatların aparılmasında Azərbaycanı dəstəkləməkdə əzmlidir. Hesab edirik ki, gələn illər ərzində münasibətlərimizdə bu ki-

mi məsələlər də vacib hesab olunacaqdır. Bu baxımdan Azərbaycan öz töhfəsini verir.

Eyni zamanda, hesab edirik ki, bizim enerji sahəsində əməkdaşlığımız çox yaxşı qurulubdur. Burada, mənim nümayəndə heyətimdə cənab Günter Ottinger də var, o da xüsusi olaraq məhz həmin məsələlərlə məşğuldur. Mən Prezident İlham Əliyevlə ikitərəfli dialoq apardım. Azərbaycan bu sahədə Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Biz hesab edirik ki, Azərbaycan həm hasilatçı, həm tranzit ölkə kimi çox mühüm rol oynayır. Əslində, Azərbaycan şaxələndirmə məsələsinə ilk yol açan bir ölkə rolunu oynayır. Çünki biz bilirik ki, hələ Azərbaycan 1990-cı illərin ortalarında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. İndi isə artıq növbə qazındır. Elə buna görə də biz bu gün Cənub qaz dəhlizi ilə bağlı Birgə bəyannaməni imzaladıq. Bu da Avropa İttifaqının Azərbaycan qazını birbaşa almasına imkan yaradacaqdır. Bu dəhlizin yaradılması bizim müştərək strateji marağımızdan irəli gəlir.

Bu da çox vacibdir ki, bizim təhlükəsizliyimiz və enerji təchizatımızın şaxələndirilməsi olduqca vacibdir. Bu, həm də tələblə bağlıdır. Eyni zamanda, Azərbaycan istəyir ki, öz ixracını daha da şaxələndirsin və Avropa İttifaqına idxala öz töhfəsini versin. Məhz Cənub dəhlizi sayəsində Azərbaycan çox etibarlı bir çıxış olacaqdır. Bu da bizim inkişafımız üçün uzunmüddətli perspektiv açır. Eyni zamanda, biz çox istəyirik ki, "Şahdəniz" qaz yatağı da yaxın vaxtlarda işlənilsin. Ümidvaram, bu, bizə elə bir imkan verəcək. Bəyan edək ki, Azərbaycan XXI əsrdə bu sahədə ən ilkin addımlar atan bir ölkə olacaqdır.

Xanımlar və cənablar, biz bir çox digər məsələləri də müzakirə etdik, regional vəziyyəti nəzərdən keçirdik. Mən xüsusi olaraq Azərbaycanın bu gün Əfqanıstanda sülhün təmin edilməsində, İraq və Kosovoda oynadığı rolu yüksək dəyərləndirdim və bildirirəm ki, bunu Avropa İttifaqı da çox yüksək dəyərləndirir.

Bu regiona gəldikdə, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsində irəliləyişin olması ilə bağlı öz narahatlığımı yenə də sizinlə bölüşürəm. Mən həm ailələrə, həm də icmalara üzümü tutaraq deyirəm ki, bəli, siz münaqişələrdən çox əziyyət çəkmisiniz. Amma artıq vaxt çoxdan yetişib ki, bu məsələnin həlli sülh yolu ilə təmin edilsin. Buna görə də ATƏT-in Minsk qrupu öz fəaliyyətini davam etdirməlidir. Bildiyiniz kimi, Avropa İttifaqı da öz səylərini göstərir. Mən, eyni zamanda, bu fürsətdən istifadə edərək, Prezident Əliyevə və sizə demək istəyirəm: həmin münaqişədən əziyyət çəkmiş bütün ailələrə və icmalara öz narahatlığımı bildirirəm. Eyni zamanda, əmin etmək istəyirəm ki, bu baxımdan Avropa İttifaqı öz səylərini davam etdirəcəkdir. Biz ərazi bütövlüyü prinsipini dəstəkləyəcəyik və bu baxımdan istəyirik ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edilsin. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini də dəstəkləyirik. Çox ümidvar olduğumuzu bildirmək istəyirik ki, tərəflərin razılaşdırdığı hər hansı bir variant ortaya çıxarsa, biz bunu dəstəkləməyə hazır olacağıq və ondan sonra da bərpa işlərini görəcəyik.

Bildiyiniz kimi, Azərbaycan ilə Avropa İttifaqı arasında faydalı əməkdaşlıq artıq göz qabağındadır. Eyni zamanda, bu gün Azərbaycan ilə imzaladığımız sənədlər Avropa İttifaqı ilə tərəfdaşlığı daha da gücləndirəcəkdir. İndi isə daha əlavə addımlar atılmalıdır. Söhbət təkcə enerji sahəsindən getmir, digər sahələrdən də gedir. Məsələn, biz təhsil sahəsində əməkdaşlıq edə bilərik. Bu, bizim ürəyimizə çox yaxın olan bir məsələdir. Prezident Əliyev də bunu qeyd etdi ki, biz bu müasirləşdirməni birlikdə irəliyə doğru

aparmalıyıq. Biz qarşısına qoyduğu məqsədlərə nail olmaqda cənab Prezidentlə birgə işləməyi ürəkdən arzulayırıq və bunu səbirsizliklə gözləyirik.

Mənə deyirdilər ki, qışın bu vaxtında bəlkə Bakıya səfər etməyim. Amma dedim ki, buna inanmıram, çünki Bakıda hava şəraiti tamamilə fərqlidir və buradakı insanlar da çox gözəl və cazibədardır. Yəni, belə bir tərəfdaş ölkəni belə bir şəraitdə görəndə, həqiqətən, insanın ürəyi açılır. Eyni zamanda, mən görürəm, burada nəinki gözəl şərait yaradılıb, həm də ətrafda çox gözəl inkişaf da var.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu jurnalistlərin suallarına cavab verdilər.

* * *

- "Der Spiegel" jurnalının müxbiri: Cənab Prezident Əliyev, "Cənub qaz dəhlizi"nin ölkəniz üçün strateji əhəmiyyəti nədən ibarətdir? Cənab Barrozu, bu gün imzalanmış sənəd - bəyannamə bir növ sıçrayışdırmı, irəliləyişdirmi?

İLHAM ƏLİYEV: Bildiyiniz kimi, uzun illər ərzində Azərbaycan fəal surətdə çalışır ki, öz enerji resurslarını dünya bazarlarına çatdırsın. Biz neft hasilatından başladıq və beləliklə, neft kəmərini tikdik. Hazırda bizim şaxələndirilmiş nəqletmə marşrutlarımız var. İndi 3 neft kəməri var ki, bizim neftimizi Qara dənizə və Aralıq dənizinə çıxarır. Təbii ki, neft və qaz məsələsi vacib məsələdir. Amma əsas məsələ o idi ki, biz gərək bazar tapaq, bunun üçün bazar olsun. Bu yataqların ehtiyatlarına uyğun olaraq, həmin bazar müəyyən edilsin. Bu gün artıq bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetr həcmindədir və əminəm ki, potensial ehtiyatlar hətta bundan da artıqdır. Onda bizə nə lazımdır?! Bizə proqnozlaşdırılmış, uzunmüddətli, qanunvericiliklə tənzimlənən rəqabətcil bir bazar lazımdır ki, bacardığımız qədər qaz hasil edə bilək. Buna görə də "Cənub qaz dəhlizi" bizim üçün strateji əhəmiyyət daşıyır, bu, qaz potensialımızı realizə etməkdə bizə yardımçı olacaqdır.

Demək istəyirəm ki, biz uzun illər ərzində bu layihələr üzərində işləmişik, çalışmışıq. 1996-cı ildə "Şahdəniz" qaz yatağı haqqında saziş imzalananda biz bilmirdik ki, oradan nə qədər qaz çıxarılacaq. Amma indi çox məmnunluq hissi ilə demək istəyirik ki, "Şahdəniz" dünyada ən böyük qaz yataqlarından biridir. İlkin olaraq, ehtiyatlar 1,2 trilyon kubmetr deyilmişdi. Amma daha sonra isə biz yeni yataqlar aşkar etdik. Bildiyiniz kimi, ötən ilin sonunda yeni yataq kəşf etdik. Bu, gələn illər üçün nəinki bizim təchizat potensialımızı, həm də proqnozlaşdırma imkanımızı daha da artırır. Hazırda bizim 4 qaz boru kəmərimiz vardır. Biz artıq 3 ölkəyə qaz nəql edirik. Bugünkü hasilatın həcminə uyğun olaraq, ixracımızın şaxələndirilməsinə bir növ nail olmuşuq. Amma "Şahdəniz-2" əlavə qaz hasilatını təmin edəcəkdir. Təbii ki, yeni kəşf etdiyimiz qaz yataqlarının işlənilməsinə də başlanacaqdır. Ona görə yeni bazarların tapılması, müəyyən edilməsi bizim üçün vacibdir. Bizə həm yaxın bazarlar, həm uzaq bazarlar, artan, inkişaf edən bazarlar lazımdır. Ona görə biz istərdik ki, qaz sahəsindəki əməkdaşlığımız da neft sahəsindəki əməkdaşlığımız kimi olsun.

Demək istərdim ki, bu gün bənzərsiz, nadir bir vəziyyət yaranıbdır. Çünki istehlakçıların, tranzit ölkələrin və hasilatçıların maraqları bir araya gəlib. Biz güclü tərəfdaşlıq qur-

muşuq və bu tərəfdaşlıq yalnız sərbəst elementlərdən təşkil olunarsa, uğura gətirib çıxara bilər. Əminəm ki, bu gün imzalanmış sənədlər uğurla həyata keçiriləcək və Azərbaycan qaz potensialından öz xalqının rifahı, ölkəmizin gələcək inkişafı və Avropadakı dostlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi üçün istifadə edəcəkdir. Bu tərəfdaşlıq nəinki illər, onilliklər boyu olacaqdır.

XOSE MANUEL BARROZU: Bilirsiniz, Prezident Əliyev bu məsələni o qədər aydın şəkildə təsvir etdi ki, bu şərhə nə isə bir şey əlavə etmək mənim üçün çətindir. Eyni zamanda, onu deməliyəm ki, biz bu Bəyannamənin imzalanmasını, həqiqətən, bir təkan kimi qəbul edirik. Çünki bu, sonradan böyük, vacib qərarların qəbul edilməsinə yol açacaqdır. Bu o deməkdir ki, müştərək maraqlar var, yəni burada hər bir tərəf udur, həm Azərbaycan udur, həm Avropa udur. Yəni fakt ondan ibarətdir ki, şəxsən mənim özüm burada Avropa İttifaqı adından bunu imzaladım və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də imzaladı. Biz bu Birgə bəyannaməni imzalamaqla gördük ki, onun məzmunu çox əhəmiyyətlidir, onun olduqca böyük əhəmiyyəti var. Əminəm ki, bunun müəyyən praktik nəticələri yaxın aylarda olacaqdır. Əmin edirəm ki, mən bu gün imzalanmış sənədlər üzrə fəal işləyəcəyəm və Azərbaycan tərəfi qarşısında da deyirəm ki, bundan sonra investorlar tərəfindən kommersiya qərarları qəbul edilməlidir. Amma bizim fikrimiz, bizim üçün istiqamət aydındır. Biz bilirik ki, nəyə doğru addımlayırıq.

CAVİD BƏDƏLOV (AzərTAc): Mənim sualım cənab Barrozuyadır. Bildiyiniz kimi, Avropa enerji təhlükəsizliyi çərçivəsində Nabukko, Türkiyə-Yunanıstan-İtaliya, AGRİ kimi layihələr müzakirə edilir. Bu layihələrdən hansı Avropa İttifaqı üçün daha əhəmiyyətlidir?

Xose Manuel BARROZU: Biz "Cənub qaz dəhlizi"ni dəstəkləyirik və sonrakı qərarlar kommersiya əsasında qəbul edilməlidir. Bu baxır həcmə, yəni ondan asılıdır ki, bu Nabukkonun və digər layihənin əlavə dəyəri nədən ibarətdir. Yəni bu, onunla bağlıdır. Bilməliyik ki, bizim fikrimizcə, hansı layihə daha qəbuledilməndir. Bu, həmçinin Azərbaycan üçün əhəmiyyətlidir. Cənab Prezident elə indicə çox aydın şəkildə izah etdi ki, yeni yataqlar kəşf edilibdir. Mən deyərdim ki, Nabukko öz əhəmiyyəti ilə, öz ölçüsü ilə həmin ehtiyatlara daha çox cavab verir. Eyni zamanda, biz inanırıq ki, "Cənub dəhlizi"nə artıq siyasi dəstək var. Mən bu layihələri bir-biri ilə ziddiyyət təşkil etməyən layihələr kimi görürəm. Fikir verin, burada kommersiya məsələsi var, yenə də bu, həmin o qərarlarla bağlıdır. Biz hamımız bilməliyik ki, bu, həmin qərarlar əsasında müəyyən ediləcəkdir. Zənnimcə, onların arasında ən vacib əhəmiyyəti olan Nabukkodur. Bu yaxınlarda belə bir qərar qəbul olunmuşdur ki, müəyyən fondlardan bu layihənin həyata keçirilməsinə maliyyə resursları ayrılsın və ona görə də mən bir müddət əvvəl Türkiyəyə səfər etdim. Bildiyiniz kimi, Nabukko ilə bağlı hökumətlərarası saziş imzalandı. Bu da çox vacib bir addım idi və görürsünüz ki, bizim dəstəyimizin bir rəmzidir. Çox sağ olun.

HÖRMƏTLİ QONAĞIN ŞƏRƏFİNƏ

Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun şərəfinə şam yeməyi verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Beynəlxalq Cüdo Federasiyasının Prezidenti Marius Vizeri qəbul etmişdir.

Görüşdə ölkəmizdə idmanın inkişafı ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlərdən söhbət açılmış, idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində Azərbaycanın gördüyü işlərdən danışılmışdır.

Söhbət zamanı Azərbaycanda ardıcıl olaraq mötəbər beynəlxalq idman tədbirlərinin keçirildiyi və bunların yüksək səviyyədə təşkil edildiyi vurğulanmışdır.

PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2010-CU İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2011-Cİ İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 14-də Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

Bu gün biz 2010-cu ilin sosial-iqtisadi yekunlarını və 2011-ci ildə ölkəmizin əsas inkişaf istiqamətlərini müzakirə edəcəyik. Bütövlükdə deyə bilərəm ki, 2010-cu il ölkəmizin inkişafı üçün çox əhəmiyyətli il olmuşdur. 2010-cu ildə ölkə iqtisadiyyatı inkişaf etmişdir. Ümumiyyətlə, 2009 və 2010-cu illər tarixdə maliyyə və iqtisadi böhran illəri kimi qalacaq və bu illər bizim üçün də sınaq olmuşdur. Mən çox şadam ki, Azərbaycanda aparılan islahatlar və düzgün iqtisadi siyasət nəticəsində həm 2009-cu ildə, həm 2010-cu ildə ölkə iqtisadiyyatı inkişaf etmişdir. 2009-cu ildə ümumi daxili məhsul 9,3 faiz, keçən il isə iqtisadiyyatımız 5 faiz artmışdır. Əksər ölkələrdə həm 2009-cu, həm də 2010-cu ildə tənəzzül müşahidə olunduğunu nəzərə alsaq, əlbəttə ki, bizim uğurlarımızın əhəmiyyəti daha da artır.

Bu böhranlı illər ərzində biz iqtisadi siyasətimizi inamla aparmışıq. Ölkə qarşısında duran bütün vəzifələr icra edildi. Bütün sosial proqramlar öz həllini tapdı. Keçən il minimum əməkhaqqı və pensiyanın baza hissəsi artırıldı. Halbuki, Avropanın bir çox ölkələrində əks istiqamətdə proseslər gedirdi, maaşlar, pensiyaların məbləği aşağı düşürdü.

Əlbəttə ki, bütün bu uğurlarımızın təməlində uzun illər aparılan düşünülmüş iqtisadi siyasət, iqtisadi islahatlar dayanır. Bizim iqtisadiyyatımız artıq çoxşaxəli iqtisadiyyatdır, təkcə bir sektora arxalanmır. Bizim məqsədimiz məhz ondan ibarət idi ki, ölkədə çoxşaxəli iqtisadiyyat yaradaq. Baxmayaraq ki, 2009-cu ildə dünyada neftin qiyməti bir neçə dəfə, demək olar, 4 dəfə düşmüşdü, bizim iqtisadiyyatımız yenə də artmışdır.

Əminəm ki, 2011-ci il də ölkə iqtisadiyyatının inkişafı üçün uğurlu olacaqdır. Bunu de-

məyə bütün əsaslar var. Keçən ilin yekunlarına nəzər salsaq görərik ki, nəinki iqtisadiyyatımız 5 faiz artmışdır, makroiqtisadi vəziyyət də sabit olaraq qalmışdır. 2009-cu ildə bizim bölgəmizdəki ölkələrdə milli valyutanın dəyəri aşağı salınmışdır, devalvasiyaya uğramışdır. Bizdə isə manat sabit olaraq qalır və beləliklə, biz həm əhalinin sosial müdafiəsinə dəyərli töhfələr vermişik, həm də manatın sabit qalması ölkə iqtisadiyyatı üçün çox vacib bir amildir. Makroiqtisadi sabitlik qorundu, inflyasiya cəmi 5,7 faiz təşkil etmiş, əhalinin pul gəlirləri isə 12,3 faiz artmışdır. Bu onu göstərir ki, gəlirlər inflyasiyanı üstələyir. 2010-cu ilin yekunlarına görə, yoxsulluğun səviyyəsi daha da aşağı düşmüşdür və artıq Azərbaycanda yoxsulluq şəraitində yaşayanlar 9,1 faizdir. Hesab edirəm ki, bu, bizim böyük nailiyyətimizdir. Yeddi il ərzində Azərbaycanda yoxsulluq 4-5 dəfə aşağı düşmüşdür. Bu, bir daha göstərir ki, bizim apardığımız islahatlar və iqtisadi artım, ilk növbədə, Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına yönəldilibdir. Onu da göstərir ki, Azərbaycanda enerji sektorunda görülən işlər nəticəsində ölkə xəzinəsinə daxil olunan vəsait ədalətli bölünür və beləliklə, Azərbaycanda sosial ədalət prinsipi həmişə yüksək səviyyədə tətbiq olunur.

2010-cu ildə ölkə iqtisadiyyatına 15,5 milyard dollar vəsait qoyulmuşdur. Bu da çox böyük rəqəmdir, investisiyaların strukturu da çox ümidverici və müsbətdir. Daxili investisiyalar xarici investisiyaları üstələyir. Artıq birinci il deyil ki, bu belədir. Bu onu göstərir ki, həm dövlət tərəfindən, həm özəl sektor tərəfindən ölkə iqtisadiyyatına böyük məbləğdə investisiyalar qoyulur. Qeyri-neft sektoruna qoyulan investisiyalar neft sektorundakından çoxdur. 15,5 milyard dollardan 9,3 milyard dolları qeyri-neft sektoruna qoyulan sərmayədir. Bu da bizim siyasətimizin əsas istiqamətidir. Ölkə iqtisadiyyatının neft sektorundan asılılığını azaltmaq üçün əməli-praktik tədbirlər görülür. Bu da onu göstərir ki, bir neçə il bundan əvvəl bəyan etdiyimiz proqram və konseptual yanaşmamız həyatda öz əksini tapır. Yəni bizim planlarımız həyata keçirilir, nəzərdə tutduğumuz bütün proqramlar reallaşır və dediyim rəqəmlər bunun bariz nümunəsidir. Mən əminəm ki, bu il də ölkə iqtisadiyyatına böyük məbləğdə investisiyalar qoyulacaqdır.

Biz elə etməliyik ki, bu investisiyalar daha da böyük rəqəmlərlə ölçülsün və beləliklə, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf etsin. etsin.

2010-cu ildə bütün sosial proqramlar icra edildi. Qeyd etdiyim kimi, minimum əməkhaqqı və pensiyanın baza hissəsi 75 manatdan 85 manata qaldırıldı. Ünvanlı sosial yardım proqramı icra edilir, bu proqram çərçivəsində 550 min nəfər dövlətdən yardım alır və biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Çünki hələ də ehtiyac içində yaşayanlar var. Baxmayaraq ki, yoxsulluğun səviyyəsi aşağı düşür, ancaq biz elə etməliyik ki, çətinlik çəkənlər üçün də dövlət öz qayğısını əsirgəməsin.

Sosial infrastrukturun yaradılmasında böyük işlər görülmüşdür. 40-dan çox tibb müəssisəsi, 70-dən çox məktəb tikilmiş, təmir edilmişdir. 5 olimpiya mərkəzi tikilmişdir, mədəniyyət ocaqlarının tikilməsi və təmirinə vəsait ayrılır. Bir sözlə, ölkə iqtisadiyyatı və ümumiyyətlə, ölkənin inkişafı üçün vacib olan sosial sahə həmişə olduğu kimi diqqət mərkəzindədir. Bu, 2011-ci ildə də belə olmalıdır və şübhəsiz, investisiya proqramında, sosialyönümlü layihələr nəzərdə tutulacaqdır.

Regionlarda işlər yaxşı gedir, regional inkişaf proqramı icra edilir. Keçən il 70 mindən çox iş yeri açılmışdır, onun 53 mini daimi iş yeridir. Regional inkişaf proqramlarının ic-

rasının başlanmasından, yəni 2004-cü ilin fevralından bu günə qədər ölkəmizdə 900 mindən artıq iş yeri açılmışdır ki, bu da işsizliyin aradan qaldırılması üçün, demək olar, əsas amildir. Bununla bərabər, iş yerlərinin açılması, yeni müəssisələrin işə salınması nəticəsində ölkə daxilində istehsal olunan malların sayı artır. Bizim ixracdan asılılığımız azalır. Biz artıq qeyri-neft ixrac potensialına malikik və öz məhsullarımızı artıq başqa ölkələrdə nümayiş etdiririk. Bu il həmin siyasət daha da sürətlə aparılmalıdır.

Bir sözlə, regionların inkişafı artıq reallıqdır və regionlarda yaradılan müasir infrastruktur, - tikilən səhiyyə ocaqları, məktəblər, çəkilən yollar, qaz xətləri, indi böyük su layihələri də həyata keçirilməyə başlanmışdır, - dövlət tərəfindən, özəl sektor tərəfindən regionlara qoyulan sərmayədir. 2011-ci ildə də bu proseslər davam etdiriləcəkdir.

Bizim iqtisadiyyatımız üçün əsas olan sektorda - neft-qaz sektorunda keçən il bütün planlar yerinə yetirildi. 51 milyon ton neft hasil edildi ki, onun da böyük hissəsi ixrac olundu. 27 milyard kubmetr qaz hasil edildi. Hesab edirəm ki, bu il qazın hasilatı və ixracı daha da artmalıdır. Keçən il Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən böyük qaz yatağı aşkar edilmişdir. "Ümid" yatağı bizim qaz potensialımıza əlavə həcm gətirir. Artıq bizim təsdiq edilmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetrdir. Ümid edirəm ki, bu il və gələn il aparılacaq kəşfiyyat nəticəsində bu rəqəm daha da artacaqdır.

Keçən il nəqliyyat sektoruna böyük investisiyalar qoyulmuşdur. Azərbaycanda bu da artıq ənənəvi mənzərədir. Bu sektor ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət daşıyır. Avtomobil yolları tikilir, yeni təyyarələr alınır. Ələtdə böyük beynəlxalq ticarət limanının təməli qoyulmuşdur, gəmiqayırma zavodunun tikintisinə başlamışıq. Yəni bütün bunlar böyük sərmayə tələb edən layihələrdir. Ancaq biz bunu edirik və gələcəkdə edəcəyik ki, Azərbaycanda bizim coğrafi vəziyyətimizə uyğun, müasir və güclü nəqliyyat infrastrukturu yaradılsın. Demək olar ki, nəzərdə tutduğumuz layihələr içində əsas layihələr ya reallaşıb, ya da artıq onların icrasına başlanmışdır. Növbəti illərdə o layihələrin icrası və başa çatdırılması nəticəsində biz nəqliyyat sektorunda demək olar, bütün məsələləri həll edəcəyik. Bütün magistral, şəhərlərarası yollarda işlər gedir, bəzilərində başa çatıbdır. Dəniz nəqliyyatının inkişafı üçün tankerlər, quru yük gəmiləri alınır. Biz gələcəkdə Azərbaycandan artıq bu gəmiləri ixrac edəcəyik. Dəmir yolunun inkişafı üçün proqram icra edilir. Hava nəqliyyatını mən qeyd etdim, bizim kifayət qədər müasir təyyarə parkımız var və bu park ancaq ən yüksək keyfiyyətə malik təyyarələrdən ibarətdir. Beynəlxalq aeroportlar tikilibdir. Yəni demək istəyirəm ki, bu sahədə işlərin böyük hissəsi görülübdür.

2011-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi davam etdiriləcəkdir. Bu layihəyə biz böyük əhəmiyyət veririk. Demək olar ki, bu layihənin icrasına başlanması təşəbbüsü Azərbaycan tərəfindən irəli sürülmüşdür və indi üç ölkənin birgə səyləri nəticəsində bu layihəni uğurla icra edirik. Qarşıdakı illərdə bütün işlər başa çatdırılmalıdır və bu, bizim növbəti böyük uğurumuz olacaqdır.

2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmişdi. Mən çox şadam ki, "Ekologiya ili" çərçivəsində həm dövlət tərəfindən böyük işlər görüldü, həm də özəl sektor bu işlərə qoşuldu. Ən sevindirici hal isə ondan ibarətdir ki, ölkə əhalisi də bu təşəbbüsə qoşularaq, ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz dəyərli töhfələrini vermişdir. 6 milyondan artıq ağac əkilmişdir. Bu proses bu il də davam etdiriləcəkdir. Mən hesab edirəm ki,

biz bu tempi azaltmamalıyıq. Ekoloji vəziyyətin yaxşılaşdırılması ölkəmizin uğurlu inkişafı üçün, əhalinin sağlamlığı üçün çox böyük əhəmiyyət daşıyır.

Ekoloji tədbirlər ancaq ağac əkməklə bitmir, məhdudlaşmır. Çaylar boyunca yerləşən kəndlərdə təmizləyici qurğuların istifadəyə verilməsi nəticəsində artıq 300 min Azərbaycan vətəndaşı Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilibdir. Keçən ilin sonunda Oğuz-Qəbələ-Bakı su kəməri istismara verilibdir. Yaxın vaxtlarda yəqin ki, bir-iki aydan sonra bu kəmər tam gücü ilə işləyəcək və beləliklə, Bakının təmiz, keyfiyyətli içməli su ilə təmin olunması üçün əlavə böyük imkanlar yaranacaqdır. Kəmərin tikintisi sırf sosial xarakter daşıyır. Bu, kommersiya layihəsi deyil, lakin ona böyük vəsait qoyulubdur. Ancaq biz bunu etməliydik. Çünki Azərbaycan vətəndaşları ən yüksək şəraitdə yaşamalıdırlar. Azərbaycanda ən qabaqcıl texnologiyalar tətbiq olunmalıdır. Bizim gördüyümüz işlər məhz bu səviyyədə aparılır. Azərbaycanda istifadəyə verilmiş səhiyyə ocaqları - orada ən qabaqcıl avadanlıqlar quraşdırılır. Biz dünyanın aparıcı, inkişaf etmiş ölkələrinin ən qabaqcıl klinikalarında olan avadanlığı, aparatları gətiririk. Biz Azərbaycana ən keyfiyyətli malları gətirməliyik. Azərbaycan vətəndaşları buna layiqdirlər. Biz ölkəmizi müasirləşdiririk və dünyada gedən texnoloji tərəqqiyə gərək həmişə diqqətlə yanaşaq. Ölkəmizə ən qabaqcıl texnologiyaları gətirək ki, Azərbaycanda bütün işlər yüksək səviyyədə görülsün. Beləliklə, görülən bu işlər nəticəsində həm insanlar üçün yaxşı şərait yaradılır, həm də ölkə daha da güclənir. Əminəm ki, bizim uğurlu inkişafımız gələcək illərdə də yüksək templərlə davam edəcəkdir.

Mən deyə bilərəm ki, biz 2010-cu ildə bütün başqa istiqamətlərdə də böyük uğurlara nail ola bilmişik. 2010-cu ildə ölkədə heç bir ciddi problem olmamışdır. Baxmayaraq ki, təbiət də bizi sınağa çəkdi. 2010-cu ildə sellər və daşqınlar nəticəsində on minlərlə hektar torpaqlarımızda subasma halları baş vermişdi, 70 min hektardan çox ərazini su basmış, minlərlə ev uçmuş, yararsız vəziyyətə düşmüşdü. Ancaq görülən operativ və çevik tədbirlər nəticəsində biz ona nail ola bildik ki, bir nəfər də həlak olmadı. Bütün insanlar vaxtında təhlükəsiz yerlərə köçürüldülər. Onların müvəqqəti məskunlaşdığı yerlərdə bütün şərait yaradılmışdı. Tezliklə, hava şəraiti imkan verən kimi təmir-bərpa işlərinə başlamışdıq. Deyə bilərəm ki, 4-5 ay ərzində minlərlə ev tikildi, təmir olundu. İlin sonuna olan məlumata görə, 3 mindən artıq ev təmir edilmiş, 1500 ev yenidən tikilmişdir, təxminən 700-800 evin tikintisi isə davam edir. Bu onu göstərir ki, biz bütün çətin hallara da hazırıq. Bizdə həm texniki imkanlar, həm peşəkar kadrlar, həm də maliyyə vəsaiti var. Onu da deməliyəm ki, bütün bu işləri biz öz hesabımıza görmüşük, heç kimdən yardım istəməmişik. Yəni biz özümüzə arxalanırıq. Bunu etmək üçün, əlbəttə ki, bizim güclü iqtisadi potensialımız olmalıdır.

Azərbaycan artıq bu bölgədə mühüm regional amilə çevrilibdir. Bizim imkanlarımız artır və növbəti illərdə daha da artacaqdır. Deməliyəm ki, 2010-cu ildə bizim valyuta ehtiyatlarımız da artmışdır. Baxmayaraq ki, bəzi ölkələrdə valyuta ehtiyatları aşağı düşmüşdür, çünki həmin ölkələr sosial məsələlərin həlli üçün ondan istifadə etmişdir. Bizim isə valyuta ehtiyatlarımız artır. İlin sonuna olan məlumata görə, valyuta ehtiyatlarımız 29,1 milyard dollar təşkil edirdi. Dünən mənə verilən məlumata görə, artıq bu rəqəm 29,4 milyard dollara çatmışdır. Yəni təkcə on gün ərzində bizim vəsaitimiz nə qədər artır. Əlbəttə, növbəti illərdə bu, daha da artacaqdır.

Yəni biz artıq həm Azərbaycanda, həm də başqa ölkələrdə istənilən infrastruktur və sərmayə layihəsini icra edə bilərik, edirik. Artıq Azərbaycan şirkətləri xaricə də vəsait qoyur. Hesab edirəm ki, bu, ölkə iqtisadiyyatı və gələcək planlarımızın həyata keçirilməsi üçün vacib amillərdir.

Əfsuslar olsun ki, 2010-cu ildə biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində irəliləyişə nail ola bilməmişik. Bunun da təkcə bir səbəbi var. Bu da ondan ibarətdir ki, Ermənistan tərəfi, demək olar ki, danışıqları pozmaq istəyir. Danışıqlar masasında əvvəlcə razılaşdırılmış məsələlərə yenidən qayıtmaq istəyir, vaxt uzatmaq istəyir. Bir sözlə, bizdə belə fikir yaranır ki, Ermənistan işğal olunmuş torpaqları azad etmək istəmir, çalışırlar nə qədər mümkündürsə, o torpaqları işğal altında saxlasınlar. Beləliklə də, bundan istifadə edib Azərbaycandan Dağlıq Qarabağın statusu ilə bağlı onlara xeyir gətirən şərtləri əldə etsinlər. Bu isə mümkün deyildir. Biz bunu dəfələrlə bəyan etmişik: Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq birlik tərəfindən Azərbaycan torpağı kimi tanınır. Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq aləm tərəfindən tanınır, BMT tərəfindən tanınır, bütün beynəlxalq təşkilatlar bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşır. Azərbaycan dövləti heç vaxt imkan verməz ki, ikinci erməni dövləti yenə də Azərbaycanın tarixi torpaqlarında yaradılsın. Yəni bu, danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Məsələnin həlli üçün Ermənistan öz işğalçı qüvvələrini zəbt edilmiş torpaqlardan çıxarmalıdır. Ondan sonra sülh yarana bilər. Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar, Dağlıq Qarabağda muxtariyyət şəraitində yaşamalıdırlar. Bütün sivil ölkələrdə olduğu kimi, orada da işlər bütün demokratik prinsiplər əsasında təşkil edilməlidir. Bundan kənarda məsələnin heç bir başqa istiqamətdə həlli mümkün deyildir. Azərbaycan buna razılaşmayacaqdır.

Biz çalışacağıq ki, 2011-ci ildə öz mövqeyimizi daha da möhkəmləndirək. Deyə bilərəm ki, 2010-cu ildə beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı çox mühüm hadisələr baş vermişdir. Avropa Parlamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox ədalətli qətnamə qəbul etmişdir. Bu məsələ digər beynəlxalq təşkilatlarda da müzakirə olunur və bizim mövqeyimiz dəstəklənir. NATO-nun zirvə görüşündə bu məsələ ilə bağlı çox dəyərli, ədalətli, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul olunmuşdur. Dünən Avropa Komissiyasının sədri cənab Barrozu ilə birgə mətbuat konfransında bu məsələ ilə bağlı Avropa Komissiyasının və Avropa İttifaqının mövqeyi ifadə edilmişdir. Bu da ondan ibarətdir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Yəni məsələnin həlli üçün beynəlxalq çərçivələr budur və o, yalnız bu çərçivələr daxilində öz həllini tapa bilər. Heç bir başqa variant müzakirə mövzusu deyildir. Mən hesab edirəm ki, Azərbaycan danışıqlar prosesində konstruktiv mövqe nümayiş etdirir. Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq beynəlxalq hüquq normaları burada əsas rol oynayır. Azərbaycanın ərazi bütövlüyünün bərpası qeyd-şərtsiz öz həllini tapmalıdır.

Digər tərəfdən, o da heç kim üçün sirr deyil, biz danışıqlar apardığımız zaman, eyni zamanda, ordu quruculuğuna böyük diqqət göstəririk, ordumuzu gücləndiririk. Bu sahədə böyük uğurlara nail ola bilmişik. Düşmən də bunu bilir və qorxudan əsir. Onların son ay-

larda verdikləri isterik və əsəbi, qorxu ilə dolu çıxışlar bunun əyani sübutudur. Onlar da yaxşı bilirlər ki, Azərbaycan ordusu istənilən anda düşmənə sarsıdıcı zərbə endirə bilər. O zərbə nəticəsində nəinki Dağlıq Qarabağda, Ermənistanda da vəziyyət başqa istiqamətdə inkişaf edə bilər. Sadəcə olaraq, biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun. Ancaq biz özümüzü çox əmin hiss edirik. Son illərdə ordu quruculuğuna ayrılan vəsait artır, yeni müasir silahlar, texnika - təyyarələr, artilleriya, hava hücumuna qarşı ən müasir qurğular, zirehli maşınlar alınır, onların hamısını sadalamaq üçün bəlkə də bir neçə saat lazımdır. Azərbaycanda istehsal olunan hərbi məhsullar, 500 növə qədər məhsul həm ordumuza xidmət edir, həm də biz artıq xarici bazarlara da çıxırıq, beynəlxalq sərgilərdə iştirak edirik. Bu sahədə 2011-ci ildə də çox mühüm hadisələr baş verəcək, Azərbaycanda ən müasir avadanlığın, texnikanın, döyüş sursatının istehsalı başlanmalıdır.

2011-ci ildə ordu xərcləri, müdafiə xərcləri 3 milyard dollardan çox olacaqdır. Onun böyük hissəsi yenə də silah-sursat, hərbi texnika alınmasına sərf olunacaq, biz bu prosesi bundan sonra da davam etdirəcəyik. Əminəm ki, Azərbaycanın güclü ordusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz sözünü deməlidir və vaxt gələndə deyəcəkdir.

Mən hesab edirəm ki, 2011-ci ildə ölkə qarşısında elə bir ciddi problem gözləmək lazım deyil. 2011-ci ildə həm iqtisadi, həm sosial məsələlərin, həm də beynəlxalq məsələlərin həllində, hesab edirəm ki, heç bir problemimiz olmayacaqdır. Biz 2010-cu ildə beynəlxalq müstəvidə də uğurlu siyasət aparmışıq. Həm beynəlxalq təşkilatlar çərçivəsində, həm ikitərəfli müstəvidə çoxsaylı görüşlər olmuşdur. Bakıda yüksək, bir neçə beynəlxalq səviyyəli zirvə görüşü keçirilmişdir. Qonşu ölkələrlə münasibətlərimiz daha da güclənmişdir. Yəni beynəlxalq vəziyyət və bölgədə mövcud olan vəziyyət müsbətdir. Azərbaycan bölgədə əməkdaşlığın dərinləşməsinə öz dəyərli töhfəsini verir. Bir daha demək istəyirəm ki, Azərbaycan artıq çox ciddi regional amildir. Azərbaycan bölgədə gedən proseslərə təsiri artmaqda olan ölkədir. Elə etməliyik ki, bu proses daim davam etsin, ölkəmiz güclənsin və inkişaf etsin.

İndi isə keçək müzakirələrə. Söz verilir iqtisadi inkişaf naziri Şahin Musafayevə.

* * *

İqtisadi inkişaf naziri Şahin MUSTAFAYEV 2010-cu ildə əldə olunmuş uğurlardan danışarkən bildirdi ki, ötən il də Azərbaycanda liberal iqtisadi sistemin qurulması, sahibkarlığın inkişafına geniş şəraitin yaradılması, zəngin təbii sərvətlərdən və regionların potensialından səmərəli istifadə, qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması, yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi Azərbaycan iqtisadiyyatının inkişafını təmin etmişdir.

Ş.Mustafayev dedi: - Dünya iqtisadiyyatında vəziyyətin hələ də gərgin olması fonunda, ötən illərdə olduğu kimi, 2010-cu il Azərbaycan iqtisadiyyatı üçün uğurlu olmuş və ÜDM 5 faiz artaraq, 41 milyard manatı ötmüşdür. Orta illik inflyasiya idarə olunan səviyyədə saxlanılmış və 5,7 faiz təşkil etmişdir. Strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 50 faiz artaraq 29 milyard dollara çatmış və bu da ölkənin dayanıqlı inkişafına möhkəm zəmanətdir. 51 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmiş, sənaye 2,6 faiz artmışdır. Bu sahədə ən mühüm nailiyyətlərdən biri də ötən il Dövlət Neft

18329

PREZİDENT KİTABXANASI

Şirkətinin daxili imkanları hesabına yeni neft və qaz yataqlarının aşkar edilməsi olmuşdur.

Möhtərəm cənab Prezident, rəhbərliyiniz və daimi diqqətiniz altında həyata keçirilən şaxələndirmə tədbirləri, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində, qeyri-neft sektorunun dinamik inkişafı davam etmiş və onun real artım tempi, ümumi artım tempini üstələyərək 7,6 faiz, o cümlədən, qeyri-neft sənayesində 6,6 faiz, rabitədə 29,7 faiz, nəqliyyatda yük daşınması 3,1 faiz təşkil etmişdir. Sənayeləşmə siyasəti davam etdirilmiş, yeni və müasir texnologiyalara əsaslanan elektrotexnika, əlvan metallurgiya, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, tikinti materiallarının istehsalı da daxil olmaqla, il ərzində 60 sənaye müəssisəsinin istifadəyə verilməsi və 80-dən çox sənaye müəssisəsinin tikintisinin davam etdirilməsi, eləcə də kosmik sənayenin yaradılması və 2012-ci ildə Azərbaycanın ilk peykinin orbitə çıxarılması istiqamətində görülən işlər, ölkənin sənaye potensialını genişləndirmiş və qeyri-neft sektorunun davamlı inkişafına zəmin yaratmışdır.

Əlverişsiz iqlim şəraiti və təbii fəlakətlərlə bağlı dənli bitkilərin istehsalının azalmasına baxmayaraq, intensiv metodların tətbiqinin stimullaşdırılması və kompleks dövlət dəstəyi tədbirləri nəticəsində, kənd təsərrüfatının digər sahələrində artım davam etmişdir. Ölkəmiz bir sıra əsas ərzaq məhsulları ilə özünü təmin etmiş, buğdanın qiymət artımının mənfi təsirinin azaldılması məqsədi ilə Dövlət Taxıl Fonduna tədarük olunan taxılın həcmi 500 min tonadək artırılmış, idxal olunan buğda və un əlavə dəyər vergisindən azad edilmişdir. Əvvəlki illərdə olduğu kimi, aqrar sektora subsidiyaların, vergi güzəştlərinin və güzəştli kreditlərin verilməsi davam etdirilmiş, aqrolizinq və aqroservis xidmətlərinin şərtləri asanlaşdırılmışdır.

Cənab Prezident, ölkənin qeyri-neft sektorunda mühüm rolu olan tranzit potensialı gücləndirilmiş, avtomobil magistrallarının yenidənqurulması davam etdirilmiş, dəmir yol nəqliyyat sisteminin inkişafına dair dövlət proqramı qəbul edilmiş, dəniz limanı kompleksinin tikintisinə başlanmışdır.

Möhtərəm cənab Prezident, respublikada cəlbedici investisiya mühitinin yaradılmasının nəticəsidir ki, il ərzində ölkəyə bütün maliyyə mənbələri hesabına 15,5 milyard dollar investisiya qoyulmuşdur. Ümumi investisiyalarda həm daxili, həm də qeyri-neft sektorunun payı üstünlük təşkil etmişdir. Təqdirəlayiq haldır ki, ölkədə yaradılmış əlverişli biznes mühiti Azərbaycan şirkətlərinin maliyyə imkanlarının artmasına və onların yalnız ölkə daxilində deyil, eləcə də xarici ölkələrdə investisiya yatırmalarına imkan yaratmışdır.

İnfrastruktur və sosial yönümlü Dövlət İnvestisiya Proqramının icrası nəticəsində nəqliyyat, kommunal, su ehtiyatları və irriqasiya, energetika və sənaye, ekologiya, kənd təsərrüfatı, sosial infrastruktur obyektlərinin tikintisi həyata keçirilmişdir.

Möhtərəm cənab Prezident, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası və Sizin göstərdiyiniz diqqət, regionlara mütəmadi səfərləriniz, müvafiq tapşırıqlarınız, il ərzində 170-dən çox yeni müəssisənin açılışı və təməlqoyma mərasimində iştirakınız, regionların tarazlı inkişafının təmin edilməsi və əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində müstəsna rol oynamışdır. Ötən il regionlarda 160-dan çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi tikilib istifadəyə verilmiş, 200-dən çox

müəssisənin tikintisi davam etdirilir. Bu müəssisələrin 112-sində Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditlərindən istifadə olunur.

Şahin Mustafayev onu da dedi ki, bu dövrdə regionların potensialı təhlil edilmiş, dəstək tədbirləri müəyyənləşdirilmiş, sahibkarlığın inkişafı ilə bağlı 200-dən çox tədbir keçirilmişdir. İdxal, ixrac prosedurları sadələşdirilmiş, vergi yükü azaldılmış, il ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən hamısı regionlarda olmaqla 1430 investisiya layihəsinin maliyyələşdirilməsinə 115 milyon manat güzəştli kredit verilmişdir. Aqrar sektorun inkişafında müasir texnologiyanın tətbiqinin daha da genişləndirildiyini, 25 müasir soyuducunun, 14 taxıl anbarı kompleksi yaradıldığını bildirən Ş.Mustafayev dedi: - Möhtərəm, cənab Prezident, xarici investisiyaların cəlb olunması və qeyri-neft ixracının gücləndirilməsi məqsədilə, ölkədə və xaricdə 100-ə yaxın biznes forum və konfranslar təşkil edilmişdir. Ötən il Özbəkistanda Azərbaycanın ilk milli sərgisi uğurla keçirilmiş, ölkəmizin nailiyyətləri və potensial imkanları nümayiş etdirilmişdir. Beynəlxalq maliyyə qurumları ilə faydalı əməkdaşlıq davam etdirilmiş və bir sıra mühüm layihələr həyata keçirilmişdir. Bakı şəhərində keçirilmiş İslam İnkişaf Bankının Müdirlər Şurasının 35-ci İllik Toplantısında 55 ölkədən minə yaxın nümayəndə iştirak etmişdir.

2010-cu ilin 11 ayı ərzində 145 ölkə ilə ticarət aparılmış, xarici ticarət dövriyyəsi 34,8 faiz artaraq 25,1 milyard dollar təşkil etmiş, 13,7 milyard dollar müsbət saldo yaranmışdır. Xüsusilə əhəmiyyətli olan qeyri-neft ixracında 16 faizdən çox artım qeydə alınmışdır.

Daşqınlar nəticəsində baş vermiş fəlakətin qarşısının alınması, əhaliyə qayğı və diqqət yetirilməsinin ölkə Prezidenti üçün nə qədər vacib olduğunu bir daha göstərdi. Cənab Prezident, Sizin birbaşa göstərişləriniz və nəzarətiniz altında çox qısa müddət ərzində, əhaliyə dəymiş böyük ziyan dövlət hesabına aradan qaldırılmışdır.

Sosial infrastruktur obyektləri, o cümlədən 45 səhiyyə müəssisəsi, 70-dən çox məktəb binası tikilmiş və təmir edilmişdir. Əhalinin içməli su ilə təmin edilməsi üçün iri infrastruktur layihəsi - Oğuz-Qəbələ-Bakı kəmərinin tikintisi başa çatdırılmışdır.

Sosial sahələrin inkişafında Heydər Əliyev Fondu tərəfindən təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə həyata keçirilən proqram və layihələr müstəsna əhəmiyyət kəsb edir.

Bu nəticələr beynəlxalq qurumlar tərəfindən də müsbət qiymətləndirilmişdir. BMT-nin İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan son beş ildə 34 pillə irəliləyərək 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 2010-cu ildə 67-ci yerə yüksəlmişdir. 2000-2010-cu illər üzrə ölkəmiz insan inkişafı indeksinin orta illik artım tempinə görə MDB məkanında birinci yerə layiq görülmüş və "orta insan inkişafı" ölkələri qrupundan "yüksək insan inkişafı" qrupuna keçmişdir.

Ölkədə həyata keçirilən siyasətin uğurlu nəticələri nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Dünya İqtisadi Forumu tərəfindən 2010-2011-ci illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan MDB ölkələri arasında yenə də birinci, makroiqtisadi sabitlik altindeksi üzrə isə 14 pillə irəliləyərək 139 ölkə arasında 13-cü yerdə qərarlaşmışdır. "Standard and Poors" Beynəlxalq Reytinq

Agentliyi 2009-2010-cu illər üzrə ölkə reytinqini "Stabil"dən "Pozitiv"ə yüksəltmiş, "Fitch Ratings" Agentliyi ölkəmizə ilk dəfə olaraq investisiya reytinqi vermişdir.

Möhtərəm cənab Prezident, Sizin sosial-iqtisadi siyasətinizin uğurla reallaşdırılması nəticəsində Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması qarşımızda yeni vəzifələr qoyur. Sizi əmin edirəm ki, ölkənin sosial-iqtisadi inkişafında əldə olunmuş nailiyyətlərin davamlılığı məqsədilə müəyyən etdiyiniz vəzifələrin, verdiyiniz tapşırıqların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bütün imkanlarımızı səfərbər edəcəyik. Diqqətinizə görə minnətdaram.

* * *

Mərkəzi Bankın sədri Elman RÜSTƏMOV son 10 ilin iqtisadi göstəricilərini sadalayarkən bildirdi ki, bu dövrdə real iqtisadi artım 4 dəfə olmuş, ixracın həcmi 15 dəfədən çox, dövlət büdcəsi 15 dəfəyə qədər, investisiya xərcləri 96 dəfə, strateji valyuta ehtiyatları isə 31 dəfə artmışdır. Maliyyə sektoru böyümüş, bank aktivləri 15, əhalinin əmanətləri isə 36 dəfə çoxalmışdır. 2003-2010-cu illərdə Azərbaycanda iqtisadi artım tempi 17 faiz olmuş, bununla da ölkəmiz dünyada lider dövlətə çevrilmişdir.

Azərbaycanda gedən inkişafın özünü bütün sahələrdə göstərdiyini bildirən Elman Rüstəmov dedi: - Bu inkişaf təkcə rəqəmlərlə xarakterizə olunmur. Ölkə keyfiyyətcə yeni - müasir inkişaf mərhələsinə daxil olmuş, onun müasir siması formalaşmışdır. Yüksək inkişaf özünü beynəlxalq əhəmiyyətli enerji, nəqliyyat və telekommunikasiya sisteminin formalaşmasında, modern sosial, təhsil, rabitə və səhiyyə infrastrukturunda, insanların həyat tərzində, müasir informasiya texnologiyalarına çıxış imkanlarında göstərir. Tam əminliklə demək olar ki, bugünkü Azərbaycan 10 il əvvəlki Azərbaycan deyil. Ola bilsin ki, biz burada yaşadığımıza görə bunu az hiss edirik, amma xarici qonaqlar, xaricdə yaşayan soydaşlarımız hər dəfə gələndə bunu heyrətlə qeyd edirlər.

Qeyd olunmalıdır ki, arxada qalmış onillik heç də sadə dövr olmamışdır. O, təkcə "bum dövrü", iqtisadi inkişaf dövrü kimi xarakterizə olunmur. Bu dövrün son 3 ili qlobal maliyyə böhranına təsadüf edir. Qlobal böhran dünyanın qabaqcıl ölkələrində yaranmış və qloballaşma şəraitində qısa müddət ərzində bütün dünyaya sirayət etmişdir. Bu, çox ağır nəticələr vermiş, dünya iqtisadiyyatı resessiyaya məruz qalmış, iri maliyyə institutları iflas etmişdir. Hazırda iqtisadi artım bərpa olunsa da, böhran bəzi ölkələrdə olduqca dərin iz qoymuşdur.

Azərbaycan iqtisadiyyatı isə böhran illərində də öz dayanıqlılığını və inkişafın dinamikasını qorumuşdur. Belə ki, son üç ildə ölkədə real iqtisadi artım orta hesabla 8 faizdən çox olmuş, makroiqtisadi və maliyyə sabitliyi qorunmuşdur. 2008-2010-cu illərdə strateji valyuta ehtiyatlarımız 23 milyard ABŞ dolları artmışdır. Bank sektoru dayanıqlılığını qorumuş və inkişafını davam etdirmişdir. Son üç ildə bank aktivlərinin orta illik artım tempi 25 faiz, əmanətlərin artım tempi 20 faizdən çox olmuşdur.

2010-cu il isə Azərbaycan üçün qlobal böhranın təsirlərinin tam aradan qaldırılması ili kimi qiymətləndirmək olar. Ölkədə iqtisadi artım davam etmişdir. Artıq qeyd olundu, ölkədə 5 faizlik iqtisadi artım baş vermişdir. Qeyri-neft sektorunda artım qabaqlayıcıdır. Mövcud qlobal fonda və iqtisadiyyatın həcminin əhəmiyyətli artmasını nəzərə alsaq, bu artıma nail olunması yüksək qiymətləndirilməlidir.

Ölkənin xarici mövqeyinin güclənməsi davam etmişdir. 2010-cu ilin sonuna cari əməliyyatlar hesabının profisiti 15 milyard dolları ötəcəkdir. Bunun nəticəsində valyuta ehtiyatlarımız qeyd olunduğu kimi 29 milyard ABŞ dollarını ötüb keçir. Hesab edirik ki, yanvarın sonunda biz 30 milyard dollarlıq mövqeyi ötüb keçmək potensialına malikik. Valyuta ehtiyatları ÜDM-ə nisbətdə 60 faizdən çoxdur və dünyanın ən çox valyuta ehtiyatına malik Çin iqtisadiyyatında bu göstərici Azərbaycandan aşağıdır. Bütövlükdə bizim toplam - özəl sektor və dövlət borcu da daxil olmaqla borcumuzu 9,5 milyard dollar həcmində 3 dəfədən çox üstələyir və bu, böhran kontekstində ölkənin makroiqtisadi dayanıqlılığının ən mühüm göstəricilərindən biridir.

Mərkəzi Bank öz fəaliyyətini həm son 3 ildə və 2010-cu ildə bütövlükdə makroiqtisadi sabitliyin qorunmasına, manatın məzənnəsinin sabitliyinin, bank sistemində maliyyə sabitliyinin saxlanılmasına və iqtisadiyyatın pula olan tələbinin ödənilməsinə yönəltmiş və qarşıda qoyulan hədəflərə nail olmağa çalışmışdır. 2010-cu ildə inflyasiya təkrəqəmli səviyyədə saxlanılmışdır. Manatın sabitliyi əksər ölkələrdə devalvasiya fonunda qorunub saxlanılmışdır.

Cənab Prezident, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu bir çox ölkələrə milli valyutalarının devalvasiya olunmasını tövsiyə etmişdilər. Böhranın son nəticələrinə görə aparılan təhlil göstərir ki, bunu etmiş ölkələr daha çox resessiyaya məruz qalmış, amma bunu etməmiş ölkələrdə, o cümlədən Azərbaycanda iqtisadi artım tempi bir neçə punkt daha yüksək olmuşdur. Ölkədə makroiqtisadi sabitliyi, o cümlədən milli valyutanın sabitliyini qoruyub saxlamağı böhranın əvvəlində strateji vəzifə kimi qarşıya qoymuşdunuz. Bu gün beynəlxalq təşkilatlar tərəfindən artıq etiraf olunur ki, bu, yaranmış şəraitdə yeganə düzgün qərar idi.

Azərbaycan bank sistemi maliyyə dayanıqlılığını qoruyub saxlayır. Ötən ildə əhalinin əmanətləri 23 faiz, bütövlükdə bank aktivləri, kreditlər və məcmu kapital 8 faizdən çox artmışdır. Ölkədə ipoteka mexanizmi də genişlənir. 2010-cu ildə 2435 nəfərə, o cümlədən 473 nəfərə güzəştli şərtlərlə kredit verilmişdir. Bu gün bu imkandan faydalanan ailələrin sayı 6200-ü ötmüşdür.

Mərkəzi Bankın sədri 2011-ci ildə həyata keçiriləcək tədbirlər və qarşıda duran vəzifələrdən də danışdı: - Bizim qarşımızda duran başlıca çağırış ölkə iqtisadiyyatında son on ildə əldə olunmuş artım tempini qoruyub saxlamaqdır. Ölkə inamla "Orta gəlirli ölkələr" sırasına daxil olmuşdur. Lakin "Orta gəlirli ölkələr" qrupunun daha yüksək şkalası vardır. Bu, adambaşına düşən milli məhsulun 17-18 min ABŞ dollarına çatdırılmasıdır. Bu gün bizdə bu səviyyə 10 min dollardır. Bunun üçün ölkə iqtisadiyyatının yaxın 10 ildə yenidən ikiqat artması deməkdir. Hesab edirik ki, bu çox real bir vəzifədir. Bunun üçün ölkə iqtisadiyyatının ildə təxminən 7-8 faiz artması təmin olunmalıdır. Bundan əvvəl əldə etdiyimiz nəticələr onu göstərir ki, bu, olduqca real bir vəzifədir.

BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olmuşdur. Azərbaycanın tam imkanı vardır ki, 14-cü dövlət olsun və iqtisadiyyatın şaxələndirilməsinə nail olsun, bu kursu davam etdirsin. Cənab Prezident, bunun üçün ölkədə hər bir şərait var: ilk növbədə, son 10 ildə görülmüş işlər, yaranmış potensial və təcrübə, ən başlıcası ölkədə uzunmüddətli siyasi sabitlik, siyasi inkişaf və Sizin simanızda müasir və güclü liderin olması. Biz gələ-

cəyə tam nikbin baxırıq. Əminik ki, sizin başçılığınız altında qarşıda duran strateji vəzifələr də müvəffəqiyyətlə yerinə yetiriləcəkdir.

* * *

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, hesabat dövründə ölkə daxilində və onun hüdudlarından kənarda 150-dən artıq dövlət əhəmiyyətli tədbir keçirilmişdir. Bu rəqəmləri Sizə məruzə edərək, ölkəmizin mədəni həyatı üçün əlamətdar olan bir amili xüsusilə qeyd etmək istərdim. Bu amil Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ölkəmizin sosial-mədəni həyatının bütün sahələrinə böyük dəstək verməsi ilə bağlıdır. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun fəaliyyət göstərdiyi illər ərzində keçirilən bütün irimiqyaslı beynəlxalq və ölkə əhəmiyyətli tədbirlərinin əsas təşəbbüskarı və təşkilatçısı Mehriban xanım Əliyeva olmuşdur. Bu ənənə 2010-cu ildə də davam etmişdir. İl ərzində Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalı, Qəbələ II Beynəlxalq Musiqi Festivalı, Bakı Birinci Beynəlxalq Teatr Konfransı, Milli Teatr Festivalı, Çexov adına Beynəlxalq Teatr Festivalının "İpək yolu" mərhələsi, Vokalçıların Bülbül adına V Beynəlxalq Müsabiqəsi və IV Beynəlxalq Rostropoviç Festivalının keçirilməsi yaradıcı kollektivlər tərəfindən çox yüksək qarşılanmışdır. Nəticədə bu tədbirlər ilin ən yaddaqalan beynəlxalq səviyyəli mədəniyyət hadisələrinə çevrilmişdir. Əlamətdar haldır ki, Euronews telekanalının 2010-cu ilin yekununa həsr olunmuş verilişində Avropanın ən nüfuzlu mədəniyyət hadisələrinin sırasında Bakı Caz Festivalının keçirilməsi xüsusilə qeyd edilmişdir.

Hesabat ilində Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatının Mədəniyyət Nazirləri Konfransına sədrlik etməsi nəticəsində ölkəmizin uğurla əməkdaşlıq etdiyi bir sıra İslam ölkələrində - Misir Ərəb Respublikasında, İordaniya Krallığında, İran İslam Respublikasında, Qətər Dövlətində, Mərakeşdə, eləcə də Kuba Respublikası və Meksikada yüksək səviyyədə təşkil olunan Azərbaycan Mədəniyyəti Günləri dünya ictimaiyyətinin böyük marağına səbəb olmuşdur. Bu mənada hesabat ilində Sizin sərəncamınıza əsasən dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 125 illiyi münasibətilə keçirilən tədbirlər silsiləsi xüsusi əhəmiyyət kəsb edir.

Cənab Prezident, Sizin təsdiq etdiyiniz "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı ölkənin teatr həyatının yeni mərhələyə qədəm qoymasına şərait yaratmışdır. Proqram çərçivəsində 2010-cu ilin noyabrında Bakıda ilk dəfə keçirilən "Dünya teatr prosesi XXI əsrdə: problemlər, perspektivlər və alternativlər" adlı Beynəlxalq teatr konfransında 30 ölkənin nümayəndələri iştirak etmişlər.

İl ərzində ölkə teatrlarında dövlət sifarişi ilə 20-dən artıq tamaşa hazırlanıb təhvil verilmiş, Azərbaycan rəssamlarının 40-dan artıq sərgisi keçirilmişdir. Hesabat dövründə respublikanın kitabxana, muzey, digər mədəniyyət mərkəzlərinin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülmüş, xalq yaradıcılığının inkişafı və təbliği ilə bağlı müvafiq tədbirlər həyata keçirilmişdir.

"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamınıza əsasən, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində müsbət

irəliləyişlər əldə edilmiş, respublikada 38 kitabxananın veb-saytı yaradılmış, 17 kitabxanada Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi quraşdırılmış, elektron kataloq və elektron kitabxanaların yaradılmasına başlanılmışdır.

"Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Sərəncamınıza əsasən regionlarda fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair tədbirlər görülmüşdür. Azərbaycanda ilk dəfə olaraq Musiqi Mədəniyyəti Dövlət Muzeyində kompleks avtomatlaşdırılmış muzey informasiya sistemi - KAMİS proqramı tətbiq edilmişdir.

Respublikanın bölgələrində yaradılmış Heydər Əliyev muzeyləri və mərkəzləri öz zəngin maddi-texniki bazası ilə seçilir, ümummilli lider Heydər Əliyevin həyat yolunu geniş işıqlandırmaqla yanaşı, əhalinin, xüsusən gənclərin mədəni həyatının təşkilində mühüm rol oynayır.

Əbülfəs Qarayev onu da dedi ki, ötən il ölkədə tarixi abidələrin bərpası istiqamətində işlər davam etdirilmişdir.

Azərbaycan kinosunun inkişafı ilə bağlı dövlət proqramının icrası uğurla yerinə yetirilmiş, yeni filmlər çəkilmiş və onlar beynəlxalq festivallarda nümayiş etdirilmişdir. Azərbaycan beynəlxalq kitab sərgilərində də uğurla təmsil olunmuş, teatrlar, muzey və digər mədəniyyət ocaqlarında əsaslı təmir və yenidənqurma işləri görülmüş və bu, indi də davam edir.

Nazir turizm sahəsində görülən işlərdən də danışdı:

- Möhtərəm cənab Prezident, 2010-cu il Azərbaycanda turizm sənayesinin inkişafı üçün xüsusilə əlamətdar olmuşdur. Hələ 2001-ci ildə ümummilli lider Heydər Əliyev ölkəmizin turizm potensialının iqtisadi-sosial inkişafdakı rolunu düzgün dəyərləndirərək bu sahədə əhəmiyyətli qərarlar vermişdir. Ötən illər ərzində turizm sahəsinin inkişafı ilə əlaqədar qəbul olunmuş dövlət proqramı tam şəkildə yerinə yetirilmişdir. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamınız bu sahənin inkişafında yeni, daha məhsuldar mərhələnin başlanğıcıdır. İnanırıq ki, bu Sərəncam ölkədə turizm sektorunun dünya standartlarına uyğun şəkildə inkişaf etdirilməsinə güclü təkan verəcəkdir. Sizin IX Beynəlxalq Turizm Sərgisi və I Ümumrespublika Daxili Turizm Sərgisində iştirakınız, sahənin inkişafı ilə dərindən maraqlanmağınız, dəyərli tövsiyələriniz bu sahədə mövcud olan bütün qüvvələri səfərbərliyə almış, ölkənin iqtisadi qüdrətinin artmasında müstəsna imkanlara malik olan turizmin tərəqqisi yolunda geniş üfüqlər açmışdır.

Sizin tapşırığınız və şəxsən rəhbərliyiniz altında yaradılan turizm incilərindən biri - Qusar rayonunda, Şahdağın ətəklərində salınan qış-yay turizm kompleksi həm təyinatına, həm də nadir layihə strukturuna görə xüsusi önəm daşıyır. Hazırda burada işlərin birinci fazası 50 faizə qədər icra olunmuş, gündə 10 min turistə xidmət imkanına malik kommunal, işıq, su, qaz, yol xətlərinin çəkilişi həyata keçirilmişdir. Layihə Avstriya, İsveç, Türkiyə, ABŞ, İtaliya və Birləşmiş Ərəb Əmirliklərinin ən qabaqcıl şirkətləri tərəfindən icra olunur. Bu ilin mart ayında ilk pilot xizək eniş xəttinin sınaqdan keçirilməsi, 2011-2012-ci ilin qış mövsümündə isə daha 4 xizək eniş xəttinin istismara verilməsi nəzərdə tutulmuşdur.

Turizmin inkişafına yönəlmiş çoxsaylı tədbirlər sırasında Bakı şəhərində məşhur özəl şirkətlər tərəfindən inşa olunan mehmanxana kompleksləri, Qəbələdə inkişafda olan turizm potensialı da diqqəti cəlb edir. Beynəlxalq standartlara uyğun mehmanxana şəbəkəsinin inkişafı bu sahədə çalışan kadrların hazırlanması zərurətini meydana çıxarır.

Cənab prezident, Sizin 2006-cı il 25 avqust tarixli Fərmanınıza əsasən yaradılmış Azərbaycan Turizm İnstitutunun 2010-cu ilin mayında ilk buraxılışı olmuşdur.

2010-cu ildə nazirlik respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə Vyana, İstanbul, Vilnüs, Berlin, Moskva, Kiyev, Pekin, Manama, Dubay, Əl-Küveyt, Paris və Tokio şəhərlərində keçirilən mühüm beynəlxalq turizm sərgilərinə qatılmışdır. Azərbaycanın mövcud turizm potensialının təbliğ edilməsi məqsədilə dünyanın aparıcı televiziya kanallarında - CNN, Euronews, Travel Channel, BBC, CNBC, "National Geographic"də reklam çarxları yayımlanır. Doqquz dildə müxtəlif nəşr, poliqrafiya məhsulları buraxılır.

Sizin tərəfinizdən aparılan uğurlu beynəlxalq siyasət müasir dünyada Azərbaycanın mövqelərini möhkəmləndirmişdir. Bu, təbii olaraq milli mədəniyyətimizin dünyada tanıdılmasına böyük imkanlar yaradır. Xalqımıza məxsus aşıq-ozan sənəti, muğam və xanəndəlik sənəti YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu o deməkdir ki, artıq saz və muğam sənəti milli çərçivələri aşaraq ümumdünya dəyəri qazanmışdır. 2010-cu ildə Azərbaycan Respublikası YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilmişdir. Keniyada keçirilən sessiyada Azərbaycan xalçaçılıq sənətinin də Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi qərara alınmışdır. Bu qərar xalça sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiqləyir. Bu qələbənin qazanılmasında da Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva əsl fədakarlıq göstərmişdir.

Əbülfəs Qarayev 2011-ci ildə qarşıda duran vəzifələrdən də danışdı.

* * *

Gənclər və idman naziri Azad RƏHİMOV çıxışında bildirdi ki, 2010-cu il bütün sahələrdə olduğu kimi gənclər və idman sahəsində də uğurlu olmuşdur. Dövlət gənclər siyasəti çərçivəsində ölkədə bir çox mühüm tədbirlərin keçirildiyini, gənclərimizin Azərbaycanı xaricdə layiqincə təmsil etdiyini bildirən A.Rəhimov dedi: - Hesabat dövründə Gənclər və İdman Nazirliyinin mərkəzi aparatı tərəfindən dövlət gənclər siyasətinin müxtəlif istiqamətləri üzrə 100-ə qədər tədbir keçirilmişdir ki, onlardan da 19-u beynəlxalq səviyyəli olmuşdur. Avropa Gənclər Fondunun rəsmi məlumatına görə son 4 ildə Azərbaycanın gənclər təşkilatlarının 114 layihəsinə fond tərəfindən 1,4 milyon avro dəyərində maliyyə vəsaiti ayrılmışdır ki, bu da Avropa məkanında ən yüksək göstəricidir. Fərəhli haldır ki, Azərbaycan gəncləri bu gün Avropanın və dünyanın 30-dan çox nüfuzlu beynəlxalq gənclər təşkilatlarında təmsil olunurlar.

Elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının icrası ilə əlaqədar Beynəlxalq Münasibətlər üzrə Alimlərin Birinci İllik Simpoziumu, Gənc Alimlərin Birinci Respublika İnnovativ İdeya Yarmarkası, "Ekologiya ili" çərçivəsində "Gənclər ekoloji inkişaf uğrunda" Beynəlxalq Elmi-Praktiki konfrans və digər tədbirlər təşkil edilmiş, gənc alimlərin elmi əsərlərindən ibarət toplular nəşr olunmuşdur. Ötən dövrdə nazirlik tərəfindən yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məqsədi ilə respublikanın 67 rayon və şəhərlərini əhatə edən Gənclərin Vətənpərvərlik Tərbiyəsi Klublarının şəbəkəsi yaradılmış, "Vətən sağ olsun" telelayihəsi həyata keçirilmişdir. Bu istiqamətdə işlər davam etdirilərək "Mən azərbaycanlıyam" və "Xəmsə" yeni intellektual televiziya layihələri həyata keçirilməyə başlamışdır. Qeyd olunan layihələr gənclərimiz arasında böyük marağa səbəb olmuş və hazırda ölkənin təhsil ocaqlarında, şəhər və rayonlarımızda eyniadlı klubların yaradılması geniş vüsət almışdır. Xüsusilə "Mən azərbaycanlıyam" telelayihəsini qeyd etmək istəyirəm. Ulu öndərimiz Heydər Əliyevin məşhur fikrindən yaranmış layihənin məqsədi Azərbaycanın zəngin tarixini və milli-mədəni irsimizi gənclərə tanıtdırmaq, Azərbaycanda yaşayan xalqların və etnik qrupların azərbaycançılıq fəlsəfəsi əsasında birliyini nümayiş etdirmək, regionlarımızın sosial-iqtisadi inkişafını geniş ictimaiyyətə çatdırmaqdır.

Hesabat dövründə gənc liderlər üçün müxtəlif mövzularda seminarlar, konfranslar, təlim kursları, diskussiyalar keçirilmiş, yay aylarında mindən artıq gəncin iştirakı ilə respublikamızın müxtəlif bölgələrində istirahət və təlim düşərgələri təşkil edilmişdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Bakıda 46 ölkədən 600-dən artıq nümayəndənin iştirakı ilə Yeniyetmələrin 6-cı Beynəlxalq Elm Olimpiadası yüksək səviyyədə keçirilmişdir.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, Leyla xanım Əliyevanın təşəbbüsü ilə təsis edilmiş Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı azərbaycanlı gənclərin vahid bir təşkilatda birləşməsinin əsasını qoymuşdur. Keçən müddət ərzində təşkilat tərəfindən Rusiya Federasiyasında, onun ayrı-ayrı vilayətlərində fəal gənclərin təşkilatlanması, onların problemlərinin müəyyən edilməsi və həlli, Azərbaycan tarixinin və mədəni irsinin Rusiyanın ali təhsil ocaqlarında təbliğ edilməsi istiqamətində bir sıra maraqlı layihə və tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin Birinci Konqresi, Bakıda Xaricdə Təhsil Alan və Məzun olmuş Azərbaycanlı Gənclərin Forumu, London və Paris şəhərlərində xaricdə təhsil alan azərbaycanlı tələbələrlə görüşlər və ilk dəfə olaraq Dağıstanda Azərbaycan Gəncləri Günləri keçirilmişdir.

Azad Rəhimov ölkədə idmanın inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlərdən də danışdı:

- Möhtərəm cənab Prezident, Azərbaycan dünyada idman dövləti kimi tanınır. Belə ki, il ərzində ölkəmizdə qılıncoynatma üzrə yeniyetmə və gənclər arasında dünya birinciliyi, sərbəst və yunan-Roma güləşi üzrə Avropa çempionatı, boks üzrə gənclər arasında dünya birinciliyi, bodibildinq üzrə dünya çempionatı, kikboksinq üzrə Avropa çempionatı, Beynəlxalq Mingəçevir Reqatası yarışı, atçılığın konkur növü üzrə dünya kubokunun təsnifat mərhələsi və digər tədbirlər yüksək səviyyədə təşkil edilərək keçirilmişdir. Ümumilikdə, ölkəmizdə 84 idman növü üzrə 457 idman yarışı keçirilmişdir ki, onlardan da 49-u beynəlxalq səviyyəli olmuşdur. Bundan başqa, 4000 nəfərdən artıq idmançımız

352 beynəlxalq yarışlara ezam olunmuşdur.

2010-cu ilin ən möhtəşəm idman nailiyyəti təbii ki, Sinqapurda keçirilmiş Yeniyetmələrin Birinci Yay Olimpiya Oyunlarında idmançılarımızın ölkəmizi ləyaqətlə təmsil etmələri olmuşdur. Bu oyunlarda Azərbaycanın 12 nəfərdən ibarət komandası 5 qızıl və 3 gümüş medal qazanaraq komanda hesabında 204 ölkə arasında 11-ci yeri tutmuşdur. Eyni zamanda, Azərbaycan iştirakçıların sayına görə ən yaxşı nəticə göstərən ikinci ölkə olmuş, ümumi hesabda müsəlman ölkələri arasında birinci, Avropada 6-cı, MDB ölkələri arasında 3-cü yeri tutmuşdur.

Bakıda keçirilmiş sərbəst və yunan-Roma güləşi üzrə Avropa çempionatında idmançılarımız 7 qızıl, 2 gümüş və 1 bürünc, boks üzrə gənclər arasında dünya birinciliyində 1 qızıl, 1 gümüş, 1 bürünc, bodibildinq üzrə dünya çempionatında 1 gümüş, 2 bürünc medal qazanmışlar. Türkiyədə keçirilən cüdo üzrə dünya çempionatında paralimpiyaçı cüdoçularımız 3 qızıl və 3 bürünc medal, İspaniyada təşkil olunmuş kayak və kanoe qayıqlarında avarçəkmə üzrə Avropa çempionatında idmançılarımız 1 qızıl, Moskvada keçirilmiş bədii gimnastika üzrə dünya çempionatında idmançımız Aliyə Qarayeva fərdi yarışlarda 3 bürünc, komanda hesabında isə yığmamız 1 bürünc medal qazanmışlar.

2010-cu ildə idmançılarımız ölkəmizi şərəflə təmsil edərək Azərbaycanın idman şöhrətini daha da yüksəklərə qaldırmış, müxtəlif beynəlxalq yarışlarda uğurla çıxış edərək, ümumilikdə, 675 medal qazanmışlar ki, bunlardan da 206-sı Olimpiya idman növləri üzrədir. Eyni zamanda il ərzində 95 idmançımız dünya, 70 idmançımız isə Avropa çempionu adına layiq görülmüşdür.

Bu uğurlarla bərabər bizi qarşıda daha böyük və məsuliyyətli işlər gözləyir. Belə ki, bu il London Olimpiya Oyunlarına hazırlığın son ilidir. Sizin XXX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında 2010-cu il 22 iyun tarixli Sərəncamınıza uyğun olaraq, hazırlıq işləri xüsusi konsepsiya üzrə həyata keçirilməkdədir. Bu il Bakıda cüdo, boks, taekvondo üzrə lisenziya xarakterli yarışlar keçiriləcəkdir.

"Gənc nəsil yetişir, idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi şərəflə təmsil edirlər. Bu onu göstərir ki, uğurlarımız təsadüfi xarakter daşımır, məqsədyönlü, düşünülmüş siyasətin və idmanla məşğul olan bütün qurumların birgə fəaliyyəti nəticəsində biz bu uğurlardan danışa bilərik". Cənab Prezident, Sizin tərəfinizdən deyilən bu fikirlər bizim işimizə verilən ən yüksək qiymətdir.

2010-cu il ərzində daha 5 Olimpiya-İdman kompleksi istismara verilmiş, bununla da indiyədək tikilib istifadəyə verilmiş Olimpiya komplekslərinin sayı 28-ə çatmışdır. Hazırda daha 11 kompleksin tikintisi davam etdirilir. 2011-ci ildə isə 6 kompleksin istismara verilməsi planlaşdırılmışdır.

Cənab Prezident, bundan başqa, Sizin xüsusi tapşırığınızla Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzi tikilib istifadəyə verilmişdir. Mərkəzdə MDB məkanında bənzəri olmayan avarçəkmə bazası yaradılmışdır. Bu baza nəinki idman bazası kimi, eyni zamanda, turizm obyekti kimi də yüksək səviyyəli xidmətlər göstərmək imkanına malikdir.

Son zamanlar idman komplekslərinin dünya və Olimpiya Oyunlarının keçirilməsi üçün ən müasir texnoloji imkanlara malik olmasına xüsusi diqqət yetirilir. Bu tələblərə cavab

verən Gimnastika Kompleksinin tikintisi davam etdirilir, Respublika İdman Tibb Mərkəzinin tikintisinə başlanılmışdır, Bakı şəhərində hovuz kompleksinin layihə-smeta sənədləri hazırlanır və tikintiyə hazırlıq işləri gedir, Şahmat Sarayının, Olimpiya Hərəkatı və İdman Muzeyinin tikintisi planlaşdırılır. Qeyd etmək istəyirəm ki, müvafiq federasiyalarla birlikdə boks, cüdo, güləş və karate idman mərkəzlərinin layihə-smeta sənədləri hazırlanır və tikintiyə hazırlıq işlərinə başlanılmışdır.

Möhtərəm cənab Prezident, Sizin daim ölkəmizdə gənclərə, idmançılara göstərdiyiniz diqqət və qayğı, bu sahəyə olan xüsusi münasibətiniz hər bir gənci, idmançı və məşqçini, hamımızı daha böyük əzm və səylə Azərbaycana, ölkə gəncliyinə və idmana xidmət etməyə ruhlandırır. Sizi əmin etmək istərdim ki, Gənclər və İdman Nazirliyi gənclərlə iş və idman sahələrində qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi istiqamətində fəaliyyətini bundan sonra da məsuliyyətlə yerinə yetirəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

2011-ci ildə qarşıda duran vəzifələr aydındır. Biz bu ildə də iqtisadiyyatımızın inkişafını təmin etməliyik. Əminəm ki, iqtisadiyyatımız daha da artacaqdır. Makroiqtisadi sabitlik qorunmalıdır və əminəm ki, inflyasiya birrəqəmli olacaqdır. Biz xüsusilə istehlak bazarına nəzarətimizi gücləndirməliyik. Bu sahədə böyük işlər görülüb və davam etdirilməlidir. Qiymətlərin süni şəkildə şişirdilməsinə yol verməməliyik, azad rəqabəti təmin etməliyik, inhisarçılıq meyillərinin qarşısını almalıyıq. Lazımsız yoxlamalar aparılmamalıdır, xüsusilə hüquq mühafizə orqanları tərəfindən lazımsız yoxlamalara son qoyulmalıdır ki, ölkədə sahibkarlığı daha da sürətlə inkişaf etdirək, buna daha böyük təkan verək.

Sirr deyil ki, inkişaf etmiş ölkələri fərqləndirən cəhətlərdən biri də ümumi daxili məhsulun formalaşmasında kiçik və orta sahibkarlığın xüsusi yer tutmasıdır. Azərbaycan da bu yolla getməlidir. Düzdür, bizim güclü enerji sektorumuz var və qeyri-neft sektorunu neft sektoru ilə müqayisə etmək, əlbəttə ki, sadəlövhlük olardı. Ancaq biz çalışmalıyıq ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı daha da sürətlə getsin. Dövlət tərəfindən buna dəstək verilir. Hesab edirəm ki, sahibkarlarla çoxsaylı görüşlərimdə verdiyim tövsiyələr, dediyim fikirlər və göstərdiyim siyasi dəstək sahibkarlığın inkişafında öz rolunu oynayır. Bununla bərabər, dövlət tərəfindən ayrılmış kreditlər, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə görülən işlər də sahibkarlığın inkişafına çox böyük dəstəkdir.

Biz elə etməliyik ki, 2011-ci ildə bu sahəyə əlavə vəsait ayrılsın. İqtisadiyyatımızın çoxşaxəli iqtisadiyyat kimi formalaşmasında qeyri-neft sektorunun inkişafı həlledici rol oynayır. Əgər vaxtilə biz bu siyasətə başlamasaydıq, indi ölkə iqtisadiyyatı birtərəfli ola bilərdi. Mən yaxşı xatırlayıram, bir neçə il bundan əvvəl bəzi beynəlxalq qurumlarda Azərbaycanda "Hollandiya sindromu" haqqında fikirlər səslənmişdi, yəni Azərbaycanda iqtisadiyyat birtərəfli inkişaf edəcək, ancaq neft amilinə söykənir, iqtisadiyyatın digər sahələrində perspektivlər yoxdur. Bizim apardığımız siyasət isə onu göstərir ki, artıq Azərbaycan iqtisadiyyatı çoxşaxəli iqtisadiyyat kimi formalaşıb və "Hollandiya sindromu" haqqındakı o fikirlər artıq səslənmir.

Biz bu müsbət dinamikanı davam etdirməliyik və 2011-ci ildə sahibkarlığın, özəl sektorun inkişafı üçün, qeyri-neft sektorunun inkişafı üçün əlavə tədbirlər görülməlidir. Bir daha demək istəyirəm ki, dövlət tərəfindən, Prezident tərəfindən siyasi dəstək verilib və veriləcəkdir. Dövlət qurumları - həm mərkəzi qurumlar, həm də bölgələrdə yerləşən qurumlar sahibkarlığın inkişafına kömək göstərməlidir, onlara maneçilik törətməməlidir, süni əngəllər də yığışdırılmalıdır.

Bununla bərabər, mən hesab edirəm ki, 2011-ci ildə vergilər bazasını biz genişləndirməliyik. Bunu etmək üçün böyük imkanlar var. Vergi sahəsində aparılan islahatlar uğurludur. "Bir pəncərə" prinsipi Azərbaycanda artıq tətbiq olunur. Digər mütərəqqi islahatlar aparılır, bütövlükdə bu sahədə işlər görülür. Ancaq o da həqiqətdir ki, vergilərdən yayınanların sayı da kifayət qədərdir. Yayınma halları hələ də çoxdur. Biz bunları bilirik və bu hallarla mübarizə daha da ciddi və məqsədyönlü aparılmalıdır.

Elə etməliyik ki, ticarət, məişət, iaşə obyektlərində nağd şəkildə ödəmələr minimuma endirilsin. Artıq kredit kartları var, bizim əhalimizin böyük hissəsi kredit kartlarına malikdir. Hər bir məntəqədə, hər bir ticarət obyektində, hər bir restoranda kredit kartlarından, ödəmə kartlarından istifadə olunmalıdır. Belə olan halda, əlbəttə ki, vergilər bazası heç səy göstərilmədən, avtomatik olaraq genişlənəcəkdir. Yəni bu sahədə görüləsi işlər çoxdur. Mən bir müddət bundan əvvəl vergilər nazirinə müvafiq göstərişlər vermişəm. Sadəcə olaraq, istərdim ki, burada da bu barədə öz fikirlərimi bildirim ki, Azərbaycanda bu sahədəki vəziyyət inkişaf etmiş ölkələrdəki vəziyyətdən fərqlənməməlidir. Mən gözləyirəm ki, 2011-ci ildə bu sahədə köklü və əsaslı tədbirlər görüləcəkdir.

Bizim iqtisadi potensialımız güclüdür. Burada səslənən çıxışlarda da bu, bir daha deyildi. Dünya İqtisadi Forumunun hesablamalarına görə, rəqabət qabiliyyətliliyi baxımından bizim iqtisadiyyatımız MDB məkanında birinci yerdədir. İnsan inkişafı indeksi ilə bağlı verilən məlumatlar da onu göstərir ki, bizim iqtisadiyyatımız və ölkədə gedən iqtisadi-sosial islahatlar uğurludur. Beynəlxalq aparıcı reytinq agentlikləri böhran illərində bizim reytinqlərimizi artırıblar. Yəni bu onu göstərir ki, biz düzgün istiqamətdə inkişaf edirik. Nəzərə alsaq ki, bizim güclü neft-qaz ehtiyatlarımız var, valyuta ehtiyatlarımız 30 milyard dollara yaxınlaşır, - əminəm ki, 2011-ci ildə bir neçə milyard dollar da artacaq, - bu, bizim üçün böyük bir dəstəkdir, böyük sərvətdir. Ancaq bu o demək deyil ki, ölkədə hər şey yaxşıdır. Əlbəttə ki, yox. Biz çalışmalıyıq, xüsusilə 2011-ci ildə bu sahəyə daha da çox diqqət verməliyik. Harada qüsurlar, çatışmayan cəhətlər varsa, onları aradan qaldırmalıyıq. Harada ki, bizdə görülən işlər hələ beynəlxalq standartlara cavab vermir, onları beynəlxalq standartlara, Avropa standartlarına yaxınlaşdırmalıyıq. Mən hesab edirəm ki, əgər biz buna nail olsaq, büdcə gəlirlərimiz artacaq və ümumiyyətlə, ölkədə uçot-hesabat məsələləri daha da dəqiq həll olunacaqdır. Bir daha demək istəyirəm ki, bunu etmək üçün, bu sahədə işlərin daha da səmərəli şəkildə aparılması üçün bütün imkanlar var.

Keçən il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 115 milyon manat kreditlər verilmişdir. Bu kreditlərin demək olar ki, 99 faizdən çoxu bölgələrə aid olan vəsaitdir. Hesab edirəm ki, bu il də biz təxminən həmin səviyyədə kreditlərin verilməsini təşkil etməliyik. Bu kreditlər işləyir və nəticə verir. Kreditlərin işləməsi nəticəsində yüzlərlə müəssisə yaradılıb və mühüm amil ondan ibarətdir ki, bu kreditlər vaxtlı-vaxtında qayıdır və

yenidən kreditləşməyə cəlb olunur.

Azərbaycanda biznes mühiti müsbətdir, investisiya mühiti yaxşıdır. Adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə Azərbaycan, həmişə olduğu kimi, indi də MDB məkanında aparıcı yerlərdədir. Ancaq bununla bərabər, biz biznes mühitinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görməliyik. Bürokratik əngəllər aradan qaldırılmalı, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə daha da ciddi aparılmalı, ictimai nəzarət gücləndirilməlidir. Bütün bunlar çox vacib məsələlərdir. Biz istədiyimizə nail olsaq, Azərbaycan iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək, ümumi daxili məhsulumuz daha da artacaq, vergilərdən daha da çox vəsait daxil olacaq və bunun nəticəsində Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlər də azalacaqdır.

Biz elə etməliyik və buna nail olmalıyıq ki, - mən artıq bu vəzifəni əvvəllər də qarşıya qoymuşam, - Vergilər Nazirliyi və digər qurumlar tərəfindən yığılan vəsait cari xərclərin bağlanması üçün kifayət etsin. Neft Fondundan transfertlər yalnız və yalnız investisiya yönümlü layihələrə sərf olunsun.

2011-ci ildə kənd təsərrüfatının inkişafını stimullaşdırmaq üçün əlavə tədbirlər görülməli, subsidiyaların verilməsi davam etdirilməlidir. Əvvəlki illərdə görülmüş işlər öz bəhrəsini verir, soyuducu anbarların, taxıl anbarlarının tikintisi kənd təsərrüfatının inkişafına öz müsbət təsirini göstərmişdir. Növbəti illərdə bu müsbət meyillər daha da gücləndirilməlidir. Eyni zamanda, kənd təsərrüfatının inkişafı üçün çox mühüm sahə sayılan toxumçuluğu da inkişaf etdirməliyik. Bu sahədə artıq Azərbaycanda böyük özəl müəssisələr yaradılmışdır. Mən o müəssisələrdə olmuşam. Hesab edirəm ki, biz bu təşəbbüsləri dəstəkləməliyik, sahibkarlara yeni imkanlar yaradılmalı, kreditlər ayrılmalıdır. Yerli icra orqanları onları dəstəkləməlidir ki, toxumçuluqla bağlı məsələlər tezliklə həllini tapsın.

Heyvandarlıq sahəsində cins mal-qaranın gətirilməsi prosesi gedir, bu iş 2011-ci ildə də davam etdirilməlidir, əlavə vəsait də ayrılacaqdır. Biz bunun da gözəl nəticələrini görürük. Ümumiyyətlə, biz dəfələrlə bu barədə danışmışıq və məsələ qaldırılmışdır ki, çalışmalıyıq Azərbaycanda maksimum dərəcədə ərzaq məhsullarının istehsalını təşkil edək, idxaldan asılılığımızı minimuma endirək. Bir sıra məhsullar üzrə buna nail ola bilmişik, ancaq harada ki, hələ idxaldan çox asılıyıq, o sahələri gücləndirməliyik. Bu barədə müvafiq göstərişlər verilmişdir. Bunu investisiya proqramı çərçivəsində müəyyən qədər həll etmək olar, eyni zamanda, kreditlərin verilməsi məhz bu sahələrə yönəldilməlidir. İlk növbədə quşçuluğun inkişafına, bu sahədə biz hələ ki, özümüzü 70-75 faiz səviyyəsində təmin edirik, ancaq 100 faizə çatmaq üçün bütün imkanlar var. Hesab edirəm ki, 2011-2012-ci illərdə biz bu məsələni həll etməliyik.

Aqrolizinq, aqroservislərin fəaliyyəti kənd təsərrüfatının inkişafına böyük dəstəkdir, bu sahədə də dövlətin müdaxiləsi və siyasəti əlbəttə ki, həlledicidir. Əgər indi Azərbaycanda traktor istehsal olunmasaydı, vəsait kənara gedəcəkdi. Onsuz da, Azərbaycan dövləti bu vəsaiti ayırıb, texnikanı alır. İndi texnikanın bir hissəsi artıq Azərbaycanda istehsal olunur. Bu sahədə və buna oxşar digər sahələrdə işlər daha da sürətlə aparılmalıdır.

Taxıl istehsalının artırılması üçün əlavə tədbirlər görülməlidir. Keçən il taxıl istehsalında tənəzzül baş vermişdir. Bunun müəyyən təbii səbəbləri vardır. Ancaq çalışmalıyıq

ki, 2011-ci ildə biz 2009-cu ilin səviyyəsinə və ondan da yüksəyə qalxaq. Bu barədə də artıq fikir mübadiləsi aparılmışdır. Böyük fermer təsərrüfatlarının yaradılması üçün müəyyən addımlar atıla bilər. Çünki Azərbaycanda torpaq islahatı aparılmışdır, hesab edirəm ki, Azərbaycan bu sahədə MDB məkanında qabaqcıl yerlərdədir, ən mütərəqqi islahatlar aparılmışdır. Ancaq bununla bərabər, hələ istifadədə olmayan torpaqların istifadəyə cəlb edilməsi üçün əlavə tədbirlər görülməlidir. Böyük fermer təsərrüfatlarının yaradılması üçün dövlət tərəfindən bütün infrastruktur, təchizat məsələləri həll olunmalıdır. Yəqin ki, tender prinsipi əsasında sahibkarlar öz təkliflərini verməlidirlər və o təkliflərə baxılmalıdır. Ondan sonra dövlət yenə də öz maliyyə imkanlarından istifadə edib, böyük taxılçılıq təsərrüfatlarının yaradılması üçün maliyyə dəstəyini də göstərəcəkdir. Biz bunu etməliyik, çünki ola bilsin ki, böyük fermer təsərrüfatlarının yaradılması üçün sahibkarlarda kifayət qədər vəsait olmasın. Dövlət ayrıca maddə ilə bu sahələrə uzunmüddətli, güzəştli şərtlərlə kreditlər ayırmalıdır.

Ona görə də 2011-ci ildə, ilk növbədə, bu məqsədlər üçün istifadə olunacaq yerlər müəyyən edilməlidir, onların müəyyən hissəsini biz bilirik və dəqiqləşdirilməlidir. Mexanizm işlənib hazırlanmalıdır ki, il ərzində biz artıq bu prosesə təkan verək. Bununla bərabər, nəzərə alsaq ki, hazırda Azərbaycanda bir çox məhsullarla biz nəinki özümüzü təmin edirik, eyni zamanda, onları ixrac edirik və gələcəkdə ixracın artması da gözlənilir, onda yeni bazarlara çıxış üçün əlavə araşdırmalar aparılmalıdır. Özümüz üçün yeni bazarlar tapmalıyıq və o bazarlara daxil olmalıyıq. Bu məsələlərin həlli üçün həm İqtisadi İnkişaf Nazirliyi, həm də Xarici İşlər Nazirliyi birgə səylər göstərməlidir. Bu barədə mən bir neçə dəfə öz fikirlərimi bildirmişəm. Biz xarici ölkələrin bazarlarına həm investisiyalarla, həm də hazır məhsullarla daha da geniş şəkildə çıxmalıyıq. Buna imkan var, Azərbaycanda istehsal olunan məhsulların bir çoxu artıq dünya standartlarına cavab verir, çox keyfiyyətli, təmiz, təbii kənd təsərrüfatı məhsullarıdır. Milli sərgilərin keçirilməsi bu məqsədə nail olmaq üçün kömək göstərə bilər. Artıq burada deyildiyi kimi, bizim birinci milli sərgimiz uğurla keçirilmişdir. 2011-ci ildə isə bir neçə ölkədə milli sərginin keçirilməsi nəzərdə tutulur.

Nəzərdə tutulmuş və icrada olan bütün infrastruktur layihələri 2011-ci ildə davam etdiriləcəkdir. 2011-ci il üçün dövlət büdcəmizin xərcləri təxminən 16 milyard dollara bərabərdir, icmal büdcəmiz 19 milyard dollar təşkil edir. Yəni kifayət qədər vəsait var ki, infrastruktur layihələrinin həyata keçirilməsi üçün ondan istifadə edək. Əminəm ki, yaxın vaxtlarda 2011-ci ilin investisiya proqramı da mənə təqdim olunacaq və o proqramda bütün tapşırıqlar öz əksini tapmalıdır. İnvestisiya yönümlü siyasətimiz davam etdirilməlidir. Bu sahədə, infrastrukturun yeniləşməsi üçün çox böyük əsaslı işlər görülübdür. Ancaq görüləsi işlər hələ çoxdur: yolların tikintisi, əhalinin içməli su ilə təchiz edilməsi, kanalizasiya sisteminin bərpası, yenidən qurulması, suvarma, meliorasiya işləri, sosial infrastrukturun yaradılması, qazlaşdırma, elektrik xətlərinin çəkilməsi. Ancaq biz bilirik nə vaxt və nəyi etməliyik, biz fəaliyyətimizi konkret proqramlar əsasında qurmuşuq. 2011-ci il də istisna olmamalı və investisiya proqramı tezliklə təsdiq edilməlidir ki, biz vaxt itirməyək. Artıq yanvarın yarısı arxada qalır, investisiya proqramı təsdiq olunmalı və vəsait ayrılmalıdır.

Ekoloji tədbirlər davam etdiriləcək, bu barədə mən öz fikirlərimi giriş sözümdə bildirdim. Ekoloji tədbirlər hamı üçün çox vacibdir. 2010-cu ildə, əlbəttə ki, biz bu sahəyə

çox ciddi nəzarət etmişik və çox ciddi diqqət vermişik, böyük vəsait ayrılmışdır. Dediyim kimi, doğrudan da bu, ümumxalq təşəbbüsünə çevrilmişdir. Baxmayaraq ki, artıq "Ekologiya ili" rəsmən başa çatdı, ancaq "Ekologiya ili"nə xas olan ab-hava gərək davam etsin. Həm ağac əkilməsi eyni templə davam etdirilməli, həm də təmizləyici qurğular istifadəyə verilməli, içməli su layihələri icra olunmalıdır.

Hesab edirəm ki, 2011-ci ildə biz birinci Xəzər dənizinin suyunun şirinləşdirilməsinə dair layihəni icra etməliyik. Mən bir neçə ay bundan əvvəl bu barədə təşəbbüs irəli sürdüm. Bilirsiniz ki, içməli su təchizatı həmişə diqqət mərkəzində olmalıdır. Oğuz-Qəbələ-Bakı su kəməri bu sahədə çox tarixi bir nailiyyətdir. Samur-Abşeron kanalı, Taxtakörpü su anbarının tikintisi 2012-ci ildə başa çatdırılmalıdır. Bu da bizə əlavə imkanlar yaradacaqdır. Ancaq bizim Xəzər dənizi kimi böyük su mənbəyimiz var və onun suyu o qədər də duzlu deyildir. Biz Yaxın Şərq ölkələrinin təcrübəsini də öyrənmişik, bilirik ki, onlar suları necə şirinləşdirir, həm suvarma üçün, həm də içməli su kimi istifadə edirlər. Yəni biz də bu layihələri həyata keçirməyə başlamalıyıq - 2011-ci ildə birinci pilot layihəni, yəni Xəzər suyunun ilk növbədə suvarmada istifadə olunması üçün konkret layihəni icra etməliyik. Əgər bu layihə uğurlu olarsa, - mən buna şübhə etmirəm, - ondan sonrakı illərdə konkret proqram çərçivəsində genişmiqyaslı tədbirlər görülməlidir.

2011-ci ildə bərpa olunan enerji mənbələrinin yaradılması işində əlavə tədbirlər görüləcək, bu sahədə birinci addımlar atılmışdır. Artıq dağ çaylarında kiçik su elektrik stansiyaları quraşdırılır. Bütün su mənbələrimizin xəritəsi təsdiq olunubdur. Keçən il mən bir neçə stansiyasının təməlinin qoyulmasında şəxsən iştirak etmişəm. Bu işlər bu il də davam etdirilməlidir. Bununla bərabər, bərpa olunan digər enerji mənbələrindən istifadə üçün daha da ciddi tədbirlər görülməlidir. Bu vəzifəni mən keçən ilin əvvəlində qoymuşam, üstündən bir il keçibdir. Hələ ki, bizim, demək olar, nə günəş, nə külək enerji qurğularımız var. Varsa da, çox cüzi xarakter daşıyır. Mən hesab edirəm ki, biz il ərzində bu sahədə müəyyən işlər görə bilərdik. Təəssüf edirəm ki, buna nail ola bilməmişik. 2011-ci ildə Azərbaycanda günəş batareyalarının quraşdırılması işinə mütləq başlanmalıdır. Mən bilirəm ki, Azərbaycanda günəş batareyaları istehsal edən müəssisələr də tikiləcək, özəl sektor da buna maraq göstərir. O müəssisələr tikilənə qədər biz xaricdən günəş batareyaları almalıyıq. Mən bir il bundan əvvəl göstəriş vermişdim ki, yerlər müəyyən edilməlidir. O torpaqlar ki, kənd təsərrüfatı üçün yararsızdır, orada biz bu qurğuları qurmalıyıq. O torpaqlar ki, elektrik xətlərinə yaxındır, çox da xərc tələb etməyəcəkdir. Ancaq əfsuslar olsun ki, 2010-cu ildə bu sahədə biz nəticəni görməmişik. Bu, dözülməz haldır. Bir halda ki, Prezident tərəfindən göstəriş verilir, o göstəriş yerinə yetirilməlidir. Hesab edirəm ki, bu məsələlərlə bağlı olan qurumlar arasında səlahiyyət bölgüsü məsələlərində problemlər çıxmışdır. Buna da son qoyulmalıdır. Bu, bizim hamımızın işidir, göstəriş verilirsə, deməli, o, yerinə yetirilməlidir. Onun mexanizmi işlənilməlidir. Bizim kifayət qədər vəsaitimiz, yəni dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulan vəsaitimiz istifadəsiz qalmışdır. Nə üçün? Bizim iqtisadi, maliyyə problemimiz yoxdur, kifayət qədər vəsaitimiz var. Sel və daşqınlar baş verəndən sonra büdcəyə dürüstləşmə etdik. Əlavə 300 milyon dollar vəsait cəlb olundu. Onun böyük hissəsi evlərin tikintisinə, qalan hissəsi bəndlərin tikintisinə yönəldilmişdir. Nə üçün onlardan istifadə olunmayıb? Ona görə hesab edirəm ki, 2011-ci ilin elə əvvəlindən bu məsələyə çox ciddi diqqət verilməlidir və mən konkret nəticələr gözləyirəm. Bu, gələcəyə atılan

addımlardır.

Bizim neft, qaz ehtiyatlarımız var və ən azı 100 ilə bəs edəcəkdir. İndi elektrik enerjisinin istehsalında da yeni güclər yaradılıb, elektrik enerjisini ixrac da edirik. Yəni biz öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Ancaq bu sahə - bərpa olunan enerji mənbələri həm ekologiyadır, həm iqtisadiyyatdır, həm müasirlikdir, həm texnoloji tərəqqidir, həm də inkişafdır. Ona görə biz sürətlə bu işlərə başlamalıyıq.

2011-ci ildə informasiya-kommunikasiya texnologiyalarının inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Azərbaycan artıq kosmik sənayesi olan ölkəyə çevrilir. 2012-ci ildə birinci süni peykimiz orbitə çıxarılacaqdır. Mən hesab edirəm ki, ondan sonra da bu sahədə işlər aparılmalıdır. Başqa peyklər də səmaya çıxarılmalıdır. Beləliklə, Azərbaycan çox ciddi kosmik sənayeyə malik ölkəyə çevriləcəkdir. Bu da gələcəyə atılan bir addımdır. Biz görürük ki, indi dünyada qüvvələr nisbətini texniki tərəqqi müəyyən edir. Həmişə belə olub, indiki şəraitdə isə bu, özünü daha da qabarıq şəkildə büruzə verir. Texniki tərəqqi, texnoloji irəliləyiş, müasir texnologiyalar, xüsusilə informasiya-kommunikasiya sahəsində, rabitə sahəsində, elektronika, kosmik sənayesində əldə edilmiş uğurlar ölkələrin inkişafını və gücünü müəyyən edir. Biz də bu sahədə geri qalmamalıyıq. Baxmayaraq ki, bu sahə Azərbaycanda heç vaxt inkişaf etməmişdir, ancaq biz bunu etməliyik. Bizdə müdafiə sənayesi də heç vaxt olmamışdır. Amma beş il ərzində elə güclü müdafiə sənayesi yaratmışıq ki, indi özümüzü təmin edirik, ixrac da edirik və sərgilərdə iştirak edirik. Kosmik sənayeyə də eyni qaydada yanaşmalıyıq. Qısa müddət ərzində Azərbaycanda çox güclü kosmik sənaye yaradılmalıdır. Bu, bizə hər cəhətdən lazımdır.

Ordu quruculuğu sahəsində 2011-ci ildə kifayət qədər işlər görüləcəkdir. Ümumiyyətlə, bizim müdafiə hərbi xərclərimiz 3 milyard dollardan artıqdır. Bu, Ermənistanın büdcəsindən 30 faiz çoxdur. Ermənistanın ümumi dövlət xərcləri 2 milyard dollar həddindədir. Biz isə təkcə hərbi xərclərə 3 milyard dollar vəsait ayırırıq. Əlbəttə ki, Azərbaycanı Ermənistanla müqayisə etmək mümkün deyil, Azərbaycan inkişaf edən, müasir, güclü, zəngin ölkədir. Ermənistan isə tənəzzülə uğrayan, kasıb, yoxsul, xarici yardımdan asılı ölkədir. Yəni bu iki ölkə arasındakı fərq müqayisəedilməz səviyyədədir və bu fərq getdikcə daha da artacaqdır. Biz hərbi xərclərə istədiyimiz qədər vəsait ayıra bilərik. Ermənistan isə xaricdən aldığı yardımla ancaq özünü yola verə bilər. Əlbəttə ki, bu asılılıq siyasi müstəviyə də təsir edir. Deyə bilərəm ki, Ermənistandan fərqli olaraq, Azərbaycanın müstəqilliyi tamdır. Müstəqil siyasət aparmaq üçün bizdə həm iqtisadi, həm siyasi imkanlar var, həm də güclü iradə var. Bayaq dediyim kimi, 2011-ci ildə müdafiə sənayesi sahəsində yeni müəssisələrin işə salınması gözlənilir. Biz elə etməliyik ki, ilk növbədə, ordumuzun və hərbi qurumların ehtiyaclarını ödəmək üçün istehsallar, müəssisələr işləsin. Çalışmalıyıq və artıq buna nail oluruq ki, bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirək və gətiririk.

Bu il də sosial infrastrukturun - məktəb, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları - tikintisi davam etdirilməlidir, bütün bunlar investisiya proqramında öz əksini tapacaqdır. 2010-cu ildə məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və məşğulluğun artırılması üçün əlavə addımlar atılmışdır. Keçən il 6600 köçkün yeni evlərə köçürülmüşdür. Köçkünlər üçün 3 böyük qəsəbə tikilmişdir. Bu il də biz bu işləri davam etdirəcəyik.

Bakıda, digər şəhər və rayonlarımızda abadlıq-quruculuq işləri uğurla gedir, şəhərlərimiz gözəlləşir, yeniləşir, müasirləşir. Elə etməliyik ki, 2011-ci ildə də bu sahəyə diqqət göstərilsin ki, bütün şəhərlərdə, rayon mərkəzlərində, kəndlərdə abadlıq-quruculuq işləri aparılsın.

2011-ci ildə Dövlət Bayrağı meydanının ətrafında abadlıq işləri başa çatdırılmalıdır. Biz keçən il böyük təntənə ilə Azərbaycanın Dövlət Bayrağının açılışını qeyd etdik. İndi bayrağın ətrafında olan yerlərdə, - ora təxminən 60-70 hektarlıq bir ərazidir, - abadlıq-quruculuq işləri aparılır, parklar, yeni bulvar salınır. Elə etməliyik ki, 2011-ci ildə Dövlət Bayrağı meydanının ətrafında olan bütün yerlər abadlaşsın və bununla paralel olaraq, meydandan bulvara qədər yeni yolun, yeni dənizkənarı bulvarın salınması layihəsi də icra edilsin. Biz artıq bu işə başlamışıq. O ərazilərdə yerləşən zavodlar başqa yerlərə köçürülür. Orada istifadəsiz olan obyektlər köçürülür, bəziləri sökülür. Biz bulvarın sonundan, yəni İdman sarayından Dövlət Bayrağı meydanına qədər yeni bulvarın tikintisinə başlamışıq. Bu, böyük bir layihədir, böyük vəsait tələb edir, bunu etməliyik. Belə olan halda, şəhər əhalisi üçün, gəzinti üçün yeni, gözəl yerlər istifadəyə veriləcəkdir.

Keçən il Bakıda yeni parkların yaradılması üçün böyük işlər görülübdür. İndi, demək olar ki, şəhərin mərkəzində yerləşən bütün parklar ən müasir standartlara cavab verir və biz yeni parklar yaradırıq. Bakı limanının Ələtə köçürülməsi nəzərdə tutulur. Bildiyiniz kimi, keçən ilin sonunda limanın ərazisində, istifadə olunmayan yerlərdə böyük, 4 hektarlıq gözəl park yaradılmışdır. Biz sənaye zonasını şəhərin mərkəzindən çıxarmalıyıq. Xüsusilə dənizə yaxın olan yerlərdəki bütün sənaye obyektləri köçürülməlidir və o zonada ancaq əhalinin istifadəsi üçün nəzərdə tutulacaq obyektlər tikilməlidir. Dənizin kənarında hər iki tərəfə doğru - həm Zığ istiqamətində, həm də Bayıl istiqamətində parklar, xiyabanlar, bulvarlar, gəzinti yerləri yaradılmalıdır. Yəni 2011-ci ildə bu sahəyə diqqət daha da böyük olmalıdır və bu tapşırıqlar investisiya proqramında nəzərə alınmalıdır.

Keçən il ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir, 9 milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu, çox sevindirici haldır, bizim əhalimizin sayı artır. Bu günə olan məlumata görə, Azərbaycan əhalisi 9 milyon 111 min nəfər təşkil edir. Mən çox şadam ki, artım çox sürətlidir. 2010-cu ildə Azərbaycanda 166 min körpə dünyaya gəlmişdir. Bu da son 16 ildə ən yüksək göstəricidir və bizim inkişafımızın təzahürüdür. Mən çox istəyirəm ki, Azərbaycan əhalisi daha da artsın və əminəm ki, ölkədə gedən proseslər bu məqsədə çatmaq üçün şərait yaradacaqdır.

Bu il biz müstəqilliyimizin bərpasının 20 illiyini qeyd edəcəyik. İyirmi il ərzində Azərbaycan müstəqil ölkə kimi yaşayır. Təbii ki, müstəqilliyimizin bərpası Sovet İttifaqının dağılması nəticəsində baş vermişdir. Azərbaycan və bütün başqa müttəfiq respublikalar müstəqil olmuşdur. Azərbaycan isə müstəqilliyini bərpa etmişdir, çünki bizim müstəqilliyimizin tarixi 1991-ci ildən deyil, 1918-ci ildən başlayır. Məhz buna görə Azərbaycanda 28 May günü xüsusi təntənə ilə qeyd olunur. Bizim üçün müstəqilliyimizin əsas tarixi 28 may 1918-ci ildir. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində bütün başqa respublikalarla bərabər Azərbaycan da müstəqilliyə qovuşdu, daha doğrusu, dediyim kimi, müstəqilliyini bərpa etdi. Bu yubileyi biz Azərbaycanda geniş şəkildə qeyd etməliyik.

İyirmi il həm böyük, həm də çox da böyük olmayan müddətdir. İyirmi il ərzində çox iş görmək olar, heç nə görməmək də olar. Azərbaycanda son 17 ildə, müstəqilliyimizin birinci iki ilini çıxmaq şərti ilə, doğrudan da tarixi nailiyyətlər əldə edilmişdir. Bu gün danışdığımız bütün uğurlar bu müstəqilliyin nəticəsidir. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Müstəqillikdən qiymətli heç bir şey ola bilməz. İl ərzində biz həm Azərbaycanda, həm də xaricdə müstəqilliyimizin bərpasını qeyd etməliyik. Bu məsələlərlə bağlı yaxın günlərdə mən müvafiq sərəncam da imzalayacağam.

2011-ci il başlayıb, keçən il bizdə "Ekologiya ili" elan olunmuşdu. Dediyim kimi, yaxşı nəticələr əldə edilmişdir. Təklif edirəm ki, 2011-ci ili biz "Turizm ili" elan edək. 2011-ci ildə Bakıda 5 beşulduzlu mehmanxana açılacaq, hesab edirəm, yəqin ki, bu, dünyada analoqu olmayan bir hadisədir. Bir ildə bir şəhərdə 5 beşulduzlu mehmanxana açılacaq, mən Bakını nəzərdə tuturam. Ancaq Bakıda dördulduzlu, üçulduzlu hotellər də tikilməkdədir. Bölgələrdə hotelçilik ilə bağlı çox böyük işlər görülür, artıq Azərbaycanda turizmin inkişafı reallıqdır. Bu infrastrukturu yaratmaq üçün, əlbəttə ki, dövlət tərəfindən böyük vəsait tələb olunur. Ancaq bu, infrastruktur məsələlərinə yönəldilir. Hotellər isə özəl sektor tərəfindən tikilir. Deməli, Azərbaycanın inkişafına inam o qədər böyükdür ki, buraya, bu hotellərə milyonlarla, yüz milyonlarla vəsait qoyulur. İnvestorlarda inam var ki, bu vəsait onlara dividendlər gətirəcəkdir. Şəhərimizə isə bu, yenilik gətirir, müasirlik gətirir. Şəhərə gələn qonaqlar üçün gözəl şəraitin yaradılması, əlbəttə ki, vacib məsələdir.

Bununla bərabər, burada deyildiyi kimi, "Şahdağ" qış-yay xizək kurortu, xizək infrastrukturu yaradılır. Bu da sırf dövlət tərəfindən yaradılan layihədir. Mən o bölgələrdə dəfələrlə olmuşam. Mən oraya birinci dəfə gedəndə heç nə yox idi. Dağlar idi, heç yaşayış məntəqələri də yox idi. Yaşayış məntəqələrindən bir neçə kilometr uzaqlıqda yerləşən dağlar idi. Amma indi orada yollar, elektrik xətləri, qaz xətləri, su xətləri çəkilir, birinci mehmanxana dövlət tərəfindən tikilir. Əminəm ki, bundan sonra özəl sektor da bu təşəbbüsə qoşulacaq, çünki orada çoxlu mehmanxana tikilməlidir. Xizək bazası, qaldırıcılar, tibb məntəqələri, restoranlar, əyləncə yerləri olacaqdır. Bir sözlə, "Şahdağ" kurort mərkəzi dünya səviyyəli mərkəzə çevriləcəkdir. Dünyada hazırda mövcud olan ən qabaqcıl, ən populyar kurort yerlərindən geri qalmamalıdır və qalmayacaqdır. Beləliklə, bu, ölkəmizə həm yeni investisiyalar gətirəcək, həm də şimal zonasında yaşayan əhali üçün əlavə şərait yaradacaq, minlərlə, bəlkə də, on minlərlə yeni iş yerləri açılacaqdır. Azərbaycana gələn turistlərin sayı daha da çox olacaq və Azərbaycan turizm üçün çox cəlbedici ölkəyə çevriləcəkdir.

Bizim gözəl təbiətimiz var, Xəzər dənizimiz, gözəl dağlarımız, çaylarımız, meşələrimiz bizim böyük sərvətimizdir. Elə etməliyik ki, 2011-ci ildə turizmin inkişafına böyük təkan verilsin. Hesab edirəm ki, bu məqsədlə 2011-ci ilin "Turizm ili" elan olunması ədalətlidir. Elə etməliyik ki, bu sahədə böyük və gözəl nəticələr görək.

2011-ci il başlayıb, mən gələcəyə çox böyük nikbinliklə baxıram. Tam əminəm ki, 2011-ci il də ölkəmizin hərtərəfli inkişafı üçün uğurlu il olacaqdır. Buna nail olmaq üçün hamımız yaxşı işləməliyik, fəal işləməliyik ki, ölkəmizi daha da gücləndirək, Azərbaycanı inamla irəliyə aparaq. Bu işlərdə sizə uğurlar arzulayıram. Sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Latviyaya rəsmi səfərə yola düşmüşdür.

Azərbaycan Prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

RİQANIN HAVA LİMANINDA QARŞILANMA

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Latviya Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Riqanın Beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Latviyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar. Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim olundu.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Yanvarın 17-də Latviya Prezidentinin iqamətgahında - "Riqa" qəsrində Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı qəsrin qarşısında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.

Hərbi orkestrin ifasında Azərbaycanın və Latviyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Latviyanın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Latviya Prezidenti Valdis Zatlersə təqdim olundu.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Riqa" qəsrinin "Gerblər" salonunda Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Sonra hədiyyələr təqdim edildi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

BİRGƏ MƏTBUAT KONFRANSI

Yanvarın 17-də Riqada Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları əvvəlcə birgə bəyanatla çıxış etdilər.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN BƏYANATI

-Mən dostum, Azərbaycan Prezidenti İlham Əliyevi burada, Riqada salamlamağa çox şadam. Biz burada çox gözəl mühitdə və xoş niyyətlərlə ölkələrimizin iqtisadi və mədəni əməkdaşlığını inkişaf etdirmək əzmindəyik.

İki ölkənin münasibətləri çox müsbət inkişaf edir. Məsələn, biz bu iqtisadi tənəzzül illərinə baxsaq görərik ki, Azərbaycan ilə Latviyanın iqtisadi əməkdaşlığının həcmi 10 faiz artıb. Bugünkü biznes forum və mənim Bakıya səfərim zamanı keçirilən biznes forum iqtisadi əməkdaşlığımızın daha da sıx olması üçün atılan növbəti addımlardır. Bu gün Azərbaycan-Latviya İşgüzar Şurası yaranacaqdır. Yəni, ölkələrimiz arasında əlaqələri təkcə dövlət başçıları və hökumətlər deyil, həm də iş adamları möhkəmləndirəcəklər.

Biz gələcəyə baxarkən ikitərəfli əlaqələrimizi möhkəmləndirmək və Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlığa dəstək vermək üçün "Şərq tərəfdaşlığı" layihəsindən necə yararlanmağı da düşünürük. Burada bizim təhsil və məhz dövlət idarəçiliyində informasiya texnologiyaları sahələrində əməkdaşlığa dair çox yaxşı müzakirələrimiz olub. Biz sərhədlərin qorunmasında və gömrük məsələlərində necə əməkdaşlıq edə biləcəyimiz haqqında söhbət etdik. Zənnimcə, "Şərq tərəfdaşlığı"nın müvəffəqiyyəti üçün olduqca əhəmiyyətlidir ki, Azərbaycan bu tərəfdaşlığı, onun mahiyyətini necə gördüyünü və Latviyanın Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafına hansı töhfə verə biləcəyini dəqiq desin.

Əlbəttə, biz energetika məsələlərinə də toxunduq. Çünki Azərbaycan enerji ehtiyatlarının Avropaya çatdırılmasında mühüm rol oynayır. Gələcəkdə biz - hər iki tərəf bu rolun artması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Bir sözlə, müzakirə edilən məsələlər çox idi. Sonra isə mən sizin birbaşa, konkret suallarınıza cavab verəcəyəm.

* * *

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə qeyd etmək istəyirəm ki, yenidən dost Latviyada olmağımdan çox məmnunam. Cənab Prezident, məni Latviyaya dəvət etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, mənim səfərim Latviya-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayacaqdır. Cənab Prezident, biz Sizin 2009-cu ildə Azərbaycana səfərinizi xatırlayırıq və o səfər zamanı əldə edilmiş razılaşmalar uğurla icra edilir. Əminəm ki, bu gün imzalanmış vacib sənədlər gələcək illərdə də münasibətlərimizi müəyyən edəcəkdir. Mən imzalanmış sənədlərin arasında Birgə Bəyannaməni xüsusilə vurğulamaq istəyirəm. Bu Bəyannamə çox ciddi bir sənəddir və orada gələcək əməkdaşlığımızın bütün istiqamətləri öz əksini tapıbdır.

Artıq Latviya Prezidenti bu gün müzakirə edilmiş məsələlər haqqında məlumat verdi, onu təkrarlamaq istəmirəm. Sadəcə olaraq, demək istəyirəm ki, həm siyasi, həm iqtisadi, həm mədəniyyət sahəsində gələcək əməkdaşlıq üçün çox gözəl perspektivlər vardır. Ölkələrimiz dost ölkələrdir. Siyasi əlaqələr çox yüksək səviyyədədir. Ümid edirəm ki, iqtisadi sahədə görüləcək işlər iqtisadi münasibətlərimizi də siyasi münasibətlərin səviyyəsinə qaldıracaqdır.

Bu məqsədlər üçün bu gün keçiriləcək biznes forum çox böyük əhəmiyyətə malikdir.

Azərbaycandan Latviyaya mənimlə bərabər 50-dən çox iş adamı gəlmişdir ki, öz həmkarları ilə gələcək planlar haqqında fikir mübadiləsi aparsın.

Enerji məsələlərinə gəldikdə, Azərbaycan Avropa İttifaqı ilə bu sahədə çox uğurlu əməkdaşlıq edir. Bu ayın 13-də Bakıda Avropa Komissiyasının sədri cənab Barrozunun səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələlərinə dair Birgə Bəyannamə imzalanmışdır. Bu Bəyannamə gələcək əməkdaşlığımızın istiqamətlərini müəyyən edir. Əminəm ki, Bəyannamədə nəzərdə tutulmuş məsələlər 2011-ci ildə icra edilməyə başlanacaqdır. Azərbaycanın zəngin neft-qaz ehtiyatları dünya bazarlarına müxtəlif yollarla nəql edilir. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə hazırdır.

Bu gün eyni zamanda, biz regional məsələlər haqqında fikir mübadiləsi apardıq. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqların son mərhələsi haqqında Prezident Zatlersə məlumat verdim. Bu məsələ uzun illərdir ki, öz həllini gözləyir. Məsələ isə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlar - BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti və başqa təşkilatların ədalətli qətnamələri və qərarları əsasında öz həllini tapmalıdır.

"Şərq tərəfdaşlığı" proqramına gəldikdə isə, Azərbaycan bu proqramın icrasına çox böyük ümidlərlə baxır. Əminəm ki, bu proqramın icrası bizi Avropa ilə daha da yaxınlaşdıracaqdır. Sağ olun.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

- Sual hər iki ölkənin liderlərinədir. Burada artıq iqtisadi əməkdaşlıq imkanları məsələsi səslənib. Konkret sahələri qeyd etmək olar və Azərbaycan yüklərinin Riqa limanına cəlb edilməsi layihəsi barədə ətraflı məlumat verə bilərsinizmi?

Valdis ZATLERS: -İqtisadi əməkdaşlığın istiqamətləri kifayət qədər çoxdur. Biz adət etmişik ki, Latviya öz qida məhsullarını ixrac edir və onlar bir çox ölkədə, o cümlədən

Azərbaycanda yüksək dəyərləndirilir. Azərbaycanın özəl şirkətləri və dövlət müəssisələri üçün Latviyanın informasiya texnologiyaları layihələrinin ixrac imkanlarına da böyük maraq vardır. Biz, həmçinin təhsil sahəsində əməkdaşlıq imkanları barədə danışdıq. Çünki təhsil də bir növ ixrac məhsuludur. Biz Azərbaycanın və Latviyanın qarşılıqlı maraqlarını müzakirə etdik. Nəqliyyat, energetika haqqında danışdıq.

Bilirsiniz, biznes forum daha çox imkan nümayiş etdirəcəkdir. Mənim "Dillər sahili" layihəsindən çox xoşum gəlir. Bu, rəqəmsal formatda hazırlana biləcək tərcümələr layihəsidir. Bu, azsaylı xalqlar üçün öz dilindən istifadə edərək internet mühitinə daha yaxşı çıxış əldə etmək, tərcümə etmək, bir-birini anlamaq imkanıdır. Bir sözlə, imkanlar çoxdur, çünki həm Latviya, həm Azərbaycan əməkdaşlıq və iqtisadiyyatın modernləşdirilməsi yolu ilə addımlayır.

İlham ƏLİYEV: -Etiraf etməliyəm ki, iqtisadi sahədə aramızdakı əlaqələr siyasi əlaqələrin səviyyəsinə hələ ki, qalxmayıbdır. Əminəm ki, görüləcək tədbirlər nəticəsində biz bu sahədə də yaxşı nəticələri görəcəyik. Mən perspektivli sahələr arasında, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarını qeyd etmək istərdim. Azərbaycan bu istiqamətə çox böyük önəm verir və bilirəm ki, Latviyada da bu sahədə böyük işlər görülübdür.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın yaxşı perspektivləri ola bilər. Biz energetika sahəsində qarşılıqlı sərmayələrin qoyuluşu məsələlərinə daha da diqqətlə baxmalıyıq. Bu gün Azərbaycan şirkətləri artıq öz kapitalını xarici bazarlara yönəldirlər. Biz xaricə böyük həcmdə ölçülən sərmayə qoyuruq. Bu gün keçiriləcək biznes forumda iştirak edəcək şirkətlər Azərbaycanın aparıcı şirkətləridir. Bu şirkətlərin böyük təcrübəsi və artıq böyük maliyyə imkanları vardır.

Mən hesab edirəm ki, bu məsələlər mövcud olan birgə hökumətlərarası komissiyasının iclasları zamanı daha da hərtərəfli və səmərəli qaydada müzakirə oluna bilər. Komissiyanın növbəti iclası bir neçə aydan sonra Riqada keçiriləcəkdir. Hesab edirəm ki, bütün təkliflər orada təhlil ediləcək və biz gələcəkdə iqtisadi əlaqələrimizi konkret proqram əsasında quracağıq.

Valdis ZATLERS: - Biznes forumun nə dərəcədə populyar olduğunu daha yaxşı anlamaq üçün bildirim ki, Latviya tərəfindən bu tədbirdə 250-dən çox iş adamı iştirak edir.

- Mənim sualım hər iki prezidentədir. Ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşunun perspektivlərini necə dəyərləndirirsiniz? Sağ olun.

İlham ƏLİYEV: - Mən çıxışımda qeyd etdim ki, bu sahə perspektivli ola bilər və biz Latviya şirkətlərinin investisiyalarını alqışlayırıq. Ümid edirəm ki, bu investisiyalar Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsində mühüm rol oynayacaqdır. Biz bu gün Azərbaycanda iqtisadiyyatın bütün istiqamətlərinə böyük əhəmiyyət veririk. Biz elə etməliyik ki, iqtisadiyyatımızın neft-qaz sektorundan asılılığı minimum səviyyəyə endirilsin və buna artıq nail oluruq. İqtisadiyyatımızın şaxələndirilməsi üçün investisiyaların cəlb olunması bizim üçün çox vacibdir.

Qeyd etməliyəm ki, təkcə 2010-cu ildə Azərbaycan iqtisadiyyatına 15,5 milyard dollar sərmayə qoyulmuşdur. Onun 9,3 milyardı daxili sərmayədir, qalanı isə xarici investisiyalardır. Bizdə çox gözəl investisiya mühiti yaradılıbdır. Xarici şirkətlərin sərmayəsi lazımi səviyyədə qorunur. Azərbaycan şirkətləri artıq xarici bazarlara sərmayə qoyuluşuna başlamışlar. Bu sərmayələr artıq bir neçə milyard dolları ötüb keçib və əlbəttə ki, bizə dost ölkə olan Latviyada investisiya imkanlarını araşdırmaq bizim üçün çox maraqlı ola bilər. Hesab edirəm ki, bu gün keçiriləcək biznes forum bu məsələnin həlli üçün də öz rolunu oynamalıdır.

Valdis ZATLERS: - Gələcək iqtisadi əməkdaşlığın əsasını birmənalı olaraq investisiyalar təşkil edir. Hər iki tərəfin Latviyaya və Azərbaycana sərmayə qoymaqda maraqlı olduğunu nəzərə alsaq, biz iyirmi ildən sonra görüşə bilərik və müsbət nəticəni görəcəyik ki, ticarət dövriyyəmiz daha da çoxdur, ölkələrimizin iqtisadiyyatları qarşılıqlı qaydada bir-biri ilə daha çox bağlıdır və bir-birini tamamlayır.

- Cənab Prezident Əliyev, Siz sədr Barrozunu və imzalanmış sənədi xatırlatdınız. Avropa üçün enerji təchizatçısı olmaq və bunu xüsusən də Rusiyadan kənardan keçən boru kəməri vasitəsilə etməkdə Azərbaycanın sadiqliyi nə dərəcədə ciddidir?

İlham ƏLİYEV: -Biz enerji layihəmizi 1990-cı illərin ortalarından başladıq. Azərbaycan Xəzər dənizində işləmək üçün xarici neft şirkətlərini dəvət edən ilk ölkə oldu. Buna görə, enerji layihələrimizin tarixi 15-16 ildən əvvəlki dövrə təsadüf edir. Biz bu günə qədər neft və qazımızı beynəlxalq bazarlara nəql etmək məqsədilə bütün zəruri infrastruktur layihələrini həyata keçirə bildik. Hazırda Azərbaycan neft və qazını müxtəlif istiqamətlərdə nəql edən üç neft və dörd qaz boru kəmərinə malikik. Hasilat həcminə gəldikdə, ötən il Azərbaycanda 50 milyon tondan artıq neft və təxminən 30 milyard kubmetr qaz hasil edilmişdir. Bu həcmin əksər hissəsi ixrac edilmişdir. Bu gün biz qonşularımızı təbii qazla təchiz edirik. Bizim Türkiyə, Gürcüstan, Rusiya və İranla müqavilələrimiz vardır. Biz hasilat və imkanlarımızı, əlbəttə ki, ixrac qabiliyyətimizi artırmaq istəyirik. Buna görə, biz hər iki istiqamətdə çalışmalıyıq. Birincisi, artıq işlədiyimiz bazarlara qaz təchizatını artırmaq, - mən həmin ölkələri qeyd etdim, - ikincisi isə, yeni bazarları tapmaq nəzərdə tutulur. Bu halda, biz Avropa ölkələrinin və Avropa İttifaqının olduqca ciddi yanaşmasını görürük. Həmin ciddi yanaşma öncə qeyd etdiyim kimi, Bakıda bir neçə gün əvvəl sədr Barrozunun və mənim imzaladığımız Birgə Bəyannamədə öz əksini tapmışdır.

Bizim nəhəng qaz ehtiyatlarımız vardır. Onların həcmi trilyonlarla kubmetrlə ölçülür. Biz artıq müasir və olduqca effektiv şaxələndirilmiş infrastruktura - qaz boru kəmərlərinə malikik. Avropada isə daha çox qaza ehtiyacı olan böyük bazarımız vardır. Bizim üçün söhbət kimdənsə yan və ya kənar keçməkdən getmir. Öz enerji strategiyamızda biz heç vaxt heç kimə qarşı çıxış etməmişik. Bizim üçün ən vacibi odur ki, qaz potensialımızı tam şəkildə həyata keçirək. Qaz hasilatımız ən azı iki dəfə artırıla bilər. Buna görə, əlbəttə ki, bizə bazarlar lazımdır. Qazımıza ehtiyac duyan bazarlar, rəqabətcil, açıq, qanunvericiliklə tənzimlənən və uzunmüddətli bazarlar lazımdır. Bu baxımdan, hesab edirəm ki, Avropa istehlakçılarının və Azərbaycanın maraqları üst-üstə düşür. Hazırda isə, istehlakçılar, hasilatçılar və əlbəttə ki, tranzit ölkələrin maraqlarını təmin etmək üçün uzunmüddətli perspektivdə birgə işləmək üzərində düşünmək vaxtı yetişib.

- Mənim də sualım hər iki prezidentədir. Azərbaycan ilə Latviya arasında əlaqələrin regional iqtisadi əməkdaşlıq baxımından əhəmiyyəti barədə nə deyə bilərsiniz? Təşəkkür edirəm.

Valdis ZATLERS: - Latviyanı birmənalı olaraq Avropa İttifaqı ölkəsi kimi dəyərləndirmək lazımdır. Ticarət dövriyyəmizin 70 faizi Avropa İttifaqı ilə bağlıdır. Azərbaycanla ikitərəfli iqtisadi münasibətləri inkişaf etdirərkən biz, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə iqtisadi münasibətlərinə dəstək vermiş oluruq və əksinə. Biz Qafqaz regionunda böyük iqtisadi inteqrasiyanı görmək istəyirik. Biz hər bir ölkə ilə ikitərəfli münasibətlərin formalaşdırılması hesabına regionun ümumi iqtisadi əməkdaşlığını dəstəkləyəcəyik. Bu gün iqtisadiyyat qlobaldır. Biz daha "biz - sizə, siz - bizə" deyə bilmərik. Bunun həmişə regional, bir çox halda isə, həmçinin qlobal konteksti olub.

İlham ƏLİYEV: -Mən qeyd etmək istəyirəm ki, iqtisadi sahədə görüləcək işlər çoxdur. İki tərəfin bu məsələlərin həlli üçün böyük marağı vardır. Baxmayaraq ki, iki ölkə arasında iqtisadi sahədə müəyyən qədər canlanma vardır və ticarət dövriyyəsi artır. Hələ ki, bu, bizim potensiallarımızı əks etdirmir. Əlbəttə ki, həm ikitərəfli formatda Latviya-Azərbaycan iqtisadi əlaqələri bizim üçün vacibdir, həm də Latviya Avropa İttifaqının üzvü kimi Azərbaycan üçün çox cəlbedici ölkədir. Ən önəmlisi ondan ibarətdir ki, hər iki tərəfdə qarşılıqlı və çox güclü siyasi iradə vardır, ölkələrimiz dost ölkələrdir. Qeyd etdiyim kimi, siyasi əlaqələr mütəmadi qaydada öz əksini tapır. Belə olan halda biz maksimum dərəcədə iki ölkənin iqtisadi potensialını aşkarlamalıyıq, bir-birimizə təqdim etməliyik. Beləliklə, uzunmüddətli və çox uğurlu iqtisadi əməkdaşlığa nail olmalıyıq ki, bu da özlüyündə siyasi əlaqələrin inkişafı üçün mühüm töhfəsini verəcəkdir.

AZƏRBAYCAN-LATVİYA SƏNƏDLƏRİNİN İMZALANMASI

Yanvarın 17-də Riqada Azərbaycan-Latviya sənədlərinin imzalanma mərasimi olmuşdur.

Dövlət başçıları İlham Əliyev və Valdis Zatlers "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə bəyannaməsi"ni imzaladılar.

"Azərbaycan Respublikasının Hökuməti ilə Latviya Respublikasının Hökuməti arasında fövqəladə halların xəbərdar edilməsi və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Latviyanın daxili işlər naziri xanım Linda Murniese imzaladılar.

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Latviya Respublikasının Dövlət Gəlirlər Xidməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarşılıqlı inzibati yardım və informasiya mübadiləsi haqqında saziş"i Azərbaycanın vergilər naziri Fazil Məmmədov və Latviyanın Gəlirlər üzrə Dövlət Agentliyinin baş direktoru xanım Nelija Jezdakova imzaladılar.

"AZADLIQ" ABİDƏSİNİ ZİYARƏT

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere Riqa şəhərində "Azadlıq" abidəsinin ucaldıldığı mərkəzi meydana gəldilər.

Meydanda fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlət başçıları abidənin önünə gül qoydular, Latviyanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad etdilər.

Hərbi orkestrin ifasında Azərbaycanın və Latviyanın dövlət himnləri səsləndirildi.

Latviya Prezidenti Valdis Zatlers Azərbaycanın dövlət başçısına məlumat verdi ki, latış xalqının azadlıq rəmzi olan bu abidə 1935-ci il noyabrın 18-də ucaldılmışdır. Latviya 1918-ci ildə məhz noyabrın 18-də müstəqil respublika elan edilmişdi. 1940-cı ildə Latviya Sovet İttifaqına birləşdirildikdən sonra bu abidənin önünə gül-çiçək qoymaq, əslində, qadağan olunmuşdu. Buna baxmayaraq, latış xalqı milli azadlıq hərəkatlarının, tarixi hadisələrin ildönümünü, repressiya qurbanlarının xatirəsini burada yad edirdi. Keçən əsrin sonunda xalqın yenidən müstəqillik uğrunda mübarizəsi də məhz buradan başlanmışdı.

Azərbaycan Prezidenti İlham Əliyev Riqanın qocaman sakini ilə söhbət etdi, xatirə şəkli çəkdirdi.

Dövlətimizin başçısına abidənin yerləşdiyi meydanın ətrafında aparılmış abadlıq işləri barədə də məlumat verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN TƏKBƏTƏK GÖRÜŞÜ

Yanvarın 17-də Riqada rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Latviya arasında əlaqələrin Avropa İttifaqı çərçivəsində əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Birgə nahar

Yanvarın 17-də Yurmalada Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere birgə nahar etmişlər.

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DİLMA ROUSSEFFƏ

Hörmətli xanım Prezident,

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Braziliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

17 yanvar 2011-ci il.

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Yanvarın 17-də Riqada təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Valdis Zatlersin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevi Latviyada görməkdən məmnun olduğunu bildirən Prezident Valdis Zatlers özünün Azərbaycana rəsmi səfərinin uğurlu olduğunu xatırlatdı. Azərbaycanın dövlət başçısının indiki səfərindən sonra Bakı ilə Riqa arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu söylədi.

Latviya kimi gözəl ölkəyə səfər etməsindən məmnunluğunu ifadə edən Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, bu səfər ikitərəfli münasibətlərin müzakirəsi, qarşılıqlı surətdə faydalı dialoq və əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı bir imkandır.

Prezident İlham Əliyev bildirdi ki, keçiriləcək Latviya-Azərbaycan biznes forumunun nəticələri uğurlu olacaq və ölkələrimiz arasında əməkdaşlığın inkişafına fayda verəcəkdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, ölkələrimiz arasında iqtisadi, enerji, informasiya-kommunikasiya texnologiyaları, qarşılıqlı sərmayələrin qoyuluşu, humanitar, təhsil sahələrində əlaqələr müzakirə edildi, ikitərəfli münasibətlərin Avropa İttifaqı çərçivəsində əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti vurğulandı və bu əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYA SEYMİNİN SƏDRİ XANIM SOLVİTA ABOLTİNA İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 17-də Riqada Latviya Seyminin sədri xanım Solvita Aboltina ilə görüşmüşdür.

Latviya parlamentinin rəhbəri dövlətimizin başçısına qanunvericilik orqanının binası, strukturu və fəaliyyəti barədə ətraflı məlumat verdi.

Daha sonra keçirilən görüşdə Latviya Seyminin sədri bildirdi ki, onun ölkəsi Azərbaycan ilə parlamentlərarası əlaqələrin inkişafına böyük önəm verir.

Seymdə Azərbaycan ilə dostluq qrupunun fəaliyyət göstərdiyini xatırladan sədr Solvita Aboltina Latviyanın Azərbaycan ilə parlamentlərarası əlaqələrin genişlənməsində maraqlı olduğunu vurğuladı. Gələcəkdə bu əməkdaşlığın möhkəmlənəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Latviya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi. Dövlətimizin başçısı parlamentlərarası əlaqələrin inkişafının ölkələrimiz arasında ikitərəfli münasibətlərimizə böyük töhfə verdiyini vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimiz arasında əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə etdi.

AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU

Yanvarın 17-də Riqada Azərbaycan-Latviya biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Valdis Zatlers biznes forumda iştirak etmişlər.

Forum iştirakçıları Azərbaycanın və Latviyanın dövlət başçılarını hərarətlə qarşıladılar.

Biznes forumda hər iki ölkədən 200 iş adamı iştirak etmişdir. Forumun əsas məqsədi sahibkarlar arasında iqtisadiyyatın müxtəlif sahələrində səmərəli əməkdaşlığın qurulması və mövcud iqtisadi potensialdan yararlanaraq, ticarət dövriyyəsini hər iki ölkəni qane edən səviyyəyə çatdırmaqdır.

Prezidentlər biznes forumda çıxış etdilər.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN ÇIXIŞI

-Cənab Prezident, zati-aliləri!

Nazirlər, Azərbaycanın və Latviyanın işgüzar dairələri, xanımlar və cənablar!

Riqa şəhərinə xoş gəlmisiniz! Latviya-Azərbaycan biznes forumunda çıxış etmək imkanından məmnunam. Mən iki ölkənin işgüzar dairələri arasında bu cür görüşlərin və biznes forumların təşkil edilməsinin ənənəyə çevrilməsini alqışlayıram.

Mən bu tədbirin təşkilatçılarına - Latviyanın İnvestisiya və İnkişaf Agentliyi və Azərbaycanın AZPROMO şirkətinə öz minnətdarlığımı bildirmək istəyirəm. Onlar bu görüşün keçirilməsi üçün böyük işlər görmüşlər.

Baxmayaraq ki, coğrafi baxımdan Latviya və Azərbaycan arasında məsafə kifayət qədər böyükdür, bu, ölkələrimizin əməkdaşlığına mane olmayıb. Mən çox şadam ki, ötən biznes forumlar zamanı işgüzar dairələrimiz biznez əlaqələri qura bilib və bu, tərəfdaşlıq sazişlərinin əldə olunması ilə nəticələnib. Bu onu da göstərir ki, onlar həqiqətən birgə çalışmaqda maraqlıdırlar.

Xanımlar və cənablar, iqtisadi əlaqələr üçün ilkin şərt uğurlu siyasi əməkdaşlıqdır, o cümlədən yüksək səviyyəli siyasi səfərlər və iqtisadi əlaqələr üçün zəruri qanunvericilik bazasının olmasıdır.

Cənab Prezident, Sizin Latviyaya səfəriniz ölkələrimiz arasında uğurlu əməkdaşlığı, o cümlədən Azərbaycan və Latviya arasındakı ikitərəfli əlaqələrdə mövcud olan sabitliyin və qarşılıqlı anlaşmanın olmasını təsdiq edir. Mən şadam ki, Latviya-Azərbaycan Hökumətlərarası Komissiyası ikitərəfli əlaqələrin yüksəldilməsi və əlaqələndirilməsində, həmçinin hökumət səviyyəsində biznes prioritetlərinin dəstəklənməsində səmərəli bir alətə çevrilə bilib.

Tərəfdaşlığımızın ikitərəfli olmasını bu gün Prezident Əliyevin və mənim imzaladığımız Bəyannamə nümayiş etdirir. Bu, onu da göstərir ki, biz tərəfdaşlığımızın qanunvericilik bazasını elə bir səviyyədə genişləndirmək istəyirik ki, ikitərəfli əlaqələrimizin yüksəldilməsini daha da sürətləndirək. Hər iki tərəf malların və xidmətlərin bazarlara çıxışına şərait yaratmaqla, biznes mühitinin yaxşılaşdırılmasına dəstək verməklə və mü-

təmadi olaraq biznes forumların keçirilməsi yolu ilə iqtisadi artıma yardımçı olmağa razılıq verdi.

Bu Bəyannamədə, biz eyni zamanda, ikitərəfli iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün sərmayələrin vacibliyini qeyd etdik. Vədimiz odur ki, biz əlaqələri, beynəlxalq və regional təhlükəsizlik baxımından təcrübə mübadiləsini mütəmadi davam etdirəcəyik.

İqtisadi əməkdaşlıq Latviya və Azərbaycan arasındakı ikitərəfli əlaqələrdə ən mühüm amillərdən biridir. Biz ötən bir neçə il ərzində, bu əlaqələrdə müsbət inkişaf dinamikasının şahidi olduq. Misal üçün, 2009-cu ilin eyni dövrü ilə müqayisədə, 2010-cu ilin ilk üç rübündə Azərbaycan və Latviya arasında olan ticarət dövriyyəsi 10 faiz artmışdır. Son 5 il ərzində isə ölkələrimiz arasında ticarət dövriyyəsi 81 faizədək artmışdır. Bu, böyük nailiyyətdir. Lakin, eyni zamanda, o da aydın görünür ki, bu sahənin daha da inkişaf etdirilməsi üçün böyük potensial vardır. Mən ölkələrimiz arasında səmimi dostluğu, həmçinin iqtisadi, sosial və mədəniyyət sahələrində uğurlu əməkdaşlığı yüksək qiymətləndirirəm.

Latviya, son 20 il ərzində Avropa İttifaqına və NATO-ya daxil olmaq üçün böyük işlər görüb. Mən həqiqətən fəxr edirəm ki, bizim üzv ölkə olmağımız, həmin təşkilatlar ilə Azərbaycan arasında olan etibarlı tərəfdaşlıq ölkələrimiz və regionlarımızın əməkdaşlığı üçün daha da geniş imkanlar açır.

Deyə bilərəm ki, islahatların aparılmasında bizim təcrübəmiz, bu sahədə olan nailiyyət və uğursuzluqlarımız Latviyanın ən dəyərli ixracat məhsullarından biri olmuşdur. Biz Azərbaycanın islahat səylərində bilik və təcrübəmizi təklif etməyə də hazırıq.

İqtisadi əməkdaşlıq baxımından Latviya və Azərbaycan arasında elə xüsusi sahələr var ki, onlar çox vədedicidir. Bunların arasında Latviyanın yüksək səviyyədə inkişaf etmiş kimya, əczaçılıq və informasiya texnologiyaları, həmçinin ərzaq sənayesi və maliyyə sektorları vardır. Eyni zamanda, tikinti, metal emalı, enerji, elektronika, nəqliyyat və logistika, o cümlədən təhsil sahələrində böyük biznes əlaqələrinin qurulması üçün geniş imkanlar mövcuddur.

İcazə verin, iki misal çəkim. İnformasiya texnologiyalarına gəldikdə, biz dilçilik texnologiyaları sahəsində Azərbaycanla əməkdaşlığımızı genişləndirmək imkanlarını görürük. Beləliklə, informasiya-kommunikasiya texnologiyaları və həll variantlarına gəldikdə, milli dildən istifadəni təşviq etmiş oluruq. Biz uğurla başlamış bu sahədəki əməkdaşlıqdan məmnunuq və dilçilik texnologiyalarının inkişaf etdirilməsində Latviyanın İnformasiya Texnologiyaları Mərkəzi ilə onun "Language Shore" təşəbbüsü əsasında işin aparılması üçün böyük potensialı görürük.

Ölkələrimizin iş adamları arasında əməkdaşlıq üçün olduqca perspektivli digər istiqamət bank və sığorta sektorunun kompyuterləşdirilməsidir. Latviya bu baxımdan təqdim oluna biləcək həll variantlarını inkişaf etdirib.

Ərzaq ixracı sahəsində məhsulların çatdırılması və paylanmasında ən münasib yolların araşdırılması baxımından daha fəal əməkdaşlıq etmək üçün, həmçinin böyük potensial mövcuddur. Ümid edirəm ki, Latviyada istehsal olunan çox ləziz ərzaq malları haqqında Siz daha dolğun məlumatı əldə edəcəksiniz.

Xanımlar və cənablar, Latviya hökuməti ölkəmiz ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün bütün zəruri dəstəyi göstərməyə hazırdır. Bu gün bizimlə olan iş adamlarından ibarət geniş nümayəndə heyəti öz aralarında əlaqələrin qurulması və inkişaf etdirilməsində maraqlı olduğunu təsdiq edir.

Biznes forum iştirakçılarına müraciət edərək bildirmək istərdim ki, Latviya Azərbaycanın iş adamlarının Latviyada sərmayə yatırmalarında maraqlıdır və təqdim etdiyimiz imkanlardan istifadə edilməlidir. Məsələn, təhlükəsiz biznes mühiti, coğrafi mövqeyimiz, keyfiyyətli işçi qüvvəsi, innovasiya baxımından yüksək səviyyəli potensial və Avropa İttifaqının ümumi bazarının bir hissəsi olmağımız faktını qeyd etmək olar.

Baltik dənizi regionu yüksək texnologiyalar, innovasiyalar və elm baxımından Avropa İttifaqında ən inkişaf etmiş regionlardan biridir. Riqa iqtisadiyyatı və inkişafı əks etdirən əsas şəhərlər sırasındadır. Latviya və Riqanın coğrafi üstünlükləri, eləcə də Baltik dəniz regionunda artan iqtisadi potensialımız cəlbedici sərmayə mühitinin olmasını nümayiş etdirir.

Sürətli tənəzzüldən sonra Latviyanın iqtisadiyyatı son il ərzində iqtisadi inkişaf və biznes mühiti baxımından bir sıra göstəricilərini yaxşılaşdırmışdır. İcazə verin qeyd edim ki, ən yüksək artım ixrac sektorunda müşahidə olunur. Bu sahədəki göstəricilər bir neçə rüb ərzində yüksələn xətlə artmışdır. Bu, onu göstərir ki, şirkətlərimiz və sənayemiz məhsuldarlıqda gözəçarpan artımı təmin etmək məqsədi ilə yenidən strukturlaşma işləri aparmışlar.

Dünya Bankının "Doing Business" hesabatındakı reytinqdə Latviya biznes inkişafı baxımından ən uğurlu ölkələr sırasında olaraq 24-cü yeri tutur. Son il ərzində biz üç pillə qalxmışıq. Latviya bütün Avropa İttifaqında ən aşağı korporativ vergiləri təmin edən ölkələr sırasında olmasından qürur hissi duyur. Korporativ gəlir vergisinin səviyyəsi 10 faizdən aşağıdır. Bütün bunlar onu göstərir ki, Latviyada xarici sərmayələr və istehsalatın inkişafı üçün münbit şərait vardır.

Xanımlar və cənablar, bugünkü biznes forumu alqışlayır və bu tədbiri ölkələrimizin iş adamları arasında qarşılıqlı əlaqələrin dərinləşməsi üçün fürsət kimi görürəm. Eyni zamanda, ümidvar olduğumu qeyd etmək istəyirəm ki, Latviyanın Sərmayə və İnkişaf Agentliyi ilə Azərbaycanda İnvestisiyaların və İxracın Təşviqi Fondu arasında səmərəli əməkdaşlıq davam və inkişaf edəcəkdir.

Latviya iş adamları nailiyyətlərini əldə etdiyi təqdirdə bundan çox məmnun olar və əminik ki, biz biznes və sərmayə üçün daha münbit şəraiti inkişaf etdirəcəyik. Xanımlar və cənablar, sizə uğurlar arzulayıram. Ümid edirəm ki, siz ölkəmdə, Latviyada biznesin inkişaf etdirilməsi üçün yeni imkanlar tapacaqsınız.

* * *

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən ilk növbədə, biznes forumun bütün iştirakçılarını səmimi qəlbdən salamlayıram!

Hesab edirəm ki, bugünkü tədbir çox əhəmiyyətlidir. Artıq Latviya-Azərbaycan biznes forumlarının keçirilməsi gözəl ənənəyə çevrilibdir. Birinci dəfə deyil ki, ölkələrimizin iş adamları bir araya gəlirlər. Görünür, qarşılıqlı maraq o qədər böyükdür ki, biznes forumların mütəmadi qaydada keçirilməsi artıq reallığa çevrilibdir.

Həqiqətən qarşılıqlı maraq böyükdür. Baxmayaraq ki, Latviya ilə Azərbaycan arasında iqtisadi əlaqələr hazırda bizi qane etmir və bu gün biz cənab Prezidentlə bu barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, potensial daha da güclüdür. Ancaq bugünkü siyasi əlaqələr və iki ölkə arasında inkişafda olan əməkdaşlıq meyilləri biznes sahəsində inkişafa da gözəl şərait yaradır.

Biz çalışmalıyıq ki, aramızdakı əlaqələr çoxşaxəli olsun, bütün sahələri əhatə etsin, o cümlədən iqtisadi sahədə daha da böyük işlərin görülməsi üçün yaxşı imkanlar vardır.

Bu gün Latviya ilə Azərbaycan arasında çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Birgə Bəyannaməni xüsusilə qeyd etmək istəyirəm. Bəyannamədə əks olunan məsələlər münasibətlərimizin perspektivlərini müəyyən edir və niyyətimizi ifadə edir. Bu gün, bütövlükdə mənim Latviyaya ikinci səfərim zamanı çox faydalı danışıqlar, geniş fikir mübadiləsi aparılmışdır. Əminəm ki, bu səfər iki ölkə arasındakı münasibətlərə güclü təkan verəcəkdir.

Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkədir. Son illər ərzində iqtisadiyyatımız dünyada ən yüksək templərlə inkişaf etmişdir. Son 7 ildə Azərbaycanda ümumi daxili məhsul təxminən 3 dəfə artmışdır, yoxsulluq 4-5 dəfə azalmışdır, ölkəmizdə 900 mindən artıq yeni iş yeri açılmışdır, ölkə iqtisadiyyatına çox güclü təkan verilmişdir, Azərbaycana investisiyalar cəlb olunur. Təkcə keçən il ölkəmizə 15,5 milyard dollar sərmayə qoyulmuşdur. Onun böyük hissəsi artıq daxili sərmayələrdir. Azərbaycan şirkətləri və Azərbaycan dövləti tərəfindən 9 milyarddan çox vəsait qoyulmuşdur.

Ölkəmizdə çox əlverişli investisiya mühiti vardır. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Dünya İqtisadi Forumunun hesablamalarına görə, rəqabət qabiliyyətliliyinə görə yenə də Azərbaycan MDB məkanında birinci yerdədir. Yəni biz çalışırıq ki, iqtisadi islahatlarımız ölkəmizin hərtərəfli inkişafına xidmət etsin.

Bu gün biz iqtisadiyyatımızın şaxələndirilməsini təmin etmək üçün çox böyük səylər qoyuruq və bu səylər özünü göstərir. Energetika, neft-qaz sənayesi iqtisadiyyatımızın əsas sektorudur. Baxmayaraq ki, 2009-cu ildə dünyada neftin qiyməti demək olar ki, 4-5 dəfə aşağı düşmüşdür, Azərbaycan iqtisadiyyatı 9,3 faiz artmışdır. Bu artımın əsas səbəbi əvvəlki illərdə aparılan islahatlardır və qeyri-neft sektoruna, infrastruktur layihələrinə qoyulmuş vəsaitdir. Keçən il Azərbaycanda yenə də iqtisadi inkişaf müşahidə olunmuşdur, iqtisadiyyatımız 5 faiz artmışdır. Əminəm ki, bu gözəl meyillər növbəti illərdə daha da güclənəcəkdir.

Mən hesab edirəm ki, bu tərkibdə görüşlər çox böyük məna daşıyır. Çünki mövcud layihələr yenə də nəzərdən keçirilir. Gündəliklə tanış olarkən gördüm ki, Azərbaycanda icrada olan və icrasını gözləyən layihələr burada təqdim edildi. Biz Azərbaycanda yeni sahələrin fəaliyyəti üçün çox böyük səylər göstəririk. Bizim üçün ənənəvi olmayan sahələrə çox böyük diqqət göstəririk. Cənab Prezident Zatlers qeyd etdi ki, əməkdaşlığımızın perspektivli sahəsi olan informasiya-kommunikasiya texnologiyaları sahəsində Latviyanın çox böyük uğurları vardır. Azərbaycan da bu istiqamətdə çox vacib addımlar atır və İKT-nin inkişafına görə yenə də MDB məkanında birinci sıralardadır.

Biz artıq Azərbaycanda kosmik sənayenin inkişafına başlamışıq. İki ildən sonra Azərbaycanın birinci süni peyki orbitə çıxarılacaqdır. Beləliklə, bundan sonrakı tədbirlər nəticəsində Azərbaycanda ənənəvi olmayan kosmik sənayenin yaranması mümkün olacaqdır.

Biz ölkəmizdə geniş modernləşdirmə siyasəti aparırıq. Bu siyasət bizə imkan verəcək ki, enerji resurslarından daha da az asılı olaq. Bizim əsas məqsədimiz güclü, dayanıqlı, uzunmüddətli iqtisadi inkişafı təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, Azərbaycanda sosial məsələlərin həlli üçün bütün lazımi tədbirləri görməkdir. Bu məqsədlə ölkəmizin müxtəlif sahələrinə dövlət tərəfindən böyük investisiyalar qoyulur. Mən hesab edirəm ki, Latviya iş adamları bu imkanlardan da istifadə edə bilərlər. Bizim investisiya portfelimiz çox böyükdür və Latviya iş adamları təcrübəsini müxtəlif inşaat sahələrində təqdim edə bilərlər.

Eyni zamanda, Azərbaycan investisiyalar üçün də çox əlverişli ölkədir və biz Latviyadan investisiyaları gözləyirik. Əminəm ki, bu investisiyalar daha da böyük həcmlə ölçüləcək, Azərbaycan isə öz tərəfindən xarici ölkələrə böyük həcmdə investisiyalar qoymağa başlamışdır. Son bir neçə il ərzində qonşu ölkələrə bir neçə milyard dollar Azərbaycan investisiyaları qoyulubdur və bu proses davam etdirilir. Biz maraqlıyıq ki, bizim üçün dost olan ölkələrlə investisiya layihələri əsasında əməkdaşlığımızı gücləndirək.

Bizim üçün ənənəvi olan energetika sektoru Azərbaycanda sürətlə inkişaf edir. Keçən il Azərbaycanda 51 milyon ton neft və 27 milyard kubmetr qaz hasil olunmuşdur ki, bunların böyük hissəsi dünya bazarlarına ixrac edilmişdir. Bir neçə gün bundan əvvəl Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sektoruna dair çox vacib bəyannamə imzalanmışdır. Bu bəyannamənin Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlığa da çox böyük təsiri olacaqdır. Bütövlükdə, Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlər çox sağlam təməl üzərində qurulubdur. Bu, qarşılıqlı maraqlar, qarşılıqlı hörmət üzərində qurulmuş münasibətlərdir. Əlbəttə ki, Latviya Azərbaycan üçün dost ölkə kimi Avropa İttifaqı-Azərbaycan əlaqələrinə də öz dəyərli töhfəsini verir. Biz hər zaman Latviyanın bu sahədəki fəaliyyətini qeyd etmişik və bunu bu gün də qeyd edirik. Şübhə yox ki, növbəti illərdə Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlər daha da güclənəcək, daha da çox sahəni əhatə edəcək və beləliklə Azərbaycan Avropaya daha da yaxınlaşacaqdır. Biz bunu istəyirik və hesab edirik ki, hər iki tərəfin bir-birinin maraqlarına töhfə verə biləcək məsələlər, amillər kifayət qədərdir, sadəcə olaraq, bütün bu işləri vaxtında və düzgün həll etməliyik.

Dünyanı bürümüş iqtisadi və maliyyə böhranı əlbəttə ki, hər bir ölkəyə öz mənfi təsirini göstərmişdir, o cümlədən Azərbaycana. Amma biz çalışmışdıq ki, bu böhranın əhaliyə təsirini minimum səviyyəyə endirək. Deyə bilərəm ki, nə 2009-cu ildə, nə də 2010-cu ildə Azərbaycan əhalisi bu böhranın acı nəticələrini hiss etmədi. Bizim milli valyutamızın - manatın məzənnəsi sabit olaraq qalırdı. Valyuta ehtiyatlarımız keçən il daha da artdı. Bu gün Azərbaycanın valyuta ehtiyatları 30 milyard dollara bərabərdir. Əlbəttə,

bu, böyük rəqəmdir və bizə imkan verir ki, özümüzü çox əmin hiss edək. İstənilən layihənin Azərbaycanda həyata keçirilməsi üçün beynəlxalq maliyyə qurumlarına müraciətimizə artıq ehtiyac qalmır. Azərbaycan yaxın gələcəkdə, eyni zamanda, beynəlxalq maliyyə təşkilatları ilə bərabər üçüncü ölkələrdə müxtəlif yardım proqramlarında da iştirak etməyə hazırdır.

Bizim regionlar bir-biri ilə demək olar ki, təzə-təzə əlaqə yaratmaqdadır. Xəzər hövzəsi və Baltik dənizi hövzəsində yerləşən ölkələr arasında ənənəvi olaraq münasibətlər yaxşı səviyyədə qurulmuşdur. İndiki şəraitdə bu münasibətlər yeni müstəvidədir və regional əməkdaşlıq üçün əlbəttə ki, nəqliyyat layihələri də böyük əhəmiyyət kəsb edir. Onların arasında Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisini xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan bu layihə üzərində öz qonşuları ilə işləyir. Ümid edirəm ki, iki ildən - bu dəmir yolu istismara verilməndən sonra Avropanı Asiya ilə birləşdirən yeni İpək Yolu fəaliyyətə başlayacaq və əlbəttə, həm Avropada, həm Asiyada yerləşən ölkələr bu işlərdən faydalanacaqlar. Qürur hissi ilə deyə bilərəm ki, uzun illər ərzində, sadəcə, müzakirə mövzusu olan bu layihə Azərbaycanın fəal səyləri nəticəsində həyata keçirilməyə başlanmışdır.

Mən bir daha qeyd etmək istəyirəm ki, hər bir iqtisadi təşəbbüs Azərbaycan tərəfindən çox yüksək qiymətləndirilir. Biz özümüz bölgədə müxtəlif iqtisadi və infrastruktur təşəbbüsləri ilə çıxış etmişik və bu gün bu təşəbbüslər reallaşıb, xüsusilə energetika və nəqliyyat sektorunda.

Latviya-Azərbaycan əlaqələrinə qayıdaraq qeyd etmək istəyirəm ki, bu əlaqələr çox möhkəmdir. Bizim güclü siyasi iradəmiz vardır. Siyasi maraqlar çox yüksək səviyyədədir və belə olan halda əlbəttə ki, iş adamları bu gözəl imkanlardan istifadə etməlidirlər. İnvestisiyalar dost ölkələrə qoyulur. İnvestisiyalar proqnozlaşdıra biləcək ölkələrə qoyulur. Bizim müttəfiqliyimiz və əməkdaşlığımız iş adamları üçün də hesab edirəm ki, çox gözəl dəstəkdir.

Mən bir daha biznes forumun bütün iştirakçılarını ürəkdən salamlayıram, latviyalı dostlarımıza, xüsusilə cənab Prezident Zatlersə bizə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu biznes forumun gələcəkdə çox gözəl nəticələri olacaqdır.

Sağ olun!

* * *

Tədbirdə Azərbaycan ilə Latviya arasında biznes və investisiyalar sahəsində əməkdaşlığa dair birgə sənədlər imzalandı.

Biznes forumda Azərbaycanın və Latviyanın iqtisadi inkişafı, investisiya imkanları və əməkdaşlıq potensialı barədə ətraflı məlumat verildi, müxtəlif layihələrin təqdimatları keçirildi.

Azərbaycan və Latviya prezidentləri tədbir çərçivəsində təşkil edilmiş sərgi ilə tanış oldular, hər iki ölkədə istehsal edilən müxtəlif növ məhsulların nümunələrinə baxdılar.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ

Yanvarın 17-də Riqada Latviya Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə çıxış etdilər.

LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN ÇIXIŞI

-Cənab Prezident!

Xanım Əliyeva!

Zati-aliləri, xanımlar və cənablar!

Mən və xanımım Azərbaycan Respublikasının Prezidentini və xanım Mehriban Əliyevanı Riqada qəbul etməkdən çox məmnunuq.

Mən 2009-cu ilin avqust ayında Sizin gözəl ölkənizə səfərimi məmnuniyyətlə xatırlayıram. Əminəm ki, bu səfər də Azərbaycan və Latviya müstəqilliyini bərpa etdikdən sonra 20 il ərzində ölkələrimiz arasında qurulmuş qarşılıqlı anlaşmanın davamlı təsdiqinə xidmət edəcəkdir.

Cənab Prezident və xanım Əliyeva, 1918-ci ildən başlanmış müstəqilliyin ilk mərhələsi Latviya və Azərbaycanın inkişafı üçün həlledici olmuşdur. Təəssüf ki, o dövr Azərbaycan üçün 2 ildən az müddət davam etmişdir. Lakin bu müddət parlamentarizm və demokratiya toxumlarının ölkənizdə səpilməsi üçün kifayət etmişdir. Azərbaycan islam dünyasında ilk parlamentli respublika olmuşdur və Sizin ölkəniz qadınlara hətta Böyük Britaniya və ABŞ-dan da əvvəl seçib-seçilmək hüququnu vermişdir. Bunlar bu gün Azərbaycanı demokratik dəyərlərə doğru aparan tarixi əhəmiyyətə malik hadisələrdir.

Latviya və Azərbaycan coğrafi cəhətdən strateji mövqeyə malikdirlər. Biz Qərblə Şərqin, Avropa ilə Asiyanın kəsişməsində yerləşirik. Bu yerləşmə heç də hər zaman bizim insanlar üçün rifah və əmin-amanlıq gətirmir. Lakin bu, xalqlarımızın ruh yüksəkliyini möhkəmləndirmiş və mədəniyyətimizi əsaslı şəkildə zənginləşdirmişdir.

Cənab Prezident və xanım Əliyeva, ötən 20 il ərzində Latviya Avropa İttifaqının və Şimali Atlantika Müqavilə Təşkilatının tam üzvü olmaq kimi strateji məqsədinə çatmaq üçün böyük işlər görmüşdür. Mən həqiqətən də fəxrlə bildirmək istəyirəm ki, bizim üzvlük statusumuz, habelə, Azərbaycanın bu təşkilatlarla sadiq tərəfdaşlığı ölkələrimiz və regionlarımız arasında əməkdaşlığa daha geniş imkanlar açmışdır.

Qısa müddət ərzində Latviya ümumi Avropa məkanına qoşulmada böyük işlər görmüşdür. Biz hətta deyə bilərik ki, islahatlar sahəsindəki təcrübəmiz, nailiyyətlərimiz və uğursuzluqlarımız bu cəhətdən Latviyanın ən dəyərli ixracat məhsullarından biri olmuşdur. Biz Azərbaycanda islahatlar istiqamətində göstərilən səylərə dəstək olaraq öz təcrübəmizlə bölüşməyə hazırıq.

Cənab Prezident, xanım Əliyeva, nümayəndə heyətlərimizin son bir neçə gün ərzində keçirdiyi konstruktiv müzakirələri alqışlayıram. Çünki bu müzakirələr ölkələrimizin qarşılıqlı maraqlarını nümayiş etdirmişdir.

Ölkələrimiz arasında mövcud olan təkmilləşdirilmiş hüquqi və müqavilə bazası, hər ikimizin imzaladığı Bəyannamə ölkələrimiz üçün gələcək əməkdaşlığın sahələrini açıq şəkildə nümayiş etdirir. Mən Latviya və Azərbaycan xalqlarının rifahının yüksəldilməsinə kömək edəcək iqtisadi əlaqələri xüsusi olaraq vurğulamaq istəyirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında daim artan ticarət dövriyyəsi ilə nəticələnən mövcud iqtisadi tərəfdaşlıq, eləcə də iki ölkənin biznes dairələrindən ibarət nümayəndə heyətləri üçün bu gün keçirilmiş biznes forum sayəsində Latviya ilə Azərbaycan arasında əməkdaşlıq əhəmiyyətli dərəcədə artacaqdır.

Cənab Prezident, xanım Əliyeva, icazənizlə öz adımdan və xanımımın adından bu badəni Latviya və Azərbaycan arasında dostluq və uğurlu əməkdaşlığın, xalqlarımızın gələcəyi və rifahı şərəfinə qaldırıram. Sizin sağlığınıza, cənab Prezident! Sizin sağlığınıza, xanım Əliyeva! Yaşasın Latviya! Yaşasın Azərbaycan!

* * *

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Hörmətli xanım Zatlere!

İlk öncə, nümayəndə heyətimiz adından Azərbaycan dilində söylədiyiniz sözlərə görə Sizə dərin minnətdarlığımızı bildirmək istərdim. Eyni zamanda, çox mürəkkəb Azərbaycan sözlərini belə ustalıqla tələffüz etməyiniz bizdə iftixar hissi yaratdı. Sizə söz vermək istəyirəm ki, növbəti görüşümüz zamanı, həmçinin mən də bir sıra sözləri latış dilində söyləyəcəyəm.

Hörmətli cənab Prezident!

Hörmətli xanım Zatlere! Xanımlar və cənablar!

İlk növbədə mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm. Zəngin tarixi və mədəniyyəti, füsunkar təbiəti ilə seçilən dost ölkənizi ikinci dəfə ziyarət etməyimdən çox məmnunam.

Son altı ildə Azərbaycan Respublikasının və Latviya Respublikasının prezidentləri yeddinci dəfədir ki, görüşürlər. Bu, ölkələrimiz və xalqlarımız arasında mövcud olan sıx münasibətlərin əyani göstəricisidir.

Sizin 2009-cu ildə Azərbaycana etdiyiniz səfər ölkələrimiz arasındakı əlaqələrin yeni müstəviyə keçməsində mühüm rol oynamışdır. Azərbaycan ilə Latviya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Lakin iqtisadi əlaqələrimizin bügünkü göstəriciləri ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi arzu olunan səviyyədə deyildir. Biz Latviya ilə əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıyıq.

Cənab Prezident, ümid edirəm ki, bu gün Sizinlə qarşılıqlı maraq doğuran məsələlər ətrafında apardığımız fikir mübadiləsi, əldə olunmuş razılaşmalar, imzalanmış sənədlər,

Birgə Bəyannamə və keçirilən biznes forum ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına yeni təkan verəcəkdir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Latviya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına xüsusi önəm verən ölkələrdəndir.

"Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində qarşılıqlı fəaliyyətimiz faydalıdır və Azərbaycanı Avropa ailəsinə daha da yaxınlaşdıracaqdır.

Azərbaycan ilə Latviya arasında əlaqələrin tarixi kökləri vardır. Ötən əsrlərdə Latviyanın bir çox nümayəndələri - diplomat Antons Balodis, rəssam Yanis Yaunsudrabinş, yazıçılar Ernest Birzniyek-Upits, Pavlis Rozitis, Sudrabu Edjus, Yanis Vanyuskis və Avqust Arays Berts uzun illər Azərbaycanda yaşayıb yaratmışlar.

İnanıram ki, burada yaşayan, Latviya vətəndaşları olan soydaşlarımız ölkənizin həyatında fəal iştirak edir, onun inkişafına, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına dəyərli töhfə verir və bundan sonra da bu missiyanı davam etdirəcəklər.

Ötən illər ərzində Azərbaycanda çox uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirilmişdir. Bunun nəticəsi olaraq son 7 ildə ölkədə ümumi daxili məhsul təxminən 3 dəfə, maaşlar və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluğun səviyyəsi 4-5 dəfə azalmış, ölkəmizə 82 milyard dollar həcmində sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Azərbaycan zəngin təbii resurslara malikdir. Neft ehtiyatları ilə yanaşı, Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş qaz ehtiyatları 2,2 trilyon kubmetrdən artıqdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Hazırda Azərbaycanın enerji ehtiyatlarını müxtəlif istiqamətlərə nəql edən neft və qaz boru kəmərləri çəkilmişdir. Ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsinə mühüm əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün öz töhfəsini verməyə hazırdır.

Bütün bunlarla bərabər, Azərbaycanın ən ağrılı problemi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi, Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon işğal olunmuşdur. Bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Münaqişə ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi, o cümlədən BMT-nin Baş Məclisi, ATƏT, Avropa Şurası, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qərarları yerinə yetirilməlidir. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Latviyaya səfər etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayır, bu badəni Sizin və xanımınızın şərəfinə, Latviya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

* * *

Latviya Respublikasının dövlət himni səsləndi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYANIN BAŞ NAZİRİ VALDİS DOMBROVSKİS İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 17-də Riqada Latviyanın Baş naziri Valdis Dombrovskis ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Latviya arasında iqtisadi əməkdaşlığın, müxtəlif sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə müzakirələr aparıldı.

Energetika, qarşılıqlı investisiyaların qoyuluşu, ticarət dövriyyəsinin artırılması üçün imkanların araşdırılması önəminin vurğulandığı görüşdə iqtisadi əməkdaşlığın genişləndirilməsində hökumətlərarası komissiyanın işinin vacibliyi qeyd olundu.

Azərbaycan ilə Latviya arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensialın və geniş imkanların olduğu vurğulanan görüşdə bu əlaqələrin gələcəkdə möhkəmlənəcəyinə əminlik ifadə edildi.

Səfər başa çatdı

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Riqanın Beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hava limanında Prezident İlham Əliyevi Latviyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

* * *

Həmin gün dövlətimizin başçısı Vətənə qayıtdı.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevi Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ

cənab Mahinda Racapaksaya

Hörmətli cənab Prezident,

Milli bayramınız - Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasında yaranmış dostluq münasibətlərinin inkişafı əməkdaşlığımızın genişləndirilməsi üçün yeni imkanlar açacaqdır.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və tərəqqi diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 yanvar 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Xarici işlər naziri Qriqol Vaşadze Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişaf etdiyi vurğulandı, Azərbaycan ilə Gürcüstanın enerji layihələrində uğurlu əməkdaşlıq həyata keçirdiyi qeyd olundu. Söhbət zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Prezident Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI NECDET ÖZELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş komandanı, ordu generalı Necdet Özelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş komandanı, ordu generalı Necdet Özel yeni vəzifəyə təyin olunduqdan sonra ilk xarici səfərini dost və qardaş Azərbaycana etdiyini vurğulayaraq Azərbaycanı ikinci vətən saydıqlarını dedi. O, Türkiyədə gənc nəslin də bu ruhda yetişməsinə çalışdıqlarını bildirdi. Necdet Özel səfər zamanı əməkdaşlığımızın inkişafına dair çox yaxşı müzakirələr apardıqlarını da qeyd etdi.

Dövlətimizin başçısı Türkiyənin yüksək rütbəli rəsmilərinin ilk xarici səfərlərini Azərbaycana etməsinin artıq yaxşı bir ənənə halını aldığını dedi. Ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin insanlar arasında da özünü büruzə verməsindən məmnun olduğunu deyən Prezident İlham Əliyev hər iki ölkə rəsmilərinin sıx əlaqələrinin yaradılmasının vacibliyini bildirdi. Necdet Özelin Azərbaycana səfərinin ölkəmizi yaxından tanımaq üçün yaxşı imkan yaratdığını qeyd edən dövlətimizin başçısı qonağın azərbaycanlı həmkarları ilə səmərəli əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etdi.

PREZİDENT İLHAM ƏLİYEV İSVEÇRƏNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da İsveçrənin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Sabine Ulmann Şaba-

nın etimadnaməsini qəbul etmişdir.

Səfir Sabine Ulmann Şaban fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Xanım Sabine Ulmann Şaban etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə İsveçrə arasında əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğulayaraq bildirdi ki, ölkəmiz bu əməkdaşlığı bir çox sahələrdə genişləndirmək əzmindədir.

Azərbaycan ilə İsveçrə arasında əlaqələrin yaxşı səviyyədə olması ilə bağlı dövlətimizin başçısının dediyi fikirləri təsdiqləyən səfir müxtəlif səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin ölkələrimiz üçün əhəmiyyətini vurğuladı. Xanım Sabine Ulmann Şaban əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsinin önəmli olduğunu bildirdi.

Son illər ərzində münasibətlərimizin dinamik şəkildə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı iki ölkə arasında əlaqələrin tərəfdaşlıq xarakteri aldığını dedi və prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Azərbaycandakı diplomatik fəaliyyəti müddətində əlaqələrimizin uğurla inkişaf edəcəyinə əminliyini bildirən Prezident İlham Əliyev səfirə işində uğurlar arzuladı.

PREZİDENT İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Türkmənistanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Toyli Komekovun etimadnaməsini qəbul etmişdir.

Səfir Toyli Komekov fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Toyli Komekov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında fəal əməkdaşlığın həyata keçirildiyini, siyasi münasibətlərimizin yaxşı səviyyədə olduğunu, iqtisadi sahədə əlaqələrin inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin dinamizminin bundan sonra da qorunacağına, dost və qardaş xalqlarımız arasında münasibətlərin gündəliyinin genişlənəcəyinə və bu münasibətlərin daha da irəli gedəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Toyli Komekovun Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi və səfirə fəaliyyətində uğurlar arzuladı.

Səfir Toyli Komekov Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Toyli Komekov səfir kimi Azərbaycanda fəaliyyətə başlamasından şərəf hissi duyduğunu bildirdi. O, əvvəllər Xəzər məsələsi ilə bağlı azərbaycanlı həmkarları ilə Bakıda çalışdıqlarına toxunaraq Azərbaycanın sədrliyi ilə Xəzəryanı ölkələrin Bakı sammitinin yüksək səviyyədə təşkil olunduğunu və bu sammitdə imzalanan hüquqi sənədin əhəmiyyətini xüsusi vurğuladı.

Dövlətimizin başçısı Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

QANLI YANVAR FACİƏSİNİN 21-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ÜMUMXALQ ZİYARƏTİ

Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir

1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. Düz 21 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 21 il keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin açıq-aşkar dəstəklənməsinə və o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı sərişтəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən tutmaqda davam etdilər.

Onların əksinə olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Lakin ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ, Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il Ümumxalq Hüzn Günündə 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Hər il olduğu kimi, Azərbaycan Prezidenti Administrasiyası tərəfindən Qanlı Yanvar faciəsinin iyirmi birinci ildönümü ilə əlaqədar da geniş tədbirlər planı hazırlanmış, respublikanın bütün şəhər və rayonlarında, xarici ölkələrdəki səfirliklərimizdə, diaspor təşkilatlarında anma mərasimləri keçirilmişdir. Ümumdövlət və ümumxalq ehtiramı sübut edir ki, şəhidlər ölməzdir. Bu ölməzlik müstəqilliyimizdə, birliyimizdə və xoşbəxt gələcəyimizdə yaşayır.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞININ ÖLKƏMİZDƏKİ SƏFİRİ FİLİP JOTTARDI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Filip Jottardı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu yaxınlarda Belçika Krallığının keçmiş Baş naziri Herman Van Rompey ilə görüşünü və Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığı ilə bağlı onunla apardığı müzakirələri xatırladı. Ölkələrimiz arasında əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirən dövlətimizin başçısı Azərbaycan ilə Belçika Krallığı arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə verdiyi töhfəyə görə səfirə təşəkkürünü bildirdi.

Səfir ölkələrimiz arasında həm siyasi, həm də iqtisadi sahədə əlaqələri inkişaf etdirmək üçün böyük potensialın olduğunu vurğuladı. O, Azərbaycandakı diplomatik fəaliyyəti dövrünün çox maraqlı illərə təsadüf etdiyini dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ RƏŞİD CAVANŞİRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də "bp-Azərbaycan" şirkətinin prezidenti Rəşid Cavanşiri qəbul etmişdir.

Görüşdə bp şirkətinin Azərbaycanda fəaliyyəti, "Şahdəniz-2" yatağında işlərin uğurlu icrası ilə bağlı məsələlər müzakirə edildi, Azərbaycan Dövlət Neft Şirkəti ilə bp şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Dövlətimizin başçısı Rusiya Prezidenti Administrasiyası rəhbərinin ölkəmizdəki bütün görüşlərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi. Bu il Bakı Beynəlxalq Humanitar Forumuna hazırlıq mərhələsində işləri daha da aktivləşdirməyin zəruriliyini vurğulayan Prezident İlham Əliyev Forumun yeni statusda keçiriləcəyini dedi. Bu tədbirlərin təkcə Rusiya-Azərbaycan deyil, həm də beynəlxalq xarakter daşıyacağını deyən dövlətimizin başçısı bu prosesin əsasının Azərbaycan və Rusiya tərəfindən qoyulduğunu, ölkələrimizin təsisçi və təşəbbüskar ölkələr olduğunu qeyd etdi. Azərbaycan ilə Rusiya arasında münasibətlərin geniş sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevlə görüşlərinin önəmini vurğuladı, bu görüşlərdə əlaqələrimizin inkişafı ilə bağlı bütün məsələlərin operativ və konstruktiv şəkildə həll edildiyini bildirdi. Prezident İlham Əliyev Rusiya Prezidentinin ölkəmizə son səfəri çərçivəsində bir sıra mühüm razılıqların əldə edildiyini dedi. Xəzəryanı ölkələrin Bakı sammitinin çox yüksək səviyyədə keçirildiyini deyən dövlətimizin başçısı regional məsələlərdə də ölkələrimiz arasında tam qarşılıqlı anlaşmanın olduğunu vurğuladı. Prezident İlham Əliyev Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinin ölkəmizə səfərinin 2011-ci ildə ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyini dedi.

Sergey Narışkin Rusiya Prezidenti Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasında əməkdaşlığa toxunan Sergey Narışkin yüksək səviyyəli əməkdaşlığın iqtisadi və siyasi sahələrdə böyük perspektivə malik olduğunu dedi. Rusiya ilə Azərbaycan arasında humanitar sahədə də geniş proqramın həyata keçirildiyini bildirən Sergey Narışkin Azərbaycan Prezidentinin rəhbərliyi ilə keçirilən və artıq beynəlxalq Foruma çevrilən bu tədbirin nəinki ikitərəfli, hətta çoxtərəfli münasibətlərimizin formatında böyük hadisə olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Rusiya Prezidenti Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ TANER YILDIZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Türkiyə Respublikasının enerji və təbii ehtiyatlar naziri, birgə hökumətlərarası Komissiyanın həmsədri Taner Yıldızın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə birgə hökumətlərarası komissiyanın iclasının əhəmiyyətini vurğuladı. Bu yaxınlarda İstanbulda Türkiyənin Prezidenti Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanla səmərəli görüşlər keçirdiyini xatırlayan Prezident İlham Əliyev Türkiyənin enerji və təbii ehtiyatlar naziri, birgə hökumətlərarası Komissiyanın həmsədri Taner Yıldızın ölkəmizə səfərinin önəmli olduğunu vurğuladı. Ölkələrimiz arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini deyən Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafına dair bir çox məsələlərin birgə komissiyada müzakirə ediləcəyinə və həllini tapacağına əminliyini bildirdi.

Türkiyənin enerji və təbii ehtiyatlar naziri, birgə hökumətlərarası Komissiyanın həmsədri Taner Yıldız Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, böyük bir heyətlə ölkəmizə səfər etdiklərini, əlaqələrimizin daha da inkişaf etdirilməsi istiqamətində bir çox məsələlərlə bağlı birgə müzakirələr aparacaqlarını dedi. Taner Yıldız Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu məsələlərin həll olunacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında birliyin gündən-günə möhkəmləndiyini və bunun bölgəyə də müsbət təsir göstərdiyini dedi. Ölkələrimizin gələcəkdə də bütün məsələlərlə bağlı bərabər mövqe nümayiş etdirməsinin zəruriliyini bildirən Prezident İlham Əliyev Azərbaycanla Türkiyənin maraqlarının həm dünya miqyasında, həm də bölgədə eyni olduğunu dedi. Azərbaycan-Türkiyə dostluğunun daha da möhkəmləndiyini, qardaşlığımızın əbədi olduğunu vurğulayan dövlətimizin başçısı bu təməl üzərində qurulan əlaqələrin bizi gələcəyə aparacağına əminliyini bildirdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında qaz sahəsində gələcək əməkdaşlığın perspektivləri müzakirə edildi, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan layihələrinin uğurlu fəaliyyətindən danışıldı. Görüş zamanı Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin önəmi vurğulanaraq 2011-ci ildə Azərbaycanın bu layihəyə əlavə vəsait ayırdığı qeyd olundu. Söhbət zamanı elektrik enerjisi sahəsində əməkdaşlıq məsələlərinə toxunularaq Türkiyə-Gürcüstan-Azərbaycan elektrik xətlərinin birləşdirilməsi layihəsi və gələcəkdə Türkiyəyə elektrik enerjisinin ixracı məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun bu yaxınlarda ölkəmizə səfərinin Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin daha da inkişafı baxımından önəmi qeyd olunmuş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç!

"Domodedovo" aeroportunda törədilmiş terror aktı nəticəsində çoxlu insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Biz terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 24 yanvar 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ

Prezident İlham Əliyev İsveçrəyə işgüzar səfərə yola düşmüşdür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 26-da İsveçrəyə işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

PREZİDENT İLHAM ƏLİYEV İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.

Prezident İlham Əliyev Sürixdən Davos şəhərinə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "SK GROUP" ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ ÇEY TAE-VON İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 26-da Davosda "SK Group" şirkətlər qrupunun sədri Çey Tae-von ilə görüşmüşdür.

Görüşdə "SK Group" şirkətlər qrupunun sədri Çey Tae-von rəhbərlik etdiyi qurumun hazırkı fəaliyyəti, perspektivləri barədə dövlətimizin başçısına məlumat verdi. Çey Tae-von rəhbərlik etdiyi şirkətlər qrupuna daxil olan qurumun Bakıda nəqliyyatın intellektual idarəetmə sistemi ilə bağlı fəaliyyət göstərdiyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev Koreya Respublikasına səfərini məmnunluqla xatırlayaraq səfər çərçivəsində nəqliyyatın intellektual idarəetmə sistemi ilə bağlı aparılan danışıqların nəticəsi kimi artıq bu layihənin yaxın vaxtlarda Azərbaycanda tətbiq ediləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Koreya Respublikasının və Azərbaycan Respublikasının şirkətləri arasında fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı, bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi.

Qeyd edək ki, "SK Group" şirkətlər qrupu 1953-cü ildə yaradılmışdır. Bu şirkət özündə 92 fəaliyyət sahəsini birləşdirir və sənaye, kimya, rabitə, informasiya texnologiyaları, tikinti və digər sektorlarda iri layihələr həyata keçirir. Şirkətin müxtəlif ölkələrdə 113 ofisi fəaliyyət göstərir. Həmin ofislərdə 300 mindən çox insan çalışır. Təkcə 2009-cu ildə şirkətin 80 milyard dollara yaxın ümumi gəlirləri olmuşdur.

PREZİDENT İLHAM ƏLİYEVİN "STATOİL ASA" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Statoil ASA" şirkətinin prezidenti və baş icraçı direktoru Helge Lund ilə görüşmüşdür.

"Statoil ASA" şirkətinin prezidenti və baş icraçı direktoru Helge Lund Azərbaycan ilə rəhbərlik etdiyi şirkətin uzun illərdir uğurlu əməkdaşlıq həyata keçirməsini vurğulayaraq, bu əməkdaşlığın dərinləşməsi işinə Azərbaycan Prezidentinin şəxsən verdiyi töhfəni yüksək qiymətləndirdi.

"Azərbaycan ilə əməkdaşlıq bizim strategiyamızın ən prioritet sahələrindən biridir",- deyən Helge Lund ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə "Statoil" arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Prezident İlham Əliyev "Statoil"in "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun istismarındakı iştirakını və ölkəmizə investisiya qoyuluşu istiqamətində həyata keçirdiyi işləri yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə "Statoil" şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "HUAWEİ TECHNOLOGİES" KORPORASİYASININ SƏDRİ XANIM SUN YAFANQ İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Huawei Technologies" Korporasiyasının sədri xanım Sun Yafanq ilə görüşmüşdür.

"Huawei Technologies" Korporasiyasının sədri xanım Sun Yafanq rəhbərlik etdiyi şirkətin Azərbaycan ilə uzunmüddətli əməkdaşlıqda maraqlı olduğunu bildirdi. Qeyd etdi ki, bu şirkət hazırda Azərbaycan ilə müəyyən sahələrdə fəal əməkdaşlıq qurmuşdur. O, mobil rabitə, internet və informasiya-kommunikasiya texnologiyaları sahəsində "Huawei Technologies" Korporasiyasının Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu bildirdi.

Dövlətimizin başçısı şirkətin Azərbaycan ilə fəal işləməsindən və sonuncu "Bakutel" sərgisində də iştirak etməsindən məmnun olduğunu dedi. Prezident İlham Əliyev "Huawei Technologies" Korporasiyasının Azərbaycanda fəaliyyətini genişləndirəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "TELİASONERA EURASİA" ŞİRKƏTİNİN PREZİDENTİ TERO KİVİSAARİ İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "TeliaSonera Eurasia" şirkətinin prezidenti Tero Kivisaari ilə görüşmüşdür.

Görüşdə "TeliaSonera Eurasia" şirkəti ilə Azərbaycan arasında fəal əməkdaşlığın qurulduğu və bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmi qeyd edildi. Tero Kivisaari onların Azərbaycandakı fəaliyyətini dəstəklədiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. Bildirildi ki, "TeliaSonera Eurasia" şirkəti Azərbaycanda əsasən informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa böyük önəm verir.

Görüşdə Azərbaycan ilə "TeliaSonera Eurasia" şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEVİN "EDİSON" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU UMBERTO KUADRİNO İLƏ GÖRÜŞÜ

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Edison" şirkətinin baş icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.

Görüşdə "Edison" şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında əməkdaşlıq, "Cənub dəhlizi" və Türkiyə-Yunanıstan-İtaliya qaz kəməri layihələri ilə bağlı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN "LUKOİL" ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞÜ

İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

yanvarın 27-də Davosda Rusiyanın "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.

Görüşdə "LUKoil" ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın və bu şirkətin ölkəmizə investisiya qoyuluşu istiqamətində uğurlu fəaliyyətinin olduğu vurğulandı.

Görüşdə Azərbaycan Dövlət Neft Şirkəti ilə "LUKoil" arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ REYİN GÖRÜŞÜ

Yanvarın 27-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi Reyin görüşü olmuşdur.

İsveçrə Prezidenti xanım Mişelin Kalmi Rey Azərbaycan ilə enerji sahəsində əməkdaşlığın ölkəsi üçün önəmini qeyd etdi. O, İsveçrənin Azərbaycanın müvafiq qurumları ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın ölkəsi üçün vacib tərəfdaş olduğunu bildirdi. Xanım Mişelin Kalmi Rey "Cənub dəhlizi"nin inkişafında Azərbaycanın rolunu xüsusi vurğulayaraq, İsveçrənin Trans-Adriatik boru kəmərinə maraq göstərdiyini və bu layihəni dəstəklədiklərini diqqətə çatdırdı.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın "Cənub dəhlizi"nə daxil olan layihələrə, o cümlədən Trans-Adriatik boru kəməri layihəsinə də dəstək verdiyini dedi.

Azərbaycan Prezidenti İlham Əliyev enerji sahəsində Avropa İttifaqı ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi və İsveçrənin "Cənub dəhlizi" layihələrinə maraq göstərməsindən razılığını bildirdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEV AVSTRİYA-İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ BİRGƏ NAHAR MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Yanvarın 27-də Davosda 41-ci Dünya İqtisadi Forumu çərçivəsində Avstriya-İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə nahar mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dünyanın məşhur siyasət və biznes dairələrinin nümayəndələrinin bir araya gəlmələri və fikir mübadiləsi aparmaları baxımından xüsusi əhəmiyyətə malik olan nahar mərasimində Azərbaycana maraq daha çox hiss edilirdi. Bu da ilk növbədə, son illərdə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əhəmiyyətinə, Azərbaycanın malik olduğu potensiala söykənir. Dövlətimizin başçısının mərasimdən əvvəl keçirdiyi görüşlər də Azərbaycanın iqtisadi nailiyyətlərinin dünyanın işgüzar dairələrinin diqqət mərkəzində olduğunu təsdiqləyir.

Mərasimdə çıxış edən Avstriyanın federal kansleri Verner Fayman, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Ukrayna Prezidenti Viktor Yanukoviç, OECD-nin baş katibi Angel Qurria və başqaları Dünya İqtisadi Forumunun mahiyyətinə diqqət çəkərək forumun iqtisadi-siyasi əlaqələrin qurulmasındakı əhəmiyyətindən danışdılar. Bildirildi ki, forumun gündəliyi genişdir və burada təmsil olunan dövlətlərin nümayəndələri müzakirələrə qatılaraq ölkələrində gedən proseslər, əldə olunan uğurlar barədə forum iştirakçılarına məlumat verirlər.

Tədbirin aparıcısı, Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə naziri Mixael Şpindeleqqer dövlətimizin başçısına müraciətlə dedi: İndi isə böyük şərəf hissi ilə Azərbaycan Prezidenti İlham Əliyevi çıxış etməyə dəvət edirəm. Mən özüm bu yaxınlarda Bakıya səfərim zamanı cənab Prezidentlə görüşmüş, Avstriya səfirliyinin açılışında iştirak etmişəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli xanımlar və cənablar!

İlk növbədə mən Avstriyadan olan həmkarlarımıza, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına bu mühüm tədbirdə iştirak etmək üçün dəvətə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bu gün aparacağımız səmimi danışıqlar və müzakirələr regionumuz haqqında daha çox təəssürat və anlayış yaradacaq. Baxmayaraq ki, Azərbaycan Mərkəzi Asiya regionunun deyil, Qafqazın bir hissəsidir, lakin biz çox yaxınıq, qonşuyuq. Uzun illər ərzində biz bir ölkədə yaşamışıq. Buna görə də bizim bir çox əlaqələrimiz, mədəni və iqtisadi bağlılığımız mövcuddur. İndi isə biz həmin ənənəvi əlaqələrin bərpası və regionda layihələrin daha səmərəli olması üzərində düşünürük.

Biz Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyadakı tərəfdaşlarımızla bir çox məsələlərlə bağlı sıx işləyirik. Biz enerji və nəqliyyat sahəsində çalışırıq. Azərbaycanın coğrafi mövqeyi çox əlverişlidir. Hazırda biz Şərq-Qərb, Şimal-Cənub daşıma dəhlizləri sahəsində işləyirik. Türkiyə ilə Azərbaycan arasında olan dəmir yolu xətti sırf iki ölkəni birləşdirən xətt deyil, əslində bu, Avropa ilə Asiya arasındakı bağlantıdır. Çünki həmin dəmir yolu Çindən başlayıb Avropaya qədər gedəcəkdir. Bu, yeni etibarlı alternativlərin yaranmasına imkan verəcək və bütün tərəflər üçün faydalı, səmərəli marşrut olacaqdır.

Azərbaycan neft ölkəsi kimi tanınır. Bu, tamamilə doğrudur. Çünki dünyada ilk dəfə neft XIX əsrdə məhz Azərbaycanda hasil edilib. Sonradan dənizdə neft ilk olaraq yenə Azərbaycanda hasil edilib. Lakin bu gün təbii ki, biz bir sıra mühüm şaxələndirmə layihələri üzərində işləyirik. Bizim enerji daşıyıcılarını beynəlxalq bazarlara nəql edən 3 neft və 4 qaz boru kəmərimiz vardır. Biz nəhəng qaz yataqlarını aşkar etmişik. Onlar bizə böyük qaz ixracatçısı olmağa imkan verir. Hazırda biz təbii qazı qonşu ölkələrə ixrac edirik. Hasilatın artırılması və yeni bazarların tapılması ilə bağlı böyük planlarımız vardır. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrdir və bu həcm İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı sədrinin qeyd etdiyi kimi, bizim üçün 100 ildən artıq müddətə kifayətdir.

Bizim şaxələndirilmiş müasir daşıma infrastrukturumuz vardır. Hazırda üzərində çalış-

dığımız məsələ yeni bazarların müəyyən edilməsidir. Əslində biz həmin bazarların yerləşdiyi yeri bilirik. Lakin bu layihənin qarşılıqlı surətdə faydalı olması üçün biz hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqlarını bir araya gətirməliyik. Enerji resursları təbii ki, bizdə əlavə əminlik yaradır. Bunlar qeyri-neft sektoruna sərmayə qoymaq imkanı yaradır və biz bu işi uğurla aparırıq. İqtisadiyyatın şaxələndirilməsi və müasirləşdirilməsi bizim əsas məqsədimizdir.

İqtisadi artımımız çox sürətli olubdur. Son yeddi il ərzində ÜDM 2,8 dəfə artıb. Bu, təqribən 300 faiz təşkil edir. 2009-cu ildə böhranın baş verdiyi və neftin qiymətlərinin 4 dəfə aşağı düşdüyü halda iqtisadiyyatımız 9,3 faiz, ötən il isə 5 faiz artmışdır. Hazırda artım əvvəlki illərdəki kimi o qədər böyük deyil, lakin davamlıdır. ÜDM-in strukturu çoxşaxəlidir və daha cəlbedicidir.

Söyləyə biləcəyimiz nailiyyətlərimizdən biri yoxsulluğun azaldılmasıdır. Bu, birbaşa iqtisadi islahatlarımızla bağlı idi. Çünki enerji sektoru çox sayda iş yeri yaratmır. Buna görə də vəsaitlərin neft sektorundan qeyri-neft sektoruna yönəldilməsi iqtisadiyyatımızı müəyyən dərəcədə şaxələndirməyə imkan yaratdı və yeddi il bundan əvvəl mövcud olmuş 49 faizlik yoxsulluğun 9 faizə qədər endirilməsini mümkün etdi. Bu rəqəm gələn illər ərzində daha da aşağı olacaqdır.

Biz təhsil sahəsinə böyük sərmayələr yatırırıq. Rəqabətə davamlılıq baxımından Azərbaycan iqtisadiyyatını Dünya İqtisadi Forumu yüksək qiymətləndirir. Hazırda biz uğurlu və davamlı gələcəyi təmin edəcək iqtisadiyyatın sektorları üzərində çalışırıq. Biz gələcəyimizi regionda yaxşı mövqeyə və qonşularla yaxşı münasibətlərə, o cümlədən Avropa ilə strateji əlaqələrə malik olduqca dinamik və inkişaf etmiş ölkə kimi görürük.

Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramına qoşulub. Biz avropalı tərəfdaşlarımızla həyatımızın bütün sahələrini əhatə edən bu proqramın reallaşdırılması üzərində işləyirik. Biz iqtisadi və siyasi islahatları paralel şəkildə aparırıq. Ölkəni müasirləşdirmək, davamlı iqtisadiyyat qurmaq və güclü siyasi sistem yaratmaq üçün əlbəttə ki, biz siyasi və iqtisadi islahatlar sahəsində daha çox çalışmalıyıq.

Bu il biz müstəqilliyimizin 20 illiyini qeyd edəcəyik. Keçdiyimiz yol asan olmayıb. Bu dövr ərzində, xüsusən də müstəqilliyin ilk illərində bir çox çətinliklərlə üzləşmişik. İqtisadi, siyasi, hərbi böhran baş verirdi. Ermənistan tərəfindən Azərbaycan ərazisinin bir hissəsi işğal edildi. Lakin biz səylərimizi səfərbər edə bildik və müstəqillik fürsətini əldən qaçırmadıq. İqtisadi və siyasi nöqteyi-nəzərdən bu gün Azərbaycan müstəqil siyasət yürüdən, regionda yaxşı mövqeyə malik olan və gələcəyə böyük ümidlərlə baxan müstəqil ölkədir.

Biz ölkə daxilində və xaricində əmin-amanlıq istəyirik, Avropa və beynəlxalq maliyyə təsisatları ilə güclü əlaqələrin olmasının tərəfdarıyıq. Fikrimcə, xarici sərmayələrin cəlb olunması sahəsində əldə etdiyimiz təcrübə bu yolda ilk addımlarını atan ölkələr üçün faydalı ola bilər. Biz olduqca münbit sərmayə mühiti yaratmalı idik. Son 15 il ərzində Azərbaycana 95 milyard ABŞ dolları məbləğində sərmayə yatırılıb. Bu sərmayələrin demək olar ki, yarısı xarici sərmayələrdir. Biz sərmayələrin qorunması üçün güclü hüquqi baza yaratmışıq və bütün əsas enerji müqavilələrimiz parlament tərəfindən təsdiq olunur və qanun qüvvəsini almaq məqsədi ilə Prezident tərəfindən imzalanır. Bu o deməkdir ki, hətta biz istəsək belə həmin müqavilələrin şərtlərini dəyişdirmək hüququmuz yoxdur. Bu isə ən vacib amildir. Çünki sərmayədar, xüsusən də regionumuzdakı xarici investorlar 100 faiz əmin olmalıdırlar ki, sərmayələr qorunacaq və heç kim artıq imzalanmış müqavilələrdəki şərtləri dəyişdirməyə çalışmayacaqdır.

Mən təşkilatçılara, xüsusən də avstriyalı dostlarımıza bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edib qeyd etmək istərdim ki, biz Avstriya ilə Azərbaycan arasındakı yaxşı siyasi və iqtisadi münasibətlərdən çox məmnunuq. Hazırda Avstriya şirkətləri ölkəmizdə mehmanxana və xizəksürmə istirahət mərkəzinin tikintisi ilə məşğuldurlar. Onlar iqtisadiyyatımıza sərmayə yatırırlar və ümidvaram ki, bu müsbət meyillər davam edəcəkdir. Çox sağ olun.

PREZİDENT İLHAM ƏLİYEVİN TOTAL ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU KRİSTOF DE MARJERİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda TOTAL şirkətinin sədri və baş icraçı direktoru Kristof De Marjeri ilə görüşmüşdür.

Görüşdə TOTAL-ın Azərbaycandakı fəaliyyəti, bu şirkətin "Şahdəniz" və "Abşeron" qaz yataqlarının işlənilməsi, həmçinin Azərbaycan ilə TOTAL şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEVİN BP ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ VƏ QEYRİ-İCRAÇI DİREKTORU KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞÜ

Yanvarın 27-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bp şirkətinin direktorlar şurasının sədri və qeyri-icraçı direktoru Karl-Henrik Svanberq ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə bp şirkəti arasında 1994-cü ildən fəal əməkdaşlığın həyata keçirildiyi vurğulandı. bp şirkətinin Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənilməsində iştirakının, "Şəfəq-Asiman" yataqları ilə bağlı imzalanmış sazişlərin əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı Azərbaycan ilə bp arasındakı əməkdaşlığın strateji xarakter daşıdığı bildirildi və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "MİCROSOFT" KORPORASİYASININ VİTSE-PREZİDENTİ VƏ "MİCROSOFT İNTERNATİONAL" ŞİRKƏTİNİN PREZİDENTİ JAN-FİLİP KURTUA İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda "Microsoft" Korporasiyasının vitse-prezidenti və "Microsoft International" şirkətinin prezidenti Jan-Filip Kurtua ilə görüşmüşdür.

Jan Filip Kurtua Prezident İlham Əliyev ilə bundan əvvəlki görüşünü xatırladaraq təmsil etdiyi şirkətin ölkəmizdə səmərəli fəaliyyət göstərməsi üçün verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlıq etdi. O, neft gəlirlərinin insan kapitalına çevrilməsi ilə bağlı Azərbaycan Prezidentinin fikirlərinin və ölkəmizdə təhsil sisteminin inkişafına böyük həcmdə investisiyaların qoyulmasının önəmini vurğuladı.

Prezident İlham Əliyev "Microsoft" şirkətinin Azərbaycanda fəaliyyətinin genişlənməsində və ölkəmizin bu şirkətlə əməkdaşlıqda maraqlı olduğunu deyərək bildirdi ki, Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sistemi inkişaf edir və "Microsoft" şirkətinin ölkəmizdə daha geniş fəaliyyəti üçün yaxşı imkanlar vardır.

Görüşdə Azərbaycanın indiki inkişaf tempinin və Prezident İlham Əliyevin bununla bağlı həyata keçirdiyi fəaliyyətin nəticələrinin "Microsoft" ilə əməkdaşlığın dərinləşməsi üçün geniş imkanlar açdığı vurğulandı.

PREZİDENT İLHAM ƏLİYEVİN AVSTRİYANIN AVROPA VƏ BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ NAZİRİ MİXAEL ŞPİNDELEQQER İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə naziri Mixael Şpindeleqqer ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Qeyd olundu ki, ölkələrimiz arasında əməkdaşlıq yaxşı səviyyədədir və bunu Avstriya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə səmərəli fəaliyyəti də təsdiqləyir. Avstriya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın uğurlu olduğu bildirilən görüşdə qeyd olundu ki, bu sahədə OMV şirkətinin Azərbaycan ilə əməkdaşlığı faydalıdır.

Görüşdə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

DAVOS İQTİSADİ FORUMU İŞİNİ DAVAM ETDİRİR

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN GÖRÜŞÜ

İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin yanvarın 28-də Davosda görüşü olmuşdur.

Bu görüşə böyük əhəmiyyət verdiklərini deyən Azərbaycan və Polşa prezidentləri ölkələrimiz arasında uğurlu əməkdaşlığın davam etdiyini vurğuladılar.

Görüşdə ikitərəfli münasibətlər və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi. Azərbaycan ilə Avropa İttifaqı arasında, xüsusilə də "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində əməkdaşlığın əhəmiyyəti, o cümlədən Polşanın bu istiqamətdə dəstəyi qeyd olundu.

Dövlətimizin başçısı Azərbaycan ilə Polşa arasında əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin gündəliyinin çox geniş olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan və Polşa siyasi, iqtisadi və müxtəlif sahələrdə uğurla əməkdaşlıq edir.

Dövlət başçıları münasibətlərin bundan sonra da inkişaf etdirilməsi istiqamətində ətraflı fikir mübadiləsi apardılar.

Prezident İlham Əliyev Polşa Prezidenti Bronislav Komorovskini Azərbaycana səfərə dəvət etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN YORK HERSOQU, ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞÜ

İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Davosda Böyük Britaniyanın York Hersoqu, şahzadə Endryu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, bu sahədə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN GÖRÜŞÜ

Yanvarın 28-də Davosda Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin görüşü olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Ukrayna Prezidentinə müraciətlə dedi:

- Hörmətli Viktor Fyodoroviç, Sizi yenidən görməyimə, böyük uğurla inkişaf edən dialoqumuzu davam etdirmək imkanına görə çox şadam. Mən Ukraynaya səfərimi məmnunluqla xatırlayıram. Bizim diskussiyalarımız münasibətlərimizin gələcək inkişafına çox mühüm təsir göstərir.

Bizim münasibətlərimiz çox fəal və dinamik inkişaf edir, "strateji tərəfdaşlıq", "dostluq münasibətləri" kimi terminlərlə səciyyələndirilir. Əminəm ki, siyasi dialoqun genişlənməsi, iqtisadi sahədə, xüsusən energetika sahəsində fəal qarşılıqlı əlaqələr xalqlarımızı daha da yaxınlaşdıracaq, təkcə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün deyil, həm də Qara dəniz və Xəzər dənizi regionunda əməkdaşlığın hərtərəfli yüksəlişi üçün əlverişli şərait yaradacaqdır. Sizi bir daha ürəkdən salamlamaq istəyirəm. Ümid edirəm ki, Ukraynanın və Azərbaycanın rifahı naminə fəal işimiz davam edəcəkdir.

Ukrayna Prezidenti Viktor YANUKOVİÇ Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

-Sağ olun, hörmətli İlham Heydər oğlu. Sizinlə növbəti dəfə görüşməyimə çox şadam. Bizim yüksək səviyyədə görüşlərin intensivliyi hökumətlərimizə, Sizinlə ikitərəfli münasibətlərdə müəyyən etdiyimiz proqramların icraçılarına da sirayət edir. Əlbəttə, yük-

sək səviyyədə siyasi dialoq təsdiq edir ki, ölkələrimiz arasında strateji münasibətlər xalqlarımızın dostluğunun təməlidir. Bu, müxtəlif böhranlar dövründə xüsusilə əhəmiyyətlidir. Ukrayna xalqı heç vaxt unutmayacaq ki, bizim üçün çətin bir dövrdə Sizin atanız Heydər Əliyev tarixi qərar qəbul etdi və Sizin ölkəniz Ukraynanı yanacaq-sürtkü materialları, neftayırma zavodlarımıza neft nəql edilməsi ilə dəstəklədi. Bu, həmin dövrdə Ukraynaya çatışmayan bir udum hava kimi zəruri idi və Prezident Heydər Əliyevin göstərişi ilə Azərbaycan bunu etdi.

Siz bu xoşməramlı ənənələri davam etdirirsiniz. Biz çox şadıq ki, bütün 2010-cu il ərzində ölkələrimiz arasında əmtəə dövriyyəsinin fəal artımı qeydə alınmış, yeni fəaliyyət növləri yaranmış, yanacaq-sürtkü materialları, neft ticarəti xeyli fəallaşmışdır və bu gün nazirlərimiz bizim strateji müqaviləni daha mənalı edən növbəti saziş hazırlamışlar. Bilirəm ki, bu fəallıq çox cəhətdən Sizin şəxsi iştirakınızla əlaqədardır. Bunu demək mənə çox xoşdur ki, əlbəttə, 2011-ci ilin əvvəlindən danışsaq, biz növbəti addım atırıq və ticarət münasibətlərinin, ticari-iqtisadi əlaqələrin genişləndirilməsi üçün birgə fəal səylərimizi davam etdirməliyik. Buna görə də məmnuniyyətlə qeyd etmək istəyirəm ki, biz birinci addımı birlikdə hazırlamışıq. Mən bu il Sizinlə razılaşdığımız kimi, həm Sizin üçün, həm də mənim üçün münasib vaxtda Azərbaycana səfər etməyi planlaşdırıram ki, dost siyasi, strateji dialoqu artıq Azərbaycan ərazisində davam etdirə bilək. Bu gün burada - bir sıra ölkələrin liderləri, hökumət rəhbərləri, siyasətçilər, işgüzar dairələrin nümayəndələrinin toplaşdığı Davosda təklif edirəm ki, nazirlərimiz bizim iştirakımızla ölkələrimiz arasında çox mühüm olan bu sənədləri imzalasınlar.

* * *

Görüşdən sonra Prezident İlham Əliyevin və Prezident Viktor Yanukoviçin iştirakı ilə Azərbaycan və Ukrayna arasında iki sənəd imzalanmışdır.

Ukrayna ərazisindən neftin nəqli sahəsində əməkdaşlığın inkişafına dair tədbirlər barədə Sazişi və Ukrayna ərazisinə sıxılmış təbii qazın çatdırılmasının təşkili üzrə əməkdaşlıq haqqında Memorandumu Ukraynanın energetika və kömür sənayesi naziri Yuri Boyko və Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RWE ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSMAN İLƏ GÖRÜŞÜ

Yanvarın 28-də Davosda Azərbaycan Prezidenti İlham Əliyev RWE şirkətinin idarə heyətinin sədri Yurgen Qrosman ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə RWE şirkəti arasında uğurlu əməkdaşlığın davam etdiyi bildirildi. Qeyd olundu ki, RWE şirkəti Azərbaycan ilə enerji sahəsində səmərəli əməkdaşlıq qurmuşdur.

Energetika sahəsində əlaqələrin önəminin qeyd olunduğu görüşdə RWE şirkətinin Azərbaycan və bütövlükdə Xəzər regionu ilə əməkdaşlıqda, ölkəmizə investisiya qoymaqda maraqlı olduğu bildirildi.

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

Hörmətli cənab Prezident,

Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 28 yanvar 2011-ci il.

PREZİDENT İLHAM ƏLİYEV "AVROPANIN ENERJİ GƏLƏCƏYİ" MÖVZUSUNDA SESSİYADA İŞTİRAK ETMİŞDİR

İsveçrənin kurort şəhəri Davosda 41-ci Dünya İqtisadi Forumunun illik toplantısı işini davam etdirir. Forumda müasir dövrün siyasi-iqtisadi problemlərinin, qlobal inkişafın doğurduğu əsas problemlərin həlli üçün işgüzar tərəfdaşlığın genişlənməsi ilə bağlı məsələləri müzakirə olunur. Toplantıda 100-dən artıq ölkədən 2500-dən çox nümayəndə, o cümlədən dövlət və hökumət başçıları, eləcə də tanınmış şirkətlərin təmsilçiləri, iqtisadçılar, alimlər, ekspertlər, beynəlxalq təşkilatların və KİV-lərin rəhbərləri iştirak edirlər.

Yanvarın 28-də Forumun "Avropanın enerji gələcəyi" mövzusunda sessiyası keçirilmişdir.

Böyük əhəmiyyətə malik bu sessiyada Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmişdir.

"Yeni reallıq üçün ümumi normalar" devizi altında keçirilən builki toplantıda bir-biri ilə sıx bağlı olan yeni reallığa cavab, iqtisadi perspektivlər və hərtərəfli inkişaf siyasətinin müəyyənləşdirilməsi, "Böyük 20"-liyin gündəliyinin dəstəklənməsi, qlobal risklərdən qorunma şəbəkəsinin yaradılması kimi məsələlər ehtiva edilir. Əsas diqqət qlobal risklər, onların yüngülləşdirilməsi ilə bağlı strategiyaların hazırlanmasına yönəldilir.

Sessiyada çıxış edən Prezident İlham Əliyev Avropanın enerji təhlükəsizliyi sistemində Azərbaycanın rolundan bəhs etdi. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı, "Cənub dəhlizi" çərçivəsində nəzərdə tutulan layihələrin perspektivləri və digər məsələlər barədə danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MİLLİ İSTİHBARAT TƏŞKİLATININ RƏHBƏRİ HAKAN FİDANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Türkiyənin Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidanı qəbul etmişdir.

Dövlətimizin başçısı Türkiyənin Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidanın yeni vəzifədə ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə etdi. Azərbaycan ilə Türkiyə arasında münasibətlərin dostluq və qardaşlıq prinsipləri üzərində qurulduğunu deyən Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, Milli təhlükəsizlik sahəsində də ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf edəcəyinə əminliyini bildirdi. Yaşadığımız bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsinin vacibliyini qeyd edən dövlətimizin başçısı bu sahədə Türkiyə-Azərbaycan əlaqələrinin inkişafının bütün bölgəyə müsbət təsir göstərdiyini bildirdi.

Türkiyənin Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidan Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Yeni vəzifədə ölkəmizə səfərindən qürur hissi keçirdiyini bildirən Hakan Fidan Bakıda böyük dəyişikliyin və inkişafın şahidi olduğunu və bundan çox sevindiyini dedi.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Fransa Senatının nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Fransa Senatı nümayəndə heyətinin ölkəmizə səfərinin münasibətlərimizin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanmış, bu səfərin parlamentlərarası əlaqələrin möhkəmlənməsində önəmi qeyd olunmuş, bu sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İki ölkə arasında siyasi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev iqtisadi əlaqələrin genişlənməsi üçün də yaxşı perspektivlərin olduğunu söylədi. Parlamentlərarası əlaqələrin önəmini vurğulayan dövlət başçısı ölkələrimizin Avropa Parlamenti, Avropa Şurası, ATƏT və NATO-nun parlament assambleyaları kimi müxtəlif beynəlxalq təşkilatlarda əməkdaşlıq təcrübəsinə malik olduğunu xatırlatdı və bu əməkdaşlığın artıq ənənəvi xarakter daşıdığını bildirdi. Prezident İlham Əliyevin Litva Seyminin sədri xanım İrena Dequtienenin ölkəmizə səfərinin bu sahədə

əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.

Litva Seyminin sədri xanım İrena Dequtiene Azərbaycana səfərindən və ölkəmizlə yaxından tanış olmaq imkanı qazanmasından məmnunluğunu bildirdi. O, ölkəsini təmsil edən şirkətlərin Bakıda keçiriləcək Azərbaycan-Litva biznes forumunda iştirak edəcəyini xatırladaraq, bu tədbirin müxtəlif sahələrdə əlaqələrin inkişafı baxımından önəmini vurğuladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan xanım İrena Dequtiene Litvanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

Hörmətli cənab Prezident,

İran İslam Respublikasının milli bayramı - İslam inqilabı günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə İran arasındakı dostluq, mehriban qonşuluq və hərtərəfli əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 fevral 2011-ci il.

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS TADİÇƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Dövlətçilik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-Serbiya münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi yolunda səylərimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 fevral 2011-ci il.

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

Hörmətli xanım Prezident,

Milli bayramınız - Litva dövlətinin bərpası günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Litva arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bu gün dinamik inkişaf yolundadır. Əminəm ki, dövlətlərarası münasibətlərimizin, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 fevral 2011-ci il.

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

Hörmətli cənab Prezident,

Əziz dostum,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Estoniya münasibətləri bu gün hərtərəfli inkişaf yoluna qədəm qoymuşdur. Əminəm ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına sülh və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 fevral 2011-ci il.

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

Əlahəzrət,

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Bruney-Darüssalam arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 fevral 2011-ci il.

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət,

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, xalqlarımızın iradəsini ifadə edən Azərbaycan-Küveyt münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 fevral 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN NƏQLİYYAT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ TYERİ MARİANİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Fransanın nəqliyyat məsələləri üzrə dövlət katibi Tyeri Marianini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin münasibətlərinin tərəfdaşlıq xarakteri daşıdığını bildirdi. Fransa şirkətlərinin artıq ölkəmizlə bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdiyini qeyd edən dövlət başçısı nəqliyyat sektorunda da geniş əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Fransanın nəqliyyat məsələləri üzrə dövlət katibi Tyeri Mariani ölkəmizə növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. Ölkələrimiz arasında münasibətlərin son illər daha da genişləndiyini vurğulayan qonaq Fransanın xüsusilə Azərbaycanın nəqliyyat sektoruna böyük maraq göstərdiyini dedi. Ölkəmizi yaxından tanıdığını qeyd edən Tyeri Mariani əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanda avtomobil yollarının, dəmir yol nəqliyyatının və eləcə də Bakıda metropoliten şəbəkəsinin təkmilləşdirilməsində Fransa şirkətlərinin iştirakına və Fransa texnologiyasının tətbiqinə ölkəmizin böyük önəm verdiyini dedi. Prezident İlham Əliyev Fransanın nəqliyyat məsələləri üzrə dövlət katibi Tyeri Marianinin Azərbaycan-Fransa əlaqələrinin bu sahədə inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KONKİSÜRMƏ İTTİFAQININ PREZİDENTİ OTTAVİO ÇİNQVANTONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Beynəlxalq Konkisürmə İttifaqının Prezidenti Ottavio Çinqvantonu qəbul etmişdir.

Beynəlxalq Konkisürmə İttifaqının Prezidenti Ottavio Çinqvanto Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, Bakının müasirliyinin və paytaxtımızdakı inkişaf proseslərinin şahidi olduğunu dedi.

Ölkəmizdə idmana dövlət səviyyəsində xüsusi diqqət göstərildiyini bildirən Prezident İlham Əliyev son illər Azərbaycanın idman sahəsində böyük uğurlar və nailiyyətlər əldə etməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı Beynəlxalq Konkisürmə İttifaqının Prezidenti Ottavio Çinqvantonun ölkəmizə bu səfərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "MİR" DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNƏ MÜSAHİBƏSİ

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də "Mir" Dövlətlərarası Teleradio Şirkətinə müsahibə vermişdir.

AzərTAc həmin müsahibənin mətnini və videoyazısını təqdim edir.

- Hörmətli cənab Prezident, keçən ilin axırlarında, noyabrın 29-da Milli Məclisin - yeni, dördüncü çağırış parlamentin birinci iclası olmuşdur. Dövlət başçısı kimi Siz yeni deputatların qarşısında hansı əsas vəzifələri qoymusunuz?

- Ölkəmizin qarşısında duran başlıca vəzifə iqtisadiyyatın bundan sonra da sürətlə inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi, ölkənin modernləşdirilməsidir. Son illərdə bu istiqamətdə çox iş görülmüşdür, o cümlədən parlamentin fəaliyyəti də kömək etmişdir ki, biz məsələləri çox operativ şəkildə həll etməyə, zəruri qanunvericilik bazası yaratmağa nail olmuşuq. Beləliklə, Azərbaycanda parlamentin rolu güclənmişdir. Ən başlıcası isə, qəbul edilmiş qərarlar və qanunlar bizim nəzərdə tutduğumuz strategiya məcrasında olmuşdur: iqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorundan asılılığın azaldılması, təhsil, güclü sosial siyasət. Ona görə də parlamentin yeni tərkibinin qarşısında prinsip etibarilə ənənəvi məsələlər durur, sadəcə olaraq, inkişafın yeni mərhələsi, təbii ki, əlavə tədbirlərin də görülməsini tələb edir. Yəni mən əminəm ki, yaxın beş ildə parlament yenə uğurla işləyəcək və bu fəaliyyətin nəticəsində ölkəmiz daha da möhkəmlənəcəkdir.

- Siz parlamentin yeni tərkibi qarşısında çıxış edərkən demisiniz ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, real təhlükədir. Sizin fikrinizcə, hər halda münaqişənin dinc yolla həlli şansı nə dərəcədə böyükdür?

-Azərbaycan sülh prosesinin tərəfdarıdır və mənim sözlərimə başlıca sübut odur ki, təqribən 20 il müddətində biz danışıqlar prosesindəyik. 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmış, 1994-cü ildə atəşkəs haqqında qərar qəbul olunmuşdur və o vaxtdan danışıqlar aparılır, ancaq təəssüf ki, heç bir nəticəsi yoxdur. Buna görə də biz ilk növbədə sülh danışıqlarının tənzimləməyə gətirib çıxaracağına ümid bəsləyir və danışıqlar prosesində fəal iştirak edirik. Təbii ki, tənzimləmə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır, çünki bunun başqa əsası, sadəcə, ola bilməz. Qarşıdurma vəziyyətində olan tərəflərin gözləntiləri, ümidləri, arzuları müxtəlif ola bilər, lakin hər şey hüquqi formata uyğun olmalıdır. İndiki halda Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü bütün dünya, bütün ölkələr tərəfindən tanınmışdır. Biz BMT-yə üzv qəbul ediləndə sərhədlərimiz məhz mövcud çərçivədə tanınmışdır. Dağlıq Qarabağ praktik olaraq bizim ölkənin ortasında yerləşir və təbii ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi də bu tezisi təsdiq edir. Eləcə də digər beynəlxalq təşkilatların qətnamə və qərarları. Ona görə də erməni tərəfi məsələyə konstruktiv yanaşarsa və Dağlıq Qarabağın müstəqilliyinin mümkünsüzlüyü barədə tezisi tamamilə başa düşər və qəbul edərsə, biz irəliləyişə nail olacağıq. Lakin əgər bizim qarşımıza məqbul olmayan şərtlər qoyularsa, sesessiya haqqında, separatizm haqqında, Dağlıq Qarabağın müstəqilliyinin hüquqi cəhətdən rəsmiləşdirilməsinə Azərbaycanın razılaşması haqqında məsələlər qoyularsa, onda, təbii ki, danışıqların perspektivləri olmayacaqdır.

Danışıqlar prosesinin indiki raundu və ya indiki mərhələsi Madrid prinsipləri deyilən prinsiplər, onların yeniləşmiş variantı əsasında aparılır. Bu varianta görə, hazırda Dağlıq Qarabağda yaşayan və oraya qayıdacaq insanların özünüidarə hüquqları təmin edilir. Azərbaycanın işğal altındakı bütün ərazilərinin azad olunması, azərbaycanlı məcburi

köçkünlərin bu ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıtması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin qaydaya salınması, eləcə də təhlükəsizliyə zəmanət təmin edilir. İndi danışıqlar masası üzərindəki format bundan ibarətdir. Əlbəttə, burada müəyyən məqamlar vardır, lakin qlobal mənada söhbət bu prinsiplərdən gedir. Əgər bunlar təmin edilərsə, əlbəttə, lap yaxın vaxtlarda biz irəliləyiş barədə danışa bilərik. Əks halda, regionda vəziyyətin sonrakı inkişafı müxtəlif ssenarilər üzrə gedə bilər.

- Siz münaqişənin sülh yolu ilə həllində vasitəçilərin rolunu necə qiymətləndirirsiniz?

-Bilirsinizmi, bizim bu məsələyə münasibətimiz birmənalı deyildir. Bir tərəfdən, son yeddi ildə bu prosesdə iştirak edən bir insan kimi mən vasitəçi ölkələrin yaranmış gərgin vəziyyətdən çıxış yolu tapmaq arzusunda olduqlarını görürəm və biz bunu alqışlayırıq. Digər tərəfdən, son 19 ildə vasitəçilərin fəaliyyəti heç bir nəticə verməmişdir. Danışıqların müxtəlif formatları olmuşdur, müəyyən mərhələlərdə müəyyən irəliləyiş olmuşdur, lakin hər dəfə ya Ermənistanda baş verən müəyyən faciəli hadisələrlə, yaxud da əvvəllər artıq razılaşdırılmış məsələlər barədə Ermənistanın mövqeyinin dəyişməsi ilə əlaqədar bu danışıqlar ya düyünə düşmüş, ya da pozulmuşdur. Ona görə də nəticə olmadığı halda, vasitəçilərin rolunu müsbət qiymətləndirmək, təbii ki, düzgün olmazdı. Digər tərəfdən, mən onların mümkün olan hər şeyi etmədiklərini də deyə bilmərəm. Buna görə də biz ümid edirik ki, həmsədr ölkələr - onlar isə dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvüdür - hər halda, işğalçı ölkəni zəbt olunmuş əraziləri azad etməyin zəruriliyinə inandırmaq üçün özlərinin nüfuzundan və siyasi resurslardan daha çox istifadə edəcəklər.

- Cənab Prezident, Azərbaycan artıq neçə illərdir ki, inamlı iqtisadi artım nümayiş etdirir. O, MDB ölkələri arasında şəksiz liderdir. Hətta dünya iqtisadi böhranına baxmayaraq, Azərbaycan artım nümayiş etdirməkdə davam etmişdir. Ola bilsin ki, bu artım əvvəlki illərdə olduğu qədər sanballı deyildir, lakin hər halda, 9,3 faizlik artım yəqin ki, asanlıqla başa gəlməmişdir, hətta neftin ucuzlaşmasına baxmayaraq. Mən bilirəm ki, Azərbaycanda orta əməkhaqqı təqribən 400 dollardır. Bunun özü də ən bariz nümunədir. Sizcə, bu uğurların sirri nədədir?

-Bilirsinizmi, bu barədə çox danışmaq olar. Əgər qısaca desək, zənnimcə, bu, ilk növbədə, əsrlərin qovuşuğunda Azərbaycanda yaranmış vəziyyətin düzgün qiymətləndirilməsinin nəticəsidir -sabitləşdirmə və iqtisadi inkişaf sahəsindəki ciddi nailiyyətlərlə yanaşı, çox sahələr vardı ki, səylərimizi ikiqat, üçqat artırmaq, strategiyanı düzgün seçməyimiz və konkret proqramlar lazım idi və bunlar bizə iqtisadiyyatı əhəmiyyətli dərəcədə şaxələndirməyə imkan vermişdir. Sizin dediyiniz 2009-cu ildəki 9,3 faizlik iqtisadi artım mənim üçün əvvəlki illərdəki 25-30 faizdən qat-qat əhəmiyyətlidir, çünki bu artım böhranın ən şiddətli ilində, neftin qiymətinin 4 dəfə aşağı düşdüyü vaxt olmuşdur, bizim iqtisadiyyatımız isə, hər halda, daha çox məhz enerji sektoruna istiqamətlənmişdir. Bu nəticə onu göstərirdi ki, bizim apardığımız islahatlar sayəsində iqtisadiyyatın digər sektorlarında inkişaf başlanmışdır. Son 7 ildə biz 900 mindən çox yeni iş yeri yaratmışıq, yoxsulluğun səviyyəsi demək olar, 50 faizdən 9 faizə endirilmişdir. Bütün sosial proqramlar yerinə yetirilmişdir. Azərbaycanın yarım milyondan çox vətəndaşı hər ay dövlətdən sosial yardım alır, orta əməkhaqqı 400 dollardan çoxdur və bu, əlbəttə, son həddi deyildir.

Biz regionlarda çox iş görə bilmişik. Biz 2004-cü ildən regional inkişaf proqramlarını həyata keçiririk - infrastruktur, sosial infrastruktur yaradır, yollar, elektrik stansiyaları tikirik ki, insanlar regionlarda qalıb yaşasınlar və nə Bakıya, nə də başqa ölkələrə miqrasiya etməsinlər. Deməliyəm ki, daxili miqrasiya prosesi praktik olaraq aradan qalxmaqdadır. Ölkənin modernləşdirilməsi, iqtisadiyyatın gələcəkdə bizə böyük artım verəcək sektorlarına, ilk növbədə, informasiya-kommunikasiya texnologiyaları sahəsinə sərmayələr qoyulması baxımından da çox iş görülmüşdür. Biz kosmik sənaye yaradırıq. Gələn il Azərbaycanın ilk süni peyki orbitə çıxarılacaqdır. Yəni, biz daim irəliyə baxırıq, ola bilsin ki, bir neçə addım irəliyə baxırıq. Bizim külli miqdarda neft və qaz ehtiyatlarımızın olmasına, çoxlu gəlirimizin olmasına baxmayaraq, istəyirik ki, Azərbaycanın davamlı inkişafı neftin qiymətindən və yaxud hasilatımızın həcmindən asılı olmasın. "Qara qızıl"ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir. Ona görə də mən vəziyyəti qısaca bu cür xarakterizə edərdim.

Onu da deməliyəm ki, əlbəttə, peşəkar komanda da böyük rol oynamışdır. İcraçılardan çox şey asılıdır və bizim yaratdığımız hökumətdə dövlət strukturlarının, dövlət şirkətlərinin rəhbərləri həm müasir iqtisadiyyata bələd olan, həm də regiondakı vəziyyəti dərindən başa düşən yüksək səviyyəli peşəkarlar, müasir menecerlərdir. Ona görə də hesab edirəm ki, bu amillərin hamısı birlikdə müsbət rol oynamışdır və ən başlıcası, biz yolun yarısında dayanmamışıq. Yəni neftdən əldə edilən böyük gəlirlər bizi arxayınlaşdırmamışdır. Mən dəfələrlə demişəm, biz elə işləməliyik ki, sanki bizim neftimiz və qazımız yoxdur, çünki məhz bu cür resursların olmadığı ölkələr daha böyük uğurlar qazanmışlar. Onlar başqa sahələr axtarmağa, insan resurslarını, texnoloji tərəqqinin nailiyyətlərini səfərbər etməyə məcbur olmuşlar. Yəni bu ölkələrin inkişafını xalqın istedadı təmin edir. İnkişaf etmiş sayılan ölkələr arasında praktik olaraq öz enerji daşıyıcıları ilə təmin edilmiş ölkələr yoxdur. Ona görə də bizim bu yolu fikirləşib tapmağımıza ehtiyac yox idi, işləri uğurla gedən ölkələrin təcrübəsindən ən müsbət cəhətləri götürərək onu bizim şəraitə, təbii ki, bizim spesifikamıza, reallıqlarımıza uyğun, geosiyasət nəzərə alınmaqla tətbiq etməli və ölkənin modernləşdirilməsi strategiyasını və illik fəaliyyət planını müəyyən etməli idik. Keçmiş sovet dövründəki beşilliklər baxımından indi nə qədər qəribə görünsə də, bizim beşillik planımız vardır və ümumiyyətlə, belə bir müddət əsaslıdır. Bundan əlavə, bizim hər il üçün fəaliyyət planımız da vardır, orada kimin nə iş görəcəyi, kimin nəyə cavabdeh olması, maliyyə resursları və digər məqamlar göstərilir. Yəni hesab edirəm ki, bu, bizim bu gün malik olduğumuz əsas nəticədir.

Siz xatırlatdınız ki, iqtisadiyyatın müxtəlif sahələrinə çoxlu sayda adam cəlb etmək mümkün olmuşdur. Bilmək istərdik ki, hansı sahələrə daha çox adam gəlmişdir, harada daha çox iş yeri açılmışdır?

-Daha çox iş yeri bölgələrdə açılmışdır. Bizdə açılmış 900 min iş yerinin 700 mindən çoxu daimi iş yeridir. Regionların inkişaf proqramı nəzərə alınmaqla, ilk növbədə, bu, regional coğrafiyadır. Biz həm də ölkəmizin iqlim şəraitinə uyğun olaraq, kənd təsərrüfatını fəal inkişaf etdiririk. Biz kənd təsərrüfatının əsas məhsulları ilə özümüzü, demək olar ki, təmin etməyə başlayırıq, halbuki sovet dövründə heç vaxt belə olmamışdır. Biz idxaldan asılı idik, meyvə, tərəvəz, üzüm, şərab satır, qalan bütün məhsulları isə alırdıq. İndi biz özümüzü, demək olar ki, tamamilə təmin edirik və artıq ixracı da nizama salmışıq. Biz diqqətimizi, ilk növbədə, öz təbii ehtiyatlarımız, ya da xammal bazamız olan sa-

hələrdə cəmləşdirmişik.

Biz gənclərimizin xaricdə təhsil alması proqramını həyata keçiririk. Artıq bir neçə ildir ki, dövlət bu proqramı tam maliyyələşdirir, minlərlə gəncimiz təhsil almışdır və artıq Azərbaycana qayıdır, burada işləyir, öz təcrübəsini tətbiq edir. Ölkəmizdə elə şərait yaratmalıyıq ki, insanlar buraya işləməyə gəlmək istəsinlər, çünki buna məcbur etmək mümkün deyildir. Hazırda Bakıda və digər yerlərdə inkişaf etmiş Avropa ölkələrində olan hər şey, üstəgəl yaxşı iqlim və isti hava vardır. Buna görə də mən hesab edirəm ki, Azərbaycandan xaricə oxumağa gedənlərin hamısı qayıdacaq və öz ölkəsinin rifahı naminə işləyəcəkdir.

- MDB-nin hansı ölkələri ilə prioritet iqtisadi münasibətlər qurmaq istərdiniz və ya artıq qurmusunuz və nə üçün?

-Görünür, burada həm tarixi, həm də coğrafi amil özünü göstərir. MDB ölkələri arasında qonşularımızla daha sıx iqtisadi münasibətlərimiz vardır. Bu, ilk növbədə, Rusiyadır, əmtəə dövriyyəmiz artır və onun strukturu yaxşılaşır. Biz məhsullarımızın çox hissəsini Rusiyaya göndəririk, həmçinin oradan idxal edirik. Başqa sözlə, bu, bizim ixrac üzrə ən böyük tərəfdaşımızdır. İxracımızın böyük hissəsini enerji ehtiyatları təşkil etdiyindən, ixrac üzrə əsas tərəfdaşımız Avropa ölkələridir. MDB-də ənənəvi olaraq Ukrayna ilə də çox ciddi, çox geniş iqtisadi əlaqələrimiz vardır. Qonşu Gürcüstanda Azərbaycan şirkətləri, Azərbaycan sərmayələri fəal işləyir və bu ölkə ilə də əmtəə dövriyyəsi artır. Digər ölkələrlə - Mərkəzi Asiya ölkələri ilə, MDB-yə daxil olmasalar da, Baltikyanı ölkələrlə çox yaxşı əlaqələrimiz var, ora da keçmiş SSRİ-dir. Keçmiş Sovet İttifaqı respublikalarının hamısında artıq çoxdan səfirliklərimiz var və əlbəttə, bu ölkələr bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Biz MDB-nin bütün proqramlarında - ilk növbədə, humanitar əməkdaşlıq sahəsində, - fəal iştirak edirik. Ötən il birinci Rusiya-Azərbaycan humanitar əməkdaşlıq forumunu keçirdik və o artıq beynəlxalq tədbirə çevrilmişdir. Təbii ki, bu, onilliklər boyu bir yerdə yaşamış ölkələrimizi daha çox birləşdirəcəkdir. Əlbəttə, burada tarixi amil, praqmatizm və təbii ki, siyasi münasibətlərin səviyyəsi - bütün bunlar birlikdə rol oynayır.

- Siz MDB-nin rolunu prinsipcə necə qiymətləndirirsiniz? Sizin fikrinizcə, keçən əsrin 90-cı illəri ilə müqayisədə 2000-ci illərdə Birlikdə hansı irəliləyişə nail olunmuşdur?

-Hesab edirəm ki, indi MDB keyfiyyətcə yeni səviyyəyə çıxır. Əlbəttə, 90-cı illər barədə mühakimə yürütmək mənə çətindir, çünki mən həmin proseslərdə bugünkü səviyyədə iştirak etməmişəm. Son 7-8 ilə gəldikdə isə, mənim fikrim belədir ki, MDB daha dinamik olmuşdur. Hesab edirəm ki, MDB-nin üzvü olan bütün ölkələrdə insanlar bizim bu təşkilatdan nə istədiyimizi daha artıq başa düşməyə başlamışlar, illüziyalar və iddialar azalmışdır. Zənnimcə, biz MDB-ni ciddi problemlərin həlli üçün çox mühüm mexanizm kimi başa düşməyə başlamışıq. Təkcə inteqrasiya məsələlərinin deyil, - inteqrasiya məsələlərinə hər bir ölkə öz prioritetləri əsasında yanaşır, kimsə ondan çox şey, kimsə az şey gözləyir, kiməsə bu çox, kiməsə az lazımdır, - çox vacib, ümdə məsələlərin, təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərinin həlli baxımından. Öz qonşularından və ya müttəfiqlərindən, tərəfdaşlarından təcrid olunmuş halda terrorizmlə mübarizə aparmaq mümkün deyildir. Yəni, hamı tamamilə başa düşür ki, bu bəlaya yalnız birgə səylər hesabına qalib gəlmək olar və terrorçular arasında heç bir fərq

qoyulmamalıdır, bütün terrorçulara vahid mövqelərdən yanaşmaq lazımdır.

MDB çərçivəsində miqrasiya məsələlərinin də öz kəskinliyi vardır. İqtisadi əlaqələr, nəqliyyatda təhlükəsizlik məsələləri, hesab edirəm ki, təşkilatımızın əsasını təşkil edən humanitar əlaqələr çox fəal şəkildə müzakirə olunur. Ona görə ki, başqa beynəlxalq təşkilatlardan fərqli olaraq, MDB birləşmək barədə hər hansı təşəbbüs sayəsində deyil, Sovet İttifaqının dağılması nəticəsində yaranmışdır. 1990-cı illərdə bu ölkələrdə gərgin, o cümlədən siyasi böhrana davam gətirməyin, dinc yolla ayrılmağın mümkün olması bu işdə iştirak edənlərin hamısının çox böyük xidmətidir. Bəlkə də bunu bir növ unudurlar və ya lazımınca qiymətləndirmirlər, lakin bu, həqiqətən çox böyük xidmətdir. Belə bir böyük ölkənin dağılması bizim qeyd etdiyimiz silahlı münaqişələr istisna olmaqla, əslində ciddi sarsıntılarsız baş vermişdir. Ona görə də hesab edirəm ki, indi - hər halda Azərbaycanda - vəziyyəti daha ağılla qiymətləndirirlər, daha çox şeyə ümid bəsləmək əvvəlkindən azdır, adamlar daha çox başa düşürlər ki, hər bir ölkə özünə cavabdehdir. Hesab edirəm, biz hamımız bu məsələyə məhz bu baxımdan yanaşmağı öyrənməliyik: heç kimin heç kəsə borcu yoxdur - bu, bizim başlıca tezisimizdir. Biz münasibətlərimizi dostluq, mehriban qonşuluq, bazar iqtisadiyyatı, bütün mallara və xidmətlərə bazar qiymətlərinin qoyulması əsasında qurmalıyıq. Onda bir-birimizi daha çox başa düşər, vəziyyət daha çox proqnozlaşdırıla bilər, illüziyalar və iddialar daha az olar. Biz bu məsələyə belə yanaşırıq. Hesab edirəm ki, bu, konstruktiv yanaşmadır, Azərbaycana gəldikdə isə, biz MDB-nin bütün təşəbbüslərində bundan sonra da fəal iştirak edəcəyik.

- Birlik ölkələrindən kənarda Azərbaycanın prioritetləri nədən ibarətdir?

-Bilirsinizmi, bu məsələləri bir-birindən ayırmaq çətindir. Ümumiyyətlə, xarici siyasətdə bizim prioritetlərimiz kifayət qədər dəqiq ifadə edilmişdir. Biz istəyirik, çalışırıq ki, bütün ölkələrlə çox səmimi, rəvan, proqnozlaşdırıla bilən münasibətlərimiz olsun və hesab edirəm ki, buna nail olmuşuq. Biz etibarlı tərəfdaşlarıq. Biz özümüzü təmin edən ölkəyik və buna görə də hansısa beynəlxalq maliyyə mərkəzlərindən, yaxud siyasi mərkəzlərdən asılı deyilik. Bizim üçün əsas vəzifələrdən biri məhz iqtisadi müstəqilliyə nail olmaq idi. Biz buna enerji müstəqilliyi vasitəsilə nail olmuşuq. Sonra nəqliyyat müstəqilliyi gəlir. Bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri artıq reallıqdır, coğrafi baxımdan Azərbaycandan, sadəcə, yan keçmək mümkün deyildir. Haqqında söhbət açdığım ərzaq müstəqilliyi də bizə imkan verir ki, qiymətlərin dəyişməsindən və ya məhsulun az yığılmasından asılı olmayaq. Ona görə də özümüzü təmin edən və sözün yaxşı mənasında özümüzə güvənən ölkə olmağımız bizim xarici siyasi fəaliyyətimizi irəlicədən müəyyənləşdirir. İstər yaxın ətrafımızdakı ölkələrlə, istərsə də uzaq xarici ölkələrlə praqmatizmə, realizmə, mənafelərin üst-üstə düşməsinə, qarşılıqlı hörmətə, bir-birinin daxili işlərinə qarışmamağa əsaslanan münasibətlər qurmuşuq. Bu münasibətlər Azərbaycana öyüd-nəsihət vermək tonundan uzaqdır, biz bunu qəbul etmirik, bunlar da artıq reallıqdır və yaxşıdır ki, tərəfdaşlarımızın hamısı bunu başa düşür.

Biz həqiqətən etibarlı tərəfdaşıq. Bizim sözlərimiz heç vaxt əməllərimizə zidd olmur və sözümüzün dəyəri də imzamızın dəyəri qədərdir. Ona görə də Azərbaycan indi artıq regionda siyasi sabitlik amili kimi qəbul edilir. Ölkəmiz möhkəmləndikcə, o cümlədən siyasi nüfuzu yüksəldikcə bu rol da artacaqdır. Zənnimcə, bu, hamımızın xeyrinə olacaqdır.

- İlham Heydər oğlu, bilirəm ki, Siz Moskvada oxumusunuz, sonra bir müddət orada işləmisiniz və indi də bəzən orada olursunuz. Əlbəttə, başa düşürəm ki, Siz maşınla gedəndə az şey görə bilirsiniz, amma hər halda, Sizin fikrinizcə, Rusiyanın paytaxtı çoxmu dəyişmişdir?

-Əlbəttə, çox böyük dəyişikliklər olmuşdur. Mən Moskvaya gələndə, onun küçələrindən maşınla keçəndə hamısını tanıyıram, hamısı mənə tanışdır. Mən Moskvanı çox yaxşı tanıyıram, adətən hökumət nümayəndə heyətlərinin getdiyi marşrutlardan qat-qat artıq marşrutları tanıyıram. Mən uzun müddət, 15 il orada yaşamışam - həm oxumuşam, həm də işləmişəm. O illər barədə mənim ən xoş təəssüratlarım vardır, özü də təkcə ona görə yox ki, o illər həyatımızın ən yaxşı dövrü olan gənclik illəri idi, həm də ona görə ki, həqiqətən yaxşı illər idi. Mən orada özümü çox rahat, öz evimdə olduğu kimi hiss edirdim. Əslində, mən elə öz evimdə idim, çünki bu, vahid ölkə idi. Əlbəttə, Moskva çox dəyişmişdir. İndi Moskvada baş verən dəyişiklikləri, aparılan islahatları biz çox alqışlayırıq. Deməliyəm ki, bir dövr vardı bizim Bakıda da əsaslı dəyişikliklər, islahatlar, bəzən ağrılı islahatlar aparılması zəruri idi, lakin bunsuz olmur. Moskva mənə çox əziz şəhərdir. Mən Moskvada olmağa həmişə sevinirəm və tez-tez orada oluram.

- Mən də deyə bilərəm ki, çoxdandır Bakıda olmamışdım, burada hər şey - meydanlar, küçələr, təzə yollar, təzə evlər, saraylar adamı heyran edir. Hər şey çox gözəldir. Sizin xanımınız Milli Məclisin deputatı seçilmişdir. Siz indi ailədə daha çox siyasət barədə danışırsınız?

-Bilirsinizmi, onun deputat olması birinci dəfə deyil. Bu, artıq ikinci dəfədir. Birinci dəfə 2005-ci ildə olmuşdur. Buna görə də o, bu statusa artıq alışmışdır. Siyasət barədə çox, yaxud az danışmaq məsələsinə gəldikdə isə, yəqin ki, elə əvvəlki qədər, konkret desək, çox az danışırıq. Ona görə ki, ev şəraitində, evdə biz siyasət barədə praktik olaraq danışmırıq, çünki buna ehtiyac yoxdur. Azərbaycan cəmiyyətində, o cümlədən siyasi müstəvidə mövcud olan bütün mövzular kifayət qədər bəllidir. Bizim hökumətin mövqeyi birmənalıdır. Deməliyəm ki, bütövlükdə cəmiyyətdə ölkəmizin necə irəliləməli olması barədə diskussiya yoxdur. Yəni mən deyərdim ki, konsensus vardır. Gələcəkdə Azərbaycanı necə görmək istədiyimizi mən kifayət qədər dəqiq ifadə etmişəm və cəmiyyətimiz bunu dəstəkləmişdir. Ona görə də biz evdə daha çox başqa mövzularda - öz həyatımız, münasibətlərimiz, öz uşaqlarımız, indi isə artıq nəvələrimiz barədə danışırıq. Hər bir ailədə olduğu kimi, bizdə də adi mövzular haqqında söhbət gedir.

- Bir halda ki, nəvələrinizi xatırladınız, onda bir şeyi soruşmaya bilmərəm: nəvələrinizlə tez-tez görüşə bilirsinizmi?

-Çalışıram ki, tez-tez görüşüm, hərçənd balaca olduqlarına baxmayaraq, onlar da tez-tez valideynləri ilə səfərlərdə olurlar. Lakin onların Bakıya hər gəlişi, əlbəttə, bizim üçün böyük sevinc, böyük xoşbəxtlikdir. Biz nəvələrimizin timsalında öz uşaqlarımızı tanıyırıq və bu, bizi onlara daha çox bağlayır.

-Bilirəm ki, Siz idmanı çox sevirsiniz, respublikada idmanın inkişafını hər vasitə ilə dəstəkləyirsiniz. Azərbaycan idmançıları son illərdə həqiqətən sanballı uğurlar qazanmışlar. Sonuncu Birlik Kuboku yarışında "İnter" komandasının qələbəsini xatırlamaya bilmərəm. Bu münasibətlə bizim təbriklərimizi qəbul edin. Bu, həqiqətən əla, gözəl oyun idi. Bizim kanal onu yayımlayırdı. Əslində, biz həmin yarışın əsas yayımçısı idik. @sual

= Bundan sonra hansı istiqamətdə, hansı uğurlara doğru irəliləyəcəksiniz, şəxsən Siz idmanın hansı növünü daha çox sevirsiniz?

-Ümumiyyətlə, mən futbola baxmağı daha çox xoşlayıram. İdmanla məşğul olmağa gəldikdə isə, idmanın fərdi növlərini - gimnastikanı, atletikanı, üzgüçülüyü daha çox xoşlayıram. O ki qaldı gələcək planlara, biz qələbələrin sayını yalnız artırmağı planlaşdırırıq.

Son illərdə biz artıq beynəlxalq miqyasda öz sözü olan ölkəyə çevrilmişik. Çox şadam ki, biz çox istedadlı gənc idmançılar yetişdiririk. Gənclərin Sinqapurda keçirilmiş birinci Olimpiya oyunlarında yığma komandamız 11-ci yeri tutmuşdur. Yəni biz dünyanın aparıcı idman ölkələrinin çoxunu geridə qoymuşuq. Bu o deməkdir ki, məhz bizim siyasətimiz - uşaqlar, gənclər arasında idman siyasəti, idmanın inkişafı üçün şərait yaratmaq, baza yaratmaq siyasətimiz, habelə veteran idmançılara münasibət öz rolunu oynamışdır. Uşaqlar, yeniyetmələr ona görə idmançı olmaq istəyirlər ki, bizim idmançılar, məşhur çempionlar rəmzə çevrilirlər. Yəni cəmiyyətdə onlara çox böyük hörmət göstərilir, əhali tərəfindən, həm də dövlət tərəfindən onlara böyük dəstək var. Biz idmançılarımızın qələbələrini hər vasitə ilə təbliğ edirik. Onların hamısı şəxsi həyatda da təqlid üçün nümunə hesab edilir. Çox təvazökar, çox vətənpərvərdirlər. Bizdə olimpiya çempionları, dünya və Avropa çempionları çoxdur. Növbəti Olimpiadada da medallar qazanmaq barədə geniş planlarımız vardır. Bunun sayəsində elə şərait yaranmışdır ki, Azərbaycanda idmançı yenidən hörmətli insana çevrilmişdir. 1990-cı illərin əvvəlində bəlkə də belə deyildi, çünki o vaxt idmançıların hərəsi bir tərəfə dağılmışdı, idmana diqqət verilmirdi. Ölkədə o qədər problem var idi ki, idman sadəcə yada düşmürdü. Ona görə də mənə belə gəlir ki, bu fakt öz rolunu oynamışdır. Bundan əlavə, son on ildə biz, Bakı nəzərə alınmamaqla, Azərbaycanın bütün regionlarında 29 olimpiya mərkəzi tikmişik, onların, demək olar ki, hər birində hovuz, hər cür şərait, örtülü idman meydançaları vardır. Yəni orada istənilən beynəlxalq yarışları keçirmək olar.

Mən idmana daim diqqət yetirirəm, 1997-ci ildən həm də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu cür gərgin iş qrafikinə baxmayaraq, mən bu vəzifəni özümdə saxlayıram, ona görə ki, hesab edirəm ki, bu, lazımdır, bəlkə də mənə yox, amma idmana lazımdır. İdman xalqın iradəsinin ifadəsidir. Yarışlar, olimpiadalar, çempionatlar elə məkandır ki, orada ölkələr bir-biri ilə bəhsləşir. Ölkələr kimin birinci, kimin ikinci yerdə olmasını daha harada göstərə bilər?! Heç yerdə. Bu, cəmiyyətin həyatında da çox mühüm amildir, gənclər arasında vətənpərvərlik ruhunu, vətənə sevgi ruhunu gücləndirir - xüsusən də idmançı qalib gələndə, ölkənin bayrağı qaldırılanda, onun himni səslənəndə. Bunlar çox təsirləndirici anlardır.

- İnsanın ruhunu yüksəldir.

-Bəli.

- Sonuncu sualım çox qısadır. Soçi-2014 Olimpiadasında medal qazanmaq barədə planlarınız varmı?

-Soçi Olimpiadasında biz kiçik heyətlə iştirak edəcəyik. Əvvəla, biz cənub ölkəsiyik. Hərçənd qış dağ xizəkçilik kompleksi yaradılması istiqamətində artıq xeyli iş görmüşük. bu ilin sonuna onun açılışını planlaşdırırıq. Lakin əsas planlarımız, əlbəttə, Londonda keçiriləcək yay Olimpiadası ilə bağlıdır. İrəlicədən nəsə demək istəmirəm, lakin Azər-

baycanın idman proseslərinə təsirini gücləndirməyi və əvvəlkindən daha çox medal qazanmağı planlaşdırırıq.

- İlham Heydər oğlu, müsahibəyə görə sağ olun. Sizi dinləmək, Sizinlə ünsiyyətdə olmaq çox xoş idi. Çox sağ olun.

-Siz sağ olun. Mən sizin kanalın verilişlərinə maraqla baxıram, onu nadir, əvəzedilməz, maraqlı və bununla bərabər, öyrədici kanal hesab edirəm. MDB ölkələrinə aid olmayan verilişlər də çox maraqlıdır. Siz həqiqətən çox cəlbedici kanal və bizim üçün qonşu ölkələrdə nələr baş verdiyini bilmək imkanı yaratmısınız. Bu, Birlik ölkələrini daha çox yaxınlaşdıracaq, onların arasında anlaşma daha çox olacaqdır. Hesab edirəm ki, sizin kanalın siyasəti də çox düzgün, çox müsbətdir.

- Sağ olun, çalışırıq.

-Sizə uğurlar diləyirəm.

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİR" DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də "Mir" Dövlətlərarası Teleradio Şirkətinə müsahibə vermişdir.

Müsahibədə dövlətimizin başçısı Azərbaycanın sürətli iqtisadi inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, MDB məkanında əməkdaşlıq, Azərbaycanın həyata keçirdiyi xarici siyasət və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KUBANIN XARİCİ İŞLƏR NAZİRİ BRUNO EDUARDO RODRİQES PARRİLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Kubanın xarici işlər naziri Bruno Eduardo Rodriqes Parrilyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da dinamik şəkildə inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Azərbaycan-Kuba hökumətlərarası birgə iqtisadi komissiyanın fəaliyyətə başlamasının önəmini vurğulayan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlıq üçün geniş imkanların olduğunu dedi. Azərbaycanda Kubanın səfirliyinin açılmasından məmnunluğunu bildirən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq arenada daha fəal əməkdaşlıq etmələrinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, bunun münasibətlərimizin inkişafına mane olmayacağına ümidvar olduğunu dedi. Prezident İlham Əliyev Kubanın xarici işlər naziri Bruno Eduardo Rodriqes Parrilyanın ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.

Kubanın xarici işlər naziri Bruno Eduardo Rodriqes Parrilya Azərbaycana səfərindən

məmnunluğunu bildirdi. O, ölkəmizə ilk dəfə səfər etdiyini və Azərbaycan ilə tanışlığın onda çox böyük təəssürat yaratdığını dedi. Xarici işlər naziri ölkələrimizin xalqları və hökumətləri arasında tarixi və mədəni əlaqələrin mövcud olduğunu vurğulayaraq Kubada Azərbaycana xüsusi münasibət bəslənildiyini qeyd etdi.

PREZİDENT İLHAM ƏLİYEV GÜRCÜSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gürcüstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidzenin etimadnaməsini qəbul etmişdir.

Səfir Teymuraz Şaraşenidze fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Teymuraz Şaraşenidze etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı səfir Teymuraz Şaraşenidzenin ölkəmizdəki fəaliyyəti müddətində Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi. Azərbaycan ilə Gürcüstanın yaxın qonşu, dost və qardaş ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizi bir çox tarixi dəyərlərin birləşdirdiyini dedi. Münasibətlərimizin səviyyəsinin və dinamikasının razılıq doğurduğunu bildirən dövlətimizin başçısı bütün sahələrdə həyata keçirilən birgə təşəbbüslərin və layihələrin önəmini qeyd etdi. Qarşıdakı illərdə reallaşması nəzərdə tutulan layihələr üzərində fəal işlərin aparılacağını deyən Prezident İlham Əliyev ölkələrimizdə və regionda birgə fəaliyyət üçün yeni sahələrin müəyyənləşdiriləcəyini də bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında siyasi, iqtisadi və humanitar sahələrdə münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin xalqlarımız və eləcə də regional əməkdaşlıq və təhlükəsizlik üçün önəmini qeyd etdi.

Səfir Teymuraz Şaraşenidze Azərbaycan Prezidentinə və xalqımıza olan yüksək ehtiramını dövlətimizin başçısına çatdırdı. Tarixən yaxın münasibətdə olan ölkədə səfir kimi fəaliyyət göstərməyin böyük məsuliyyətli iş olduğunu vurğulayan gürcüstanlı diplomat ölkələrimiz arasında mövcud əlaqələrin daha da möhkəmlənməsində və dərinləşməsində səylərini əsirgəməyəcəyini dedi.

PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mətyu Brayzənin etimadnaməsini qəbul etmişdir.

Səfir Mətyu Brayzə fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mətyu Brayzə etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı səfiri yeni təyinatı münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN İNFORMASİYA TEXNOLOGİYALARI VƏ KOMMUNİKASİYA NAZİRİ REZA TAĞIPUR ƏNVƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də İran İslam Respublikasının informasiya texnologiyaları və kommunikasiya naziri Reza Tağıpur Ənvərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nazir Reza Tağıpur Ənvəri İran Prezidenti Mahmud Əhmədinejadın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, İranın dövlət başçısının ölkəmizə son səfəri zamanı göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə minnətdarlıq etməyi Prezident Mahmud Əhmədinejadın ona şəxsən tapşırdığını dedi. Nazir bildirdi ki, İran Prezidenti əmindir ki, belə yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsi işinə xidmət edəcəkdir. Reza Tağıpur Ənvəri İran Prezidenti Mahmud Əhmədinejadın məktubunu dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın ölkəmizə səfərinin uğurlu olduğunu və yaxşı nəticələr verdiyini dedi.

Dövlətimizin başçısı Prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

Hörmətli cənab Prezident,

Xaapsalu şəhərindəki uşaq evində baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Estoniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 fevral 2011-ci il.

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON KİYƏ

Hörmətli cənab Baş nazir,

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 fevral 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ HAMAD KALKABA MALBOUMU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Beynəlxalq Hərbi İdman Şurasının prezidenti Hamad Kalkaba Malboumu qəbul etmişdir.

Dövlətimizin başçısı Hamad Kalkaba Malboumu Beynəlxalq Hərbi İdman Şurasının prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə Beynəlxalq Hərbi İdman Şurası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də ABŞ-ın dövlət katibinin birinci müavini Ceyms Staynberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ABŞ dövlət katibinin birinci müavini Ceyms Staynberq arasında təkbətək görüş oldu. Sonra görüş geniş tərkibdə davam etdirildi.

Ceyms Staynberq ABŞ-ın dövlət katibi xanım Hillari Klintonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, enerji sahəsində əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı ABŞ-ın dövlət katibi xanım Hillari Klintonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ştatların dövlət katibinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Gürcüstanın daxili işlər naziri Vano Merabişvilini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən daxili işlər orqanları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Piter Semnebini fəaliyyəti müddətində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi və ona gələcək işlərində uğurlar arzuladı.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

Hörmətli cənab Prezident,

Əziz qardaşım,

Görkəmli ictimai-siyasi xadim Nəcməddin Ərbakanın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Azərbaycan-Turkiyə dostluğu və qardaşlığının möhkəmlənməsi və inkişafına dəyərli töhfələr vermiş Nəcməddin Ərbakan ölkəmizdə böyük hörmət və nüfuza malik idi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxın adamlarına, bütün Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 28 fevral 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN "NİRO İNVESTMENT GROUP" ŞİRKƏTİNİN RƏHBƏRİ NİKOLAE DUMİTRUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Rumıniyanın "NİRO İnvestment Group" şirkətinin rəhbəri Nikolae Dumitrunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

"NİRO İnvestment Group" şirkətinin rəhbəri Nikolae Dumitru "Balkanlar və Avropa" jurnalı nümayəndə heyətinin üzvü olaraq "Prezident İlham Əliyev-ilin adamı 2010" mükafatını dövlətimizin başçısına təqdim etmək imkanı əldə etmələrindən məmnunluğunu bildirdi. O, dövlətimizin başçısını bu mükafata dünyadakı maliyyə böhranına baxmayaraq, ölkəmizdə əldə olunan və yüksək qiymətləndirilən böyük uğurlara görə jurnalın akademiklərdən, alimlər, jurnalistlər və hüquqşünaslardan ibarət nüfuzlu münsiflər heyəti tərəfindən yekdilliklə layiq görüldüyünü qeyd etdi. Nikolae Dumitru Rumıniya-Azərbaycan strateji tərəfdaşlığının və xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da davam edəcəyinə əminliyini bildirdi və "İlin adamı-2010" mükafatını dövlətimizin başçısına təqdim etdi.

Dövlətimizin başçısı "İlin adamı-2010" mükafatına görə minnətdarlığını bildirdi və "Balkanlar və Avropa" jurnalının bu qərarını ölkələrimiz arasında əlaqələrin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Rumıniya arasında əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini və bir çox sahələri, o cümlədən siyasi, iqtisadi və humanitar sahələri əhatə etdiyini dedi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dünyada Rumıniyanın Azərbaycana ən yaxın dost dövlətlərdən biri olduğunu deyən Prezident İlham Əliyev ölkələrimiz arasında imzalanan müxtəlif sənədlərin, xüsusilə strateji tərəfdaşlıq haqqında Sazişin əhəmiyyətini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XORVATİYA ALİ MƏHKƏMƏSİNİN SƏDRİ BRANKO HRVATİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Xorvatiya Ali Məhkəməsinin sədri Branko Hrvatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Özünün Xorvatiyaya, Xorvatiyanın keçmiş Prezidenti Stepan Mesiçin ölkəmizə səfərini xatırladan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Xorvatiya ilə müxtəlif sahələrdə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Dövlətimizin başçısı İlham Əliyev Xorvatiya Ali Məhkəməsinin sədri Branko Hrvatinin ölkəmizə səfərinin əlaqələrimizin inkişafı baxımından önəmli olacağına əminliyini bildirdi.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq hakimiyyətin mühüm qolu olan məhkəmə hakimiyyətləri arasında əlaqələr yaratmağın əhəmiyyətli olduğunu dedi. Xorvatiya Ali Məhkəməsinin sədri azərbaycanlı həmkarları ilə yaxşı əməkdaşlıq əlaqələri yarada biləcəklərinə və davam etdirəcəklərinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUSTAM MİNNİXANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanovu qəbul etmişdir.

Dövlətimizin başçısı Tatarıstan Prezidentinin respublika rəhbəri kimi yüksək vəzifəyə seçildikdən sonra özünün ilk səfərlərindən birini ölkəmizə etməsini yüksək qiymətləndirdi. Azərbaycan və Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanovun ölkəmizə səfəri zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu bildirdi və səfərin qarşılıqlı fəaliyyət və əlaqələrimizin müxtəlif istiqamətlərdə genişlənməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Ölkəmizə səfərindən və Prezident İlham Əliyev ilə görüşmək imkanı əldə etməsindən məmnunluğunu bildirən Rustam Minnixanov Tatarıstan Respublikasının keçmiş Prezidenti Mintimer Şaymiyevlə xalqımızın ümummilli lideri Heydər Əliyev arasında daim mövcud olan sıx münasibətlərin əməkdaşlığımızın inkişafı üçün möhkəm zəmin yaratdığını bildirdi.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanovun şərəfinə işçi nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVENİYANIN MÜDAFİƏ NAZİRİ XANIM LYUBİTSA YELUŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Sloveniyanın müdafiə naziri xanım Lyubitsa Yeluşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasına ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev qonağın ölkəmizə səfərinin qısamüddətli olmasına baxmayaraq, onun azərbaycanlı həmkarı ilə hərbi sahədə əməkdaşlığı müzakirə etmək üçün bu səfərin yaxşı imkan yaratdığını dedi. Sloveniyaya səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev dövlət başçıları arasında yaxşı əlaqələrin olduğunu vurğuladı, Sloveniya Prezidenti ilə mütəmadi görüşdüyünü, regional inkişaf və ikitərəfli əlaqələrlə bağlı mühüm məsələləri müzakirə etdiklərini bildirdi. Dövlətimizin başçısı Sloveniyanın müdafiə naziri xanım Lyubitsa Yeluşiçin Azərbaycana səfərinin məhsuldar və ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlıq imkanlarını araşdırmaq baxımından səmərəli olacağına əminliyini bildirdi.

Sloveniyanın müdafiə naziri xanım Lyubitsa Yeluşiç başçılıq etdiyi nümayəndə heyətinin bütün üzvlərinin Azərbaycana səfərdən və əməkdaşlığımızın inkişafı imkanlarını müzakirə etməkdən böyük məmnunluq hissi keçirdiklərini bildirdi. Sloveniyanın müdafiə naziri xanım Lyubitsa Yeluşiç ölkələrimizin müvafiq qurumlarının əlaqələrinin əsasında dövlət başçılarının yaxşı əməkdaşlığının və xalqlarımız arasında ümumi dəyərlərin durduğunu qeyd etdi.

Xanım Lyubitsa Yeluşiç nümayəndə heyətinin bu gün səhər Mehdi Hüseynzadənin abidəsini ziyarət etməsini xatırlatdı.

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MERİ MAKALİSƏ

Hörmətli xanım Prezident,

Ölkənizin milli bayramı - Müqəddəs Patrik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə İrlandiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 3 mart 2011-ci il

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Pakistan günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 3 mart 2011-ci il.

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Banqladeş arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 3 mart 2011-ci il.

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

Hörmətli cənab Prezident,

Yunanıstan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan-Yunanıstan dövlətlərarası münasibətlərinin inkişafı, beynəlxalq qurumlar və layihələr çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi yolunda bundan sonra da səylərimizi davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 3 mart 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

SOÇİNİN "ADLER" BEYNƏLXALQ AEROPRTUNDA QARŞILANMA

Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Soçinin "Adler" Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər qarşıladılar.

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

Martın 5-də Soçidə "Grand Polyana" mehmanxanasının "Qəbullar evi"ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir.

Görüşün yekunlarına dair birgə bəyanat qəbul edildi.

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİ SOÇİDƏ DAĞ XİZƏKSÜRMƏ MƏRKƏZİNDƏ OLMUŞLAR

Martın 5-də Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Dmitri Medvedevin və Ermənistan Prezidenti Serj Sarkisyanın Soçidə keçirilmiş üçtərəfli görüşündən sonra dövlət başçıları dağ xizəksürmə mərkəzində olmuşlar.

Dövlət başçıları mərkəzdə xizək sürdülər.

* * *

Daha sonra dövlət başçıları nahar etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ OLMUŞDUR

Martın 5-də Soçinin "Adler" Beynəlxalq aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşü olmuşdur.

SƏFƏR BAŞA ÇATDI

Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Azərbaycan dövlətinin başçısını Soçinin "Adler" Beynəlxalq aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.

* * *

Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.

Azərbaycan Prezidentini Heydər Əliyev Beynəlxalq aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİ BİRGƏ BƏYANAT QƏBUL ETMİŞLƏR

Mart 5-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekununa əsasən birgə bəyanat qəbul etmişlər.

Sənəddə qeyd edilir ki, liderlər onların bundan əvvəl, 2010-cu il oktyabrın 27-də Həştərxanda keçirilmiş görüşü zamanı qəbul edilmiş üçtərəfli bəyanatın praktiki reallaşdırılması məsələlərini müzakirə etmiş və həmin bəyanatda nəzərdə tutulan tədbirlərə əlavə olaraq növbəti addımlar barədə razılığa gəlmişlər. Bəyanatda qeyd edilir ki, dövlət başçıları, o cümlədən "hərbi əsirlərin dəyişdirilməsini ən qısa müddətdə başa çatdırmaq" barədə razılığa gəlmişlər. Bundan əlavə, sənəddə "bütün mübahisəli məsələləri dinc vasitələrlə həll etmək və atəşkəs xətti boyunca yarana biləcək insidentləri tərəflərin iştirakı ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında, təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin köməyi ilə təhqiq etmək" istəyi vurğulanır.

Bəyanatda deyilir: "Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərinə dair özlərinin müntəzəm əlaqələrinin böyük əhəmiyyət kəsb etməsini qeyd etmiş və ATƏT-in Minsk qrupunun həmsədrlərinin işinə əlavə olaraq bu formatda əlaqələri davam etdirmək barədə razılığa gəlmişlər".

AZƏRBAYCAN RESPUBLİKASININ, ERMƏNİSTAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANATI

Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının prezidentləri martın 5-də Rusiya Federasiyası Prezidentinin dəvəti ilə Soçidə görüşmüş və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların gedişini və perspektivlərini ətraflı müzakirə etmişlər.

Prezidentlər 2010-cu il oktyabrın 27-də Həştərxanda qəbul edilmiş üçtərəfli Bəyanatın praktiki reallaşdırılması məsələlərini müzakirə etmiş və həmin bəyanatda nəzərdə tutulan tədbirlərə əlavə olaraq növbəti addımlar barədə razılığa gəlmişlər.

1. Hərbi əsirlərin dəyişdirilməsini ən qısa müddətdə başa çatdırmalı.

2. Bütün mübahisəli məsələləri dinc vasitələrlə həll etməyə və atəşkəs xətti boyunca yarana biləcək insidentləri tərəflərin iştirakı ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında, təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin köməyi ilə təhqiq etməyə çalışmalı.

Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərinə dair özlərinin müntəzəm əlaqələrinin böyük əhəmiyyət kəsb etməsini qeyd etmiş və ATƏT-in Minsk qrupunun həmsədrlərinin işinə əlavə olaraq bu formatda əlaqələri davam etdirmək barədə razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ JOZE PERURENANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Beynəlxalq Kanoe Federasiyasının prezidenti Joze Perurenanı qəbul etmişdir.

Ölkəmizə səfəri çərçivəsində Mingəçevirə gedəcəyini və buradakı avarçəkmə mərkəzində olacağını deyən Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Joze Perurena bu cür mərkəzlərin beynəlxalq idman yarışlarının keçirilməsi üçün əhəmiyyətini qeyd etdi.

Sovetlər İttifaqı dağıldıqdan sonra Mingəçevir avarçəkmə mərkəzinin yararsız vəziyyətə düşdüyünü bildirən dövlətimizin başçısı son illər bu mərkəzdə ən müasir standartlara uyğun şəkildə əsaslı bərpa və yenidənqurma işlərinin aparıldığını dedi.

Görüşdə Mingəçevir avarçəkmə mərkəzinin ölkəmizdə idmanın inkişafına və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALBANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ EDMOND HACİNASTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Albaniya Baş nazirinin müavini, xarici işlər naziri Edmond Hacinastonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Edmond Hacinaston Albaniyanın Baş naziri Sali Berişanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərinin onda dərin təəssürat yaratdığını vurğulayaraq Azərbaycanda gedən sürətli inkişaf proseslərini respublikamızın düzgün istiqamətdə irəliləməsinin göstəricisi kimi dəyərləndirdi. Nazir Albaniya ilə Azərbaycan arasında hərtərəfli münasibətlərin inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu dedi. Edmond Hacinaston bildirdi ki, Azərbaycan ilə Albaniya arasında mövcud olan siyasi münasibətlər əlaqələrimizi həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha da genişləndirə bilər. Ölkələrimizin bir-birini dəstəkləməkdə davam edəcəyini vurğulayan qonaq qarşılıqlı iqtisadi münasibətlərin inkişafı üçün də böyük imkanların olduğunu dedi.

Ölkələrimiz arasında yaxşı əlaqələrin olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın Albaniya ilə ikitərəfli münasibətlərin inkişafında maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Albaniyanın yüksək səviyyəli rəsmiləri ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, Albaniya Prezidenti ilə dostluq münasibətində olduğunu bildirdi. Azərbaycan ilə Albaniya arasında fəal dialoqun mövcudluğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bir-birini dəstəkləməsinin və güclü əməkdaşlıq əlaqələri yaradılmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Albaniya Baş nazirinin müavini, xarici işlər naziri Edmond Hacinastonun ölkəmizə səfərinin azərbaycanlı həmkarları ilə əməkdaşlığımızın inkişafına dair gələcək planların müzakirə edilməsi baxımından əhəmiyyətli olacağına əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Albaniyanın Baş naziri Sali Berişanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luc Truyensin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Luc Truyens etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Belçika Krallığı arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, iqtisadi sahədə yeni əməkdaşlıq imkanlarının olduğunu dedi, qarşıdakı illər ərzində bu sahədə daha fəal əlaqələr qurulacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev səfirin ikitərəfli əlaqələrimizin inkişafı işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Diplomat Luc Truyens Belçika Kralı II Albertin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün imkanların olduğunu bildirdi.

Azərbaycan Prezidenti Belçika Kralı II Albertin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belçika dövlətinin başçısına çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEV QVATEMALANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Qvatemala Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Arturo Duarte Ortizin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin önündən keçdi.

Səfir Arturo Duarte Ortiz etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Qvatemala arasında BMT çərçivəsində məhsuldar əməkdaşlığın olduğunu vurğuladı. Siyasi sahədə münasibətlərimizin səviyyəsindən razılığını bildirən Azərbaycan Prezidenti ölkələrimiz arasında müxtəlif istiqamətlərdə yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin, qarşılıqlı ticarət əlaqələrinin qurulması üçün imkanların araşdırılmasının zəruriliyini vurğuladı. Prezident İlham Əliyev əməkdaşlığımızın inkişaf etdirilməsi üçün xalqlarımızın arasında münasibətlərin möhkəmləndirilməsinin vacibliyini bildirdi.

Səfir Arturo Duarte Ortiz Qvatemala Respublikasının Prezidenti Alvaro Kolom Kabayerosun salamlarını dövlətimizin başçısına çatdırdı. Qvatemalanın Azərbaycan ilə siyasi münasibətlərinin razılıq doğurduğunu deyən səfir ölkələrimiz arasında digər sahələrdə də yaxşı əlaqələr qurmaq üçün əməkdaşlıq imkanlarının araşdırılmasının zəruriliyini qeyd etdi.

Prezident İlham Əliyev Qvatemala Prezidenti Alvaro Kolom Kabayerosun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qvatemala dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PARAQVAYIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Paraqvay Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marsial Bobadilya Qilyenin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Marsial Bobadilya Qilyen etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Səfir Marsial Bobadilya Qilyen Paraqvay Respublikasının Prezidenti Fernando Luqonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan hökuməti və xalqı ilə işləmək arzusunda olduğunu dedi.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Bu vaxta qədər əlaqələrimizin o qədər də fəal olmadığını deyən dövlətimizin başçısı Azərbaycan ilə Paraqvay arasında əməkdaşlıq sahələrinin müəyyənləşdiriləcəyinə və münasibətlərimizin möhkəmləndiriləcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev əlaqələrimizi inkişaf etdirmək üçün xalqlarımızın və ayrı-ayrı biznes strukturlarının bir-birini yaxından tanımalarının vacibliyini dedi, Paraqvayın ölkəmizdəki səfirliyinin münasibətlərimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu vurğuladı.

Dövlətimizin başçısı Prezident Fernando Luqonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Paraqvay dövlətinin başçısına çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEV SLOVENİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Yazbetsin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Milan Yazbets etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Milan Yazbetsin səfir kimi ölkəmizdə fəaliyyəti dövründə Azərbaycan ilə Sloveniya arasında əlaqələrin uğurla inkişaf etməkdə davam edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlət başçıları səviyyəsində çox yaxşı əlaqələrin və şəxsi münasibətlərin olduğunu vurğulayan Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Sloveniyanın Azər-

baycana yaxın dost və tərəfdaş ölkə olduğunu deyən dövlətimizin başçısı münasibətlərimizin inkişafı üçün möhkəm zəminin olduğunu və əlaqələrimizin səviyyəsinin razılıq doğurduğunu dedi.

Səfir Milan Yazbets Sloveniya Respublikasının Prezidenti Danilo Türkün salamlarını dövlətimizin başçısına çatdırdı. O, Sloveniya dövləti başçısının Azərbaycan Prezidenti İlham Əliyev ilə yaxşı şəxsi əlaqələrinin olmasının ölkələrimiz arasında münasibətlərin inkişafındakı önəmini qeyd etdi. Milan Yazbets ölkəmizdəki diplomatik fəaliyyəti dövründə əlaqələrimizin daha da inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Sloveniya Respublikasının Prezidenti Danilo Türkün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sloveniya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEV TAİLANDIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Arbhorn Manasvaniçin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı əminliklə bildirdi ki, ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi üçün ölkələrimiz arasında daha sıx əməkdaşlığın həyata keçirilməsi zəruridir. Azərbaycan ilə Tailand Krallığı arasında siyasi əlaqələrin möhkəmləndirilməsinin vacibliyini vurğulayan Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif istiqamətlərdə - iqtisadi, energetika, turizm və bir sıra digər sahələrdə genişləndirilməsi üzərində çalışmağın önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan tərəfinin Tailandın daha çoxlu sayda şirkətlərinin ölkəmizə gəlməsinə maraqlı olduğunu dedi. Prezident İlham Əliyev ölkələrimizin iş adamları arasında bir-birini daha yaxşı tanımaq üçün qarşılıqlı maraqların olduğunu da qeyd etdi. Dövlətimizin başçısı xanım Arbhorn Manasvaniçin səfir kimi Azərbaycandakı fəaliyyətinin ikitərəfli əlaqələrimizin inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.

Səfir xanım Arbhorn Manasvaniç Tailand Kralı Bhumibol Adulyadejin salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycan ilə Tailand arasında ikitərəfli əlaqələri inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu bildirən xanım Arbhorn Manasvaniç əməkdaşlıq imkanları ilə yaxından tanış olmaq və ticarət əlaqələrinin genişləndirilməsi üçün ölkəsini təmsil edən iş adamlarının özü ilə birgə Azərbaycana gəldiyini dedi. O, Azərbaycanda tailandlılardan ibarət kiçik bir icmanın yaşadığını da bildirdi.

Dövlətimizin başçısı Kralı Bhumibol Adulyadejin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Tailandın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ARGENTİNANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Armando Xuan Xose Maffeinin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Armando Xuan Xose Maffei etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Bundan əvvəl Azərbaycana Argentina nümayəndə heyətinin tərkibində ilk dəfə səfər etdiyini və səfər çərçivəsində özəl sektorla bağlı məhsuldar müzakirələr apardıqlarını xatırlayan səfir Armando Xuan Xose Maffei indiki səfəri zamanı ölkəmizdə gedən möhtəşəm quruculuq işlərinin onda çox böyük təəssüratlar oyatdığını dedi. Azərbaycanın Argentinada səfirliyinin fəaliyyət göstərməsinin önəmini vurğulayan Armando Xuan Xose Maffei ölkəsinin gələn il iqamətgahı Azərbaycanda olmaqla diplomatik nümayəndəliyinin fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı ölkəmizdə inkişaf proseslərinin sürətlə getdiyini və bütün sahələri əhatə etdiyini vurğuladı. Azərbaycanda sabit maliyyə və siyasi sistemin mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin beynəlxalq iqtisadi əməkdaşlıq sistemində fəal rol oynadığını bildirdi və Argentina ilə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

PREZİDENT İLHAM ƏLİYEV SUDANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mohammed Hussein Hasan Zarougun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Mohammed Hussein Hasan Zaroug etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Səfir Mohammed Hussein Hasan Zaroug Prezident İlham Əliyev kimi nüfuzlu şəxsiyyətin rəhbərlik etdiyi Azərbaycana səfir təyin olunmasından şərəf hissi duyduğunu bildirdi. Səfir Sudan Prezidenti Ömər Hassan əl-Bəşirin salamlarını və dərin ehtiramını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Ölkələrimiz arasında ümumi dəyərlərin mövcud olduğunu qeyd edən sudanlı diplomat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı ölkəmizin hüquqlarını, eləcə də Azərbaycanın İslam Konfransı Təşkilatı və BMT-yə təqdim etdiyi qətnamələri ölkəsinin dəstəklədiyini bildirdi. Sudanın Azərbaycanla iqtisadi sahədə əməkdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edən Mohammed Hussein Hasan Zaroug ölkəmizin neft sahəsində böyük

təcrübəyə malik olmasını nəzərə alaraq, Azərbaycanın Sudanın neft sənayesinin inkişafı ilə bağlı təcrübəsinin bölüşdürülməsində və Azərbaycanın Sudanın energetika sahəsinə sərmayə qoyulmasında ölkəsinin maraqlı olduğunu dedi. Sudanın neft sənayesində hazırda yüksək vəzifələri tutan xeyli sayda mütəxəssisin vaxtilə Azərbaycanda təhsil aldığını vurğulayan səfir, sudanlı tələbələrin yenidən ölkəmizdə təhsil almaları ilə bağlı müqavilənin imzalanmasının zəruriliyini də bildirdi.

Ölkəmizlə münasibətlərə dair səfirin fikirlərinə razılığını bildirən dövlətimizin başçısı beynəlxalq təşkilatlarda Sudanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ərazi bütövlüyünü və ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Prezident Ömər Hassan əl-Bəşirin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sudan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEV AVSTRALİYA İTTİFAQININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YAN DEVVİD QREYNQ BİQOSUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yan Devvid Qreynq Biqosun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Yan Devvid Qreynq Biqos etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Avstraliyanın xarici işlər naziri ilə ötən ilin dekabrında Astanada keçirdiyi görüşü və bu görüşdə səmərəli müzakirələrin aparıldığını xatırladı. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün hər iki dövlətin qarşılıqlı iradəsinin olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimizin gələcəkdə müxtəlif sahələrdə daha fəal əməkdaşlıq etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Avstraliya arasında siyasi, iqtisadi, biznes, qarşılıqlı sərmayə qoyuluşu və digər fəaliyyət sahələrində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.

Yan Devvid Qreynq Biqos ölkələrimiz arasında ikitərəfli münasibətlərin, o cümlədən ticarət, sərmayə qoyuluşu, xalqlararası əlaqələrin inkişaf etdirilməsi üçün daha çox işlər görməyin vacibliyini dedi və bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.

Səfir Yan Devvid Qreynq Biqos Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı.

PREZİDENT İLHAM ƏLİYEV İSPANİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KRİSTOBAL QONSALES-ALLER XURADONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristobal Qonsales-Aller

Xuradonun etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Kristobal Qonsales-Aller Xurado etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Azərbaycan Respublikasının İspaniya Krallığı ilə ikitərəfli əlaqələrə böyük əhəmiyyət verdiyini deyən Prezident İlham Əliyev səfir Kristobal Qonsales-Aller Xuradonun ölkəmizdəki fəaliyyəti dövründə əlaqələrimizin uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan-İspaniya münasibətlərinin ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının möhkəmlənməsi baxımından da önəmini vurğuladı. Dövlətimizin başçısı səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.

Səfir Kristobal Qonsales-Aller Xurado ölkələrimiz arasında münasibətlərin, o cümlədən iqtisadi, siyasi sahələrdə əlaqələrin mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Azərbaycanın İspaniyada səfirliyinin fəaliyyət göstərməsinin önəmini vurğulayan Kristobal Qonsales-Aller Xurado ölkəsinin yaxın zamanlarda iqamətgahı Azərbaycanda olmaqla diplomatik nümayəndəliyinin fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi.

İspaniyalı diplomat ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət,

Ölkənizdə baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Yaponiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 mart 2011-ci il.

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM MİŞELİN KALMİ-REYİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Martın 14-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Reyin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri

qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev İsveçrə Prezidenti xanım Mişelin Kalmi-Reyi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İsveçrə Prezidentinə raport verdi.

İsveçrənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İsveçrə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Mişelin Kalmi-Reyə, İsveçrə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ-REYİN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 14-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Mişelin Kalmi-Reyin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasında iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Martın 14-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Mişelin Kalmi-Reyin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

-Xanım Prezident!

Bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Bizim indicə ikitərəfli əlaqələrimizin müxtəlif sahələri ilə bağlı, o cümlədən regional müstəvidə maraqlı müzakirələrimiz oldu. Xatirimdədir, biz sonuncu dəfə Davosda görüşmüşük. Biz dəfələrlə görüşmüşük. Hesab edirəm ki, bu səfər çox vacib səfərdir. Çünki İsveçrə Prezidentinin ölkəmizə rəsmi səfəridir. Bu da ikitərəfli əlaqələrimizin inkişafına nə qədər böyük diqqət yetirdiyimizi nümayiş etdirir. Deyə bilərəm ki, əlaqələrimiz uğurla inkişaf edir. Siyasi dialoq və məsləhətləşmələrimiz yüksək səviyyədədir. İkitərəfli iqtisadi sahədə

yaxşı perspektivlərimiz vardır. Enerji təhlükəsizliyi məsələləri daim müzakirələrimizin bir hissəsidir. Biz İsveçrəni Azərbaycan üçün vacib tərəfdaş, dost ölkə hesab edirik. Biz əlaqələrimizi daha sürətlə inkişaf etdirmək, ikitərəfli gündəliyimizi genişləndirmək üçün əlimizdən gələni edirik. Bir daha qeyd etmək istəyirəm ki, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir.

Bu əlaqələrin həyatımızın digər sahələrinə də təsir göstərdiyini deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, yaxın illərdə iqtisadi, qarşılıqlı investisiyaların yatırılması, mədəniyyət mübadiləsi və təbii ki, dünya gündəliyi, xüsusilə də regionumuzda və Avropada, o cümlədən regional inkişaf üçün əsas məsələlərdən hesab edilən enerji sahəsində daha böyük inkişafın şahidi olacağıq.

İsveçrə Prezidenti Mişelin Kalmi-Rey minnətdarlığını bildirərək dedi:

-Təşəkkür edirəm, cənab Prezident! Mənə göstərdiyiniz səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm. Mən ikitərəfli əlaqələrimizin səviyyəsindən məmnunam. Ötən il ərzində biz bu əlaqələrimizi inkişaf etdirmişik. Müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, iqtisadiyyat və enerji sahələrində ikitərəfli əlaqələrimizi indiki səviyyədən daha yaxşı inkişaf etdirməliyik. Düşünürəm ki, ölkələrimiz arasında xüsusi tərəfdaşlıq mövcuddur. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirik.

İsveçrə dövlətinin başçısı ölkələrimizin "Bretton Woods" təsisatlarının eyni regional qrupunda təmsil olunduğunu da dedi və oradakı yaxşı tərəfdaşlığa görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Martın 14-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və İsveçrə Prezidenti Mişelin Kalmi-Rey mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Xanım Prezident, sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi ölkəmizdə görməyimə çox şadam. Biz, sizin səfərinizə böyük önəm veririk. Bu, əlaqələrimizin çox sürətlə və uğurla inkişaf etdiyini nümayiş etdirir. Biz artıq vacib ikitərəfli səfərləri həyata keçirmişik. Mən ölkənizə rəsmi səfərimi və apardığımız danışıqları xatırlayıram. Biz bu ilin əvvəlində Davosda da görüşdük və çox səmərəli danışıqlar apardıq. Biz bu gün bu dialoqu davam etdirdik və ikitərəfli əlaqələrlə, o cümlədən regional inkişafla bağlı bir sıra əhəmiyyətli məsələləri müzakirə etdik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Litva Respublikasının xarici işlər naziri Audronyus Ajubalisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Regiona səfərinə Azərbaycandan başladığını vurğulayan ATƏT-in fəaliyyətdə olan sədri, Litvanın xarici işlər naziri Audronyus Ajubalis ölkəmizin regionda əhəmiyyətli rol oynadığını və gələcəkdə bu rolun daha da artacağını bildirdi. Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu vurğulayan ATƏT sədri ölkəmizdə demokratik islahatların da güclü şəkildə həyata keçirildiyini və bunun həmişə aktual bir məsələ olduğunu dedi. Audronyus Ajubalis keçirdiyi görüşlər və apardığı müzakirələr barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev regional inkişaf və o cümlədən ölkənin ümumi inkişafı istiqamətində görüləcək işlərlə bağlı bütün məsələləri açıq müzakirə etməyin önəmini qeyd etdi. Dövlətimizin başçısı güclü iqtisadiyyat və güclü siyasi sistem qurmaqla ölkəmizi inkişaf etdirmək və müasirləşdirmək üçün siyasi, iqtisadi və sosial sahələrdə uğurlu islahatlar aparıldığını bildirdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Reyin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə çıxış edərək dedi:

-Xanım Prezident!

Hörmətli qonaqlar və dostlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi görməyimə şadam. Bu gün səhər çox yaxşı danışıqlarımız oldu. Burada iştirak edən insanlar da bilirlər ki, xanım Prezidentlə bizim görüşlərimiz tez-tez baş tutur. Bu ilin əvvəlində biz Davosda görüşmüşdük, bu gün isə müzakirələrimizi davam etdiririk. Hesab edirəm ki, biz ikitərəfli əlaqələrimizin bütün aspektlərini əhatə edə bildik. Zənnimcə, bu səfər siyasi dialoqumuza güclü dəstək olacaq və həm bizim, həm də xarici işlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələr davam etdiriləcəkdir. Eyni zamanda, əminəm ki, səfəriniz iqtisadi əlaqələrimizin inkişafına da təkan verəcəkdir. Bu məsələləri biz geniş müzakirə etdik. Biz Azərbaycanda həm sərmayəçilər, həm podratçılar, həm də tərəfdaşlarımız kimi daha çox İsveçrə şirkətlərini görmək istəyirik. Təbii ki, regional problemlər danışıqlarımızın bir hissəsini təşkil etdi və görüşlərimizin ilk hissəsində biz əsasən diqqəti bu istiqamətə yönəltdik.

Prezident İlham Əliyev regionumuza yönələn səyləri üçün İsveçrə Prezidentinə minnətdarlıq edərək ümidvar olduğunu bildirdi ki, regiondakı problemlər tezliklə öz həllini tapacaqdır. Növbəti illərdə də səmərəli əməkdaşlığımızın uğurla inkişaf edəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı ölkələrimiz arasında gündəliyin çox geniş olduğunu, bu baxımdan da mütəmadi görüşlərin əhəmiyyətini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRAKEŞİN ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏD NƏSİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Mərakeş Krallığının ədliyyə naziri Məhəmməd Nəsirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağın ölkəmizə səfərinin Azərbaycan-Mərakeş ikitərəfli münasibətlərinin inkişafı baxımından əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu səfərin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi, eyni zamanda, respublikamızda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını vurğuladı. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin həyata keçirilməsinin önəmli olduğunu dedi.

Ədliyyə naziri Məhəmməd Nəsiri rəhbərlik etdiyi nümayəndə heyətinə Azərbaycanda göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.

Mərakeş Krallığının ədliyyə naziri Məhəmməd Nəsiri ölkəsində islahatların həyata keçirilməsinin nəzərdə tutulduğunu qeyd edərək, Mərakeşin Azərbaycanda müxtəlif sahələrdə aparılan islahatların təcrübəsindən bəhrələnmək istəyində olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Bernar Fasyeni (Fransa), Robert Bradtkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN MÜDAFİƏ NAZİRİ MİXAİL YEJELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Ukraynanın müdafiə

naziri Mixail Yejelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi vurğulandı. Ukraynanın müdafiə naziri Mixail Yejelin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan ilə Ukraynanın müvafiq qurumları arasında əməkdaşlığın hazırkı vəziyyətinin nəzərdən keçirilməsi və yeni perspektivlərin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olundu.

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Bolqarıstan əlaqələrinin bugünkü inkişaf səviyyəsi məmnunluq doğurur. Xalqlarımız arasında zəngin dostluq və əməkdaşlıq ənənələrinə əsaslanan bu əlaqələr daim öz əhatə dairəsini genişləndirməkdədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı, beynəlxalq qurumlar və regional layihələr çərçivəsində qarşılıqlı işimizin səmərəli şəkildə davam etdirilməsi üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 fevral 2011-ci il.

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

Hörmətli Nursultan Abişeviç,

Sizin yenidən Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin seçkilərdə qələbəniz Qazaxıstan xalqının Sizə yüksək etimadını, Sizin həyata keçirdiyiniz, dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsinə, cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişikliklər aparılmasına yönəlmiş fəaliyyət xəttinizi xalqın dəstəklədiyini təsdiq etdi.

Azərbaycanı və Qazaxıstanı çoxəsrlik dostluq, mehriban qonşuluq və əməkdaşlıq telləri bağlayır. Əminəm ki, bu xeyirxah ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz dost xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Hörmətli Nursultan Abişeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və Qazaxıstanın çiçəklənməsi naminə dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 4 aprel 2011-ci il

DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət,

Danimarka Krallığının milli bayramı - Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Danimarka arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 4 aprel 2011-ci il.

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ

Hörmətli cənab Prezident,

Suriya Ərəb Respublikasının milli bayramı - Evakuasiya günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Suriya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 4 aprel 2011-ci il.

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri,

Tacqoyma gününüz münasibətilə Sizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər ümumbəşəri dəyərlərin təntənəsi naminə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, ali xidmətinizdə müvəffəqiyyətlər arzulayır, bütün həmməzhəblərinizə sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 4 aprel 2011-ci il.

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

Hörmətli cənab Prezident,

İsrail Dövlətinin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 4 aprel 2011-ci il.

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Aprelin 5-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstan Prezidenti Karolos Papulyası qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Yunanıstan Prezidentinə raport verdi.

Yunanıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Yunanıstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Karolos Papulyasa, Yunanıstan nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 5-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.

Görüşdə siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin, ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirildi.

Dövlət başçıları ikitərəfli, beynəlxalq və regional məsələlər barədə də fikir mübadiləsi apardılar.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Aprelin 5-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev qonaqları salamlayaraq dedi:

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Ölkələrimiz arasında əlaqələr çox sürətlə inkişaf edir və əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafında mühüm mərhələ olacaqdır. Siyasi əlaqələrimiz inkişafdadır və Sizin səfəriniz bunun bariz nümunəsidir. İqtisadi sahədə gözəl perspektivlər vardır və hökumətlərarası birgə komissiya çox uğurla fəaliyyət göstərir. Enerji sahəsində əməkdaşlığın artıq gözəl ənənələri vardır və ümid edirəm ki, yaxın zamanlarda bu əlaqələr yeni mərhələyə qədəm qoyacaqdır. Eyni zamanda, bu gün biz Sizinlə insanlar arasındakı əlaqələr haqqında da fikir mübadiləsi apardıq və biz çox maraqlıyıq ki, vətəndaşlarımız bir-birilərini daha da yaxşı tanısınlar və beləliklə, əlaqələrimiz daha da çoxşaxəli olsun və əməkdaşlığın nəticələri daha da böyük olsun.

Mən əminəm ki, Sizin səfəriniz çox uğurlu keçəcək, çox gözəl nəticələri olacaq və sə-

fərdən sonrakı dövrdə Yunanıstan və Azərbaycan birlikdə çox böyük işlər görəcəklər.

Bir daha Sizi səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

* * *

Yunanıstan Prezidenti Karolos Papulyas səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

Çox sağ olun, cənab Prezident!

Bizə göstərilən səmimi qonaqpərvərliyə görə şəxsən öz adımdan və Yunanıstan nümayəndə heyəti adından Sizə dərin minnətdarlığımı bildirirəm. Mən, sadəcə, Sizin burada dediyiniz sözləri bir daha təkrar etmək istəyirəm ki, bizim münasibətlərimizin gələcəyi parlaqdır. Təkbətək görüş zamanı əməkdaşlığımızın vacibliyi vurğulandı. Sizin Afinaya etdiyiniz rəsmi səfər böyük əhəmiyyət kəsb edir və bu, əslində, münasibətlərimizin inkişafında yeni bir mərhələyə çevrildi. İndi isə mən Sizin ölkənizdə səfərdəyəm və mən də ümidvaram ki, bu səfərim münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir.

AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Aprelin 5-də sənədlərin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Karolos Papulyas mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfər çox uğurlu olacaq və onun çox gözəl nəticələri olacaqdır. Bizim siyasi əlaqələrimiz sürətlə inkişaf edir. İki il bundan əvvəl mən Sizin ölkənizə səfər etmişdim və o səfəri çox yaxşı xatırlayıram. Səfər zamanı apardığımız danışıqlar və fikir mübadiləsi bir də onu göstərdi ki, ölkələrimiz arasında əlaqələrin çox gözəl perspektivləri vardır. Sizin Azərbaycana bugünkü səfəriniz bunu bir daha təsdiq edir.

Biz səfər zamanı aparılan danışıqlar nəticəsində ikitərəfli əlaqələrimizin inkişafına nail olacağıq. İkitərəfli gündəlik çox genişdir. Bu gün biz Sizinlə geniş fikir mübadiləsi apardıq. Siyasi əlaqələrimizin inkişafı üçün gözəl perspektivlər var, iqtisadi sahədə qarşılıqlı maraqlar kifayət qədər çoxdur. Sabah keçiriləcək Yunanıstan-Azərbaycan biznes forumu bunu bir daha təsdiq edəcəkdir. Əminəm ki, ölkələrimizin iş adamları da bir-biri ilə səmərəli əlaqələr qura biləcəklər. Qarşılıqlı investisiyaların qoyuluşu üçün gözəl şərait var. Biz Yunanıstan şirkətlərini Azərbaycanda görməyə çox şad olarıq və Azərbaycanda iş görmək üçün yeni imkanlar açılır. Bir sözlə, iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün yaxşı perspektivlər vardır. Eyni zamanda, Yunanıstan-Azərbaycan birgə hökumətlərarası komissiya da səmərəli fəaliyyət göstərir və bu gün onun fəaliyyəti haqqında bizə məlumat verilmişdir.

Əlaqələrimizin vacib sahəsi olan enerji sahəsində əməkdaşlıq da uğurla inkişaf edir. Bu sahədə ilkin nəticələr də var. Artıq bir neçə ildir ki, Azərbaycan qazı Yunanıstana nəql edilir. Əminəm ki, bu gün imzalanmış sənəd gələcəkdə bu sahədəki əməkdaşlığı, imkanlarımızı daha da genişləndirəcəkdir. Azərbaycan Yunanıstana ixrac olunan qazın həcminin artırılmasında maraqlıdır və biz gələcəkdə Yunanıstanın tranzit imkanlarından da istifadə etmək istəyirik. Bir sözlə, bu sahədəki əməkdaşlıq nəinki ikitərəfli əlaqələrimizin inkişafına xidmət edəcək, eyni zamanda, Azərbaycanla Avropa ölkələri arasında qaz sahəsində əməkdaşlığa da çox ciddi təkan verəcəkdir.

Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında aparılan danışıqlar qaz sahəsində əməkdaşlığın inkişafına gətirib çıxarmalıdır. Biz bunda maraqlıyıq. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün səylərini göstərir və gələcəkdə bu əməkdaşlıq daha da genişmiqyaslı olacaqdır. Biz buna şübhə etmirik. Cənub qaz dəhlizi ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış bəyannamə icra olunur. Bəyannamədə nəzərdə tutulmuş vəzifələrin icra olunması ilə, əlbəttə ki, Azərbaycan Avropa üçün etibarlı, qazla təmin edən ölkəyə çevriləcəkdir. Bir sözlə, bu sahədə əməkdaşlıq üçün çox böyük imkanlar və daha da böyük perspektivlər var. Bununla bərabər, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından Yunanıstan çox müsbət rol oynayır. Bu barədə mən Sizə bu gün öz minnətdarlığımı bildirmişəm. Hazırda "Şərq tərəfdaşlığı" proqramı icra olunur və bu proqramın da çox gözəl perspektivləri ola bilər.

Eyni zamanda, biz bu gün regional əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Regionda gedən proseslər, regionda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün əlavə addımların atılması haqqında fikir mübadiləsi etdik.

Mən cənab Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair son danışıqlar haqqında məlumatlandırdım. Danışıqlar gedir və biz ümid edirik ki, uğurla nəticələnəcəkdir. Biz istəyirik ki, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr icra olunsun. Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, bu işğal hələ də davam edir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var, digər beynəlxalq təşkilatlar - ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Avropa Parlamenti də qətnamələr qəbul etmişdir ki, Azərbaycan torpaqlarının işğalına son qoyulsun. Biz ümid edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də beynəlxalq hüquq prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaqdır. Bir də demək istəyirəm ki, bu barədə mən Prezident Papulyası məlumatlandırdım və Azərbaycanın mövqeyi haqqında öz fikirlərimi bildirmişəm.

Bütövlükdə, Yunanıstan-Azərbaycan əlaqələri çox uğurla və sürətlə inkişaf edir. Biz əlaqələrimizin səviyyəsindən çox məmnunuq və Prezidentin bugünkü səfəri bir də onu göstərir ki, bizim aramızda çox yüksək səviyyədə qarşılıqlı etimad var, qarşılıqlı maraqlarımız var. Əminəm ki, ikitərəfli münasibətlərimizin inkişafı nəticəsində ölkələrimizin vətəndaşları da bir-birini daha da yaxşı tanıyacaqlar. İnsanlar arasında təmaslar daha da

sıx olacaqdır. Beləliklə, gələcəkdə Yunanıstan-Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, mən bir daha Sizi və Sizinlə bərabər ölkəmizə gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, Sizin səfəriniz yaddaqalan olacaq və Siz vətəninizə xoş təəssüratlarla qayıdacaqsınız.

* * *

YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN BƏYANATI

-Bakıya səfərimdən çox məmnunam. Mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə cənab Prezident Əliyevə dərin təşəkkürümü bildirirəm.

Prezident Əliyev ilə geniş fikir mübadiləsi apardıq. Bu fikir mübadiləsi ikitərəfli münasibətlərimizə, habelə regional və qlobal məsələlərə aid idi. Bizim ikitərəfli münasibətlərimiz çox gözəldir. Biz üç ikitərəfli sənəd imzaladıq. Bunlar nəqliyyat, elm və enerji sahələrində əməkdaşlığa aid sənədlərdir.

Biz enerji sahəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalanmış Anlaşma memorandumunu yüksək dəyərləndiririk. Hesab edirik ki, ikitərəfli münasibətlərimiz, xüsusən də ticari və iqtisadi münasibətlərimiz daha da gücləndirilə bilər. Bu baxımdan sabah keçiriləcək Yunanıstan-Azərbaycan biznes forumu iqtisadi və ticari münasibətlərimizin daha da genişləndirilməsi üçün böyük imkanlar açır.

Prezident Əliyev ilə enerji sahəsində əməkdaşlıqda irəliləyiş məsələlərini də müzakirə etdik. Yunanıstan artıq Cənubi və Mərkəzi Avropa üçün enerji qovşağına çevrilmişdir. Bu baxımdan biz təbii qazı nəql edən boru kəmərinin inşasında da maraqlıyıq. Biz istəyirik ki, Azərbaycandan gələn bu boru kəməri Yunanıstandan keçərək İtaliyaya getsin.

Mən, eyni zamanda, Prezident İlham Əliyevə problemlər haqqında da məlumat verdim. Kipr məsələsinə toxunaraq qeyd etdik ki, biz bu məsələnin BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri çərçivəsində həllinə ümid bəsləyirik. Hesab edirik ki, bu cür beynəlxalq məsələlər məhz bu müstəvidə həll olunmalıdır.

Eyni zamanda, biz Şimali Afrikada baş verən hadisələrə toxunduq. Dağlıq Qarabağ problemini də qeyd etmək istərdim. Biz istəyirik bu məsələ ATƏT-in Minsk qrupunun səyləri ilə dinc yolla öz həllini tapsın və bu, tezliklə baş versin. Yunanıstan Avropa İttifaqının Qafqaz üzrə təşəbbüsünə, xüsusən də "Şərq tərəfdaşlığı"na xüsusi diqqət yetirir. Bizim ölkəmiz Qara dəniz İqtisadi Əməkdaşlıq təşəbbüsünə də xüsusi diqqət yetirir. Bu baxımdan biz Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış memorandumu yüksək dəyərləndiririk. Mən Prezident Əliyevi əmin edirəm ki, o, Yunanıstanın real dəstəyinə arxalana bilər.

Yekunda mən çox səmimi müzakirələrə görə Prezident Əliyevə dərin təşəkkürümü bildirirəm və hesab edirəm ki, Yunanıstan ilə Azərbaycan arasındakı münasibətlər bundan sonra genişlənməkdə davam edəcəkdir.

AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Aprelin 5-də sənədlərin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Karolos Papulyas mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfər çox uğurlu olacaq və onun çox gözəl nəticələri olacaqdır. Bizim siyasi əlaqələrimiz sürətlə inkişaf edir. İki il bundan əvvəl mən Sizin ölkənizə səfər etmişdim və o səfəri çox yaxşı xatırlayıram. Səfər zamanı apardığımız danışıqlar və fikir mübadiləsi bir də onu göstərdi ki, ölkələrimiz arasında əlaqələrin çox gözəl perspektivləri vardır. Sizin Azərbaycana bugünkü səfəriniz bunu bir daha təsdiq edir.

Biz səfər zamanı aparılan danışıqlar nəticəsində ikitərəfli əlaqələrimizin inkişafına nail olacağıq. İkitərəfli gündəlik çox genişdir. Bu gün biz Sizinlə geniş fikir mübadiləsi apardıq. Siyasi əlaqələrimizin inkişafı üçün gözəl perspektivlər var, iqtisadi sahədə qarşılıqlı maraqlar kifayət qədər çoxdur. Sabah keçiriləcək Yunanıstan-Azərbaycan biznes forumu bunu bir daha təsdiq edəcəkdir. Əminəm ki, ölkələrimizin iş adamları da bir-biri ilə səmərəli əlaqələr qura biləcəklər. Qarşılıqlı investisiyaların qoyuluşu üçün gözəl şərait var. Biz Yunanıstan şirkətlərini Azərbaycanda görməyə çox şad olarıq və Azərbaycanda iş görmək üçün yeni imkanlar açılır. Bir sözlə, iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün yaxşı perspektivlər vardır. Eyni zamanda, Yunanıstan-Azərbaycan birgə hökumətlərarası komissiya da səmərəli fəaliyyət göstərir və bu gün onun fəaliyyəti haqqında bizə məlumat verilmişdir.

Əlaqələrimizin vacib sahəsi olan enerji sahəsində əməkdaşlıq da uğurla inkişaf edir. Bu sahədə ilkin nəticələr də var. Artıq bir neçə ildir ki, Azərbaycan qazı Yunanıstana nəql edilir. Əminəm ki, bu gün imzalanmış sənəd gələcəkdə bu sahədəki əməkdaşlığı, imkanlarımızı daha da genişləndirəcəkdir. Azərbaycan Yunanıstana ixrac olunan qazın həcminin artırılmasında maraqlıdır və biz gələcəkdə Yunanıstanın tranzit imkanlarından da istifadə etmək istəyirik. Biz sözlə, bu sahədəki əməkdaşlıq nəinki ikitərəfli əlaqələrimizin inkişafına xidmət edəcək, eyni zamanda, Azərbaycanla Avropa ölkələri arasında qaz sahəsində əməkdaşlığa da çox ciddi təkan verəcəkdir.

Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında aparılan danışıqlar qaz sahəsində əməkdaşlığın inkişafına gətirib çıxarmalıdır. Biz bunda maraqlıyıq. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün səylərini göstərir və gələcəkdə bu əməkdaşlıq daha da genişmiqyaslı olacaqdır. Biz buna şübhə etmirik. Cənub qaz dəhlizi ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında imzalan-

mış bəyannamə icra olunur. Bəyannamədə nəzərdə tutulmuş vəzifələrin icra olunması ilə, əlbəttə ki, Azərbaycan Avropa üçün etibarlı, qazla təmin edən ölkəyə çevriləcəkdir. Bir sözlə, bu sahədə əməkdaşlıq üçün çox böyük imkanlar və daha da böyük perspektivlər var. Bununla bərabər, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından Yunanıstan çox müsbət rol oynayır. Bu barədə mən Sizə bu gün öz minnətdarlığımı bildirmişəm. Hazırda "Şərq tərəfdaşlığı" proqramı icra olunur və bu proqramın da çox gözəl perspektivləri ola bilər.

Eyni zamanda, biz bu gün regional əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Regionda gedən proseslər, regionda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün əlavə addımların atılması haqqında fikir mübadiləsi etdik.

Mən cənab Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair son danışıqlar haqqında məlumatlandırdım. Danışıqlar gedir və biz ümid edirik ki, uğurla nəticələnəcəkdir. Biz istəyirik ki, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr icra olunsun. Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, bu işğal hələ də davam edir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var, digər beynəlxalq təşkilatlar - ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Avropa Parlamenti də qətnamələr qəbul etmişdir ki, Azərbaycan torpaqlarının işğalına son qoyulsun. Biz ümid edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də beynəlxalq hüquq prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaqdır. Bir də demək istəyirəm ki, bu barədə mən Prezident Papulyası məlumatlandırdım və Azərbaycanın mövqeyi haqqında öz fikirlərimi bildirmişəm.

Bütövlükdə, Yunanıstan-Azərbaycan əlaqələri çox uğurla və sürətlə inkişaf edir. Biz əlaqələrimizin səviyyəsindən çox məmnunuq və Prezidentin bugünkü səfəri bir də onu göstərir ki, bizim aramızda çox yüksək səviyyədə qarşılıqlı etimad var, qarşılıqlı maraqlarımız var. Əminəm ki, ikitərəfli münasibətlərimizin inkişafı nəticəsində ölkələrimizin vətəndaşları da bir-birini daha da yaxşı tanıyacaqlar. İnsanlar arasında təmaslar daha da sıx olacaqdır. Beləliklə, gələcəkdə Yunanıstan-Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, mən bir daha Sizi və Sizinlə bərabər ölkəmizə gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, Sizin səfəriniz yaddaqalan olacaq və Siz vətəninizə xoş təəssüratlarla qayıdacaqsınız.

* * *

YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN BƏYANATI

-Bakıya səfərimdən çox məmnunam. Mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə cənab Prezident Əliyevə dərin təşəkkürümü bildirirəm.

Prezident Əliyev ilə geniş fikir mübadiləsi apardıq. Bu fikir mübadiləsi ikitərəfli münasibətlərimizə, habelə regional və qlobal məsələlərə aid idi. Bizim ikitərəfli münasibətlərimiz çox gözəldir. Biz üç ikitərəfli sənəd imzaladıq. Bunlar nəqliyyat, elm və enerji sahələrində əməkdaşlığa aid sənədlərdir.

Biz enerji sahəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalanmış Anlaşma memorandumunu yüksək dəyərləndiririk. Hesab edirik ki, ikitərəfli münasibətlərimiz, xüsusən də ticari və iqtisadi münasibətlərimiz daha da gücləndirilə bilər. Bu baxımdan sabah keçiriləcək Yunanıstan-Azərbaycan biznes forumu iqtisadi və ticari münasibətlərimizin daha da genişləndirilməsi üçün böyük imkanlar açır.

Prezident Əliyev ilə enerji sahəsində əməkdaşlıqda irəliləyiş məsələlərini də müzakirə etdik. Yunanıstan artıq Cənubi və Mərkəzi Avropa üçün enerji qovşağına çevrilmişdir. Bu baxımdan biz təbii qazı nəql edən boru kəmərinin inşasında da maraqlıyıq. Biz istəyirik ki, Azərbaycandan gələn bu boru kəməri Yunanıstandan keçərək İtaliyaya getsin.

Mən, eyni zamanda, Prezident İlham Əliyevə problemlər haqqında da məlumat verdim. Kipr məsələsinə toxunaraq qeyd etdik ki, biz bu məsələnin BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri çərçivəsində həllinə ümid bəsləyirik. Hesab edirik ki, bu cür beynəlxalq məsələlər məhz bu müstəvidə həll olunmalıdır.

Eyni zamanda, biz Şimali Afrikada baş verən hadisələrə toxunduq. Dağlıq Qarabağ problemini də qeyd etmək istərdim. Biz istəyirik bu məsələ ATƏT-in Minsk qrupunun səyləri ilə dinc yolla öz həllini tapsın və bu, tezliklə baş versin. Yunanıstan Avropa İttifaqının Qafqaz üzrə təşəbbüsünə, xüsusən də "Şərq tərəfdaşlığı"na xüsusi diqqət yetirir. Bizim ölkəmiz Qara dəniz İqtisadi Əməkdaşlıq təşəbbüsünə də xüsusi diqqət yetirir. Bu baxımdan biz Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış memorandumu yüksək dəyərləndiririk. Mən Prezident Əliyevi əmin edirəm ki, o, Yunanıstanın real dəstəyinə arxalana bilər.

Yekunda mən çox səmimi müzakirələrə görə Prezident Əliyevə dərin təşəkkürümü bildirirəm və hesab edirəm ki, Yunanıstan ilə Azərbaycan arasındakı münasibətlər bundan sonra genişlənməkdə davam edəcəkdir.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV ziyafətdə çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Sizin Azərbaycana bu ilk səfərinizi ikitərəfli münasibətlərimizin inkişafı baxımından yüksək qiymətləndirirəm. Əminəm ki, keçirdiyimiz görüşlər, imzaladığımız sənədlər, apardığımız fikir mübadiləsi və müzakirələr, eləcə də sabah keçiriləcək biznes forumu ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə təkan verəcəkdir.

Mən 2009-cu ildə Yunanıstana səfərimi məmnuniyyətlə xatırlayıram. Biz qədim tarixə

və mədəniyyətə malik olan Yunanıstan ilə əlaqələrimizin inkişafına xüsusi əhəmiyyət veririk. Azərbaycan və Yunanıstan arasında turizm, bərpa olunan enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur.

Ölkələrimiz arasında, həmçinin fövqəladə hallar, ətraf mühitin mühafizəsi, dəniz nəqliyyatı kimi sahələrdə də əməkdaşlıq imkanları vardır. İnanıram ki, bu səfəriniz müxtəlif sahələrdə əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir.

Növbəti il biz diplomatik münasibətlərimizin qurulmasının iyirmi illiyini qeyd edəcəyik. Ümidvaram ki, biz bu əlamətdar tarixə Yunanıstan və Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrində yeni nailiyyətlərlə daxil olacağıq.

Bizim xarici siyasətimizdə Avropa İttifaqı və Avratlantik strukturlarla münasibətlər mühüm yer tutur. Elə bu ilin yanvar ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış Cənub qaz dəhlizi haqqında birgə bəyannamə bunun bariz nümunəsidir.

Azərbaycan və Yunanıstan beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edir. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız məmnunluq doğurur.

Zəngin təbii resurslara malik olan Azərbaycan iqtisadi baxımdan bu gün regionun aparıcı ölkəsidir. Neft ehtiyatları ilə yanaşı, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,2 trilyon kubmetrdən artıqdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin prioritet istiqamətlərindən biridir.

Hazırda Azərbaycanın enerji ehtiyatlarını müxtəlif istiqamətlərə nəql edən 7 neft və qaz boru kəməri çəkilmişdir. Ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsinə mühüm əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini artırmağa hazırdır.

Həyata keçirdiyimiz irimiqyaslı neft-qaz layihələri bizim etibarlı tərəfdaş olduğumuzu sübut edir. Təbii qazımız artıq Yunanıstana nəql olunur. Ümid edirik ki, Azərbaycan qazının Avropa bazarlarına nəql olunmasında Yunanıstan tranzit ölkə kimi də öz rolunu oynayacaqdır.

Ötən illər ərzində Azərbaycanda çox uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirilmişdir. Bunun nəticəsində son yeddi ildə ölkədə ümumi daxili məhsul təxminən 3 dəfə, maaşlar və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluğun səviyyəsi 4,5 dəfə azalmış, ölkəmizə 82 milyard dollar həcmində sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Azərbaycan, həmçinin enerji daşıyıcılarını dünya bazarlarına çıxarmaq məqsədi ilə müasir standartlara uyğun infrastruktur yaratmışdır. Hazırda ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsində mühüm rol oynayır və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir.

Bütün bunlar, yəni həyata keçirdiyimiz konkret layihələr bir tərəfdən, Azərbaycanın dinamik inkişafını təmin edir, digər tərəfdən isə bölgəyə sülh və təhlükəsizlik gətirir, burada gedən bütün proseslərə müsbət təsir göstərir.

Cənab Prezident! Sizi Azərbaycanda qəbul etməyimdən məmnun olduğumu bir daha

ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Bu badəni Sizin şərəfinizə, Yunanıstanla Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

* * *

Sonra Yunanıstan Prezidenti Karolos PAPULYAS çıxış edərək dedi:

-Cənab Prezident!

Hörmətli xanım Əliyeva.

Ölkənizə rəsmi səfərə gəlməyimdən olduqca məmnunam. Mənə və nümayəndə heyətinin üzvlərinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Yunan xalqının ünvanına söylədiyiniz xoş sözlər və dostluq mesajı ölkələrimiz və xalqlarımız arasında münasibətlərin əla səviyyədə olmasını əks etdirir.

Hələ qədim zamanlardan xalqlarımız arasında təmaslar və mədəni təsir olmuşdur. Herodot tarixi Midiya haqqında yazaraq bildirmişdir ki, ənənəyə uyğun olaraq, Böyük İsgəndər Midiyanın şahzadəsi Atropata səmimi dostluq məktubu göndərmişdir və sonuncu ona eyni səmimiliklə məktubla cavab vermişdir.

Bir neçə əsr sonra böyük Azərbaycan şairi Nizami Gəncəvi özünün dördüncü epik əsəri - "İsgəndərnamə"ni Böyük İsgəndərə ithaf edərək, onu dərin strateji biliklərə malik lider kimi təsvir etmişdir.

Xalqlarımız arasında təmaslar Bizans dövründə də davam etmişdir və ötən əsrlər boyu yunan icması Qara dəniz bölgəsində fəal olmuşdur. Bu gün onlar ölkələrimiz arasında tarixi tellər qismində çıxış edir.

Yunanıstan Prezidenti ikitərəfli münasibətlərimizin dinamik xarakterindən, o cümlədən hər iki tərəf arasında artan təmaslardan məmnun olduğunu bildirdi. Hökumətlərarası birgə komissiyanın bu yaxınlarda Bakıda keçirilmiş üçüncü toplantısını bunun bariz nümunəsi adlandırdı.

Çoxsaylı təmaslar münasibətlərimizin inkişafını nümayiş etdirir, - deyən Yunanıstan Prezidenti bildirdi ki, Bakıda keçiriləcək dördüncü Yunanıstan-Azərbaycan biznes forumu ikitərəfli iqtisadi və ticari münasibətləri təşviq edəcəkdir.

Prezident Karolos Papulyas dedi:

-Enerji sahəsinə gəldikdə, burada əməkdaşlığın bütün məsələlərini, xüsusən də Azərbaycandan Türkiyə və Yunanıstan vasitəsilə İtaliyaya qaz boru kəmərinin çəkilməsini əhatə edən müzakirələrdə aydın görünən irəliləyişi qeyd etmək istəyirəm.

Yunanıstanın Dövlət Qaz Şirkəti (DEPA) və Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) arasında bu gün imzalanmış Anlaşma Memorandumu bu istiqamətdə atılan addımdır. Biz ümid edirik ki, Memorandum enerji əməkdaşlığımıza yeni təkan verəcəkdir.

Dəniz nəqliyyatı sazişi ölkələrimiz arasında malların dəniz yolu ilə daşınmasını artıracaqdır. Daşımalar üzrə dünya nəhəngi olan Yunanıstan Azərbaycanın dəniz nəqliyyatının daha da inkişafına yardım edə bilər.

Humanitar sahədə əlaqələrə toxunan Yunanıstan Prezidenti Bakı Slavyan Universitetində Müasir Yunan Dili və Mədəniyyəti Mərkəzinin, eləcə də Afinada teatr təhsili seminarının gələcəkdə mədəni əlaqələrimizi daha da inkişaf etdirəcəyinə ümidvar olduğunu bildirdi.

Karolos Papulyas Avropa İttifaqı ilə Azərbaycan arasında qurulan əməkdaşlığa toxunaraq dedi:

-Avropa İttifaqının üzvü olan Yunanıstan hesab edir ki, Avropa İttifaqının Qafqaz üzrə Şərq tərəfdaşlığı və Qara dəniz əməkdaşlığı kimi təşəbbüsləri və xüsusi elçinin oynadığı rol olduqca vacibdir. Biz Assosiasiya sazişi məqsədi ilə ölkəniz və Avropa İttifaqı arasında bu yaxınlarda danışıqların başlanmasını alqışlayırıq. Sizin Avropa İttifaqı ilə münasibətlərinizin inkişafına gəldikdə, ölkəmizin qəti dəstəyinə əmin ola bilərsiniz.

Azərbaycan Prezidenti ilə aparılan danışıqlar zamanı regional və beynəlxalq məsələlərin də müzakirə olunduğunu deyən Yunanıstanın dövlət başçısı, sonda bir daha göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzuladı.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas aprelin 5-də Heydər Əliyev Fondunda olmuşdur.

Yunanıstan dövlətinin başçısını Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Yunanıstan Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Yunanıstan Prezidentinə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Karolos Papulyas Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Yunanıstan Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

IV AZƏRBAYCAN-YUNANISTAN BİZNES FORUMU

Aprelin 6-da Bakı Biznes Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Karolos Papulyasın iştirakı ilə IV Azərbaycan-Yunanıstan biznes forumu keçirilmişdir.

Dövlətimizin başçısı Yunanıstan Prezidenti Karolos Papulyası qarşıladı.

Biznes forumda hər iki ölkədən kənd təsərrüfatı və qida sənayesi, səhiyyə və əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları, maliyyə, logistika, tikinti və digər sahələrdə fəaliyyət göstərən 250-dək iş adamı iştirak etmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV forumda çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Yunanıstan-Azərbaycan biznes forumu keçirilir və burada Yunanıstan Prezidenti iştirak edir. Mən Yunanıstan Prezidenti cənab Papulyası Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram.

Dünən Yunanıstan Prezidentinin Azərbaycana rəsmi səfəri başlamışdır. Deyə bilərəm ki, səfər çox uğurlu keçir. Dünən apardığımız danışıqlar və imzalanmış sənədlər gələcəkdə iki ölkə arasındakı münasibətlərin inkişafına xidmət göstərəcəkdir. Yunanıstan ilə Azərbaycan arasındakı əlaqələr yüksək səviyyədədir. Prezidentin səfəri və mənim 2009-cu ildə Yunanıstana səfərim siyasi əlaqələrin yüksək səviyyədə olmasını göstərir.

Eyni zamanda, iqtisadi sahədə qarşılıqlı maraqlar kifayət qədər çoxdur və bu biznes forumun təşkil olunması bunun bariz nümunəsidir. Onu deyə bilərəm ki, bu, birinci dəfə deyil ki, Yunanıstan və Azərbaycan iş adamları bir yerdə tədbir keçirirlər. 2009-cu ildə Yunanıstanda biznes forumu təşkil edilmişdir. Ondan əvvəlki dövrdə də belə tədbirlər keçirilmişdir. Yəni bu, onu göstərir ki, qarşılıqlı maraqlar kifayət qədərdir və hesab edirəm ki, bu forumda Yunanıstan iş adamlarının fəal iştirakı özlüyündə böyük bir göstəricidir.

İqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün Hökumətlərarası birgə komissiya fəaliyyət göstərir. Bu komissiya vaxtaşırı iclaslar, toplantılar keçirir və iqtisadi sahədə əməkdaşlığın istiqamətlərinin müəyyən edilməsi məsələləri öz həllini tapır. Biz istəyirik ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələr çoxşaxəli olsun. Prezidentin səfəri çərçi-

vəsində bu məsələlər müzakirə olundu və əminəm ki, iş adamları da iqtisadi əlaqələrimizin inkişafına öz töhfələrini verəcəklər.

Maraq doğuran sahələr arasında mən xüsusilə kənd təsərrüfatını qeyd etmək istərdim. Yunanıstanın bu sahədə çox böyük təcrübəsi vardır. Nəzərə alsaq ki, ölkələrimizin təbii şəraiti bir-birinə oxşayır, iqlim demək olar ki, bir-birinə çox yaxındır, Yunanıstanda kənd təsərrüfatı sahəsində əldə edilmiş nailiyyətlər bizim üçün də çox maraqlıdır. Bizdə də kənd təsərrüfatına çox böyük diqqət göstərilir və ölkə qarşısında vəzifə qoyulub ki, Azərbaycan ərzaq təhlükəsizliyini tam şəkildə daxili resurslar hesabına təmin etsin.

Azərbaycanda bərpaolunan enerji növlərindən istifadə sahəsində işlərə başlanması üçün bu yaxınlarda müvafiq tapşırıqlar verilmişdir. Yunanıstanda isə bu sahə inkişaf edib və bizim üçün maraqlı olar ki, biz onun təcrübəsindən bəhrələnək. Hesab edirəm ki, informasiya-kommunikasiya texnologiyaları, turizm, nəqliyyat, inşaat sahələrində qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr qurmaq mümkündür.

Xüsusilə mən energetika, neft-qaz sahəsində əməkdaşlığı vurğulamaq istəyirəm. Azərbaycan ilə Yunanıstan arasında bu sahədə əməkdaşlıq artıq bir neçə ildir ki, aparılır. 2007-ci ildə Azərbaycan qazı Yunanıstana nəql edilməyə başlamışdır. Dünən imzalanmış memorandumа əsasən, bu əlaqələr gələcəkdə daha da genişlənəcəkdir. Azərbaycandan Yunanıstana təbii qazın nəqlinin həcminin artırılması məsələləri öz həllini tapmalıdır. Gələcəkdə Yunanıstan Azərbaycan qazının nəqli üçün tranzit ölkə kimi öz imkanlarını təqdim etməyə hazırdır. Azərbaycan öz yanacaq resurslarını Yunanıstana nəql edir. Yəni bu sahədə əməkdaşlığın yaxşı nəticələri var. Hər iki tərəf etibarlı tərəfdaşdır və maraqlarımız tam şəkildə üst-üstə düşür.

Biz zəngin qaz potensialımızı tam şəkildə realizə etmək üçün əlbəttə ki, yeni bazarlara çıxmalıyıq və ənənəvi bazarlarda mövqeyimizi möhkəmləndirməliyik. Hesab edirəm ki, Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün Azərbaycanın resursları öz rolunu oynaya bilər və bu məsələ ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında memorandum və bəyannamə imzalanmışdır. Azərbaycanın çox böyük qaz ehtiyatları vardır. Təsdiq edilmiş ehtiyatlar 2,2 trilyon kubmetr səviyyəsindədir. Bu, minimum rəqəmdir. Biz hesab edirik ki, real rəqəm bundan artıq olacaqdır. Əminəm ki, gələcəkdə aparılacaq kəşfiyyat işləri bunu təsdiqləyəcəkdir. Hazırda Azərbaycanda qaz hasilatı 28 milyard kubmetr səviyyəsindədir. Bu, özlüyündə böyük rəqəmdir. Nəzərə alsaq ki, bizim daxili tələbatımız 10-11 milyard kubmetr səviyyəsindədir, ixrac üçün hazırda kifayət qədər imkanlar var. Növbəti illərdə on milyardlarla dollarla ölçülən investisiyalar qoyulacağını nəzərə alsaq, əlbəttə ki, qaz hasilatı ciddi şəkildə artacaqdır.

Biz Yunanıstan şirkətlərini Azərbaycana dəvət edirik və şadam ki, onlar bizim dəvətimizi qəbul ediblər. Azərbaycanda iş görmək üçün yaxşı şərait var, çox yaxşı investisiya mühiti var, xarici sərmayələr dövlət tərəfindən lazımınca qorunur. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan postsovet məkanında, həmişə olduğu kimi, ön sıralardadır. Bizdə investorlar üçün yaradılmış şəraitdən xarici və yerli iş adamları bəhrələnirlər. Təkcə keçən il ölkə iqtisadiyyatına 15,5 milyard dollar sərmayə qoyulmuşdur. Bunun 54 faizi daxili, 46 faizi isə xarici sərmayələrdir. Bu onu göstərir ki, hətta dünyada hökm sürən iqtisadi və maliyyə böhranı zamanı da xarici investorlar Azərbaycana sərmayə qoyulmasında maraqlıdırlar.

Ölkə iqtisadiyyatı sürətlə inkişaf edir. Son yeddi ildə ümumi daxili məhsul təxminən üç dəfə artmışdır, sənaye istehsalı da təxminən üç dəfə artmışdır. Ölkəmizdə 900 mindən artıq yeni iş yeri açılmışdır. İqtisadiyyatın şaxələndirilməsi işində çox ciddi addımlar atılmış və beləliklə, ölkəmizin dayanıqlı inkişafı təmin edilmişdir. Xüsusilə mən 2009-2010-cu illəri qeyd etmək istəyirəm. Çünki bu illər tarixdə maliyyə və iqtisadi böhran illəri kimi qalacaqdır. Buna baxmayaraq, 2009-2010-cu illərdə Azərbaycan iqtisadiyyatı 14 faiz artmışdır və bu ilin birinci rübündə də biz artımı müşahidə edirik.

Azərbaycan şirkətləri xarici bazarlara çıxırlar. Bu, bizim dövlət siyasətimizdir və dövlət bu təşəbbüsü irəli sürübdür. Mən şadam ki, bizim şirkətlərimiz buna qoşulublar. Həm dövlət, həm özəl şirkətlərimiz xaricdə sərmayə qoymağa başlamışdır. Xaricdə sərmayə qoyuluşu üçün başlıca şərt, əlbəttə ki, bu ölkələrlə Azərbaycan arasında olan siyasi əlaqələrdir. Yunanıstan bizim üçün dost ölkədir. Bizim əlaqələrimiz yüksək səviyyədədir. Prezidentin səfəri bu dostluğu daha da möhkəmləndirir və belə olan halda, Azərbaycan şirkətlərinin Yunanıstanda sərmayə qoyması üçün çox yaxşı şərait var.

Mən hesab edirəm ki, biznes forumu çərçivəsində bütün bu məsələlər müzakirə olunacaqdır. Yenə də demək istəyirəm ki, biz Yunanıstan şirkətlərinə Azərbaycanda iş görmək üçün bütün şəraiti yaradacağıq və eyni zamanda, Azərbaycan şirkətləri də Yunanıstanın imkanlarından bəhrələnəcəklər.

Cənab Prezident, mən Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha salamlayıram. Həqiqətən, Sizin ölkəmizə səfəriniz münasibətlərimizin inkişafında mühüm mərhələyə çevrilib və bizim əlaqələrimizə çox güclü təkan verəcəkdir. Həm siyasi, iqtisadi, mədəni əlaqələrdə, həm də insanlar arasındakı əlaqələrdə - yəni bütün bu istiqamətlərdə biz yalnız müsbət meyilləri görürük və əminəm ki, səfərdən sonra bu meyillər daha da güclənəcəkdir.

Bir daha Sizi Azərbaycanda salamlayıram, xoş gəlmisiniz!

* * *

Yunanıstan Prezidenti Karolos PAPULYAS biznes forumda çıxış edərək dedi:

-Cənab Prezident!

Xanımlar və cənablar!

Biznes forumda olmağımdan çox məmnunam. Bu tədbir ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu göstərir. Azərbaycan Qafqazda mühüm coğrafi məkanda yerləşir və xüsusilə bu regionda mühüm rol oynayır. 2009-cu ildə mən böyük məmnuniyyətlə Prezident Əliyevi Afinada keçirilmiş biznes forumu çərçivəsində salamladım və həmin vaxtdan etibarən yunan şirkətləri, yunan biznes adamları açılan bu imkanlardan istifadə etmək qərarına gəldilər. Onlar öz azərbaycanlı həmkarları ilə əlaqə yaratdılar. Biznes forumu uğurla keçdi və bu, bizim ticari münasibətlərimizə də böyük təkan verdi.

Hesab edirəm ki, ikitərəfli iqtisadi və ticari münasibətlərimiz baxımından görüləcək işlər hələ çoxdur. Biz çalışmalıyıq ki, bu əlaqələri daha da gücləndirək. Xüsusən də Yunanıstan iqtisadiyyatının ixraca işləyən sektorlarının, yəni ərzaq məhsullarının, tikinti materiallarının, kosmetika və əczaçılıq məhsullarının ixracını daha da təşviq etməklə əməkdaşlığımızı quraq.

Bugünkü tədbirdə 21 yunan şirkəti təmsil olunmuşdur. Bu onu göstərir ki, ikitərəfli əlaqələrimizdə, əməkdaşlığımızda böyük potensial mövcuddur. Biz çox şadıq ki, Azərbaycan, Azərbaycanın iş adamları bir çox layihələrdə bizim tərəfdaşlarımızdır. Hesab edirik ki, enerji, ətraf mühitin qorunması, telekommunikasiya, konsaltinq və bir çox digər sahələrdə uğurlar qazanmaq olar. Yunanıstanda ərzaq sənayesi, tikinti materialları, əczaçılıq sahələrində işlər görülə bilər.

Enerji sektoru bizim təşəbbüslərimizin ən önündə gedən bir sektor olmalıdır və ola da bilər. Hesab edirik ki, bundan sonra neftayırma zavodları sahəsində müəyyən birgə layihələri həyata keçirə bilərik. Bu, bizim münasibətlərimizi daha da gücləndirər və bu əməkdaşlıqdan irəli gələrək, digər sahələrdə də iqtisadiyyatlarımızı möhkəmləndirəcək birgə layihələri həyata keçirə bilərik.

Cənab Prezident!

Xanımlar və cənablar!

Qlobal maliyyə böhranı öz çox ağır fəsadları ilə bizim hamımızın yadında qaldı və beləliklə, biz çox ciddi tədbirlər görməyə məcbur olduq. Bu, bizim xərclərimizi də çox böyük həcmdə artırdı və əslində, iqtisadiyyata çox möhkəm bir təsir idi. Təbii ki, biz öz vergi sistemimizdə müəyyən dəyişikliklərin edilməsi və xüsusən də ölkəmizin müqayisəli baxımdan daha potensial sahələrinin yenidən strukturlaşdırılması işlərinin görülməsi sayəsində müəyyən addımları ata bildik. Bundan əlavə, qəbul edilmiş yeni qanunlar, daha təkmilləşdirilmiş qanunvericilik bazası böhranın təsirlərinin qarşısının alınmasında yardımçı oldu. İnfrastruktur layihələrinə gəldikdə, biz xüsusən turizm sahəsində yeni imkanların yaradılmasını qərara aldıq. Bu da digər xarici şirkətlər üçün çox mühüm bir imkan hesab edilə bilər. Cənab Prezident, mən ümid edirəm ki, bu biznes forumdan sonra Azərbaycanın biznes dairələri daha da həvəslənib Yunanıstan bazarına daxil olaraq öz sözünü deyəcək və çox faydalı biznes əlaqələri qurub işbirliyi yaradacaqlar. Mən qətiyyətlə inanıram ki, bu biznes forumu Azərbaycan ilə Yunanıstan arasında olan iqtisadi və ticari münasibətləri daha da gücləndirəcəkdir.

Mən biznes əlaqələrinizdə sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

* * *

Forumdan sonra prezidentlər İlham Əliyev və Karolos Papulyas Dənizkənarı milli parkda paytaxtın mənzərəsini seyr etdilər. Yunanıstan Prezidentinə son illərdə sürətlə inkişaf edən Azərbaycanın paytaxtında görülən abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ SABİQ BAŞ KATİBİ, DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ VALTER ŞVİMMERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Avropa Şurasının sabiq baş katibi, Dünya İctimai Forumunun Beynəlxalq Əlaqələndirmə Komitəsinin sədri Valter Şvimmeri qəbul etmişdir.

Valter Şvimmer Azərbaycanda keçiriləcək Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluq hissi keçirdiyini bildirdi. Bakıya hər səfərində böyük quruculuq işlərinin şahidi olduğunu vurğulayan Valter Şvimmer bunu Azərbaycanın davamlı iqtisadi inkişafının göstəricisi kimi dəyərləndirdi.

Dünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunan dövlətimizin başçısı Forumda çoxlu sayda ölkələri təmsil edən nümayəndələrin iştirakını qeyd edərək, Azərbaycanın çox mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın iqtisadi sahədə böyük uğurlar qazandığını, bu inkişafın paytaxtı və bütün regionları əhatə etdiyini bildirdi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Nursultan Nazarbayevi seçicilərin mütləq əksəriyyətinin səs çoxluğu ilə növbəti dəfə Prezident seçilməsi münasibətilə təbrik etmiş, ona ali dövlətçilik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Nursultan Nazarbayev təbrikə və göstərilən diqqətə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnun olduqlarını bildirmiş, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KRANS MONTANA FORUMUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ JAN POL KARTERONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Krans Montana Forumunun təsisçisi və prezidenti Jan Pol Karteronu qəbul etmişdir.

Jan Pol Karteron xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladı. O, ölkəmizlə və xalqımızla bağlı xoş təəssüratlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edəcəyini deyən Jan Pol Karteron bu tədbirin beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.

Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmini vurğulayan Prezident İlham Əliyev forumun sivilizasiyalararası əməkdaşlığın möhkəmləndirilməsinə, xalqların bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəyinə əminliyini bildirdi.

BAKIDA ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FORUMUN AÇILIŞ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

Aprelin 7-də Bakıda, "Gülüstan" sarayında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Forumun "Sərhədsiz dünyaya doğru" mövzusunda açılış sessiyasında iştirak etmişlər.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın irəli sürdüyü və BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəklədiyi təşəbbüsdür. Bu təşəbbüs mədəniyyətlərarası dialoqun dünyada ən təxirəsalınmaz vəzifələrdən biri olduğunu göstərir.

Bakı Forumunda mədəniyyətlərarası dialoqun konseptual, idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olunacaq, dialoqa yönələn maneələr nəzərdən keçiriləcək və onun müxtəlif mühitdə ən yaxşı formada aparılması konkret şəkildə müzakirə ediləcəkdir. Forum, həmçinin təcrübə mübadiləsi, eləcə də yeni təşəbbüslərin irəli sürülməsi baxımından əlverişli imkanlar yaradacaqdır.

Dünyanın bütün qitələrindən gəlmiş insanların təmsil olunduğu forumda siyasi liderlər və ictimai xadimlər, beynəlxalq təşkilatların rəhbərləri, dövlət və hökumət nümayəndələri, mədəniyyət nazirləri və mədəniyyət məsələləri üzrə səfirlər, deputatlar, diplomatlar, merlər və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, jurnalistlər, mədəniyyət üzrə ekspertlər və tanınmış ziyalılar iştirak edirlər.

"Euronews" telekanalı media tərəfdaşı kimi öz yayım şəbəkələri ilə forumu təşviq edir.

Forum Azərbaycana həsr olunmuş videofilmin nümayişi ilə başladı.

Dövlətimizin başçısı açılış sessiyasında nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Forumun iştirakçılarına Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm.

Mədəniyyətlərarası forumun Azərbaycanda keçirilməsi böyük əhəmiyyət kəsb edir. Mən çox şadam ki, bizim qonaqlarımız dəvətimizi qəbul edib Azərbaycana gəlmişlər və hesab edirəm ki, bu gün, sabah çox səmimi, açıq şəkildə geniş fikir mübadiləsi aparılacaqdır. Ümid edirəm ki, forumun nəticələri çox müsbət olacaq və mədəniyyətlərarası

dialoqun inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Təsadüfi deyil ki, bu forum məhz Azərbaycanda keçirilir. İki ildən artıqdır ki, "Bakı prosesi" gedir. "Bakı prosesi"nin təməli Azərbaycanda qoyulmuşdur. 2008-ci ildə Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin toplantısında Azərbaycan tərəfindən İslam ölkələrinin nümayəndələri dəvət olunmuş və birgə keçirilmiş tədbirdə çox səmimi və açıq fikir mübadiləsi aparılmışdır. O tədbirin sonunda "Bakı bəyannaməsi" qəbul edilmişdir. İlk dəfə olaraq, bu formatda beynəlxalq tədbir keçirilmişdir. 2009-cu ildə isə İslam Konfransı Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısında Avropa ölkələrinin nümayəndələri dəvət olunmuş və bir daha bu formatda görüş keçirilmişdir. Keçən il - 2010-cu ildə Bakıda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Həmin zirvə görüşünün çox böyük əhəmiyyəti olmuşdur və o toplantının müsbət nəticələrini biz bu gün də görürük.

Bu il - 2011-ci ildə Mədəniyyətlərarası Dialoq Forumu Bakıda keçirilir. Bu ilin payızında Azərbaycanda birinci beynəlxalq humanitar forum keçiriləcəkdir. Yəni bütün bu tədbirlər onu göstərir ki, güclü iradə olan yerdə mədəniyyətlərarası dialoqun məzmunu da dolğun olur və bu görüşlər bütün xalqları bir-birinə daha da yaxınlaşdırır və bizi daha da birləşdirir. Bizim niyyətimiz bundan ibarətdir.

Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər. Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilmişdir. Əlbəttə, bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır. Çünki əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır. Bütün dövrlərdə Azərbaycanda xalqlar bir ailə kimi yaşamışlar, onları həmişə dostluq münasibətləri bağlamışdır. Biz çox şadıq ki, indi, Azərbaycanın müstəqil ölkə kimi inkişaf etdiyi dövrdə bu müsbət meyillər daha da güclənir.

Azərbaycanda bütün xalqların nümayəndələri bərabərhüquqlu vətəndaşlardır, bütün tarixi və dini abidələr qorunur. Azərbaycanda din azadlığı, vicdan azadlığı tam şəkildə bərqərar olunubdur. Müstəqillik dövründə dövlət tərəfindən yüzlərlə dini abidə - məscidlər, kilsələr, sinaqoqlar tikilib və təmir edilmişdir və bu proses indi də davam edir.

Yəni Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması artıq faktdır və bu, bizim güc mənbəyimizdir. Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir. Biz tam əminik ki, dini və milli amildən asılı olmayaraq, istənilən cəmiyyətdə normal münasibətlər qurmaq mümkündür. Əlbəttə, bunun üçün ənənələr lazımdır, eyni zamanda, dövlət siyasəti də lazımi səviyyədə aparılmalıdır. Azərbaycanda hər iki amil mövcuddur. Həm tarixi keçmişimiz bugünkü şəraiti bizim üçün yaradır, həm də bu sahədə dövlət siyasətimiz birmənalıdır. Bir daha demək istəyirəm ki, bizim gücümüz birliyimizdədir. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər bir kəs bizim dəyərli vətəndaşımızdır. Mən şübhə etmirəm ki, Azərbaycanda milli və dini dözümlülük məsələləri bundan sonra da uğurla öz həllini tapacaq. Azərbaycan vətəndaşları bundan sonra da bir ailə kimi yaşayacaqlar.

Biz istəyirik ki, ölkəmizdə yaranmış bu təcrübə həm öyrənilsin, həm bəlkə başqa ölkə-

lər üçün də maraq doğursun. Çünki bu, həqiqətən nadir bir təcrübədir və "Bakı prosesi"nin başlanması və uğurla davam etdirilməsi onu göstərir ki, biz ortaya siyasi iradə qoyduqda, məqsədə nail ola bilirik.

Mən ümid edirəm ki, Mədəniyyətlərarası Dialoq Forumu ənənəvi xarakter alacaqdır. Bundan sonrakı illərdə də Azərbaycanda belə tədbirlər keçiriləcək və mən tam əminəm ki, hər bir belə tədbir böyük məna daşıyır. Sadəcə olaraq, görüşüb fikir mübadiləsi aparmaq kifayətdir ki, artıq müsbət bir impuls verilsin. Nəzərə alsaq ki, bugünkü tədbirin çox dəqiq və konkret nəticələri olacaq, mən buna əminəm, əlbəttə ki, bu, xalqları daha da birləşdirəcək və insanlar arasında dostluq, mehriban qonşuluq əlaqələrini daha da gücləndirəcəkdir.

Azərbaycan islam dünyasının tərkib hissəsidir. İslam bizim dinimizdir, islam dəyərləri, milli dəyərlər bizim üçün çox əzizdir. Müstəqillik dövründə Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. Müstəqillikdən əvvəlki dövrdə milli mənsubiyyətimizi, milli xarakterimizi qoruyub saxlamaq üçün bizim tariximiz, mədəniyyətimiz, dilimiz, dinimiz müstəsna rol oynamışdır.

Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür və müsəlman ölkələri ilə bizim çox sıx əlaqələrimiz vardır. 2009-cu ildə Bakı İslam mədəniyyətinin paytaxtı elan edilmişdi. 2018-ci il üçün isə bu şərəfli ada Azərbaycanın qədim şəhəri Naxçıvan layiq görülmüşdür.

Eyni zamanda, Azərbaycan bütün dövrlərdə Qərb dünyasına da çox bağlı, çox yaxın olubdur. Müsəlman Şərqində ilk demokratik respublika 1918-ci ildə Azərbaycanda yaradılmışdır. Müsəlman Şərqində ilk teatr, məhz Azərbaycanda yaranmış, ilk opera burada səhnəyə qoyulmuşdur.

Qadınların səs vermək hüququ müsəlman aləmində ilk dəfə məhz Azərbaycanda təmin edilmişdir. Yəni bizdə dünyəvi dövlətin bu ənənələri var, baxmayaraq ki, uzun illər, əsrlər boyu Azərbaycan müstəqillikdən məhrum edilmişdi. Buna baxmayaraq, o vaxt qısamüddətli müstəqil həyatımız o qədər güclü ənənələr qoymuşdur ki, bunlar bu gün də yaşayır və cəmiyyətimizin inkişafı üçün o ənənələrin müstəsna rolu var.

Azərbaycan, eyni zamanda Avropa Şurasının üzvüdür. İslam Konfransı Təşkilatının və Avropa Şurasının üzvlərinin sayı yüzdən artıqdır. Yəni bu, özlüyündə nadir bir təcrübədir. Təsadüfi deyil ki, mədəniyyətlərarası dialoqun keçirilməsi üçün məhz Azərbaycan həm coğrafi, həm tarixi baxımdan, həm bugünkü reallıqlar baxımından mərkəzə çevrilir. Biz bunu çox alqışlayırıq. Əlbəttə, təkcə bizim təşəbbüslərimiz bu məsələyə nail olmaq üçün kifayət etməzdi. Bizim qonaqlarımız, Azərbaycana xoş münasibət bəsləyən, bu gün forumda iştirak edən bütün qonaqlar Bakının bu sahədə mərkəzə çevrilməsi üçün öz dəstəyini vermiş olurlar.

Ölkəmiz 20 ilə yaxındır ki, müstəqil həyat yaşayır. Bu illər ərzində dövlətçiliyimizin əsasları qoyulmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir, iqtisadi və siyasi islahatlar uğurla aparılır. Ölkəmiz müstəqillik dövründə böyük və şərəfli yol keçmişdir. Bu gün bütün qonşularımızla gözəl, səmimi münasibətlərimiz var. Biz bütün ölkələrlə qarşılıqlı maraqlar, qarşılıqlı hörmət əsasında qurulmuş ikitərəfli və çoxtərəfli münasibətlərimizin inkişafında maraqlıyıq.

Azərbaycanda hökm sürən sabitlik və müşahidə olunan inkişaf ölkəmizi gücləndirir. Son illərdə Azərbaycan dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf etmiş ölkə olmuşdur. Son yeddi il ərzində ölkə iqtisadiyyatı təxminən üç dəfə artmışdır. Bütün sosial proqramlar uğurla icra edilir. İnsanların yaşayış səviyyəsi artır. Ölkədə böyük infrastruktur layihələri keçirilir. Yəni bu gün Azərbaycan müstəqil ölkə kimi tam şəkildə özünü təmin edir və şübhə etmirəm ki, bizim uğurlu inkişafımız gələcəkdə də özünü göstərəcəkdir. Bütün iqtisadi və siyasi islahatlarla bərabər, ölkəmizin güclənməsi işində görülmüş işlərlə bərabər, cəmiyyətdə mövcud olan ab-hava, hökm sürən meyillər bizi daha da gücləndirir. Millətlərarası münasibətlər xüsusi əhəmiyyət daşıyır. Bu, bütün dövrlərdə belə olmuşdur. Xüsusilə də indiki zamanədə bu məsələlərə xüsusi diqqət verilməlidir. Mən hesab edirəm ki, hər bir cəmiyyətdə, hər bir dövlətdə bu məsələ ilə bağlı çox geniş proqramlar icra olunmalıdır. Siyasət düzgün aparılmalıdır. Yenə də deyirəm, Azərbaycandakı milli və dini dözümlülük bizim tarixi ənənələrimizə əsaslanır. Bu, cəmiyyətin tələbidir. Eyni zamanda, düzgün dövlət siyasəti aparılmasa, bu işlər lazımi səviyyədə təşkil oluna bilməz. Hər bir cəmiyyətdə düzgün siyasət aparılmalıdır. İnsanlar bir-birinə daha da yaxın olmalıdır, dini zəmində qarşıdurmaya yol verilməməlidir. Hər bir məsuliyyətli iqtidar bu məsələlərə çox böyük həssaslıqla yanaşmalıdır. Bəzi hallarda süni şəkildə yaradılmış problemlər aradan qaldırılmalıdır. Bəzi hallarda təxribat xarakterli addımlar, hərəkətlər daha da böyük faciələrə gətirib çıxarır.

Yəni hər bir məsuliyyətli siyasətçi, ictimai xadim, vətəndaş öz əməyi ilə, öz sözü ilə müsbət meyilləri gücləndirməlidir. Bu gün dünyada qloballaşma haqqında, mədəniyyətlərarası dialoq haqqında, multikulturizm haqqında geniş diskussiyalar aparılır. Mən bunu müsbət hal kimi qiymətləndirirəm. Çünki bu məsələlər ətrafında daim fikir mübadiləsi aparılmalıdır. Ancaq bir məqsədlə - necə edək ki, xalqlar bir-birinə daha da yaxın olsunlar. Necə edək ki, dünyada dini zəmində qarşıdurma olmasın, xalqlar, sivilizasiyalararası məsələlər müsbət istiqamətdə inkişaf etsin. Qarşılıqlı inam artsın, qarşılıqlı hörmət artsın. Başqa dinin nümayəndələrinə hörmət, başqa dinin tarixi və dini abidələrinə hörmət, ilk növbədə, öz dininə olan hörmətin əlamətidir. Bizim gücümüz milli və dini müxtəlifliyimizdədir. Biz Azərbaycanda bunu belə başa düşürük. Ona görə hər bir yerdə bu məsələlərə xüsusi diqqət göstərilməlidir. Azərbaycanın təcrübəsi həm keçmiş dövrdəki, həm də artıq iyirmi illik müstəqillik təcrübəsi onu göstərir ki, multikulturizmin çox müsbət nəticələri var. Multikulturizmə qarşı çıxış edənlər bu məsələni daha da geniş təhlil etməlidirlər. Müsbət təcrübəyə malik olan ölkələrin təcrübəsi öyrənilməlidir. Əgər bu gün multikulturizmə qarşı müəyyən fikirlər səslənirsə, sual verilməlidir: Bəs bunun əvəzinə nə təklif olunur? Özünütəcridmi? Yoxsa, başqa dinlərin nümayəndələrinə qarşı ayrı-seçkilikmi?

Bunlar çox ciddi məsələlərdir və böyük müzakirəyə ehtiyac var. Biz çalışırıq ki, forum çərçivəsində bu məsələlər ətrafında fikir mübadiləsi aparılsın, təkliflər verilsin. Təkliflər, sadəcə olaraq, şüar xarakteri daşımasın, artıq mövcud olan təcrübəyə əsaslansın. Harada problemlər varsa, o problemlər aşkarlanmalı, aradan qaldırılmalıdır. Əgər biz hamımız istəyiriksə ki, millətlərarası, dinlərarası münasibətlər sağlam zəmində qurulsun, buna böyük ehtiyac var. Xüsusilə indiki zamanədə. Çünki qloballaşan dünyada informasiya mübadiləsi də daha da sürətlə aparılır. İstənilən yerdə deyilən söz dərhal dünyaya yayılır, düşünülməmiş, yaxud da təxribat xarakterli hər hansı bir addım dərhal adekvat reaksiya ilə üzləşir. Ona görə bu məsələlər, məsuliyyət, xoş niyyət və müsbət

təcrübə əsasında aparılan siyasət xüsusi əhəmiyyət daşıyır.

Mən heç də demək istəmirəm ki, Azərbaycanda bütün işlər ən yüksək səviyyədə görülür. Əlbəttə ki, cəmiyyətdə problemlər var, çətinliklər var. Biz müstəqillik dövründə böyük yol keçmişik. Yolumuz çox çətin olub, biz müharibə də görmüşük, işğal da görmüşük. Torpaqlarımız hələ də işğal altındadır. Beynəlxalq təşkilatların qətnamələrinə baxmayaraq, Ermənistan hələ də Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarını işğal altında saxlayır.

Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyon azərbaycanlı öz doğma torpağından qaçqın-köçkün düşmüşdür. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilmir. Baxmayaraq, orada göstərilib ki, işğalçı qüvvələr Azərbaycanın zəbt edilmiş torpaqlarından çıxarılmalıdır. İslam Konfransı Təşkilatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT də oxşar qətnamə və qərarlar qəbul etmişdir. Ancaq əfsuslar olsun ki, hələ də işğal davam edir. Biz ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verəcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və işğaldan əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Biz müstəqilliyimizin ilk illərində vətəndaş müharibəsini də görmüşük. Böyük çətinliklə əldə edilmiş müstəqillik faktik olaraq əldən gedirdi və vətəndaş müharibəsi ölkəmizi uçurum kənarına qoymuşdu. Biz iqtisadi tənəzzül görmüşük, inflyasiya min faizlərlə ölçülürdü, sənaye istehsalı, demək olar ki, iflic vəziyyətə düşmüşdü. Ölkədə qanunsuz silahlı birləşmələr fəaliyyət göstərirdi. Bütün bunlar müstəqillik dövrünün ilk illərinə təsadüf edən hadisələrdir. Azərbaycan xalqının yaddaşı çox möhkəmdir, biz o illəri xatırlayırıq.

Bu gün Azərbaycan sürətlə inkişaf edən, sabit ölkədir. İqtisadi cəhətdən tam şəkildə öz daxili resurslarına arxalanır. Azərbaycan siyasi cəhətdən müasir inkişaf yolunu seçmiş bir ölkədir, güclü milli ənənələr üzərində müasir dünyəvi dövlət qurulur. Bütün azadlıqlar var, insanlar təhlükəsizlik şəraitində yaşayırlar. Son yeddi il ərzində 900 mindən artıq iş yeri açılmışdır və işsizliyin, demək olar ki, əsas hissəsi aradan qaldırılmışdır. Son yeddi il ərzində Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı 4,5 dəfə azalmışdır. Yəni ölkədə aparılan iqtisadi islahatlar, siyasi islahatlar və sosial ədalət siyasəti bax, bu vəziyyətə gətirib çıxarmışdır.

Bizim müstəqillik tariximiz qısa olsa da, özlüyündə bir göstəricidir. Dağılmış vəziyyətdə olan, demək olar ki, parçalanan ölkədən bu gün müasir, inkişaf edən və bölgədə öz rolunu artıran ölkəyə çevrilmişik. Bunu Azərbaycan xalqı edibdir. Azərbaycan xalqının istedadı, zəhməti hesabına buna nail olmuşuq. Bu gün biz təkcə ölkədaxili məsələlərlə məşğul deyilik və bu forumun keçirilməsi daha çox beynəlxalq məna daşıyır. Sadəcə, biz istəyirik ki, Bakıda keçirilən və gələcəkdə keçiriləcək belə mötəbər tədbirlər ənənəvi xarakter alsın və burada müzakirə edilən və ediləcək məsələlər müsbət nəticəyə gətirib çıxarsın.

Bu foruma gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Bir daha sizə öz minnətdarlığımı bildirmək istəyirəm ki, bu gün bizimlə bərabərsiniz. Forumun iştirakçılarının əksər hissəsi ilk dəfədir ki, Azərbaycana gəlir. Hesab edirəm ki, sizin üçün də ölkəmizlə tanışlıq maraqlı olacaqdır. Mən foruma uğurlar arzulayıram. Ümid edirəm ki, forumun çox gözəl nəticələri olacaq və belə mötəbər tədbirlər gələcəkdə Azərbaycanda ənənəvi olaraq keçiriləcəkdir. Sağ olun.

* * *

AŞPA-nın sədri Mövlud Çavuşoğlu Forumda çıxış edərək dedi:

- Belə bir mötəbər, yüksək səviyyəli beynəlxalq tədbir hazırda cəmiyyətlərimizin üzləşdiyi ən təxirəsalınmaz vəzifələrdən biri olan mədəniyyətlərarası dialoq məsələsini müzakirə etmək məqsədilə bütün dünyadan nazirləri, siyasətçiləri, yüksək rütbəli rəsmiləri Bakıda bir araya gətirmişdir.

Prezident İlham Əliyevin bu Forumda iştirakı Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə siyasi sadiqliyini nümayiş etdirir. Avropa Şurası bunu yüksək dəyərləndirir.

Mən bu Foruma bu qədər beynəlxalq tərəfdaşların dəstək verməsi faktından məmnunam. YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, İSESKO, Avropa Şurası və şərəflə sədrlik etdiyim Parlament Assambleyası Foruma dəstək vermişlər.

Bu gün dünyada mədəniyyətlərarası dialoq sahəsində mövcud olan çoxsaylı ideyaların, perspektivlərin və yanaşmaların müzakirə ediləcəyi bu forumun miqyası olduqca böyükdür.

Xanımlar və cənablar, Forumumuz "Sərhədsiz dünyaya doğru" devizi altında keçirilir. Avropa əsrlər boyu bu məqsədə xidmət etmişdir və mən çox şadam ki, bu gün sizinlə həmin təcrübəmizi bölüşürəm.

Hörmətli dostlar, tarixən Avropa modeli hər zaman çoxmədəniyyətli olub. Bununla belə, ötən əsrlərdə Avropa istər dil, etnik, dini, istərsə də ideoloji fərqlərin rədd edilməsindən irəli gələn dəhşətli müharibələr arenası olmuşdur. Bu gün bütöv və çoxmədəniyyətli cəmiyyətlərin qurulmasında bir çox nailiyyətləri əldə etməyimizə baxmayaraq, bu ahəngdar inkişaf hələ də ədavət, anlaşmanın çatışmaması, münasibətlərdə böyük gərginliyin olması, ayrı-seçkilik, ksenofobiya və zorakılıq kimi vəhşi hərəkətlərlə daim təhlükə altına salınır. Bu çağırışa Avropanın cavabı nədən ibarətdir?!

Cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün təmsil etdiyim təşkilat - Avropa Şurası demək olar ki, bütün Avropa ölkələrini ümumi dəyərlər və prinsiplər ətrafında birləşdirir. Siyasi ideyalar, mədəniyyətlər, dillər və dinlərin müxtəlifliyi Avropa Şurasında təmsil olunur. Uğurumuza aparan yol məhz müxtəlifliyə əsaslanan birlikdir. Müxtəlifliyimiz bizə bir çox ideyaları və yaxşı təcrübəni öyrədir. Biz ümumi dəyərlərdən çıxış edərək irəliyə doğru addımlar atırıq. Bizim ümumi dəyərlərimiz demokratiya, insan hüquqları və qanunun aliliyidir. Bu dəyərlər Avropa İnsan Hüquqları Konvensiyasının əsasında dayanır. Bu dəyərlər, eyni zamanda, bir çox qanunvericilik normalarına, standartlara, mexanizmlərə və yaxşı təcrübəyə əsaslanırlar. Həmin fundamental dəyərlər nəinki Avropanın və ümumiyyətlə universal xarakter daşıyan dəyərlərdir. Onların həyata keçirilməsi mədəniyyətlərarası dialoqun aparılması üçün ilkin şərtdir. Siyasi plüralizm, fikir və ifadə azadlığı, insanlar arasında bərabərlik, ayrı-seçkiliyin aradan qaldırılması, hakimiyyətlərin bölünməsi, cəmiyyət daxilində tarazlı münasibət, qanunverici əsaslar - bütün bunlar fundamental elementlərdir ki, bizim mədəniyyətlərarası dialoqun çiçəklənməsi üçün mühit yaradır.

M.Çavuşoğlu qeyd etdi ki, mədəniyyətlərarası dialoqun yaradılması üçün mühit zəruridir və bu mühitin yaradılması ilə bağlı məqsədə çatmaq əsas şərtdir. AŞPA sədri mədəniyyətlərarası dialoqun əldə edilməsi yolunda parlamentlərin də roluna diqqət çəkərək bildirdi:

-Demokratik qaydada seçilən parlamentlər öz mahiyyəti ilə siyasi, etnik, mədəni və dini müxtəlifliyin qorunması üçün addımlar atmalıdırlar. Bu da bizim cəmiyyətlərdə mövcuddur. Məhz bundan irəli gələrək biz siyasətçilər çalışmalıyıq ki, bu, daim həm bizim, həm də seçicilərin marağında olsun. İkincisi, biz çalışırıq ki, milli tədbirlər planının tərtibi üçün müəyyən addımlar atılsın və bu tədbirlər planında mədəniyyətlərarası dialoq xüsusi yer tutsun. Bundan əlavə, əlimizdən gələni etməliyik ki, hökumətlər öz siyasi və iqtisadi strategiyalarının formalaşdırılmasında mədəniyyətlərarası amili xüsusi olaraq nəzərə alsınlar. Üçüncüsü və ən vacibi ondan ibarətdir ki, biz bütün cəmiyyətin üzvlərinin, o cümlədən milli azlıq qrupları, etnik və dini icmalar, vətəndaş cəmiyyətinin üzvlərinin bu proseslərdə hər hansı bir ayrı-seçkilik olmadan iştirakını təmin etməliyik. Bu, hamımızın marağındadır.

Əlbəttə ki, beynəlxalq və parlamentlərarası əməkdaşlıq bu prosesdə xüsusi əhəmiyyət daşıyır. Son bir neçə il ərzində Avropa Şurası Parlament Assambleyası mədəniyyətlərarası dialoqa aid bir sıra məruzələri dinləmişdir. O cümlədən hökumətlər və parlamentlər üçün tövsiyələr hazırlamış və təqdim etmişdir. Bizim ən sonuncu hesabatlarımızda xüsusən Avropada islamla bağlı vəziyyət, islamizm və islamofobiya, ekstremizmə qarşı mübarizə kimi mühüm məsələlər və milli təhlükəsizliyə aid olan digər suallar əksini tapmışdır. Mən sizin hamınızı bu məruzələrlə tanış olmağa dəvət edirəm və əminəm ki, siz orada bir çox maraqlı ideyalar və konkret təşəbbüslərlə tanış olacaqsınız.

Növbəti həftə Assambleyamızda mühüm bir debat keçiriləcəkdir. Bu debatın mövzusu mədəniyyətlərarası dialoqun dini elementlərinə aid olacaqdır. Debatda Avropada bir çox dini qurumların, konfessiyaların nümayəndələri iştirak edəcəklər.

Onu qeyd etmək istəyirəm ki, 2011-ci ilin iyun ayında Assambleyanın sessiyasında digər bir debat keçiriləcəkdir. Debatın mövzusu "XXI əsrdə birgə yaşama" mövzusu olacaqdır və bu, bizim ekspertlərdən ibarət qrupumuzun məruzəsinə əsaslanan və həmin məruzədən irəli gələn bir yığıncaq olacaqdır. Bu məruzə may ayında İstanbulda nazirlər səviyyəsində keçiriləcək növbəti sessiyada müzakirə olunacaqdır. Əminəm ki, bu debat da, həmçinin sizin üçün bir çox imkanlar açacaqdır.

* * *

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri çıxış edərək dedi:

- Bizim bugünkü forumumuz mədəniyyətlərarası dialoq mövzusuna həsr olunmuşdur. Bu fürsətdən istifadə edərək, sizə öz minnətdarlığımı bildirirəm. Azərbaycan Respublikasının Prezidentinə və onun rəhbərliyi altında bu forumu təşkil edənlərə dərin təşəkkürümü bildirirəm. Sivilizasiyalararası alyansın və mədəniyyətlərarası dialoqun təşviq edilməsi üçün Azərbaycan Respublikası tərəfindən davamlı şəkildə göstərilən səylərə görə öz dərin təşəkkürümü bildirirəm. Biz bilirik ki, xalqlar və millətlər arasında dözümlülüyün və birgə yaşamanın gücləndirilməsi üçün bu cür tədbirlərin çox böyük mənası vardır. Mən bu ölkənin çiçəklənməsini və tərəqqisini arzulayıram. Belə müdrik

Prezidentin rəhbərliyi altında sizin ölkənizə böyük inkişaf diləyirəm.

Mən bu mövzunu bir çox tədbirlər çərçivəsində qaldırmışdım. İndi isə istərdim ki, qeyd edilmiş bu məqamları daha ümumi şəkildə sizin qarşınızda bildirim. Çünki hesab edirik ki, mədəni müxtəliflik bizə bir çox üstünlüklər gətirir. Biz bundan bəhrələnməliyik. Əgər bu gün biz müxtəliflikdən və mədəniyyətlərarası dialoqdan danışırıqsa, bu, bizim ümumi şəkildə qəbul etdiyimiz dəyərlərə əsaslanan bir məsələdir.

Beləliklə, biz xüsusilə qeyd etməliyik ki, qloballaşma artıq bütün dünyada gedir. Qloballaşma artıq qaçılmaz bir prosesə çevrilib və hüdudları çox genişdir. Bu o deməkdir ki, qloballaşma müxtəlif mədəniyyətlərin nümayəndələri arasında təmasları artırmış, mədəni müxtəlifliyi daha da genişləndirmişdir. Artıq bu proses ləngiyə bilməz. Beynəlxalq ictimaiyyət artıq bu məsələni öz gündəliyində vacib, mühüm bir məsələyə çevirərək, öz müzakirələrinin əsas mövzusu kimi qəbul edir.

Bu gün mən xüsusi olaraq bildirmək istəyirəm ki, biz mədəniyyətlərarası dialoqun qarşılıqlı hörmət prinsiplərinə əsaslanmasını olduqca mühüm hesab edirik. Çünki bəzi hallarda dünyanın bir çox yerində baş qaldıran ekstremizm, irqçilik və ayrı-seçkilik kimi mənfi təzahürlərin qarşısı məhz bu cür addımlar vasitəsilə alına bilər. Biz hamımız o faktla razılaşırıq ki, mədəniyyətlərarası dialoqun, sivilizasiyalararası alyansın təşviq edilməsi hər bir ölkənin milli təhlükəsizliyi üçün də vacibdir. Qarşıya qoyduğumuz bu məqsədlərə nail olmaqdan ötrü, ksenofobiyanın aradan qaldırılması, etnik qarşıdurmanın, ayrı-seçkiliyin tam ləğv edilməsi üçün bu cür dialoqun, bu cür mədəni müxtəlifliyin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Dünyada hamı bunu yaxşı dərk edir.

Baş direktor 2001-ci ildə BMT Baş Məclisindən başlanan və Azərbaycan tərəfindən daha çox dəstəklənən bu prosesin real nəticələrinin özünü tədricən göstərdiyini bildirdi. Belə olan halda isə sivilizasiyaların mədəni zənginliklərinin qorunub saxlanmasına nail olmaq mümkündür.

Əbdüləziz bin Osman əl-Tüveycri mədəniyyətlərarası dialoqun genişləndirilməsinin vacib olmasına diqqət çəkərək dedi ki, birgə yaşama, dözümlülük kimi dəyərlər beynəlxalq səviyyədə bu dialoqa, sülhün bərqərar olmasına öz töhfəsini verə bilər. Yalnız bu yolla cəmiyyətlər arasında ümumi anlaşmanın təmin olunacağını bildirən baş direktor dedi:

- Mən böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, Azərbaycan Respublikası mədəniyyətlərarası təmasların, dialoqun təşviq edilməsi üçün indiyə qədər bir çox tədbirlər keçirmişdir. Özü də bu tədbirlər beynəlxalq səviyyədə keçirilmişdir. Buna görə mən Azərbaycan Prezidentinə, habelə Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinə öz təşəkkürümü bildirirəm ki, onlar bu işin irəliyə doğru aparılmasında çox fəal olmuşlar.

Mən hesab edirəm ki, bizim forum artıq beynəlxalq səviyyədə yeni bir başlanğıc nöqtəsinə çevrilə bilər. Beləliklə, biz mövcud olan bütün böhranların, qeyri-sabitliyin aradan qaldırılmasına nail ola bilərik.

* * *

YUNESKO-nun strateji planlaşdırma üzrə baş direktorunun müavini Hans D'Orvil təşkilatın baş direktoru İrina Bokovanın forum iştirakçılarına təbriklərini çatdırdı.

Hans D'Orvil bu forumun mövzusunun YUNESKO üçün də vacib olduğunu bildirərək dedi:

- Bakıda bu forumun keçirilməsinin vaxtı çoxdan yetişmişdi və bu, zəruri idi.

Hazırda dünyanın qarşılaşdığı, üzləşdiyi çağırışların çətinliyini və mürəkkəbliyini nəzərə alaraq, biz hesab edirik ki, bu kimi problemlərin aradan qaldırılması yalnız birgə səylər vasitəsilə mümkündür.

Beləliklə, mən öz səmimi təbriklərimi əsas təşkilatçı olmuş Azərbaycan hökumətinə ünvanlamaqla yanaşı, YUNESKO ilə tərəfdaş olan BMT-nin Sivilizasiyalararası Alyansına, Avropa Şurasına və İSESKO-ya da öz təşəkkürümü bildirirəm.

Azərbaycan özü nadir bir məkandır və bu məkanda çox sivilizasiyalar, mədəniyyətlər bir-biri ilə qovuşur. Biz özümüzü sanki dinamik bir mədəni məkanda hiss edirik. Burada müxtəlif mədəni təsirlər, ümumi tarixi irs mövcuddur. Bütün bunlar bizim müştərək gələcəyimiz üçün yol açır.

Cənab Prezident!

Xanımlar və cənablar!

Bizim gündəliyimizdə duran məsələlər nədən ibarətdir? Biz ilk öncə konseptual siyasəti və onun çərçivəsini nəzərdən keçirməliyik, mədəniyyətlərarası dialoqa qarşı duran çağırışları nəzərə almalıyıq. Bu, eyni zamanda, maneələrin nəzərdən keçirilməsi və aradan qaldırılması yollarının araşdırılması üçün vacib olacaqdır. Biz hesab edirik ki, mədəniyyətlərarası dialoq YUNESKO-nun onurğa sütununu təşkil edən əsas elementdən biridir. Sülh qarşılıqlı anlaşmaya əsaslanmalıdır və bu sülh dünyanın hər bir guşəsində və qitəsində olmalıdır.

Bu prosesdə əsas idealların gerçəkləşdirilməsi, müharibə və bəşəriyyət üçün digər təhlükələrin aradan qaldırılması vacibliyini vurğulayan H.D'Orvil qeyd etdi ki, mədəniyyətlərarası dialoq universal xarakter daşıdığına görə bu proses həm də sülhün, mədəni anlaşmanın, yoxsulluğun aradan qaldırılmasının hərəkətverici amilidir.

O, mədəniyyətlərarası dialoqun əldə edilməsində YUNESKO-nun uşaqlarla bağlı yeni platforma müəyyən etdiyini, bu prosesdə təhsil və mədəni irs məsələsinə xüsusi diqqət yetirilməsinin vacibliyini bildirdi.

* * *

BMT-nin Sivilizasiyalar Alyansı Katibliyinin icraçı direktoru Mark ŞUER çıxış edərək dedi:

- Mədəniyyətlərarası dialoq qlobal gündəlikdə hər zaman yüksək yerdə olmalıdır ki, biz insanları səfərbər edə bilək. Məhz Bakı Forumunun sessiyalarının birində müzakirə edilən mövzu ondan ibarətdir ki, biz bir tərəfdən müxtəlifliyi, mədəniyyətlərarası dialoqu, sülh və inkişafı, digər tərəfdən bunlar arasında əlaqəni təmin etməliyik.

2011-ci ilin dekabrında alyansın növbəti forumunu təşkil edəcək Qətər dövləti bu yanaşmanın inkişaf etdirilməsində aparıcı rol oynayır.

Biz hazırda Bakıda görüşmək imkanının yaradılmasına görə təşəkkürümüzü bildiririk.

Çünki burada bir çox şəxsiyyətlər, bizim çox sevimli, dəyərli tərəfdaşlarımız əyləşiblər. Bizi bu tədbirə Azərbaycan dəvət edib. Biz xüsusi olaraq ona görə təşəkkürümüzü bildiririk ki, məhz bu forum çox münasib bir vaxtda keçirilir. Bir çox tərəfdaşlar, çoxlu dostlarımız, dünyanın müxtəlif yerlərindən bu sahədə mühüm rol oynayan şəxslər Bakıda bir araya gəliblər. Məhz Azərbaycan bu Forumun baş tutması üçün böyük səylər göstərmişdir.

Gənclər dəyişiklikləri irəliyə doğru aparan əsas qüvvədir. Biz inanırıq ki, onlar öz enerjisindən, gücündən istifadə edərək, bizim qarşımızda duran bu paradiqmanın həllinə də öz töhfələrini verəcəklər. Bir çox hallarda onlar ümumi dəyərləri daha yaxşı görür, anlayırlar və etiraf edirlər ki, müxtəliflikdən heç də qorxmaq, çəkinmək lazım deyildir. Əslində, bu özü gözəl bir məfhumdur. O, plüralizmi yarada, yeni perspektivləri açа, ehkamları aradan qaldıra bilər. O, eyni zamanda, sürətlə dəyişən dünyaya bizim uyğunlaşmağımıza yardım edə bilər. Mən qeyd etmək istəyirəm ki, dünyada müxtəliflik mövcuddur. Lakin hesab edirik ki, bu Forumun keçirilməsi aramızda olan əməkdaşlığı daha da gücləndirəcəkdir.

M.Şuer bu Forumdan irəli gələrək bir çox işlərin görülməsinin zəruriliyini bildirdi. Qeyd etdi ki, qlobal sivilizasiyalarla bağlı məlumatlar daha da geniş arealda yayılmalı, qarşıya qoyulan məqsədlərə nail olunması üçün hər bir fərd əlindən gələni etməlidir. Vətəndaş cəmiyyətləri arasında anlaşma təmin edilməli, bu prosesdə incəsənətin rolu artırılmalıdır. M.Şuer bildirdi ki, bu tədbir mədəniyyətlərarası təmasların genişləndirilməsi üçün yeni üfüqlər açacaqdır. Eyni zamanda, Bakı forumunun universal dəyərlərə əsaslanan qlobal sivilizasiyanın yeni elementlərini müəyyən etməkdə mühüm rolu olacaqdır.

* * *

Krans Montana Forumunun təsisçisi və prezidenti Jan Pol Kerteron Forumun yüksək səviyyədə təşkil edildiyinə görə, Azərbaycan Prezidentinə təşəkkürünü bildirərək dedi:

- Çox yaxşıdır ki, bu tədbir məhz burada, Azərbaycanda keçirilir. Çox yaxşıdır ki, Siz bu ölkənin Prezidentisiniz.

Cənab Prezident, mən çıxışıma ilk növbədə Prezident Heydər Əliyevin rolunu qeyd etmədən başlamazdım. Mən bilirəm ki, o, bu ölkəyə bir çox uğurlar gətirdi. Biz bu uğurları yüksək dəyərləndirir və daim xatırlayırıq.

Jan Pol Kerteron mədəniyyətlərarası dialoqun qurulma formaları barədə düşünməyin vacibliyindən danışaraq dedi ki, mövcud dəyərlərdən bəhrələnməklə XXI əsrdə qarşıda duran çağırışlar nəzərə alınmalı, cəmiyyətin qurucularına xüsusi şərait yaradılmalıdır. "Biz müasir, müsbət, şəffaf formada əməkdaşlığın qurulması barədə düşünməliyik", - deyən Jan Pol Kerteron bu məsələdə səlahiyyətli orqanların üzərinə böyük vəzifələrin düşdüyünü bildirdi, bir daha diqqəti dünya əhəmiyyətli bu Forumun keçirilməsində böyük xidmətləri olan Azərbaycana yönəldərək dedi:

- Azərbaycan bu sahədə artıq fəal rol oynayır, irəlidə gedir və biz bu səylərə dəstək verməliyik.

Cənab Prezident, Sizinlə burada olmağımızdan çox şadıq, şərəf hissi duyuruq və inanı-

ram ki, Sizin liderlik məharətiniz, apardığınız quruculuq işləri Azərbaycanı böyük bir körpüyə çevirir. Coğrafi yerləşməsini nəzərə alaraq, Azərbaycan özü bir körpüdür. Cənab Prezident, Siz sabit, sosial, siyasi, iqtisadi baxımdan güclü ölkə qurursunuz və bu, nümunə ola bilər.

Biz bundan sonra səylərimizi davam etdirmək istəyirik ki, Azərbaycan bu sahədə öz körpü rolunu oynasın. Azərbaycan həm iqtisadi baxımdan irəliyə doğru addımlar atsın və bu ayırıcı xətlərin, boşluqların doldurulması üçün və xüsusən də Cənuba yardımın göstərilməsi üçün işlər görülsün.

* * *

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları "Gülüstan" sarayının foyesində təşkil olunmuş fotosərgiyə baxdılar.

* * *

Sonra Forum iştirakçıları xatirə şəkli çəkdirdilər.

* * *

Forum öz işini müxtəlif mövzularda sessiyalarla davam etdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN VƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN YÜKSƏK SƏVİYYƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mədəniyyətlərarası dialoqa həsr olunan Forumda iştirak etmək üçün "Gülüstan" sarayına gələn Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva bu mötəbər beynəlxalq tədbirdə iştirak edən xarici ölkələrin və beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri ilə görüşmüşlər.

Görüşdə mədəniyyətlərarası dialoqa həsr olunan Ümumdünya Forumunun əhəmiyyəti qeyd olundu, Azərbaycanın bu prosesdə fəal iştirakının məmnunluq doğurduğu bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunu qəbul etmişdir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluğunu bildirən Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu Forumun çox önəmli olduğunu və bu cür tədbirlərin Avropa Şurası ilə əməkdaşlıq məsələlərinə böyük dəstək verdiyini vurğuladı.

Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunun Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakının önəmini vurğuladı. Bu cür beynəlxalq tədbirlərin ardıcıl olaraq keçirilməsinin vacibliyini bildirən Prezi-

dent İlham Əliyev Forumun həm bölgə, həm də Avropa və dünya üçün əhəmiyyətini qeyd etdi.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də YUNESKO-nun keçmiş baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Bakının artıq beynəlxalq səviyyəli mötəbər tədbirlərin keçirildiyi bir məkana çevrildiyini dedi. Prezident İlham Əliyev YUNESKO-nun keçmiş baş direktoru Koişiro Matsuura ilə görüşlərini və Bakıda Novruz bayramını birlikdə qeyd etmələrini xatırlayaraq onun Forumda iştirakının önəmini vurğuladı.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət olunduğuna görə minnətdarlığını bildirən Koişiro Matsuura sivilizasiyalararası əməkdaşlığın genişlənməsində forumun əhəmiyyətini qeyd etdi. 2009-cu ildə Novruz bayramı münasibətilə Bakıda təşkil olunan mərasimlərdə iştirak etməsini məmnunluqla xatırlayan Koişiro Matsuura həmin şənliklərin onda böyük təəssürat yaratdığını dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÜMUMRUSİYA DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ YAYIM ŞİRKƏTİNİN "ROSSİYA-24" - RUSİYA İNFORMASİYA TELEKANALINA MÜSAHİBƏSİ

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin "Rossiya-24" - Rusiya informasiya telekanalına müsahibə vermişdir. AzərTAc müsahibənin mətnini təqdim edir.

- Hər vaxtınız xeyir, cənab Prezident!

-Hər vaxtınız xeyir.

- Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər haqqında soruşmaq istərdim. Bu münasibətlər kifayət qədər uğurla inkişaf edir. Siz özünüz üçün nəyi qeyd etmək istərdiniz? Bu il üçün hansı layihələr, hansı işlər planlaşdırılmışdır?

-Bizim münasibətlər çox dinamik, ardıcıl və səmərəli inkişaf edir. Dövlət başçıları səviyyəsində siyasi əlaqələr çox yüksək səviyyədədir, mütəmadi olaraq qarşılıqlı səfərlər həyata keçirilir. Biz daim əlaqə saxlayırıq və qəbul etdiyimiz qərarlar real səmərə verir. Biz, hər iki tərəf, haqlı olaraq münasibətlərimizi strateji tərəfdaşların münasibətləri kimi səciyyələndiririk. Biz qonşuyuq. Biz həmişə mehriban qonşuluq və dostluq prinsipləri üzrə yaşamışıq. Biz əsrlər boyu birlikdə, yanaşı yaşamışıq və çox vacibdir ki, Azərbaycanın müstəqil dövlət kimi təşəkkül tapdığı dövrdə bu müsbət meyillər qorunub saxlanmış və artırılmışdır.

İqtisadi sahədə əlaqələrimiz möhkəmlənir. Böhran dövründə bizdə əmtəə dövriyyəsi

bir qədər azalmışdı, lakin indi onu kompensasiya edirik və əmtəə dövriyyəsinin strukturu yaxşılaşır. Ticari münasibətlər baxımından Rusiya bizim mallar üçün bazar kimi bizdən ötrü çox böyük maraq doğurur, Rusiya həm də idxal üzrə bizim əsas tərəfdaşımızdır. Yəni, Azərbaycana ən çox idxal Rusiyadan daxil olur.

Humanitar sahədə də çox yaxşı nəticələr vardır. Bu il biz Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə Bakıda birinci Beynəlxalq humanitar forum keçirəcəyik. Keçən il Rusiya-Azərbaycan humanitar forumu keçirilmişdi. O vaxt Bakıda Rusiya intellektual cəmiyyətinin demək olar ki, elitası toplaşmışdı və yaxşı nəticələr əldə edilmişdi. Bütün istiqamətlər üzrə çox müsbət dinamika vardır. Hazırda biz enerji təchizatı sahəsində fəal əməkdaşlıq edirik. Hərbi-texniki sahədə əməkdaşlıq uğurla inkişaf edir. Bunlar son bir neçə ilin reallıqlarıdır. Yəni, biz münasibətlərimizi daha da möhkəmləndirmək əzmindəyik.

Yaxın keçmişdə imzalanmış mühüm sənədlərdən biri dövlət sərhədinin delimitasiyası barədədir. Hər iki ölkə üçün ən mühüm sənədlərdən biri olan bu müqavilə ölkənin öz qonşuları ilə sərhədlərini müəyyən edir. Bu sərhədlər qarşılıqlı maraqlar əsasında, ədalətlə müəyyən edilmişdir və bu müqavilə ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətləri daha da möhkəmlədəcəkdir. Yəni, ikitərəfli münasibətlərimizdə təxirəsalınmaz həll tələb edən hər hansı bir məsələ yoxdur. Həll olunmalı nə vardısa, - mən problemli məsələləri nəzərdə tuturam, - hamısı həll edilmişdir. Gələcəkdə biz yalnız əməkdaşlığın müsbət potensialını artırmalıyıq.

- Böhrandan sonrakı dövrdə Azərbaycan iqtisadiyyatı kifayət qədər yaxşı inkişaf edir. Siz yaxşı nəticələr göstərirsiniz. Lakin bununla belə, deyirsiniz ki, investisiya şəraitini yaxşılaşdırmaq lazımdır. Ümumiyyətlə, hazırda bu məsələ üzərində Rusiyada da fəal işləyirlər, həll yolları axtarırlar. Bəlkə Siz onu artıq tapmısınız?

-Bunu demək çətindir. Əlbəttə, Rusiyanın və Azərbaycanın miqyasları müqayisəolunmazdır. Lakin Azərbaycanda həyata keçirdiyimiz investisiya təşəbbüsləri yaxşı səmərə vermişdir. Bu, ilk növbədə, xarici investisiyaların cəlb edilməsidir. Müstəqilliyin ilk dövründə bütün ölkələr, - mən postsovet ölkələrini nəzərdə tuturam, çətin vəziyyətdə olanda bu, bizim üçün zəruri idi. İqtisadiyyat dağıdılmışdı, daxili maliyyə ehtiyatları yox idi. Buna görə də xarici investisiyalar olmadan inkişaf etməyimiz çox çətin olardı. Buna görə də biz, ilk növbədə energetika sahəsinə xarici investisiyaların cəlb edilməsi üzrə konkret proqram həyata keçirdik və sərmayədarlar üçün yaxşı şərait yaratdıq, onların sərmayələrini qanunvericilik yolu ilə tamamilə qoruduq. Bu əməkdaşlığın yaxşı nəticələrini indiyə qədər görürük. Yəni, neft-qaz sahəsinə qoyulmuş milyardlarla dollar sərmayə onunla nəticələndi ki, servis infrastrukturuna da, əlaqədar sahələrə də, sənayeyə də sərmayə qoyulmağa başlandı. Ölkəmizin inkişafının bu mərhələsində biz xarici investisiyalardan demək olar ki, artıq asılı deyilik. Hərçənd, keçən ilin göstəricilərinə nəzər salsaq, bütövlükdə iqtisadiyyata qoyulmuş 15,5 milyard dollar sərmayənin 8 milyardı daxili, 7 milyardı xarici investisiyalar olmuşdu. Yəni, hətta böhranlı dövrdə də Azərbaycanın əcnəbi sərmayədarlar üçün cəlbediciliyi davam edir. Mənim fikrimcə, bu, ilk növbədə, artıq dediyim kimi, ölkədə yaxşı investisiya mühiti, xarici sərmayələrin qorunması, eləcə də ölkənin dinamik inkişafı nəticəsində baş verir. Çünki xarici pullar oraya sərf edilir ki, orada müəyyən nəticələr vardır, gələcəyi görmək mümkündür, sabitlik vardır, sərmayədarlar özlərini inamlı hiss edir və bilirlər ki, bəlkə də 10-15 il bundan

əvvəl imzalanmış kontraktların şərtlərini heç kəs dəyişdirə bilməz.

Biz dövlət investisiya şirkəti yaratmışıq. Bu şirkət ölkəmiz üçün mühüm investisiya layihələrində 20 faiz həcmində iştirak edir və bu da müsbət nəticə verir. Buna görə də gələcəkdə biz, əlbəttə, investisiyalar cəlb etmək niyyətindəyik. Lakin hətta bunlar olmasa da Azərbaycan iqtisadiyyatı yaxşı potensial qazanmışdır və dinamik şəkildə inkişaf edəcəkdir.

- Hazırda Nabukko qaz kəməri məsələsi fəal müzakirə olunur və deyirlər ki, bu məsələni yalnız Azərbaycan dövləti həll edə bilər. Bu dövlət hansı qərarı qəbul edəcəkdir, qaz kəməri yaradılacaq, ya yox? Bu, Rusiyanın "Cənub axını" layihəsinin alternatividir? Xahiş edirəm, bu məsələni şərh edin.

-Avropanın təbii qaza tələbatının artacağını, yeni alternativ mənbələrin isə əslində olmamasını nəzərə alsaq, qərbli tərəfdaşların marağını başa düşmək olar. Xüsusən ona görə ki, Azərbaycan coğrafi baxımdan avropalı istehlakçılardan o qədər də uzaqda deyildir. Nəzərə almalıyıq ki, bizim qazı Türkiyəyə nəql edən işlək qaz kəməri artıq mövcuddur. Yəni, həm coğrafiya, həm də infrastruktur buna şərait yaradır ki, gələcəkdə qaz satacaq bir ölkə kimi Azərbaycana maraq göstərilsin.

Bizim prioritetlərə gəldikdə isə, ilk növbədə, özümüzün enerji təhlükəsizliyi məsələləri ilə məşğul olurduq. Mənim fikrimcə, bu gün neft üzrə hasilatı demək olar ki, maksimuma - gündə bir milyon barrelə çatdırmışıq. Prinsip etibarilə, hasilatın bu səviyyəsi bizi tamamilə qane edir və sosial-iqtisadi xarakterli məsələləri həll edə bilməyimiz üçün ölkə iqtisadiyyatına maliyyə vəsaitləri axınına imkan verir. Buna görə də hazırda qarşımızda maliyyə resurslarının təcili zərurəti baxımından belə bir məsələ dayanmır. Buna görə də biz qaz sahəsində əməkdaşlığı uzunmüddətli layihə hesab edirik. Bu layihə bütün tərəflərin maraqları üst-üstə düşdüyü halda reallaşdırıla bilər.

Bu gün bizim qaz potensialımız regional bazarda reallaşır. Biz elektrik enerjisi kimi, qazı da bütün qonşu ölkələrə - Rusiyaya, Türkiyəyə, Gürcüstana, İrana nəql edirik. Bu ənənəvi istiqamətlər üzrə satışı artırmaq potensialı da vardır. Beləliklə, bu gün biz, öz qaz ehtiyatlarımızın müəyyən hissəsinin satışını, demək olar ki, təmin edirik. Digər tərəfdən, imkanlarımız və istehsal, hasilat və nəqletmənin potensial həcmləri bugünkü regional bazarların imkanlarından qat-qat çoxdur. Təbii ki, bu halda qarşımızda ya yeni bazarlara çıxış yolları axtarmaq, ya da ənənəvi istiqamətlər üzrə ixracı artırmaq vəzifəsi durur. Sizin Nabukko barədə sualınızı daha da konkretləşdirərək deyə bilərəm ki, biz bu layihəni dəstəkləyirik, lakin qarşılıqlı maraqların nəzərə alınması şərtilə. İlk növbədə kommersiya maraqları təmin edilməlidir, qiymət ədalətli olmalıdır.

Bizim qazın tranziti ilə bağlı suallar çoxdur. Son istehlakçının qiyməti necə olacaqdır? Yeni qaz kəmərinin tikintisini kim maliyyələşdirəcəkdir? Azərbaycanın tranzit ölkə kimi rolu nədən ibarət olacaqdır? Axı aydındır ki, Nabukko kəmərini təkcə Azərbaycanın qaz ehtiyatları ilə doldurmaq mümkün olmayacaqdır. Deməli, bunun üçün Mərkəzi Asiyadan qaz gətirmək lazım olacaqdır. Kommersiya məsələləri, texniki məsələlər, siyasi razılaşdırmalar ilə kim məşğul olacaqdır? Demək istəyirəm ki, aydın olmayan məqamlar və eyni zamanda, həlli tələb edilən məsələlər çoxdur.

Lakin bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" nəqliyyat dəhlizi haqqında deklarasiya imzalanmışdır. Bizim energetika nazirinin və Avropa İttifaqı-

nın energetika üzrə komissarının başçılıq etdiyi birgə işçi qrupu yaradılmışdır. Onlar "Cənub" dəhlizi layihəsinin həyata keçirilməsi çərçivəsində məsləhətləşmələrə başlamışlar. Lakin bu, təkcə Nabukko deyildir. Orada daha bir neçə, ən azı iki variant vardır. Hazırda həmin variantlar fəal müzakirə edilir. Buna görə də əgər danışıqlar uğurlu olarsa və tərəflərin bütün maraqlarına riayət edilərsə, biz, əlbəttə daha bir qaz bazarına çıxmaqda maraqlı olacağıq. Lakin bütün bunlar danışıqların necə keçəcəyindən və Azərbaycanın maraqlarının nə dərəcədə nəzərə alınacağından asılı olacaqdır.

- Ekspertlər deyirlər ki, Xəzəryanı dövlətlərə sərmayə qoyulması üçün dəqiq şərtlər olması zəruridir. Siz necə düşünürsünüz, nəyə görə indiyə qədər inteqrasiya yoxdur? Hansı məqamlar qeyd edilməmişdir, nə lazımdır, nə barədə razılığa gəlmək lazımdır?

-Keçən il biz Bakıda Xəzəryanı dövlətlərin çox uğurlu sammitini keçirdik və ilk növbədə bioloji resurslar barəsində yaxşı qərarlar qəbul etdik. Biz nərəkimilərin ovlanmasına moratorium qoyulması barədə proqram hazırlamağı müvafiq qurumlara tapşırdıq. Biz, həmçinin ərazi suları barədə məsələləri ən yaxın vaxtda hazırlamaq və razılaşdırmaq barədə dəqiq tapşırıqlar verdik. Enerji ehtiyatlarına gəldikdə isə, bu halda hər bir ölkə Xəzər dənizinin ona aid sektorunda yerləşən yataqları işləyir və burada yəqin ki, çoxtərəfli münasibətlərdən daha artıq, ikitərəfli münasibətlər barədə danışmaq olar. Lakin ən başlıcası, Xəzər dənizinin hüquqi statusunu qəti surətdə tənzimləməliyik, bu məsələ indiyə qədər həll edilməmişdir. Lakin bunun üçün artıq yaxşı zəmin vardır. Bunlar ilk növbədə, Rusiya ilə Azərbaycan arasında, Rusiya ilə Qazaxıstan arasında və Qazaxıstan ilə Azərbaycan arasında imzalanmış ikitərəfli sazişlərdir. Bu üç ölkə öz aralarında bütün məsələləri beynəlxalq hüquq normaları əsasında razılaşdırmışlar. Buna görə də əgər bu yanaşma beştərəfli saziş üçün əsas kimi götürülərsə, biz Xəzərlə bağlı məsələləri ən qısa müddətdə tənzimləyə bilərik.

Bununla bərabər, deməliyəm ki, hətta hüquqi statusun tənzimlənmədiyi bugünkü vəziyyət də Xəzəryanı ölkələr arasında mehriban qonşuluq münasibətlərinin inkişafı üçün əngəl deyildir. Biz maraqlıyıq ki, bütün Xəzəryanı ölkələr inteqrasiya proseslərinə indikindən qat-qat fəal cəlb edilsinlər, xüsusən ona görə ki, bu beş ölkədən dördü keçmiş Sovet İttifaqı ölkəsidir, onlar bir-biri ilə daim əlaqədə olan MDB ölkələridir. Zənnimcə, biz tədricən bu istiqamətdə hərəkət edəcəyik. Mən Xəzər üzrə Bakı sammitini irəliyə doğru mühüm müsbət addım hesab edirəm.

- Karbohidrogenlərin hasilatı və Sizin yeni satış bazarları axtarmağınız mövzusuna qayıdıram. Siz, məsələn, 30-cu ildə Sizin öz qazınızı nəql edə biləcəyiniz elə həmin Avropaya, yaxud hər hansı başqa dövlətlərə nə lazım olacağını qiymətləndirmisinizmi? Bəlkə onlara heç xammal lazım deyil?

-Şübhəsiz, biz bu cür qiymətləndirmələr aparmışıq. Əlbəttə, 30-cu ilə qədər hansı yeni enerji növləri yaranacağını qabaqcadan güman etmək və proqnozlaşdırmaq çətindir. Hazırda, məsələn, Avropanın texniki, elmi təfəkküründə, o cümlədən alternativ mənbələr axtarışına yönəldiyini nəzərə alsaq, onların axtarışlarının nə dərəcədə uğurlu olacağını demək bizim üçün çətindir. Lakin əgər hər şey indiki kimi gedərsə və ənənəvi enerji mənbələrindən asılılıq ən azı indiki səviyyədə qalarsa, Avropaya qaz nəqlinin bugünkü həcmi onlar üçün kifayət etməyəcəkdir. Avropa üçün ən iri qaz təchizatçısı olan Rusiya, bildiyimə görə, onlara hər il təqribən 150 milyard kubmetr qaz göndərir. Buna baxmayaraq, həmin həcm avropalılar üçün kifayət etməyəcəkdir. Elə bu səbəbə görə də onlar bu gün əlavə mənbələrə maraq göstərirlər. Əlbəttə, deyək ki, Azərbaycana və Mərkəzi Asiya ölkələrinə bu cür marağın səbəbləri barədə mühakimə yürütmək və onlara bu cür qiymət və şərh vermək mənim üçün çətindir. Lakin düşünürəm ki, onlar siyasi motivlərdən daha çox praqmatizmi əsas tuturlar. Ona görə ki, dəqiq 30-cu il üçün Avropada qaz satışı ilə əlaqədar ciddi qıtlıq yarana bilər. Bu isə əlbəttə, nəinki iqtisadi inkişafı ləngidər, hətta ümumiyyətlə çox ciddi nəticələrə gətirib çıxara bilər.

Buna görə də onlar dünyanın enerji xəritəsinə baxanda və görəndə ki, çox böyük, hətta mən deyərdim ki, toxunulmamış qaz ehtiyatlarına malik olan Azərbaycan kimi bir ölkə vardır, - çünki burada ənənəyə görə neft çıxarılmışdır, qaza isə nədənsə diqqət yetirilməmişdir, - əlbəttə, onlar maraq göstərirlər. İndiki halda mən belə hesab edirəm ki, istehsalçıların və istehlakçıların, zəruri hallarda isə tranzit ölkələrin səylərini əlaqələndirmək və birgə fəaliyyət göstərmək ən optimal variant olardı. Bu halda qaz üzrə əməkdaşlıq məsələləri qeyri-sağlam rəqabət, yaxud hansısa qarşıdurma məsələlərinə çevrilməzdi. İstehsalçılar öz mənafelərini müdafiə etməlidirlər. Bu halda istehsalçı və tədarükçü ölkələr kimi Rusiyanın və Azərbaycanın, əlbəttə öz maraqları, istehlakçıların isə öz maraqları vardır. Bütün bu maraqları ümumi məxrəcə gətirmək, konsensusa nail olmaq və bu əsasda əməkdaşlığın perspektivləri barədə razılığa gəlmək lazımdır. Əgər bu baş verməsə, müxtəlif anlaşılmazlıqlar, yaxud o qədər də düzgün olmayan qiymətləndirmələr energetika sahəsində əməkdaşlığın ümumi mənzərəsini korlayacaqdır. Ona görə ki, zənnimcə, bu biznesdə hər şey çox dəqiq müəyyən edilməlidir, hər bir tərəf özünün öhdəliklərinin və maraqlarının dərəcəsini bilməlidir ki, kiminsə yolunu kəsməsin, eləcə də özünün potensialının və öz iqtisadiyyatının inkişafını süni şəkildə ləngitməsin.

Azərbaycana gəldikdə isə sizə deməliyəm ki, bu il Azərbaycanda 28 milyard kubmetr qaz hasil edilmişdir. Bunun təqribən 10-11 milyard kubmetri bizim daxili tələbatımızdır, qalanı isə ixrac resurslarıdır. Lakin bizdə ixracın hələlik məhdud olması ilə əlaqədar, eləcə də neft laylarında təzyiqi saxlamaq üçün bu qazın bir hissəsi yenidən laylara vurulur. Buna görə də bu gün malik olduğumuz resursa qaz bazarlarında artıq tələbat ola bilər. Bundan əlavə, təqribən 20 milyard dollar əlavə sərmayə qoyulsa, biz qaz hasilatını təqribən 15 milyard kubmetr, bəlkə də daha çox artıra bilərik. Lakin bu sərmayələri qoymaq üçün kontraktlar olmalıdır, bazarlar olmalıdır. Ona görə ki, qaz biznesində bunlarsız mümkün deyildir. Yəni, burada hər şey qarşılıqlı əlaqəlidir, buna görə də hər şeyi planlaşdırmaq və razılaşdırmaq lazımdır.

- Yaxın Şərqdə, Şimali Afrikada vəziyyət hazırda neftin qiymətini kəskin şəkildə artırmışdır. Siz Dövlət Fonduna daxil olan bütün bu gəlirlərdən ölkənin inkişafı üçün necə istifadə edəcəksiniz? Axı bir tərəfdən, əgər pensiyalar, sosial ödənişlər artırılırsa, bu ona gətirib çıxaracaqdır ki, inflyasiya göstəriciləri yüksələ bilər. Bu isə heç də yaxşı hal deyildir. Digər tərəfdən, əlbəttə, bu sosial ödənişləri artırmaq zəruridir. Azərbaycanda hansı qərar qəbul ediləcəkdir?

-Bizdə bu məsələlər kifayət qədər səmərəli tənzimlənir. Əlbəttə, biz hər il əməkhaqqını və pensiyaları artırırıq. Bu proses davam etməlidir, çünki hətta bu gün də minimum əməkhaqqının və pensiyanın səviyyəsi heç kəsi qane edə bilməz. Hərçənd, son bir neçə ildə biz işsizlik məsələsini çox ciddi həll edə bilmişik. Son yeddi ildə 900 min yeni iş yeri yaradılmışdır və elə həmin yeddi il ərzində yoxsulluq səviyyəsini təqribən 50 faizdən

9 faizə endirməyə nail olmuşuq. Buna baxmayaraq, hesab edirəm ki, 9 faiz də çoxdur. Buna görə də əməkhaqqının və pensiyaların artırılması üzrə sosial proqramlar davam etdiriləcəkdir, təbii ki, sizin qeyd etdiyiniz kimi, inflyasiya riskləri nəzərə alınmaqla. Lakin bununla paralel olaraq biz neft gəlirlərindən, ilk növbədə, infrastruktur layihələrinin inkişaf etdirilməsi, regionlarda şərait yaradılması, elektrik stansiyaları, qaz təchizatı obyektləri, xəstəxanalar, məktəblər, yolların tikintisi, sahibkarlara kreditlər verilməsi üçün istifadə edirik. Biz hər il özəl sektor üçün bir neçə illiyə güzəştli kreditlər verilməsi məqsədi ilə böyük məbləğ ayırırıq. Bununla regionlarda iş yerləri yaradılır, insanlar əməkhaqqı almadan, özlərinin sahibkarlıq fəaliyyəti hesabına pul qazanırlar.

Biz iqtisadi siyasətimizi çox ciddi qaydada liberallaşdırmışıq. Bizim qanunvericiliyimiz çox liberaldır və bizneslə məşğul olmaq üçün heç bir bürokratik qərarlar tələb olunmur. Mən bilən, istənilən adam üç gün müddətində şirkətini qeydiyyatdan keçirərək biznes fəaliyyətinə başlaya bilər. Üstəlik, artıq dediyim kimi, dövlət də bu fəaliyyəti güzəştli kreditlərlə stimullaşdırır.

- Daha bir sualım artıq 17 ildir ki, müzakirə edilən məsələ barədədir. Bu, Dağlıq Qarabağ məsələsidir. Siz bu məsələnin həlli perspektivlərini və danışıqlarda iştirak edən tərəflərin rolunu necə qiymətləndirirsiniz? Əlbəttə, mən, o cümlədən Rusiyanı da nəzərdə tuturam.

-Biz Rusiyanın rolunu çox yüksək qiymətləndiririk. Prezident Dmitri Anatolyeviç Medvedev tərəflərin tənzimləməyə nail olmasına kömək etmək üçün çox səy göstərir. Onun təşəbbüsü ilə bir neçə üçtərəfli görüş keçirilmişdir. Bu görüşlər böyük əhəmiyyət kəsb edir və müsbət effekt verir. Təəssüf ki, uzun illər boyu bu münaqişə tənzimlənməmiş qalır və biz ümid edirik ki, ən yaxın vaxtda irəliləyişə nail olacağıq. Neçə illər keçməsinə və praktiki olaraq bütün beynəlxalq təşkilatların müvafiq qərarlar və qətnamələr qəbul etməsinə baxmayaraq, münaqişə hələ də tənzimlənməmişdir. BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir və onların heç biri reallaşmamışdır. Təhlükəsizlik Şurasının Liviyaya dair qətnamələri qəbul ediləndən, sözün həqiqi mənasında, bir neçə saat sonra onların həyata keçirilməyə başlanmasını, Dağlıq Qarabağa dair qətnamələrin isə artıq 17-18 ildən bəri həyata keçirilmədiyini görəndə təbii olaraq belə bir sual yaranır: nə üçün? Burada bu cür operativliyə, bizimlə bağlı halda isə bu cür passivliyə səbəb nədir? Buna görə də biz vasitəçilərin, ilk növbədə Minsk qrupu həmsədrlərinin və regional ölkə kimi, bizim qonşumuz kimi Rusiyanın, xüsusən son vaxtlar Rusiyanın fəal rolunu nəzərə alaraq onların daha fəal iştirakına ümid edirik.

- Müsahibə üçün çox sağ olun.

-Sağ olun.

ON DÖRDÜNCÜ AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi salamlayır və On dördüncü Avrasiya İqtisadi Zirvə Toplantısının işə başlaması münasibətilə təbrik edirəm.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı və Türkiyə dövlətinin dəstəyi ilə hər il keçirilən bu ənənəvi toplantılara dünyada maraq durmadan artmaqdadır. Beynəlxalq iqtisadi və siyasi əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin güclənməsinə əlavə imkanlar yaradan belə toplantılara Azərbaycan həmişə xüsusi əhəmiyyət verir.

Dünyada yaşayan bütün xalqların mənafeləri və təhlükəsizliyinin etibarlı təminatı dövlətlər arasında iqtisadi, humanitar və mədəni əməkdaşlığın qurulmasını, aqressiv separatizmə, terrora, yoxsulluğa, ekoloji problemlərə və bəşəriyyəti təhdid edən digər qlobal təhlükələrə qarşı birgə mübarizənin aparılmasını qaçılmaz edir. Azərbaycan Respublikası əksər bəşəri çağırışlara cavab olaraq, dünya və region dövlətləri ilə bütün sahələrdə sıx əməkdaşlığa, inteqrasiya proseslərinin dərinləşməsinə üstünlük verir. Ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin enerji resursları, transmilli kommunikasiya imkanları qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün münbit şərait yaradır. Biz daim ölkəmizin potensialından digər xalqların da faydalanmasına çalışmış, Azərbaycanın müxtəlif güc mərkəzlərinin rəqabət meydanı deyil, əməkdaşlıq məkanı olduğunu bəyan etmişik. Azərbaycan öz qonşuları və dünyanın digər ölkələri ilə qarşılıqlı maraqlara söykənən münasibətləri inkişaf etdirməklə regional təhlükəsizliyə və sosial-iqtisadi tərəqqiyə mühüm töhfələr verir.

İnanıram ki, bugünkü Forumda tanınmış ictimai-siyasi xadimlərin, nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə keçirilən müzakirələr hər birimizi narahat edən bəşəri problemlərin həlli, dövlətlər və xalqlar arasında əlaqələrin daha yüksək səviyyəyə çatdırılması üçün yeni imkan və vasitələrin tapılmasına xidmət edəcəkdir.

Sammit iştirakçılarını bir daha təbrik edir, toplantının işinə uğurlar arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2011-ci il.

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

Hörmətli Aleksandr Qriqoryeviç,

Minsk metropolitenində terror aktı nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Biz terrorizmi onun bütün formalarında və təzahürlərində qətiyyətlə pisləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Belarus xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzu edirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 12 aprel 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYANIN SƏNAYE VƏ TİCARƏT NAZİRİ, AZƏRBAYCAN-İORDANİYA HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN HƏMSƏDRİ HANİ ƏL-MULKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də İordaniya Haşimilər Krallığının sənaye və ticarət naziri, Azərbaycan-İordaniya Hökumətlərarası birgə komissiyanın həmsədri Hani Əl-Mulkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İordaniya Haşimilər Krallığı arasında yüksək səviyyədə siyasi əlaqələrin olduğunu vurğuladı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığı inkişaf etdirmək və sərmayə imkanlarını nəzərdən keçirmək üçün böyük planların olduğunu dedi. Azərbaycan-İordaniya Hökumətlərarası birgə komissiyanın Bakıda keçirilən iclasına toxunan dövlət başçısı bu iclasın gələcək əməkdaşlıq üçün önəmini qeyd etdi.

İordaniya Haşimilər Krallığının sənaye və ticarət naziri, Azərbaycan-İordaniya Hökumətlərarası birgə komissiyanın həmsədri Hani Əl-Mulki İordaniya Kralı II Abdullahın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdə keçirdiyi məhsuldar görüşlər barədə Azərbaycan Prezidentinə məlumat verdi.

Prezident İlham Əliyev İordaniya Kralı II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏRDLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ FRANSA-QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev aprelin 16-da Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Ambruaz Düponun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı senator Ambruaz Düponun ölkəmizə yenidən səfər etməsindən

məmnunluğunu ifadə etdi. Ambruaz Düponla keçirdiyi ötən görüşlərini xatırlayan Prezident İlham Əliyev onun ölkəmizə bu səfərinin də uğurlu olacağına əminliyini bildirdi. Azərbaycan ilə Fransa arasında əlaqələrin uğurla və sürətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu səfərin Fransa-Azərbaycan əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu dedi. Ölkələrimiz arasında əməkdaşlığın səviyyəsinin razılıq doğurduğunu deyən dövlətimizin başçısı əlaqələrin bundan sonra da möhkəmləndirilməsinin zəruriliyini qeyd etdi.

Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Ambruaz Düpon bu səfər zamanı da Bakıda böyük inkişafın şahidi olduğunu və dəyişikliklərin onda dərin təəssürat yaratdığını vurğulayaraq son bir neçə ildə paytaxtımızda gedən inkişaf proseslərinin önəmini qeyd etdi. O, ölkəmizə ilk səfərini və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırladı. Ümummilli liderlə görüşün onda böyük təəssürat yaratdığını deyən qonaq ölkəmizə həmin səfərindən sonra Azərbaycanı daha yaxından tanımağa başladığını dedi.

Görüşdə Azərbaycan-Fransa parlamentlərarası əlaqələrin önəmi qeyd edilərək bu əlaqələrin münasibətlərimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verdiyi vurğulandı.

NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

Ülyahəzrət,

Ölkənizin milli bayramı - Kraliça günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Niderland münasibətlərinin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 14 aprel 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRATFOR ÖZƏL ELMİ KORPORASİYASININ YARADICISI, İCRAÇI DİREKTORU VƏ BAŞ ANALİTİKİ GEORGE FRİDMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Stratfor Özəl Elmi Korporasiyasının yaradıcısı, icraçı direktoru və baş analitiki George Fridmanı qəbul etmişdir.

Dövlətimizin başçısı George Fridmanın ölkəmizə yenidən səfər etməsindən məmnunluğunu bildirdi.

Stratfor Özəl Elmi Korporasiyasının yaradıcısı, icraçı direktoru və baş analitiki George Fridman özünün qlobal dünya siyasətində dəyişikliklərlə bağlı Azərbaycanın regionda aparıcı rolu barədə geniş fikirlərin əks olunduğu "Növbəti onillik" sərlövhəli kitabını dövlətimizin başçısına təqdim etdi. George Fridman Azərbaycana səfəri çərçivəsində Naxçıvana gedəcəyini, muxtar respublikada reallaşan sosial-iqtisadi layihələrlə tanış olacağını bildirdi.

Naxçıvanın Azərbaycanın ən qədim tarixi bölgələrindən biri olduğunu deyən Prezident İlham Əliyev bütün bu ərazilərin hamısında tarixən azərbaycanlıların məskunlaşdığını, sonradan Zəngəzur mahalının Ermənistana verildiyini və Naxçıvanın Azərbaycandan ayrı düşdüyünü dedi. Prezident İlham Əliyev muxtar respublikaya böyük həcmdə sərmayə yatırıldığını, mühüm sosial və infrastruktur layihələrinin həyata keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı qonağın tarixi abidələrlə zəngin Naxçıvana səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər, regional məsələlər, geosiyasi vəziyyət, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

PREZİDENT İLHAM ƏLİYEV LATVİYA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ XANIM LİNDA MURNİESENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Latviya Respublikasının daxili işlər naziri xanım Linda Murniesenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Latviya Respublikasının daxili işlər naziri xanım Linda Murniesenin ölkəmizə səfər proqramının kifayət qədər geniş olduğunu vurğulayan dövlətimizin başçısı bu səfərin uğurlu olacağına əminliyini ifadə etdi. Riqaya səfərindən sonra Latviyadan Azərbaycana ilk dəfə belə yüksək səviyyəli nümayəndə heyətinin gəlməsinin önəmini qeyd edən Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin inkişaf dinamikasının davam etməsindən və genişlənməsindən məmnunluğunu bildirdi. Riqada latviyalı həmkarı ilə əldə olunan razılaşmaya uyğun olaraq əlaqələrimizin bütün istiqamətlərdə inkişaf etdirilməsinin zəruriliyini bildirən Prezident İlham Əliyev Latviyanın daxili işlər naziri xanım Linda Murniesenin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin genişlənməsi baxımından əhəmiyyətli olduğunu dedi.

Daxili işlər naziri xanım Linda Murniese Latviya Respublikasının Prezidenti Valdis Zatlersin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Latviya Prezidentinin Prezident İlham Əliyevin Riqaya səfərini və dövlətimizin başçısı ilə keçirdiyi əvvəlki bütün görüşləri məmnunluqla xatırladığını vurğuladı. Xanım Linda Murniese ölkəmizə səfəri zamanı keçirəcəyi görüşlərin əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı Latviya Respublikasının Prezidenti Valdis Zatlersin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Latviya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

Aprelin 18-də Azərbaycan Respublikasında səfərdə olan Rumıniya Prezidenti Trayan Beseskunun rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Rumıniya Prezidenti Trayan Beseskunu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Rumıniya Prezidentinə raport verdi.

Rumıniya və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Rumıniya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Trayan Beseskuya, Rumıniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

DÖVLƏT BAŞÇILARININ TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 18-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika və humanitar sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Dövlət başçıları ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirdilər.

Prezidentlər ikitərəfli, regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN-RUMİNİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Aprelin 18-də Prezident İlham Əliyevin və Prezident Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Rumıniya sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yerinə yetirilməsi üçün Birgə Fəaliyyət Planı"nı Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Rumıniyanın Kənd Təsərrüfatı və Kənd İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İsmət Abasov və Rumıniyanın iqtisadiyyat, ticarət və biznes mühiti naziri İon Ariton imzaladılar.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Rumıniyanın Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev və Rumıniyanın iqtisadiyyat, ticarət və biznes mühiti naziri İon Ariton imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rumıniyanın Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq Protokolu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rumıniyanın Xarici İşlər Nazirliyinin dövlət katibi Doru Kostea imzaladılar.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

Aprelin 18-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz çox uğurlu keçəcək, çox gözəl nəticələri olacaqdır.

Münasibətlərimiz strateji xarakter daşıyır. Bütün sahələrdə əməkdaşlıq çox uğurla aparılır. Bu gün Sizinlə təkbətək görüşdə bütün bu məsələləri geniş müzakirə etdik və bir daha gördük ki, Rumıniya-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Həm siyasi sahədə, eyni zamanda, iqtisadi, humanitar sahələrdə, hər bir istiqamətdə çox gözəl nəticələr vardır və əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına dəyərli töhfə verəcəkdir.

Bir daha xoş gəlmisiniz.

* * *

Rumıniya Prezidenti Trayan Besesku səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

- Möhtərəm cənab Prezident! Çox təşəkkür edirəm ki, bu gün bizi öz ölkənizə dəvət etmisiniz. Bu dəvətə əsasən mən bir daha Azərbaycana səfər etmişəm. Bu səfər çərçivəsində biz ikitərəfli münasibətlərimizi müzakirə edəcəyik və dəyərli dostumla görüşmək imkanı əldə edəcəyik.

Azərbaycan-Rumıniya əlaqələrinə gəldikdə, zənnimcə bizim çox müfəssəl əlaqələrimiz vardır. Bu da ötən səfərlər zamanı müzakirə edilmiş məsələlərin həyata keçməsi ilə əlaqədardır. Bu səbəbdən biz növbəti görüşlərimizə böyük əminliklə baxırıq. Çünki məhz elə bu gün Sizinlə görüşdə də çox dəyərli və mühüm mövzular müzakirə edilmişdir.

AZƏRBAYCAN VƏ RUMİNİYA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Aprelin 18-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Hörmətli qonaqlar, əziz dostlar!

Mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, Sizin səfəriniz böyük əhəmiyyət daşıyır. Əminəm ki, səfərin çox uğurlu nəticələri olacaqdır. Səfərdən sonra Rumıniya-Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir. Əlaqələrimizin çox böyük tarixi vardır və çox gözəl gələcəyi olacaqdır. Çünki bütün sahələrdə aramızda əlaqələr dostluq və səmimiyyət üzərində qurulubdur. Biz siyasi sahədə tərəfdaşıq və bu gün imzalanmış sənəd bir də onu göstərir ki, aramızda sözün əsl mənasında, strateji tərəfdaşlıq münasibətləri qurulmuşdur. Biz bu münasibətləri çox yüksək qiymətləndiririk. Əminəm ki, bu münasibətlər gələcəkdə bütün sahələrdə bütün istiqamətlər üzrə güclü inkişafa təkan verəcəkdir. Bizim Sizinlə siyasi sahədə görüşlərimiz də mütəmadi xarakter daşıyır. Biz tez-tez görüşürük - həm Rumıniyada, həm Azərbaycanda, həm də başqa ölkələrdə. Bir sözlə, bizim aramızda siyasi dialoq çox güclüdür. Bu, imkan verir ki, siyasi əlaqələr bütün başqa sahələrə də müsbət təsir göstərsin.

Bu gün aramızda iqtisadi sahədə yaxşı perspektivlər açılır. Əminəm ki, siyasi əlaqələrimizin güclü olması həm sərmayə qoyuluşu, həm də müxtəlif şirkətlərin səmərəli fəaliyyəti üçün müsbət rol oynayır və oynayacaqdır. Enerji sahəsində əməkdaşlıq inkişaf edir, Azərbaycandan Rumıniyaya xam neft ixrac edilir. Azərbaycanın Dövlət Neft Şirkəti Rumıniyada fəaliyyətini genişləndirir. Qaz sahəsində də uğurlu əməkdaşlıq üçün gözəl şərait mövcuddur. Bildiyiniz kimi, bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub qaz dəhlizi" üzrə bəyannamə imzalanmışdır. Avropanın enerji təhlükəsizliyi məsələləri, bu bəyannamə əsasında, o cümlədən Azərbaycan resursları hesabına ödəniləcəkdir. Azərbaycanın zəngin qaz ehtiyatları vardır və bu resurslar müxtəlif yollarla dünya bazarına çıxarılır. Rumıniya-Azərbaycan əlaqələri bu baxımdan müstəsna xarakter daşıyır. Çünki Rumıniya həm Nabukko layihəsinin fəal üzvüdür, eyni zamanda, AGRİ layihəsinin də təşəbbüskarıdır.

Sizin təşəbbüsünüzlə AGRİ layihəsinə start verilmişdir. Keçən ilin sentyabr ayında Bakıda Sizin iştirakınızla keçirilmiş AGRİ üzrə zirvə görüşü konkret nəticə vermişdir. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması üçün konkret işlər görülür.

Mən ümid edirəm ki, Rumıniya-Azərbaycan əlaqələri Azərbaycan-Avropa əlaqələrinə də güclü təsir göstərəcəkdir. Avropa İttifaqı ilə Azərbaycan arasında hazırda "Şərq tərəfdaşlığı" çərçivəsində əməkdaşlıq qurulmuşdur. Eyni zamanda, enerji sahəsində əməkdaşlığın gözəl perspektivləri vardır. Avropa İttifaqı ilə Azərbaycan arasında bütün başqa sahələrdə əlaqələrin inkişafı üçün gözəl şərait vardır. Bu əlaqələr bərabərhüquq-

lu əlaqələrdir, dostluq, tərəfdaşlıq prinsipləri üzərində qurulur və qurulmalıdır.

Ölkələrimiz arasında əlaqələr təkcə iqtisadi, enerji və siyasi sahələrlə kifayətlənmir. Humanitar sahədə yaxşı əməkdaşlıq nümunələri vardır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsi Buxarestdə ucaldılmışdır. Rumıniyanın görkəmli bəstəkarı Corce Eneskunun abidəsi Bakıda ucaldılmışdır. Biz Sizinlə bərabər bu tədbirlərdə iştirak etmişdik. Bu, insanlar arasındakı əlaqələrə də çox müsbət təsir göstərir.

Bir sözlə, münasibətlərimiz, əlaqələrimiz çoxşaxəlidir, hansısa bir sahə ilə məhdudlaşmır. Bu əlaqələrin inkişafı üçün hər iki tərəfdə güclü siyasi iradə mövcuddur.

Mən əminəm ki, əlaqələrimizin inkişafı, eyni zamanda, Qara dəniz və Xəzər dənizi regionlarının əməkdaşlığına da müsbət təsir göstərəcəkdir. Buna da böyük ehtiyac vardır. Xəzər dənizi və Qara dəniz bölgələrini birləşdirən nəqliyyat, enerji layihələri və iqtisadi layihələr dəstəklənməlidir. Bu istiqamətdə Rumıniya və Azərbaycan əlaqələri xüsusi əhəmiyyət daşıyır. Bu əlaqələrin hazırda ən yüksək zirvədə olması bizi çox sevindirir.

Bir də demək istəyirəm ki, aramızda çoxlu sənədlər imzalanmışdır, o cümlədən bu gün. Onların içində strateji tərəfdaşlıq sənədi xüsusi əhəmiyyət daşıyır. Sənədin icrası nəticəsində əminəm ki, əlaqələrimiz müxtəlif istiqamətlər üzrə daha da sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, Sizin səfəriniz həm uğurlu, həm də Sizin üçün xoş keçəcəkdir.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI

-Mən də öz növbəmdə, cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü ifadə etmək istəyirəm. Hər vaxt görüşlərimiz zamanı biz böyük tərəqqiyə nail oluruq. Bu gün də istisna olmamışdır. Bu gün hökumətlər səviyyəsində bir sıra sənədlərin imzalanması, eyni zamanda, strateji tərəfdaşlıq sahəsində imzalanmış sənəd əlaqələrimizdə böyük bir sıçrayış deməkdir.

Azərbaycan ilə əməkdaşlıq etmək bizim üçün çox əhəmiyyətlidir. Çünki Azərbaycan Xəzər hövzəsinə bir körpü rolunu oynayır. Eyni zamanda, Rumıniya da Azərbaycan üçün Avropa bazarlarına bir körpü rolunu oynayır. Zənnimcə, biz əməkdaşlığımızı başladığımız vaxtdan bu günə qədər bütün təşəbbüslərimiz reallığa çevrilmişdir. Bu, onu sübut edir ki, siyasi iradəmiz güclüdür və əməkdaşlığımız çox sürətlə həyata keçirilir. Bu, aydın göstərir ki, siyasi iradəmiz artıq iqtisadi sahədə əməkdaşlığımıza da töhfəsini verir. Çox sevindiricidir ki, biz bu gün AGRİ layihəsində də böyük uğura nail olmuşuq. Artıq müvafiq şirkət seçilib və dəyərləndirmə işləri həyata keçirilir. Bu onu göstərir ki, sentyabrdakı zirvə görüşündən sonra biz vaxtımızı boşa xərcləməmişik. AGRİ təşəbbüsünü dəstəklədiyinizə, eyni zamanda, Nabukkoya dəstəyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, Rumıniya da bu layihəni var gücü ilə dəstəkləməkdədir.

Biz çox şadıq ki, əməkdaşlığımızı digər sahələrə də şamil edə bilmişik. Xüsusilə də informasiya texnologiyaları sahəsində. Artıq Rumıniya şirkəti bu sahədə fəaliyyət göstərir. Əminəm ki, biz bu sahədəki əməkdaşlığımızı gələcəkdə də genişləndirəcəyik.

Bu gün biz Sizinlə digər imkanları da müzakirə etdik. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) Rumıniyanın iqtisadi inkişafında yaxından iştirak edir. Rumıniyada həyata keçirilən özəlləşdirilmə prosesində ARDNŞ-in yaxından iştirakı da bizim üçün çox istənilən və arzuedilən olardı. Zənnimcə, ARDNŞ kimi mühüm bir şirkət Rumıniya bazarında artıq yanacağın paylanması şəbəkəsi yaratmaq imkanına malik olmuşdur. Hesab edirəm ki, bu, çox vacib bir məsələdir. Bu, öz növbəsində Rumıniyada rəqabətin yaranmasına xidmət edir və yanacağın qiymətinin aşağı düşməsinə səbəb olmuşdur.

Onu da qeyd etmək istərdim ki, imzalanmış sənədlərdən başqa, biz müdafiə və hərbi sənaye sahələrində də əməkdaşlığımızı artırmalıyıq. Zənnimcə, bu ilin ikinci yarısında biz Rumıniya ilə Azərbaycan arasında müvafiq sahədə sazişin müzakirəsini yekunlaşdıracağıq.

Son olaraq xahiş edirəm ki, bir neçə kəlməni də söyləməyimə icazə verəsiniz. Qeyd etmək istərdim ki, biz Dağlıq Qarabağ məsələsində Azərbaycanın böyük səbir və danışıqlarda səmimilik nümayiş etdirməsini çox yüksək qiymətləndiririk. Çünki Rumıniya dondurulmuş bu münaqişənin həllinin uzanmasından çox böyük narahatlıq hissi keçirir. Bu münaqişə Qara dəniz hövzəsinə yaxın bir regionda yerləşir. Zənnimcə, bu region NATO, Avropa İttifaqı və Rumıniya üçün də çox əhəmiyyətli regiondadır. Əminəm ki, bu münaqişə beynəlxalq hüquq normaları çərçivəsində həll edilməlidir. Ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət başlıca prinsip olmalıdır. Ümid edirəm ki, Dağlıq Qarabağ münaqişəsi məhz bu prinsiplər əsasında, Azərbaycan Respublikasının ərazi bütövlüyünün toxunulmazlığı və beynəlxalq hüququn hörməti çərçivəsində öz həllini tapacaqdır.

ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

Aprelin 18-də Azərbaycan-Rumıniya sənədlərinin imzalanması mərasimindən sonra Rumıniya Prezidenti Trayan Beseskunun və Azərbaycan Prezidenti İlham Əliyevin ali ordenlərlə təltif olunma mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Cənab Prezident, Siz Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilirsiniz.

Rumıniya-Azərbaycan əlaqələri strateji xarakter daşıyır və bu gün imzalanmış sənəd bunu bir daha təsdiq edir. Siz bu əlaqələrin inkişafı üçün böyük xidmətlər göstərmisiniz və Azərbaycan xalqı Sizi çox yaxşı tanıyır. Sizin Azərbaycan ilə bağlı mövqeyinizi ürəkdən alqışlayırıq.

İki ölkə arasındakı əlaqələrin inkişafı üçün göstərdiyiniz böyük

xidmətlərə görə bu yüksək mükafatı mən bu gün Sizə təqdim edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev" ordenini Rumıniya Prezidenti Trayan Beseskuya təqdim etdi.

Prezident Trayan Besesku dövlətimizin başçısının Rumıniyanın "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı ilə təltif edilməsi barədə qərar qəbul etdiklərini bildirdi. O qeyd etdi ki, bu, dövlət başçılarına verilən ali mükafatdır. Trayan Besesku xüsusi vurğuladı ki, Prezident İlham Əliyev bu mükafata layiq görülən yalnız ikinci dövlət başçısıdır.

Qeyd edək ki, 2004-cü ildə Rumıniyaya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev bu ölkənin ali mükafatı "Rumıniya Ulduzu" ordeni ilə təltif olunmuşdur. Rumıniya qanunvericiliyinə görə, "Sadiq Xidmət" milli ordeni bundan əvvəl "Rumıniya Ulduzu" ordeni ilə təltif edilən şəxslərə təqdim olunur.

Prezident Trayan Besesku "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqını dövlətimizin başçısına təqdim etdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Rumıniya Prezidenti Trayan Beseskunun şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV ziyafətdə çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.

Cənab Prezident, bu, son beş ildə Azərbaycana Sizin beşinci səfərinizdir. Mən də Rumıniyaya beş dəfə səfər etmişəm. Belə mütəmadi səfərlər ölkələrimiz arasındakı münasibətlərin dinamik inkişafının göstəricisidir. Münasibətlərimiz əsl dostluq və tərəfdaşlıq münasibətləridir.

Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti seçildikdən sonra Şərqi Avropada ilk dəfə Rumıniyaya səfər etmiş, Azərbaycan bu regionda ilk səfirliyini məhz Rumıniyada açmışdır. Mən özüm də Prezident kimi Şərqi Avropa ölkələri arasında ilk dəfə Rumıniyaya səfər etmişəm.

Növbəti il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Ümidvaram ki, biz bu əlamətdar tarixə Rumıniya və Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrində yeni nailiyyətlər ilə daxil olacağıq.

Bu günə kimi ölkələrimiz arasında əlaqələrin inkişafını təmin edən 50-dən çox sənəd imzalanmışdır. Mənim Rumıniyaya son səfərim zamanı imzaladığımız strateji tərəfdaşlığın yaradılmasına dair razılaşma haqqında birgə bəyannamə və bu dəfə imzalanan strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planı ikitərəfli münasibətlərimizin möhkəmlənməsi baxımından görülən işlərin məntiqi nəticəsidir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində və GUAM formatında əməkdaşlığımız böyük məmnunluq doğurur. Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində səylərimiz bizi daha da yaxınlaşdırır.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avratlantik strukturlarla münasibətlər mühüm yer tutur. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Elə bu ilin yanvar ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Cənub qaz dəhlizi" haqqında Birgə Bəyannamə bunun bariz nümunəsidir. Eyni zamanda, keçən ilin sentyabr ayında Bakıda Sizin də iştirakınızla imzaladığımız AGRİ layihəsi üzrə Bəyannamə aramızdakı etibarın və regionumuzda enerji əməkdaşlığının yeni səhifəsinin açılışının göstəricisi olmuşdur.

Rumıniyalı tələbələrə Heydər Əliyev təqaüdünün verilməsi, eləcə də Buxarest şəhərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Bakı şəhərində müasir rumın milli bəstəkarlıq məktəbinin banisi Corce Eneskunun abidələrinin ucaldılması humanitar sahədə əlaqələrimizin yüksək səviyyəsinin bariz nümunəsidir.

Ötən illər ərzində Azərbaycanda çox uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirilmişdir. Bunun nəticəsi olaraq son yeddi ildə ölkədə ümumi daxili məhsul təxminən üç dəfə, maaşlar və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluq səviyyəsində yaşayan insanların sayı 4,5 dəfə azalmış, ölkəmizə 82 milyard dollar məbləğində sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Bütün bunlar, yəni həyata keçirdiyimiz konkret layihələr bir tərəfdən Azərbaycanın dinamik inkişafını təmin edir, digər tərəfdən isə bölgəyə sülh və təhlükəsizlik gətirir, burada gedən bütün proseslərə müsbət təsir göstərir. Lakin təəssüflə qeyd etməliyəm ki, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu günə kimi həll edilməmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon işğal olunmuşdur. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışırıq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, bir daha Sizi ürəkdən salamlayır, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

Bu badəni Sizin sağlığınıza, Rumıniya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

* * *

Rumıniya Prezidenti Trayan BESESKU rəsmi səfərlə yenidən Bakıda olmasından məmnun qaldığını bildirərək Bakı şəhəri və bütövlükdə Azərbaycanda yaşanan dinamik iqtisadi inkişafı yüksək qiymətləndirdi.

Səfər çərçivəsində hər iki ölkə arasında strateji tərəfdaşlığı və Azərbaycan ilə Rumıniya arasında münasibətləri daha da möhkəmləndirəcək tədbirlər planına imza atıldığını vurğulayan Trayan Besesku ikitərəfli münasibətlərin əsasını enerji məsələsinin təşkil etdiyini bildirərək dedi:

-İkitərəfli münasibətlərimizin özəyini enerji məsələsi təşkil edir. Bu halda maraqları-

mız üst-üstə düşür. Rumıniya Avropanın enerji mənbələrini şaxələndirmək məqsədi ilə sistemli siyasət yürüdür. Azərbaycan isə enerji marşrutlarını və bazarlarını şaxələndirmək arzusundadır. Nəticədə, Rumıniya ilə Azərbaycan Qara dəniz regionunda təbii qazın nəqlində "maye qaz" düsturunu təqdim etməklə regional enerji durumunu dəyişəcək ilk layihə olan AGRİ-nin başlanması prosesinə böyük töhfə vermişlər. 2010-cu ildə Bakıda keçirilən AGRİ Zirvə görüşü Azərbaycanın həmin yeni layihənin həyata keçirilməsində mənbə ölkə kimi oynadığı rolu təsdiqlədi.

Rumıniya Prezidenti ölkəsinin Azərbaycanın beynəlxalq səviyyədə oynadığı məsul və fəal rolunu yüksək dəyərləndirdiyini, beynəlxalq antiterror koalisiyasında və "Sülh Naminə Tərəfdaşlıq" çərçivəsində Azərbaycanın beynəlxalq təhlükəsizliyin gücləndirilməsinə verdiyi töhfəni xüsusi dəstəklədiyini dedi.

Prezident Trayan Besesku Rumıniyanın Cənubi Qafqazda cərəyan edən hadisələri böyük diqqətlə izlədiyini bildirərək dedi:

-Biz Cənubi Qafqazda cərəyan edən hadisələri böyük maraqla izləyirik və əminik ki, beynəlxalq ictimaiyyətin davamlı səyləri ilə bu region sabitlik və iqtisadi əməkdaşlıq məkanına çevriləcəkdir. Biz Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüquq prinsipləri əsasında razılaşdırılmış həllinin tezliklə və dinc yolla müəyyən edilməsinin tərəfdarıyıq. Rumıniya ATƏT çərçivəsində tərəflər arasında danışıqların davam etdirilməsini alqışlayır və münaqişənin tezliklə davamlı nizamlanması üçün tərəflərin qəbul etdiyi hər hansı təklifi dəstəkləyir.

Prezident Trayan Besesku səfərin nəticələrinin, aparılan danışıqların və əldə olunan razılaşmaların xalqlarımız və regionlarımız üçün töhfə verəcəyinə əminliyini ifadə etdi.

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ

Hörmətli cənab Prezident,

Polşa Respublikasının milli bayramı - Konstitusiya günü münasibətilə Sizi və bütün Polşa xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan-Polşa əlaqələri dostluq və əməkdaşlıq zəminində müvəffəqiyyətlə inkişaf etməkdədir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, iş birliyimizin dərinləşdirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 18 aprel 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Aleksandr Mişenkonun etimadnaməsini qəbul etmişdir.

Səfir Aleksandr Mişenko fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Aleksandr Mişenko etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan və Ukraynanın dövlət başçıları arasında möhkəm əlaqələrin olduğunu vurğulayaraq ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu dedi. Kiyevə son səfərini xatırlayan Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ukraynaya və Ukrayna xalqına Azərbaycanda səmimi hisslərlə yanaşıldığını vurğulayan dövlətimizin başçısı münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi və səfirə fəaliyyətində uğurlar arzuladı.

Ukraynanın ölkəmizdə yeni təyin olunmuş səfiri Aleksandr Mişenko ilk gündən azərbaycanlı həmkarları ilə sıx əlaqələr yaratdığını dedi, ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI ERDAL CEYLANOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Türkiyənin Quru Qoşunları komandanı Erdal Ceylanoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün istiqamətlərdə çox yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin hərbi sahədə də yaxşı işbirliyinin yaradılmasından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Türkiyənin Quru Qoşunları komandanı Erdal Ceylanoğlunun səfər proqramı çərçivəsində keçirəcəyi görüşlərdə səmərəli müzakirələr aparılacağına əminliyini ifadə etdi. Qarşılıqlı səfərlərin önəmini qeyd edən Prezident İlham Əliyev Erdal Ceylanoğlunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə və Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi.

Türkiyənin Quru Qoşunları komandanı Erdal Ceylanoğlu Azərbaycan ilə Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğuladı və bu münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN KEÇMİŞ BAŞ NAZİRİ, "VAE CONTROLS" ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ MİREK TOPOLANEKİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Çexiya Respublikasının keçmiş Baş naziri, "VAE Controls" şirkətinin Direktorlar Şurasının sədri Mirek Topolaneki qəbul etmişdir.

Çexiyanın keçmiş Baş naziri, "VAE Controls" şirkətinin Direktorlar Şurasının sədri Mirek Topolanek Bakıda çox böyük inkişafın şahidi olduğunu və burada aparılan quruculuq işlərinin onda dərin təəssürat yaratdığını dedi.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mirek Topolanek ilə Praqada keçirilən "Cənub Dəhlizi-Yeni İpək yolu" sammitindəki görüşü məmnunluqla xatırlandı, dövlətimizin başçısının həmin sammitdə iştirakının önəmi qeyd olundu, Azərbaycan ilə Çexiya arasında işgüzar əlaqələrə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN DAXİLİ İŞLƏR NAZİRİ RAYMUNDAS PALAYTİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Litva Respublikasının daxili işlər naziri Raymundas Palaytisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Litva arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu münasibətləri bütün sahələrdə genişləndirməyin zəruriliyini bildirdi. Ölkələrimizin müvafiq qurumları arasında müxtəlif sahələrdə yaxşı əlaqələrin yaradılmasının vacibliyini qeyd edən dövlətimizin başçısı bu baxımdan Litva Respublikasının daxili işlər naziri Raymundas Palaytisin ölkəmizə səfərinin uğurlu və məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirdi.

Litva Respublikasının daxili işlər naziri Raymundas Palaytis bildirdi ki, Azərbaycan çox uğurla inkişaf edən bir ölkədir və Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluq hissi duyur. Raymundas Palaytis dünyanın hər yerində maliyyə böhranının hökm sürməsinə baxmayaraq, Azərbaycanda iqtisadi artımın olduğunu xüsusi vurğuladı. Raymundas Palaytis ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq etməyə maraqlı olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ ANDREY KLYUYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Ukraynanın Baş nazirinin birinci müavini, iqtisadi inkişaf və ticarət naziri Andrey Klyuyevi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi əlaqələrimizin genişlənməsində hökumətlərarası birgə komissiyanın rolu qeyd olunaraq bu baxımdan komissiyanın Bakıda keçirilən 9-cu iclasının önəmi vurğulandı. Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVRONEST ASSAMBLEYASININ PREZİDENTİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ KRİSTİAN VİGENİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev aprelin 22-də Avronest Assambleyasının prezidenti, Avropa Parlamentinin üzvü Kristian Vigenini qəbul etmişdir.

Kristian Vigenin ölkəmizə səfərinin əsas məqsədinin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində yaradılan Parlament Assambleyası, həmçinin Avropa İttifaqı, Avropa Parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında əməkdaşlıq məsələlərinin müzakirə edilməsindən ibarət olduğunu bildirdi. O, dövlət başçıları səviyyəsində bu əlaqələrə maraq göstərilməsinin önəmini vurğuladı.

Bu təşəbbüsün və proqramın ölkəmiz üçün əhəmiyyətli olduğunu qeyd edən dövlətimizin başçısı İlham Əliyev Kristian Vigeninin səfərinin bu sahədə gələcək əməkdaşlığımız üçün faydalı olacağına əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ ATÇILIQ FEDERASİYASININ PREZİDENTİ ÜLYAHƏZRƏTLƏRİ HAYA BİNT ƏL HÜSEYNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Beynəlxalq Atçılıq Federasiyasının prezidenti Ülyahəzrətləri Haya Bint Əl Hüseyni qəbul etmişdir.

Beynəlxalq Atçılıq Federasiyasının prezidenti Ülyahəzrətləri Haya Bint Əl Hüseyni Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qarşıladı.

Sonra Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Ülyahəzrətləri Haya Bint Əl Hüseynlə görüşü oldu.

Ülyahəzrətləri Haya Bint Əl Hüseyn Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd Bin Rəşid Al Maktumun və İordaniya Haşimilər Kralı II Abdullahın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd Bin Rəşid Al Maktumla bir neçə il bundan əvvəl Dubayda keçirdiyi görüşünü məmnunluqla xatırladı. İordaniya Haşimilər Kralı II Abdullahla isə mütəmadi olaraq görüşdüyünü vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Görüşdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş atçılığın konkur növü üzrə beynəlxalq yarışın əhəmiyyəti qeyd edildi, tədbirin Azərbaycanın beynəlxalq idman əməkdaşlığının genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Du-

bay Əmiri Şeyx Məhəmməd Bin Rəşid Al Maktumun və İordaniya Haşimilər Kralı II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dubay əmirinə və İordaniya Kralına çatdırmağı xahiş etdi.

BAKIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ATÇILIQ TURNİRİ BAŞA ÇATMIŞDIR.

Beynəlxalq turnirin Qran-Pri final yarışlarını Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Beynəlxalq Atçılıq Federasiyasının prezidenti Ülyahəzrətləri Haya Bint Əl Hüseyn izləmişlər

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş atçılığın konkur növü üzrə 4 günlük beynəlxalq turnir aprelin 24-də Binə Atçılıq Mərkəzində Qran-Pri final yarışları ilə başa çatmışdır.

Final yarışlarını Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Beynəlxalq Atçılıq Federasiyasının prezidenti Ülyahəzrətləri Haya Bint Əl Hüseyn izləmişlər.

Binə Atçılıq Mərkəzində yarışları izləyən çoxsaylı tamaşaçılar Prezident İlham Əliyevi, Mehriban xanım Əliyevanı və Ülyahəzrətləri Haya Bint Əl Hüseyni hərarətlə qarşıladılar.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin əlahiddə nümunəvi orkestri marş ifa etdi.

Azərbaycan Atçılıq İdmanı Federasiyasının prezidenti Elçin Quliyev çıxış edərək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan bu mötəbər turnirin ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin mühüm tərkib hissəsi olduğunu dedi. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanın idman nailiyyətlərinin daha da artdığını bildirən E. Quliyev dedi ki, ölkəmizdə müasir idman infrastrukturu yaradılmışdır. Bu sırada atçılıq idman növünün inkişafı da mühüm yer tutur. Elçin Quliyev onu da diqqətə çatdırdı ki, hazırda Qarabağ və Diliboz at cinslərinin əvvəlki şöhrətinin qaytarılması, yeni atçılıq mərkəzlərinin yaradılması istiqamətində mühüm işlər görülür. Son illərdə beş atçılıq mərkəzi, həmçinin indiki beynəlxalq turnirin keçirildiyi Binə Mərkəzi istifadəyə verilmişdir. Yaxın gələcəkdə ümumi sahəsi 86 hektar olan və atçılıq idmanının bütün növlərinin əhatə olunacağı Mərkəzi Atçılıq Bazasının tikintisinə başlanacaqdır. 2011-ci ildə isə yeddi beynəlxalq yarışın keçirilməsi nəzərdə tutulub ki, onlardan üçü artıq təşkil edilmişdir. Elçin Quliyev bir daha dövlətimizin başçısına idmanın bu növünün inkişafına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdi.

Sonra turnirin hakimləri və qaydalar elan olundu. Bildirildi ki, turnirin keçirildiyi meydanda 13 maneə quraşdırılıb və 16 sıçrayış nəzərdə tutulub. Maksimum hündürlük 150 santimetr, vaxt normativi isə 84 saniyədir. Turnirin mükafat fondu 117 min dollardır. Yarışda 12 idmançı 20 atla mübarizə aparır.

Meydana ilk olaraq Azərbaycan idmançısı Gennadi Qaşibəyazov "Ladzero" ləqəbli atı ilə çıxdı. Bütün maneələri 84.86 saniyəyə 4 cərimə balı ilə başa vuran idmançının çıxışı uğurlu oldu. Sonra Rusiyadan Olqa Danilova "Kilar" ləqəbli atla, Azərbaycandan Hikmət Musayev "Layt Limerik", Seyid Musayev isə "Ursula" ləqəbli atlarla, Polşa təmsilçisi Aleksandra Lusina "Çiara MNM" ləqəbli atla, Azərbaycan idmançıları Patrik Mak Enti "David", Françesko Franko isə "San Sebastian" ləqəbli atlarla çıxış etdilər. Turnirin ən uğurlu çıxışını Azərbaycan idmançısı Camal Rəhimov etdi. O, "Bill Klinton" ləqəbli atı ilə maneələrin hamısını 79.15 saniyəyə heç bir cərimə xalı olmadan keçərək bütün rəqiblərini geridə qoydu.

Bolqarıstan təmsilçisi Tenev Venetto "Uterusa", Belarusdan olan Viktor Petrov "Sindi Lupə", Gürcüstandan Şalva Qaçeçeladze isə "Konrad Deluks" ləqəbli atlar ilə o qədər də uğurlu çıxış etmədilər. Azərbaycan idmançısı Gennadi Qaşibəyazov "Papirus", Rusiya təmsilçisi Olqa Danilova "Vodka laym", Azərbaycan idmançıları Hikmət və Seyid Musayevlər "Arko VDH" və "Habab de Belou", Polşa idmançısı Aleksandra Lusina "Bahar MNM", Azərbaycandan Patrik Mak Enti isə "Konkord-57" ləqəbli atlar ilə çıxış etdilər. Azərbaycan idmançıları Françesko Franko "Zidan", Camal Rəhimov "Platin E", Gürcüstan təmsilçisi Kaxaber Kikiani isə "Kalitsa MS" ləqəbli atlar ilə yarışları başa vurdular.

Yarışlar başa çatdıqdan sonra keçirilən şouda məşhur Qarabağ atı nümayiş etdirildi. Balaca idmançılar da öz məharətlərini göstərdilər. Digər məşhur at cinslərinin nümunəvi çıxışları da azarkeşlər tərəfindən maraqla qarşılandı.

Sonra Pekin Yay Olimpiya Oyunlarının təsnifat mərhələsində Azərbaycanın atçılıq idmanını layiqincə təmsil edən 16 yaşlı "Hollivud" ləqəbli at meydana gətirildi və "fəxri təqaüdə" göndərildi.

Turnirdə ən yaxşı nəticə göstərən "Bill Klinton" ləqəbli atın sahibinə isə "KİA" markalı avtomobilin açarları təqdim olundu.

Daha sonra qalib idmançıların mükafatlandırma mərasimi keçirildi.

Beşinci yerin qalibi "David" ləqəbli at ilə Azərbaycan idmançısı Patrik Mak Enti oldu.

Dördüncü yeri Azərbaycan təmsilçisi Camal Rəhimov "Platin E" ləqəbli at ilə tutdu.

Üçüncü yerə digər Azərbaycan idmançısı Gennadi Qaşibəyazov "Ladzero" ləqəbli at ilə çıxdı.

İkinci yerin sahibi də "Konkord-57" ləqəbli at ilə Azərbaycan idmançısı Patrik Mak Enti oldu.

Nəhayət, Qran-Pri turnirində birinci yerin və Heydər Əliyev kubokunun sahibi elan edildi. Bu mükafatlara "Bill Klinton" ləqəbli at ilə Azərbaycan idmançısı Camal Rəhimov layiq görüldü.

Mükafatları Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ülyahəzrətləri Haya Bint Əl Hüseyn təqdim etdilər.

Mərasim Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başa çatdı.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ABŞ-ın dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri Tina Kaydanovu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər, Ermənistan-Azərbay-

can, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ, ÜMUMHƏMKARLAR İTTİFAQLARI BEYNƏLXALQ KONFEDERASİYASININ PREZİDENTİ MİXAİL ŞMAKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri, Ümumhəmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının prezidenti Mixail Şmakovu qəbul etmişdir.

Mixail Şmakov Bakıda keçiriləcək "Miqrasiya problemləri və çağırışlar: Həmkarlar ittifaqlarının rolu" mövzusunda II konfransın önəmini qeyd etdi. O, Beynəlxalq Əmək Təşkilatı ilə birgə təşkil edilən bu tədbirdə müxtəlif ölkələrin nümayəndələrinin iştirak edəcəyini dedi. Qonaq bildirdi ki, tədbirin əsas məqsədlərindən biri də beynəlxalq miqrasiya məsələlərini müzakirə etməkdən ibarət olacaqdır. O, bu baxımdan həmkarlar ittifaqı təşkilatlarının işçi miqrantların hüquqlarının qorunması istiqamətində həyata keçirdikləri işlərin əhəmiyyətini qeyd etdi. Rəhbəri olduğu təşkilatın Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayan qonaq bu mühüm məsələnin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə imzalanan yeni müqavilədə də öz əksini tapdığını dedi.

Dövlətimizin başçısı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Rusiya Federasiyasının Müstəqil Həmkarlar İttifaqları Federasiyası arasında əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirdi. İşçi miqrantların fəaliyyətinin hüquqi tənzimlənməsi məsələsinə toxunan dövlət başçısı bu məsələnin həm ikitərəfli münasibətlərin inkişafında, həm də MDB çərçivəsində əməkdaşlıq baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev sürətlə inkişaf edən ölkəmizdə xaricdən gələn işçi qüvvəsinin artdığını bildirərək, Azərbaycanda miqrantların əmək fəaliyyəti istiqamətində görülən işləri qeyd etdi.

Mixail Şmakov vaxtilə Sovetlər İttifaqının Həmkarlar İttifaqı Təşkilatına rəhbərlik edən bir qrup şəxsin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə çəkdirdiyi fotoşəkli xatirə olaraq dövlətimizin başçısına təqdim etdi. Sonra Mixail Şmakov dövlətimizin başçısını Ümumhəmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının fəxri gümüş nişanı, Beynəlxalq Rabitə İşçiləri Həmkarlar İttifaqları Komitəsinin qızıl ordeni ilə təltif etdi. Mixail Şmakov Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqları Federasiyasının 100 illik yubileyi münasibətilə hazırlanmış abidənin maketini Prezident İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MƏHƏMMƏD MEHDİ AXUNDZADƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Məhəmməd Mehdi

Axundzadəni qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlər, Xəzər dənizinin hüquqi statusunun hazırlanması istiqamətində aparılan danışıqların vəziyyəti müzakirə edilmiş, bu baxımdan Xəzəryanı ölkələrin dövlət başçılarının Bakı sammitinin önəmi vurğulanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də bp şirkətinin icraçı direktoru Robert Dadlini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzun illər uğurlu əməkdaşlıq həyata keçirildiyi vurğulandı.

bp şirkətinin icraçı direktoru Robert Dadli icrada olan layihələr üzrə işlərin gedişi barədə Azərbaycan Prezidentinə məlumat verdi.

Görüşdə, həmçinin əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

Aprelin 28-də Azərbaycan Respublikasına səfərə gələn Ukrayna Prezidenti Viktor Yanukoviçin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Viktor Yanukoviçi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Ukrayna Prezidentinə raport verdi.

Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Ukrayna Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Viktor Yanukoviçə, Ukrayna nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları yüksək səviyyədə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdilər.

Prezidentlər ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, humanitar və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu bildirdilər, əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə etdilər.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNDƏ AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də ABŞ-ın Pensilvaniya ştatından respublikaçı, Konqresin Silahlı Qüvvələr və Nəqliyyat komitələrinin üzvü, Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətinin tərkibinə Nyu-Cersi ştatından respublikaçı, Silahlı Qüvvələr, Təbii Ehtiyatlar və Veteranlar məsələləri üzrə komitələrin üzvü Con Runian, İllinoys ştatından respublikaçı, Enerji və Ticarət komitələrinin üzvü Adam Kinzinger, Viskonsin ştatından respublikaçı, Maliyyə Xidmətləri və İqtisadiyyat komitələrinin üzvü Şon Daffi, Luiziana ştatından demokrat, Milli Təhlükəsizlik və Kiçik Biznes komitələrinin üzvü Sedrik Riçmond, Konnektikut ştatından demokrat, Xarici Əlaqələr, Nəzarət və Hökumət İslahatları komitələrinin üzvü Kristofer Mörfi daxildirlər.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, energetika sahəsində həyata keçirilən əməkdaşlıq və digər sahələrdə əlaqələrin bugünkü vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmış, Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakı və beynəlxalq antiterror əməliyyatlarının həyata keçirilməsi işinə verdiyi töhfə qeyd olunmuşdur.

Görüşdə, həmçinin regional məsələlərə də toxunulmuşdur.

AZƏRBAYCAN-UKRAYNA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Aprelin 28-də Azərbaycan və Ukrayna Prezidentləri Şurasının üçüncü iclasından sonra Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası və Ukrayna Prezidentlərinin strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı barədə Birgə Bəyannaməsi"ni, "Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının üçüncü iclasının Protokolu"nu, "Azərbaycan Respublikası ilə Ukrayna arasında 2011-2015-ci illərdə Hərtərəfli Əməkdaşlığa dair Tədbirlər Planı"nı Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yanukoviç imzaladılar.

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ ÜÇÜNCÜ İCLASI

Bakı, 28 aprel (AzərTAc). Aprelin 28-də Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin təkbətək görüşü başa çatandan sonra iki ölkənin Prezidentləri Şurasının üçüncü iclası olmuşdur. İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri iştirak etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV iclası açaraq dedi:

-Hörmətli Viktor Fyodoroviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlayıram. Sizi ölkəmizdə görməyə çox şadam. Bu, Sizin Ukrayna Prezidenti kimi Azərbaycana ilk səfərinizdir. Əminəm ki, səfər uğurlu olacaq, yaxşı nəticələr əldə ediləcək, biz irəliyə doğru fəal hərəkət edəcəyik. Mən, həmçinin keçən il Sizin ölkənizə səfərim zamanı mənə göstərilmiş qonaqpərvərliyə görə təşəkkür etmək istəyirəm. Biz ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərini müəyyən etmişik. Bütün istiqamətlər üzrə fəal irəliləyirik. Hökumətlərarası Komissiya səmərəli işləyir, siyasi dialoq inkişaf edir. Bu gün Sizinlə təkbətək görüşdə biz münasibətlərimizin geniş gündəliyini müzakirə etdik. Lakin bu gün razılaşdırılmış gündəliyi Prezidentlər Şurasının iclasında da müzakirə edəcəyik. Gündəlik geniş, çox müfəssəl və konkretdir. Əminəm ki, Prezidentlər Şurasının iclasının yekunlarına əsasən biz öz münasibətlərimizin inkişafının sonrakı addımlarını müəyyən edəcəyik. Biz bu münasibətləri çox yüksək qiymətləndiririk, onların qədrini bilirik və əminik ki, Ukrayna ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsi regional kooperasiyanın da genişlənməsinə kömək edəcəkdir.

Sizi bir daha ürəkdən salamlayıram və ümid edirəm ki, səfər uğurlu və xoş olacaqdır.

Xoş gəlmisiniz!

Sonra Ukrayna Prezidenti Viktor Yanukoviç çıxış edərək dedi:

-Sağ olun, möhtərəm İlham Heydər oğlu!

Hörmətli iclas iştirakçıları!

İlham Heydər oğlu, mən ilk növbədə, Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edildiyimə və buraya gəlmək imkanıma görə Sizə minnətdarlığımı bildirmək istərdim. Bizim ölkələr artıq çoxdandır ki, strateji tərəfdaşlardır. Mən deyərdim, bu, bir-biri ilə çox yaxın olan iki ölkə arasında münasibətləri necə qurmaq lazım olduğunu göstərən parlaq nümunədir.

Biz ikitərəfli səviyyədə münasibətlərimizi çox uğurla inkişaf etdiririk. Bizim Hökumətlərarası Komissiya və altkomissiyalar gözəl işləyirlər. Onlar bütün istiqamətlər üzrə iş

aparırlar. Keçən ilin yekunları bu işin nəticəsi olmuşdur. Bu səmərəli işin əyani nümunəsi belədir: ölkələrimiz arasında əmtəə dövriyyəsi artımı rekord səviyyəyə çatmışdır. Lakin bu, hələ son həddi deyildir. Əminəm ki, imkanlarımız bundan qat-qat genişdir. Bunu görmək mənə xoş oldu ki, Ukrayna Rusiyadan sonra Azərbaycanın ikinci ticarət tərəfdaşına çevrilmişdir. Bu, çox gözəl nəticədir.

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Aprelin 28-də Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Çox hörmətli Viktor Fyodoroviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Viktor Fyodoroviç, Sizi Azərbaycanda ürəkdən salamlayıram. Bu, Sizin Ukrayna Prezidenti kimi ölkəmizə ilk səfərinizdir. Mən şadam ki, səfər çox uğurlu keçir, bu gün aparılan danışıqlar, fikir mübadiləsi bir daha ölkələrimizin və xalqlarımızın, dövlətlərimizin mövqelərinin nə qədər yaxın olduğunu göstərir.

Ölkələrimiz arasında ənənəvi çox mehriban dostluq münasibətləri mövcud olmuşdur. Hazırda bu münasibətlərin inkişafı yeni mərhələyə qədəm qoymuş, konkret məzmun kəsb etmişdir. Münasibətlərimiz dinamizmi və əlaqələrimizi bütün istiqamətlərdə inkişaf etdirmək üçün qarşılıqlı əzmlə fərqlənir.

Siyasi baxımdan çox fəal dialoq aparırıq. Biz daim əlaqədəyik və rəsmi səfərlər mübadiləsi ölkələrimiz arasında qarşılıqlı siyasi fəaliyyətin yüksək səviyyəsindən xəbər verir. Mən ötən ilin sonlarında Ukraynaya rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Təbii ki, qarşılıqlı səfərlər ölkələrimizin yaxınlaşmasına kömək edir. Biz, həmçinin beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir, bir-birimizi dəstəkləyirik. BMT, ATƏT, Avropa Şurası, MDB və digər beynəlxalq təşkilatlarda əməkdaşlığımız böyük əhəmiyyət kəsb edir.

Bu gün biz iqtisadi, siyasi sahələrdə qarşılıqlı fəaliyyətlə bağlı çox geniş müzakirələr apardıq. Mən Ukrayna Prezidentinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyət barədə məlumat verdim. Münaqişənin həllində prinsipial mövqeyinə görə Ukraynaya təşəkkürümü bildirmək istəyirəm. Bu mövqe bu gün imzalanan Birgə Bəyanatda da öz əksini tapmışdır. Bəyanatda deyilir ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ərazi bütövlüyü, suverenlik və dövlətlərin sərhədlərinin pozulmazlığı prinsipləri nəzərə alınmaqla nizama salınmalıdır.

Bu gün biz Prezidentlər Şurasının iclasında münasibətlərimizin iqtisadi hissəsini də müzakirə etdik, yaxşı rəqəmlər, nəticələr, əmtəə dövriyyəsinin artmasını gördük. Əlbəttə,

əmtəə dövriyyəsinin sürətlə artması böyük nikbinlik və ümid doğurur.

Bizim şirkətlər tərəfindən artıq həyata keçirilən investisiya layihələri də vardır. Əminəm ki, yaxın vaxtlarda onların həcmi artacaqdır.

Hərbi-texniki sahədə əməkdaşlıq da ənənəvi formata malikdir. Bu gün biz iqtisadiyyatın bu mühüm seqmentində yeni keyfiyyət səviyyəsinə çıxırıq, əməkdaşlığın istiqamətlərini genişləndiririk. Əminəm ki, bu gün mövcud olan təcrübə qarşılıqlı faydalı hərbi-texniki əməkdaşlığı çox fəal inkişaf etdirməyə imkan verəcəkdir. Bu əməkdaşlıq həm də birgə tədqiqatları və müştərək istehsalı nəzərdə tutur.

Energetika sahəsində əməkdaşlıq münasibətlərimizin mühüm tərkib hissəsidir. Burada işlərimiz çox uğurla gedir. Bu artımın nə qədər sürətli olmasını görmək üçün Azərbaycandan Ukraynaya neft və neft məhsulları satışının həcminə dair keçən ilin statistikasına nəzər salmaq kifayətdir. Təkcə keçən il Ukraynaya təqribən 1,5 milyon ton Azərbaycan nefti nəql edilmişdir. Bu, ölkələrimiz arasında fəal və çox səmərəli əməkdaşlığın nəticəsi olan yeni layihədir. Bu məsələ uzun illər boyu diskussiya mərhələsində olmuşdur. Bu gün o, artıq özünün konkret həllini tapmışdır.

Bu ilin yanvar ayında biz, iki prezident Azərbaycanın maye qazının Ukrayna ərazisinə nəql edilməsi haqqında sənəd də imzalamışıq. Biz bu layihəyə böyük əhəmiyyət veririk və bu gün həmin mövzuda məsləhətləşmələr aparılır. Bizim çox zəngin qaz ehtiyatlarımız vardır və biz qaz satışının coğrafiyasını şaxələndirməyə çalışırıq. Zənnimcə, bu da ukraynalı tərəfdaşlarımız üçün maraq doğurur.

Başqa sözlə desək, bugünkü müzakirələrin və Prezidentlər Şurasının iclasının yekunları çox sanballıdır. Bir daha deyirəm, bu nəticələr konkret, praqmatik, realist olmaqla möhkəm siyasi və humanitar əlaqələrə əsaslanır.

Dostumuz Viktor Fyodoroviç Yanukoviçi ölkəmizdə qəbul etmək mənə çox xoşdur. Ölkəmizə Sizin sonuncu səfərinizi xatırlayıram, o vaxt Siz Baş nazir idiniz. O vaxtdan beş il keçmişdir. Lakin bütün bu illər ərzində əlaqələrimiz, münasibətlərimiz davam etmişdir. Bu gün bu münasibətlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə çox cəhətdən kömək edir.

Bir daha xoş gəlmisiniz, Viktor Fyodoroviç.

UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN BƏYANATI

-Hörmətli İlham Heydər oğlu!

Ukraynanın və Azərbaycan Respublikasının nümayəndə heyətlərinin hörmətli üzvləri!

Azərbaycan Respublikasının və Ukraynanın Prezidentləri Şurasının növbəti, üçüncü iclası indicə başa çatmışdır. Bundan əvvəl İlham Heydər oğlu ilə təkbətək formatda bir sıra məsələləri müzakirə etmişik. Biz indicə İlham Heydər oğlunun dediyi məsələlərin praktiki olaraq bütün spektrini, birgə planlarımızın həyata keçirilməsi mexanizmlərini çox ətraflı müzakirə etməyə müvəffəq olduq. Hörmətli İlham Heydər oğlu, demək istəyirəm ki, Bakının yeniləşmiş görkəmi məni ürəkdən sevindirir. Biz Bakıya gələn kimi imkan tapıb həmkarlarımızla fikir mübadiləsi apardıq. Çünki mənim kimi, burada iştirak edənlərin əksəriyyəti son beş ildə Bakıda olmamışdır. Biz gördük ki, müxtəlif informa-

siya məlumatlarında, statistik nəşrlərdə deyilən tərəqqi göz qabağındadır. Bunlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı ilbəil çox yüksək sürətlə inkişaf edir. Bizim üçün bu, hər hansı kəskin daxili və xarici siyasi dəyişiklikləri qəbul etməyən dövlət idarəçiliyi sisteminin necə səmərəli işləyə bilməsini göstərən əyani nümunədir. Yəni, sabitlik dövlətin inkişafının əsasıdır.

Əlbəttə, mənə çox xoşdur ki, Azərbaycanın Ukraynaya münasibətdə siyasəti də bu sabitliyin tərkib hissəsidir. Bu ənənələr hələ Heydər Əliyevlə başlanmışdır. Ukrayna üçün çox ağır illərdə Heydər Əliyev bizə kömək əlini uzatmışdır. O vaxt, 1990-cı illərdə Ukraynada yanacaq-sürtkü materialları yox idi. Azərbaycan həmin məhsulların əldə olunmasında Ukraynaya kömək etdi və biz ölkəmizdə kənd təsərrüfatı işlərini yanacaqla təmin etdik və bütövlükdə ölkəyə necə deyərlər, bir udum oksigen verdik. Ukrayna xalqı bunu unutmur, Heydər Əliyevin ruhu şad olsun.

Ölkələrimiz arasında münasibətlərin əsasını təşkil edən ənənələr davam edir. Lakin əgər bu gün ölkələrimizin bu qədər böyük potensiala malik olduğu bir şəraitdə xalqlarımızın həyatını yaxşılaşdırmağın əsası olan iqtisadiyyatın səviyyəsini xeyli artırmaq vəzifəsini qarşıya qoymasaq, yəqin ki, haqlı olmarıq.

Ötənilki əmtəə dövriyyəsi ölkələrimizin müstəqillik qazandığı bütün illər içərisində görünməmiş səviyyədir. Bu il Ukrayna da, Azərbaycan da müstəqilliklərinin 20-ci ildönümünü qeyd edəcəkdir. Biz ötən il parlaq nümunə göstərdik, əmtəə dövriyyəsi elə səviyyəyə qalxdı ki, Ukrayna hazırda Azərbaycanla bu göstərici üzrə ikinci yeri tutur. Mən bu gün bunu artıq ikinci dəfədir deyirəm. Bu, bizim üçün xoşdur. Əlbəttə, razılaşmalarımızı yerinə yetirməyimiz, onlara əməl etməyimiz çox vacibdir. Nəhayət, Odessa-Brodı neft kəməri işə düşdü. Əlbəttə, onun Baltik dənizinə qədər uzadılması vacibdir. Yəqin ki, biz bu məsələni yaxın gələcəkdə necə həll etmək barədə düşünməliyik. Biz bu məsələni İlham Heydər oğlu ilə müzakirə etmişik. Biz neft kəmərinin Baltik dənizinədək çatması üzərində işləyəcəyik. Mən planlarımızın təfsilatları barədə danışmayacağam. Lakin biz gözəl başa düşürük ki, mövcud imkanları mütləq birlikdə həyata keçirməliyik.

İlham Heydər oğlu məni, demək olar ki, bir çox digər məsələlər barədə danışmaq imkanından məhrum etdi. Çünki o, çox şey barədə danışdı. Təkcə onu əlavə edə bilərəm ki, birgə həyata keçirmək barədə razılığa gəldiyimiz müştərək sərmayə layihələri əlli-əlliyə gerçəkləşdiriləcəkdir. Bu layihələri birlikdə maliyyələşdirmək nəzərdə tutulmuşdur. Bu isə o, deməkdir ki, inşa edəcəyimiz obyektlər, hansı ərazidə tikilməsindən asılı olmayaraq, dövlətlərimizin - Azərbaycan Respublikasının və Ukraynanın birgə mülkiyyəti olacaqdır. Bu, etimadın ən yüksək səviyyəsidir və əlbəttə, düşünürəm ki, biz əvvəlcə birlikdə layihələşdirib, sonra həyata keçirsək səmərəlilik daha da artar.

Bizim artıq indi nəzərdən keçirdiyimiz bir sıra layihələr təkcə layihələşdirməyə deyil, həm də müxtəlif elmi tədqiqatlara, yeni texnologiyaların inkişafı sahəsinə, elmi-təcrübə bazalarımızın, elmi-tədqiqat təşkilatlarının fəaliyyətinə aiddir. Bunlar ən yaxın gələcəkdə həyata keçirəcəyimiz planlardır. Bu gün biz belə müqavilələr imzaladıq. Başqa sözlə, birgə qərarlarımızın səmərəliliyi bu gün imzaladığımız 2014-2015-ci illərədək olan dövr üçün planların əsasını təşkil edir. Orada müxtəlif sənədlər vardır.

Mən həm də Azərbaycan torpağında bizə göstərdiyiniz çox böyük qonaqpərvərliyə, əlbəttə, qərarların qəbul edilməsində və həyata keçirilməsində operativliyə görə nümayəndə heyətimiz adından təşəkkürümü bildirmək istəyirəm. Bu, ikitərəfli münasibətlərimiz üçün səciyyəvidir.

Əlbəttə, qarşıda bizi müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizin əlaqələndirilməsinə dair böyük iş gözləyir. Bu, iqtisadiyyatın qloballaşdırılması, müxtəlif texnogen qəzaların nəticələrinin aradan qaldırılması şəraitində çox vacibdir. Bununla əlaqədar, Çernobıl Atom Elektrik Stansiyasında "Örtük" layihəsinin həyata keçirilməsi üçün Çernobıl Fonduna bir milyon dollar köçürülməsi barədə qərara görə, İlham Heydər oğlu, Sizə, Azərbaycan xalqına təşəkkürümü bildirmək istəyirəm. Bu da xalqlarımız arasında qırılmaz əlaqələrin dar gündə də, Ukrayna sakinlərinin təhlükəsizliyi, 25 il əvvəl baş vermiş faciə ilə bilavasitə bağlı qərar qəbul etmək vaxtı çatanda da özünü büruzə verməsinin parlaq nümunəsidir. Bu faciə indi də Ukrayna xalqını böyük gərginlikdə saxlayır. Çünki biz o faciənin nəticələrinə görə təkcə qonşu ölkələr qarşısında deyil, həm də Avropa qarşısında, bütün dünya qarşısında məsuliyyət hiss edirik. Biz bilirik ki, bu layihə artıq 2015-ci ildən sonra Çernobıl qəzasının nəticələrini birdəfəlik aradan qaldırmağa, başqa sözlə, qəzalı bloku söküb nüvə yanacağının qalıqlarını oradan çıxarmağa imkan verəcəkdir. Buna görə də Sizə çox böyük təşəkkürümü bildirir, Azərbaycan xalqı qarşısında baş əyirəm. Çox sağ olun.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

- Hörmətli prezidentlər, maye qaz barədə razılaşmanı bir qədər konkretləşdirə bilərdinizmi? Məsələn, Ukraynada terminalın necə inşa ediləcəyi məsələsində artıq indi aydınlıq vardırmı? Bu işə sərmayə qoyulacaq, yoxsa dövlətlərin hesabına tikiləcəkdir? Azərbaycan bu terminalı qazla təmin edə bilərmi və o, rəqabətə davamlı olacaqdırmı?

Prezident İlham Əliyev: Bu barədə sənəd bu ilin yanvar ayında Davosda Viktor Fyodoroviçlə görüşümüz zamanı imzalanmışdır. O qədər də çox vaxt keçməmişdir və indi biz bu mövzuda ciddi məsləhətləşmələrə başlayırıq. Əlbəttə, sizin dediyiniz məsələlər bu layihənin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir. Çünki bu layihəni həyata keçirmək üçün bütün texniki, kommersiya, hüquq məsələləri həll edilməlidir. Bizim diskussiyalar zamanı gördük ki, ukraynalı tərəfdaşlarımız bu layihəni həyata keçirməyə çox səy edirlər. Bu layihə Ukrayna tərəfinin təşəbbüsü ilə başlanmışdır. Bu onu göstərir ki, Ukrayna bu layihənin həyata keçirilməsində, eləcə də təchizat mənbələrinin şaxələndirilməsində maraqlıdır. Buna görə bu gün biz ölkələrimizin nazirlikləri, həmçinin şirkətlər səviyyəsində bu mövzuda fəal məsləhətləşmələr aparırıq və düşünürəm ki, bu məsləhətləşmələrin nəticəsi artıq konkret təkliflər və texniki-iqtisadi əsaslandırmalar olacaqdır. Bu sənədlərdə məhz mənim dediyim məqam - layihənin kommersiya tərəfi, təchizatın həcmi, nəqliyyat amili, bu qazın çatdırılması üçün zəruri vasitələr öz əksini tapacaqdır. Bildiyiniz kimi, burada da müxtəlif variantlar vardır. Ona görə də biz bunu perspektivli layihə hesab edirik və biz onun həyata keçirilməsi ilə əlaqədar proseslərdə fəal iştirak edəcəyik.

Təchizatın həcmi məsələsinə gəldikdə, burada yəqin ki, bizim malik olduğumuz rəqəmləri göstərmək kifayətdir, mən həcm göstəricilərini nəzərdə tuturam. Azərbaycanda təbii qazın təsdiqlənmiş ehtiyatlarının həcmi 2,2 trilyon kubmetrə bərabərdir. Yaxın gələcəkdə planlaşdırılan investisiyaların məbləği milyardlarla, bəlkə də 10 milyardlarla

dollar ilə ölçülür. Bu, hasilatı artırmağımıza imkan verəcəkdir və təbii ki, biz təchizatın şaxələndirilməsində maraqlıyıq. Bu gün biz qaz ehtiyatlarımızı qonşu ölkələrə nəql edirik. Əlbəttə biz bu ənənəvi bazarlara təchizatın artırılmasında, eləcə də yeni bazarlara çıxmaqda maraqlıyıq. İstehlakçı ölkələr yeni mənbələrdə maraqlı olduğu kimi, istehsalçı ölkələr də yeni bazarlarda maraqlıdırlar. Burada istehlakçıların və istehsalçıların maraqları üst-üstə düşür. Bizim halda bu maraqlar tamamilə üst-üstə düşür. Buna görə də düşünürəm ki, biz lap yaxın vaxtlarda bu mövzuda fəal silsilə məsləhətləşmələr aparacağıq və onda artıq bu məsələdə daha çox aydınlıq olacaqdır.

- Mənim sualım hər iki prezidentədir. Energetika sahəsində Azərbaycan ilə Ukrayna arasında əməkdaşlıq uğurla inkişaf edir. Qeyri-neft sektorunda da ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün böyük imkanlar vardır. Siz bu sahədə əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?

Prezident İlham Əliyev: Bu gün biz bu məsələləri çox fəal müzakirə etmişik və Prezidentlər Şurasının iclasında bu məsələ diskussiyalarımızın bir hissəsi olmuşdur. Əlbəttə, energetika sahəsində əməkdaşlıqla əlaqədar məsələlər xüsusi maraq doğurur. Lakin biz iqtisadiyyatlarımızı da şaxələndirməli, əmtəə dövriyyəsinin strukturuna da nəzər salmalıyıq. Hökumətlərarası komissiyanın həmsədrləri bizə bu gün məruzə etdilər ki, bizim Ukraynaya ixracın mütləq əksəriyyəti neft və neft məhsullarıdır. Bu, özlüyündə yaxşı amildir. Lakin biz əlbəttə, istərdik ki, ixracın nomenklaturu daha çox şaxələnsin. Xüsusən ona görə ki, Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına böyük əhəmiyyət verilir. Emal sənayesi inkişaf edir, sənaye istehsalı artır. Buna görə də mən düşünürəm ki, hökumətlərarası komissiyanın bu yaxınlarda Bakıda keçirilmiş iclası çərçivəsində bu məsələ müzakirə olunmuşdur və bizim necə əməkdaşlıq edə biləcəyimizin konkret yolları müəyyən ediləcəkdir.

Bu gün müzakirə etdiyimiz məsələlərdən, qeyri-neft sektorunda əlaqələrin konkret istiqamətlərindən hərbi-texniki sahədə əməkdaşlığın adını çəkmək istərdim. Bu barədə mən artıq danışdım. Burada da bizim bir neçə komponentimiz vardır - alışlar, birgə istehsal, habelə müştərək araşdırmalar. Bundan əlavə, biz bu gün aerokosmik sahədə əməkdaşlığın perspektivlərini də müzakirə etdik. Burada Ukraynanın da çox böyük potensialı və bu sahədə ənənələri vardır, Azərbaycan da bu sahəni inkişaf etdirməyi çox arzulayır. Bizim kosmik məsələlər üzrə agentlik yaratdığımızı, kosmik sənaye yaratmaqda olduğumuzu və gələn ilin sonuna qədər ilk telekommunikasiya peyki buraxacağımızı nəzərə alsaq, bu sahə bizim üçün prioritet sahələrdən birinə çevrilir.

Zənnimcə, qeyri-neft sektorunda bu iki istiqamət üstünlük təşkil edəcəkdir. Əlbəttə, kənd təsərrüfatı malları, kənd təsərrüfatı məhsulları istehsalı, emal məhsulları istehsalı sahəsində də böyük perspektivlər vardır. Biz müştərək istehsalatlar yaratmaq, həm ixracın, həm də idxalın nomenklaturunu genişləndirmək barədə fikirləşirik.

Prezident Viktor Yanukoviç: Mən vurğulamaq istərdim ki, Ukraynada Azərbaycana ixracın strukturunda məhsulların spektri çox genişdir və bunlar əsasən əlavə dəyər səviyyəsi yüksək olan məhsullardır. Buraya maşınqayırma, elektrotexnika məhsulları, Ukrayna ilə Azərbaycan arasında onilliklər boyu əlaqələri olan iqtisadiyyatın ənənəvi sahələrinin məhsulları daxildir. Lakin bu gün biz artıq o barədə danışırıq ki, bu məhsulun bir qismini Azərbaycanda buraxmaq olar. Biz bu məsələləri müzakirə etmişik və gələ-

cəkdə bu strategiyaya riayət edəcəyik. Yəni, Azərbaycan ərazisində müştərək müəssisələr yaradacağıq ki, gələcəkdə bu texnikaya xidmət etmək, servis xidmətləri göstərmək, Ukraynada istehsal edilən, Azərbaycanda istehsal etməyin mənası olmayan dəstləşdirmə məmulatlarından qismən istifadə etməklə məhsul istehsal etmək mümkün olsun. Dəstləşdirici məmulatların müəyyən hissəsi isə Azərbaycanda istehsal ediləcəkdir.

Bir daha təkrar edirəm, bu məhsulların spektri çox genişdir. İlham Heydər oğlu çox məsələlər haqqında danışdı, mən isə əlbəttə əlavə edə bilərəm ki, Azərbaycanda işləyə biləcək kənd təsərrüfatı texnikasının, Ukraynada istehsal edilən müxtəlif markalı avtomobillərin buraxılışı məsələlərini də müzakirə etməyə dəyər və bu gün həmin avtomobillər Azərbaycanda istismar edilir. Lakin biz onları burada yığa bilərik və bu, təkcə Azərbaycan üçün deyil, bizim həmin texnika ilə təmin etdiyimiz bütün Xəzər regionu üçün maraqlı olacaqdır.

Əlbəttə, bütövlükdə əməkdaşlığımız bizim iqtisadiyyatların bir-birini qarşılıqlı tamamlamasına və ölkələrimizdə mövcud olan ənənəvi istiqamətlərin rəqabət qabiliyyətini təmin etməyə yönəlmişdir. Bundan əlavə, əlbəttə bu gün biz düşünürük ki, Ukraynada olan potensialımız azərbaycanlı həmkarlarımız, tərəfdaşlarımız üçün tam həcmdə istifadə edilə bilsin. Təbii ki, İlham Heydər oğlu ilə biz Azərbaycan məhsullarının Ukraynaya göndərilməsi barədə də danışdıq. Hazırda biz yanacaqdoldurma stansiyaları tikirik. Bu, bizim marağımıza uyğundur. Biz, həmçinin Ukrayna ərazisində neft emalı zavodunun tikilməsi, ola bilsin ki, alınması, modernləşdirilməsi məsələlərini də müzakirə edirik. Perspektiv baxımından bu, tamamilə real və maraqlıdır. Əlbəttə, xammal satışından əlavə, onu bizdə, Ukrayna ərazisində emal etmək də maraqlıdır. Buna görə də münasibətlərimizin əsasını təşkil edən etimad, dostcasına qarşılıqlı anlaşma qərarlar qəbul edilməsini və yaxın müddət üçün nəzərdə tutduğumuz işlərin yerinə yetirilməsini müəyyən dərəcədə sürətləndirəcəkdir. Hesab edirəm ki, bizim bu işlərin sürətini yalnız artırmaq perspektivi vardır. Bu gün həmin sürət optimaldır, münasibətlərimiz üçün əlverişlidir və güman edirəm ki, biz münasibətlərdə bu vəziyyəti uzun müddət qoruyub saxlayacağıq.

ALİ QONAĞIN ŞƏRƏFİN

Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə səfərdə olan Ukrayna Prezidenti Viktor Yanukoviçin şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Çox hörmətli Viktor Fyodoroviç!

Əziz qonaqlar, əziz dostlar!

Bütün qonaqlarımızı Azərbaycanda bir daha salamlamağa şadam. Bu gün münasibətlərimizin tarixində çox əlamətdar gündür. Ukrayna Prezidenti Viktor Fyodoroviç Yanukoviç Prezident kimi ilk dəfə Azərbaycana rəsmi səfər edir.

Biz Viktor Fyodoroviçi çoxdan tanıyırıq. Azərbaycan xalqı onu dostumuz kimi tanıyır, o, əvvəlki illərdə də ölkəmizdə olmuşdur, lakin Prezident kimi ilk dəfə gəlir.

Təbii ki, biz Viktor Fyodoroviçi çox böyük ümidlərlə və səbirsizliklə gözləyirdik. Bildiyiniz kimi, keçən ilin axırlarında mən Ukraynaya səfər etmişəm. Bu səfər çox uğurlu olmuşdur. Bu gün Viktor Fyodoroviç bizim qonağımızdır. Bu, münasibətlərimizə xas olan və münasibətlərimizin gündəliyindəki mühüm məsələləri operativ və konkret həll etməyə imkan verən dinamizm göstəricisidir. Xalqlarımızı uzun illər boyu, onilliklər, yüzilliklər boyu dostluq, əməkdaşlıq münasibətləri bağlayır. Çox vacibdir ki, bu il 20 illiyini qeyd edəcəyimiz müstəqillik illərində də xalqlarımızı əlaqələndirən və birləşdirən yaxşı nə varsa hamısını qoruyub saxlaya bilmişik. Müstəqillik illərində Ukrayna və Azərbaycan tərəfdaşlar, dostlar, bütün sahələrdə strateji tərəfdaşlar kimi fəaliyyət göstərir. Bu gün biz münasibətlərimizin geniş gündəliyini nəzərdən keçirdik. Bir daha razılıq hissi ilə qeyd edirik ki, siyasi münasibətlərimiz, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək və fəal əməkdaşlıq yüksək səviyyədədir.

Bizim nəzərdə tutduğumuz səmərəli iqtisadi əməkdaşlıq gələcəkdə daha ciddi hiss olunacaqdır. Əmtəə dövriyyəsinin artımı, xüsusən keçən il münasibətlərimizin tarixində ən yüksək səviyyədə olmuşdur. Humanitar sahədə, energetika sahəsində əməkdaşlıq, çox geniş əhatəli məsələlər üzrə əməkdaşlıq da qarşılıqlı maraq doğurur. Bütün istiqamətlərdə aramızda tam qarşılıqlı anlaşma, fəal işləməyə, əməkdaşlıq etməyə və irəliləməyə qarşılıqlı səy vardır.

Bu gün biz energetika sahəsində əməkdaşlıq məsələlərini çox müfəssəl müzakirə etdik. Çox şadıq ki, bu istiqamətdə konkret addımlar atılır. Biz niyyətlərdən, bəyanatlardan konkret işlərə keçmişik və bunun nəticəsini ilk növbədə əmtəə dövriyyəsinin artmasında görürük. Azərbaycan nefti Ukraynaya daxil olur və ümidvarıq ki, bu müsbət meyillər davam edəcəkdir. Bizim neft şirkəti Ukrayna bazarında fəal iş aparır, sərmayələr qoyur və investisiya layihələri üzrə böyük planlarımız vardır. Əminəm ki, həmin layihələr qarşılıqlı faydalı olacaqdır.

Biz nəqliyyat sahəsində əməkdaşlığa böyük ümid bəsləyirik, müvafiq olaraq Xəzər dənizi və Qara dəniz regionlarında həyata keçirdiyimiz nəqliyyat, infrastruktur layihələri ölkələrimizi təkcə etibarlı nəqliyyat yolları ilə birləşdirməyəcək, həm də Xəzər-Qara dəniz hövzəsində, gələcəkdə isə Xəzər dənizi-Qara dəniz-Baltik dənizi regional əməkdaşlığı üçün yaxşı zəmin yaradacaqdır. Bunun üçün bütün əsaslar, yetərincə siyasi iradə vardır. Energetika, nəqliyyat sahələrində, digər sahələrdə bu təşəbbüslər ölkələrimizi yaxınlaşdırır. Biz neft sahəsində əməkdaşlıqdan qaz sahəsində əməkdaşlığa keçməyi planlaşdırırıq. Cari ilin əvvəlində müvafiq sənəd imzalanmışdır, o, ikitərəfli əməkdaşlığın əvvəlki illər heç vaxt olmayan prinsipcə yeni elementidir. Bu gün Azərbaycanın öz qaz potensialını genişləndirdiyi və iri qaz istehsalçısı və ixracçısına çevrildiyi vaxtda bu sahədə əməkdaşlıq ölkələrimiz arasında xüsusi əhəmiyyət, mahiyyət kəsb edir. Burada qarşılıqlı səylər və siyasi iradə bu prosesləri irəli aparır, əlbəttə, həlledici rol oynayır.

Bu gün mən Viktor Fyodoroviçə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərin vəziyyəti barədə məlumat verdim. Bildiyiniz kimi, bu münaqişə onilliklərlə davam edir və Azərbaycan xalqına böyük ağrı-acılar, iztirablar gətirmişdir. Bir milyon azərbaycanlı doğma yurd-yuvasından qovulmuşdur. Xalqımıza qarşı etnik

təmizləmə siyasəti həyata keçirilmiş, ərazimizin 20 faizi işğal olunmuş və BMT kimi beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, - BMT Təhlükəsizlik Şurası işğalla əlaqədar 4 qətnamə qəbul etmişdir, - münaqişə indiyədək nizama salınmamışdır. Bu isə regional sülhə, sabitliyə böyük təhlükə törədir, regional əməkdaşlıq proqramlarını tam miqyasda həyata keçirməyə imkan vermir. Bu münaqişənin yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə inkişaf edir, iqtisadiyyat artır, iri sərmayə layihələri həyata keçirilir. Təkcə ötən il ölkəmizin iqtisadiyyatına 15,5 milyard dollar sərmayə qoyulmuşdur. Bunun da əksər hissəsi daxili sərmayədir. Biz Ukraynada sərmayə layihələri məsələlərini fəal nəzərdən keçiririk və bunun üçün maliyyə ehtiyatları, ən başlıcası isə siyasi iradə vardır. Başqa sözlə, əməkdaşlıq sahələrini uzun-uzadı sadalamaq olar və Azərbaycanda yaşayan ukraynalıların, Ukraynada yaşayan azərbaycanlıların münasibətlərimizin möhkəmlənməsi işində rolunu qeyd etməyə bilmərəm. Diasporlarımız ölkələrimizi, xalqlarımızı birləşdirən təbii körpüdür. Mənə çox xoşdur ki, həm Azərbaycanda yaşayan ukraynalılar, həm də Ukraynada yaşayan azərbaycanlılar özlərini rahat, inamlı, öz evlərindəki kimi hiss edir, öz dövlətlərində bir ailə kimi yaşayır, eyni zamanda, Ukrayna ilə Azərbaycan arasında münasibətlərin, indi olduğu kimi, fəal inkişaf etməsinə çalışırlar.

Bu badəni Ukrayna Prezidenti, Azərbaycanın böyük dostu Viktor Fyodoroviç Yanukoviçin sağlığına, Ukraynanın çiçəklənməsi, Ukrayna və Azərbaycan xalqları arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

* * *

UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN NİTQİ

-Çox hörmətli İlham Heydər oğlu!

Hörmətli həmkarlar, dostlar!

Mən bu gün artıq demişəm, Bakını görmədiyim beş il çox sürətlə keçmişdir. Əgər bu sürəti nəzərə almasaq biz sanki sehirli çubuğun təsiri ilə Bakının nə qədər dəyişdiyini, çox gözəlləşdiyini, deyərdim ki, Avropa şəhərinə çevrildiyini gördük.

İlham Heydər oğlu, bu gün Sizin adamlar mənə söylədilər ki, Siz 17 kilometrlik sahil zonasını parka çevirməyi, bütün sənaye müəssisələrini Bakının hüdudlarından kənara çıxarmağı planlaşdırırsınız. Mən belə başa düşürəm ki, Sizin hələ çox möhtəşəm planlarınız vardır.

Viktor Yanukoviç Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə bir daha ehtiramını bildirdi və qeyd etdi ki, dostluğa yüksək qiymət verməyi bacaran Heydər Əliyev Ukraynaya və Ukrayna xalqına da böyük məhəbbət bəsləyirdi:

-Mən Heydər Əliyevi tanıyırdım, əlbəttə onunla İlham Heydər oğlu ilə olduğu qədər yaxın deyildik. Heydər Əliyevin Azərbaycanı necə görmək arzusunda olması, ölkəni necə görmək istəməsi barədə bəzi söhbətlərimiz yadımdadır. Əgər o sağ olsaydı, əlbəttə, çox sevinərdi. Lakin, necə deyərlər, belə bir inanc vardır ki, onlar yuxarıdan hər şeyi görürlər, onlar hər şeyi görür və əlbəttə ki, ölkədə baş verənlərə görə sevinirlər. Mən əminəm ki, o, bizim münasibətlərimizə də sevinir. Ona görə ki, Heydər Əliyevin dostluqda

necə sadiq olduğunu, dostluq etməyi çox xoşladığını, Ukraynaya, Ukrayna xalqına çox böyük sevgi ilə yanaşdığını bilirəm. Mən bilirəm ki, o heç vaxt bu dostluğa kimin daha çox töhfə verə biləcəyini fikirləşmirdi və həmişə bacardığı qədər bu işə töhfə verirdi. Biz bunu xatırlayırıq. Ukrayna xalqı bunu xatırlayır. Kiyev şəhərində Heydər Əliyevin abidəsi qoyulmuş, onun adını daşıyan bağ salınmışdır. Bu anda mən bunu xatırlamaya bilməzdim. Çünki Sizin bu cür səmimi qəbulunuz və Sizinlə birlikdə hələ çox işlər görməli olduğumuz barədə Sizin sözləriniz, əlbəttə, inanıram ki, bütün bunlar əməli məna kəsb edəcəkdir. Mən buna da əminəm ki, bütün bu qərarlara müvafiq dinamika veriləcəkdir, yəni, sürət optimal olacaqdır. Deyə bilərəm ki, bunlar şəxsən mənim üçün çox xoşdur və əminəm ki, Ukraynanın böyük komandasına sizinlə işləmək rahatdır. Ona görə ki, biz çox işləməyi və tərəfdaşlarımızla birlikdə görülən işlərə yaxşı yekun vurmağı xoşlayırıq.

Ukrayna dövlətinin başçısı iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin son illər daha sürətlə inkişaf etdiyini diqqətə çatdıraraq dedi:

-Artıq keçən il üçün yekun vurulmalı nəticələrimiz vardır. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi həddən artıq azalandan sonra keçən il biz bunu çox sürətlə nəinki bərpa etməyə, həm də demək olar ki, bütün əvvəlki illərin göstəricilərini xeyli qabaqlamağa nail olduq. Müstəqillik illərində, 20 ildə heç vaxt əmtəə dövriyyəsi keçən ildəki qədər olmamışdır.

Bu, əlbəttə, iki böyük komandanın çox əhəmiyyətli işidir. Ötən il Azərbaycan iqtisadiyyatının artımı təxminən Ukrayna iqtisadiyyatındakı səviyyəyə qalxmışdır. Mən təvazökarlıqla deyirəm, çünki bir azca geri qalmışıq. Ancaq bizim üçün bu da xoşbəxtlikdir. Çünki Azərbaycan dünya böhranının çox mürəkkəb illərində - 2008-2009-cu illərdə sənaye istehsalı həcminin və iqtisadiyyatın artımını qoruyub saxlaya bilmişdir. Bu, çox yaxşıdır. Mən demişəm və bir daha demək istəyirəm ki, sizdə işlərin niyə yaxşı getdiyini gözəl anlayırıq. Çünki İlham Heydər oğlu, Sizin ölkədə başçılıq etdiyiniz komanda Azərbaycan xalqı qarşısında məsuliyyətini dərindən anlayır. Bunun sayəsində, sabitlik və peşəkarların fəaliyyəti sayəsində uğur qazanılmışdır. Möcüzə elə belə baş vermir. Biz də peşəkarlarıq. Biz bilirik ki, yalnız gərgin, böyük əmək və çox böyük istək, doğma torpağa məhəbbət həmişə müsbət nəticələr və gözəl bəhrələr verir.

Sizin münasibətlərimizə verdiyiniz yüksək qiymətdən sonra belə düşünürəm ki, vəd etdiklərimizin hamısını yerinə yetirməməyə haqqımız yoxdur. Biz bunu hamının qarşısında dedik. Mən təkrar etməyəcəyəm. Əlbəttə, planlarımız böyükdür. Özü də biz yalnız 10-15 faizi səsləndirdik. Qalanını İlham Heydər oğlu ilə hələlik səsləndirməmişik. Ümidvaram ki, vaxt gələcək onların zamanı yetişəcək və biz bu barədə danışacağıq.

Bakıya gəldiyimiz bu gözəl gündə, - bizi günəşli, isti hava qarşıladı, külək dayandı, hava sakitləşdi, - bu badəni qaldırmaq istəyirəm. Bu gün İlham Heydər oğlunun anasının doğum günüdür. Biz onun məzarı önünə ayrıca güllər qoyduq. Təəssüf ki, mən yalnız orada, abidənin önündə bunu bildim. Mən bu badəni Sizin ananızın nurlu xatirəsi şərəfinə qaldırmaq istəyirəm. Ona böyük təşəkkürümü bildirmək istəyirəm ki, belə bir insan olmuş, Azərbaycan torpağı üçün belə gözəl oğul dünyaya gətirmişdir. Onun nurlu xatirəsi şərəfinə və əminəm ki, əgər o, sağ olsaydı, bir ana kimi Sizin uğurlarınıza çox sevinərdi. Mən bu badəni bu nurlu və müqəddəs xatirənin şərəfinə qaldırmaq istəyirəm.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev:

-Viktor Fyodoroviç, çox sağ olun!

Sizin dediklərəniz çox təsirlidir və bir qədər gözlənilməz oldu. Çünki Sizin dediklərinizi yalnız əsl dost deyə bilər. Rəsmi nahar zamanı, necə deyərlər, bugünkü səfərin sonuncu mərhələsində belə xeyirxah, xoş sözlər dediniz. Bu, əslində Sizin ürəyinizin genişliyindən, nə qədər səmimi, incə qəlbli adam olmağınızdan, ölkəmizə, xalqımıza xoş hisslər bəsləməyinizdən xəbər verir. Məni mütəəssir etdiniz, bu sözlərə görə təşəkkür edirəm. Bu gün bizimlə olmayan yaxınlarımıza Allah rəhmət etsin və mən əminəm ki, onlar burada baş verənləri görürlər və onların ruhu şad olur.

Çox sağ olun, Viktor Fyodoroviç.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident,

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 29 aprel 2011-ci il.

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

Əlahəzrət,

Mərakeş şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorun bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Mərakeş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 29 aprel 2011-ci il.

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət,

Nəvəniz - Şahzadə Uilyamın toyu münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizə ən xoş arzularımı yetirir, yeni ailə həyatına qədəm qoyan gənclərə möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 29 aprel 2011-ci il.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 2-də Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskayte Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.

Litva dövləti başçısının rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Litva Prezidenti xanım Dalya Qribauskayteni qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Litva Prezidentinə raport verdi.

Litvanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Litva Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Dalya Qribauskayteyə, Litva nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Mayın 2-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Dalya Qribauskayte mətbuata bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək dedi:

-Hörmətli xanım Prezident.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Əminəm ki, səfəriniz uğurlu olacaqdır. İkitərəfli münasibətlərimizə aid müxtəlif aspektlər, o cümlədən regional məsələlər ətrafında çox maraqlı müzakirələr oldu. Əminəm ki, bu müzakirələr regionda baş verən hadisələri, çağırışları və problemləri daha yaxşı anlamağa və irəliyə doğru hansı yolla gedəcəyimizi təsəvvür etməyə imkan yaradacaqdır. İkitərəfli münasibətlərə gəldikdə, bildirmək istəyirəm ki, onlar əladır. Bizim çox fəal siyasi dialoqumuz vardır. Beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq edirik. Litva Azərbaycanın Avropaya inteqrasiya siyasətini daim dəstəkləyir. Əminəm ki, xanım Prezidentin səfəri ölkələrimiz arasında siyasi münasibətləri daha da möhkəmləndirəcəkdir. Zənnimcə, iqtisadi sahədə əlaqələrimizin, xüsusən də işgüzar dairələr arasında birbaşa təmasların inkişafı üçün yaxşı potensial vardır. Bilirəm ki, hazırda qarşılıqlı maraq artmaqdadır. Biznes dairələrimiz tərəfindən Litvada müxtəlif sərmayə imkanları qiymətləndirilir. Hesab edirəm ki, gələcəyə nəzər salaraq iqtisadi əlaqələrimizin genişləndirilməsi üzərində düşünməliyik. Çünki iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, bir-birini tamamlayır. Buna görə əminəm ki, yaxşı siyasi münasibətlərimiz biznes dairələrimizə daha fəal olmaq üçün bir işarə olacaqdır.

Nəqliyyat sektorunda yaxşı imkanlar vardır. Azərbaycan müxtəlif daşıma layihələrini həyata keçirməkdədir. Bu layihələr yeni infrastrukturu, quru, dəmir və hava yollarını yaradacaqdır. Həmçinin Xəzər dənizi vasitəsilə nəqliyyat məsələləri də bu halda nəzərdə tutulur. Bu, Baltik, Qara və Xəzər dənizləri regionları arasında nəqliyyat əməkdaşlığının bir hissəsi ola bilər. Bu, ölkələrimizin öz regionlarında olduqca mühüm rol oynadığı regional əməkdaşlıq siyasətini gücləndirəcəkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik. Bildiyiniz kimi, Azərbaycan bu baxımdan daha fəal rol oynayır. Cari ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi haqqında birgə bəyannamə imzaladıq. Bu, irəliyə doğru atılan mühüm bir addım oldu. Bu, həmin sahədə daha geniş əməkdaşlığın qurulmasına əsas yaradacaqdır.

Azərbaycanın nəhəng neft və qaz ehtiyatları vardır. Ölkəmiz artıq mövcud daşıma infrastrukturuna və karbohidrogenlərimizi müxtəlif istiqamətlərə nəql edən çox sayda boru kəmərinə malikdir. Bu sahədə Avropa ilə Azərbaycan arasında mövcud əməkdaşlıq qarşılıqlı faydaya əsaslanır. Əminəm ki, gələn illər ərzində bunun daha yaxşı nəticələrini görəcəyik. Əlbəttə ki, enerji sahəsində əlaqələr Avropa İttifaqı ilə əməkdaşlığımızın mühüm bir hissəsidir. Biz Azərbaycanın iştirak etdiyi "Şərq tərəfdaşlığı" Proqramına verdiyi dəstəyə görə Litvaya minnətdarıq.

Təbii ki, bu gün biz regional təhlükəsizlik məsələlərini də müzakirə etdik. Bu məsələ, həmçinin ikitərəfli gündəliyimizin bir hissəsidir. Eyni zamanda, Litva hazırda ATƏT-ə sədrlik edən ölkədir. Münaqişənin həlli müzakirələrimizin bir hissəsi oldu. Uzun illərdir ki, Azərbaycan ilə Ermənistan arasındakı münaqişə həll olunmayıb. Minsk qrupu demək olar ki, 20 ildir fəaliyyət göstərir. Lakin indiyə qədər praktiki nəticələr yoxdur. Bu yaxınlarda ATƏT-in sahə qiymətləndirmə missiyası Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmiş və hesabat hazırlamışdır. Həmin hesabatda aydın şəkildə deyilir ki, iş-

ğal olunmuş ərazilərdə bütün infrastruktur dağıdılıb, qeyri-qanuni məskunlaşdırma faktları vardır. Rayonların tarixi adlarını, inzibati sərhədlərini dəyişmək cəhdləri və Ermənistanın işğalçı siyasəti ilə bağlı bir çox digər sübutlar vardır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin inzibati hüdudlarından kənarda yerləşən 7 rayonu da işğal altındadır. Biz etnik təmizləmə siyasətindən əziyyət çəkirik. Bir milyon azərbaycanlı öz doğma torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Əlbəttə ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməlidir.

Mən xanım Prezidenti danışıqların hazırkı statusu, müzakirə olunan məsələlər barədə məlumatlandırdım. Ümidvarıq ki, Ermənistan ATƏT-in Minsk qrupunun təkliflərinə konstruktiv yanaşma nümayiş etdirməklə irəliyə doğru addım atacaq və Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmağa başlayacaqdır. Bundan sonra bölgədə sülh bərqərar ola bilər. Ermənistan ilə Azərbaycan arasındakı münaqişə regional təhlükəsizliyə və sabitliyə əsas təhdiddir. Bu münaqişənin beynəlxalq hüquq əsasında tezliklə həlli bütün tərəflərin marağındadır.

Mən, xanım Prezidentə dəvəti qəbul edib bu gün ölkəmizə səfər etdiyinə görə bir daha minnətdarlığımı bildirirəm. Ümidvaram ki, səfəriniz uğurlu olacaq və səfərinizdən məmnun qalacaqsınız.

Sağ olun.

* * *

Litva Prezidenti Dalya QRİBAUSKAYTE çıxış edərək dedi:

-Çox sağ olun. Əlbəttə, səfərimin ilk dəqiqələrindən artıq deyə bilərəm ki, səfərimdən çox razıyam. Çünki Prezidentlə onun qeyd etdiyi bütün məsələlər, ikitərəfli münasibətlərə, eləcə də Azərbaycan ilə Avropa arasında əlaqələrə aid məsələlər ətrafında, o cümlədən hamımızın üzləşdiyi problemlərin ATƏT çərçivəsində çözülməsinə dair çox səmimi söhbətimiz oldu. Qeyd olunan problemlərin həlli və əməkdaşlıq edəcəyimiz bütün sahələr nəinki ölkəniz, o cümlədən Avropa və ATƏT, bütövlükdə isə bütün dünya üçün vacibdir.

Litva ilə Azərbaycan arasında ikitərəfli münasibətlərə gəldikdə, iqtisadi əlaqələrimizin təkmilləşməsindən çox razıyıq. Biznes dairələrimiz hər iki tərəfdən əməkdaşlıq imkanlarını araşdırıb, müəyyən ediblər. Səfirliklərimiz ölkələrimizdə müvafiq qaydada işləyirlər. Sizin səfiriniz bizim ölkədə, bizim səfirimiz isə sizin ölkədə fəal çalışırlar. Mən onları təbrik etmək istəyirəm. Onlar çox yaxşı iş görürlər. İşgüzar dairələrimiz hər iki ölkədə iş aparmaq imkanlarından çox məmnundurlar. Onların bizneslə məşğul olmaları üçün yaxşı şansları vardır.

Dalya Qribauskayte Litvanın Avropa İttifaqına üzvlük sahəsində apardığı danışıqlardan əldə etdiyi təcrübəni Azərbaycan ilə bölüşməyə hazır olduğunu dedi. Azərbaycanda korrupsiyaya qarşı mübarizə proqramının həyata keçirilməsini müsbət qiymətləndirən Litva dövlətinin başçısı bu məsələnin, həmçinin onun ölkəsində gündəlikdə durduğunu bildirərək dedi:

-Müəyyən müsbət addımlar vardır. Biz bunu, xüsusən də, yeni qəbul etdiyiniz korrupsiyaya qarşı proqramın həyata keçirilməsində görürük. Bu məsələ, həmçinin şəxsən mənim və ölkəmin gündəliyində duran məsələdir. Bu problem bu və ya digər dərəcədə hər bir ölkədə vardır. Sizin ölkənizdə Prezidentiniz tərəfindən bu proqramın başlanması çox yaxşı işarədir.

Litva Prezidenti Azərbaycanın, eyni zamanda, Avropa üçün önəmli bir ölkə olduğunu xüsusi qeyd edərək dedi:

-Təbii qaz və digər enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsində ölkəniz Avropa üçün böyük əhəmiyyət kəsb edir. Bu münasibətlərin böyük gələcəyi vardır. Mən sadəcə olaraq arzulayaram ki, ölkəniz bundan tam istifadə etsin və bu məsələlər Avropa İttifaqının istənilən üzv ölkəsi ilə əlaqələrin daha da yaxşı olmasına töhfə versin.

Ölkəmizin ən ağrılı probleminə - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Dalya Qribauskayte problemin yalnız sülh yolu ilə həllinin tərəfdarı olduğunu bildirərək dedi:

-Bu cür münaqişələr hər bir ölkəyə böyük itkilər verir. Mənəvi dəyərlərə, münasibətlərə, iqtisadiyyata çox pis təsir göstərir. Bu çətinlikləri aradan qaldırmaq olduqca mürəkkəbdir. Bunun üçün sizə səbir, açıq yanaşma və əlbəttə ki, sülhsevər münasibət lazımdır. Avropa və bütün dünya istəyir ki, münaqişələr dinc yolla həll edilsin. Bu məsələnin həllində Litva həm ATƏT-in, həm Avropa İttifaqının üzvü kimi, həm də ki, ikitərəfli formatda sizə bacardığı qədər kömək etməyə hazırdır.

Litva prezidenti Azərbaycanın sürətlə inkişaf etdiyini və ölkəmizdə irimiqyaslı layihələrin icra olunduğunu xüsusi vurğulayaraq bildirdi:

-Buraya gələrkən tikilən və bərpa olunan bir çox binaları gördük. Böyük infrastruktur obyektləri tikilmək üzrədir. Bu çox yaxşı göstəricidir və biz çox şadıq ki, ölkəniz sürətlə inkişaf edir.

Təhsil sahəsində gələcək əməkdaşlığa da toxunan Litva dövlətinin başçısı bu istiqamətdə bir sıra layihələri reallaşdırmağa hazır olduqlarını dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ DALYA QRİBAUSKAYTENİN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 2-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Dalya Qribauskaytenin təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev qonağı salamlayaraq dedi:

-Hörmətli xanım Prezident, xoş gəlmisiniz. Sizi Azərbaycanda görməyimə çox şadam. Bu, Sizin ölkəmizə ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaq və biz çox maraqlı müzakirələr aparacağıq. Çünki ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir və bir çox sahəni əhatə edir. Ona da əminəm ki, Sizin səfəriniz bu əlaqələrin genişləndirilməsində, aramızdakı siyasi dialoqun və iqtisadi əlaqələrin dərinləşməsində vacib rol oynayacaqdır. Əlbəttə ki, biz regional əhəmiyyət daşıyan bir sıra məsələləri də müzakirə edəcəyik. Uğurlu nəticələr əldə edəcəyimizə əminəm. Bir daha Sizə "Azərbaycana xoş gəlmisiniz" deyirəm və ümid edirəm ki, ölkəmizə səfəriniz uğurlu

olacaqdır.

Litva Prezidenti Dalya Qribauskayte təşəkkür edərək dedi:

-Dəvətinizə görə çox minnətdaram. Bir neçə ay əvvəl Sizinlə danışanda artıq qərara gəlmişdim ki, ATƏT-ə sədrlik edən bir dövlətin başçısı kimi Azərbaycana səfərə gələcəyəm. Bu halda söhbət, təbii ki, regional məsələlərdən gedirdi. İkitərəfli iqtisadi münasibətlərimizin yaxşı olduğunu nəzərə alaraq, müzakirə edə biləcəyimiz bir çox məsələlər, görəcəyimiz bir çox işlər vardır.

Avropa ilə apardığınız danışıqlardan, Tvininq layihəsi vasitəsilə verilən töhfədən, danışıqların aparılmasında təcrübə mübadiləsindən bəhrələnə bilərik. Biz Sizinlə təcrübə mübadiləsi aparmağa açığıq.

Sağ olun.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Mayın 2-də Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskayte Azərbaycana rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunda olmuşdur.

Litva dövlətinin başçısını Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Litva Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Prezident Dalya Qribauskayteyə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Dalya Qribauskayte Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra qarşılıqlı hədiyyələr təqdim edildi.

Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskaytenin şərəfinə rəsmi nahar verilmişdir.

NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət,

Ölkənizin milli bayramı - Konstitusiya günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan-Norveç münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 may 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİNİN SƏDRİ VADİM ZAYTSEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Belarusun Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vadim Zaytsevi qəbul etmişdir.

Vadim Zaytsev Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın önəmi qeyd olundu, təhlükəsizlik sahəsində əlaqələri genişləndirməyin zəruriliyi bildirildi.

Dövlətimizin başçısı Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.

BƏHREYNİN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA AL XƏLİFƏYƏ

Əlahəzrət,

Nənəniz Şahzadə Muza bint Həməd Al Xəlifənin vəfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin üzvlərinə, bütün Bəhreyn xal-

qına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 5 may 2011-ci il.

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏL-SABAHA

Əlahəzrət,

Qardaşınız Şeyx Xalid Əl-Əhməd Əl-Cabir Əl-Sabahın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 5 may 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Beynəlxalq Cüdo Federasiyasının Prezidenti Marius Vizerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə cüdoçuların Bakıda keçirilən Qran-Pri turnirinə ölkəmizin ev sahibliyi etməsindən məmnunluq ifadə olundu, Azərbaycan cüdoçularının bu turnirdə yaxşı nəticələr əldə etdikləri vurğulandı. Görüşdə, həmçinin ölkəmizdə idmana göstərilən yüksək dövlət qayğısından danışıldı, cüdoçuların Bakıda keçirilən Qran-Pri turnirinin önəmi qeyd edilərək bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLAH İBN AL HÜSEYNƏ

Əlahəzrət,

Əziz qardaşım,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-İordaniya dövlətlərarası münasibətlərinin, xalqlarımız və ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, qardaş İordaniya xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 9 may 2011-ci il.

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

Hörmətli xanım Prezident,

Argentina Respublikasının milli bayramı - May inqilabının ildönümü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan-Argentina dövlətlərarası münasibətlərinin inkişafı dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Argentina xalqına əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 9 may 2011-ci il.

GÜRCÜSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

Hörmətli cənab Prezident,

Əziz dostum,

Ölkənizin milli bayramı - Dövlət müstəqilliyinin bərpası günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı dərin tarixi kökləri olan möhkəm dostluq və mehriban qonşuluq ənənələri birləşdirir. Bu gün həmin ənənələr yeni məzmunla zənginləşərək xalqlarımızın iradəsini bariz şəkildə əks etdirməkdədir.

Əminəm ki, dost ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də regional təşkilatlar və layihələr çərçivəsində səmərəli əməkdaşlığın müvəffəqiyyətlə davam etdiril-

məsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 9 may 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.

İSESKO-nun baş direktoru xalqımızın ümummilli lider Heydər Əliyevin doğum gününün əlamətdar bir tarix olduğunu və bu günün ən xoş hisslərlə qeyd edildiyini xüsusi vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq baş direktor Əbdüləziz bin Osman əl-Tüveycrinin ölkəmizə səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna toxunaraq Əbdüləziz bin Osman əl-Tüveycrinin bu beynəlxalq tədbirdə iştirakının əhəmiyyətini vurğuladı.

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Bakının artıq mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilməsinin önəmini qeyd etdi.

Görüşdə Azərbaycan-İSESKO əməkdaşlığının bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA MİLLİ ASSAMBLEYASI MÜDAFİƏ KOMİSSİYASININ SƏDR MÜAVİNİ MİŞEL VUAZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Fransa Milli Assambleyası müdafiə komissiyasının sədr müavini Mişel Vuazenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyi, müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, parlamentlərarası əlaqələrin əhəmiyyəti vurğulandı, münasibətlərimizin daha da möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmi qeyd olundu.

Görüşdə Fransa Milli Assambleyası müdafiə komissiyasının sədr müavini Mişel Vuazen

ölkəsinin Azərbaycan ilə Fransa arasında münasibətlərin təkcə siyasi, iqtisadi sahələrdə deyil, humanitar və digər sahələrdə də inkişaf etdirilməsinə maraqlı olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN KİV AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyəti, media sahəsində Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASININ SƏDRİ PETROS EFTİMİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ATƏT-in Parlament Assambleyasının sədri Petros Eftimiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair məsələlər müzakirə edildi, əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI GENERAL DUNKAN MAK NABBIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı general Dunkan Mak Nabbın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, beynəlxalq terrorizmlə mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Mayın 15-də Gürcüstan Prezidenti Mixeil Saakaşvili Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Gürcüstan Prezidenti Azərbaycan nümayəndələrinin Almaniyanın Düsseldorf şəhərində keçirilmiş "Eurovision-2011" müsabiqəsində qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırmış və bu hadisənin Gürcüstanda böyük sevinclə qarşılandı-

ğını vurğulamışdır.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Gürcüstan Prezidentinə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ BAÇANA AXALAYANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Gürcüstanın müdafiə naziri Baçana Axalayanı qəbul etmişdir.

Nazir Baçana Axalaya Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, müdafiə sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN REGİONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRİ RAMAZ NİKOLAŞVİLİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Gürcüstanın regional inkişaf və infrastruktur naziri Ramaz Nikolaşvililini qəbul etmişdir.

Görüşdə ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən regional inkişaf və infrastruktur sahəsində uğurlu əməkdaşlığından məmnunluq ifadə olundu. Azərbaycan ilə Gürcüstan arasında həyata keçirilən müxtəlif layihələr, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLMİŞ QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ HESABAT KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Xəbər verdiyimiz kimi, mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş Qafqaz Xalqları Ali Dini Şurasının hesabat konfransının iştirakçılarını qəbul etmişdir.

Prezident İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

-Mən sizi salamlamağa, yeni görüşümüzə şadam. Bu, çox əhəmiyyətlidir ki, biz tez-tez

görüşürük və siz ölkəmizdə tez-tez olursunuz. Biz bunu çox yüksək qiymətləndiririk, bu cür əlaqələr hamımız üçün çox vacibdir. Qafqazın dini liderlərinin bu səviyyədə münasibətləri, Qafqaz xalqları arasında ənənəvi qardaşlığa əsaslanan qarşılıqlı anlaşma bizi çox sevindirir. Biz bu münasibətlərin qədrini bilirik, onları çox yüksək qiymətləndiririk. Əsrlər boyu xalqlarımız arasında həmişə dostluq, qardaşlıq, qarşılıqlı dəstək, qarşılıqlı kömək münasibətləri olmuşdur. Mən şadam ki, bu gün bu münasibətlər davam edir, inkişaf edir və sizin ölkəmizə tez-tez səfərləriniz, eləcə də bizim möhtərəm şeyxin Şimali Qafqaz respublikalarına səfərləri, Şimali Qafqaz respublikalarının rəhbərləri ilə onun görüşləri ölkəmizdə çox yüksək qiymətləndirilir.

Qafqaz bizim ümumi evimizdir, bu, böyük bir ailə, vahid orqanizmdir. Etimad tədbirlərini gücləndirmək, Qafqazda sabitliyi, təhlükəsizliyi möhkəmlətməyə çalışmaq, bu məsələlər üzərində işləmək çox vacibdir. Biz bunu edə bilərik və öz tərəfimizdən bizim regionda təhlükəsizliyin və sabitliyin möhkəmlənməsinə bundan sonra da töhfə verəcəyik. Hesab edirəm ki, burada əsas amil məhz Yer kürəsinin Qafqaz kimi gözəl guşəsində məskunlaşan bütün xalqlar arasında münasibətlərdir. Dini liderlərin bir yerə toplaşması, müzakirələr aparması, əməkdaşlıq formatına malik olması çox vacibdir. Çünki sizin sözünüzü bizim bütün xalqlar, bütün vətəndaşlar eşidir və hörmətli insanlar, ağsaqqallar kimi sizdən çox şey asılıdır.

Azərbaycan ilə Rusiya arasında münasibətlər və əməkdaşlıq Qafqaz regionunun inkişafının və Qafqazda təhlükəsizliyin möhkəmlənməsinin mühüm amilidir. Bu, regional inkişafın, sabitliyin çox mühüm amilidir. Bizim üçün olduqca xoşdur ki, son illərdə bu münasibətlər çox müsbət, dinamik inkişaf edir. Biz - iki Qafqaz ölkəsi - Rusiya və Azərbaycan regionda vəziyyətin sabitləşməsinə çox böyük töhfə veririk. Bizim birgə fəaliyyətimizdən çox şey asılıdır. Əlbəttə ki, bizim cəmiyyətlərin qarşısında öz həllini tələb edən vəzifələr durur. Hesab edirik ki, iqtisadi rifah və iqtisadi artım sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin əsas amillərindən biridir. Bu, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün ən başlıca amildir.

Biz Azərbaycanda bu məsələlərə böyük diqqət yetiririk və ölkəmizin inkişafı nümunəsində görürük ki, işsizlik azaldıqca yoxsulluq da azalır, biznes inkişaf edir, ölkəyə sərmayələr gəlir, təhlükəsizlik və sabitlik tədbirləri möhkəmlənir. Biz öz tərəfimizdən Qafqaz regionunda bütün müsbət proseslərdə fəal iştirak etməyə həmişə hazırıq.

Bizim ümumi vəzifəmiz, ümumi borcumuz elə etməkdir ki, adamlarımız daha yaxşı yaşasın, təhlükəsizlik, layiqli həyat və iş şəraiti olsun, bütün müsbət proseslərə gəncləri fəal cəlb edək. Hazırda biz gənclər siyasətinə dair böyük proqram üzərində işləyirik. Tezliklə 2011-2015-ci illər üçün çox konkret və çox effektiv dövlət proqramı qəbul ediləcəkdir. Həmin proqramda qərarların icra mexanizmləri və müddətləri, maliyyə bazası və ən başlıcası, görmək istədiyimiz nəticə dəqiq müəyyən ediləcəkdir.

Buna görə də biz bu məsələdə də zərurət olarsa, məsləhətləşmələr, təcrübə mübadiləsi aparmağa hazırıq. Çünki bu regionun bir ölkə kimi Qafqazda sülh, təhlükəsizlik, tərəqqi, inkişaf olması bizim üçün çox vacibdir. Azərbaycan xalqı ilə Şimali Qafqaz xalqları arasında ənənəvi qardaşlıq, dostluq münasibətləri vardır. Bizim əməkdaşlıq və qarşılıqlı dəstəyimiz çoxəsrlik tarixə malikdir. Bu əməkdaşlıq indi həm Şimali Qafqaz respublikalarının rəhbərləri ilə mənim əlaqələrim səviyyəsində, həm də insanlar və biznes qu-

rumları arasında əlaqələr səviyyəsində davam edir. Bu, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün çox mühüm amildir.

Fürsətdən istifadə edib sizin vasitənizlə Şimali Qafqaz respublikalarının rəhbərlərinə ehtiramımı və ən xoş arzularımı çatdırmaq istəyirəm. Onların Azərbaycana səfərə gəlmələri barədə dəvətimi bir daha təsdiq edirəm. Onların çoxu artıq dəfələrlə burada olmuşdur. Lakin istərdim ki, əvvəllər olanlar bir də gəlsinlər, hələ burada olmayanlar isə ilk dəfə gəlsinlər. Bunun üçün böyük zəmin vardır. Fikrimcə, bu qarşılıqlı səfərlər münasibətlərimizi daha da möhkəmləndirəcəkdir.

Bu gün Bakıda Əlaqələndirmə Şurasının mühüm tədbiri keçirilir. Mənə xoşdur ki, ölkəmizin paytaxtında bu cür tədbirlərin keçirilməsi həm Qafqaz respublikaları arasında əməkdaşlıq çərçivəsində, həm də dünya miqyasında artıq birinci dəfə deyildir. Bu yaxınlarda biz mədəniyyətlərarası dialoq üzrə böyük forum keçirdik, bütün dünyadan qonaqlar qəbul etdik. Keçən il sizin də iştirakınızla dini liderlərin sammitini keçirdik, bu tədbir də çox uğurlu oldu. Bu il biz Rusiyanın və Azərbaycanın himayəsi ilə birinci beynəlxalq humanitar forum keçirəcəyik. Bu foruma bütün tərəfdaşlarımızı dəvət edəcəyik. Biz bu məsələlərə böyük əhəmiyyət veririk. Onlara iqtisadiyyat və ya sənayenin inkişafı məsələlərindən az əhəmiyyət verilməməlidir, çünki hər şey insanlar üçün, onların rifahı, ölkələrimizin və bütövlükdə regionun təhlükəsizliyi və inkişafı üçün edilir və edilməlidir.

Mən bir daha sizi ürəkdən salamlayıram. Deyirəm: Xoş gəlmisiniz, siz bizim əziz qonaqlarımızsınız. Biz sizi görməyə həmişə şadıq. Sizə və respublikalarınıza firavanlıq və səadət arzulayıram.

Qafqaz Müsəlmanları İdarəsinin və Qafqaz Xalqları Ali Dini Şurasının sədri, şeyxülislam Allahşükür Paşazadə dedi:

-Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin Zati-aliləri möhtərəm Prezident həzrətləri tərəfindən qəbul edilməsi bizim üçün çox böyük şərəfdir. İstərdim ki, Qafqaz Xalqları Ali Dini Şurasının rəhbəri kimi burada iştirak edənlər və xüsusən müftilər adından Sizə bu qəbula görə minnətdarlığımı bildirim.

Cənab Prezident, dini liderlərin tarixi mərkəz olan Qafqaz Müsəlmanları İdarəsində bir araya gəlmələri artıq ənənə halı almışdır. Bölgədə baş verən hadisələrə münasibətdə, milli mənəvi dəyərlərin inkişafına və cəmiyyətdə, xalqlar arasında dostluğun, qardaşlığın daha da genişlənməsində üzərimizə düşən bütün məsələlərdə dövlət rəhbərlərinə mənəvi dəstək vermək bizim dini borcumuzdur. Biz, həmçinin radikalizmin, terrorizmin qarşısını almaq, dinc yanaşı yaşamaq və bu istiqamətdə gələcəkdə nə cür hərəkət etmək məsələləri barədə mütəmadi olaraq məsləhətləşirik.

Zati-aliləri, Sizin dediyiniz kimi, Qafqaz bizim ümumi evimizdir. Bir məsləkə malik olan biz qafqazlılar bu evin təməlinin qurulması, onun mənafeyi və xoşbəxt gələcəyi üçün səylərimizi əsirgəməməliyik. Cənab Prezident, Sizin də buyurduğunuz kimi, din xadimləri də Qafqazda sülhün, əmin-amanlığın bərqərar olunması işində fəal iştirak etməlidirlər. Təəssüf ki, özlərini siyasətçi adlandıran bəziləri xalqları bir-birinə qarşı qoymaq, insan həyatına təhlükə yaradan şər işlərə rəvac verən təhdidlər və təhlükələr törədirlər. Biz din xadimləri belələrinin əleyhinəyik.

Möhtərəm Prezident, biz Sizi dəstəkləyirik. Azərbaycanın Qarabağ kimi çətin məsələsinin həlli istiqamətində apardığınız siyasətdə biz Sizin arxanızdayıq. Biz Azərbaycanın haqq işinin müdafiəsi, torpaqlarımızın azad edilməsi istiqamətində gördüyünüz işləri bəyənirik. Biz Allaha dualar oxuyuruq ki, bu məsələ İnşallah sülh yolu ilə tezliklə həll olunsun. Deyə bilərəm ki, bu gün Azərbaycan bölgədə lider dövlətdir. Sizin rəhbərliyinizlə Azərbaycanda bütün sahələrdə sürətli inkişaf gedir. Ona görə tam əminliklə deyə bilərəm ki, bu gün Azərbaycan dövləti Qafqazda proseslərin sağlam məcrada getməsinə öz təsirini göstərir.

Siz din-dövlət münasibətlərinin inkişafında, mənəvi irsin qorunmasında çox böyük işlər görürsünüz. Ona görə də biz Sizə təşəkkürümüzü bildiririk.

Mənim bir neçə vəzifəm var. Bu zirvəyə dostum, qardaşım mərhum Heydər Əliyev həzrətlərinin vaxtında çıxa bilmişəm. Mən Qafqaz Müsəlmanları İdarəsinin, Qafqaz Xalqları Ali Dini Şurasının sədri, MDB dövlətləri Müsəlman Dini Məşvərət Şurasının rəhbəri və Dinlərarası Dialoq Məşvərət Şurasının həmsədriyəm. Bunları sadalamaqda məqsədim odur ki, bu məsul vəzifələrə çatmağımda bir ustadım, bir müəllimim olmuşdur. Bu, unudulmaz Heydər Əliyev həzrətləridir. Allah-Təala ona rəhmət etsin. Onun hikmətli sözləri, müdrik kəlamları, uzaqgörən fikirləri bu gün də yaşayır və bizi irəliyə aparır. Biz, Qafqaz Xalqları Ali Dini Şurasının müftiləri tez-tez görüşür və ulu öndərin misilsiz xidmətlərini yada salırıq. Biz bu gün də onun qiymətli fikirlərindən istifadə edir və onun ruhuna dualar oxuyuruq. Çünki bu görüşdə iştirak edən müftilərin çoxu rəhmətlik ulu öndərimiz Heydər Əliyev ilə dəfələrlə görüşmüşdür. Onlar bu gün də onun xatirəsini ehtiramla anırlar. Əgər onun köməyi, göstərdiyi yol olmasaydı biz, şəxsən mən özüm bu zirvəyə çata bilməzdim.

Biz Qafqazda terrorun, qarşıdurmanın əleyhinəyik. Terrordan bizim müftilər də ziyan çəkmişlər. Onların bir neçəsi öldürülüb, şəhid olub. Çünki onlar haqq yolunda idilər. İndi onlar da, ulu öndərimiz Heydər Əliyev həzrətləri də aramızda yoxdurlar.

Sizin getdiyiniz yol haqq, ədalət yoludur. Bu yolda, Qafqazın firavanlığı, gələcəyi, xüsusən Azərbaycanın inkişafı naminə apardığınız bütün işlərdə biz Sizin yanınızdayıq. Siz dini dəyərlərimizin, məbədlərimizin, müqəddəs yerlərimizin qorunmasında, bərpa edilməsində çox böyük işlər görmüsünüz və görürsünüz. Bu işləriniz saymaqla qurtaran deyildir.

Burada əyləşənlərin hamısı Sizə, ailənizə, ulu öndərə çox böyük rəğbət bəsləyirlər, Sizə dualar edirlər. Allah-Təala bütün işlərinizə rəvac versin. Bizim yolumuz haqq yoludur. Yuxarıda Allahın, aşağıda Heydər Əliyevin göstərdiyi yoldur. Bizi bu yoldan heç bir şey döndərə bilməyəcəkdir.

Qaraçay-Çərkəz Müsəlmanları Ruhani İdarəsinin və Şimali Qafqaz Müftiləri Əlaqələndirmə Mərkəzinin sədri İsmayıl Berdiyev dedi:

-Hörmətli İlham Heydər oğlu! Biz çox şadıq ki, yenidən burada, Azərbaycandayıq. Adətən insan o yerə getmək istəyir ki, orada onu sevirlər və yaxşı qarşılayırlar. Azərbaycanda biz bunu daim hiss edirik, buna görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Bu gün biz Qafqaz Xalqları Ali Dini Şurasının konfransında bu barədə, Bakının necə qurulması barədə danışmışıq. Biz buraya gələndə bunu görürük.

İ.Berdiyev Azərbaycandakı sürətli inkişafda Prezident İlham Əliyevin rolundan danışdı, bunu dövlətimizin başçısının öz xalqına olan məhəbbətinin təzahürü kimi səciyyələndirərək dedi:

-Mən Ruhani İdarəsinə daxil olanda orada həm sizin, həm də atanızın həcc ziyarətində çəkilmiş fotoşəkillərinizi gördüm. Mən müftinin adından Sizdən xahiş etmək istərdim ki, hamımız birlikdə, elə bu tərkibdə bir daha ziyarətə gedək.

Prezident İlham ƏLİYEV ölkədə gedən sürətli inkişaf proseslərindən, nəhəng infrastruktur layihələrinin icrasından, genişmiqyaslı quruculuq və abadlıq işlərindən danışdı.

Dövlətimizin başçısı daha sonra sülhün, sabitliyin və əmin-amanlığın önəminə toxunaraq terrorizmin regionda bu məsələlərə böyük təhlükə olduğunu bildirdi:

-Biz hamımız terrorizmə, ekstremizmə qarşı birlikdə mübarizə aparmalıyıq. Təkbaşına heç bir ölkə terrorizmə qalib gələ bilməz. Bu, bizim ümumi ağrılı yerimiz, ümumi bəlamızdır. Biz də terrorizmdən əziyyət çəkmişik. 1990-cı illərin əvvəlində burada 32 terror aktı törədilmişdir. Bu terror aktlarında iki min adam həlak olmuşdur. Bu partlayışlar metroda, avtobuslarda, bərələrdə törədilmişdir. Burada terror aktlarını erməni terror təşkilatları törədirdilər.

Çeçenistan Müsəlmanları Ruhani İdarəsinin sədri Sultan Mitrzəyev Azərbaycana səfərindən şad olduğunu vurğulayaraq dedi:

-Dünən səhər mən Çeçenistan Respublikasının başçısı ilə danışanda o, Sizə salamlarını, möhkəm cansağlığı və uğurlar arzuladığını çatdırmağı xahiş etdi. O dedi: "Onunla mənim aramda oxşarlıq var - hər ikimiz öz atalarımızın yolunu davam etdiririk". Biz Sizin rəhmətlik atanızı çox sevir və ona hörmət edirdik, Siz də onun işini davam etdirirsiniz. O, təməl qoymuşdur, ölkəni hərc-mərclikdən xilas etmişdir. Çeçenistan Respublikasında da eyni vəziyyət təkrarlanmışdır. Həqiqətən Əhməd Hacı Rəhimulla Çeçenistanı hərc-mərclik vəziyyətindən çıxarmışdır, orada tamam özbaşınalıq idi. O, bünövrə qoydu, bu gün isə onun oğlu Ramzan Əhmədoviç atasının işini davam etdirir. Həqiqətən çox böyük tərəqqi vardır. Sizin uğurlarınız, bu gün burada gördüklərniz bizi sevindirir. Hacı İsmayılın dediyi kimi, biz hər dəfə buraya gələndə bunları görürük, çoxlu yeniliklər olduğunu görürük və bu, bizi sevindirir.

Qeyd etmək istərdim ki, Rusiyanın cənubunda, Həştərxanda Sizin atanıza abidə ucaldılanda biz çox sevinmişdik. Biz həqiqətən fəxr edir və sevinirdik. Çünki Sizin atanız bizim də öndərimizdir, həm də ona görə ki, biz Sizin kimi, atanızı da həqiqətən sevirdik, hörmət edirdik və ona indi də ehtiram bəsləyirik. Bu gün biz onun məzarını ziyarət etdik, ruhuna dualar oxuduq. Biz əlbəttə bizim şeyximizin, ağsaqqalımızın sayəsində buraya gələndə hər dəfə bunu edirik. Bir daha sağ olun.

Sonra Şimali Osetiya - Alaniya Müsəlmanları Ruhani İdarəsinin sədri Hacımurad Qatsalov çıxış etdi:

-Hacı Sultan kimi, mən də bizim Prezident Taymuraz Mamsurovun dostluq salamını Sizə çatdırmaq istəyirəm. Biz Rusiya rəhbərliyinin Sizə necə münasibət bəslədiyini hiss edirik və bilirik. Rusiya da başa düşür ki, Azərbaycan iqtisadi cəhətdən qüdrətli, ruhən

güclü qonşudur.

MDB Dinlərarası Şurası Qəyyumlar Komitəsinin həmsədri Abbas Abbasov görüşdə çıxış edərək dedi:

-Çox sağ olun ki, Siz vaxt tapıb bizim hörmətli qonaqlarımızı qəbul etdiniz. Mən də cavab olaraq qonaqlarımıza təşəkkür etmək istəyirəm ki, onlar işlərinin belə gərgin rejimində, - mən onların necə, hansı şəraitdə işlədiklərinin şahidi olmuşam, - bizim möhtərəm şeyxin dəvəti ilə Azərbaycana gəlməyə vaxt tapıblar.

Daha sonra Adıgey Müsəlmanları Ruhani İdarəsinin sədri Nurbiy Yemij Azərbaycanda dəfələrlə olduğunu, Bakıda son illər çox böyük dəyişikliklərin baş verdiyini bildirərək dedi:

-Hörmətli Prezident, qonağın gəlib-gəlməməsi ev sahibindən asılıdır. Əgər ev sahibi xeyirxah, qonaqpərvər olarsa, qonaqlar hökmən xoş əhval-ruhiyyə ilə onun yanına gələcəklər. Buna görə də biz Bakıya, Azərbaycana - həm Sizin, həm Azərbaycan xalqının, həm də şeyxin yanına öz evimiz kimi gəlirik. Biz iki-üç gün burada olarkən o qədər hörmət, Sizin xalqınızla ünsiyyət görürük, o qədər xeyirxahlıq hiss edirik ki, deməklə qurtarmaz. Bakı ilbəil deyil, aybaay deyil, saatbasaat inkişaf edir. Həqiqətən biz bu yaxınlarda burada olmuşduq, bu gün isə şəhəri gəzdikcə heyrətlənirik. Sizin nə qədər qüvvəniz, nə qədər imkanınız var! Siz bunlara yalnız Allahın köməyi ilə nail olursunuz.

Sizə, qardaşımız şeyxə, Azərbaycanın bütün sakinlərinə arzumuz budur ki, Azərbaycan yaxşı cəhətdən dünyaya nümunə olsun, Qafqazda ən çox inkişaf edən gözəl ölkə olsun. Çünki Azərbaycanın yerləşdiyi məkan Qafqazda ən gözəl məkandır. Qafqaz isə bizim ümumi evimizdir.

Əziz qardaşlar, mən sizə əmin-amanlıq, xoş güzəran, firavanlıq arzulayıram! Sağ olun.

Bölgədə sülhün, sabitliyin və əmin-amanlığın önəminə toxunan

Prezident İlham Əliyev bəzi ölkələrdə İslam dininə qarşı aparılan təbliğatın və İslam dininin terrorizmlə eyniləşdirilməsi faktlarının yolverilməz olduğunu vurğulayaraq dedi:

-Biz islamofobiya təzahürlərinə qarşı mübarizə aparmaq üçün birlikdə işləməliyik və bu istiqamətdə işləyirik. Onlara qarşı birgə səylərlə mübarizə aparmalıyıq. Çünki bizim dinimiz sülh, qardaşlıq və ədalət dinidir. Lakin təbliğat, xüsusən Qərbdə antiislam təbliğatı, təəssüf ki, öz işini görür. Onlar "islamçı" terminini artıq terrorçuya bərabər tutur-lar. Bu necə ola bilər?!

Xristian aləmində də, Asiyada da terror təşkilatları var. Biz ki "xristian ekstremisti" demirik. Biz ki belə demirik və heç vaxt demərik. Elə isə bəs biz nə üçün "islam ekstremisti" sözlərini eşidirik? Təəssüf ki, bunu müəyyən dairələr bilərəkdən edirlər. Bu, sadəcə, başa düşməmək deyildir, bunu şüurlu şəkildə edirlər. Təəssüf ki, belə bir siyasət var və biz ona qarşı mübarizə aparmalıyıq.

Prezident İlham Əliyev Qafqaz Xalqları Ali Dini Şurasının işinə uğurlar arzuladı.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

"Eurovision-2011" mahnı müsabiqəsində Azərbaycan Respublikası nümayəndələrinin inamlı qələbəsi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Nigar Camal və Eldar Qasımov gözəl mahnı, məlahətli səsləri və parlaq xoreoqrafiya ilə milyonlarla Avropa tamaşaçısının qəlbini fəth etdilər. Onların çıxışı baxımlı və müasir idi, buna görə də Sizin ölkəyə layiqli uğur gətirdi.

Biz Azərbaycanı bu yaradıcılıq zirvəsinə aparan yolun nə qədər uzun və gərgin olduğunu, bu gözəl qələbənin qazanılmasına nə qədər qüvvə və əmək sərf edildiyini bilirik. Belaruslar Nigarın və Eldarın dostları və qardaşları kimi onlara səmimi qəlbdən azarkeşlik edir və onların zəfərinə ürəkdən sevinirdilər.

İnanıram ki, Sizin ölkənin təcrübəsi "Eurovision" müsabiqəsinin belaruslu iştirakçıları üçün faydalı olacaq, gələn il bu müsabiqənin keçiriləcəyi qonaqpərvər Azərbaycan torpağı isə Belarusa da çoxdan gözlənilən uğur gətirəcəkdir.

Sizə, bütün Azərbaycan xalqına möhkəm cansağlığı, uğurlar, xoşbəxtlik və firavanlıq diləyirəm.

Hörmətlə,

Aleksandr Lukaşenko

Belarus Respublikasının Prezidenti

Minsk, 16 may 2011-ci il

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 17-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Çexiya Respublikasının Prezidenti Vatslav Klausun rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Çexiya Prezidenti Vatslav Klausu və xanımı Liviya Klausovanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Çexiya Prezidentinə raport verdi.

Çexiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Çexiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Vatslav Klausa, Çexiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səslərı altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər və Çexiyanın birinci xanımı rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 17-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çexiya Respublikasının Prezidenti Vatslav Klausun təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdilər.

Prezidentlər Azərbaycan-Çexiya münasibətlərinin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdilər.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-ÇEXİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Mayın 17-də Prezident İlham Əliyevin və Prezident Vatslav Klausun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Çexiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Çexiya Respublikasının Texniki Standartlaşdırma, Metrologiya və Dövlət Sınaqları üzrə İdarəsi arasında standartlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və Çexiya Respublikası Texniki Standartlaşdırma, Metrologiya və Dövlət Sınaqları üzrə İdarəsinin prezidenti Milan Holeçek imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycanın Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiyanın Azərbaycandakı səfiri Radek Matula imzaladılar.

"Azərbaycan Respublikası və Çexiya Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiyanın Azərbaycandakı səfiri Radek Matula imzaladılar.

AZƏRBAYCAN VƏ ÇEXİYA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Mayın 17-də Azərbaycan-Çexiya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Çexiya Prezidenti Vatslav Klaus mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bir daha deyirəm, xoş gəlmisiniz. Bu, ölkəmizə Sizin ilk rəsmi səfərinizdir. Əminəm ki, səfərin müsbət nəticələri olacaqdır. Biz ikitərəfli gündəlikdə duran mövzular, regional məsələlər, o cümlədən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq üzrə geniş müzakirələr apardıq. Tərəflər arasında yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Ölkələrimiz arasında siyasi münasibətlər uğurla inkişaf edir. Çexiya Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri daha da güclənən siyasi dialoqun göstəricisidir və digər sahələrdə də münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkan yaradır. İqtisadi əlaqələrin inkişafına hər iki tərəf böyük maraq göstərir. Bu gün biz Çexiya-Azərbaycan biznes forumunda iştirak edəcəyik. Bilirəm ki, Çexiya iş adamlarından ibarət böyük nümayəndə heyəti cənab Prezidenti müşayiət edir. Əminəm ki, işgüzar dairələr birgə işləmək üçün bir çox imkanlar əldə edəcək, sərmayə və birgə layihələrin həyata keçirilməsi imkanlarını araşdıracaqlar.

Münasibətlərimizin, həmçinin regional ölçüsü də vardır. Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, həmçinin ikitərəfli münasibətlərimizin bir hissəsidir. Biz Çexiya tərəfinə Avropa İttifaqı- Azərbaycan tərəfdaşlığına verdiyi dəstəyə görə olduqca minnətdarıq. Hazırda biz "Şərq Tərəfdaşlığı" Proqramında iştirak edirik və ümidvarıq ki, bu proqram nəticəsində Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər daha da sıx olacaqdır. Enerji əməkdaşlığımız ikitərəfli gündəliyimizin bir hissəsidir. Çox şadıq ki, Azərbaycanın karbohidrogen resursları artıq Çexiya Respublikasının bazarına çıxarılır. Ümidvarıq ki, bu əməkdaşlıq növbəti illərdə daha da artacaqdır. Hazırda biz neft ixrac edirik, lakin gələcəkdə qaz sektorunda da əməkdaşlıq ikitərəfli münasibətlərimizin bir hissəsi olacaqdır. Xüsusilə nəzərə alsaq ki, bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi haqqında birgə Bəyannamə imzalandı. Avropanın enerji təhlükəsizliyi və Avropa ilə enerji əməkdaşlığı Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığının gündəliyində daim duran məsələlərdir.

Bu gün biz, həmçinin regional məsələləri, o cümlədən regional əməkdaşlıq və təhlükəsizlik məsələlərini müzakirə etdik. Mən cənab Prezidentə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və danışıqlar prosesi haqqında məlumat verdim. Uzun illərdir ki, Azərbaycan əraziləri işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyon azərbaycanlı qaçqın vəziyyətinə düşüb və ərazimizin 20 faizi 20 ildir ki, işğal altındadır. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində erməni silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz və dərhal çıxarılması tələb edilir. Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra olunmamış qalır. ATƏT-in qərarları, Avropa Parlamentinin, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qətnamələri eyni tərzdədir və eyni məna daşıyır. Münaqişə beynəlxalq hüququn normaları əsasında həll olunmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bundan sonra regionda sülh bərqərar olunacaqdır. Yenə də təkrar etmək istəyirəm ki, mən cənab Prezidentə danışıqlar prosesi haqqında məlumat verdim. Ümidvar olduğumu bildirdim ki, münaqişə beynəlxalq hüququn normaları əsasında öz həllini tapmalıdır.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkələrimiz arasında münasibətlər çox müsbətdir. Münasibətlərimiz olduqca güclü tərəfdaşlıq ruhunda inkişaf edir. Əminəm ki, cənab Prezidentin səfəri və səfərin nəticələri bu tərəfdaşlığı gücləndirəcək, biz tərəfdaşlıq və dostluğu daha da inkişaf etdirəcəyik. Cənab Prezident, bir daha xoş gəlmisiniz.

* * *

ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN BƏYANATI

- Cənab Prezident!

Xanımlar və cənablar!

Mənə söz verdiyinizə görə təşəkkür edirəm. Cənab Prezident, dəvətinizə görə minnətdaram. Bu, mənim Çexiya Respublikasının Prezidenti kimi ölkənizə ilk səfərimdir.

Prezident Vatslav Klaus Azərbaycan dövləti başçısının iki ölkə arasında münasibətlərin yaxşı səviyyədə olması və dostluq xarakteri daşıması fikri ilə tam razı olduğunu vurğuladı. O, bunun aparılan danışıqlarda da özünü qabarıq büruzə verdiyini bildirərək dedi:

- Mən sadəcə onu təkrar etmək istəyirəm ki, ölkənizə səfərimlə Azərbaycan və Çexiya xalqlarına aydın işarə verirəm ki, biz Azərbaycan-Çexiya, Çexiya-Azərbaycan əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni sahələrdə genişləndirilməsində olduqca maraqlıyıq. Bu, mənim üçgünlük səfərimin əsas məqsədi və marağını təşkil edir.

Cənab Prezident, biz buraya açıq ürəklə gəlmişik. Biz buraya ölkənizi daha yaxından tanımaq, anlamaq üçün gəlmişik.

Azərbaycanın son illərdə qazandığı nailiyyətlər barədə məlumatlı olduqlarını bildirən Çexiya dövlətinin başçısı paytaxt Bakı ilə yanaşı, regionlardakı inkişafı da görmək imkanından məmnun qaldıqlarını dedi. Prezident Vatslav Klaus Azərbaycan-Çexiya münasibətlərinin daha da inkişafı ilə bağlı bir sıra məsələlər barədə də fikirlərini diqqətə çatdıraraq bildirdi:

- Ermənistanla olan ağrılı münaqişədən xəbərimiz vardır və bu münaqişənin həllinə kiçik də olsa, öz yardımımızı etmək istərdik. Avropa İttifaqının son "Şərq Tərəfdaşlığı" Proqramına da xüsusi diqqət yetiririk. Çexiya Respublikası bu ideyanın ərsəyə gəlməsində təşəbbüskarlarından biri olub. İki il bundan öncə "Şərq Tərəfdaşlığı" Proqramı ilə bağlı Praqada görüş keçirildi və biz o zaman orada görüşdük. Cənab Prezident, Sizə həmin vaxt söz verdim ki, səfər edəcəyəm və budur, bu gün artıq buradayam. Cari ilin sonunda Varşavada keçirilməsi nəzərdə tutulan Şərq tərəfdaşlığı Sammitini səmimiyyətlə arzulayırıq. Ümid edirəm ki, bu tədbir Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətləri daha da inkişaf etdirəcəkdir.

Cənab Prezident, Sizi əmin edə bilərəm ki, ölkələrimiz arasında münasibətlər, o cümlədən Avropa ilə Azərbaycan arasında olan əlaqələr bizim marağımızdadır.

Çox sağ olun.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

Mayın 17-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiya Prezidenti Vatslav Klausun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüşün iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha Azərbaycanda salamlamaq istəyirəm.

Bu, Sizin ölkəmizə ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaqdır. Biz gündəliyimizdə olan müxtəlif mövzular, ikitərəfli münasibətlərimizə, o cümlədən Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa aid çox yaxşı müzakirələr apardıq.

Əminəm ki, səfər və onun nəticələri əlaqələrimizi daha da gücləndirəcəkdir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərə olduqca böyük əhəmiyyət veririk. Əlaqələrimiz çox uğurla inkişaf edir. Yüksək səviyyəli nümayəndə heyətlərinin bir çox səfərləri həyata keçirilmişdir. Əlbəttə ki, cənab Prezidentin rəsmi səfəri münasibətlərimizin ən vacib məqamıdır. Əminəm ki, səfər əməkdaşlığımızın siyasi, iqtisadi, mədəni və enerji sahələrində olduqca fəal şəkildə inkişafı ilə nəticələnəcəkdir. Bir sözlə, ikitərəfli gündəliyimiz kifayət qədər genişdir. Ümid edirik ki, səfər nəticəsində ölkələrimizin işgüzar dairələri bir yerə toplaşacaqlar və birgə biznes aparmaq imkanlarını araşdıracaqlar.

Mən Sizi bir daha salamlayıram və çox şadam ki, proqramınız çərçivəsində Siz Azərbaycan rayonlarının birinə səfər edəcəksiniz. Vacibdir ki, nəinki, paytaxtla, o cümlədən regional inkişafla da tanış olasınız. Ümid edirəm ki, Sizin yaxşı təəssüratlarınız olacaqdır.

Bir daha xoş gəlmisiniz.

* * *

Çexiya Prezidenti Vatslav KLAUS səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

- Sağ olun cənab Prezident!

Mən artıq öncə Sizə dedim və yeri gəlmişkən, onu deməliyəm ki, biz cənab Prezidentlə artıq bütün problemləri həll etmişik. Yenidən davam etməyə, məncə, ehtiyac yoxdur. Bizim dostluq mühitində keçmiş intensiv və səmərəli danışıqlarımız olub.

Mən sadəcə təkrar etmək istəyirəm ki, dəvətə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu səfərə artıq uzun müddət idi ki, hazırlaşırdım. Hesab etdim ki, əgər dünyanın bu bölgəsinə, bu regiona və bu ölkəyə səfər etməsəm, onda gündəliyim dolğun olmazdı.

Biz o faktı dəyərləndiririk ki, ölkələrimiz arasında münasibətlər son bir neçə il ərzində daha da intensivləşir. Bir sıra siyasətçilərin və iş adamlarının həyata keçirilmiş səfərləri çox müsbət haldır. Ümid etmək istəyirəm ki, bu gün imzalanacaq sənədlər əməkdaşlığımıza əlavə təkan verəcəkdir.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Çexiya Respublikasının Prezidenti Vatslav Klaus və xanımı Liviya Klausova mayın 17-də Heydər Əliyev Fondunda olmuşlar.

Çexiya dövlətinin başçısını və xanımını Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı.

Prezident İlham Əliyev ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Çexiya Prezidenti və xanımı ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Prezident Vatslav Klaus və xanımı Liviya Klausovaya məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq və xanımı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Vatslav Klaus Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Çexiya dövlətinin başçısına Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu.

Ali qonaq və xanımı Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldılar.

BAKIDA AZƏRBAYCAN-ÇEXİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev və Çexiya Prezidenti Vatslav Klaus biznes forumda iştirak etmişlər

Mayın 17-də Bakı Biznes Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiya Prezidenti Vatslav Klausun iştirakı ilə Azərbaycan-Çexiya biznes forumu keçirilmişdir.

Dövlətimizin başçısı Çexiya Prezidenti Vatslav Klausu qarşıladı.

Forum iştirakçıları dövlət başçılarını hərarətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham ƏLİYEV biznes forumda çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən cənab Prezidenti Azərbaycanda bir daha salamlayıram. Bu gün biz Çexiya Respublikasının Prezidentinin ölkəmizə səfəri çərçivəsində çox mühüm bir tədbirdə, biznes forumda toplaşmışıq. Əminəm ki, biznes forumun nəticələri bizim gözlədiyimiz nəticələr və ölkələrimiz arasında yaranan münasibətlərə uyğun olacaqdır.

Çexiya Respublikasının Prezidentinin ölkəmizə səfəri mühüm, mən deyərdim, tarixi xarakterli hadisədir. Çünki bu, ilk səfərdir. Ölkələrimiz arasında əməkdaşlığın bütün illəri ərzində ilk dəfədir ki, bu cür yüksək səviyyədə səfər, Prezidentin rəsmi səfəri həyata keçirilir. Düzdür, bundan əvvəl də yüksək vəzifəli rəhbərlərin səfərləri olmuşdur. Lakin Prezidentin rəsmi səfəri, əlbəttə xüsusi əhəmiyyət kəsb edir və səfər çox uğurlu keçir.

Bu gün səhər biz çox səmərəli danışıqlar apardıq və çox geniş spektrli məsələləri, o cümlədən iqtisadi sahədə əməkdaşlığı, ölkələrimizin biznes strukturları arasında əlaqələri müzakirə etdik. Hesab edirəm ki, bu gün biz biznes strukturlarına daha sıx əməkdaşlıq etmək üçün mühüm işarə verməliyik. Biznes cəmiyyəti siyasi nüanslara həmişə çox həssas münasibət bildirir və deməliyəm ki, ölkələrimiz arasında siyasi münasibətlər yüksək səviyyədədir. Bizim ölkələr arasında heç bir problem yoxdur. Lakin həm ikitərəfli formatda, həm də Azərbaycan ilə Avropa təsisatları arasında əməkdaşlıq çərçivəsində münasibətləri və əməkdaşlığı möhkəmlətmək üçün qarşılıqlı istək vardır. Buna görə də mənim fikrimcə, bu cür sanballı siyasi bazaya malik olan biznes öz sözünü deməlidir. Artıq müəyyən uğurlar vardır və cənab Prezidenti biznesmenlərdən ibarət nümayəndə heyətinin müşayiət etməsi bizim biznes qrupları arasında qarşılıqlı marağın göstəricisidir. Zənnimcə, bu gün forumun işi zamanı Azərbaycanın iqtisadi nailiyyətləri, habelə imkanları artıq təqdim edilmişdir ki, ölkəmizdə baş verən hadisələr, iqtisadiyyatın necə transformasiya etməsi, bizim hansı islahatlar həyata keçirməyimiz barədə daha dolğun təsəvvür yaransın.

Bizim üçün iqtisadi müstəqillik müstəqilliyimizin əsası olmuşdur. Bizim müstəqillik əldə etməyimizdən 20 ildən az keçir. Bu il biz ölkəmizin müstəqilliyinin bərpa edilməsinin 20 illiyini təntənəli şəkildə qeyd edəcəyik. Bu illər ərzində Azərbaycanın dünya xəritəsində dinamik inkişaf edən, açıq iqtisadiyyata və inkişaf etmiş infrastruktura malik bir ölkə kimi öz yerini tapması üçün çox iş görülmüşdür. Biz hamımız vaxtilə müəyyən siyasi sistemdə, planlı təsərrüfat, sosializm sistemində yaşamışıq. Bizim ölkədə iqtisadiyyatda özəl sektorun nisbi payı sıfra bərabər idi. Bu gün isə özəl sektor Azərbaycan iqtisadiyyatının 50 faizdən çoxunu təşkil edir, əsaslı iqtisadi islahatlar aparılmışdır. Biznes üçün yaxşı şərait yaradılmışdır və biz hər il əlavə addımlar atmağa çalışırıq ki, bürokratik əngəllər və maneələr azaldılsın, biznes şəraiti daha yaxşı olsun.

Biz əlverişli investisiya mühiti yarada bilmişik. Bütün dünyadan iri investisiyalar cəlb etmişik. Bunlar əsasən inkişaf etmiş ölkələrin investisiyalarıdır. Bu sərmayələr ilk illərdə əsasən neft-qaz sektoruna yatırılmışdır. Bu da təbii idi, çünki 1990-cı illərin əvvəlində Azərbaycan iqtisadi baxımdan yalnız enerji ehtiyatlarına malik olan bir ölkə kimi maraq doğururdu. Bizim vəzifəmiz ondan ibarət idi ki, bu marağı iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalara transformasiya edək. Bunun üçün biz özümüzü etibarlı tərəfdaş kimi təqdim etməli idik ki, əcnəbi investorlar bilsinlər, burada investisiyalar qorunur və dövlət öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Bunun üçün bizim əsas

kommersiya kontraktlarımız həm də parlamentdə müzakirə edilmiş və qanun qismində qəbul edilmişdir. Mənim fikrimcə, bu, dünya tarixində nadir hallardan biridir ki, kommersiya sazişi, iri investisiya layihəsi qanun forması kəsb edir. Bu, bizim öz öhdəliklərimizi heç vaxt pozmayacağımız barədə investorlara tam zəmanət vermək üçün edilmişdir. Biz etimad qazana, məbləği on milyard dollarla ölçülən iri investisiyaları cəlb edə bildik. Beləliklə, əlverişli investisiya şəraiti yaratmışıq. Azərbaycan uzun illərdir ki, adambaşına birbaşa xarici investisiyalar göstəricisi üzrə postsovet məkanında liderlik edir.

Energetikaya iri yatırımlar, ilk növbədə, bizə maliyyə ehtiyatları toplamağa imkan verdi. Eyni zamanda, ölkə dünya iqtisadi dairələrində yaxşı ad qazandı. Üçüncüsü isə iqtisadiyyatın bizim üçün əsas olan sahələrinə - daha doğrusu, qeyri-neft sektoruna, kənd təsərrüfatına, infrastruktura, nəqliyyata, turizmə sərmayələr cəlb edə bildik. Bir neçə il əvvəl müşahidə etdiyimiz neftin qiymətinin kəskin aşağı düşməsi, məhz şaxələndirmə siyasətimiz sayəsində ölkəmizdə, demək olar ki, hiss olunmadı. Halbuki əsas gəlirləri neft satışından gələn ölkə üçün qiymətlərin 4-5 dəfə aşağı düşməsi böyük sınaq idi. Hətta 2008-2009-cu və 2010-cu illərdə, dünya iqtisadi böhranı illərində iqtisadiyyatımız artırdı.

Bu gün Azərbaycanın şaxələnmiş iqtisadiyyatının möhkəm təməli artıq qoyulmuşdur və hazırda biz diqqətimizi məhz buraya cəlb edirik. Biz müasir texnologiyaların inkişafına böyük diqqət yetiririk. Bizim üçün çox vacibdir ki, ölkəmizdə istehsal olunan məhsul beynəlxalq standartlara uyğun gəlsin və ixrac meyilli olsun. Eyni zamanda, biz maksimum, o cümlədən kənd təsərrüfatı məhsulları ilə özünütəmin siyasətini həyata keçiririk. Çünki ərzaq təhlükəsizliyi məsələləri hazırda çox böyük əhəmiyyət kəsb edir.

Gələn il ilk Azərbaycan telekommunikasiya peyki orbitə çıxarılacaqdır və Azərbaycan kosmik sənayeyə malik ölkəyə çevrilir. Eyni zamanda, müasir informasiya texnologiyalarına çoxlu sərmayə qoyulur, İnternet istifadəçiləri şəbəkəsi inkişaf edir, bu göstəriciyə görə biz regionda birinci yerdəyik.

Turizm sektoruna çoxlu sərmayə qoyulur. Biz turistlərin cəlb edilməsi üçün coğrafiyamızdan və təbii şəraitimizdən istifadə etmək niyyətindəyik və artıq istifadə edirik. Bu il təkcə Bakı şəhərində dünya səviyyəsində 6 yeni beşulduzlu otel açılacaqdır və bu göstərir ki, dünya brendləri Azərbaycana sərmayə qoyulması mümkün və sərmayə qoyulmalı bir ölkə kimi yanaşırlar, ən əsası isə ölkəmizin gələcəyinə inanırlar. Biz uzunmüddətli sərmayələrin, uzunmüddətli tərəfdaşlıq münasibətlərinin yaradılmasının tərəfdarıyıq və bu məqsədlə radikal, çox mühüm iqtisadi islahatlar həyata keçiririk.

Əlbəttə, siyasi islahatlar olmadan iqtisadi islahatlar yalnız qısamüddətli perspektivdə səmərə verə bilər. Buna görə də biz siyasi islahatlar sahəsində çox ardıcıl siyasət aparırıq. Biz Avropa strukturları ilə çox konstruktiv münasibətlər qurmuşuq. Artıq on ildir Avropa Şurasının üzvüyük, Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı üzrə işləyirik. Bundan sonra da ölkəmizi modernləşdirmək və Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək niyyətindəyik. Hesab edirəm ki, bunun üçün bütün imkanlarımız vardır. Əvvəla, dövlət siyasəti, proqramı, özəl biznesə, sahibkarlığa dövlət dəstəyi, savadlı gənclər və artıq formalaşmaqda olan güclü orta sinif, habelə az əhəmiyyət kəsb etməyən təbii ehtiyatlar və maliyyə müstəqilliyi.

Xatirimdədir, neft layihələrimizin inkişafının birinci mərhələsində xarici mətbuatda Azərbaycan iqtisadiyyatının birtərəfli inkişaf edəcəyi, bizdə "Dutch disease"nin (Hollandiya xəstəliyi) inkişaf edəcəyi və neft gəlirlərinin lazımi nəticələr verməyəcəyi barədə çoxlu diskussiyalar aparılırdı. Lakin bizim siyasətimiz və enerji ehtiyatlarından düzgün istifadə olunması ona gətirib çıxardı ki, bu gün artıq heç kim Hollandiya xəstəliyindən danışmır, bu gün artıq ölkəmizin iqtisadi inkişafından söhbət gedir.

Son yeddi ildə Azərbaycanda ümumi daxili məhsul təxminən 3 dəfə artmışdır. Sənaye də təxminən 3 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 5 dəfə aşağı düşmüşdür. Bu, bazar iqtisadiyyatının və sosial məsələlərin, bir növ bir-birini tamamlayaraq həll olunmasını göstərir. Biz çox iri infrastruktur layihələri - kommunikasiya, nəqliyyat layihələri həyata keçirmişik. Biz çox iri neft-qaz layihələri həyata keçirmişik və bu gün Azərbaycan nefti həm də Çexiya Respublikasının bazarına daxil olur. Əminəm ki, bu da ixracın şaxələndirilməsinə və iqtisadiyyatın inkişafına kömək edir.

Bu gün biz dünyada ən iri qaz yataqlarından birini - ehtiyatlarının həcmi bir trilyon kubmetrdən çox olan "Şahdəniz" yatağını işləyirik. Ümumiyyətlə, Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrə bərabərdir. Lakin əminəm ki, bu ehtiyatlar artacaqdır, çünki biz hələ yeni yataqların kəşfiyyatı mərhələsindəyik və Azərbaycanın qaz potensialı bizim tərəfdaş ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaqdır.

Bu gün bizim enerji ehtiyatlarını dünya bazarlarına çatdırmaq üçün şaxələndirilmiş yollarımız vardır. Bizim enerji ehtiyatlarını bütün istiqamətlər üzrə - həm Şimala, həm Qərbə, həm də Cənuba nəql edən üç neft kəməri və dörd qaz kəməri vardır. Beləliklə, biz özümüzü kifayət qədər inamlı hiss edirik. Çünki biz bir təchizat marşrutundan asılı deyilik. Beləliklə, şaxələndirmə tamamilə təmin edilmişdir. Biz enerji ehtiyatlarının çatdırılma mənbələrini şaxələndirməyə çalışan istehlakçıları başa düşürük. Buna görə də biz istehsalçılar və istehlakçılar arasında səyləri əlaqələndirməyə, mənafeləri tarazlaşdırmağa və şaxələndirməyə, habelə azad rəqabətə can atırıq.

Ölkəmizdə bundan sonra da zəruri islahatlar həyata keçiriləcəkdir. Biz iri regional inkişaf proqramı reallaşdırırıq və təkcə Bakı deyil, ilk növbədə regionlarımız inkişaf edir. Son yeddi ildən bir qədər artıq müddətdə regional inkişaf proqramı sayəsində Azərbaycanda 900 mindən çox yeni iş yeri yaradılmışdır və bu iş yerlərinin böyük əksəriyyəti regionlardadır.

Biz Azərbaycan İnvestisiya Şirkətini yaratmışıq. Yəqin ki, bu barədə bu gün burada deyilmişdir. Bu şirkət bizim iqtisadiyyat üçün mühüm layihələrdə sərmayədarlardan biridir. Mən bu fürsətdən istifadə edərək Çexiya Respublikasından olan biznesmenləri bizim tərəfdaşlarımız olmağa, layihələrdə investorlar və ya kontraktorlar qismində iştirak etməyə dəvət etmək istəyirəm və əminəm ki, bunun üçün bütün imkanlar vardır.

Mən fürsətdən istifadə edərək həm də Sizin ölkənin banklarına bizim ölkədə həyata keçirilən mühüm infrastruktur layihələrinin maliyyələşdirilməsinə görə təşəkkür etmək istərdim. Ümid edirəm ki, bu əməkdaşlıq bundan sonra da uğurla davam edəcəkdir.

Beləliklə, mən bizim əziz qonaqlarımızı bir daha salamlamaq və ümidvar olduğumu bildirmək istəyirəm ki, həm səfər, həm də biznes forum yaxşı nəticələr verəcəkdir və biz

daha tez-tez görüşəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra Çexiya Prezidenti Vatslav Klaus çıxış edərək dedi:

-Vurğulamaq istərdim ki, Prezidentin dediyi kimi, bu, Çexiya Prezidentinin sizin ölkəyə ilk səfəridir. Mən çox şadam ki, biz bu səfər barədə iki il bundan əvvəl Praqada Prezident Əliyevlə razılaşmışdıq və nəhayət onu təşkil etmək mümkün oldu. Ümid edirəm ki, bu səfər - təkcə mənim səfərim deyil, həm də bizim nümayəndə heyətinin, biznesmenlərin nümayəndə heyətinin səfəri, cənab Prezidentin dediyi kimi, bizim bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində ikitərəfli münasibətləri inkişaf etdirməkdə maraqlı olmağımıza mühüm işarədir. İqtisadiyyat ən mühüm sahələrdən biridir. Çünki o, bizim münasibətlərin daha da inkişaf etdirilməsi üçün ciddi bazadır. Mən razıyam ki, bu gün səhər, Prezidentin dediyi kimi, bizim müsbət, səmərəli, faydalı danışıqlarımız olmuşdur. Mənə belə gəlir ki, biz bir-birimizi çox yaxşı başa düşürük və bu, gələcək əməkdaşlıq üçün yaxşı bazadır.

Biz təkcə danışıqlar aparmadıq. Bu gün biz həm də dövlətlərimiz arasında üç müqavilə imzaladıq.

Prezident Vatslav Klaus səfər zamanı imzalanan sənədlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. O, iki ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişin biznes əlaqələrinin genişləndirilməsinə təkan verəcəyinə əminliyini bildirdi. Prezident Vatslav Klaus Azərbaycan ilə Çexiya arasında ikitərəfli əlaqələrin hərtərəfli inkişafı üçün heç bir problemin olmadığını qeyd etdi.

Çexiyanın dövlət başçısı elə ölkəmizə rəsmi səfərinin ilk günündən Azərbaycanda sürətli sosial-iqtisadi inkişafın şahidi olduqlarını vurğulayaraq bildirdi:

-Cənab Prezident, biz iqtisadiyyatın sürətlə inkişaf etməsinin şahidiyik. Bu gün təkcə Bakı şəhərində olmaqla bunu yəqin etdik. Ola bilsin ki, ölkənin regionlarında bu inkişaf bir qədər başqa cür görünür. Mən demək istərdim ki, sonuncu dəfə şəhərdə bu qədər inşaat kranını Çində görmüşdüm. Ola bilər ki, Siz bunları Potyomkin kəndləri kimi göstərirsiniz, istəyirsiniz burada necə inkişaf olduğunu görək. Lakin bu da innovasiya, marketinq olardı. Bu, maraqlı ideya olardı.

Biz buraya açıq gözlə gəlmişik ki, Sizin ölkənizi başa düşək, burada nə baş verdiyini anlayaq.

Prezident Vatslav Klaus beynəlxalq maliyyə böhranının Çexiya iqtisadiyyatına təsirini xarakterizə edərək dedi:

-Bizdə heç bir maliyyə böhranı olmamışdır. Çexiya hökuməti bizim bank, maliyyə sisteminə bir Çexiya kronu da verməmişdir. Bunu etməyə ehtiyac yox idi, bizdə heç nə olmamışdı. Lakin bizdən qərbdəki bazarlar hər şeyi itirdilər. Beləliklə, biz Qərbə ixracımızın xeyli hissəsini itirdik. Buna görə də 2009-cu ildə bizdə iqtisadi tənəzzül oldu. İndi isə deyə bilərəm ki, biz bərpa olunuruq, iqtisadiyyatımız demək olar ki, normal Avropa sürəti ilə artır. Əlbəttə, bu artım sizdə bir neçə il ərzində müşahidə olunan 20-30 faizlik artım deyildir. Mən ümid edirəm ki, bizim biznesmenlər bu iqtisadi böhran dövründə

nəyisə başa düşdülər. Biz başa düşdük ki, ixracın bu qədər yüksək hissəsinin birtərəfli olması çox təhlükəlidir. Buna görə də bizim biznesmenlər ixracı və ticarəti şaxələndirməyə bu qədər böyük maraq göstərirlər. Mənim fikrimcə, çexiyalı sahibkarların Azərbaycana səfərə marağının əsas səbəbi budur. Cənab Prezident, mən ümid edirəm ki, onlar nahardan sonra haradasa bir kafedə əyləşməmiş, burada işləmişlər. Ümid edirəm ki, bizim çıxışlarımız biznes forumun başlanğıcı deyil, artıq sonudur. Mən onların nə deyəcəklərini, hansı nəticələrə nail olduqlarını gözləyirəm.

Prezident Vatslav Klaus Çexiyanın Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə ölkəmizi dəstəklədiyini qeyd edərək bildirdi:

-Biz Qarabağ problemini hiss edirik. Ümid edirik ki, bu problemi həll edə biləcək müəyyən perspektiv vardır. Biz bu istiqamətdə Sizi dəstəkləməyə hazırıq.

Cənab Prezident, biz Sizin ölkənin Avropa ruhunu da çox yaxşı başa düşür və hiss edirik. Bu mənada da biz Sizi dəstəkləyirik. İki il bundan əvvəl bizim "Şərq Tərəfdaşlığı" ideyası ilə əlaqədar ilk görüşümüz olmuşdu. Biz Prezidentlə Praqada görüşmüşdük. Bu ilin payızında həmin proqram üzrə sammit Varşavada olacaqdır. Mən ümid edirəm ki, bu görüş müsbət nəticələr verəcəkdir.

Cənab Prezident, xanımlar və cənablar, səmimi qəbula görə, Sizin burada olmağınıza görə Sizə bir daha təşəkkür edirəm və ümid edirəm ki, bu forum müsbət nəticələr verəcəkdir. Çox sağ olun.

* * *

Forumdan sonra prezidentlər İlham Əliyev və Vatslav Klaus Dənizkənarı milli parkda Bakının mənzərəsini seyr etdilər. Çexiya Prezidentinə son illərdə sürətlə inkişaf edən Azərbaycanın paytaxtında görülən abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verildi.

* * *

İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Çexiyanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə keçirilən biznes forumda hər iki ölkənin dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, maliyyə, neft-qaz, səhiyyə, tikinti, informasiya və kommunikasiya texnologiyaları, energetika, maşınqayırma və digər sahələrdə fəaliyyət göstərən 200-dən çox iş adamı iştirak etmişdir.

Sayca üçüncü olan biznes forumda Azərbaycanın biznes və investisiya imkanları barədə təqdimatlar keçirilmişdir.

Biznes forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər təşkil edilmiş, əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunmuşdur.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Çexiya Prezidenti Vatslav Klausun və xanımı Liviya Klausovanın şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab Prezident!

Hörmətli xanım Liviya Klausova!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini məmnuniyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Cənab Prezident, ölkəmizə ilk səfəriniz Azərbaycan-Çexiya münasibətlərində əlamətdar hadisədir. İnanıram ki, bu səfəriniz müxtəlif sahələrdə əməkdaşlığımızın daha da inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.

Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanan sənədlər və bugünkü biznes forum əlaqələrimizin yeni mərhələyə qalxmasına təkan verəcəkdir.

Mən ikitərəfli münasibətlərimizin inkişaf etməsi və keyfiyyətcə yeni mərhələyə qalxması məqsədi ilə qarşılıqlı səylərin artırılmasını vacib sayıram.

Bu gün ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı üçün əlverişli şərait və imkanlar vardır. Azərbaycanda gedən böyük tikinti işlərində çex banklarının da kreditor qismində iştirak etməsi müsbət haldır. Eyni zamanda, Çexiya Respublikasının enerji bazarında Azərbaycan nefti mühüm yer tutur. Bu baxımdan əlaqələrimizin daha da intensivləşdirilməsi üçün hər iki ölkənin iqtisadi subyektləri arasında birbaşa əməliyyatların aparılmasına ehtiyac yaranmışdır.

Ölkələrimiz beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avratlantik strukturlarla əlaqələr mühüm yer tutur. BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurasında əməkdaşlığımız məmnunluq doğurur.

Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır və Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Azərbaycan ilə Avropa İttifaqı arasında 2006-cı ildə imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında anlaşma memorandumu, eləcə də bu ilin yanvar ayında imzalanmış "Cənub" qaz dəhlizi haqqında Birgə Bəyannamə bunun bariz nümunəsidir.

Son illər Azərbaycanda həyata keçirilən konkret layihələr ölkəmizin dinamik inkişafını təmin edir, regionda əməkdaşlıq proseslərinə müsbət təsir göstərir. Görülən işlər nəticəsində Azərbaycan sürətlə inkişaf edir. Hətta dünya maliyyə böhranının çətin illərində belə ölkəmizin iqtisadi inkişafı davam etmişdir. Bunun nəticəsi olaraq, son yeddi ildə ölkədə ümumi daxili məhsul təxminən 3 dəfə, 2009-cu və 2010-cu illərdə iqtisadiyyatımız 14 faiz artmış, valyuta ehtiyatları təxminən 35 milyard ABŞ dollarına çatdırılmış, yoxsulluq səviyyəsində yaşayan insanların sayı 5 dəfə azalmış, ölkəmizə 80 milyard dollardan çox sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Lakin təəssüflə qeyd etməliyəm ki, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu günə kimi həll edilməmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafdakı yeddi rayon hələ də işğal altında qalmaqdadır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident!

Bir daha Sizi ürəkdən salamlayır, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

Bu badəni Sizin və xanımızın sağlığına, Çexiya Respublikası ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN NİTQİ

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, gözəl ölkənizə dəvət aldığım üçün Sizə dərin təşəkkürlərimi bu mötəbər məclisdə bir daha təkrarlayım.

Mən çox istərdim ki, Sizin ölkənizə Çexiya Prezidentinin bu tarixi ilk səfərini bizim tərəfimizdən göstərilən maraq və qarşılıqlı münasibətlərin genişlənməsi üçün atılan addım kimi qiymətləndirəsiniz.

"Ölkələrimiz arasında birbaşa əlaqələrin tarixi çox qısadır, ancaq Çexiya-Azərbaycan münasibətlərinin tarixi qədimdir", - deyən Prezident Vatslav Klaus indi bu əlaqələrə yeni təkan verməyin lazım olduğunu bildirərək vurğuladı:

-Keçmişdən qalan bütün müsbət halları davam etdirmək lazımdır. Ancaq bu münasibətlərə indi yeni impuls və müasirlik gətirmək istəyirik. Azərbaycanı böyük inkişaf potensialına malik olan ölkə kimi qəbul edirik və bu potensialdan istifadə olunmasına Çexiya şirkətləri də öz töhfələrini vermək marağındadırlar.

Çox gözəl başa düşürük ki, Sizin ölkəniz bu çətin və iğtişaşlı regionda sabitləşdirici amilə malikdir, həmçinin Avropa ölkələrinin enerji balansında əhəmiyyətli rol oynayır.

Bizim ölkəmiz də idxal etdiyi neftin ümumi həcminin 25 faizini Sizin ölkədən alır. Məhz bu sahədə əməkdaşlıqda geniş potensiallar mövcuddur.

Hörmətli cənab Prezident!

Üç il bundan qabaq Praqada Avropa İttifaqına sədrlik zamanı Sizinlə başlayan dialoqumuza görə çox şadam. Bu görüşümüz "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində baş tutmuşdur və fikrimizcə Avropa siyasətinin vacib məqsədlərindən biri olmalıdır. Ümid

edirəm ki, bu il nəzərdə tutulan "Şərq tərəfdaşlığı" Varşava zirvə toplantısı bunu sübut edəcəkdir.

Azərbaycanın qədim mədəniyyətə, tarixi abidələrə və gözəl təbiətə malik olan bir diyar olduğunu qeyd edən Çexiya Prezidenti səfəri müddətində təkcə paytaxtla deyil, Azərbaycanın regionları ilə də tanış olmaq imkanından məmnun qaldığını bildirərək dedi:

-Çexlər çox səyahət edən xalqdır. Yad ölkələri yaxından tanımağı xoşlayırlar. Ancaq bildiyimə görə, Xəzər dənizinin gözəlliklərini və Sizin füsunkar dağlarınızı hələlik kəşf etməyiblər. İnanıram ki, bu, tezliklə baş verəcək və həmçinin bizim ölkəmizə də sizlərdən qonaqlar gələcəklər.

Mən Sizin ölkənizə Çexiya şirkətlərini təmsil edən çoxsaylı nümayəndə heyəti ilə gəlmişəm və onlar iqtisadi əməkdaşlığın genişlənməsinə böyük maraq göstərirlər. Buna görə də inanıram ki, bizim səfərimiz aramızdakı siyasi dialoqun gücləndirilməsi və ikitərəfli müqavilə əməkdaşlığının genişlənməsi, həm də ticarət əlaqələrinin və investisiyaların artması üçün yeni impuls olacaqdır.

Əminəm ki, bunun fonunda mədəni əlaqələr və vətəndaşlar arasında ünsiyyətlər də inkişafdan qalmayacaqdır.

Hörmətli cənab Prezident!

İcazə verin, bu badəni ölkənizin uğurlarının, Çexiya-Azərbaycan dostluğunun şərəfinə və şəxsən Sizin və yaxınlarınızın sağlığına qaldırım.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz qardaşım, hörmətli Prezident İlham Əliyev,

2011-ci il mayın 14-də Almaniyanın Düsseldorf şəhərində keçirilən 56-cı "Eurovision" mahnı müsabiqəsində dost və qardaş Azərbaycanın birinci olmasından böyük sevinc hissi duyduq. Azərbaycanın bu uğuru Türk xalqını da həddən ziyadə məmnun etmişdir.

Zati-aliləri, Sizin şəxsinizdə Azərbaycanı bu qələbə münasibətilə ürəkdən təbrik edirəm.

Bu münasibətlə Sizə səmimi qəlbdən cansağlığı, xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah arzulayıram.

Abdullah Gül

Türkiyə Respublikasının Prezidenti

Ankara, 17 may 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Avstriyanın OMV şirkəti idarə heyətinin sədri Gerhard Roissi qəbul etmişdir.

OMV şirkəti idarə heyətinin sədri Gerhard Roiss Avstriya Prezidenti Haynts Fişerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə neft və qazın hasilatı, nəqli, Avropada marketinqi və satışı sahəsində mümkün əməkdaşlıq, "Nabukko" layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Avstriya Prezidenti Haynts Fişerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERREŞİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da BMT-nin qaçqınlar üzrə ali komissarı Antonio Quterreşi qəbul etmişdir.

BMT-nin qaçqınlar üzrə ali komissarı Antonio Quterreş Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində əldə olunan nailiyyətləri digər ölkələrə nümunə kimi qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulandı və bu əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Mayın 19-da Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan nümayəndələrinin Almaniyanın Düsseldorf şəhərində keçirilmiş "Eurovision-2011" müsabiqəsində qazandıqları parlaq qələbə münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırmış və bu qələbənin Türkiyədə çox böyük sevinclə qarşılandığını vurğulamışdır.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Türkiyənin Baş nazirinə minnətdarlığını bildirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEKİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Avropa Parlamentinin sədri Yeji Buzeki qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı, Avropa Parlamenti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, Avropa Parlamentinin sədri Yeji Buzekin ölkəmizə səfərinin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MOHAMMAD REZA RAUF ŞEYBANİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də İran İslam Respublikası xarici işlər nazirinin müavini Mohammad Reza Rauf Şeybanini qəbul etmişdir.

Mohammad Reza Rauf Şeybani İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətullah Xameneinin və İran Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident Mahmud Əhmədinejadın və İranın digər yüksək rütbəli rəsmilərinin Azərbaycan Prezidenti İlham Əliyevin şəxsiyyətinə xüsusi hörmət və ehtiram bəslədiklərini, Azərbaycan Respublikasına və xalqına daim inkişaf arzuladıqlarını dedi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini və bu əlaqələrin hazırda yüksək səviyyədə olduğunu məmnunluqla qeyd etdi. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının siyasi əlaqələrinin güclü olduğunu, iqtisadi sahədə yeni təşəbbüslərin irəli sürüldüyünü vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında çoxlu sayda ikitərəfli sənədlərin imzalanmasının əhəmiyyətini qeyd etdi və razılaşdırılmış bütün məsələlərin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı ikitərəfli güclü əlaqələrin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi. İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadla mütəmadi olaraq görüşlərini xatırlayan Prezident İlham Əliyev İran Prezidenti ilə onu dostluq əlaqələrinin bağladığını vurğuladı və İran Prezidenti ilə şəxsi əlaqələrinin iki ölkə arasındakı münasibətlərə və xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələrinə çox müsbət təsir göstərdiyini dedi.

Dövlətimizin başçısı İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətullah Xameneinin və İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran İslam Respublikasının Ali Dini Rəhbərinə və Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN YUNESKO-DAKI DAİMİ NÜMAYƏNDƏSİ, ŞAİR, YAZIÇI OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi, şair, yazıçı Oljas Süleymenovu qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev Oljas Süleymenovu anadan olmasının 75 illik yubileyi münasibətilə təbrik etdi, ona yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzuladı. Azərbaycanda Oljas Süleymenovun sevildiyini və onun yaradıcılığının ölkəmizdə yüksək qiymətləndirildiyini vurğulayan Prezident İlham Əliyev onun öz mövqeyini daim aydın və prinsipial şəkildə ifadə edərək qazax xalqının maraqlarını müdafiə etdiyini dedi. Dövlətimizin başçısı Azərbaycanın çox çətin vaxtlarında, xalqımızın 20 Yanvar faciəsi ilə üzləşdiyi bir zamanda Oljas Süleymenovun qətiyyətli mövqedə durmasını və Azərbaycanın yanında olmasının xalqımız tərəfindən heç vaxt unudulmayacağını dedi. Prezident İlham Əliyev Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi və ictimai xadim kimi Oljas Süleymenovun bu gün Azərbaycanın uğurlarına və ölkəmizin inkişafına ürəkdən sevinməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğindəki xidmətlərinə görə döv-

lətimizin yüksək mükafatını - "Dostluq" ordenini Oljas Süleymenova təqdim etdi.

Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi, şair, yazıçı, Oljas Süleymenov Azərbaycan dövlətinin yüksək ordeninə layiq görüldüyünə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və bu hadisəni onun Azərbaycana olan münasibətinin yüksək ifadəsi kimi dəyərləndirdi. Azərbaycana səfərləri zamanı ölkəmizdə baş verən böyük inkişaf proseslərini, o cümlədən mədəniyyətin inkişafı sahəsində əldə edilən sanballı uğurların onda sevinc hissi doğurduğunu bildirdi. O, bu gün Azərbaycan xalqının uğurlar qazanaraq öz sevincini dünya ilə bölüşməsinin onda xoş duyğular yaratdığını dedi. Oljas Süleymenov Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkəmizə və xalqımıza bundan sonra da firavanlıq gətirəcəyinə əminliyini ifadə etdi.

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

Hörmətli cənab Prezident,

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan-İtaliya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin hərtərəfli genişləndirilməsi istiqamətində bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 may 2011-ci il.

İSVEÇİN KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

Əlahəzrət,

Milli bayramınız - İsveç bayrağı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-İsveç münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveç xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 may 2011-ci il.

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Portuqaliya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Portuqaliya arasındakı mövcud münasibətlərin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 may 2011-ci il.

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA

Hörmətli cənab Prezident,

Milli bayramınız - Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Filippin arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 may 2011-ci il.

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd gününüz münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Bu gün Azərbaycan ilə Birləşmiş Krallığı sıx dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin daha da möhkəmləndirilməsi, bir

sıra mühüm sahələri əhatə edən iş birliyimizin müvəffəqiyyətlə davam etdirilməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 may 2011-ci il.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç,

Sizi və bütün Rusiya xalqını dövlət bayramı - Rusiya Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Bu gün dost Rusiya cəmiyyət həyatının siyasi, sosial-iqtisadi və mənəvi sahələrinin modernləşdirilməsi yolunda uğurla irəliləyir.

Azərbaycan və Rusiya əsrlər boyu bir-biri ilə sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək telləri ilə bağlıdır. Əminəm ki, bu mehriban münasibətlərə əsaslanaraq bizim çoxşaxəli əməkdaşlığımız və strateji tərəfdaşlığımız bundan sonra da xalqlarımızın və ölkələrimizin firavanlığı, regionda sülh, sabitlik və tərəqqi naminə dinamik inkişaf edəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, bütün Rusiya xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 may 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU ƏSƏD ALAMI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Əsəd Alamı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bir sıra mühüm layihələr üzrə fəal işlərin aparıldığı qeyd edildi, ölkəmizin müvafiq strukturları ilə Dünya Bankı arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan dövlət quruculuğu işində dərin iqtisadi və sosial dəyişikliklərin həyata keçirilməsində, beynəlxalq aləmdə öz mövqelərinin möhkəmləndirilməsində parlaq uğurlar nümayiş etdirir. Əlamətdar haldır ki, eyni zamanda, respublikanın bənzərsiz, zəngin mədəniyyətinin və milli ənənələrinin qorunub saxlanmasına xüsusi diqqət yetirilir.

Mehriban qonşuluq və qarşılıqlı etimad prinsiplərinə əsaslanan Rusiya-Azərbaycan münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Bizim əlaqələrimizin intensivliyi və səmərəli xarakteri, müxtəlif sahələrdə iri müştərək layihələrin effektiv həyata keçirilməsi, aktual regional problemlərin həllində sıx əməkdaşlıq buna dəlalət edir. Ümid edirəm ki, bu cür konstruktiv dialoq bundan sonra da həm ikitərəfli, həm də çoxtərəfli formatlarda davam edəcəkdir.

Əminəm ki, ölkələrimiz arasında siyasi, ticari-iqtisadi və mədəni-humanitar sahələrdə zəngin çoxşaxəli əlaqələrin inkişafı Rusiya və Azərbaycan xalqlarının əsas mənafelərinə uyğundur, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə şərait yaradır.

Ən xoş arzularla,

D.Medvedev

Rusiya Federasiyasının Prezidenti

PREZİDENT İLHAM ƏLİYEV SERBİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zoran Vayoviçin etimadnaməsini qəbul etmişdir.

Səfir Zoran Vayoviç fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Zoran Vayoviç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin uğurla və dinamik inkişaf etdiyini bildirdi. Serbiyada Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının əhəmiyyətini qeyd edən dövlətimizin başçısı əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycan ilə Serbiyanın beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etməsinin əhəmiyyətini də vurğuladı. Prezident İlham Əliyev Zoran Vayoviçə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Zoran Vayoviç Azərbay-

canda səfir kimi fəaliyyət göstərməsindən məmnunluğunu bildirdi. Diplomat ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRİTANİYA-AZƏRBAYCAN PARLAMENT QRUPUNUN SƏDRİ MARK FİELDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Britaniya-Azərbaycan parlament qrupunun sədri, Konservativ Partiyasının, "Cities of London and Westminster" ərazisindən Kəşfiyyat və Təhlükəsizlik Komitəsinin üzvü Mark Fieldin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Britaniya-Azərbaycan parlament qrupunun sədri Mark Field bildirdi ki, başçılıq etdiyi qrupun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan haqqında məlumatların Böyük Britaniya parlamentinin üzvlərinə çatdırmaqdan ibarətdir. Azərbaycanın təkcə neft-qaz sahəsində deyil, eləcə də qeyri-neft sektorunda böyük potensiala malik olduğunu deyən Mark Field ölkələrimiz arasında kənd təsərrüfatı, turizm, idman, mədəniyyət və digər sahələrdə qarşılıqlı təcrübə mübadiləsi aparılacağına ümidvar olduğunu dedi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan britaniyalı qonaq bu münaqişə ilə bağlı son 20 ildə Azərbaycan xalqının və hökumətinin böyük səbir nümayiş etdirdiyini və Azərbaycanın bu məsələ ilə bağlı keçirdiyi narahatlığın onlar tərəfindən başa düşüldüyünü bildirdi, səfər müddətində problemlə yaxından tanış olacaqlarını dedi.

Dövlətimizin başçısı Britaniya-Azərbaycan parlament qrupunun Azərbaycanda əldə edilən nailiyyətlər və qarşıda duran vəzifələrlə bağlı məlumatların Böyük Britaniyaya çatdırmasını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və bir çox sahələri əhatə etdiyini vurğuladı, enerji sahəsində əlaqələrimizin uzun tarixə malik olduğunu dedi. Əlaqələrimizin turizm, idman, mədəniyyət, qeyri-neft sektoruna investisiyaların qoyulması və digər sahələrdə genişləndirilməsinin önəmini qeyd edən dövlətimizin başçısı qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imkanları araşdırmağın vacibliyini bildirdi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident,

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə şəxsən Sizə, eləcə də bütün Azərbaycan xalqına ən səmimi arzularımı çatdırır, xoşbəxtlik, rifah və uğurlar arzulayıram.

Fransa ilə Azərbaycan arasında qurulmuş münasibətlərin keyfiyyətinə şəxsən diqqət göstərdiyimə əmin ola bilərsiniz. Mən bu əlaqələrin bütün sahələrdə dərinləşməsindən və şaxələnməsindən olduqca məmnunam.

Eyni zamanda, icazə verin, fürsətdən istifadə edərək tərəflərin Dağlıq Qarabağ münaqi-

şəsinin qarşılıqlı razılaşma əsasında, ədalətli və davamlı həllinə tezliklə nail olmasını arzuladığımı bildirim. Fransa Minsk qrupunun həmsədri, eləcə də Azərbaycanın dostu və sülhün tərəfdarı kimi bu yolda irəliləyişin əldə olunması üçün həmişə Sizinlə birlikdədir.

Cənab Prezident, icazə verin, Sizə ən yüksək hörmət və ehtiramımı bildirim.

Nikola Sarkozi

Fransa Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident, əziz qardaşım,

Dost və qardaş Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə zati-alilərinizi, əziz qardaşımı türk xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Azərbaycanın müstəqilliyini qazandığı gündən bəri keçdiyi yol təqdirəlayiqdir. Azərbaycanın müvəffəqiyyətlərini öz uğurlarımız hesab edirik.

Gücünü ortaq dil, din, tarix, mədəniyyət və dəyərlərimizdən alan qədim və köklü əlaqələrimiz gələcəkdə də birgə səylərimizlə atılacaq konkret addımlarla daha da inkişaf edəcəkdir.

Bu istiqamətdə atacağımız addımlar ikitərəfli əlaqələrimizi inkişaf etdirməklə yanaşı, Qafqazda sülh, firavanlıq və əmin-amanlığın bərqərar olmasına öz töhfəsini verəcək, bu bölgəni beynəlxalq cazibə mərkəzinə çevirəcəkdir.

Bu münasibətlə Sizə səmimi qəlbdən cansağlığı və xoşbəxtlik arzulayır, dost və qardaş Azərbaycan xalqının əmin-amanlığı və firavanlığı üçün ən səmimi diləklərimi çatdıraram.

Abdullah Gül

Türkiyə Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Dərin məmnuniyyət hissi ilə Zati-alinizə və Azərbaycan xalqına ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi çatdırır və daha firavan gələcək üçün xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmlənməsini arzulayıram.

II Yelizaveta

Böyük Britaniyanın və Şimali İrlandiyanın Kraliçası

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ

Cənab Prezident,

Azərbaycan Respublikasının Milli bayramı 28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına öz adımdan, eyni zamanda, xalqımın adından səmimi təbriklərimi çatdırıram.

Almaniya gələcəkdə də Sizin ölkənizlə dostluq əlaqələrinin gücləndirilməsi və əməkdaşlığımızın genişləndirilməsi üçün səy göstərəcəkdir.

Biz iqtisadi, ilk növbədə, enerji sahəsində maraqlarımızla bərabər, dəyərlər və hüquqlar haqqında siyasi dialoqumuzu davam etdirmək istəyirik. Bu mövzular, həmçinin Almaniya tərəfindən fəal müşayiət olunan "Şərq tərəfdaşlığı" çərçivəsində Avropa İttifaqı və Azərbaycan arasında assosiativ sazişə dair aparılan danışıqları əhatə edir.

Sizə uğurlar, Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Sizin

Kristian Vulff

Almaniya Federativ Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ QARDAŞIM İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və hökuməti adından Zati-alinizə ən səmimi təbriklərimizi çatdırıram, Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzu edirəm.

Zati-alinizə hörmət və ehtiramla,

Qardaşınız,

Abdullah bin Əbdüləziz Al Səud

İki Müqəddəs Məscidin Xadimi,

Səudiyyə Ərəbistanının Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının öz Milli bayramını qeyd etdiyi bir vaxtda respublikanıza və Azərbaycan xalqına bəslədiyim səmimi arzuları Zati-alinizə çatdırmaqdan çox məmnunam.

Tanrıdan ölkənizdə sülh və əmin-amanlıqla dolu gələcək təmin etmək məqsədilə səlahiyyət və səxavətlə ümumi maraq naminə fəaliyyət göstərən hər kəsin səylərinin dəstəklənməsini arzu edirəm.

Zati-alinizə, ölkənizin əhalisinə, siyasi rəhbərlərinə, eləcə də bütün vətəndaşlarına Uca Tanrının xeyir-duasını diləyirəm.

XVI Benedikt

Roma Papası

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Ölkənizin Milli bayramı 28 May - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını Hindistan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Münasibətlərimiz sıx tarixi və mədəni əlaqələrimizə, eyni zamanda, sülh və inkişaf istiqamətində ortaq istəklərimizə söykənir. Xalqlarımızın rifahı naminə müxtəlif sahələri əhatə edən ikitərəfli əlaqələrimizin daha da inkişaf edəcəyinə ümidvaram. Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzu edirəm.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı bildirirəm.

Pratibha Devisinqh Patil

Hindistanın Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz qardaşım,

Qardaş Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi çatdırıram. Bu əziz gündə Azərbaycan xalqının haqlı qürur, xoşbəxtlik və sevinc duyğularına ürəkdən şərik oluruq.

İki ölkə arasında sarsılmaz təməllərə söykənən qədim və əbədi münasibətlərimiz xalqlarımızın tarixi sevgi və məhəbbətindən güc alaraq sürətlə inkişaf etməkdədir.

Bənzərsiz Türkiyə-Azərbaycan əlaqələri qarşılıqlı səylərimizlə inkişaf etməkdədir və bölüşdüyümüz Avrasiya coğrafiyasında nümunəvi örnək modelidir.

Qarşılıqlı maraqlara əsaslanan ikitərəfli əməkdaşlığımızı və güclü həmrəyliyimizi bölgəmizin sülh və əmin-amanlığına töhfə verəcək bir şəkildə inkişaf etdirməkdəyik. Bu əməkdaşlıq nümunəsinin bütün Qafqaz bölgəsinə hakim olacağına və səylərimizin müsbət nəticələr verəcəyinə inanıram.

Bu fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, qardaş Azərbaycan xalqının firavanlığı və əmin-amanlığı üçün ən gözəl arzularımı çatdırıram.

Rəcəb Tayyib Ərdoğan

Türkiyə Respublikasının Baş naziri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbrikimi çatdırmaqdan xüsusi məmnunluq duyuram. Bu fürsətdən məmnuniyyətlə istifadə edərək, eyni zamanda, Sizə şəxsi əmin-amanlıq, Azərbaycan xalqına xoşbəxt gələcək dolu ən gözəl arzularımı çatdırıram.

Haynts Fişer

Avstriya Respublikasının Federal Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikası Milli bayramını - Respublika Gününü qeyd edərkən, mən də bu münasibətlə Sizə və Azərbaycan xalqına səmimi qəlbdən təbriklərimi yetirir, Sizə və xalqınıza rifah və firavanlıq arzulayıram.

II Albert

Belçikanın Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizə özümün və Xorvatiya Respublikası vətəndaşlarının ən səmimi təbriklərini çatdırır, ölkənizə və vətəndaşlarınıza firavanlıq arzulamaqdan məmnunluq duyuram.

Zati-aliləri,

Mənim ən dərin hörmətimi qəbul etməyinizi xahiş edirəm.

İvo Yosipoviç

Xorvatiya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident Əliyev,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Serbiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan ölkənizin və vətəndaşlarınızın gələcək tərəqqisi və rifahı naminə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Əminəm ki, Sizin Serbiya Respublikasına qarşıdakı rəsmi səfəriniz dialoqun davam etdirilməsi üçün yaxşı imkan yaradacaq, Serbiya Respublikası və Azərbaycan Respublikası arasında dövlətlərimizin və xalqlarımızın dostluğuna söykənən hərtərəfli münasibətlərin intensivləşdirilməsinə yardım edəcəkdir.

Cənab Prezident, mənim dərin ehtiramımı qəbul edin.

Boris Tadiç

Serbiya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

İcazə verin, Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edim.

Fürsətdən istifadə edib iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin bundan sonra da ölkələrimizin mənafelərinə uyğun olaraq uğurla inkişaf edəcəyinə əmin olduğumu bildirirəm. Sizin ölkəyə daimi firavanlıq və inkişaf diləyirəm.

Kim En Nam

Koreya Xalq Demokratik Respublikası

Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri, cənab Prezident,

Macarıstan Respublikasının xalqı adından, həmçinin öz adımdan Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik etmək və ən xoş arzularımı bildirmək istərdim.

Macarıstan Cənubi Qafqazda sabit və təhlükəsiz mühit yaratmaq, həmçinin Avropa və Avratlantik strukturlarına yaxın olmaq üçün ölkəniz tərəfindən göstərilən səyləri böyük maraq və rəğbətlə izləyir.

Macarıstan Azərbaycan ilə ikitərəfli münasibətləri inkişaf etdirmək, bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək niyyətindədir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edib Sizə dərin ehtiramımı bildirirəm.

Pal Şmitt,

Macarıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Ölkənizin Milli bayramı - 28 May Respublika Günü münasibətilə Zati-alinizə öz adımdan və İrlandiya xalqı adından səmimi təbriklərimi çatdırır və ən xoş arzularımı bildirirəm.

Fürsətdən istifadə edərək, Azərbaycan xalqına səadət və tərəqqi arzulayıram.

xanım Meri Makalis

İrlandiyanın Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Respublika Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, şəxsən Sizə və Azərbaycan xalqına xoş arzularımı bildirir və firavanlıq arzu edirəm.

V Harald

Norveçin Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına bildirdiyim ən xoş arzulara və ən səmimi təbriklərə ölkəmizin birinci xanımı da qoşulur.

Fürsətdən istifadə edərək, Azərbaycan xalqına tərəqqi və rifah, Sizə cansağlığı və müvəffəqiyyətlər arzu edirik.

Tuanku Mizan Zeynal Abidin İbn Əl-Mərhum

Sultan Mahmud Əl-Muktəfi Billah Şah

Malayziyanın Ali Rəhbəri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Milli bayramı - Respublika günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırır, Sizə cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

Anibal Kavaku Silva

Portuqaliya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına şəxsən öz adımdan, eləcə də Avstraliya Hökuməti və xalqı adından ən xoş arzularımızı çatdırıram.

Avstraliya və Azərbaycan səmimi ikitərəfli münasibətlərə, beynəlxalq sülh və təhlükəsizlik məsələlərində bir sıra ümumi yanaşmalara malikdirlər. Mən beynəlxalq arenada, o cümlədən BMT çərçivəsində Avstraliya ilə Azərbaycan arasındakı mövcud əməkdaşlıq münasibətlərindən razıyam.

Avstraliya Hökuməti qətiyyətlə inanır ki, iqlim dəyişikliyi, beynəlxalq inkişaf və tərksilah kimi qlobal çağırışlar daha geniş qlobal çözüm tələb edir. Çoxtərəfli təsisatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı bu çağırışlara kollektiv cavab vermək üçün ən yaxşı vasitədir. Avstraliya Hökuməti qarşıdakı ildə Azərbaycan ilə həm ikitərəfli, həm də çoxtərəfli əsasda işləməkdə qətiyyətlidir.

Mən Azərbaycanın Əfqanıstandakı Təhlükəsizliyə Yardım Qüvvələri missiyasına, o cümlədən təlim və yenidənqurma işlərinə davamlı siyasi və praktiki dəstəyini təqdir edirəm.

Bizim güclü iqtisadiyyatlarımız arasındakı ticarət və investisiya əlaqələrinin orta səviyyədə olduğu bir vaxtda, ümid edirəm ki, özəl sektor və hökumət nümayəndələri iqtisadi münasibətlərin dirçəlməsi üçün gələcək illərdə birlikdə işləyəcəklər. Mən, həmçinin təkmilləşdirilmiş təhsil mübadiləsi vasitəsilə xalqlar arasında daha möhkəm əlaqələrə ümid bəsləyirəm.

İcazə verin, iki ölkə arasındakı dostluq münasibətlərinin gələcək illərdə daha da inkişaf edəcəyinə əminliyimi ifadə edim.

Səmimiyyətlə,

xanım Kventin Brays

Avstraliya İttifaqının General-Qubernatoru

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edir və ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənəcəyinə əmin olduğumu təsdiqləyirəm.

Sizə ən yüksək ehtiramımı bildirirəm.

Raul Kastro Rus

Kuba Respublikası Dövlət Şurasının və

Nazirlər Şurasının Sədri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm Prezident,

Azərbaycan Respublikasının Milli bayramını - Respublika Gününü qeyd etməyə hazırlaşdığı bir vaxtda Sizi Əlcəzair xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik etməkdən böyük məmnunluq hissi duyuram. Zati-alinizə möhkəm cansağlığı və uğurlar, dost Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi naminə Sizinlə birlikdə fəaliyyət göstərmək əzmində olduğumu bildirirəm. Əminəm ki, bundan xalqlarımız daha çox faydalanacaqdır.

Möhtərəm Prezident, səmimi təbriklərimi qəbul etməyinizi rica edirəm.

Əbdüləziz Buteflika

Əlcəzair Xalq Demokratik

Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu,

MDB üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurası adından Milli bayram - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Cənab Prezident, Sizə - görkəmli dövlət xadimi və siyasi xadimə möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və Birlik ölkələrinin dostluğunun və əməkdaşlığının möhkəmlənməsində uğurlar, Azərbaycan Respublikasına sülh və firavanlıq diləyirəm.

Səmimi hörmətlə,

Mixail Krotov

MDB Parlamentlərarası Assambleyası

Şurasının baş katibi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

İcazə verin, Sizi və Sizin şəxsinizdə dost Azərbaycan xalqını Milli bayram - Respublika Günü münasibətilə təbrik edim.

Azərbaycanın ictimai-siyasi həyatda sanballı uğurlarını, ölkənizin mühüm iqtisadi, resurs və insan potensialının fəal reallaşdırılmasını, onun beynəlxalq aləmdə artan nüfuzunun tərəqqi və firavanlıq yolu ilə irəliləyişi davam etdirməyə imkan yaratmasını Özbə-

kistanda böyük məmnuniyyətlə qeyd edirlər.

Əminəm ki, Özbəkistan ilə Azərbaycan arasında yaranmış möhkəm etimad və qarşılıqlı anlaşma münasibətləri, çoxşaxəli əməkdaşlıq bundan sonra da xalqlarımızın mənafeyi naminə ardıcıl inkişaf etdiriləcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Sizin ali dövləti fəaliyyətinizdə hər cür uğurlar, Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İslam Kərimov

Özbəkistan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə Koreya Respublikasının xalqı adından Zati-alinizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin davamlı inkişafından məmnun olduğumu bildirmək istərdim. Tamamilə əminəm ki, Azərbaycan Respublikası və Koreya Respublikası xalqlarının ümumi maraqlarına, qarşılıqlı hörmətinə və dostluğuna əsaslanan əməkdaşlıq əlaqələri növbəti illərdə daha da güclənəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Li Men Bak

Koreya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz arasındakı mövcud ikitərəfli əlaqələri zənginləşdirən dialoqu və anlaşmanı gələcəkdə də davam etdirəcəyimizə əminəm.

Fürsətdən istifadə edərək, Sizə ən dərin hörmətimi və ən yüksək ehtiramımı bildirirəm.

Felipe Kalderon İnoxosa

Meksika Birləşmiş Ştatlarının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Öz adımdan və Livan xalqı adından ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırır, Sizə xoşbəxtlik və uğurlar, Azərbaycan xalqına isə firavanlıq arzulayıram.

General Mişel Süleyman

Livan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ, QARDAŞIM İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına daha böyük tərəqqi və firavanlıq arzu edirəm.

Zati-alinizə hörmət və ehtiramla,

Qardaşınız

Sultan bin Əbdüləziz Al Səud

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi,

Baş nazirin müavini, müdafiə və aviasiya

naziri, Baş müfəttiş

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ, RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ ALEKSANDR JUKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Rusiya Federasiyası Hökumətinin sədr müavini, Rusiya Federasiyası Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukovu qəbul etmişdir.

Rusiya Federasiyası Hökumətinin sədr müavini, Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukov Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Baş nazir Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Görüşdə, həmçinin beynəlxalq olimpiya hərəkatında Azərbaycan Milli Olimpiya Komitəsi ilə Rusiya Olimpiya Komitəsi arasında yüksək səviyyədə əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Baş nazir Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Federasiyasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Milli bayramınız - Respublika günü münasibətilə Sizin ölkənizə və Azərbaycan xalqına firavanlıq arzulayıram.

Azərbaycan Cənubi Qafqazda Polşanın çox vacib tərəfdaşıdır, iki dövlətin hökumətləri arasındakı fəal dialoq və artan iqtisadi mübadilə buna sübutdur. Həmçinin hər iki tərəf üçün faydalı olan enerji layihələrinin üzərində işlərin davam etdirilməsinə ümid edirik. Polşa üçün mühüm olan Avropa İttifaqında sədrliyimiz zamanı şəxsən Azərbaycana səfər edə biləcəyimə görə şadam.

Sizi əmin etmək istərdim ki, Polşa Azərbaycanda siyasi və iqtisadi islahatlar prosesini dəstəkləyir, həmçinin Avropaya inteqrasiya məsələləri ilə bağlı öz təcrübəsini bölüşməyə hazırdır. Azərbaycanı Avropa İttifaqı ilə əlaqələrin sıxlaşması naminə səy göstərməyə, xüsusən də Şərq tərəfdaşlığı çərçivəsində fəal əməkdaşlığa çağırıram.

Mən bir daha Sizə və Azərbaycan xalqına ürəkdən xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Dərin hörmətlə,

Bronislav Komorovski

Polşa Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi, qardaş Azərbaycan xalqına davamlı inkişaf və rifah, Sizə cansağlığı və xoşbəxtlik arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ən yüksək ehtiramla,

Həməd bin Casim bin Cabir Al Tani

Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırır, qardaş Azərbaycan xalqına davamlı tərəqqi, Sizə cansağlığı və xoş-

bəxtlik arzu edirəm.

Ən yüksək ehtiramla,

Təmim bin Həməd Al Tani

Qətər Dövlətinin vəliəhdi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Respublika Günü və müstəqilliyinizin iyirminci ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını Amerika xalqı adından təbrik edirəm.

Birləşmiş Ştatlar Azərbaycanla tərəfdaşlığını yüksək dəyərləndirir. Birləşmiş Ştatlar regional enerji təhlükəsizliyinin gücləndirilməsi, Azərbaycanın demokratik və çiçəklənən dövlət kimi inkişafının təmin edilməsi və regional sabitliyin möhkəmləndirilməsi, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tapılması məsələlərində Azərbaycan hökuməti və xalqı ilə birgə işləmək məqsədilə daha böyük imkanların inkişaf etdirilməsinə sadiqdir.

Milli bayramınız və bu tarixi ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırmaqda Amerika xalqı da mənə qoşulur.

Səmimiyyətlə,

Barak Obama

Amerika Birləşmiş Ştatlarının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Qətər Dövlətinin xalqı adından və öz adımdan ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə və Azərbaycan Respublikasının xalqına ən səmimi təbriklərimi çatdırır, Sizə cansağlığı, qardaş Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzu edirəm. İnanıram ki, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri qarşıdakı illərdə daha da möhkəmlənəcəkdir.

Ən yüksək ehtiramla,

Həməd bin Xəlifə Al Tani

Qətər Dövlətinin Əmiri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Sizi Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə səmimi qəlbdən təb-

rik edirəm.

Qazaxıstan ilə Azərbaycan arasındakı qardaşlıq və dostluq əlaqələrini nəzərə alaraq ikitərəfli münasibətləri daha da inkişaf etdirməyə böyük potensialın olduğuna, həmçinin iki ölkənin inam və qarşılıqlı anlayışa əsaslanan tərəfdaşlığının gələcəkdə xalqlarımızın mənafeyi üçün intensiv inkişaf edəcəyinə tam əminəm.

Bu fürsətdən istifadə edərək, hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, işlərinizdə uğur, bütün təşəbbüslərinizdə müvəffəqiyyət, dost və qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzu edirəm.

Hörmətlə,

Nursultan Nazarbayev

Qazaxıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

İcazə verin Sizi Milli bayramınız - Respublika Günü münasibətilə təbrik edim. Xahiş edirəm, Azərbaycanın hərtərəfli inkişafı və firavanlığı naminə yüksək dövləti işlərinizdə və zəfərlərinizdə uğur diləklərimi, ən xoş arzularımı qəbul edin.

Diqqətinizə və dəstəyinizə görə dərin hörmət və minnətdarlıqla,

Tatyana Anodina

MDB və Baltikyanı ölkələrin Dövlətlərarası Aviasiya Komitəsinin sədri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Respublika Günü münasibətilə Qırğızıstan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.

Qırğızıstan Respublikası ilə Azərbaycan Respublikası arasında çoxşaxəli əməkdaşlığın daha da inkişaf etdirilməsinə və dərinləşdirilməsinə Qırğızıstanda böyük əhəmiyyət verilir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, əmin-amanlıq və yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

Səmimiyyətlə,

Roza Otunbayeva

Qırğızıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyası Stavropol diyarının bütün sakinləri adından Respublika günü münasibətilə ən səmimi təbriklərimizi qəbul edin.

Stavropol diyarı və Azərbaycan Respublikası dostluq telləri ilə bir-birinə bağlıdır. Bizim səmərəli əməkdaşlığımız ticari-iqtisadi, elmi-texniki və mədəni sahələrdə qarşılıqlı faydalı layihələrin həyata keçirilməsinə şərait yaradır. Əminəm ki, Stavropol ilə Azərbaycan arasında yaranmış tərəfdaşlıq münasibətləri çox böyük potensiala malikdir və bağlanmış ikitərəfli saziş çərçivəsində planauyğun şəkildə inkişaf edəcəkdir. Bu əlamətdar gündə Azərbaycan Respublikasına və onun bütün sakinlərinə firavanlıq, sülh və əmin-amanlıq diləyirəm.

Hörmətlə,

Valeri Qayevski

Stavropol diyarının qubernatoru

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

TÜRKSOY-un Baş Katibliyi, Türkdilli ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və bütün Azərbaycan xalqını 28 May - Respublika Günü münasibətilə səmimi qəlbdən təbrik edir, gündən-günə inkişaf edən və qüdrətlənən Azərbaycan Respublikasına yeni nailiyyətlər və əmin-amanlıq arzulayıram.

TÜRKSOY-a ən yaxın dəstəklərini əsirgəməyən Zati-alinizin yüksək diqqəti və qayğısı sayəsində Azərbaycan dünya mədəni həyatında öz layiqli yerini tutmaqda və yeni uğurlar qazanmaqdadır.

"Eurovision-2011" müsabiqəsində iştirak edən Azərbaycan təmsilçilərinin parlaq qələbəsi zəngin türk mədəniyyətinin bir hissəsi olan Azərbaycan mədəniyyətinin və incəsənətinin qələbəsidir. Bu, hamımızın, bütün türk dünyasının sevincidir. Belə şərəfli zəfərlərin gələcəkdə də qazanılacağına inamımız hədsizdir.

Bu duyğularla Zati-alinizi və Azərbaycan xalqını bir daha Respublika Günü münasibətilə təbrik edir, möhkəm cansağlığı arzulayır, ən dərin hörmət və ehtiramımı izhar edirəm.

Düsen Kaseinov

TÜRKSOY-un Baş katibi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycanın Milli bayramı 28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına Sinqapur xalqı adından səmimi təbriklərimi, davamlı sülh, inkişaf və rifah arzularımı çatdırıram.

Hörmətlə,

Sellapan Rama Natan

Sinqapur Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Milli bayramınız - Respublika Gününün keçirilməsi dost Azərbaycan xalqına İtaliya xalqı adından ən xoş arzularla sülh, anlaşma və rifah diləmək üçün önəmli bir fürsətdir.

Səmimi qəlbdən arzu edirəm ki, ölkələrimiz arasında dostluq, ümumi iqtisadi

maraqlara söykənən sarsılmaz əlaqələr və hazırda mövcud olan faydalı əməkdaşlıq gələcəkdə eyni mövqedən çıxış etdiyimiz çoxtərəfli təşkilatlar daxilində daha da möhkəmlənsin

.

Əminəm ki, ikitərəfli münasibətlərimiz ölkənizin Avropa İttifaqı ilə daha geniş əlaqələri çərçivəsində zənginləşəcək və iyunun 2-də Sizi Romada görməyimi səbirsizliklə gözləyərək Sizə və xalqınıza ən xoş arzularla rifah diləyirəm.

Ciorcio Napolitano

İtaliya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi və Sizin şəxsinizdə Azərbaycan xalqını öz adımdan və Şimali Kipr xalqı adından səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı və dərin hörmətimi çatdırıram.

Dərviş Əroğlu

Şimali Kipr xalqının lideri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli Prezident,

İcazə verin, ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə təbriklərimi bildirim və Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı çatdırım.

Beatriks

Niderlandın Kraliçası

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə böyük məmnuniyyətlə Sizə, hökumətinizə və Azərbaycan xalqına İsveçrə Federal Şurasının səmimi təbriklərini çatdırır, ölkənizə qarşıdakı illərdə rifah və firavanlıq arzu edirəm.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasında mövcud dostluq və əməkdaşlıq əlaqələrinin gələcəkdə daha da genişlənəcəyinə əmin olduğumu bildirirəm.

Mişelin Kalmi-Rey

İsveçrə Konfederasiyasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə bolqar xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimizi, bizə dost olan ölkənizin rifahı və firavanlığı barədə səmimi arzularımızı qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək, əmin olduğumu bildirmək istərdim ki, Bolqarıstan ilə Azərbaycan arasında dostluğa və qarşılıqlı etimada əsaslanan ənənəvi münasibətlər, fəal əməkdaşlıq ölkələrimizin və xalqlarımızın mənafeyi naminə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Bir daha təsdiqləmək istərdim ki, Bolqarıstan Respublikası Azərbaycanın Avropaya inteqrasiyası səylərini dəstəkləyir, mənim ölkəm bundan sonra da Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin daha da fəallaşmasına kömək etmək arzusundadır və buna hazırdır.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar diləyir, Sizə dərin ehtiramımı bildirirəm.

Georgi Pırvanov

Bolqarıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri cənab Prezident,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə böyük məmnuniyyətlə Zati-alinizə səmimi təbriklərimi çatdırır, ən xoş arzularla Sizə xoşbəxtlik, ölkənizin xalqına rifah diləyirəm.

Akihito

Yaponiyanın İmperatoru

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri, əziz qardaşım,

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Azərbaycan Respublikası Milli bayramı - Respublika Gününü qeyd etdiyi bir vaxtda Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza isə daha yüksək tərəqqi və rifah diləməkdən olduqca məmnunam.

Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, xalqlarımızı birləşdirən qardaş İslam əlaqələrini yüksək dəyərləndirir, ölkələrimiz arasında əməkdaşlıq və həmrəyliyi alqışlayıram. Əlaqələrimizin genişləndirilməsi, xalqlarımızın və müsəlman ümmətinin arzularının gerçəkləşməsi məqsədi ilə Zati-alinizlə birgə işimizin davam etdirilməsini səmimi qəlbdən arzulayıram.

Səmimiyyətlə Sizin,

VI Məhəmməd

Mərakeşin Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Çoxmillətli Dağıstan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını Milli bayram - Respublika Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Dağıstan və Azərbaycan xalqlarımızın zəngin mədəni və qarşılıqlı sosial-iqtisadi əlaqələri təcrübəsinə, xalqlarımızın tarixi talelərinin ümumiliyinə, onların qarşılıqlı etimadına əsaslanan, tarixən formalaşmış möhkəm dostluq və mehriban qonşuluq telləri ilə bağlıdırlar.

Bu gün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın inkişafı regionda sabitliyin və təhlükəsizliyin mühüm amili, xalqlarımızın rifahı naminə Dağıstan ilə Azərbaycan arasında qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığın əsasıdır.

Əminəm ki, biz bundan sonra da Dağıstan-Azərbaycan dostluğunun və əməkdaşlığının möhkəmlənməsi naminə səylərimizi artıracağıq.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, qardaş Azərbaycan xalqına firavanlıq və əmin-amanlıq diləyirəm.

Maqomedsalam Maqomedov

Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Türkmənistan xalqı və Hökuməti adından, habelə şəxsən öz adımdan Sizə və Sizin şəxsinizdə ölkənizin dost xalqına səmimi təbriklərimizi çatdırmaqdan çox məmnunam.

Qəti əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında qarşılıqlı dostluq münasibətləri Türkmənistan və Azərbaycan xalqlarının rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edib Sizə səmimi qəlbdən möhkəm cansağlığı və bol-bol həyat enerjisi, dost Azərbaycan xalqına isə sülh, tərəqqi və firavanlıq diləyirəm.

Hörmətlə,

Qurbanqulı Berdiməhəmmədov

Türkmənistanın Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Fərəhlə qeyd edirəm ki, bu gün Azərbaycan ölkənin demokratik dəyişikliklərində, siyasi, sosial və iqtisadi islahatların həyata keçirilməsində və beynəlxalq aləmdə öz rolunun möhkəmlənməsində sanballı uğurlar qazanmış, dinamik inkişaf edən dövlətdir.

Qəti əmin olduğumu bildirirəm ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında ənənəvi dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri ölkələrimizin xalqlarının rifahı naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

Marian Lupu

Moldova Respublikası Prezidentinin vəzifəsini icra edən

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV

Hörmətli İlham Heydər oğlu,

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Respublikası suverenlik illərində əsl müstəqillik əldə etmiş, iqtisadi və sosial inkişafda mühüm uğurlar qazanmış, beynəlxalq aləmdə mövqelərini xeyli möhkəmlətmişdir.

Dövlətlərimiz arasında münasibətlər qarşılıqlı hörmət və tərəfdaşlıq əsasında intensiv inkişaf edir. Əminəm ki, Belarus-Azərbaycan əməkdaşlığı bundan sonra da dinamizmini qoruyub saxlayacaq, daha da möhkəmlənəcək, fəal və səmərəli olacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı və ali dövləti vəzifənizdə yeni zəfərlər, Azərbaycan xalqına isə sülh, xoş güzəran və firavanlıq diləyirəm.

Hörmətlə,

Aleksandr Lukaşenko

Belarus Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin. Bu gün Azərbaycan Respublikasının həyata keçirdiyi uğurlu

daxili və xarici siyasət sayəsində onun beynəlxalq nüfuzu möhkəmlənməkdə davam edir, ölkədə genişmiqyaslı sosial-iqtisadi layihələr həyata keçirilir, Azərbaycan xalqının maddi rifah səviyyəsi yüksəlir.

Dövlətlərimiz arasında dostluğun və əməkdaşlığın inkişafına Sizin şəxsi töhfənizi yüksək qiymətləndirərək əmin olduğumu bildirmək istərdim ki, Ukrayna-Azərbaycan münasibətləri bundan sonra da strateji tərəfdaşlıq ruhunda, qarşılıqlı etimad və dəstək prinsipləri əsasında dərinləşəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

Viktor Yanukoviç

Ukraynanın Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Sizi və bütün Azərbaycan xalqını Milli bayram - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün dünyada çox yüksək elmi və texnoloji potensiala malik olan azad və demokratik dövlət kimi ilbəil möhkəmlənən Azərbaycanın müstəqillik dönəmində qazandığı hər bir uğura görə biz haqlı olaraq fəxr edirik.

Hörmətli İlham Heydər oğlu, Siz əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ənənələrin layiqli davamçısı kimi Azərbaycan ilə Dağıstan arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə çox böyük töhfə verirsiniz.

Çox hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq diləyirəm.

Səmimi hörmətlə,

Qurban Qurbanov

Rusiya Federasiyası Dağıstan Respublikasının

Dərbənd Rayon Administrasiyasının başçısı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli Prezident,

Zati-alinizi böyük məmnuniyyətlə Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza isə daha yüksək tərəqqi və rifah arzulayıram.

Böyük hörmət və ehtiramla,

Məhəmməd Hüseyn Tantavi

Misir Ərəb Respublikası Silahlı Qüvvələrinin

Ali Şurasının Sədri

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI TƏLİM VƏ DOKTRİNA KOMANDANI SALDIRAY BERKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Türkiyənin Quru Qoşunları Təlim və Doktrina Komandanı Saldıray Berkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyənin Quru Qoşunları Təlim və Doktrina Komandanı Saldıray Berk 1996-1998-ci illərdə Bakıda çalışdığı zaman xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini

böyük məmnunluq hissi ilə xatırladı. Türkiyəli qonaq ölkəmizə əvvəlki səfərindən ötən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu vurğuladı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə və hərbi sənaye sahələrində uğurla inkişaf etdiyi bildirildi və bu sahədə əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı 28 May - Respublika Günü münasibətilə Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırır, ölkənizə davamlı rifah arzulayıram.

Fürsətdən istifadə edərək Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında dostluq münasibətlərinin xalqlarımızın rifahı və firavanlığı naminə bundan sonra da inkişaf edəcəyinə əminliyimi və inamımı bildirirəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Neboyşa Radmanoviç

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Birləşmiş Ərəb Əmirliklərinin xalqı və hökuməti adından və şəxsən öz adımdan ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi salamlarımı və xoş təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə xoşbəxtlik və ölkənizin qardaş xalqına bol firavanlıq arzulayıram.

Yüksək hörmət və ehtiramla,

Xəlifə bin Zayid Al Nəhəyan

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırır, Sizə xoşbəxtlik və rifah, Azərbaycan Respublikası və onun xalqına tərəqqi və firavanlıq diləyirəm.

Bhumibol

Tailand Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının 2011-ci il mayın 28-də qeyd etdiyi Milli bayramı - Respublika Günü kimi xoş münasibətlə Zati-alinizə, Azərbaycan Respublikasının Hökumətinə və xalqına ən səmimi salamlarıma və təbriklərimə Cənubi Afrika Respublikasının Hökuməti və xalqı da qoşulur.

Fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasında mövcud olan sıx dostluq əlaqələrini daha da inkişaf etdirmək və möhkəmləndirmək istədiyimizi bir daha bildirirəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Cakob Zuma

Cənubi Afrika Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Sizi Milli bayram - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm!

Sizə cansağlığı və ali dövləti vəzifədə daha səmərəli fəaliyyət, Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq diləyirəm.

Fürsətdən istifadə edərək Moskva vilayəti ilə Azərbaycan Respublikası arasında qarşılıqlı faydalı hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğumuzu təsdiqləyirəm.

Hörmətlə,

Boris Qromov

Moskva vilayətinin qubernatoru

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri cənab Prezident,

Monqol xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin şəxsinizdə dost Azərbaycan xalqını Milli bayram - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Qəti əminəm ki, ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətləri bundan sonra da monqol və Azərbaycan xalqlarının rifahı naminə genişlənəcək və inkişaf edəcəkdir.

Zati-aliləri cənab Prezident, Sizə möhkəm cansağlığı və işinizdə uğurlar, dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq diləyirəm.

Dərin hörmətlə,

Saxiaqiyn Elbeqdorj

Monqolustanın Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Sizi və bütün Azərbaycan xalqını Milli bayram - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Dost Azərbaycan xalqı dövlət quruculuğu, elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın inkişafı sahəsində çoxəsrlik ənənələrə malikdir. Azərbaycan şairlərinin, yazıçılarının, bəstəkarlarının, rəssamlarının əsərləri bütün Qafqazın sərvətinə çevrilmişdir. Respublikanın müasir tarixi iqtisadiyyatın yüksək sürətlə inkişaf etməsi, dövlətin beynəlxalq nüfuzunun möhkəmlənməsi, demokratik islahatlar yolunda irəliləyişlə səciyyəvidir. Ölkəmiz - Rusiya ilə Azərbaycan arasında siyasi və iqtisadi münasibətlərin möhkəmlənməsini müşahidə etmək bizə xüsusilə xoşdur. Qəti əminəm ki, bu proses çərçivəsində Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Çeçenistan Respublikasının işgüzar dairələri arasında qarşılıqlı faydalı əməkdaşlığın böyük gələcəyi vardır. Biz Rusiya Federasiyasının qanunlarına uyğun olaraq Azərbaycan şirkətlərinin bizim respublikada perspektivli layihələrə sərmayə qoyması üçün əlverişli şərait yaratmağa hazırıq. Mən Bakıda Sizinlə görüşlərimi çox səmimi hisslərlə xatırlayıram. Ümid edirəm ki, yaxın gələcəkdə bu görüşlər davam edəcəkdir. Fürsətdən istifadə edib Sizin Rusiyaya növbəti səfəriniz çərçivəsində Çeçenistan Respublikasına gəlmək barədə əvvəl Sizə etdiyim dəvəti bir daha təsdiqləmək istəyirəm. Çeçenistan Respublikasının xalqı Sizi ən şərəfli və hörmətli qonaqlardan biri kimi qarşılayacaqdır.

Sizə və ailənizin üzvlərinə cansağlığı və firavanlıq, Azərbaycan Respublikasına sülh və tərəqqi diləyirəm.

Hörmətlə,

Ramzan Kadırov

Rusiya Federasiyası Çeçenistan Respublikasının rəhbəri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi səmimi qəlbdən təbrik etməkdən böyük məmnunluq hissi keçirirəm. Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

Fürsətdən istifadə edərək Zati-alinizə bildirirəm ki, yeni Tunis qardaş Azərbaycanla dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirmək əzmindədir.

Fuad Əl-Mebazaa

Tunis Respublikasının Prezidenti vəzifəsini

müvəqqəti icra edən

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü kimi gözəl münasibətlə Zati-alinizə ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan olduqca məmnunam.

Səmimiyyətlə ümid edirəm ki, qardaş ölkələrimiz arasında mövcud əlaqələr gələcəkdə daha da möhkəmlənəcəkdir.

Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və şəxsi rifah arzulayıram.

Zillur Rəhman

Banqladeş Xalq Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü kimi gözəl münasibətlə Zati-alinizə, Sizin şəxsinizdə Azərbaycan Respublikasının xalqına və hökumətinə öz adımdan, Şri-Lanka Hökuməti və xalqı adından səmimi arzularımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri və sıx əməkdaşlıq xalqlarımızın qarşılıqlı rifahı naminə gələcək illərdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Zati-aliləri, ən xoş arzularla Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasının xalqına isə davamlı tərəqqi və rifah diləyirəm.

Mahinda Racapaksa

Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Birləşmiş Ərəb Əmirliklərinin xalqı və hökuməti adından və şəxsən öz adımdan ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi salamlarımı və xoş təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə xoşbəxtlik və ölkənizin qardaş xalqına bol firavanlıq arzulayıram.

Məhəmməd bin Rəşid Al Məktum

Birləşmiş Ərəb Əmirliklərinin

vitse-prezidenti və Baş naziri, Dubayın Hökmdarı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan olduqca məmnunam.

Üzləşdiyimiz problemlər bu gün milli hüdudları həmişəkindən daha çox aşmaqdadır. Bu mürəkkəb və bir-biri ilə əlaqəli çağırışların həlli variantlarının tapılması və həyata keçirilməsi səbir, qətiyyət və əməkdaşlıq - səmərəli və kollektiv qlobal tədbirlər görülməsini tələb edir.

Qətiyyətlə hesab edirəm ki, Birləşmiş Millətlər Təşkilatı sürətlə dəyişən dünyaya uyğunlaşmalı, apardığımız işin inkişaf, sülh və təhlükəsizlik, insan hüquqları kimi üç əsas istiqamətində real və təsirli nəticələr əldə etməlidir.

Mən ruh yüksəkliyi ilə bildirirəm ki, hamı üçün davamlı, təhlükəsiz və ədalətli dünyanı qurmaq istiqamətində göstərdiyimiz səylərdə Azərbaycan öndə olacaq, onun sadiqliyinə və dəstəyinə arxalana biləcəyəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Pan Gi Mun

Birləşmiş Millətlər Təşkilatının baş katibi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə İslam İnkişaf Bankı Qrupu adından Zati-alinizə səmimi təbriklərimi çatdırmaqdan şərəf hissi duyuram.

Bu əlamətdar bayram münasibətilə Allah-Təaladan ölkənizə davamlı tərəqqi və rifah diləyirəm.

Təsisatınız - İslam İnkişaf Bankı Azərbaycan Respublikasından aldığı böyük dəstəyi yüksək dəyərləndirir.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Doktor Əhməd Məhəmməd Əli

İslam İnkişaf Bankı Qrupunun Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Əs-səlamu aleykum va rəhmətullahi va bərəkatuhu.

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Sizə, hökumətinizə və xalqınıza ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan olduqca məmnunam.

Ölkələrimiz arasındakı mövcud dostluqdan razıyam, beynəlxalq sahədə ikitərəfli əlaqələrimizin və əməkdaşlığımızın möhkəmləndirilməsi işini davam etdirməyi səbirsizliklə gözləyirəm.

Ən xoş arzularla,

10 Həssənal Bolkiah

Bruneyin Sultanı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

İcazə verin, Sloveniya xalqı adından və öz adımdan Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edim, ölkənizə hərtərəfli inkişaf və rifah arzu edim.

Bu münasibətlə 2011-ci il iyun ayının 9-10-da Sloveniya Respublikasına rəsmi səfərinizi səbirsizliklə gözlədiyimi də qeyd etmək istərdim. İcazə verin, Sloveniyada olacağımız dövrdə aparacağımız danışıqların ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə imkan yaradacağına əmin olduğumu bildirim. Sloveniya Respublikası və Azərbaycan Respublikası arasında möhkəmlənən əlaqələr bütün sahələrdə qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinə və genişləndirilməsinə, beləliklə də dünyada sülhün, sabitliyin və anlaşmanın möhkəmləndirilməsinə şərait yaradacaqdır.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Danilo Türk

Sloveniya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Ölkənizin Milli bayramı - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bir neçə gün əvvəl Bakıda keçirdiyimiz səmimi görüşü, açıq və səmərəli müzakirəni xatırlayaraq Sizi bir daha əmin etmək istərdim ki, Çexiya Respublikası ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlıdır.

Çexiya Respublikası Azərbaycanı olduqca vacib tərəfdaş hesab edir, ölkələrimiz arasında iqtisadi və siyasi əlaqələrin gələcək inkişafı ilə yanaşı, qarşılıqlı əlverişli münasibətlərin və siyasi dialoqun uğurla davam etdirilməsini istəyir. Mən əminəm ki, ölkələrimiz və xalqlarımız arasında səmərəli əməkdaşlıq üçün gələcəkdə daha çox imkanlar olacaqdır.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Vatslav Klaus

Çexiya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırır, Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına tərəqqi diləyir, ən xoş arzularımı bildirirəm.

Karl Qustav

İsveçin Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Sizi və bütün qardaş Azərbaycan xalqını ən mühüm hadisə, Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Fərəhlə qeyd edirəm ki, Gürcüstan ilə Azərbaycan arasında tarixən formalaşmış müstəsna ikitərəfli münasibətlər və konstruktiv əməkdaşlıq qarşılıqlı anlaşmaya, ümumi dəyərlərə və müştərək amallara əsaslanır.

Əminəm ki, Gürcüstan ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da səmərəli inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib Sizə dərin ehtiramımı bildirir və ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə xoşbəxtlik və firavanlıq diləyirəm.

Səmimiyyətlə, Sizin

Mixeil Saakaşvili

Gürcüstanın Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Milli bayramınız - Respublika Gününün qeyd edilməsi münasibətilə Zati-alinizə təbrik-

lərimi çatdırmaq, Sizə cansağlığı, Azərbaycan xalqına xoşbəxt gələcək diləmək və ən xoş arzularımı bildirmək istərdim.

Anri

Lüksemburqun Böyük Hersoqu

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

İcazə verin, Milli bayramınız münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və öz adımdan Sizə cansağlığı, xoşbəxtlik, ölkənizin xalqına sülh və tərəqqi arzu edim.

Ən yüksək ehtiramla,

Jak Diuf

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə İspaniya Hökuməti və xalqı adından, həmçinin öz adımdan ən səmimi təbriklərimi çatdırmaq istərdim.

Cənab Prezident, Sizə cansağlığı, dost Azərbaycan xalqına sülh və rifah arzu edirəm.

Dərin hörmətlə,

Xuan Karlos

İspaniyanın Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident,

Azərbaycan Respublikasının Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına çatdırdığım səmimi təbriklərə Kamboca Hökuməti və xalqı da qoşulur. Həmçinin Sizə cansağlığı, Azərbaycan xalqına rifah diləyir, ən xoş arzularımızı bildiririk.

Ölkələrimiz arasında mövcud dostluq və əməkdaşlıq əlaqələrinin gələcəkdə də möhkəmlənəcəyinə inanıram.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Norodom Siamoni

Kambocanın Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Azərbaycan Demokratik Respublikasının yaranması gününün qeyd olunması münasibətilə Litva xalqı adından və öz adımdan səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizə qüvvət, müdriklik və daimi cansağlığı, ölkənizin xalqına rifah, sülh və əmin-amanlıq diləyir, ən xoş arzularımı çatdırıram.

Mayın əvvəlində apardığımız açıq və səmimi söhbəti xoş təəssüratla xatırlayaraq ölkənizi və bütün Qafqaz bölgəsini əhatə edən problemlərin sülh yolu ilə həll olunacağına tam əmin olduğumu bildirmək istərdim. Həmçinin qeyd etmək istərdim ki, Litva Avropa İttifaqının üzvü və ATƏT-in sədri kimi həmin prosesə yardım etmək üçün bütün mümkün olan səyləri göstərəcəkdir.

Mən inanıram ki, sülh danışıqları ölkənizin rifahının, xalqınızın firavanlığının artırılmasının və təmin edilməsinin yeganə yoludur. İnanıram ki, ənənələrin və müasir meyillərin ölkənizdə müşahidə etdiyim heyrətamiz vəhdəti bölgədə digər ölkələr üçün iqtisadi, siyasi və sosial inkişaf nümunəsi olacaqdır.

Fürsətdən istifadə edərək, Sizə Bakıya səfərim zamanı mənə göstərdiyiniz yüksək qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Bir daha Sizi Milli bayramınız münasibətilə təbrik edirəm.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Dalya Qribauskayte

Litva Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının yaradılması gününün qeyd olunması münasibətilə Zati-alinizə və Sizin şəxsinizdə dost Azərbaycan xalqına Laos xalqı adından və öz adımdan ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Mən inanıram ki, Laos Xalq Demokratik Respublikası və Azərbaycan Respublikası arasında mövcud olan ənənəvi dostluq və əməkdaşlıq əlaqələri gələcəkdə də xalqlarımızın mənafeyi, dünyada sülhün və əməkdaşlığın inkişafı naminə genişləndiriləcəkdir.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Çoummali Sayasone

Laos Xalq Demokratik Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına kanadalılar adından təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan və Kanada əksər beynəlxalq təşkilatların üzvü olaraq bir çox məsələlər üzrə əməkdaşlıq edirlər. Kanada son illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafını müşahidə edir və hesab edir ki, bu, ölkənizin sosial, iqtisadi və siyasi inkişafına imkan yaradır.

Bu əlamətdar günün qeyd olunması münasibətilə Sizə və Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik və rifah arzu edirəm.

Hörmətlə,

Devid Conston

Kanadanın General-qubernatoru

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Dost ölkənizin Milli bayramı - Respublika Gününü qeyd etdiyi bir vaxtda Sizi səmimi qəlbdən təbrik etməkdən böyük məmnunluq hissləri keçirirəm. Fürsətdən istifadə edərək ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da inkişaf etdirilməsini arzulayıram.

Zati-alinizə möhkəm cansağlığı və səadət, ölkənizə, onun dost xalqına tərəqqi və firavanlıq arzulayıram.

Sizə dərin ehtiram bəslədiyimə əmin olan bilərsiniz.

Sabah Əl-Əhməd Əl-Cabir Əs-Sabah

Küveyt Dövlətinin Əmiri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Milli bayramı 28 May - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə tərəqqi və sülh arzu edirəm.

Latviya ilə Azərbaycan arasında həqiqi dostluq, eyni zamanda, konstruktiv əlaqələrin mövcudluğunu qeyd etmək olduqca xoşdur. Əmin olduğumu bildirirəm ki, hazırda çox sıx olan əməkdaşlığımızın bundan sonrakı inkişafı ölkələrimizin uzunmüddətli maraqlarına xidmət edəcək və yaxın illərdə də buna şərait yaradacağıq.

Zati-aliləri, icazə verin, Azərbaycan xalqına ən xoş arzularla əmin-amanlıq diləyim, Sizə ən yüksək hörmət və ehtiramımı bildirim.

Hörmətlə Sizin,

Valdis Zatlers

Latviya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə bizim dövlətin adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Fərəhlə qeyd edirik ki, son illərdə Azərbaycan Respublikası sosial-iqtisadi inkişaf və siyasi sabitliyin qorunub saxlanması işində böyük uğurlar qazanmışdır.

Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin yenidən inkişaf etməsindən məmnunam. Əminəm ki, iki ölkənin ali rəhbərliyinin ciddi diqqəti, nazirlik və idarələrin fəal əlaqələndirmə işi sayəsində Vyetnam ilə Azərbaycan arasında əməkdaşlıq hər iki xalqın mənafeyi naminə bundan sonra da inkişaf edəcək, regionda və bütün dünyada sülhün, sabitliyin və əməkdaşlığın qorunub saxlanmasına kömək edəcəkdir.

Qardaş Azərbaycan Respublikasının bu təntənəli bayramı münasibətilə Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq diləyirəm.

Sizə, cənab Prezident, möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifənizdə böyük uğurlar diləyirəm.

Nquen Min Çiyet

Vyetnam Sosialist Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə icazə verin, Çin Xalq Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə və Sizin şəxsinizdə dost Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırım.

Son illərdə Zati-alinizin rəhbərliyi ilə Azərbaycanda siyasi sabitlik qorunub saxlanılır, iqtisadiyyat sürətlə inkişaf edir, xalqın həyat səviyyəsi xeyli yüksəlir, dövlətin qüdrəti artır. Dostluğa əsaslanan əməkdaşlığın tərəfdaşları kimi, biz buna sevinir və Azərbaycana ölkənin quruculuğu işində səmimi qəlbdən böyük uğurlar arzulayırıq.

Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər yaradılandan sonrakı 19 ildə bu münasibətlər sağlam və sabit inkişaf etmişdir. Qarşılıqlı siyasi etimad dərinləşir, ticari-iqtisadi əməkdaşlıq sürətlə inkişaf edir, mədəni əlaqələr və mübadilələr mütəmadi genişlənir. Biz yaxşı əlaqə saxlayır və beynəlxalq məsələlərdə bir-birimizi dəstəkləyirik. Uzunmüddətli və sabit Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafı ölkələrimizin və xalqlarımızın əsas mənafelərinə uyğundur. Çin tərəfi Azərbaycan tərəfi ilə

birlikdə qarşılıqlı siyasi etimadımızı mütəmadi möhkəmlətməyə, işgüzar əməkdaşlığı genişləndirməyə, humanitar əlaqələri fəallaşdırmağa, dostluq və tərəfdaşlıq münasibətlərimizi yeni səviyyəyə çatdırmağa hazırdır.

Sizin ölkənizə firavanlıq və qüdrət, xalqınıza əmin-amanlıq və xoşbəxtlik diləyirəm!

Zati-alinizə möhkəm cansağlığı diləyir, ən xoş arzularımı bildirirəm!

Dərin hörmətlə,

Hu Tszintao

Çin Xalq Respublikasının sədri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV

Hörmətli cənab Prezident,

Azərbaycan Respublikasının Milli bayramı Sizə ən səmimi təbriklərimi, Azərbaycan xalqına sülh və tərəqqi arzularımı çatdırmaq üçün mənə gözəl fürsət verir.

Bu yaxınlarda Bakıya rəsmi səfərim ölkələrimiz arasında strateji tərəfdaşlıq mərhələsinə çatmış ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bir daha açıq şəkildə təsdiq etdi. Bu mənada səfər çərçivəsində strateji tərəfdaşlığın yerinə yetirilməsi üçün imzalanmış Birgə Fəaliyyət Planı razılaşdırılmış əməkdaşlıq istiqamətlərinin həyata keçirilməsinə yönəlmiş real yol xəritəsidir.

Fürsətdən istifadə edərək Rumıniya ilə Azərbaycan Respublikası arasında enerji əməkdaşlığını, xüsusilə də Avropa İttifaqının enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıyan "Nabucco" və AGRİ regional layihələrini dəstəkləməyinizi alqışlayıram.

Sizin Buxarestə növbəti səfəriniz zamanı baş tutacaq görüşümüzə ümidvar olaraq, hörmətli cənab Prezident, mənim ən böyük ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Trayan Besesku

Rumıniyanın Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə İtaliyanın birləşməsinin 150 illiyi və Respublika Günü münasibətilə paytaxt Romada keçirilmiş təntənəli bayram mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işgüzar səfəri iyunun 3-də başa çatmışdır.

* * *

Həmin gün Prezident İlham Əliyev Bakıya qayıtmışdır.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə İraq xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi göndərirəm.

Bu fürsətdən istifadə edərək cənabınıza iki ölkə arasındakı əlaqələrin İraq və Azərbaycan xalqlarının rifahı naminə daha da genişlənməsinə və inkişafına İraq Respublikasının rəğbətlə yanaşdığını bir daha bildirirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və davamlı uğurlar, dost Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

Dərin hörmətlə,

Cəlal Tələbani

İraq Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Maldiv hökuməti və xalqı adından, habelə öz adımdan əlamətdar hadisə - Respublika Günü münasibətilə Zati-alinizə, Azərbaycan hökumətinə və xalqına səmimi təbriklərimi və xoş arzularımı bildirmək istərdim.

Eyni zamanda, icazə verin, Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı inkişaf və rifah arzu edim.

Məhəmməd Naşid

Maldiv Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycanın Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Əminəm ki, yüksək səviyyədə mövcud olan əməkdaşlıq xalqlarımıza rifah gətirəcək, qardaşlıq əlaqələrimizi gələcəkdə daha da möhkəmləndirəcəkdir.

Fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi arzu edirəm.

Zati-alilərı, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Asif Əli Zərdari

Pakistan İslam Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Azərbaycanın milli bayramının ildönümünün qeyd edilməsi mənə bu əlamətdar hadisə münasibətilə Sizi və dost ölkənin bütün xalqını təbrik etmək üçün xoş bir imkan verir.

Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında qarşılıqlı etimad prinsiplərinə, dostluq, bərabərlik və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əməkdaşlıq daha da genişlənir və dərinləşir.

Tacikistan-Azərbaycan münasibətlərinin bundan sonra da dinamik inkişafı üçün zəruri olan hər şeyi etmək əzmində olduğumuzu bildirmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq diləmək istəyirəm.

Hörmətlə,

Emomali Rəhmon

Tacikistan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA SƏFƏRİ

İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə İtaliyanın birləşməsinin 150 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün paytaxt Romaya gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİNİN VƏZİFƏSİNİ İCRA EDƏN MARİAN LUPUNUN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Romada onun üçün ayrılmış iqamətgahda Moldova Respublikası Prezidentinin vəzifəsini icra edən Marian Lupu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləməsinin önəmi qeyd edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanaraq bu potensialın reallaşdırılması ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN "EDİSON" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BRUNO LESKÖRÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də onun üçün ayrılmış iqamətgahda İtaliyanın "Edison" Şirkətinin baş icraçı direktoru Bruno Leskörü qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Edison" şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, Türkiyə-Yunanıstan-İtaliya qaz kəməri layihəsinin həyata keçirilməsi perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TECHNİP-İTALY (TEKNİP İTALİYA) ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MARKO VİLLANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də onun üçün ayrılmış iqamətgahda neft-qaz və neft-kimya sənayesi üçün mühəndis və texnoloji avadanlıq istehsal edən Technip-İtaly (Teknip İtaliya) şirkətinin baş icraçı direktoru Marko Villanı qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Technip-İtaly şirkəti arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ (FİFA) PREZİDENTİ CƏNAB YOZEF BLATTERƏ

Hörmətli cənab Blatter,

Beynəlxalq Futbol Assosiasiyaları Fedcrasiyasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Bu məsul vəzifəyə seçilməyiniz dünya futbolunun inkişafı, milyonların sevimli idman növünün təbliği və yayılması sahəsində xidmətlərinizə verilən yüksək qiymətdir. Əminəm ki, Azərbaycan ilə rəhbərlik etdiyiniz dünya futbol təşkilatı arasındakı əlaqələr, səmərəli əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

2 iyun 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN BİRLƏŞMƏSİNİN 150 İLLİYİNƏ VƏ RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ BAYRAM MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İyunun 2-də Romada İtaliyanın birləşməsinin 150 illiyinə və Respublika Gününə həsr olunmuş rəsmi parad keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə bayram mərasimində iştirak etmişdir.

Mərasimin iyunun 2-də keçirilməsi isə 65 il əvvəl -1946-cı il iyunun 2-də referendum yolu ilə monarxiyanın ləğvi və İtaliyanın respublika elan olunması ilə bağlıdır.

Bayram mərasimində iştirak etmək üçün paytaxt Romaya 80-dən çox ölkənin nümayəndə heyəti gəlmişdir. Ölkələrin əksəriyyəti dövlət və hökumət başçıları səviyyəsində təmsil olunmuşlar.

İtaliyanın birləşməsi bu ölkə tarixinin ən önəmli səhifələrindən biridir. XIX əsrin ilk illərində İtaliyanın I Napoleon tərəfindən işğal edilərək Fransa təəbəliyinə qatılması ölkədə böyük narazılıqlara səbəb olmuşdu. Napoleon Bonapart taxtdan endirildikdən sonra, Vyana Konqresi İtaliyanın işğaldan əvvəlki krallıqlara verilməsi ideyasını dəstəkləmişdi. Beləliklə, Papalıq dövləti, Sardiniya-Piemonte, Toskana, Modena və Lombardiya-Venesiya krallıqları yenidən qurulmuşdur.

Bu ərəfədə "Karbonari" adlandırılan gizli dərnəklər İtaliyanın birləşməsi istiqamətində fəaliyyətə başlamışlar. Cüzeppe Mazzini və Cüzeppe Haribaldinin rəhbərlik etdiyi bu dərnəklərin fəaliyyəti nəticəsində birləşmə ideyası İtaliyada tədricən ümummilli məsələyə çevrilmişdir. Birləşmə məsələsində Fransanın da dəstəyini almağa müvəffəq olan İtaliya 1859-cu ildə bu ölkə ilə birlikdə Avstriyanı məğlub etmiş və təsir dairəsində olan bütün İtaliya krallıqları Sürix sülhü ilə onun nəzarətindən çıxmışdır.

1861-ci ildə paytaxtı əvvəlcə Turin, sonra Florensiya, daha sonra Roma olmaqla birləşmiş İtaliya Krallığı yaranmışdır. 1946-cı ildən etibarən isə İtaliya respublikadır. İndi bu ölkə Avropanın qabaqcıl dövlətlərindən biridir.

Romada bayram təntənələrinin mərkəzi "İmperator forumları" meydanıdır. Bu meydan Romanın məşhur Venesiya prospektini Kolizeylə birləşdirir. İndiki bayramın əsas mərasimi də məhz bu meydanda olmuşdur. Burada təntənəli rəsmi parad keçirilmişdir. İtaliya hökuməti 150 il bundan əvvəl ölkənin birləşməsində iştirak etmiş müxtəlif millətlərin nümayəndələrini və müttəfiq dövlətlərin hərbçilərini də hərbi parada dəvət etmişdir. Paradda beş mindən çox hərbçi iştirak etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri də paradda dövlət bayrağı ilə təntənəli keçid etmişlər.

Sonda aviasiya şousu nümayiş etdirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA PREZİDENTİ CİORCİO NAPOLİTANONUN ADINDAN VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK ETMİŞDİR

İyunun 2-də axşam Romanın "Kurinale" sarayında İtaliyanın birləşməsinin 150 illiyinə və Respublika Gününə həsr olunmuş bayram mərasiminə qatılan nümayəndə heyətləri-

nin başçılarının şərəfinə konsert proqramı təşkil edilmişdir.

Sonra İtaliya Prezidenti Ciorcio Napolitanonun adından nümayəndə heyəti başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİFA-NIN PREZİDENTİ YOZEF BLATTERİ VƏ UEFA PREZİDENTİ MİŞEL PLATİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də FİFA-nın prezidenti Yozef Blatteri və UEFA prezidenti Mişel Platinini qəbul etmişdir.

Dövlətimizin başçısı Yozef Blatteri növbəti dəfə FİFA-nın prezidenti seçilməsi münasibətilə təbrik etdi və bu yüksək posta seçildikdən sonra ilk səfərini Azərbaycana etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Yozef Blatteri dünya futbol ictimaiyyətinin böyük dəstəyi ilə FİFA-nın prezidenti seçilməsinə toxunaraq bunu onun rəhbərliyi ilə FİFA-nın səmərəli fəaliyyətinin nəticəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı Yozef Blatter ilə Bakıda və Sürixdə keçirdiyi görüşləri xatırladı. Azərbaycan futbolunun 100 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər etdiyinə görə Yozef Blatterə təşəkkürünü bildirən Prezident İlham Əliyev onun səfərinin maraqlı və uğurlu olacağına əminliyini bildirdi.

FİFA-nın prezidenti Yozef Blatter ölkəmizə yenidən səfər etməsindən və Azərbaycan Prezidenti ilə görüşündən məmnunluğunu ifadə etdi. O, Azərbaycan futbolunun 100 illiyi münasibəti ilə keçirilən tədbirlərdə iştirak etmək üçün ölkəmizə dəvət olunduğuna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Yozef Blatter və Mişel Platini Prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini

qəbul etmişdir.

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanda keçirilən "Xəzər neft, qaz, neftayırma və neft kimyası" 18-ci Beynəlxalq sərgisinin önəmi qeyd edildi və bu sərginin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Prezident İlham Əliyev və Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, xüsusilə də enerji sahəsində uğurlu inkişafından məmnunluqlarını bildirdilər və bu əməkdaşlığın daha da genişləndirilməsi və inkişafı ətrafında fikir mübadiləsi apardılar.

Dövlətimizin başçısı Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının sədrinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA XARİCİ SİYASƏT XİDMƏTİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ İDARƏEDİCİ DİREKTORU MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Avropa Xarici Siyasət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə idarəedici direktoru Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da inkişaf etdirilməsinin perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

NORVEÇ KRALLIĞI VƏLİƏHDİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

İyunun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Norveç Krallığının Vəliəhdi Hookonun şərəfinə rəsmi nahar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ KRALLIĞININ VƏLİƏHDİ HOOKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Norveç Krallığının Vəliəhdi Hookonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Norveç Krallığının Vəliəhdi Hookonun Azərbaycana səfərinin maraqlı olacağına, ölkəmizi tanımaq baxımından bu səfərin yaxşı imkan yaradacağına əminliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Norveç arasında əlaqələrə 1994-cü ildə enerji sahəsində əməkdaşlıqla başlanıldığını qeyd etdi. Azərbaycan-Norveç əlaqələrinin uzun tarixə malik olduğunu vurğulayan Prezident İlham Əliyev Norveçin Statoil şirkəti ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında uğurlu

əməkdaşlığın önəmini qeyd etdi. Dövlətimizin başçısı Vəliəhd Hookonun Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişafı işinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Norveç Krallığının Vəliəhdi Hookon Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Bakıda keçirilən XVIII Beynəlxalq "Neft və qaz, neftayırma və neft kimyası" sərgi və konfransının əhəmiyyətini vurğulayan Vəliəhd Hookon Azərbaycanın regionda mühüm rolunu, Avropanın enerji məsələlərində etibarlı tərəfdaş olduğunu qeyd etdi. Norveç Krallığının Vəliəhdi ölkəsinin Azərbaycan ilə enerji sektorunda əməkdaşlığı daha da inkişaf etdirmək əzmində olduğunu bildirdi.

BAKIDA XVIII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFT EMALI, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İyunun 7-də Bakı Sərgi Mərkəzində XVIII Beynəlxalq Xəzər neft, qaz, neft emalı, neft kimyası sərgi və konfransı işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.

Builki sərgidə dünyanın 27 ölkəsindən 285 şirkət təmsil olunur. Sərginin ekspozisiyasının 40 faizindən çoxu dünyada tanınmış iqtisadi qurumların payına düşür. Bu tədbirdə Azərbaycanın şirkətləri də ildən-ilə daha geniş təmsil olunur və cari sərgidə iştirakçıların 38 faizini yerli iqtisadi qurumlar təşkil edir. Ötənilki sərgi ilə müqayisədə ekspozisiyaların sahəsi 25 faiz çoxdur. Sərgi iştirakçılarının 12 faizi isə bu tədbirə ilk dəfə qatılıb. Dünyanın 11 ölkəsindən təxminən 90 aparıcı kütləvi informasiya vasitəsi sərgi və konfransa informasiya dəstəyi göstərir. Sərginin ekspozisiyası Bakı Sərgi Mərkəzinin 2 pavilyonunda yerləşir. Burada ən yeni neft-qaz avadanlığı, neftçıxarma və enerji daşıyıcılarının nəqli sahəsində qabaqcıl texnologiyalar nümayiş etdirilir. Bundan başqa sərgi iştirakçılarına Azərbaycanda hazırda reallaşdırılan və perspektiv layihələr də təqdim olunur.

Sərgi və konfransın işgüzar proqramı genişdir. Əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün hərtərəfli imkanlar açılmışdır.

Böyük Britaniyanın İTE Group Plc şirkətinin baş məsləhətçisi Endryu VUD sərgi və konfransı açaraq dedi:

-Cənab Prezident!

Xanım Əliyeva!

Əlahəzrət Şahzadə!

Komissar, xanımlar və cənablar!

Sizi builki sərgidə salamlamaq mənim üçün xoşdur. Düşünürəm ki, bu, Azərbaycan Respublikasının inkişafında yüksək bir mərhələdir. Biz, İTE Group olaraq tərəfdaşımız

olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Azərbaycanın Energetika və Sənaye Nazirliyinə yeni enerji sahəsinin də daxil olduğu builki sərgini daha da geniş şəkildə təşkil etdiklərinə görə təşəkkür edirik. Xüsusilə qeyd etmək istəyirəm ki, bu gün sərgidə iştirakçıların 38 faizini Azərbaycan şirkətləri təşkil edir. Mən sizin hamınıza burada olduğunuz üçün təşəkkür edirəm. İTE Group adından hamınızı salamlayıram. Sizin hamınızı təkcə Azərbaycan Respublikasının inkişafına və uğuruna artıq qoyduğunuz sərmayələrə görə deyil, eyni zamanda bizim iştirakımızla burada işlərinizdə əldə edəcəyiniz uğurlar nəticəsində gələcəklə bağlı verdiyiniz vədlərə görə təbrik edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində nitq söylədi.

ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard MORNİNQSTAR çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Əlahəzrət şahzadə!

Hörmətli komissar Ottinger!

Bu gün burada olmağımdan çox məmnunam və böyük şərəf hissi duyuram. Mən hər zaman Bakını sevmişəm və bu konfransda məmnunluqla iştirak etmişəm. Hər dəfə buraya gələndə Bakı elə gözəl görünür ki, insan inana bilmir. Enerji sahəsindəki münasibətlərimiz olduqca güclüdür. Biz Azərbaycanla münasibətlərimizi yüksək dəyərləndiririk. İndi isə cənab Prezident, 2011-ci il iyunun 1-də Ağ evdə imzalanan məktubun mətnini Sizə oxumaq istərdim.

Riçard Morninqstar ABŞ Prezidenti Barak Obamanın Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.

Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Kerolayn BRAUN Azərbaycan Prezidenti İlham Əliyevi və mərasim iştirakçılarını salamlayaraq Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kameronun təbrik məktubunu oxudu.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, həmçinin açılış mərasiminin iştirakçılarını salamlayan Türkiyənin Azərbaycandakı səfiri Hulusi KILIÇ XVIII Beynəlxalq Xəzər neft, qaz sərgi və konfransı ilə əlaqədar qardaş ölkənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın dövlətimizin başçısına təbrik məktubunu oxudu.

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter OTTİNGER Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.

Norveç Krallığının Vəliəhdi HOOKON çıxış edərək dedi:

-Cənab Prezident!

Birinci xanım!

Nazirlər, zati-aliləri, xanımlar və cənablar!

Mənim üçün Azərbaycana ilk dəfə səfər etmək, eləcə də XVIII Beynəlxalq Xəzər neft və qaz sərgisində iştirak etmək çox xoşdur.

Cənab Prezident, dünən bizi hərarətlə qarşıladığınız üçün Sizə minnətdarlığımı bildirirəm. Norveç ölkələrimiz arasında artıq inkişaf etmiş yaxın əlaqələrimizdən, o cümlədən "Statoil"la ARDNŞ arasındakı artan sıx əməkdaşlıqdan olduqca məmnundur. Norveçin təchizat sənayesi Xəzər dənizində həyata keçirilən layihələrə əhəmiyyətli dərəcədə töhfə verib. Xəzər regionu dünya enerji bazarında getdikcə daha mühüm rol oynayır. Neft və qaz hasilatçısı olan Azərbaycan uzun müddətdir ki, özünü əhəmiyyətli və etibarlı tərəfdaş kimi təsdiqləyib. Ölkələrimiz Avropanın enerji ilə təmin edilməsində etibarlı təchizatçı olmaq kimi ümumi məqsədlərə malikdirlər.

Azərbaycan Xəzər dənizini Avropa ilə bağlayacaq "Cənub" qaz dəhlizində iştirak edən ölkə kimi mühüm rola malikdir. Norveç Avropanın enerji təchizatını daha da gücləndirəcək "Cənub" qaz dəhlizini tam dəstəkləyir. Dəhliz bir çox Avropa ölkələri üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın neft tarixi 1840-cı illərə təsadüf edir. Norveçin təcrübəsi isə 1960-cı illərdə başlayıb. "Statoil" Azərbaycana sərmayə qoyan ilk xarici neft şirkətlərindən biri oldu. Bu, ölkəniz müstəqilliyini bərpa etdikdən sonra xarici neft şirkətlərinin regiona dəvət edilməsi nəticəsində baş tutdu. Həm Norveçin, həm Azərbaycanın qarşısında eyni vəzifələr dayanır: enerji resurslarından davamlı şəkildə istifadə etmək. Biz əmin olmalıyıq ki, resurslarımız uşaqlarımız və nəvələrimizə xidmət edəcəkdir. Beləliklə, resursların idarə edilməsində uzunmüddətli strategiyamız vardır.

Norveçin təcrübəsindən bir neçə kəlmə demək istərdim. Ölkəmizin gəlirlərinin böyük bir hissəsi neft və qaz resurslarının ixracından əldə olunur. Buna görə də enerji daşıyıcılarının hasilatı və gəlirlərin idarə edilməsi sahəsində aydın və şəffaf qaydaların olması xüsusi əhəmiyyət kəsb edir. Bir çox ölkələr resursların zənginliyindən əziyyət də çəkiblər. Böyük həcmdə nəğd vəsaitlərin daxil olması sosial bərabərsizliyə, həddən artıq xərclərə və resursların işlənilməsində nəzarətin çatışmamasına səbəb olub. Bu baxımdan ətraf mühitin qorunması sahəsində də birgə öhdəliyimiz olduqca vacibdir. Azərbaycanda ətraf mühit məsələlərinə xüsusi diqqət yetirilir. Dövlət Neft Fondunun yaradılması təqdirəlayiq haldır. Norveç ölkələrimizin qarşılıqlı faydası naminə regional təhlükəsizlik və sabitlik, insan hüquqları, demokratiya kimi müxtəlif məsələlərlə bağlı Azərbaycanla davamlı dialoqu səmimiyyətlə arzulayır. Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü çərçivəsində Norveçlə Azərbaycan arasında əməkdaşlıq məndə məmnunluq doğurur. Ölkələrimiz şəffaflığın və yaxşı idarəçiliyin təmin edilməsi sahəsində birgə çalışırlar. Ən ilkin mərhələdə Azərbaycanın bu təşəbbüsə qoşulmasını və bu sahədə mühüm nümunə olmasını alqışlayırıq. Bu mövzular ətrafında keçiriləcək seminarda iştirak etmək arzusundayam.

Eyni zamanda, qeyd etmək lazımdır ki, korporativ sosial məsuliyyətə də xüsusi əhəmiyyət verilir. Hökumət, kommersiya təsisatları və vətəndaş cəmiyyəti bütövlükdə cəmiyyətin inkişafı naminə davamlı tərəqqinin təmin edilməsində mühüm rol oynamalıdırlar.

Cənab Prezident!

Xanımlar və cənablar!

Azərbaycanın qlobal enerji bazarında oynadığı rol çox əhəmiyyətlidir. Gələcəkdə bu rolun əhəmiyyəti daha da artacaqdır. Azərbaycan ilə Norveç arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın aparılmasına ümid edirəm. Bu əməkdaşlıq gələn illərdə həm enerji, həm də digər sahələrdə inkişaf edəcəkdir. Sağ olun.

Gürcüstanın energetika və təbii ehtiyatlar naziri Aleksandr XETAQURİ çıxış edərək dedi:

-Zati aliləri, hörmətli qonaqlar!

Bakıya yenidən səfər etməkdən və XVIII Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransında iştirak etməkdən böyük şərəf və iftixar hissi duyuram. Bu illik tədbir qlobal enerji təhlükəsizliyi üçün xüsusi əhəmiyyət kəsb edən neft və qaz resurslarının təchizat marşrutlarının şaxələndirilməsinə aid məsələləri müzakirə etmək və bu mövzu ətrafında fikir mübadiləsi aparmaq üçün önəmli bir platformadır.

Hamıya yaxşı məlumdur ki, gürcü və Azərbaycan xalqları arasında olan dostluğun çoxəsrlik tarixi vardır. Ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığa gəldikdə isə, onun tarixi Xəzərdə hasil edilən enerji daşıyıcılarının dünya bazarlarına ilk dəfə Bakı-Supsa boru kəməri vasitəsilə çıxarılmasına təsadüf edib. Bu, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi strateji təchizat marşrutlarının gələcəyini müəyyən etmişdir. Bu gün Avropanın enerji daşıyıcılarından asılılığı təchizat marşrutlarının şaxələndirilməsi zərurətini ortaya qoyub. Bunun nəticəsində Azərbaycandan Mərkəzi Asiya və Yaxın Şərqdən təbii qazın Avropa İttifaqına çatdırılmasını nəzərdə tutan "Cənub" qaz dəhlizi konsepsiyası hazırlanmışdır. Bu ilin yanvar ayında Azərbaycanla Avropa Komissiyası arasında "Cənub" qaz dəhlizi haqqında imzalanan Birgə Bəyannamə Azərbaycanın bu sahədə aparıcı rolunu, Xəzərdə hasil edilən enerji daşıyıcılarını Qərb istiqamətində nəql edən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərlərinin əhəmiyyətini təsdiq etmişdir.

Bu baxımdan Xəzər dənizinin zəngin karbohidrogen yataqları üçün Gürcüstan mühüm tranzit ölkələrdən biridir. Gürcüstandakı Kulevi, Supsa və digər liman və terminallar Azərbaycan, Qazaxıstan və Türkmənistanın enerji daşıyıcılarının Qərb bazarlarına nəql edilməsində mühüm rol oynayır. Hazırda bir sıra böyük enerji daşıyıcılarının nəql edilməsi layihələri, o cümlədən "Nabukko" layihəsi mövcuddur. Bakı-Tbilisi-Ərzurum, Cənubi Qafqaz qaz boru kəməri adlanan marşrutla böyük həcmdə təbii qaz Gürcüstan vasitəsilə Qərb bazarlarına çıxarılır. "Şahdəniz" yatağında işlənilmənin ikinci fazası başladıqdan sonra nəql edilən qazın həcmi daha da artacaqdır. "Cənub" qaz dəhlizi müxtəlif istiqamətləri nəzərdə tutan şaxələndirməni əhatə edir. "Cənub" qaz dəhlizinin həyata keçirilməsi üçün zəruri hesab edilən infrastrukturun qurulması və razılaşmaların əldə edilməsi müvafiq vaxt çərçivəsində mümkündür.

İcazə verin, həmçinin qeyd edim ki, güclü və inkişaf etmiş infrastruktur və müvafiq kommersiya razılaşmaları olan Gürcüstan "Cənub" dəhlizində iştirak edən ölkələr və tərəfdaşlar arasında etibarlı iştirakçıdır və etibarlı tranzit xidmətlərini göstərə bilər. İnanıram ki, enerji əməkdaşlığımızın böyük perspektivləri vardır. Bugünkü tədbir təchizatın təhlükəsizliyi ilə bağlı siyasət, enerji bazarları və müvafiq tələbatlarla bağlı məhsuldar müzakirələrin aparılması üçün əla fürsətdir. Sağ olun.

* * *

Açılış mərasimindən sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və şirkətin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə dövlətimizin başçısına ARDNŞ-in ekspozisiyası barədə ətraflı məlumat verdilər. Qeyd olundu ki, beynəlxalq səviyyəli şirkətə çevrilən ARDNŞ ən qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verir, 2010-2015-ci illəri əhatə edən nanoneft proqramını və digər silsilə layihələri reallaşdırır.

Sonra "Ümid" qaz yatağındakı 10 nömrəli quyunun qazılmasına start verilməsi mərasiminin iştirakçıları ilə canlı videobağlantı yaradıldı.

Dövlətimizin başçısını salamlayan neftçilər dedilər: Beynəlxalq Xəzər neft-qaz sərgisi iştirakçılarına Bakı arxipelaqının sahildən 80 kilometr məsafədə yerləşən "Ümid" platformasından səmimi salamlarımızı yetiririk. Möhtərəm Prezident, "Ümid-1" platformasında 10 nömrəli quyunun qazılmasına başlanılması üçün Sizin xeyir-duanızı istəyirik. Qazma prosesini beynəlxalq standartlar səviyyəsində tam başa çatdırmaq üçün qurğu və mexanizm tam işlək vəziyyətə gətirilmişdir.

Möhtərəm Prezident, məlumat üçün bildirmək istəyirəm ki, layihələndirilən 10 nömrəli quyu məhsuldar qatın 7-ci horizontuna layihələndirilmişdir. Bu quyunun layihə dərinliyi 6 min 500 metrdir. Cənab Prezident, kollektivimiz adından Sizə söz veririk ki, "Ümid-1" platformasında qazılacaq 10 nömrəli quyu müvəffəqiyyətlə və keyfiyyətlə qazılıb təhvil veriləcəkdir.

Prezident İlham ƏLİYEV: Sağ olun, mən sizi təbrik edirəm. "Ümid" yatağının aşkarlanması bizim üçün tarixi hadisədir. Neftçilərimiz böyük peşəkarlıq göstərmişlər. Geoloqlarımızın gərgin səyləri nəticəsində böyük yataq aşkarlanmışdır. Bu gün biz özümüz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin imkanları çərçivəsində "Ümid" yatağının işlənilməsinə başlayırıq. Bu münasibətlə mən sizi ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, "Ümid" yatağının işlənilməsi nəticəsində yaxın zamanlarda Azərbaycanın qaz ehtiyatları daha da artacaq və Azərbaycan özünü dünyada qaz ölkəsi kimi tanıtdıracaqdır. Mən arzu edirəm ki, "Ümid" yatağının işlənilməsi zamanı bütün lazımi parametrlər gözlənilsin, xüsusilə texnoloji məsələlərə diqqət göstərilsin. Bu gün ARDNŞ dünya səviyyəli bir şirkətdir və onun gördüyü işlər də dünya səviyyəsində olmalıdır.

Mən sizi bir daha təbrik edirəm və "Ümid" yatağının işlənilməsi ilə əlaqədar sizə öz təbrikimi göndərirəm. "Ümid" yatağının qazılmasına başlayın.

NEFTÇİLƏR: Uğurlar olsun, sağ olun.

Sonra 10 saylı quyunun qazma qurğusu işə salındı.

Dövlətimizin başçısı bp şirkətinin ekspozisiyası ilə də tanış oldu. Qeyd edildi ki, Xəzərin Azərbaycan sektorunda iri neft və qaz yataqlarının işlənilməsində, Səngəçal, Supsa və Ceyhan kimi böyük terminalların inşasında, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin tikintisində mühüm xidmətləri olan bp şirkəti bundan sonra da Azərbaycan ilə sıx əməkdaşlıq edəcəkdir.

Prezident İlham Əliyevə dünyanın 80-dən çox ölkəsində fəaliyyət göstərən Fransa-Amerika birgə şirkəti olan "SCHLUMBERGER"in ekspozisiyası barədə də məlumat verildi. Bildirildi ki, bu iqtisadi qurum Azərbaycanda reallaşdırılan iri neft-qaz layihələrində yaxından iştirak edir.

Dövlətimizin başçısına Azərbaycanın Türkiyədə özəlləşdirdiyi "Petkim" şirkətinin genişləndirilməsi və yenidən qurulması ilə bağlı görülən kompleks işlər barədə ətraflı məlumat verildi. Prezident İlham Əliyevin diqqətinə 2040-cı ilədək həyata keçiriləcək layihələr təqdim olundu.

Sərgidə geniş təmsil olunan Fransanın "GDF Suez" şirkəti dünyanın əksər ölkələrində fəaliyyət göstərir və onun 220 min əməkdaşı vardır. Respublikamızda "Abşeron" və digər layihələrdə iştirak edən şirkət qazın kəşfi, hasilatı, nəqli və digər sahələrdə zəngin təcrübəyə malikdir.

Fransanın "Total" şirkəti də Azərbaycanın neft-qaz sektorunda yaxından iştirak edir. Dövlətimizin başçısına şirkətin yenilikləri və perspektiv planları barədə məlumat verildi.

Malayziyanın "Petronas" dövlət şirkəti Xəzər neft-qaz sərgisində ilk dəfə təmsil olunur. Bu iqtisadi qurum istər Malayziyada, istərsə də dünyanın bir çox ölkələrində neft-qaz sektorunda yüksək ixtisaslı kadrlarla bağlı vakant yerlər üçün işçi axtarışı ilə məşğuldur.

Rusiya Federasiyasının "Russneft" şirkəti də Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Qonşu ölkənin böyük neft-qaz şirkətlərindən sayılan "Russneft" Bakıdakı sərgidə ən son elmi-texniki yeniliklərini nümayiş etdirir.

Türk Petrolları Anonim Şirkəti də 1994-cü ildən bəri Azərbaycan ilə birgə beynəlxalq neft-qaz layihələrinin uğurla reallaşmasında yaxından iştirak edir. Qeyd olundu ki, iki qardaş ölkənin iqtisadi qurumları bundan sonra da istər regional, istərsə də beynəlxalq səviyyələrdə birgə uğurlu əməkdaşlıqlarını davam etdirəcəklər.

Almaniyanın RWE şirkəti Azərbaycanda 2009-cu ildən fəaliyyət göstərir. Bu şirkət ölkəmizdə fəaliyyətini genişləndirmək əzmindədir.

"Statoil" "Qazprom"dan sonra Avropada ikinci böyük təbii qaz şirkətidir. "Statoil" Azərbaycan ilə sıx əməkdaşlıq edir. Yaxın müddətdə Avropada təbii qaza tələbatın 20-30 faiz artacağını əsas götürən Norveçin dünya şöhrətli bu şirkəti Azərbaycan ilə yeni əməkdaşlıq imkanları üzərində konkret iş aparır.

"Bakı Ağ Şəhər" layihəsi də mükəmməlliyi ilə seçilir. Dövlətimizin başçısına məlumat verildi ki, bu layihəyə investorların marağı böyükdür. İyirmi hektarlıq "yaşıl ada" adlanan ərazidə təmizlik işləri artıq yekunlaşdırılıb və tikinti prosesinə başlanılacaqdır. "Bakı Ağ Şəhər" layihəsi paytaxtın görkəmini beynəlxalq standartlar səviyyəsində dəyişməsində keyfiyyətcə yeni mərhələnin başlanması deməkdir. Bu, Bakının "qara şəhər" adlanan hissəsinə yeni həyat bəxş edəcək bir layihədir. Layihənin həyata keçirilməsi zamanı Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri, eləcə də 2006-2010-cu illərdə Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə kompleks Tədbirlər Planı əsas götürülmüşdür.

Dövlətimizin başçısına məlumat verildi ki, OMV şirkəti də Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bu istiqamətdə səylərini əsirgəmir.

Prezident İlham Əliyev pavilyonlarla tanışlıqdan sonra sərgi və konfransın işinə uğurlar arzuladı.

"Eurovision-2011" mahnı müsabiqəsindəki qələbədən məmnunluğunu bildirən Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger bu zəfər münasibətilə Azərbaycanı təbrik etdi. Bu gün Almaniya-Azərbaycan futbol oyununun keçiriləcəyini xatırladan komissar Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın tək musiqi və yaxud futbolla məhdudlaşmadığını qeyd etmişdir. Hər iki tərəfin energetika sahəsində əməkdaşlıq etdiyini deyən Ottinger bu istiqamətdə Azərbaycanın mühüm rolunu diqqətə çatdırdı.

Daha sonra Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun tədbir iştirakçılarına müraciəti oxundu.

Sərgidə iştirakdan məmnun olduğunu deyən Norveç Kralhığının Vəlihədi Hookon Norveç ilə Azərbaycanın zəngin neft ehtiyatlarına malik olduğunu qeyd edərək Dövlət Neft Şirkəti ilə Statoil-un uğurlu əməkdaşlıq etdiyini vurğuladı. "Cənub" qaz dəhlizində Azərbaycanın xüsusi rolunu diqqətə çatdıran Hookon ölkəmizdə neft hasilatının qədim tarixə malik olduğunu vurğulayaraq, neftdən əldə olunan gəlirlərin idarə olunmasında şəffaflıq və uzunmüddətlilik siyasətinin həyata keçirilməsinin vacibliyini bildirdi.

Sonra Gürcüstanın energetika və təbii ehtiyatlar naziri Aleksandr Xetaquri çıxış edərək sərginin əhəmiyyətindən danışdı. Xəzər bölgəsi neftinin Avropa və dünya bazarlarına çıxarılmasında şaxələndirmənin önəmini qeyd edən Aleksandr Xetaquri bu istiqamətdə əməkdaşlığın uğurlu olacağına inamını ifadə etdi.

Açılış mərasimindən sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.

Prezident İlham Əliyev pavilyonlarla tanışlıqdan sonra sərgi-konfransın işinə uğurlar arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

XVIII Beynəlxalq Xəzər neft, qaz, neft emalı, neft kimyası sərgi və konfransının əhəmiyyətinə toxunularaq hər il Bakıda ənənəvi olaraq yüksək səviyyədə təşkil edilən bu tədbirin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd edildi.

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

Əlahəzrət,

Milli bayramınız - Böyük Hersoqun təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-Lüksemburq münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyun 2011-ci il.

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ

Hörmətli cənab Prezident,

Xorvatiya Respublikasının milli bayramı - Dövlətçilik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Xorvatiya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyun 2011-ci il.

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TÜRKƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Dövlətçilik günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan-Sloveniya münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyun 2011-ci il.

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

Hörmətli cənab Prezident,

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Biz Azərbaycan-Latviya münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, dövlətlərarası münasibətlərimiz, dostluq əlaqələrimiz, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Latviya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyun 2011-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident!

Bakıda 18-ci Beynəlxalq Xəzər neft, qaz sərgisi və konfransının açılışı münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm.

Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində "Şərq-Qərb" enerji dəhlizi yarandı. "Azəri-Çıraq-Günəşli" neft yataqları, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, "Şahdəniz" qaz yatağı kimi iri enerji layihələrinə böyük həcmdə beynəlxalq sərmayələr və Cənubi Qafqaz qaz boru kəməri Azərbaycana və onun beynəlxalq tərəfdaşlarına əhəmiyyətli ticari, iqtisadi və strateji fayda vermişdir.

Qlobal enerji tələbatının ödənilməsində faydalı olmuş Azərbaycanın dövlət və özəl sektorları arasında uğurlu tərəfdaşlıqdan beynəlxalq ictimaiyyət də yararlanmışdır. Dünyada ən nəhəng və mürəkkəb təbii qaz layihələrindən biri hesab edilən "Cənub" dəhlizinə töhfə vermək qərarınız Azərbaycanın enerji sahəsinin inkişafında və iqtisadi rifahın-

da yeni mərhələ olacaq və təbii qaza etibarlı çıxışın təkmilləşdirilməsinə yardım edəcəkdir. Azərbaycanın enerji sektoruna qoyduğu sərmayələr ölkənizin dünya iqtisadiyyatına daha sıx inteqrasiya etməsi və dövlətinizin, eləcə də onun vətəndaşlarının yaşayış standartlarının yüksəldilməsi vədinə uyğundur. Birləşmiş Ştatlar enerji təhlükəsizliyi və çoxşaxəliliyin inkişaf etdirilməsi, eləcə də bütövlükdə Qafqazda sabitlik və rifahın möhkəmləndirilməsi sahəsində Azərbaycanla davamlı əməkdaşlıq etmək niyyətindədir.

Səmimiyyətlə,

Barak Obama

Amerika Birləşmiş Ştatlarının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

XVIII Beynəlxalq Xəzər neft, qaz sərgisi və konfransının açılışı münasibətilə Zati-alilərinizi Prezident İlham Əliyevi və Azərbaycan xalqını Ülyahəzrət Kraliça hökuməti adından təbrik etmək istərdim.

Son bir neçə il ərzində qlobal iqtisadi sistemdə görünməmiş çətinliklər yaşandı. Belə bir vaxtda, xarici sərmayələri cəlb etmək və saxlamaqda layihələr və dövlətlərin bacarığı həmişəkindən daha çox əhəmiyyətlidir.

Bu sərgidəki stendlərin sayını və Bakının genişlənən inkişaf üfüqlərini müşahidə edəcək bütün konfrans iştirakçıları Azərbaycanın bu işdə uğurlar əldə edən ölkələrdən biri olduğunu görəcəklər.

Azərbaycanda böyük sərmayələr qoymuş və ölkənizin dostu kimi tanınan Birləşmiş Krallıq həmin tərəfdaşlığın inkişaf etdirilməsinə və dərinləşməsinə sadiq qalır.

Builki Xəzər neft, qaz sərgisinin bütün iştirakçılarına uğurlu həftə arzulayıram.

Hörmətlə,

Devid Kameron

Böyük Britaniya və Şimali İrlandiya

Birləşmiş Krallığının Baş naziri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident, dəyərli qardaşım.

Möhtərəm iştirakçılar.

Beynəlxalq Xəzər neft, qaz sərgisi və konfransının başlanğıcından bəri Azərbaycanın, həmçinin Orta Asiya bölgəsinin neft və qaz sənayesi məhsulları və xidmətlərinin təqdimatı, sektor təmsilçilərinin bir araya gəlmələri baxımından nə qədər uğurlu olduğunu bilir, bugünkü sərgi və konfransın eyni səviyyədə bütün iştirakçılar üçün səmərəli ola-

cağına inanıram.

Neft və qaz sektoru dünya iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. Enerji təchizatı və daşınmasının enerji qaynaqlarının növü və marşrutu baxımından nəzərdən keçirilməsi enerji təhlükəsizliyini inkişaf etdirməkdədir. Enerji nəqli bazasının inkişaf etdirilməsi isə bölgələrarası neft və qaz ticarətinin daha da artmasını şərtləndirir. Strateji karbohidrogen bölgəsi olan Xəzər regionunda Azərbaycan, Qazaxıstan və Türkmənistanda Avropa bazarına istiqamətlənə biləcək önəmli miqdarda qaz vardır. Xəzər bölgəsi qlobal enerji təhlükəsizliyinin təmin edilməsi baxımından önəmli tədarükçü mövqeyində olacaqdır.

Türkiyə istehsalçı ölkələri Qərbdəki əsas istehlakçılara bağlamaqda mühüm coğrafi mövqeyə sahibdir və ticarət, tranzit fürsətləri təqdim edən bir enerji dəhlizi və mərkəzi olaraq müsbət potensiala malikdir. Bu mənada ikitərəfli, regional və beynəlxalq əlaqələrimiz Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri kimi mühüm layihələrin həyata keçirilməsini təmin etmişdir. Hazırda Xəzər qazının Avropaya nəqli istiqamətində inşası davam etdirilən boru kəməri layihələri də gələcəkdə qlobal enerji təhlükəsizliyi ilə yanaşı, regional sülh və sabitliyə mühüm töhfə verəcəkdir. Bu çərçivədə hökumətlərarası müqaviləyə əsasən 2009-cu ilin iyulunda Ankarada imzalanan "Nabukko" boru kəməri layihəsi ilə əlaqədar 2011-ci il iyunun 8-də Türkiyənin Kayseri vilayətində "Nabukko" layihəsinə dəstək anlaşmasını imzalamağı nəzərdə tuturuq.

Qardaş ölkə Azərbaycanın nüfuzlu bir tərəfdaş olaraq son illərdə bütün sahələrdə nail olduğu inkişaf istər ikitərəfli, istər regional, istərsə də beynəlxalq layihələrin həyata keçirilməsinə konkret təminat verməkdədir.

Builki sərgi və konfransın da uğurlu keçməsini səmimiyyətlə arzulayıram.

Hörmətlə,

Rəcəb Tayyib Ərdoğan

Türkiyə Respublikasının Baş naziri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident,

XVIII Beynəlxalq Xəzər neft, qaz sərgisi və konfransının açılışı münasibətilə Sizi səmimiyyətlə salamlamaq istərdim.

Yanvarda Bakıya səfər etməkdən məmnun oldum və təəssüf edirəm ki, bu gün şəxsən Sizinlə deyiləm.

Bu sərgidə böyük sayda beynəlxalq iştirakçıların olmasından məlumatlıyam. Bu, Azərbaycanın müstəqilliyindən sonra əldə edilmiş tərəqqinin və Azərbaycanın beynəlxalq enerji sahəsində oynadığı mühüm rolun bariz nümunəsidir.

Avropa İttifaqı üçün Azərbaycan enerji sektorunda əsas strateji tərəfdaşdır. Bu sərgidə sənayemizin iştirakı Avropa İttifaqını Azərbaycanla bağlayan sıx tarixi əlaqələrin təcəs-

sümüdür. Keçmişə nəzər saldıqda, mən ötən il Brüsseldə məmnunluqla keçirdiyimiz "Nobel və Bakı nefti" sərgisini xatırlayıram. Bu, həmçinin sənayemizin təmin etdiyi texnoloji inkişaf və nou-haudan qarşılıqlı şəkildə davamlı olaraq necə yararlandığımızı nümayiş etdirir və gələcəkdə birgə nəyə nail ola biləcəyimizi göstərir.

XIX əsrdə qətiyyət və mübarizə ruhu əcdadlarımızı ölkənizdə neft sənayesini inkişaf etdirməyə ruhlandırdı.

Bu gün biz yenidən qətiyyət və mübarizə ruhunda olmaq və Prezident Əliyevin dediyi kimi, ölkədə görünməmiş iqtisadi tərəqqiyə səbəb olmuş əsrin yeni kontraktını imzalamaq imkanını əldə etmişik.

Qarşımızda çağırışların olduğu vaxtda "Əsrin müqaviləsi"ndən, yeni bazarlara çıxışın və imkanların əldə edilməsində uğurlardan ilhamlana bilərik. Mən xüsusən də Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin tikintisini, o cümlədən Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin inkişaf etdirilməsini nəzərdə tuturam.

Qətiyyət və mübarizə ruhu 19-cu əsrin sonlarında zəruri idi, bu gün də zəruridir!

Ölkənin gücü və potensialına əsaslanaraq, Azərbaycanın tutduğu mövqe onun gələn onilliklər ərzində neft və qazın hasil edilməsi və tranzitində əsas tərəfdaş kimi qalmasını təmin edəcəkdir.

Prezident Əliyev ilə yanvarda imzaladığım Birgə Bəyannamə bu istiqamətdə atılan konkret addım oldu. Biz Azərbaycanı "Cənub" qaz dəhlizinə böyük töhfə verən və onu mümkün edən tərəf kimi görmək barədə ümumi məqsədimizi təsdiq etmişik. Azərbaycan regiondakı mühüm rolunu təsdiqləmiş və Avropa İttifaqı ilə körpüləri qurmaq vəzifəsini nümayiş etdirmişdir. Əminəm ki, biz mümkün qədər tez bir vaxtda bu dəhlizi birgə səylərlə reallaşdıracağıq. XXI əsrdə kontraktın elan edilməsini səbirsizliklə gözləyirəm.

Yaddan çıxarmalı deyilik ki, münasibətlərimiz enerji məsələləri ilə kifayətlənmir. Lakin biz enerjini ölkələrimiz, iqtisadiyyatlarımız və xalqlarımız arasında daha sıx əlaqələrin yaradılması və regionda sabitliyin və təhlükəsizliyin qurulması kimi daha yüksək və strateji məqsədlərə nail olmaqda mühüm alət kimi görürük. İmkanlar, o cümlədən ticarət, nəqliyyat, iqtisadi əməkdaşlıq, sosial və insan inkişafı kimi sahələrdə olduqca böyükdür.

Yanvar ayında Bakıda qeyd etdiyim kimi, məqsədimiz Azərbaycanın Avropa İttifaqı ilə siyasi birliyini və iqtisadi inteqrasiyasını təşviq etməkdir. Bu cür tərəfdaşlığın qurulmasında Avropa İttifaqının müəyyən təcrübəsi vardır.

Bu mənada, biz beynəlxalq hüquq prinsiplərinə və fundamental dəyərlərə sadiq olaraq Şərq tərəfdaşlığı məqsədlərinə nail olmaq üçün Azərbaycandakı dostlarımızla sıx işləyirik. Bu, ikitərəfli Assosiasiya Sazişi ilə bağlı cari danışıqları nəzərdə tutur.

Şübhəsiz ki, iki tərəfin uzunmüddətli öhdəliyi həm Azərbaycan, həm Avropa İttifaqı vətəndaşları üçün qarşılıqlı fayda verəcəkdir.

Sizə uğurlu sərgi və konfransda məhsuldar müzakirələr arzulayıram.

Gələcəkdə Bakıya yenidən səfər etməyimi səmimiyyətlə arzulayıram.

Sağ olun.

Xose Manuel Barrozu

Avropa Komissiyasının sədri

XVIII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi Xəzər neft, qaz sərgi və konfransının açılışı münasibətilə təbrik edirəm. Ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram.

Bu sərgi və konfrans artıq ənənəvi xarakter daşıyır. On səkkizinci ildir ki, Bakıda belə mötəbər tədbir keçirilir. Mən çox şadam ki, ildən-ilə bu sərgiyə maraq artır. Bu, çox gözəl göstəricidir və onu göstərir ki, baxmayaraq Azərbaycanda əvvəlki illərdə böyük investisiya layihələri həyata keçirilib, yenə də ölkəmizin neft-qaz sektoruna xarici investorlar tərəfindən maraq azalmır. Bunun səbəbi ondan ibarətdir ki, bizim neft strategiyamız uzunmüddətli strategiyadır. Bu strategiyanın uğurlu icrası nəticəsində neft-qaz sektorunda ölkə qarşısında duran əsas vəzifələr yerinə yetirildi. Ancaq biz yenə də gələcəyə baxırıq və əminəm ki, bu günlərdə burada gələcək planlarımız haqqında çox geniş müzakirələr aparılacaqdır.

Bildiyiniz kimi, Azərbaycan qədim neft ölkəsidir. Sənaye üsulu ilə dünyada ilk dəfə neft XIX əsrdə məhz Azərbaycanda hasil edilmişdir. XX əsrdə dəniz yataqlarından dünyada yenə də ilk dəfə neft Azərbaycanda hasil edilmişdir. Yəni, bizim böyük ənənələrimiz vardır, Azərbaycanın bu sahədəki nailiyyətləri dünya ictimaiyyəti üçün real bir faktdır və bu barədə bəlkə geniş danışmağa da dəyməz.

Bir məsələyə toxunmaq istəyirəm ki, II Dünya müharibəsi zamanı faşizm üzərində Qələbənin qazanılmasında Azərbaycan neftçilərinin çox böyük rolu və payı olmuşdur. O vaxt Sovet İttifaqının yanacağının 90 faizi Bakıda Azərbaycan neftçiləri tərəfindən istehsal edilmişdir.

Müstəqilliyə qovuşanda ölkəmiz əlbəttə ki, yeni çağırışlarla üzləşmişdir. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Ölkədə qeyri-sabit vəziyyətin mövcud olduğu, vətəndaş müharibəsinin başlandığı, total böhranın hökm sürdüyü bir zamanda Azərbaycan müstəqil ölkə kimi ilk addımlarını atmağa başlamışdır. Əlbəttə ki, ölkəmizin gələcəyi üçün lazımi tədbirlərin görülməsi böyük bir zərurət idi. Azərbaycanın bəxti gətirmişdir ki, ölkəmiz üçün həlledici anlarda böyük dövlət xadimi, ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəlmişdir. Dövlətimizin və dövlətçiliyimizin əsaslarını məhz onun siyasəti nəticəsində formalaşmışdır. Azərbaycanda dövlətçiliyin əsasları qoyulmuş, hüquqi dövlət quruculuğu prosesi başlanmışdır. Ölkədə siyasi və iqtisadi islahatlar aparılmağa başlanmışdır. Ölkəmizin iqtisadi müstəqilliyinin əldə edilməsi üçün konkret addımlar atılmağa başlanmışdır. Onların içində ən mühüm və tarixi əhəmiyyətə malik olan hadisə 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması idi.

Bu kontraktın imzalanması nəticəsində Azərbaycan ilk dəfə olaraq xarici investorları

Xəzər dənizinə dəvət etmişdir. İlk dəfə olaraq Xəzər dənizində xarici neft şirkətləri fəaliyyətə başlamışlar. Ölkə iqtisadiyyatına böyük həcmdə investisiyalar qoyulmağa başlanmışdır. Deyə bilərəm ki, neft sektoruna qoyulan investisiyalar digər sektorlara da investisiyaların cəlb edilməsinə çox müsbət xidmət göstərmişdir. Bütövlükdə 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına 97 milyard dollar sərmayə qoyulmuşdur ki, onların 42 milyardı neft-qaz sektoruna qoyulan sərmayədir və mütləq əksəriyyəti xarici sərmayədir.

Azərbaycan baxmayaraq ki, 1994-cü ildə çox riskli bir dövlət kimi tanınırdı, xarici böyük neft şirkətlərinin Azərbaycana dəvət edilməsi, onlar üçün şərait yaradılması, onların investisiyalarının qorunması üçün lazımi tədbirlərin görülməsi, o cümlədən qanunvericilik sahəsində lazımi addımların atılması sayəsində bu gün Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edib və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu artırır.

"Əsrin kontraktı" tarixi hadisə idi və eyni zamanda, ona görə ki, xarici şirkətlərlə əməkdaşlığımızın ilk təcrübəsi uğurlu olmuşdur. Birinci kontraktdan sonra Azərbaycana maraq artdı. Azərbaycan özünü dünyada etibarlı tərəfdaş, sözünə hörmət edən ölkə kimi tanıda bilmişdir. 1994-cü ildən bu günə qədər Azərbaycan ilə xarici neft şirkətləri arasında heç bir ciddi mübahisə, heç bir qarşıdurma, kontraktlara yenidən baxılmaq arzuları olmamışdır. Mən bunu ona görə deyirəm ki, bəzi ölkələrdə vaxtilə imzalanmış kontraktlara yenidən baxılır, onların dəyişdirilməsi üçün addımlar atılır. Bizdə isə, yanaşma tam fərqlidir. Biz etimadı qazanmışıq və bu etimadı qiymətləndiririk. Hesab edirəm, investorlar üçün ən vacib amil ondan ibarətdir ki, onlar tam əmin olmalıdırlar, onların investisiyaları dövlət tərəfindən lazımi səviyyədə qorunur və bu siyasət dəyişməz olaraq qalır.

"Əsrin kontraktı"nın imzalanması nəticəsində investisiyaların cəlb edilməsi əlbəttə ki, işimizə birinci təkan vermişdir. Ondan sonra nefti xarici bazarlara çıxarmaq üçün böyük addımlar atılmağa başlanmışdır. Görülən çox vacib işlərin arasında mən neft kəmərlərinin tikintisini xüsusi qeyd etmək istəyirəm. Hazırda Azərbaycan nefti dünya bazarlarına üç istiqamətlə nəql edilir. Biz bu sahədə şaxələndirmə məqsədlərimizə tam çatmışıq. Bu gün üç istiqamətdə nəql edilən neftimiz dünya bazarlarına çox etibarlı yollarla çıxarılır.

Neft kəmərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı. O vaxt bizim bölgədə çox çətin geosiyasi vəziyyət mövcud idi. Buna baxmayaraq, xarici investorlar böyük vəsait cəlb etdilər, beynəlxalq maliyyə qurumları öz dəstəyini göstərdilər. Azərbaycan tərəfi də öz üzərinə düşən bütün vəzifələri ləyaqətlə və uğurla icra etmişdir.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi nəticəsində biz nəinki həm yeni bazara çıxa bilmişik və dəhlizi açmışıq, eyni zamanda, ölkə iqtisadiyyatına böyük həcmdə vəsait gəlməyə başlamışdır. Biz bu vəsaitdən çox səmərəli şəkildə istifadə etdik. 1999-cu ilin sonunda Azərbaycanda yaradılmış Dövlət Neft Fondu bu gün dünya səviyyəsində ən şəffaf qurumlardan biridir. Fondun fəaliyyəti beynəlxalq təşki-

latlar, Birləşmiş Millətlər Təşkilatı və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Neft Fondu tam şəffaf bir qurumdur. Bu, bizə imkan verdi ki, əldə olunmuş gəlirlərdən səmərəli və ədalətli istifadə edək. Məhz bunun nəticəsində Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı son 7 il ərzində 49 faizdən 9 faizə düşmüşdür. Əgər əlimizdə Neft Fondu kimi çox şəffaf və müasir qurum olmasaydı, biz bu nailiyyətlərə çata bilməzdik. Bu, onu göstərir ki, Azərbaycana gələn vəsait ədalətli bölünür, vəsaitin toplanması və xərclənməsi çox şəffaf şəkildə həyata keçirilir. Eyni zamanda, bu, Azərbaycanın dünyadakı imicinə də çox müsbət təsir göstərir.

Müəyyən mərhələdə, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismarından sonra belə bir fikir oyana bilərdi ki, artıq biz qarşımızda duran bütün vəzifələri icra etdik. Bundan sonra ancaq əldə edilmiş gəlirlərin idarə edilməsi ilə məşğul olmalıyıq. Beləliklə Azərbaycan şaxələndirmə siyasətini reallaşdıra bilmişdir və biz artıq, necə deyərlər, əldə edilmiş uğurlarla kifayətlənə bilərik. Ancaq bizim yanaşmamız tam fərqlidir, nəinki bu sahədə, bütün başqa sahələrdə də. Əldə edilmiş nailiyyətlər bizim üçün bir mərhələdir, bir addımdır, bir pillədir. Biz daim gələcəyə baxırıq və ölkəmizin uğurlu və dayanıqlı inkişafı üçün uzunmüddətli proqram çərçivəsində addımlarımızı planlaşdırırıq.

Beləliklə, qarşımızda duran ikinci vacib məsələ ondan ibarət idi ki, Azərbaycanı dünyada nəinki neft dövləti kimi, qaz dövləti kimi də tanıdaq. Xüsusilə nəzərə alsaq ki, o vaxta qədər 1996-cı ildə imzalanmış "Şahdəniz" qaz yatağı üzrə kontrakt icra edilməyə başlamışdır və Azərbaycanda çox böyük qaz yataqları aşkarlanmışdır. Deyə bilərəm ki, "Şahdəniz" qaz yatağının kəşfi o dövrdə o qədər də böyük diqqət cəlb etməmişdi. Çünki o vaxt dünyada, xüsusi ilə Avropada qaz amilinə o qədər də böyük diqqət göstərilmirdi. Ondan sonrakı dövrdə - bir neçə il bundan əvvəl qaz amilinin ölkələrin enerji təhlükəsizliyinə nə qədər təsir edən məsələ olduğunu hamımız daha da yaxşı başa düşdük. Ancaq Azərbaycan öz tərəfindən bütün lazımi tədbirləri görmüşdür və "Şahdəniz" qaz yatağının aşkarlanması deyə bilərəm ki, dünya enerji bazarında çox təsirli bir hadisə olmuşdur. Biz hazırda enerji siyasətimizi daha çox qaz amili üzərində qururuq. Çünki neft sahəsində, dediyim kimi, bütün layihələr icra edilib. Bundan sonra biz yalnız hasilatı sabit saxlamaqla öz siyasətimizi davam etdirəcəyik.

Qaz bazarı istiqamətində çalışmalarımız çox məqsədyönlü xarakter daşıyır. Yaradılmış, şaxələndirilmiş ixrac infrastrukturumuz bu gün həm Azərbaycanın maraqlarına xidmət edir, həm də qonşu bazarlara da dəstəkdir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də tarixi hadisə idi. Əvvəlki fikrə qayıtmaq istəyirəm ki, əgər Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsəydi və bu dəhliz açılmasaydı, sınaqdan keçməsəydi, əlbəttə qaz dəhlizinin açılması da böyük problemlərlə üzləşə bilərdi.

Yəni, biz artıq mövcud dəhliz üzərindən qaz kəmərini də çəkdik və Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu gün böyük bir amildir, regional və qitə miqyasında ciddi bir amildir. Ondan sonra əvvəlki dövrdə mövcud olan qaz kəməri infrastrukturu təmir edildi. Bu gün Azərbaycan qazı dörd istiqamətdə dünya bazarlarına çıxarılır. Biz qonşu dövlətlərə qazı ixrac edirik və artıq neft-qaz kəmərlərimizin sayı yeddiyə çatmışdır.

Əlbəttə, zəngin qaz yataqlarımızdan səmərəli şəkildə istifadə etmək üçün bizə böyük, etibarlı bazarlar lazımdır. O bazarlar ki, qanunlarla tənzimlənir, o bazarlar ki, bizim qazımıza orada ehtiyac vardır. Azərbaycan bu istiqamətdə ardıcıl siyasət aparır. Bir neçə il-

dir ki, biz "Cənub" qaz dəhlizi ilə əlaqədar çox fəal siyasət aparırıq. Bir neçə ildir ki, həm ciddi müzakirələr aparılır, eyni zamanda, konkret addımlar atılır. Hələ 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa dair memorandum imzalanmışdır. Bu, birinci addım idi. Bu, daha çox hər iki tərəfin niyyətini ifadə edirdi. Ondan sonrakı dövrdə müxtəlif beynəlxalq forumlarda Azərbaycan öz qaz resurslarını təqdim edə bilmişdir. Bu gün bizim təsdiq edilmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetrə bərabərdir.

Bu ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında yeni vacib sənəd - "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə" imzalanmışdır. Bu bəyannamə sadəcə olaraq niyyətin ifadəsi deyildir. Bu, konkret sənəddir. Biz bu sənəd üzərində işləyirik. Avropa İttifaqı ilə Azərbaycan arasında işçi qrupu yaradılmışdır. Bu işçi qrupu çox səmərəli işləyir. Ümid edirəm ki, bütün lazımi sənədlər yaxın zamanlarda imzalanacaqdır. Beləliklə, "Şahdəniz" layihəsinin ikinci mərhələsinin işlənməsi üçün bizdə əsas olacaqdır.

Mən şübhə etmirəm ki, qarşıda duran bütün vəzifələr icra ediləcəkdir. Bizim keçmişimiz, tariximiz, əldə edilmiş təcrübə və siyasi iradə onu göstərir ki, biz daha da çətin vəziyyətdə daha da mürəkkəb layihələri uğurla icra edə bilmişik. Ona görə, hesab edirəm ki, "Cənub" qaz dəhlizinin gələcəyi çox gözəl olacaqdır.

Hazırda bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasında tranzit məsələlərinin həlli üçün danışıqlar aparılır. Bu danışıqlar son mərhələdədir. Düz bir il bundan əvvəl - keçən ilin iyun ayında Türkiyə ilə Azərbaycan arasında qaz tranziti haqqında protokol imzalanmışdır. O protokolda bütün lazımi məsələlər öz əksini tapmışdır. Sadəcə olaraq, biz ümid edirik ki, yaxın zamanlarda o protokolda göstərilən və sadalanan maddələr son sənədə çevriləcəkdir. Beləliklə, tranzit sazişinin imzalanmasından sonra artıq böyük Azərbaycan qazı üçün bütün maneələr aradan qaldırılacaqdır.

Bizim qaz ehtiyatlarımız, bir daha demək istəyirəm ki, kifayət qədərdir. Ən azı yüz il bundan sonra həm bizə, həm istehlakçılara kifayət edəcəkdir.

Neft sahəsində ilkin proqnozlardan bu gün bəlkə də iki dəfə çox neft əldə etdiyimizi nəzərə alsaq, mən tam əminliklə deyə bilərəm ki, 2,2 trilyon kubmetr qaz ehtiyatlarımız, necə deyərlər, təvazökar bir rəqəmdir. Proqnozlar daha da çoxdur və əminəm ki, qazma işlərinin nəticəsində daha da böyük həcmdə qaz aşkarlanacaqdır.

Keçən sərgidən bu günə qədər Azərbaycanın enerji siyasətində bir neçə vacib hadisə baş vermişdir. Mən onlardan ikisini xüsusilə vurğulamaq istəyirəm. Birincisi, dediyim kimi, yanvar ayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi haqqında imzalanmış Bəyannamə, ikincisi isə, Azərbaycan neftçiləri tərəfindən kəşf edilmiş böyük "Ümid" qaz yatağıdır. Bu, birinci növbədə onu göstərir ki, bizim "Şahdəniz"dən başqa da böyük ehtiyatlarımız vardır. Neftçilərimiz və geoloqlarımız həmişə bunu vurğulayırlar. İkinci tərəfdən, "Ümid" yatağının önəmi ondadır ki, bu yataq Azərbaycan neftçiləri, Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən aşkarlanmışdır. Neftçilərimizin müasir təcrübəsi və xarici şirkətlərlə əməkdaşlıq nəticəsində əldə edilmiş təcrübə artıq konkret nəticələr vermişdir. Azərbaycan Dövlət Neft Şirkəti "Ümid" yatağında həm investordur, həm də operatordur. "Ümid" yatağının aşkarlanması göstərir ki, onun yanında yerləşən perspektiv strukturlarda da kifayət qədər qaz vardır. Biz buna əminik. Ümid edirəm ki, növbəti mərhələlərdə Azərbaycanda qaz yataqlarının kəşfiyyatı davam

edəcəkdir.

Enerji təhlükəsizliyi məsələləri bu gün dünya gündəliyində dayanan vacib məsələlərdən biridir. Azərbaycan tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz üzərinə düşən vəzifələrini ardıcıllıqla və böyük iradə ilə icra edir. Mən hesab edirəm ki, hazırda istehlakçılar, tranzit ölkələr və istehsalçılar arasında yaranan əməkdaşlıq yaxşı nəticələrə gətirib çıxaracaqdır. Çünki məhz bu üç tərəfin birgə fəaliyyəti nəticəsində biz uğura nail ola biləcəyik.

Məhz buna görə bir də demək istəyirəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında işçi qrupu yaradılmışdır. Bu qrupda potensial investorlar, istehlakçılar və istehsalçılar birgə çalışırlar.

Beləliklə, bu il müstəqilliyimizin 20-ci ildönümünü qeyd edərkən tam əminliklə deyə bilərik ki, neft-qaz sektorunda enerji təhlükəsizliyi sahəsində əldə edilmiş nailiyyətlər ölkəmizi böyük dərəcədə möhkəmləndirə bilmişdir. Azərbaycan özünü tam şəkildə təmin edən ölkədir. Valyuta ehtiyatlarımız artır və hazırda onun səviyyəsi təqribən 35 milyard dollara çatmışdır. İqtisadiyyatımız artır və son 7 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır. Büdcə xərcləri 2003-cü ildə 1,2 milyard dollar idi, 2011-ci ildə bu rəqəm 20 milyard dollara çatmışdır.

Ölkədə çox güclü sosial siyasət aparılır, işsizliyə qarşı mübarizə güclənir, yoxsulluq azalır. Sənaye potensialımız və qeyri-neft sektoru inkişaf edir. Bütün bu uğurların təməlində birmənalı deyə bilərəm ki, 1994-cü ildə imzalanmış "Əsrin kontraktı" dayanır. Ona görə bu gün bu sərgi və konfransın açılışında 1994-cü ildə bizə inanan, Azərbaycanın gələcəyinə inanan xarici neft şirkətlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Deyə bilərəm ki, son illər ərzində ARDNŞ ilə xarici tərəfdaşlar arasında çox işgüzar münasibətlər qurulmuşdur. Bu münasibətlərin çox gözəl gələcəyi vardır. Çünki yenə də demək istəyirəm ki, "Cənub" qaz dəhlizinin uğurlu icrası da bizim üçün yalnız növbəti mərhələ olacaqdır. Bizim planlarımız çoxdur, biz gələcəyə ümidlərlə baxırıq və əldə edilmiş uğurlar bu ümidləri daha da gücləndirir.

Bir daha, əziz dostlar, sizi sərginin və konfransın açılışı münasibətilə təbrik edirəm. Sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SERBİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Serbiyaya rəsmi səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

BELQRADIN "NİKOLA TESLA" HAVA LİMANINDA QARŞILANMA

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Serbiya Respublikasına rəsmi səfərə gəlmişdir.

Belqradın "Nikola Tesla" hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Serbiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Xüsusi müxbirimiz xəbər verir ki, Serbiya Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı "Serbiya" Palatasının qarşısında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya Prezidenti Boris Tadiç Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Serbiyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Serbiyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Boris Tadiçə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN-SERBİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Xüsusi müxbirimiz xəbər verir ki, Prezident İlham Əliyevin və Prezident Boris Tadiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Serbiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın və Serbiyanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vuk Yeremiç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycanın və Serbiyanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vuk Yeremiç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın iqtisadiyyat və regionların inkişafı naziri Neboyşa Çiriç imzaladılar.

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Serbiya Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın təhsil və elm naziri Jarko Obradoviç imzaladılar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Serbiya Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın

gənclər və idman naziri xanım Snejana Samarjiç-Markoviç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov və Serbiyanın ətraf mühit, mədən sənayesi və ərazi planlaşdırması naziri Oliver Duliç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın mədəniyyət, mətbuat və informasiya cəmiyyəti naziri Predraq Markoviç imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Serbiya Respublikasının Kənd Təsərrüfatı, Ticarət, Meşəçilik və Su Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın kənd təsərrüfatı, ticarət, meşəçilik və su təsərrüfatı naziri Duşan Petroviç imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Serbiya Respublikasının İqtisadiyyat və Regional İnkişaf Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın iqtisadiyyat və regionların inkişafı naziri Neboyşa Çiriç imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Serbiya Respublikasının İnfrastruktur və Energetika Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın infrastruktur və energetika naziri Milutin Mrkoniç imzaladılar.

"Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Serbiya Respublikasının İnfrastruktur və Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Serbiyanın infrastruktur və energetika naziri Milutin Mrkoniç imzaladılar.

"Azərbaycan Respublikasının Mülki Aviasiya Administrasiyası və Serbiya Respublikasının Mülki Aviasiya Direktorluğu arasında Anlaşma Memorandumu"nu "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və Serbiyanın mülki aviasiya direktoru Neboyşa Starçeviç imzaladılar.

AZƏRBAYCAN VƏ SERBİYA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Xüsusi müxbirimiz xəbər verir ki, sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç mətbuata bəyanatlarla çıxış etmişlər.

SERBİYA PREZİDENTİ BORİS TADİÇİN BƏYANATI

-Mətbuat konfransına gəldiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. İndi isə böyük məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti hörmətli dostum cənab İlham Əliyev ilə mənim görüşüm baş tutdu. Ölkələrimiz arasında möv-

cud olan bir çox məsələləri müzakirə etdik. Biz, eyni zamanda, bu gün bir çox sənədi imzaladıq. Bu, əslində bizim ölkələrimiz - Serbiya ilə Azərbaycan arasında bir çox sahədə əlaqələrin təzahürüdür. Biz görürük ki, siyasi münasibətlərimiz strateji səviyyəyə qalxır.

Xanımlar və cənablar, Serbiya və Azərbaycan bu gün eyni vəzifələr və məsələlər qarşısındadır. Ölkələrimiz arasında oxşarlıqlar da vardır. Söhbət burada Dağlıq Qarabağ və Kosovo məsələlərindən gedir. Serbiya Respublikası Azərbaycanın hər hansı bir hissəyə bölünməsinin tərəfdarı deyil, qətiyyən bu fikirdə deyil və Azərbaycanı BMT-nin üzvü kimi öz ərazi bütövlüyü çərçivəsində tanıyır. Əslində bu, bizim mətbuat konfransında bəyanatımızın əsas hissəsidir. Mən, eyni zamanda, cənab Prezidentə təşəkkürümü bildirdim. Cənab Prezidentin Kosovo məsələsində tutduğu mövqe ilə bağlı təşəkkürümü bildirdim.

Biz, eyni zamanda, qeyd etdik ki, Azərbaycan Serbiyanın ərazi bütövlüyünü və Serbiya isə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu prinsiplər hesab edirik ki, beynəlxalq hüququn vacib, təməl prinsipləridir. Əslində bu, ölkələrimiz üçün də çox mühüm bir məsələdir.

Biz, eyni zamanda, bir çox digər sahələrdə əməkdaşlığımızı müzakirə etdik. Biz bu gün müxtəlif sahələrə aid sənədləri imzaladıq. Lakin hesab edirik ki, iqtisadiyyat, energetika sahələrində əməkdaşlığımızı daha da dərinləşdirməliyik. Azərbaycan bu gün böyük həcmdə neft və qaz hasil edir. Azərbaycanın bu sahədə mövqeləri qlobal səviyyədə güclənir və Azərbaycan böyük layihələrə imza atır.

Əslində Gürcüstan, Rumıniya və Azərbaycan bir mühüm layihə üzərində işləyir. Çox ümid edirik ki, Macarıstan da bu yaxınlarda həmin layihəyə qoşulacaq və bu, böyük bir qaz layihəsi olacaqdır. Ümid edirəm ki, bir neçə il sonra bu, artıq reallığa çevriləcəkdir. Serbiyanın bu məsələdə strateji maraqları vardır. Serbiya bu layihəyə qoşulmaq istəyir və cənab Prezidentlə mən bu məsələni müzakirə etdik. İndi bir daha iradəmizi bildirdik ki, biz bu layihəyə qoşulmaq istəyirik. Serbiya qaz təchizatını şaxələndirmək fikrindədir və Azərbaycan əslində bizim çox gözəl, perspektivli tərəfdaşlarımızdan biridir.

Biz əməkdaşlığımızın digər sahələrini müzakirə etdik. Energetika, tikinti, terminallar, sıxılmış maye qaz sahələrini nəzərdən keçirdik. Biz hesab edirik ki, qazın saxlanılması anbarlarının tikintisində əməkdaşlıq edə bilərik. Əslində bu, regionumuz üçün çox vacibdir, xüsusən də qış mövsümündə. Hesab edirik ki, Azərbaycanla xüsusi əməkdaşlığımız olmalıdır. Çünki biz görürük ki, bütün dünyada enerji problemləri üzə çıxır. Nüvə enerjisi ilə bağlı bəzi qəzalar baş verir. Buna görə də, ümumiyyətlə, Avropa üçün daha çox qaz vacibdir, nəinki nüvə enerjisi. Biz belə hesab edirik.

Ona görə Azərbaycanın bu sahədəki addımlarının vacibliyi get-gedə artır. Bununla bağlı mən cənab Prezidentə təşəkkürümü bildirirəm və onu təbrik edirəm ki, əslində Azərbaycan bu sahədə - qazın hasilatı sahəsində böyük addımlar atmışdır və bu, ölkənin iqtisadiyyatının inkişafına kömək etmişdir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir. Azərbaycan, həmçinin ön cərgələrdə gedən ölkədir ki, regionda öz mövqeyini tutur, öz mədəni irsini, özünəməxsusluğunu qoruyur. Biz nəinki energetika, bir çox digər iqtisadi sahələrdə də əməkdaşlıq edirik.

Əməkdaşlığımızın sahələrindən biri mədəniyyət sahəsində mübadilələrdir. Mən cənab Prezidentə təşəkkürümü bildirirəm ki, Belqradda mədəniyyət ocaqlarının tikintisi ilə bağlı ayrılan maliyyə yardımı da mühüm əhəmiyyət kəsb edir. Biz xüsusi bir yanaşmadan istifadə edərək ətraf mühitin qorunmasına da xüsusi diqqət yetiririk. Gələcəkdə bununla bağlı bir çox nəticələr əldə edə bilərik. Biz, eyni zamanda, infrastruktur sahəsində əməkdaşlığımızı da müzakirə etdik. Azərbaycan şirkətləri olduqca tanınan şirkətlərdir. Onlar bir çox ölkələrdə yollar çəkirlər, körpülərin tikintisi ilə məşğuldurlar.

Azərbaycan infrastrukturunu inkişaf etdirir və bu baxımdan gələcəkdə bir çox imkanlar vardır. Bunu nəzərə alaraq belə bir fikrə gəldik ki, Azərbaycan şirkəti ilə birgə bizim şirkətlər Serbiyada dəmir yolu xəttinin tikintisi ilə məşğul olsunlar. Bizim, ümumiyyətlə, fikrimiz var ki, Çindən Xəzər dənizi regionu vasitəsilə, Azərbaycan vasitəsilə Avropaya belə bir ümumi çıxış, marşrut təmin edilsin. Biz bilirik ki, Balkan regionu olduqca böyük strateji əhəmiyyətə malikdir. Azərbaycan isə Qafqaz regionunda strateji əhəmiyyətə malikdir. Hesab edirik ki, Çin və Avropa ilə birbaşa əlaqələr yaradılsa, bu, daha qlobal əhəmiyyətə malik ola bilər.

Biz, eyni zamanda, səhiyyə sahəsinə də toxunduq. Biz müdafiə sahəsində əməkdaşlıq məsələlərini nəzərdən keçirdik. Əslində elə bir iqtisadi sahə qalmadı ki, biz onu nəzərdən keçirməyək. Biz bu danışıqlarımızdan çox məmnunuq. Biz imzalanmış sənədlərdən olduqca şadıq. Hökumətlərimiz arasında bu addımlar artıq atıldı. Hesab edirik ki, bu anlaşma çox gözəldir. Atdığımız bu addımlar hətta bizi onilliklərə doğru aparan bir addımlardır. Azərbaycan ilə Serbiya arasında xüsusi dostluq və əməkdaşlıq əlaqələri mövcuddur.

Sonda mən bir daha əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə, xüsusən də mədəni sahədə verilmiş yardıma görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Çünki biz əməkdaşlığımızın bu aspektini nəzərdən keçirdik, müzakirə etdik. Əslində bu məsələ uzun perspektivi olan məsələdir. Biz Bakıda və Belqradda mədəniyyət mövzusunda seminarın keçirilməsi məsələsini də müzakirə etdik.

Cənab Prezident Əliyev, Serbiyaya xoş gəlmisiniz. Özünüzü burada öz evinizdəki kimi hiss edin. Necə ki, mən Bakıya səfərim zamanı özümü öz evimdə hiss etdim. Bir daha çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident, çox sağ olun!

İlk növbədə, cənab Prezident, Sizə məni gözəl ölkənizə dəvət etdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Serbiyada olmağımdan çox məmnunam. Çox şadam ki, iki ölkə arasında münasibətlər çox sürətlə inkişaf edir. Münasibətlərimiz bütün dövrlərdə yüksək səviyyədə olub. Ancaq qeyd etməliyəm ki, son bir neçə il ərzində bu münasibətlər daha da dinamik və intensiv xarakter daşıyır. Cənab Prezident, Sizin keçən il Azərbaycana səfəriniz və səfərin gözəl nəticələri bu münasibətlərin inkişafına güclü təkan vermişdir. Mənim bugünkü səfərim onu göstərir ki, aramızda güclənən siyasi dialoq doğrudan da strateji xarakter daşıyır və biz ikitərəfli münasibətlərə məhz bu nöqteyi-nəzərdən yanaşırıq.

Əlaqələrimiz çoxşaxəlidir və cənab Prezident, Siz çıxışınızda bu gün apardığımız danışıqlar haqqında məlumat vermisiniz. Əlavə etmək istəyirəm ki, biz doğrudan da bu münasibətlərə çox böyük diqqət göstəririk. Bu münasibətlər bizim üçün çox önəmlidir. Biz istəyirik ki, bütün sahələrdə ikitərəfli formatda əməkdaşlıq daha da dərinləşsin. Eyni zamanda, münasibətlərimizin regional əməkdaşlıq meyillərinin gücləndirilməsinə də çox müsbət təsiri vardır. Balkan regionunu Xəzər və Qafqaz regionları ilə birləşdirə biləcək kifayət qədər layihələr vardır. Biz bu gün bu layihələr haqqında geniş fikir mübadiləsi aparmışıq və bizdə heç bir fikir ayrılığı yoxdur.

Siyasi əlaqələrimizin inkişafı üçün beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizi davam etdirəcəyik. Bildiyiniz kimi, ölkələrimiz separatizmdən əziyyət çəkən ölkələrdir. Bizim ərazi bütövlüyümüz pozulubdur və əfsuslar olsun ki, bu ədalətsizlik uzun illərdir davam edir. Biz Serbiyanın ərazi bütövlüyünü tanıyırıq və üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Serbiyanın ərazi bütövlüyünü daim müdafiə edəcəyik.

Biz hesab edirik ki, heç bir ölkənin beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri o ölkənin razılığı olmadan dəyişdirilə bilməz. Beynəlxalq hüquq normaları bütün hallarda üstünlük təşkil etməlidir və bu, bizim prinsipial mövqeyimizdir, biz bu mövqedən bir addım da geri atmayacağıq.

Eyni zamanda, biz Serbiya hökumətinə və rəhbərliyinə minnətdarlığımızı bildiririk ki, Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Serbiya daim ədalətli mövqe nümayiş etdirib. Bu mövqe beynəlxalq təşkilatlarda, xüsusilə BMT-nin Baş Məclisində keçirilən səsvermə zamani da özünü göstərmişdir. Bu mövqeyə görə biz Sizə minnətdarıq.

Bizi birləşdirən təkcə ağrılarımız, dərdlərimiz, problemlərimiz deyildir. Bizi birləşdirən hər iki ölkədə olan nikbinlik əhval-ruhiyyəsidir. Biz tam əminik ki, ölkələrimizin gələcəyi parlaq olacaqdır. Hazırda bizi incidən, narahat edən problemləri həll edəcəyik, haqq-ədalət öz yerini tutacaq və əminəm ki, ölkələrimizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Bu gün, cənab Prezident, dediyiniz kimi, biz geniş fikir mübadiləsi aparmışıq və doğrudan da ikitərəfli münasibətlərimizin gündəliyi kifayət qədər genişdir. Biz Serbiyanın AGRİ layihəsinə qoşulmaq təşəbbüslərini böyük məmnuniyyətlə alqışlayırıq. Bildiyiniz kimi, bu layihə bu yaxınlarda müzakirə mövzusuna çevrilmişdir və birinci sammit Bakıda keçirilmişdir. Hazırda AGRİ layihəsi üzrə araşdırmalar aparılır, texniki-iqtisadi əsaslandırma hazırlanır. Biz çox istərdik ki, Serbiya da bu layihəyə qoşulsun. Nəzərə alsaq ki, Azərbaycanın zəngin karbohidrogen ehtiyatları hazırda müxtəlif bazarlara nəql edilir və bizim üçün yeni bazarlar çox maraqlıdır. Biz ümid edirik ki, zəngin qaz potensialımızı maksimum dərəcədə reallaşdıra bilərik.

Hazırda Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrə bərabərdir. Ancaq bu, çox təvazökar rəqəmdir. Proqnoz isə ondan ən azı iki dəfə çoxdur. Bunu nəzərə alaraq, Avropa və başqa bazarlar üçün bizim qazımız ən azı yüz il xidmət göstərəcəkdir. Bizə yeni bazarlar, Avropadakı istehlakçılara isə yeni mənbələr lazımdır. Şaxələndirmə məsələləri həm istehsalçılar, həm də istehlakçılar üçün eyni dərəcədə önəmlidir. Ona görə burada bizim maraqlarımız üst-üstə düşür.

Bütövlükdə Azərbaycan enerji təhlükəsizliyi məsələlərində fəal rol oynayır. Ölkəmiz

ilk dəfə olaraq Xəzər dənizinin zəngin ehtiyatlarını dünya bazarlarına nəql edə bilmişdir. Hazırda Azərbaycanı dünya bazarları ilə birləşdirən 7 neft və qaz kəməri vardır ki, onların hamısı işlək vəziyyətdədir. Bizim neftimiz, qazımız müxtəlif istiqamətlərlə dünya bazarlarına nəql edilir. Biz çox istərdik ki, Serbiyanı Azərbaycan ilə, o cümlədən enerji sahəsində bağlayan, birləşdirən əməkdaşlıq olsun.

Eyni zamanda, biz bu gün digər layihələri də müzakirə etdik. Böyük dəmir yolunun - Yeni İpək Yolunun bərpası layihəsi icra edilir. Ümid edirəm ki, gələn ilin sonuna qədər Azərbaycanı, Gürcüstanı, Türkiyəni birləşdirən yeni dəmir yolu istismara veriləcəkdir. Bu, eyni zamanda, Asiyanı Avropa ilə birləşdirən bir dəmir yolu olacaqdır. Bu dəmir yolunun üzərində yerləşən bütün ölkələr həmin əməkdaşlıqdan ancaq fayda götürəcəklər. Beləliklə, regional əməkdaşlıq daha da böyük həcmdə öz həllini tapa bilər.

Biz, eyni zamanda, Serbiya rəhbərliyinə minnətdarıq ki, Azərbaycan şirkətlərinə onların münasibəti çox müsbətdir. İndi Azərbaycanda müasir, güclü şirkətlər yaranmışdır və onlar üçün Serbiyada işləmək, iş görmək, kontraktlarda iştirak etmək böyük maraq doğura bilər. Biz bu məsələləri də müzakirə etdik.

Beləliklə, ikitərəfli birgə hökumətlərarası komissiyasının işi çox olacaqdır. Əminəm ki, komissiya tezliklə öz işinə başlayacaqdır. Bu gün müzakirə etdiyimiz məsələlər komissiya tərəfindən baxılıb prezidentlərin diqqətinə təqdim ediləcəkdir.

Bu gün imzalanmış sənədlər, eyni zamanda, onu göstərir ki, niyyətimiz çox yaxşıdır, çox gözəldir. Biz istəyirik ki, bütün sahələrdə əməkdaşlıq edək. Bu əməkdaşlığın təməlində güclü siyasi əlaqələr vardır. Eyni zamanda, bu gün cənab Prezidentlə müzakirə əsnasında eyni fikir söyləmişik ki, insanlararası münasibətlər, humanitar əlaqələr də çox vacibdir. Həm Serbiyada, həm Azərbaycanda dini və milli tolerantlığın dərin kökləri, böyük tarixi vardır. Həm Serbiyada, həm Azərbaycanda müxtəlif dinlərin, müxtəlif xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim nadir təcrübəmizdir. Biz bu təcrübədən istifadə edərək çalışmalıyıq ki, bütün dünyada nə dini, nə milli zəmində heç bir münaqişə, heç bir qarşıdurma olmasın. Serbiya Balkanlarda, Azərbaycan isə Qafqaz və Xəzər hövzəsində bu istiqamətdə səylərini birləşdirərək böyük işlər görə bilər.

Bir sözlə, bugünkü səfərim artıq çox gözəl nəticələrini verməkdədir. Əminəm ki, səfərin nəticələri gözəl olacaq və mənim səfərim münasibətlərimizin inkişafına yeni güclü təkan verəcəkdir. Cənab Prezident, göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram. Serbiya xalqına uğurlar və tərəqqi arzulayıram. Sağ olun.

* * *

İyunun 8-də Azərbaycan Prezidenti İlham Əliyev Serbiyaya rəsmi səfəri çərçivəsində Belqradın Taşmaydan parkının açılış mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı Serbiya Respublikası Milli Assambleyasının sədri xanım Slavitsa Djukiç-Deyanoviç ilə görüşmüşdür.

Prezident İlham Əliyev Serbiyada Azərbaycan səfirliyinin iqamətgahının açılış mərasimində də iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SERBİYA PREZİDENTİ BORİS TADİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 8-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu, yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşməsi baxımından əhəmiyyəti vurğulandı.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Xüsusi müxbirimiz xəbər verir ki, təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Serbiya prezidenti Boris Tadiç Azərbaycanı ölkəsinin mühüm tərəfdaşı adlandırdı. Bildirdi ki, ölkələrimizin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələri möhkəmləndirmələri vacibdir. Serbiya Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir daha öz dövlətinin mövqeyini bəyan etdi.

Prezident Boris Tadiç vurğuladı ki, ölkəsi Azərbaycan şirkətlərinin Serbiyanın nəqliyyat infrastrukturunda və digər sahələrdə iştirakında maraqlıdır. Bu, kənd təsərrüfatı sahəsinə də aid edilə bilər. Serbiya Azərbaycanın nəqliyyat-tranzit imkanlarından istifadə etməkdə də maraqlıdır.

Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, Azərbaycan-Serbiya əlaqələri sürətlə inkişaf edir. "Bu cür görüşlər müxtəlif layihələrin müzakirəsi baxımından vacibdir", - deyən Prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı inamın mövcud olduğunu söylədi. Bildirdi ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir, enerji sahəsində əməkdaşlığın yaxşı perspektivləri vardır.

Dövlətimizin başçısı Kosovo problemi ilə bağlı Azərbaycanın mövqeyini bir daha Serbiya Prezidentinin diqqətinə çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev ümidvar olduğunu bildirdi ki, hökumətlərarası komissiyanın fəaliyyəti əlaqələrimizin daha da inkişafına öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SERBİYA MİLLİ ASSAMBLEYASININ SƏDRİ SLAVİTSA DJUKİÇ-DEYANOVİÇ İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikası Milli Assambleyasının sədri xanım Slavitsa Djukiç-Deyanoviç ilə görüşmüşdür.

Görüşdə qeyd olundu ki, Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Bildirildi ki, səfər çərçivəsində imzalanan sənədlər siyasi və iqtisadi sahədə əlaqələrin gücləndirməsinə xidmət edir və ölkələrimiz beynəlxalq səviyyədə bir-birinin mövqelərini yüksək səviyyədə müdafiə edirlər.

Görüşdə parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərimizin daha da genişlənməsinə yönəldiyi və bu sahədə əməkdaşlığın genişləndirilməsinin zəruri olduğu bildirildi. Qeyd olundu ki, ikitərəfli əlaqələrimiz müxtəlif sahələrdə dinamik inkişaf edir. Bu da ölkələrimizin əməkdaşlığını daha da gücləndirir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELQRADDA TAŞMAYDAN PARKININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 8-də Belqradda Taşmaydan parkının açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısına məlumat verildi ki, Taşmaydan parkı Belqradın Palilula bələdiyyəsinin ərazisində yerləşir. İki min il əvvəl romalılar Belqrad hakimi üçün saray tikmək məqsədi ilə bu ərazidə yerləşən karxanadan daş çıxarırmışlar. Karxananın osmanlılar dövründə də mövcudluğu onun adının yaranmasına səbəb olmuşdur. Osmanlılar dövründə Belqradda inşa olunmuş tikili və divarlar bu karxanadan çıxarılan daşlardan tikilmişdir. Taşmaydanda XIX əsrdə yaşamış bir çox görkəmli serb xadimləri dəfn olunmuşlar. Həmin əsrin sonundan başlayaraq qəbiristanlıq başqa əraziyə köçürülmüş və burada yaşıllıqlar salınmışdır. İndi bu park Belqrad sakinlərinin istirahət üçün ən çox üz tutduqları məkanlardan biridir.

Parkda ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələri ucaldılmışdır. Hazırda dünyanın bir çox ölkəsində ulu öndər Heydər Əliyevin adı əbədiləşdirilmiş, onun adına park və xiyabanlar salınmış, abidələr ucaldılmışdır. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin abidəsinin Taşmaydan parkında ucaldılması ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasına dəlalət etməklə yanaşı, həm də serb xalqının bu dahi şəxsiyyətin xatirəsinə olan ehtiramından xəbər verir.

Azərbaycan və Serbiya prezidentləri parkda rəmzi olaraq ağac əkdilər.

Dövlət başçıları mərasimdə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident.

Hörmətli dostlar, hörmətli xanımlar və cənablar.

Bu gün Serbiya-Azərbaycan əlaqələrinin inkişafında çox gözəl və əlamətdar bir gündür. Bu gün bizim tariximizdə dostluq günü kimi qalacaqdır. Bu gün Belqradın gözəl guşələrindən birində iki xalqın görkəmli şəxsiyyətlərinin şərəfinə abidələr ucaldılıb. Bu dostluq rəmzi əminəm ki, hər iki xalqın qəlbində gözəl əks-səda verəcəkdir. Serb xalqının böyük oğlu, filosof və yazıçı Milorad Paviçin abidəsi, Azərbaycan xalqının böyük

oğlu, dövlət xadimi, müstəqil Azərbaycanın banisi Heydər Əliyevin abidəsi bir-birinin yanında iki qədim xalqın dostluq rəmzinə çevrilib.

Bu gözəl parkın yaradılmasında iştirak etmiş bütün insanlara dərin minnətdarlığımı bildirmək istəyirəm. Serbiya dövlətinin rəhbərliyinə, Belqrad meriyasına və bütün dostlara minnətdaram ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xatirəsinə hörmət göstərilibdir və gözəl abidə ucaldılıbdır.

Bu gün mənim dostum Prezident Tadiç ilə biz çox geniş fikir mübadiləsi apardıq. Serbiya-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün konkret planlar nəzərdə tutulur. Əlaqələrimiz çoxşaxəlidir. Biz siyasi müstəvidə bütün məsələlərə eyni yanaşmadan baxırıq. Ölkələrimizin ərazi bütövlüyü məsələlərinə eyni mövqedən yanaşırıq. Əminəm ki, bizim aramızda gələcəkdə də çox gözəl hadisələr olacaq, əlaqələr daha da güclənəcəkdir.

Sizə məlumat vermək istəyirəm ki, Bakı şəhər meriyası Bakının parklarının birində serb xalqının böyük oğlu, dünya şöhrətli alim Nikola Teslanın abidəsinin ucaldılması haqqında qərar vermişdir. Əminəm ki, yaxın zamanlarda gözəl parkda Nikola Teslanın abidəsi ucaldılacaqdır. Sizin hamınızı o tədbirə dəvət edirəm. Belə hadisələr xalqlarımızı birləşdirir. Biz istəyirik ki, xalqlarımız da bir olsunlar, ölkələrimiz də daim bir-birinin yanında olsunlar.

Bu tarixi gündə Bakı şəhər meriyasının Nikola Teslanın abidəsinin ucaldılması haqqında verdiyi qərarın surətini Sizə təqdim etmək istəyirəm.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyəti başçısının Nikola Teslanın abidəsinin ucaldılması haqqında qərarının surətini Belqrad şəhərinin merinə təqdim etdi.

SERBİYA PREZİDENTİ BORİS TADİÇİN ÇIXIŞI

-Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Hörmətli Belqrad şəhərinin meri.

Əziz dostlar, hörmətli Belqrad şəhərinin sakinləri.

Bu gün bu gözəl parkda bu mərasimdə iştirak etməkdən böyük şərəf və iftixar hissi duyuram. Biz bu gün elə bir tarixi mərasimdə iştirak edirik ki, parkımız artıq yeni görkəm alacaqdır.

Bu gün burada Azərbaycanın və Serbiyanın bayraqları ucaldılıb. Hər iki xalqın tarixində mühüm rol oynamış şəxsiyyətlərin burada abidələri ucaldılıb. Burada müasir Azərbaycanın yaradıcısı, böyük öndər Heydər Əliyevin abidəsi ucaldılıb. Eyni zamanda, Serbiya xalqının böyük oğlu yazıçı Milorad Paviçin heykəli də burada dayanıb. Qeyd etmək istəyirik ki, biz bu işləri əməkdaşlığımız nəticəsində görmüşük və bundan sonra da hər iki ölkə üçün strateji əhəmiyyət daşıyan konkret layihələrin həyata keçirilməsi üzərində

çalışacağıq.

Mən bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi bir daha təbrik etmək istəyirəm. Azərbaycan son illər ərzində çox böyük uğurlar əldə edib və sürətli inkişaf nümayiş etdiribdir. Biz bu böyük nailiyyətlərə həqiqətən sevinirik. Bakı gözəl şəhərdir. Bakı bu gün dünyada mövcud olan ən gözəl paytaxtlar cərgəsinə qoşulub. Bu, bizi çox sevindirir. Bu gün isə biz bu parkda mərasimi açıq elan edərək, həmçinin ölkənizin əldə etdiyi nailiyyətlərə kiçik də olsa töhfəmizi veririk. Biz bundan sonra da arzu edirik ki, hər iki xalqın gələcəyi çox parlaq olsun. Hər iki ölkəyə böyük rifah və inkişaf arzulayırıq. Arzu edirik ki, bundan sonra xüsusən də mədəniyyət sahəsində böyük işlər görərək yeni nəticələr əldə edək və aramızda olan hər hansı fərqləri aradan qaldırmaqla münasibətlərimizi daha sıx edək, daha da möhkəmləndirək.

Bu çox gözəl məkanda bugünkü mərasim olduqca mühüm rəmzi məna daşıyır. İcazə verin, bu park haqqında bir neçə maraqlı faktı Sizin nəzərinizə çatdırım. Bu park paytaxt şəhərimizin lap mərkəzində yerləşir. Digər tərəfdən, dayandığımız bu yerdə idman mərkəzi yaradılıb və eyni zamanda burada hovuz və üzgüçülük seksiyası vardır. Xatirimdədir ki, mən hətta uşaq olarkən həmin üzgüçülük klubuna gedirdim. Daha qədim tariximizdə bu parkda karxana mövcud idi, burada mədən də yerləşirdi. Məhz buna görə də bu parkın adı Taşmaydan adlanır. Bu, məhz türk dilindən götürülmüş bir sözdür və bizim türk mədəniyyəti ilə yaxınlığımızı göstərir. Bizdən sağda Müqəddəs Mark kilsəsi yerləşibdir. Daha sonra Belqradın Hüquqşünaslıq Məktəbinin binası gəlir. Bundan əlavə bizim nəsli və xalqımızı ümumiyyətlə, bu parkla çox emosional hisslər bağlayır. Çünki çoxlarımız öz tariximizi bu parkda yaşatmışıq. Eyni zamanda, burada iki restoran da yerləşir və digər obyektlər mövcuddur. Mən xüsusi qeyd etmək istəyirəm ki, bu gün biz bu addımı ataraq mədəniyyət sahəsindəki əməkdaşlığa artıq töhfə vermiş oluruq. Çünki mədəniyyət sahəsi, bu sahənin inkişafı xalqları bir-birinə daha da yaxınlaşdırır. Biz bu gün bəyan edirik ki, Serbiya Avropadadır. Serbiya müxtəlif xalqlar arasında dözümlülüyü ilə fəxr edə bilər. Bu baxımdan, biz hesab edirik ki, əlaqələrimizə mühüm töhfə vermiş oluruq. Bu gün bu mərasimin məhz Taşmaydan parkında keçirilməsi bizim üçün xüsusi əhəmiyyət kəsb edir və biz bundan çox məmnunuq.

Bizim dahi yazıçımız Milorad Paviç "Xəzər" lüğətini tərtib etmişdir. Burada onun əsərlərindən ibarət iki köşk də yerləşdirilib.

Bu parka gələn insanların böyük Azərbaycan xalqı haqqında bir çox məlumatları əldə etmək imkanı olacaqdır. Biz bilirik ki, azərbaycanlılar bu gün dünyanın digər ölkələrində də yaşayırlar. Serblər də, həmçinin dünyanın digər ölkələrində yaşayırlar.

Serbiya çoxmillətli ölkədir, çoxmədəniyyətli ölkədir. Serbiya, həmçinin dinlər və mədəniyyətlər arasında dialoqa öz töhfəsini verir. Məhz bunu nəzərə alaraq, bu gün bu mərasimdə müsəlman icmasının rəhbəri Yusis Bakiç də iştirak edir. Əslində biz onunla tez-tez təmasda oluruq. Bizim mədəniyyət, həmçinin dini məsələlər haqqında səmimi söhbətlərimiz olur. İndi istərdim arzu edəm asudə vaxtım olsun ki, onunla basketbol oynayım. Çünki onun boyu kifayət qədər hündürdür. Ümumiyyətlə, bildiyiniz kimi, Serbiya basketbol sahəsində böyük nəticələr əldə edibdir.

Azərbaycan ilə Serbiya siyasi sahədə əməkdaşlıq edir. Ölkələrimiz, həmçinin beynəlxalq təşkilatlar, BMT çərçivəsində əməkdaşlıq edir. Biz bu əməkdaşlığı çox yüksək

qiymətləndiririk. Bu gün bizim həm iqtisadi, həm mədəni, həm idman sahəsində əməkdaşlığımız mövcuddur. Bəli, idman sahəsində əməkdaşlığımız mövcuddur, lakin bundan da yaxşı ola bilər.

Cənab Prezident, mən Sizə bu mərasimdə iştirakınıza görə dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, xüsusi minnətdarlığımı bildirirəm ki, Siz bu parkın bərpa edilməsinə yardımınızı əsirgəməmisiniz. Hesab edirəm ki, bizi gələcəkdə bir çox nailiyyətlərlə dolu illər gözləyir. Biz bu gün əslində həm Serbiya, həm də Azərbaycan xalqlarını səmimi qəlbdən təbrik edirik.

Sağ olun.

* * *

Sonra Azərbaycan və Serbiya prezidentləri ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət etdilər.

Daha sonra Prezident İlham Əliyev parkda Belqrad ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Sakinlər ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin daha da inkişafına verdiyi töhfələrə görə Prezident İlham Əliyevə minnətdarlıq etdilər.

Parkın açılışı münasibətilə Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər. Konsert böyük maraqla qarşılandı.

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN SERBİYADAKI SƏFİRLİYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 8-də Belqradda Azərbaycan Respublikasının Serbiyadakı səfirliyinin iqamətgahının açılışı olmuşdur.

Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı səfirliyin açılışını bildirən rəmzi lenti kəsdi.

Prezident İlham Əliyev səfirliyin binasında yaradılmış şəraitlə tanış oldu.

Azərbaycanın Serbiyadakı səfiri Eldar Həsənov dövlətimizin başçısına məlumat verdi ki, burada diplomatik korpus nümayəndələrinin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Səfirliyin binasının bütün iş otaqları zəruri avadanlıqla təchiz olunmuşdur. Bu da səfirlikdə işin daha keyfiyyətlə yerinə yetirilməsinə hərtərəfli imkan yaradır.

Prezident İlham Əliyev mərasimdə çıxış etdi.

Bu gün Serbiya-Azərbaycan əlaqələrinin inkişafında çox əlamətdar və tarixi bir gündür, - deyən dövlətimizin başçısı bildirdi ki, gün ərzində keçirilən bir neçə mühüm və əlamətdar tədbir bunu söyləməyə əsas verir. Taşmaydan parkının iki xalqın dostluq rəmzinə çevriləcəyini deyən Prezident İlham Əliyev səfər çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu. Azərbaycan-Serbiya əlaqələri uğurla inkişaf edir və bu əlaqələr bütün sahələri əhatə edir, - deyən dövlətimizin başçısı ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, bundan sonra Azərbaycan beynəlxalq təşkilatlarda Serbiyanın yanında olacaqdır. Hər iki ölkənin siyasi rəhbərliyi tərəfindən ərazi bütövlü-

yü məsələsinə dair mühüm bəyanatların verildiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, səfər çərçivəsində iqtisadiyyat, enerji sahələrində perspektivlər barədə də fikir mübadiləsi aparıldı və müzakirə olunan məsələlərin heç biri ilə bağlı fikir ayrılığı yoxdur.

Prezident İlham Əliyev dedi:

-Mən tam əminəm ki, bu gün bizim strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlərimiz artıq müttəfiqlik səviyyəsinə qalxır.

İki xalqın görkəmli şəxsiyyətlərinin xatirəsinə olan qarşılıqlı hörmət - ulu öndər Heydər Əliyevin və serb xalqının böyük oğlu Milorad Paviçin abidələrinin ucaldılması bir daha münasibətlərimizin nə qədər səmimi olmasının təzahürüdür. Bu gün Taşmaydan parkındakı mərasimdə mən Belqrad şəhərinin merinə Bakı Şəhər İcra Hakimiyyətinin başçısının sərəncamını təqdim etdim. O sərəncamda deyilir ki, Bakı şəhərinin parklarının birinə serb xalqının görkəmli şəxsiyyəti, dünya şöhrətli alim Nikola Teslanın adı veriləcək və o parkda Nikola Teslanın şərəfinə abidə ucaldılacaqdır.

Bir sözlə, əminəm ki, bu gün yaddaşımızda gözəl gün kimi qalacaq, xüsusilə nəzərə alsaq ki, artıq Serbiyada Azərbaycan dövlətinin bir parçası da mövcuddur. Bizim səfirliyimiz əminəm ki, fəal işləyəcək və iki ölkə arasındakı münasibətlərin inkişafı üçün dəyərli töhfəsini verəcəkdir. Deyə bilərəm, mən və əminəm ki, mənimlə bərabər buraya gəlmiş nümayəndə heyətinin üzvləri özümüzü Bakıdakı kimi hiss edirik. Bizə göstərilən qonaqpərvərliyə və xoş, səmimi münasibətə görə mən Serbiya rəhbərliyinə, Serbiya xalqına və bütün dostlara bir daha minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm.

Sağ olun.

* * *

Mərasimdə iştirak edən Serbiyanın xarici işlər naziri Vuk Yeremiç bu tədbirdə iştirak etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Azərbaycan hər zaman beynəlxalq təşkilatlarda Serbiyanı dəstəkləyir və ölkələrimizdə səfirliklərin açılması ikitərəfli əməkdaşlığımıza mühüm töhfələr verəcəkdir.

Ölkəmizin Serbiyadakı səfiri Eldar Həsənov Prezident İlham Əliyevə Azərbaycanın Serbiyadakı diplomatik missiyasının fəaliyyətinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdi. Səfir bildirdi ki, ulu öndər Heydər Əliyev Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin fəaliyyətinə böyük diqqət yetirirdi. Bu siyasəti Prezident İlham Əliyev də davam etdirir.

Eldar Həsənov Serbiya-Azərbaycan əlaqələrinin dərinləşməsi üçün səfirliyin xətti ilə həyata keçirilən layihələr barədə də məlumat verdi.

Görkəmli serb yazıçısı Milorad Paviçin xanımı Yasmina Mixayloviç həyat yoldaşının xatirəsinə göstərilən diqqət və ehtirama görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Milorad Paviçin xatirəsi Serbiyada olduğu kimi, Azərbaycanda da hər zaman dərin hörmətlə anılacaqdır.

Yasmina Mixayloviç Milorad Paviçin müəllifi olduğu "Xəzər" lüğəti kitabının əlyazmasını Prezident İlham Əliyevə təqdim etdi.

Sonra mərasimə dəvət olunan xarici ölkələrin səfirliklərinin nümayəndələri Prezident İlham Əliyev ilə görüşlərində Azərbaycana beynəlxalq aləmdə böyük marağın olduğunu, ölkəmizin iqtisadi inkişafının dünyada diqqətlə izlənildiyini bildirdilər və Serbiyada Azərbaycan səfirliyinin iqamətgahının açılması münasibətilə dövlətimizin başçısını təbrik etdilər.

SERBİYANIN BAŞ NAZİRİ MİRKO TSVETKOVİÇİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ İŞÇİ NAHAR VERİLMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 8-də Serbiyanın Baş naziri Mirko Tsvetkoviçin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə işçi nahar verilmişdir.

SERBİYANIN NOVİ SAD ŞƏHƏRİNDƏ ÜZEYİR HACIBƏYLİNİN BÜSTÜ AÇILMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç mərasimdə iştirak etmişlər

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç iyunun 9-da Novi Sad şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstünün açılışında iştirak etmişdir.

Serbiyanın Novi Sad Vocvodina muxtar diyarının paytaxtıdır və Belqraddan sonra ölkənin ikinci ən böyük şəhəri sayılır. Novi Sad 1694-cü ildə salınmışdır. XVII-XIX əsrlərdə Serbiya mədəniyyətinin beşiyi olmuş bu şəhəri "Serb Afinası" adlandırırlar. Bu gün Novi Sad Serbiya iqtisadiyyatının sənaye və maliyyə, ölkənin əsas mədəniyyət mərkəzlərindən biridir. Burada Serbiyanın ən qədim mədəniyyət, elm mərkəzləri, muzeylər, teatrlar yerləşir. Təsadüfi deyildir ki, Serbiyanın ilk teatrı 1861-ci ildə bu şəhərdə fəaliyyətə başlamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYA PREZİDENTİ BORİS TADİÇ İLƏ İŞÇİ NAHAR ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Serbiya Respublikasının Prezidenti Boris Tadiç ilə işçi nahar etmişdir.

SƏFƏR BAŞA ÇATDI

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri başa çatmışdır.

Belqradın "Nikola Tesla" hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Serbiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

"JOZE PUÇNİK" HAVA LİMANINDA QARŞILANMA

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Sloveniya Respublikasına rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Lyublyananın "Joze Puçnik" beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Sloveniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da Sloveniya Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Brdo qəsrinin önündə Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sloveniya Prezidenti Danilo Türk Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Sloveniyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Sloveniyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Danilo Türkə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN TƏKBƏTƏK GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Sloveniya Respublikasının Prezidenti Danilo Türkün təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Sloveniya Prezidenti Danilo Türkün Azərbaycana, Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniyaya səfərlərinin əlaqələrimizin inkişafının genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Bildirildi ki, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensial vardır.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Sloveniya Prezidenti Danilo Türk qarşılıqlı olaraq dövlət hədiyyələrini təqdim etdilər.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Sloveniya Respublikasının Prezidenti Danilo Türkün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan ilə Sloveniya arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.

Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundular.

Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın Avropa İttifaqı çərçivəsində əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətinin qeyd olunduğu görüşdə "Şərq tərəfdaşlığı" Proqramının önəmindən danışıldı.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-SLOVENİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da Prezident İlham Əliyevin və Prezident Danilo Türkün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Sloveniya sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Sloveniya Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Sloveniyanın xarici işlər naziri Samuel Jboqar imzaladılar.

"Sloveniya Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Sloveniyanın iqtisadiyyat naziri xanım Darya Radiç imzaladılar.

AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün birgə mətbuat konfransı olmuşdur.

Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYA MİLLİ ASSAMBLEYASININ PREZİDENTİ PAVEL QANTAR İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniya Respublikası Milli Assambleyasının prezidenti Pavel Qantar ilə görüşmüşdür.

Prezident İlham Əliyev Sloveniya Respublikasının Milli Assambleyasının Xatirə kitabını imzaladı.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. İqtisadi sahədə əlaqələrimizin inkişafı üçün yaxşı imkanların mövcud olduğu bildirildi.

Parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin genişlənməsi baxımından önəmli olduğunun qeyd edildiyi görüşdə Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın beynəlxalq təşkilatlar çərçivəsində də uğurla inkişaf etdiyi bildirildi.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniyaya səfərinin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LYUBLYANA ŞƏHƏR MERİYASINDA OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Sloveniyaya rəsmi səfəri çərçivəsində iyunun 9-da Lyublyana şəhər meriyasında olmuşdur.

Dövlətimizin başçısını meriyanın qarşısında Lyublyananın meri Zoran Yankoviç qarşıladı.

Z.Yankoviç Prezident İlham Əliyevi salamlayaraq yeddi il əvvəl iş adamı qismində Bakıda olduğunu məmnunluqla xatırladı. O, Bakı ilə Lyublyana arasında əməkdaşlığın daha da inkişafı üçün çalışacağını bildirdi.

Azərbaycanı "Eurovision-2011" mahnı müsabiqəsində qazandığı qələbəyə görə təbrik edən Lyublyana şəhərinin meri gələn il Sloveniyanın bir çox incəsənət adamının Azərbaycana səfər edəcəyini qeyd etdi.

Dövlətimizin başçısı Lyublyana şəhərinin inkişafı ilə bağlı görülən işləri yüksək qiymətləndirdiyini bildirdi.

Prezident İlham Əliyev son bir neçə il ərzində Lyublyananın daha da müasirləşdiyini, abadlaşdığını və çox gözəl Avropa şəhərinə çevrildiyini vurğulayaraq dedi:

-Mən görürəm ki, həm şəhər rəhbərliyi, eyni zamanda, sakinlər öz şəhərlərinə çox böyük məhəbbətlə yanaşırlar. Burada abadlıq, quruculuq və bərpa işləri böyük zövqlə aparılmışdır. Bütövlükdə Sloveniya-Azərbaycan əlaqələrinin inkişafı üçün bu gün çox əlamətdar bir gündür. Bu gün keçirdiyim görüşlər, apardığım danışıqlar və sabah keçiriləcək tədbirlər ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır. Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və bu əlaqələrimiz gündən-günə güclənir. Eyni zamanda, sabah keçiriləcək birgə biznes forum iqtisadi sahədə də əlaqələrin inkişafı üçün çox təsirli olacaqdır. Çünki qarşılıqlı maraq çox böyükdür və birgə iş görmək üçün bütün imkanlar vardır. Eyni zamanda, parlamentlərarası əlaqələr də yaxşı səviyyədədir. Mən burada köhnə dostumu görməkdən də çox məmnunam. Biz Strasburqda birlikdə işləmişik və çox yaxşı günlərimiz, yaxşı söhbətlərimiz olub. Azərbaycan artıq 10 ildir ki, Avropa Şurasının üzvüdür. Amma görüşlərimizin baş tutduğu o vaxt biz Avropa Şurasına təzə üzv olmuşduq və əlbəttə ki, bizim üçün hər şey orada təzə idi. Biz istəyirdik ki, tezliklə Avropa Şurasına inteqrasiya edək, öz yerimizi tutaq və cənab Yankoviç də bizə çox kömək göstərmişdi.

"Eurovision-2011" mahnı müsabiqəsində Azərbaycan gənclərinin qazandıqları qələbə münasibətilə təbrikinizə görə təşəkkür edirəm. Bir ildən sonra sloveniyalı qonaqları qəbul etməyə hazırıq, o cümlədən sizi, cənab mer. Amma ümid edirəm ki, siz ondan əvvəl Bakıya gələcəksiniz və biz əlaqələrimizi davam etdirəcəyik. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

Dövlətimizin başçısı meriyanın xatirə kitabına ürək sözlərini yazdı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Xəbər verdiyimiz kimi, iyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri çərçivəsində Prezident Danilo Türkün adından dövlətimizin başçısının şərəfinə rəsmi ziyafət verilmişdir.

Prezidentlər rəsmi ziyafətdə çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyevi ölkəsində görməkdən məmnun olduğunu bildirən Sloveniya Prezidenti Danilo TÜRK bu səfərin ölkələrimiz arasında əməkdaşlığı bütün səviyyələrdə genişləndirmək qətiyyətini sübut etdiyini vurğulayaraq dedi:

- Tarixən dostluğumuz və qarşılıqlı anlaşmamız ölkələrimizin oxşar addımlarına əsaslanırdı. İyirmi il öncə bir-birindən asılı olmayan qaydada sloveniyalılar və azərbaycanlılar müstəqillik qərarını verdilər. Qətiyyətli və fəal iş sayəsində biz yeni mərhələyə qədəm qoyduq. Bu gün keçmişimizə nəzər salmaq fürsətimiz var və fərəh hissi ilə bildiririk ki, biz son iyirmi il ərzində bir çox nailiyyətləri əldə etmişik. Tarix boyu sloveniyalılar və azərbaycanlılar arasında əlaqələr formalaşmışdır. Sloveniyalılar İkinci Dünya müharibəsi zamanı ərazimizdə milli azadlıq mübarizəsində Azərbaycan döyüşçülərinin cəsarətini yüksək qiymətləndirirlər. Onların sırasında öz şücaəti və qəhrəmanlığı, eləcə də gücü, fəal işi və təvazökarlığı ilə tanınan bir nəfər də var idi - Milli Qəhrəmanımız Mehdi Hüseynzadə - Mixaylo. Onun qəhrəmanlıq tarixçəsini yaddan çıxarmamaq məqsədi ilə silahdaşı Çiril Zupaniç həmin hadisələri kitabında yazaraq onları əbədiləşdirmişdir. Sloveniya ilə Azərbaycan arasında yenicə yaradılmış Dostluq Cəmiyyətinin məqsədi gələcəkdə Mixaylo haqqında məlumat və bilgiləri yaymaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYANIN BAŞ NAZİRİ BORUT PAHOR İLƏ GÖRÜŞÜ

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Borut Pahor ilə görüşmüşdür.

Dövlətimizin başçısını Baş nazir Borut Pahor qarşıladı.

Görüşdə ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, ikitərəfli münasibətlərimizin Azərbaycan-Avropa İttifaqı çərçivəsində önəmi vurğulandı.

Prezident İlham Əliyevin Sloveniyaya səfərinin ölkələrimiz arasında iqtisadiyyatın konkret sahələrinin perspektivlərinin nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığının qeyd edildiyi görüşdə Azərbaycan-Sloveniya biznes forumunun əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN-SLOVENİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

İyunun 10-da Lyublyanada Azərbaycan-Sloveniya biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Sloveniya Prezidenti Danilo Türk biznes forumda iştirak etmişlər.

Forum iştirakçıları Azərbaycanın və Sloveniyanın dövlət başçılarını hərarətlə qarşıladılar.

Biznes forumda hər iki ölkədən 200-ə yaxın iş adamı iştirak etmişdir.

Forumun keçirilməsindən məqsəd Azərbaycan və Sloveniya iş adamları arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığı inkişaf etdirmək, hər iki ölkənin iqtisadi potensialından yararlanaraq, ticarət dövriyyəsinin səviyyəsini artırmaqdır.

Dövlət başçıları forumda çıxış etdilər.

SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN ÇIXIŞI

-Hörmətli Prezident İlham Əliyev, əziz dostum!

Hörmətli qonaqlar, hörmətli dostlar!

Bu gün Azərbaycan-Sloveniya biznes forumunda çıxış etməkdən olduqca məmnunam. Əslində, prezidentliyim dövründə ikinci dəfədir ki, belə mötəbər iclasda çıxış etmək fürsəti mənə nəsib olur.

İki il əvvəl mən bir qrup sloveniyalı iş adamı ilə Bakıya səfər etdim. Bakıda işgüzar dairələrlə çox canlı görüşümüz oldu. Həmin vaxt biz lap başlanğıcdan olduqca perspektivli, yeni, mühüm təşəbbüsləri müzakirə etdik. Onlardan bəziləri artıq öz bəhrəsini vermişdir. Həmin addım əslində başlanğıc nöqtəsi oldu. Qeyd etmək istəyirəm ki, informasiya texnologiyaları və sığorta sahələrində əldə edilən irəliləyiş, bu yaxınlarda başlanmış su elektrik stansiyalarının tikintisi layihəsi bizi həvəsləndirdi. "Korona" şirkəti Azərbaycandakı tərəfdaşları ilə artıq texniki əsaslandırma işlərinə başlamışdır.

Bu, bir daha onu göstərir ki, biz tərəqqini əldə etmişik. Həmin tərəqqi o faktla üst-üstə düşür ki, ticarət əlaqələrimizdə də böyük irəliləyişə nail olmuşuq. Ticarətimiz artır. Ötən il bu sahədəki artım 10 faiz olmuşdur. Bu, yaxşı haldır, çünki 2010-cu il hələ də böhran ili idi. Ümid edirik, ötən il qlobal böhranın son ili oldu. Həmin vaxtdan etibarən gözəçarpan artım müşahidə etməyə başladıq. Burada dinlədiklərimiz göstərir ki, hər iki ölkənin şirkətləri arasında əməkdaşlıq ideyaları forumda səsləndirilir. Bunun üçün möhkəm bünövrə vardır. Planlarımız və ümidlərimiz böyükdür.

Lakin mən, həmçinin bir-biri ilə əməkdaşlıq edən iki dost ölkənin - Azərbaycanın və Sloveniyanın həm biznes, həm siyasi dairələri arasında qurulmuş işbirliyi haqqında daha geniş mənada bir neçə kəlmə söyləmək istərdim.

Biz strateji düşünməliyik və uzunmüddətli perspektivlər haqqında danışmalıyıq. Biz bu faktı da nəzərə almalıyıq - Sloveniya Avropa İttifaqının üzvü və Azərbaycan Avropa İttifaqının tərəfdaşı kimi bir çox səylər göstərməlidilər ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin gələcəyi daha dəqiq formada müəyyən edilsin. Hələ ki, bu sa-

hədə konkret təriflər yoxdur.

Biz, Avropa İttifaqında bu haqda az bilirik və bu, Avropa İttifaqının bütün üzvlərinə aiddir. Biz Azərbaycan haqqında bir çox məlumatları öyrənməliyik, ölkənizdəki imkanlarla tanış olmalıyıq. Bu, əhəmiyyətli və uzunmüddətli məsələdir. Biz tələsməli deyilik. Anlamalıyıq ki, enerji və alternativ enerji mənbələri sahəsində əməkdaşlıqdan başqa, növbəti onilliklər haqqında düşünməliyik. Belə gələcək üçün möhkəm iqtisadi bünövrəni inkişaf etdirməliyik. Məhz bugünkü biznes forum da bu məqsədlərə xidmət edir. Burada hər iki məsələ nəzərdə tutulur: yaranan biznes imkanları və razılaşmalar, həmçinin uzun müddət ərzində bizi lazımi möhkəm əməkdaşlığa doğru aparacaq strategiya.

Sloveniya Avropa İttifaqının üzvləri arasında elə bir ölkə olacaq ki, Siz ona etibarlı dost və maraqları təmin edən tərəf kimi arxalana bilərsiniz. Zənnimcə, Avropa İttifaqının hər bir tərəfdaş ölkəsi lazımi şəkildə qavranılmalıdır və onunla əməkdaşlıq düşünülmüş formada olmalıdır. Əvvəlcədən müəyyən edilmiş modelləri tələsik həyata keçirmək olmaz. Biz yeni modellər üzərində işləməliyik. Ümid edirəm ki, bu biznes forum irəliyə doğru addımların atılmasında uğurlu olacaq və səmimiyyətlə Sizdən nəticələr gözləyirəm. Mən isə, öz növbəmdə, Sizə artıq söz verə bilərəm ki, biz Sloveniyada gəldiyiniz nəticələri çox diqqətlə öyrənəyəcəyik. Uzunmüddətli və möhkəm çərçivənin reallığa çevrilməsi üçün əlimizdən gələni etməyə çalışmalıyıq.

Diqqətinizə görə çox sağ olun. Sizə işinizdə böyük uğurlar arzulayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Xanımlar və cənablar, əziz dostlar!

Əvvəlcə, cənab Prezident, mən gözəl ölkənizə səfər etmək üçün dəvətinizə və göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm. Əslində mən ikinci dəfədir ki, Sizin gözəl ölkənizə səfər edirəm və bir çox dəyişiklikləri görürəm. Bu münasibətlə Sizin hökumətinizi və Lyublyana Şəhər Şurasını aparılmış bir çox abadlıq və şəhər infrastrukturu işlərinə görə təbrik etmək istərdim.

Ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Biz əsl dost və tərəfdaşıq. Bu tərəfdaşlığın artıq yaxşı tarixi və çox perspektivli gələcəyi vardır. Çox şadam ki, biznes dairələrinin iqtisadi əlaqələrin gücləndirilməsinə istiqamətlənmiş birgə səyləri ölkələrimizin Sloveniya ilə Azərbaycan arasında tərəfdaşlığın gülcəndirilməsinə yönəlmiş siyasi kursuna uyğundur. Siyasi münasibətlərimiz çox yaxşıdır. Biz ölkələrimiz arasında yüksək səviyyədə və nazirliklər səviyyəsində mütəmadi qaydada məsləhətləşmələr prosesini davam etdiririk. Bizim, həmçinin biznes təmaslarının da inkişaf etdirilməsi üçün yaxşı potensialımız vardır. Hesab edirəm ki, bu gün keçirilən biznes forum sayəsində nəinki ideyalar, həmçinin praktiki nəticələr əldə olunacaqdır.

Azərbaycanın bu gün nümayiş etdirilən biznes imkanları ölkənin iqtisadi inkişaf sahəsində prioritetlərini, qarşımızda duran çətinlikləri, eləcə də biznes imkanlarını aydın şəkildə göstərəcəkdir. Biz xarici sərmayədarlara açıq ölkəyik və uzun illər ərzində bu istiqamətdə apardığımız siyasət çox müsbət olub. Son 15 il ərzində iqtisadiyyatımıza təx-

minən 100 milyard ABŞ dolları məbləğində sərmayə yatırılmışdır və onların əksər hissəsi qeyri-enerji sektoruna yönəldilmişdir. Mən bunu ona görə deyirəm ki, Azərbaycan neft ölkəsidir, neft-qaz hasilatçısı və ixracatçısıdır. Ölkəmiz bu baxımdan cəlbedicidir. Lakin məqsədimiz iqtisadiyyatı şaxələndirməkdir, Azərbaycanda güclü qeyri-enerji sektorunun və davamlı iqtisadiyyatın yaradılmasıdır.

Hesab edirəm ki, son bir neçə il ərzində iqtisadi inkişaf, liberallaşdırma və biznesin aparılması sahəsində ölkəmizin göstəriciləri məqsədlərimizi aydın şəkildə göstərir. Hətta iqtisadi böhran ilə yadda qalan ən çətin 2008-2009-cu illərdə iqtisadiyyatımız yenə də 14 faiz artmışdır. Həmin il neftin qiymətləri 4-5 dəfə aşağı düşmüşdür. Ümumiyyətlə, son 7 il ərzində ÜDM 3 dəfə artıb, yoxsulluq səviyyəsi 5 dəfə - 49 faizdən 9,1 faizə qədər azaldılmışdır. İşsizliyin səviyyəsi 6 faiz olmuşdur. İnfrastruktura qoyulan sərmayələr və özəl sektora verilən dəstək hazırkı durumu yaratmışdır ki, iqtisadiyyatımız artıq enerji amilindən o qədər də asılı deyildir. Bizim üçün gələcək iqtisadi inkişaf qeyri-enerji sektorunun inkişafı deməkdir, çünki enerji sektorunda bütün əsas hədəflərimizə nail olmuşuq.

Bizim 7 ixrac neft və qaz boru kəmərindən ibarət şaxələndirilmiş şəbəkəmiz vardır. Enerji resurslarımızı müxtəlif istiqamətlərdə ixrac edirik. Avropa İttifaqı ilə gündəliyimizdə olan mühüm məsələlərdən biri enerji təhlükəsizliyidir. Azərbaycan Avropa bazarlarında enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi haqqında mühüm bəyannamə imzalanmışdır. Hazırda fəal və səmərəli iş aparan müvafiq işçi qrupu formalaşdırılmışdır. Ümidvaram ki, gələn illər ərzində Avropa İttifaqı ilə Azərbaycan arasında enerji əməkdaşlığı sahəsində bir çox digər mühüm addımlar atılacaqdır. Bu, inkişafımızın mühüm bir hissəsidir. Əlbəttə, bu, bizim üçün imkanlar açır ki, maliyyə resurslarımızı formalaşdıraq, onları yenidən iqtisadiyyata, təhsilə, sosial infrastruktura və bizim üçün prioritet sahələrə sərmayə kimi yönəldək. Buna görə daxili prioritetlərimizin gündəliyində enerji sektoru böyük rol oynamır. O, əsasən xarici iqtisadi və siyasi münasibətlərdə mühüm əhəmiyyət kəsb edir. Ölkə daxilində əsas diqqət yetirdiyimiz sahə iqtisadiyyatın davamlı inkişafıdır.

Kənd təsərrüfatı və aqrar məhsulların emalı sahəsində yaxşı potensialımız vardır. Turizm sahəsini də qeyd etməliyik. Hazırda biz beynəlxalq turizm istirahət zonaları yaradırıq. Biz bu sahədə yaxşı təcrübəsi olan Sloveniya şirkətlərini ölkəmizdə həmin mühüm layihələrdə iştirak etmək üçün dəvət edirik. Yalnız bu il Bakıda və rayonlarda yeni müasir infrastruktura malik beşulduzlu 6 mehmanxana açılacaqdır. İnformasiya texnologiyaları sahəsi bizim üçün prioritetlərdən biridir. Kosmos sənayesini də inkişaf etdirməyə başlamışıq. Çox şadam ki, bizim Sloveniya şirkətləri ilə apardığımız əməkdaşlığın bir sahəsi də məhz informasiya texnologiyaları sektorudur. Əslində, bu sahədəki əməkdaşlıq Bakıda Prezident Türkün iştirakı ilə keçirilmiş birinci biznes forumda qeyd edilmişdir və biz həmin birgə təşəbbüsə dəstək verdik.

Azərbaycanda informasiya texnologiyalarının inkişafı çox sürətlə gedir. Biz bu sektora böyük diqqət yetiririk. Hazırda ölkə əhalisinin 50 faizi internetdən istifadə edir. Gələn illər ərzində bu sektor bizim üçün daxili iqtisadi prioritetlərimizdə çox mühüm rol oynayacaqdır. İqtisadiyyatın şaxələndirilməsi sərmayələrin cəlb edilməsi deməkdir. Xarici sərmayələrin cəlb edilməsində artıq yaxşı təcrübəmiz vardır. Eyni zamanda, bizim çox

təfərrüatlı dövlət sərmayə proqramımız vardır və həmin proqram, əsasən infrastruktur layihələrini əhatə edir. Hər il biz infrastrukturun inkişaf etdirilməsinə kifayət qədər maliyyə resursları ayırırıq. Mən Sloveniya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirəm. Bugünkü biznes forumun bir hissəsi Azərbaycandakı konkret biznes sərmayə layihələrinin təqdim edilməsinə həsr olunubdur və yekun hesabat hazırlanıb. Fikrimcə, orada bütün zəruri məlumatlar verilib.

Eyni zamanda, hesab edirəm ki, hökumətimiz tərəfindən maliyyələşdiriləcək layihələri də bilmək maraqlı olardı. Həmin layihələrdə Sloveniya şirkətləri podratçı kimi iştirak edə bilər. Onlar böyük sahələri əhatə edir: yolların, elektrik stansiyalarının tikilməsi, içməli suyun təmin edilməsi, kanalizasiya xətlərinin çəkilməsi, xəstəxanaların və məktəblərin inşası. Həmin layihələr həyatımızın bütün sahələrini əhatə edir. Məqsədimiz ən vacib infrastruktur və sosial infrastruktur layihələrini ikinci inkişaf proqramımızın başa çatdığı vaxtda, yəni 2013-cü ildə həyata keçirməkdən ibarətdir. Gələcəkdə isə ölkənin inkişafı və Azərbaycanda iqtisadiyyatın davamlı artımı növbəti iqtisadi islahatlarımızda əldə edəcəyimiz uğurlardan asılı olacaqdır. Bu gün, iqtisadiyyatda liberallaşdırma səviyyəsi çox yüksəkdir.

Hər iki ölkə bu il müstəqilliyin iyirminci ildönümünü qeyd edəcəkdir. Bildirmək istəyirəm ki, Azərbaycan müstəqilliyini bərpa etdiyi vaxt bazar iqtisadiyyatının ÜDM-dəki payı sıfır faiz idi. İndi isə Azərbaycanda ÜDM-in 80 faizdən çoxu özəl sektorda təmin edilir. Belə halda, həmçinin nəzərə almalıyıq ki, ÜDM-i təşkil edən əsas mənbələr və enerji infrastrukturu dövlət nəzarəti altındadır. Bu o deməkdir ki, özəlləşdirmə, liberallaşdırma prosesi, yerli və xarici biznes dairələri üçün yaxşı şəraitin yaradılması işi düzgün istiqamətdə gedir.

Sloveniya bizim üçün bu regionda dost ölkə və mühüm tərəfdaşdır. Eyni zamanda, Avropa İttifaqının üzvü kimi Sloveniyanın bizim regionda rolu və mövqeyi hər zaman müsbət olub. Biz Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətləri daha da yüksək səviyyədə inkişaf etdirmək istəyirik. Bizim üzv dövlətlərlə ikitərəfli qaydada çox gözəl münasibətlərimiz vardır. Hesab edirəm ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin belə bir mühüm inkişaf mərhələsində ən vacib məsələ qarşımızda qoyduğumuz hədəfləri və məqsədləri müəyyən etmək, onlara nail olmaq üçün yol xəritəsini hazırlamaq və qarşılıqlı maraq və hörmətə əsaslanan əsl tərəfdaşlıq münasibətlərini qurmaqdır. Bu baxımdan bu proses uğurla davam edəcəkdir. Biz bu inkişafı dəstəkləyirik və əlimizdən gələni edəcəyik ki, bu növ tərəfdaşlığı quraq.

Regionlarımızın bir-birinə daha da yaxın olması üçün göstərdiyi səylərə görə biz Sloveniya tərəfinə və Prezident Türkə olduqca minnətdarıq. Biz Avropa İttifaqı ilə qonşuyuq və tərəfdaşıq. Tərəfdaşlığımız artacaq, siyasi münasibətlər inkişaf edəcək və əlbəttə ki, enerji təhlükəsizliyi məsələləri, - mən nitqimin əvvəlində bunu qeyd etdim, - daha möhkəm rol oynayacaq, çünki bizim resurslarımız vardır. Avropaya alternativ mənbə lazımdır. Biz artıq müəyyən mənada böyük daşıma infrastrukturuna malikik və bu imkanlar daha da artırılmalı və genişləndirilməlidir. Bu sahədə tərəfdaşlıq qurduqdan sonra o, onilliklər boyu davam edəcəkdir.

Cənab Prezident və hörmətli dostlar, mən sizin hamınıza bizə göstərilmiş qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Mən dünən keçirilmiş danışıqların

nəticələrindən və bu gün imzalanmış sənədlərdən məmnunluğumu bildirirəm. Səfərim davam edir. Əminəm ki, səfər və onun nəticələri münasibətlərimizin gələcək inkişafında mühüm rol oynayacaqdır.

Çox sağ olun.

* * *

Sonra dövlət başçıları Azərbaycan və Sloveniya şirkətlərini təmsil edən iş adamları ilə görüşdülər.

Sloveniyanın biznes dairələrinin nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyev ilə söhbətlərində ölkəmizdə baş verən iqtisadi inkişaf prosesləri, biznes və sərmayə mühiti barədə ətraflı məlumat aldılar.

* * *

Biznes forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər keçirilmiş, əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunmuşdur.

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ DANİLO TÜRK BİRGƏ NAHAR ETMİŞLƏR

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Sloveniya Respublikasının Prezidenti Danilo Türk birgə nahar etmişlər.

SƏFƏR BAŞA ÇATDI

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri başa çatmışdır.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Lyublyananın "Joze Puçnik" beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Sloveniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

* * *

Həmin gün Prezident İlham Əliyev Vətənə qayıtmışdır.

Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

SLOVENİYANIN NOVO QORİTSA ŞƏHƏRİNDƏ SOVET İTTİFAQI QƏHRƏMANI MEHDİ HÜSEYNZADƏNİN MEMORİAL MUZEYİ AÇILMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyev əfsanəvi qəhrəmanın memorialını ziyarət etmiş, muzeylə tanış olmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Sloveniya Respublikasının Pre-

zidenti Danilo Türk iyunun 10-da Novo Qoritsa şəhərində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan xalqının igid oğlu Mehdi Hüseynzadənin memorialını ziyarət etmişlər. Dövlət başçıları əfsanəvi qəhrəmanın memorial muzeyinin açılışında da iştirak etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev qəhrəmanın abidəsi önünə əklil qoydu.

Mehdi Hüseynzadənin memorialı önündə təşkil olunan mərasimdə çıxış edən Novo Qoritsa şəhərinin meri Matej Arkon Azərbaycan Prezidentini bu şəhərdə görməkdən məmnun olduğunu bildirdi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyunun 12-si axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı Türkiyədə keçirilən parlament seçkilərində Ədalət və İnkişaf Partiyasının qazandığı inamlı qələbə münasibətilə təbrik etmiş, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyənin böyük və uğurlu yol keçdiyini qeyd etmiş və bu qələbənin Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın başçılıq etdiyi Ədalət və İnkişaf Partiyasına inamının ifadəsi olduğunu vurğulamışdır.

Türkiyənin Baş naziri səmimi təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Baş naziri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildirmişlər.

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı onun üçün münasib vaxtda ölkəmizə səfərə dəvət etmişdir. Dəvət minnətdarlıqla qəbul edilmişdir.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir, əziz qardaşım,

12 iyun 2011-ci ildə Türkiyə Böyük Millət Məclisinə keçirilən seçkilərdə rəhbərlik etdiyiniz Ədalət və İnkişaf Partiyasının inamlı qələbəsi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Heç şübhə yoxdur ki, bu qələbə hakimiyyətdə olduğunuz illər ərzində gördüyünüz işlərin nəticəsi, xalq tərəfindən fəaliyyətinizə verilən yüksək qiymətdir.

Azərbaycanla Türkiyə arasında əlaqələr dərin tarixi köklər üzərində qurulub və strateji tərəfdaşlıq münasibətləridir. Bu çoxşaxəli münasibətlər siyasi, iqtisadi, enerji, mədəni, humanitar və digər sahələrdə ildən-ilə daha da güclənir və inkişaf edir. Beynəlxalq aləmdə ölkələrimizin daim bir-birini dəstəkləməsi mühüm əhəmiyyət daşıyır və böyük məmnunluq doğurur.

İnanıram ki, Azərbaycanla Türkiyənin dost, qardaş və strateji tərəfdaş münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da genişlənəcək və dərinləşəcəkdir. Fürsətdən istifadə edərək, gələcək əməkdaşlıq imkanlarını birlikdə nəzərdən keçirərək daha da in-

kişaf etdirmək üçün Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm.

Hörmətli cənab Baş nazir, əziz qardaşım, Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı və yeni nailiyyətlər, dost və qardaş Türkiyə xalqına daim firavanlıq və tərəqqi arzulayıram.

Dərin hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2011-ci il.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMAT

İyunun 19-da İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Telefon söhbəti zamanı ikitərəfli əlaqələr, regional təhlükəsizlik və terrorizmlə mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatoliyeviç!

Petrozavodsk yaxınlığında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 iyun 2011-ci il.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatoliyeviç!

Petrozavodsk yaxınlığında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 iyun 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

"Euronews" telekanalına müsahibə

Xüsusi müxbirimiz xəbər verir ki, Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə "Euronews" telekanalına müsahibə vermişdir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı sualları cavablandırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN BİRGƏ MƏTBUAT KONFRANSI

Xəbər verdiyimiz kimi, iyunun 22-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun birgə mətbuat konfransı olmuşdur.

Xose Manuel Barrozu və Prezident İlham Əliyev əvvəlcə mətbuata bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ İŞÇİ NAHARI OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 22-də Brüsseldə Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə işçi naharı olmuşdur.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA

Hörmətli cənab Baş katib,

Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə BMT arasındakı əməkdaşlığa böyük əhəmiyyət verir, başçılıq etdiyiniz təşkilatın mövcud qlobal çağırışlara qarşı mübarizəsini, dünya ictimaiyyətini narahat edən bütün məsələlərdə fəal mövqeyini hər cür dəstəkləyirik.

Ümidvaram ki, "Minilliyin inkişaf məqsədləri"nə, dünyada sülhün, təhlükəsizliyin və əmin-amanlığın bərqərar edilməsinə, insanların hüquq və azadlıqlarının təmin edilməsinə nail olmaq yolunda qarşıda duran vəzifələrin həlli istiqamətində birgə işimizi və səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli cənab Baş katib,

Bir daha Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, məsul işinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

22 iyun 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə Avropa

Parlamentinin sədri Yeji Buzek ilə görüşmüşdür.

Avropa Parlamentinin sədri Yeji Buzek dövlətimizin başçısı İlham Əliyevi səmimiyyətlə qarşıladı.

Prezident İlham Əliyev və Yeji Buzek Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqları önündə xatirə şəkli çəkdirdilər.

Dövlətimizin başçısı Avropa Parlamentinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan ilə Avropa İttifaqı arasında parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi, "Şərq tərəfdaşlığı" Proqramı, Avronest Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə, həmçinin Assosiativ saziş, Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEYİN GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 22-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqının prezidenti Herman Van Rompeyin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, "Şərq tərəfdaşlığı" Proqramı, energetika sahəsində əməkdaşlıq, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin genişləndirilməsi perspektivləri və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLENİN GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə Avropa İttifaqının genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, o cümlədən "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində həyata keçirilən layihələr və atılan addımlar ətrafında fikir mübadiləsi aparıldı.

Əməkdaşlığın genişləndirilməsinin yeni imkanlarının nəzərdən keçirildiyi görüşdə, həmçinin Assosiativ saziş üzrə aparılan danışıqların hazırkı vəziyyəti, viza rejiminin sadələşdirilməsi və digər məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Xəbər verdiyimiz kimi, iyunun 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqının prezidenti Herman Van Rompey görüşdən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEKİN BİRGƏ MƏTBUAT KONFRANSI

Xəbər verdiyimiz kimi, iyunun 22-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Parlamentinin sədri Yeji Buzekin birgə mətbuat konfransı olmuşdur.

Avropa Parlamentinin sədri Yeji Buzek və Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə mətbuata bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "EURONEWS" TELEKANALINA MÜSAHİBƏSİ

Xəbər verdiyimiz kimi, Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə "Euronews" telekanalına müsahibə vermişdir.

AzərTAc həmin müsahibənin mətnini təqdim edir.

- Azərbaycan Prezidenti İlham Əliyev, "Euronews"a xoş gəlmisiniz! Ayın 24-də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mühüm bir görüş keçiriləcəkdir. Bu məsələdə Rusiyanın vasitəçiliyi ilə bağlı nə deyə bilərsiniz?

- Biz Prezident Medvedevin müsbət inkişafa aparan səylərini dəstəkləyirik. Ayın 24-də keçiriləcək görüş, son iki il ərzində keçirilən görüşlərdən biri olacaqdır. Prezident Medvedevin iştirakı tərəflərə razılığa nail olmaqda kömək edir. Buna görə də biz daha çox nikbin əhval-ruhiyyədəyik. Biz düşünürük ki, Ermənistan tərəfi irəliyə mühüm addım atmaq üçün konstruktiv yanaşma və siyasi iradə nümayiş etdirərsə, münaqişə çox tez bir zamanda həll edilə bilər.

- Ermənistan tərəfi, Sizin dediyiniz kimi, konstruktiv görünmək üçün nə etməlidir?

- İlk növbədə, onlar BMT Təhlükəsizlik Şurasının bir neçə il əvvəl qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirməlidirlər. Artıq heç kimə sirr deyil ki, torpaqlarımız 20 ilə yaxındır ki, işğal altındadır. Nəinki Dağlıq Qarabağ, hətta onun ətrafında yerləşən və ermənilərin heç vaxt yaşamadıqları digər 7 rayon da işğal altındadır. Biz etnik təmizləmə siyasətinə və işğala məruz qalmışıq. Bu səbəbdən məsələyə beynəlxalq hüquq normaları baxımından yanaşmaq çox vacibdir. Danışıqlar prosesinə gəldikdə isə, vasitəçilər tərəfindən hər iki tərəfə təklif olunan baza prinsipləri beynəlxalq hüquq normalarına tam cavab verir. Bunlar ölkələrin ərazi bütövlüyü və xalqların özünüidarəetmə hüququ prinsipləridir. Bu prinsiplər bir-birinə zidd deyildir. Onların hər ikisi vacibdir və sülh sazişində əks oluna bilər.

- Erməni qüvvələrinin Dağlıq Qarabağdan çıxarıldığı təqdirdə Azərbaycan tərəfi nə təklif edə bilər? Azərbaycan nəsə təklif edirmi?

- Əslində elə bir şey yoxdur ki, bizə məxsus olmasın və biz onu qaytarmalı olaq. Dağlıq Qarabağ Azərbaycanın tarixi və beynəlxalq səviyyədə tanınan ərazisidir.

- Bəli, amma Ermənistan öz qoşunlarını yalnız müəyyən şərtlər müqabilində çıxarmağa razı ola bilər. Məsələn, mənim güman etdiyim kimi, müqəddəratını təyin etmək, yaxud geniş muxtariyyət veriləcəyi təqdirdə.

- Uzun illərdir ki, bizim mövqeyimiz tamamilə aydındır. Şəxsən mən dəfələrlə açıq şəkildə bəyan etmişəm ki, biz Dağlıq Qarabağda yaşayan insanlara və Dağlıq Qarabağa qayıdanlara dünyada mümkün olan ən geniş muxtariyyəti təmin etməyə hazırıq.

- Bu muxtariyyət sizcə necə olmalıdır?

- Bu, bizim növbəti danışıqlarımızın mövzusu olacaq və hesab edirəm ki, bu, geniş muxtariyyət ola bilər. Düşünürəm ki, Avropada mövcud olan muxtariyyət təcrübəsi bizə kömək edəcəkdir. Belə ki, nəsə yeni düşünüb tapmaq çətin olardı. Bizim üçün isə Avropa ölkələrində yaxşı nümunələr vardır.

- Məsələn?

- Məsələn, İtaliya və Tirol, həmçinin digər yerlər. Həmin yerlərdə mərkəzi hakimiyyət onların xalqlarının həyat şəraitini daha da yaxşılaşdırmaq üçün muxtariyyətlərə və onların maliyyə məsələlərinə çox böyük, bəlkə də daha artıq diqqət yetirirlər. Biz də bu cür edə bilərik. Azərbaycan böyük maliyyə imkanlarına malikdir və bizim üçün Dağlıq Qarabağda ciddi iqtisadi və sosial inkişaf proqramlarına başlamaq heç bir çətinlik yarada bilməz.

- Ermənistanın Azərbaycanın ehtiyatlarına ehtiyacı varmı? Xüsusilə söhbət xammaldan gedirsə?

- Onların nəyə ehtiyacı olduğunu demək mənim üçün çətindir. Təbii ki, Ermənistanın iqtisadi vəziyyəti ilə bağlı sizin məlumatınız vardır. Bəlkə də bu məsələ ilə bağlı şərh vermək mənim üçün düzgün olmazdı. Təbii ki, Azərbaycan ilə dost, qonşu olmaq istənilən ölkə üçün fayda verə bilər, ermənilərin uzun illər saxlamağa çalışdığı status-kvo vəziyyəti kimi yox.

- İndiki Ermənistan rəhbərlərinin problemə siyasi yanaşması Sizdə hansı təəssürat yaradır? Sizə elə gəlmirmi ki, onların problemə yanaşması əvvəlkindən daha açıqdır? Sizcə, onlar irəliyə doğru addım atıblarmı?

- Onu deyə bilərəm ki, şəxsən mən 2004-cü ildən bu danışıqlar prosesində iştirak edirəm. Bu müddət ərzində danışıqlar prosesinin müsbət dinamikası, lakin sıfır nəticəsi olmuşdur. Deyə bilərəm ki, Ermənistanın keçmiş və indiki hökuməti və rəhbərliyi bu danışıqlar prosesində bir tərəf kimi çıxış edir. 2008-ci ilədək biz mühüm bir irəliləyişə nail ola bildik. 2008-ci ildən bu tərəfə isə irəliləyiş o qədər də görünmürdü, lakin bizim ümidlərimiz var idi. Bu səbəbdən düşünürəm ki, münaqişənin tezliklə həlli hər iki ölkənin marağındadır. Hesab edirəm və ümid edirəm ki, Ermənistan rəhbərliyi, nəhayət, anlayacaq ki, birincisi, status-kvo vəziyyətinin saxlanılması mümkün deyil və ikincisi, bu, onların heç də xeyrinə işləmir. Onların hazırda nəzarət etdikləri ərazi ölü zonadır. Orada hər şey dağıdılıb, məhv edilib, orada nə həyat var, nə də insanlar yaşayır. Onlar bundan nə əldə etdilər? Düşünürəm ki, heç nə. Çünki əgər onlar güclü siyasi iradə və xoş niyyətlə münaqişənin həllinə doğru gəlsəydilər və münaqişə öz həllini tapsaydı, o zaman regiondakı vəziyyət daha yaxşı olardı.

- Sizcə Dağlıq Qarabağdakı hazırkı vəziyyət sıfır səviyyəsindədir?

- Bilirsiniz, münaqişənin həllində Azərbaycan ən çox maraqlı olan tərəfdir, çünki torpaqlarımız işğal altındadır, bizim yüz minlərlə məcburi köçkünlərimiz vardır. Müəyyən vaxta qədər Ermənistanda belə bir fikir hakim idi ki, onlar status-kvonu istədikləri qədər saxlaya biləcəklər və onlar buna müvəffəq olacaqlarını düşünürdülər. Amma son aylar ərzində hadisələrin inkişafı göstərdi ki, beynəlxalq birlik, ATƏT-in Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya, Fransa, bu ölkələrin rəhbərləri birbaşa bəyanatla çıxış edərək bildirdilər ki, status-kvo məqbul deyildir. Son ayların hadisələri belədir.

- Dediyiniz kimi, Minsk qrupu - ABŞ, Fransa və Rusiya son ay və illər ərzində prosesi sürətləndiriblər. Sizcə, onların marağı nədir?

- İlk növbədə, Minsk qrupu 1992-ci ildə yaranıb və 20 ilə yaxındır ki, heç bir irəliləyiş yoxdur.

- Belə çıxır ki, 20 il ərzində fəaliyyət zamanı əsl irəliləyiş son iki ilə təsadüf edir?

- Bu, uzun bir proses idi. Keçmişdə bəzən vədedici, bəzən isə təəssüfedici məqamlar olmuşdur. 2004-cü ildən bəri isə biz yeni bir prosesdəyik. Münaqişənin həlli məzmunu keçmişdəkindən tamamilə fərqlidir. İndi müzakirə olunan prinsiplər son 5-6 il ərzində müzakirə olunur. Bu, birinci. Yəni bu proses idi. Bizim yaxınlaşmağımız birdən-birə baş vermədi. İkincisi və ən önəmlisi isə hesab edirəm ki, dünyada artıq aydın şəkildə başa düşürlər ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Atəşkəs isə çox həssas bir məsələdir. Təmas xəttində atəşkəsin davamlı olaraq pozulması, hesab edirəm ki, bizim hamımızı - Azərbaycanı, Ermənistanı, dünya ictimaiyyətini ciddi şəkildə narahat edir. Digər mühüm bir məsələ odur ki, son bir neçə il ərzində Azərbaycan və Ermənistan arasında güc balansı kəskin şəkildə dəyişmişdir. Məsələn, Azərbaycanın bugünkü büdcə xərcləri Ermənistanın büdcə xərclərindən 10 dəfə artıqdır. Təkcə Azərbaycanın müdafiə büdcəsi Ermənistanın bütün büdcəsini üstələyir. Reallıq belədir. Zaman keçdikcə də iki ölkə arasındakı bu fərq yalnız artacaqdır. Düşünürəm ki, bu da "münaqişə həll olunmalıdır" anlayışının yaranması üçün mühüm rol oynayır. Status-kvo bundan sonrakı illər ərzində davam edə bilməz.

- Təmas xəttində vaxtaşırı olaraq snayperlər tərəfindən atəşkəsin pozulmasını eşidirik.

- Bilirsiniz, bu haqda biz arabir eşidirik. Lakin təmas xəttində snayperlərin olmasına ehtiyac yoxdur. Çünki bəzən səngərlər arasındakı məsafə 40-50 metr olur. Kimisə öldürmək üçün burada snayperlərə ehtiyac yoxdur. Təhlükə odur ki, bu ərazilərdə sülhməramlı qüvvələr yoxdur. Orada yalnız Ermənistan və Azərbaycan əsgərləridir. Sülhə hər iki tərəf riayət etməlidir. Bəli, bəzən atışma olur, atəşkəs pozulur, dinc insanlar arasında həlak olanlar vardır. Məsələn, mart ayında erməni əsgərləri tərəfindən 9 yaşlı azərbaycanlının öldürülməsi. Bu isə müharibə reallığıdır. Müharibə hələ başa çatmayıb. Atəşkəs o demək deyil ki, sülh vardır. Düşünürəm ki, bu məqamın ən önəmlisi odur ki, müharibənin davam etdiyini beynəlxalq ictimaiyyət, vasitəçilər dərk etsinlər. Bu müharibəyə, düşmənçiliyə son qoyulmalıdır. Status -kvo dəyişilməlidir. Azərbaycan torpaqları azad edilməlidir. İnsanlarımızın öz doğma yurdlarına qayıtmaq hüququ vardır. Bu, onların haqlarıdır və onlara bunu etməyə imkan verməlidirlər.

- Təşəkkür edirəm, cənab Prezident.

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞANIN GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Albaniyanın Baş naziri Sali Berişa ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsinin xüsusi əhəmiyyəti vurğulandı, Albaniyanın Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdiyi qeyd edildi.

Həmçinin görüşdə Azərbaycanın Albaniyaya sərmayə yatırması, turizm, özəlləşdirmə və digər sahələrdə əməkdaşlıq imkanlarının yaradılması ilə bağlı fikir mübadiləsi aparıldı. Bu məsələlərin müzakirəsi üçün qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA BAŞ NAZİRİNİN MÜAVİNİ, MALİYYƏ NAZİRİ DİDİER REYNDERS İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Belçika Krallığı Baş nazirinin müavini, maliyyə naziri Didier Reynders ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsi, siyasi və iqtisadi əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA PREZİDENTİNİN TERRORİZMLƏ MÜBARİZƏ ÜZRƏ XÜSUSİ VƏ ŞƏXSİ MÜŞAVİRİ JAN-LUİ BRUQUYE İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Fransa Prezidentinin terrorizmlə mübarizə üzrə xüsusi və şəxsi müşaviri Jan-Lui Bruquye ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

SƏFƏR BAŞA ÇATDI

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ

BRÜSSELDƏ KRANS MONTANA FORUMUNUN RƏSMİ AÇILIŞI OLMUŞDUR

PREZİDENT İLHAM ƏLİYEV FORUMDA İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 23-də Brüsseldə Krans Montana Forumunun rəsmi açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun "Azərbaycan: Şərqə doğru Avropanın qabaqcıl mayakı" sessiyasında iştirak etmişlər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə ölkəmizlə bağlı təqdim edilən sərgi ilə tanış oldular.

Sərgidə Azərbaycanda gedən sürətli iqtisadi inkişaf prosesləri barədə ətraflı məlumat verildi. Burada ölkəmizdə enerji, turizm, mədəniyyət, infrastruktur sahələri barədə Forum iştirakçılarının diqqətinə zəngin məlumat çatdırılmaqla Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf dinamikası barədə də informasiyalar yer almışdır. Bu da Azərbaycan ilə tanışlıq, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri barədə məlumat almaq üçün Forum iştirakçılarına geniş imkanlar yaratdı. Bir sözlə, Forumda Azərbaycana maraq kifayət qədər böyük oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN OMV VƏ RWE ŞİRKƏTLƏRİNİN İDARƏ HEYƏTLƏRİNİN SƏDRLƏRİ GERHARD ROİSSİ VƏ YURGEN QROSMAN İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Avstriyanın OMV və Almaniyanın RWE şirkətlərinin idarə heyətlərinin sədrləri Gerhard Roissi və Yurgen Qrosman ilə görüşmüşdür.

Görüşdə ölkəmiz ilə OMV və RWE şirkətləri arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olundu, Azərbaycan qazının Avropaya nəqli və "Nabukko" layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN KRANS MONTANA FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ İŞÇİ NAHAR VERİLMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 23-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin adından Krans Montana Forumunun iştirakçılarının şərəfinə işçi nahar verilmişdir.

Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva naharda iştirak etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ TATARISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Tatarıstan Respublikasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Kazanın Beynəlxalq aeroportunda Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli qızlar Prezident İlham Əliyevə duz-çörək təqdim etdilər.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyunun 23-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obama Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Telefon söhbətində Amerika Birləşmiş Ştatlarının Prezidenti Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Kazanda keçiriləcək görüşü zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində münaqişə tərəfləri üçün həlledici addımın atılmasının önəmli olduğunu bildirmiş, münaqişənin Helsinki prinsipləri - güc işlətməmək, ərazi bütövlüyü, bərabər hüquqlar və öz müqəddəratını təyinetmə prinsipləri əsasında həll edilməsinin vacibliyini qeyd etmişdir.

Söhbət zamanı ikitərəfli münasibətlər və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ "KAZAN VERTOLYOT ZAVODU" ASC İLƏ TANIŞLIQ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Azərbaycan Prezidenti İlham Əliyev Tatarıstan Prezidenti Rustam Minnixanovun müşayiəti ilə "Kazan Vertolyot Zavodu" Açıq Səhmdar Cəmiyyəti (ASC) ilə tanış olmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, zavod 1940-cı ildən fəaliyyət göstərir. Burada müxtəlif təyinatlı, o cümlədən səhiyyədə, idman yarışlarında, mülki aviasiyada, yükdaşımada, eləcə də müdafiə sahəsində istifadə olunan vertolyotlar, "KamAZ" avtotexnikası, avtobuslar və s. istehsal edilir.

Dövlətimizin başçısı zavodun ayrı-ayrı sexlərini gəzdi, məşhur Mi-17, Mi-38 vertolyotlarına baxdı, müasir tipli "Aktay", "Kazan", "Ansat", "Ansat-U" vertolyotlarının texniki göstəriciləri ilə tanış oldu. Bildirildi ki, zavodun istehsal etdiyi bu vertolyotların əsas xüsusiyyətləri yüksək etibarlılıq və təhlükəsizlikdir.

Prezident İlham Əliyev zavodun istehsal etdiyi metan mühərrikli "KamAZ", kommunal təsərrüfatı, inşaat avtotexnikası, "Nefaz" avtobusu ilə də tanış oldu. Azərbaycan Prezidenti bu texnikanın qaz mühərrikinin qidalanma sisteminə baxdı, onun ekoloji parametrləri ilə maraqlandı.

Sonda dövlətimizin başçısına Mi-17 vertolyotunun və "KamAZ"ın maketləri hədiyyə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Kazan Kremlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşü olmuşdur.

PREZİDENT İLHAM ƏLİYEV 2013-CÜ İLDƏ KAZANDA KEÇİRİLƏCƏK XXVII UNİVERSİADANIN KƏNDİ İLƏ TANIŞ OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tatarıstan Prezidenti Rustam Minnixanovun müşayiəti ilə 2013-cü ildə Kazanda keçiriləcək XXVII Ümumdünya Universiadasının kəndi ilə tanış olmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, XXVII Universiadanın Kazanda keçirilməsi 2008-ci ildə Beynəlxalq Tələbə İdmanı Federasiyasında səsvermənin nəticəsinə əsasən qərara alınmışdır. Kazanla yanaşı, İspaniyanın Viqo və Koreya Respublikasının Kvanju şəhərləri də Universiadaya ev sahibliyi etmək iddiasında olmuşlar.

Universiada kəndi ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bu kəndin inşasına 2008-ci ildən başlanılmışdır. Üç il ərzində burada 25 idman obyekti tikilmişdir. Ümumilikdə isə burada 64 idman obyektinin tikilməsi nəzərdə tutulur. Ob-

yektlərin hamısında veb-kameralar quraşdırılmışdır. Bu, eyni vaxtda idman arenalarında baş verənləri izləmək imkanı yaradır.

Prezident İlham Əliyev burada otaqlarda yaradılan şəraitlə tanış oldu, tibb otağına baxdı. Bildirildi ki, XXVII Universiadada dünyanın hər yerindən gələn tələbə idmançılar 300-dən çox medal uğrunda mübarizə aparacaqlar. Bu, indiyədək keçirilmiş universiadalar arasında rekord göstərici olacaqdır.

Dövlətimizin başçısı videozalda Universiadanın idman proqramı ilə bağlı təqdimata baxdı.

Azərbaycan Prezidenti İlham Əliyev Ümumdünya Universiadası kəndinin Xatirə kitabına ürək sözlərini yazdı.

Sonda dövlətimizin başçısına Universiada kəndinin tarixi barədə kitab təqdim edildi.

KAZANIN "İT-PARK" - YÜKSƏK TEXNOLOGİYALAR PARKI İLƏ TANIŞLIQ

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Azərbaycan Prezidenti İlham Əliyev Kazanda Tatarıstan Prezidenti Rustam Minnixanovun müşayiəti ilə "İT-Park" - yüksək texnologiyalar parkı ilə tanış olmuşdur.

Dövlətimizin başçısına Tatarıstanda müasir informasiya texnologiyalarının tətbiqi ilə yaradılmış ən böyük Məlumatların Emalı Mərkəzi barədə məlumat verildi. Bildirildi ki, 2009-cu ildən fəaliyyət göstərən "İT-Park" Rusiyada informasiya texnologiyaları sahəsində şirkətlərin inkişafı ilə məşğul olan ilk texnoparkdır.

Burada, həmçinin Tatarıstanın sənaye, o cümlədən neft-kimya potensialının, "Alabuqa" xüsusi iqtisadi zonasının, "Ximqrad" texnoparkının təqdimatı təşkil olundu. Perspektiv texnologiyaların işlənib hazırlanması və tətbiqi ilə məşğul olan qurumların nümayəndələri dövlətimizin başçısına təmsil etdikləri şirkətlərin fəaliyyəti və məhsulları barədə ətraflı məlumat verdilər.

Texnoparkda Prezident İlham Əliyevə Tatarıstanın "elektron hökumət" sahəsindəki layihələri və qurumlararası vahid elektron sənəd mübadiləsi sisteminin imkanları nümayiş etdirildi. Azərbaycan Prezidenti, həmçinin xəsarət alanların xilas edilməsinin əlaqələndirilməsi sistemi - "Qlonass+112"-nin işi ilə tanış oldu və "İT-Park"ın biznes-inkubatoruna da baxdı. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, "İT-Park" biznes-inkubatoru informasiya texnologiyaları layihələrinin dəstəklənməsi və inkişafı, həmçinin onların gələcəkdə xarici bazara çıxarılması platformasıdır.

Prezident İlham Əliyev texnoparkdakı xatirə divarında ürək sözlərini yazdı.

KAZANDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Kazan Kremlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.

Kazan Kremlinin önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev qarşıladı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər müzakirə edildi.

Görüşün yekunlarına dair birgə bəyanat qəbul olundu.

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ NAHARI

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Kazan Kremlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə naharı olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Kazan Kremlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşü olmuşdur.

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANAT QƏBUL ETMİŞLƏR

Xüsusi müxbirimiz xəbər verir ki, iyunun 24-də Kazanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekunlarına əsasən birgə bəyanat qəbul etmişlər.

Bəyanatda deyilir: "2011-ci il iyunun 24-də Azərbaycan, Ermənistan və Rusiya Federasiyasının prezidentləri Kazanda görüşmüş və onların tapşırığına əsasən, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsipləri layihəsinin razılaşdırılması məqsədilə aparılan işin gedişini nəzərdən keçirmişlər.

Dövlət başçıları bir sıra məsələlərə dair qarşılıqlı anlaşma əldə edilməsini, bu məsələlərin həllinin Əsas Prinsiplərin bəyənilməsi üçün şərait yaradılmasına kömək etdiyini bildirmişlər.

Azərbaycan və Ermənistan prezidentləri ATƏT-in Minsk qrupunun həmsədr ölkələri kimi Rusiya, ABŞ və Fransa liderlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi probleminə daimi diqqətinə görə onlara minnətdarlıq bildirmiş və Rusiya Federasiyası Prezidentinin razılaşma əldə edilməsinə kömək üçün göstərdiyi şəxsi səylərini yüksək qiymətləndirmişlər".

SƏFƏR BAŞA ÇATDI

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Azərbaycan dövlətinin başçısını Kazanın Beynəlxalq aeroportunda Tatarıstan Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

* * *

Həmin gün Prezident İlham Əliyev Bakıya qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLANIN "İNTER" FUTBOL KLUBUNUN PREZİDENTİ VƏ SAHİBİ MASSİMO MORATTİNİ QƏBUL ETMİŞDİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Milanın "İnter" futbol klubunun prezidenti və sahibi Massimo Morattini qəbul etmişdir.

Görüşdə Azərbaycanda idmanın inkişafı sahəsində görülən işlərdən danışılmış, ölkəmizin beynəlxalq səviyyədə idmanla bağlı əldə etdiyi uğurlar qeyd edilmiş və Azərbaycanın beynəlxalq idman əlaqələrinin genişləndirilməsi işinə töhfə verdiyi vurğulanmışdır.

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CONSTONA

Hörmətli cənab General-Qubernator,

Milli bayramınız - Kanada günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-Kanada dövlətlərarası münasibətləri, dostluq əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kanada xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyun 2011-ci il.

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

Hörmətli Aleksandr Qriqoryeviç,

Sizi və dost Belarus xalqını milli bayramınız-Respublika Günü münasibətilə təbrik edirəm.

Azərbaycan ilə Belarusu sıx dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək telləri bağlayır. Əminəm ki, dövlətlərimiz arasında bu xoş ənənələrə əsaslanan münasibətlərimiz xalqlarımızın və ölkələrimizin rifahı, regionda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı və uğurlar, dost Belarus xalqına isə sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyun 2011-ci il.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident,

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. İstər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf edərək getdikcə öz əhatə dairəsini genişləndirməkdədir.

Biz strateji əhəmiyyət kəsb edən enerji təhlükəsizliyinin təmin edilməsi, terrorizmə qarşı mübarizə sahəsində tərəfdaşlığımıza daim töhfə vermək əzmindəyik. Əminəm ki, həyata keçirdiyimiz irimiqyaslı iqtisadi layihələrin, demokratik, hüquqi dövlət quruculuğu xəttinin gerçəkləşməsi yolunda əməkdaşlığımızı bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Birləşmiş Ştatların regionumuzda sülhün, sabitliyin bərqərar olmasında marağı bizim üçün çox əhəmiyyətlidir. Ölkəmizin ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına və soydaşlarımızın doğma yurd-yuvasından didərgin düşməsinə səbəb olmuş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi ölkənizin və şəxsən Sizin, cənab Prezident, səylərinizin tezliklə öz bəhrəsini verəcəyinə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə, cənab Prezident, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2011-ci il.

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

Hörmətli cənab Prezident,

Monqolustanın milli bayramı - Xalq inqilabı günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan-Monqolustan dostluğu və əməkdaşlığının möhkəmlənməsi və inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyun 2011-ci il.

MONTENEQRONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Dövlətçilik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyun 2011-ci il.

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Bastiliyanın alınması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz dost ölkələrimiz arasında bərqərar olmuş çoxşaxəli əlaqələrin inkişafına böyük əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi siyasi, iqtisadi,

mədəni və humanitar sahələrdə sıx əməkdaşlığımız ilə müşayiət olunur.

Bu gün Azərbaycan-Fransa əməkdaşlığı, həmçinin çoxtərəfli qaydada inkişaf etməkdədir. Beynəlxalq qurumlar, Avropa strukturları çərçivəsində birgə işimiz ölkələrimiz arasındakı münasibətlərin dolğunluğunu təmin edən amillərdəndir.

Biz eyni zamanda xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə, tezliklə və ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Fransa xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyun 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN DAXİLİ İŞLƏR NAZİRİ RAŞİD NURQALİYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Rusiya Federasiyasının daxili işlər naziri Raşid Nurqaliyevi qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, həmçinin daxili işlər orqanları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bölgədə sabitliyin önəmi qeyd olunaraq ölkələrimizin əlaqələrinin möhkəmlənməsinin bu işə töhfə verdiyi bildirildi. Rusiya Federasiyasının daxili işlər naziri Raşid Nurqaliyevin Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi və ölkələrimizin müvafiq strukturları arasında birgə əməkdaşlığın bundan sonra da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.

PREZİDENT İLHAM ƏLİYEV PAKİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ ƏBDUL HƏMİDİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Əbdul Həmidi fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Səfir Əbdul Həmid ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan xalqının Pakistana böyük hörmət və ehtiramın şahidi olduğunu dedi. Pakistanlı diplomat səfir kimi fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident

İlham Əliyev bu münasibətləri müttəfiq ölkələr arasında olan münasibətlər kimi qiymətləndirdi və əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. Səfir Əbdul Həmidin ikitərəfli münasibətlərimizin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirən dövlətimizin başçısı ona gələcək fəaliyyətində uğurlar arzuladı.

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyunun 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Fələstin Prezidenti Mahmud Abbası qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Fələstin Dövlətinin Prezidentinə raport verdi.

Fələstinin və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Fələstin Dövlətinin Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Mahmud Abbasa, Fələstin nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FƏLƏSTİN PREZİDENTİ MAHMUD ABBASIN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın təkbətək görüşü olmuşdur.

Görüşdə siyasi, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin vəziyyəti və inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

İyunun 28-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüşün iştirakçılarına müraciətlə dedi:

-Hörmətli Prezident!

Sizi bir daha Azərbaycanda salamlamaq və dəvətimi qəbul edib ölkəmizə səfər etdiyini-

zə görə təşəkkür etmək istəyirəm. Bu, çox mühüm və tarixi səfərdir. Bu, Fələstin Dövlətinin Prezidentinin Azərbaycana ilk səfəridir. Sizi Azərbaycanda görməyimə çox şadam. Elə indicə bizim regional vəziyyət, Fələstin-İsrail münaqişəsi ilə bağlı çox səmimi, açıq və konstruktiv danışıqlarımız oldu. Biz bu problemə qarşılıqlı anlayış nümayiş etdiririk. Bayaq qeyd etdiyim kimi, biz sizi beynəlxalq təşkilatlarda dəstəkləməkdə davam edəcəyik və üzərimizə düşən nədirsə onu edəcəyik. Biz, eyni zamanda, ikitərəfli əlaqələrimizi genişləndirməyə ümid edir və ona yeni miqyas vermək niyyətindəyik. Hesab edirəm ki, daha çox mədəniyyət sahəsində ünsiyyətlərimizi artırmaq, o cümlədən iqtisadi əməkdaşlıq, potensial investisiya layihələri və təbii ki, siyasi dialoqu gücləndirmək üçün yaxşı imkanlar vardır. Əminəm ki, səfəriniz zamanı müxtəlif sahələrdə əməkdaşlıq perspektivlərini geniş müzakirə etmək və əlaqələrimizin sürətlə inkişafını görmək üçün daha çox imkanımız olacaqdır. Sizin ölkəmizə səfəriniz əlaqələrimizin mühüm təməl daşıdır. Əminəm ki, səfərdən sonra biz daha çox müsbət irəliləyişin şahidi olacağıq.

Bir daha Azərbaycana xoş gəlmisiniz.

* * *

Fələstin Dövlətinin Prezidenti Mahmud ABBAS səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

-Təşəkkür edirik cənab Prezident!

Biz Bakıda - Azərbaycanda olmağımızdan böyük şərəf hissi duyuruq. Bəlkə də bu, bizim üçün ilk səfərdir. Lakin gələcəkdə çalışacağıq ki, bu səfərlərin sayı artsın. Təbii ki, Sizə ən uyğun vaxtda Zati-alilərinizi Fələstində görməyimizə şad olarıq.

Cənab Prezident! Öncə qeyd etdiyiniz kimi, biz bütün məsələləri, xüsusilə də ölkəmizin BMT-yə tamhüquqlu üzv dövlət olması ilə bağlı apardığımız fəaliyyəti və danışıqları müzakirə etdik.

AZƏRBAYCAN VƏ FƏLƏSTİN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

İyunun 28-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Sizin səfəriniz tarixi xarakter daşıyır. İlk dəfə olaraq Fələstin Dövlətinin Prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdir. Mən dəvətimi qəbul etdiyinizə və Azərbaycana gəldiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır.

Əlaqələrimiz inkişaf edir. Xalqlarımız arasında əlaqələrin böyük tarixi vardır. Əsrlər boyu xalqlarımız bir-birinə böyük rəğbətlə yanaşıbdır. Münasibətlərimizin indiki mərhələsində ikitərəfli əlaqələrin inkişafı üçün çox yaxşı imkanlar vardır. Biz istəyirik ki, bütün sahələrdə əlaqələrimiz inkişaf etsin və bu inkişaf hər bir istiqamətdə özünü göstərsin.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Sizin Azərbaycana səfəriniz bunun bariz nümunəsidir. Bir neçə ay bundan əvvəl Fələstin Dövlətinin Azərbaycandakı səfirliyi öz işinə başlamışdır. Bu da çox mühüm hadisədir. Əminəm ki, səfirliyin fəaliyyəti nəticəsində ikitərəfli əlaqələrimizin inkişafı üçün yeni imkanlar müəyyən ediləcəkdir.

Biz çox istəyirik ki, iqtisadi sahədə də yaxşı əməkdaşlıq edək və əminəm ki, səfər zamanı bu məsələlər də nəzərdən keçiriləcəkdir. Hesab edirəm ki, səfər zamanı iqtisadi əməkdaşlığın dərinləşməsi və investisiya qoyuluşunun təşkili üçün konkret təkliflər irəli sürüləcəkdir.

Humanitar sahədə əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Mədəniyyət sahəsində təbii ki, ənənəvi əlaqələrin yeni formaları haqqında düşünmək olar. Bir sözlə, hesab edirəm ki, Sizin səfəriniz zamanı ikitərəfli əlaqələrin bütün istiqamətləri müzakirə mövzusu olacaq və biz yaxşı nəticələrə nail olacağıq.

Bu gün biz, eyni zamanda, regional məsələlər və dünyada gedən proseslər haqqında fikir mübadiləsi apardıq. Sizinlə çox geniş şəkildə Fələstin-İsrail danışıqlarının indiki mərhələsi ilə əlaqədar fikir mübadiləsi apardıq. Bir daha demək istəyirəm ki, Azərbaycan bütün beynəlxalq təşkilatlarda Fələstin Dövlətini dəstəkləyir. İslam Konfransı Təşkilatında, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində aparılan bütün müzakirələr zamanı Azərbaycan Fələstinin yanındadır və bundan sonra da belə olacaqdır. Biz hesab edirik ki, tezliklə müstəqil, suveren Fələstin Dövləti yaradılmalıdır və onun paytaxtı Şərqi Qüds şəhəri olmalıdır. Bu, bizim mövqeyimizdir və bütün beynəlxalq təşkilatlarda biz bu mövqeyi müdafiə edirik, müdafiə edəcəyik. Bu, bir tərəfdən bizim qardaşlıq borcumuzdur, digər tərəfdən, bu mövqe beynəlxalq hüquq normaları əsasında formalaşıbdır. Dünya miqyasında Fələstin Dövlətinə verilən dəstək və bu dəstəyin artması onu göstərir ki, Sizin diplomatiyanız, siyasi təşəbbüsləriniz, şəxsən Sizin fəaliyyətiniz dünya miqyasında çox böyük rəğbətə malikdir.

Bu gün, eyni zamanda, regionda baş verən hadisələr haqqında fikir mübadiləsi apardıq. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların son mərhələsi haqqında Sizə məlumat verdim. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü pozulubdur. Bir milyondan artıq qaçqınımız, köçkünümüz vardır. Torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycanlılar doğma torpaqlarında etnik təmizləmə siyasətinə məruz qalmışlar. İşğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb. Məktəblər, xəstəxanalar, muzeylər, tarixi abidələrimiz, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb.

Beynəlxalq aləm bizim mövqeyimizi dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası məsələ ilə bağlı dörd qətnamə qəbul etmişdir. Qətnamələrdə göstərilir ki, Ermənistanın işğalçı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər Ermənistan tərəfi bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatların mövqeyi də oxşardır. İslam Konfransı Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT buna oxşar qərar və qətnamələr qəbul etmişlər.

Beləliklə, məsələnin həlli üçün hüquqi əsaslar kifayət qədər möhkəmdir. Mən əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Biz istəyirik ki, bunu tezliklə və sülh yolu ilə həll edək.

Bir daha, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bir daha qeyd etmək istəyirəm ki, biz bu səfərə çox böyük əhəmiyyət veririk. Bu səfər ölkələrimizin tarixində birinci səfər kimi qalacaqdır. Amma, əlbəttə ki, bundan sonra da səfərlər olmalıdır, həm nazirlər səviyyəsində, həm də biznes qurumları bir-biri ilə daha da yaxşı işləməlidirlər. Əminəm ki, biz Sizinlə bundan sonra görüşəcəyik.

Bir daha xoş gəlmisiniz.

* * *

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN BƏYANATI

-Çox sağ olun, cənab Prezident İlham Əliyev! Təşəkkür edirəm!

Bu qardaş ölkənin ziyarətinə dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Hökumətinizə, xalqınıza, ölkənizə Fələstin probleminin həllinə, onun öz istiqlaliyyətini, azadlığını əldə etməsi və müstəqil dövlət yaratması üçün göstərdiyiniz dəstəyə, yardıma görə təşəkkür edirəm. Paytaxtı müqəddəs Qüds olan, o Qüds ki, biz onu İslamın üç müqəddəs yerlərindən biri hesab edirik. Onlardan birincisi - Qüds şəhəri, ikincisi - Mədinə, üçüncüsü - Məkkədir.

Cənab Prezident! Biz Sizin hökumətlə hazırda əlaqələrin qurulmasının başlanğıcındayıq. Bütün sahələrdə əməkdaşlığın qurulmasının başlanğıcındayıq. Ümid edirəm ki, gələcəkdə bu əlaqələri inkişaf etdirmək üçün Sizin yardımınızı görəcəyik.

Cənab Prezident, bizə göstərdiyiniz yardıma və Fələstin səfirliyi üçün binanın verilməsinə görə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, səfirin özü üçün yaşayış binası və lazımi dəstəyə görə təşəkkürümü bildirirəm. Bunu biz özümüz də yüksək qiymətləndiririk, xalqımız da yüksək qiymətləndirir.

Biz Azərbaycan Respublikasına fəxrlə baxırıq. Bilirik ki, 1918-ci ildə ilk demokratik respublika burada qurulmuşdur. Bu, o deməkdir ki, Siz demokratiya yolunda yaşlılardan hesab olunursunuz, Siz başqalarına demokratiya öyrədirsiniz. Bu, böyük işdir. Eyni zamanda, bilirik ki, 1918-ci ildən etibarən Azərbaycan qadını səsvermə hüququna malikdir. Siz demokratiya yolu ilə irəliləyirsiniz. Bizim aramızda ümumi oxşarlıqlar vardır. Biz də, eyni zamanda, demokratiya yolu ilə gedirik. Bizdə də qadın səs verir, seçir və seçilir. Onlar hər yerdə öz layiqli yerlərini tuturlar, eyni zamanda, bələdiyyələrdə. Burada məqsəd odur ki, gender bərabərliyi təmin olunsun. Qadın hüququnun bərabərliyi məsələsində biz sizdən müəyyən dərəcədə öyrənirik.

Biz cənab Prezident ilə Fələstin məsələsini müzakirə etdik. Bu, siyasi məsələdir. Cənab Prezident ilə danışıqlar zamanı əmin etdim ki, birinci, ikinci və üçüncü yolumuz sülh yoludur, sülh danışığından keçir. Biz deyirik ki, bütün yollar sülhə aparır. Dünya bu məsələdə bizimlə razılaşır. Əgər İsrail hökuməti beynəlxalq səviyyədə 1967-ci il sərhədlərinə qayıtsa, biz onlarla sülhə gəlmək üçün danışıqlara getməyə hazırıq. Amma çox təəssüflər olsun ki, bunu bacarmadıq. Ona görə də dedik ki, gəlin BMT-yə müraciət edək.

Qoy onlar bizə desin ki, 63 ildən artıq işğal altında yaşayan xalq nə etməlidir?! Biz ən azı istiqlaliyyət arzu edirik. Biz bu iş üzərində işləyirik. Əgər uğur qazanmasaq, onda BMT-yə müraciət edəcəyik.

Eyni zamanda, bizim daxili problemlərimiz də vardır. Amma biz bu məsələ üzərində işləyirik. Allahın köməyi ilə biz milli birlik haqqında sənəd imzalamışıq, bəzi addımlar atmışıq. Bu milli birlik sayəsində indi Fələstin hökumətinin yaradılması istiqamətində çalışırıq. Allahın köməyi ilə ən yaxın zamanda biz bu məsələdə məqsədlərimizə çatarıq.

Burada müştərək problemlər vardır. Sizdə də, bizdə də. Sizin də torpaqlarınız işğal altındadır. Sizdə də, bizdə də qaçqınlar vardır. Sizin haqqınızda BMT-nin məlum dörd qətnaməsi vardır - 822, 853, 874 və 884 saylı qətnamələr. BMT-nin bu dörd qətnaməsinin hamısı sülhə çağırır. Bizim haqqımızda isə BMT-nin 15 və daha artıq qərarı vardır. Bu qətnamələr də sülhə çağırır. Amma biz səbir edirik ki, bu problemlərə sülh vasitəsilə son qoyulsun. Biz bu sülhün səmərəsindən istifadə edə bilək.

Biz son vaxtlar Kazanda olan görüşü izlədik. Bu problemin həll olunması üçün Rusiya, Fransa və ABŞ-ın mövqeyini də izlədik. Bu da dünyanın bu problemə olan marağının göstəricisidir. Amma biz deyirik ki, bu problemləri bu gün həll etmək sabah həll etməkdən daha yaxşıdır. Ona görə də heç kim sabahkı həllə təminat verə bilməz. Arzu edirik ki, Dağlıq Qarabağ problemi, qaçqınlar problemi həll olunsun. Biz beynəlxalq qanunlardan artıq heç nə tələb etmirik. Bizim problemlərimiz müştərəkdir. Arzu edirik ki, onlar həll olunsun. Arzu edirik ki, sülh bu torpaqlarda bərqərar olsun. Dünya xalqları sülh və əmin-amanlıq şəraitində yaşasınlar.

Qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Ümid edirik ki, cənab Prezident onun üçün münasib olan vaxtda Fələstini ziyarət edəcəkdir. Arzu edirik ki, bu ziyarətlər, bu səfərlər təkrar olunsun.

Diqqətinizə görə təşəkkür edirik.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın şərəfinə rəsmi ziyafət verilmişdir.

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas iyunun 29-da Heydər Əliyev Fondunda olmuşdur.

Fələstin Dövlətinin başçısını Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Prezident Mahmud Abbas ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Fələstin Dövlətinin Prezidentinə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Mahmud Abbas Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Fələstin Dövlətinin Prezidentinə xatirə hədiyyəsi və Fondun fəaliyyətindən bəhs edən kitab təqdim etdi.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ ƏLİ LARİCANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Əli Laricaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev İran İslam Şurası Məclisinin sədri Əli Laricaninin ölkəmizə səfərinin uğurlu olacağını dedi və səfərin Azərbaycan-İran əlaqələrinin inkişafı baxımından əhəmiyyətini qeyd etdi. Xalqlarımızın dostluq və qardaşlıq əlaqələrinin gücləndiyini vurğulayan Prezident İlham Əliyev bu əlaqələrin iki dövlət arasındakı münasibətlərin inkişafına təkan verdiyini dedi.

Azərbaycan ilə İran arasında bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirən dövlətimizin başçısı siyasi sahədə əlaqələrin gücləndiyini vurğuladı. Azərbaycan Prezidenti iqtisadi sahədə yaxşı nəticələrin əldə olunduğunu, xüsusilə nəqliyyat və enerji sektorlarında konkret layihələrin icra edildiyini və gələcəkdə bu istiqamətdə daha da fəal əməkdaşlıq etməyin zəruriliyini bildirdi.

Mədəniyyət və humanitar sahədə əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı bu sahədə əməkdaşlığı genişləndirməyin önəmini qeyd etdi. Dövlət başçısı Azərbaycan-İran əlaqələrinin ölkələrimizlə yanaşı, bölgədə təhlükəsizlik tədbirlərinin

gücləndirilməsi üçün də mühüm əhəmiyyət daşıdığını dedi. Parlamentlərarası əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğuladı və əlaqələrin daha da genişləndirilməsi üçün qarşılıqlı səfərlərin zəruriliyini bildirdi.

Əli Laricani İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. Sonuncu dəfə Azərbaycana 14 il bundan əvvəl səfər etdiyini deyən qonaq ötən dövr ərzində ölkəmizdə çox böyük inkişaf proseslərinin şahidi olduğunu vurğulayaraq bunu Prezident İlham Əliyevin həyata keçirdiyi düzgün siyasətin nəticəsi kimi dəyərləndirdi və əldə olunan nailiyyətlərə görə dövlət başçısını təbrik etdi.

İran-Azərbaycan münasibətlərinin tarixi köklərə malik olduğunu deyən Əli Laricani Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkələrimiz arasında münasibətlərdə yeni səhifənin açılmasında xüsusi rolunu qeyd etdi. İran İslam Şurası Məclisinin sədri İran ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu dedi.

Dövlətimizin başçısı İlham Əliyev Prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU XANIM KRİSTİN LAQARDA

Hörmətli xanım Laqard,

Beynəlxalq Valyuta Fondunun Sərəncamçı direktoru vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Biz Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu mənada Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf proqramlarına Beynəlxalq Valyuta Fondunun töhfəsini məmnunluqla qeyd etmək istərdim.

Bu gün Beynəlxalq Valyuta Fondunun qarşısında qlobal maliyyə-iqtisadi və valyuta sisteminin idarə edilməsi üsullarının təkmilləşdirilməsinə yönəlmiş islahatların həyata keçirilməsi, maliyyə-bank sektorunun sabitliyinin təmin edilməsi, kəskin borc problemlərinin yeni qlobal maliyyə böhranına çevrilməsi təhlükəsinin qarşısının alınması kimi mühüm vəzifələr durur. Ümidvaram ki, Sizin rəhbərliyinizlə Beynəlxalq Valyuta Fondu bu məsul vəzifələrin öhdəsindən gələrək, beynəlxalq maliyyə əməkdaşlığının möhkəmləndirilməsinə əlavə təkan verəcəkdir.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 1 iyul 2011-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZ RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ AXMATBEK KELDİBEKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin bütün sahələrdə müzakirə edilməsi və əlaqələrimizin gələcək inkişafının müəyyənləşdirilməsi üçün yaxşı fürsət yaradacağını dedi. Qırğız Parlamentinin bu cür böyük heyətlə Dünya azərbaycanlılarının III qurultayında iştirakından məmnunluğunu bildirən Prezident İlham Əliyev bu tədbirin artıq ənənəvi xarakter daşıdığını və azərbaycanlıların dünyadakı diaspor təşkilatlarının mütəmadi olaraq beş ildən bir Bakıda toplantısının keçirilməsinin önəmini qeyd etdi. Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında ikitərəfli münasibətlərin müsbət istiqamətdə inkişafından danışan dövlətimizin başçısı Qırğız rəhbərliyi ilə keçirdiyi görüşləri xatırlayaraq həmin görüşlər zamanı ikitərəfli və regional məsələlərlə bağlı müzakirələr aparıldığını dedi. Parlamentlərarası əməkdaşlığa toxunan Prezident İlham Əliyev Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyətə başlamasından sonra bu əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu və ölkələrimizin parlamentlərinin bu təşkilat çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğuladı. Dövlətimizin başçısı Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekovun ölkəmizə səfərinin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekov ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi. Axmatbek Keldibekov 2008-ci ildə qırğız xalqının böyük yazıçısı və mütəfəkkiri Çingiz Aytmatovun Azərbaycanın ən yüksək mükafatlarından olan "Dostluq" ordeninə layiq görülməsinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ölkəsində Azərbaycan xalqının ümummilli lideri, böyük siyasi xadim Heydər Əliyevin xatirəsinin həmişə yüksək hörmətlə yad edildiyini qeyd edən Axmatbek Keldibekov ulu öndər Heydər Əliyevin hələ Sovetlər birliyində yüksək dövlət vəzifəsində çalışdığı zaman milli respublikaların maraqlarını həmişə müdafiə etdiyini vurğuladı. O, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin Qırğız Respublikasına səfərinin və qırğız xalqının tarixi abidəsi olan "Manas"ın 1000 illiyi ilə əlaqədar keçirilən tədbirlərdə iştirakının ölkəsində indiyə qədər böyük ehtiramla xatırlandığını dedi. Axmatbek Keldibekov ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə daha da inkişaf etdirilməsi, o cümlədən parlamentlərarası əlaqələrin genişləndirilməsi baxımından böyük imkanların olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVA RESPUBLİKASI QAQAUZ YERİNİN BAŞQANI MİXAİL FORMUZALI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Moldova Respublikası Qaqauz Yerinin Başqanı Mixail Formuzalı qəbul etmişdir.

Moldova Respublikası Qaqauz Yerinin Başqanı Mixail Formuzalın Dünya azərbaycanlılarının III qurultayında iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bunu Azərbaycan ilə Moldova arasında münasibətlərin göstəricisi kimi qiymətləndirdi.

Dünya azərbaycanlılarının III qurultayında iştirakını Azərbaycan ilə Moldova arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım kimi dəyərləndirən Mixail Formuzal rəhbərlik etdiyi qurumun Azərbaycan diasporunun nümayəndələri və ölkəmizin Moldovadakı səfirliyi ilə sıx əlaqələr qurduğunu dedi. Mixail Formuzal münasibətlərimizin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etdi.

Dövlətimizin başçısı Moldovaya ilk səfəri zamanı Azərbaycan xalqının mütəfəkkir şairi Nizami Gəncəvinin abidəsinin açıldığını xatırlayaraq, ölkələrimiz arasında sıx əlaqələrin yaradılmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Qaqauzda xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılmasını xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin təzahürü kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN BAŞ NAZİRİ ANDRİUS KUBİLİUSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Litva Respublikasının Baş naziri Andrius Kubiliusu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu, əməkdaşlığımızın daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAYI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYI

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ötən dövr ərzində milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirmiş, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun şəksiz lider dövlətinə çevrilmişdir. Əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin möhkəmlənməsinə, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandırmış, ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün zəmin yaratmışdır.

Azərbaycan Respublikasının hər bir uğuru, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur. Bunu iyulun 5-də Bakıda öz işinə başlayan Dünya azərbaycanlılarının III qurultayında iştirak etmək üçün paytaxta gələn qonaqların hamısı etiraf edirlər.

Dünya azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə keçirilmişdir. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyi və fəallığının artmasına ciddi təsir göstərmişdir. Həmin qurultayda ulu öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı dillər əzbəri olmuşdur.

Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması həmin il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirmişdir.

Ulu öndərimiz xaricə səfərləri zamanı iş cədvəlinin zənginliyinə və gərginliyinə baxmayaraq mütləq həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmış, tövsiyələrini vermişdir.

Ümummilli liderimizin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev də ulu öndərin bu siyasətini uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi ilə 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq həmin il martın 16-da Bakıda Dünya azərbaycanlılarının II qurultayı keçirilmişdir. Bu mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olmuşdur.

Bir il sonra - 2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan Prezidentinin türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür.

Prezident İlham Əliyev 2008-ci il noyabrın 19-da Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzalamışdır.

Həmin il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının toplantısında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir.

Beləliklə, dövlətimizin diaspor siyasəti xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi ilə özünün yeni mərhələsinə qədəm qoymuşdur. İndi soydaşlarımız yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, zəngin mədəni

irsimizin təbliği, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında da qətiyyət nümayiş etdirirlər.

Hazırda dünyanın əksər ölkələrində Azərbaycan icmaları üçrəngli bayrağımız altında fəaliyyət göstərir. Azərbaycanlı gənclərin xarici ölkələrdə təşkilatlanması, onların diaspor hərəkatındakı iştirakı da uğurla gedir.

Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı isə özünün çoxşaxəli fəaliyyəti ilə əsl nümunə nümayiş etdirir. Qurumun sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr, həyata keçirilən tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır.

Bu meyil Avropa ölkələrində də özünü yüksək səviyyədə göstərir. 2010-cu ilin noyabrında Almaniyanın Frankfurt şəhərində Dünya Azərbaycanlı Gənclərinin I Konqresi keçirilmişdir. Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycan gəncliyi Dövlət Proqramına uyğun olaraq Diasporla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyinin keçirdiyi bu tədbirdə 25 ölkədən azərbaycanlı gənclər, 41 diaspor təşkilatının rəhbərləri iştirak etmişlər. Konqres xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin diaspor quruculuq işinə cəlb olunması, onların ictimai-siyasi fəallığının artırılması yönündə daha bir mühüm addım olmuşdur.

Bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bu gücün təməlində təkcə iqtisadi və hərbi qüdrətimiz deyil, həm də sıx birliyimiz dayanır. Ona görə də harada yaşadığımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları soydaşlarımızı birləşdirən əsas dəyərlər kimi hər birimizin düşüncəsinə hakim kəsilməlidir. İndi sürətlə inkişaf edən ölkəmiz bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimiz isə azərbaycançılıq amalı ətrafında milli birlik və həmrəylik nümayiş etdirir, bütün qüvvə və bacarıqlarını ümummilli məqsəd naminə səfərbər edirlər.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü haqqında bu il yanvarın 21-də imzaladığı Sərəncama uyğun olaraq keçirilən Dünya azərbaycanlılarının III qurultayında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları Bakıya gəlmişlər.

İyulun 5-də Heydər Əliyev Sarayında Dünya azərbaycanlılarının III qurultayı öz işinə başladı.

Qurultaydan əvvəl çoxsaylı nümayəndələr səhər tezdən Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdilər. Onlar ulu öndərin xatirəsini dərin ehtiramla anaraq, abidəsi önünə əklil qoydular, gül-çiçək dəstələri düzdülər.

Sonra qonaqlar görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər güllər qoydular.

Daha sonra qurultay nümayəndələri Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini böyük ehtiramla yad etdilər. Onlar şəhid məzarları üzərinə güllər düzdülər, "Əbədi məşəl" abidəsi önünə tər çiçəklərdən hörülmüş əklil qoydular.

Qurultay nümayəndələri şəhid türk əsgərlərinin xatirə abidəsini də ziyarət etdilər və əklil qoydular.

Heydər Əliyev Sarayının foyesində Azərbaycan diasporuna dövlət qayğısını əks etdirən fotosərgi təşkil edilmişdir. Stendlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin ötən qurultaylarda və müxtəlif dövrlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərində çəkilmiş fotoşəkillər, milli diasporumuzun inkişafı ilə bağlı imzalanmış fərman, sərəncam və qanunların nüsxələri, diaspor quruculuğundan, respublikamızın sosial-iqtisadi inkişafından, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətdən bəhs edən kitablar və jurnallar, milli adət-ənənələrimizi, mədəniyyətimizi təbliğ edən videomateriallar nümayiş etdirilirdi.

Foyedə Ermənistanın Azərbaycana hərbi təcavüzündən, xalqımıza qarşı törətdiyi soyqırımı siyasətindən, həmçinin Milli Təhlükəsizlik Nazirliyinin, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının hazırladığı materiallardan ibarət fotosərgi də təşkil olunmuşdu.

İştirakçıların hər birinə III qurultaya aid materiallar, Azərbaycan haqqında məlumatlar paylandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qurultayda iştirak etmək üçün saraya gəldilər.

Qurultay nümayəndələri və qonaqlar dövlətimizin başçısını və xanımını hərarətlə, sürəkli alqışlarla qarşıladılar.

Salonda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan diasporu ilə bağlı müdrik kəlamları yazılmış transparantlar asılmışdı.

Məlumat verildi ki, aparılmış qeydiyyatın nəticələrinə görə qurultayın işində dünyanın 42 ölkəsindən seçilmiş 600 nümayəndədən 579 nəfəri, habelə dünyanın 30 ölkəsindən 211 nəfər qonaq qismində iştirak edir. Qurultayda Azərbaycan Respublikası 677 nümayəndə və 405 nəfər qonaqla təmsil olunur. Ümumilikdə 1872 nəfər qeydiyyatdan keçmişdir. Yetərsay vardır. Qurultay öz işinə başlaya bilər.

Dünya azərbaycanlılarının III qurultayı açıq elan edildi.

Azərbaycan Respublikasının dövlət himni əzəmətlə səsləndi.

Qurultay iştirakçıları dünya azərbaycanlılarının təşkilatlanması, ümumi məqsəd və vahid azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi üçün tarixi xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin xatirəsini birdəqiqəlik sükutla yad etdilər.

Sonra "Gücümüz birliyimizdədir!" sənədli filmi nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev qurultayda geniş nitq söylədi

* * *

Dünya azərbaycanlılarının III qurultayının proqramı və reqlamenti təsdiq edildi, işçi orqanları yaradıldı.

Fasilədən sonra qurultay öz işini davam etdirdi.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İBRAHİMOV ötən qurultaydan sonra görülmüş işlərin hesabatına dair məlumat verdi. Bildirdi ki, ulu öndər Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycanın maraq və mənafeləri naminə xaricdə yaşayan həmvətənlərimizin birliyini təmin edən azərbaycançılıq məfkurəsi yaranmışdır. Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirərək, mütəşəkkil diasporun və güclü lobbinin formalaşması məsələsinin daim diqqətdə saxladığını vurğulayan komitə sədri dövlətimizin başçısının verdiyi tövsiyə və tapşırıqların Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etdiyini bildirdi.

N.İbrahimov ikinci qurultaydan ötən dövrdə xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesinin daha da sürətləndiyini deyərək, hazırda dünyanın müxtəlif ölkələrində azərbaycanlıların 416 diaspor təşkilatının fəaliyyət göstərdiyini dedi. Komitə sədri, həmçinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun müstəsna rol oynadığını xüsusi vurğuladı.

Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekov Dünya azərbaycanlılarının III qurultayına dəvət edildiyi üçün minnətdarlıq etdi. Hər iki türk xalqının qədim tarixi ənənələrə və əlaqələrə malik olduğunu deyən A.Keldibekov hazırda Qırğız Respublikasında 20 mindən çox azərbaycanlının yaşadığını və onların bu ölkənin ictimai-siyasi və sosial həyatında yaxından iştirak etdiklərini bildirdi. O, Azərbaycanda həyata keçirilən uğurlu islahatları dünya səviyyəsində nümunəvi model adlandırdı. Qırğız Respublikası Parlamentinin sədri ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi.

Gürcüstanın Kvemo Kartli-Borçalı bölgəsinin qubernatoru David Kirkitadze Prezident Mixeil Saakaşvilinin qurultay iştirakçılarına ünvanlanan məktubunu oxudu. Məktubda ölkələrimiz arasında mövcud əlaqələrin inkişafında Gürcüstandakı Azərbaycan diasporunun mühüm rol oynadığı vurğulanır.

Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın qurultay iştirakçılarına salamlarını çatdıran Türkiyə Respublikası Nazirlər Kabineti yanında xaricdə yaşayan türklər və qohum topluluqlarla iş üzrə başqanlığın sədri Kamal YURTNAC hər iki qardaş ölkənin diaspor təşkilatlarının birgə və qarşılıqlı fəaliyyət göstərdiyini vurğuladı, Avropa və Amerikadakı təşkilatlarımızın erməni lobbisinin uydurma və əsassız iddialarına qarşı uğurla çalışdıqlarını dedi.

Rusiya Elmlər Akademiyasının akademiki Vladimir KOLESNİKOV tarixi dostluq münasibətlərinə malik olan Azərbaycan-Rusiya əlaqələrinin daimi inkişafda olduğunu bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin bu əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini xüsusi qeyd etdi.

Azərbaycan və qaqauz xalqları arasındakı əlaqələrin tarixinin qədim olduğunu deyən Moldovanın Qaqauz Yeri Başqanı Mixail FORMUZAL bütün türk dünyasının birləşməsinin əhəmiyyətini vurğuladı.

Sonra qurultayın Mandat Komissiyasının sədri, Milli Məclis sədrinin birinci müavini Ziyafət ƏSGƏROVUN hesabatı dinlənildi.

"Ümummilli lider Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün Prezident İlham

Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir, dünya birliyinə inteqrasiya edir", - deyən Z.Əsgərov bildirdi ki, Dünya azərbaycanlılarının III qurultayına 1272 nümayəndə seçilmişdir. Bu mötəbər mərasimdə 42 ölkədən 579 nümayəndə iştirak edir. Rusiya, Türkiyə, Ukrayna, Almaniya, Gürcüstan, ABŞ, İsveç Krallığı, Niderland, İsrail, Özbəkistan, Fransa, Böyük Britaniya, Kanada daha çox nümayəndə ilə təmsil olunur. Bundan əlavə, qurultaya xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin 182 rəhbəri də qatılmışdır. Ölkəmizin bölgələrindən olan nümayəndələrin də iştirak etdiyi qurultayın işini 21 xarici ölkədən 37 media işçisi işıqlandırır.

Qurultayın Azərbaycan diasporu üçün mühüm əhəmiyyət kəsb etdiyini deyən Belçika parlamentinin senatoru xanım Ann Mari LİZİN ölkəmizdəki hərtərəfli inkişafdan danışdı. Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrin inkişafından bəhs edən senator dedi ki, təmsil etdiyi ölkə hesab edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli vacibdir.

Azərbaycanda bütün millətlərin nümayəndələrinin, o cümlədən yəhudilərin təhlükəsiz şəraitdə yaşadığını deyən "Azİz" Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının prezidenti İosif ŞAQAL isə bildirdi ki, bu gün İsraildə Azərbaycana çox böyük maraq vardır. "İsraildə ermənilərin qondarma "soyqırımı" tanınmır və yəhudi diasporu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ həqiqətlərini bütün dünyaya olduğu kimi çatdırır", - deyən İosif Şaqal ulu öndər Heydər Əliyevin Azərbaycan-İsrail münasibətlərinin inkişafındakı rolunu xüsusi qeyd etdi.

Türkiyənin Mərmərə qrupu Strateji və Sosial Araşdırmalar Fondunun sədri Akkan SUVER də ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan məqsədyönlü siyasətin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini söylədi.

Bu qurultay yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün çox mühüm əhəmiyyət kəsb edir, - deyən A.Suver bildirdi ki, qurultay dünya azərbaycanlılarını bir araya yığmaqla yanaşı, həm də milli şüurun qorunub saxlanılmasında xüsusi rol oynayır.

Şimali Kipr Yaxın Doğu Universitetinin rektoru Suat GÜNSEL dedi ki, Azərbaycanı zamana bənzədirəm. Bu ölkə zaman kimi yalnız irəliyə gedir. Bu qurultayın Azərbaycan diasporunun daha da fəallaşmasına, dəqiq və praqmatik addımlar atmasına zəmin yaradacağına əminəm.

Latviya Seyminin deputatı Aleksandr SAKOVSKİ təmsil etdiyi ölkə və ali qanunverici orqan nümayəndələri adından qurultay iştirakçılarını salamladı, Latviya-Azərbaycan əlaqələrinin genişlənməsində Prezident İlham Əliyevin xidmətlərini xatırladı.

Lüksemburq parlamentinin deputatı Jacques-Yves FLENCKES ölkəsində azərbaycanlıların da yaşadığını bildirərək onların Lüksemburqun ictimai-siyasi həyatında mühüm rol oynadığını dedi. O, Azərbaycanda gedən inkişafın və ölkəmizdə müşahidə etdiyi müsbət dinamikanın Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi kimi qiymətləndirdi.

Fransanın Brazzavil Universitetinin rektoru, beynəlxalq məsələlər üzrə vəkil Emmanuel KOLİYE Azərbaycan ilə Fransa arasındakı dostluq münasibətlərinin tarixindən danışdı. O, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin Azərbaycan-Fransa əlaqələrinin inkişafında mühüm rol oynadığını deyərək, xalqımızın

ümummilli lideri Heydər Əliyevin adını daşıyan Fondun sivilizasiyalararası dialoqa mühüm töhfələr verdiyini bildirdi.

Niderlandın Əyalət Parlamentinin deputatı, Əmək Uğrunda Partiyanın üzvü Songül AKKAYA Benilüks-Azərbaycan Cəmiyyətinin fəaliyyətindən danışdı. O, bu qurumun Niderlandın ictimai-siyasi həyatında mühüm rol oynadığını dedi.

Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Məmmədbağır ƏLİYEV isə II qurultaydan keçən beş ildə görülən işlərdən danışdı. Bildirdi ki, bu dövrdə rəhbərlik etdiyi qurumun 80-dən çox regional, 23 yerli təşkilatı yaradılmış, Rusiyada işıq üzü görən ilk həftəlik diaspor mətbu orqanı fəaliyyətə başlamışdır.

Rumıniyada yaşayan 40 minə yaxın Krım türklərinin adından danışan Rumıniya parlamentinin üzvü Aledin AMET Azərbaycan diasporunun fəaliyyətinin ildən-ilə genişlənməsindən məmnun olduğunu dedi.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan Dərnəyinin sədri Sinan OĞAN isə qurultayı Azərbaycan tarixində mühüm hadisə adlandırdı.

Türkiyədə yaşayan üç milyon azərbaycanlıdan biri olduğunu və bununla hər zaman fəxr etdiyini deyən Sinan Oğan Azərbaycan-Türkiyə birliyinin türk dünyası həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynadığını bildirdi.

Amerika Azərbaycanlıları Şəbəkəsinin icraçı direktoru Adil BAĞIROV Amerikadakı Azərbaycan diasporunun fəaliyyətindən danışdı. Bu gün Amerikadakı diaspor təşkilatlarımızın erməni lobbisinin məkrli addımlarına qarşı türk diasporu ilə birgə mübarizə apardığını deyən A. Bağırov Azərbaycan həqiqətləri ilə bağlı Birləşmiş Ştatların siyasi dairələrinə 200 mindən çox məktub göndərildiyini, Qarabağ Fondunun yaradıldığını diqqətə çatdırdı.

Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar KÖMÜR Azərbaycan dövləti tərəfindən daim diasporumuza lazımi diqqət və qayğının göstərilməsinə görə Prezident İlham Əliyevə təşəkkürlərini çatdırdı. Başar Kömür ölkəmizlə bağlı reallıqların və Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti ilə əlaqədar həqiqətlərin Avropa ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən danışdı.

Türkiyənin keçmiş turizm naziri İlhan AKÜZÜM xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan diasporunun yaradılması və formalaşması istiqamətində gördüyü işləri yüksək qiymətləndirdi. Türkiyə ilə Azərbaycan arasında daimi dostluq və qardaşlıq əlaqələrinin olduğunu xatırladan qonaq bunu diaspor təşkilatlarının fəaliyyətində də özünü büruzə verdiyini dedi.

Prezident İlham Əliyevin qurultaydakı nitqinin proqram xarakterli olduğunu deyən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, redaksiya komissiyasının sədri Əli HƏSƏNOV tədbirin əhəmiyyətini vurğulayaraq ümumilikdə, qurultayda 20 çıxışın dinlənildiyini, bu çıxışlarda 35-ə yaxın müxtəlif təklifin səsləndiyini bildirdi.

Sonra həmin təkliflər də nəzərə alınmaqla qurultayın yekun sənədləri qəbul olundu.

İştirakçılar qurultayın qətnaməsini, qurultay nümayəndələri adından Prezident İlham Əliyevə müraciəti, dünya azərbaycanlılarına ünvanlanan müraciəti və qurultay nüma-

yəndələri adından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlara, xarici ölkə parlamentlərinə, dövlət və hökumət başçılarına müraciəti yekdilliklə qəbul etdilər.

Qurultayda, həmçinin 2001-ci ildə yaradılan Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının fəaliyyətinin davam etməsi və şuranın icra katibliyinin yaradılması qərara alındı.

Qurultay iştirakçıları Prezident İlham Əliyevi yekdilliklə Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasına sədr seçdilər.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovu isə şuranın icra katibi vəzifəsinə seçdilər. Qurultayda qərara alındı ki, Əlaqələndirmə Şurasının tərkibi 107 nəfərdən 115 nəfərə çatdırılsın.

Əli Həsənov qeyd etdi ki, iyulun 6-da dövlət və hökumət nümayəndələri qurultay iştirakçıları ilə görüşəcək, burada səslənən təkliflərlə bağlı müzakirələr aparacaqlar.

Bununla da Dünya azərbaycanlılarının III qurultayı bağlı elan edildi.

MÜASİR, MÜSTƏQİL AZƏRBAYCAN BÜTÜN AZƏRBAYCANLILARIN VƏTƏNİDİR

Dünya azərbaycanlılarının III qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

-Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Dünya azərbaycanlılarının III qurultayının açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Bu qurultay çox əlamətdar bir hadisədir. Azərbaycanda Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi artıq gözəl ənənəyə çevrilmişdir. Bu ənənənin təməlini 2001-ci ildə ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq dünya azərbaycanlıları bir araya gəldilər, çox gözəl qurultay keçirildi. Ondan sonra dünyada yaşayan azərbaycanlıların təşkilatlanması üçün yeni şərait yaradılmışdır.

2002-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. İndi onun adı Diasporla İş üzrə Komitədir. Bütün qitələrdə yaşayan soydaşlarımız komitənin fəaliyyəti nəticəsində öz təşkilatlarını yaratmışlar. Bu təşkilatlar bu gün artıq bütün qitələrdə, bütün ölkələrdə uğurla fəaliyyət göstərirlər.

Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi elan edilmişdir. Bu gün 31 dekabr bizim milli bayramımızdır.

Bu gün nümayiş olunan filmdə ölkəmizin inkişafının müxtəlif istiqamətləri göstərilmiş-

dir. Azərbaycan bu il müstəqilliyinin 20 illik yubileyini qeyd edir. Bu 20 il ərzində biz böyük və şərəfli yol keçmişik. İyirmillik yubileyi qeyd edərkən ölkəmiz, xalqımız üçün ulu öndər Heydər Əliyevin verdiyi töhfələri bir daha yada salırıq. Müstəqil Azərbaycan üçün ən həlledici anlarda Azərbaycan xalqının tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bilmişdir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması - bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi.

1993-cü ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu. Ölkəmizdə sabitlik yarandı və Azərbaycanda inkişaf dövrü başlandı. Ona görə biz tam əminliklə və qətiyyətlə deyirik: Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, müstəqil Azərbaycanın qurucusudur. Bu gün Azərbaycan onun qoyduğu yolla gedərək inkişaf edir.

Azərbaycanın inkişaf istiqamətləri 1993-cü ildə və dövlətçiliyimizin formalaşmasının ilk illərində müəyyən edilmişdir. O dövr üçün bu təşəbbüslər həlledici məna daşıyırdı. Çünki bu gün Azərbaycanın reallıqları məhz o dövrdə müəyyən edilmiş və seçilmiş istiqamətlər üzərində qurulmuşdur. Düzgün istiqamət seçilmişdir: Azərbaycan dünya birliyinə inteqrasiya etməli, açıq qapılar siyasəti aparmalı, xarici investisiyaları cəlb etməli idi. Biz bütün bunlara nail ola bilmişik. Azərbaycanda demokratik, dünyəvi dövlətin qurulması da məhz Heydər Əliyevin siyasətinin nəticəsidir. Bu gün Azərbaycan sürətlə və uğurla inkişaf edən ölkədir. Ölkəmizdə siyasi proseslər çox müsbət istiqamətdə gedir. Siyasi sistem təkmilləşir. Ölkəmiz demokratik əsaslarla idarə olunur. Söz, vicdan, mətbuat azadlığı, insan hüquqlarının qorunması məsələləri bizim üçün prioritetdir. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Biz bütün beynəlxalq qurumlarla, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq aparırıq.

Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Bizim Əsas Qanunumuz imkan verir ki, ölkəmiz uğurla və sürətlə inkişaf etsin.

Ölkə qarşısında duran vəzifələr icra edilir. Bir daha demək istəyirəm ki, 1990-cı illərdə düzgün müəyyən edilmiş istiqamət bugünkü reallıqlara gətirib çıxarmışdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir və yeni formalarla zənginləşdirilir.

Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Eyni zamanda, biz milli mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhəmiyyət daşıyır. Əsrlər boyu Azərbaycan xalqı milli mənəvi dəyərlərini, ana dilini - Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir.

Bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin əlamətidir. Bununla

bərabər, dünyada mövcud olan və bizim üçün məqbul sayılan ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunur. Azərbaycanda geniş modernləşmə siyasəti aparılır. Həyatımızın bütün istiqamətlərində modernləşmə əlamətlərini görə bilirik. Biz bundan sonrakı dövrdə də bu siyasətə sadiq qalacağıq.

Azərbaycanda, eyni zamanda, güclü iqtisadi potensial yaradılmışdır. Son illər ərzində aparılan iqtisadi islahatlar nəticəsində ölkə tam şəkildə özünü təmin edə bilir və hətta dünya üçün çox böyük problemlər yaratmış maliyyə və iqtisadi böhran Azərbaycana çox az təsir etmişdir. Ən böhranlı illərdə - 2008-ci, 2009-cu, 2010-cu illərdə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir, iqtisadiyyatımız artmışdır.

Azərbaycanda siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır. Məqsədimiz ondan ibarətdir ki, bu islahatların dərinləşməsi nəticəsində güclü, müasir dövlət yaradılsın. Biz artıq bu istiqamətdə çox böyük nailiyyətlərə çata bilmişik.

Son 7 il ərzində ölkə iqtisadiyyatı üç dəfə artmışdır. Yəni, ümumi daxili məhsul 300 faiz artmışdır. Bu da dünya praktikasında analoqu olmayan bir təcrübədir. Sənaye istehsalı da təxminən üç dəfə artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı beş dəfə azalmışdır. Bu, onu göstərir ki, bizim tərəfimizdən aparılan islahatlar sosialyönümlü islahatlardır. Siyasətimizin təməlində insan amili dayanıbdır və bir neçə il əvvəl elan edilmiş "Biz neft kapitalını insan kapitalına çevirməliyik" şüarı bu gün reallaşır. Bunun nəticəsində iqtisadiyyatımızın bütün istiqamətlərində bir canlanma və inkişaf görürük. Maliyyə imkanlarımız genişlənir. Azərbaycanda çox böyük quruculuq işləri aparılır. Azərbaycana xarici və daxili investisiyalar qoyulur. Təkcə keçən il ölkəmizə 16 milyard dollar sərmayə qoyulmuşdur. Ümid edirəm ki, bu il bu rəqəm daha da böyük olacaqdır. Yenə də deyirəm, aparılan islahatlar nəticəsində ən ağır, ən böhranlı aylarda, illərdə biz iqtisadi və makroiqtisadi sabitliyi qoruya bilmişik. Ondan əlavə, atılan addımlar və irəli sürülən təşəbbüslər nəticəsində insanların maddi rifahı artıb, sosial proqramlar icra edilib, sosial ödəmələr, maaşlar, pensiyalar artırılır.

İqtisadi müstəqillik, əlbəttə, imkan verir ki, biz beynəlxalq məsələlərlə də bağlı fikrimizi açıq-aydın ifadə edək. Bölgədə gedən proseslərə Azərbaycanın təsir imkanları artır. Bu da təbiidir. Çünki Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir. Onu da qeyd etməliyəm ki, ümumi daxili məhsulun 80 faizi özəl sektorda formalaşır. O da öz növbəsində göstərir ki, Azərbaycanda liberal islahatlar uğurla aparılır.

Regional əməkdaşlıq təşəbbüslərinin irəli sürülməsi nəticəsində regionda çox gözəl əməkdaşlıq iqlimi yaranmışdır. Ulu öndər Heydər Əliyevin neft strategiyası çərçivəsində irəli sürdüyümüz təşəbbüslər gözəl nəticələrini verməkdədir. Azərbaycan çox uğurlu enerji siyasəti aparır. Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, son aylar daha çox Azərbaycanın adı çəkilir və bu da təbiidir. Çünki Azərbaycanda görülən işlər və infrastruktura qoyulan vəsait bu gün yeni vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Biz bundan sonra da bu siyasətə sadiq qalacağıq. Azərbaycanın inkişafı təkcə iqtisadi addımlarla məhdudlaşmamalıdır. Yenə də deyirəm, biz istəyirik ki, bütün istiqamətlərdə ən qabaqcıl texnologiyalar, ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq olunsun və insanların yaşayış səviyyəsi ildən-ilə artsın. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizim düşünülmüş strategiyamız vardır və taktiki addımlarımız da çox uğurludur. Azərbaycan nə xarici, nə daxili siyasətdə, nə də icra etdiyi proqramlarda bir dəfə də olsun

səhv etməmişdir. Hesab edirəm ki, bunun nəticəsində bu gün ölkəmizin dünyadakı hörməti böyük dərəcədə artmışdır.

Azərbaycan etibarlı tərəfdaş kimi tanınır, bizim sözümüzə inanırlar. Bizimlə əməkdaşlıq və dostluq etmək istəyən ölkələrin sayı artmaqdadır. Müstəqillik ən böyük sərvətdir, ən böyük uğurumuzdur. Azərbaycan 20 ildir ki, müstəqil yaşayır, Azərbaycan xalqı azad yaşayır. Azərbaycan xalqı öz taleyinin sahibidir, Azərbaycan xalqının iradəsi bizim üçün ən vacib amildir. Ölkə qarşısında duran sosial -iqtisadi məsələlərin həlli əminəm ki, bundan sonra da uğurla icra ediləcəkdir. Çünki bunu deməyə əsas verən bizim təcrübəmiz, artıq əldə edilmiş maliyyə potensialımız və iqtisadi imkanlarımızdır.

Ölkə qarşısında duran ən ağrılı problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, uzun illər danışıqların aparılmasına baxmayaraq, bu məsələ həllini tapmır. Torpaqlarımız işğal altındadır, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir, dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, digər təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü orada müdafiə edilir və işğalçı qüvvələrin işğal edilmiş torpaqlardan çıxarılması da orada nəzərdə tutulur. Ancaq əfsuslar olsun ki, məsələ həllini tapmır. Bunun yeganə səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və sülhə hazır olmamasıdır. Ancaq biz yaxşı bilirik ki, gec-tez Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Biz istəyirik ki, bunu sülh yolu ilə və tezliklə həll edək. Ermənistan tərəfi də anlamalıdır ki, artıq Azərbaycanda yaradılmış potensial Ermənistanın potensialı ilə müqayisə edilə bilməz. Bizim iqtisadi imkanlarımız və iqtisadi potensialımız Ermənistandakından 10 dəfə artıqdır. Vaxt keçdikcə bu fərq daha da çoxalacaq, iki ölkə arasındakı uçurum daha da genişlənəcəkdir. Ona görə Ermənistanın marağında olmalıdır ki, bu məsələ tezliklə öz həllini tapsın. Çünki Azərbaycanla rəqabət aparmaq indi onların gücündə deyildir. Bizim təkcə hərbi xərclərimiz Ermənistanın bütün dövlət büdcəsindən 50 faiz artıqdır. Bu, hələ bizim gördüyümüz işlərin birinci nəticələridir. Biz çox yaxşı başa düşürük və görürük ki, bizi nələr gözləyir. Azərbaycan dünya miqyasında zəngin ölkələrin arasında olacaqdır. Artıq beynəlxalq təşkilatların reytinqlərində Azərbaycanın mövqeləri istənilən istiqamətdə çox yüksəkdir. İqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinə görə biz MDB məkanında birinci yerdəyik. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi və hazırlığına görə biz MDB məkanında birinci yerdəyik. İnsan inkişafı indeksinə görə də ən böyük sıçrayışı Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə Azərbaycan etmişdir.

Yəni biz çox yaxşı bilirik ki, 5 il, 10 il sonra Azərbaycanın potensialı nədən ibarət olacaqdır. Çünki bir daha demək istəyirəm ki, bunu proqnozlaşdırmaq üçün əsas verən gördüyümüz işlərdir və icra edilən layihələrdir. Ona görə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunması həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına cavab verir. Beynəlxalq birlik də bunu istəyir, Beynəlxalq birlik də istəyir ki, bu münaqişəyə son qoyulsun. Son aylar ərzində bizi ruhlandıran vacib amillərdən biri də odur ki, bu məsələ ilə bağlı vasitəçilər və onların dövlət başçıları birmənalı şəkildə bildirirlər ki, status-kvo qəbuledilməzdir. Status-kvo dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi təbii ki, torpaqlarımızın işğal altından çıxmasını tələb edir.

Biz ümid edirik ki, danışıqların nəticəsi olacaqdır. Hər halda Azərbaycan danışıqlarda bütün dövr ərzində konstruktivlik nümayiş etdirmişdir. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib tezliklə öz ərazi bütövlüyümüzü bərpa edək.

Siz, dünyada yaşayan azərbaycanlılar yaxşı bilirsiniz ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız o ərazilərdə yaşamışdır, yaratmışdır. Ermənilər o əraziyə qonaq kimi gəlmişlər. Biz onların Dağlıq Qarabağa gəlməyinin tarixçəsini də yaxşı bilirik. Vaxtilə 1978-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağda onların Dağlıq Qarabağa köçürülməsini əks etdirən abidə ucaldılmışdır. Müharibənin ilk illərində ermənilər o abidəni dağıtmışlar. Ancaq tarixi dəyişdirmək mümkün deyildir.

Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqeyimizi müdafiə edir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatda da Helsinki Yekun Aktına istinad edilir. Helsinki Yekun Aktında açıq-aydın göstərilir ki, ərazi bütövlüyü prinsipləri xalqların öz müqəddəratını müəyyən etmək prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Beləliklə, hüquqi cəhətdən də mövqeyimiz güclüdür.

İqtisadi cəhətdən indi Ermənistan ilə Azərbaycan müqayisə edilə bilməz. Bu tam başqa, necə deyərlər, çəki dərəcələridir. Siyasi proseslərə təsir imkanları baxımından da Azərbaycan daha əlverişli mövqedədir. Çünki həm coğrafi baxımdan, həm gördüyümüz işlər, infrastruktur, enerji siyasəti, bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və Azərbaycanın rolu əlbəttə ki, siyasi cəhətdən də çəkimizi daha da artırır. Mən şübhə etmirəm ki, bütün bu amillər, üstəgəl Azərbaycan Ordusunun güclənməsi nəticəsində biz Dağlıq Qarabağ münaqişəsini həll edə biləcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bərpa ediləcəkdir.

Əziz dostlar, əziz həmvətənlər, bir daha sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Mən əminəm ki, Vətənə gəlməyiniz sizin üçün çox xoşdur. Bakının müasir görkəmi də əminəm ki, sizə çox xoş təəssürat bağışlayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakı bizim paytaxtımızdır, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişaf planları da vardır. Əminəm ki, hər dəfə Bakıya gələndə siz şəhərimizin yeni, gözəl guşələri ilə tanış olacaqsınız. Bu fürsətdən istifadə edərək istərdim ki, Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı fikirlərimi sizinlə bölüşüm.

Birinci növbədə qeyd etməliyəm və çox şadam ki, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşıb. Birinci qurultaydan keçən dövrdə, yəni 10 il ərzində böyük işlər görülübdür, təşkilatların sayı artıbdır. Beş il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatıbdır. Bu, çox vacibdir. Ancaq eyni zamanda, kəmiyyət bu məsələ ilə əlaqədar bəlkə də həlledici rol oynamır. Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilərlər. Bu, çox mühüm amildir. Mən çox şadam ki, bu gün dünyada fəaliyyət göstərən diaspor təşkilatları yeni səviyyəyə qalxıbdır. Bu təşkilatlar arasında koordinasiya işlərinin aparılması əlbəttə ki, onların fəaliyyətini daha da gücləndirir. Mən hesab edirəm ki, diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə bütün Azərbaycan icmasını birləşdirməlidir. İdeal variant ondan ibarət ola bilər ki, hər bir azərbaycanlı diaspor təşkilatlarına üzv olsun, onların tədbirlərində iştirak etsin, öz dəstəyini versin, öz köməyini göstərsin və eyni zamanda, diaspor təşkilatları tərəfindən də lazım olanda kömək görsün. Bunu etmək üçün bu təşkilatlar daha da güclü olmalıdır. Mən hesab edirəm ki, ən vacib amillərdən biri diaspor təşkilatlarının birliyidir. Bəzi hallarda bir ölkədə bir neçə diaspor təşkilatı fəaliyyət göstərir, böyük ölkələrdə əlbəttə ki, onların sayı onlarladır. Əksər hallarda cəmiyyətlər arasında əlaqələr sağlamdır. Ancaq elə hallar var ki, orada müəyyən ziddiyyətlər, müəyyən problemlər, anlaşılmazlıq ortaya çıxır. Mən çox xahiş edirəm ki, əgər belə bir hal varsa, buna son qoyulsun. Çünki biz ölkə daxilində də, xaricdə də bir yerdə olmalıyıq. Birlik bizi gücləndirir. Birlik olmasa, biz güclü ola bilmərik. Bu aksiomadır. Ona görə hesab edirəm ki, diaspor təşkilatlarının fəaliyyətinin inkişafı üçün biz birliyi tam şəkildə təmin etməliyik. Eyni zamanda, hazırda Azərbaycanın dünyadakı daimi və diplomatik nümayəndəliklərinin sayı da artmaqdadır. Keçən qurultay zamanı bizim 46 səfirliyimiz və konsulluğumuz var idi. Hazırda onların sayı 65-ə çatmışdır. Yaxın zamanlarda 8 ölkədə yeni səfirlik və konsulluğun açılışı nəzərdə tutulur. Bu, əlbəttə ki, ilk növbədə Azərbaycan dövlətinin qüdrətini göstərir. Yəni, onu göstərir ki, biz bütün dünya ilə əməkdaşlıq edirik və hazırda 65-dir və 73-ə çatanda əlbəttə ki, dünya miqyasında elə vacib ölkə qalmayacaq ki, orada səfirliyimiz olmasın.

Səfirliklərlə diaspor təşkilatları arasındakı əməkdaşlıq daha da güclü, daha da məqsədyönlü olmalıdır. Mən bu alqışları eşidirəm və görürəm ki, nə demək istədiyimi siz də yaxşı başa düşürsünüz. Mən çox dərinə getmək istəməzdim, amma bəzi hallarda səfirliklərlə diaspor təşkilatları arasında olan ziddiyyətlər məni çox incidir. Biz buna yol verməməliyik. Səfirlik Azərbaycan dövlətinin bir parçasıdır, Azərbaycan dövlətinin rəsmi nümayəndəliyidir, Azərbaycan dövlətinin xarici ölkələrdə simvoludur. Biz elə etməliyik ki, səfirliklərlə diaspor təşkilatları arasında daim mehriban münasibətlər olsun. Əgər hər hansı bir problem, anlaşılmazlıq, yaxud da ki, narazılıq varsa, o, dərhal öz həllini tapmalıdır. Yəni, hərə bir tərəfə, öz küncünə çəkilməməlidir ki, biz sonra müdaxilə edək və vəziyyəti normallaşdırmağa çalışaq. Onlar özləri bir-birinə hörmətlə yanaşmalıdırlar, bir-birinin fəaliyyətini dəstəkləməlidirlər, çünki bizim bir Vətənimiz var - Azərbaycan dövləti. Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, onun dövləti haqqında müsbət imic formalaşsın, xalqı haqqında reallığı əks etdirən bir təəssürat yaransın. Əgər xarici ölkə vətəndaşları görsə ki, azərbaycanlılar xaricdə bir-biri ilə yola getmirlər, yaxud da ki, bir-birinin əleyhinə iş aparırlar, istər-istəməz onlarda ölkə haqqında, xalqımız haqqında düzgün olmayan təəssürat yarana bilər. Ona görə də mən sizdən xahiş edirəm ki, əgər bu vaxta qədər, indi kimin səhvindən nə olub olub, onu gərək qoyaq kənara, o səhifəni bağlayaq. Bundan sonra diaspor təşkilatları və səfirliklər bir komanda şəklində, bir yumruq kimi işləməlidirlər və Azərbaycanın nə qədər gözəl ölkə olduğunu yaşadıqları ölkənin vətəndaşlarına birgə çatdırmalıdırlar.

Yenə də demək istəyirəm ki, əksər hallarda biz səfirliklərlə diaspor təşkilatları arasında çox gözəl əməkdaşlıq edirik. Ancaq dediyim kimi, elə hallar da var və əminəm ki, bu qurultaydan sonra bu məsələlər də yoluna qoyulacaqdır.

Diaspor təşkilatlarının fəaliyyəti, eyni zamanda, erməni lobbisinin Azərbaycan əleyhinə apardığı çirkin kampaniyaya qarşı tutarlı bir cavabdır. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində bizim nə böyük maliyyə imkanlarımız var idi, xaricdə yaşayan azərbaycanlılar da o vaxt hələ təşkilatlanmamışdılar. Ancaq hazırda bütün ölkələrdə diaspor təşkilatlarımız erməni təbliğatına qarşı Azərbaycan reallıqlarını ortaya qoyurlar. Mən bu hərəkətləri, bu siyasəti alqışlayıram və bizim diaspor təşkilatlarının üzvlərinə bu fədakar və çox gözəl missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. Biz çalışmalıyıq ki, Azərbaycan haqqında reallıqları bütün dünyaya bildirək. Bizə qarşı dünyada erməni lobbisi fəaliyyət göstərir. Bizə qarşı mübarizə aparır. Onların təsir dairəsində olan bəzi siyasətçilər, bəzi mətbu orqanlar, bəzi ictimai qurumlar Azərbaycana qarşı kampaniya aparırlar - ləkələmə kampaniyası, Azərbaycan reallıqlarını təhrif etmək üçün uydurmalar, düzgün olmayan faktlar yayırlar, yalanlar, böhtanlar yağdırırlar.

Azərbaycan dövləti özünü qoruyur və qoruyacaqdır. Ancaq mən çox şadam ki, diaspor təşkilatlarımız da nəinki erməni lobbi təşkilatlarına tutarlı cavab verir, eyni zamanda, onlar özləri orada Ermənistana qarşı çox ciddi və real faktlar əsasında qurulmuş təbliğat işləri aparırlar. Mən xaricdə çalışan səfirlərimizlə görüşlərdə həmişə demişəm və bu gün də demək istəyirəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır. Bizim diplomatiyamız müdafiə, özünümüdafiə xarakteri daşımamalıdır. Hücum diplomatiyamız nəticə verir. Xüsusilə nəzərə alsaq ki, Ermənistan-Azərbaycan münaqişəsində haqlı tərəf və zərər çəkən tərəf bizik, əlbəttə, arqumentlərimiz daha da ciddidir və daha da tutarlıdır. Hesab edirəm ki, növbəti dövrdə də erməni lobbisinə qarşı bütün dünyada mübarizəmizi davam etdirməliyik, onların yalanlarını ifşa etməliyik, Azərbaycan həqiqətlərini təbliğ etməliyik və Azərbaycan reallıqlarını olduğu kimi təqdim etməliyik. Müxtəlif konfranslar, simpoziumlar, "dəyirmi masa"lar keçirilir. Mən bunu alqışlayıram. Qəzetlər buraxılır. Hesab edirəm ki, qəzetlərin sayı daha da çox olmalıdır və mütəmadi qaydada xaricdə Azərbaycan dilində qəzetlər buraxılmalıdır. O ölkələrin dillərində qəzetlər, jurnallar buraxılmalı, təbliğat xarakterli materiallar nümayiş etdirilməlidir. Biz indi internet dövründə yaşayırıq və Azərbaycanda internet azaddır. Bu da çox vacib bir məsələdir. Heç bir məhdudiyyət yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizə çatmışdır. Bəzi hallarda yenə də erməni təbliğatı nəticəsində, yaxud da ki, erməni lobbisinin təsiri altında olan bəzi riyakar siyasətçilər tərəfindən Azərbaycanda guya mətbuat azadlığının olmaması haqqında fikirlər eşidirik. Necə ola bilər ki, azad internet olan ölkədə, internet istifadəçilərinin sayı 50 faiz olduğu təqdirdə, bütün azad mətbuat mövcud olduğu təqdirdə bizə desinlər ki, burada mətbuat azad deyil. Yəni, internet dövründə biz bu imkanlardan da istifadə etməliyik. İnternet saytları açılmalıdır. Azərbaycan xalqının tarixini, mədəniyyətini, Azərbaycanın bugünkü reallıqlarını, siyasətini əks etdirən çoxsaylı saytlar yaradılmalıdır və Azərbaycanın dövlət qurumları bu işlərdə də öz köməyini göstərməlidirlər. Mən artıq müvafiq göstərişlər vermişəm. Yəni, bir sözlə, biz çalışmalıyıq ki, xaricdə özümüzü olduğu kimi təqdim edək. Bu işdə daha da böyük uğurlar əldə etmək mümkündür.

Bununla bərabər, mən hesab edirəm, - bəzi hallarda biz artıq bunu görürük, - xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız o ölkələrin daxili siyasətinin amilinə çevrilməli-

dir. Artıq bunun vaxtı gəlib çatıb. Həm ölkəmizin inkişafı, həm diaspor təşkilatlarımızın güclənməsi qarşımızda indi belə imkanlar açır. Soydaşlarımız - azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdırlar. Onların sayı da bəzi hallarda buna imkan verir. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır. Mən hesab edirəm ki, bu, realdır. Ümid edirəm ki, biz növbəti qurultaya qədər artıq bu barədə də yaxşı xəbərlər eşidəcəyik. Bu həm orada yaşayan azərbaycanlılar üçün bir dəstək olacaq, dayaq olacaq, həm ölkəmiz üçün. Çünki xaricdə azərbaycanlılar nə qədər güclü olsa, dövlətimizin maraqları da o qədər müdafiə olunacaqdır. Nə qədər Azərbaycan güclü olsa, soydaşlarımız özlərini o qədər də əmin, rahat hiss edəcəklər. Ona görə də hesab edirəm ki, diaspor təşkilatlarının bütövlükdə və onların üzvlərinin fərdi qaydada real siyasətə, real işlərə daha da fəal cəlb edilməsi çox arzuolunan bir məsələdir. Əlbəttə, siz daim Azərbaycan dövlətinin dəstəyinə arxalana bilərsiniz.

Bizim xaricdə yaşayan soydaşlarımızın müəyyən hissəsi kommersiya strukturlarında işləyir. Daha çox bizneslə məşğul olurlar. Onların kifayət qədər möhkəm iqtisadi dayaqları vardır. Biz bunu alqışlayırıq. Biz istəyirik ki, hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq, yaxşı yaşasın, zəngin olsun, imkanları geniş olsun. Mən çox şadam ki, xaricdə yaşayan soydaşlarımızın mütləq əksəriyyəti yaxşı yaşayır. Azərbaycandan xarici ölkələrə işləmək üçün gedən, yaxud da ki, uzun illər orada yaşayan soydaşlarımız aşağı səviyyəli işlərdə işləmirlər. Onlar ya biznes strukturlarında, ya da ali məktəblərdə elmlə məşğul olurlar. Biznes strukturları da kifayət qədər möhkəmdir. Bizim onlardan yeganə arzumuz ondan ibarətdir ki, ətrafda olan soydaşlara da kömək göstərsinlər.

Bununla bərabər, bu gün Azərbaycanın da, bayaq qeyd etdiyim kimi, iqtisadi imkanları genişlənir. Bizim investisiyalarımız indi nəinki Azərbaycanda, eyni zamanda, xarici ölkələrə də qoyulmağa başlamışdır. Bu da bizim strateji iqtisadi və siyasi addımlarımızdan biridir. İndi Azərbaycanın həm dövlət, həm də ki, özəl şirkətləri xarici ölkələrdə işləyirlər, kontraktları icra edirlər, investisiya qoyurlar. Bu investisiyalar bəzi hallarda yüz milyon, bəzi hallarda milyard dollarla ölçülür.

Azərbaycanın müvafiq dövlət strukturlarına, dövlət şirkətlərinə göstəriş verilmişdir və özəl şirkətlərə tövsiyə edilmişdir ki, çalışdığı ölkələrdə azərbaycanlıları daha da çox işlərə cəlb etsinlər. Bu proses başlanmışdır. Hesab edirəm ki, şirkətlərimiz xaricdə güclənən zaman orada yaşayan azərbaycanlılar bu işlərə daha da çox cəlb ediləcəklər. Burada söhbət təkcə azərbaycanlıları işə götürüb hansısa vəzifə verməkdən getmir. Xaricdə fəaliyyət göstərən şirkətlər Azərbaycan şirkətləri, dövlət şirkətləri tərəfindən icra edilən layihələrdə iştirak etməlidirlər. Podratçı, müqaviləçi kimi iştirak etməlidirlər. Onlar daha da çox pul qazanmalıdırlar.

İstəyirəm, siz biləsiniz ki, dövlət və özəl şirkətlərə bu məsələnin diqqətdən kənarda qalmaması barədə göstəriş və tövsiyələr verilmişdir. Hesab edirəm ki, bu gün və sabah sizin hələ çoxlu görüşləriniz olacaqdır. Dövlət nümayəndələri ilə görüşləriniz olacaqdır. Bu məsələ daha da geniş müzakirə edilə bilər və müzakirə edilməlidir.

Eyni zamanda, biz indi xaricdə Azərbaycan mədəniyyət evlərinin yaradılmasına başlamışıq. Bu yeni təşəbbüsdür. Aparıcı ölkələrin mərkəzi şəhərlərində Azərbaycan dövləti mülkiyyət almaq niyyətindədir. Orada həm Azərbaycan mədəniyyət evlərinin fəaliyyəti təşkil edilməlidir, eyni zamanda, Azərbaycan ticarət evləri də yaradılmalıdır. Göstəriş

verilmişdir ki, paytaxt şəhərlərinin mərkəzi yerlərində, mərkəzi küçələrində Azərbaycan mərkəzləri yaradılmalıdır. Orada Azərbaycan məhsulları təqdim edilməlidir, satılmalıdır, digər təbliğat xarakterli materiallar yayılmalıdır. Yəni, bu, bizim planlarımızda var və bu ildən başlayaraq artıq bu proses icra edilməyə başlanmışdır.

Hesab edirəm ki, mütləq Azərbaycan diaspor təşkilatlarının imkanları da bu işlərdə öz rolunu oynamalıdır. Bu məsələ ilə bağlı Xarici İşlər Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyinə göstərişlər verilmişdir. Hesab edirəm ki, Diasporla İş üzrə Dövlət Komitəsi də bu işlərə qoşulmalıdır ki, biz bu işi maksimum səmərə və xaricdə yaşayan azərbaycanlıların maraqlarını təmin etmək şərti ilə həll edək. Bunun da həm orada yaşayan azərbaycanlılar, həm də bizim üçün böyük faydası olacaqdır.

Əziz dostlar, mənim sizə deyiləsi sözlərim çoxdur. Ancaq vaxt keçir. Mən istəmirəm ki, qurultayın cədvəlinə düzəlişlər edək. İstəyirəm öz çıxışımı yekunlaşdırım. Mən bir daha demək istəyirəm ki, xaricdə yaşayan azərbaycanlıların üçüncü qurultayı çox əlamətdar hadisədir. İlk növbədə, ona görə ki, yenə də biz bir yerə yığışdıq. Yenə də həm Azərbaycan xalqına, həm bütün dünyaya göstərdik ki, biz bir yerdəyik. Biz bir xalqıq, biz böyük xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir.

Mən əminəm ki, siz də Azərbaycanda gedən proseslərə yaxından bələd olan adamlar kimi, haqlı olaraq qürur hissi keçirirsiniz. Azərbaycan müstəqil ölkə kimi iyirmi il ərzində böyük yol keçmişdir - tam şəkildə azad, müstəqil, gözəl iqtisadi imkanlarla. Azərbaycanda insanlar təhlükəsiz şəraitdə yaşayırlar. Əmniyyət, təhlükəsizlik, ictimai-siyasi asayiş qorunur, bütün azadlıqlar vardır. Siyasi və iqtisadi aləmdə heç bir məhdudiyyət yoxdur. Regionda mövqelərimiz kifayət qədər möhkəmdir və tam əminəm ki, getdikcə bizim təsir imkanlarımız daha da artacaqdır. Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var - Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var - azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər.

Çıxışımı ulu öndər Heydər Əliyevin unudulmaz sözləri ilə yekunlaşdırmaq istəyirəm: "Biz hamımız fəxr edirik ki, biz azərbaycanlıyıq".

PREZİDENT İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ AZƏRBAYCANDAKI SƏFİRİ XANIM KAROLİN BRAUNU ÖLKƏMİZDƏ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri xanım Karolin Braunu respublikamızda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı xanım Karolin Braunun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf

etdiyini vurğuladı. Ölkələrimiz arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə britaniyalı diplomata təşəkkürünü bildirən Prezident İlham Əliyev gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Xanım Karolin Braun Azərbaycandakı diplomatik fəaliyyətindən məmnunluğunu bildirdi. O, ölkəmizdəki fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Xanım Karolin Braun ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcə

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINA ÜZV OLAN BİR SIRA DÖVLƏTLƏRİN BU TƏŞKİLATDAKI DAİMİ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Birləşmiş Millətlər Təşkilatına üzv olan bir sıra dövlətlərin bu təşkilatdakı daimi nümayəndələrini qəbul etmişdir.

Prezident İlham Əliyev bu səfərin nümayəndə heyətinin üzvləri üçün ölkəmizi daha yaxından tanımaq və eyni zamanda, ikitərəfli əlaqələrin genişlənməsinə kömək göstərmək baxımından əhəmiyyətindən danışdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın BMT-də təmsil olunan ölkələrlə yaxşı əlaqələri vardır. Qonaqların təmsil etdikləri ölkələrlə Azərbaycanın siyasi əlaqələrinin yaxşı səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev həmin ölkələrlə gələcəkdə iqtisadi əlaqələrin genişləndirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın hazırda sürətlə inkişaf edən ölkə olduğunu və qarşılıqlı sərmayələrin qoyuluşunun müsbət nəticə verə biləcəyini vurğuladı və dedi ki, Azərbaycanın güclü iqtisadi potensialı mövcuddur, müxtəlif qitələrdə nəhəng sərmayə qoymaq imkanları var və nümayəndə heyətinin səfəri zamanı bu imkanların nəzərdən keçirilməsi mümkündür. Prezident İlham Əliyev Azərbaycanın bölgələrindən birinə də səfər etmələrinin nümayəndə heyətində ölkəmiz haqqında yaxşı təəssürat yaratmağa kömək edəcəyinə əminliyini ifadə etdi.

Nümayəndə heyəti adından danışan Qambiyanın BMT yanında daimi nümayəndəsi xanım Süzan Vaffa-Oqu bildirdi ki, ölkəmizə səfərlərindən məmnundurlar. Qəbula görə Prezident İlham Əliyevə təşəkkür edən qonaq Azərabaycanın BMT-dəki daimi nümayəndəliyinin fəaliyyətini də yüksək qiymətləndirdi. "Azərbaycan haqqında kənardan məlumat almaq mümkündür. Lakin səfər zamanı biz Azərbaycan haqqında birbaşa daha dolğun məlumat əldə edə biləcəyik", - deyən BMT təmsilçisi səfərlərinin müxtəlif sahələrdə əməkdaşlıq imkanlarını nəzərdən keçirmək baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi.

Prezident İlham Əliyev bildirdi ki, ikitərəfli əlaqələrin qurulması barədə fikir mübadiləsi aparılmalıdır. "Bunun üçün bizim siyasi əlaqələrimiz var", - deyən dövlətimizin başçısı vurğuladı ki, ikitərəfli əlaqələr iqtisadi sahədə də genişlənməlidir. Azərbaycanın bu sahədə çox işlər görə biləcəyini diqqətə çatdıran dövlətimizin başçısı bildirdi ki, ölkəmiz daim sərmayə qoymaq imkanlarından daha səmərəli istifadə etmək axtarışındadır. Prezident İlham Əliyev əlaqələrin beynəlxalq formatda genişləndirilməsi zərurətindən də danışdı. Dövlətimizin başçısı nümayəndə heyətinin üzvlərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verdi. Qeyd etdi ki, erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmaları barədə BMT Təhlükəsiz-

lik Şurası, Baş Məclisi və digər beynəlxalq təşkilatların qətnamə və qərarları vardır. Bu sənədlərin kağız üzərində qalmasından təəssüf hissi keçirdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, birgə çalışaraq elə bir mexanizm yaradılmalıdır ki, bu cür qərarlar icra edilsin. Dövlətimizin başçısı dedi ki, ölkələr bir-birinin problemlərinə həssas yanaşmalı və kömək etməlidir. Azərbaycanın açıq ölkə olduğunu deyən Prezident İlham Əliyev BMT-dəki nümayəndəliyimizin xalqlar və ölkələr arasında əlaqələrin daha yaxşı qurulması üçün fəal iş gördüyünü söylədi.

Azərbaycan Prezidenti nümayəndə heyətinin üzvlərinə təmsil etdikləri ölkələrin dövlət və hökumət başçılarına salamlarını çatdırmağı xahiş etdi və onları münasib bildikləri vaxtda Azərbaycana səfərə dəvət etdi.

BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət,

Ölkənizin milli bayramı - Kralın andiçmə günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Belçika arasındakı münasibətlərin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı və möhkəmləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına sülh və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyul 2011-ci il.

MİSİR ƏRƏB RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ ALİ ŞURASININ SƏDRİ FELDMARŞAL MƏHƏMMƏD HÜSEYN TANTAVİYƏ

Hörmətli cənab Tantavi,

Misir Ərəb Respublikasının milli bayramı - İnqilab günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Misir xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyul 2011-ci il.

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Maldiv münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 iyul 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ MİXAİL MYASNİKOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Belarus Respublikasının Baş naziri Mixail Myasnikoviçi qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini vurğulayaraq Azərbaycanın Belarusla bütün sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu dedi. İqtisadi sahədə, energetika sektorunda əməkdaşlığın daha da inkişaf etdirilməsi və qarşılıqlı investisiyalar baxımından yaxşı perspektivlərin olduğunu vurğulayan Prezident İlham Əliyev yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Gəncə avtomobil zavodunda Azərbaycan ilə Belarusun birgə layihələrinin uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bunu iqtisadi əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Belarusun Azərbaycana dost dövlət olduğunu və ölkələrimizin bütün qurumları arasında yüksək səviyyədə əlaqələrin yaradıldığını qeyd edən Prezident İlham Əliyev Mixail Myasnikoviçin respublikamıza səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.

Baş nazir Mixail Myasnikoviç Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. Baş nazir ölkələrimiz arasında həyata keçirilən birgə layihələrə, o cümlədən Gəncə avtomobil zavodunda Azərbaycan ilə Belarusun birgə həyata keçirdiyi layihələrə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. O, Gəncədəki müəssisədə olarkən yeni istehsal sahələrinin açılışında iştirak etdiyini vurğuladı.

Dövlətimizin başçısı Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO-NUN BAŞ KATİBİNİN MÜAVİNİ QABAR İKLODİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də NATO-nun baş katibinin müavini Qabar İklodini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə NATO arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizdə həyata keçirilən birgə layihələrin önəmi qeyd olunaraq Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliklə NATO-nun Təchizat və Təminat Agentliyinin birgə həyata keçirdiyi partlamamış mərmilərin təmizlənməsi layihəsinin başa çatmasından məmnunluq ifadə olundu.

Görüşdə, həmçinin terrorizmə qarşı mübarizə, enerji və kibertəhlükəsizlik sahələrində əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Beynəlxalq Güləş Federasiyasının Prezidenti Rafael Martinettini qəbul etmişdir.

Görüşdə ölkəmizdə idmana dövlət səviyyəsində yüksək şəraitin yaradıldığı bildirildi, idmançılarımızın nüfuzlu beynəlxalq yarışlarda əldə etdiyi qələbələr qeyd olundu, Azərbaycanda təşkil edilən mötəbər beynəlxalq idman yarışlarının əhəmiyyətinə toxunularaq bu gün Bakıda keçirilən və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan güləş üzrə " Qızıl Qran Pri" beynəlxalq turnirinin önəmi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

Dövlətimizin başçısı Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun ölkəmizə bu səfərinin Kazan görüşü zamanı müzakirə edilən məsələlərlə əlaqədar olmasının önəmini qeyd etdi. İkitərəfli əlaqələrimizin inkişaf səviyyəsinin çox böyük razılıq doğurduğunu deyən Prezident İlham Əliyev bu münasibətlərin ölkələrimiz və region üçün vacib olduğunu vurğuladı. Prezident İlham Əliyev dinamik və uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin gündəliyini bir daha müzakirə etmək üçün səfərin yaxşı imkan yaratdığını dedi.

Xarici işlər naziri Sergey Lavrov Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Kazanda Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk qrupunun Rusiyadan, ABŞ və Fransadan olan həmsədrlərinin iştirakı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı keçirilən müzakirələrin nəticəsi olaraq məsələnin həlli ilə bağlı Rusiya Prezidenti Dmitri Medvedevin Azərbaycan və Ermənistan prezidentlərinə müra-

ciət hazırladığını dedi və həmin müraciəti dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı İlham Əliyev Prezident Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

TÜRKMƏNİSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDİMƏHƏMMƏDOVA

Hörmətli Qurbanqulu Məlikquliyeviç,

Abadan şəhərində baş vermiş partlayışlar nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 iyul 2011-ci il.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç,

"Bulqariya" tcploxodunun qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 iyul 2011-ci il.

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

Hörmətli Viktor Fyodoroviç,

Rovno vilayətində qocalar evində yanğın nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 iyul 2011-ci il.

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident,

Qardaşınız Əhməd Vali Kərzainin qətli xəbərindən son dərəcə kədərləndim.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 13 iyul 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP-AZƏRBAYCAN" ŞİRKƏTİNİN RƏHBƏRİ RƏŞİD CAVANŞİRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də "bp-Azərbaycan" şirkətinin rəhbəri Rəşid Cavanşiri qəbul etmişdir.

bp ilə Azərbaycan arasında uzun illər davam edən uğurlu əməkdaşlığın önəmini qeyd edən Prezident İlham Əliyev bu əməkdaşlığın qarşılıqlı etimad prinsipinə əsaslandığını vurğuladı. Dövlətimizin başçısı ötən dövr ərzində bp ilə birgə həyata keçirilən layihələrin dünya miqyasında tanındığını bildirərək, bu əməkdaşlığın gələcəkdə də uğurla davam etdiriləcəyinə əminliyini söylədi.

Rəşid Cavanşiri yubileyi münasibətilə təbrik edən Prezident İlham Əliyev Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinə görə onun ölkəmizin ən yüksək dövlət mükafatlarından olan "Şöhrət" ordeninə layiq görüldüyünü bildirdi və ordeni yubilyara təqdim etdi.

bp-nin Azərbaycanda həyata keçirdiyi layihələrin böyük əhəmiyyətindən danışan Rəşid Cavanşir bp-Azərbaycan əməkdaşlığının strateji xarakter daşıdığını vurğuladı və təmsil etdiyi şirkətin ölkəmizdəki fəaliyyətinə Prezident İlham Əliyevin verdiyi dəstəyi yüksək dəyərləndirdi. O, Azərbaycan Respublikasının yüksək mükafatı ilə təltif olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLYANTA MOYSES UMALA TASSOYA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasında təşəkkül tapmış münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 14 iyul 2011-ci il.

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

Əlahəzrət,

Əziz qardaşım,

Milli bayramınız - Taxt-tac günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan-Mərakeş dostluğu və əməkdaşlığı daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASININ PREZİDENTİ TOMAŞ AYANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayanı qəbul etmişdir.

Tomaş Ayan Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən ağır atletikanın inkişafına yaradılan şəraiti yüksək qiymətləndirərək, göstərilən dövlət qayğısına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Federasiyanın prezidenti 2010-cu ildə

Sinqapurda keçirilən Yeniyetmələrin I yay Olimpiya Oyunlarında Azərbaycan idmançılarının əldə etdiyi qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Sinqapurda keçirilən Yeniyetmələrin I yay Olimpiya Oyunlarında idmançılarımızın əldə etdiyi uğurları ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən diqqətin nəticəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanda məşhur olan idmanın bu növünün daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Beynəlxalq Ağır Atletika Federasiyasının Azərbaycanda ağır atletikanın inkişafına göstərdiyi dəstəyə görə Tomaş Ayana təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN KOMMERSİYA NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN-ÇİN HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ CONQ ŞANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Çin Xalq Respublikasının kommersiya nazirinin müavini, Azərbaycan-Çin hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq komissiyasının həmsədri Conq Şanı qəbul etmişdir.

Dövlətimizin başçısı Çin ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə inkişafından məmnunluğunu bildirdi. İki ölkə arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın da razılıq doğurduğunu söylədi. İqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı energetika, kənd təsərrüfatı, turizm və infrastruktur layihələrinin reallaşdırılması sahələrində əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-Çin hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq komissiyasının iclaslarının mütəmadi keçirilməsinin əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi baxımından əhəmiyyətini qeyd etdi.

Conq Şan Çin Xalq Respublikasının sədri Hu Szintaonun salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq ölkəmizdəki yüksək iqtisadi inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını söylədi. Azərbaycanın Cənubi Qafqazda Çin üçün çox mühüm tərəfdaş olduğunu vurğulayan Conq Şan ölkəsinin Azərbaycanın müxtəlif sahələrinə, o cümlədən qeyri-neft sektoruna investisiya qoyuluşunda maraqlı olduğunu dedi.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının sədri Hu Szintaonun salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını Çinin dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İnayatullah Kakarın etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin önündən keçdi. İnayatullah Kakar etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycanla Pakistanın yaxın və dost ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin müttəfiqlik səviyyəsində olduğunu dedi. İkitərəfli münasibətlərin uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev bütün beynəlxalq təşkilatlarda ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini vurğuladı. Azərbaycanla Pakistan arasında siyasi əlaqələri daha da möhkəmləndirməyin vacibliyini xatırladan dövlətimizin başçısı iqtisadi əlaqələrin inkişafı üçün də yaxşı potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev İnayatullah Kakarın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrin daha da genişlənəcəyinə əminliyini söylədi və səfirə fəaliyyətində uğurlar arzuladı.

Səfir İnayatullah Kakar Pakistan İslam Respublikası rəhbərliyinin salamlarını Azərbaycan dövlətinin başçısına çatdırdı. O, ikitərəfli əlqələrin səviyyəsinin razılıq doğurduğunu vurğulayaraq, iqtisadi əlaqələrin inkişafı üçün də geniş imkanların olduğunu dedi. Pakistanlı diplomat ölkəmizdəki diplomatik fəaliyyəti dövründə münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

Dövlətimizin başçısı Pakistan İslam Respublikası rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın dövlət rəhbərlərinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Rumıniyanın ölkəmizdəki səfiri Nikolae Urekeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Azərbaycanla Rumıniya arasında ikitərəfli münasibətlərin inkişafından danışan səfir Nikolae Ureke bu münasibətlərin genişlənməsində dövlət başçılarının imzaladıqları strateji tərəfdaşlığın yerinə yetirilməsi üçün Birgə fəaliyyət planının önəmini vurğuladı. Rumıniyalı diplomat Azərbaycan Prezidenti İlham Əliyev ilə Rumıniya Prezidenti Traian Besesku arasındakı yaxın dostluq əlaqələrinin ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynadığını dedi. Nikolae Ureke ölkəmizdəki fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Rumıniya arasında əlaqələrin sürətlə inkişaf etdiyini bildirdi, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı. Səfir Nikolae Urekenin qarşılıqlı münasibətlərin genişlənməsinə verdiyi töhfəni yüksək qiymətləndirən Prezident İlham Əliyev onun Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı çərçivəsində fəaliyyətini xüsusi qeyd etdi. Dövlət başçılarının imzaladıqları strateji tərəfdaşlığın yerinə yetirilməsinə dair sənədin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev ikitərəfli əlaqələrin qarşılıqlı maraqlara əsaslandığını bildirdi.

Dövlətimizin başçısı səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.

PREZİDENT İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.

Dövlət başçısı qonaqlara müraciətlə dedi:

- Sizi görməyimə çox şadam, Azərbaycana xoş gəlmisiniz. Çox şadam ki, ölkəmizə səfər edirsiniz. Bu, həmçinin münasibətlərimizə aid ciddi məsələləri müzakirə etmək fürsətidir. Ümumiyyətlə, biz çox məmnunuq ki, Azərbaycan ilə Avropa strukturları arasında olan münasibətlər inkişaf edir. Bu münasibətlərin uzun tarixi var. On ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının üzvüdür, özü də fəal üzvüdür. Bildiyiniz kimi, biz Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramında iştirak edirik. Avropa İttifaqının təsisatları ilə Azərbaycan arasında olan təmaslar çox dinamikdir.

Bu ilin əvvəlində sədr Barrozunun Azərbaycana çox uğurlu səfəri baş tutdu. Biz olduqca mühüm sənədə imza atdıq. Ötən ay mən Brüsselə səfər etdim və Avropa Komissiyasının sədri Barrozu, Avropa İttifaqının sədri Van Rompey və Avropa Parlamentinin sədri Buzeklə görüşlərim oldu. Bu, görülmüş işləri bir daha nəzərdən keçirmək imkanı yaratdı və ən vacibi isə o idi ki, gələcək üçün məqsədlər müəyyən edildi.

Çox şadam ki, bu gün Avropanın əsas siyasi partiyalarının nümayəndələri qonaqlarımız arasındadır. Bu, əməkdaşlığın yaxşı formatıdır. Azərbaycan ilə Avropa təsisatları arasında əməkdaşlıq müxtəlif formatlarda inkişaf edir. Əminəm ki, gələn illər ərzində olduqca mühüm nailiyyətlər əldə ediləcəkdir.

Sizin səfəriniz həm də Azərbaycanı daha yaxşı tanımaq, ölkəni real şəkildə görmək üçün çox yaxşı fürsətdir. Çünki hər hansı nəticəyə gəlmək üçün həmişə şəxsi təəssüratlara arxalanmaq ən münasib yoldur.

Azərbaycan müstəqillik baxımından gənc ölkədir, cəmi 20 ildir ki, biz müstəqilik. Lakin bu ölkənin böyük tarixi və adət-ənənələri vardır. Müxtəlif tarixi mərhələlərdə biz digər ölkələrin və imperiyaların hissəsi olmuşuq. Yalnız 20 il öncə biz müstəqilliyimizi əldə etmişik. Həmin illər dünyəvi, demokratik və inkişaf etmiş ölkənin qurulmasında çox mühüm olmuşdur. İyirmi il uzun dövr deyil, lakin həmin vaxt ərzində əsas çətinliklərin aradan qaldırılmasına nail olduq.

Müstəqilliyimizin ilk illərində vətəndaş müharibəsi, Ermənistanın işğalı ilə üzləşdik. Eyni zamanda, biz siyasi sistemi və demokratik təsisatları qura bildik, bir sıra Avropa təsisatlarına qəbul olunduq, region ölkələri ilə güclü əlaqələr qurduq və çox perspektivli iqtisadi inkişafa nail olduq.

Son 7 il bizim üçün çox uğurlu olub, iqtisadiyyatımız 3 dəfə artıbdır. Azərbaycan BMT-nin İnsan İnkişafı İndeksində ən sürətli artıma nail oldu. Bu, ən sürətli inkişaf tempi idi.

Əlbəttə ki, biz bütün Avropa təsisatları ilə əlaqələrimizi siyasi partiyalar formatında, Avropa Parlamenti-Azərbaycan, Avropa Şurası- Azərbaycan səviyyəsində inkişaf etdirməliyik. Həmçinin, insanlar arasında da təmasları daha sıx etməliyik. Çünki biz özümüzü hələ də təqdim etməyə ehtiyac duyuruq. Bizi Avropanın ictimai rəyində o qədər tanımırlar. Bu, obyektiv səbəblərlə bağlıdır. İyirmi il o qədər də uzun dövr deyil. Buna görə bizə vaxt lazımdır.

Biz avropalı qonaqlarımızı Azərbaycana səfərə dəvət etməkdə olduqca maraqlıyıq. Burada nəinki paytaxt şəhərlə, həm də rayonlarla da tanışlıq, eləcə də uzunmüddətli tərəfdaşlıq münasibətlərinin qurulması nəzərdə tutulur. Avropa ölkələri ilə ikitərəfli əlaqələrimizə gəldikdə bizim çox yaxşı nailiyyətlərimiz var. Avropa İttifaqına üzv olan bütün ölkələrlə, demək olar ki, güclü siyasi və iqtisadi münasibətlərimiz var. Bu da çox əhəmiyyətlidir.

NATO-nun tərəfdaşı kimi, Azərbaycan nəinki öz hərbçiləri ilə, o cümlədən daşıma marşrutları ilə Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfə verir. NATO üçün daşımaların dörddəbir hissəsindən çoxu Azərbaycan vasitəsilə həyata keçirilir. Bu, ilk növbədə bizim məramımızı nümayiş etdirir, ikincisi isə, Azərbaycan ilə Avratlantik təsisatları arasında münasibətlərin göstəricisidir.

* * *

Avropa Şurası Parlament Assambleyasında Avropa Xalq Partiyasının sədri, prosedur qaydaları, toxunulmazlıq və təsisat məsələləri, monitorinq, sosial, səhiyyə və ailə məsələləri komitələrinin üzvü Luka VOLONTE təmsil etdiyi partiyanın Azərbaycanla əməkdaşlığına toxunaraq dedi:

- Siz Avropa Xalq Partiyasının sədri cənab Martenslə görüşmüsünüz. Yeni Azərbaycan Partiyası ilə Avropa Xalq Partiyası arasında sıx dostluq münasibətlərinin qurulması arzusu vardır. Avropa Şurasında apardığımız iş göstərir ki, birgə işləmək mümkündür. Xristian Demokrat Partiyası və bir sıra digər partiyalar əməkdaşlıq etmək fikrindədir, çünki bizim insan hüquqları, ailə dəyərləri, azad cəmiyyət, liberal iqtisadiyyat kimi mühüm meyarları müdafiə və təşviq etməkdə maraqlarımız eynidir. Təbii ki, biz cənab Martensə təklif edə bilərik ki, Avropa Xalq Partiyası ilə Avropadan kənarda fəaliyyət göstərən siyasi partiyalar arasında güclü dostluq əlaqələri yaratmaq imkanını dəyərləndirsin.

Prezident İlham ƏLİYEV Azərbaycanda həyata keçirilən siyasi, sosial-iqtisadi islahatlardan danışaraq dedi:

- Əminəm ki, həyata keçirdiyimiz istər siyasi, istərsə də iqtisadi islahatlar artıq uğurlu inkişafa aparmaqdadır. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə həyata keçirilir. Əminəm ki, Avropa Şurasına üzvlüyümüz siyasi sistemimizin meyarlarını Avropa İttifaqına üzv olan və uzun demokratiya ənənələri tarixi ilə seçilən dövlətlərdə olan meyarlara daha da yaxınlaşdırmaqda bizə çox yardım etdi. Əslində, bu, bizim məqsədimizdir.

Dövlət başçısı Azərbaycanda qəbul edilən qanunların ölkədə yeni siyasi mühit yaratdığını bildirdi. Prezident İlham Əliyev ölkədə mətbuat azadlığının və İnternetə azad çıxışın təmin olunduğunu, İnternet istifadəçilərinin əhalinin 50 faizini təşkil etdiyini dedi. Siyasi və demokratik inkişafın Azərbaycan qarşısında duran əsas prioritetlərdən biri olduğunu deyən dövlət başçısı genişmiqyaslı uğurlu siyasi islahatların aparıldığını xatırlatdı. Prezident İlham Əliyev Azərbaycanda əsas azadlıqların tam təmin olunduğunu,

bütün millətlərin və dinlərin nümayəndələrinin azad şəraitdə yaşadıqlarını vurğuladı.

Dövlət başçısı daha sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək dedi:

- Dağlıq Qarabağ münaqişəsinin uzun tarixi vardır. Bu, nəinki Azərbaycan üçün, bütövlükdə region üçün əsas problemdir. Əslində, bu münaqişə Sovet İttifaqının son illərində başladı. Müstəqilliyimiz belə bir ağır və qanlı münaqişə ilə çətinləşdi və bu, Azərbaycan ərazilərinin 20 faizinin işğalı ilə nəticələndi. Azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti nəticəsində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz vardır. Dağlıq Qarabağ tamamilə monoetnik struktura çevrilib, orada bir nəfər də azərbaycanlı qalmayıbdır. Münaqişədən əvvəl isə orada əhalinin 25 faizini azərbaycanlılar təşkil edirdi. Onların hamısı qovulub, Dağlıq Qarabağın heç vaxt hissəsi olmayan və ermənilərin heç vaxt yaşamadıqları ətrafdakı yeddi rayondan təxminən 700 min azərbaycanlı didərgin düşübdür.

Bu il ATƏT-in missiyası həmin yerlərə aid qiymətləndirmə hesabatı hazırlayıbdır. Həmin missiya işğal olunan ərazilərə səfər edib və hər şeyin - binalarımızın, qəbiristanlıqlarımızın, məscidlərimizin viran qoyulduğunu qeyd edibdir. Orada həyat yoxdur. Beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul edibdir. Ən ali beynəlxalq orqan - BMT-nin Təhlükəsizlik Şurası erməni qüvvələrinin çıxarılmasını tələb edən 4 qətnamə qəbul edibdir. Avropa Şurası da 2005-ci ildə qətnamə qəbul edib, Avropa Parlamentinin və ATƏT-in qərarları olubdur. Lakin məsələ hələ də həll edilməyibdir.

Əsas səbəb isə odur ki, Ermənistan status-kvonu daim saxlamaq istəyir. Onlar işğal edilən ərazilərdən çəkilmək istəmirlər və danışıqlar prosesi zamanı Dağlıq Qarabağ üçün müstəqillik əldə etməyə çalışırlar. Lakin Dağlıq Qarabağ tarixən heç vaxt Ermənistanın hissəsi olmayıb. İkincisi, o, Azərbaycanın mərkəzində yerləşir. Hazırda ora nəzarətsiz bir ərazidir. Vasitəçilər və Azərbaycanın təkliflərinə gəldikdə, bu, güzəştlərə əsaslanan ədalətli yanaşmadır. Bunun nəticəsində Dağlıq Qarabağda yaşayanlara yüksək özünüidarə statusu verilə bilər və eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü bərpa olunar. Ümidvarıq ki, Ermənistan bu səslərə, xüsusən də ən qüdrətli dövlətlərin liderlərinin status-kvonun qəbuledilməz olması haqqında çağırışlarına qulaq asacaqdır.

* * *

Sonra görüşdə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri ilə fikir mübadiləsi aparıldı.

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

Hörmətli İslam Abduqəniyeviç,

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 iyul 2011-ci il.

NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət,

Oslo şəhərində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisələrdən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Norveç xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 iyul 2011-ci il.

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

İyulun 25-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Polşa Prezidenti Bronislav Komorovskini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Polşa Prezidentinə raport verdi. Polşanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Polşa Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Bronislav Komorovskiyə, Polşa nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 25-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Polşa münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrin bundan sonra da genişlənəcəyi bildirildi. İkitərəfli münasibətlərin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı baxımından da əhəmiyyəti vurğulandı.

Polşa Prezidenti Bronislav Komorovskinin Azərbaycana rəsmi səfərinin əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

İyulun 25-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV görüşün iştirakçılarına müraciətlə dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminik ki, Sizin səfəriniz Polşa-Azərbaycan əlaqələrinin inkişafına çox böyük töhfə verəcəkdir. Bizim əlaqələrimiz bir çox sahələri əhatə edir. Əminəm ki, səfər zamanı əldə edilmiş razılaşmalar əməkdaşlığa yeni təkan olacaqdır.

Siyasi əlaqələr yüksək səviyyədədir, eyni zamanda, iqtisadi sahədə əlaqələrin yaxşı perspektivləri var. Bu gün biz Sizinlə enerji sektorundakı əməkdaşlıq haqqında da fikir mübadiləsi apardıq. Bir sözlə, biz istəyirik ki, əlaqələrimiz bütün sahələri əhatə etsin və Polşa-Azərbaycan dostluğu uğurla davam etdirilsin.

Bir daha xoş gəlmisiniz!

Sonra Polşa Prezidenti Bronislav KOMOROVSKİ çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Bu gün biz Azərbaycanda Sizin qonağımız olmaqdan çox şadıq və olduqca məmnunuq.

Biz Sizin ölkənizi yerləşdiyiniz regionda olduqca mühüm, əhəmiyyətli rol oynayan ölkə kimi qəbul edirik. Təbii ki, bizim münasibətlərimiz bu səfərdən sonra daha da inkişaf edəcəkdir.

Hər iki xalq 20 il öncə əsl müstəqilliyini əldə etdi və bu mühüm dəyərdən lazımınca

bəhrələnir. Bu, iqtisadi sahədə də hiss olunur və hər iki ölkədə əldə edilmiş iqtisadi göstəricilər bunu sübut edir.

Azərbaycanın iqtisadi sahədəki nailiyyətləri Sizin ölkənizə böyük hörmət qazandırır. Bu baxımdan işgüzar dairələrdə ölkənizə maraq get-gedə artır. Biz Sizin əldə etdiyiniz bütün bu nailiyyətləri çox yüksək qiymətləndiririk.

AZƏRBAYCAN-POLŞA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

İyulun 25-də Prezident İlham Əliyevin və Prezident Bronislav Komorovskinin iştirakı ilə Azərbaycan-Polşa sənədlərinin imzalanma mərasimi olmuşdur.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Abasov və Polşa Respublikasının kənd təsərrüfatı və kəndin inkişafı nazirinin müavini Yaroslav Voytoviç imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Polşa Respublikasının Mədəniyyət və Milli İrs Nazirliyi arasında 2011-2013-cü illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Polşa Respublikasının xarici işlər nazirinin müavini Yeji Pomyanovski imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında" sazişi Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Polşa Respublikasının xarici işlər nazirinin müavini Yeji Pomyanovski imzaladılar.

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİ BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR

İyulun 25-də Azərbaycan-Polşa sənədlərinin imzalanması mərasimindən sonra prezidentlər İlham Əliyev və Bronislav Komorovski birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident,

hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə

salamlayıram. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Bu gün keçirdiyimiz görüşlərdə və apardığımız danışıqlarda bir daha əmin oluruq ki, Polşa-Azərbaycan əlaqələri strateji xarakter daşıyır və əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafı üçün yeni imkanlar açacaqdır.

Bizim əlaqələrimizin çox yaxşı tarixi var. Biz siyasi sahədə daim uğurlu əməkdaşlıq aparmışıq və ikitərəfli əlaqələrin gündəliyinə baxanda görürük ki, bu gündəlik çox zən-

gindir. Əminəm ki, siyasi sahədə əməkdaşlığımız uğurla davam etdiriləcəkdir.

Eyni zamanda, bu gün iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Müxtəlif fikirlər var, müxtəlif ideyalar var, əminəm ki, bu gün keçiriləcək Polşa-Azərbaycan biznes forumu da bu istiqamətdə növbəti addımların atılması üçün əhəmiyyətli olacaqdır.

Biz iqtisadi sahədə qarşılıqlı ticarətin artırılması və gələcəkdə qarşılıqlı investisiya layihələrinin icrası istiqamətində daha da fəal siyasət aparmalıyıq. İqtisadi əlaqələr, əlbəttə ki, bütün digər sahələrdə olan əlaqələrə də güclü təkan verəcəkdir.

Bu gün, eyni zamanda, enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır. Bir müddətdir ki, bu istiqamətdə bizim qurumlarımız arasında fikir mübadiləsi, danışıqlar aparılır, Azərbaycan neftini və qazını dünya və Avropa bazarlarına çıxarmaq üçün yeni imkanlar araşdırılır. Bu sahədə Polşa-Azərbaycan əlaqələrinin mühüm yeri var. Əminəm ki, hazırda Avropa İttifaqının sədri olan Polşa bizim bütövlükdə Avropa İttifaqı ilə apardığımız danışıqlarda öz sözünü deyəcəkdir.

Azərbaycanın çox zəngin neft-qaz ehtiyatları vardır, çoxşaxəli ixrac infrastrukturu - neft və qazı dünya və Avropa bazarlarına çıxara biləcək 7 kəmər mövcuddur və bunlar fəaliyyətdədir.

Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələr sürətlə inkişaf edir və əminəm ki, Polşa Avropa İttifaqında sədrliyi dövründə öz tərəfindən bu əlaqələrin inkişafına dəyərli töhfəsini verəcəkdir. Bu ilin yanvar ayında Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri zamanı imzalanmış bəyannamə, əminəm ki, gələcək sahədə əməkdaşlığa çox güclü təkan verəcəkdir.

Bütövlükdə Avropa İttifaqı - Azərbaycan əlaqələri bu gün geniş müzakirə edildi və bu məsələ ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Biz maraqlıyıq ki, bu əlaqələrə yeni təkan verilsin. Çünki bu əlaqələrin həm Avropa üçün, həm də Azərbaycan üçün çox böyük əhəmiyyəti var və hazırda formalaşmaqda olan tərəfdaşlıq strateji xarakter daşıyır. Biz istəyirik ki, Avropa qurumları ilə tərəfdaşlıq əlaqələrimiz daha da inkişaf etsin.

Eyni zamanda, bu gün regional məsələlər haqqında fikir mübadiləsi aparılmışdır. Polşa öz regionunda, Azərbaycan isə öz regionunda Xəzər dənizi - Baltik dənizi əməkdaşlığının inkişafı üçün çox ciddi mövqelərə malikdir. Hər iki dövlət yerləşdiyi regionda çox güclü geosiyasi mövqelərə və iqtisadi potensial baxımından həlledici sözə malikdir. Biz elə etməliyik ki, Xəzər dənizi-Qara dəniz-Baltik dənizi ölkələri arasında əməkdaşlıq daha da intensiv aparılsın və bu sahədə Polşa-Azərbaycan əlaqələrinin çox mühüm yeri vardır.

Regional əməkdaşlıqla bərabər, biz bu gün regional təhlükəsizlik məsələlərini də nəzərdən keçirdik. Xüsusilə mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və danışıqların indiki vəziyyəti haqqında cənab Prezidentə məlumat verdim. Bir daha demək istəyirəm ki, bu münaqişə bölgə üçün ən böyük təhlükədir, ən böyük ədalətsizlikdir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü uzun illərdir ki, Ermənistan tərəfindən pozulub, torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır və bir milyondan artıq

azərbaycanlı öz doğma torpağından didərgin düşərək qaçqın-köçkün həyatı yaşayır. Məsələ ilə bağlı beynəlxalq təşkilatlar öz mövqelərini bildirmişlər. BMT, Avropa İttifaqı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT qətnamələr və qərarlar qəbul etmişlər. Yəni bu qərar və qətnamələr məsələnin həlli üçün hüquqi bazanı yaradır. Əlbəttə, məsələnin beynəlxalq hüquq normaları əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində tezliklə həll olunması bölgəyə sülh gətirəcək, əməkdaşlıq gətirəcək və belə olan halda, bölgədə bütün proseslər daha da sürətlə və müsbət istiqamətdə inkişaf edəcəkdir.

Bütövlükdə demək istəyirəm ki, cənab Prezident Komorovskinin Azərbaycana ilk rəsmi səfəri çox uğurla keçir. Səfərin çox zəngin proqramı var. Bu gün və sabah biz görüşləri davam etdirəcəyik və əminəm ki, bütövlükdə səfərin gözəl nəticələri olacaq və bu nəticələr Polşa-Azərbaycan əlaqələrini yeni müstəviyə çıxaracaqdır.

Sağ olun.

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN BƏYANATI

-Hörmətli cənab Prezident,

hörmətli xanımlar və cənablar!

Mən ilk növbədə, Azərbaycana səfər etmək barədə dəvətə görə öz təşəkkürümü bildirirəm. Eyni zamanda, Polşanın ünvanına söylədiyiniz xoş sözlərə görə minnətdaram. Mən xüsusi vurğulamaq istəyirəm ki, təmaslarımız sürətlə inkişaf edir. Əslində, bu təmaslar həm siyasi, həm digər səviyyələrdə baş verir və hesab edirəm ki, ictimai həyatın bütün sahələrində inkişaf edəcəkdir. Əminəm ki, Polşa və Azərbaycan öz regionlarında mühüm, getdikcə əhəmiyyəti artan rol oynamaqdadır. Bu, o faktla sübut olunur ki, biz hamımız həm Azərbaycanda, həm də Polşada sürətli iqtisadi artımın şahidiyik. Ötən il Azərbaycanın iqtisadi artımı çox yüksək səviyyədə olmuşdur. Əslində, bu, Sizin ölkənizə böyük hörmət qazandırır və biz bundan çox şadıq. Əminik ki, bu əməkdaşlığın, bu əlaqələrin təbii xarakteri vardır və biz indi əməkdaşlığımızın yeni sahələrini araşdırmalıyıq. İqtisadi sahədə Polşa ilə Azərbaycan arasında əlaqələr inkişaf etməlidir. Hesab edirik ki, bugünkü iqtisadi forum çox vacibdir. Bu tədbirdə nəinki Polşa ekspertləri, həm də Polşa nazirliklərinin və müvafiq qurumların təmsilçiləri iştirak edəcəklər. Bu gün Azərbaycanın siyasi elitasının nümayəndələri ilə də görüşlərimiz baş tutacaqdır.

Bizim münasibətlərimiz iki dövlət arasında olan münasibətlərdir. Demək olar ki, hər iki ölkə müstəqilliyini eyni vaxtda əldə etmişdir və bu, bizə azadlıq gətirdi. Biz müdrik addımlar atdıq ki, müstəqilliyimiz yaxşı olsun, o cümlədən iqtisadi əməkdaşlığın yaxşı təməli olsun. Əslində bu, standart deyil, standartlardan daha yüksək bir əməkdaşlıqdır. Mən sizin diqqətinizi bir sıra faktlara yönəltmək istəyirəm, bu faktlar Polşa-Azərbaycan münasibətlərinə təsir edir. Çünki həmin faktlar sırf bu münasibətlərin çərçivəsindən də kənara çıxır. Bu, həmçinin Azərbaycanın Avropa İttifaqı, Avropa ilə münasibətlərinə aiddir. Bildiyiniz kimi, hazırda Polşa Avropa İttifaqında sədrlik edir. Beləliklə, Polşa Avropa İttifaqının gündəliyini müəyyən edir və həmçinin bu, Avropa İttifaqına üzv olmayan dövlətlərlə münasibətlərin istiqamətlərini müəyyən edir.

Biz bilirik ki, sentyabrda Varşavada keçiriləcək sammitdə cənab Prezident də iştirak edəcəkdir. Əslində, bu zirvə görüşü "Şərq tərəfdaşlığı" proqramında iştirak edən dövlət

başçılarının toplantısı olacaqdır. Mən demək istəyirəm ki, Polşa Azərbaycanın nailiyyətlərində maraqlıdır. Biz istərdik ki, Azərbaycan ilə Avropa İttifaqı arasında assosiativ üzvlük Sazişi haqqında danışıqlar uğurla keçsin. Çünki bizi eyni prinsiplər, eyni qaydalar bağlamalıdır. Bu, Qərblə Azərbaycan arasında münasibətlərin gələcək inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Bunun Polşa-Azərbaycan münasibətləri üçün də çox böyük əhəmiyyəti vardır.

Biz bir çox məsələləri nəzərdən keçirdik, müzakirə etdik,

regiondakı siyasət, böyük qonşularımızın regionda gedən proseslərə təsiri haqqında danışdıq. Həmçinin enerji sahəsində əməkdaşlığa toxunduq. Polşa bir daha maraqlı olduğunu bəyan edir ki, enerji resurslarının çatdırılmasına öz töhfəsini verməyə hazırdır. Hesab edirəm ki, bu, nəinki bizim ölkə üçün, bütövlükdə Avropa İttifaqı üçün vacibdir. Avropa İttifaqı tərəfindən təsdiq edilmiş bir layihə var. Əslində, bu, Odessa-Brodı-Plotsk-Qdansk boru kəmərinə aiddir. Bu layihə aktual hesab olunur və demək istəyirəm ki, bugünkü dünyada əgər əhəmiyyətdən söhbət gedirsə, bu layihənin biznes baxımından əhəmiyyəti artır.

Çünki biz hesab edirik ki, burada ən vacibi nəinki siyasi məsələlərdir, eyni zamanda, biznes üçün də əsaslandırılmış məsələlər olmalıdır. Çünki bu kimi məsələlər həmin layihə üçün çox vacibdir. Ona görə də mən bildirmək istəyirəm ki, Azərbaycan nefti artıq neftayırma zavodlarına daxil olur, bunlar Polşa kapitalı əsasında işləyən zavodlardır. Bir milyon ton Azərbaycan nefti ilbəil neftayırma zavodlarına daxil olur. Bizim müəssisələrimizə, lakin Çexiya Respublikasının ərazisində olan zavodlarımıza daxil olur. Bu, o deməkdir ki, siz artıq bizim sərhədlərimizə yaxınsınız. Bu, o deməkdir ki, biz indi elə bir təsir göstərməliyik ki, öz regionumuzun enerji məsələlərinin həllinə nail olaq. Hesab edirik ki, bu, tam əsaslandırılmış formada olmalıdır.

Çox sağ olun.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

* * *

- Mənim sualım cənab Prezident Komorovskiyədir. Siz bildirdiniz ki, əməkdaşlığı davam etdirəcəksiniz, Odessa-Brodı-Qdansk boru kəməri haqqında danışdınız. Bu barədə məlumat verə bilərsinizmi?

Bronislav KOMOROVSKİ: Mən xahiş edərdim ki, bu sualı forumda verəsiniz. Bu gün saat beşdə keçiriləcək bu forumda diskussiyanı o insanlar aparacaqlar ki, onlar birbaşa bu istiqamətdə, bu layihə üzrə işə başlayıblar. Onlar mənim nümayəndə heyətimin üzvləridir. Polşanın "Sarmatia" şirkətinin təmsilçisi də var və əslində, onlar bu layihədə iştirak edən tərəfdir. Siyasi baxımdan biz bu layihəyə dəstək veririk. Lakin qərarın qəbul edilməsinə, infrastrukturun daha da təkmilləşdirilməsinə gəldikdə, bizim dəqiq biznes planımız olmalıdır. Biz bilməliyik ki, nə qədər, hansı həcmdə neft həmin sistemə daxil edilə bilər və nə qədər neft bizim tərəfimizdən qəbul olunacaqdır.

- Mənim sualım cənab Komorovskiyədir. Ermənistan Azərbaycan ərazilərinin 20 faizinə qədərini indiyədək işğal altında saxlayır. BMT-nin Ermənistan silahlı qüvvələrinin

bu ərazidən çıxmasını tələb edən dörd qətnaməsinə, Avropa İttifaqının qətnaməsinə, Avropa Şurasının qətnaməsinə baxmayaraq, ATƏT-in və cənab Prezident İlham Əliyevin bayaq sadaladığı digər sənədlərin dərhal bu tələblərin yerinə yetirilməsi barədə çağırışlarına məhəl qoymayan Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması təkcə Azərbaycan üçün yox, həm də region üçün, bütövlükdə Avropa üçün çox böyük təhlükədir. Cənab Prezident, Polşa olaraq sizin mövqeyinizi bilirik. Amma təkliflərinizi eşitmək istərdik. Yaranmış vəziyyətdən Azərbaycan necə çıxa bilər? Təşəkkür edirəm.

-İlk növbədə, mən sizin dərdinizə şərik çıxıram. Çünki burada elə problemlər var ki, regionun bütöv, funksional olmasına maneçilik törədir. Bu regionda, dünya xəritəsinin bu hissəsində Azərbaycan məhz sabitliyə töhfə verən bir ölkə kimi tanınır, sabitlik amili rolunu oynayır. Mən cənab Prezidentə dedim ki, hər hansı bir formul olaydı ki, biz bu çətin sualdan bir növ kənara çəkilək. Dağlıq Qarabağ məsələsinə gəldikdə, Ermənistan və Azərbaycan arasındakı bu münaqişə sülh yolu ilə həll olunsun. Lakin bizim özümüzün mürəkkəb təcrübəmiz var. Biz bilirik ki, ərazi bütövlüyü məsələsi nə qədər vacibdir. Bu, müqəddəs məsələdir. Amma eyni zamanda, xalqların öz müqəddəratının təyin etməsi hüququ da vacibdir. Harada ki münaqişələr mövcuddur, bu prinsiplər təsdiq edilmişdir. Ən təhlükəlisi odur ki, kimsə coğrafiyadan, siyasi şəraitdən asılı olaraq, buna fərqli mövqelərdən yanaşıbdır.

Bizim Polşada özümüzün ağrılı təcrübəmiz olubdur. Əslində bizim çox çətin, mürəkkəb tariximiz, keçmişimiz olub. Tarixən bizim torpaqlarımız olub ki, orada etnik və dini azlıqların nümayəndələri yaşayıblar. Demək istəyirəm ki, mənim nəslimdən, "Solidarnost" nəslindən olan insanların ən böyük nailiyyəti ondan ibarətdir ki, biz nifrətin və dözümsüzlüyün aradan qaldırılmasına nail olmuşuq. Çox güclü qonşumuzla münasibətdə Polşanın çox kəşməkəşli tarixi olubdur. Almaniya, Rusiya, Ukrayna ilə olan münasibətlərimizə xələl gətirən proseslər olubdur. Amma biz müvəffəqiyyət əldə etdik, bu tarixi çətinliklərdən çıxdıq. İndi isə tamamilə başqa bir mühitdə, inteqrasiya mühitində addımlar atırıq. Bu, Avropaya inteqrasiya mühitidir və tam yeni həyat şəraitidir. Buna görə də biz, təbii ki, onun tərəfdarıyıq və istərdik ki, bu münaqişə ümumiyyətlə aradan qaldırılsın, həll olunsun və bu region xalqları sakit şəraitdə layiqincə yaşasınlar. Bu məqsədlə Minsk qrupu yaradılıb, o, bu məsələ ilə məşğuldur. Lakin mən bildirmək istəyirəm ki, bu münaqişəyə aidiyyəti olan şəxslər əziyyət çəkiblər və istərdim ki, məhz həmin şəxslər özləri desinlər ki, hansı yolla getməliyik. Onlar münaqişənin tənzimlənməsində fəal şəkildə iştirak etsinlər. Bizim üçün olduqca vacibdir ki, insanların qəlbinə yol tapaq, bu regionda yaşayan insanların qəlbinə daha yaxın olaq.

- Cənab Prezident Komorovski burada təhlükəsizlik məsələsinə toxundu. Norveçdə baş vermiş hadisələrdən irəli gələrək, Avropa İttifaqı çərçivəsində təhlükəsizlik məsələlərinə necə yanaşırsınız? Bir növ daha da təcridolunma şəraiti yaradılmalıdırmı?

Bu sualım isə cənab Prezident Əliyevədir. Siz Varşavada "Şərq tərəfdaşlığı" sammitində iştirak edəcəksiniz. Siz bu sahədə əməkdaşlığı necə görürsünüz?

Bronislav KOMOROVSKİ: Mən istərdim ki, Azərbaycana səfərimə aid sualları daha çox verəsiniz. Amma siz indi mənə elə bir sual ünvanladınız ki, bu, başqa məsələyə aiddir. Bu, təhlükəsizliyə və regionumuzdakı demokratiya prinsiplərinə aiddir. Demək istəyirəm ki, Norveçdə baş verənlər görünməmiş hadisələr xarakteri daşıyır. Əslində, bu-

rada düşmənçilik səviyyəsi nəinki xalqlar, etnik azlıqlar arasında, həmçinin müəyyən qruplar arasında olan mühüm bir amildir və o, aradan qaldırılmalıdır. Mən Norveçin Baş nazirinin tutduğu mövqeyə tərəfdaram, onun dərdinə şərikəm. Belə bir ağır vəziyyətdə bildirdim ki, biz açıq demokratiyanın qurulması istiqamətində işləməliyik. O demokratiyadan söhbət gedir ki, digər xalqların, millətlərin təmsilçiləri üçün də açıqlıq şəraiti təmin edilsin. Bizi gələcəyə aparan mövqe budur. Biz bunun həll yolunu öz daxilimizdə tapmalıyıq. Beləliklə, əgər biz bu yolla getsək, belə hadisələrin, faciələrin gələcəkdə də təkrarlanmasından yan keçə bilərik.

Prezident İlham ƏLİYEV: Bildirmək istəyirəm ki, Azərbaycan dövləti Norveçdə baş vermiş dəhşətli terror aktını qətiyyətlə pisləyir. Terrorizmin bütün formalarını qətiyyətlə pisləyir. Norveçdə həlak olanların yaxınlarına, qohumlarına Azərbaycan dövləti adından bir daha başsağlığı verirəm, yaralananlara şəfa diləyirəm.

Azərbaycan terrorizmdən əziyyət çəkmiş ölkə kimi Norveç xalqının acılarını çox yaxşı dərk edir. Bizə qarşı erməni terrorist təşkilatları tərəfindən 30-dan artıq terror aktı törədilmişdir. Bu aktlar nəticəsində 2000-dən artıq dinc Azərbaycan vətəndaşı həlak olmuşdur və bizə qarşı terror bu gün də davam edir.

O ki qaldı Avropa İttifaqı-Azərbaycan əlaqələrinə və xüsusilə "Şərq tərəfdaşlığı" proqramına, Azərbaycan bu proqrama çox böyük ümidlərlə qoşulmuşdur. Bu proqrama qədər yeni qonşuluq proqramı icra edilirdi. Bütövlükdə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin artıq böyük tarixi vardır. Bu il Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri, keçən ay mənim Belçikaya səfərim bu əlaqələri yeni səviyyəyə çıxarır.

Biz ümid edirik ki, "Şərq tərəfdaşlığı" proqramı konkret məna daşıyacaqdır. Çünki bu vaxta qədər kifayət qədər xoş niyyətlər ifadə olunmuşdur. Müvafiq siyasi bəyanatlar verilmiş, çərçivələr müəyyən edilmişdir. Mən hesab edirəm ki, vaxt gəlib çatıb ki, "Şərq tərəfdaşlığı" proqramı konkret mahiyyət daşısın. Həm Avropa, həm də Azərbaycan açıq-aydın görməlidir ki, bu proqramın faydası nədən ibarət olacaqdır. Avropaya və Azərbaycana, konkret vətəndaşlara bu proqramın xeyri nədən ibarət olacaqdır.

* * *

Mən hesab edirəm ki, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin indiki səviyyəsi bunu deməyə əsas verir. Biz proqramdan konkret nəticələr gözləyirik ki, Avropa ilə Azərbaycan arasında əlaqələr daha da güclənsin. Azərbaycan Avropaya daha da yaxın olsun və Azərbaycan vətəndaşları öz həyatlarında bu proqramın nəticələrini görsünlər. Bizim ümidlərimiz bundan ibarətdir. Eyni zamanda, demək istəyirəm ki, biz Avropa strukturları ilə əməkdaşlıqda daim bərabərlik prinsipini gözləmişik. Bir daha demək istəyirəm ki, biz Avropa İttifaqı ilə bərabər hüquqlu tərəfdaş kimi öz rolumuzu görürük və hər iki tərəf maraqlarına cavab verə biləcək töhfələr verə bilər və verməlidir.

- Mənim sualım Polşa Prezidentinədir. Polşa ilə Azərbaycan arasında qarşılıqlı sərmayə qoyuluşuna dair konkret hansı layihələr müzakirə olundu?

Bronislav KOMOROVSKI: Həmin sərmayə layihələri haqqında biz forum çərçivəsində danışacağıq. Demək istəyirəm ki, bu gün Azərbaycan Polşanın mühüm ticarət tərəfdaşıdır. Bu, onunla bağlıdır ki, Polşa Azərbaycanın enerji resurslarının alıcısıdır. Hesab edirəm ki, artıq vaxt yetişibdir. Bilirik ki, Azərbaycanın maliyyə imkanları, sərmayə imkanları vardır və hesab edirik ki, Polşada iqtisadi inkişaf daha da artır və Polşa da xaricdə öz sərmayələrini yatırmaqdadır və biz artıq yeni səviyyəyə çıxırıq. Əslində, bu səviyyə nəticəsində biz müəyyən imkanlar, sərmayələrin qoyulması imkanlarını əldə edəcəyik. Yəni burada söhbət elə sərmayədən gedir ki, bu, hər hansı bir konkret çərçivəyə deyil, yeni sahələrə aid olacaqdır. Hesab edirəm, çox güman ki, emal sənayesinə, kənd təsərrüfatı məhsulları sahəsinə böyük sərmayələr qoyula bilər. Ətraf mühitin qorunması sahəsində işbirliyi qura bilərik. Polşada bu sahədə təcrübə mövcuddur. Əfsuslar olsun ki, əvvəlki illərdə ekologiyaya böyük ziyan dəymişdir. Amma bu gün biz fərəh hissi ilə demək istəyirik ki, Polşa bu sahədə Avropa meyarlarını həyata keçirir. Polşada çox gözəl təbiət var və bu təbiət bizim böyük sərvətimizdir. Baxmayaraq ki, bu sahədəki əməkdaşlıqda hələ ki, böyük nailiyyətlər, nəticələr yoxdur.

Bir sıra digər sahələr də var. Amma nümayəndə heyətində işgüzar dairələrin təmsilçiləri vardır və onlar danışıqlar apardıqdan sonra, zənnimcə, müəyyən addımlar atılacaq ki, sərmayələr qoyulsun. Burada bir sıra şəxslər iştirak edə bilər. Polşa bu sahədə işbirliyinin qurulmasında maraqlıdır. Polşa bu sahədə artıq işləyir. Həmçinin digər sahələrdə, sənayenin başqa sahələrində də Azərbaycan ilə əməkdaşlıq edə bilərik. Hesab edirik, biz nəinki artıq gördüyümüz işi dəyərləndirməliyik, eyni zamanda, mövcud qarşılıqlı sərmayə imkanlarını araşdırmalıyıq ki, biznes sahəsində bu işə birgə baxaq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də Rusiyanın müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğuladı, çoxşaxəli əlaqələr çərçivəsində hərbi-texniki əməkdaşlığın razılıq doğurduğunu bildirdi. Dövlətimizin başçısı Rusiyanın müdafiə nazirinin Azərbaycana səfərinin hərbi sahədə əməkdaşlıqla bağlı görülən işlərin müzakirə edilməsi və gələcək əməkdaşlığın istiqamətlərinin müəyyənləşdirilməsi baxımından önəmli olduğunu söylədi.

Rusiyanın müdafiə naziri Anatoli Serdyukov iki ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlığa dair bütün işlərin vaxtında yerinə yetirildiyini və bununla bağlı müdafiə nazirlikləri səviyyəsində məsələlərin uğurla həll edildiyini bildirdi.

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MİŞELİN KALMİ-REYƏ

Hörmətli xanım Prezident,

Milli bayramınız - Konfederasiyanın yaranması günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan-İsveçrə münasibətləri özünün dinamik inkişafı ilə səciyyələnir. Əminəm ki, dost ölkələrimizi və xalqlarımızı birləşdirən çoxşaxəli əlaqələrin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi istiqamətində səylə-

rimizi bundan sonra da fəal şəkildə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyul 2011-ci il

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GYORGE İVANOVA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Respublika günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Makedoniya arasındakı dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Makedoniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyul 2011-ci il.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident,

Əlamətdar yubileyiniz - anadan olmağınızın 50 illiyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri bu gün hərtərəfli və dinamik inkişaf yolundadır. Enerji təhlükəsizliyinin təmin edilməsi, qlobal təhdidlərə və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində fəal qarşılıqlı işimiz münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir.

Biz Birləşmiş Ştatların həmçinin regionumuza diqqətini yüksək qiymətləndiririk. Bu mənada torpaqlarımızın işğalına və soydaşlarımızın doğma yurd-yuvalarından didərgin düşməsinə səbəb olmuş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə aradan qaldırılması üçün ölkənizin və şəxsən Sizin, cənab Prezident, ardıcıl səyləriniz çox əhəmiyyətlidir. Ümidvaram ki, bu səylər ən yaxın vaxtlarda öz bəhrəsini verəcək və münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli həlli ilə nəticələnəcəkdir.

Belə bir əlamətdar gündə, cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyul 2011-ci il.

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMANATANA

Hörmətli cənab Prezident,

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasında təşəkkül tapmış münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına sülh və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyul 2011-ci il.

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyul 2011-ci il.

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident,

Əfqanıstan İslam Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, birgə səylərimizlə bundan sonra da Azərbaycan-Əfqanıstan dostluğu və əməkdaşlığının xoş ənənələrini qoruyub saxlayacaq və inkişaf etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 25 iyul 2011-ci il.

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan-Polşa biznes forumu

Xəbər verdiyimiz kimi, iyulun 25-də Bakı Biznes Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Bronislav Komorovskinin iştirakı ilə Azərbaycan-Polşa biznes forumu keçirilmişdir.

Dövlətimizin başçısı Polşa Prezidenti Bronislav Komorovskini qarşıladı.

Kənd təsərrüfatı və qida sənayesi, maliyyə, sənaye, bankçılıq, sığorta və digər sahələrdə fəaliyyət göstərən hər iki ölkə sahibkarlarının iştirak etdiyi biznes forumun keçirilməsindən məqsəd Azərbaycan və Polşanın iş adamları arasında müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək, respublikaların iqtisadi potensialından yararlanaraq, ticarət dövriyyəsinin səviyyəsini artırmaqdır.

Dövlət başçıları forumda çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident,

- hörmətli qonaqlar, xanımlar və cənablar!

- Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Polşa Prezidentinin Azərbaycana rəsmi səfəri günüdür. Deyə bilərəm ki, səfər çox uğurla keçir və bu gün səhər apardığımız danışıqlar və etdiyimiz qarşılıqlı təkliflər, əminəm ki, gələcəkdə Polşa-Azərbaycan əlaqələrinin uzunmüddətli inkişaf strategiyasını müəyyən edəcəkdir.

- Bizim əlaqələrimiz çox gözəl tarixə malikdir və çoxşaxəlidir. Əlbəttə ki, bu gün biz

eyni zamanda iqtisadi sahədə əlaqələr haqqında geniş fikir mübadiləsi apardıq. Hesab edirəm ki, iqtisadi sahədə, biznes sahəsində qarşılıqlı əməkdaşlıq üçün çox gözəl perspektivlər vardır. Əlbəttə ki, biznes dairələri ilk növbədə siyasi cəhətdən məqbul olan ölkələrə üz tuturlar. Azərbaycan biznesmenləri də bu mövqedən yanaşırlar və siyasi əlaqələrimiz yüksək səviyyədə olduğu halda, əlbəttə ki, biznes dairələrinin də əməkdaşlığı uğurlu ola bilər. Biz çox maraqlıyıq ki, həm dövlət, həm də özəl biznes strukturları bir-biri ilə əlaqədə olsunlar. Bu gün keçirilən biznes forumunun əsas məqsədi bundan ibarətdir ki, bir-birimizi daha da yaxından tanımalıyıq, imkanlarımızı bilməliyik, araşdırmalıyıq. Əlbəttə, ciddi təhlil aparılmalıdır və mən əminəm ki, bunun nəticəsində konkret biznes layihələri də üzə çıxacaqdır. Bu layihələrin icrası nəticəsində həm iqtisadi əlaqələrimiz möhkəmlənəcək, həm də bütövlükdə bu təşəbbüslərin bizim əlaqələrimizə də çox böyük xeyri olacaqdır.

Biz çox istərdik ki, Polşa şirkətləri Azərbaycanda daha da geniş təmsil olunsunlar. Bunu etmək üçün imkanlar var və mənə verilən məlumata görə, bu gün artıq burada müxtəlif layihələrin təqdimatı keçirilmiş, Azərbaycan və Polşanın iqtisadi göstəriciləri ifadə edilmişdir. Beləliklə, hesab edirəm ki, mövcud vəziyyət biznes forumunda iştirak edən iş adamları üçün daha da aydın olubdur. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox mühüm addımlar atılmışdır. İqtisadi sahədə liberallaşma siyasəti aparılır, Azərbaycanda biznes strukturları güclənir. Həm böyük şirkətlər, həm də kiçik və orta həcmli şirkətlər öz fəaliyyətlərini gücləndirir. Özəl sektorun Azərbaycanın ümumi daxili məhsulundakı payı 80 faizə çatıbdır. Nəzərə alsaq ki, cəmi iyirmi il bundan əvvəl Azərbaycanda özəl sektor faktik olaraq mövcud deyildi, hesab edirəm, bu, çox gözəl göstəricidir. Yəni qısa müddət ərzində həm siyasi və eyni zamanda iqtisadi islahatlar nəticəsində Azərbaycanda liberal iqtisadiyyat tam formalaşıb, bazar iqtisadiyyatı prinsipləri tam qüvvəyə minibdir. Bu, bizə öz iqtisadi imkanlarımızı əhəmiyyətli dərəcədə artırmağa imkan verdi.

Əlbəttə ki, müstəqilliyimizin ilk illərində iqtisadi inkişafın təkanvericisi neft-qaz sektoru olmuşdur. Bu da təbiidir və indi də belədir. Amma eyni zamanda, biz enerji sahəsində apardığımız təşəbbüslər nəticəsində qeyri-neft sektorunun inkişafına da nail ola bilmişik və bu gün Azərbaycan iqtisadiyyatı artıq çoxşaxəlidir. Məhz buna görə iki-üç il bundan əvvəl dünyada neftin qiymətləri kəskin şəkildə aşağı düşəndə biz böyük çətinliklərlə üzləşməmişdik. Hətta o illərdə ki, dünyada neftin qiyməti 4-5 dəfə aşağı düşmüşdü, Azərbaycan iqtisadiyyatı 8-9 faiz artmışdı. Nəyin hesabına, məhz qeyri-neft sektorunun inkişafı hesabına. Bu, bizim siyasətimizdir və gələcək illərdə çalışacağıq ki, qeyri-neft sektorunun inkişafına daha da güclü təkan verək. Deyə bilərəm ki, bunu etmək üçün dövlət proqramları həlledici rol oynayır. 2004-cü ildən bu günə qədər artıq ikinci dövlət proqramı icra edilir. Eyni zamanda, xarici investorların Azərbaycana olan marağı və qoyulan investisiyalar da az rol oynamır. Xüsusilə 90-cı illərin ortalarında iqtisadi inkişafımızın təmin edilməsi üçün həlledici rolu xarici sərmayələr oynamışdır.

Biz bu gün də xarici sərmayələrin cəlb edilməsinə çalışırıq. Azərbaycan birbaşa xarici sərmayələrin həcminə görə MDB məkanında ənənəvi olaraq birinci sıralardadır. Təkcə keçən il ölkə iqtisadiyyatına 16 milyard dollardan çox vəsait qoyulmuşdur. Onun əksəriyyəti daxili sərmayələrdir, ancaq xarici sərmayələr də mühüm yer tutur. Xarici sərmayələr Azərbaycanda lazımi səviyyədə qorunur, o cümlədən qanunvericilik bunu təmin

edir. Bu gün biz xarici sərmayələri eyni zamanda qeyri-neft sektorunda da görürük. Azərbaycanda kənd təsərrüfatının inkişafında xarici sərmayələr rol oynayır, turizmin inkişafında onların rolu kifayət qədər böyükdür. Deyə bilərəm ki, bütövlükdə Azərbaycanda turizmin inkişafı prioritet məsələlərdən biridir. Təkcə bu il Bakıda 6 beşulduzlu otelin açılışı nəzərdə tutulur və bu, özlüyündə bir göstəricidir.

Biz əlbəttə ki, Polşa şirkətlərini investorlar kimi görmək istərdik. Eyni zamanda, Azərbaycanda müxtəlif mənbələr, o cümlədən dövlət vəsaiti hesabına reallaşan böyük infrastruktur layihələrinin icrasında Polşa şirkətləri fəal iştirak edə bilər. Əminəm ki, bu gün bu barədə də danışıldı.

Eyni zamanda, artıq Azərbaycan şirkətləri də xarici bazarlara çıxır. Bizim dövlətimizin siyasəti də bundan ibarətdir. Biz özəl sektorun inkişafına diqqət verməklə, çalışırıq ki, özəl qurumlar xarici bazarlara da çıxsın. Azərbaycanın dövlət şirkətləri də xarici bazarlara böyük həcmdə investisiya qoyulmasına başlamışdır və bu investisiyalar artıq milyardlarla dollar səviyyəsindədir.

Azərbaycanın enerji resurslarının işlənilməsi nəticəsində əldə edilən gəlirlər də ədalətli şəkildə bölünür və bu gəlirlər ölkə iqtisadiyyatının inkişafına xidmət göstərir. Eyni zamanda, indi Azərbaycan Dövlət Neft Fondu da xarici bazarlara investisiya qoyulması ilə məşğuldur və mən hesab edirəm ki, bu imkanlar da nəzərdən keçirilməlidir.

Əlbəttə, prezidentlər kimi biz bütövlükdə özəl qurumlara ancaq tövsiyə verə və öz fəaliyyətimizlə elə şərait yarada bilərik ki, qarşılıqlı biznes maraqları daha da artsın. Biz bunu etməyə çalışırıq. Ümid edirəm ki, bu biznes forumunun nəticələri yaxın vaxtlarda özünü göstərəcək və Polşa-Azərbaycan iqtisadi əlaqələri də sürətlə inkişaf edəcəkdir.

Qeyd etdiyim kimi, Azərbaycanda biz qeyri-neft sektorunun inkişafına xüsusi əhəmiyyət veririk. Azərbaycanda kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Hazırda Azərbaycanda İnternet istifadəçilərinin sayı 50 faizə çatmışdır, gələn il biz birinci telekommunikasiya peykini orbitə buraxacağıq. Müxtəlif başqa sahələrdə də böyük planlarımız var.

Ancaq eyni zamanda, enerji sektoru da bizim üçün ənənəvi olaraq həmişə çox vacibdir və Polşa-Azərbaycan əlaqələrinin inkişafında neft-qaz sahəsindəki əməkdaşlıq mühüm yer tutur. Biz bu gün bu barədə də geniş fikir mübadiləsi apardıq. Əminəm ki, bizim şirkətlərimiz yaxın vaxtlarda bu sahədə yeni təşəbbüslər irəli sürəcəklər.

Azərbaycanın zəngin neft və qaz yataqları vardır, bunlar Azərbaycan xalqına xidmət edir. Eyni zamanda, bu resursların, bu sahədə layihələrin regional əməkdaşlığın dərinləşməsi üçün də böyük əhəmiyyəti var. Azərbaycan enerji siyasəti baxımından çox etibarlı tərəfdaşdır. Avropa İttifaqı ilə bu istiqamətdə əməkdaşlıq formatımız var və bu ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub qaz dəhlizi haqqında" bəyannamə imzalanmışdır. Bizim qaz ehtiyatlarımızın hazırda təsdiq edilmiş səviyyəsi 2,2 trilyon kubmetrdir və bu imkan verir ki, bundan sonra ən azı 100 il ərzində Azərbaycan özünü və qonşu ölkələri, Avropa ölkələrini təbii qazla lazımi səviyyədə təmin edə bilər. Əlbəttə ki, bu sahədə də biz əməkdaşlığın dərinləşməsinə çalışırıq. Müəyyən nəticələr var və əminəm ki, biznes qurumları da bu işlərə fəal şəkildə qoşulacaqlar.

Bir daha demək istəyirəm ki, biz Polşa-Azərbaycan əlaqələrinin inkişafına çox böyük

əhəmiyyət veririk və özəl sektorun bu əlaqələrin inkişafında xüsusi rolu var. Mən bir daha əminliyimi ifadə etmək istəyirəm ki, bugünkü biznes forumu yaxın vaxtlarda gözəl nəticələrə gətirib çıxaracaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

- Bizi qəbul edən tərəfə, xüsusən də Prezident İlham Əliyevə burada birgə çıxış etmək imkanı yaratdığına görə təşəkkürümü bildirmək istəyirəm. Gördüyünüz kimi, burada, sizin qarşınızda iki prezident - Polşa və Azərbaycan prezidentləri çıxış edir. Siz biznes dairələrinin nümayəndələrisiniz və biz sizin qarşınızda çıxış edirik. Bu, əslində yeni zamanənin bir işarəsidir.

Son illər ərzində Azərbaycan və Polşa eyni yolları keçmişdir və bütün səylərimizi göstəririk ki, əldə olunmuş azadlıqdan lazımi şəkildə istifadə edək. Biz görürük ki, bu gün Azərbaycanda lazımi səviyyədə fəaliyyət aparılır və bu, əsasən biznes inkişafının perspektivlərinə yönəlibdir. Biz əslində, Avropa İttifaqında yeganə ölkəyik ki, 20 il ərzində böhrandan heç bir əziyyət çəkməmişik, bizim ölkədə resessiya müşahidə olunmayıbdır. Bizim bütün göstəricilərimiz yalnız və yalnız yüksələn xətlə artıbdır. Əgər siz bizim iqtisadi göstəricilərə nəzər salsanız görərsiniz ki, onlar Avropa İttifaqının digər ölkələrindən müsbət mənada fərqlənir. Əslində, bu iqtisadi nailiyyətləri bir də ona görə qeyd edirik ki, bu gün Polşa həm də Avropa İttifaqında sədrlik edən ölkədir. Bu onu göstərir ki, bizim ardıcıl addımlarımız bütün xalqların rifahına xidmət edir.

Mən çox şadam ki, Azərbaycan ilə Polşa arasında olan əlaqələr lazımi şəkildə inkişaf edir. Biz tez-tez siyasi səviyyədə, ən yüksək səviyyədə görüşlər keçiririk. Görürük ki, daha çox imkanlar var ki, biz fəaliyyətimizin yeni sahələrini müəyyən edək.

Cənab Prezident Siz burada bildirdiniz ki, enerji sektoru hələ də çox mühüm rol oynayır. Bu, onu göstərir ki, biz növbəti, digər əməkdaşlıq vektorlarını araşdırmalıyıq, müəyyən etməliyik və bunlar əsasən Polşa biznesinin Azərbaycanda və Azərbaycan biznesinin Polşada inkişafına xidmət etməlidir. Eyni bir sahədən kənara çıxmayan ölkələrdə bəzi problemlər yaranır. Ona görə də çalışmalıyıq o sahələrdə fəaliyyət göstərək ki, onlar yeni olsun, biz yeni istiqamətlərə çıxaq, yeni üfüqlər, yeni imkanlar açaq. Bu baxımdan Polşa nümayəndə heyətində bütün biznesə yardım təşkilatlarının təmsilçiləri vardır. Burada özəl sektorların nümayəndələri, işəgötürənlər federasiyasının nümayəndələri əyləşibdir. Bunlar çox cəsarətli, irəliyə çox böyük addımlar atan şəxslərdir və bilirlər ki, çox zəhmət çəkib böyük imkanlar, maliyyə vəsaitləri əldə ediblərsə, bunları itirmək istəmirlər. Əslində, bunu inkişaf etdirmək istəyirlər. Əgər biz bu gün gələcəkdən danışırıqsa, kiçik və orta sahibkarlığa xüsusi diqqət yetirməliyik.

Beləliklə, bu təmsilçilərin bugünkü tədbirdə iştirakını təmin etməklə biz demək istəyirik ki, kiçik və orta biznes sahəsində böyük bir fəaliyyət görünsün, bu, Polşa və Azərbaycan arasında baş versin. Bu gün biz tamamilə yeni imkanlar əldə etmiş oluruq və bütün bunlar əslində, böyük bir sıçrayışın, irəliyə doğru addımın bir rəmzidir.

Azərbaycan iqtisadiyyatı irəliyə doğru böyük bir addım atmışdır. Bu, nəinki enerji sektoruna aiddir, həm də biz bilirik ki, Azərbaycanda yeni sahələrdə yeni imkanlar yaradılır. Hesab edirik ki, bu, əslində, Azərbaycan ilə Polşa arasında olan gözəl münasibətlərin daha da güclənməsinə xidmət edir. Biz istəyirik ki, nəinki Azərbaycan ilə Polşa arasında əməkdaşlıq, həm də Avropa İttifaqı ilə Azərbaycan arasında işbirliyi daha da artsın. Bütün bunlar məhz yeni biznes təmaslarına, işgüzar dairələrin bir-biri ilə əlaqə saxlamasına əsaslanacaqdır. Təbii ki, bu, bizim əməkdaşlığımızın yeni bir mənbəsi olacaqdır. Əslində, bizi əlaqələrimizin daha yeni sahələri gözləyir.

Bəlkə də burada çox az sayda insanlar bilir ki, Azərbaycan xam nefti artıq Çexiya Respublikasının ərazisindəki bizim, Polşanın emal zavodlarına daxil olur. İldə bir milyon ton neft emal edilir, bu proses Polşa kapitalına məxsus olan müəssisələrdə baş verir. Biz çalışırıq ki, Azərbaycanın xam nefti daha çox həcmdə daxil olsun.

Bu, əməkdaşlığımızın bir hissəsidir, amma biz istəyirik ki, digər sahələrdə də işbirliyi qurulsun. Mən bilirəm ki, bu gün, sabah siz söhbətlərinizi, müzakirələrinizi aparacaqsınız. Bəzi Polşa şirkətləri var ki, onlar artıq Azərbaycanda fəaliyyət göstərir. Təbii ki, burada qəti qərarı mən qəbul etmirəm, işgüzar dairələr qəbul edirlər. Lakin mən öz tərəfimdən bəyan etmək istəyirəm ki, biz Polşa ilə Azərbaycan arasında nəinki iqtisadi təmaslarımızı, həm də siyasi təmaslarımızı daha da gücləndirməliyik ki, işgüzar dairələrin işini daha da asanlaşdıraq.

Aviaşirkətin nümayəndəsini burada görürəm bir ildən sonra Bakıya uçuşlar başlayacaqdır. Polşa nazirliyinin məlumatına görə, Varşava ilə Bakı arasında uçuşlar artıq baş tuta bilər. Nə qədər tez olsa, bir o qədər yaxşı olar. Çünki belə olan halda, biz bu təmasların, işgüzar münasibətlərin məhz Polşa və Azərbaycan arasında əlaqələrin daha da güclənməsinə yönəldiyini nümayiş etdiririk. Əslində bu, Polşa və Azərbaycan iş adamlarının əldə etdiyi nəticələrdir.

Diqqətinizə görə, çox sağ olun.

* * *

Biznes forum başa çatdıqdan sonra Dənizkənarı milli parkda gəzintiyə çıxan Prezident İlham Əliyev və Prezident Bronislav Komorovski burada bir qrup polşalı tələbə ilə görüşdülər. Dövlət başçılarına məlumat verildi ki, bu ilin yanvar-may aylarında Gənclər və İdman Nazirliyi Azərbaycanın xaricdəki səfirlikləri ilə birgə əcnəbi tələbələr arasında "Mən Azərbaycan haqqında nə bilirəm?" mövzusunda esse-yazı müsabiqəsi keçirmişdir. Bu müsabiqədə Polşa da daxil olmaqla, 9 ölkədən tələbələr iştirak etmişdir. Müsabiqənin əsas mövzuları ümummilli lider Heydər Əliyev, Dağlıq Qarabağ münaqişəsinin reallıqları, Azərbaycanın iqtisadi inkişafı, dili, milli adətləri, mədəniyyəti, beynəlxalq siyasətdəki rolu və digər istiqamətlər olmuşdur. Təmsilçiləri müsabiqədə iştirak edən ölkələrdə yaradılmış münsiflər heyətləri 75 qalibi müəyyən etmişdir. Onlar 40-dan çox universitet, akademiya, lisey və kollecin tələbələridir. Polşadan olan 11 qalib isə artıq Bakıdadır və onlar şəhərin görməli yerləri, muzeyləri, tarixi abidələrlə yaxından tanış olur, insanlarla ünsiyyət qururlar. Polşalı tələbələr bu günlərdə Lahıcda, Qəbələ və Şəki rayonlarında, Naxçıvan MR-də olmuşlar.

Tələbələr dövlət başçıları ilə xatirə şəkli çəkdirdilər.

Dənizkənarı milli parkda gəzinti zamanı Polşanın dövlət başçısına son illərdə Bakıda həyata keçirilən yenidənqurma və abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, Avropada ən böyük dənizkənarı bulvarlardan biri olan bu ərazidə bir neçə il öncə başlanan yenidənqurma işləri buranın simasını tamamilə dəyişibdir. Yenidənqurma işləri zamanı milli üslubla beynəlxalq təcrübə peşəkarlıqla uzlaşdırılıbdır. Hazırda öz gözəlliyi ilə diqqəti çəkən Bakı bulvarı Azərbaycan paytaxtına xüsusi yaraşıq verir, paytaxt sakinlərinin, eləcə də xaricdən gələn qonaqların ən maraqlı istirahət yerinə çevrilibdir. 100 ildən çox yaşı olan Dənizkənarı milli parkın genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Ümumiyyətlə, son illərdə Bakıda park və bağların yenidən qurulmasına xüsusi diqqət yetirilir. Təbii ki, şəhərin abadlaşdırılması ilə yanaşı, əsas məqsəd insanların istirahəti üçün rahat şərait yaratmaqdır.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasında rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Bronislav Komorovski iyulun 25-də Heydər Əliyev Fondunda olmuşdur.

Burada Polşa dövlətinin başçısını Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Prezident Bronislav Komorovski görkəmli şəxsiyyətin arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Polşa Prezidentinə məlumat verildi ki, Heydər Əliyevin hakimiyyətdə olduğu illər Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Bronislav Komorovski Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Ona Fondun adından xatirə hədiyyəsi təqdim olundu.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Xəbər verdiyimiz kimi, iyulun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV ziyafətdə çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, icazə verin, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayım və "Xoş gəlmisiniz!" deyim. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən tam əminəm ki, Sizin səfəriniz çox uğurlu keçəcək və onun nəticələri Polşa-Azərbaycan əlaqələrinin inkişafında çox mühüm rol oynayacaqdır.

Bizim xalqlarımız əsrlər boyu bir-biri ilə əlaqədə olmuşlar və bu əlaqələr indi çox gözəl mədəni və tarixi zəmin yaradır. Deyə bilərəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində də polyaklar fəal iştirak etmişlər. İlk dəfə olaraq 1918-ci ildə müsəlman Şərqində Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır və onun rəhbərliyində polyaklar iştirak etmişlər. Ondan əvvəl Polşadan gəlmiş mütəxəssislər, memarlar Azərbaycanın, Bakının inkişafına çox dəyərli töhfələr vermişlər. 1892-ci ildə məşhur polşalı memar İosif Qoslavski Bakı şəhərinin baş memarı vəzifəsinə təyin edilmişdi. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə Bakıda bir neçə gözəl bina tikilmişdir. Memar Qoslavski və digər Polşa memarı Ploşko şəhərimizin gözəlləşməsinə çox dəyərli töhfələr vermişlər. Onların irsi bu gün Azərbaycanda, Bakıda görünür və qorunur. Bakıda gedən böyük bərpa işləri onların yaratdıqları binalara yeni həyat bəxş etmişdir.

Polşadan olan vətəndaşlar, eyni zamanda, Azərbaycanın neft sənayesinə də öz töhfəsini vermişlər. Məşhur mühəndis Pavel Pototski Azərbaycanda neft sənayesinin inkişafında çox fəal iştirak etmişdir və onun xatirəsi Azərbaycanda hörmətlə daim yad edilir.

Bu gün bizim əlaqələrimizin inkişafında Azərbaycanda yaşayan və ölkəmizin dəyərli vətəndaşları olan Polşa əsilli icma nümayəndələri də öz rolunu oynayırlar. Qeyd etdiyim kimi, onlar Azərbaycanın dəyərli vətəndaşlarıdırlar və eyni zamanda, onlar polyakdırlar və əlbəttə ki, özlərinin tarixi Vətəni ilə də sıx bağlıdırlar.

Bir sözlə, bizim əlaqələrimizin inkişafı üçün çox gözəl tarixi əsaslar vardır. Bu möhkəm təməl üzərində biz əlaqələrimizi qururuq. Bu gün Polşa-Azərbaycan əlaqələri nəinki iki ölkə arasındakı əlaqələr kimi vacibdir, eyni zamanda, regionun inkişafı üçün vacibdir. Geniş mənada Baltik dənizi-Xəzər dənizi regionlarının əməkdaşlığı üçün vacibdir. Mən əminəm ki, Sizin səfəriniz və onun gedişində əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər bizim əlaqələrimizi uğurla irəliyə aparacaqdır.

Biz bu gün iqtisadi məsələlərə də kifayət qədər böyük diqqət ayırdıq. Azərbaycan-Polşa biznes forumunun keçirilməsi özlüyündə gözəl bir hadisədir. Çünki bu onu göstərir ki, iqtisadi sahədə də qarşılıqlı maraq kifayət qədər böyükdür. Ümid edirəm ki, iştirak etdiyimiz forumun yaxşı nəticələri olacaq və yaxın vaxtlarda biz birgə iqtisadi təşəbbüslər haqqında da eşidəcəyik. Hər halda, biz bunu arzulayırıq və ümid edirik ki, buna nail olacağıq.

Bu gün, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələri diqqət mərkəzindədir. Polşanın Avropa İttifaqında sədrliyi dövründə Avropa İttifaqı-Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir. Bunu deməyə kifayət qədər əsaslar vardır. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir və müxtəlif sahələri əhatə edir. Əlbəttə ki, ilk növbədə, bu əlaqələr enerji sahəsində başlanmışdır. Ancaq bu gün biz görürük ki, bu əlaqələr bütün başqa sahələrə də müsbət təsir göstərir.

Eyni zamanda, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynamağa hazırdır. Bu barədə kifayət qədər danışıqlar aparılmış, bəyannamələr və digər sənədlər imzalanmışdır. Ümid edirəm ki, bu ilin sonuna qədər bütün lazım olan sənədlər, o cümlədən tranzit anlaşması imzalanacaq və beləliklə, Azərbaycanın qaz resursları üçün Avropa bazarı da öz imkanlarını təqdim edəcəkdir. Bu, qarşılıqlı surətdə faydalı təşəbbüsdür və onun reallaşmasından hər iki tərəf ancaq fayda görəcəkdir.

Bu gün biz regional təhlükəsizlik məsələlərinə də diqqət yetirdik. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı Azərbaycanın mövqeyini bir daha ifadə etdim. Eyni zamanda, Prezident Komorovskiyə danışıqların indiki mərhələsi haqqında məlumat verdim. Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı o torpaqlarda yaşamışdır, yaratmışdır. "Qarabağ" sözünün özü də Azərbaycan mənşəlidir, orada mövcud olan abidələrin və toponimlərin hamısının Azərbaycan kökləri vardır.

Beynəlxalq hüquq normaları baxımından da Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilərkən onun bir hissəsi olan Dağlıq Qarabağ da Azərbaycanın tərkibində olmuşdur. Hesab edirəm ki, bu gün məsələnin həlli üçün imkan var, beynəlxalq hüquq normaları tam şəkildə bərqərar olunmalıdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir, Avropa İttifaqının, Avropa Parlamentinin, ATƏT-in qərar və qətnamələri icra edilməli və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Cənab Prezident, mən bir daha, Sizi səmimiyyətlə salamlayıram. Sizin səfərinizin çox böyük əhəmiyyəti vardır. Biz bu səfərə çox böyük diqqət və əhəmiyyət veririk. Mən çox şadam ki, səfər çox uğurlu keçir. Əminəm ki, sabahkı gün də çox uğurlu olacaq, Siz Vətənə yaxşı və xoş təəssüratlarla qayıdacaqsınız.

Bu badəni Polşa Prezidenti cənab Komorovskinin şərəfinə, dost Polşa xalqının şərəfinə və Polşa-Azərbaycan əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

Sağ olun.

* * *

Polşa Prezidenti Bronislav Komorovski Azərbaycana rəsmi səfərə dəvətə və yüksək səviyyədə qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığını çatdırdı. O, Azərbaycan ilə Polşa arasındakı strateji əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.

Prezident Bronislav Komorovski iki ölkənin iqtisadi sahədə əməkdaşlığının genişləndirilməsi üçün də böyük potensial imkanların olduğunu dedi:

- Bu, elə bir sahədir ki, biz burada böyük işbirliyi qura bilərik. Biz ölkələrimizdə bir çox

müsbət dəyişikliklərə nail olmuşuq, açıq iqtisadiyyat yaratmışıq, sahibkarlıq inkişaf edir, özəl sahibkarlıq formalaşır. Bu, ümid verir ki, biz uğurlu həll variantlarını tapacağıq.

Əslində, burada həm enerji layihələri, həm də digər sahələrdəki layihələr nəzərdə tutulur. Bu layihələr, neft və qaz layihələri Avropa üçün vacib ola bilər. Eyni zamanda, mən Polşa ilə Azərbaycan arasında bütün sahələrdə birbaşa əlaqələrin qurulmasını vacib hesab edirəm. Bu, bizim vətəndaşlarımıza, xalqlarımıza xidmət edən işlərdir, xalqlarımız bir-biri ilə daha da yaxınlaşır.

Ölkəsinin dünya iqtisadi böhranından ən az əziyyət çəkən Avropa dövlətlərindən biri olduğunu, ötən illərdə əsaslı inkişaf yolu keçdiyini deyən Prezident Bronislav Komorovski Polşanın regionun ən vacib ölkələrindən sayılan Azərbaycan ilə əməkdaşlığına xüsusi əhəmiyyət verdiyini vurğuladı:

- Biz bu gün həmçinin regionumuz üçün vacib olan ölkələrlə əməkdaşlığı qurmaq istəyirik. Mən burada Azərbaycanı nəzərdə tuturam. Çünki bizim ölkələrimiz öz regionlarımızda lider ölkələrdir. Bunun üçün bir çox sübutlar vardır. Bizim uğurlarımız nəinki iqtisadi göstəricilərdə görünür, o cümlədən ölkələrimiz arasında ticarətin həcminin artmasında və digər nailiyyətlərdə görünür. Burada, həmçinin ləyaqətli həyat tərzini sürmək imkanları nəzərdə tutulur. Bu da hər iki xalqa aiddir.

Ötən illərdə ölkəmizin müxtəlif sahələrdə qazandığı silsilə nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edən Polşanın dövlət başçısı Azərbaycanın "Eurovision-2012" mahnı müsabiqəsini də yüksək səviyyədə keçirəcəyinə əminliyini söylədi:

- Biz bilirik ki, Siz "Eurovision-2011" mahnı müsabiqəsində də qələbə qazandınız. Əslində bu, Sizin böyük qələbəniz idi. İndi isə gələn il Siz Bakıda bu tədbiri təşkil edəcəksiniz. Mən şəxsən fəal şəkildə Azərbaycan müğənnilərinə səs verəcəyəm.

Çox sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolae Urekeni qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Rumıniya arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulmasında Nikolae Urekenin fəaliyyətini yüksək qiymətləndirdi. Onun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə dövlət başçılarının qarşılıqlı səfərlərinin intensiv xarakter aldığını deyən Prezident İlham Əliyev Azərbaycan ilə Rumıniya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Nikolae Urekenin "Dostluq" ordeninə layiq görüldüyünü bildirdi və yüksək mükafatı diplomata təqdim etdi.

Nikolae Ureke Azərbaycan dövlətinin yüksək mükafatı - "Dostluq" ordeni ilə təltif edilməsindən böyük şərəf duyduğunu dedi. Rumıniya-Azərbaycan əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminliyini söyləyən diplomat Azərbaycanın yüksək mükafatına layiq görüldüyünə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

İyulun 27-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.

Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 27-də, rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə tam əminlik ifadə olundu. Türkiyənin Baş nazirinin Azərbaycana rəsmi səfərinin iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyi bildirildi.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

Əlahəzrət,

Əziz qardaşım,

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Mərakeş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 27 iyul 2011-ci il

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

İyulun 27-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İlham ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Baş nazir, əziz qardaşım! Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. İlk növbədə, rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Seçkilərdən bir ay sonra Azərbaycana etdiyiniz rəsmi səfər, əslində, bizim əlaqələrimizin nə qədər yüksək səviyyədə olmasını göstərir. Həqiqətən, bu əlaqələr müttəfiqlik səviyyəsindədir, dostluq, qardaşlıq prinsipləri əsasında formalaşıbdır. Hazırda bu əlaqələr bütün sahələri əhatə edir və nəinki ikitərəfli müstəvidə, eyni zamanda regional məsələlərdə də Türkiyə-Azərbaycan dostluğu və birliyi çox vacib amilə çevrilibdir.

Bu gün biz Sizinlə geniş söhbət etdik, demək olar, gündəlikdə duran bütün məsələləri müzakirə etdik və bir daha gördük ki, bütün bu məsələlərdə bizim mövqeyimizdə heç bir fərq yoxdur. Bu, belə də olmalıdır. Çünki bizi birləşdirən tarixi köklər, mədəni köklər o qədər güclüdür ki, bunlar Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında çox mühüm rol oynayır.

Mən Sizi və Sizinlə bərabər Bakıya gəlmiş bütün qardaşlarımızı bir daha salamlayıram. Bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm. Qısa da olsa, əminəm ki, səfəriniz çox uğurlu və yaddaqalan olacaqdır.

* * *

Türkiyənin Baş naziri Rəcəb Tayyib ƏRDOĞAN çıxış edərək dedi:

- Mən də hörmətli Prezident İlham Əliyevə, dəyərli heyət üzvlərinə şəxsən öz adımdan və nümayəndə heyəti adından çox təşəkkür edirəm.

Bildiyiniz kimi, biz seçkilərdən sonra ənənəmizə uyğun olaraq, ilk səfərlərimizi ya Azərbaycana, ya da Şimali Kipr Türk Respublikasına edirik. Bu dəfə Şimali Kipr Türk Respublikasının yaranmasının 37-ci ildönümü iyulun 20-nə təsadüf etdi və ilk səfərimizi oraya etdik. İkinci xarici səfərimizi də Azərbaycana həyata keçiririk və dəyərli qardaşımla təkbətək görüşdə Türkiyə-Azərbaycan arasındakı əlaqələri müzakirə etdik. Bütün

sahələrdə, - hərbi, siyasi, iqtisadi, ticari, mədəni, - keçmişdən bu günə gələn bütün məsələləri müzakirə etdik, regional məsələləri dəyərləndirmək imkanımız oldu. Gələcəyə istiqamətlənmiş hansı addımlar atacağıq, ata bilərik - bunları da müzakirə etmək imkanımız oldu. Təbii ki, xüsusilə, Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurası çox əhəmiyyətlidir, buna çox əhəmiyyət veririk. İnşallah, ilk toplantısını bizdə keçirmək üçün o günü həqiqətən həyəcanla gözləyirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BİRGƏ MƏTBUAT KONFRANSI

İyulun 27-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan bəyanatlarla çıxış etdilər.

PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı inamlı qələbə münasibətilə Sizi bir daha təbrik edirəm. Çox şadam ki, seçkilərdən bir ay sonra Azərbaycana - doğma vətəninizə səfər edirsiniz.

Türkiyə-Azərbaycan əlaqələri indi ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır. Biz çox şadıq ki, Türkiyə-Azərbaycan əlaqələri sürətlə inkişaf edir və hörmətli cənab Baş nazirin səfəri zamanı apardığımız danışıqlar və etdiyimiz söhbətlər bir daha onu göstərir ki, biz bir-birimizə nə qədər yaxınıq.

Bu gün biz gündəliyimizin, demək olar ki, bütün məsələlərinə toxunduq, geniş fikir mübadiləsi apardıq. Bir daha bəyan edirik ki, siyasi əlaqələr ən yüksək səviyyədədir, deyə bilərəm ki, zirvədədir. İqtisadi sahədə çox gözəl perspektivlər var. Çox şadam ki, bu il ölkələrimiz arasındakı ticarət dövriyyəsi artmışdır. Yeni planlar, yeni təkliflər var. İnvestisiya yönümlü təkliflər nəzərdən keçirilir. Türkiyə şirkətləri Azərbaycana, Azərbaycan şirkətləri Türkiyəyə sərmayə qoyur. Azərbaycan şirkətləri indiyə qədər Türkiyə iqtisadiyyatına 4 milyard dollardan çox vəsait qoymuşdur. Növbəti illərdə təkcə neft kimyası sənayesinə 6 milyard dollar əlavə sərmayə qoyulması nəzərdə tutulur. Azərbaycanda reallaşan strateji əhəmiyyətli infrastruktur layihələrinin icrasında türk şirkətləri fəal iştirak edir və biz onların fəaliyyətindən çox razıyıq.

Bu gün biz regional məsələlərə də toxunduq, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə əlaqədar mən hörmətli Baş nazirə Azərbaycanın mövqeyini bir daha ifadə etdim və danışıqların son durumu haqqında məlumat verdim. Bir daha demək istəyirəm ki, Türkiyənin bu məsələ ilə bağlı tutduğu mövqeyə görə Azərbaycan xalqı və Azərbaycan dövləti

çox minnətdardır. Bu həqiqətən də dostluq, qardaşlıq münasibətidir. Biz bunu çox yüksək qiymətləndiririk.

Bildiyiniz kimi, bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı doğma torpağından didərgin düşüb və qaçqın-köçkün həyatı sürür. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər azərbaycanlılara qarşı soyqırımı, genosid törətmişlər. Xocalı genosidi törətmişlər. Beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazi bütövlüyü tanınır, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Məsələnin həlli üçün əsas beynəlxalq təşkilatlar öz mövqeyini bildirmişlər. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. ATƏT-in, Avropa Parlamentinin, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının qəbul etdiyi ədalətli qərar və qətnamələr bu məsələnin həlli üçün əsasdır.

Eyni zamanda, bu gün biz bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə əlaqədar fikir mübadiləsi apardıq. Türkiyə-Azərbaycan əməkdaşlığının bu sahədəki perspektivləri haqqında danışdıq. Mən fürsətdən istifadə edərək, bu yaxınlarda qanlı terror hadisələrində qardaşlarımızın həlak olması ilə əlaqədar bütün türk xalqına başsağlığı vermək istəyirəm. Biz PKK terrorçu təşkilatının əməllərini qətiyyətlə pisləyirik, bu məsələ ilə əlaqədar dəfələrlə öz mövqeyimizi bildirmişik. Bir daha demək istəyirəm ki, Azərbaycan rəsmi olaraq PKK-nı terrorçu təşkilat kimi tanıyır və ona qarşı mübarizədə həmişə olduğu kimi, Türkiyə dövlətinin və xalqının yanındadır. Biz terrorizmin bütün formalarını qətiyyətlə pisləyirik və tam əminik ki, terrorçuluğa, terrorizmə qarşı mübarizə ancaq o təqdirdə səmərə verə bilər ki, bütün dövlətlər öz səylərini birləşdirsinlər. Bizim isə Türkiyə ilə bütün sahələrdə olduğu kimi, terrorizmə qarşı mübarizədə də əməkdaşlığımız çox yüksək səviyyədədir.

Biz bu gün, təbii ki, enerji məsələlərinə də toxunduq. Bildiyiniz kimi, bu əlaqələrin böyük tarixi var. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri uğurla fəaliyyət göstərir. Gələcək perspektivlər haqqında fikir mübadiləsi apardıq. Bu həm Türkiyə üçün, həm də Azərbaycan üçün çox vacib olan məsələlərdir, bizim ölkələrimizi daha da sıx birləşdirir. Əminəm ki, gələcək əməkdaşlıq da uğurlu olacaqdır.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə nəqliyyat məsələləri də mühüm yer tutur. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi uğurla gedir. Demək istəyirəm ki, Azərbaycan tərəfi bu dəmir yolunun tikintisi üçün Gürcüstana təxminən 800 milyon dollar kredit ayırmışdır ki, məsələ tezliklə öz həllini tapsın və gələn ilin sonuna qədər dəmir yolu istifadəyə verilsin.

Bir daha demək istəyirəm ki, bütün sahələrdə bizim aramızda əməkdaşlıq yüksək səviyyədədir. Biz ümid edirik ki, gələcəkdə bu templər saxlanacaq və Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələri yüksələn xətlə inkişaf edəcəkdir.

Sağ olun.

* * *

BAŞ NAZİR RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

- Hörmətli Prezident, dəyərli qardaşım Əliyev,

Dəyərli mətbuat nümayəndələri!

Əvvəlcə Sizi bu mənalı görüşdə ən səmimi hisslərimlə salamlayıram.

Bildiyiniz kimi, 12 iyun 2011-ci il tarixində biz millət vəkili seçkilərini həyata keçirdik. Ənənəvi olaraq seçkilərdən sonra Türkiyə Respublikasında hakimiyyətə gələn iqtidar ilk səfərlərini ya Azərbaycana, ya da Şimali Kipr Türk Respublikasına edirlər. Bu, bizim ənənəmizdir.

Bu il də biz seçkilərdən sonra 1974-cü ildən bəri 37-ci ildönümünü qeyd etdiyimiz Şimali Kipr Türk Respublikasının müstəqillik mübarizəsinin 20 iyula təsadüf etdiyi üçün ilk səfərimizi oraya, ikinci xarici səfərimizi bu gün Azərbaycana həyata keçirdik.

Dəyərli qardaşımla təkbətək görüşdə ikitərəfli əlaqələrimizi ətraflı nəzərdən keçirmək fürsətimiz oldu, regional məsələləri nəzərdən keçirmək imkanımız oldu. Xüsusilə, gündəliyimizin əsas maddələrindən biri olan enerji məsələlərini müzakirə etdik. Amma ən önəmlisi, təbii ki, Dağlıq Qarabağ mövzusunu təkrar müzakirə etmək fürsətimiz oldu. Dağlıq Qarabağ mövzusundakı mövqeyimiz, düşüncəmiz, mübarizəmiz - hər şeyimiz Azərbaycan üçün Dağlıq Qarabağ mövzusu necə bir qanayan yaradırsa, bilinməlidir ki, bizim üçün də elə qanayan bir yaradır. Bundan fərqli bir düşüncə bizdə əsla ola bilməz. Bu məsələni də sona qədər təqib edirik və bundan sonra da təqib etməkdə davam edəcəyik.

Təbii ki, hərbi, siyasi, iqtisadi, ticari, mədəni - bütün bu sahələrdən söhbət gedərkən biz burada öz evimizdə, öz Vətənimizdə olduğumuzu hiss edirik və bunları belə dəyərləndiririk. Bundan sonrakı proses istiqamətində atacağımız addımlar içərisində xüsusilə Türkiyə-Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının toplantısı da həqiqətən həyəcanla gözlədiyimiz toplantı olacaqdır. Xarici işlər nazirlərimiz öz aralarında görüşməklə ilk addımı atacaq, inşallah, genişmiqyaslı bir toplantını həyata keçirmiş olacağıq.

2010-cu ildə xarici ticarət dövriyyəsi təxminən 2,5 milyard dollar olmuşdur. Ancaq bu ilin ilk beş ayında bu göstərici 1,4 milyard dollara çatmışdır. Bu gedişlə, inşallah, bu ilin sonunda 3 milyard dollara çata bilərik.

Bütün bunlarla yanaşı, Türkiyə-Azərbaycan əlaqələrində təbii qaz xətti, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, inşallah, "Şahdəniz-2" ilə bağlı atılacaq addımlar iki qardaş ölkənin strateji addımı olacaqdır. Bu məsələdə də qardaşımla aramızdakı razılığımız açıq-aşkar ortadadır. Məsələ ilə əlaqədar biz müzakirələr apardıq və enerji nazirlərimiz də fəaliyyətlərini davam etdirəcəklər.

Təbii ki, bütün bununla bərabər hörmətli Prezidentin ifadə etdiyi kimi, həqiqətən Qars-Tbilisi-Bakı dəmir yolu xətti böyük əhəmiyyət kəsb edir. Bunun davamı vardır. Bu, işin ilk mərhələsidir və biz onu daha da irəliyə - Orta Asiyaya çatdırmağı hədəf qoymuşuq. Belə bir hədəf, belə bir böyük layihə, hazırda onun məmnunluq doğuran bir sürətlə həyata keçirilməsi də bizi strateji olaraq bir-birimizə bağlayır. Bunu da ifadə etməyi lazım bilirəm.

Bir az əvvəl dəyərli qardaşımın xüsusilə son dönəmdəki şəhidlərimiz və PKK terror

təşkilatı ilə bağlı söylədiyi fikirlərinə görə millətim adından təşəkkür edirəm. Bu, təbii ki, bizim qardaşlığımızın, birliyimizin ən gözəl ifadəsidir. Buna heç kim şübhə etməməlidir. Sadəcə bir ölkədə deyil, əslində, dünyada terror təşkilatlarına qarşı birgə mübarizə aparılmalıdır, birgə mübarizə platformasının formalaşdırılması lazımdır.

Son günlərdə Norveçdəki hadisəni görürük. Yəni bir nəfərin 93 nəfərin həyatına qəsd etməsini sadəcə dəlilik və ya adi bir hadisə kimi dəyərləndirmək yanlışdır. İllərlə islamofobiya deyə ortaya çıxanlar, buna əhəmiyyət verməyənlər hazırkı hadisələr qarşısında hələ də deyilməli olanları deyə bilmirlər. Məsələni nə qədər gizlədirlər gizlətsinlər, bu, onu göstərir ki, baş verənlər onların korazehinliyinin əvəzidir. Bəlkə orada bizim də bir qızımız həlak oldu. Dünən anası və atası ilə danışdım, hələ də bir ümid gözləyirlər, qızlarını gözləyirlər. Biz də ümid edirik ki, inşallah, ölməmişdir, inşallah, anasına, atasına, eləcə də millətimizə qovuşar, amma ölmüşdürsə, ona Allahdan rəhmət diləyirəm.

Bütün bunlar bizə bir şeyi göstərir ki, biz dünyadakı bu hadisələr qarşısında əl-ələ verəcəyik. Türkiyənin bu məsələdəki sıxıntısı, inanıram ki, Azərbaycanın sıxıntısıdır. Azərbaycanın terrorla bağlı belə bir sıxıntısı olsa, bizim sıxıntımızdır. Əl-ələ verərək bu mərhələləri, inşallah, aşacağıq.

Sahibkarlarımızın Azərbaycandakı yatırımları bizdə yenə məmnunluq doğurur. Bu barədə hörmətli Prezidentin fikirləri şübhəsiz ki, buradakı prosesi daha yaxşı əks etdirir. Buna görə də həqiqətən məmnunluq keçiririk.

Mən bugünkü səfərimizin çox səmərəli olduğu fikrindəyəm. Heyətlərimiz arasındakı görüşlər də çox səmərəli şəkildə nəticələndi. Qarşıdakı mərhələnin də çox səmərəli olacağı qənaətindəyəm.

Mən bütün mətbuat nümayəndələrinə - dostlarıma minnətdarlığımı bildirirəm, təşəkkür edirəm.

* * *

- Cənab Baş nazir, Ermənistan Prezidenti Serj Sarkisyanın "Dağlıq Qarabağı biz aldıq, yeni nəsil də Ağrı dağını ələ keçirsin" sözlərini necə qiymətləndirirsiniz? Bundan başqa, Türkiyənin yeni hökuməti dövründə Ermənistan siyasətində bir fəallıq gözləyə bilərikmi?

Rəcəb Tayyib ƏRDOĞAN: Dəyərli yoldaşlar, mən dünən də bununla bağlı açıqlama verdim. Xarici İşlər Nazirliyimizin də bununla bağlı çox sərt bir bəyanatı var. Mən də bu gün sizin bu sualınızla bağlı Azərbaycanda yenə bir açıqlama verim. Bu, bir dövlət xadiminə və ya bir Prezidentə yaraşan ifadə tərzi, yanaşma forması deyildir.

Gələcək nəsillərə kin və nifrət aşılamaq dövlət xadiminə yaraşmaz. Serj Sarkisyanın etdiyi bir təhrikdir, öz gəncliyinə kin və nifrət hissi aşılamağa səy göstərməkdir. Bununla Ermənistan gəncliyinin gələcəyi nə olacaqdır? Bu gedişlə qaranlıq olacaqdır, bu hadisələrə hər zaman qara eynəklə baxacaqdır. Bunu mütləq bilməlidirlər. Hazırda Dağlıq Qarabağ ərazisi işğal edilib və işğalçılar məlumdur. Bunu yalnız biz demirik, bunu BMT də deyir. Bu, sübut olunmuşdur. Bu, həll edilməlidir. Bunun həllinə indiyə qədər mənfi yanaşma Ermənistan tərəfindədir. Azərbaycan hər zaman müsbət yanaşma ortaya qoymuşdur. "Siz hazırda Dağlıq Qarabağı bizdən təhvil aldınız, biz ölüb gedəcəyik, Ağrını da siz alacaqsınız" - belə bir məntiq olarmı? Belə bir anlayış olarmı? Gəncliyə belə bir

istiqamət, belə bir üfüq verilərmi?

Bu nə deməkdir? Ey gənclər, Ermənistan Türkiyə ilə bundan sonra istədiyi kimi, istədiyi şəkildə bir müharibəyə də girə bilər. Bunların hamısını rədd edirik. Belə bir dövlət xadimi, belə bir diplomatiya olmaz. Sarkisyan burada ciddi bir səhv etmişdir. Tarixi bir səhvi birbaşa özü təsdiq edərək demişdir. O, üzr istəməlidir, bu səhvindən dönməlidir.

İlham ƏLİYEV: Mən əlavə etmək istəyirəm ki, əslində, Sarkisyandan başqa bir şey gözləmirdim. Çünki dəfələrlə onunla görüşmüşəm.

Rəcəb Tayyib ƏRDOĞAN: Mən onu Sizin qədər tanımıram.

İlham ƏLİYEV: Onun düşüncə tərzinə yaxşı bələdəm. Əslində bu, Ermənistanın işğalçı mahiyyətini göstərir. Bu ölkə problemlər içindədir. Bu ölkədən qaçanların sayı on minlərlə ölçülür. Ölkə iqtisadiyyatı tam böhran içindədir - yoxsulluq, səfalət, ümidsizlik. Bir dənə də olsun əməlli-başlı müəssisə yoxdur, xarici ianələr, xaricdən himayədarlıq edənlər olmasa bu ölkə çökər. Belə olan halda, real əhalisi 1 milyon 800 min nəfər olan halda bu adamlar Türkiyənin əzəli, tarixi torpaqlarına iddia edirlər.

Onlar hesab edirlər ki, Dağlıq Qarabağ məsələsini həll ediblər. Onlar yanılırlar. Dağlıq Qarabağ Azərbaycan torpağıdır, Azərbaycan torpağı kimi qalır. Vaxt gələcək, Azərbaycan Dağlıq Qarabağ üzərində öz suverenliyini ya barış yolu ilə, ya da hərb yolu ilə bərpa edəcəkdir.

Ancaq Türkiyə kimi böyük bir ölkəyə qarşı torpaq iddiasında olmaq? Bu, sadəcə onu göstərir ki, bu adamların başında nəsə çatmır. Onlar real dünyada yaşamırlar, özlərinin yaratdığı xülya dünyasında yaşayırlar. Onlar o yuxudan oyansınlar, real dünyaya qayıtsınlar və özlərini Türkiyə ilə, heç olmasa, müqayisə etsinlər. Fil ilə qarışqanı müqayisə etmək olmaz.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyulun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi ziyafət verilmişdir.

Prezident İlham ƏLİYEV ziyafətdə çıxış edərək dedi:

-Hörmətli cənab Baş nazir, əziz qardaşım, hörmətli qonaqlar, əziz dostlar! Əziz qardaşım, Sizi bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün mən artıq bir dəfə Sizi təbrik etdim. Rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı çox parlaq qələbə münasibətilə Sizi bir daha bu salonda ürəkdən təbrik edirəm. Sizin rəhbərliyiniz altında Türkiyə son illər ərzində böyük yol keçmişdir. Siz rəhbərliyə gələndə Türkiyə problemlər içində idi - iqtisadi böhran, maliyyə böhranı içində idi. Sizin siyasətiniz nəticəsində Türkiyə bu gün dünyada dinamik inkişaf edən ölkədir. Nə dünyadakı maliyyə böhranı, nə də ki iqtisadi böhran Türkiyəyə təsir etdi. Bu, Sizin nailiyyətinizdir, Sizin siyasi xəttinizin nəticəsidir. Bu, bizi də çox sevindirir. Türkiyə bizim üçün qardaş ölkədir, dost ölkədir və Türkiyə nə qədər güclü olsa, biz də özümüzü bir o qədər güclü hesab edəcəyik.

Biz bu il müstəqilliyimizin 20 illik yubileyini qeyd edəcəyik. Bizim müstəqilliyimizi ilk

tanıyan da Türkiyə olmuşdur. Əslində, o addım sonra başqa ölkələrin Azərbaycanın müstəqilliyini tanımasına da yol açmışdır. Biz bu tarixi heç vaxt unutmamışıq və unutmayacağıq. Bizim xalqlarımızı ortaq tarix, ortaq mədəniyyət birləşdirir. Əsrlər boyu xalqlarımız bir yerdə olmuşlar, bir-birinə dayaq olmuşlar.

Müstəqil dövlətlər kimi bu gün Türkiyə və Azərbaycan uğurla əməkdaşlıq edir və bu əməkdaşlığın demək olar ki, bütün sahələrdə çox gözəl nəticələri vardır. Biz bir köklərə mənsubuq. Ancaq tarixdə elə hallar var ki, bir-birinə çox yaxın olan, hətta dili bir olan ölkələr bir-biri ilə o qədər də isti münasibətdə olmur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bu möhkəm tarixi və mədəni köklər üzərində bu gün Türkiyə və Azərbaycan siyasi sahədə, iqtisadi sahədə, bütün başqa sahələrdə müttəfiqlər kimi çalışır, işləyir. Son 20 il ərzində bu müttəfiqlik böyük sınaqlardan keçmişdir. Azərbaycan daim Türkiyənin dəstəyini, diqqətini hiss etmişdir, bu gün də hiss edir. Eyni zamanda, bugünkü Azərbaycan, güclənən Azərbaycan Türkiyə üçün də bir dayaqdır. Azərbaycanın imkanları artır və beləliklə ölkəmiz ikitərəfli əlaqələrin inkişafına, ortaq maraqlara öz töhfəsini verməkdədir.

Bizim qarşımızda enerji məsələləri ilə bağlı strateji seçim etmək məsələsi duranda, şübhəsiz və heç bir tərəddüdsüz düzgün seçim edilmişdir və bütün bizim əsas enerji yollarımız Türkiyə ərazisindən keçir. Bu yollar bir dəhlizə çevrilibdir və bu dəhliz artıq nəqliyyat üçün də açılıbdır. Bu gün haqqında söhbət etdiyimiz həm Bakı-Tbilisi-Ceyhan, həm Bakı-Tbilisi-Ərzurum kəmərləri və həm də Bakı-Tbilisi-Qars layihəsi artıq regional müstəvidən çıxıb, beynəlxalq əhəmiyyətə malikdir. Necə ki, bizim dostluğumuz, qardaşlığımız və işbirliyimiz artıq regional müstəviyə sığmır. Bizim birliyimizin, birgə fəaliyyətimizin istənilən sahədə artıq qlobal mahiyyəti var. Əlbəttə ki, illər keçdikcə və ölkələrimiz gücləndikcə bizim təsir imkanlarımız daha da genişlənəcəkdir.

Biz bir yerdə türkdilli dövlətlərin əməkdaşlığına da çox müsbət təsir göstəririk. Bəzi hallarda bizim tərəfimizdən irəli sürülmüş təşəbbüslər bütün türk dünyasının birləşməsinə xidmət göstərir. Bu təşəbbüslər həm siyasi sahədə, həm iqtisadi sadədə, həm də mədəniyyət sahəsində artıq gözəl nəticələrini verməkdədir. Türk dünyasının birləşməsi çox müsbət haldır və həm Türkiyədə, həm də Azərbaycanda bu məsələyə çox böyük diqqət göstərilir.

Bir daha demək istəyirəm ki, bizim aramızda olan əlaqələr bütün sahələri əhatə edir. Bugünkü danışıqlarda gündəliyimizin demək olar ki, bütün məsələləri müzakirə edildi. Diqqətdən kənarda bir dənə də məsələ qalmadı. Bütün istiqamətlər üzrə konkret proqramlar və layihələr icra edilir və təşəbbüslər irəli sürülür.

Ticarət dövriyyəsi artır, qarşılıqlı investisiyalar artır. Bu gün mən artıq mətbuat konfransında qeyd etdim ki, Azərbaycan Türkiyə iqtisadiyyatına investisiyaların qoyulmasına başlamışdır. Bu vaxta qədər 4 milyard dollardan çox vəsait qoyulmuşdur və növbəti bir neçə il ərzində Türkiyənin neft kimyası kompleksinə 6 milyard dollar sərmayə qoyulacaqdır. Eyni zamanda, Türkiyə şirkətləri də Azərbaycana böyük həcmdə sərmayə qoyurlar. Bu, bir daha onu göstərir ki, nə qədər biz bir-birimizə bağlıyıq, nə qədər biz bir-birimizə inanırıq. Çünki əgər bu olmasaydı, şirkətlər bu qədər investisiyaları qoymazdılar.

Dəmir yolu layihəsinin icrası nəticəsində bütün türk dünyası yeni Dəmir İpək yolu ilə birləşəcəkdir. Bu yol həm bizim xalqlarımıza xidmət edəcək, eyni zamanda qitələri bir-

ləşdirəcəkdir.

Biz bu gün Türkiyənin və Avropanın enerji təhlükəsizliyi məsələlərinə də toxunduq. Azərbaycanın zəngin neft-qaz yataqları Türkiyənin enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynayır və gələcəkdə bu rol daha da artmalıdır. Ümid edirəm ki, yaxın vaxtlarda bu istiqamətdə yeni vacib addımlar atılacaqdır.

Bir sözlə, bizim münasibətlərimizi və onların tarixini təhlil edərkən bir daha demək olar ki, Türkiyə-Azərbaycan əlaqələri, Türkiyə-Azərbaycan müttəfiqliyi dünya çapında xüsusi yerə malikdir. Bəlkə də dünyada ikinci belə ölkələr tapılmaz ki, onların arasında bu qədər oxşarlıq, bu qədər yaxınlıq, bu qədər qarşılıqlı rəğbət və əməkdaşlıq olsun. Bu, bizim böyük sərvətimizdir, böyük qürur mənbəyimizdir. Bu yolu bizə öndərlərimiz göstərmişlər. Onların - türk və Azərbaycan xalqlarının böyük liderləri Mustafa Kamal Atatürkün, Heydər Əliyevin verdiyi bəyanatlar və vəsiyyət etdikləri məsələlər bu gün bizim üçün bir istiqamətdir. Biz sevincli günlərdə də, kədərli günlərdə də bir yerdəyik. Biz bir millətik, iki dövlətik. Bax, bu yol işıqlı, nurlu bir yoldur. Bu yolla biz uğurla addımlayırıq və bu yolda Türkiyə ilə Azərbaycana yeni uğurlar arzulayırıq.

Əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Sizə və qardaş türk xalqına yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan çıxış etdi:

- Cənab Prezident, dəyərli qardaşım Əliyev!

Əvvəlcə Sizləri müstəqilliyin 20-ci ildönümündə öz adımdan və nümayəndə heyətim adından ən səmimi hisslərlə salamlayıram.

Bildiyiniz kimi, bizim məlum ənənəmizə uyğun olaraq, seçkilər keçirildikdən sonra ilk işimiz Azərbaycana və ya Şimali Kipr Türk Respublikasına səfər etməkdir. Xarici səfərlərimizi belə başlayır, belə həyata keçiririk.

Bu il ilk səfərimi 37-ci müstəqillik ildönümü olması münasibətilə 19-20 iyulda Şimali Kipr Türk Respublikasına həyata keçirdik. Bu gün də 20-ci ildönümü münasibətilə Azərbaycanda həyata keçiririk. Yəni iki xoşbəxtliyi bir yerdə yaşadıq.

Amma həm də ona görə xoşbəxtəm ki, 20 il əvvəlki Azərbaycanı bugünkü ilə müqayisə etsək, həqiqətən, çox fərqli bir dəyişiklik, inkişafın içərisindədir. Hava limanından buraya gələnə qədər həm bütün yolların infrastruktur işləri, həm də bütün binaların fasadlarının yenilənməsi kimi işlər Azərbaycanda bir şeyin siqnalını verir. O da adətən, mədəniyyət yolunda həm tarixinə sahib çıxmaq, həm də bu günü sabaha hazırlamaq məqamında mühüm bir mesaj verir.

Mənim çox arzuladığım, istədiyim, sevdiyim bir şey vardır. O da şəhərlərin özünəməxsus yerli memarlığına sahib çıxmasıdır. Bakıda bunu gördüm. Bunu gördüyüm üçün ayrıca xoşbəxtəm, məmnunam. Çünki bu, Azərbaycanın, Bakının öz keçmişinə, tarixinə sahib çıxması, digər tərəfdən də mədəniyyət yarışında Qərbə də bəzi mesajların verilməsidir.

Təbii ki, Qərb bir qərara gəlməlidir. O da budur: bu, Bakı, bu da Yerevan. Yerevan olduğu yerdə sayır - təbii ki, "köhnə" sözü burada fərqli başa düşülür, amma bizdə çox

fərqlidir - durumu məlumdur. Amma Bakının durumu da məlumdur. Artıq müqayisə qəbul edilməzdir. Məsələ beladir.

Qərb bundan dərs götürməlidir. Dərs götürərək, başda Minsk qrupu olmaqla təhlil aparmalıdır. Amma onlar hələ də bu təhlili aparmaqda çətinlik çəkirlər. Haqqı sahibinə təhvil vermirlər və görürsünüz ki, hələ də Dağlıq Qarabağ, bu bölgə işğal altındadır və üzüntülü bir durum yaşayır. O da azad olunacağı günü gözləyir. İnşallah, azad olunduğu andan etibarən, inanıram ki, ora da sahiblərinin əllərində sürətlə bu dəyişikliyi, inkişafı yaşayacaqdır.

Bizim qardaşlığımız, bağlılığımız tarix, mədəniyyətdən gəlir. Güclü bir bağlılığımız var və bunu heç kimsəyə zədələtməməliyik. Buna heç kimin haqqı yoxdur. Bunu gücləndirərək sabahlara daşıyacağıq və biz bunu bacarırıq. Hərbi, siyasi, iqtisadi, ticari, mədəni sahələrdə atdığımız və inşallah, atacağımız addımlarla bunu bacarırıq. Qoyduğumuz hədəflərə nail oluruq.

Bir az əvvəl dəyərli Prezidentimiz ifadə etdi ki, həm Bakı-Tbilisi-Ceyhan neft kəməri, həm Bakı-Tbilisi-Ərzurum qaz kəməri, həm də Qars-Tbilisi-Bakı dəmir yolu xətti - bütün bunlar gələcəyə istiqamətlənmiş müjdələr verir.

Bakı-Tbilisi-Ərzurum ilə birgə, "Şahdəniz-2"də daha güclü bir iş ortaya qoyulacaqdır. Bunlar təbii ki, bir enerji bazası olaraq da Türkiyəyə önəm qazandırır. Amma hamısından vacibi bizim həmrəyliyimiz, qardaşlığımız çox böyük əhəmiyyət kəsb edir. Bunu gələcəkdə də bu şəkildə vurğulayacağıq.

Bunun təkrar bilinməsini istəyirəm: bilin - Türkiyə olaraq, xüsusilə iqtidarımız olaraq biz bu 9 illik müddətdə hər zaman, hər yerdə, hər toplantıda azərbaycanlı qardaşlarımızın yanında olduğumuz kimi, bundan sonrakı müddətdə də Ədalət və İnkişaf Partiyası iqtidarı bütün gücü ilə, Türkiyə olaraq hər zaman Azərbaycanın, qardaşlarının yanında olacaqdır. Buna heç kim şübhə etməsin.

Mən dəyərli qardaşıma təkrarən çox təşəkkür edirəm. Bu gözəl süfrə ətrafında, bu ziyafətdə şəxsən öz adımdan və heyətim adından ayrıca təşəkkür edirəm. Sağ olun.

Bakı, 14 iyul 2011-ci il.

UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

Hörmətli Viktor Fyodoroviç,

Luqansk vilayətindəki "Suxodolskaya-Vostoçnaya" şaxtasında partlayış nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi qəlbdən başsağlığı verirəm. Zərərçəkənlərin tezliklə sağalmasını arzu edirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 29 iyul 2011-ci il.

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

Hörmətli cənab Prezident,

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 avqust 2011-ci il.

UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

Hörmətli Viktor Fyodoroviç,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Ukrayna xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Bu gün dost Ukrayna hərtərəfli inkişaf yolu ilə irəliləyərək dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin iqtisadi qüdrətinin artırılması və beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi istiqamətində ardıcıl addımlar atmaqdadır.

Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq, qarşılıqlı inam və etimad münasibətlərindən qaynaqlanan Azərbaycan-Ukrayna tərəfdaşlığını, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində fəal əməkdaşlığımızı müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 8 avqust 2011-ci il

MOLDOVA RESPUBLİKASI PREZİDENTİNİN VƏZİFƏSİNİ MÜVƏQQƏTİ İCRA EDƏN ZATİ-ALİLƏRİ CƏNAB MARİAN LUPUYA

Hörmətli cənab Lupu,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Moldova arasındakı dostluq və əməkdaşlıq münasibətləri zəngin ənənələrə malikdir. Əminəm ki, bu ənənələrin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda atdığımız addımlar daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Moldova xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 8 avqust 2011-ci il.

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

Əlahəzrət,

Malayziyanın milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Malayziya arasındakı münasibətlərin hərtərəfli inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin genişləndirilməsi yolunda bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 8 avqust 2011-ci il.

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ROZA OTUNBAYEVAYA

Hörmətli xanım Prezident,

Ölkənizin milli bayramı - Dövlət müstəqilliyi günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qırğızıstan arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Qırğızıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 8 avqust 2011-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

SOÇİNİN BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA

AzərTAc xəbər verir ki, avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Soçinin Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

Avqustun 9-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısını salamlayan Rusiya Prezidenti Dmitri MEDVEDEV dedi:

- Hörmətli İlham Heydər oğlu! Sizi Soçidə ürəkdən salamlayıram.

Bura ikitərəfli münasibətlərdə cari vəziyyəti, regional gündəliyi müzakirə etmək, bizi darıxmağa qoymayan beynəlxalq işlərə nəzər salmaq üçün yaxşı yerdir. Qlobal maliyyə sistemlərində müəyyən iqtisadi problemlər yaranmışdır ki, bu da asan mövzu deyildir.

Əlbəttə, ilk növbədə diqqətimi ölkələrimiz arasında ikitərəfli dialoqun inkişafı üzərində cəmləmək istərdim. Zənnimcə, bu dialoq son dərəcə yaxşı gedir. Bu baxımdan son vaxtlar çox iş görülmüşdür. Həm yaxın illər üçün əməkdaşlığın mahiyyətini müəyyənləşdirən fundamental sazişlərin imzalanmasını, həm ikitərəfli əmtəə dövriyyəsinin

artmasını, eləcə də bir sıra iri layihələri nəzərdə tuturam. Amma əlbəttə, elə məsələlər vardır ki, məsləhətləşmək və ya tərəfdaşın mövqeyini aydınlaşdırmaq lazımdır.

Əlbəttə, ən əsas mövzulardan biri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasıdır. Mən, həmçinin bundan sonra nə etmək, Kazanda üçlükdə keçirilmiş son görüşümüzü və bu formatda əvvəlki görüşləri nəzərə almaqla hadisələrin necə inkişaf edə biləcəyi barədə Sizinlə son dərəcə açıq söhbət aparmaq istəyirəm.

Regional problemlərin həlli bizim üçün həqiqətən çox əhəmiyyətlidir, çünki biz yaxın ölkələrik, qonşuyuq, çox yaxın dostlar və tərəfdaşlarıq. Əslində, bütün regionun, ölkələrimizin, xalqlarımızın əhvalı regionumuzda hadisələrin necə inkişaf etməyindən asılıdır. Odur ki, bu məsələlərlə bağlı da məsləhətləşmək istəyirəm.

Sizi bir daha salamlamaqdan məmnunam. Hava da ürəkaçandır. Əgər diqqət yetirmisinizsə, Soçidə həmişə hava rütubətlidir. Bu gün isə rütubətli deyil, sadəcə istidir.

Minnətdarlığını bildirən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

- Çox sağ olun, Dmitri Anatolyeviç.

Dəvətə görə sağ olun. Soçidə, bu dəfə yayda Sizinlə yenidən görüşməyimə çox şadam. Buradakı görüşlərimiz bir qayda olaraq qış vaxtında keçirilir. Odur ki, birinci dəfə yay vaxtı burada olmaq, ən başlıcası isə Sizinlə görüşüb, dediyiniz məsələləri müzakirə etmək imkanına malik olmaq mənim üçün də çox maraqlıdır.

Həqiqətən, gündəliyimiz çox genişdir. İkitərəfli formatda bütün məsələlər, demək olar, həll edilmişdir. Haqqında danışdığınız müqavilələr son illər görülmüş işlərin zirvəsidir və dost, mehriban qonşuluq və tərəfdaşlıq münasibətlərimizin həm formasını, həm ruhunu, həm də xarakterini əks etdirir.

Əgər ikitərəfli əlaqələrin gündəliyinə nəzər salsaq, bütün istiqamətlər üzrə müsbət və yaxşı dinamika görürük. Siyasi məsləhətləşmələr, o cümlədən yüksək səviyyədə məsləhətləşmələr müntəzəm aparılır. Qarşılıqlı siyasi fəaliyyət də regional əməkdaşlığın inkişafına kömək edir.

Sizin qeyd etdiyiniz kimi, iqtisadi sahədə əmtəə dövriyyəsinin artması, strukturun yaxşılaşması, əmtəə dövriyyəsinin bundan sonra da genişlənməsi perspektivləri vardır.

Humanitar əməkdaşlıqda, enerji təhlükəsizliyi məsələlərində, eləcə də bir çox digər sahələrdə də müsbət prosesləri qeyd edə bilərəm. Bu gün biz məmnuniyyətlə qeyd edirik ki, münasibətlər çox müsbət, dinamik inkişaf edir.

Biz qonşuyuq, iki Xəzər ölkəsi, iki Qafqaz ölkəsiyik və əlbəttə, regiondakı proseslər də çox cəhətdən qarşılıqlı fəaliyyətimizdən asılıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə səylərinizə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Biz Azərbaycanda Sizin şəxsən bu prosesə qoşulmağınızı çox yüksək qiymətləndiririk. Üçtərəfli formatda keçirilən danışıqların mərhələləri, heç şübhəsiz, tərəflərin mövqelərini xeyli yaxınlaşdırmışdır.

Bu, regional təhlükəsizliyin əsas problemidir və bütün köçkünlərin öz yaşayış yerlərinə qayıtması, regionda sülhün, əmin-amanlığın, əməkdaşlığın bərqərar olması üçün münaqişənin tezliklə həllində Azərbaycan, əlbəttə, başqasından bəlkə də daha çox maraqlıdır.

Əlbəttə, nizamlamanın nəzərdə tutulan prinsipləri beynəlxalq hüquq normalarını, sağlam düşüncəni əks etdirir. Odur ki, münaqişənin tezliklə həll olunması bütün ölkələrin mənafeyinə uyğundur.

Göstərdiyiniz səylərə, habelə son illər ölkələrimizi yaxınlaşdıran gördüyümüz bütün müsbət işlərə, havaların yaxşı keçdiyi gözəl Soçi şəhərinə dəvət etdiyinizə görə bir daha şəxsən Sizə minnətdarlığımı bildirmək istəyirəm.

* * *

Prezidentlər İlham Əliyev və Dmitri Medvedev elektromobildə şəhəri gəzmişlər.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Azərbaycan dövlətinin başçısını Soçinin Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.

* * *

Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.

Azərbaycan Prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

PREZİDENT İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.

Görüş iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:

-Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram. Bizim mübarək Ramazan ayında görüşlərimiz ənənəvi xarakter daşıyır. Çox şadam ki, yenidən sizinlə görüşürəm.

Xahiş edirəm ki, qarşıdan gələn bayram münasibətilə mənim səmimi təbriklərimi və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə bizim ölkə çox sıx əməkdaşlıq edir. Mən çox şadam ki, bu əməkdaşlıq və dostluq əlaqələri gündən- günə güclənir. Biz çox istəyirik ki, bütün müsəlman ölkələri ilə əlaqələrimiz həm siyasi, həm iqtisadi sahədə və bütün başqa sahələrdə daha da geniş, daha da dərin olsun.

Mən çox şadam ki, müsəlman ölkələrinin Azərbaycandakı səfirliklərinin sayı artmaqdadır. İldən-ilə bu masa arxasında səfirlərin sayı artır. İnşallah, bir neçə ildən sonra biz gə-

rək daha da böyük masa arxasında əyləşək. Eyni zamanda, Azərbaycan da müsəlman ölkələrində öz səfirliklərinin sayını artırır. Bu həm bir-birimizə olan münasibətin təzahürüdür, eyni zamanda, bu, zərurətdir. Biz çox istəyirik ki, bütün müsəlman ölkələri arasında əlaqələr daha da sürətlə inkişaf etsin. Eyni zamanda, beynəlxalq təşkilatlarda əməkdaşlığımız çox uğurla davam edir. Birləşmiş Millətlər Təşkilatında, İslam Əməkdaşlığı Təşkilatında, digər təşkilatlarda biz sıx əməkdaşlıq edirik və daim bir-birimizi dəstəkləyirik. Bir neçə il bundan əvvəl BMT-nin Baş Məclisində Dağlıq Qarabağ məsələsinin müzakirəsi zamanı bizə ən çox dəstək verən müsəlman ölkələri olmuşdur. Bu dəstəyə görə minnətdarıq və bu dəstəyi bu gün də hiss edirik. Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrinin maraqlarını daim müdafiə edir və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Əminəm ki, xüsusilə indiki şəraitdə islam həmrəyliyinin gücləndirilməsi çox lazımdır. Bizim aramızda birlik daha da sıx olmalıdır. İqtisadi əlaqələr daha da geniş olmalıdır. Əlbəttə ki, qarşılıqlı dəstək yüksək səviyyədə olmalıdır. Hər halda Azərbaycan bu məqsədlərə çatmaq üçün öz tərəfindən vacib addımları atır.

İslam Əməkdaşlığı Təşkilatının xətti ilə ölkəmizdə yüksək səviyyəli bir neçə tədbir keçirilmişdir. Bildiyiniz kimi, İSESKO ilə əlaqələrimiz çox sıxdır. İslam mədəniyyətinin dünyada təbliği üçün ölkəmiz çox böyük səylər göstərir. Biz fəxr edirik ki, 2009-cu ildə Bakı şəhəri islam mədəniyyətinin paytaxtı elan edilmişdir. 2018-ci ildə ölkəmizin digər qədim şəhəri olan Naxçıvan da bu şərəfli ada layiq görüləcəkdir.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Sizə, ailələrinizə, təmsil etdiyiniz ölkələrə uğurlar arzulayıram. Əminəm ki, siz özünüzü Bakıda evinizdəki kimi hiss edirsiniz. Mən ümid edirəm ki, burada sizin fəaliyyətiniz həmişə olduğu kimi, çox uğurlu olacaqdır. Yəni, siz burada həqiqətən öz doğma vətəninizdəsiniz.

Özbəkistanın Azərbaycandakı səfiri İsmatilla YERQAŞEV müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri adından müqəddəs Ramazan ayı münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik edərək dedi:

-Hörmətli, cənab Prezident! Sizi Azərbaycanda akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri, nümayəndəliklərinin rəhbərləri və şəxsən öz adımdan böyük məmnuniyyətlə müqəddəs Ramazan ayı və əl-Fitr bayramı münasibətilə təbrik edirəm.

Zati-alileri, fürsətdən istifadə edərək bu müqəddəs ayda Sizinlə görüşmək imkanı əldə etdiyimiz üçün Sizə səmimi təşəkkürümüzü bildiririk. Biz çox şadıq ki, məhz Sizin sayənizdə bu görüşlər xoş ənənəyə çevrilib. Müqəddəs aylardan biri olan Ramazan insanların ağlında və düşüncəsində təcəssüm tapır, onları əmin-amanlığa, mənəvi paklığa və birliyə çağırır. Bu ay müsəlmanlar Allah qarşısında vicdani borclarını yerinə yetirmək imkanı qazanır, xeyirxah işlərin sevincini, mənəvi kamilliyin şər üzərində qələbəsini yaşayırlar. Hər birimiz üçün müqəddəs olan bu ayda müsəlman ölkələrinin səfirləri adından Sizə və bütün Azərbaycan xalqına Uca Allahdan xeyir işlər, həmçinin sülh və tərəqqi arzulamaqdan şərəf duyuram.

Bu gün Azərbaycan nəinki regional, həmçinin beynəlxalq proseslərə və meyillərə birbaşa təsir göstərən güclü amillərdən biridir. Biz səmimi maraq və rəğbət hissi ilə islahatların dinamik gedişini və bunun da Azərbaycanın iqtisadi və sosial həyatında fayda-

sını müşahidə edirik. Onun parlaq nümunələrindən və təsirindəndir ki, bu gün qlobal maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycan milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində yüksək nəticələr göstərməkdə davam edir. Ölkədə böyük infrastruktur layihələri müvəffəqiyyətlə həyata keçirilir. Əlbəttə, bunların hamısının səbəbi düzgün düşünülmüş iqtisadi islahatlardır.

Cənab Prezident, Siz əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi islahatları uğurla davam etdirirsiniz. Azərbaycan xalqı artıq nəinki bunları görür, həmin islahatların bəhrələrindən istifadə edir. Azərbaycanın bundan heç də az əhəmiyyətli olmayan humanitar sahədəki nailiyyətləri də göz qabağındadır. Bu mənada mən qeyd etmək istərdim ki, Azərbaycanın "Eurovision-2011" musiqi yarışmasındakı qələbəsi bütün müsəlman ölkələri üçün də sevindirici bir haldır. Ən nəhayət, biz Azərbaycanın zəngin müsəlman irsinin dirçəlməsinə və inkişafına yönəlmiş səylərini alqışlayırıq. Bunun parlaq nümunəsi kimi Azərbaycanda hər il Beynəlxalq muğam festivalının keçirilməsini göstərmək olar.

Əlbəttə, biz müsəlman ölkələrinin nümayəndələri kimi, Azərbaycan xalqına Dağlıq Qarabağ münaqişəsinin həllində dəstək verəcəyik. Əminik ki, bu problem beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir. Azərbaycanlı məcburi köçkünlər doğma yerlərinə, Dağlıq Qarabağa qayıdacaqlar.

Biz müsəlman ölkələrinin nümayəndələri kimi, Azərbaycanı 2012-2013-cü illərdə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyini dəstəkləyəcəyik və inşallah, inanırıq ki, bu məsələ BMT çərçivəsində həll ediləcəkdir.

Hörmətli cənab Prezident! Sizə dərin minnətdarlığımızı bildirirəm. Sizə uğurlar, Azərbaycan xalqına tərəqqi və çox böyük nailiyyətlər arzu edirəm.

Çox sağ olun!

Ölkəmiz haqqında xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham ƏLİYEV dedi:

- Çox sağ olun. Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Doğrudan da, ölkəmiz bütün sahələrdə,- siz də qeyd etdiniz,- həm iqtisadi, həm humanitar, həm mədəniyyət sahələrində inkişaf edir. Biz çalışırıq ki, ölkəmiz hərtərəfli inkişaf etsin, insanların rifah halı yaxşılaşsın, ölkə qarşısında duran bütün vəzifələr icra edilsin. Bildiyiniz kimi, müxtəlif proqramlar vardır. Bu proqramlar icra edilir. Şəhərlərin siması dəyişilir, hər yerdə quruculuq, abadlıq işləri aparılır. Görəndə ki, dostlarımız, qardaşlarımız da uğurlarımıza sevinir, əlbəttə, biz çox şad oluruq. Sizin ölkələrinizin nümayəndələri Azərbaycanda gedən müsbət proseslərə, doğrudan da, həmişə səmimi qaydada dəstək olmuşlar. Bu dəstəyi biz hiss edirik, hiss etmişik.

Biz bu il müstəqilliyimizin 20 illiyini qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan göstərib ki, müstəqil ölkə kimi yaşaya, inkişaf edə bilər və yaxşı da yaşaya bilər. Əlbəttə ki, görüləsi işlər çoxdur. Bizim böyük planlarımız vardır. Biz çalışırıq ki, ölkəmizi inkişaf etmiş ölkələrin sırasına çıxaraq. Bunu etmək üçün imkanlar vardır. Həm siyasi iradə, həm artıq maliyyə resurslarımız, düşünülmüş siyasətimiz və strateji xəttimiz vardır. Əlbəttə ki, istədiyimizə nail olmaq üçün beynəlxalq müstəvidə də mütləq qarşılıqlı etimad

əsasında əlaqələr gücləndirilməlidir.

Bir daha demək istəyirəm ki, beynəlxalq aləmdə ən böyük dəstəyi bütün dövrlərdə biz müsəlman ölkələrindən görmüşük və bu gün də görürük. Müstəqilliyimizin ilk illərindən bu günə qədər bizi dəstəkləyən müsəlman ölkələri olmuşdur. Bizi ilk tanıyan müsəlman ölkəsi Türkiyə olmuşdur. Ondan sonra digər ölkələr bizi müstəqil ölkə kimi tanımışlar. Biz İslam Əməkdaşlığı Təşkilatına, - o vaxt İslam Konfransı Təşkilatı adlanırdı,- üzv olmuşuq və daim bu təşkilat çərçivəsində dəstək görmüşük. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İslam Əməkdaşlığı Təşkilatının çoxsaylı qərar və qətnamələri vardır ki, bu da bizim mövqeyimizi gücləndirir.

Siz qeyd etdiyiniz kimi, Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv kimi namizəd olmuşdur. Mən öz həmkarlarıma bununla bağlı müvafiq qaydada məktublar göndərmişəm. Çox şadam ki, artıq bir neçə ünvandan mənə həmkarlarım müsbət cavab göndərmişlər. Buna görə mən çox minnətdaram.

Mən bir daha demək istəyirəm ki, bütün müsəlman ölkələri daim bir-birinin yanında olmalıdırlar, bir-birinə dəstək olmalıdırlar, həm siyasi sahədə, həm iqtisadi sahədə. Müsəlman ölkələri arasında birlik, həmkarlıq, əməkdaşlıq daha da yüksək səviyyəyə çatmalıdır. Xüsusilə indiki zəmanədə bəzi hallarda biz dinimizə qeyri-normal münasibətlə üzləşirik. İslamofobiya meyilləri əfsuslar olsun ki, artmaqdadır. Multikulturizmlə bağlı müxtəlif fikirlər irəli sürülür. Sanki multikulturizm iflasa uğrayıb. Halbuki bizim təcrübəmiz və sizin təmsil etdiyiniz ölkələrin təcrübəsi onu göstərir ki, multikulturizm yaşayır və inkişaf edir. Bunun müsbət nümunələri vardır. Bu təcrübələr öyrənilməlidir. Yəni, bütün bu məsələlər əlbəttə

ki, diqqət mərkəzində olmalıdır. Biz daim bu məsələləri beynəlxalq tribunalardan qaldırırıq. Azərbaycan həm İslam Əməkdaşlığı Təşkilatının, eyni zamanda, Avropa Şurasının üzvüdür. Yəni, mövqeyimizi ifadə etmək üçün, xüsusilə bu məsələlərlə bağlı mövqeyimizi ifadə etmək üçün kifayət qədər geniş imkanlarımız vardır və biz bunlardan istifadə edirik.

Biz milli dəyərlərimizi, dini dəyərlərimizi təbliğ etməliyik. İslam dini qardaşlıq, dostluq dinidir. İslam dini dünyada sülhsevər meyilləri gücləndirir. Ona görə biz dinimizin həqiqi mahiyyətini dünyada daha da geniş şəkildə təbliğ etməliyik.

Əfsuslar olsun ki, islam dininə qarşı bəzi dairələrdə qeyri-adekvat, qeyri-normal, çox mənfi münasibət vardır. Biz mübarizə aparmalıyıq və bu mübarizə ancaq birlik olan zaman uğurlu ola bilər. Bütün beynəlxalq məsələlərlə bağlı bizim mövqeyimiz vardır və biz öz mövqeyimizi müdafiə etməliyik. Birliyə çağırışlar sadəcə olaraq gözəl şüar deyildir. Bu, doğrudan da zərurətdir, xalqlarımıza, ölkələrimizə lazımdır. Biz çox istəyirik ki, bütün müsəlman aləmi daha da sıx birləşsin. Buna böyük ehtiyac vardır. Bəzi müsəlman ölkələrində yaşanan sıxıntılar, qarşıdurmalar, problemlər bizi də çox narahat edir. Biz istəyirik ki, bu böhranlı vəziyyət tezliklə aradan qaldırılsın və bütün müsəlman aləmində sülh, əməkdaşlıq, sakitlik, əmin-amanlıq yaransın.

Müsəlman ölkələri ilə iqtisadi sahədə bizim qarşılıqlı iqtisadi komissiyalar fəaliyyət göstərir. Bu komissiyaların işi səmərəlidir və çalışmalıyıq ki, hər bir sahədə nailiyyətə çataq.

Siyasi əlaqələr çox yaxşı ki, yüksək səviyyədədir. İqtisadi sahədə, mədəniyyət sahəsində, gənclər arasında əlaqələr olmalıdır. İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumu da çox fəal işləyir. Biz gəncləri də bir araya gətirməliyik ki, onlar bir-biri ilə əlaqədə olsunlar. Gələcəkdə ölkələrimizi onlar idarə edəcəklər. İndidən gərək sıx əlaqədə olsunlar ki, maraqlarımız təmin edilsin.

Bilirsiniz, hər bir ölkənin öz problemi vardır. Hər bir ölkədə problemlərin həlli üçün əlbəttə ki, ilk növbədə, daxili resurslar əsas rol oynayır. Ancaq xarici dəstək, xarici yardım və mənəvi dəstək də az rol oynamır. Mən bir daha demək istəyirəm ki, 20 illik müstəqillik dövründə biz daim islam ölkələri tərəfindən bu diqqəti, dəstəyi görmüşük. Çalışmışıq ki, öz növbəmizdə biz də dəstəyimizi göstərək. Mən tam əminəm ki, növbəti illərdə uğurumuz və uğurlu inkişafımız daha çox bu qarşılıqlı dəstəkdən asılı olacaqdır.

Bir daha sizi qarşıdan gələn bayram münasibətilə təbrik edirəm. Bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı təmsil etdiyiniz ölkələrin rəhbərlərinə və ən xoş arzularımı ölkələrinizin ictimaiyyətinə çatdırasınız. Sağ olun.

Sonda xatirə şəkli çəkdirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DOMİNİKA BİRLİYİNİN BAŞ NAZİRİ RUZVELT SKERRİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Dominika Birliyinin Baş naziri Ruzvelt Skerritin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə qarşılıqlı əlaqələrin genişləndirilməsində ölkələrimizin maraqlı olduğu qeyd edildi, siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

Hörmətli İslam Abduqəniyeviç,

Özbəkistan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Özbəkistan arasındakı dostluq və əməkdaşlıq münasibətləri dərin tarixi köklərə və ənənələrə malikdir. Ortaq mənəvi dəyərləri bölüşən, bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımızın iradəsi, qarşılıqlı etimad və dəstəyi ilə bu gün həmin ənənələr yeni məzmun kəsb etməkdədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin, çoxşaxəli dostluq əlaqələrimizin və əməkdaşlığımızın hazırkı dinamik inkişafı və zəngin potensialı daim xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə, hörmətli İslam Abduqəniyeviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Özbəkistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 avqust 2011-ci il.

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan-Vyetnam münasibətlərinin, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 avqust 2011-ci il.

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DİLMA ROUSSEFFƏ

Hörmətli xanım Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Braziliya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Braziliya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 avqust 2011-ci il.

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

Hörmətli Emoməli Şərifoviç,

Tacikistan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, tarixi ənənələrə əsaslanan Azərbaycan-Tacikistan dostluğunun və əməkdaşlığının daim möhkəmləndirilməsi, xalqlarımızın iradəsini əks etdirən dövlətlərarası münasibətlərimizin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə, hörmətli Emoməli Şərifoviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Tacikistan xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 avqust 2011-ci il.

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ

Zati-aliləri cənab Kim Çen İrə

Hörmətli cənab Sədr,

Ölkənizin milli bayramı - Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 11 avqust 2011-ci il.

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ XANIM MARİYA LUİZA BERTİ VƏ CƏNAB FİLİPPO TAMANİNİYƏ

Zati-aliləri,

Milli bayramınız - Respublika günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azər-

baycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə San-Marino arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, San-Marinonun dost xalqına sülh və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 16 avqust 2011-ci il

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA

Hörmətli cənab Baş katib,

Nigeriyanın Abuca şəhərində BMT-nin qərargahı qarşısında törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi son dərəcə sarsıtdı.

Bu amansız hadisə terrorizmə qarşı hər zaman və hamılıqla mübarizə aparılmasının zəruriliyini bir daha təsdiq edir. Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 27 avqust 2011-ci il.

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

Hörmətli cənab Prezident,

Monterrey şəhərində baş vermiş faciə nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 27 avqust 2011-ci il.

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QUDLAK CONATANA

Hörmətli cənab Prezident,

Abuca şəhərində terror aktı törədilməsi nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu dəhşətli hadisədən hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 27 avqust 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAKI OFİSİNİN YENİ RƏHBƏRİ KORAY TARQAYI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri Koray Tarqayı qəbul etmişdir. Dövlətimizin başçısı Koray Tarqayı ATƏT-in Bakı ofisinin rəhbəri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev ATƏT-in Bakı ofisinin keçmiş rəhbəri Bilge Cankorelin Azərbaycandakı fəaliyyəti dövründə ATƏT-in Bakı ofisi ilə ölkəmizin müvafiq qurumları arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi.

ATƏT-in Bakı ofisinin yeni rəhbəri Koray Tarqay təmsil etdiyi təşkilat ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Avqustun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona telefonla zəng etmişdir.

Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə etmiş, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu qeyd etmişlər.

Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon müqəddəs Ramazan bayramı münasibətilə bir-birini təbrik etmiş, xalqlarımıza əmin-amanlıq və firavanlıq arzulamışlar.

Dövlət başçıları regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Serbiya Respublikasının xarici işlər naziri Vuk Yeremiçi qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Serbiya Respublikasına səfərini xatırlayan Prezident İlham Əliyev bu səfərin əlaqələrimizin inkişafında əhəmiyyətli mərhələ olduğunu dedi. Qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.

Xarici işlər naziri Vuk Yeremiç Serbiya Prezidenti Boris Tadiçin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya səfərini tarixi səfər adlandıraraq bunun ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafında yeni səhifə açdığını qeyd etdi. Ölkələrimiz arasında güclü siyasi əlaqələrin mövcud olduğunu vurğulayan nazir Serbiya Prezidentinin tapşırığı ilə ölkəmizə səfər etdiyini, əlaqələrimizin digər sahələrdə də inkişaf etdirilməsi ilə bağlı Azərbaycanın müvafiq strukturları ilə müzakirələr aparacağını dedi.

Dövlətimizin başçısı Prezident Boris Tadiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN ÖLKƏMİZDƏKİ NUNSİSİNİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Vatikanın ölkəmizdəki nunsisi Klaudio Qucerottini fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Nunsi Klaudio Qucerotti on il bundan əvvəl etimadnaməsini xalqımızın ümummilli lideri Heydər Əliyevə təqdim etməsinin onda böyük təəssürat yaratdığını qeyd etdi. O, ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycanda sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Vatikan arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Vatikanın ölkəmizdəki nunsisi Klaudio Qucerottinin əlaqələrimizin inkişafındakı xidmətlərini qeyd edən Prezident İlham Əliyev gələcək fəaliyyətində ona uğurlar arzuladı.

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

Hörmətli cənab Prezident, Əziz dost,

Estoniya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, dostluq əlaqələri-

mizin genişləndirilməsi, qarşılıqlı maraq kəsb edən əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Estoniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə və ən xoş arzularla,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 1 sentyabr 2011-ci il.

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KEN YAMA

Hörmətli cənab Prezident,

Sinqapur Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Sinqapur münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sinqapur xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 1 sentyabr 2011-ci il.

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YOŞİHİKO NODAYA

Hörmətli cənab Baş nazir,

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Biz Azərbaycan-Yaponiya münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimizi birləşdirən çoxşaxəli dostluq əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 1 sentyabr 2011-ci il.

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Şahzadə həzrətləri,

Əziz qardaşım,

Həyat yoldaşınız Şahzadə Munira bint Əbdüləziz bin Musaidin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 1 sentyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN KOMİTƏ SƏDRİ KRİSTOS PİRQURİDESİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də AŞPA-nın Hüquq məsələləri və insan hüquqları Komitəsinin sədri Kristos Pirquridesin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə AŞPA arasında hüquq məsələləri və insan hüquqları sahəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ VİTSE-PREZİDENTİ, MALİYYƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ XANIM EVELİN VİDMER-ŞLUMPFI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də İsveçrə Konfederasiyasının vitse-prezidenti, maliyyə federal departamentinin rəhbəri xanım Evelin Vidmer-Şlumpfi qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Özünün İsveçrəyə, İsveçrənin dövlət başçılarının isə Azərbaycana səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərləri ölkələrimiz arasında siyasi əlaqələrin göstəricisi kimi dəyərləndirdi. İsveçrə Konfederasiyasının vitse-prezidenti, maliyyə federal departamentinin rəhbəri xanım Evelin Vidmer-Şlumpfin ölkəmizə səfərinin önəmini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin daha da genişləndirilməsi baxımından bu səfərin uğurlu olacağına əminliyini ifadə etdi.

İsveçrə Konfederasiyasının vitse-prezidenti, maliyyə federal departamentinin rəhbəri xanım Evelin Vidmer-Şlumpf Prezident İlham Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının 20 illiyi münasibətilə təbrik etdi. O, ölkələrimiz arasında diplomatik münasibətlərin də məhz 20 il bundan əvvəl yaradılmasının önəmini vurğuladı. Xanım Evelin Vidmer-Şlumpf Prezident İlham Əliyevin İsveçrəyə rəsmi səfərini, Davos İqtisadi Forumunda iştirakını və orada keçirdiyi məhsuldar görüşləri məmnunluqla xatırladı. O, əlaqələrimizin inkişafı baxımından yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi.

Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Filipp Lefortu Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. Avropa İttifaqı ilə region ölkələri arasında əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra daha da genişləndiriləcəyinə əminliyini ifadə etdi.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefort Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Ketrin Eştonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ketrin Eştonun region ölkələri ilə əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərdiyini dedi.

Dövlətimizin başçısı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Ketrin Eştonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ketrin Eştona çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qubernator Aleksandr Jilkin ötən il Azərbaycan Prezidenti İlham Əliyevin Həştərxan vilayətinə uğurlu səfərini xatırlayaraq həmin səfər zamanı müzakirə olunan məsələlə-

rin önəmini qeyd etdi. Aleksandr Jilkin Həştərxan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldıldığı parkın şəhər sakinlərinin sevimli istirahət mərkəzlərindən biri olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Rusiyanın Həştərxan vilayəti arasında iqtisadi, humanitar, sosial, turizm və nəqliyyat sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə edildi, əməkdaşlığımızın bundan sonra daha da genişlənəcəyinə əminlik bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avstriyanın OMV şirkəti idarə heyətinin sədri Gerhard Roissin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

OMV şirkəti idarə heyətinin sədri Gerhard Roiss Avstriya Prezidenti Haynts Fişerin və Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Gunter Ottingerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Avstriyanın OMV şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, "Nabukko" layihəsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə edildi.

Dövlətimizin başçısı Avstriya Prezidenti Haynts Fişerin və Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Gunter Ottingerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriyanın dövlət başçısına və Avropa İttifaqının komissarı Gunter Ottingerə çatdırmağı xahiş etdi.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç!

Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Rusiya dövlət və demokratiya təsisatlarının təkmilləşdirilməsi, iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi yolu ilə inamla irəliləyir. Ölkənin beynəlxalq aləmdə nüfuzu artır.

Azərbaycan ilə Rusiya arasında bu gün strateji tərəfdaşlıq xarakteri kəsb etmiş ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Siz sanballı töhfə vermisiniz. Sizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənməsinə yönəlmiş səyləriniz Azərbaycanda böyük razılıqla qarşılanır.

Əminəm ki, bizim dövlətlərarası münasibətlərimiz, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın rifahı naminə, Qafqazda sülh, sabitlik və təhlükəsizlik naminə bundan sonra da

uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Mən bizim aramızda yaranmış, qarşılıqlı hörmətə və etimada əsaslanan şəxsi münasibətləri yüksək qiymətləndirirəm.

Əziz Dmitri Anatolyeviç, Sizə və bütün ailənizə möhkəm cansağlığı, firavanlıq və uğurlar diləyirəm.

Dərin hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 sentyabr 2011-ci il

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

Hörmətli cənab Prezident,

Meksika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Meksika arasındakı dövlətlərarası münasibətlərin inkişafı dostluq əlaqələrimizin və əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 sentyabr 2011-ci il.

MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan-Malta münasibətlərinin inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin möhkəmlənməsi və genişlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 sentyabr 2011-ci il.

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AMADU TUMANİ TUREYƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mali arasında təşəkkül tapmış münasibətlər dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mali xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı 7 sentyabr 2011-ci il.

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət,

Əziz qardaşım,

Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın mənəvi birliyindən güc alan dövlətlərarası münasibətlərimizin və dostluq əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı yolunda səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 sentyabr 2011-ci il

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Şahzadə həzrətləri,

Əziz qardaşım,

Ölkənizin milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 sentyabr 2011-ci il.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç,

Yaroslavl yaxınlığında çoxsaylı insan tələfatı ilə nəticələnmiş təyyarə qəzası haqqında xəbər məni dərindən sarsıtmışdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 8 sentyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanovu qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası ilə ölkəmiz arasında əlaqələrin münasibətlərimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu, İlyas Umaxanovun ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ MAYKL BORRELLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da "Total" şirkətinin baş vitse-prezidenti Maykl Borrellin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Maykl Borrellin başçılıq etdiyi "Total" şirkətinin nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" blokunda iri qaz yatağının kəşf edilməsini ölkəmizin həyatında əlamətdar hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə yeni qaz yatağının kəşf olunmasının Azərbaycanın dünyanın ən böyük qaz istehsal edən ölkələr sırasında mövqeyini daha da möhkəmləndirəcəyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, bu əlamətdar hadisə Azərbaycanın neft və qaz potensialının indiyəcən təsdiqlənmiş ehtiyatlardan qat-qat çox olduğunun növbəti əyani sübutudur. Dövlətimizn başçısı uzun illərdir Fransanın "Total" şirkətinin Azərbaycanda bir sıra layihələrdə uğurla fəaliyyət göstərdiyini və yeni qaz yatağının kəşfinin böyük nailiyyət olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanın neft-qaz strategiyasını uğurla davam etdirmək üçün bundan sonra da məqsədyönlü və ardıcıl siyasətini davam etdirəcəyini vurğuladı.

"Total" şirkətinin baş vitse-prezidenti Mayk Borrell "Abşeron" blokunda iri qaz yatağının kəşfinin mühüm hadisə olduğunu bildirdi. Maykl Borrell "Total" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə uğurla əməkdaşlıq etdiyini dedi. O, "Abşeron" yatağında "Total" şirkətinin həyata keçirdiyi işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Maykl Borrell Fransanın "Total" şirkətinin Azərbaycan ilə əməkdaşlığının bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduğunu vurğuladı.

Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə "Abşeron" blokundakı yeni qaz yatağının texniki-iqtisadi göstəriciləri və perspektivdə görüləcək işlər barədə təqdimat verdi.

Prezident İlham Əliyev "Abşeron" blokunda iri qaz yatağının kəşfi münasibətilə xalqımızı, bu layihənin reallaşmasında iştirak edən insanları təbrik etdi və yeni-yeni uğurlar arzuladı. Dövlətimizin başçısı yeni yatağın Azərbaycanın regionda və dünyada mövqeyinin möhkəmlənməsinə, respublikamızın sosial-iqtisadi inkişafının daha da güclənməsinə və xalqımızın maddi-rifah halının yaxşılaşmasına mühüm təsir göstərəcəyini vurğuladı.

Sonra Prezident İlham Əliyev "Abşeron" blokunda yeni qaz yatağının kəşfi münasibətilə mətbuata açıqlama verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XƏZƏRİN "ABŞERON" BLOKUNDA YENİ BÖYÜK QAZ YATAĞININ KƏŞFİ MÜNASİBƏTİLƏ MƏTBUATA AÇIQLAMASI

- Bu gün Fransanın Total şirkətinin rəhbərliyi qəbulumda olarkən Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" yatağında böyük qaz ehtiyatlarının kəşf edilməsi barədə mənə məlumat vermişlər. Mən öz növbəmdə bu şad xəbəri Azərbaycan ictimaiyyətinə çatdırmaq istəyirəm. Bütün Azərbacan xalqını bu hadisə ilə əlaqədar təbrik etmək istəyirəm. Doğrudan da bu, böyük hadisədir. "Abşeron" yatağında böyük həcmdə qaz ehtiyatlarının aşkarlanması Azərbaycanın qaz potensialının inkişafına verilən böyük töhfədir.

"Abşeron" yatağı Azərbaycan geoloqları tərəfindən hələ 60-cı illərdə kəşf edilmişdir. Amma suyun dərinliyini nəzərə alaraq o vaxt bizim imkanımız yox idi ki, bu yataqda işlər aparılsın. Azərbaycanın neft strategiyasının icrası nəticəsində, Heydər Əliyevin təşəbbüsü ilə aparılan siyasət nəticəsində Azərbaycanın imkanları böyük dərəcədə artmışdır. Hazırda bizdə elə qazma qurğuları var ki, Xəzər dənizinin istənilən yerində qazma və kəşfiyyat işlərini apara bilər.

"Abşeron" yatağı üzrə birinci beynəlxalq kontrakt 1997-ci ildə imzalanmışdır. O vaxt görülən işlər nəticə verməmişdir və 2005-ci ildə kontrakta xitam verilmişdir. Ancaq biz inanırdıq. Azərbaycan geoloqları, Azərbaycan Dövlət Neft Şirkətinin mütəxəssisləri inanırdılar ki, "Abşeron" yatağında məhsuldar laylar vardır. Bu inam, eyni zamanda, xarici tərəfdaşlar tərəfindən də ifadə edilmişdir. Bu qarşılıqlı maraq əsasında 2009-cu ildə "Total" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında "Abşeron" yatağı üzrə ikinci kontrakt imzalanmışdır. Bəlkə də dünya praktikasında bu çox nadir hallarda rast gəlinən bir məsələdir ki, bir yataq üzrə ikinci dəfə də kontrakt imzalansın. Kəşfiyyat işləri hazırda deməyə əsas verir ki, nəticə də oldu. Bir daha demək istəyirəm ki, Abşeronda çox böyük qaz yatağı kəşf edilmişdir.

Bu bizə imkan verəcək ki, öz qaz strategiyamızı daha da inamla irəliyə aparaq, Azərbaycanı qaz ixrac edən ölkə kimi dünyada daha da tanıtdıraq, Azərbaycan xalqının maraqlarını təmin edək. Uzun müddət bundan sonra, onilliklər bundan sonra Azərbaycan qaz ixrac edən ölkə kimi dünya miqyasında özünü göstərəcək və bizim ölkə kimi əhəmiyyətimiz şübhəsiz daha da artacaqdır.

Bizim enerji siyasətimiz bir məqsədi - Azərbaycan xalqının maraqlarını təmin etmək və regional əməkdaşlığı dərinləşdirmək məqsədini güdür. Bu istiqamətdə çox vacib addımlar atılmışdır. Bu gün bizim çoxşaxəli enerji-nəqliyyat infrastrukturumuz vardır. Yeddi neft-qaz kəmərimiz vardır. Bu gün Azərbaycan nefti və qazı müxtəlif istiqamətlər üzrə Avropa və dünya bazarlarına çatdırılır. Azərbaycan ənənəvi olaraq neft ölkəsi kimi tanınırdı. Bu gün isə Azərbaycan daha çox qaz ixrac edən ölkə kimi dünya üçün əhəmiyyətlidir. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik.

Bizim planlarımız çoxdur. Biz çoxşaxəli ixrac imkanlarımızı genişləndirmək üçün əməli işlərlə məşğuluq. Əminəm ki, bu ilin sonuna qədər bütün tranzit məsələləri də öz həllini tapacaq və beləliklə, böyük Azərbaycan qazı üçün yeni bazarlar aşkarlanacaqdır.

Avropa İttifaqı ilə Azərbaycan arasında bu istiqamətdə çox səmərəli münasibətlər mövcuddur, səmərəli əməkdaşlıq aparılır. Bu ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə çox vacib Bəyannamə imzalanmışdır və işçi qrupu yaradılmışdır. Bu gün aparılan danışıqlar, əminəm ki, yaxın zamanlarda yaxşı nəticələrə gətirib çıxaracaqdır. Eyni zamanda, yeni böyük qaz yatağının kəşfi Azərbaycanın enerji təhlükəsizliyinə də böyük töhfədir. Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Bir müddət bundan əvvəl Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən aşkarlanmış "Ümid" yatağı da böyük potensiala malikdir. Orada qazın həcmi 300 milyard kub-

metrdən artıqdır. Bizim ən böyük və dünya miqyasında böyüklərin sırasında yer almış "Şahdəniz" yatağında işlər uğurla gedir. "Şahdəniz" yatağının ikinci fazasının işlənməsi ilə əlaqədar bütün hazırlıq işləri aparılır. Xarici tərəfdaşlarla bu məsələlərlə bağlı ciddi müzakirələr aparılır. Bir sözlə, Azərbaycanın qaz potensialı nəinki ölkəmiz üçün, region üçün, dünya üçün öz əhəmiyyətini göstərməkdədir.

Eyni zamanda, ölkəmizi qazlaşdırmaq üçün konkret addımlar atılır, bütün bölgələrdə yeni qaz xətləri çəkilir. Qarşıya vəzifə qoyulubdur ki, növbəti iki il ərzində Azərbaycanda bütün qazlaşma məsələləri öz həllini tapsın və beləliklə, Azərbaycan tam şəkildə qazlaşdırılsın. Bu məsələlərlə əlaqədar konkret tapşırıqlar verilib. Azərbaycanın bu sahədəki siyasəti çox düzgündür, dəqiqdir, Azərbaycan xalqının milli maraqlarına xidmət edir. Əminəm ki, gələcəkdə belə şad xəbərlər çox olacaq. Növbəti illərdə digər yataqlarda kəşfiyyat-qazma işləri aparılacaqdır və beləliklə, Azərbaycanın inkişafı üçün yeni imkanlar yaradılacaqdır.

Bu gözəl hadisə ilə əlaqədar mən bir daha bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Bu, doğrudan da çox önəmli, çox vacib hadisədir. Bu, bir daha onu göstərir ki, ölkəmizin çox böyük imkanları, böyük potensialı və çox gözəl gələcəyi vardır.

BAKIDA DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA REGİONAL KOMİTƏSİNİN 61-Cİ SESSİYASI ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SESSİYANIN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Sentyabrın 12-də Bakıda, "Gülüstan" sarayında Dünya Səhiyyə Təşkilatının (DST) Avropa Regional Komitəsinin 61-ci sessiyası öz işinə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyanın açılış mərasimində iştirak etmişdir.

Dünya Səhiyyə Təşkilatının baş direktoru xanım Marqaret Çanın, DST-nin Avropa Regional bürosunun direktoru xanım Jujanna Yakabın iştirak etdikləri üçgünlük sessiyada 50-dən çox ölkənin səhiyyə nazirləri, yüksək səviyyəli mütəxəssisləri müxtəlif xəstəliklərlə mübarizə və ictimai sağlamlıq məsələlərinə dair müzakirələr aparacaqlar.

Tədbirin məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildir. Son zamanlar ölkəmizdə səhiyyə sistemində mühüm islahatlar həyata keçirilmişdir. Bir çox beynəlxalq qurumlar, o cümlədən Dünya Səhiyyə Təşkilatının Avropa üzrə Regional Komitəsinin rəsmiləri bildirmişlər ki, Azərbaycan səhiyyə sektorunda uğurlu nailiyyətlər əldə etmişdir və Avropanın bir çox ölkələri məhz Azərbaycanın bu sahədəki təcrübəsindən yararlana bilər.

Azərbaycanın dövlət büdcəsində səhiyyə sahəsinin inkişafına ayrılan vəsaitin məbləği artır, ölkədə yeni müasir müalicə ocaqları inşa edilir və yenidən qurulur. Dövlət dəstəyi və qayğısı ilə yanaşı, Heydər Əliyev Fondu da səhiyyə sahəsinin inkişafını fəaliyyətində prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir. Ailə, ana və uşaq sağlamlığının qorunması Fondun diqqətdə saxladığı əsas sahələrdəndir. Bununla bağlı Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən zəruri proqram və layihələr

Azərbaycanda səhiyyə sahəsinin inkişafına əvəzsiz töhfələr vermişdir.

Sessiyanın iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev mərasimdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar! Hörmətli baş direktor!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin sessiyasının Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox mühüm və əlamətdar bir hadisədir. Mən çox şadam ki, bu gün Avropa qitəsini təmsil edən nümayəndələr bizim qonaqlarımızdır. Əminəm ki, sessiyanın işi uğurlu olacaq və eyni zamanda, qonaqlar ölkəmizlə, şəhərimizlə tanış olacaqlar.

Biz çox şadıq ki, Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıq çox uğurla və sürətlə inkişaf edir. Təşkilatın verdiyi tövsiyələr, məsləhətlər bizim üçün çox dəyərlidir və Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlar üçün çox qiymətlidir. Mən bu gün xüsusilə Dünya Səhiyyə Təşkilatının baş direktoru xanım Marqaret Çanı səmimiyyətlə salamlamaq istəyirəm. Xanım Çan bizim dostumuzdur, ölkəmizin dostudur və birinci dəfə deyil ki, Azərbaycanda səfərdədir. Hər dəfə Azərbaycanda olarkən və müzakirələr aparılarkən biz bir daha əmin oluruq ki, Dünya Səhiyyə Təşkilatına çox dəyərli insan rəhbərlik edir və təşkilatın son illərdəki nüfuzunun artırılması üçün xanım baş direktorun çox böyük zəhməti vardır.

Azərbaycanda səhiyyə məsələlərinə çox böyük diqqət göstərilir. Bu gün yəqin ki, müzakirələr zamanı bu məsələ ilə bağlı məlumatlar veriləcəkdir. Deyə bilərəm ki, dövlətimiz və hökumətimiz sosial məsələlərin həllinə çox böyük diqqət verir. Təkcə bəzi rəqəmləri qeyd etməklə görmək mümkün olacaq ki, doğrudan da bizim bu sahədəki siyasətimiz çox dəqiqdir və müsbətdir. Son beş il ərzində səhiyyə məsələlərinə ayrılan dövlət büdcə xərclərimiz 8 dəfədən çox artmışdır. Yəni, bu, özlüyündə onu göstərir ki, bu məsələ bizim üçün prioritet məsələdir. Dövlətimiz insanların sağlamlığının təmin edilməsi üçün əlindən gələni etməyə çalışır. Son illərdə səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi üçün konkret addımlar atılmışdır. Çünki bildiyiniz kimi, müstəqilliyimizin ilk illərində Azərbaycanda iqtisadi vəziyyət çox ağır idi, ölkədə böhran hökm sürürdü, maliyyə imkanlarımız çox məhdud idi və vaxtilə - keçmiş dövrlərdə yaradılmış səhiyyə müəssisələri də yararsız vəziyyətə düşmüşdü. Biz çox istəyirdik ki, tezliklə bu məsələ ilə bağlı dönüş yarada bilək. Son bir neçə il ərzində Azərbaycanda tikilmiş və əsaslı təmir edilmiş səhiyyə müəssisələri bu gün müasir Azərbaycanın reallıqlarını əks etdirir. Son illər ərzində ölkəmizdə 400-dən artıq səhiyyə müəssisəsi tikilib və yaxud əsaslı şəkildə təmir edilib. Onların arasında xüsusi əhəmiyyət kəsb edən, son bir neçə il ərzində Bakıda yaradılmış Onkoloji Mərkəzi qeyd etmək istərdim. Eyni zamanda, çox müasir Oftalmologiya Mərkəzi, Urologiya Mərkəzi, Talassemiya Mərkəzi tikilmişdir, Elmi Cərrahiyyə Mərkəzi yaradılmışdır. Ölkəmizdə Perinatal mərkəzlər yaradılır. Demək olar ki, bütün şəhərlərdə xəstəxanalar təmir olunur və tikilir. 14 şəhərdə

ən müasir standartlara cavab verən Müalicə-Diaqnostika mərkəzləri tikilmişdir və orada hemodializ qurğuları quraşdırılmışdır. Qeyd etmək istəyirəm ki, dövlət səhiyyə müəssisələrində bütün xidmətlər pulsuzdur.

Eyni zamanda, son illər ərzində müasir avadanlığın alınması üçün böyük vəsait xərclənmişdir. Hesab edirəm ki, səhiyyə sistemində müşahidə olunan müsbət dinamika, o cümlədən səhiyyə sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi hesabına mümkün olmuşdur.

Bununla bərabər, səhiyyə sahəsində aparılan islahatlar, ən mütərəqqi təcrübənin Azərbaycanda tətbiq edilməsi, beynəlxalq əlaqələr, həkimlərimizin təkmilləşdirilməsi məsələlərinə verilən diqqət, xarici klinikalarda Azərbaycan həkimlərinin öyrədilməsi və təhsili, bütün bu məsələlər hesab edirəm ki, səhiyyə sahəsində ciddi dönüşə gətirib çıxarmışdır və əlbəttə ki, görülən işlərin nəticəsi insanların sağlamlığıdır. Azərbaycanda bu sahədə müsbət dinamika onu göstərir ki, son illər ərzində insanların ömrünün uzunluğu artır, uşaq ölümü, ana ölümü azalır. Biz elə etməliyik ki, bu müsbət dinamikanı saxlayaq və gələcəkdə səhiyyə ilə bağlı nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapsın. Bizim planlarımız çoxdur. Hazırda bir neçə şəhərdə, o cümlədən Bakı şəhərində yeni, müasir səhiyyə ocaqları tikilir və onların istifadəyə verilməsi nəticəsində deyə bilərəm ki, Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazası tam şəkildə yeniləşəcəkdir.

Bununla bərabər, insanın sağlamlığını şərtləndirən digər sahələrə də Azərbaycanda çox böyük diqqət göstərilir. İlk növbədə ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün konkret addımlar atılır. Siz yaxşı bilirsiniz ki, ekologiyanın insanın sağlamlığına çox böyük - həm müsbət, həm mənfi təsiri ola bilər. Keçən il Azərbaycanda "Ekologiya ili" elan edilmişdi. Çox böyük tədbirlər görülmüşdür. İl yarım ərzində ölkəmizdə 10 milyondan artıq ağac əkilmişdir. Ekoloji vəziyyətin yaxşılaşdırılması bilavasitə insanların sağlamlığına təsir göstərir. Ölkəmizin hər bir yerində böyük su layihələri icra edilir. Su problemi, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda çox kəskin, çox ciddi bir problem idi. Biz bu problemin həlli üçün konkret addımlar atırıq və 2013-cü ilin sonuna qədər Azərbaycanda əhaliyə verilən su Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verməlidir. Yəni, bu bir meyardır və biz çalışacağıq ki, bu məqsədlərə nail olaq. Bu layihələr çox böyük vəsait tələb edir. Ancaq Azərbaycan dövləti bu vəsaiti ayırır və eyni zamanda, beynəlxalq təşkilatlar da bizə kreditlərlə kömək göstərirlər. Mən tam əminəm ki, içməli su və kanalizasiya layihələrinin icra edilməsi nəticəsində bu amillər də insanların sağlamlığına çox müsbət təsir göstərəcəkdir.

İnsanların sağlamlığını şərtləndirən amillərdən biri də idmandır. Azərbaycanda bu sahədə də çox böyük işlər görülür. Son illər ərzində ölkəmizdə 30-dan çox Olimpiya-İdman Mərkəzi, idman meydançaları tikilmişdir. Ümumiyyətlə ölkəmizdə idmanla, fiziki hazırlıqla məşğul olmaq üçün çox gözəl şərait yaradılmışdır. Biz gəncləri idmana cəlb etməklə bir neçə məqsədi güdürük. Birinci növbədə, onlar sağlam olurlar, digər tərəfdən, biz gəncləri pis vərdişlərdən də çəkindirməliyik. Azərbaycanda narkomaniyaya qarşı çox ciddi mübarizə aparılır. Bu yaxınlarda "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı qəbul edilmişdir. Gənclərin sağlam şəkildə böyüməsi gələcəkdə səhiyyə problemlərinin azalmasına gətirib çıxaracaqdır. Çünki insan uşaqlıq yaşlarından, gənc yaşlarından öz səhhətinə fikir verməlidir.

Mən səhiyyə məsələləri ilə bağlı çıxışlarımda həmişə dəfələrlə vurğulayıram ki, hər bir vətəndaş, hər bir insan ildə bir dəfə müayinədən keçməlidir.

Əfsuslar olsun ki, keçmiş dövrlərdə bu praktika bizdə yox idi. Hesab edirəm ki, biz bu sahədə görülən bütün işlərlə bərabər maarifləndirmə işlərini də yüksək səviyyədə qurmalıyıq. İnsanlar bilməlidirlər ki, ildə heç olmasa, bir dəfə müayinədən keçərsə, o zaman xəstəliyi aşkarlamaq da asan olacaqdır. Nəzərə alsaq ki, bu gün Azərbaycanda istənilən xəstəliyi müalicə etmək üçün imkanlar var, tezliklə o xəstəlik aradan qalxa bilər. Əlbəttə ki, Dünya Səhiyyə Təşkilatının bu məsələ ilə bağlı təcrübəsi bizim üçün çox dəyərlidir, çox vacibdir. Avropa Regional Komitəsinin təcrübəsi də çox vacibdir. Çünki Azərbaycan, ümumiyyətlə, Avropa ölkələri ilə çox sıx əlaqədədir. Bir neçə proqram icra edilir. Avropa İttifaqı ilə münasibətlərimiz güclənir. Azərbaycan "Şərq tərəfdaşlığı" Proqramının üzvüdür. Bu proqrama qoşulmağımızın əsas səbəbi ondan ibarətdir ki, biz Avropa ölkələrinin qabaqcıl təcrübəsini Azərbaycanda tətbiq edək, Avropa standartlarına yaxın olaq və gələcəkdə istənilən sahədə öz vəziyyətimizi Avropa standartlarına uyğunlaşdıraq. Ona görə, bu məsələlərlə bağlı bu sessiya zamanı keçiriləcək müzakirələr bizim üçün çox vacibdir.

Ölkəmizdə sosial məsələlərin həlli ilə bərabər çox ciddi iqtisadi islahatlar aparılır. Əgər bu iqtisadi islahatlar səmərə verməsəydi, yəqin ki, dediyim bu məsələlərlə məşğul olmaq bizim üçün daha da çətin olardı. Azərbaycan son illər ərzində iqtisadi sahədə çox böyük uğurlara nail ola bilmişdir. İqtisadiyyatımız son 7 il ərzində dünya miqyasında ən yüksək templərlə inkişaf etmişdir. Son 7 il ərzində Azərbaycanda ümumi daxili məhsul təxminən 3 dəfə artmışdır. Yəni, 300 faizə yaxın artmışdır. Bu, dünya praktikasında nadir bir göstəricidir. Bununla bərabər, ölkəmizin keçmişinə xas olan yoxsulluq problemi də aradan qaldırılır. Yoxsulluq şəraitində yaşayanların sayı son 7 il ərzində 49 faizdən 9 faizə düşmüşdür. Bu da hesab edirəm ki, dünya praktikasında ən sürətli inkişafdır. Əlbəttə ki, yoxsulluq şəraitindən çıxan insanın imkanları da genişlənir, maddi vəziyyəti də yaxşılaşır və bu insanlar öz sağlamlığına daha da ciddi diqqət göstərə bilərlər.

Ölkəmizdə ağır vəziyyətdə yaşayan ailələrə dövlət tərəfindən dəstək verilir. Ağır vəziyyətdə yaşayan 125 min ailə dövlətdən ünvanlı sosial yardım alır. Dünyada hökm sürən maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycanda bir dənə də olsun sosial proqrama dəyişiklik edilməmişdir. Bir dənə də olsun yubanma, yaxud da ki, geriləmə olmamışdır. Əksinə, bu il Azərbaycan pensiyaçılarının pensiya təminatı yaxşılaşdırılmışdır və orta hesabla pensiyalar 40 faiz artmışdır. Yaşlı nəsil üçün bu, birbaşa onların sağlamlığına verilən töhfədir. Çünki yaşlı nəsil, əfsuslar olsun ki, dərmanların alınmasına daha çox vəsait xərcləyir. Yaşlı nəslin sağlamlığı əlbəttə ki, daha da böyük diqqət tələb edir. Biz hesab edirik ki, məhz pensiyaçıların pensiyalarının 40 faiz səviyyəsində artırılması çox ciddi sosial məsələnin həllidir, eyni zamanda, birbaşa insanların sağlamlığına verilən dəstəkdir.

Bir sözlə, əziz dostlar, ölkəmizdə son illər ərzində sosial və iqtisadi islahatlar müsbət nəticələrə gətirib çıxarmışdır. Bununla bərabər, əlbəttə ki, ölkə qarşısında problemlər vardır. Biz çalışmalıyıq və çalışırıq ki, bu problemləri həll edək. İqtisadi sahədə seçdiyimiz yol düzgün yoldur. Mən tam əminəm ki, Azərbaycanın iqtisadiyyatı bundan sonra

da uğurla inkişaf edəcəkdir. Sosial məsələlərə gəldikdə isə, hər bir sosial məsələ ilə bağlı ciddi konkret Dövlət Proqramımız vardır və bu proqramlar icra edilir.

Beynəlxalq təşkilatlar Azərbaycanda görülən işlərə öz qiymətini verirlər. İnsan inkişafı indeksinə görə, Azərbaycan son 5 il ərzində dünya miqyasında ən böyük irəliləyişə nail olan ölkədir. Dünya İqtisadi Forumunun hesablamalarına görə, ölkə iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə, Azərbaycan dünyada 55-ci yerdədir. Keçmiş sovet respublikaları arasında üçüncü, MDB məkanında isə birincidir. Bu göstəricilər, əlbəttə ki, bizi daha da ruhlandırır. Onu göstərir ki, bir daha demək istəyirəm, seçdiyimiz yol düzgün yoldur. Bu yolda beynəlxalq təşkilatların, xüsusilə Dünya Səhiyyə Təşkilatı kimi mötəbər və nüfuzlu təşkilatın Azərbaycana verdiyi diqqət bizim üçün çox qiymətli və vacibdir.

Əziz dostlar mən, sizin hamınızı Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram! Sizə və sessiyanın işinə uğurlar arzulayıram!

Sağ olun!

* * *

Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev açılış mərasiminə gəldiyinə və sessiyanın işinə dəstək verdiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.

* * *

Sonra dövlətimizin başçısı tədbirin xaricdən olan iştirakçıları ilə görüşdü, onlara və sessiyanın işinə uğurlar arzuladı.

* * *

Daha sonra tədbir öz işini davam etdirdi. Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev 61-ci sessiyanın sədri seçildi.

Oqtay Şirəliyev çıxış edərək sessiyanın keçiriləcəyi bir neçə gün ərzində Bakıda Dünya Səhiyyə Təşkilatının Avropa Regional bürosunun yeni strategiyasının müəyyənləşdiriləcəyini dedi. Nazir Azərbaycanın səhiyyə sisteminin beynəlxalq səhiyyə təşkilatlarına inteqrasiyasının səmərəli nəticələrindən danışdı. O.Şirəliyev qeyd etdi ki, Bakıda keçirilən toplantıda qəbul ediləcək sənədlər dünyada yaşayan milyonlarla insanın həyat və sağlamlığına cavabdeh olan tibb işçiləri üçün yeni yolgöstərici proqram rolunu oynaya biləcəkdir.

Sonra sessiyanın gündəliyi təsdiq olundu.

Səhiyyə naziri Oqtay Şirəliyev Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın sessiya iştirakçılarına təbrik məktubunu oxudu. Məktubda deyilir:

"Hörmətli qonaqlar!

Sizin hamınızı Azərbaycanın paytaxtı Bakı şəhərində səmimi qəlbdən salamlayıram, hər birinizə uzun ömür, cansağlığı və uğurlar arzulayıram. Ümidvaram ki, ölkəmizdə keçirilən sessiyanın işi səhiyyə üçün taleyüklü sənədlərin qəbulu ilə nəticələnəcək və XXI əsrdə Avropa ölkələrinin səhiyyə sahəsindəki yeni siyasətinin formalaşdırılmasına

öz müsbət təsirini göstərəcəkdir.

Regional Komitənin bu sessiyası respublikamızın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bir vaxta təsadüf edir. Ötən illər ərzində Azərbaycan səhiyyəsi böyük inkişaf yolu keçərək, tibb müəssisələrinin maddi-texniki bazasının əsaslı surətdə yeniləşdirilməsi, müasir tələblərə cavab verən yeni səhiyyə ocaqlarının yaradılması və özəl sektorun qurulması istiqamətində bir çox nailiyyətlər qazanmışdır.

Səmərəli surətdə həyata keçirilən müxtəlif dövlət proqramları çərçivəsində yoluxucu xəstəliklərin, şəkərli diabet, hemofiliya və ümumən insanların sağlamlığı ilə bağlı digər problemlərin aradan qaldırılması üçün xeyli iş görülmüşdür. Ümidvaram ki, bizim səhiyyə sistemi ilə tanışlığınız da gələcək əməkdaşlığımız üçün möhkəm zəmin yaradacaqdır.

Qloballaşan dünyada insanların sağlamlığını müəyyən edən bir çox amillərin iqtisadi və sosial inkişafla bağlılığı qarşımızda yeni vəzifələr qoyaraq dövlət strukturlarının, özəl sektorun və vətəndaş cəmiyyətinin yeni əməkdaşlıq strategiyasının formalaşmasını tələb edir. Buna uyğun olaraq, rəhbərlik etdiyim Fond yarandığı ilk gündən səhiyyə sahəsində genişmiqyaslı layihələr həyata keçirməyə başlamışdır. Dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri və humanitar fondları ilə davamlı işbirliyimiz öz bəhrəsini verməkdədir.

Əminəm ki, üçüncü minilliyin inkişaf məqsədlərinə nail olmaq üçün Dünya Səhiyyə Təşkilatının ardıcıl həyata keçirdiyi siyasət bundan sonra da ölkələrimizdə mövcud potensialın səfərbər olunmasına və səhiyyənin inkişafına müxtəlif vasitələrlə, o cümlədən Avropa Regional Komitəsinin uğurlu işi ilə xidmət edəcəkdir.

Ən xoş arzularla,

Mehriban Əliyeva

Heydər Əliyev Fondunun prezidenti"

* * *

Sessiyada DST-nin Avropa Regional Bürosunun direktoru Jujanna Yakabın hesabatı dinlənildi.

Son 20 ildə Avropada ömrün uzanmasının müşahidə edildiyini bildirən xanım J.Yakab səhiyyə sahəsində problemlərin mövcud olduğunu da diqqətə çatdırdı.

Sağlamlığın profilaktikasına daha ciddi yanaşmanın vacibliyini vurğulayan xanım J.Yakab Bakıda keçirilən sessiyada milli və regional səviyyədə səhiyyənin aktual məsələləri ilə bağlı Avropa ölkələrinin strategiya və planlarının müzakirə olunacağını dedi. Qeyd edildi ki, sessiyada qəbul ediləcək sənədlər "Sağlamlıq-2020" proqramının gerçəkləşməsi üçün Avropa ölkələrinin qarşılıqlı fəaliyyətini genişləndirməyi nəzərdə tutur.

Xanım J.Yakab səhiyyə sahəsində bəzi problemlərin artıq qismən həll olunduğunu bildirdi, fövqəladə hallar zamanı hər bir ölkənin qurumları, xüsusən də səhiyyə sahəsinin məsələyə lazımi reaksiya verməsinin vacibliyini vurğuladı. O, həmçinin fövqəladə hallarda Dünya Səhiyyə Təşkilatı və onun Avropa Regional Bürosunun fəaliyyətini şərh etdi.

DST-nin Avropa Regional Bürosunun direktoru bir sıra yoluxucu xəstəliklərin profilaktikasında ayrı-ayrı ölkələrin təcrübəsindən danışaraq dedi: "52 üzv ölkədə Avropa immunlaşma həftəsi çox uğurla aparılıb. Belə tədbirlər fəaliyyətimizə təkan verən real vasitədir. Mən bu işdə Azərbaycanın nailiyyətlərini xüsusi qeyd etmək istərdim".

Xanım J.Yakab, eyni zamanda, Azərbaycanda malyariya xəstəliyinə qarşı mübarizə tədbirlərinin də çox səmərəli olduğunu diqqətə çatdırdı.

Vərəm, QİÇS xəstəlikləri və antibiotiklərin yaratdığı fəsadlara diqqəti yönəldən Jujanna Yakab bu xəstəliklərlə mübarizə üsullarının genişləndirilməsi üçün birgə səy göstərməyin vacibliyini vurğuladı.

Ekologiya və sağlamlığın Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin diqqətindəki daha bir məsələ olduğunu deyən xanım J.Yakab ətraf mühitin insan sağlamlığına mənfi və müsbət təsiri ilə bağlı müxtəlif proqramların həyata keçirildiyini qeyd etdi. O, həmçinin sağlamlığın möhkəmləndirilməsi istiqamətində həyata keçirilən layihələr barədə də geniş məlumat verdi.

Sonra məruzə ətrafında müzakirələr aparıldı. Qazaxıstanın, Bosniya və Herseqovinanın, Polşanın, Norveçin, Rusiyanın, Fransanın, İsveçrənin və digər ölkələrin səhiyyə nazirliklərinin nümayəndələri çıxış edərək yoluxucu olmayan xəstəliklər, vərəm və QİÇS əleyhinə mübarizə, alkoqolizmə, antibiotiklərə qarşı davamlılıq, eləcə də Dünya Səhiyyə Təşkilatında islahatların aparılması məsələlərini diqqətə çatdırdılar.

Sessiyada Gürcüstanın birinci xanımı Sandra Elizabet Rulofs da çıxış edərək Azərbaycan səhiyyəsinin son illər sürətlə inkişaf etdiyini, Avropa regionunda ən çox yayılmış təhlükəli xəstəliklərə qarşı mübarizənin səmərəsini artırmaq baxımından Bakı sessiyasının əhəmiyyətini xüsusi vurğuladı.

İİV/QİÇS, Vərəm və Malyariya üzrə Qlobal Fondun direktoru Mişel Kazaçkin çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə minnətdarlıq etdi. Bildirdi ki, 2012-2015-ci illər üçün İİV/QİÇS üzrə Avropa fəaliyyət planı bu xəstəliyin qarşısını almağa xidmət edir. Qlobal miqyasda bu xəstəliyə yoluxanların sayı azalmaqdadır. Lakin Şərqi Avropada və Mərkəzi Asiyada 2000-ci ildən bəri İİV-lə yaşayanların sayı üç dəfə artmışdır. Əsas diqqət yenidən yoluxmanın qarşısını almağa, bu qəbildən olan xəstələrə hər cür yardımın artırılmasına yetirilməlidir. Bu ilin yayında dərc olunmuş yeni tədqiqatda müalicənin profilaktika vasitəsi kimi metodikanın yüksək səmərəliliyi göstərilmişdir. Bu metodika 2015-ci ilədək yenidən yoluxma hallarını iki dəfə azaltmağa imkan verəcəkdir.

Sessiyada Qlobal Fond ilə DST arasında əməkdaşlıq sənədi imzalandı. Sənədi Mişel Kazaçkin və Jujanna Yakab imzaladılar.

Sonra DST Avropa Regional Komitəsinin daimi komissiyasının hesabatı sessiya iştirakçılarına təqdim olundu. Hesabatda DST-nin komitələri və üzv təşkilatların gördüyü işlər və həyata keçirəcəyi layihələr barədə məlumat verilir.

Sessiyanın birinci iş günü "Sağlamlıq-2020" proqramının məqsədi, əsas istiqamətləri ilə bağlı diskussiyalarla davam etmişdir.

Dünya Səhiyyə Təşkilatının Avropa üzrə Regional Komitəsinin 61-ci sessiyasında iştirak edən ölkələrin nümayəndələri tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirdilər.

Sessiya sentyabrın 13-də işini davam etdirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN NƏQLİYYAT ÜZRƏ DÖVLƏT KATİBİ TİERRİ MARİANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Fransanın nəqliyyat üzrə dövlət katibi Tierri Marianinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu, Fransa şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiyi qeyd edildi, nəqliyyat sektorunda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Almaniya Federativ Respublikasının sabiq xarici işlər naziri Yoşka Fişeri qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Almaniya Federativ Respublikası arasında ikitərəfli münasibətlər, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU XANIM MARQARET ÇANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Dünya Səhiyyə Təşkilatının baş direktoru xanım Marqaret Çanı qəbul etmişdir.

Baş direktor xanım Marqaret Çan Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin 61-ci sessiyasının ölkəmizdə yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə, şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycana bundan əvvəlki səfərlərini məmnunluqla xatırlayan xanım Marqaret Çan ötən dövr ərzində ölkəmizdə yüksək inkişafın şahidi olduğunu qeyd etdi. O, dünyanın 53 ölkəsini təmsil edən nümayəndə heyətlərinin bu tədbirdə iştirakının ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin 61-ci sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev dünyanın müxtəlif ölkələrindən olan nümayəndə heyətlərinin Azərbaycanla, o cümlədən ölkəmizdə səhiyyə sahəsində görülən işlərlə yaxından tanış olması üçün bu tədbirin yaxşı fürsət yaratdığını bildirdi. Dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının

Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Dünya Səhiyyə Təşkilatı ilə ölkəmizin müvafiq qurumları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edən dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

PREZİDENT İLHAM ƏLİYEV MONTENEQRONUN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ RAMO BRALİÇİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Monteneqronun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ramo Braliçin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Diplomat Ramo Braliç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Monteneqro Respublikası arasında əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı səfir Ramo Braliçin ölkəmizdəki diplomatik fəaliyyətinin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Azərbaycan Respublikası ilə Monteneqro Respublikasının dost dövlətlər olduğunu vurğulayan səfir Ramo Braliç ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı potensialın mövcudluğunu qeyd etdi. O, səfir kimi Azərbaycan Respublikası ilə Monteneqro Respublikası arasında ikitərəfli əlaqələrin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Dmitri Medvedevi ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulamış, Rusiya Federasiyası Prezidenti ilə keçirdiyi görüşləri məmnunluqla xatırlamışdır.

Rusiya Federasiyasının Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmiş, öz növbəsində ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafı ilə bağlı fikirlərini çatdırmışdır.

Prezidentlər Azərbaycan-Rusiya dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinin vacibliyini qeyd edərək, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildirmişlər.

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

Sentyabrın 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Monteneqro Prezidenti Filip Vuyanoviçin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Monteneqro Prezidenti

Filip Vuyanoviçi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Monteneqro Prezidentinə raport verdi.

Monteneqronun və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Monteneqro Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Filip Vuyanoviçə, Monteneqro nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 16-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Monteneqro Prezidenti Filip Vuyanoviçin təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın mövcud olduğu vurğulandı.

Monteneqro Prezidenti Filip Vuyanoviçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyəti qeyd olundu, ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi.

Dövlət başçıları beynəlxalq və regional məsələlər barədə də fikir mübadiləsi apardılar.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

Sentyabrın 16-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Monteneqro Prezidenti Filip Vuyanoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram, xoş gəlmisiniz!

Bu, Sizin Azərbaycana birinci səfərinizdir və bu, əlbəttə ki, ikitərəfli əlaqələrimizdə çox mühüm yer tutan bir səfərdir.

Bu səfər tarixdə qalacaq, çünki birinci rəsmi səfərdir. Mən əminəm ki, səfər çox uğurlu keçəcək və səfərin nəticələri çox müsbət olacaqdır. Bizim ikitərəfli münasibətlərimiz çox uğurla və deyə bilərəm ki, çox böyük sürətlə inkişaf edir. Qısa müddət ərzində həm siyasi, həm iqtisadi sahələrdə məsləhətləşmələr aparılmışdır. Hər iki tərəf bu əlaqələrin inkişafı üçün dəyərli töhfələrini verir.

Mən əminəm ki, bu gün aparılan və aparılacaq danışıqlar ölkələrimizi daha da yaxınlaşdıracaqdır.

Bir daha Sizi salamlayıram, xoş gəlmisiniz!

* * *

Monteneqro Prezidenti Filip VUYANOVİÇ səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

- İcazə verin, bu səfərə dəvət etdiyinizə görə mən Sizə dərin təşəkkürümü bildirim və bir daha Sizi salamlayım. Bir daha fürsətdən istifadə edərək, Sizə dərin təşəkkürümü bildirirəm və öz nümayəndə heyətim adından Sizin nümayəndə heyətinin üzvlərini də səmimi qəlbdən salamlayıram.

Bildiyiniz kimi, xarici işlər nazirlərinin qarşılıqlı səfərləri həyata keçirilmişdir və hesab edirəm ki, bu səfərimiz də əlaqələrimizin bundan sonra dərinləşməsinə və inkişaf etdirilməsinə öz müstəsna töhfəsini verəcəkdir.

Hesab edirəm ki, iki ölkə arasında siyasi əlaqələr iqtisadi əlaqələrin bünövrəsini qoyacaq və bunu gücləndirəcəkdir.

AZƏRBAYCAN-MONTENEQRO SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Sentyabrın 16-da Prezident İlham Əliyevin və Prezident Filip Vuyanoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Monteneqro sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Monteneqronun Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Monteneqronun mədəniyyət naziri Branislav Miçunoviç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Monteneqronun iqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında sərmayələrin

təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və Monteneqronun iqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və Monteneqronun iqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.

AZƏRBAYCAN VƏ MONTENEQRO PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Sentyabrın 16-da Azərbaycan- Monteneqro sənədlərinin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Filip Vuyanoviç mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident! Mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu, əlaqələrimizin tarixində ilk rəsmi səfərdir və mən çox şadam ki, səfər çox uğurlu keçir. Bu gün keçirdiyimiz danışıqlar bir daha göstərmişdir ki, hər iki tərəf ikitərəfli əlaqələrin inkişafı üçün səylərini göstərməkdədir.

Deyə bilərəm ki, qısa müddət ərzində ölkələrimiz arasında çox sıx əməkdaşlıq yaranmışdır. Siyasi əlaqələrimiz inkişaf edir. Xarici işlər nazirlərinin qarşılıqlı səfərləri bir daha onu göstərir ki, siyasi sahədə aramızda heç bir problem yoxdur. Əksinə əlaqələrin inkişafı üçün hər iki tərəfdə böyük maraq və istək vardır.

Əlbəttə, iqtisadi sahə də ikitərəfli əlaqələrin inkişafı üçün çox vacib əhəmiyyət kəsb edir. Bu gün biz bu məsələ ilə bağlı kifayət qədər geniş fikir mübadiləsi aparmışıq. Bu gün imzalanmış sənədlər, o cümlədən iqtisadi, investisiya, mədəniyyət və turizm sahələrini əhatə edir. Hesab edirəm ki, iqtisadi sahədə əməkdaşlığımızın başlaması üçün məhz investisiya və iqtisadi inkişaf məsələləri ön planda olmalıdır. Eyni zamanda, ölkənizin turizm infrastrukturuna Azərbaycan şirkətlərinin böyük marağı vardır. Azərbaycanın nümayəndə heyəti bir müddət əvvəl ölkənizi ziyarət etmiş və çox gözəl təəssüratlarla qayıtmışdır. Ona görə hesab edirəm ki, ikitərəfli əlaqələrimizin hərtərəfli inkişafı üçün çox gözəl şərait yaradılmışdır. Əminəm ki, yaxın zamanlarda biz bu əməkdaşlığın çox gözəl nəticələrini görəcəyik.

Əməkdaşlıq üçün maraq doğuran digər sahələr də mövcuddur. Onların arasında nəqliyyat və energetika sahələrini qeyd edə bilərəm. Bu sahələrdə də təcrübə mübadiləsi aparıla bilər. Biz Azərbaycanın həyata keçirdiyi çox böyük energetika və nəqliyyat layihələrində də səmərəli şəkildə əməkdaşlıq edə bilərik.

Eyni zamanda, bu gün biz regional əməkdaşlıq məsələlərinə də toxunduq. Bu məsələ

ilə bağlı bizim fikir ayrılığımız yoxdur. Mən hesab edirəm ki, Balkan regionu ilə bizim region arasında əlaqələr daha da sıx olmalıdır. Hər halda Azərbaycan öz tərəfindən çalışır ki, regionlarımızın əlaqələri daha da sıx olsun, əməkdaşlıq daha da güclü olsun. İrəli sürdüyümüz təşəbbüslər, ölkənizlə və Sizin qonşu ölkələrlə əlaqələrimiz onu göstərir ki, biz Sizin regionunuza çox böyük maraq və diqqət göstəririk.

Bu gün biz, eyni zamanda, regional məsələlər və təhlükəsizlik məsələlərinə də toxunduq. Mən bizim üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı öz fikrimi Sizə bildirdim. Məsələnin tarixi ilə bağlı Sizə öz sözlərimi dedim. Biz ümid edirik ki, yaxın zamanlarda bu ədalətsizliyə son qoyulacaq, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaq, BMT Təhlükəsizlik Şurasının erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnaməsi icra ediləcək və beləliklə, Azərbaycan vətəndaşları doğma torpaqlarına qayıdacaqlar. Bu məsələ nəinki bizim üçün, bölgə üçün, dünya üçün təhlükə mənbəyidir və məsələnin tezliklə həll edilməsi bütün ölkələrin marağında olmalıdır.

Biz bu gün, eyni zamanda, Avratlantik strukturlar ilə əməkdaşlığımız haqqında fikir mübadiləsi apardıq. Bir daha qeyd etmək istəyirəm ki, Monteneqronun qısa müddət ərzində həm NATO, həm Avropa İttifaqı ilə yaradılmış əlaqələri və inteqrasiya prosesləri böyük qiymətə malikdir. Mən Sizə söylədim ki, yəqin, dünya tarixində bu, rekord göstəricidir ki, Sizin ölkəniz qısa müddət ərzində hər iki təşkilatla çox yüksək səviyyəli əməkdaşlıq qura bilmişdir. Sizin inteqrasiya perspektivləriniz də çox müsbətdir.

Mən, cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Mən çox şadam ki, bizim şəxsi münasibətlərimiz də çox tez bir zamanda qurulubdur. Deyə bilərəm ki, bizi dostluq münasibətləri də bağlayır. Sizin səfəriniz həm ikitərəfli əlaqələrimiz üçün çox vacibdir, eyni zamanda, ölkəmizlə tanışlıq imkanlarını da yaradır. Əminəm ki, Siz vətəninizə Azərbaycanla bağlı xoş təəssüratlarla dönəcəksiniz! Sağ olun!

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN BƏYANATI

Hörmətli cənab Prezident Əliyev!

Cənab nazirlər!

Fürsətdən istifadə edərək mən cənab Prezidentə dərin minnətdarlığımı bildirirəm ki, bu gün biz Sizin ölkənizdə səfərdəyik. Aramızda çox səmimi və dost söhbəti oldu.

Azərbaycanın iqtisadi göstəriciləri və dinamik inkişafı bizi bu gün çox sevindirir. Biz bu gün bunun şahidi oluruq və əminəm ki, Azərbaycanın sürətli inkişafı bundan sonra da davam edəcəkdir. Bu isə Azərbaycan vətəndaşlarının firavan ölkədə yaşamasını təmin edəcəkdir.

Eyni zamanda, buradan mən bütün Azərbaycan vətəndaşlarına da ehtiramımı bildirmək istərdim ki, onlar da ölkənin inkişafına öz müsbət töhfələrini verirlər.

Zənnimcə, ölkələrimiz sıx təmasların qurulması istiqamətində zəruri addımları artıq atmışlar. Nazirlər bundan əvvəl səfərlər həyata keçiriblər. Bu gün biz 4 mühüm saziş im-

zalamışıq. İkisi iqtisadiyyat, biri mədəniyyət, digəri isə turizm sahələrini əhatə edir. Zənnimcə, mahiyyət etibarilə bunlar çox mühüm sazişlərdir. Bu da bizim gələcək əlaqələrimizin inkişafına və daha yüksəklərə qaldırılmasına xidmət edəcəkdir.

Çox xoşdur ki, Azərbaycanın sərmayə strukturları bizim ölkəyə maraq göstərir. Biz də öz növbəmizdə sərmayələrin qoyuluşu istiqamətində bütün zəruri tədbirləri görməyə hazırıq. Biz artıq tenderlərə başlamışıq. Bizim hava yolu və limanla bağlı layihələrimiz vardır. Biz inanırıq ki, Azərbaycan şirkətləri də bu tenderlərdə iştirak edəcək və bizim ölkəyə sərmayə qoymaq arzusunda olacaqlar.

Mən bir daha sevinirəm ki, münasibətlərimiz artıq mövcuddur. Azərbaycan-Monteneqro Mədəniyyət Dərnəyi artıq fəaliyyətdədir. Monteneqroda Azərbaycan rəssamlarının əsərlərinin sərgisi artıq təşkil edilmişdir. Yenə də sevindirici haldır ki, mədəniyyət sahəsində imzalanmış Saziş əlaqələrimizin daha da genişləndirilməsinə xidmət edəcəkdir. Bu mədəni əlaqələrin gücləndirilməsində bir növ körpü rolunu oynayacaqdır.

Biz BMT-nin və Avropa İttifaqının mövqeyinə də şərik çıxırıq. Biz hesab edirik ki, beynəlxalq təşkilatlar bu problemin mahiyyətinə bələddir və müvafiq qətnamələrin də dəstəklənməsi çox vacibdir. Onların həyata keçirilməsi də böyük əhəmiyyət kəsb edir.

Biz çox sevinirik ki, Azərbaycanın "Şərq tərəfdaşlığı" çərçivəsində həyata keçirdiyi fəaliyyəti də təqdirəlayiqdir.

Eyni zamanda, biz sülhməramlı missiyaların həyata keçirilməsində də çiyin-çiyinə çalışmışıq. Bizim ölkənin NATO-ya sıx inteqrasiyasında da Azərbaycanın dəstəyini hiss etmişik. Bakıya səfərim məndə çox gözəl təəssüratlar yaradır və əminəm ki, bu, bizim əlaqələrin yeni mərhələsinə qədəm qoyulması deməkdir. Bu, bir daha bizim ölkələrin yaxınlığını sübut edir və əlaqələrimiz də xalqlarımızın maraqları naminə inkişaf edəcəkdir.

Bir daha, cənab Prezident, səmimi qəlbdən Sizə minnətdarlığımı bildirirəm ki, biz Sizin ölkədə dostcasına qəbul edilmişik. Bizim aramızda yaranmış dost münasibətlərimiz ölkələrimizin və xalqlarımızın firavanlığı naminə inkişaf edəcəkdir. Xalqlarımız arasında bir çox oxşarlıq vardır. Tariximizdə oxşarlıq vardır. Müstəqillik uğrunda mübarizəmiz çox bənzər olmuşdur.

Bir daha, cənab Prezident, Sizə bu fürsətə görə təşəkkür edirəm! Minnətdaram Sizə!

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Sentyabrın 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Monteneqro Prezidenti Filip Vuyanoviç Heydər Əliyev Fondunda olmuşdur.

Monteneqronun dövlət başçısını Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Monteneqro Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Prezident Filip Vuyanoviçə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Filip Vuyanoviç Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Monteneqro Prezidentinə Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu.

Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Monteneqro Prezidenti Filip Vuyanoviçin şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV ziyafətdə çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Bir daha Sizi salamlayıram. Bir daha Sizə Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm.

Bu gün Monteneqro-Azərbaycan əlaqələrində çox əlamətdar hadisə baş verir. Monteneqro Prezidentinin ölkəmizə ilk rəsmi səfəri həyata keçirilir. Mən çox şadam ki, səfəriniz çox uğurlu keçir. Əminəm ki, səfərin çox yaxşı nəticələri olacaqdır.

Bu gün biz Sizinlə ikitərəfli münasibətlərimizin, demək olar ki, bütün aspektlərini geniş müzakirə etmişik və heç bir fikir ayrılığı yoxdur. Biz - həm Monteneqro tərəfi, həm Azərbaycan tərəfi istəyirik ki, əlaqələrimiz daha da inkişaf etsin və xalqlarımız arasında qarşılıqlı rəğbət daha da güclü olsun.

Bu gün həm siyasi, həm iqtisadi, həm mədəni sahələrdə gedən proseslər onu göstərir ki, münasibətlərimizin çox yaxşı gələcəyi vardır. Sizin səfəriniz siyasi əlaqələrə çox güclü təkan verəcəkdir. İqtisadi sahədə imzalanmış sənədlər və apardığımız fikir mübadiləsi, əminəm ki, yaxın zamanlarda yaxşı nəticələrə gətirib çıxaracaqdır. İnvestisiya imkanları da araşdırılıb, turizm, mədəniyyət sahələrində yaxşı perspektivlər vardır. Eyni zamanda, energetika, neft-qaz, nəqliyyat sahələrində də yaxşı imkanlar vardır. Bütün bu məsələlər, əlbəttə ki, ikitərəfli münasibətlərimizin nə qədər geniş olduğunu göstərir. Ancaq bununla bərabər, hesab edirəm ki, biz insanlar arasındakı əlaqələrə də çox

böyük diqqət göstərməliyik. Ölkələrimizin vətəndaşları bir-birilərini daha da yaxından tanımalıdırlar. Çünki ölkələrimiz oxşar tarixə malikdirlər. Həm Sizin ölkəniz, həm bizim ölkə vaxtilə başqa ölkələrin tərkibində yaşamışdır. Müstəqillik tariximiz o qədər də böyük deyildir. Amma hər iki ölkə müstəqillik dövründə çox böyük və uğurlu inkişaf yolu keçmişdir. Hər iki ölkə gələcəyə də çox böyük nikbinliklə baxır. Həm Monteneqroda, həm Azərbaycanda müxtəlif millətlərin, müxtəlif dinlərin nümayəndələri dostluq şəraitində, bir ailə kimi yaşayırlar və bu amil də ölkələrimizi birləşdirir.

Hörmətli cənab Prezident, bir daha mən qeyd etmək istəyirəm ki, biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən çox şadam ki, səfər zamanı Siz ölkəmiz ilə də tanış olmaq imkanını əldə etmisiniz. Bu, Sizin birinci səfərinizdir, amma əminəm ki, gələcəkdə qarşılıqlı səfərlər daha çox olacaqdır.

Bu badələri Sizin sağlığınıza, xalqınızın şərəfinə qaldırıram!

Sağ olun.

* * *

Azərbaycan Prezidentinə onu ölkəmizə rəsmi səfərə dəvət etdiyinə görə təşəkkür edən Monteneqro Prezidenti Filip VUYANOVİÇ xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətlərini xatırladı. Ulu öndərin bioqrafiyasının Azərbaycan xalqının tarixində və taleyində mühüm rol oynadığını dedi. Bildirdi ki, məhz Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan müstəqilliyini daha da möhkəmləndirib və inkişaf edən ölkəyə çevrilib.

Filip Vuyanoviç ölkələrimiz arasında çoxlu oxşarlıqların olduğunu, Azərbaycan və Monteneqronun müstəqillik yolu ilə uğurla gedərək gələcək nəslə böyük irs qoyduqlarını diqqətə çatdırdı. "Mən çox şadam ki, bu gün biz ölkələrimiz arasında yeni mərhələnin əsasını qoyduq", - deyən Filip Vuyanoviç Azərbaycan ilə Monteneqronun bir çox sahələrdə uğurlu əməkdaşlıq etdiyini, bu səfər çərçivəsində imzalanan sənədlərin əlaqələrin inkişafı üçün yaxşı baza yaratdığını bildirdi. "Monteneqro arzulayır ki, azərbaycanlı investorlar bu ölkənin sərmayə mühitində daha yaxından iştirak etsinlər", - deyən Filip Vuyanoviç turizm sahəsində də əməkdaşlıq üçün əlverişli imkanların olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DEMOKRAT QRUPUNUN SƏDRİ ROBERT VOLTERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Avropa Şurası Parlament Assambleyasının demokrat qrupunun sədri Robert Volteri qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı, Bakıda keçiriləcək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr edilmiş beynəlxalq tədbirin əhəmiyyəti qeyd edildi, bu tədbirin parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN İQTİSADİYYAT, ENERGETİKA VƏ TURİZM NAZİRİ TRAYÇO TRAYKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Bolqarıstan Respublikasının iqtisadiyyat, energetika və turizm naziri Trayço Traykovu qəbul etmişdir.

Bolqarıstanın iqtisadiyyat, energetika və turizm naziri Trayço Traykov Prezident Georgi Pırvanovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən energetika və turizm sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, yüksək səviyyəli səfərlərin və görüşlərin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi işinə böyük töhfə verdiyi qeyd edildi, iqtisadiyyat, energetika və turizm naziri Trayço Traykovun ölkəmizə səfərinin iqtisadi sahədə əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəmli olduğu bildirildi.

Dövlətimizin başçısı Bolqarıstan Prezidenti Georgi Pırvanovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident,

Əfqanıstanın Ali Sülh Şurasının Sədri, ölkənizin keçmiş Prezidenti, görkəmli dövlət xadimi Burhanuddin Rəbbaninin terror aktı nəticəsində həlak olması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 22 sentyabr 2011-ci il.

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

Hörmətli cənab Sədr,

Ölkənizin milli bayramı - Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan ilə Çin arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, qədim ənənələrə malik olan bu münasibətlər hazırda özünün yüksək inkişaf səviyyəsi ilə səciyyələnir.

Əminəm ki, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, ikitərəfli qaydada əməkdaşlığımız, habelə beynəlxalq məsələlərdə qarşılıqlı dəstəyimiz Azərbaycan-Çin dostluğunun bariz ifadəsi olaraq bundan sonra da ölkələrimizin və xalqlarımızın ümdə mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 22 sentyabr 2011-ci il

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

Hörmətli cənab Prezident,

Koreya Respublikasının milli bayramı - Dövlətin yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin daim möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 22 sentyabr 2011-ci il.

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Alman birliyi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan-Almaniya münasibətləri hərtərəfli inkişaf yolundadır. Ölkələrimizi və xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələri siyasi dialoqumuzun davam etdirilməsi, iqtisadi və humanitar müstəvidə əməkdaşlığımızın dərinləşdirilməsi üçün mün-

bit zəmindir.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində qarşılıqlı işimiz və birgə fəaliyyətimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 22 sentyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN SABİQ PREZİDENTİ ARNOLD RUUTELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Estoniya Respublikasının sabiq Prezidenti Arnold Ruuteli qəbul etmişdir.

Sabiq Prezident Arnold Ruutel Azərbaycan ilə Estoniya arasında uzun müddət yaxşı əlaqələrin olduğunu vurğuladı. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan qonaq bunun ölkələrimiz arasında münasibətlərin gələcək inkişafı baxımından önəmini qeyd etdi. O, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş beynəlxalq tədbirin yüksək səviyyədə təşkil edildiyini bildirdi. Arnold Ruutel dünyanın müxtəlif ölkələrini, eyni zamanda, Avropa Parlamentini təmsil edən nümayəndə heyətlərinin tədbirdə iştirakını Azərbaycanın son 20 ildə əldə etdiyi nailiyyətlərlə yaxından tanış olmaq baxımından əhəmiyyətli olduğunu dedi. Estoniyalı qonaq Azərbaycanın əldə etdiyi nailiyyətləri bir çox ölkələr üçün yaxşı nümunə kimi qiymətləndirdi.

Dövlətimizin başçısı Estoniya Respublikasının sabiq Prezidenti Arnold Ruutelin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı Bakıda keçirilən beynəlxalq tədbirdə iştirakından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev bu tədbirin parlamentlərarası əlaqələrin genişləndirilməsi işinə xidmət etdiyini dedi. Azərbaycan ilə Estoniya arasında münasibətlərin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev Estoniyaya səfərini xatırlayaraq bu səfərin uğurlu olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VUNU VƏ BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vunu və Beynəlxalq Olimpiya Komitəsinin üzvlərini qəbul etmişdir.

Boks üzrə Dünya çempionatının ölkəmizdə keçirilməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı çempionatın uğurlu olacağına əminliyini ifadə etdi. Çempionata hazırlıqla bağlı çox böyük işlərin görüldüyünü deyən Prezident İlham Əliyev ölkəmizin beynəlxalq idman yarışlarına ev sahibliyi etməkdə təcrübəsi olduğunu vurğuladı. Bu cür mötəbər yarışların Azərbaycanda keçirilməsinin önəmini qeyd edən Prezident İlham Əliyev tədbiri ölkəmizlə Beynəlxalq Olimpiya Komitəsi arasında əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Bundan əvvəl yeniyetmələr və gənclər arasında dünya çempionatlarının Bakıda təşkil olunduğunun əhəmiyyətini vurğulayan Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vu Olimpiya oyunlarına lisenziya verən boks üzrə dünya çempionatının ölkəmizdə keçirilməsinin əhəmiyyətini qeyd etdi və bu münasibətlə dövlətimizin başçısına təbriklərini çatdırdı. O, Azərbaycan Olimpiya Komitəsinin prezidenti kimi ölkəmizdə idmana, o cümlədən idmanın boks növünün inkişafına göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.

Dövlətimizin başçısı Azərbaycan boksçularına göstərilən dəstəyə görə Beynəlxalq Boks Assosiasiyasına təşəkkürünü bildirdi. Prezident İlham Əliyev ölkəmizdə idmanın inkişafına hər cür şəraitin yaradıldığını vurğuladı. Gənclər arasında keçirilən Olimpiya oyunlarında Azərbaycanın boksçularının uğurlu çıxış etdiklərini xatırlayan dövlətimizin başçısı boks üzrə dünya çempionatının ölkəmizdə keçirilməsinin idmanın bu növünə olan marağın daha da artacağına əminliyini bildirdi.

Görüşdən sonra xatirə şəkli çəkdirildi.

BAKIDA BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir

Sentyabrın 25-də Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində boks üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Azərbaycan Respublikasının dövlət bayrağı, Beynəlxalq Boks Assosiasiyasının və çempionatın bayraqları, eləcə də iştirakçı ölkələrin adları yazılan xüsusi lövhələr Heydər Əliyev adına İdman-Konsert Kompleksinin zalına gətirildi.

Paytaxt Bakı daha bir mötəbər idman tədbirinə ev sahibliyi edir. Sentyabrın 26-dan oktyabrın 8-dək davam edəcək boks üzrə dünya çempionatında 113 ölkədən 570 boksçu mübarizə aparacaqdır. Bu, ölkələrin və idmançıların sayına görə rekord göstəricidir. Bakı çempionatında, həmçinin Azərbaycanın paytaxtına gəlmiş dünyanın ən güclü boksçuları 2012-ci il London Olimpiya Oyunlarına lisenziya uğrunda mübarizə aparacaqlar. Dünya birinciliyində dörddəbir finala çıxan boksçular Olimpiya lisenziyaları əldə edəcəklər. Azərbaycan Respublikası gənclər və idman naziri Azad RƏHİMOV mərasimdə çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar, əziz idmançılar!

Sizin hamınızı bu möhtəşəm Heydər Əliyev adına sarayda salamlayır və boks üzrə XVI dünya çempionatının təntənəli açılışı münasibətilə təbrik edirəm. Bu gün Azərbaycanın idman tarixində ən əlamətdar günlərdən biridir. Fərəhli haldır ki, beynəlxalq yarışların respublikamızda keçirilməsi son illər ənənə halını almışdır. Bu unudulmaz idman tədbirləri həm də mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Xalqlar arasında sülh, əməkdaşlıq rəmzi olan idman bəşəriyyəti yüksək ideallar ətrafında daha sıx birləşdirməyə qadirdir. Sözsüz ki, ölkəmizdə bədən tərbiyəsinin və idmanın inkişafına göstərilən diqqət və qayğı idmanın bütün növləri kimi, boksun da inkişafında özünü göstərir.

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin başladığı məqsədyönlü idman siyasəti bu gün dövlətimizin başçısı, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə olimpiya hərəkatı ildən-ilə geniş vüsət alır. Dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında idmançılarımızın parlaq qələbələri buna əyani sübutdur. Dövlətimizin başçısının idman sahəsinə göstərdiyi böyük qayğı idmançılarımızın da yarışlara daha inamla, əzmlə qatılmasına böyük təkan verir.

Hazırda Azərbaycanda idmanın boks növünə diqqət və maraq artmışdır. Federasiyanın səmərəli fəaliyyəti, yaradıcılıq axtarışları nəticəsində boks özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bildiyiniz kimi, respublikamız mötəbər tədbirləri keçirmək təcrübəsinə malikdir.

Bu gün boks üzrə XVI dünya çempionatına Bakı ev sahibliyi edir. Bu çempionatda yüzdən artıq ölkənin idmançılarının medallar və London Olimpiya Oyunlarının lisenziyası uğrunda mübarizə aparması yarışın maraqlı, gərgin keçəcəyini təsdiq edir. İnanırıq ki, boks üzrə XVI dünya çempionatının bütün iştirakçıları öz ölkələrinin idman şöhrətini daha da yüksəklərə qaldıracaqlar. Qoy güclülər qalib gəlsin! Diqqətinizə görə sağ olun.

* * *

Sonra Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo VU çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli Azərbaycan Boks Federasiyasının prezidenti cənab Heydərov!

Hörmətli qonaqlar, boksçular, məşqçilər, rəsmilər, boks üzrə XVI dünya çempionatının qonaqları!

Bakı olduqca mühüm bir şəhərdir. Bakıda - Azərbaycanın paytaxtında bir çox beynəlxalq idman turnirləri keçirilmişdir. Bunların sırasında biz gənclər arasında dünya çempionatını xüsusi xatırlatmaq istəyirik. Bu gün isə Bakıda boks üzrə dünya çempionatı keçirilir. Əslində bu, bizim idman sahəsində apardığımız işin çox mühüm bir hissəsidir. Çünki bu, ixtisaslaşmış idman turniri olacaqdır. Bu, 2012-ci ildə Londonda keçiriləcək Olimpiya Oyunlarına açılan bir yoldur.

2006-cı ildən etibarən bizim Beynəlxalq Boks Assosiasiyası (AİBA) çərçivəsində bir çox islahatlar həyata keçirilmiş, təşkilati dəyişikliklər aparılmışdır. Bizim üçün ən yüksək tutduğumuz amallar - təmiz iş, dəqiqlik, şəffaflıq kimi amallardır. Bütün bunlar keçirdiyimiz idman yarışlarının əsasını təşkil edir. Bu işi biz yeganə bir məqsədlə apardıq

ki, dünyanın bütün yerlərindən olan boksçuların mənafeyi qorunsun və ədalətli idman oynanılsın.

Fürsətdən istifadə edib, Beynəlxalq Boks Assosiasiyası adından Azərbaycan Prezidenti cənab Əliyevə boksun, həmçinin idmanın bir çox növlərinin inkişafına verdiyi dəyərli dəstəyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun, cənab Prezident!

Hörmətli cənab Prezident, Sizi əmin edirəm ki, boks üzrə bu dünya çempionatı AİBA-nın qaydalarına, yüksək tutduğu amallara uyğun keçiriləcəkdir. AİBA əlindən gələni edəcək ki, bizim formalaşan prinsiplərimiz əsasında yüksək səviyyədə keçiriləcək bu idman turniri lazımi səviyyədə baş tutsun. Mən tam əminəm ki, keçirilən bu beynəlxalq turnirin səviyyəsindən boks həvəskarları da razı qalacaq, onlar bundan çox məmnun olacaqlar. Bütün tamaşaçılara tam zəmanət verə bilərəm ki, rinqdə ən dəyərli, ən yaxşı nəticələri ilə seçilən boksçu qələbə çalacaqdır. Bütün boksçulara uğurlar, xoşbəxtlik arzulayıram. Sonda icazə verin sizə deyim: "Sağ ol, Azərbaycan! Sağ ol, Bakı!"

* * *

Daha sonra Azərbaycan Boks Federasiyasının prezidenti Kəmaləddin HEYDƏROV çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, əziz boksçular, xanımlar və cənablar!

İcazə verin boks üzrə 2011-ci il dünya çempionatı münasibətilə Bakı şəhərinə təşrif buyurmuş bütün qonaqları səmimi qəlbdən salamlayaraq hər birinizə "Xoş gəlmisiniz!" deyim.

İdmanın insanın fiziki və mənəvi tərbiyəsində oynadığı müstəsna rolu nəzərə alan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev sosial-iqtisadi həyatın bütün sahələri kimi, idmanın inkişafını da daim diqqətdə saxlamış, gənclərin sağlamlığına, fiziki hazırlığına xüsusi qayğı ilə yanaşmışdır. Ulu öndərin bu mütərəqqi münasibətini böyük əzmkarlıqla davam etdirən Milli Olimpiya Komitəsinin prezidenti, Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyevin idmanın inkişafı istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ölkəmiz beynəlxalq idman mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycanda gənclərin sevimli idman növlərindən biri də Olimpiya idman növü olan boksdur. Azərbaycan boksunun zəngin tarixi ənənələri, beynəlxalq səviyyədə ciddi uğurları vardır. Məhz bu ənənələrə yiyələnən, uğurlardan ruhlanan boksçularımız beynəlxalq yarışlarda və turnirlərdə müvəffəqiyyətlə çıxış edir, Vətənimizin idman şərəfini uca tuturlar. Dövlət qayğısı sayəsində boksçularımız üçün müasir standartlara cavab verən təlim-məşq qurğularının tikilib istifadəyə verilməsi, ölkəmizdə yüksək səviyyəli beynəlxalq yarışların və turnirlərin keçirilməsi, boksçularımızın dünya arenasında qazandıqları qələbələr idmanın bu növünün də ölkəmizdə uğurlu inkişafından xəbər verir. Azərbaycan boksunun inkişafı naminə göstərdiyi xüsusi diqqət və qayğıya görə bütün boksçular adından möhtərəm Prezident cənab İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

Bu günlərdə Bakı AİBA-nın bayrağı altında ən möhtəşəm yarışlardan birinə ev sahibliyi edəcəkdir. Bu yarışlarda dünyanın 113 ölkəsindən 570 boksçu iştirak edəcəkdir. Boks

üzrə dünya çempionatı ən ali idman yarışlarından biri hesab olunur və təbii ki, bu yarışda uğur qazanmaq hər bir boksçunun arzusudur. Yarışın London-2012 Olimpiya Oyunlarına lisenziya xarakterli olması isə yarışa marağı daha da artırır.

Fürsətdən istifadə edərək belə bir əhəmiyyətli yarışın təşkilatçılığını bizə etibar etdiyinə görə Beynəlxalq Boks Assosiasiyasının rəhbərliyinə, şəxsən doktor Çinq-Kuo Vuya dərin təşəkkürümü bildirirəm. Həmçinin bu gün burada iştirak edən Beynəlxalq Olimpiya Komitəsinin üzvlərinə Bakıya təşrif buyurduqları və yarışlara qatıldıqları üçün minnətdarlığımı bildirirəm. Bir daha bütün qonaqları Odlar yurdu Azərbaycanda salamlayır, məşqçilərə və boksçulara qələbə sevinci, azarkeşlərə isə unudulmaz yarış günləri arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə boks üzrə XVI dünya çempionatını açıq elan edirəm!

* * *

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra çempionatın hakimləri and içdilər.

Boks üzrə XVI dünya çempionatının təntənəli açılış mərasimi bədii hissə ilə başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN KALİFORNİYA SENATININ ƏTRAF MÜHİTİN KEYFİYYƏTİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ SENATOR COZEF SİMİTİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da ABŞ-ın Kaliforniya Senatının ətraf mühitin keyfiyyəti üzrə komitəsinin sədri senator Cozef Simitianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi. ABŞ-ın nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına ümidvar olduğunu bildirən dövlətimizin başçısı bu səfərin nümayəndə heyəti üzvlərinin ölkəmizi daha yaxından tanıması üçün yaxşı imkan yaradacağını dedi.

ABŞ-ın Koliforniya Senatının ətraf mühitin keyfiyyəti üzrə komitəsinin sədri senator Cozef Simitian Kaliforniya Ştatının qanunverici orqanını təmsil edən nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi. Cozef Simitian nümayəndə heyətinin tərkibində Kaliforniya ştatının müxtəlif bölgələrini təmsil edən senatorların olduğunu dedi. O, ölkəmizi yaxından tanımaq baxımından səfərin əhəmiyyətini yüksək dəyərləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOBEL MÜKAFATÇILARI ERİK MASKİNİ, FİNN ERLİNQ KİDLANDI VƏ KRİSTOFER ANTONİU PİSSARİDESİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ-ın Harvard Universitetinin professoru, Nobel mükafatçısı Erik Maskini, Norveçin Karneqi-Melon

Universitetinin professoru, Nobel mükafatçısı Finn Erlinq Kidlandı və London İqtisadiyyat Məktəbinin kafedra müdiri və proqram direktoru, Nobel mükafatçısı Kristofer Antoniu Pissaridesi qəbul etmişdir.

Görüşdə elmin inkişafı ilə bağlı məsələlərə, qonaqların təmsil etdikləri elm və təhsil müəssisələrinin Azərbaycanla əməkdaşlığına dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALLIĞININ ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Böyük Britaniya və Şimali İrlandiya Krallığının energetika üzrə dövlət naziri Çarlz Hendrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya və Şimali İrlandiya Krallığı arasında əlaqələrin bütün sahələrdə yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın uğurla davam etdiyi vurğulandı və bu əməkdaşlığın qeyri-neft sektorunda da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Polşa Respublikasına işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

VARŞAVANIN "ŞOPEN" BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Polşa Respublikasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Varşavanın "Şopen" Beynəlxalq Aeroportunda Polşanın yüksək səviyyəli dövlət və hökumət rəsmiləri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ

MOLDOVANIN BAŞ NAZİRİ VLADİMİR FİLAT İLƏ GÖRÜŞ

Xüsusi müxbirimiz xəbər verir ki, Polşada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Moldovanın Baş naziri Vladimir Filat ilə görüşmüşdür.

Görüşdə Varşavada keçirilən Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammitinin əhəmiyyəti vurğulandı. Bu tədbirin, eyni zamanda, ikitərəfli əlaqələrin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirildi.

Siyasi münasibətlərin yaxşı səviyyədə olduğunun qeyd edildiyi görüşdə iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulandı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM çərçivəsində əməkdaşlığı ilə bağlı məsələlər, eləcə də nəqliyyat, təhlükəsizlik, enerji sahələrində əlaqələrin inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı. Bundan başqa, qarşılıqlı səfərlərin, iş adamları arasında görüşlərin təşkil edilməsinin önəmi qeyd edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Varşavada ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, sentyabrın 29-da Varşavada Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə ölkələrimizin ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ KETRİN EŞTON İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Varşavada Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Ketrin Eşton ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji və digər sahələrdə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

VARŞAVADA AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" SAMMİTİNDƏ İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ ÜÇÜN İŞÇİ ŞAM YEMƏYİ VERİLMİŞDİR

PREZİDENT İLHAM ƏLİYEV İŞÇİ ŞAM YEMƏYİNDƏ İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, sentyabrın 29-da Varşavada "Şərq tərəfdaşlığı" sammitində iştirak edən nümayəndə heyətlərinin rəhbərləri üçün işçi şam yeməyi verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şam yeməyində iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ

PREZİDENT İLHAM ƏLİYEV VARŞAVADA AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, sentyabrın 30-da Polşanın paytaxtı Varşavada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.

Sammitin iştirakçıları birgə foto çəkdirdilər.

Avropa İttifaqı ölkələrinin, eləcə də "Şərq tərəfdaşlığı" proqramına üzv olan ölkələrin dövlət və hökumət başçılarının iştirak etdiyi sammiti hazırda təşkilata sədrlik edən Polşanın Baş naziri Donald Tusk giriş sözü ilə açaraq qonaqları salamladı, "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyəti haqqında danışdı.

Bildirildi ki, sammitin keçirilməsində əsas məqsəd "Şərq tərəfdaşlığı" ölkələrinin Avropaya inteqrasiyasının sürətləndirilməsi və qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsidir.

Bir çox vacib ikitərəfli görüşlərin keçirilməsi baxımından da əhəmiyyətli olan sammitdə əməkdaşlığın siyasi və iqtisadi aspektləri, prioritet proqramlar, Avropanın maliyyə institutları ilə əməkdaşlıq, viza rejimi və digər məsələlər ətrafında müzakirələr aparıldı.

Sonra Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammitində birgə bəyannamə qəbul edildi.

İki ildən bir təşkil edilən "Şərq tərəfdaşlığı" sammiti ilk dəfə 2009-cu il mayın 7-də Çexiyanın paytaxtı Praqada keçirilmişdir. "Şərq tərəfdaşlığı" Proqramı da məhz həmin sammitdə qəbul edilmişdir.

"Şərq tərəfdaşlığı" təşəbbüsü 2008-ci il mayın 26-da Avropa İttifaqının Ümumi Məsələlər və Xarici Əlaqələr Şurasında Polşa və İsveç tərəfindən irəli sürülmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MALTANIN BAŞ NAZİRİ LOURENS QONZİ İLƏ GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Varşavada Maltanın Baş naziri Lourens Qonzi ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.

Səfər başa çatdı

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına işgüzar səfəri başa çatmışdır.

Varşavanın "Şopen" Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Polşanın yüksək səviyyəli dövlət və hökumət rəsmiləri yola saldılar.

* * *

Həmin gün Prezident İlham Əliyev Bakıya qayıtmışdır.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ RESPUBLİKASININ AİLƏ VƏ SOSİAL SİYASƏT NAZİRİ XANIM FATİMA ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Türkiyə Respublikasının ailə və sosial siyasət naziri xanım Fatima Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyənin ailə və sosial siyasət naziri xanım Fatima Şahin Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ölkələrimizin ailə, qadın və uşaq məsələləri ilə məşğul olan qurumları arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulandı, Türkdilli Ölkələrin Parlament Assambleyasının təşəbbüsü ilə "XXI əsrdə qadının rolu: qadın siyasətçilərin məsuliyyəti" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın önəmi qeyd olundu.

Dövlətimizin başçısı Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İSLAMİ İRŞAD NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Məhəmməd Hüseyni qəbul etmişdir.

İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Məhəmməd Hüseyn

Prezident Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən humanitar sahədə inkişafından məmnunluq ifadə edildi, ötən il Azərbaycan Respublikası mədəniyyət günlərinin İranda, bu il isə İran İslam Respublikası mədəniyyət günlərinin Azərbaycanda keçirilməsinin əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verəcəyi vurğulandı.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

Əlahəzrət,

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-İspaniya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, dostluq əlaqələrimizin genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 3 oktyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, RUSİYA PREZİDENTİNİN ŞİMALİ QAFQAZ FEDERAL DAİRƏSİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ ALEKSANDR XLOPONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponinin və Rusiya Federasiyasının İnquşetiya Respublikasının başçısı Yunusbek Yevkurovun, Kabardin-Balkar Respublikasının Prezidenti Arsen Kanokovun, Şimali Osetiya-Alaniya Respublikasının başçısı Taymuraz Mamsurovun, Dağıstan Respublikasının Prezidenti Maqomedsalam

Maqomedovun ölkəmizə səfərindən məmnunluğunu bildirən dövlətimizin başçısı əməkdaşlığımızın gələcək inkişafını bir daha müzakirə etmək üçün səfərin yaxşı imkan yaratdığını vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında ticarət dövriyyəsinin artdığını, siyasi əlaqələrin möhkəmləndiyini, regional əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiyanın Şimali Qafqaz respublikaları arasında da işgüzar, qardaşlıq və mehriban qonşuluq münasibətlərinin möhkəmləndiyini qeyd edərək bunun ölkələrimiz və xalqlarımız üçün önəmini vurğuladı.

Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponin Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin tapşırıqlarına uyğun olaraq ölkələrimiz arasında ikitərəfli münasibətləri və əməkdaşlığı nəinki hökumətlər, eləcə də subyektlər səviyyəsində daha da inkişaf etdirməyin əhəmiyyətini vurğulayaraq respublikamızın Şimali Qafqaz dairəsi ilə əməkdaşlığını bunun yaxşı nümunəsi kimi qiymətləndirdi. O, artıq Bakıda mühüm görüşlərin və bir sıra kompleks layihələrin təqdimatını keçirdiklərini vurğulayaraq bunları inkişaf etdirmək niyyətində olduqlarını dedi.

Görüşdə bildirildi ki, Rusiya Federasiyası İnquşetiya Respublikasının veteranlarının və əhalisinin çoxsaylı xahişi ilə Rusiya Federasiyasının Şimali Qafqaz subyekti ilə Azərbaycan Respublikası arasında dostluq və mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsinin əlaməti olaraq görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün Malqabek Şəhər Şurası bu şəhərdəki xiyabanların birinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponinin başçılıq etdiyi nümayəndə heyətinin şərəfinə nahar verildi.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNTERPOLUN BAŞ KATİBİ RONALD NOBLU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İnterpolun baş katibi Ronald Noblu qəbul etmişdir.

Görüşdə İnterpol təşkilatı ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

SƏNAYEÇİLƏR VƏ SAHİBKARLAR BEYNƏLXALQ KONQRESİNİN İŞGÜZAR KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi - Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresinin işgüzar konfransının iştirakçılarını salamlayır və konfransın işə başlaması münasibətilə təbrik edirəm.

1992-ci ildə yaradılmış Sənayeçilər və Sahibkarlar Beynəlxalq Konqresi bu gün müəssisələrin iqtisadi və sənaye potensialının gücləndirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərən təşkilata çevrilmişdir.

İşgüzar konfransın keçirildiyi bu günlərdə Azərbaycan Respublikasının müstəqilliyinin 20-ci ildönümü geniş qeyd olunur. Müstəqillik illərində siyasi və iqtisadi islahatları uğurla həyata keçirən Azərbaycan regionun aparıcı dövlətlərindən olmaqla, transmilli layihələrin fəal iştirakçısıdır.

Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri də sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılmasıdır. Bu istiqamətdə qəbul edilmiş müxtəlif dövlət proqramları uğurla icra olunmaqdadır. Təsadüfi deyildir ki, hazırda ölkədə ümumi daxili məhsulun 80 faizinin çoxu özəl bölmənin payına düşür və qarşıda duran bir çox vəzifələrin həyata keçirilməsində sahibkarların rolu artmaqdadır.

Sahibkarlığın inkişafında iş adamlarının beynəlxalq əlaqələrinin genişləndirilməsi, onların birlikləri arasında əməkdaşlığın dərinləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Əminəm ki, Bakı şəhərində keçirilən işgüzar konfrans bu məsələlərin müzakirəsi üçün gözəl fürsət və gələcək səmərəli fəaliyyətinizə möhkəm zəmin yaradacaqdır.

Konfransın işinə uğurlar arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARI KONFRANSININ 14-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 14-cü iclasının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev dedi:

-Mən sizi Azərbaycanda salamlayıram, xoş gəlmisiniz. Çox şadam ki, ölkəmizdə toplaşmısınız. Bilirəm ki, bu cür görüşlər müntəzəm keçirilir. Mən çox şadam ki, bildiyimə görə, dost dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərləri arasında yaxşı qarşılıqlı anlaşma vardır, səylərin əlaqələndirilməsi mövcuddur və bu, çox vacibdir. Müasir dünyada informasiya mübadiləsi, təhlükələrin aradan qaldırılması üzrə əlaqələndirmə və birgə tədbirlər müstəsna əhəmiyyətə malikdir. Hər bir ölkənin təhlükəsizliyi dövlət üçün böyük əhəmiyyət kəsb edir. Təbii ki, təhlükəsizliyi daha uğurla təmin etmək yalnız birgə səylərlə mümkündür.

Prezident İlham Əliyev dost ölkələrin xüsusi xidmət orqanları arasındakı qarşılıqlı fəaliyyətin gələcək təhlükələrə qarşı birgə mübarizədə uğurlu olacağına əminliyini bildirdi. Dövlətimizin başçısı müasir dünyada terror təhlükələrinə qarşı birgə mübarizənin

xüsusi önəm daşıdığını vurğuladı. Prezident İlham Əliyev əlaqələndirmə, informasiya mübadiləsi, qarşılıqlı yardım və dəstəyin xüsusi xidmət orqanları qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsi üçün əsas şərtlərdən olduğunu qeyd etdi.

Azərbaycan Prezidenti dedi:

- Əminəm ki, Bakıda keçirilən görüş sizin əlaqələrinizi daha da möhkəmləndirəcəkdir. Bu, bizim regionda sülhün möhkəmləndirilməsinə, vətəndaşlarımızın təhlükəsizliyinə, ölkələrimizin sabit inkişafına xidmət edəcəkdir. Sizə uğurlar, yaxşı iş və yaxşı nəticələr arzulayıram.

Türkiyə Cümhuriyyəti Milli İstihbarat Təşkilatının müstəşarı Hakan Fidan bu tədbirin yüksək səviyyədə keçirilməsinə görə Azərbaycan tərəfinə minnətdarlıq etdi. Bildirdi ki, bölgədə mövcud olan təhlükələrin birgə əməkdaşlıq şəraitində aradan qaldırılmasında xüsusi xidmət orqanlarının əməkdaşlığı faydalıdır və əlaqələr gücləndikcə bu təhlükələr də zəifləyir. Hakan Fidan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçına çatdırdı.

Prezident İlham Əliyev onun da salamlarını Türkiyə hökumətinin başçısına çatdırmağı qonaqdan xahiş etdi.

Azərbaycan tərəfinə gözəl qonaqpərvərliyə və bu tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür edən Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin sədri Nurtay Abıkayev bildirdi ki, bütün səylər regionda mövcud olan təhlükələrin aradan qaldırılması üçün qarşılıqlı fəaliyyətə yönəlib. Bir neçə il bundan əvvəl Bakıda olduğunu, ötən müddətdə paytaxtımızda böyük inkişafın yaşandığını, budəfəki səfəri zamanı bütün bunların şahidi olduğunu deyən Nurtay Abıkayev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı Nursultan Nazarbayevin salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev bir daha ölkələrimizin xüsusi xidmət orqanları arasında səmərəli əməkdaşlığa toxundu. Dövlətimizin başçısı mövcud əlaqələrin daha da möhkəmləndirilməsi üçün bütün səylərin səfərbər olunmasının vacibliyini diqqətə çatdırdı. Prezident İlham Əliyev bu məsələdə qarşılıqlı fəaliyyətin önəmini vurğuladı və regiondakı təhlükələrə qarşı birgə mübarizənin əhəmiyyətini qeyd etdi. Azərbaycan Prezidenti bir daha Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Bakıda keçirilən 14-cü iclasının işinə uğurlar arzuladı.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

FRANSA RESPUBLİKASININ PREZİDENTİ NİKOLA SARKOZİNİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

Oktyabrın 7-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Nikola Sarkozini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Fransa Prezidentinə raport verdi. Fransanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Nikola Sarkoziyə, Fransa nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 7-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Fransa Prezidenti Nikola Sarkozinin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

Fransa Prezidenti Nikola Sarkozinin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Fransa Prezidenti Nikola Sarkozi Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə görüşdü.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ İŞÇİ LANÇI

Oktyabrın 7-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Nikola Sarkozi ilə birgə işçi lançı olmuşdur.

AZƏRBAYCANIN BİRİNCİ XANIMININ FRANSA RESPUBLİKASININ "ŞƏRƏF LEGİONUNUN ZABİTİ" DÖVLƏT ORDENİ İLƏ TƏLTİF OLUNMASI MƏRASİMİ

Oktyabrın 7-də Fransa Prezidenti Nikola Sarkozinin ölkəmizə rəsmi səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunması mərasimi keçirilmişdir.

Fransa Prezidenti Nikola SARKOZİ mərasimdə çıxış edərək dedi:

-Cənab Prezident,

hörmətli xanım, Siz Bakıda dünyaya göz açmısınız. Azərbaycanın ən yaxşı səfirisiniz, eyni zamanda, Siz dünyada bütün qadınlar üçün gözəl nümunəsiniz. Bilirik ki, ali təhsilinizi Moskvada almısınız, oftalmologiya sahəsində mütəxəssissiniz. Ölkənizin maraqları naminə gərgin fəaliyyət aparırsınız, həmçinin parlamentdə fəal iş görürsünüz. Parlamentdə ABŞ-Azərbaycan dostluq qrupunun sədrliyindən Fransa-Azərbaycan dostluq qrupunun sədrliyinə keçmək qərarınız bizim üçün böyük şərəfdir. Bu, strateji və əla seçim oldu. Eyni zamanda, Siz mədəni müxtəlifliyin təşviq edilməsində şəxsən iştirak edirsiniz. Siz Fransanın böyük dostusunuz. Olduqca mühüm iş aparırsınız. Rəhbərlik etdiyiniz Fond uşaqlara qayğı sahəsində böyük işlər görmüşdür. Bu Fond, həmçinin dünya mədəni irsinin qorunmasına da töhfə verir. Beləliklə, Azərbaycanın birinci xanımına ölkəmizin - Fransa Respublikasının ali ordenini təqdim etmək istərdim.

Hörmətli Mehriban xanım Əliyeva, Fransa Respublikasının adından Sizə "Şərəf Legionunun Zabiti" ordenini təqdim edirəm.

* * *

Fransa dövlətinin başçısı "Şərəf Legionunun Zabiti" ordenini Azərbaycanın birinci xanımına təqdim etdi.

* * *

Azərbaycanın birinci xanımı Mehriban ƏLİYEVA Fransa Prezidenti Nikola Sarkoziyə minnətdarlığını bildirərək dedi:

-Hörmətli cənab Prezident, Fransa dövlətinin yüksək mükafatı olan "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə məni təltif etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Mənim üçün bu, böyük şərəfdir və fəaliyyətimə verilən yüksək qiymətdir. Mənim haqqımda dediyiniz sözlərə görə Sizə minnətdarlığımı bildirirəm.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan ilə Fransa arasında münasibətlərin genişləndirilməsi və möhkəmləndirilməsi üçün böyük istəklə əlimdən gələni edəcəyəm.

Mən çox şadam ki, bu gün təməli qoyulan Bakı Fransız Liseyinin reallaşmasında rəhbərlik etdiyim Heydər Əliyev Fondunun da əməyi vardır. Əminəm ki, bu lisey həm ölkəmizin təhsil sisteminin inkişafına töhfəsini verəcək, həm də Azərbaycanda fransız dilini, Fransanın tarixi və mədəniyyətini təbliğ edəcəkdir.

Biz bu il Fransada Azərbaycanın mədəniyyətini tanıtmaq üçün müxtəlif tədbirlər, konsertlər, festivallar keçirdik. Gələn il Bakıda - paytaxtımızda zəngin Fransa incəsənətini əks etdirən "Plaisirs de France" sərgisi keçiriləcəkdir.

Yaxın gələcəkdə Parisdə Azərbaycanın Mədəniyyət Mərkəzi fəaliyyətə başlayacaq və beləliklə də ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığımız daha da dərinləşəcəkdir. Çox xoşbəxtəm ki, bu sahədə mənim də əməyim vardır.

Cənab Prezident, ölkənizə olan dərin hörmət və məhəbbətimi ifadə edərək bir daha Sizə və Fransa dövlətinə bu yüksək mükafata görə təşəkkürümü bildirirəm. Ölkənizə, xalqınıza, Sizə və ailənizə ən xoş arzularımı diləyirəm. Bir daha çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir,

Əziz qardaşım,

Ananız Tənzilə Ərdoğanın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 7 oktyabr 2011-ci il.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Hökumətinin sədri Vladimir Putinə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik etmiş, ona dövlətçilik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyası Hökumətinin sədri Vladimir Putin ölkələrimiz arasında dostluq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə etmiş, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildirmişlər.

BAKIDA FRANSIZ LİSEYİNİN TƏMƏLQOYMA MƏRASİMİ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və Fransa Prezidenti Nikola Sarkozi mərasimdə iştirak etmişlər

Oktyabrın 7-də Bakıda Fransız Liseyinin təməlqoyma mərasimi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Fransa Respublikasının Prezidenti Nikola Sarkozi və ölkəmizin birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Prezident İlham Əliyev Fransa dövlətinin başçısı Nikola Sarkozini qarşıladı.

Mərasim iştirakçıları Azərbaycan və Fransa prezidentlərini hərarətlə qarşıladılar.

Əvvəlcə "Azərbaycan Respublikasının Hökuməti və Fransa Respublikasının Hökuməti arasında Bakı Fransız Liseyinin yaradılması haqqında" Saziş imzalandı. Sənədi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Fransa tərəfdən isə xarici və Avropa işləri naziri yanında əməkdaşlıq məsələləri naziri Anri de Renkur imzaladılar.

Dövlət başçıları mərasimdə çıxış etdilər.

Prezident İlham ƏLİYEV ali qonağı salamlayaraq dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizin səfəriniz tarixi xarakter daşıyır. İlk dəfə olaraq Fransa Prezidenti Azərbaycana səfər edir. Əminəm ki, səfəriniz Fransa-Azərbaycan əlaqələrinin gələcək uğurlu inkişafına çox böyük töhfəsini verəcəkdir. Əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Son illər ərzində ölkələrimiz arasında yaşanan əməkdaşlıq bizi daha da ruhlandırır və əmin edir ki, gələcəkdə də Fransa-Azərbaycan əlaqələri strateji xarakter daşıyacaqdır.

Siyasi əlaqələrimiz çox intensivdir. Mən dəfələrlə Sizin gözəl ölkənizə səfər etmişəm, bu gün isə Siz bizim qonağımızsınız. Siyasi sahədə əməkdaşlığın perspektivləri də çox gözəldir. Eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında Fransanın çox böyük rolu vardır. Şəxsən Sizin və rəhbərlik etdiyiniz dövlətin Avropa İttifaqı-Azərbaycan əlaqələrinə verdiyiniz dəstəyə görə Sizə minnətdaram. Bu yaxınlarda "Şərq tərəfdaşlığı" zirvə görüşünün keçirilməsi bir daha göstərdi ki, Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Azərbaycan-NATO əlaqələrində də Fransanın xüsusi rolu vardır. Bu əlaqələrin inkişafında Sizin ölkəniz əminəm ki, bundan sonra da dəstəyini göstərəcəkdir.

Əlbəttə, regional təhlükəsizlik məsələləri daim diqqət mərkəzindədir. Bu gün də bu məsələlərlə bağlı biz Sizinlə çox geniş və səmimi söhbət aparmışıq. Fransa Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması işində çox mühüm rol oynayır. Biz bu rolu yüksək qiymətləndiririk və ümid edirik ki, şəxsən Sizin səyləriniz nəticəsində münaqişə tezliklə beynəlxalq hüquq normalarına uyğun şəkildə həllini tapacaq və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Uzun illərdir ki, Azərbaycan torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı doğma torpağında qaçqın-köçkün həyatı yaşayır. Bu vəziyyətə son qoyulmalıdır və Sizin də qeyd etdiyiniz kimi, status-kvo dəyişdirilməlidir. Hesab edirəm ki, status-kvonun dəyişdirilməsi üçün yaxşı imkanlar vardır və status-kvonun dəyişdirilməsini ən çox arzulayan tərəf Azərbaycandır. Çünki bu, bizim torpaqlarımızdır və bizim torpaqlar işğal altındadır. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz qərarlarını vermişlər. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Parlamenti, Avropa Şurası, digər təşkilatlar - yəni, məsələnin həlli üçün hüquqi baza vardır. Əminəm ki, yaxın zamanlarda daha da ciddi addımlar atılacaq, münaqişəyə son qoyulacaq və Cənubi Qafqazda sülh, əməkdaşlıq yaranacaqdır.

Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq da çox uğurla inkişaf edir. Deyə biləram ki, bu ilin 8 ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 3 milyard dolları keçmişdir və gələcək inkişaf üçün imkanlar vardır. Ümid edirəm ki, ilin sonuna qədər bu rəqəm 4 milyard dollara çatacaqdır. Fransanın 40-a yaxın şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. Onlar ekologiya, ətraf mühitin qorunması ilə bağlı müxtəlif layihələri icra edirlər. Azərbaycanda Məişət tullantıları zavodu Fransa şirkəti tərəfindən tikilir. Bakıda metronun konseptual inkişaf planında Fransa şirkətləri iştirak edirlər. Bizim birinci telekommunikasiya peykimizi orbitə Fransa şirkəti qaldıracaqdır. Yəni, bu sahədə də əməkdaşlıq üçün yaxşı imkanlar vardır.

Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq çox uğurludur. Bu yaxınlarda "Total" və "Gaz de France" şirkətlərinin Azərbaycanda yeni qaz yatağını aşkarlaması həm ölkəmizin enerji potensialını gücləndirəcək, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə də müsbət təsirini göstərəcəkdir. Çünki bildiyiniz kimi, Azərbaycan "Cənub" qaz dəhlizinin reallaşmasında çox mühüm rol oynayır. Bu məsələlər, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bir hissəsidir.

Bu yaxınlarda aşkar edilmiş qaz yatağında 350 milyard kubmetr qaz vardır və beləliklə, Azərbaycanın qaz potensialı hazırda 2,6 trilyon kubmetrdir. Mən çox şadam ki, Fransa şirkətləri bizim tərəfdaşlar kimi Azərbaycanda uğurla fəaliyyət göstərirlər.

Nəhayət, humanitar sahədə əməkdaşlıq çox genişdir. Yaxın gələcəkdə Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyətə başlayacaqdır. Bu gün isə Bakıda Fransız Liseyinin təməl daşı qoyulacaqdır. Bu, çox əlamətdar və gözəl hadisədir. Bu liseyin fəaliyyətə başlaması Fransa-Azərbaycan əlaqələrini daha da gücləndirəcəkdir. Bu, bizim dostluğumuzun rəmzidir. Eyni zamanda, Azərbaycanda təhsil sahəsinə qoyulan böyük sərmayədir. Bu liseyin yaradılmasında əməyi olan bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm. Liseyin təməl daşının qoyulmasında Fransa Prezidentinin iştirakı, əlbəttə ki, bugünkü mərasimə xüsusi əhəmiyyət verir.

Əminəm ki, hörmətli cənab Prezident, liseyin açılışında da biz Sizinlə bərabər iştirak edəcəyik. Bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Sizə və rəhbərlik etdiyiniz ölkəyə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Fransa Prezidenti Nikola SARKOZİ çıxış edərək dedi:

-Möhtərəm Prezident! Bakı Fransız Liseyinin təməl daşının qoyulması mərasimində, Bakıda Sizin aranızda olmaq mənim üçün bir sevincdir. Bu məktəbin yaradılması qərarı təkcə iki ölkə arasındakı yüksək səviyyədə olan diplomatik və siyasi əlaqələrin nümunəsi deyil, eyni zamanda, Azərbaycanın göstərdiyi münasibətlərdəndir. Bu, həmçinin Azərbaycanın dinamizmini və onun dünyaya açıqlığı arzusunu ifadə edir.

Bakı mühüm bir qovşaqdır. Əsrlərdən bəri müxtəlif xalqların və müxtəlif mədəniyyətlərin bir-birinə qovuşduğu məkandır. Fransız liseyi bu ölkənin tarixini təcəssüm etdirəcəkdir. Bir vaxtlar ölkənizin neft sənayesinin inkişafında çox mühüm rol oynamış Nobel

qardaşlarının yaşadıqları prospektdə bu gün Azərbaycan Dövlət Neft Şirkətinin və Sizin həyat yoldaşınız, xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi sayəsində Fransız Liseyinin təməli qoyulur. Mən bir daha yenidən Mehriban xanıma öz təşəkkürümü bildirmək istəyirəm.

Fransız Dünyəvi Təhsil Missiyasının və ölkələrimizin Təhsil nazirliklərinin dəstəyi ilə bu lisey fransızdilli elitanın formalaşmasına imkan verəcəkdir. Eyni zamanda, Fransa universitetlərinin qapıları bu fransızdilli tələbələrin üzünə daim açıq olacaqdır. Aldıqları biliklərlə Azərbaycanı bəhrələndirmək üçün onlar ölkələrinə qayıdacaqlar.

Mən bilirəm ki, Sizin tələbələr Fransa hökumətinin, son illərdə isə, həmçinin Azərbaycan hökumətinin təqaüdləri sayəsində Fransada təhsil alırlar. Arzu edirəm ki, universitetlər arasında əməkdaşlıq daha da zənginləşsin. Ümidvaram ki, Fransız Liseyi buna güclü töhfəsini verəcəkdir. Bu lisey, həmçinin ölkələrimiz arasındakı mədəni və tarixi əlaqələrin ardıcıllığını əks etdirəcəkdir. 1920-ci ildə bolşeviklərin işğalından sonra Fransa birinci müstəqil Azərbaycan hökumətinin sürgündə olan üzvlərinin çoxuna sığınacaq vermişdir. 1944-cü ilin noyabrında II Dünya müharibəsinin sonunu müzakirə üçün Moskvaya gedən general Şarl de Qoll Bakıda bir gecə səfərdə olmuşdur. Mən bunu unutmuram.

Azərbaycan müstəqilliyini bərpa edən gündən başlayaraq ölkələrimiz arasında, xüsusilə də mədəniyyət və təhsil sahəsi dinamik və məhsuldar bir əməkdaşlığa başlamışdır. Bu, həm strateji tərəfdaşlıqda özünü əks etdirir, həm də qeyd edim ki, mədəniyyətdə.

Gələn ilin mart ayında Bakı İncəsənət Muzeyi dünyada ilk olaraq Fransanın inciləri sərgisini açacaqdır. Burada intibah dövründən bu günədək fransız mədəni irsini əks etdirən yüzədək görkəmli əsər nümayiş etdiriləcəkdir.

Möhtərəm Prezident! Əziz İlham! Mənimlə birlikdə bu liseyin yaranmasını qərara almaqla Siz mədəniyyət rəngarəngliyini və Frankafoniyanı seçmiş olursunuz. Bu, cəsarətli seçim və uğurlu gələcəkdir. Fransa bütün sahələrdə Sizin dostunuzdur, Sizin tərəfdaşınızdır. Siz bilirsiniz ki, artıq Frankafoniya tolerantlıq, azadlıq, insan hüquqları və demokratiya kimi bəşəri dəyərlərin daşıyıcısıdır. Nüfuzunuzla, bu gözəl layihəni müdafiə etməklə Siz bu dəyərlərə dəstək verdiyinizi nümayiş etdirirsiniz və mən bu münasibətlə Sizi təbrik edirəm. Mən bir daha Sizə təşəkkür etmək istərdim. Bu gün bizə göstərdiyiniz qəbul üçün, cənab Prezident, şəxsən Sizə və Sizin həyat yoldaşınıza təşəkkürümü bildirirəm. Bilin ki, Fransa Sizin dostunuzdur və Siz ona etibar edə bilərsiniz. Təşəkkür edirəm!

* * *

Azərbaycan və Fransa prezidentləri tikiləcək liseyin stendinə baxdılar.

Sonra Fransız Liseyinin təməli qoyuldu.

Prezident İlham Əliyev və Prezident Nikola Sarkozi gilizi təmələ buraxdılar. Dövlət başçıları və Azərbaycanın birinci xanımı təmələ beton qarışığı tökdülər.

Bildirildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq lisey ölkəmizdə müvəqqəti və daimi yaşayan fransızdilli əcnəbi vətəndaşların və Azərbaycan vətəndaşlarının bu dildə təhsil almalarına geniş imkanlar yaradacaqdır. Fransız məktəbinin tədris

planı uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil müəssisəsində tətbiq edilən klassik fransız tədris planı olacaqdır. Tədris proqramı Fransa milli təhsil sisteminin tələblərinə uyğun olaraq fransız dilində aparılacaqdır. Şagirdlərə veriləcək attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə cavab verəcək və nazirlik tərəfindən tanınacaqdır. Məktəbin məzunları öz seçimlərinə uyğun olaraq təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsində davam etdirmək imkanı qazanacaqlar.

Fransa Prezidentinin diqqətinə çatdırıldı ki, bu təhsil ocağı Bakının "Ağ şəhər" adlanan ərazisində inşa olunacaqdır. Dünyada şəhərsalma sahəsində həyata keçirilən ən iri və nadir layihələrdən olan "Bakı Ağ şəhər" layihəsinin maraqlı tərəflərindən biri də burada Paris məhəlləsinin salınmasıdır.

Sonra Azərbaycanın və Fransanın dövlət başçıları ölkəmizdə fəaliyyət göstərən fransız iş adamları ilə görüşdülər, onlara fəaliyyətlərində uğurlar arzuladılar.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fransa Prezidenti Nikola Sarkozini yola saldılar.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın anasının vəfatı ilə bağlı ona başsağlığı vermiş, Türkiyənin Baş nazirinə və onun ailəsinə Allahdan səbr diləmişdir.

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və başsağlığına görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirmişdir.

BAKIDA KEÇİRİLƏN BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATI BAŞA ÇATMIŞDIR

Prezident İlham Əliyev çempionatın final mərhələsinin qarşılaşmalarını izləmişdir

Bakıda keçirilən boks üzrə XVI dünya çempionatı oktyabrın 8-də başa çatmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vu Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən çempionatın final mərhələsinin qarşılaşmalarını izləmişlər.

Final mərhələsini izləyən tamaşaçılar və idmançılar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Azərbaycanda həyata keçirilən idman siyasəti ölkəmizi dünyada olimpiya məkanı kimi tanıdır. Odur ki, bu gün Azərbaycan dünyada güclü idman ənənələri ilə şöhrət tapmışdır. Çünki Azərbaycanda idmanı sevirlər və bu sahənin inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə paytaxtımızla yanaşı, regionlarda da inşa olunan nəhəng idman obyektləri Azərbaycanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meylinin artması ilə nəticələnir. Əslində, ölkəmizdə bu cür idman obyektlərinin tikilib istifadəyə verilməsinin bir məqsədi var: gənc nəslin sağlam böyüməsi.

Son illərdə Azərbaycanda yüksək səviyyəli beynəlxalq yarışların keçirilməsi ölkəmizin dünya idman ailəsində tutduğu layiqli yerdən xəbər verir. Bunu sentyabrın 26-dan oktyabrın 8-dək Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən boks üzrə XVI dünya çempionatı təsdiqləyir. Bundan əvvəl isə paytaxt Bakıda yeniyetmələr və gənclər arasında boks üzrə dünya birinciliklərı uğurla təşkil olunmuşdur. Böyüklər arasında boks üzrə dünya çempionatı isə respublikamızda ilk dəfə keçirilmişdir.

Təqdirəlayiq haldır ki, MDB məkanında məhz Azərbaycan ilk dəfə belə bir möhtəşəm yarışa ev sahibliyi etmişdir. Bu cür yüksək səviyyəli beynəlxalq yarışlar postsovet məkanında yalnız 1989-cu ildə Moskvada keçirilmişdir. Boks üzrə XVI dünya çempionatına 113 ölkədən 570 boksçu qatılmışdır. Yarış 2012-ci ildə Londonda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyırdı. 75 kiloqram çəki dərəcəsində Soltan Migitinov WSB liqasından London Olimpiadasına vəsiqə qazandığından çempionatda bu çəki dərəcəsində boksçumuz iştirak etməmişdir.

Bakıdakı dünya çempionatında 92 idmançı London Olimpiadasına vəsiqə qazanmışdır. Azərbaycan idmançılarından 64 kiloqram çəki dərəcəsində Heybətulla Hacıəliyev, 52 kiloqram çəki dərəcəsində Elvin Məmişzadə yarışların gedişində artıq Yay Olimpiya Oyunlarına vəsiqəni təmin etmişdilər.

Çempionatın final mərhələsində 10 çəki dərəcəsi üzrə 20 idmançı mübarizə aparmışdır. Final mərhələsində Azərbaycanı iki idmançı təmsil etmişdir. 91 kiloqramda mübarizə aparan Azərbaycan boksçusu Teymur Məmmədov ukraynalı Aleksandr Usik ilə qarşılaşmışdır. Gərgin idman mübarizəsində keçən oyunda məğlub olan Azərbaycan boksçusu dünya çempionatında gümüş medal qazanmışdır.

91 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Azərbaycan boksçusu Məhəmmədrəsul Məcidov isə İngiltərə idmançısı Entoni Coşuanı məğlub edərək dünya çempionatının qızıl medalına sahib olmuşdur.

Boks üzrə XVI dünya çempionatında milli komandamız 9 çəki dərəcəsində təmsil olunmuş və London Yay Olimpiya Oyunlarına 4 lisenziya qazanmışdır. Azərbaycan komanda hesabında Ukrayna və Kubadan sonra üçüncü yerdə qərarlaşmışdır.

Sonra idmançıların mükafatlandırılması mərasimi oldu.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev qalib idmançılara medalları təqdim etdi.

Azərbaycan boksçusunun qələbəsinin şərəfinə dövlət himni səsləndi.

Sonda xatirə şəkli çəkdirildi.

BAKIDA "XXI ƏSR: ÜMİDLƏR VƏ ÇAĞIRIŞLAR" DEVİZİ İLƏ BEYNƏLXALQ HUMANİTAR FORUM ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılış mərasimində və birinci plenar iclasında iştirak etmişdir

Oktyabrın 10-da Bakıda, "Gülüstan" sarayında "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə Beynəlxalq Humanitar Forum öz işinə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılış mərasimində və birinci plenar iclasında iştirak etmişlər.

Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda qəbul edilmişdir.

Forumun işində 20-dən çox ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət xadimləri, aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimai xadimlər iştirak edirlər.

Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün və sabah Bakıda çox əlamətdar Forum işləyəcəkdir. Foruma gəlmiş bütün qonaqlar bizim əziz qonaqlarımızdır. Əminəm ki, bu iki gün ərzində Forum çərçivəsində aparılacaq fikir mübadiləsi, səslənəcək təkliflər humanitar sahədə əməkdaşlığın daha da dərinləşməsinə xidmət göstərəcəkdir.

Deyə bilərəm ki, Bakı Birinci Beynəlxalq Humanitar Forumunun keçirilməsi ilə bağlı təşəbbüsü Rusiya və Azərbaycan ziyalıları irəli sürmüşlər. Rusiya və Azərbaycan rəhbərliyi də bu təşəbbüsü dəstəkləmişlər. Deyə bilərəm ki, ölkəmizdə son illər ərzində mütəmadi qaydada humanitar əməkdaşlığa dair beynəlxalq tədbirlər keçirilir. 2008-ci ildən Bakı Prosesi başlamışdır. Bakı Prosesinin təməli 2008-ci ildə qoyulmuşdur. O vaxt Bakıda Avropa Şurasına üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısına biz İslam Əməkdaşlığı Təşkilatının nümayəndələrini, nazirləri dəvət etmişdik və ilk dəfə olaraq birgə beynəlxalq tədbir keçirilmişdir. 2009-cu ildə isə İslam Əməkdaşlığı Təşkilatına üzv ölkələrin nazirlərinin Bakıda keçirilən toplantısına Avropa Şurası ölkələrinin nazirləri də dəvət edilmişdi. Yəni, artıq bu ənənə başlamışdı. 2010-cu ildə Bakıda Dünya Dinləri Liderlərinin Zirvə Görüşü keçirilmişdir və mən o tədbiri çox yaxşı xatırlayıram. Həm müzakirələr, eyni zamanda, qəbul edilmiş qərarlar sivilizasiyalararası dialoqun möhkəmlənməsinə dəyərli töhfəsini vermişdir. Keçən il isə, paytaxtımızda, eyni zamanda, digər beynəlxalq tədbirlər keçirilmişdir. Nəhayət, bu ilin aprel ayında Bakıda Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi də əlamətdar hadisə kimi tarixdə qalmışdır. Yəni, bu, artıq gözəl ənənədir.

Mən ümid edirəm ki, bugünkü tədbir və ondan sonrakı görüşlər və Azərbaycanda keçiriləcək növbəti beynəlxalq forumlar arzularımızı reallığa çevirəcəkdir. Arzularımız ondan ibarətdir ki, bütün dünya xalqları, bütün ölkələr bir-biri ilə daha da səmimi münasibətdə olsunlar, qarşılıqlı anlaşma daha da dərinləşsin, beynəlxalq əməkdaşlıq üçün daha

da əlverişli şərait yaradılsın.

Təsadüfi deyil ki, bütün bu tədbirlər, humanitar sahədə aparılan islahatlar Azərbaycanın adı ilə bağlıdır. Çünki əsrlər boyu Azərbaycanda müxtəlif mədəniyyətlərə mənsub olan xalqlar bir ailə kimi yaşamışlar. Bütün dövrlərdə Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün xalqlar bir ailə kimi yaşamışlar. Heç vaxt Azərbaycanda milli, yaxud dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır. Heç vaxt ayrı-seçkiliyə yol verilməmişdir və bu gün müstəqil Azərbaycan bu ənənələrə sadiqdir.

Hesab edirəm, bizim təcrübəmiz əyani şəkildə göstərir ki, müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan xalqlar mehribanlıq, sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər. Yəni, ölkəmizdə bu səpkidə keçirilən tədbirlərin ənənəvi xarakter alması təbiidir və mən çox şadam ki, dəvətimizi qəbul edib Forumda iştirak edən görkəmli ictimai xadimlər bu gün bizim qonaqlarımızdır. Əminəm ki, Forum çərçivəsində aparılan diskussiyalar, yaradılacaq təmaslar bizi daha da sıx birləşdirəcəkdir. İndiki zəmanədə, qloballaşan dünyada belə tədbirlərin keçirilməsinin çox böyük əhəmiyyəti vardır.

Azərbaycanın coğrafi vəziyyəti təbii ki, ölkənin inkişafına da təsirini göstərmişdir. Azərbaycan o ölkədir ki, burada mədəniyyətlər, sivilizasiyalar görüşür, birləşir. Bizim gücümüz birliyimizdədir. Milli və dini müxtəlifliyimiz bizim gücümüzü daha da artırır. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı bir ölkədir. Bütün dinlərin nümayəndələri bərabər hüquqa malikdir. Bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir və eyni zamanda, tikilir. Ölkəmizdə müstəqillik dövründə yaşanan sabitlik və dostluq ab-havası əlbəttə ki, bu gün Azərbaycanı regional ölkə kimi daha da gücləndirir.

Ölkəmizdə aparılan bütün islahatlar - istər siyasi, istər iqtisadi islahatlar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar, Azərbaycan öz gücünü artırsın və bunu etmək üçün təkcə iqtisadi islahatların aparılması kifayət deyildir. Bunu etmək üçün cəmiyyətdə çox sağlam iqlim olmalıdır. Bunu etmək üçün əlbəttə ki, Azərbaycanda bütün xalqlar həmişə olduğu kimi, mehribanlıq və əməkdaşlıq şəraitində yaşamalıdır.

Azərbaycanın tarixi və keçmişi göstərir ki, bunu etmək mümkündür. Bu gün Azərbaycan müstəqil ölkə kimi həm Avropa Şurasının, həm də İslam Əməkdaşlığı Təşkilatının üzvüdür. Azərbaycan nadir ölkələrdəndir ki, hər iki təşkilatda üzvdür və eyni zamanda, fəal üzvdür. Sivilizasiyaları, dünya dinlərini birləşdirmək, əməkdaşlığı dərinləşdirmək üçün hesab edirəm ki, bizim ölkə kifayət qədər böyük səylər göstərir. Ən önəmlisi ondan ibarətdir ki, bu səylər öz nəticəsini verməkdədir. Çünki əgər belə olmasaydı, Azərbaycanın bu sahədəki təcrübəsi maraq doğurmazdı.

Bakı prosesi 2008-ci ildən bu günə qədər uğurla inkişaf edir. Əminəm ki, növbəti illərdə bu proses çərçivəsində əlavə tədbirlərin keçirilməsi bizim işimizə böyük dəstək olacaqdır.

Bizim ölkədə bütövlükdə bütün dövrlərdə humanitar sahəyə çox böyük diqqət göstərilmişdir. Bu gün də bu sahə hökumətimiz üçün prioritet sahədir. Azərbaycanda elmin, təhsilin inkişafı, səhiyyə, mədəniyyət, idman sahələrində yaşanan inkişaf bütövlükdə humanitar sektorun inkişafına xidmət göstərir. Bu sahələr üzrə ölkədə konkret proqram-

lar vardır. Proqramlar icra edilir. Bu sahə gələcəkdə də prioritet olacaq və biz çalışacağıq ki, nəzərdə tutulan bütün vəzifələr uğurla icra edilsin.

Humanitar sahə hər bir ölkə üçün çox vacibdir. Əlbəttə, humanitar sahəyə daha da böyük diqqət göstərmək üçün ölkənin maliyyə imkanları da olmalıdır. Müstəqilliyimizin ilk illərində biz böyük çətinliklər içərisində yaşamışıq. Azərbaycanda həm iqtisadi, həm siyasi böhran yaşanırdı. Ola bilər ki, 90-cı illərin əvvəllərində bu sahəyə lazımi dərəcədə diqqət göstərilmirdi. Ona görə yox ki, bu diqqətdən kənarda qalmışdır. Ona görə ki, maliyyə imkanlarımız yox idi. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Humanitar sahənin inkişafı əlbəttə ki, bizim üçün prioritetdir. Bu sahəni inkişaf etdirmək üçün bizdə imkanlar vardır. Sirr deyil və hamımız yaxşı bilirik ki, ölkənin gələcəyini və uğurlu inkişafını təmin edən təbii resurslar deyil, humanitar amildir. Ona görə Azərbaycanda təhsilə, elmə qoyulan sərmayə öz nəticəsini verir və verəcəkdir. Bir neçə il bundan əvvəl irəli sürülən, "qara qızıl"ı insan kapitalına çevirək tezisi artıq bu gün reallıqdır. Minlərlə Azərbaycan gənci dünyanın aparıcı ali məktəblərində təhsil alır. Azərbaycanda təhsil sahəsində aparılan islahatlar əminəm ki, yaxın gələcəkdə daha da yaxşı nəticələrə gətirib çıxaracaqdır. Bununla bərabər, elmin inkişafı, gəncləri elmə cəlb etmək üçün konkret proqramlar icra edilir. Bu yaxınlarda qəbul edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrası da bu məqsədi güdür.

Bu gün və gələcəkdə ölkələrin uğurlu inkişafını müəyyən edən elmi-texniki tərəqqidir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycan təbii ehtiyatlarla da zəngin olan ölkədir və biz bu ehtiyatlardan səmərəli şəkildə istifadə edirik. Yoxsulluq şəraitində yaşayanların sayı son 7 ildə Azərbaycanda 5 dəfə, yəni 500 faiz aşağı düşmüşdür. Bu onun nəticəsidir ki, dediyim kimi, biz maddi resursları insan kapitalına çeviririk. Gələcəkdə də humanitar sahədə çox ciddi addımlar atılacaqdır. Ancaq bütün müsbət meyillərlə yanaşı, humanitar sahədə çətinliklər də vardır. Bizim ən böyük çətinliyimiz ondan ibarətdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqları uzun illərdir işğal altındadır. Bu, böyük humanitar fəlakətdir. Bir milyon Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın, məcburi köçkün şəraitində yaşayır. Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparılmışdır və Ermənistanın işğalçı siyasəti Azərbaycana böyük zərbələr vurmuşdur. Azərbaycana həm maddi ziyan, həm mənəvi zərbələr vurulmuşdur.

Biz ümid edirik ki, yaxın gələcəkdə bu münaqişə həllini tapacaq, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa ediləcəkdir. Bunu etmək üçün hüquqi zəmin kifayət qədər güclüdür. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır və orada göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmalıdır. BMT-nin Baş Məclisi qətnamə qəbul etmişdir. Avropa Parlamenti, İslam Əməkdaşlığı Təşkilatı, Avropa Şurası, ATƏT, yəni bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi gücləndirərək münaqişə ilə bağlı çox dəyərli qərarlar və qətnamələr qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, bu qərarların həyata keçirilməsi hələ mümkün olmamışdır. Yenə də deyirəm, bütün çətinliklərlə bərabər, bu, böyük humanitar fəlakət idi. Çünki adambaşına düşən qaçqınların sayına görə, əfsuslar olsun ki, Azərbaycan dünyada birinci yerdədir.

Bu münaqişəyə tezliklə son qoyulmalıdır və vətəndaşlarımız doğma torpaqlarına qayıtmalıdırlar. Bu onların hüququdur, elementar hüququdur. Nəhayət, ədalət bərpa edilmə-

lidir. Son illər ərzində Azərbaycanda bütün sahələrdə yaşanan inkişaf əlbəttə ki, bizi həm ruhlandırır, eyni zamanda, məsuliyyətimizi də artırır. Bu gün regional işlərdə Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər nəinki ölkəmiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır. İqtisadi və siyasi təşəbbüslərimiz bir məqsədi güdür: ilk növbədə, Azərbaycan xalqı daha yaxşı yaşasın. Digər tərəfdən, qonşuluqda yaşayan insanlar daim əlaqədə olsunlar. Bizim regional təşəbbüslərimizin məqsədi ondan ibarətdir ki, qonşu ölkələrlə əlaqələrimizi daha da gücləndirək. Bu gün bu, belədir. Azərbaycanın qonşuları ilə çox səmimi və konstruktiv münasibətləri mövcuddur. Bütün dünya ölkələri ilə münasibətlərimiz çox sağlam zəmində qurulmuşdur. Bu münasibətlər dostluq, tərəfdaşlıq münasibətləridir, bərabərhüquqlu münasibətlərdir. Bu il biz müstəqilliyimizin iyirmi illik yubileyini qeyd edirik. İyirmi il ərzində ölkəmiz böyük yol keçmişdir. Bu gün toplaşdığımız bu Forumun Azərbaycanda keçirilməsi, bütün dünyadan tanınmış və hörmətli ictimai xadimlərin Forumda iştirakı mənim sözlərimin təsdiqidir.

Bizim hər birimiz - ictimai xadimlər, siyasətçilər, cəmiyyətdə nüfuz sahibləri olan insanlar çalışmalıyıq, elə etməliyik ki, gələcəkdə xalqlararası əlaqələr daha da güclənsin. Buna böyük ehtiyac vardır. Bu, sadəcə olaraq bir şüar deyildir. Sadəcə olaraq indi dəbdə olan ifadələr deyildir. Bu, zərurətdir. Biz bunu ölkəmizdə görürük. Əgər Azərbaycanda milli zəmində, dini zəmində hər hansı bir xoşagəlməz hal olsaydı, bu, ölkəmiz üçün böyük bir fəlakət olardı. Bizim həm dövlət siyasətimiz, eyni zamanda, cəmiyyətdə mövcud olan ab-hava və cəmiyyətdən gələn siyasi sifariş onu diktə edir ki, biz bu məsələlərə daim diqqət göstərməliyik, siyasətimizi inamla və müvəffəqiyyətlə irəli aparmalıyıq. Bu gün dünyada multikulturalizm haqqında kifayət qədər geniş diskussiyalar aparılır. Forumun mövzularından biri də məhz multikulturalizmdir. Bu, təbiidir. Çünki son illər ərzində bu məsələ ilə bağlı müxtəlif səpkidə disskusiyalar aparılır. Deyə bilərəm ki, bir anlayış, bir termin kimi, multikulturalizm nisbətən yeni bir ifadədir. Ancaq biz Azərbaycanda əsrlər boyu multikulturalizm şəraitində yaşamışıq. Həyatımız, xüsusilə son iyirmi il ərzində müstəqil ölkə kimi təcrübəmiz göstərir ki, multikulturalizmin gələcəyi vardır. Biz bunu tam əminliklə deyirik. Nəinki Azərbaycanda, bir çox ölkələrdə və qonşu ölkələrdə multikulturalizmin böyük ənənələri vardır. Ona görə, bu gün multikulturalizmi şübhə altına qoymaq, yaxud onun iflası haqqında danışmaq hesab edirəm ki, həm yersizdir, həm zərərlidir. Çünki multikulturalizmin alternativi yoxdur.

Multikulturalizmin alternativi özünütəcriddir. Mən inanmıram ki, iyirmi birinci əsrdə, qloballaşan dünyada hər hansı bir siyasi qüvvə özünütəcrid siyasətini aparmağa cəhd etsin. Bu yol heç bir yerə aparmır. Multikulturalizmin dəyərləri, əsasları möhkəmləndirilməlidir. Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Hər bir insan - həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq, əlbəttə ki, o qaydalara, o ənənələrə hörmətlə yanaşmalıdır. Mən əminəm ki, bu amillərin sintezi nəticəsində bu gün müxtəlif dairələrdə multikulturalizmlə bağlı səslənən bədbin fikirlər aradan götürüləcəkdir. Bizim bu gün keçirdiyimiz Forum multikulturalizmin təsdiqidir, onun təntənəsidir.

Əziz dostlar, bu gün və sabah müzakirələr zamanı əlbəttə ki, çox dəyərli fikirlər səslənəcəkdir. Əminəm ki, bu fikirlər ümumi işimizə öz töhfəsini verəcəkdir. Mən bir daha

sizi Azərbaycanda ürəkdən salamlayıram. Mən çox şadam ki, Birinci Bakı Beynəlxalq Humanitar Forumu bu gün işinə başlayır. Əminəm ki, Forumun doğrudan da çox ciddi nəticələri, gözəl qərarları olacaqdır. Eyni zamanda, Bakı və Azərbaycan ilə tanış olmaq üçün sizə yaxşı imkanlar yaradılacaqdır. Azərbaycana ilk dəfə gələn qonaqlar şəhərimizlə tanış olacaqlar. Yəqin ki, bu gün Azərbaycan haqqında, Azərbaycanda yaşanan inkişaf haqqında sizin özünüzün də təəssüratlarınız olacaqdır.

Mən Forumun təşkilində iştirak etmiş, bu təşəbbüsü irəli sürmüş və dəstəkləmiş bütün insanlara minnətdarlığımı bildirmək istəyirəm.

Forumun işinə uğurlar arzulayıram.

Sağ olun.

* * *

Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey NARIŞKİN Forumun yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan rəhbərliyinə minnətdarlıq etdi.

Sergey Narışkin Rusiya Prezidenti Dmitri Medvedevin Forum iştirakçılarına təbrik məktubunu oxudu.

Məktubda deyilir: "Əziz dostlar!

Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarını və qonaqlarını ürəkdən salamlayıram.

Müasir dünyada humanitar əməkdaşlıq çox böyük sabitləşdirici rol oynayır. O, davamlı inkişafa şərait yaradır, ölkələr arasında münasibətlərə müsbət təsir edir və iqtisadiyyat, elm və mədəniyyətdən başlamış hüquq siyasəti və təhlükəsizliyin təmin edilməsi məsələlərinə qədər insan fəaliyyətinin demək olar ki, bütün sahələrini əhatə edir.

Humanitar əməkdaşlığı haqlı olaraq "yumşaq qüvvə" adlandırırlar, çünki o, ölkələri və xalqları ədalət və tolerantlıq, həmrəylik və qarşılıqlı hörmət dəyərləri əsasında birləşdirməklə sivilizasiyaların dialoqundakı maneələri aradan qaldırmağa kömək edir.

Son illərdə beynəlxalq münasibətlərin humanitar məzmun kəsb etməsinə tələbat getdikcə daha çox hiss edilir. Yaradıcı elitaların səmərəli əməkdaşlığına nümunə olan yeni dövlətlərarası mexanizmlər yaranır. Əlbəttə, yeni humanitar məkanın formalaşmasına sanballı töhfə verən ictimai təşəbbüslər və hərəkatlar xüsusi rol oynayır. Əminəm ki, Bakı Forumu onların arasında öz layiqli yerini tutacaqdır.

Forumun bütün iştirakçılarına səmərəli iş diləyir, ən xoş arzularımı bildirirəm.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev".

Bakı Forumunun dünya elitasının diqqət mərkəzində olduğunu deyən Sergey Narışkin Forumun plenar iclaslarında və panellərdə müzakirə ediləcək mövzuların aktuallığına toxundu.

* * *

Türkiyənin IX Prezidenti Süleyman DƏMİRƏL dedi ki, dünyada baş verən bir çox hadi-

sələr insan həyatına təsirsiz ötüşmür və odur ki, humanitar məsələlərlə bağlı bütün təşəbbüslər təqdirəlayiqdir.

Bakı kimi gözəl şəhərdə yenidən olmaqdan məmnunluğunu ifadə edən Süleyman Dəmirəl dövlət müstəqilliyimizin bərpa edilməsinin 20-ci ildönümü ərəfəsində Bakıya gəlməkdən şad olduğunu bildirərək demişdir: "İyirmi il ərzində Azərbaycan kifayət qədər kamil və güclü beynəlxalq icmanın üzvünə çevrilib və daha böyük gələcək potensiala malik bir ölkə olaraq, sözün həqiqi mənasında yüksək inkişafa və möhkəm sabitliyə nail olub. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında irəliyə doğru qətiyyətlə addımlayır. Mən mərhum Prezident Heydər Əliyevə xüsusi ehtiramımı bildirməliyəm. O, xalqın atası olmuşdu. Mən hər zaman onunla xoş münasibətlərimi, görüşlərimi və söhbətlərimi xatırlayıram. Onun çox müdrik, cəsarətli və uzaqgörən siyasəti Azərbaycanı çox gərgin, kəşməkəşli anlardan çıxarmışdır. Məhz Heydər Əliyevin və Prezident İlham Əliyevin səyləri sayəsində Azərbaycan-Türkiyə qardaşlığı çox nadir və tarixi əlaqələrin reallığına çevrilmişdir. "Bir millət, iki dövlətik" kəlamı artıq real həyatda təcəssüm tapmışdır.

Bu gün Türkiyə ilə Azərbaycanın bütün sahələrdə çox gözəl əlaqələri vardır. Bizim 20 il əvvəl başladığımız güclü, möhkəm dayağı, bünövrəsi olan münasibətlərimiz uğurla inkişaf etməkdədir".

Süleyman Dəmirəl çıxışında dünyada insan həyatı üçün təhlükəli risklərin aradan qaldırılması, minilliyin inkişaf məqsədlərinin vaxtında və təxirəsalınmadan həyata keçirilməsinin vacibliyinə diqqət çəkdi. Türkiyənin IX Prezidenti Azərbaycan dövlətinin başçısına belə bir mötəbər prosesə rəhbərlik etdiyinə görə minnətdarlıq etdi.

* * *

Birləşmiş Ştatların Azərbaycandakı səfiri Mətyu BRAYZƏ ABŞ-ın sabiq Prezidenti Bill Klintonun Forum iştirakçılarına təbrik məktubunu oxudu. Məktubda qeyd olunur ki, dünyada bir milyarda yaxın insan yoxsulluq şəraitində yaşayır və bu cür tədbirlər planetdə baş verən mənfi proseslərin qarşısının alınmasında, onların təsir imkanlarının zəiflədilməsində mühüm rol oynayır.

Bill Klinton məktubunda Azərbaycan və Rusiya Prezidentlərinə bu təşəbbüsə verdikləri dəstəyə görə minnətdarlıq etmişdir.

Mətyu Brayzə də Bakı Forumunun humanitar əməkdaşlığın beynəlxalq miqyasda dərinləşməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

* * *

Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud ÇAVUŞOĞLU isə diqqəti ən böyük humanitar çağırış kimi birgə yaşayışa çəkdi. Bildirdi ki, mədəniyyətlərarası dialoqun təşviqi indi dünyada ən çox ehtiyac duyulan prinsiplərdən biridir və bununla bağlı planların həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, müasir Avropanın ən böyük problemlərindən olan ksenofobiya və ekstremizmin qarşısının alınması da böyük humanitar dəstək istəyir və bununla bağlı təşəbbüslərin böyük təsiri ola bilər.

Mövlud Çavusoğlu hələ də bir çox ölkələrdə, o cümlədən Azərbaycanda qaçqınların

mövcudluğunu humanitar əməkdaşlığa problem yaradan amillərdən biri kimi səciyyələndirərək dedi: "Qaçqınlardan danışarkən cənab Prezidentin xüsusi qeyd etdiyi kimi, biz unutmamalıyıq ki, qaçqınlar və məcburi köçkünlər Azərbaycanda da yaşayırlar. Məhz Dağlıq Qarabağ problemi ucbatından və məhz Azərbaycan torpaqlarının işğalına görə 1 milyon qaçqın və məcburi köçkün Azərbaycanda yaşamaqdadır. Mən bilirəm ki, cənab Prezident və onun hökuməti əlindən gələni edirlər ki, Azərbaycanda çətin vəziyyətdə yaşayan bu insanların həyat standartları yaxşılaşsın. Xüsusilə qadın və uşaqların hələ də çox çətin vəziyyətdə yaşadığını unutmamalıyıq".

* * *

UNESCO-nun baş direktorunun kommunikasiya və informasiya məsələləri üzrə müavini Yanis KARKLİNS Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun yüksək səviyyədə təşkilinə görə qurumun baş direktoru İrina Bokovanın təşəkkürlərini Prezident İlham Əliyevə çatdırdı.

Yanis Karklins elmin tərəqqisi, ənənəvi dəyərlərin qorunması, etik məsələlər ətrafında hərtərəfli fikir mübadiləsi aparmaq baxımından bu Forumun əhəmiyyətini yüksək qiymətləndirərək dedi: "Bakı Beynəlxalq Humanitar Forumu mürəkkəb çağırışların idarə edilməsində çox mükəmməl bir platformadır. Mən daha uyğun bir şəhəri bu məsələlərin müzakirəsi üçün tapa bilmirəm. Forumun gündəliyi kifayət qədər zəngin və maraqlıdır. Eyni zamanda, bunların hər biri problemlərin mükəmməl şəkildə həlli yollarını müəyyənləşdirmək baxımından çox əhəmiyyətlidir".

* * *

İSESCO-nun baş direktoru Əbdüləziz bin OSMAN ƏL-TÜVEYCRİ Bakıda tez-tez beynəlxalq tədbirlərin keçirilməsini Azərbaycanın və Prezident İlham Əliyevin dünyada getdikcə artan mövqeləri ilə əsaslandıraraq bildirdi: "Bakı Beynəlxalq Humanitar Forumu qarşıya qoyulan məqsədlərə, gündəlikdə duran yeni humanitar məsələlərin həllinə nail olmağa imkan verəcəkdir. Qloballaşma dövründə əlavə humanitar tədbirlər beynəlxalq səviyyədə həyata keçiriləcəkdir. Bu isə çox mütərəqqi bir məsələdir və Azərbaycanın sivilizasiyalararası dialoqu gücləndirmək təşəbbüsünün mühüm tərkib hissəsidir. Azərbaycanın yeni təşəbbüsləri beynəlxalq ictimaiyyəti narahat edən məsələlərin həllinə yönəlmişdir.

Zati-aliləri, cənab İlham Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanda iqtisadi inkişaf sürətlənmiş, tərəqqiyə və qarşılıqlı anlaşmaya xidmət edən çox mühüm konfranslar keçirilmişdir. Bu tədbirlər, xüsusi vurğulamaq istəyirəm ki, qloballaşan dünyada dialoqa, qarşılıqlı anlaşmaya və əməkdaşlığa xidmət edir. İSESCO Azərbaycanın bütün təşəbbüslərini dəstəkləyir və bu vacib tədbirləri birgə təşkil etməkdən məmnunluğunu bildirir.

Bu gün dünyanın diqqəti yenidən bu gözəl paytaxt şəhərinə - Bakıya yönəlmişdir. Bakı Beynəlxalq Humanitar Forumu bir daha təsdiq edir ki, Azərbaycanın bu cür layihələri həyata keçirməkdə təcrübəsi və potensialı yüksəkdir.

Qəti əminəm ki, Bakı platforması qloballaşan dünyada humanitar dəyərlərin qorunmasına və inkişafına xidmət edəcəkdir.

Mən Bakı Beynəlxalq Humanitar Forumunu alqışlayır və ona işində uğurlar arzulayıram. Dinlədiyinizə görə minnətdaram".

* * *

Çıxışlardan sonra Forumda iştirak edən nüfuzlu nümayəndələr, görkəmli ictimai-siyasi xadimlər bu cür mötəbər prosesə verdiyi dəstəyə görə bir daha Prezident İlham Əliyevə minnətdarlıqlarını çatdırdılar.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Sonra Beynəlxalq Humanitar Forum işini ikinci plenar iclas ilə davam etdirmişdir.

Moskva Dövlət Universitetinin rektoru Viktor SADOVNİÇİ iclasda çıxış edərək, dövlətlər və xalqlar arasında humanitar əməkdaşlıq məsələlərinin belə bir möhtəşəm forumda artıq beynəlxalq miqyasda müzakirə edilməsinin əhəmiyyətini vurğulamışdır.

Azərbaycan və Rusiya arasında əməkdaşlığın çoxtərəfli xarakter daşıdığını bildirən rektor ölkələrimiz arasında xüsusilə təhsil sahəsində əlaqələrin inkişafını yüksək qiymətləndirmişdir. O, bu əlaqələrin inkişafında Moskva Dövlət Universiteti ilə Bakı Dövlət Universiteti arasında sıx əməkdaşlığın rolunu qeyd etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Bakıda və Moskvada görüşlərini xatırladan V.Sadovniçi Prezident İlham Əliyevin MDU-dakı nitqini və onun bu təhsil ocağının Fəxri doktoru adı almasını böyük məmnunluqla qeyd etmişdir.

* * *

Elmi, mədəni, sosioloji, humanitar məsələlərin müzakirəsi üçün Forumun yaxşı fürsət olduğunu deyən Rumıniyanın sabiq Prezidenti Emil KONSTANTİNESKU dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişaf etdirilməsinə onun mühüm töhfə verəcəyinə əminliyini bildirmişdir. Vurğulamışdır ki, biz xalqlar və dövlətlər arasında humanitar məsələlərin həllində ortaq məxrəcə gəlmək üçün daha çox görüşməliyik.

* * *

Kimya üzrə Nobel mükafatı laureatı Əhməd ZEVEYL çıxışında informasiya-kommunikasiya texnologiyalarının, internetin sürətli inkişafı nəticəsində çox qısa vaxt ərzində ölkələr, regionlar və qitələr arasında məlumatların ötürülməsinin mümkün olduğunu bildirmişdir. Dinlərarası münaqişələrin heç bir əsası yoxdur, - deyən natiq dünyada iki milyard insanın internetdən istifadə etdiyini diqqətə çatdırmış, bu problemlərin həllində dünyanın müxtəlif bölgələrində yaşayan insanların səylərini birləşdirməyin əhəmiyyətini qeyd etmişdir.

* * *

İqtisadiyyat sahəsində Nobel mükafatı laureatı Ceyms MİRRLİS bildirmişdir ki, iqtisadiyyatın məqsədi insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Lakin hazırda bəzi ölkələr iqtisadi baxımdan çox böyük problemlərlə üzləşmişlər. Biz iqtisadi inkişafın təmin olunmasına diqqət yetirməklə yanaşı, sağlamlıq, ətraf mühit, təhsil və s. amilləri də nəzərə almalıyıq. Bu baxımdan dünyada bütün sahələrdə əldə edilmiş nailiyyətlər daim

izlənməlidir.

* * *

Forumda iştirakından və Bakıda olmağından sonsuz qürur hissi keçirdiyini bildirən Bolqarıstanın sabiq Prezidenti Jelyu JELEV ölkəmizin dinamik inkişafından məmnunluğunu vurğulamışdır. Mən bu gün Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin məzarını ziyarət etdim. Çox sevindirici haldır ki, ulu öndərin arzuları bu gün Azərbaycan xalqı tərəfindən uğurla həyata keçirilir.

* * *

Cəmiyyətdəki problemlərin diqqətə çatdırılmasında, humanitar əməkdaşlığın inkişafında yazıçıların rolunu yüksək qiymətləndirən ədəbiyyat üzrə Nobel mükafatı laureatı Vidiadhar Suracprasad NAYPOL onların bu məsələlərdə daha asan dil tapa bildiklərini vurğulamışdır.

* * *

Forumda iştirakından məmnunluğunu qeyd edən Slovakiyanın sabiq Prezidenti Rudolf ŞUSTER belə bir möhtəşəm tədbirin yüksək səviyyədə təşkil olunmasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir. Tez-tez baş verən təbii fəlakətlər nəticəsində dünyanın müxtəlif bölgələrində ərzaq qıtlığı təhlükəsinin yarandığını diqqətə çatdıran R.Şuster ətraf mühitin mühafizəsi tədbirlərinin gücləndirilməsinin vacibliyini vurğulamışdır.

* * *

Bakıda keçirilən belə bir nüfuzlu tədbirə dəvət aldığı üçün təşəkkürünü bildirən Bolqarıstanın sabiq Prezidenti Peter STOYANOV qlobal istiləşmə və yoxsulluq mövzularının Forumda müzakirə ediləcək əsas məsələlərdən olduğunu qeyd etmişdir.

Prezident İlham Əliyevin "multukulturalizm üçün heç bir alternativ yoxdur" sözlərini xüsusi vurğulayan P.Stoyanov bildirmişdir ki, biz yanlış anlaşmalardan qaçmalı, aramızda qarşılıqlı etimad yaratmalıyıq.

* * *

Bakı Beynəlxalq Humanitar Forumunun üçüncü plenar iclasında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud KƏRİMOV sürətli sosial-iqtisadi, mədəni-mənəvi inkişafı ilə regionun lider dövlətinə çevrilən ölkəmizin artıq qloballaşan dünyada mədəniyyətlərarası inteqrasiya və dialoq problemlərinin müzakirə edildiyi, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, tarixən Şərq və Qərb dəyərlərini özündə birləşdirən Azərbaycan mədəniyyətinin formalaşmasında burada yaşayan bütün xalqların və dini icmaların misilsiz xidmətləri olmuşdur.

Akademik bildirmişdir ki, müzakirə olunan problemlərə humanitar prinsiplər baxımından yanaşılması Forumun mühüm ideya istiqamətlərindən biridir. Forumun əsas məqsədlərindən biri humanitar dəyərlərin səfərbər edilməsi yolu ilə cəmiyyətin sosial-mədəni həyatının bu amillər əsasında inkişaf modelinin müzakirəsidir.

* * *

Forumda müasir dünyanı düşündürən olduqca ciddi məsələlərin müzakirə edildiyini diqqətə çatdıran Rusiyanın İTAR-TASS informasiya agentliyinin baş direktoru Vitali İQNATENKO, həmçinin jurnalistlərin davranışı, xüsusən onların hərbi əməliyyatlar şəraitində təhlükəsizliklərinin təmin olunması məsələlərinə toxunulacağını bildirmişdir. O, yüksək texnologiyalar şəraitində ənənəvi medianın və xəbər agentliklərinin çərçivəsində məlumatların sosial şəbəkələrə ötürülməsində balans yaradılmasının vacibliyini vurğulamışdır.

* * *

Yenidən Bakıda olmağından sonsuz qürur hissi keçirdiyini diqqətə çatdıran Türkiyənin Bilkənd Universitetinin idarə heyətinin rəhbəri Əli DOĞRAMACI humanitar məsələlərin müzakirə olunduğu Forumun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya dərin təşəkkürünü bildirmişdir. Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyini deyən natiq, bunun üçün yüksək peşəkarlığa sahib olan mütəxəssislərin hazırlanmasının əhəmiyyətini vurğulamışdır. Bildirmişdir ki, qarşıya qoyulan məqsədlərə çatmaq üçün biz müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli şəkildə istifadə etməliyik.

* * *

Çıxışında polietniklik və çoxmədəniyyətlilik amillərinə xüsusi yer verən Rusiya-Azərbaycan Dostluğu Cəmiyyətinin sədri, Rusiya Dövlət Humanitar Universitetinin (RDHU) rektoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Yefim PİVOVAR bu amillərin müasir dünyada daha çox aktuallıq kəsb etdiyini bildirmişdir. Azərbaycanın və Rusiyanın polietniklik və çoxmədəniyyətlilik sahəsində böyük təcrübəyə malik olduqlarını vurğulayan Y.Pivovar ölkələr və xalqlar arasında əlaqələrin daha da dərinləşməsində təhsilin inkişafının əhəmiyyətini qeyd etmişdir.

* * *

Elmin cəmiyyətimizin inkişafına çox böyük təsir etdiyini deyən Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Mixail ŞVIDKOY bildirmişdir ki, bununla yanaşı, həyatımızın təməl problemlərini təkcə elmi-texniki tərəqqi, iqtisadi modellərlə həll etmək mümkün deyildir. Bütün ictimai strukturların, konsepsiyaların dəyişikliklərə məruz qalması olduqca fundamental məsələdir. Forumun postmodernist mədəniyyətlərdə ənənəvi dəyərlərlə bağlı olduğunu vurğulayan natiq xarici ölkələrdən müxtəlif sahələri təmsil edən alimlərin və yazıçıların bir araya gələrək bu məsələləri müzakirə etmələrinin vacibliyini vurğulamışdır.

* * *

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil AKINCI dünyanın qloballaşdığı bir şəraitdə Prezident İlham Əliyevin təşəbbüsü ilə belə bir Forumun keçirilməsini təqdirəlayiq hal kimi qiymətləndirmişdir. XXI əsrdə regional və beynəlxalq təşkilatların ümumi maraqların müəyyənləşdirilməsində, regional sülh və sabitliyin qorunmasında rolunun artdığını deyən X.Akıncı rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışmışdır. Bildirmişdir ki, Şuranın həyata keçirməyi planlaşdırdığı layihələr arasında humanitar layihələr xüsusi yer tutur.

* * *

Rusiya Elmlər Akademiyasının müxbir üzvü Mixail KOVALÇUK müasir dünyada elmlərin konvergensiyasından söhbət açmış, texnosferanın mədəni dəyərləri zənginləşdirən əsas amillərdən biri olduğunu bildirmişdir. Müasir dünyamızda yeni inkişaf ideologiyasına ehtiyac yarandığını diqqətə çatdıran alim Forumun işinə uğurlar arzulamışdır.

* * *

Rusiya Elmlər Akademiyasının akademiki, gen mühəndisliyi və biotexnologiya üzrə alim Konstantin SKRYABİN son on ildə genetik məlumatların öyrənilməsi sahəsində mühüm irəliləyişlərin baş verdiyini vurğulamışdır. Son illərdə biotexnologiyaların sürətlə inkişaf etdiyini deyən alim cəmiyyətimizin həyatında mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirəsində Forumun əhəmiyyətini qeyd etmiş, yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə minnətdarlığını bildirmişdir.

Bununla Forum ilk iş gününü başa çatdırmışdır.

* * *

Forum oktyabrın 11-də işini panel iclaslarda davam etdirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası və Rusiya Federasiyası tərəfindən əsası qoyulan Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti qeyd olundu, bu tədbirin beynəlxalq əməkdaşlığın genişlənməsi, xalqların və ölkələrin bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyi vurğulandı.

Görüşdə, həmçinin Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəli qəbul etmişdir.

Görüşdə ulu öndər Heydər Əliyev ilə Süleyman Dəmirəlin keçirdiyi görüşlər, onların arasında olan dostluq münasibətləri məmnunluqla xatırlandı, Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin gələcəkdə də daim möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı dəvəti qəbul edib Beynəlxalq Humanitar Forumda iştirak etdiyinə görə Türkiyənin IX Prezidentinə minnətdarlığını bildirdi.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəlin şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN KEÇMİŞ PREZİDENTİ RUDOLF ŞUSTERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Slovakiyanın keçmiş Prezidenti Rudolf Şusteri qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rudolf Şuster arasında bundan əvvəlki görüşlər məmnunluqla xatırlandı, Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun əhəmiyyəti qeyd olundu, tədbirin ölkələrarası, mədəniyyətlərarası dialoqun daha da genişləndirilməsi baxımından önəmi vurğulandı.

Slovakiya Respublikasının keçmiş Prezidenti Rudolf Şuster Bakıda gedən nəhəng quruculuq, abadlıq işlərinin şahidi olduğunu dedi və bunu yüksək qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunu qəbul etmişdir.

Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini qeyd edən Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu bu ilin aprelində Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun da yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Mövlud Çavuşoğlu Avropa Şurası Parlament Assambleyasının önəm verdiyi məsələlərlə bağlı tədbirlərin ölkəmizdə uğurla təşkil olunması münasibətilə şəxsən Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Bakı Beynəlxalq Humanitar Forumunun Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bir növ davamı olduğunu vurğulayan dövlətimizin başçısı bu cür tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halı aldığını dedi. Prezident İlham Əliyev dəvəti qəbul edib Forumda iştirakına görə Mövlud Çavuşoğluna təşəkkürünü bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, UNESCO-NUN VƏ İSESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA UNESCO-NUN KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞMÜŞLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva

oktyabrın 10-da UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuura ilə görüşmüşlər.

Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun əhəmiyyətinə toxunan UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuura son illər ölkəmizdə çox mühüm humanitar təşəbbüslərin həyata keçirildiyini vurğuladı. Koişiro Matsuura dünyanın görkəmli alimlərinin və ictimai xadimlərinin Forumda iştirakını tədbirə olan beynəlxalq marağın ifadəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuuranı yenidən ölkəmizdə görməyindən məmnunluğunu bildirdi. Bakı Beynəlxalq Humanitar Forumunu əhəmiyyətli hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev ölkəmizin artıq beynəlxalq humanitar təşəbbüslərin mərkəzinə çevrildiyini vurğuladı.

BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT VERİLMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir

Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarının şərəfinə oktyabrın 10-da "Bulta" sarayında rəsmi ziyafət verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Mərasim iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Prezident İlham ƏLİYEV ziyafət iştirakçılarını salamlayaraq dedi:

- Hörmətli qonaqlar, əziz dostlar.

Mən sizin hamınızı bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bu gün Birinci Bakı Beynəlxalq Humanitar Forumu öz işini uğurla davam etdirib. Birinci gün çox uğurlu oldu. Forum çərçivəsində səslənən fikirlər humanitar sahədə əməkdaşlığa böyük töhfə verdi.

Mən Forumda çıxış etmiş bütün natiqlərə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Forum sabah da davam edəcəkdir. Sabah müxtəlif seksiyalarda biz dəyərli və maraqlı çıxışları dinləyəcəyik. Bir sözlə, mən çox şadam ki, bu Forum xalqları birləşdirən Forum oldu. Bu Forum dünyada xoşniyyətli qüvvələri bir araya gətirən Forum oldu. Mən ümid edirəm ki, bu Forumun çox gözəl nəticələri olacaqdır.

Bu Forumda iştirak etmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Xüsusilə, mənim həmkarlarımı - sabiq prezidentləri səmimiyyətlə salamlayıram. Beynəlxalq təşkilatların rəhbərlərini salamlayıram. Görkəmli dövlət xadimləri, ictimai xadimlər, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyətinin üzvləri, jurnalistlər - bu gün bizim aramızdadırlar. Onlar bizim qonaqlarımızdır. Hesab edirəm ki, Bakı Beynəlxalq Humanitar Forumu dünya miqyasında özünə layiq yerini tutacaqdır. Ümid edirəm ki, bu Forumun gələcəyi çox gözəl olacaqdır.

* * *

Sonra Xalq Artisti Teymur Göyçayevin rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət kamera orkestrinin konserti oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏL-CƏZİRƏ TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Əl-Cəzirə Televiziya kanalının müxbiri Devid Frosta müsahibə vermişdir.

Müsahibədə dövlətimizin başçısı Azərbaycanın müstəqilliyinin 20 illik dövründə ölkəmizdə gedən inkişaf prosesləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, energetika sahəsində əməkdaşlıq və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN KALİFORNİYA TEXNOLOGİYA İNSTİTUTUNUN FİZİKİ BİOLOGİYA MƏRKƏZİNİN DİREKTORU, KİMYA ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI, KİMYA VƏ FİZİKA ELMLƏRİ ÜZRƏ PROFESSOR ƏHMƏD ZEVAYLI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də ABŞ-ın Kaliforniya Texnologiya İnstitutunun Fiziki Biologiya Mərkəzinin direktoru, kimya üzrə Nobel mükafatı laureatı, kimya və fizika elmləri üzrə professor Əhməd Zevaylı qəbul etmişdir.

Nobel mükafatı laureatı, professor Əhməd Zevayl Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətinə toxunan Əhməd Zevayl Forumda Azərbaycan Prezidenti İlham Əliyevin nitqini, xüsusilə dövlət başçısının elmlə, təhsillə bağlı fikirlərini yüksək qiymətləndirdi. O, ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.

Dövlətimizin başçısı Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etdiyinə görə qonağa təşəkkürünü bildirdi. Prezident İlham Əliyev bu cür tədbirlərin beynəlxalq əməkdaşlıq, qarşılıqlı anlaşma baxımından önəmini qeyd etdi. Azərbaycanı müasir ölkə kimi inkişaf etdirməyin qarşıya məqsəd qoyulduğunu deyən dövlət başçısı buna elmin, təhsilin yüksəlişi sayəsində çatmağın mümkün olduğunu vurğuladı.

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNTS FİŞERİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rəsmi qarşılanma mərasimi

Oktyabrın 12-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişeri və xanımı Margit Fişeri səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Avstriya Respublikasının Federal Prezidentinə raport verdi.

Avstriyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Avstriya Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Haynts Fişerə, Avstriya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNTS FİŞERİN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişer və xanımı Margit Fişer ilə birgə görüşü olmuşdur.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin təkbətək görüşü keçirilmişdir.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.

Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ AVSTRİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi bir daha Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Sizin səfəriniz bizim üçün, ölkələrimiz arasında əlaqələrin inkişafı üçün çox əhəmiyyətlidir. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaqdır.

Biz bir sıra mühüm sənədləri imzalamağı və bir sıra müxtəlif məsələləri ətraflı müzakirə etməyi planlaşdırırıq. İkitərəfli münasibətlərin gündəliyi kifayət qədər genişdir. Biz Dağlıq Qarabağ münaqişəsinin həlli də daxil olmaqla enerji əməkdaşlığı, iqtisadi fəaliyyət sahələrində qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etməyə hazırıq. Biz sürətlə inkişaf edən ikitərəfli münasibətlərimizdə yeni mərhələyə qədəm qoyuruq.

Mən bilirəm ki, iqtisadi sahədə qarşılıqlı maraqlar vardır. İşgüzar dairələr arasında görüşlər keçiriləcəkdir. Mədəniyyət sahəsində də bizim yaxşı nəticələrimiz vardır. Mən düşünürəm ki, əməkdaşlığımızın səviyyəsindən qane ola bilərik. Əlbəttə ki, Sizin səfəriniz bu əlaqələri daha da gücləndirir və əminəm ki, bu da çox yaxşı nəticələr verəcəkdir.

Bir daha Azərbaycana xoş gəlmisiniz.

* * *

Avstriya Respublikasının Federal Prezidenti Haynts FİŞER

səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

-Çox sağ olun, cənab Prezident!

Mən Sizin atanızın 2000-ci ildə Avstriyaya səfərini xatırlayıram. O vaxtdan on bir il keçmişdir, bir çox dəyişikliklər baş vermişdir. Böyük inkişaf vardır. Ölkəniz inkişaf tempi baxımından böyük addımlar atmışdır. Bu, çox təqdirəlayiqdir. Bu münasibətlə təbriklərimi bildirirəm.

Mənə və məni müşayiət edən nümayəndə heyətinə səfərə dəvətinizə görə minnətdarlığımı bildirirəm. Sizin dəvətinizi böyük məmnuniyyətlə qəbul etdim. Nümayəndə heyətimizin tərkibi təkcə siyasətçilər və diplomatlardan ibarət deyildir. Buraya, həmçinin işgüzar dairələrdən, elm və turizm sahələrindən nümayəndələr daxildir.

AZƏRBAYCAN-AVSTRİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ OLMUŞDUR

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Avstriya sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Krems Tətbiqi Elmlər Universiteti və Azərbaycan Turizm İnstitutu arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Turizm İnstitutunun rektoru Cəfər Cəfərov və Krems Tətbiqi Elmlər Universitetinin icraçı direktoru Hayns Boyer imzaladılar.

"SOCAR və OMV şirkətləri arasında enerji layihələri üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və OMV şirkətinin qaz və enerji məsələləri üzrə idarə heyətinin direktoru Gerhard Roiss

imzaladılar.

"Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Avstriya Respublikasının Nəqliyyat, İnnovasiya və Texnologiya Federal Nazirliyi arasında innovasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Avstriya Respublikasının Nəqliyyat, İnnovasiya və Texnologiya Federal Nazirliyinin baş direktoru Andreas Rayxhardt imzaladılar.

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Avstriya Respublikasının Federal Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Avstriya Respublikasının federal maliyyə nazirinin müavini Andreas Şider imzaladılar.

AZƏRBAYCAN VƏ AVSTRİYA PREZİDENTLƏRİ BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR

Oktyabrın 12-də Azərbaycan-Avstriya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin mətbuat konfransı olmuşdur.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, mən Sizi Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu, əlaqələrimizin tarixində Avstriya Prezidentinin Azərbaycana birinci səfəridir. Mən çox şadam ki, səfər çox uğurlu keçir. Əminəm ki, səfərinizin çox yaxşı nəticələri olacaqdır.

Bu gün biz Sizinlə ikitərəfli əlaqələrimizin geniş gündəliyini müzakirə etdik. Bu müzakirə göstərir ki, Avstriya-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Siyasi əlaqələr güclənir və Sizin Azərbaycana səfəriniz bunun bariz nümunəsidir. Siyasi məsləhətləşmələr, müxtəlif səviyyələrdə əməkdaşlıq aparılır. Bir sözlə, siyasi əlaqələrin yüksək səviyyədə olması, əlbəttə ki, bütün başqa sahələrdə əlaqələrin inkişafına güclü təkan verir.

Bu gün biz Sizinlə, eyni zamanda, regional əməkdaşlıq məsələlərinə də toxunduq. Regional təhlükəsizlik məsələləri də bizim üçün çox vacibdir. Mən Sizə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, son vəziyyətlə bağlı məlumat verdim. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan tərəfi ümid edir ki, yaxın zamanlarda münaqişə öz həllini tapacaq və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa ediləcəkdir. Münaqişə nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşmüşdür. Bir milyona yaxın azərbaycanlı doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır.

Beynəlxalq təşkilatlar, xüsusilə BMT Təhlükəsizlik Şurası çox vacib qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Onlar Ermənistan qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrdir. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, digər beynəlxalq təşkilatlar da oxşar qərarlar qəbul etmişlər. Ümid edirəm ki, yaxın gələcəkdə bu münaqişə öz həllini tapacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Biz bu gün, eyni zamanda, iqtisadi məsələlərə də toxunduq. Bu sahədə də əməkdaşlıq çox uğurludur. Azərbaycanda qırx Avstriya şirkəti fəaliyyət göstərir. Bu fəaliyyət çox uğurludur. Biz bu fəaliyyətdən çox razıyıq. Bu gün keçiriləcək Avstriya-Azərbaycan biznes forumu da bu sahədəki əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir. Mən buna şübhə etmirəm. Avstriya şirkətləri burada müxtəlif layihələrdə iştirak edir və Azərbaycan tərəfi də bu iştirakdan çox razıdır.

Biz bu gün enerji sahəsindəki əməkdaşlığa da toxunduq. Bu sahədə də yaxşı nəticələr vardır. İmzalanan sənədlərin sırasında OMV və SOCAR arasında sənəd xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan enerji siyasətini uğurla icra edir. Bizim zəngin neft və qaz yataqlarımız həm ölkənin, həm də tərəfdaşların enerji təhlükəsizliyinə xidmət göstərir.

Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə çox vacib bəyannamə qəbul edilmişdir. Bu bəyannamənin icrası nəticəsində Avropa qitəsi ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq üçün yaxşı şərait və imkanlar yaradılacaqdır. Bizim zəngin qaz yataqlarımız vardır. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetr səviyyəsindədir. Əminəm ki, gələcəkdə bu rəqəm daha da artacaqdır. "Cənub" qaz dəhlizi layihəsinin icrası üçün hazırda çox gözəl imkanlar vardır. Birinci növbədə, mənbə - Azərbaycanın qaz resursları, ikinci tərəfdən, Avropa qurumlarının bu məsələyə olan diqqəti yüksək səviyyədədir. Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gündəliyində bu məsələ xüsusi yer tutur. Ümid edirəm ki, yaxın zamanlarda bütün qalan məsələlər, o cümlədən tranzit məsələləri həllini tapacaqdır. Beləliklə, Azərbaycan qazı üçün yeni böyük bazarlar açılacaqdır.

Mədəniyyət sahəsində də əməkdaşlıq çox gözəldir. Bu gün bu sahə ilə bağlı çox gözəl tədbir də keçiriləcəkdir. Dünya şöhrətli bəstəkar Motsartın Bakıda abidəsi ucaldılacaq. Bu da həm mədəniyyət sahəsində əməkdaşlığa yaxşı təsir göstərəcək və xalqlar arasında olan əlaqələrə də çox böyük töhfə olacaqdır.

Bir sözlə, cənab Prezident, Sizin səfəriniz Avstriya-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün çox əhəmiyyətlidir. Mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizə və nümayəndə heyətinizə bu səfər zamanı Azərbaycanda xoş əhval-ruhiyyə arzulayıram.

PREZİDENT HAYNTS FİŞERİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də əvvəlcə Sizə bu qonaqpərvərliyə, xüsusilə dəvətə görə bir daha təşəkkür etmək istəyirəm. Məni bu səfərimdə hökumətin çoxsaylı üzvləri müşayiət edir. Mən bö-

yük nümayəndə heyəti ilə gəlmişəm. Elm adamları nümayəndə heyətinin tərkibindədir. Bu, onu göstərir ki, biz Sizin ölkənizlə münasibətlərimizə böyük diqqət yetiririk və münasibətlərin inkişafı bizim də marağımızdadır. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Açıq, maraqlı fikir mübadiləsinə görə Sizə yenə təşəkkür etmək istəyirəm. Siz bu şəraiti yaratmısınız, biz həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə və həmçinin, üzbəüz, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar apardıq.

Mən bu fürsətdən istifadə edərək Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20 illiyi münasibətilə Sizi təbrik edirəm. Oktyabrın 18-də Siz bu yubileyi qeyd edəcəksiniz. Mən əminəm ki, hər bir müşahidəçi, ölkənizə gələn hər bir qonaq Sizin xüsusilə son 10 ildə əldə etdiyiniz uğurların şahidi olacaqdır. Bunları açıq-aşkar görmək mümkündür. Bu uğurları Bakıda gəzərkən aydınca görürsən. Bu dinamik inkişaf göz qabağındadır. Səfər müddətində də bizə göstərildi, izah olundu.

Avstriya həmin ölkələrdəndir ki, ilk olaraq sizinlə diplomatik münasibətlər yaratdı, Sizin ölkəni tanıdı. Müstəqillik yolu - bu 20 illik yol, eyni zamanda, bizim diplomatik münasibətlərin də 20 ili deməkdir. Bu son illərdə biz müəyyən uğurlar əldə etmişdik.

İqtisadi mövzular Sizin də qeyd etdiyiniz kimi, bizim danışıqların ön planında dayanmışdır. Bu, təkcə ikitərəfli deyil, həm də Avropa ilə bizim münasibətlərə dair mövzulara aid idi. Məsələn, "Nabukko". Biz bu layihədə həm Avropa İttifaqının, həm də Avstriyanın vacib maraqlarının, mövqelərimizin ifadəsini görürük.

Biz əmin olmaq istəyirik ki, Avropanın enerji təhlükəsizliyi etibarlı əllərdədir. Sizinlə etibarlı əməkdaşlıq burada öz töhfəsini verir və müxtəlif sahələri əhatə edir. Müxtəlif layihələrin həyata keçirilməsi bu sahədə gözəl bazadır. Sizinlə söhbətin gedişində də bir daha məlum oldu ki, Azərbaycan bu münasibətlərə böyük əhəmiyyət verir. Sizin bu barədə fikirlərinizi biz çox əhəmiyyətli hesab edirik və düzgün interpretasiya etmək istəyirik. "Nabukko" bu əməkdaşlıqda yeganə layihə deyildir. Biz bir sıra firmalarla əməkdaşlığın şahidiyik və onları sadalamağa ehtiyac yoxdur. Amma qeyd etməliyəm ki, onların fəaliyyətinə siz dəstək verirsiniz. Xüsusilə tikinti, küçəsalma və texnoloji sahələrdə gözəl əməkdaşlıq özünü göstərir. Səhiyyə, sağlamlıq, infrastruktur və idarəçilik sahələrində olan əməkdaşlıq da yüksək səviyyədədir. Bunlar hamısı o mövzulardır ki, biz Sizinlə fikir mübadiləsi apardıq və Sizinlə gözəl əməkdaşlıq özünü göstərir.

Verdiyiniz məlumatlara, Sizin nöqteyi-nəzərinizə görə Sizə bir daha təşəkkür edirəm.

Biz Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həllinə tərəfdarıq. Bütün iştirakçılara müraciət edirik ki, danışıqlar aparmağa hazır olsunlar, danışıqlar stoluna qayıtsınlar. ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəkləyirik ki, onlar da yaxşı iradə göstərsinlər, münaqişə həllini tapsın.

Biz insan hüquqları, mətbuat azadlığı barədə də danışdıq. Mən bu barədə fikirlərin ədalətli şəkildə ifadəsindən, bu məsələ ilə bağlı münasibətlərin müzakirəsindən məmnun qaldım. BMT çərçivəsində biz də müəyyən öhdəlik götürmüşük ki, lazım olan sahələrdə xoş əməlimizi göstərək, öz xidmətimizi təklif edək. Qeyd edim ki, BMT-nin bu sahədə qətnamələri də öz həllini tapmalıdır.

Biz hazırkı inkişaf barədə fikir mübadiləsi apardıq. Xüsusilə Avropa İttifaqında olan inkişaf barədə. Biz optimist bir şəkildə fikrimizi, əminliyimizi bildirdik ki, siyasi və iqti-

sadi münasibətlərimiz inkişaf edəcəkdir. Avropa İttifaqı da siyasi-iqtisadi cəhətdən öz gələcəyini təmin edəcəkdir. Bizim yaxınlaşmamız bu münasibətlər, bu əməkdaşlıq vasitəsilə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrə öz müsbət təsirini göstərir. Bu, Avstriya tərəfindən də dəstəklənir.

Cənab Prezident, Sizə təşəkkür edirəm. Suallar varsa, biz məmnuniyyətlə cavablandırmağa hazırıq. Əgər bu arzu edilirsə, biz suallar üçün açığıq.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

* * *

- Markus Müller-Şinvald (Avstriyanın ORF Teleradiosu): Cənab Prezident Əliyev, cənab Prezident Fişer. Danışıqlardan sonra bizə deyə bilərsinizmi ki, hansı üç konsorsium Azərbaycan qazının daşınması istiqamətində layihəni udacaq və hansı layihəyə üstünlük verilir?

Prezident İlham ƏLİYEV: Qeyd etməliyəm ki, bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə bəyannamə qəbul edilmişdir. Bəyannaməni Avropa Komissiyasının sədri cənab Barrozu və mən Bakıda imzalamışıq. Bu bəyannamədə göstərilir ki, "Cənub" qaz dəhlizinin həyata keçirilməsi üçün hər iki tərəf öz səylərini göstərəcək. Eyni zamanda, Avropa Komissiyası və Azərbaycan Sənaye və Energetika Nazirliyi tərəfindən müştərək işçi qrupu yaradılmışdır. Bu işçi qrupunun fəaliyyəti artıq müsbət xarakter daşıyır. Bütün bu variantlar, bütün bu layihələr əlbəttə ki, təhlil edilməlidir. Bu yaxınlarda təkliflər irəli sürülmüşdür. Bu təkliflərə baxılacaqdır. Həm Azərbaycan, həm tərəfdaşlarımız, həm də əsas investorlar üçün ən məqbul variant seçiləcəkdir.

Azərbaycan böyük qaz potensialına malikdir. Bu barədə mən artıq söylədim və rəqəmləri gətirdim. Əlbəttə, biz maraqlıyıq ki, qaz potensialımızı maksimum dərəcədə realizə edə bilək. Hazırda "Şahdəniz" bizim əsas qaz layihəmiz kimi ön plandadır. Ancaq bununla bərabər, son müddət ərzində SOCAR tərəfindən aşkarlanmış "Ümid" yatağı da çox böyük ümidlər verir. Bu yaxınlarda "Total" və "Gaz de France" şirkətləri tərəfindən kəşf edilmiş "Abşeron" yatağında da böyük qaz ehtiyatları vardır. Deyə bilərəm ki, son bir il ərzində Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları təqribən 600 milyard kubmetr səviyyəsində artmışdır. Ona görə, həm kommersiya layihələrinin, üç layihənin kommersiya şərtləri, eyni zamanda, onların icra müddəti, texniki parametrləri əsas rol oynayacaqdır. Bu, elə bir qərar olmalıdır ki, həm vaxt itirməyək, eyni zamanda, Azərbaycan öz qaz resurslarını maksimum dərəcədə ixrac edə bilsin. Bu iki komponenti birləşdirmək üçün indi müzakirələr aparırıq. Yenə də deyirəm, bu qərarı biz birgə verməliyik. "Şahdəniz" layihəsinin ikinci fazasına nəzərdə tutulan investisiyaların həcmi təqribən 20 milyard dollar ətrafında gözlənilir. Əlbəttə ki, əsas investorların fikri də nəzərə alınmalıdır, Azərbaycanın maraqları da təmin edilməlidir.

Bu günə qədər enerji sahəsində əməkdaşlıq bu prinsiplər üzərində qurulmuşdur. Həm investorların, həm Azərbaycanın maraqları, hazırda deməli, Avropa ölkələrinin maraqları da bu məsələdə öz rolunu oynamalıdır. Çünki biz bu gün cənab Prezidentlə bu barədə geniş fikir mübadiləsi apardıq və cənab Prezident çox dəqiq dedi ki, hər tərəf qələbə

qazanmalıdır - Azərbaycan resursların sahibi kimi, tranzit ölkələr və istehlakçılar. Bunu etmək mümkündür. Ona görə, hesab edirəm, yaxın zamanlarda düzgün qərar veriləcək, o qərar ki, bizim potensial müştərilərimizin hamısını təmin edə bilmiş olsun.

Prezident Haynts FİŞER: Mən öz tərəfimdən deyə bilərəm, məlumatım ondan ibarətdir ki, konsorsiumlar təkliflərini veriblər, təklif ediblər. Bir neçə gün əvvəl onlar təkliflərini veriblər. Hazırda bu təkliflər araşdırma mərhələsindədir. Avstriyalılar və avropalılar elə bilirəm ki, "Nabukko" layihəsi ilə bağlı xüsusi, yaxşı bir mövqedədirlər. Biz xüsusi maraq göstəririk ki, bu layihə reallaşsın. Bu, Avstriya üçün xüsusilə yaxşı bir əməldir. Çünki bu layihə birbaşa Avstriyaya gətirib çıxarır. Bizdən də digər tədarükçülərə çıxmaq imkanı vardır və 100 milyon avropalı bizim ətrafımızda yaşayır, onların bu qazdan bəhrələnmək, faydalanmaq imkanı vardır. Bu, Almaniyadır, Sloveniyadır, Çexiyadır, Xorvatiyadır, eyni zamanda, Slovakiyadır. Bizim yaxınlığımızda olan qonşular, onların ətrafında olan qonşular. Bu təkcə bizim qonşular üçün yox, bütün Avropa üçün nəzərdə tutulacaqdır. Mənim fikrimcə, bu layihə Azərbaycan üçün də mühümdür. Bizim üçün əhəmiyyətlidir ki, planlaşmada əminlik əldə edə bilək. Təşəkkür edirəm.

Ceyhun QULİYEV (Azərbaycan televiziyası): Mənim sualım Avstriya Prezidentinədir. Cənab Prezident, bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı təcavüzü 20 ildən artıqdır ki, davam edir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan təcavüzkar işğal siyasətinə isə son qoymur. Bu münaqişə regionda sülh və təhlükəsizliyə təhdid mənbəyidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Avstriyanın konkret mövqeyini bilmək istərdik. Çox sağ olun.

Prezident Haynts FİŞER: Biz təkbətək söhbət edən zaman mən cənab Prezidentə bildirdim. Dağlıq Qarabağ münaqişəsi barədə ilkin olaraq fikir mübadiləsi apardıq. Autentik formada çalışdıq fikirlərimizi yaxınlaşdıraq. Münaqişənin həlli bizi də maraqlandırır. Mən başa düşürəm, yaxşı başa düşürəm. Bu, Azərbaycan üçün vacib məsələdir və Azərbaycan üçün fəlakətdir. Baş verən hadisələr və qaçqınlar var və onlar evlərinə qayıda bilmirlər. Münaqişə potensialı qalır. Bu nöqteyi-nəzərdəyəm ki, XXI əsrdə bu cür münaqişələr sülh yolu ilə həll olunmalıdır. Bu, Avstriyanın mövqeyidir. Avstriya heç bir halda, heç bir kontinentdə münaqişənin hərb yolu ilə həllinə tərəfdar deyildir. Çünki güc tətbiqi heç də həll variantı deyildir və sonra yenə güc tətbiqinə gətirib çıxarır. Avstriya da bu siyasətin tərəfdarıdır ki, bu münaqişənin həllinə sülh yolu, danışıqlar yolu ilə nail olunmalıdır. Bu ərazi münaqişəsi digər dövlətlərin köməyi cəlb olunmaqla, Minsk qrupu dövlətlərinin səyləri ilə həll olunmalıdır.

İvan Novak (Avstriyanın informasiya agentliyi (APA): Cənab Prezident Əliyev, iqtisadiyyatla bağlı Sizə sual vermək istəyirəm. Avstriyanın OMV şirkəti cəhd edir ki, Azərbaycanda qaz idxalı və qaz çıxarılması məsələsi ilə yaxından məşğul olsun. Fikirləşirlər ki, SOCAR "Nabukko" konsorsiumuna daxil olacaqdır. Bu imkanlara Siz necə baxırsınız? SOCAR "Nabukko" konsorsiumuna qoşula bilərmi?

Prezident İlham ƏLİYEV: Hörmətli OMV prezidenti cənab Roiss ilə biz dəfələrlə görüşmüşük - həm Bakıda, həm başqa paytaxtlarda. Bu məsələ ilə bağlı çox səmimi fikir mübadiləsi aparmışıq. OMV ilə SOCAR arasında əlaqələr yüksək səviyyədədir və bu gün imzalanan sənəd bunun bariz nümunəsidir. Müxtəlif təkliflər ola bilər, vardır və on-

lar nəzərdən keçirilir. Əlbəttə ki, biz hər bir tərəf üçün ən məqbul olan variantı seçməliyik. Hesab edirəm, indiki mərhələdə vacib olan nailiyyətlərin arasında qeyd etməliyik ki, "Cənub" qaz layihəsinin reallaşdırılması üçün yaxşı imkanlar vardır. Onu da deyə bilərəm ki, qaza sahib olan dövlətlər arasında yeganə ölkə Azərbaycandır ki, "Cənub" qaz dəhlizini rəsmən dəstəkləyir və bu dəstək təkcə bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış sənədlə məhdudlaşmır. Hələ 2009-cu ildə Avropa İttifaqı Sammitində enerji ilə bağlı məsələlər müzakirə edilən zaman Azərbaycan buna oxşar sənədi imzalamışdır. Yəni, bu bizim şüurlu seçimimizdir və biz istəyirik ki, qaz resurslarımızı dünya bazarlarına müxtəlif yollarla çıxaraq və hazırda Azərbaycan qazı istehlakçılara müxtəlif istiqamətlər üzrə çatdırılır. Gələcəkdə, böyük qaz mənbəyi işə düşəndən sonra isə əlbəttə ki, bizə həm yeni bazarlar lazım olacaq, eyni zamanda, mövcud bazarlara da öz qazımızı daha da böyük həcmdə ixrac etmək fikrindəyik. Ona görə hər hansı bir layihənin iştirakçısı olmaq bir tərəfdən böyük məsuliyyətdir, digər tərəfdən böyük üstünlükdür. Bu məsuliyyəti və üstünlüyü götür-qoy edərək biz düzgün qərar verməliyik. Əgər Azərbaycan və investorlar tərəfindən "Nabukko" layihəsinə üstünlük verilərsə, o zaman əlbəttə ki, "Nabukko"da iştirakçı olmaq üçün konkret təkliflərə baxılacaqdır. Həmin təkliflər təhlil ediləcəkdir ki, maliyyə öhdəliyimiz nədən ibarət olacaqdır?! SOCAR bu layihənin investoru olmaq istəyəcəkmi, yoxsa yox?! Yoxsa sadəcə olaraq öz qazını o layihəyə təqdim edəcək. Yəni, bütün bu məsələlər gərək müzakirə edilsin. Əlbəttə ki, ilk növbədə kommersiya şərtləri çox dəqiq təhlil edilməlidir və biz kommersiya cəhətdən ən əlverişli varianta gəlməliyik.

Albina Atlıxanova (Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc): Mənim sualım Avstriya Prezidentinədir. Cənab Prezident, Avstriya ilə Azərbaycan arasında qarşılıqlı investisiya imkanlarını necə qiymətləndirirsiniz? Çox sağ olun.

Prezident Haynts FİŞER: Son illərdə sübut etdik ki, biz aşağı səviyyədən başlayaraq yuxarıya doğru hərəkət edirik və iqtisadi-ticari münasibətlərimizi və investisiya münasibətlərimizi dərinləşdiririk. Elə bilirəm ki, bu, hər iki tərəf üçün faydalıdır və biz bu yolu davam etdirəcəyik. Bu mübadilə siyasəti və ölkələrimizin böyüklüyünə görə coğrafi baxımdan, əhali baxımından eyni ölçülərə malikik və biz bir-birimizi gözəl başa düşürük. Cənab Prezident də buna işarə etdi ki, Avstriya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Azərbaycan tərəfi bilir ki, onlar necə uğurla fəaliyyət göstərirlər, otellər tikirlər, burada baş verən hadisələrlə yaşayırlar. Bunun üçün özləri ilə işçi qüvvəsi gətirirlər və bu otellərin inşası əsasında təcrübə mübadiləsi davam edir. Biz hətta bu barədə əməkdaşlıq memorandumu da imzalamışıq. Cənab Prezident Avstriyaya gələrsə, - mən onu bu fürsətdən istifadə edərək ölkəmə dəvət edirəm, - yerindəcə ölkəmizdə məlumat verə bilərik ki, bizdə bu investisiyalar üçün, bu ixrac-idxal sahəsində, həm də qaz ilə bağlı hansı imkanlar vardır. Arzu edirəm ki, Siz səfərə "Nabukko" ilə bağlı xoş xəbərlə gələsiniz.

TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVLƏ GÖRÜŞMÜŞDÜR

Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəl oktyabrın 12-də ölkəsinə get-

məzdən əvvəl Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmüşdür.

Dövlətimizin başçısı Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirələ möhkəm cansağlığı və uğurlar arzulamışdır.

BAKIDA DAHİ BƏSTƏKAR VOLFQANQ MOTSARTIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və Avstriya Prezidenti Haynts Fişer mərasimdə iştirak etmişlər

Oktyabrın 12-də Bakının mərkəzində dahi Avstriya bəstəkarı, Avropa klassik musiqisinin ən nüfuzlu nümayəndələrindən olan Volfqanq Amadeus Motsartın xatirəsinə ucaldılmış abidənin açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişer mərasimdə iştirak etmişlər.

Məlumat verildi ki, müəllifləri Xalq Rəssamı, heykəltəraş Natiq Əliyev və Əməkdar İncəsənət Xadimi, memar-rəssam Çingiz Fərzəliyev olan abidənin ətrafı abadlaşdırılmış, 2 min 300 kvadratmetr ərazidə bağ salınmış, sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılmışdır.

Avstriyanın dövlət başçısı Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri ilə görüşdü, onlarla söhbət etdi.

Prezident İlham Əliyev və Prezident Haynts Fişer abidənin üzərindəki örtüyü götürdülər, önünə gül dəstəsi qoydular.

Azərbaycan Prezidenti İlham ƏLİYEV mərasimdə çıxış edərək dedi:

Hörmətli cənab Prezident!

Əziz dostlar, hörmətli qonaqlar!

Sizi ürəkdən salamlayıram. Bu gün Avstriya-Azərbaycan əlaqələrinin tarixində çox gözəl və unudulmaz bir gündür. Əlaqələrimizin tarixində birinci dəfədir ki, Avstriya Prezidenti Azərbaycana səfər edir və bu, əlbəttə, əlaqələrimizin tarixində xüsusi yerə malik olan bir hadisədir. Bu gün, eyni zamanda, ona görə unudulmaz bir gün olacaq ki, biz dünya şöhrətli bəstəkar, dahi Avstriya bəstəkarı Volfqanq Amadeus Motsartın abidəsini bərabər açdıq. Şəhərimizin mərkəzində, bu gözəl parkda dahi Motsartın abidəsi ucaldılıbdır. Bu gözəl hadisə münasibətilə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Motsartın ölməz əsərləri bu gün yaşayır və əbədi yaşayacaqdır. Onun istedadını yəqin ki, sözlərlə ifadə etmək mümkün deyildir. Amma mən hesab edirəm ki, musiqi sənətinə o qədər də bələd olmayan və musiqidən uzaq olan insanlar da Motsartın əsərlərini sevirlər. Çünki başqa cür mümkün deyildir. Avstriya xalqı xoşbəxtdir ki, onun Motsart kimi dahi şəxsiyyəti vardır. Azərbaycanda musiqi sənəti çox dərin köklərə malikdir və Motsart Azərbaycanda çox sevilir.

Bu gün bu abidənin açılışı, eyni zamanda, Avstriya-Azərbaycan dostluğunun bir rəmzidir. Ancaq dost olan ölkələrdə başqa ölkənin görkəmli şəxsiyyətinə abidələr ucaldılır.

Biz çox şadıq ki, bir müddət bundan əvvəl dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Vyanada abidəsi açılmışdır. Bu addımların çox böyük mənası vardır və ölkələrimizi, xalqlarımızı birləşdirən bir təşəbbüsdür. Üzeyir Hacıbəyli Azərbaycanın dövlət himninin müəllifidir və eyni zamanda, Azərbaycanın klassik musiqisinin banisidir. Mən çox şadam ki, onun əsəri Vyanada səhnəyə qoyulmuşdur.

Bu gün dahi Motsartın abidəsinin Bakıda ucaldılması həm Azərbaycan xalqının dahi şəxsiyyətin xatirəsinə olan hörmətinin əlamətidir, eyni zamanda, Avstriya-Azərbaycan dostluğunun inkişafı üçün çox vacib bir hadisədir. Cənab Prezident, biz bu gün səhərdən birlikdəyik və çox böyük işlər görmüşük, danışıqlar aparmışıq. Biz Avstriya-Azərbaycan biznes forumundan buraya gəlirik. Bizim həm siyasi, həm iqtisadi sahələrdəki əlaqələrimiz çox sürətlə və çox böyük uğurla inkişaf edir. Ancaq əlbəttə, mədəniyyət sahəsindəki əməkdaşlıq ümumi əməkdaşlığımıza çox güclü töhfə verir.

Mən hesab edirəm ki, bu park Avstriyanın bir parçası kimi Bakı sakinləri tərəfindən də yüksək qiymətləndiriləcəkdir. Artıq Avstriyanın Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Hesab edirəm ki, bu, ikinci Avstriya ünvanıdır ki, Bakıda yaradılır. Bildiyiniz kimi, Motsartın abidəsinin Bakıda ucaldılması haqqında qərar bir müddət əvvəl verilmişdi. Biz gözləyirdik ki, bu abidəni Sizinlə bərabər açaq.

Bir daha Sizi və hamınızı bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sağ olun.

Avstriya Prezidenti Haynts FİŞER çıxış edərək dedi:

- Çox hörmətli cənab Prezident!

Çox hörmətli xanımlar və cənablar!

Əvvəlcə icazə verin cənab Prezidentə çox yüksək və dostluq ruhunda söylədiyi sözlərə görə təşəkkür edim. Eyni zamanda, bizim üçün çox sevindiricidir ki, belə bir tanınmış publikanın qarşısında toplaşmışıq, mənim səfərim və keçirdiyim görüşlər barədə fikir mübadiləsi aparırıq, Avstriya haqqında belə xoş sözlər səsləndirilir.

Əlbəttə, belə rəsmi səfərlərdə, xüsusilə dost ölkələrdən nümayəndə heyətləri dövlət səfərinə gələrkən siyasi və iqtisadi məzmunda mövzular gündəmdə ön planda dayanır. Eyni zamanda, mənim üçün çox sevindiricidir ki, mədəniyyətə ayrıca mövzu həsr olunub. Yəni, tanınmış şəxsiyyət Volfqanq Amadeus Motsartın şərəfinə Bakının mərkəzində belə bir abidə ucaldılmışdır. Siz çox haqlısınız ki, Motsart elə şəxsiyyətdir ki, ona bütün dünyada hörmət edirlər, avstriyalılar xüsusilə fəxr edirlər. Mən qeyd edim ki, Motsartdan söhbət düşəndə biz hətta emosional oluruq. Biz bir qədər əvvəl Motsartın 250 illiyini qeyd etdik, özü də bir il boyunca. Mən elə bir şəxsiyyət tanımıram ki, onun ad günü, ona həsr olunmuş tədbirlər belə çoxtərəfli formatda, özü də müxtəlif səviyyələrdə bu cür təntənəli qeyd edilsin. Motsart o dahi şəxsiyyətlərdəndir ki, onun əsərlərindən təkcə musiqi duyulmur, misal üçün, onun operaya həsr olunmuş yazılarında müasirliyi hiss etmək mümkündür. Tərəqqi, azadlıq, liberal düşüncə, hətta insan hüquqları da, mən deyərdim ki, Motsartın əsərlərində müəyyən mənada yer almışdır. Ona görə hesab edirəm ki, bəlkə elə bu sadalanan amillərə görə belə bir gözəl məkanda, meydanda Motsarta layiq bir abidə ucaldılmışdır.

Eyni zamanda, mən bu abidənin yaradıcılarına, xüsusilə bu layihənin həyata keçirilməsində əməyi olanlara təşəkkür etmək istəyirəm. Siz çox haqlı olaraq qeyd etdiniz ki, bir müddət əvvəl Vyanada sizin dövlət himninin müəllifi dahi bəstəkar Hacıbəyliyə abidə ucaldılmışdır. Eyni zamanda, Avstriya üçün böyük xidmətləri olan dahi musiqiçi Motsarta Bakıda abidə ucaldılmışdır.

Cənab Prezident, mən Sizi əmin etmək istəyirəm ki, bu gün heç vaxt mənim hafizəmdən silinməyəcəkdir. Bilirsiniz nəyə görə? Ona görə ki, bu abidənin açılışı müstəqilliyinizin 20 illiyindən bir neçə gün əvvəl baş vermişdir. Əgər mən nə vaxtsa tarixi dəyişik salaramsa bu gün nə vaxt olubdur, onda fikirləşəcəyəm ki, bu gün Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyinin bərpasından bir neçə gün əvvəl olmuşdur. Beləcə tarix mənim yadıma düşəcəkdir.

Cənab Prezident, Siz nəinki layiqli bir yer seçmisiniz, eyni zamanda, ideal bir tarix seçmisiniz. Bunlarının hər ikisinin üst-üstə düşməsi gözəl bir hadisədir. Təşəkkür edirəm.

* * *

Azərbaycanın mədəniyyət və incəsənət xadimləri Prezident İlham Əliyev və Prezident Haynts Fişer ilə xatirə şəkli çəkdirdilər.

* * *

Dövlət başçıları incəsənət ustalarının ifasında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arazbarı" əsərini dinlədilər.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişer və xanımı Margit Fişer oktyabrın 12-də Heydər Əliyev Fondunda olmuşlar.

Avstriyanın dövlət başçısını və xanımını Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Avstriya Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Prezident Haynts Fişerə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə

həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Haynts Fişer Fondla tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı.

Avstriya Prezidentinə Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu.

Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ HAYNTS FİŞER AZƏRBAYCAN-AVSTRİYA BİZNES FORUMUNDA İŞTİRAK ETMİŞLƏR

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin iştirakı ilə Azərbaycan-Avstriya biznes forumu keçirilmişdir.

Forum iştirakçıları Azərbaycan və Avstriya prezidentlərini hərarətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham ƏLİYEV forumda çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bir daha, hörmətli cənab Prezident, Sizi Azərbaycanda salamlayıram. Azərbaycana Xoş gəlmisiniz!

Bu, Avstriya-Azərbaycan əlaqələrinin tarixində Avstriya Prezidentinin Azərbaycana birinci səfəridir və bu səfər tarixi xarakter daşıyır. Mən çox şadam ki, səfər çox uğurlu keçir. Əminəm ki, nəticələri də çox uğurlu olacaqdır.

Bizim aramızda çox sıx əməkdaşlıq var və biz çalışırıq ki, bütün sahələrdə əməkdaşlığı dərinləşdirək. Əlbəttə, bunu etmək üçün siyasi əlaqələrin çox böyük əhəmiyyəti vardır. Mən çox şadam ki, Avstriya-Azərbaycan əlaqələrində çox müsbət irəliləyiş vardır. Deyə bilərəm ki, bu əlaqələr hazırda ən yüksək səviyyədədir. Siyasi əməkdaşlıq və beynəlxalq təşkilatlarda əməkdaşlığımız, siyasi əlaqələrin güclü olması istər-istəməz bütün başqa sahələrə də müsbət təsir göstərir.

Bu gün bütün başqa məsələlərlə bərabər, biz Sizinlə iqtisadi sahədə əməkdaşlıq haqqında geniş fikir mübadiləsi apardıq. Mən hesab edirəm ki, bu sahədə əldə edilmiş uğurlar və yaxşı nəticələr bizi ruhlandırır, gələcək əməkdaşlığa sövq edir. Avstriya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. Ölkələrimiz arasında ticarət dövriyyəsi çox böyük olmasa da, Avstriya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərməsi çox müsbət bir haldır. Avstriya şirkətləri ölkəmiz üçün çox vacib olan infrastruktur və tikinti layihələrində çalışırlar. Onların fəaliyyəti təqdirəlayiqdir, onlar işləri yüksək keyfiyyətlə görürlər. Bütün kontrakt şərtlərinə əməl edilir və Azərbaycanda böyük quruculuq işlərinin aparılmasında Avstriya şirkətləri bizə dəstək olurlar.

Bu gün biz bu barədə artıq danışdıq. Qeyd etmək istəyirəm ki, ölkəmiz üçün bir neçə vacib layihəni Avstriya şirkətləri icra edir. Onların arasında Bakıda beşulduzlu yeni otelin

tikintisini "Strabag" şirkəti aparır. Bakıda yeni, müasir və bölgənin ən müasir aerovağzal kompleksini Avstriyanın "Waagner Biro" şirkəti həyata keçirir, "Şahdağ" Dağ Xizək Kurortunun inşası layihəsini Avstriyanın "Swiss Town Consult/ILF Consulting" və "Doppelmayr Seilbahnen GmbH" şirkətləri aparırlar. Yeni ofis binalarının layihələndirilməsi və dizayn işləri Avstriyanın "Coop Hemilbau" şirkətinə həvalə edilibdir. Ondan başqa, Bakının ən gözəl yerində, bulvarda, Milli Parkda Xalça Muzeyinin inşasını da Avstriyanın "Hoffmann - Janz ZT GmbH" şirkəti icra edir. "BHS İnternational" şirkəti isə Xalça Muzeyinin texniki təchizatı ilə məşğuldur.

Nəhayət, Bakının rəmzi olan Qız qalasının bərpasını da Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkəti icra edir. Bu barədə, cənab Prezident, mən sizə artıq məlumat verdim və söylədim ki, Qız qalası Bakının rəmzidir. Bakıda və ölkəmizin müxtəlif yerlərində tarixi abidələr kifayət qədər çoxdur. Ancaq Qız qalası Bakının rəmzidir. Qız qalası bizim ürəyimizdir, canımızdır. Hər bir azərbaycanlı üçün doğma olan bu abidənin bərpasını Avstriya şirkətinə etibar etmək yəqin ki, özlüyündə bir göstəricidir.

Yəni, sadaladığım bu layihələr, doğrudan da ölkəmiz üçün çox vacibdir və Avstriya-Azərbaycan iqtisadi əlaqələrinin inkişafı üçün də vacibdir. Ümid edirəm ki, hazırda əldə edilmiş yaxşı təcrübə və qarşılıqlı anlaşma gələcək layihələrin icrasına da təkan verəcəkdir.

Azərbaycanda hələ görüləsi işlər çoxdur. Bizim iqtisadi inkişafla bağlı konkret, düşünülmüş strategiyamız və konkret proqramlarımız vardır. Ölkəmiz üçün lazım olan bütün infrastruktur layihələri Azərbaycanda yenilənir, yenidən tikilir, bərpa edilir və bu layihələr bütün sahələri əhatə edir. Beləliklə, gələcəkdə Avstriya şirkətlərinin Azərbaycanda podratçı kimi işləmək üçün yeni imkanları olacaqdır. Bir daha demək istəyirəm ki, bizim yerli strukturların nümayəndələrindən də dəfələrlə maraqlanmışam və yerli qurumlar Avstriya şirkətlərinin fəaliyyətindən çox razıdırlar.

Eyni zamanda, hesab edirəm ki, iqtisadi əlaqələrimiz təkcə şirkətlərin layihələrdə iştirakı ilə məhdudlaşmamalıdır. Hesab edirəm ki, indi qarşılıqlı investisiyaların qoyulması üçün yaxşı şərait vardır. Bu sahədə deyə bilərəm ki, biz hələ əməkdaşlığın birinci mərhələsindəyik, birinci addımları atırıq. Azərbaycan şirkətləri indi xaricə böyük həcmdə sərmayə qoyuluşu ilə məşğuldur, həm Avropada, həm başqa ölkələrdə. Azərbaycanın həm dövlət, həm özəl şirkətləri Sizin ölkənizə investisiya qoymaq üçün maraqlı ola bilərlər və bugünkü biznes-forum yəqin ki, hər iki ölkənin imkanlarını təqdim edəcəkdir və edir.

Eyni zamanda, Azərbaycan da xarici sərmayə üçün çox əlverişli bir yerdir. Bizdə çox gözəl investisiya mühiti hökm sürür. Xarici sərmayələr qoyulur və birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Deyə bilərəm ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 100 milyard dollar sərmayə qoyulmuşdur və onun böyük hissəsi daxili sərmayədir. Amma kifayət qədər böyük hissə də xarici sərmayələrdir.

Xarici sərmayələr Azərbaycanda lazımınca qorunur. Biz bütün kontraktlara böyük hörmətlə yanaşırıq və hesab edirik ki, etimadı qazanmaq üçün məhz əldə edilmiş razılaşmalara hörmətlə yanaşılmalıdır. Ölkəmizin hərtərəfli inkişafı üçün əlbəttə ki, xarici investisiyaların cəlb edilməsi vacibdir. Halbuki deyə bilərəm ki, indiki mərhələdə əvvəlki

dövrdən fərqli olaraq, Azərbaycana qoyulan sərmayənin böyük hissəsi daxili mənbələr - həm dövlət, həm özəl sektor hesabına formalaşır. Azərbaycanda investisiya mühiti çox müsbətdir.

Bütövlükdə ölkəmizdə bazar iqtisadiyyatına keçid dövrü tamamilə başa çatmışdır. Biz bu il müstəqilliyimizin 20-ci ildönümünü qeyd edəcəyik. İyirmi il əvvəl Azərbaycanda özəl sektorda fəaliyyət göstərən şirkətlər yox idi, ümumi daxili məhsulun yüz faizini dövlət qurumları təmin edirdi.

Hazırda ümumi daxili məhsulun 80 faizi özəl sektorda formalaşır, genişmiqyaslı özəlləşdirmə siyasəti aparılmışdır. Özəl sektorun inkişafı üçün dövlətimiz də çox böyük işlər görür, həm yardımlar edir, həm də ki, siyasi dəstək də yüksək səviyyədədir. Yəni, Azərbaycan iqtisadiyyatı bazar prinsipləri ilə tənzimlənir. Bu, azad iqtisadiyyatdır, dünyaya açıq iqtisadiyyatdır və deyə bilərəm ki, artıq güclü iqtisadiyyatdır.

Son 7 il ərzində Azərbaycanda ümumi daxili məhsul təxminən üç dəfə artmışdır. Sənaye istehsalı da təxminən üç dəfə artmışdır, yüz minlərlə yeni iş yeri açılmışdır və infrastruktur layihələrinə böyük sərmayə qoyulmuşdur. Təkcə keçən il ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulmuşdur ki, bu da bizə imkan verir, biz ölkə qarşısında duran əsas vəzifələri uğurla icra edək.

Hətta dünyanı bürümüş maliyyə və iqtisadi böhran Azərbaycana o qədər də böyük təsir göstərməmişdir. Ən çətin böhranlı illərdə - 2-3 il bundan əvvəl iqtisadiyyatımız artım templərini itirməmişdir. Biz indi iqtisadiyyatın qeyri-neft sektoruna daha çox üstünlük veririk. Bizim prioritetimiz bundan ibarətdir və ölkə iqtisadiyyatının enerji amilindən asılılığını azaltmaq üçün konkret tədbirlər görülür. Qeyri-neft sektorunun inkişafı üçün Avstriya şirkətləri Azərbaycanda bizimlə bərabər yaxşı işləyirlər və gələcəkdə də işləyə bilərlər. Ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı konkret tədbirlər görülür.

Mənə verilən məlumata görə, bugünkü biznes forum çox böyük maraq doğurur. Mən çox şadam ki, Avstriyadan bu forumda iştirak etmək üçün çoxsaylı iş adamları gəlmişlər və onlar yerli həmkarlarla birgə işləyirlər. Mənə verilən məlumata görə, forum çərçivəsində üç sənəd imzalanmışdır. Bu da çox gözəl göstəricidir. Bu gün yaranan təmaslar, hər iki ölkə iqtisadiyyatı haqqında səslənən təqdimatlar və təkliflər bizə daha da yaxşı şəraitin yaradılmasına imkan verəcəkdir. Bəzi hallarda ticarət dövriyyəsinin o qədər də yüksək səviyyədə olmamasının səbəbi də ondadır ki, məlumat qıtlığı vardır. Avstriya şirkətləri Azərbaycanın imkanlarını, Azərbaycan şirkətləri isə Avstriyanın imkanlarını bəlkə də yaxından bilmirlər. Belə forumların keçirilməsi bu boşluğu da dolduracaqdır.

Biz bu gün, eyni zamanda, enerji əməkdaşlığı haqqında geniş danışdıq. Enerji siyasəti Azərbaycan üçün çox önəmlidir. İndiki mərhələdə enerji siyasətimiz və strategiyamız təkcə Azərbaycan üçün deyil, bölgə üçün, Avropa üçün də əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə etibarlı tərəfdaş kimi özünü artıq göstəribdir. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə bəyannamə qəbul edilmişdir, işçi qrupu yaradılmışdır, işlər başlamışdır. Azərbaycan zəngin neft-qaz ehtiyatlarına malik olan ölkə kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynayır və əminəm ki, gələcəkdə daha da fəal rol oynayacaqdır. Çünki biz bu gün cənab Prezidentlə görüş əsnasında belə bir fikir ifadə etdik ki, bu, hər tərəfi gücləndirən və hər tərəfin maraqlarına cavab verən əməkdaşlıqdır.

Biz yeni, böyük qanunlarla tənzimlənən bazara çıxmış olacağıq, Avropa istehlakçıları isə yeni alternativ mənbədən - etibarlı tərəfdaşdan əlavə enerji resursları alacaqlar. Deyə bilərəm ki, bu sahədə Avropa ölkələri ilə Azərbaycan arasında əməkdaşlığın artıq gözəl tarixi vardır. Bir neçə ildir ki, Azərbaycan Avropa ölkələrinə böyük həcmdə neft ixracı ilə məşğuldur. Bir sıra Avropa ölkələrinin daxili enerji balansında Azərbaycan nefti bəzi hallarda 20, bəzi hallarda 30-40 faiz təşkil edir. Yəni, bu təcrübə var, əməkdaşlıq da vardır. Deməli, bizim ixracımızın 50 faizdən yuxarı hissəsi Avropa İttifaqı ölkələrinə nəql edilir. Ona görə biz qaz sahəsində artıq yaradılmış çərçivələr daxilində uğurlu əməkdaşlıq edə bilərik. Şübhəsiz, bu mövzu da bu gün fikir mübadiləsi zamanı geniş işıqlandırılmışdır.

Mən bir daha demək istəyirəm ki, Avstriya-Azərbaycan əlaqələri son illər ərzində çox sürətlə inkişaf edir. Bu əlaqələr bütün sahələri əhatə edir. Yəqin ki, bu gün forumda, əlbəttə, daha çox iqtisadi əlaqələrdən söhbət aparılıb və bu əlaqələr nə qədər güclü olsa bizim siyasi münasibətlərimiz də o qədər güclü olacaqdır.

Mən bir daha, cənab Prezident, Sizi və forumun iştirakçılarını salamlayıram, forumun işinə uğurlar arzulayıram. Sağ olun!

* * *

Avstriya Prezidenti Haynts FİŞER biznes-forumda çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də istəyirəm ki, bu səfəri həyata keçirməyə dəvətə görə təşəkkürümü bildirim. Səfərimin çox əla təşkilinə görə təşəkkürümü bildirirəm. Bu, onu göstərir ki, həm də Siz bu gün qonaqlar üçün nə qədər vaxt ayırmısınız. Bu gün xeyli görüşlərimiz oldu. Bunların hamısı səfərin uğurlu keçməsinin göstəricisidir. Mən çox təşəkkür edirəm ki, Siz həm mətbuat konfransında, həm də indi bu biznes-forumda bizim apardığımız söhbətlərin məzmununu yüksək qiymətləndirirsiniz, buna müsbət münasibət bildirirsiniz.

Biz çox müxtəlif mövzular haqqında danışmışıq. Biz bunu hiss etmişik, duymuşuq ki, Siz bizim arqumentlərimiz, baxışlarımız üçün açıqsınız. Söhbət məhz qazla bağlı məsələlərdən gedir. Siz, eləcə də bizim "Nabukko"ya aid mövqeyimizə açıqsınız. Zənnimcə, biz növbəti mərhələdə atacağımız addımlara daha çox aydınlıq gətirməliyik ki, hər iki tərəf üçün sərfəli vəziyyət yaransın, bunun həm Azərbaycana, həm Avstriyaya, həm də Avropaya xeyri olsun. Bunun uğurla həyata keçirilməsi üçün hansı addımların atılmasının lazım olması barədə biz bu gün danışıqlar aparmışıq.

Siz həm də Avstriya şirkətləri haqqında çox müsbət fikir bildirdiniz. Bu, həm özəl iqtisadiyyatlarımız, həm də ölkələrimizin siyasi rəhbərliyi üçün çox yaxşıdır. "Strabag", əlbəttə, bütün Avropada çox tanınmış bir şirkətdir, məşhur bir brenddir. Ən azı Avropanın ikinci ən böyük şirkətidir. O, böyük bir alman şirkətini almışdır. Adətən, alman şirkətləri Avstriya şirkətlərini alır. Bu halda isə Avstriyanın "Strabag" şirkəti böyük bir alman şirkətini almış və bu işi çox uğurla həyata keçirmişdir. Mən Rusiyaya, yaxud başqa bir ölkəyə gedərkən görürəm ki, "Strabag" orada fəaliyyət göstərir. "Strabag" Soçidə tikinti işləri həyata keçirir, orada bəzi yubanma halları olsa da, işin sürəti artırılır ki, ob-

yekt vaxtında hazır olsun. Yaxud da ki, Çinə gedəndə orada da "Strabag"ın işini görürəm. Yaxın Şərqdə yenə "Strabag"ı görürəm. Təbii ki, bu şirkət Qərbi Avropada daha çox tanınır.

Başqa şirkətləri, xüsusən Sizin adını çəkdiyiniz OMV şirkətinin fəaliyyətini də qeyd etmək istəyirəm. Hətta qısqanıram ki, OMV-nin baş direktoru Sizin yanınızda daha çox olub, nəinki mən. Buna görə də bir az qısqanıram. Amma mən də çalışacağam ki, Sizinlə onun qədər görüşüm. Biz paytaxtlarımızdan kənarda da görüşlər keçirə bilirik. Məsələn, başqa ölkələrdə də görüşməyə imkanımız vardır. Bununla da şansım artır.

Siz Qız qalasında işləyən Avstriya şirkətini xatırlatdınız. Qız qalası bənzəri olmayan milli abidədir. Həmin o Avstriya şirkətinin rəhbəri iki həftə Vyanada, iki həftə Qız qalasında işləyir. Orada - Vyanada Stephansdomda işləyir. O da Vyananın ən böyük kilsəsidir. Bizim məşhur tarixi abidəmizdir. Həmin abidə XIV əsrdə tikilmişdir. Yəni, həm biz, həm də siz ürəyimiz hesab etdiyimiz abidələri o şirkətə etibar edirik.

Cənab Prezident, Siz, həmçinin iqtisadi münasibətlərimizə aid rəqəmləri xatırlatdınız. Onlar çox müsbət rəqəmlərdir. Bu forumun çoxsaylı iştirakçıları da onun göstəricisidir, aydın bir siqnaldır ki, ötən illərdə qarşılıqlı maraq çox artıb. Azərbaycana Avstriya ixracı 70 faiz artıb. Bizim iqtisadiyyatla məşğul olan nümayəndələrimiz hər halda bunu belə qiymətləndirir. Azərbaycandan da Avstriyaya ixracda xeyli artım olub. Son illərdə ixrac iki dəfə artıb.

Azərbaycan bu gün Avstriyanın Cənubi Qafqazda ən vacib ticarət tərəfdaşıdır. Əlbəttə, burada qaz da çox böyük əhəmiyyət kəsb edir. Qaz enerji daşıyıcısıdır və bu, növbəti onilliklərdə Avropa üçün daha da əhəmiyyətli olacaqdır. Avstriya atom enerjisindən könüllü olaraq imtina etmiş ölkələrdəndir. Almaniya da, İsveçrə də atom elektrik stansiyalarından imtina edib. Yəni, atom enerjisi Avropada azalmağa doğru gedir. Deməli, Avropada nüvə enerjisindən istifadə azalacaq və təbii qazın istehlakı artacaqdır. Ona görə, bizə ədalətli müqavilələr lazımdır ki, gələcəkdə artan tələbatı ödəyə bilək.

Biz "Nabukko"nu da müzakirə etmişik. Biz danışıqlar zamanı bununla bağlı yaxşı xəbərlər aldığımızı bildirdik. İqtisadiyyatın bizi maraqlandıran başqa sahələri də vardır. Bu, turizmdir. Turizm Avstriyada çox böyük rol oynayır. Bu gün mən Almaniya ilə Avstriya arasında iqtisadi mübadilə haqqında bir rəqəm dedim və bu Prezidenti təəccübləndirdi. Avstriyanın cəmi iki şəhərinə - Tirola və Salzburqa gələn alman turistlərin sayı Yunanıstana gedən bütün turistlərin sayından xeyli çoxdur. Avstriyanın iki şəhəri daha çox turist cəlb edir, nəinki Yunanıstan. Çünki Avstriya turizm baxımından çox cəlbedicidir.

Bununla əlaqədar Avstriyada otel tikintisi də çox sürətlə inkişaf edib. Avstriyanın iri metallurgiya müəssisələrindən biri ölkənin ən böyük xəstəxana binasını tikmişdir. Bu, bir neçə yüz milyonluq layihədir. Həmin müəssisə bu sahədə çox böyük təcrübə qazanıb. Həmin şirkət Avropada xəstəxanaların texniki təchizatı üzrə çox geniş fəaliyyət göstərir. O, həm müasir tibbi avadanlığın tədarükü, həm də işçi heyətin hazırlığı ilə məşğul olur.

Mən Avropanın bir çox ölkələrinin prezidentlərini tanıyıram ki, gəlib Avstriyada müalicə olunurlar. Şusteri tanıyırsınız, onunla görüşmüsünüz. Maraqlansanız, o, mütləq təs-

diq edəcəkdir ki, Elsburqdakı xəstəxananın sayəsində sağlamlığını bərpa edib. Onun beynində cərrahiyyə əməliyyatı aparılmışdır. Başqa yerdə əməliyyat oluna bilmirdi. Bu əməliyyat yalnız Elsburqda həyata keçirilmişdir. Başqalarının adını çəkmirəm, onlar da Vyanada və ya bizim başqa şəhərlərimizdə müayinədən keçiblər.

Xanımlar və cənablar, deyəsən, mən çox danışdım, amma müsbət şeylərdən danışdım. Əlavə etməliyəm ki, bu, heç də o demək deyildir ki, biz artıq razıyıq və bununla da kifayətlənmək istəyirik. Bu, heç də belə deyildir. Daha yaxşı olan yaxşının düşmənidir. Yəni biz daha böyük potensial, artım üçün geniş imkanlar görürük və istəyirik ki, bunlarla da məşğul olaq.

Avstriya elə bir ölkədir ki, çox əla mövqeyi vardır. Əvvəllər, necə deyərlər, Berlin divarlarının mövcudluğu dövründə, yəni Avropada "dəmir pərdə" olanda mövqeyimiz elə də yaxşı deyildi. Biz kənarda, çox pis vəziyyətdə idik. Vyanadan cəmi 50-60 kilometr məsafədə yerləşən Macarıstan Şərqlə Qərbi ayıran sərhəd idi. İndi isə bu maneələr yoxdur, Avstriya çox əlverişli mövqedədir. Biz indi Avropanın ürəyində yerləşirik. Bu, bizim üçün, inkişafımız üçün çox yaxşıdır. Biz Vyanadan Bratislavaya maşınla 40 dəqiqəyə gedib çıxa bilirik, bu məsafə cəmi 50 kilometrdir. Vyanadan Çexiya sərhədinə bir saat, Budapeştə iki saatdır. Bizim yerimiz indi çox yaxşıdır. Şvexart hava limanından bütün beynəlxalq hava limanlarına birbaşa əlaqələr vardır. Bu da Vyananı, Avstriyanı cəlbedici edən əsas faktlardan biridir.

Avstriyada çox güclü sosial sabitlik vardır. Adambaşına düşən ümumi daxili məhsul 32 min Avrodur. Bu, Almaniyada, Fransada, İsveçdə, İtaliyadakı müvafiq göstəricidən çoxdur. Bu, çox yaxşı bir göstəricidir. Lüksemburq, Lixtenşteyn bizdən irəlidə olan ölkələrdir. Onların xüsusi imtiyazları vardır. Lixtenştcynin 30 min əhalisi vardır. Avstriyadan 50 min nəfər oraya gedib gəlir. Bankla bağlı orada xüsusi imtiyazlar vardır. Amma o ölkələrlə ki, biz daha yaxşı müqayisə oluna bilərik, orada birmənalı olaraq üstün mövqedəyik. Buna da diqqəti cəlb etmək istəyirəm.

Bizim dövlət idarəçiliyimiz də yaxşıdır. Yəni Avstriya yaxşı idarə olunan bir dövlətdir, cəlbedicidir, təhlükəsizdir. Bir çox beynəlxalq təşkilatlar öz mərkəzlərini və ofislərini bizim ölkədə qururlar. İqtisadi baxımdan da güclü bir dövlətik. Vyananın burqomistrinin vitse-spikeri iki həftə əvvəl Bakıda idi. Mən istərdim ki, belə əlaqələr, səfərlər qarşılıqlı olsun.

Avstriyanı reklam etmək çox uzun çəkər. Mən çox qısa bir hissəni - danışa biləcəklərimi söylədim. Bununla da yekunlaşdırıram.

Sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Oktyabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan Avstriyanın Federal Prezidenti Haynts Fişerin və xanımı Margit Fişerin şərəfinə rəsmi ziyafət verilmişdir.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev Avstriyanın dövlət başçısının Azərbaycana ilk səfərinin tarixi xarakter daşıdığını və ölkələrimiz arasındakı münasibətlərin sə-

viyyəsini əks etdirdiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, bu səfər münasibətlərin inkişaf perspektivlərini müəyyən etməyə imkan verəcəkdir.

"Biz Avstriyaya Avropa İttifaqı ilə Azərbaycan arasında inteqrasiya prosesinə verdiyi dəstəyə görə minnətdarıq", - deyən dövlətimizin başçısı danışıqlar zamanı enerji təhlükəsizliyi və enerji siyasətinin də müzakirə edildiyini diqqətə çatdırdı.

"Biz müzakirə etdiyimiz bütün məsələlər ətrafında qarşılıqlı anlaşma əldə etdik", - deyən Prezident İlham ƏLİYEV Avstriya-Azərbaycan biznes-forumunun əhəmiyyətindən də danışdı və bu forumun iqtisadi əməkdaşlığa töhfə verəcəyini vurğulayaraq dedi:

- Avstriya şirkətləri bir neçə ildir ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. İnfrastruktur, inşaat, mədəniyyət, yenidənqurma, bərpa və digər sahələrlə bağlı çox mühüm layihələr həyata keçirilir. Əminəm ki, Sizin səfəriniz nəticəsində bu siyahı daha da genişlənəcəkdir.

Buraya gəlməzdən əvvəl biz cənab Prezidentlə birlikdə Bakının mərkəzində dahi bəstəkar və dünyanın böyük şəxsiyyəti Motsartın möhtəşəm abidəsinin və gözəl parkın açılışında iştirak etdik. Bu, dahi Motsartın xatirəsinə ehtiramımızın əlamətidir. Eyni zamanda, açılış mərasimində dediyim kimi, bu, Azərbaycanda Avstriyanın bir parçası olacaqdır.

Cənab Prezident, mən çox şadam ki, bu qısa səfər çərçivəsində nələri edə bildiksə onların güclü əsasları vardır. Bunlar münasibətlərimizin gələcək inkişafına öz təsirini göstərəcəkdir.

Prezident İlham Əliyev Avstriya-Azərbaycan dostluğunun bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Avstriyanın Federal Prezidenti Haynts FİŞER çıxış edərək dedi:

- Cənab Prezident, xanım Əliyeva!

Zati-alilər, hörmətli Baş nazir, spiker, hörmətli qonaqlar!

Bu, həqiqətdir ki, çox maraqlı və olduqca məhsuldar səfər artıq sona çatır. Bu, çox təqdirəlayiq bir səfər idi. Bu, mənim səmimi arzumdur və cənab Prezident, Sizə minnətdarlıq etmək istərdim.

Haynts Fişer danışıqlar zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, enerji məsələsinin, mədəniyyət sahəsində əlaqələrin müzakirə olunduğunu dedi. Dahi bəstəkar Motsartın Bakıda abidəsinin ucaldılmasına görə minnətdarlığını bildirən Avstriyanın dövlət başçısı qeyd etdi ki, bu, ölkələrimiz arasında formalaşan münasibətlərin bir rəmzidir.

Haynts Fişer göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident, əziz İlham!

Bu qədər zəngin və uğurlu səfərdən sonra Bakıda mənə göstərilmiş səmimi və əla qə-

bula görə Sizə ən dərin minnətdarlığımı bildirmək istəyirəm.

2009-cu ilin dekabrında Parisə səfəriniz zamanı Sizə bildirdiyim kimi, mən ölkənizin iqtisadi uğurunun bir sıra aspektlərini və rəhbərliyiniz altında Bakıda həyata keçirilmiş dəyişiklikləri öz gözlərimlə görmək məqsədilə Azərbaycana səfər etməyimi arzulayırdım. Vaxtımın məhdud olmasına baxmayaraq, gördüklərim məndə böyük təəssürat yaratdı.

Mən, həmçinin Bakıda Fransız Liseyinin yaradılmasına verdiyiniz həlledici dəstəyə görə Sizə, eləcə də xanımınıza təşəkkürümü bildirirəm. Bu layihə həm Azərbaycanda yaşayan və övladlarına öz dili və mədəniyyəti çərçivəsində təhsil vermək istəyən fransız icması, həm də ölkənizə xidmət etmək naminə fəal həyata başlamazdan öncə universitetlərimizə daxil olmağı arzulayan gənc azərbaycanlılar üçün faydalı olacaqdır.

Mən ölkələrimiz arasında artıq intensiv xarakter daşıyan münasibətləri gücləndirəcək strateji tərəfdaşlığın qurulması təklifimi təkrar edirəm.

Gələcək səfərlərinizdən birində Parisdə Sizi yenidən qəbul etmək ümidi ilə Sizə bir daha öz minnətdarlığımı bildirir, ən dərin hörmət və ehtiramımı, eləcə də dostluq hisslərimi qəbul etməyinizi xahiş edirəm.

Nikola Sarkozi

Fransa Respublikasının Prezidenti

Paris, 12 oktyabr 2011-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İSMET YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri İsmet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyə Respublikasının milli müdafiə naziri İsmet Yılmazı yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı prezidentlərin və baş nazirlərin ilk rəsmi səfərlərini qardaş ölkəyə etdiklərini vurğulayaraq bu ənənənin nazirlər səviyyəsində də davam etməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə, xüsusilə də müdafiə sahəsində uğurla inkişaf etdiyini qeyd etdi. Dövlətimizin başçısı Türkiyə Respublikasının milli müdafiə naziri İsmet Yılmazın Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini vurğuladı.

Türkiyə Respublikasının milli müdafiə naziri İsmet Yılmaz Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə və Azərbaycan xalqına salamlarını və ehtiramını çatdırdı. İsmet Yılmaz nazir təyin olunduqdan sonra ilk rəsmi səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu bildirdi. Ulu öndər Heydər Əliyevin dediyi "bir millət, iki dövlət" kəlamına toxunan türkiyəli nazir bunun artıq bütün dünyada qəbul olunduğunu vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını qardaş ölkənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ ATLANTİK ŞURASININ PREZİDENTİ FREDERİK KEMPİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də ABŞ Atlantik Şurasının prezidenti Frederik Kempin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Piter Beytmanın etimadnaməsini qəbul etmişdir.

Səfir Piter Beytman fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Piter Beytman etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə sürətlə inkişaf etdiyini dedi. Britaniya şirkətlərinin Azərbaycanın enerji sektorunda, biznes və mədəniyyət sahələrindəki fəaliyyətinə toxunan Prezident İlham Əliyev əlaqələrimizin yaxşı ənənəyə malik olduğunu və bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Diplomat Piter Beytman Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ulyahəzrət II Elizabetin Azərbaycan Prezidentinin, onun ailəsinin və Azərbaycan xalqının rifahı naminə ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfir kimi fəaliyyət göstərməsindən məmnunluğunu bildirdi. Piter Beytman Azərbaycan ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ulyahəzrət II Elizabetlə bir neçə il bundan əvvəlki görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ulyahəzrət II Elizabetin ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da ən xoş arzularını Kraliçaya çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ, SENATOR XANIM ROSSANA BOLDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, senator xanım Rossana Boldinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və bütün sahələrdə yaxşı nəticələrin olduğunu dedi. İtaliyaya səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Azərbaycan ilə İtaliya arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. İqtisadi sahədə İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu deyən dövlətimizin başçısı İtaliya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini vurğuladı. Parlamentlərarası əlaqələrin yaxşı tarixə malik olduğunu deyən Prezident İlham Əliyev İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, senator xanım Rossana Boldinin ölkəmizə səfərinin bu əlaqələrin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.

İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, senator xanım Rossana Boldi başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin dövlət başçısı ilə görüşdən başlamasından məmnunluğunu bildirdi. Xanım Rossana Boldi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, ikitərəfli münasibətlərimizin genişlənməsində parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğuladı.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DİYANƏT İŞLƏRİ BAŞQANI MEHMET GÖRMEZİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Türkiyə Respublikasının Diyanət İşləri Başqanı Mehmet Görmezin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Dini-mənəvi dəyərlərlə bağlı ölkəmizdə bir sıra beynəlxalq tədbirlərin, o cümlədən ötən il Dünya Dini Liderlərinin Bakı Sammitinin yüksək səviyyədə keçirildiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın genişlənməsində bu cür tədbirlərin önəmini vurğuladı. Prezident İlham Əliyev Türkiyə Respublikasının Diyanət İşləri Başqanı Mehmet Görmezin Azərbaycana səfərinin bu sahədə əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.

Diyanət İşləri Başqanı Mehmet Görmez Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Sonuncu dəfə beş il əvvəl Bakıya səfər etdiyini deyən qonaq ötən dövr ərzində ölkəmizdə çox yüksək inkişafın şahidi olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN "ƏL-CƏZİRƏ" TELEVİZİYA KANALINA MÜSAHİBƏSİ

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də "Əl-Cəzirə" televiziya kanalının müxbiri Devid Frosta müsahibə vermişdir.

AzərTAc həmin müsahibənin mətnini təqdim edir.

- Cənab Prezident, Sizinlə burada, Bakıda olmaqdan çox məmnunam. Sovetlər İttifaqının dağılmasından 20 il ötür. Bu 20 il ərzində Azərbaycanda hansı dəyişikliklər baş vermişdir? Sovet dövründən sonra həyat şəraiti nə dərəcədə dəyişib?

- Siz dəyişiklikləri hər yerdə görə bilərsiniz. Ən əhəmiyyətlisi isə odur ki, xalqımız indi azad və müstəqildir. Xalqımız böyük tarixə, mədəniyyətə və ənənələrə malikdir. Lakin biz əsrlər boyu müstəqillikdən məhrum olmuşuq. Biz başqa ölkələrin, imperiyaların tərkibində olmuşuq, əldə etdiyimiz ən böyük nemət müstəqilliyimizdir. İndi biz azadıq, gələcəyimiz öz əlimizdə - Azərbaycan xalqının əlindədir. Digər əhəmiyyətli dəyişiklik isə indi Azərbaycanın demokratik sistemə və əvvəlki vaxtlardan fərqli olaraq bazar iqtisadiyyatına malik olmasıdır. Biz əvvəllər azad və müstəqil olmamaqla yanaşı, eyni zamanda, xalqın çox məhdud ideoloji çərçivələrdə yaşamağa məcbur olduğu, özəl mülkiyyətin fəaliyyətinə icazə verilmədiyi avtoritar və totalitar sistemdə yaşamışıq. Biz iqtisadiyyatımızı tamamilə transformasiya edə bildik və indi ÜDM-in 80 faizi özəl sektorun payına düşür. İyirmi il bundan əvvəl bu rəqəm sıfıra bərabər idi. Paytaxtın, regionların inkişafı ilə bağlı bir çox digər dəyişiklikləri də görə bilərsiniz. Enerji siyasəti Azərbaycanı tərəqqiyə aparır. İndi bizim malik olduğumuz hər şey - təbii sərvətlər, sənaye potensialımız Azərbaycan xalqının əlindədir və xalqımızın gələcəyinə xidmət edir.

- Demokratiya ilə bağlı. Mən ABŞ Prezidentinin Azərbaycandakı gənc demokratiya ilə bağlı söhbətini dinləmişəm. Siz mükəmməl demokratiya istiqamətində nə qədər irəli getmisiniz? Siz gənc demokratiyaya malik olan bir ölkəsiniz, insan hüquqları və ya hər hansı başqa məsələlərlə bağlı nələri edəcəksiniz, nələri etmək niyyətindəsiniz? Gənc demokratiyadan mükəmməl demokratiyaya necə keçirsiniz?

- Düşünürəm ki, son 20 ildə mühüm nailiyyətlər əldə etmişik. Başlıcası və ən əhəmiyyətlisi Azərbaycanın inkişafla bağlı strateji seçimi olmuşdur. Biz müstəqilliyimizi əldə edən zaman, xüsusilə də müstəqilliyimizin ilk illərində, burada vəziyyət indikindən tamamilə fərqli idi. Azərbaycanın özünü necə transformasiya etməsi, xalqın hansı sistemi qəbul edəcəyi böyük sual idi. Demokratik dövlətin qurulması ilə bağlı strateji seçim edildi. O vaxtdan bəri görülən bütün işlər həmin strateji seçimin nəticəsidir.

Bu gün bizdə demokratik təsisatlar, azad mətbuat mövcuddur, internetdən istifadə sərbəstdir və məlumdur ki, heç də hər ölkədə internetə sərbəst qoşulma imkanı yoxdur. Azərbaycanda əhalinin 50 faizdən çoxu internetdən istifadə edir. Biz müxtəlif beynəlxalq təşkilatlara qoşulmuşuq, məsələn, 10 ildir ki, əsas gündəliyi insan hüquqları və demokratiya məsələləri olan Avropa Şurasının üzvüyük. Həmçinin Azərbaycan könüllü

şəkildə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramına qoşulmuşdur. Bir daha qeyd etmək istərdim ki, biz bunu könüllü şəkildə etdik. Beləliklə, bütün bunlar bizim strateji seçimimizin göstəricisidir. Biz iqtisadiyyatımızı və həmçinin siyasi sistemimizi gücləndiririk, məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir. Güclü demokratik təsisatlar olmadan bu mümkün deyildir. Ona görə də Azərbaycanda siyasi, demokratik və iqtisadi islahatlar eyni vaxtda həyata keçirilir. Biz onu da başa düşürük ki, iqtisadi inkişaf olmadan demokratik nailiyyətlər az səmərəli olar. Buna görə də, biz həyat səviyyəsinin daha da yüksəldilməsi, yoxsulluq və işsizliyin aradan qaldırılması, güclü orta təbəqənin, güclü özəl sektorun yaradılmasına böyük önəm veririk. Bu da, öz növbəsində iqtisadi azadlığa və nəhayət, siyasi azadlığa gətirib çıxarır.

- Deməli, siyasi azadlıq indi qeyd etdiklərinizin "əlavə məhsulu"dur?

- Bu, bir tərəfdən iqtisadi inkişafın nəticəsidir, digər tərəfdən isə, siyasi azadlıqlar olmadan iqtisadi artıma nail olmaq mümkün deyildir. Bu, xüsusilə, müstəqilliyinin ilk illərində əsasən xarici investisiyalar hesabına inkişaf edən və sizin qeyd etdiyiniz kimi, gənc demokratiyaya malik, nisbətən gənc müstəqil dövlət olan Azərbaycana aiddir. Əlbəttə ki, xarici sərmayələri cəlb etmək üçün əlverişli investisiya mühitinə, möhkəm hüquqi bazaya, qanunun aliliyinə malik olmaq lazımdır. Əks təqdirdə kimsə gəlib sərmayə yatırmaz. Bu, bizə iqtisadi potensialımızı inkişaf etdirməyə və demokratik dövlət qurmağımıza kömək etdi.

- 20 il bundan qabaqkı tarixi dəyişikliyə gəldikdə, bu, yəqin ki, 1991-ci ilin avqustunda Qorbaçovu devirmək üçün edilmiş uğursuz cəhdlə başladı. Bu hadisə, həqiqətən Azərbaycanın azadlığına aparırdı, elə deyilmi?

- Əslində bütün keçmiş Sovet İttifaqı ölkələri bu tarixi prosesin nəticəsində müstəqil oldular. Bəziləri deyir ki, müstəqillik uğrunda güclü hərəkat olmuşdu. Bəzi respublikalarda güclü hərəkat olmuşdu, bəzilərində isə yox. Lakin buna baxmayaraq, bütün respublikalar müstəqillik əldə etdilər. Beləliklə, bu, obyektiv bir proses idi və Sovetlər İttifaqının süqutu nəticəsində biz müstəqil olduq. Lakin o vaxt üçün ən əhəmiyyətli olan bu deyildi. Ən əhəmiyyətlisi, müstəqilliyi qoruyub saxlamaq idi. Çünki Azərbaycanın keçmişində belə bir təcrübə olmuşdu. 1917-ci ildə Rusiya imperiyasının dağılmasından, bolşevik inqilabından sonra Azərbaycan müstəqil oldu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradıldı. Lakin bu, yalnız iki il davam etdi. Sonra bu müstəqillik əlimizdən alındı. Eyni hal 1991-ci ildə baş verdi. Sovetlər İttifaqının süqutu nəticəsində biz müstəqil olduq, lakin iki il ərzində vətəndaş müharibəsi, Ermənistanın ölkəmizə təcavüzü, ermənilər tərəfindən torpaqlarımızın işğalı nəticəsində Azərbaycanda çox xaotik vəziyyət əmələ gəldi. Beləliklə, bizim müstəqilliyimiz yenidən təhlükə qarşısında idi. Xalqımız müstəqilliyimizi qorumaq üçün böyük müdriklik və cəsarət göstərdi. İyirmi il keçəndən sonra, bu gün Azərbaycan müstəqil və azad ölkəyə transformasiya olmağın yaxşı nümunəsidir.

- Sizin atanız iki dəfə yeni Azərbaycanın lideri seçildi. Bir Prezident kimi atanızın irsi barədə nə deyə bilərsiniz?

- Xalqımızın ümummilli lideri ölkəmizin ən çətin vaxtında hakimiyyətə gəldi. Bu, müstəqilliyimizi əldə etdikdən iki il sonra - 1993-cü ildə, vətəndaş müharibəsi getdiyi bir dövrdə oldu. Azərbaycan çox ağır vəziyyətdə idi. Ölkədə iqtisadi və siyasi böhran

hökm sürürdü, torpaqlarımız Ermənistan tərəfindən işğal olunmuşdu və perspektivlərimiz çox qaranlıq idi. Beləliklə, xalqımızın ümummilli lideri Heydər Əliyev prezident seçildikdən sonra ölkədə vəziyyətin sabitləşdirilməsinə və vətəndaş həmrəyliyinə nail oldu. Sonra onun rəhbərliyi altında ölkədə siyasi və iqtisadi islahatlar həyata keçirilməyə başlanıldı və bir neçə ildən sonra iqtisadiyyatımız inkişaf etməyə başladı. Beləliklə, siz Heydər Əliyev irsini hər yerdə görə bilərsiniz. Elə bugünkü Azərbaycan onun irsidir.

- Cənab Prezident, mənə elə gəlir ki, ən əhəmiyyətli və eyni zamanda, ən incə məqamlardan biri də budur ki, coğrafi baxımdan mərkəzdə yerləşdiyinizdən Sizin həm Şərqlə, həm də Qərblə əlaqələrinizin davam etdirilməsi önəmlidir.

- Əsrlər boyu Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan olmuşdur və bu gün həm Şərqlə, həm Qərblə əməkdaşlıq siyasətimiz də, düşünürəm ki, xalqımızın çoxəsrlik adət-ənənələrinin və ölkəmizin coğrafi yerləşməsinin nəticəsidir. Bu siyasəti həyata keçirmək bizim üçün çətin deyildir. Çünki, əgər sizin öz mövqeyiniz varsa, müstəqil siyasət yürüdürsünüzsə və əgər siz etibarlı tərəfdaşsınızsa, xarici siyasət təşəbbüslərini həyata keçirmək çox asan olur. Deyə bilərəm ki, bu gün bizim müsəlman dünyası ölkələri ilə çox yaxşı münasibətlərimiz vardır. Biz müsəlman dünyasının bir hissəsiyik. Eyni zamanda, Avropa ölkələri ilə də yüksək səviyyədə əlaqələrimiz qurulub, biz Avropa təsisatları ilə fəal əməkdaşlıq həyata keçiririk. Azərbaycan o nadir ölkələrdəndir ki, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlığı Təşkilatının üzvüdür.

- Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinə toxunmaq istərdim. Siz yaxın perspektivdə bu münaqişənin sülh yolu ilə nizama salınmasını mümkün hesab edirsinizmi? Yaxud da Azərbaycan ilə Ermənistan arasında mövcud durum müharibəyə apara bilərmi?

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün ən böyük təhlükədir. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. "Qarabağ" sözünün özü Azərbaycan sözüdür. 1990-cı illərin əvvəllərində təkcə Dağlıq Qarabağdan deyil, eləcə də ermənilərin heç zaman yaşamadıqları Dağlıq Qarabağ ətrafındakı 7 rayondan bütün azərbaycanlılar qovuldular. Ümumilikdə bizim 1 milyon qaçqın və məcburi köçkünümüz vardır. Dağlıq Qarabağ tarixi nöqteyi-nəzərdən bizim torpağımızdır, hüquqi nöqteyi-nəzərdən də beynəlxalq birlik Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi qəbul edir - BMT-nin Təhlükəsizlik Şurası tərəfindən erməni işğalçı qoşunlarının Azərbaycanın Dağlıq Qarabağ ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edilmişdir. Digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən də müvafiq qərar və qətnamələr qəbul edilmişdir.

Biz münaqişənin hələ də sülh yolu ilə nizama salınacağına ümid edirik. Münaqişənin həll olunması beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, erməni silahlı qüvvələri bütün işğal olunmuş ərazilərimizdən çıxarılmalı, azərbaycanlıların öz ata-baba yurdlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmaq hüququ olmalıdır. Dağlıq Qarabağa muxtariyyət statusu verilə bilər. Dünyada və Avropada muxtariyyətlərin yaxşı nümunələri vardır. Təmas xəttindəki vəziyyətə gəldikdə isə, burada vəziyyət çox kövrəkdir. Faktiki olaraq sülh yoxdur.

- Sülh əldə olunmayıb?

- Xeyr, atəşkəs sazişinin 1994-cü ildə əldə edilməsinə baxmayaraq, hələ də sülhə nail olunmayıb, sülh yoxdur. Buna görə də heç kim təmas xəttində hər hansı bir ssenarini istisna edə bilməz. Bu baxımdan münaqişə nə qədər tez həll edilərsə, bu, hamı üçün, o cümlədən Ermənistan üçün də bir o qədər yaxşı olar.

- Oxuduğum son məqaləyə görə, bu münaqişə nəticəsində 25 min insan həyatını itirmişdir.

- Müxtəlif rəqəmlər vardır, lakin hərbi əməliyyatlar zamanı əlbəttə ki, itkilər olmuşdur, müharibə dövründə bizdə 12-15 min insan həlak olmuş və itkin düşmüşdür. Ermənilər nə qədər itki veriblər, bunu onların özləri daha yaxşı bilirlər.

- Sizin də dediyiniz kimi, region baxımından, hazırda bölgənin ən təhlükəli məsələsi odur ki, Dağlıq Qarabağla bağlı vəziyyət necə olacaq?

- Düşünürəm ki, bu münaqişənin proqnozlaşdırılması mümkün olmadığından ən təhlükəli münaqişədir. Nəyin baş verəcəyini proqnozlaşdırmaq olmur. Azərbaycanın bütün beynəlxalq hüquq normalarına, o cümlədən BMT Nizamnaməsinə əsasən, öz ərazi bütövlüyünü istənilən vasitə ilə bərpa etmək üçün tam hüququ vardır. Elə ölkələr var ki, onlar özünün yerləşdiyi əsas ərazidən min kilometrlərlə uzaqda ərazi bütövlüklərini bərpa etmişlər. Dağlıq Qarabağ Azərbaycanın mərkəzində yerləşir. Dağlıq Qarabağın Ermənistan ilə heç zaman inzibati sərhədi olmayıb. Hətta Sovetlər dövründə bu ərazinin, - o zamanlar Dağlıq Qarabağ Muxtar Vilayəti adlanırdı, - Ermənistan ilə heç bir inzibati sərhədi yox idi. Dağlıq Qarabağın əhalisinin təqribən 30 faizi etnik azərbaycanlılar idi. Buna görə də bizim ərazi bütövlüyümüzü istənilən yolla bərpa etməyə tam hüququmuz vardır. Lakin biz bunu sülh yolu ilə etmək istəyirik. Demək olar, 20 ildir ki, beynəlxalq vasitəçilər heç bir nəticə olmadan bu məsələ ilə məşğuldurlar.

- Rusiyanın son zamanlar bizim azad ticarət zonası adlandırdığımız və bu əraziləri bir-birinə yaxınlaşdırmaq məqsədi daşıyan ideyasına münasibətiniz necədir? Siz bu ideyanı bəyənirsiniz, yoxsa buna əmin deyilsiniz?

- Bizim keçmiş sovet respublikalarının bir çoxu ilə azad ticarət sazişlərimiz var və bunlar özünü doğruldur. Bu baxımdan iqtisadi əlaqələrimiz üçün heç bir problem yoxdur. Bizim Rusiya ilə ticarət dövriyyəmiz sürətlə artır. İqtisadi əməkdaşlıq və qarşılıqlı sərmayələr güclü iqtisadi əlaqələr yaradılmasına kömək edir. Buna görə də bu yeni ideyaları və bunun nəyə aparacağını təhlil etmək indi mənim üçün çətindir. Lakin biz hər hansı potensial təşəbbüsü və ya potensial addımı qiymətləndirərkən, əlbəttə ki, onun iqtisadi cəhətdən cəlbediciliyinə baxırıq. Əgər bu, daha yaxşı iqtisadi əməkdaşlığa apararsa, əlbəttə, biz onu dəstəkləyərik. Biz həmişə o mahiyyəti əsas götürürük ki, bu, xalqımıza, ölkəmizə nə verəcək, iqtisadi maraqlarımıza necə xidmət edəcəkdir.

- Hər yerdə Putinin hakimiyyətə qayıdışı ehtimal olunur. Fikrinizcə, Putinin siyasəti davam edəcək, yoxsa tamamilə fərqli bir vəziyyət olacaqdır?

- Düşünürəm ki, bu, Azərbaycan üçün cənab Putinin siyasətinin davamı olacaqdır. Çünki 2003-cü ildən 2008-ci ilədək cənab Putin Prezident olduğu müddətdə biz onunla dəfələrlə görüşmüşük. O, Azərbaycana səfərlər edib, mən Moskvaya səfərlər etmişəm. Rusiyanın Azərbaycan ilə bağlı bugünkü siyasətinin əsası faktiki olaraq Vladimir Putin tərəfindən qoyulmuşdur. O, Azərbaycana səfər etmiş ilk Rusiya Prezidenti olub -

2001-ci ildə. Təsəvvür edin, Azərbaycanın 10 illik müstəqilliyi ərzində Rusiyanın əvvəlki Prezidenti ölkəmizə heç vaxt səfər etməmişdi. Beləliklə, Prezident Putin Azərbaycana gəldi və bu, Rusiya ilə Azərbaycan arasında əlaqələrdə dönüş nöqtəsi oldu. O vaxtdan bəri, son 10 il ərzində biz ikitərəfli münasibətlərdə - siyasi, iqtisadi, energetika sahələrində əməkdaşlıqda çox böyük inkişafa nail olmuşuq. Biz sərhədlərin demarkasiyası ilə bağlı saziş imzalamışıq. Bu da, həmçinin tarixi bir sənəddir. Fikrimcə, bu gün Rusiya və Azərbaycan yaxşı qonşuluq nümunəsi göstərirlər. Bu siyasətin əsası Vladimir Putin tərəfindən qoyulub və Prezident Medvedev tərəfindən davam etdirilib. Buna görə də biz əminik ki, bu siyasət davam etdiriləcəkdir.

- Hazırda ölkənizdə neft və qazın ixrac həcmi sahəsində bölgü olduğu kimi qalacaqmı? Nisbi həcm necədir?

- İndi bu, müqayisəolunmazdır. Çünki ixracımızın əsas hissəsini neft təşkil edir. Biz təqribən 1 milyon barrel neft hasil edirik və bunun böyük bir hissəsi ixrac olunur. Qaza gəldikdə isə, biz nisbətən yaxın vaxtlarda qaz ixrac edən ölkəyə çevrilmişik. Lakin bizim qaz ixracımız hələ ki, regional bazarla məhdudlaşır. Bizim çox böyük qaz ehtiyatlarımız vardır. Azərbaycanda təsdiq olunmuş qaz ehtiyatları təxminən 2,6 trilyon kubmetrdir. Ancaq neftdən fərqli olaraq, qaz biznesində nəqliyyat sistemi istehlakçılara birbaşa çatdırılmalıdır. Bunun üçün yəqin ki, yeni boru kəmərləri inşa edilməli, ya da mövcud olanlar genişləndirilməlidir. Bizim belə planlarımız var və düşünürəm ki, 7-10 ilə Azərbaycan dünyada neftdən çox qaza görə tanınacaqdır. Ən azından bu, bizim məqsədimizdir.

- Maraqlıdır. 10 il ərzində?

- Bəlkə də daha tez.

- Siz üçüncü müddətə prezidentliyə namizədliyinizi irəli sürməyi planlaşdırırsınız? Bu barədə qərar vermisiniz?

- Xeyr, qərar verməmişəm. Bu, xalqın istəyindən asılı olacaqdır. Əgər xalq məni və gördüyüm işləri dəstəkləməkdə davam etsə, bu variantı nəzərdən keçirəcəyəm. Ancaq yenə də, bu, insanların mənim fəaliyyətimi necə qiymətləndirmələrindən və onların verdiyi dəstəyin nə səviyyədə olmasından asılı olacaqdır.

- Biz gənc demokratiyadan danışdıq. Siz vəziyyəti təhlil edərək dediniz ki, bu sahədə irəliləyişlər əldə olunub. Azad demokratiya, azad mətbuat və insan haqları məsələlərində daha da irəliyə getməyi düşünürsünüzmü? Bu istiqamətdə başladığınız yolda daha da irəli gedəcəksinizmi?

- Şübhəsiz. Əlbəttə, gələcəkdə görülməli çox işlər vardır. Biz bu uzun prosesin hələ başlanğıcındayıq. Son 20 ildə, hətta 20 ildən də az bir müddətdə bu istiqamətdə çox böyük nailiyyətlər əldə olunub. Bir daha demək istəyirəm ki, ən vacibi strateji seçimdir. Biz bu yolu seçmişik və demokratik institutlarımızı inkişaf etdirməkdə davam edəcəyik. Biz siyasi islahatlar keçirməkdə davam edəcəyik. O ki qaldı, əsas azadlıqlara, bu gün bununla bağlı heç bir məhdudiyyət yoxdur. Bir daha demək istəyirəm ki, azad internet, əhalisinin 50 faizi internet istifadəçisi olan bir ölkədə azad mətbuat məhdudlaşdırıla bilməz.

- Beləliklə, internetə çıxış - böyük azadlıq deməkdir?

- Əlbəttə, bu, ifadə azadlığı, mətbuat azadlığıdır, xüsusən də insanların informasiyanı əsasən internetdən aldığı bugünkü dünyada, bilirsiniz ki, indi internetdən sərbəst şəkildə istifadə etmək olar. Siyasi sistemin inkişaf etdirilməsinə gəldikdə, bu halda, heç də hər şey bizim hökumətdən asılı deyildir. Çünki bütün siyasi qüvvələr də öz növbəsində dəyişməli, özlərini müasirləşdirməli, təcavüzkar hərəkətlərdən çəkinməlidirlər. Çünki əgər biz siyasi sistemdən danışırıqsa, bu, siyasi sistemdir, təcavüzkar davranış növü deyildir. Ancaq mən düşünürəm ki, bizim hökumətin göstərdiyi yaxşı nümunə, həmçinin indi öz siyasi mədəniyyətlərinin ilkin mərhələsində olan müxtəlif siyasi qüvvələrin transformasiyasına müsbət təsir edə bilər. Bizim yaxşı nümunələrimiz var, bir daha demək istəyirəm, Azərbaycan 10 ildir ki, Avropa Şurasının üzvüdür. Biz Avropa İttifaqının tərəfdaşına çevrilirik. Demokratik islahatlar bu institutlarla əməkdaşlığın gündəliyinin bir hissəsini təşkil edir. Əgər demokratik islahatları davam etdirmək istəməsəydik, biz bunu dayandırardıq. Biz 2001-ci ilədək Avropa Şurasının üzvü olmadan da yaşayırdıq. Bu gün Azərbaycan özü-özünü təmin edən bir ölkədir. Bizim heç yerdən heç bir maliyyə yardımına, maddi dəstəyə ehtiyacımız yoxdur. Əksinə, bəzən biz tərəfdaşlarımıza maliyyə cəhətdən dəstək veririk. Buna görə də bizim demokratik inkişafla bağlı öhdəliyimiz dəyərlərə, ölkəni necə dəyişmək istədiyimizə dair baxışlarımıza əsaslanan şüurlu seçimimizdir.

- Bir məsələni soruşmaq istəyirəm. Fikrimcə, daha mükəmməl demokratiyaya nail olmaq üçün müxalifətin yaradılması önəmlidir. Siz bunun üzərində işləmisinizmi?

- Bəli. Ancaq müxalifətin çox zəif olması faktı bizim günahımız deyildir. Biz onlara məhdudiyyət qoymuruq. Ancaq son illər ərzində Azərbaycanda görülən işlər sadəcə onların məkanını daraldır. Çünki onların mübahisə aparması üçün ciddi heç nə yoxdur. Ən vacib məsələ - Dağlıq Qarabağ məsələsində bizim hökumət milli maraqlarımızın daha güclü müdafiəçisidir. Bizə bəzən belə məlumatlar gəlib çatır ki, bəzi müxalifət liderləri bəzi xarici nümayəndələrlə şəxsi ünsiyyətləri zamanı, beynəlxalq qüvvələrin onları dəstəkləyəcəyi halda, Dağlıq Qarabağı Ermənistana vermək, təslim etmək niyyətlərini ifadə edirlər. Son bir neçə il ərzində iqtisadi sahədə biz inanılmaz nəticələr əldə etmişik. Buna görə də, onlar üçün mübahisə aparmağa heç nə qalmayıb. Son 7 ildə ÜDM-in artımı 300 faiz olub - 3 dəfə. Yoxsulluğun səviyyəsi 49 faizdən 9 faizə düşüb - 5 dəfə azalıb. Büdcə xərcləri 20 dəfə, 20 faiz yox, 20 dəfə artıb. Çox güclü sosial müdafiə sistemi, infrastruktur layihələri yaratmışıq. Bu səbəbdən müxalifət nə barədə mübahisə edə bilər? Əlbəttə ki, çatışmazlıqlar da vardır. Ancaq hökumət nə qədər yaxşı işləsə, təbii ki, müxalifətin də manevr etmək üçün daha az imkanı qalır. Buna görə də, yeni Azərbaycanda özlərinə necə yer tapmaq onların öz işidir. Əfsuslar olsun ki, bugünkü müxalifətə rəhbərlik edənlər 1992-1993-cü illərdə ölkəni vətəndaş müharibəsinə aparan insanlardır. Eyni adamlar 20 ildir ki, eyni vəzifədə oturublar və istefa vermək istəmirlər.

- İnsanlar vəzifəyə gələndə bəzən belə edirlər, onlar istefa vermək istəmirlər. Ermənistan fikir irəli sürüb ki, müəyyən mənada, Avropa İttifaqına qoşulmaqda maraqlı ola bilər. Mən Sizin buna reaksiyanızı bilmək istərdim. Bəs Siz nə vaxtsa Avropa İttifaqına qoşulmağa cəhd etmisinizmi?

- İlk növbədə, demək istərdim ki, mən heç vaxt eşitməmişəm ki, Ermənistan açıq şəkil-

də belə bir öhdəlik götürdüyünü desin. Mən bu barədə heç vaxt eşitməmişəm. Azərbaycana gəldikdə, qeyd etdiyim kimi, hazırda biz Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" Proqramı üzərində işləyirik. Əlbəttə, biz bilməliyik ki, Avropa İttifaqının Cənubi Qafqazla bağlı gündəliyi nədən ibarətdir və onlar üzv ölkə olmaq üçün Azərbaycanın potensialını və ya perspektivlərini necə qiymətləndirirlər. Səmimi deyirəm, bizim siyasətimiz elədir ki, biz heç vaxt əlçatmaz bir şeyə nail olmağa çalışmırıq. Biz realistik. Əgər biz belə bir təklif alarıqsa, əlbəttə ki, bunu nəzərdən keçirərik. Əgər almasaq, "bizi qəbul edin, qəbul edin" deyə qapını sındırmağa çalışmayacağıq. Bir daha demək istəyirəm ki, biz güclü ənənələri olan bir ölkəyik. Biz müsəlman ənənələri olan bir ölkəyik və bununla fəxr edirik. Eyni zamanda, biz müasir ölkəyik, dünyəvi ölkəyik və özü-özünü təmin edə bilən bir ölkəyik. Buna görə də, Avropa İttifaqı ilə münasibətlərimizin hazırkı inkişaf mərhələsində, düşünürəm ki, hər iki tərəf əməkdaşlığın səviyyəsindən tam razıdır və bəlkə də indi gələcəyə baxmaq tezdir.

- Siz müxtəlif qəzetlərdə başlıqlar görəndə ki, Avropa Parlamenti Azərbaycanı insan haqlarının pozulmasında ittiham edir, işgəncəyə, ifadə azadlığına və s. istinad edildikdə, bu Sizə təsir edirmi? Yoxsa Siz deyirsiniz ki, belə bir şey var və biz bunu aradan qaldırmalıyıq.

- Yox, açığı, biz əksər hallarda bu cür qeyri-dost addımlara məhəl qoymuruq. Ancaq biz bunu, Azərbaycana qarşı bu cür hərəkətləri irəli sürən həmin təşkilatlarda olan tərəfdaşlarımızla çox ciddi şəkildə müzakirə edirik. Bu cür hallar ikili standartların nəticəsidir. Əfsuslar olsun ki, 2008-ci ilin martında hakimiyyətin dinc etirazçıları, ordunun isə 10-dan çox insanı öldürdüyü və bir çox siyasətçinin həbs edildiyi qonşu Ermənistan ilə bağlı Avropa Parlamenti heç vaxt belə bir qətnamə qəbul etməyib. Niyə? Çox güman ki, Avropa ölkələrində mövcud olan güclü erməni lobbisinə görə. Ancaq Azərbaycanda az əhəmiyyətli hansısa bir epizod baş verdikdə onların bəziləri bu məsələni şişirtməyə çalışır. Cənubi Qafqazın bütün ölkələrinə münasibətdə vahid, standart siyasət olmalıdır, istər həll edilməmiş münaqişələr olsun, istərsə də demokratik inkişaf. Əfsuslar olsun ki, Azərbaycana hücumlar etmək, ölkəmizi nüfuzdan salmağa çalışmaq və məsələləri tamamilə yanlış yöndə təqdim etmək beynəlxalq təşkilatlardakı bəzi dairələrin gündəliyində duran məsələlərdir. Bir daha deyirəm ki, bu, bizə təsir etmir. Bəlkə cüzi qıcıqlandırır.

- Çünki Siz bunu yoxlayırsınız və əgər düzgün deyilsə, inkar edirsiniz.

- Əlbəttə. Avropa Parlamenti belə bir ədalətsiz, qərəzli və yanlış qətnamə qəbul edəndə, bizim parlament bunu inkar edən bəyanat verdi. Əlbəttə ki, Azərbaycana qarşı hər hansı bir bədxah, ədalətsiz və qərəzli, bəzən isə təhqiredici hərəkətlər cavabsız qalmır. Biz bunlara ciddi şəkildə və dəlillərlə cavab veririk. Biz bu dəlilləri gətirəndə deyiləsi bir şey qalmır. Nə üçün Cənubi Qafqazda, qonşuluqda, doğrudan da, narahatlıq doğuran hadisələrə deyil, yalnız Azərbaycana diqqət yetirilir? Nə üçün bütün diqqət Azərbaycanın üzərində cəmləşib? Bu sualı biz daim veririk və heç vaxt da bir cavab ala bilmirik.

- Bəs cavab nədir? Nə üçün bu mənada Azərbaycan diqqət mərkəzindədir? Əgər, Siz dediyiniz kimi, belə deyilsə və digərlərində insan haqları daha pisdirsə, Siz deyirsiniz ki, burada insan haqları başqa cürdür, daha yaxşıdır və ya hər nə isə. Bəs diqqətin yönəlməyinin səbəbi nədir? Çünki bu, elə bir məsələdir ki, müxtəlif vaxtlarda, dünyanın başqa yerlərində olan digər ölkələrdə də soruşa bilərlər.

- Düşünürəm ki, bunun bir neçə səbəbi vardır. Hansı birinin ən vacib olduğunu dəqiq bilmək mənim üçün çətindir. Ancaq mən parlamentin üzvü olduğum zaman Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinə rəhbərlik edən və Avropa Şurasında iki ildən artıq çalışan bir şəxs kimi deyə bilərəm ki, orada Azərbaycanın Avropanın bir hissəsi olduğunu qəbul edə bilməyən insanlar vardı. Bəlkə də bu, fobiyanın bir növü idi. Biz hamımız bilirik ki, bəzi ölkələrdə islamofobiya var və bu, bəzi qərarlara təsir edir.

Digər bir səbəb Azərbaycanın coğrafi baxımdan, iqtisadi cəhətdən müstəqil və zəngin təbii ehtiyatları olan bir ölkə kimi təkcə regional deyil, qlobal miqyasda çox vacib bir ölkəyə çevrilməsi ola bilər. Buna görə də bu hərəkətlərin bir hissəsi, bizə təzyiq etmək, təsir göstərmək, bizə hücum etmək və bəzən xeyir əldə etmək cəhdlərindən də irəli gəlir. Ancaq mən sizə deyə bilərəm ki, ümumiyyətlə, Azərbaycanın Avropa institutları ilə əlaqələri çox müsbətdir. Bizim Avropa İttifaqının üzvü olan demək olar ki, bütün ölkələrlə, eləcə də Avropa Parlamenti, Avropa Komissiyası ilə ikitərəfli səviyyədə çox yaxşı əlaqələrimiz vardır. Mən dəfələrlə bu institutların rəhbərləri ilə görüşmüşəm, çox açıq və konstruktiv müzakirələr aparmışam. Buna görə də sizin istinad etdiyiniz bu cür qətnamələr çox da əhəmiyyətli deyil və onlar əslində Avropa ilə Azərbaycan arasındakı əməkdaşlığın real ruhunu və səviyyəsini əks etdirmir.

- Əlbəttə ki, daha bir dünya təşkilatı Azərbaycana maraq göstərir, Azərbaycana cəlb olunub. Bu, "Eurovision" mahnı müsabiqəsidir. Bu, digər bir mühüm beynəlxalq məsələdir.

- Əslində, biz bunun beynəlxalq məsələyə çevriləcəyini gözləmirdik. Biz buna mahnı kontekstində yanaşırdıq. Ancaq bilirsiniz, bugünkü dünyada hər şey o qədər siyasiləşdirilib ki, musiqinin harada qurtardığını, siyasətin harada başladığını bilmirsən. Bu, əlbəttə ki, bizim gənc müsabiqə iştirakçıları üçün böyük uğur idi. Azərbaycanda böyük bayram oldu. Qələbədən sonra mən şərhlər eşitdim ki, Avropada çoxlu sayda insan soruşurdu: Azərbaycan harada yerləşir, Avropada yerləşir? Onlar bu müsabiqədə necə iştirak edə bilərlər? Axı Azərbaycan Avropada deyil. Bilirsiniz, belə düşüncələr mövcuddur. Ancaq mən düşünürəm ki, çox məşhur beynəlxalq mahnı müsabiqəsində böyük qələbədən savayı, bu, bizə özümüzü olduğumuz kimi təqdim etməyə yaxşı imkan yaradacaqdır. Çünki Azərbaycana, Bakıya xoş niyyətlərlə gələn hər kəs ölkəmizin son 10 və ya 20 ildə nələr əldə etdiyini asanlıqla görə bilər. Təmaslara və ölkəmizin təqdimatına gəldikdə, bizim əsas işimiz qonaqları dəvət etməkdir. Əvvəlki dövrlərdə biz Azərbaycan haqqında danışmaq, ölkəmiz haqqında məlumat vermək, təqdimatlar etmək üçün müxtəlif ölkələrə nümayəndələr göndərirdik. İndi isə, sözün yaxşı mənasında ən gözəl təbliğat insanları dəvət etmək, onlara ölkənin necə inkişaf etdiyini əyani şəkildə göstərməkdir. Bu mənada Bakıda keçiriləcək "Eurovision" müsabiqəsi Azərbaycan ilə Avropanın bir-birinə daha yaxınlaşması üçün yaxşı fürsət olacaqdır.

- Biz Sizə burada uğurlu müsabiqə keçirməyinizi arzulayırıq. Siz yenidən qalib gəlməyə bilərsiniz, demək istəyirəm ki, Siz bunsuz da uğurlu müsabiqə keçirəcəksiniz. Sizə xoş günlər arzulayırıq. Bu söhbətə görə çox sağ olun, mən çox məmnun oldum. Gələn dəfəyədək...

- Çox sağ olun.

NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli Konfrans iştirakçıları!

XXI əsrin çağırışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır və terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biri kimi çıxış edir.

Müasir dünya hərbi münaqişə zonalarından narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunmasından dərin narahatlıq hissi keçirir. Azərbaycan da artıq 20 ildir ki, belə bir problemlə üzləşmişdir. Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə şərait yaradır.

Azərbaycanda sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bu sahədə həyata keçirilən dövlət proqramları çərçivəsində zəruri qanunvericilik bazası yaradılmış, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə qoşulmuşdur.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıqda belə bir konfransın Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq tərəfdaş kimi etibarlılığını göstərir. Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Regional Ofisinin Bakıda açılması mühüm hadisə olmaqla yanaşı, bizim üçün önəmli bir tarixə, müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf edir.

Əminəm ki, Konfransda hamımızı narahat edən məsələlərin müzakirəsi iştirakçılara beynəlxalq təcrübədən faydalanmaq imkanı verəcək, əməkdaşlığımızı daha da möhkəmləndirəcək və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizə işinə öz töhfəsini verəcəkdir.

Konfransın iştirakçılarına uğurlar diləyir və ən xoş arzularımı bildirirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 oktyabr 2011-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident, Sizi Azərbaycan Respublikasının müstəqilliyinin 20-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Müstəqilliyinizin ilk günlərindən ABŞ-ın Azərbaycan ilə sıx əməkdaşlığını yüksək qiymətləndirirəm. Ölkələrimiz arasındakı mövcud yüksək səviyyəli dayanıqlı qarşılıqlı əlaqələr "Cənub" qaz dəhlizinin inkişaf etdirilməsi, Xəzər dənizində qadağan olunmuş malların dövriyyəsinin qarşısının alınması mexanizminin gücləndirilməsi, ekstremist

qüvvələrə qarşı birgə mübarizə, sıx regional əməkdaşlığın inkişafı və maraq dairələrimizi əhatə edən bir çox başqa sahələrdə konkret irəliləyişlərin əldə edilməsinə imkan yaratmışdır.

Bir daha Sizə xalqınızın tarixində böyük əhəmiyyət kəsb edən bu gün münasibətilə ən xoş arzularımı çatdırıram.

Hörmətlə,

Riçard G.Luqar

ABŞ Senatının Xarici Əlaqələr

Komitəsinin üzvü

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ

qardaşım İlham Heydər oğlu Əliyevə

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Ölkənizin Dövlət müstəqilliyi günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırıram, Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına daha böyük tərəqqi və firavanlıq arzu edirəm.

Zati-alinizə hörmət və ehtiramla qardaşınız,

Sultan bin Əbdüləziz Al Səud

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, müdafiə və aviasiya naziri, baş müfəttiş

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ QARDAŞIM İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Ölkənizin Dövlət müstəqilliyi günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və hökuməti adından və öz adımdan Zati-alinizə ən səmimi təbriklərimizi çatdırıram, Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzu edirəm.

Zati-alinizə hörmət və ehtiramla

qardaşınız,

Abdullah bin Əbdüləziz Al Səud

İki Müqəddəs Məscidin Xadimi,

Səudiyyə Ərəbistanının Kralı

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYANI VƏ BMT-NİN VYANA OFİSİNİN RƏHBƏRİ, NARKOTİK VƏ CİNAYƏTKARLIQ ÜZRƏ İDARƏSİNİN İCRAÇI DİREKTORU YURİ FEDOTOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı və BMT-nin Vyana ofisinin rəhbəri, BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotovu qəbul etmişdir.

BMT-nin Vyana ofisinin rəhbəri, Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotov Bakıda "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda keçirilən beynəlxalq konfransın əhəmiyyətini qeyd etdi. O, bu tədbirdə dünyanın 42 ölkəsindən yüksək səviyyəli agentliklərin rəhbərlərinin iştirakının önəmini vurğuladı.

Dövlətimizin başçısı Bakıda "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda keçirilən beynəlxalq konfransda dünyanın müxtəlif ölkələrindən olan nümayəndələrin iştirakını konfransa olan marağın göstəricisi kimi qiymətləndirdi. Prezident İlham Əliyev narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin daha da gücləndirilməsi üçün səyləri birləşdirməyin vacibliyini vurğuladı.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir,

Əziz qardaşım,

Qardaş Türkiyənin milli bayramı - Respublika günü münasibətilə Sizi və bütün Türk xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Türkiyənin hərtərəfli yüksəlişindən, dünya miqyasında artan nüfuzundan, beynəlxalq məsələlərdə fəal iştirakından böyük məmnunluq duyuruq.

Azərbaycan-Türkiyə münasibətləri dərin tarixi köklərə, ortaq mənəvi dəyərlərə malik xalqlarımızın dostluq və qardaşlığından güc alır. Bu cür möhkəm təməllər üzərində yüksələn dövlətlərarası münasibətlərimiz xalqlarımızın sarsılmaz iradəsinin bariz ifadəsidir.

Əminəm ki, qarşılıqlı inam və dəstəyə əsaslanan ikitərəfli münasibətlərimiz regionumuzda sülhün və əmin-amanlığın bərqərar olmasında, ölkələrimizin iqtisadi qüdrətinin artmasında daim mühüm rol oynayacaqdır.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türk xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 17 oktyabr 2011-ci il.

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Çexiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Bu ilin may ayında ölkəmizə səfəriniz dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə, dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsinə yeni təkan vermişdir.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 17 oktyabr 2011-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

Hörmətli cənab Prezident,

Əziz qardaşım,

Dost və qardaş Türkiyənin milli bayramı - Respublika günü münasibətilə Sizə və Sizin simanızda bütün Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Türkiyənin hərtərəfli inkişafı, iqtisadi yüksəlişi onun regionda cərəyan edən proseslərdə artan rolu ilə müşayiət olunur. Biz Türkiyənin uğurlarına ürəkdən sevinir və bundan qürur hissi keçiririk.

Tarixi birliyimizdən və ortaq mənəvi dəyərlərimizdən qaynaqlanan Azərbaycan-Türkiyə dövlətlərarası münasibətləri xalqlarımızın yekdil iradəsini əks etdirərək, özünün ən yüksək səviyyəsi ilə seçilir.

Əminəm ki, zamanın sınaqlarından çıxmış dostluq və qardaşlığımız ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin, müttəfiqliyimizin və həmrəyliyimizin əbədi mənbəyi olaraq daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bayram sevincinizə qoşulur, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türk xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 17 oktyabr 2011-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri, hörmətli İlham Heydər oğlu!

Sizi və Azərbaycan Respublikasının bütün vətəndaşlarını əlamətdar gün - dövlət müstəqilliyinin bərpa olunmasının 20 illiyinin bayram edilməsi münasibətilə ürəkdən təbrik edirəm.

O vaxtdan keçən dövrdə ölkədə nəinki siyasi, iqtisadi və sosial quruculuğun əsasları təşəkkül tapmışdır, həm də qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan millətlərarası və dinlərarası münasibətlər sistemi qurulmuşdur. Əvvəllər bu, atanız və sələfiniz Heydər Əlirza oğlu Əliyevin, indi isə Sizin - artıq çoxillik dövlət başçısının apardığı siyasi xəttin uzaqgörənliyini sübut edir.

Təsdiq edirəm ki, müasir dövrün bütün çağırışlarına baxmayaraq, qədim Azərbaycanın bərəkətli torpağında xalqlar və dinlər arasında sülh möhkəmlənməkdədir. Bununla yanaşı, Azərbaycan Respublikasının Rus Pravoslav Kilsəsinin Tanrıya ibadət etdiyi digər ölkələrlə də münasibətləri dinamik inkişaf edir.

Ölkənin pravoslav sakinlərinin ehtiyaclarına göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirərəm. Dövlət hakimiyyəti və Bakı Yeparxiyası arasında konstruktiv qarşılıqlı fəaliyyətin gələcək inkişafına əminəm.

Bakıya səfərlərimi səmimi hisslərlə xatırlayaraq, Sizinlə ünsiyyət sevincini bir daha paylaşacağıma ümid bəsləyirəm. Sizə cansağlığı, sülh və işlərinizdə uğurlar arzulayıram. Qoy, Tanrı Azərbaycan xalqına firavanlıq və tərəqqi bəxş etsin.

Dərin hörmətlə,

Kiril

Moskvanın və bütün Rusiyanın patriarxı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu,

Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün respublika dinamik inkişaf edir, iqtisadiyyatda və sosial sahədə nəzərəçarpacaq uğurlar qazanır, regionda və dünyada xarici siyasi mövqelərini möhkəmləndirir. Bu əlamətdar gündə biz müasir demokratik dövlətin əsaslarının formalaşdırılması, Rusiya və Azərbaycan arasında ənənəvi dostluğun, mehriban qonşuluğun və qarşılıqlı faydalı

əməkdaşlığın təməlinin möhkəmlənməsi üçün çox iş görmüş Azərbaycanın ümummilli lideri Heydər Əliyevə ehtiramımızı bildiririk.

Bu illər ərzində Qafqazda və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevrilmiş strateji tərəfdaşlıq münasibətlərinin gələcəkdə də möhkəmlənməsinə qarşılıqlı niyyətlərimizi xüsusi məmnunluqla qeyd etmək istəyirəm.

Əminəm ki, səmərəli siyasi dialoq, ticari-iqtisadi, investisiya, humanitar və digər sahələrdə əldə edilmiş razılaşmaların həyata keçirilməsi ölkələrimizin və xalqlarımızın mənafeyi naminə çoxşaxəli ikitərəfli əməkdaşlığın dinamik inkişafına bundan sonra da kömək edəcəkdir.

Dost Azərbaycan xalqına səmimi qəlbdən sülh və tərəqqi arzulayıram.

Dmitri Medvedev

Rusiya Federasiyasının Prezidenti

Moskva şəhəri, Kreml

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Oktyabrın 18-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Türkiyənin Baş naziri dövlətimizin başçısına Dövlət Müstəqilliyi günü münasibətilə təbriklərini çatdırmış, ona Azərbaycanın rifahı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Türkiyənin Baş nazirinə minnətdarlığını bildirmişdir.

Azərbaycan Prezidenti və Türkiyənin Baş naziri ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluqlarını ifadə etmiş, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV EKVADORUN XARİCİ İŞLƏR, TİCARƏT VƏ İNTEQRASİYA NAZİRİ RİKARDO ARMANDO PATİNYO AROKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Ekvador Respublikasının xarici işlər, ticarət və inteqrasiya naziri Rikardo Armando Patinyo Arokanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ekvadordan ilk dəfə nazirlər səviyyəsində ölkəmizə nümayəndə heyətinin gəldiyini vurğulayan Prezident İlham Əliyev bu cür səfərlərin sayının artacağına və bu səfərin ölkələrimiz arasında fəal münasibətlərin əsasının qoyulması işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi. Dövlətimizin başçısı ekvadorlu nazirin Azərbaycana səfərinin uğurlu olacağına əminliyini ifadə etdi.

Nazir Rikardo Armando Patinyo Arokan Ekvador Respublikasının Prezidenti Rafael

Korreanın salamlarını dövlətimizin başçısına çatdırdı. Rikardo Armando Patinyo Arokan Azərbaycana ilk səfərindən məmnunluğunu bildirdi. Ölkəsinin Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu vurğulayan nazir bu səfərin Azərbaycan ilə Ekvador arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanlarını müəyyənləşdirilməsi baxımından geniş imkanlar açacağını dedi.

Dövlətimizin başçısı Ekvador Respublikasının Prezidenti Rafael Korreanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ekvadorun dövlət başçısına çatdırmağı xahiş etdi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Oktyabrın 18-də Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Abdullah Gül Azərbaycan Respublikasının Prezidentini Dövlət Müstəqilliyi günü münasibətilə təbrik etmiş, ona dövlətçilik fəaliyyətində uğurlar, möhkəm cansağlığı, Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və göstərilən diqqətə görə Türkiyə Respublikasının Prezidentinə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini ifadə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ UİLYAM BÖRNSÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ dövlət katibinin birinci müavini Uilyam Börnsü qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, energetika sahəsində qlobal layihələr və təşəbbüslərlə bağlı birgə əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanda beynəlxalq sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyəti qeyd edildi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Müstəqilliyinin 20-ci ildönümü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına İsveçrə Federal Şurasının ən səmimi təbriklərini çatdırmaqdan məmnunluq duyuram. Ölkənizə rifah, əmin-amanlıq və müvəffəqiyyətlər arzu edirəm.

İcazə verin son illər ərzində dost əlaqələrimizin möhkəmlənməsini yüksək qiymətləndirdiyimi bir daha qeyd edim. 2011-ci ilin mart ayında Bakıya səfərim barədə xoş xatirələri saxlayıram. Ölkələrimizin nümayəndələri arasında keçirilən yüksək səviyyəli görüşlərin artması əlaqələrimizin olduqca müsbət inkişafını ifadə edir.

Ümid edirəm ki, Azərbaycan Respublikası və İsveçrə Konfederasiyası arasında olan dostluq və əməkdaşlıq əlaqələri gələcəkdə də güclənəcəkdir.

Hörmətlə,

Mişelin Kalmi-Rey

İsveçrə Konfederasiyasının Prezidenti

Bern, 18 oktyabr 2011-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir,

Əziz qardaşım,

Ölkənizdə terror aktlarının törədilməsindən və bunların çoxsaylı insan tələfatı ilə nəticələnməsindən son dərəcə kədərləndim.

Biz bu dəhşətli hadisədən hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı ən kəskin şəkildə mübarizə aparılmasını labüd hesab edirik.

Faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 oktyabr 2011-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

Hörmətli cənab Prezident,

Əziz qardaşım,

Ölkənizin cənub-şərqində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik. Bu amansız hadisə terrorizmə qarşı hamılıqla mübarizənin zəruriliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 oktyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazaxıstan Respublikasına rəsmi səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMATIDA RƏSMİ QARŞILANMA MƏRASİMİ OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, Qazaxıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 20-də rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Qazaxıstan Prezidentinin iqamətgahı qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycanın və Qazaxıstanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qazaxıstanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Nursultan Nazarbayeva təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

ALMATININ BEYNƏLXALQ HAVA LİMANINDA QARŞILANMA

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazaxıstan Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Almatının Beynəlxalq hava limanında Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Milli geyimli qız Azərbaycan Prezidenti İlham Əliyevə gül dəstəsi təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR VERİLMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 20-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Dövlət başçıları rəsmi naharda nitq söyləmişlər.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri davam edir.

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 20-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev mətbuata bəyanatlarla çıxış etmişlər.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşündən sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqlar olmuşdur.

Qazaxıstan dövlətinin başçısı Nursultan NAZARBAYEV Azərbaycan nümayəndə heyətinin üzvlərini salamlayaraq dedi:

-İlham Heydər oğlu, Sizi və nümayəndə heyətinin üzvlərini Qazaxıstanda salamlamağa şadam. Siz mənim dəvətimlə rəsmi səfərə gəlmisiniz. Bu, bizdə ənənədir. Siz hər il Qazaxıstanda olursunuz, mən də müntəzəm surətdə Sizin ölkədə oluram. Bu, iki dövlət arasında, prezidentlər arasında münasibətlərin göstəricisidir.

Biz Sizinlə ölkələrimiz arasında qarşılıqlı münasibətlərin bütün spektrini müzakirə etdik, iqtisadiyyat, nəqliyyat, kənd təsərrüfatı, beynəlxalq əməkdaşlıq məsələlərimizə toxunduq.

Azərbaycan bu günlərdə öz müstəqilliyinin iyirmi illiyini qeyd etdi. Biz də bu ilin dekabrında oxşar tarixi qeyd etməyə hazırlaşırıq. Bu iyirmi il, bir tərəfdən, hər iki ölkə üçün mürəkkəb dövr, digər tərəfdən, əcdadlarımızın arzularının həyata keçdiyi illər olmuşdur. Mən hesab edirəm ki, Qazaxıstan və Azərbaycan bu zaman kəsiyini ləyaqətlə keçmişlər. Sizin ölkənizdə məlum çətinliklərə - Ermənistanla qarşılıqlı münasibətlərdə

problemə - Qarabağ probleminə baxmayaraq, Azərbaycan bu illər ərzində sanballı uğurlara nail olmuşdur və biz bu münasibətlə Sizi təbrik edirik.

Bizim iqtisadiyyat 1994-cü ildən bəri 14 dəfə artmışdır. Mən Sizə demişdim, bizdə adambaşına artıq 10 min dollar vardır. Bu ili iqtisadiyyatda 7 faiz artımla başa vuracağımıza və adambaşına 12 min dollara yaxınlaşacağımıza ümid edirik. Bu, çox yüksək səviyyədir. 2015-ci ildə bizdə bu göstərici adambaşına 15 min dollar olacaqdır. Yəni biz Şərqi və Mərkəzi Avropanın orta inkişaf etmiş dövlətləri arasında olacağıq. Bunun üçün bizim bütün imkanlarımız vardır. Mən Sizə hansı istiqamətdə işlədiyimizi söylədim.

Biz Azərbaycanı qardaş, dost ölkə, Qafqaz regionunda əsas tərəfdaş hesab edirik. Güman edirəm ki, nümayəndə heyətinin üzvləri öz aralarında hazırlanmış sənədlərin bütün istiqamətləri üzrə iş aparmışlar. Əgər həll edilməmiş məsələlər vardırsa, onlar bu barədə bizə məruzə edəcəklər.

* * *

Azərbaycan Prezidenti İlham ƏLİYEV səmimi qəbul üçün təşəkkür edərək dedi:

-Hörmətli Nursultan Abişeviç, müstəqilliyimizin iyirmi illiyi münasibətilə təbriklərinizə görə çox sağ olun. Həmçinin Sizi və bütün qardaş Qazaxıstan xalqını qarşıdan gələn bayram münasibətilə qabaqcadan təbrik etmək istəyirəm. Siz tamamilə haqlısınız, bu illər ərzində ölkələrimiz nəyə qadir olduqlarını nümayiş etdirmiş, sanballı nəticələrə, coşqun iqtisadi artıma və siyasi sabitliyə nail olmuşlar. Mən həm də bu illər ərzində Sizin rəhbərliyiniz altında Qazaxıstanın qazandığı sanballı uğurlar münasibətilə Sizi təbrik etmək istərdim. Bu uğurlar quruculuq işlərində, şəhərlərin yeni simasında, hamını heyran edən yeni paytaxtın - gözəl Astananın simasında görünür.

Bizə çox xoşdur ki, Sizin rəhbərliyiniz altında Qazaxıstan olduqca dinamik, səmərəli inkişaf edir. Ölkənin çox böyük potensialı vardır və Sizin apardığınız, haqqında bu gün danışdığınız islahatlar gələcəyə istiqamətlənmişdir. Mövcud potensial artıq bu gün sosial məsələləri, habelə iqtisadi islahatlarla bağlı məsələləri səmərəli həll etməyə imkan verir.

Münasibətlərimizə gəldikdə isə, Qazaxıstan bizim üçün həmişə dost, qardaş dövlət olmuşdur. Müstəqillik illərində bu münasibətlər daha da möhkəmlənmişdir. Bu gün iqtisadiyyat, nəqliyyat, kənd təsərrüfatı sahələrində müzakirə etdiyimiz layihələr ikitərəfli əməkdaşlığı möhkəmlətmək üçün potensialımızdan daha geniş istifadə etməyimizə imkan verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 20-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli, siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı.

Ölkələrimiz arasında əlaqələrin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu, yüksək səviyyədə qarşılıqlı səfərlərin münasibətlərimizin genişləndirilməsində önəmli rol oynadığı qeyd edildi.

Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-QAZAXISTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 20-də Prezident İlham Əliyevin və Prezident Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Prezidentinin və Qazaxıstan Respublikası Prezidentinin Birgə Bəyannaməsi"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında diplomatik nümayəndəliklərin yerləşdirilməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında Saziş"i Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov və Qazaxıstanın xarici işlər naziri Yerjan Kazıxanov imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokolu"nu Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov və Qazaxıstanın xarici işlər naziri Yerjan Kazıxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Qazaxıstanın nəqliyyat və kommunikasiya naziri Berik Kamaliyev imzaladılar.

ALMATIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ I ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 21-də Almatıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) I Zirvə Toplantısı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Toplantısında iştirak etmişdir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Zirvə Toplantısının iştirakçıları birgə foto çəkdirdilər.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev türkdilli ölkələrin dövlət başçılarını və nü-

mayəndə heyətlərini salamlayaraq 2009-cu il oktyabrın 3-də imzalanmış Naxçıvan Sazişinin əhəmiyyətindən danışdı. Toplantıda beynəlxalq və regional xarakterli aktual məsələlərin müzakirə olunacağını deyən Qazaxıstan dövlətinin başçısı qeyd etdi ki, TDƏŞ ticarət-iqtisadi və mədəni-humanitar əməkdaşlığın genişlənməsini başlıca prioritet müəyyən etmişdir.

Türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin möhkəmləndirilməsinin vacibliyini vurğulayan Qazaxıstan Prezidenti dedi ki, türk dünyası çərçivəsində əməkdaşlığın inkişafı üçün geniş imkanlar vardır. Bu baxımdan Türkdilli Dövlətlərin İşgüzar Şurasının yaradılmasının vacibliyinin qeyd edən Qazaxıstan dövlətinin başçısı bildirdi ki, ölkələr arasında qarşılıqlı ticarət dövriyyəsi mövcud potensiala uyğun deyildir.

Türkdilli ölkələr arasında humanitar sahədə əməkdaşlığa da toxunan Nursultan Nazarbayev müxtəlif mədəni tədbirlərin, o cümlədən festivalların keçirilməsinin əhəmiyyətini vurğuladı, mədəni əlaqələrin möhkəmləndirilməsində TÜRKSOY təşkilatının böyük rolundan danışdı. Qazaxıstan dövlətinin başçısı Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda Türkdilli Dövlətlərin Mədəniyyət Fondunun yaradılması haqqında təklifini dəstəklədiyini dedi.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Toplantısında nitq söylədi.

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli Nursultan Abişeviç!

Hörmətli nümayəndə heyətlərinin başçıları, əziz dostlar!

İlk növbədə, Nursultan Abişeviç, bu zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinizə və bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, mən artıq üçüncü gündür sizin gözəl ölkənizdəyəm. Dünən mənim Qazaxıstana növbəti rəsmi səfərim həyata keçirildi. Bir daha qeyd etmək istəyirəm ki, biz Qazaxıstan ilə ikitərəfli əlaqələrimizin inkişafı üçün gördüyümüz işlərə çox böyük əhəmiyyət veririk. İkitərəfli münasibətlərimiz çoxşaxəlidir, eyni zamanda, türkdilli dövlətlər arasındakı əlaqələrə də çox müsbət təsir göstərir.

Bizim xalqlarımızı ortaq tarix, ortaq köklər birləşdirir. Ancaq Nursultan Abişeviçin qeyd etdiyi kimi, müstəqilliyimizin cəmi 20 yaşı vardır. Bu 20 il ölkələrimiz üçün həlledici illər olmuşdur. Bu illər ərzində ölkələrimizdə dövlətçilik əsasları formalaşdırılmışdır. Bu illər ərzində biz çox əsaslı, köklü iqtisadi və siyasi islahatlar apardıq. İyirmi il keçdikdən sonra görürük ki, ölkələrimiz dünya xəritəsində layiqli yerini tuta bilmişlər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının I Zirvə Görüşünün Qazaxıstanda keçirilməsi də hesab edirəm ki, təbiidir. Çünki Qazaxıstan Avrasiya məkanında inteqrasiya proseslərinin inkişafı üçün çox böyük töhfə vermişdir. Bu zirvə görüşünün təşkili özlüyündə Qazaxıstanın rolunu bir daha vurğulayır.

Mən çox şadam ki, görüşlərimiz artıq gözəl ənənəyə çevrilmişdir. Bildiyiniz kimi, bir müddət türkdilli dövlətlərin dövlət başçılarının zirvə görüşləri keçirilmirdi. Ancaq son üç il ərzində bu görüşlər mütəmadi keçirilir. 2009-cu ildə Naxçıvanda, 2010-cu ildə İs-

tanbulda və bu gün Almatıda bu görüşlər keçirilir. Əminəm ki, gələcək illərdə də bu ənənə davam edəcək və hər bir görüşün çox böyük mənası vardır. Bu görüşlər nəticəsində qəbul edilən qərarlar birliyimizi daha da gücləndirir. Biz istəyirik ki, bütün türkdilli dövlətlər arasında həm ikitərəfli, həm çoxtərəfli formatda əlaqələr daha da yüksək səviyyəyə qalxsın.

Azərbaycana gəldikdə, bizim bütün türkdilli dövlətlərlə çox gözəl, işgüzar və səmimi münasibətlərimiz vardır. Biz bu münasibətləri yüksək qiymətləndiririk. Biz çoxtərəfli formatda da, müxtəlif təşkilatlar çərçivəsində və beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq edirik. Beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək əlbəttə ki, bizi daha da gücləndirir. Biz BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, İƏT və digər təşkilatlarda uğurla fəaliyyət göstəririk.

Azərbaycanın qarşısında duran əsas problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemidir. Münaqişə uzun illərdir ki, həll olunmamış qalır. Bu, nəinki bizim üçün, bütün bölgə üçün ən böyük təhlükə mənbəyidir və ədalətsizlikdir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü uzun illərdir ki, pozulubdur. Azərbaycanlılara qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır. Bu siyasət nəticəsində 1 milyona yaxın azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür, torpaqlarımızın 20 faizi işğal altındadır. Bütün əsas beynəlxalq təşkilatlar məsələ ilə bağlı öz mövqeyini bildirmişlər. İlk növbədə dünyanın ən mötəbər beynəlxalq təşkilatı BMT və onun Təhlükəsizlik Şurası müvafiq qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var ki, orada Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair məsələlər vurğulanır.

ATƏT-in qərarları, İslam Əməkdaşlığı Təşkilatının çoxsaylı qətnamələri, Avropa Şurası, Avropa Parlamenti və digər təşkilatların qərarları münaqişənin həlli üçün çox güclü hüquqi zəmin yaradır. Ancaq əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqların süni şəkildə uzadılması cəhdləri imkan vermir ki, bu məsələ öz həllini tapa bilsin. Bu münaqişə zamanı Azərbaycan, eyni zamanda, terrorizmə də düçar olmuşdur. Ölkəmizdə çoxsaylı terror aktları törədilmişdir və bu terror aktları nəticəsində iki mindən artıq dinc insan həlak olmuşdur.

Fürsətdən istifadə edərək bir daha qardaş Türkiyəyə, türk xalqına bu yaxınlarda törədilmiş terror aktı ilə əlaqədar dərin hüznlə başsağlığı veririk, həlak olanların ailələrinə səbir diləyirik. Biz həmişə olduğu kimi, bu gün də Türkiyənin yanındayıq və Türkiyənin terrorizmə qarşı haqlı işində həmişə dəstəyimizi göstəririk və göstərəcəyik.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı da çox böyük məna daşıyır. Hesab edirəm ki, biz bu potensialdan lazımi səviyyədə istifadə etmirik. Halbuki ikitərəfli əlaqələrdə ticarət dövriyyəsi artır, ancaq bu, real potensialımızı əks etdirmir. Mən hesab edirəm ki, növbəti illərdə biz qarşılıqlı investisiya layihələrinin icrasına daha çox diqqət yetirməliyik. O ölkələr ki, onlar investisiyaları xarici ölkələrə yatırırlar, əlbəttə, öz diqqətini ilk növbədə türkdilli dövlətlərə yönəltməlidirlər. Çünki bu, bizim birliyimizi daha da gücləndirəcək və eyni zamanda, iqtisadi səmərə də verəcəkdir.

Hazırda Azərbaycan şirkətləri xarici dövlətlərə çox fəal şəkildə investisiyalar qoyurlar. Bu investisiyalar milyardlarla dollar həcmindədir. Biz istəyirik ki, bu siyasət davam etdirilsin. Qarşılıqlı investisiyaların qoyuluşu həm ölkələrin inkişafına xidmət göstərə-

cək, yeni iş yerlərinin açılışına gətirib çıxaracaq, eyni zamanda, iqtisadi əlaqələrimizi də gücləndirəcəkdir. Bu yaxınlarda Azərbaycan şirkəti SOCAR tərəfindən Türkiyədə yeni böyük investisiya layihəsinin təməl daşı qoyulacaqdır. Qoyulacaq bu investisiyaların həcmi bir neçə il ərzində 5-6 milyard dollar səviyyəsində olacaqdır. Əlbəttə bu, ilk növbədə, iqtisadi və kommersiya layihəsidir. Ancaq, eyni zamanda, investisiyalar dost ölkələrə qoyulur. O ölkələrə ki, orada sabitlik var və gözəl investisiya iqlimi mövcuddur. Ölkələrimiz bu məsələdə də, hesab edirəm ki, ön sıralardadır. Bütün beynəlxalq maliyyə qurumları ölkələrimizdə iqtisadi islahatların aparılmasına da çox yüksək qiymət verirlər. Biznes üçün imkanlar da çox yaxşıdır və bütün reytinqlərdə ölkələrimiz qabaqcıl yerdədir. İqtisadi layihələrlə bərabər, əlbəttə ki, mədəni əlaqələrin inkişafı da böyük məna daşıyır. Bu əlaqələr, demək olar ki, bizim təşkilatımızın əsasını təşkil edir. Çünki bizi birləşdirən ortaq mədəniyyətdir, etnik köklərdir. Təbii ki, bu məsələyə xüsusi diqqət göstərilir.

Mən bütün türkdilli ölkələrə minnətdaram ki, bizim təşəbbüsü dəstəkləmişlər və TÜRKSOY Fondunun yaradılması haqqında konkret təkliflər vardır. Əminəm ki, bu Fondun fəaliyyətə başlaması hər bir türkdilli diyarda öz izini buraxacaqdır. Çünki bu Fondun xətti ilə tarixi abidələrin bərpası, kitabların nəşri, mədəni tədbirlərin keçirilməsi mümkün olacaqdır. Hər bir vətəndaş görəcək ki, bu Fondun real nəticələr vardır. Mən, ümumiyyətlə, hesab edirəm ki, biz növbəti mərhələdə, xüsusilə indi Əməkdaşlıq Şurası formalaşdıqdan sonra diqqətimizi daha çox real layihələrə yönəltməliyik. Çünki bu günədək kifayət qədər ciddi bəyanatlar artıq verilmişdir, sənədlər imzalanmışdır. Bu zirvə görüşünün nəticəsində də çox sanballı sənəd qəbul ediləcəkdir. Ona görə, əgər biz növbəti illərdə daha çox konkret layihələrə diqqət yetirsək bu, təşkilatımızın inkişafı və ölkələr arasındakı əlaqələrin möhkəmlənməsi üçün də müsbət rol oynayacaqdır. Biz buna hazırıq və konkret layihələrin icrası ilə bağlı təkliflərimizi də verəcəyik.

Azərbaycan son illər ərzində enerji təhlükəsizliyi məsələlərinə də öz töhfəsini verir. Hazırda bizim enerji resurslarımız müxtəlif yollarla dünya bazarlarına çıxarılır. Bu istiqamətdə vaxtilə Azərbaycan tərəfindən tikintisi başlanmış və uğurla başa çatmış Bakı-Tbilisi-Ceyhan neft kəmərinin önəmini xüsusilə vurğulamaq istəyirəm. Bu kəmər, sadəcə olaraq, Xəzər dənizinin neftini dünya bazarlarına, Aralıq dənizinə çatdırmaq üçün tikilməmişdir. Bu, əslində yeni bir dəhlizdir. İlk növbədə enerji dəhlizi, ondan sonra qaz kəməri həmin dəhliz üzərində tikilibdir. İndi dəmir yolu dəhlizi tikilir və bütövlükdə bu, Şərqi Qərb ilə, Asiyanı Avropa ilə birləşdirən birinci ciddi təşəbbüs idi. Artıq bu kəmər vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, Xəzər dənizinin şərqində yerləşən yataqlardan çıxarılan neft də ötürülür.

Biz tranzit imkanlarımızı qardaş ölkələr üçün təqdim etmişik. Mən çox şadam ki, bizim tranzit imkanlarımızdan bu gün həm Qazaxıstan, həm Türkmənistan istifadə edir. Əminəm ki, gələcək illərdə bu tranzit imkanları daha da genişlənəcəkdir. Bu məqsədlə Azərbaycan hazırda çox böyük investisiyalar qoyur, logistika mərkəzləri yaradılır, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilir və iki-üç ildən sonra bu liman istifadəyə veriləcəkdir. Biz indi nəqliyyat infrastrukturunun yaradılmasına da çox böyük əhəmiyyət veririk. Yeni bərələr, tankerlər alınır, Bakıda yeni müasir gəmiqayırma zavodu tikilir. Aydındır ki, bütün investisiyalar və infrastruktura qoyulan sərmayə təkcə bizim üçün deyil, bütün Xəzəryanı ölkələr üçün də lazım olacaqdır. Çünki Xəzər qapalı

dənizdir və təbii ki, orada istehsal olunan gəmilər, tankerlər ancaq Xəzər dənizində çalışacaqdır. Biz bütün işləri görürük ki, gələcəkdə Xəzər dənizinin şərqindən bu tərəfə və əks tərəfə böyük yüklərin qəbuluna hazır olaq.

Nursultan Abişeviç qeyd etdiyi kimi, gələn ilin sonunda Bakı-Tbilisi-Qars dəmir yolunun da tikintisi başa çatmalıdır və 2013-cü ildən başlayaraq bu dəmir yolu istismara verilməlidir. Bu, əslində çox böyük iqtisadi və siyasi bir layihədir. Biz bu layihəyə başlayanda əlbəttə ki, ilk növbədə, dəmir yolu ilə Azərbaycanı Türkiyəyə birləşdirmək istəyirdik. Çünki bu dəmir yolu bağlantısı yox idi. Ancaq layihənin icrası onu göstərdi ki, həm Avropada, həm Asiyada bu layihəyə çox böyük maraq vardır.

Əslində bu, yeni dəmir İpək yolunun yaradılması deməkdir. Azərbaycanı Gürcüstan vasitəsilə Türkiyə və Avropa ilə, Avropanı Azərbaycan, Qazaxıstan, digər Orta Asiya ölkələri, Çin ilə birləşdirən bir yoldur. Mən əminəm ki, bu, həm vaxt, həm də iqtisadi göstəricilər baxımından ən əlverişli nəqliyyat yolu olacaqdır. Əminəm ki, bu yol istismara veriləndən sonra on milyon tonlarla ölçülən yüklər bizim ərazimizdən keçəcək və ölkələrimiz, eyni zamanda, təkcə Azərbaycan deyil, bütün ölkələrimiz tranzit ölkələr kimi bu nəqliyyat dəhlizinin fəaliyyətinə öz töhfəsini vermiş olacaqdır. Bu, konkret real layihələrdir. Bu layihələr həm iqtisadi cəhətdən səmərəlidir, həm də kommersiya baxımından əlverişlidir. Eyni zamanda, bu layihələr birliyimizi daha da gücləndirir.

Türk dünyası böyük dünyadır. Biz elə etməliyik ki, türk dünyası daha da sıx birləşsin. Bunu etmək üçün bütün imkanlar vardır. İlk növbədə güclü siyasi iradə vardır. Bu zirvə görüşlərinin mütəmadi keçirilməsi, bu gün birinci Əməkdaşlıq Şurasının keçirilməsi, qəbul ediləcək qərarlar çox ciddi siyasi iradənin mövcudluğunu göstərir. Digər tərəfdən iqtisadi maraqlar da bizim iqtisadi maraqlarımızla üst-üstə düşür.

Bizim - Qazaxıstanın, Azərbaycanın və digər türkdilli dövlətlərin zəngin təbii ehtiyatları vardır. Biz bu ehtiyatları dünya bazarlarına çatdırmaq üçün müxtəlif yollardan istifadə edirik. Bizim Türkiyə kimi dostumuz vardır. Qeyd edildiyi kimi, bizim müstəqilliyimizi ilk tanıyan Türkiyə olmuşdur. Türkiyə böyük ərazidir, böyük iqtisadiyyatdır, böyük nəqliyyat imkanlarına malikdir. Bütün bu səyləri biz birləşdiririk və artıq əməkdaşlığın çox gözəl nəticələri vardır. Əminəm ki, artıq yaradılmış bu möhkəm zəminin üzərində növbəti illərdə biz böyük, gözəl binalar tikəcəyik. Bu, dostluğumuzun, qardaşlığımızın binaları olacaqdır. Qardaşlığımızın böyük tarixi və böyük gələcəyi vardır.

Mən bir daha, Nursultan Abişeviç, Sizə bu təşəbbüsü irəli sürdüyünüz üçün və bu zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinizə görə minnətdarlığımızı bildirmək istəyirəm. Zirvə görüşünə uğurlar diləyirəm. Sağ olun!

* * *

Sonra TDƏŞ-in I Zirvə Toplantısının 49 bənddən ibarət yekun sənədi - Almatı Bəyannaməsi imzalandı.

Almatı Bəyannaməsini TDƏŞ-in I Zirvə Toplantısının sədri, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Azərbaycan Prezidenti İlham Əliyev, Qırğız Prezidenti Roza Otunbayeva və Türkiyə Baş nazirinin müavini Bəkir Bozdağ imzaladılar.

Sənəd türkdilli dövlətlərin bir sıra beynəlxalq və regional məsələlər üzrə razılaşdırılmış

mövqeyini, iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlıq istiqamətlərini müəyyənləşdirir.

Qərara alındı ki, TDƏŞ-in II Zirvə Toplantısı 2012-ci ildə Qırğız Respublikasının paytaxtı Bişkekdə keçirilsin və "Elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq" mövzusuna həsr olunsun.

* * *

Zirvə Toplantısında türkdilli dövlətlərin Xarici İşlər Nazirliklərinin yüksək səviyyəli rəhbərlərinin iclasında qəbul edilmiş TDƏŞ-in prosedur qaydaları da təsdiq olundu.

* * *

Sonra Qırğız Respublikasının Prezidenti Roza Otunbayeva TDƏŞ-in növbəti Zirvə Toplantısına ev sahibliyi edəcək ölkənin rəhbəri kimi Almatı sammitinin iştirakçılarına minnətdarlığını bildirdi.

* * *

Zirvə Toplantısından sonra mətbuata bəyanat verildi. Vurğulandı ki, Almatı Zirvə Toplantısı ümumi tarix, dil və mədəniyyətə söykənən əməkdaşlığın gələcəkdə inkişafı və möhkəmlənməsi baxımından türkdilli dövlətlər arasında yeni səhifə açacaqdır. İştirakçılar qardaş Türkiyədə baş vermiş hadisələrdə həlak olanların ailələrinə başsağlığı verdilər, bu cür terror aktlarını qətiyyətlə pislədilər.

Bununla da TDƏŞ-in I Zirvə Toplantısı başa çatdı.

* * *

Sonra Zirvə Toplantısının iştirakçıları birgə nahar etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Almatının Beynəlxalq hava limanında Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

Milli geyimli qız Azərbaycan Prezidenti İlham Əliyevə gül dəstəsi təqdim etdi.

* * *

Dövlətimizin başçısı həmin gün Bakıya qayıtmışdır.

Azərbaycan Prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İran İslam Respublikasının müdafiə naziri Əhməd Vəhidini qəbul etmişdir.

Müdafiə naziri Əhməd Vəhidi İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı, Prezident Mahmud Əhmədinejadın məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olundu, müxtəlif səviyyədə qarşılıqlı səfərlərin əməkdaşlığımızın bundan sonra da möhkəmlənməsi işinə xidmət edəcəyi bildirildi.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət,

Əziz qardaşım,

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, görkəmli dövlət xadimi, qardaşınız Sultan bin Əbdüləziz Al Səudun vəfatı xəbərindən son dərəcə kədərləndim.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, ailənizin bütün üzvlərinə, qardaş Səudiyyə Ərəbistanı xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 22 oktyabr 2011-ci il.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı qardaş Türkiyədə baş vermiş faciə xəbərinin bütün Azərbaycanda dərin sarsıntı ilə qarşılandığını, xeyli sayda insanın həlak olması və yaralanmasının böyük kədər hissi doğurduğunu diqqətə çatdırmış, həlak olanların ailə üzvlərinə və yaxınlarına, bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı vermişdir.

Prezident Abdullah Gül göstərilən diqqətə və başsağlığına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir,

Əziz qardaşım,

Van vilayətində baş vermiş zəlzələnin doğurduğu çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 oktyabr 2011-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

Hörmətli cənab Prezident,

Əziz qardaşım,

Ölkənizdə baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türk xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 23 oktyabr 2011-ci il.

AZƏRBAYCAN GƏNCLƏRİNİN VI FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

Əziz gənclər!

Sizi - Azərbaycan Gənclərinin VI Forumunun iştirakçılarını və bütün gənclərimizi səmimi qəlbdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və ölkəmizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hamımız üçün əlamətdar olan 2011-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinin bərpa-

sının iyirmi illik yubileyini qeyd edir. Gənclərimizin əksəriyyəti böyük qürur hissi ilə deyə bilərlər ki, onlar artıq müstəqillik illərində formalaşmış nəslə mənsubdurlar. Azərbaycançılıq məfkurəsi ruhunda tərbiyə almış bu nəsil dövlətimizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayaraq ildən-ilə potensialının gerçəkləşdirilməsi üçün daha geniş imkanlar əldə edir. Əminəm ki, siz həmin imkanları forumunuzda araşdıraraq qaldırılacaq məsələlər çərçivəsində qlobal dünyada insan kapitalının biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında əhəmiyyətini də müzakirə obyektinə çevirəcəksiniz.

Bu ilin iyul ayında mənim sərəncamımla "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı təsdiq edilmişdir. Belə bir proqramın mövcudluğu dövlətin gənclərlə bağlı siyasətinin parlaq təzahürüdür. Proqramda əsas vəzifələr sırasında gənclərin ictimai həyatın ən müxtəlif sahələrində yaxından iştirakına, onların cəmiyyətimizdə layiqli yer tutması və beynəlxalq aləmdə tanınması məsələlərinə xüsusi diqqət yetirilir. Ümidvaram ki, bu forum proqramın uğurla həyata keçirilməsi və yeni-yeni çalarlarla zənginləşməsinə zəmin yaradacaqdır.

İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər əyani surətdə nümayiş etdirir ki, müasirlik və kreativlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. İnanıram ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində öz həllini tapacaqdır.

Forumunuzun işinə uğurlar diləyir və hər birinizə niyyətlərinizin çin olmasını arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 oktyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN ƏTRAF MÜHİT, ENERJİ VƏ İQLİM DƏYİŞİKLİYİ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Yunanıstan Respublikasının ətraf mühit, enerji və iqlim dəyişikliyi naziri Corc Papakonstantinunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nazir Corc Papakonstantinu Yunanıstan Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı, Prezident Karolos Papulyasın məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu, Yunanıstan Prezidenti Karolos Papulyasın Azərbaycana səfərinin əlaqələrimizin möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişlənməsi işinə xidmət etdiyi bildirildi.

Dövlətimizin başçısı Yunanıstan Prezidenti Karolos Papulyasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Yunanıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏYƏ SƏFƏRƏ YOLA DÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Türkiyəyə səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.

Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İzmirin hərbi hava limanında Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan qarşıladı.

Milli geyimli qız Azərbaycan Prezidenti İlham Əliyevə gül dəstəsi təqdim etdi.

PREZİDENT İLHAM ƏLİYEV VƏ BAŞ NAZİR RƏCƏB TAYYİB ƏRDOĞAN BİRGƏ NAHAR ETMİŞLƏR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 25-də Türkiyənin İzmir şəhərində açılış və təməlqoyma mərasimlərindən sonra Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan birgə nahar etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İZMİR ŞƏHƏRİNDƏ "PETKİM" ŞİRKƏTİNİN "STAR" NEFT EMALI ZAVODUNUN, HEYDƏR ƏLİYEV ADINA PEŞƏ TƏHSİLİ LİSEYİNİN TƏMƏLQOYMA, AYPE-T ZAVODUNUN AÇILIŞ MƏRASİMLƏRİNDƏ İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 25-də Türkiyənin İzmir şəhərində "Petkim" şirkətinin yeni neft emalı zavodunun və Heydər Əliyev adına Peşə Təhsili Liseyinin təməlqoyma, AYPE-T zavodunun açılış mərasimləri olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan açılış mərasimlərində iştirak etmişlər.

Azərbaycan Prezidentinə və Türkiyə hökumətinin başçısına məlumat verildi ki, qardaş ölkənin ilk və yeganə neft-kimya müəssisəsi olan "Petkim-Petrokimya Holdinq"in təməli 1965-ci ildə Yarımca şəhərində qoyulmuşdur. 1984-cü ildə bu qurum İzmir şəhərinin Əliağa qəsəbəsində ikinci kompleksini qurmuşdur. 2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) Türkiyənin "Turgas" şirkəti ilə birlikdə "Petkim-Petrokimya Holdinq"ə məxsus Neft-Kimya Zavodunun 51 faizinə yiyələnmişdir. Keçən il "Petkim" ümumi məhsul istehsalı, gəlir, mənfəət və ixrac üzrə rekord göstəricilərə nail olmuşdur. İstehsal olunan məhsulların 50 faizi ixrac edilmişdir. Holdinqin 11 zavodunda 50 növdən çox neft-kimya xammalı hazırlanır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan "Petkim" şirkətinin "Star" neft emalı zavodunun və Heydər Əliyev adına Peşə Təhsili Liseyinin təməlqoyma, AYPE-T zavodunun açılış mərasiminə gəldilər.

Mərasim iştirakçıları əvvəlcə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin və şəhidlərin xatirəsini yad etdilər.

Daha sonra Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Tədbir iştirakçılarına Türkiyənin Petkim yarımadasının gələcəyinə həsr olunmuş film təqdim edildi.

Mərasimdə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevi İzmirdə görməkdən məmnunluğunu bildirdi.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin Van vilayətində baş vermiş dəhşətli zəlzələdən dərhal sonra qardaşlıq əlini uzatdığı üçün başda Prezident İlham Əliyev olmaqla bütün Azərbaycan xalqına ölkəsi adından minnətdarlığını çatdırdı.

Zəlzələ baş verən andan ilk yardımını təklif edən və ilk xarici yardım çatdıran ölkənin məhz Azərbaycan olduğunu vurğulayan Türkiyə hökumətinin başçısı axtarış-xilasetmə işlərində Azərbaycandan gələn heyətin fəaliyyətini yüksək qiymətləndirdi. Baş nazir dedi ki, Azərbaycanın üç təyyarə ilə göndərdiyi qida yardımı artıq bölgədəki vətəndaşlara paylanmışdır.

İzmirdə həqiqətən də böyük və möhtəşəm bir layihənin təməlqoyma mərasiminin keçirildiyini qeyd edən Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, "Petkim"in ortaqları olan ARDNŞ və "Turgas"in birgə inşa edəcəyi neft-kimya müəssisəsinə qoyulan 5 milyard dollar investisiya həm dünyada, həm də Türkiyədə zavodun inşasına qoyulan ən böyük yatırımdır. Azərbaycan ilə Türkiyənin əl-ələ verərək qardaşlıq çərçivəsində çox böyük ortaq layihələr həyata keçirdiyini deyən Türkiyə hökumətinin başçısı tikinti dövründə burada 10 min nəfərin çalışacağını vurğuladı. Müəssisə işə düşdükdən sonra isə burada 1000 nəfər daimi işlə təmin olunacaqdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünün qeyd olunduğunu xatırladan Türkiyənin Baş naziri dedi ki, Türkiyə qardaş Azərbaycanın bu sevincini birlikdə yaşayır. İyirmi il ərzində Türkiyə hər zaman Azərbaycanın yanında olmuş-

dur. Bu müddətdə iki qardaş ölkə birlikdə çox böyük layihələr həyata keçirmişdir.

Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, həm Türkiyənin, həm də Azərbaycanın əsas hədəfi bölgədə sülhə nail olmaqdır. Türkiyənin Baş naziri Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi ki, ölkəsi bu problemin həllində Azərbaycan ilə birgə çalışmağa davam edəcəkdir.

Türkiyə hökumətinin başçısı Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü seçilməsi münasibətilə də təbrik etdi.

Çıxışının sonunda Türkiyənin Baş naziri bu möhtəşəm layihələrin iki qardaş ölkə üçün xeyirli olmasını arzuladı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edərək bu günün Türkiyə-Azərbaycan əlaqələrində əlamətdar tarix olduğunu vurğuladı.

Azərbaycan dövlətinin başçısı Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə bağlı türk xalqına başsağlığı verdi. Hər zaman olduğu kimi, bu gün də Azərbaycan xalqı türk xalqının yanındadır, - deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan-Türkiyə birliyi tarixi əsaslara söykənərək getdikcə güclənir. Bu gün Türkiyənin və Azərbaycanın bütün məsələlərdə bir yerdə olduğunu, bir-birini dəstəklədiyini, birgə layihələr icra etdiyini, təşəbbüslər irəli sürdüyünü qeyd edən Azərbaycan Prezidenti bugünkü mərasimin də bu birliyin təzahürü olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, bugünkü təməlqoyma mərasimi rəmzi xarakter daşıyır. Çünki cəmi 20 il müstəqillikdən sonra Azərbaycan qardaş ölkəyə böyük həcmdə yatırımlar qoymağa başlayır.

Dövlətimizin başçısı Azərbaycanın və Türkiyənin artıq uğurla reallaşdırdığı və icra edilməkdə olan birgə layihələrini xatırlatdı.

Azərbaycan Prezidenti uğurların təməlində dostluğun və qardaşlığın dayandığını xüsusi vurğuladı və dedi ki, qardaş ölkə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın fəaliyyəti nəticəsində qısa müddət ərzində böyük, uğurlu, şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmişdir.

Azərbaycanın da son illər ərzində keçdiyi şərəfli yoldan danışan Prezident İlham Əliyev vurğuladı ki, BMT Təhlükəsizlik Şurasına seçilməyimiz də ölkəmizin dünyadakı nüfuzunun artmasından qaynaqlanır. Dövlətimizin başçısı seçkilərdə Azərbaycana böyük dəstək verən Türkiyəyə bir daha minnətdarlığını bildirdi.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan AYPE-T zavodunun videogörüntü vasitəsilə açılış mərasiminə qoşuldular. Burada istehsal olunan aşağı sıxlıqlı polietilen məhsulu plastiklər sənayesinin dünyada geniş istifadə olunan ən əhəmiyyətli xammallarından biridir. İllik məhsuldarlığı 160 min ton olan zavodda müxtəlif sektorların ehtiyacını ödəməyə yönəlmiş 11 çeşiddə məhsul istehsal olunacaqdır.

Azərbaycan dövlətinin başçısı və Türkiyənin Baş naziri müəssisənin açılışı münasibətilə təbriklərini çatdırdılar.

* * *

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyıb Ərdoğan videobağlantı vasitəsilə Heydər Əliyev adına Texniki və Sənaye Peşə Liseyinin təməlqoyma mərasiminə də qoşuldular.

İzmirli deputat Aydın Şəngül məlumat verdi ki, Xəzər və Egey dənizləri arasında təhsil körpüsü funksiyasını daşıyacaq bu bilik ocağı Ceyhan və Qarsdan sonra "Bir millət, iki dövlət" idealının Egey bölgəsinin təhsil sahəsində də rəmzi olacaqdır.

Liseyin inşası ilə bağlı protokol ARDNŞ ilə İzmir valiliyi arasında imzalanmışdır. 2012-2013-cü tədris ilində fəaliyyətə başlaması nəzərdə tutulan məktəbdə 24 sinif otağı, 10 mənzilli yaşayış korpusu və idman salonu 720 şagirdə xidmət göstərəcəkdir.

Azərbaycan Prezidenti və Türkiyənin Baş naziri liseyin təməlinin qoyulması münasibətlə təbriklərini çatdırdılar.

İZMİRDƏ TÜRKİYƏ-AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ BİRİNCİ İCLASI OLMUŞDUR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 25-də İzmirdə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclası olmuşdur.

İclasda Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin müxtəlif sahələrinin inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 25-də Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclasından sonra Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclasının Protokolu"nu Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında meteorologiya sahəsinə dair Anlaşma Memorandumu"nu Azərbaycan tərəfdən səfir Faiq Bağırov, Türkiyə tərəfdən isə Meteorologiya Baş İdarəsi baş direktorunun müavini Əli Karataş imzaladılar.

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Türkiyənin Anadolu Agentliyi (AA) arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycan tərəfdən səfir Faiq Bağırov, Türkiyə tərəfdən isə Anadolu Agentliyinin baş direktoru Kamal Öztürk imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında meşə təsərrüfatı sahəsinə dair Anlaşma Memorandumu"nu Azərbaycan tərəfdən səfir Faiq Bağırov, Türkiyə tərəfdən meşəçilik idarəsinin baş direktoru Mustafa Kurtulmuşlu imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında mətbuat və informasiya sahələrində əməkdaşlıq Protokolu"nu Azərbaycan tərəfdən səfir Faiq Bağırov, Türkiyə tərəfdən Mətbuat-Yayım və İnformasiya Baş İdarəsinin baş direktoru Murat Karakaya imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti

arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan tərəfdən səfir Faiq Bağırov, Türkiyə tərəfdən Polis Akademiyasının rəisi Zühtü Arslan imzaladılar.

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında Protokol"u Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkiyə tərəfdən xarici işlər nazirinin müavini Feridun Sinirlioğlu imzaladılar.

"Azərbaycan Diplomatik Akademiyası və Türkiyə Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkiyə tərəfdən xarici işlər nazirinin müavini Feridun Sinirlioğlu imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında enerji sahəsində Əməkdaşlıq Protokolu"nu Azərbaycan tərəfdən sənaye və energetika naziri Natiq Əliyev, Türkiyə tərəfdən enerji və təbii ehtiyatlar naziri Taner Yıldız imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qaz alqı-satqısına dair Anlaşma Sazişi"ni Azərbaycan tərəfdən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev, Türkiyə tərəfdən "BOTAŞ" şirkətinin icraçı direktoru Fazıl Şenel imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında qaz tranzitinə dair Anlaşma Sazişi"ni Azərbaycan tərəfdən "bp-Azərbaycan" şirkətinin prezidenti Rəşid Cavanşir, Türkiyə tərəfdən "BOTAŞ" şirkətinin icraçı direktoru Fazıl Şenel imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Çərçivə Anlaşması Sazişi"ni Azərbaycan tərəfdən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev, "bp-Azərbaycan" şirkətinin prezidenti Rəşid Cavanşir, Türkiyə tərəfdən "BOTAŞ" şirkətinin icraçı direktoru Fazıl Şenel imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, Türkiyə tərəfdən iqtisadiyyat naziri Zəfər Çağlayan imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında ailə və sosial siyasət sahəsində Əməkdaşlıq Protokolu"nu Azərbaycan tərəfdən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Türkiyə tərəfdən ailə və sosial siyasət naziri Fatma Şahin imzaladılar.

BİRGƏ MƏTBUAT KONFRANSI

Xüsusi müxbirimiz xəbər verir ki, oktyabrın 25-də sənədlərin imzalanması mərasimi başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur.

Baş nazir Rəcəb Tayyib Ərdoğan və Prezident İlham Əliyev mətbuata bəyanatlarla çıxış etmişlər.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

-Hörmətli Prezident İlham Əliyev!

Dəyərli mətbuat nümayəndələri!

Xanımlar və cənablar!

Sizləri ən dərin hisslərimlə salamlayıram.

Çıxışımın əvvəlində Van vilayətində baş vermiş zəlzələ ilə bağlı 145 nəfərlik xilasetmə dəstəsi ilə burada yardım edən həm heyətin bütün üzvlərinə, bununla bağlı göstəriş verən dəyərli qardaşım İlham Əliyevə öz adımdan və millətim adından ürəkdən təşəkkür edirəm. Hamımızın kədərinə səbəb olduğu, dərdlərimizin artdığı belə bir həssas vaxtda Azərbaycan tərəfinin uzatdığı dostluq əli, göstərilən qardaşlıq yardımı əziz millətimiz tərəfindən hər zaman minnətdarlıqla xatırlanacaqdır. Xüsusilə son bir həftədə millətimizi dərindən ağrıdan hadisələr yaşadıq. Bilirik ki, Azərbaycan xalqı türk xalqının yaşadığı bu kədəri paylaşır, bizlər kimi, onlar da bu dərdləri ürəklərində hiss edirlər.

Dəyərli dostlar, bu gün hörmətli Prezident, qardaşım İlham Əliyev ilə görüşümüzdə Türkiyə-Azərbaycan əlaqələrini, regional məsələləri müzakirə etdik. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması bizdə dərin iftixar hissi doğurmuşdur. Biz bunları da aramızda müzakirə etdik.

Bu gün Əliağa qəsəbəsində həqiqətən mühüm tədbirlərin birlikdə şahidi olduq. Həm açılış mərasimi, həm də Türkiyənin 2015-ci ilə qədər ən yüksək texnologiyalar əsasında quracaq bu mühüm kompleksinin inşaatında 10 min nəfər işlə təmin olunacaqdır. Ondan sonra isə burada 1000 nəfər daimi işlə təmin olunacaqdır. Beş milyard dollarlıq layihədir. İnanıram ki, belə bir investisiyanın İzmirə, Türkiyəyə qoyulması həm Türkiyə, həm də Azərbaycan iqtisadiyyatına - hər iki tərəfə çox böyük fayda verəcəkdir.

Sonra nazirliklərimizin gördükləri işlərlə bağlı hökumət üzvlərinin iştirakı ilə toplantı keçirdik.

Prezident İlham Əliyev, mən və nazirlərimiz gördüyümüz və görəcəyimiz işləri müzakirə etdik. Gələcəyə istiqamətlənmiş bütün vacib addımlarımız nazirlərimiz tərəfindən bir az əvvəl imzalanmış müqavilələrdə də öz əksini tapmışdır. Bu müqavilələrin, bu sənədlərin hər iki ölkə üçün xeyirli olmasını xüsusilə arzu edirəm. Təbii ki, bunlardan başqa, Türkiyə ilə Azərbaycan arasında Bakı-Tbilisi-Ceyhan çox vacib bir bağlantı idi. Bunun ardınca "Şahdəniz" layihəsi çox vacib bir addımdır. Dəmir İpək Yolu adlandırdığımız tarixi ipək yolu ilə bağlı sərmayənin qoyulması və bütün bunlarla bərabər Naxçıvanla Qarsı, İğdırı birləşdirən avtomobil yolları aramızdakı könül bağlantılarından baş-

qa, eyni zamanda, fiziki olaraq bu imkanları da yaradır. Hava yolu ilə daşımada çox fərqli bir mərhələyə qədəm qoyuruq. Çox müxtəlif vilayətlərimizin Azərbaycan ilə hava nəqliyyatını inkişaf etdiririk. Bu addımları da atmış olduq. Bunlar da bizim üçün aramızdakı əlaqənin, qardaşlıq əlaqəsinin inkişafı baxımından çox vacibdir. Bunu da xüsusi ifadə etmək istəyirəm.

Azərbaycan 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdi. Müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd etdiyimiz Azərbaycanın bu bayramını ilk təbrik edən bir ölkə olaraq Türkiyə bundan böyük məmnunluq keçirir.

Arzum budur ki, daha bir neçə 20 illəri daha təntənəli şəkildə qeyd etməyi rəbbim bizlərə nəsib etsin. Azərbaycan xalqının bu müstəqilliyinin əbədi olmasını arzu edirik. Çünki həqiqətən də dəyişən, yeniləşən Azərbaycan vardır. Azərbaycana hər səfərimizdə daha fərqli, dəyişilmiş bir Azərbaycanı görürəm. Bu da təbii, Azərbaycanın hazırda modern ölkələr arasında sürətlə inkişaf etdiyini, bu 20 il ərzində qazanılmış böyük uğurların bariz nümunəsidir. Bu, həm azərbaycanlı qardaşlarımıza, həm də bizlərə ayrı bir qürur verir. Bu, başda mərhum Heydər Əliyev olmaqla, Prezident İlham Əliyevin və hökumətinin uğurlu siyasətinin sübutudur. Qardaşım İlham Əliyevi bu xüsusda ayrıca təbrik edirik.

Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ilk toplantısını bu gün başa çatdırdıq. Bundan sonra bu toplantı Azərbaycanda keçiriləcəkdir. Amma bütün bunlarla bərabər, həsrətlə gözlədiyimiz məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasıdır. Bu münaqişənin həll olunması inanıram ki, bölgədə daha fərqli inkişafa imkan yaradacaqdır. Bu, sadəcə Azərbaycanın deyil, Türkiyə və bütün türk dünyasının ortaq sıxıntısı, ağrısıdır.

Mən hörmətli dövlət başçısına, bütün nümayəndə heyətinə, bugünkü görüşümüzdə əməyi olan dostlarımıza xüsusi təşəkkür edirəm. İkinci toplantını və vətəndaş cəmiyyəti forumunu gələn il, inşallah, Azərbaycanda keçirəcəyik. Azərbaycandakı toplantının gündəliyi inanıram ki, daha zəngin olacaq, fərqli bir təcrübəyə əsaslanacaqdır. Bu inamla Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısının xeyirli olmasını arzu edirəm və sözü hörmətli Prezident İlham Əliyevə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Sağ olun, əziz qardaşım!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə iki gün əvvəl Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində insan itkisi ilə əlaqədar Azərbaycan xalqı adından bütün türk xalqına başsağlığı vermək istəyirəm. Biz sizin dərdinizə şərikik. Hər zaman olduğu kimi, bu ağır gündə də Azərbaycan Türkiyənin yanındadır. Zəlzələ nəticəsində həyatını itirmiş insanlara Allahdan rəhmət diləyirik, yaralananlara şəfa diləyirik. Rəhmətə gedənlərin, yaralananların yaxınlarına səbir diləyirik.

Bu gün Türkiyə-Azərbaycan əlaqələrinin tarixində unudulmaz bir gündür. İlk növbədə ona görə ki, bu gün biz Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının birinci toplantısını keçirdik. Bu toplantını Türkiyənin gözəl guşələrindən biri olan İzmir

şəhərində keçirdik. Mən çox şadam ki, İzmirə də səfər etmək imkanım olmuşdur. Əvvəlki dövrdə Türkiyənin müxtəlif bölgələrində, müxtəlif şəhərlərində olmuşam, bu gün isə İzmirdəyəm. Mən deyə bilərəm ki, Türkiyənin hər bir yerində özümü doğma vətənimdəki kimi hiss edirəm. Əminəm ki, türk qardaşlarımız da Azərbaycana səfər etdikdə də özlərini evdəki kimi hiss edirlər.

Hörmətli qardaşım Baş nazir qeyd etdi ki, bu gün doğrudan da Türkiyə-Azərbaycan əlaqələrində çox vacib bir gündür. Birgə yaşadığımız bu günlər Azərbaycan müstəqilliyinin 20-ci ildönümünə təsadüf edir. Bu 20 illik müstəqillik, eyni zamanda, 20 illik Türkiyə-Azərbaycan qardaşlığı illəri olmuşdur. Bizi ilk müstəqil dövlət kimi tanıyan Türkiyə olmuşdur. İlk dövrdə bizim ən ağır, ən çətin illərimizdə Türkiyə yanımızda olmuşdur, bu gün də bu, belədir. Bu dostluq, qardaşlıq bundan sonra da əbədi yaşayacaqdır. Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir.

İyirmi il ərzində Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bu gün biz bu müttəfiqliyi artıq yeni formatda formalaşdırdıq. Strateji Əməkdaşlıq Şurasının iclası və iclasın nəticələri onu göstərir ki, bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar.

Bu gün imzalanmış sənədlər və əldə edilmiş razılaşmalar bundan sonrakı dövr üçün bir tövsiyədir. Bu sənədlərin icrası nəticəsində ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlıq daha da dərinləşəcəkdir. Biz siyasi sahədə bütün məsələləri bərabər müzakirə edirik və beynəlxalq məsələlərlə bağlı mövqeyimiz daim üst-üstə düşür. Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və qardaşlıq mövqeyinə görə bir daha bütün türk xalqına başda əziz qardaşım Baş nazir Tayyib Ərdoğan olmaqla minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqı bu qardaşlıq münasibətini yüksək qiymətləndirir və haqlı işimizdə Türkiyənin dəstəyi bizim üçün çox önəmlidir. Azərbaycan da bütün məsələlərdə daim Türkiyənin yanında olmuşdur. Xüsusilə Türkiyə üçün çox ağır olan terrorizm probleminin həllində də Azərbaycan daim Türkiyənin yanındadır. Terrora, terroristlərə qarşı haqlı mübarizədə Azərbaycan hər zaman Türkiyənin yanındadır, Türkiyənin bütün hərəkətlərini dəstəkləyir və müdafiə edir. Bu, belə də olmalıdır, çünki biz qardaşıq. Eyni zamanda, biz haqq-ədalətin tərəfindəyik. Biz istəyirik ki, bütün bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik olsun, insanlar mehribanlıq şəraitində yaşasınlar. Bizim niyyətimiz bundan ibarətdir və addımlarımız bu siyasəti gücləndirir.

Bu gün Azərbaycanın tarixində ən böyük sərmayə qoyuluşu layihəsi "Petkim" layihəsidir. İyirmi il ərzində bu günə qədər bu dərəcədə önəmli və böyük maliyyə mənbəyi tələb edən layihə Azərbaycan tərəfindən həyata keçirilməmişdir. Bu layihə Türkiyədə həyata keçirilir, çünki bu, bizim doğma vətənimizdir. Türkiyədə həyata keçirilən bu layihə Azərbaycanı, Türkiyəni gücləndirəcək, bölgədəki, dünyadakı mövqelərimizi gücləndirəcəkdir.

Eyni zamanda, qeyd etməliyəm ki, Türkiyənin son illər ərzində əldə etdiyi uğurlar bizi çox sevindirir. Türkiyə bu gün dünya çapında güc mərkəzidir, güclü dövlətdir. Türkiyə-

nin çox güclü iqtidarı vardır. Qardaşım Tayyib Ərdoğanın rəhbərliyi altında 10 il ərzində Türkiyə böyük, uğurlu bir yol keçmişdir. Bu gün dünyada yaşanan böhranlara baxmayaraq, Türkiyə iqtisadiyyatı uğurla inkişaf edir. Burada gördüklərim nailiyyətlər məni çox sevindirir. Aramızda əlaqələr çoxşaxəlidir. Bu gün bu əlaqələrin bir hissəsi müzakirə edildi. Şuranın iclasında enerji, nəqliyyat, iqtisadiyyat və humanitar məsələlər müzakirə edildi. Bu, birinci iclasdır və bundan sonra belə toplantılar mütəmadi qaydada keçiriləcək - ildə ən azı bir dəfə. Növbəti toplantı Azərbaycanda keçiriləcəkdir. Biz çalışmalıyıq ki, növbəti toplantılarda daha da geniş əməkdaşlıq formatını təşkil edək. Mən çox şadam ki, bizim nümayəndə heyətlərinin üzvləri də, hörmətli nazirlər də bir-biri ilə səmərəli əlaqələr qura bilmişlər. Bu bizə imkan verəcək ki, bu gün əldə edilmiş razılaşmalar uğurla icra edilsin.

Enerji məsələlərinə gəldikdə, bu gün enerji və qaz sahəsində imzalanmış sənədlər bizim üçün yeni imkanlar, yeni üfüqlər açır, uzunmüddətli uğurlu əməkdaşlığımız üçün şərait yaradır. Əminəm ki, bu əməkdaşlıqdan həm xalqlarımız, həm də bizim üçün dost olan ölkələr faydalanacaqlar.

Mən bir daha mənə və mənimlə bərabər Türkiyəyə gəlmiş nümayəndə heyətinin üzvlərinə göstərilmiş qonaqpərvərliyə və məhəbbətə görə əziz qardaşım Baş nazirə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha demək istəyirəm ki, biz Azərbaycanda Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına müstəsna əhəmiyyət veririk. Bu əlaqələr güclənir, güclənməlidir. Qarşımızda böyük yol vardır. Biz artıq 20 il ərzində əsl müttəfiqlər kimi işləmişik. Bundan sonra da onilliklər ərzində Türkiyə-Azərbaycan iki qardaş xalq, iki qardaş ölkə kimi ancaq və ancaq irəliyə gedəcəkdir. Sağ olun.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri başa çatmışdır.

Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İzmirin Adnan Menderes Aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtmışdır.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTS FİŞERƏ

Hörmətli cənab Federal Prezident,

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adım-

dan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan-Avstriya münasibətlərinə böyük əhəmiyyət veririk. Bu mənada siyasi, iqtisadi və mədəni əlaqələrimizin hazırkı inkişaf dinamikası xüsusi məmnunluq doğurur.

Əminəm ki, bu günlərdə ölkəmizə səfəriniz, Bakıda keçirdiyimiz görüşlər, ikitərəfli münasibətlərimizin gündəliyinə dair apardığımız dəyərli müzakirələr əlaqələrimizin daha da möhkəmlənməsinə, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsinə mühüm töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 17 oktyabr 2011-ci il.

TÜRKMƏNİSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDİMƏHƏMMƏDOVA

Hörmətli Qurbanqulu Məlikquliyeviç,

Dost Türkmənistanın milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasında dərin tarixi kökləri olan dostluq əlaqələrinin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 17 oktyabr 2011-ci il.

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan-Çexiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Bu ilin may ayında ölkəmizə səfəriniz dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə,

dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsinə yeni təkan vermişdir.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 17 oktyabr 2011-ci il.

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

Hörmətli cənab Prezident,

Əlcəzairin milli bayramı - İnqilab günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 24 oktyabr 2011-ci il.

PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCANIN BMT TƏHLÜKƏSİZLİK ŞURASINA ÜZV SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ BƏYANATI

Əziz dostlar, hörmətli xanımlar və cənablar!

Bir neçə saat bundan əvvəl ölkəmizin həyatında çox əlamətdar

və tarixi hadisə baş vermişdir. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilmişdir. Bu böyük qələbə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, həqiqətən də böyük qələbədir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və Azərbaycan müstəqil dövlət kimi artıq bu qurumun üzvüdür.

Bildiyiniz kimi, iki gün ərzində keçirilən seçkilərdə Azərbaycan bütün turlarda, bütün mərhələlərdə üstünlük əldə etmişdir. Birinci turda 3 namizədin arasında 1-ci yeri Azərbaycan tutmuşdur. Ondan sonra keçirilən səsvermələrdə həmişə bizim ölkəmizə çox

böyük dəstək verilmişdir. Nəticədə 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləyərək, etimad göstərərək bizi bu mötəbər təşkilata üzv seçdi. Mən fürsətdən istifadə edərək bizə inanan, bizə güvənən, bizə böyük hörmət göstərmiş bütün ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Demək istəyirəm ki, Azərbaycan bu təşkilatda sadiq olduğu ideallara, sülhə, təhlükəsizliyə, demokratiyaya, ədalətə xidmət edəcəkdir.

Uğurlarımız kifayət qədər çoxdur. Bu il biz müstəqilliyimizin 20 illiyini qeyd edirik. Biz bu böyük yubileyi böyük təntənə ilə və böyük uğurlarla qeyd edirik. Yubiley ərəfəsində keçirilmiş tədbirlər, verilmiş bəyanatlar ölkənin dinamik və uğurlu inkişafını əks etdirir. Yəni, ölkəmiz bütün sahələrdə inkişaf edir. Ölkə daxilində proseslər müsbət istiqamətdə gedir. Ölkəmizdə dünyada analoqu olmayan inkişaf yaşanır. Bu inkişaf bütün sahələrdə özünü göstərir. Azərbaycan həm sosial məsələlərin həllində, iqtisadi inkişafda, infrastruktur layihələrinin icrasında uğurla irəliyə gedir. Bütün bu uğurlarla, ölkə daxilində aparılan islahatlarla bərabər bizim xarici siyasətimiz də çox çevik və uğurludur. Bizim xarici siyasətimizin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını təmin edir. Bu siyasət əməkdaşlığı genişləndirmək, artırmaq üçün aparılan siyasətdir.

Bizim dünyadakı dostlarımızın sayı artmaqdadır. Mən dəfələrlə bu məsələ ilə bağlı Azərbaycan ictimaiyyətinə fikirlərimi bildirmişdim. Bu gün də demək istəyirəm ki, dünyada dostlarımız kifayət qədər çoxdur. Əgər əvvəlki dövrlərdə belə bəyanatlar konkret nəticələrlə təsdiqlənmirdisə, bu səsvermə verilən bütün bu bəyanatların əyani sübutudur. Dünya miqyasında 155 ölkə Azərbaycana inanır, Azərbaycana hörmət edir, Azərbaycana rəğbətlə yanaşır və Azərbaycanı dəstəkləyir.

Müstəqilliyimiz dövründə - 20 il ərzində belə böyük uğurun əldə edilməsi doğrudan da tarixi nailiyyətdir. Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib.

Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir. Bu böyük qələbə münasibətilə mən öz sevincimi Azərbaycan vətəndaşları ilə bölüşmək istəyirəm. Bir daha bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək, bundan sonra da qələbələrimizin sayı çox olacaqdır. Əziz dostlar, bu tarixi hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətlə dövlətimizin başçısını təbrik etdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

Hörmətli xanım Prezident,

Argentina Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Argentina dövlətlərarası münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Argentina xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 26 oktyabr 2011-ci il.

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

Hörmətli cənab Prezident,

Xanım Begum Nüsrət Bhuttonun vəfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 26 oktyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Leonid Maltsevi qəbul etmişdir.

Dövlət katibi Leonid Maltsev Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını

dövlətimizin başçısına çatdırdı. O, ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətlə Belarus Prezidentinin Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubuna ürəkdən qoşulduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini ölkəmizin həyatında mühüm tarixi hadisə kimi qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə Belarus arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarusun dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadze ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətlə Azərbaycan hökumətini, Azərbaycan xalqını və şəxsən Prezident İlham Əliyevi təbrik etdi. Qriqol Vaşadze ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirdi.

Müstəqilliyimizin ildönümündə ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinin önəmini qeyd edən dövlətimizin başçısı bunu Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun real göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyi zaman verdiyi dəstəyə görə Gürcüstan hökumətinə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən energetika sahəsində inkişafı məmnunluqla qeyd olundu, əməkdaşlığımızın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

TÜRKDİLLİ ÖLKƏLƏRİN VƏ TOPLUMLARIN II MEDİA FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi Azərbaycanda səmimi salamlayır, Türkdilli ölkələrin və toplumların II media forumunun keçirilməsi münasibəti ilə təbrik edirəm.

Qloballaşma proseslərinin intensiv xarakter aldığı müasir dövrdə türkdilli xalqlar arasında əlaqələrin strateji əhəmiyyəti daha da artmış, münasibətlərimizin forma və məzmunu əsaslı şəkildə yenilənmişdir. Müştərək mənafelərin təzahürü olaraq yaranmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türkdilli Dövlətlərin Parlament Assambleyası, Türksoy və digər təşkilatlar çərçivəsindəki birgə fəaliyyət ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı gücləndirməklə yanaşı, dövlətlərimizin

beynəlxalq aləmdə yerinin möhkəmlənməsinə və nüfuzunun artmasına da mühüm təsir göstərmişdir.

Xalqlarımız arasında münasibətlərin inkişafında rəsmi qurumlarla yanaşı vətəndaş cəmiyyəti institutlarının, media orqanlarının, elm və mədəniyyət xadimlərinin rolu xüsusi əhəmiyyətə malikdir.

İnteqrasiya meyillərinin getdikcə dərinləşdiyi müasir dünyada mətbuatın, informasiya istehsalı və ötürülməsi ilə məşğul olan digər qurumların lokal və dünya miqyasında cərəyan edən proseslərə təsiri durmadan artır. Hesab edirəm ki, türkdilli ölkələrin və toplumların kütləvi informasiya vasitələri dövlətlərimizin və xalqlarımızın bir-biri ilə daha da yaxınlaşmasına, ortaq mədəni-mənəvi dəyərlərin təbliğinə, habelə müasir inkişafın müxtəlif aspektləri barədə dünyada çevik və dolğun məlumatların yayılması işinə böyük töhfələr verə bilərlər.

İnanıram ki, qardaş ölkələrin və xalqların nüfuzlu media qurumlarının, jurnalistlərin iştirak etdiyi bugünkü forum əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi üçün yeni imkan və vasitələrin tapılmasına, türkdilli xalqların vahid informasiya məkanının formalaşmasına və əlaqəli fəaliyyətin səmərəli təşkilinə xidmət edəcəkdir.

Forum iştirakçılarını bir daha təbrik edir, toplantının işinə uğurlar arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2011-ci il.

XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR" BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli xanımlar və cənablar,

Sizi - "Xəzər: Ətraf Mühit üçün Texnologiyalar" Beynəlxalq Ətraf Mühit Sərgisinin iştirakçılarını səmimi qəlbdən salamlayır, hər birinizə bu xeyirxah işinizdə uğurlar diləyirəm.

Fərəhləndirici haldır ki, ətraf mühit mövzusunda bu cür sərgi Azərbaycanda artıq ikinci dəfə təşkil olunur. Ölkəmizdə "Ekologiya ili" elan edilmiş 2010-cu ildə ilk dəfə ekologiya ilə bağlı "Azərbaycan Yaşıl Dünya Naminə" Beynəlxalq Sərgisinin keçirilməsi bir daha sübut etdi ki, respublikamızda sosial-iqtisadi həyatın bütün sahələri kimi ətraf mühit məsələlərinin həlli də daim diqqət mərkəzində saxlanılır.

Eyni zamanda biz vətəndaşlarımızın sağlam ətraf mühitdə yaşamasının təmin olunması üçün bütün imkanlardan, o cümlədən ən müasir "yaşıl texnologiyalar"ın geniş tətbiqindən maksimum faydalanmalıyıq. Buna ölkə iqtisadiyyatının sürətli inkişafı nəticəsində ildən-ilə artan maliyyə imkanları da lazımi şərait yaradır.

Respublikamızın iqtisadi sahədə qazandığı nailiyyətlər nəticəsində son illər infrastrukturun inkişaf etdirilməsinə, irimiqyaslı ekoloji layihələrin gerçəkləşdirilməsinə böyük əhəmiyyət verilir. Əhalinin keyfiyyətli içməli su ilə təmin olunması, ərazilərin yaşıllaş-

dırılması, çirklənmiş torpaqların təmizlənməsi və biomüxtəlifliyin qorunması sahəsində ölkə miqyaslı mühüm layihələr icra olunur.

İnanıram ki, "Xəzər: Ətraf Mühit üçün Texnologiyalar" Beynəlxalq Ətraf Mühit Sərgisinin ətraf mühitin sağlamlaşdırılması və ekoloji problemlərin həllinə yönəldilmiş fəaliyyəti öz müsbət nəticələrini verəcəkdir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 oktyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN XXXI İCLASINDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Oktyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyev MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının Bakıda keçirilən XXXI iclasında iştirak edən nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV qonaqları salamlayaraq dedi:

-Xoş gəlmisiniz! Sizi Azərbaycanda salamlamağa şadam. Ümid edirəm ki, MDB ölkələrinin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının iclası uğurla, əməkdaşlıq, qarşılıqlı fəaliyyət ruhunda keçəcəkdir.

Bildiyiniz kimi, bizim ölkə ilə sizin təmsil etdiyiniz ölkələr arasında olduqca mehriban dostluq münasibətləri yaranıb. Biz müntəzəm olaraq dövlət başçıları səviyyəsində görüşürük, qarşılıqlı səfərlər edirik, bir çox mühüm məsələləri həll edirik. Bütün bunlar isə postsovet məkanında çox yüksək səviyyədə qarşılıqlı fəaliyyətə və qarşılıqlı dəstəyə təkan verir. Sovet İttifaqı dağıldıqdan sonra keçən 20 il ərzində əldə etdiyimiz ən böyük nailiyyət odur ki, biz xalqlarımız və ölkələrimiz arasında dostluq münasibətlərini qoruyub saxlaya və möhkəmləndirə bilmişik.

MDB çərçivəsində keçirilən müxtəlif görüşlərin, tədbirlərin ölkələr arasında əməkdaşlığın genişlənməsi üçün yaxşı perspektivlər yaratdığını qeyd edən Prezident İlham Əliyev humanitar sahədə də əlaqələrin möhkəmləndiyini vurğuladı. Dövlətimizin başçısı buna misal olaraq bu yaxınlarda Bakıda MDB ölkələrinin də iştirakilə keçirilən Birinci Beynəlxalq Humanitar Forumun bütün dünyada böyük maraq doğurduğunu diqqətə çatdırdı.

Prezident İlham Əliyev MDB ölkələri arasında iqtisadi əlaqələrə və xüsusi xidmət orqanlarının əməkdaşlığına da toxunaraq dedi:

-İqtisadi strukturlar xətti üzrə də əlaqələrimiz inkişaf edir. Azərbaycana gəlincə, bizim MDB ölkələri ilə əmtəə dövriyyəsi, qarşılıqlı investisiyalar artımı mövcuddur. Biz iqtisadi sahədə mövcud münasibətlərdən razıyıq. Hüquq mühafizə orqanları xətti üzrə də, həmçinin bizim regionda ikitərəfli və çoxtərəfli səviyyədə sərhədlərin mühafizəsi, cinayətkarlıqla mübarizə və əlbəttə ki, xüsusi xidmət orqanları xətti ilə ən böyük təhlükə-

lərlə mübarizə istiqamətində sıx əməkdaşlıq edirik.

"Biz hamımız maraqlıyıq ki, ölkələrimizdə sülh, əmin-amanlıq, inkişaf hökm sürsün. Qarşımızda vətəndaşlarımızın həyat səviyyəsini, rifahını daha da yaxşılaşdırmaq kimi böyük vəzifələr durur", - deyən Prezident İlham Əliyev bütün bu məqsədlərə əngəl olan terrorizm və ekstremizmə qarşı birgə mübarizənin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı bu baxımdan xüsusi xidmət orqanlarının üzərinə düşən vəzifələrdən danışdı.

Prezident İlham Əliyev MDB-nin üzvü olan ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının Bakıda keçirilən XXXI iclasının işinə uğurlar arzulayaraq bildirdi:

-Əminəm ki, Şuranın iclası uğurlu keçəcək, siz gündəlikdə duran bütün məsələləri müzakirə edəcəksiniz. Həmçinin düşünürəm ki, Bakıda keçirəcəyiniz bu iki gün sizi daha da yaxınlaşdıracaq, birgə iş üçün daha yaxşı şərait yaradacaqdır. Sizi bir daha salamlayır və Şuranın işinə uğurlar arzulayıram.

MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının sədri, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikov Şuranın XXXI iclasının Bakıda yüksək səviyyədə keçirilməsinə yaradılan imkana və nümayəndə heyəti ilə görüşə görə Azərbaycan Prezidenti İlham Əliyevə tədbir iştirakçıları adından minnətdarlığını bildirdi. O, MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının uğurla birgə əməkdaşlıq etdiklərini, beynəlxalq terrorizm, ekstremizm və digər ümumi təhlükələrə qarşı mübarizədə səyləri birləşdirdiklərini vurğuladı.

Aleksandr Bortnikov bildirdi ki, məhz ötən 20 ildə MDB məkanında təhlükəsizlik və xüsusi xidmət orqanlarının uğurlu birgə fəaliyyəti nəticəsində belə təhlükələrin qarşısı vaxtında alınır və səmərəli qabaqlayıcı tədbirlər həyata keçirilir. Qonaq qeyd etdi ki, Şuranın XXXI iclasında ötən müddətdə görülən işlərə yekun vurulacaq və növbəti birgə tədbirlər müəyyənləşdiriləcəkdir. O, son illərdə informasiya-kommunikasiya texnologiyaları və ən son elmi-texniki yeniliklərdən istifadə etməklə terrorizm, ekstremizm və digər təhlükələrin miqyasının daha artdığını bildirdi və buna qarşı mübarizədə daha sıx birgə fəaliyyət göstərməyin zəruriliyini diqqətə çatdırdı. Aleksandr Bortnikov onları qəbul etdiyinə və MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının XXXI iclasının Bakıda yüksək səviyyədə təşkilinə yaratdığı imkana görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirdi.

Qonaq nümayəndə heyətləri rəhbərləri adından Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Sonra xatirə şəkli çəkdirildi

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ NORVEÇLİ SƏYYAH VƏ ALİM TUR HEYERDALIN AİLƏ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də dünya şöhrətli norveçli səyyah və alim Tur Heyerdalın ailə üzvlərini qəbul etmişdir.

Dünya şöhrətli səyyahın oğlu Tur Heyerdal ailə üzvləri adından çıxış edərək atasının xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırladı. O, atasından Azərbaycanla bağlı daim xoş sözlər eşitdiyini vurğuladı.

Dövlətimizin başçısı Tur Heyerdalın Azərbaycana böyük maraq göstərməsinin və ölkəmizlə bağlı söylədiyi fikirlərin önəmini qeyd etdi. Prezident İlham Əliyev Tur Heyerdalın ailəsinin ölkəmizə səfərinin Azərbaycanla daha yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını dedi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Abdullah Gülü ad günü və Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə təbrik etmiş, ona Prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı, dost və qardaş Türkiyə xalqına firavanlıq arzulamışdır.

Abdullah Gül göstərilən diqqətə və təbriklərə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnun olduqlarını bildirmiş, Azərbaycan Prezidentinin Türkiyəyə son səfərinin və səfər zamanı imzalanmış sənədlərin əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından önəmini vurğulamış, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOREYANIN SK ŞİRKƏTLƏR QRUPU SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Koreyanın SK şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Çey Tae-von rəhbərlik etdiyi şirkətlər qrupunun Azərbaycanda gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qonaq şirkətlər qrupunun Azərbaycanın sürətli iqtisadi inkişafını nəzərə alaraq nəqliyyat sektorunda, o cümlədən avtomobil və dəmir yollarının salınmasında, metro tikintisində, eləcə də informasiya texnologiyaları və qeyri-neft sektorunda həyata keçirilən layihələrdə iştirak etməkdə maraqlı olduğunu dedi.

Dövlətimizin başçısı Koreyanın SK şirkətlər qrupunun Bakıda Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin inşası ilə bağlı fəaliyyətinin önəmini qeyd etdi. Prezident İlham Əliyev SK şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə SK şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ HESABLAMA PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Rusiya Federasiyasının Hesablama Palatasının sədri Sergey Stepaşini qəbul etmişdir.

Rusiya Federasiyasının Hesablama Palatasının sədri Sergey Stepaşin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20 illiyi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini böyük məmnunluq hissi ilə xatırladı. Sergey Stepaşin Rusiya Federasiyasının Hesablama Palatası ilə Azərbaycan Respublikasının Hesablama Palatası arasında əməkdaşlığın yaxşı perspektivləri olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Rusiya Federasiyasının Hesablama Palatasının sədri Sergey Stepaşinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının ədliyyə naziri Sadullah Erginin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ədliyyə naziri Sadullah Ergin Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, nazir kimi ilk rəsmi səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirdi. Ölkələrimizin ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan Sadullah Ergin bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Sadullah Erginin ədliyyə naziri vəzifəsinə təyin olunduqdan sonra ilk rəsmi səfərini qardaş ölkəyə etməsinə toxunan Prezident İlham Əliyev bunun ölkələrimiz arasında artıq gözəl bir ənənəyə çevrildiyini dedi. Bu yaxınlarda Türkiyənin İzmir şəhərində keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını xatırlayan dövlətimizin başçısı əlaqələrimizin daha da genişləndirilməsi baxımından toplantının böyük önəm daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını qardaş ölkənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

BOLQARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ

Hörmətli cənab Plevneliyev,

Bolqarıstan Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbə qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Bolqarıstanı ənənəvi dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı istiqamətində səylərimiz daim xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Bolqarıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 noyabr 2011-ci il.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ ZATİ-ALİLƏRİ XANIM HİLLARİ KLİNTONA

Hörmətli xanım Klinton,

Ananız xanım Doroti Rodemin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 noyabr 2011-ci il.

PREZİDENT İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Salem Xalifa Mohamed Əl-Ğaflinin etimadnaməsini qəbul etmişdir.

Səfir Salem Xalifa Mohamed Əl-Ğafli fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Salem Xalifa Mohamed Əl-Ğafli etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin böyük tarixə malik olduğunu və uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimizin həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçi-

vəsində yüksək səviyyədə əməkdaşlıq etdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırladı. Birləşmiş Ərəb Əmirliklərinin səfirliyinin ölkəmizdə fəaliyyətə başlamasından məmnunluğunu bildirən Prezident İlham Əliyev bunun əməkdaşlığımızın daha da dərinləşdirilməsi işi üçün yaxşı imkan yaradacağını bildirdi.

Səfir Salem Xalifa Mohamed Əl-Ğafli Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayid Al Nəhəyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Maktumun və Abu Dabi əmirliyinin vəliəhdi Şeyx Məhəmməd bin Zayid Al Nəhəyanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Salem Xalifa Mohamed Əl-Ğafli Birləşmiş Ərəb Əmirliklərinin ilk səfiri kimi ölkəmizdə fəaliyyətə başlamasından məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayid Al Nəhəyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Maktumun və Abu-Dabi əmirliyinin vəliəhdi Şeyx Məhəmməd bin Zayid Al Nəhəyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Dubay Əmirinə, Abu-Dabi əmirliyinin vəliəhdinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ARGENTİNANIN ELM, TEXNOLOGİYA VƏ PRODUKTİV İNNOVASİYA NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Argentina Respublikasının elm, texnologiya və produktiv innovasiya naziri Lino Baranaonu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Argentina arasında fəal əməkdaşlığın yaradıldığını vurğuladı. Latın Amerikası ölkələrindən ilk dəfə Argentina Respublikasında Azərbaycan Respublikası səfirliyinin açıldığını qeyd edən Prezident İlham Əliyev bildirdi ki, regional əməkdaşlığın inkişaf etdirilməsi üçün ölkələrimiz bir-birlərinin imkanlarından istifadə etməlidir. Lino Baranaonun Argentina Respublikasından Azərbaycana səfər edən ilk nazir olduğunu vurğulayan dövlətimizin başçısı əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Nazir Lino Baranao Azərbaycana ilk dəfə səfər etdiyini və ölkəmizdə böyük iqtisadi inkişafın şahidi olduğunu dedi. Azərbaycanın strateji bir mövqedə yerləşdiyini vurğulayan nazir ölkəsinin Azərbaycan ilə tərəfdaşlıq əlaqələri qurmağa böyük önəm verdiyini bildirdi.

LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL SÜLEYMANA

Hörmətli cənab Prezident,

Livan Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Livan münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 noyabr 2011-ci il.

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Latviya Respublikasının elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan-Latviya münasibətləri hərtərəfli inkişaf etməkdədir. Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, ölkələrimizi birləşdirən ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində bundan sonra da səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Latviya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 noyabr 2011-ci il.

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

Əlahəzrət,

Omanın milli bayramı - Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Oman arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Oman xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 2 noyabr 2011-ci il.

QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

Hörmətli Almazbek Şerşenoviç,

Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı mövcud dostluq və əməkdaşlıq münasibətlərinin tarixi ənənələri xalqlarımızın yekdil iradəsinə uyğun olaraq bundan sonra da yaşayacaq və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Qırğızıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 3 noyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜNXEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Münxen Təhlükəsizlik Konfransının sədri Volfanq İşingeri qəbul etmişdir.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Alamı qəbul etmişdir.

Əsəd Alam Dünya Bankının vitse-prezidenti Filip Le Uerunun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Respublikasının müstəqilliyinin 20 illiyi və ötən dövr ərzində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Əsəd Alam təmsil etdiyi qurumun Azərbaycan ilə uğurlu əməkdaşlığından məmnunluğunu bildirdi.

Dünya Bankının Azərbaycan ilə əməkdaşlığını yüksək qiymətləndirən Prezident İlham Əliyev gələcəkdə də ümumi maraq doğuran layihələrə dəstək veriləcəyini bildirdi.

Görüşdə 2011-ci ildə ölkəmizin qeyri-neft sektorunun sürətlə inkişaf etdiyi vurğulandı, Azərbaycanda həyata keçirilən birgə layihələrin önəmi qeyd olundu, sosial infrastruktur layihələri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Dünya Bankının vitse-prezidenti Filip Le Uerunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dünya Bankının vitse-prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

İllik həcc ziyarəti başa çatdığı bir vaxtda Mişel və mən Qurban bayramı münasibətilə Amerika və bütün dünya müsəlmanlarına və xüsusən də, İslamın əsas sütunlarından biri ilə bağlı mərasimin uğurla yerinə yetirilməsi münasibətilə hacılara ən xoş arzularımızı çatdırmaq istərdik.

Həcc ziyarətində olan və dünyanın üç əsas dinində İbrahim peyğəmbərin yolunu xatırladan ayinləri həyata keçirən üç milyona yaxın müsəlmana minlərlə amerikalı müsəlmanın qoşulması bizi fərəhləndirir. Bu il həcc ziyarətində olmuş şəxslərdən əlavə bütün dünya müsəlmanları Qurban bayramını Allah-taala ilə əlaqələrini düşünərək, öz oğlunu qurban verməyə hazır olan İbrahim peyğəmbəri yad edərək məzlumlara qida yardımı etmək məqsədi ilə keçirəcəklər. Dünya müsəlmanlarının əksəriyyəti bu gün böyük ehtiyacları olanlara, o cümlədən Afrika Buynuzunda quraqlıq və aclıqdan əziyyət çəkənlərə şəfqətlə yanaşmağa hazır olduqlarını nümayiş etdirmək qərarına gəldilər.

Daha böyük işlərə səylərini yönəltmək məqsədi ilə müxtəlif etnik və iqtisadi mənşəyi olan insanlar öz fərqlərini unutduğu bir anda müxtəlifliyimizin Allah tərəfindən verilmiş və qovuşacağımız güc mənbəyi olması bütün bəşəriyyət üçün bir örnəkdir.

Amerika xalqı adından belə bir xüsusi vaxtda dünya müsəlmanlarını Qurban bayramı münasibətilə təbrik etmək istəyirik və Həcc ziyarətini uğurla başa çatdıranlara öz təbriklərimizi yetiririk. Qurban bayramınız mübarək olsun.

Səmimiyyətlə,

Barak Obama

Amerika Birləşmiş Ştatlarının Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN "STATOİL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Norveçin "Statoil" şirkətinin Baş icraçı direktoru Helge Lundu qəbul etmişdir.

"Statoil" şirkətinin baş icraçı direktoru Helge Lund Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv qəbul olunması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, dövlətimizin başçısı ilə Davosda keçirdiyi görüşü məmnunluqla xatırladı. Helge Lund təmsil etdiyi "Statoil" şirkətinin Azərbaycandakı fəaliyyətinə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıq etdi.

Azərbaycan Prezidenti "Statoil" şirkətinin ölkəmizdəki uğurlu fəaliyyətini yüksək qiymətləndirdi.

Görüşdə "Statoil" şirkətinin Azərbaycandakı birgə layihələrdə iştirakı və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da İsrail dövlətinin milli infrastruktur naziri Uzi Landaunu qəbul etmişdir.

Nazir Uzi Landau İsrail dövlətinin Prezidenti Şimon Peresin salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə İsrail arasında iqtisadi, sənaye, infrastruktur sahələri ilə bağlı əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Prezident Şimon Peresin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrail dövlətinin başçısına çatdırmağı xahiş etdi.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Noyabrın 11-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmitt Heydər Əliyev Fondunu ziyarət etmişdir.

Macarıstanın dövlət başçısını Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Macarıstan Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldu.

Fondla tanışlıq zamanı Prezident Pal Şmittə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxşiş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Pal Şmitt Fondla tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Macarıstan Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.

BAKIDA AZƏRBAYCAN-MACARISTAN BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev və Macarıstan Prezidenti Pal Şmitt biznes forumda iştirak etmişlər

Noyabrın 11-də Bakıda Azərbaycan-Macarıstan biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Macarıstan Prezidenti Pal Şmitt biznes forumda iştirak etmişlər.

Forum iştirakçıları dövlət başçılarını hərarətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham ƏLİYEV biznes forumda çıxış edərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bu gün Macarıstan-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür - Macarıstan Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Bu səfər, əlbəttə ki, əlaqələrimizin tarixində xüsusi yer tutacaqdır, çünki bu, birinci rəsmi səfərdir.

Mən üç il bundan əvvəl Macarıstana rəsmi səfər etmişəm və səfərin nəticələri çox uğurlu olmuşdur. Çünki o səfərdən sonra ikitərəfli əlaqələrimizin inkişafında yeni mərhələ başlanmışdır. Əminəm ki, cənab Prezident, Sizin səfəriniz, eyni zamanda, münasibətlərimizin inkişafı üçün çox əhəmiyyətli olacaqdır.

Bu gün keçirdiyimiz görüş və apardığımız danışıqlar, fikir mübadiləsi bir daha onu göstərir ki, aramızda çox səmimi münasibətlər mövcuddur. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Biz münasibətlərimizi dostluq, tərəfdaşlıq prinsipləri üzərində qurmuşuq. Əminəm ki, növbəti illərdə bu əlaqələr ancaq güclənəcəkdir. Bunu deməyə əsas verən amillər kifayət qədər çoxdur. Sizin rəsmi səfəriniz, böyük heyətlə Azərbaycana səfər etməyiniz, - bilirəm ki, Sizinlə bərabər çoxsaylı iş adamları gəlmişlər, - çox əlamətdar hadisədir. Şübhə etmirəm ki, Sizin səfəriniz əlaqələrimizin inkişafına yeni və güclü təkan verəcəkdir.

Əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Əlaqələrimiz tarixi köklər üzərində qurulmuşdur. Bu gün cənab Prezidentlə fikir mübadiləsi əsnasında bu tarixə də nəzər yetirdik. Xalqlarımız arasındakı dostluq əlaqələri böyük tarixə malikdir. Bu çox güclü tarixi zəmin ikitərəfli əlaqələrin inkişafı üçün də əhəmiyyətlidir.

Biz, eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasında olan əlaqələrin inkişafına töhfələrimizi veririk. Macarıstan bütün dövrlərdə Azərbaycanın Avratlantik strukturlara inteqrasiya siyasətini dəstəkləmişdir. Bu yaxınlarda keçirilmiş Şərq tərəfdaşlığı zirvə görüşü bir daha Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli addım olmuşdur, bir daha göstərmişdir ki, bu əlaqələrin çox gözəl gələcəyi vardır.

Müxtəlif sahələrdə əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Bu gün, əlbəttə ki, bu forumda daha çox iqtisadi sahədəki əməkdaşlıq haqqında söhbət açılacaqdır. Mən çox şa-

dam ki, bu biznes forum hər iki tərəfin, hər iki ölkənin iqtisadi imkanlarını bir-birinə təqdim edəcəkdir. Buna böyük ehtiyac vardır.

Əminəm ki, iqtisadi əlaqələrimiz güclənərsə, əlbəttə, bunun bütün sahələrdəki əlaqələrə də çox müsbət təsiri olacaqdır. Biz indi statistik rəqəmlərə baxanda bəzi hallarda təəssüflənirik ki, nə üçün Macarıstan ilə Azərbaycan arasında iqtisadi əlaqələr, yəni ticarət dövriyyəsi istədiyimiz səviyyədə deyildir?! Bunun müxtəlif səbəbləri ola bilər. Hesab edirəm, ən başlıca səbəb ondan ibarətdir ki, biznes dairələri bir-birini yaxşı tanımırlar. Yəni, hər iki ölkənin iqtisadi potensialı haqqında kifayət qədər məlumat yoxdur. Bu məlumatsızlıq istər-istəməz iqtisadi sahədəki əməkdaşlığı əngəlləyir. Ona görə, hesab edirəm, bugünkü biznes forumun başlıca məqsədi ondan ibarət olmalıdır ki, hər iki ölkənin və bir halda ki, bu forum Azərbaycanda keçirilir, ilk növbədə Azərbaycanın iqtisadi imkanları təqdim edilsin. Azərbaycanda reallaşan infrastruktur və sənaye layihələri haqqında məlumat verilsin. Azərbaycanda mövcud olan qanunvericilik bazası, vergilərlə bağlı vəziyyət geniş şəkildə təqdim edilsin.

Azərbaycanın iqtisadi inkişafı planlı şəkildə həyata keçirilir. Əlbəttə, özəl sektorun bu işlərdə çox böyük rolu vardır. Ölkəmizin ümumi daxili məhsulunda özəl sektorun payı 80 faizdən yuxarıdır. Demək olar ki, biz bu sahədə çox köklü iqtisadi islahatları artıq başa çatdırmışıq. Ancaq bununla bərabər, ölkədə reallaşan nəhəng infrastruktur layihələri, təbii ki, dövlət tərəfindən icra edilir. Bizim müxtəlif dövlət proqramlarımız, konkret icra mexanizmlərimiz vardır. Azərbaycanda, misal üçün, gələn il və ondan sonrakı illərdə görüləcək işlər haqqında konkret sənədlər və layihələr mövcuddur. Əminəm ki, Macarıstan iş adamları əgər planlarımızla tanış olsalar, Azərbaycanda daha da səmərəli şəkildə fəaliyyət göstərə bilərlər.

Təkcə keçən il Azərbaycan iqtisadiyyatına 16 milyard dollardan çox sərmayə qoyulmuşdur. Bu sərmayənin əksər hissəsi yerli - Azərbaycan sərmayəsidir. Bununla bərabər, xarici investisiyaların cəlb edilməsi üçün ölkədə ardıcıl siyasət aparılır və deyə bilərəm ki, MDB məkanında birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan qabaqcıl yerlərdədir. Son on beş il ərzində bütövlükdə Azərbaycan iqtisadiyyatına 100 milyard dollardan çox sərmayə qoyulmuşdur ki, bu da hərtərəfli iqtisadi inkişafımıza güclü təkan vermişdir.

Hazırda bizim iqtisadi siyasətlə bağlı əsas prioritet məsələlərimiz ölkə iqtisadiyyatının şaxələndirilməsidir. Energetika amilindən asılılığımızı azaltmaq, özəl sektoru inkişaf etdirmək üçün konkret tədbirlər görülür. Kiçik və orta sahibkarlığın inkişafı və stimullaşdırılması üçün də konkret proqramlar icra edilir.

Macarıstan şirkətləri Azərbaycanda müxtəlif layihələrdə investorlar kimi iştirak edə bilərlər. Biz bunu, əlbəttə ki, alqışlayırıq və alqışlayacağıq. Burada birgə müəssisələr yaradıla bilər. Azərbaycanda Macarıstan kapitalı ilə təmin edilmiş müəssisələr yaradıla bilər. Nəzərə alsaq ki, qonşu ölkələrlə iqtisadi sahədə əməkdaşlığımız çox uğurludur, bu müəssisələr həm Azərbaycanın artan bazarını təmin edə, eyni zamanda, qonşu ölkələrə də Azərbaycanda istehsal olunan məhsul ixrac edilə bilər. Yəni, həm Azərbaycan bazarı, həm qonşu ölkələrin böyük bazarları burada yaradılacaq birgə müəssisələrin işləməsi üçün yaxşı şərait yarada bilər. Qeyd etdiyim kimi, Azərbaycanda reallaşan müxtəlif infrastruktur layihələrində Macarıstan şirkətləri iştirak etməlidirlər və biz bunu alqışla-

yırıq. Əminəm ki, bu gün burada veriləcək məlumatlar, təqdimatlar kifayət qədər dolğun olacaqdır. Bu da Macarıstan şirkətlərinə kömək göstərə bilər.

Bununla bərabər, qeyd etməliyəm ki, Azərbaycan şirkətləri də indi xaricə sərmayələrin qoyuluşu ilə bağlı öz təşəbbüslərini irəli sürürlər. Artıq Azərbaycan şirkətləri müxtəlif ölkələrdə uğurla fəaliyyət göstərirlər. O cümlədən şirkətlərimiz Avropa qitəsində böyük investisiyaları reallaşdırırlar, ilk növbədə, energetika, turizm, infrastruktur sahələrində. Bütövlükdə iqtisadi siyasətimizin indiki mərhələdəki prioritetləri ondan ibarətdir ki, biz daha çox xarici bazarlara investisiya qoyuluşu ilə məşğul olmalıyıq. Ölkə daxilində təbii ki, inkişafımız üçün bütün lazım olan investisiya layihələri, bütün infrastruktur layihələri icra edilir. Ancaq hazırda biz siyasətimizi elə qururuq ki, həm məhsullarımızla, həm maliyyə kapitalımızla xarici ölkələrin bazarlarına çıxa bilək. Burada dövlət və özəl sektor arasındakı tərəfdaşlıq mühüm rol oynaya bilər. Biz, əlbəttə ki, bu imkanları da nəzərdən keçirməliyik.

Deyə bilərəm ki, bütövlükdə Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını göstərmişdir. Hətta ən ağır böhranlı illərdə - 2-3 il bundan əvvəl Azərbaycanda iqtisadi artım yenə də böyük rəqəmlərlə ölçülürdü. Bütövlükdə son 7-8 il ərzində Azərbaycanda ümumi daxili məhsul 3 dəfə, yəni 300 faiz artmışdır. Sənaye istehsalı da 3 dəfə artmışdır. Doqquz yüz mindən artıq yeni iş yerləri açılmışdır. Yoxsulluğun səviyyəsi 5 dəfə azalmışdır, dövlət büdcəsinin xərcləri isə 20 dəfə artmışdır. Yəni, bu il yenə də iqtisadi sahədə artım müşahidə olunur və ən sevindirici hal ondan ibarətdir ki, bu artım indi daha çox qeyri-neft sektorunda özünü göstərir. Qeyri-neft sektorundakı artım təxminən 9 faiz səviyyəsindədir. Kənd təsərrüfatında da artım 7 faizdən çoxdur.

Kənd təsərrüfatı məsələlərinə gəldikdə, bu barədə də biz bu gün fikir mübadiləsi apardıq. Macarıstanın bu sahədə çox zəngin təcrübəsi vardır və bu təcrübə bizim üçün də çox böyük maraq kəsb edir. Hesab edirəm ki, bu gün kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq və digər sahələr üzrə məlumatlar veriləcəkdir.

Eyni zamanda, bütövlükdə Azərbaycanın iqtisadi inkişafını xarakterizə etmək üçün enerji sektoru haqqında danışmamaq mümkün deyildir. Bu sahə bizim üçün ənənəvi olmuşdur. Azərbaycan o ölkə, o diyardır ki, dünyada sənaye üsulu ilə ilk neft məhz burada hasil edilmişdir. Dəniz yataqlarından da dünya miqyasında ilk neft Azərbaycanda hasil edilmişdir. Yəni, Azərbaycan qədim neft ölkəsi kimi bütün dünyaya bəllidir və dünyada məşhurdur. İkinci Dünya müharibəsində Azərbaycan Sovet İttifaqının yanacağının 70-80 faizini vermişdir və faşizm üzərində Qələbədə Azərbaycan neftçilərinin müstəsna rolu olmuşdur. Hazırda neftimiz dünya və o cümlədən, Avropa bazarlarına ixrac edilir. Bəzi Avropa ölkələrinin enerji balansında Azərbaycan nefti 25-30 faiz təşkil edir. Yəni, biz tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfəmizi veririk.

Hazırda isə Azərbaycan dünyada qaz ölkəsi kimi də özünü təqdim etməyə başlamışdır və bu sahədə potensial kifayət qədər böyükdür. Azərbaycanda aşkar edilmiş nəhəng qaz yataqları imkan verəcəkdir ki, bundan sonra ən azı 100 il ərzində özümüzü və tərəfdaşlarımızı qazla təmin edə bilək. Bizim kifayət qədər geniş nəqliyyat şəbəkəmiz vardır. Yeddi neft-qaz kəmərimiz fəaliyyət göstərir ki, resurslarımızı müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarır. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında

"Cənub" qaz dəhlizi üzrə imzalanmış Bəyannamə Avropa ilə Azərbaycan arasındakı əlaqələrin inkişafına da çox müsbət təsir göstərmişdir. Əminəm ki, növbəti illərdə Azərbaycan qaz sahəsində Macarıstanla və digər Avropa ölkələri ilə səmərəli əməkdaşlıq qura biləcəkdir.

Bir daha, cənab Prezident, mən Sizi salamlayıram. Mən forum iştirakçılarını salamlayıram. Əminəm ki, bu forumun çox gözəl nəticələri olacaqdır və bu nəticələr öz növbəsində Macarıstan-Azərbaycan əlaqələrinin inkişafına da töhfəsini verəcəkdir. Diqqətinizə görə sağ olun!

* * *

Macarıstan Prezidenti Pal ŞMİTT çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar, hörmətli dostlar!

Burada biznes forumun iştirakçılarını salamlamaqdan şərəf hissi duyuram. Mən xüsusi məmnunluqla qeyd edirəm ki, biz bu tədbiri cənab Prezident Əliyev ilə birgə açırıq. Bu, bir daha iqtisadiyyata, iqtisadi sahədə çalışan müxtəlif müəssisələrə verilən xüsusi diqqətin təzahürüdür. Mən səfərim zamanı Azərbaycanı daha yaxşı tanımaq, Azərbaycan Prezidenti ilə fikir mübadiləsi aparmaq imkanı qazandım. Mən bu səfərimdən çox məmnunam. Əslində burada gördüyüm bütün işlərdən, aparılan bütün tikinti işlərindən çox məmnun oldum.

Təbii, hamımız üçün məlumdur ki, əslində, Qafqazda vəziyyətin sabit olması çox mühüm əhəmiyyət kəsb edir və Azərbaycan bu regionun mühüm ölkəsidir. Azərbaycan bizim üçün strateji tərəfdaşdır, münasibətlərimizdə heç bir problem yoxdur. Münasibətlərimizdə, əlaqələrimizdə onları əngəlləyən hər hansı bir meyar mövcud deyildir. Biz hesab edirik ki, məqsədimiz məhz müxtəlif sahələrdə əməkdaşlıq etməkdir. Biz olduqca maraqlıyıq ki, iki tərəf arasında birbaşa əməkdaşlıq aparılsın, ticarət palatalarımız əməkdaşlıq etsin və hər iki tərəfin birbaşa imkanları olsun. Biz mütləq bunun üçün şərait yaratmalıyıq.

Bu yaxınlarda Azərbaycan-Macarıstan iqtisadi münasibətlərində müəyyən tənəzzül müşahidə olunurdu. Lakin biz bunu dəyişməliyik. Hesab edirik ki, Azərbaycanın müvafiq nazirlikləri və Macarıstanın dövlət qurumları iqtisadi sahədə lazımi qanunverici bazanı yaradıblar və əslində, bu, bizim bu sahədəki münasibətlərimizi daha da gücləndirməlidir. Eyni zamanda, sərmayələrin qorunması və ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlər artıq qüvvəyə minir. Bizim dövlətlərin hökumətlərarası sazişləri də artıq işləyir. Bu gün səfər çərçivəsində Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi və vergilər sahəsində sazişlər imzalanmışdır.

Qeyd etmək istərdim ki, əgər öncə biz sadəcə bir-birimizi salamlayırdıqsa, hazırda mətbuat qarşısında dəfələrlə bir-birimizi salamladıq. Lakin bu fəaliyyət, bu işlər onun üçün lazımdır ki, biz bir-birimizə olan etimadı daha da gücləndirək. Əvvəlcə hər hansı bir razılaşma üçün bir-birimizi salamlamaq lazım idi. Lakin indi isə müqavilə üçün əlavə əsaslar tələb olunur - bank razılaşmaları və s. Lakin mən qeyd etmək istəyirəm ki, iradə olan yerdə biz aramızda birbaşa əlaqələrin qurulması üçün daha yaxşı şəraitləri qazanırıq.

Qeyd etmək istəyirəm ki, əgər 2010-cu ildə bizdə 10 milyon dollar həcmində ticarət dövriyyəsi var idisə, 2011-ci ildə bu rəqəm 78 milyona çatmışdır. Bu da böyük bir tərəqqidir. Hesab edirəm ki, bu sahədə münasibətlərimizin gücləndirilməsi üçün imkanlar vardır. Məhz bu məqsədlə biz bugünkü tədbiri təşkil etmişik. Hesab edirik ki, hər iki ölkənin işgüzar dairələri arasında birbaşa təmaslar olacaqdır. Burada əyləşən şəxslərlə birbaşa təmas o deməkdir ki, hər iki tərəfin maraqlarına cavab verən sazişlər imzalanacaqdır.

Mən bəyan edirəm ki, Azərbaycanda infrastruktur sahəsində aparılan böyük işlər bizdə dərin iftixar hissi yaradır və bu, bizim Azərbaycana, Sizin ölkənizə xüsusi münasibətimizin mənbəyidir. Biz bilirik ki, Azərbaycan beynəlxalq sahədə özünəməxsus yer tutur. Macarıstan Respublikası bu yaxınlarda ticarət evi yaratmaq fikrindədir. Hesab edirəm ki, bu da ikitərəfli münasibətlərin sonrakı inkişafı üçün yaxşı zəmin yaradacaqdır. Biz, eyni zamanda, arzu edərdik ki, gələcəkdə Budapeştdə Azərbaycanın da ticarət evi açılsın.

Hörmətli xanımlar və cənablar, biz Azərbaycanın məhz qeyri-neft sektorunda həyata keçirdiyi layihələrə xüsusi diqqətlə yanaşırıq. Biz bilirik ki, enerji mənbələrinin işlənilməsi, onların hasilatı daimi deyildir və Azərbaycanın rəhbərliyi bunu anlayır və görür. Bizim üçün həmin perspektiv məqsədlərə yönəlmiş layihələrin həyata keçirilməsində iştirak etmək çox vacib olardı. Məhz Macarıstanın şirkətləri nou-hau hesabına böyük dəyişikliklərə nail olmuşdur. Gələn illər ərzində bizdə maşınqayırma, elektronika, biotexnologiyalar, informasiya texnologiyaları, logistika məsələlərinə xüsusi diqqət yetiriləcəkdir və xidmət sahəsi də diqqət mərkəzində olacaqdır. Bu forumdan sonra Azərbaycan tərəfdaşları macar firmalarının konkret təklifləri ilə tanış olacaqlar. Ola bilsin ki, onlar öz aralarında müəyyən sazişlərə də nail olacaqlar.

Hörmətli cənab Prezident, icazə verin, bir məsələni qeyd edim. Biz bu gün artıq bir sazişə nail olduq. Nahar zamanı mən 27 il ərzində Beynəlxalq Olimpiya Komitəsində işlədiyimi söylədim. Mən bilirəm ki, Siz də öz ölkənizin Olimpiya Komitəsinin rəhbərisiniz. Mən artıq öz istəyimə nail oldum. Biz bu sahədə əməkdaşlıq barədə razılaşma əldə etdik.

Hörmətli dostlar, icazə verin, sizə uğurlu iş arzulayım. Diqqətinizə görə minnətdaram.

* * *

İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən Azərbaycan-Macarıstan biznes forumunda hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı və qida sənayesi, tikinti və əmlak, sənaye, maliyyə və bank, ticarət, səhiyyə, nəqliyyat, kimya sənayesi və digər sahələrdə fəaliyyət göstərən 250-dək iş adamı iştirak etmişdir.

Biznes forumda AZPROMO-nun rəhbəri Adil Məmmədov Azərbaycanın qazandığı sosial-iqtisadi nailiyyətlər, ölkəmizdə yaradılmış əlverişli biznes mühiti və investisiya imkanları, Macarıstanın İnvestisiya və Ticarət Agentliyinin (HİTA) rəhbəri Dobos Erzsebet təmsil etdiyi qurumun fəaliyyəti, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev isə şirkətin həyata keçirdiyi layihələr ilə bağlı təqdimatlarla çıxış etmişlər.

Tədbir çərçivəsində AZPROMO və HİPA arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Bundan başqa, biznes forumda Azərbaycan Ticarət və Sənaye Palatası ilə Macarıstanın Ticarət və Sənaye Palatası arasında qarşılıqlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

Biznes forum Azərbaycan və Macarıstan iş adamları arasında ikitərəfli görüşlərlə davam etmişdir.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmittin şərəfinə rəsmi ziyafət verilmişdir.

Prezident İlham ƏLİYEV Macarıstan dövlətinin başçısını və nümayəndə heyətini Azərbaycanda bir daha salamladı. Bildirdi ki, bu səfər ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olacaqdır.

Səfər çərçivəsində aparılan müzakirələrin faydalı olduğunu deyən Azərbaycan Prezidenti bildirdi ki, 2008-ci ildə Macarıstana etdiyi dövlət səfərindən keçən dövr ərzində əlaqələr daha da inkişaf edib, qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayıb.

Dövlətimizin başçısı macar və Azərbaycan xalqları arasında münasibətlərin qədim tarixinin olduğunu da diqqətə çatdıraraq dedi:

-Macar və Azərbaycan xalqları arasında münasibətlərin qədim tarixi vardır. Hələ XV-XVII əsrlərdə Ağqoyunlu və Səfəvi dövlətləri ilə macar krallıqları arasında diplomatik əlaqələr və ticarət münasibətləri mövcud olmuşdur. Müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərləri macar dilinə, macar ədiblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Dünyada məşhur olan Azərbaycan muğamı və Azərbaycan simfonik musiqisi Macarıstanda maraqla dinlənilir.

Mən Macarıstan ilə Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Macarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Növbəti il isə biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik.

Son illərdə ticarət dövriyyəsində artımın müşahidə olunduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, ölkəmizin xarici siyasətində Avropa İttifaqı və Avratlantik strukturları ilə əməkdaşlıq mühüm yer tutur.

Dövlətimizin başçısı qeyd etdi ki, bu gün Azərbaycan regionun əsas iqtisadi mərkəzlərindən biridir və Avropa ölkələrinin enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bununla yanaşı, Azərbaycan regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına çalışır.

Prezident İlham Əliyev dedi:

-Tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı digər yeddi rayon 20 ildən artıqdır ki, Ermənistan tərəfindən zəbt olunub. İşğal olunmuş ərazilərdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa Şurası, NATO, Avropa Parlamenti, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq təşkilatların qərar və qətnamələri vardır. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Macarıstan Prezidenti Pal ŞMİTT onu ölkəmizə səfərə dəvət etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Qeyd etdi ki, bu səfər dostluq münasibətlərini daha yüksək səviyyəyə qaldırır.

Macarıstan dövlətinin başçısı Azərbaycan və macar xalqlarının tarixinə də nəzər salaraq dedi:

-Azərbaycan və macar xalqları arasında münasibətlərin tarixi uzaq keçmişə təsadüf edir və həmin vaxtlardan etibarən hər iki millət hunlar, skiflər, xəzərlər kimi eyni toplumun bir hissəsi olaraq ümumi qədim irsə malikdirlər və qan qohumluğu, mədəniyyət və dil sahələrində oxşarlıqlar bizi bir-birimizə bağlayır. Gələn ilin avqust ayında Macarıstanda keçiriləcək Millətlər Məclisinin 4-cü qurultayı həmin qan qohumluğunun mühüm təzahürü olacaq və biz həmin tədbirdə Azərbaycan xalqının da nümayəndələrini gözləyirik.

"Xalqlarımız və dövlətlərimiz tarixən bir-birinə hörmətlə yanaşıblar", - deyən Prezident Pal Şmitt bildirdi ki, Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında intensiv dialoq yaranıb və ikitərəfli əməkdaşlıqda ciddi nəticələr əldə edilib, bir sıra yüksək səviyyəli rəsmi səfərlər baş tutub, əsas qanunvericilik bazası yaradılıb. Bununla da Azərbaycan Macarıstanın Cənubi Qafqaz regionunda strateji tərəfdaşına çevrilib.

Macarıstanın Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə qəti və davamlı şəkildə sadiq olduğunu vurğulayan Prezident Pal Şmitt regiondakı dondurulmuş münaqişələrin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi.

Macarıstan dövlətinin başçısı dedi:

-Sizi əmin edirəm ki, Macarıstan Azərbaycanın Avratlantik inteqrasiyasına yönəlmiş səylərinə böyük dəstək verir. Biz Sizin adət-ənənələrinizə və dəyərlərinizə hörmətlə yanaşırıq. Biz Azərbaycanı regionda ən inkişaf etmiş dövlət hesab edirik. Bizim üçün Azərbaycan regionda yaxın dost və mühüm tərəfdaşdır.

"Bu səfər mədəniyyət, təhsil və elm sahələrində mövcud münasibətləri daha da dərinləşdirmək üçün yaxşı fürsətdir", - deyən Macarıstan Prezidenti əmin olduğunu bildirdi ki, ölkələrimiz iqtisadiyyat, ticarət və enerji sahələrində əlaqələri dinamik şəkildə inkişaf etdirmək üçün yaxşı potensiala malikdir.

Sonda Macarıstan dövlətinin başçısı xalqımıza firavanlıq, ölkəmizə sülh və tərəqqi arzuladı.

AZƏRBAYCAN VƏ MACARISTAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 11-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstan Respublikasının Prezidenti Pal Şmitt mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Bu, Macarıstan Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə bu səfər tarixi xarakter daşıyır və çox şadam ki, səfər çox uğurlu keçir.

Bu gün keçirdiyimiz danışıqlar, apardığımız müzakirələr Macarıstan-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Doğrudan da aramızda çox gözəl siyasi əlaqələr vardır. Bu əlaqələr artıq sınaqdan keçibdir. Biz beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq edirik və Sizin səfəriniz əlbəttə ki, siyasi əlaqələrə yeni təkan verəcəkdir. Mən bilirəm ki, Sizinlə birlikdə Azərbaycana biznes dairələrini təmsil edən böyük heyət gəlmişdir. Bu gün Macarıstan-Azərbaycan biznes forumu da keçirilir və əminəm ki, biznes dairələri arasında olan əlaqələr iqtisadi əməkdaşlığımıza da güclü təkan verəcəkdir. Çünki biz bu sahədə hələ işləməliyik. İqtisadi əməkdaşlıq siyasi əməkdaşlığın səviyyəsinə çatmalıdır. Əminəm ki, biznes forumun keçirilməsi bu işdə bizə kömək göstərəcəkdir.

Mən hesab edirəm ki, iqtisadi sahədə uğurlu əməkdaşlıq aparmaq üçün çox yaxşı imkanlar, perspektivlər vardır, ölkələrin potensialı da kifayət qədər güclüdür. Sadəcə, biznes strukturları bir-biri ilə daha da sıx əlaqədə olmalıdırlar. Əminəm ki, biz bu sahədə də gözəl nəticələri görəcəyik.

Bu gün müzakirə etdiyimiz məsələlərin arasında regional təhlükəsizlik məsələlərinə də toxunduq. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini mən Sizə ifadə etdim. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim mövqeyimiz beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və qərarlar əsasında formalaşmışdır. Bu münaqişənin həlli əlbəttə ki, yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında olmalıdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilməlidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın torpaqlarından çıxarılmalıdır. Azərbaycan vətəndaşları öz doğma torpağına qayıtmalıdırlar. Məsələ ilə bağlı kifayət qədər böyük sayda qərarlar verilmişdir. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz ədalətli mövqeyini bildirmişdir. Biz ümid edirik ki, tezliklə bu məsələ beynəlxalq normalar əsasında, Azərbaycanın ərazi bütövlüyü şərti ilə həllini tapacaqdır.

Biz bu gün, eyni zamanda, energetika sahəsində əməkdaşlığa da öz münasibətimizi bildirdik. Bu sahədə Macarıstan ilə Azərbaycan arasında əlaqələrin çox gözəl perspektivləri vardır. Mən ümid edirəm ki, yaxın illərdə bu sahədə, xüsusilə qaz sahəsində ölkələrimiz arasında əməkdaşlığın yeni formaları yaranacaqdır. Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkədir. Təşəbbüsümüzlə həyata keçirilən enerji layihələri nəinki bizim, eyni zamanda, region ölkələrinin enerji təhlükəsizliyini təmin edir. Avropa ölkələri ilə enerji sahəsində əməkdaşlığımız çox uğurludur. Azərbaycan nefti artıq bir neçə il ərzində Avropa bazarlarına çıxarılır və əminəm ki, qazla bağlı təşəbbüslərimiz də bizə eyni səviyyədə uğur gətirəcəkdir. Əlbəttə ki, enerji sahəsindəki əməkdaşlıq iki ölkə arasındakı əlaqələrə yeni təkan verəcəkdir. Mən çox şadam ki, ölkələrimizin enerji şirkətləri də çox sıx əməkdaşlıq edirlər. Bu əməkdaşlıq əlbəttə ki, ümumi Macarıs-

tan-Azərbaycan əlaqələrinin inkişafına müsbət təsir göstərməkdədir.

Eyni zamanda, Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində, xüsusilə "Cənub" qaz dəhlizi ilə bağlı uğurlu əməkdaşlıq edir. Bu məsələ ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında Bəyannamə imzalanmış, işçi qrupu yaradılmışdır. Hazırda işçi qrupunun nümayəndələri çox sıx əməkdaşlıq edərək "Cənub" qaz dəhlizinin reallaşması üçün səylərini göstərməkdədirlər. Bir sözlə, enerji sahəsindəki əməkdaşlıq bütövlükdə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafına müsbət təsir göstərəcəkdir. Bu əməkdaşlıq qarşılıqlı maraqlar üzərində qurulubdur. Əminəm ki, bu əməkdaşlığın çox gözəl gələcəyi vardır. Bununla bərabər, qeyd etməliyəm ki, bütövlükdə Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Macarıstan bütün dövrlərdə bu əməkdaşlığa öz dəstəyini vermişdir. Biz bu dəstəyi bu gün də hiss edirik və buna görə Sizə minnətdarıq.

Bu yaxınlarda "Şərq tərəfdaşlığı" sammiti keçirilmişdir və Azərbaycan sammitdə iştirak etmişdir. Bu sammit, əldə edilmiş nəticələr imkan verəcək ki, növbəti illərdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr yeni mərhələyə qədəm qoysun. Bu əlaqələrin çox gözəl perspektivləri vardır. Bu əlaqələr qarşılıqlı maraqlar, qarşılıqlı hörmət və etimad üzərində qurulur.

Bu gün biz Sizinlə mədəniyyət, humanitar sahədə əməkdaşlığa da toxunduq. Bu sahədə əməkdaşlığın qədim tarixi kökləri vardır. Eyni zamanda, indiki dövrdə də bu sahədə əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar açılır. Bizim ölkələrin vətəndaşları bir-birini daha da yaxından tanımalıdırlar, daha da sıx təmasda olmalıdırlar. Əminəm ki, Sizin səfəriniz və bizim cəmiyyətlərə göndərilən çox gözəl və müsbət siqnal əlbəttə, insanlar arasındakı əlaqələrə də müsbət təsir göstərəcəkdir.

Bütövlükdə, cənab Prezident, qeyd etməliyəm ki, biz Macarıstan ilə əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bir daha demək istəyirəm ki, bu əməkdaşlığın artıq gözəl tarixi vardır. Gələn il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Münasibətlərimizin mahiyyəti və məzmunu da çox dəyərlidir. Ən önəmlisi ondan ibarətdir ki, perspektivlər də çox ümidvericidir.

Mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm.

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL ŞMİTTİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli media nümayəndələri, xanımlar və cənablar!

Mən bir daha bəyan etmək istəyirəm ki, bu dəvətə görə Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Əslində bu elə bir fürsətdir ki, xalqlarımız bir-birinə daha da yaxınlaşır və öz aralarında daha sıx əlaqələr qururlar.

Cənab Prezident artıq Macarıstana səfər etmişdir. Bir il öncə Baş nazir Orban Azərbaycana səfər etmişdir. Bu səfərlər zamanı çox mühüm danışıqlar aparılmışdır.

Mən Macarıstan Prezidenti kimi Azərbaycana, müstəqil ölkənizə ilk səfər edirəm və mən burada tək deyiləm. Mühüm hökumət üzvləri, ölkəmizin işgüzar dairələrinin təmsilçiləri məni müşayiət edirlər. Mən dərin təşəkkürümü bildirirəm ki, burada biznes fo-

rum təşkil olunacaqdır. Mən şəxsən öz mövqeyimi bildirmək istəyirəm ki, biz münasibətlərimizin inkişafına çox ciddi şəkildə yanaşırıq.

Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, biz Birləşmiş Millətlər Təşkilatı çərçivəsində çox dostcasına, mehribancasına bir mübarizə apardıq. Biz də istərdik ki, qeyri-daimi üzvlüyə seçilək. Lakin Azərbaycanın qələbəsi, həmçinin bizim də ürəyimizcə oldu. Biz Azərbaycana sıx, yaxın tərəfdaş kimi yanaşırıq. Bizim mədəni köklərimiz vardır. Biz burada bir çox sözləri məhz bu sahəyə aid söylədik. Biz, həmçinin ikitərəfli münasibətlər çərçivəsində, Macarıstan ilə Azərbaycan arasındakı əlaqələr sahəsində və eyni zamanda, Avropa İttifaqı ilə münasibətlər sahəsində bir çox addımları atırıq. Biz bundan sonra da əlimizdən gələni edəcəyik ki, Azərbaycan xalqı mümkün qədər qısa müddət ərzində asanlıqla vizalar ala bilsin və səfərlər etsin. Mən çox şadam ki, bu danışıqlar sürətləndiriləcəkdir.

Biz bu gün çox mühüm danışıqlar apardıq. Əslində bizim görə biləcəyimiz işlər, xalqlarımız, azərbaycanlı dostlarımız üçün görəcəyimiz işlər əsasən kənd təsərrüfatı, suvarma, suyun təmizlənməsi sahələrindəki işlərə aid olan məsələlərdir ki, Macarıstanın bu sahədə böyük təcrübəsi vardır. Macarıstanda əczaçılıq sənayesi inkişaf etmişdir və biz çox istərdik ki, siz də müxtəlif tenderlərdə iştirak edəsiniz.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, hazırda, demək olar, bütün Avropanın diqqəti Bakıya yönəlib. Çünki hamı o ümidlə yaşayır ki, məhz bu marşrutda, buradan Avropaya çatdırılacaq enerji resurslarının marşrutlarında şaxələndirmə təmin olunacaqdır.

Mən mədəniyyət, idman, təhsil, elm sahələrindəki əməkdaşlığımızı da qeyd etmək istərdim. Mən cənab Prezidentin diqqətini bir fakta yönəltdim ki, biz hər il böyük, mühüm tədbirlər keçiririk. Onlardan biri qurultay adlanır və həmin tədbirdə dörddəbir milyon şəxs iştirak edir. Əslində həmin tədbirlər çərçivəsində biz öz ümumi köklərimizi müzakirə edirik. Hesab edirəm ki, ölkələrimiz arasında münasibətlər dostluğa əsaslanır.

Biznes sahəsində də əlaqələrimiz genişlənir və bizim üçün olduqca vacibdir ki, həmçinin insanlar arasında da yaxınlaşma olsun. Biz çox mühüm sazişlərin imzalanmasında iştirak etdik. İki ölkənin əməkdaşlığı bir sıra qanunverici sənədlərlə tənzimlənir. Bu gün imzalanmış sənədlər mühüm əhəmiyyət kəsb edir. Biz hesab edirik ki, bu, aramızda olan etimadı daha da gücləndirəcək və müvafiq qurumlar arasında əməkdaşlıq genişlənəcəkdir. Mən bundan sonra da qurumlarımızdan təkliflər gözləyirəm. Bu gün bizim növbəti danışıqlarımız olacaq. Mən parlamentin spikeri ilə, Baş nazir ilə görüşlər keçirəcəyəm.

Cənab Prezident, Sizə olduqca minnətdaram, Siz gözəl bir sürpriz hazırlamısınız. Bəstəkar Listin əsərlərinə həsr olunmuş konsert təşkil olunacaqdır. Biz Sizə çox minnətdarıq ki, Avropa musiqisinin təmsilçisinə bu qədər diqqətlə yanaşırsınız.

AZƏRBAYCAN-MACARISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ OLMUŞDUR

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Prezidenti Pal Şmittin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Macarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Macarıstan Respublikasının Milli İqtisadiyyat Nazirliyi arasında vergi inzibatçılığı sahəsində əməkdaşlığa dair Memorandum"u Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı səfiri Vilayət Quliyev və Macarıstan Respublikasının Vergilər Agentliyinin müdirinin müavini Arnold Mixay imzaladılar.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Macarıstan Respublikasının Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev və Macarıstanın Azərbaycandakı səfiri Jolt Çutora imzaladılar.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Macarıstan Respublikasının Dövlət İdarəçiliyi və Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov və Macarıstan Respublikasının Dövlət İdarəçiliyi və Ədliyyə Nazirliyinin dövlət katibi Robert Repassi imzaladılar.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Macarıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov və Macarıstan Respublikası Daxili İşlər Nazirliyinin dövlət katibi Andras Tallai imzaladılar.

"Azərbaycan Respublikasının Hökuməti və Macarıstan Respublikasının Hökuməti arasında fövqəladə hallar zamanı əməkdaşlıq və qarşılıqlı yardım sahəsində Saziş"i Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Macarıstan Respublikası Daxili İşlər Nazirliyinin dövlət katibi Andras Tallai imzaladılar.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Noyabrın 11-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Prezidenti Pal Şmittin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizin hamınızı bir daha ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Bu, Macarıstan Prezidentinin Azərbaycana ilk səfəridir. Əminəm ki, səfərin çox yaxşı nəticələri olacaqdır.

İkitərəfli əlaqələrimiz uğurla inkişaf edir. Biz artıq Sizinlə bu barədə fikir mübadiləsi apardıq. Mən tam əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına dəyərli töhfə verəcəkdir.

Siyasi əlaqələr iqtisadi sahədə əlaqələrin inkişafına da güclü təkan verir. Əminəm ki, bu gün keçiriləcək biznes forum da iqtisadi sahədə əlaqələrin inkişafı üçün çox əhəmiyyətli olacaqdır.

Mən inanıram ki, Sizin səfərinizin bütövlükdə, çox uğurlu nəticələri olacaqdır. Beləliklə, Macarıstan-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyacaqdır.

Bir daha Sizi salamlayıram, xoş gəlmisiniz.

* * *

Macarıstan Respublikasının Prezidenti Pal ŞMİTT səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

-Hörmətli cənab Prezident!

Mən, həm Sizin qarşınızda, həm Azərbaycan hökumətinin üzvləri qarşısında Azərbaycana Macarıstan Prezidenti kimi ilk səfərimdən böyük məmnunluq duyduğumu bildirmək istəyirəm.

Biz Azərbaycanın müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü ilə əlaqədar Sizi təbrik edirik. Siz bu müddət ərzində çox yüksək nəticələr əldə etmisiniz. Avropada bu nəticələr haqqında danışarkən deyirlər ki, Avropadakı ölkələrə bu nəticələri əldə etmək üçün bəlkə də 100 il lazım olardı.

Çox şadam ki, Siz Macarıstanı Azərbaycanın strateji tərəfdaşı hesab edirsiniz. Avropada Macarıstanın mövqeyini nəzərə alaraq biz sizin yaxın tərəfdaşınız ola bilərik və əslində tərəfdaşınızıq. Eyni zamanda, ölkələrimiz bir-birinə dostcasına, mehribancasına yanaşır. Hesab edirəm ki, bütövlükdə ölkələrimiz qarşısında istifadə olunmalı bir çox imkanlar vardır.

TƏKBƏTƏK GÖRÜŞ

Noyabrın 11-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Respublikasının Prezidenti Pal Şmittin təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.

Macarıstan Respublikasının Prezidenti Pal Şmittin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL ŞMİTTİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 11-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmittin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Respublikasının Prezidenti Pal Şmitti qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Macarıstan Respublikasının Prezidentinə raport verdi.

Macarıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Macarıstan Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Pal Şmittə, Macarıstan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Xəbər verdiyimiz kimi, noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə çıxış etmişlər.

"Bizim aramızda qarşılıqlı səfərlərin yaxşı ənənəsi yaranıb və bu səfərlər ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə səbəb olub", - deyən Prezident İlham ƏLİYEV Azərbaycan-Bolqarıstan əlaqələrinin yüksək səviyyədə olduğunu və bütün sahələri əhatə etdiyini bildirdi. Bolqarıstan-Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət verdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 20 ili tamam olur. Bu dövrdə Azərbaycan-Bolqarıstan münasibətlərində mühüm nəticələr əldə olunmuş, indiyədək ölkələrimiz arasında əməkdaşlığa dair 40-a yaxın sənəd imzalanmışdır.

Prezident İlham Əliyev ikitərəfli iqtisadi potensialın gücləndirilməsi üçün bir sıra tədbirlərin görüldüyünü, Bolqarıstan-Azərbaycan mədəni əlaqələrinin inkişaf etdiyini, ölkələrimiz arasında elm, təhsil və digər sahələrdə də uğurlu əməkdaşlığın qurulduğunu bildirdi.

Dövlətimizin başçısı siyasi münasibətlərin də inkişafından razı qaldığını diqqətə çatdıraraq dedi:

- Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avratlantik strukturlarla əlaqələr mühüm yer tutur. Eyni zamanda, münasibətlərimiz Xəzər dənizi, Qara dəniz regional əməkdaşlığının inkişafı üçün də çox vacib rol oynayır. Biz Azərbaycan ilə Avropanı birləşdirən enerji və nəqliyyat layihələrinin reallaşdırılmasında maraqlıyıq. Azərbaycan etibarlı tərəfdaş ölkə olduğunu həmişə nümayiş etdirmişdir və ölkəmiz bundan sonra da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfəsini verməyə hazırdır.

Azərbaycanın enerji ehtiyatlarını müxtəlif istiqamətlərə nəql edən yeddi neft və qaz bo-

ru kəməri vardır. Ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsində və enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Bizim enerji siyasətimiz bölgədə sülhün, təhlükəsizliyin, əmin-amanlığın və dostluğun möhkəmlənməsinə yönəlibdir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasının təəssüf doğurduğunu diqqətə çatdırdı. Bildirdi ki, bir sıra nüfuzlu təşkilatların qərar və qətnamələrinə baxmayaraq, münaqişə həll olunmamış qalır. Dövlətimizin mövqeyi isə ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun şəkildə ədalətlə həll olunmalıdır.

Bolqarıstan Prezidenti Georgi PIRVANOV isə vurğuladı ki, son illərdə ölkələrimiz arasındakı əlaqələr strateji tərəfdaşlıq ruhunda inkişaf edir. "Biz Prezident İlham Əliyevlə qısa müddət ərzində rəsmi təmaslardan səmimi qarşılıqlı etimad və dostluq münasibətlərinə qədər yol keçmişik", - deyən Georgi Pırvanov xalqlarımız arasındakı dostluq əlaqələrinin tarixinə nəzər saldı.

Bolqarıstan dövlətinin başçısı ölkələrimizin enerji sahəsində əməkdaşlığına da toxunaraq dedi:

- Biz bu yaxınlarda Azərbaycan ilə Türkiyə arasında qaz sahəsində imzalanan sazişi, eləcə də Azərbaycan, Türkmənistan və Avropa İttifaqı arasında gələcək Transxəzər boru kəmərinin tikintisi üzrə danışıqların başlanmasını alqışlayırıq. Lakin bu, bizim yeganə prioritetimiz deyildir. Biz kənd təsərrüfatı və fermerlərimizin gündəlik işində yüksək texnologiyaların tətbiqi sahəsində birgə fəaliyyəti inkişaf etdirmək istərdik. Çünki ərzaq məhsullarının istehsalı istənilən dövlətin suverenliyinin əsas strateji amilinə çevrilməkdədir. Su resurslarının idarə edilməsi və onunla bağlı elektrik enerjisi istehsalı, neft-kimya və telekommunikasiya sahələrində də bir çox imkanlar vardır. Təhsil və mədəniyyət sahəsində, o cümlədən beynəlxalq əhəmiyyətli birgə layihələrin həyata keçirilməsində apardığımız əməkdaşlıq xüsusi diqqətə layiqdir. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təcrübəsi və fəaliyyəti olduqca vacibdir.

Bolqarıstan dövlətinin başçısı əmin olduğunu bildirdi ki, səfər çərçivəsində əldə edilən razılaşmalar və imzalanan sənədlər ikitərəfli münasibətlərimizin bütün sahələrində yeni dinamikaya səbəb olacaqdır.

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 14-də təltif olunma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram!

Siz Azərbaycanın yaxın dostusunuz. Ölkəmizdə dəfələrlə olmusunuz və hər dəfə biz görüşəndə aramızda olan dostluq əlaqələri ikitərəfli münasibətlərə də müsbət təsir göstərir. Biz bu gün Sizinlə həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə geniş fikir mübadiləsi apardıq, mühüm məsələləri müzakirə etdik və bir daha gördük ki, Bolqarıstan-Azərbaycan əlaqələri çox sürətlə və uğurla inkişaf edir.

Biz Sizinlə demək olar ki, hər il görüşürük. Bizim təmaslarımız mütəmadi xarakter daşıyır və Bolqarıstan-Azərbaycan əməkdaşlığının inkişafı üçün bu əlaqələr çox vacibdir. Müzakirə etdiyimiz məsələlər sonradan qərarlara çevrilir və əməkdaşlığımızın inkişafı üçün müsbət rol oynayır. Son illər ərzində ikitərəfli münasibətlərimiz yeni pilləyə qalxmışdır, siyasi əlaqələr çox yüksək səviyyədədir. Biz bütün beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq edirik. Siyasi əlaqələrimizin inkişafı sahəsində və digər sahələrdə də inamlı inkişafa nail ola bilmişik.

Bu ilin statistikasına baxanda görürük ki, ticarət dövriyyəsi də artmaqdadır. Özü də böyük artım müşahidə olunur. Əminəm ki, növbəti illərdə daha da artacaq və ticarət dövriyyəsinin strukturu da təkmilləşdiriləcək. Beləliklə, siyasi əlaqələr iqtisadi sahədəki əlaqələrə də müsbət təsir göstərir.

Bu gün müzakirə etdiyimiz məsələlərdən biri də energetika sahəsindəki əməkdaşlıqdır. Bu mövzu daim gündəliyimizdədir. Mən çox şadam ki, indi bu məsələ ilə bağlı aparılan fikir mübadiləsi keyfiyyətcə yeni məzmun daşıyır. Çünki artıq Azərbaycanın enerji resursları Avropaya ixrac edilir. Azərbaycan nefti Avropa ölkələrinə, o cümlədən Bolqarıstana daha da böyük miqdarda ixrac edilir. Eyni zamanda, Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün yeni imkanlar yaradılmışdır. Bu yaxınlarda Türkiyə ilə Azərbaycan arasında imzalanmış tranzit sənədləri bu imkanları reallaşdırır.

Beləliklə, əminəm ki, növbəti illərdə qaz sahəsində Bolqarıstan-Azərbaycan əlaqələri daha da intensiv olacaq və bu əlaqələr getdikcə daha da dərinləşəcəkdir. Əminəm ki, növbəti mərhələlərdə qarşılıqlı investisiya qoyuluşu məsələləri, birgə müəssisələrin yaradılması istiqamətində də inamlı və təsirli addımlar atılacaqdır. Biz bu barədə də fikir mübadiləsi apardıq. Aramızda bu barədə fikir ayrılığı yoxdur.

Enerji sahəsinə gəldikdə, biz burada həm ikitərəfli formatda əməkdaşlıq edirik və müvafiq şirkətlərimiz də bir-biri ilə danışıqlar prosesindədir. Eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələri də bu məsələ ilə bağlı müsbət rol oynayır. Bildiyiniz kimi, bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub" qaz dəhlizi üzrə Bəyannamə imzalanmışdır. Ondan sonra işçi qrupu yaradılmışdır. İşçi qrupu fəaliyyət göstərir və əminəm ki, növbəti mərhələlərdə bu əməkdaşlıq daha da genişmiqyaslı olacaqdır. Azərbaycan "Cənub" qaz dəhlizinin reallaşması üçün səylərini göstərir. Bizim zəngin qaz yataqlarımız həm Azərbaycanın enerji təhlükəsizliyini təmin edir və edəcək, eyni zamanda, tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynamaqdadır. Əminəm ki, növbəti illərdə bu sahədə və digər sahələrdə əməkdaşlıq daha da uğurlu olacaqdır.

Eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün Bolqarıstan da öz səylərini göstərir. Bolqarıstan bütün dövrlərdə bizim bu mövzu ilə bağlı təşəbbüslərimi-

zə çox müsbət yanaşmışdır. Hesab edirəm ki, hazırda biz Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı çox vacib mərhələdəyik. İndi uzunmüddətli əlaqələrin formalaşması prosesi getməkdədir. Mən tam əminəm ki, bu əlaqələr çox möhkəm, sağlam zəmin üzərində qurulacaqdır, qarşılıqlı maraqlar təmin ediləcəkdir. Qarşılıqlı maraqların təmin edilməsi üçün əlbəttə ki, biz bu məsələdə çox dəqiq olmalıyıq. Uzunmüddətli, bundan sonra bəlkə də onilliklər ərzindəki əməkdaşlığın təməli məhz bu dövrdə qoyulur. Deyə bilərəm ki, biz bu məsələyə çox böyük ümidlərlə və nikbinliklə yanaşırıq. Hazırda Azərbaycanın bütün Avropa İttifaqına üzv ölkələrlə ikitərəfli müstəvidə çox işgüzar və səmimi münasibətləri mövcuddur. Bu münasibətlər bütövlükdə Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafına da müsbət təsir göstərir.

Bu gün müzakirə etdiyimiz məsələlərin arasında əlbəttə ki, regional təhlükəsizlik məsələləri də kifayət qədər böyük yer tutmuşdur. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyətin son mərhələsi haqqında Sizə məlumat verdim. Bu məsələ dəfələrlə müzakirələrimizin mövzusu olur. Demək olar ki, biz hər bir görüşdə bu məsələ ilə bağlı fikir mübadiləsi aparırıq. Bir də demək istəyirəm ki, Azərbaycan məsələnin tezliklə həlli üçün səylərini göstərir. Azərbaycan məsələnin ancaq beynəlxalq hüquq normaları əsasında həll olunmasını məqbul hesab edir. Beynəlxalq təşkilatların qərar və qətnamələri qeyd-şərtsiz icra edilməlidir. BMT Təhlükəsizlik Şurası bu məsələ ilə bağlı dörd qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Avropa Parlamenti, o cümlədən Bolqarıstan tərəfinin dəstəyi ilə buna bənzər qətnamə qəbul etmişdir. Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı mövqeyini bildirmişdir.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, ola da bilməz. Məsələ beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü əsasında həllini tapmalıdır. Biz ümid edirik ki, danışıqlar nəticəsini verməlidir. Çünki bu vəziyyətlə barışmaq mümkün deyildir. Bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupu və onun həmsədr ölkələri status-kvonun qəbuledilməz olması ilə əlaqədar kifayət qədər ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bizi daha da ruhlandırır. Əminəm ki, bu məsələnin tezliklə həlli bütün ölkələrin marağına cavab verəcəkdir.

Bir daha, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bir də demək istəyirəm ki, biz Sizi Azərbaycanın yaxın dostu kimi tanıyırıq və bu dostluğun artıq böyük tarixi vardır. Əminəm ki, bundan sonrakı dövrdə də Bolqarıstan-Azərbaycan əlaqələri yalnız və yalnız yüksələn xətlə inkişaf edəcəkdir. Sağ olun.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN BƏYANATI

-Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Aparılmış danışıqlardan məmnunluğumu bildirmək istərdim. Əminəm ki, bu danışıqlar gələcəkdə münasibətlərimizin inkişafına müsbət töhfə verəcəkdir. Mən cənab Prezident Əliyevlə tam razıyam ki, ölkələrimiz arasında münasibətlərin yaxşı ənənələri var-

dır. Bu münasibətlər əvvəlki vaxtlardan inkişaf etmişdir. Son illər ərzində biz bu siyasəti davam etdirmişik. Bu siyasət yaxşı nəticələr vermişdir.

Aramızda mövcud olan siyasi dialoq, fikrimcə, digər münasibətlərə də şamil edilə bilər. Çünki görürük ki, nazirliklərimiz, parlamentlərimiz arasında fəal təmaslar mövcuddur. Münasibətlərimiz get-gedə inkişaf edir, yeni sənədlər imzalanır. Bu, özlüyündə müsbət bir siqnaldır. Bu, xalqlarımız qarşısında görülən işdir və cəmiyyətlərimizə yönəlmiş bir siqnaldır. Mənim üçün mühüm amil ondan ibarətdir ki, hər iki ölkənin işgüzar dairələri nəinki ticarət dövriyyəsinin artmasına hazırdır, baxmayaraq hələ ki, bu həcm istədiyimiz səviyyədə deyildir. Ümidvarıq ki, apardığımız danışıqlar birgə müəssisələrin yaradılmasına zəmin olacaq və bu müəssisələr gələcəkdə üçüncü ölkələrin bazarlarına çıxacaqlar. Hesab edirəm ki, biz müxtəlif nazirliklərlə məsləhətləşmələrin aparılmasından sonra buna nail ola bilərik. Təbii ki, buna müxtəlif iqtisadi subyektlər də qoşula bilər.

Enerji sahəsi münasibətlərimizin çox mühüm sahəsi olaraq qalır. Bu, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərə də aiddir. Son illər ərzində Azərbaycanın apardığı iş "Cənub" qaz dəhlizi üçün yeni imkanlar və perspektivlər açır. Bolqarıstan isə öz növbəsində özünəməxsus mövqe tutur və bu münasibətlər çərçivəsində müsbət amil rolunu oynayır. Əslində biz çalışırıq ki, hətta əlaqələrimizi Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərdən də daha çox inkişaf etdirək. Bu münasibətlərin uzun tarixi vardır. Bu sahədə biz gərgin iş aparırıq. Mətbuat konfransları zamanı biz bir milyard kubmetr qaz həcmi haqqında razılaşmamızı xatırlayırıq. Biz, eyni zamanda, istəyirik ki, bu layihə həyata keçirilsin - Bolqarıstan və Yunanıstan arasında bağlayıcı layihə baş tutsun. Danışıqlar zamanı biz qeyd etdik ki, Azərbaycan Dövlət Neft Şirkəti kimi iri şirkət Bolqarıstanın ərazisində bu layihədən sonra fəaliyyət göstərə biləcəkdir.

Zənnimcə, əməkdaşlığımız üçün yaxşı imkanlar mövcuddur. Bu, böyük şaxələndirmə işinin bir hissəsidir. Biz, sadəcə, bir uğuru qazanmalıyıq ki, Avropaya nümayiş etdirək ki, nəyə nail ola bilərik. Bundan sonra daha genişmiqyaslı nəticələr əldə edə, "Cənub" qaz dəhlizi ilə bağlı yeni ideyalar irəli sürə bilərik. Biz konkret məsələləri müzakirə etdik və bu məsələlər iqtisadi əməkdaşlığımızın elementlərinə çevrilə bilər.

Məmnunam ki, dialoqun, həmçinin mədəniyyətlərarası mübadilələr sahəsində əlaqələrin genişləndirilməsi üçün iradə və istək vardır. Bolqarıstan öz regionunda, Azərbaycan isə öz regionunda mədəniyyətlərarası dialoq sahəsində vacib rol, hətta deyərdim ki, lider rolu oynayır. Biz onu da qeyd etdik ki, Balkan regionunda bu qarşılıqlı mədəni fəaliyyət dəhlizi nəinki Qara dəniz regionu ölkələri, o cümlədən Xəzər dənizi regionu ölkələri ilə aparıla bilər. Mən çox şad olardım ki, cənab Prezident, bu regionda olan digər ölkələr də bu ideyaya qoşulsun, bunun üzərində işləsin. Beləliklə biz nümayiş etdirə bilərik ki, burada tarix mövcuddur və bu, regionlarımızın gələcəyi üçün vacibdir. Biz bu işi birgə apara bilərik.

Avropaya gəldikdə, mən Azərbaycan ilə Avropa İttifaqı arasında daha da fəallaşan dialoqu yüksək dəyərləndirirəm. Bu dialoq "Şərq tərəfdaşlığı" çərçivəsində aparılır. Eyni zamanda, belə bir ideya vardır ki, mən Avropa İttifaqında həmkarlarımın bəziləri ilə bunu bölüşmüşəm, Avropa liderlərinə bu haqda məlumat vermişəm. Mən bunu da burada qeyd etmişəm. Mənim prezidentlik mandatım artıq başa çatmaq üzrədir. Mən qeyd etmişəm ki, Avropa təsisatlarında və Avropa İttifaqına üzv olan dövlətlərdə Azərbaycana

güzəştli tərəfdaş statusunun verilməsi çox yaxşı olardı. Çünki bu, elə bir çərçivədir ki, bu çərçivədə nəinki enerji təhlükəsizliyi sahəsində dialoq aparmaq olar, o cümlədən bu dialoq genişləndirilə bilər və digər sahələrdə - nəqliyyat, iqtisadiyyat sahələrində, daha geniş mənada təhlükəsizlik məsələləri sahəsində aparıla bilər. Çünki Azərbaycan çox mühüm bir elementdir və bu, bizim formalaşdırdığımız demokratik dövlətlər və xalqlar arasında olan mühüm bir element və təhlükəsizliyin qlobal şəkildə təmin edilməsində mühüm amildir. Çünki bizim qarşımızda duran çağırışlar eynidir. Bu, həm Avropa İttifaqı, həm də ona qonşu, tərəfdaş olan ölkələr üçün vacibdir. Ona görə, biz çalışmalıyıq ki, daha müasir üsullarla birgə fəaliyyət göstərək. Mən tam əminəm ki, yaxın perspektivdə Avropa İttifaqı daxili problemlərini həll etdikdən sonra daha düzgün və qəbul edilə biləcək həll variantlarını tapacaqdır.

Mən, təbii ki, apardığımız danışıqların bütün gündəliyini burada təsvir edə bilməyəcəyəm. Lakin qeyd etmək istəyirəm ki, bu danışıqlar, razılaşmalar, imzaladığımız sənədlər və gələcəkdə əldə ediləcək razılaşmalar və imzalanacaq sənədlər münasibətlərimizin inkişafına töhfə verəcəkdir.

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

* * *

Dimitar ANESTEV (Bolqarıstan TV): Cənab Prezident, Siz burada Azərbaycan qazının Bolqarıstana çatdırılması məsələsini müzakirə etdiniz. Qeyd edə bilərsinizmi ki, bu, hansı həcmdə və hansı marşrutla baş tuta bilər?

Növbəti sualım cənab Prezident Pırvanovadır. Bu çatdırılma nəticəsində belə bir qənaətə gəlmək olarmı ki, Rusiyadan asılılıq azalacaqdır?

Prezident İlham ƏLİYEV: Bu məsələ ilə bağlı biz dəfələrlə cənab Prezident Pırvanovla fikir mübadiləsi aparmışıq. Bu məsələ daim gündəlikdədir. Qeyd etdiyim kimi, Azərbaycan zəngin qaz resurslarını dünya bazarlarına çıxarmaq üçün müxtəlif təşəbbüslər irəli sürmüşdür. Hazırda Azərbaycanı xarici bazarlarla birləşdirən dörd qaz kəməri vardır ki, dördü də işlək vəziyyətdədir. Əlbəttə, Avropa İttifaqı ölkələri ilə qaz sahəsində əməkdaşlığımız üçün çox gözəl perspektivlər vardır. Əgər coğrafiyaya nəzər salsanız görmək olar ki, bizim qaz mənbələrimizə ən yaxın ölkələrdən biri Bolqarıstandır. Təbii ki, Bolqarıstan bizim qazımızı qəbul edən ilk ölkələrdən biri ola bilər. Buna nail olmaq üçün biz indi konkret danışıqlar aparırıq.

Yəni, xəritəyə baxmaq kifayətdir görmək mümkün olsun ki, bu layihə asanlıqla həllini tapa bilər. Azərbaycanın zəngin qaz ehtiyatlarını böyük həcmdə Avropa bazarlarına çıxarmaq üçün mövcud olan qaz infrastrukturu genişləndirilməli, yeni qaz infrastrukturu yaradılmalı və tikilməlidir. Bu məsələlərlə bağlı indi ciddi işlər gedir. Əminəm ki, Azərbaycan Bolqarıstanın qaza olan tələbatını Bolqarıstanın istədiyi qədər təmin edə bilər. Çünki hazırda, bu il Azərbaycanda qazın hasilatı təqribən 27-28 milyard kubmetr səviyyəsindədir. Bu, özlüyündə çox böyük bir rəqəmdir. "Şahdəniz" yatağının ikinci fazasının işlənilməsi nəticəsində əlavə 17 milyard kubmetr qazın hasilatı gözlənilir. Əgər Azərbaycanın son bir il ərzində aşkar etdiyi yataqları da buraya əlavə etsək, görərik ki, Azərbaycanda qazın hasilatı daha da böyük rəqəmlərlə ölçülə bilər. Bu, bizə imkan verəcək ki, bundan sonra uzun illər ərzində tərəfdaşlarımızın enerji təhlükəsizliyini

təmin edə bilək.

Prezident Georgi PIRVANOV: Hörmətli xanımlar və cənablar, bilirsiniz ki, bu, bizim Bolqarıstanda qəbul etdiyimiz qərarlardan və Azərbaycan tərəfdaşlarımızla tapdığımız bu həll yollarından asılı olacaqdır. Bu, həm qazın çatdırılması, həm də həcminə aid olan məsələlərdir. Mən burada, həmçinin mühüm bir məsələni də qeyd etmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasında əldə edilmiş razılaşmalar artıq bu prosesin - qazın alınması prosesinin sürətləndirilməsinə əsas yaradır. Nə qədər, hansı həcmdə? Bu, İqtisadiyyat Nazirliyində, ümumiyyətlə, hökumətimizdə hesablanacaqdır. Çünki özümüz hesablamaları aparmalıyıq ki, bizə hansı həcmdə təbii qaz lazımdır. Yəni, bu, sırf dövlət başçısının ofisində aparılan bir hesablama deyildir. O ki qaldı qiymətlərə, mən sadəcə belə deyərdim ki, hətta bütün qaydalardan da kənara çıxaraq deyərdim ki, bu, konkret şirkətlərin və firmaların işidir. Yəni, burada hər hansı bir müqayisələri üzə çıxarmağa ehtiyac yoxdur. Mən sadəcə bildirmək istəyirəm ki, kiçik uğur da nəinki bizim region üçün, bütün Avropa üçün rəmzi xarakter daşıyacaqdır. Ona görə, məhz bizdən asılı olacaqdır ki, biz bu əməkdaşlığın tempini və dinamikasını saxlayacağıq.

Yunis ORUC (Azərbaycan Televiziyası): Sualım Bolqarıstan Prezidentinədir. Cənab Prezident, bir qədər əvvəl də qeyd etdiyiniz kimi, son illərdə Azərbaycan-Bolqarıstan əməkdaşlığı dinamik inkişafı ilə diqqət çəkir. Siz bu əməkdaşlığın perspektivlərini necə görürsünüz? Ümumiyyətlə, Azərbaycan-Bolqarıstan iqtisadi əməkdaşlığının gələcək formatı haqqında nə deyə bilərsiniz? Bununla bağlı Bolqarıstan tərəfinin hansısa konkret planları varmı?

Prezident Georgi PIRVANOV: Mən münasibətlərimizin gələcəyinə nikbinliklə yanaşıram. Eyni zamanda, hesab edirəm ki, Prezident kimi bu münasibətlərin inkişafına çalışacağam. İndi isə artıq bu estafeti mən gələcək Prezidentə təhvil verəcəyəm. Əslində bu münasibətlərin inkişafı ölkələrimizin maraqlarına cavab verir. Bolqarıstanın iqtisadiyyat naziri artıq ikinci dəfədir ki, bu yaxınlarda Azərbaycana səfər edir və aparılan müzakirələr artıq real çərçivəyə, real layihələrə, real addımlara əsaslanır. Mən nikbin baxıram. Niyə? Çünki biz artıq bu əməkdaşlığı şirkətlər səviyyəsinə qaldırırıq. Hətta belə deyərdim ki, səfərimiz çərçivəsində nəzərdə tutulur ki, artıq indi konkret nəticələr üzə çıxacaqdır. Təbii ki, anlamaq lazımdır ki, bu dinamika həm Bolqarıstan Prezidentinin rəhbərlik etdiyi qurumlar tərəfindən də saxlanıla bilər. Gələcək Prezident də artıq vəd vermişdir ki, əldə edilmiş nailiyyətləri və Azərbaycan ilə münasibətləri daha da inkişaf etdirsin. Mənim buna heç bir şübhəm yoxdur və hətta tam şad olardım ki, bizim münasibətlər bundan sonra da, yəni mənim Prezidentlik dövrümdən fərqli olaraq daha da inkişaf etsin.

ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

Noyabrın 14-də Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimindən sonra Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun və Azərbaycan Prezidenti İlham Əliyevin ali ordenlərlə təltif olunma mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

-Hörmətli cənab Prezident!

Mən bir daha Sizi səmimiyyətlə salamlayıram.

Bu gün Bolqarıstan-Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Siz ölkəmizdə rəsmi səfərdəsiniz və çox vacib sənədlər imzalanmışdır. Bir dost kimi bu əlamətdar gündə Sizin Bolqarıstana rəhbərlik etdiyiniz dövrdə gördüyünüz işlərlə bağlı bir neçə kəlmə demək istərdim.

Siz on ildir ki, Bolqarıstana rəhbərlik edirsiniz. Sizin rəhbərliyiniz altında ölkəniz böyük və uğurlu yol keçmişdir. Ölkənizdə aparılan siyasi və iqtisadi islahatlar Bolqarıstanın inkişafını şərtləndirən amillər olmuşdur.

Bu illər ərzində Sizin ölkəniz həm NATO-ya, həm Avropa İttifaqına üzv olmuşdur. Hesab edirəm ki, ölkəniz üçün bu, tarixi nailiyyətlərdir. Bolqarıstan dünyada çox etibarlı dost və tərəfdaş ölkə kimi tanınır. Siz də dövlət xadimi kimi, dünyada çox böyük nüfuza maliksiniz.

Qeyd etməliyəm ki, bu illər ərzində bizim ikitərəfli münasibətlərimiz də çox uğurla inkişaf etmişdir. Biz Sizinlə demək olar ki, hər il görüşürük və şəxsi dostluq əlaqələrimiz ikitərəfli əlaqələrin inkişafına da müsbət təsir göstərir. Son illər ərzində münasibətlərimiz, yəni, Bolqarıstan-Azərbaycan münasibətləri çox yüksək səviyyəyə qalxmışdır. Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişafında göstərdiyiniz xidmətlərə və verdiyiniz töhfəyə görə Siz Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilirsiniz.

İcazə verin, bu yüksək mükafatı Sizə təqdim edim.

Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev" ordenini Bolqarıstan Prezidenti Georgi Pırvanova təqdim etdi.

* * *

Prezident Georgi PIRVANOV minnətdarlığını bildirərək dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli nazirlər, xanımlar və cənablar. Apardığım fəaliyyətə və göstərdiyim xidmətlərə verdiyiniz belə bir yüksək qiymətə görə Sizə təşəkkürümü bildirirəm.

Bəli, bu, həqiqətdir ki, iki xalqın arasında tarixən ənənəvi dostluq münasibətləri mövcud olubdur. Lakin qeyd etmək istəyirik ki, son on il ərzində ikitərəfli əlaqələrimiz ən yüksək səviyyəyə qalxıb.

Mən bu ali mükafatı böyük minnətdarlıq hissi ilə qəbul edirəm, eyni zamanda, mənə verilən bu ordeni mən, həmçinin Bolqarıstan Respublikasının, bolqar xalqının keçdiyi şanlı yola və bizim son illər ərzində apardığımız gərgin fəaliyyətin nəticəsinə verilən qiymət kimi qəbul edirəm.

Digər tərəfdən, hörmətli cənab Prezident, biz Sizin də bu istiqamətdə göstərdiyiniz səyləri, Azərbaycanın rəhbəri kimi apardığınız fəaliyyəti də yüksək dəyərləndiririk. Mən Azərbaycana tez-tez səfər edirəm, Siz də Bolqarıstana dəfələrlə səfər etmisiniz. Hər dəfə gələndə görürəm ki, ölkənizdə dəyişikliklər baş verib. Mən görürəm ki, müasir Azərbaycan necə inkişaf edir. Mən deyərdim bu inkişaf illərlə deyil, hətta saatlarla baş verir. Qeyd etmək istəyirik ki, şəxsən mən və Bolqarıstanın bir çox qurumları Sizin Avropa miqyasında qazandığınız nüfuzu bilirik, bunu alqışlayırıq və eyni zamanda, ölkənizin

Avropa təsisatlarına daha da yaxınlaşması istiqamətində göstərdiyiniz səyləri olduqca mühüm hesab edirik.

Burada şəxsən Sizin qarşınızda bəyan etmək istəyirəm ki, Bolqarıstanda mövcud olan bütün təsisatlar, Bolqarıstan cəmiyyəti Sizi bolqar xalqının ən yaxın dostu hesab edir.

İndi isə mən Sizin apardığınız fəaliyyətə minnətdarlıq əlaməti olaraq Bolqarıstanın ali mükafatını - "Stara Planina" ordenini Sizə təqdim edirəm.

Cənab Prezident, Sizi təbrik edirik.

Prezident Georgi Pırvanov Bolqarıstan Respublikasının ən ali mükafatını - "Stara Planina" ordenini dövlətimizin başçısına təqdim etdi.

* * *

Prezident İlham ƏLİYEV minnətdarlığını bildirərək dedi:

-Çox sağ olun, hörmətli cənab Prezident! Bu yüksək mükafata görə Sizə minnətdaram. Bolqarıstan dövlətinin yüksək mükafatını almaq mənim üçün böyük şərəfdir. Siz də qeyd etdiyiniz kimi, biz Bolqarıstana, bolqar xalqına böyük rəğbətlə yanaşırıq. Bolqarıstan bizim üçün dost ölkədir, yaxın ölkədir. Mən çalışacağam ki, bundan sonra da Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişafı üçün öz səylərimi əsirgəməyim. Bir daha Sizə minnətdaram.

AZƏRBAYCAN-BOLQARISTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Dövlət İqtisad Universiteti və Sofiya Milli və Dünya Təsərrüfatı Universiteti arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Şəmsəddin Hacıyev və Bolqarıstan Prezidentinin təhsil, elm və iqtisadi inkişaf məsələləri üzrə müşaviri, Sofiya Milli və Dünya Təsərrüfatı Universitetinin rektoru Borislav Borisov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Bolqarıstan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik İnstitutu arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev və Bolqarıstanın xarici işlər nazirinin müavini Konstantin Dimitrov imzaladılar.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov və Bolqarıstanın əmək və sosial siyasət naziri Totyu Mladenov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi və mübadiləsi haqqında Saziş"i Azərbaycanın milli təhlükəsizlik naziri Eldar Mahmudov və Bolqarıstanın informasiya təhlükəsizliyi üzrə dövlət komissiyasının sədri xanım Tsveta Markova imzaladılar.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Noyabrın 14-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Biz Sizinlə mütəmadi qaydada görüşürük, bütün məsələləri müzakirə edirik. Əminəm ki, bütün sahələr üzrə əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

İlk növbədə, siyasi əlaqələr yüksək səviyyədədir və qarşılıqlı səfərlərin həyata keçirilməsi bunun bariz nümunəsidir. İqtisadi sahədə ticarət dövriyyəsi artır. Əlbəttə, əlaqələrimizdə enerji amili də mühüm rol oynayır və bu sahədə də şirkətlər arasında danışıqlar aparılır. Biz bütün sahələrdə uğurlu inkişafı görürük və əminəm ki, Sizin səfərinizdən sonra da bu müsbət dinamika davam etdiriləcəkdir.

Bir daha "Xoş gəlmisiniz" deyirəm və bir daha Sizi salamlayıram.

* * *

Bolqarıstan Prezidenti Georgi PIRVANOV səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

-Cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk. İlk öncə, Sizə olduqca minnətdarıq ki, bu səfərin həyata keçirilməsi üçün bizi buraya dəvət etdiniz. Mən aramızda mövcud olan şəxsi münasibətləri çox yüksək dəyərləndirirəm. Tam aydın şəkildə qeyd etmək olar ki, aramızda mövcud olan dost münasibətləri ölkələrimiz arasındakı münasibətlərin inkişafına da öz təsirini göstərir. Hesab edirəm ki, ölkələrimiz arasında olan münasibətlərin inkişaf modeli bir çox digər ölkələrin münasibətlərinə də şamil edilə bilər. Ən vacibi isə odur ki, dost münasibətlərimiz, həmçinin işgüzar münasibətlərə də çevrilibdir. Bu baxımdan əməkdaşlığımız məhz real məzmunla zəngindir və bu, bizim hər iki tərəfin arasında olan münasibətlərin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Bizim üçün çox vacibdir ki, bu münasibətlər yeni səviyyəyə qalxsın. Bu baxımdan biz iki ölkə arasında qarşılıqlı sərmayələrin qoyulmasını çox vacib hesab edirik. Biz istərdik ki, Bolqarıstanın kapitalı, Bolqarıstanın sərmayələri, həmçinin Azərbaycanda mövcud olsun.

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Bakı, 14 noyabr (AzərTAc). Noyabrın 14-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının

Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.

Görüşdə son illərdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Siyasi, iqtisadi, energetika və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivin olduğu vurğulandı. Əlaqələrimizin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik bildirildi və Bolqarıstan Prezidenti Georgi Pırvanovun Azərbaycana rəsmi səfərinin bu baxımdan önəmi qeyd edildi.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan Respublikasının Prezidentinə raport verdi.

Bolqarıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Bolqarıstan Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Georgi Pırvanova, Bolqarıstan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Georgi Pırvanov rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN İQTİSADİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Latviya Respublikasının iqtisadiyyat naziri Daniels Pavlutsu qəbul etmişdir.

Nazir Daniels Pavluts Latviyanın yeni hökumətinin ilk nümayəndəsi kimi Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, təmsil etdiyi yeni hökumətin Azərbaycan ilə əməkdaşlığı bundan sonra da inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Son illər ölkələrimiz arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğulayan latviyalı nazir əməkdaşlığımızın genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın Latviya ilə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi işində maraqlı olduğunu dedi. Dövlət başçılarının uğurlu qarşılıqlı səfərlərinin yaxşı nəticələr verdiyini vurğulayan Prezident İlham Əliyev son illər münasibətlərimizin dinamik şəkildə inkişaf etdiyini bildirdi. Əməkdaşlığın genişləndirilməsi ilə bağlı müəyyən olunmuş istiqamətlər üzrə, xüsusilə ticarət sahəsində bir çox investisiya layihələrinin müzakirə edildiyini deyən dövlətimizin başçısı Latviyanın yeni hökuməti ilə də ölkəmizin uğurlu əməkdaşlıq edəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ ENERJİ, ƏTRAF MÜHİT, RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də İsveçrə Konfederasiyasının enerji, ətraf mühit, rabitə və nəqliyyat naziri xanım Doris Loytardı qəbul etmişdir.

Dövlətimizin başçısı İsveçrə Konfederasiyasının enerji, ətraf mühit, rabitə və nəqliyyat nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi baxımından yaxşı imkan yaradacağını dedi.

İsveçrəli nazir Azərbaycana ilk səfərindən məmnunluğunu bildirdi. Ölkəmizdə infrastruktur layihələrinə böyük həcmdə sərmayə qoyulması ilə bağlı məlumatlı olduğunu deyən qonaq iqtisadiyyatın inkişaf etdirilməsi üçün bunun əsas amil olduğunu vurğuladı.

Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO KOMŞİÇƏ

Hörmətli cənab Sədr,

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 14 noyabr 2011-ci il.

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim öz inkişafını davam etdirərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və rifah arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 14 noyabr 2011-ci il.

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

Hörmətli cənab Prezident,

Albaniya Respublikasının milli bayramı - Bayraq günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan-Albaniya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 14 noyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ, AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XANIM KETRİN EŞTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın geniş forma-

ta malik olduğunu və uğurla inkişaf etdiyini vurğuladı. Xanım Ketrin Eşton ilə Varşavada keçirdiyi görüşü xatırlayan Prezident İlham Əliyev həmin görüşdən qısa müddət keçdikdən sonra onun bölgəyə səfər etməsinin bütün region və Azərbaycan üçün önəmini qeyd etdi. Dövlətimizin başçısı xanım Ketrin Eştonun ölkəmizə səfərinin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eşton Azərbaycana səfərindən məmnunluğunu bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında energetika sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifaini qəbul etmişdir.

Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ölkəmizdə turizm sektorunun inkişafına yaradılan yüksək şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, BMT-nin Dünya Turizm Təşkilatının Baş Assambleyasının Koreyada keçirilən iclasında Azərbaycanın Avropa regionu üzrə təşkilatın vitse-prezidenti seçilməsinin önəmini qeyd etdi. Taleb Rifai Azərbaycanın Dünya Turizm Təşkilatının "Qızıl kitab" hərəkatına qoşulması barədə təşkilatın dəvət məktubunu dövlətimizin başçısına təqdim etdi.

Ölkəmizdə 2011-ci ilin "Turizm ili" elan olunduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanda turizm sektorunun dövlətin əsas prioritet sahələrindən biri olduğunu qeyd etdi. Dövlətimizin başçısı gözəl təbiətə və müxtəlif iqlim qurşağına malik olan ölkəmizdə ən müasir və cəlbedici turizm infrastrukturunun yaradılması üçün səylərin daha da artırılacağını dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də ABŞ dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin və eləcə də enerji sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, enerji sahəsində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

ABŞ dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ölkəsinin Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa dair əldə olunan son razılaşmanı alqışladığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonu qəbul etmişdir.

Belarus parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko ölkələrimizin etibarlı və səmimi dostluq münasibətlərindən məmnunluğunu bildirdi. Azərbaycana səfəri zamanı paytaxtımızda həyata keçirilən genişmiqyaslı tikinti və quruculuq işlərinin şahidi olduğunu deyən qonaq ölkəmizin əldə etdiyi uğurların onda böyük təəssürat yaratdığını dedi.

Ölkələrimizin siyasi sahədə uğurlu əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Prezident İlham Əliyev Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenkonun Azərbaycana səfərinin parlamentlərarası əlaqələrin möhkəmlənməsi işinə xidmət edəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EURONEWS" KANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİNİ VƏ İCRAEDİCİ ŞURANIN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da "Euronews" kanalının Müşahidə Şurasının sədri Piter Luis Malesanini və İcraedici Şuranın baş direktoru Maykl Pitersi qəbul etmişdir.

"Euronews" kanalının Müşahidə Şurasının sədri Piter Luis Malesani ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi və Azərbaycanın "Eurovision" mahnı müsabiqəsində qalib gəlməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Ölkəmizə bundan əvvəlki səfərini xatırlayan qonaq ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi istiqamətində böyük işlərin görüldüyünü vurğuladı.

Ötən dövrü "Euronews" kanalı ilə Azərbaycanın fəal əməkdaşlıq mərhələsi kimi xarakterizə edən Prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ, NƏQLİYYAT ÜZRƏ KOMİSSAR SİİM KALLASI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Avropa Komissiyasının vitse-prezidenti, nəqliyyat üzrə komissar Siim Kallası qəbul etmişdir.

Siim Kallas dövlətimizin başçısını Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbrik etdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu, əlaqələrimizin müxtəlif sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, eyni zamanda TRASEKA proqramı çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PARLAMENTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkiyə Respublikasının Böyük Millət Məclisinin beynəlxalq əlaqələr komitəsinin sədri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı parlament seçkilərindən sonra Türkiyə Böyük Millət Məclisi üzvlərinin ilk rəsmi səfərlərinin məhz Azərbaycana etmələrinin önəmini vurğulayaraq bu ənənənin hökumət üzvləri ilə yanaşı, parlament üzvləri tərəfindən də davam etdirilməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikasının Böyük Millət Məclisinin beynəlxalq əlaqələr komitəsinin sədri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini ifadə etdi. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələri əhatə etdiyini vurğulayan dövlətimizin başçısı parlamentlərarası əlaqələrin gələcəkdə də yüksək səviyyədə olacağına ümidvar olduğunu bildirdi.

Volkan Bozkır Türkiyə Böyük Millət Məclisi nümayəndə heyətinin ilk xarici səfərinin Azərbaycana etməsinin onlar üçün mühüm bir vəzifə olduğunu dedi. O, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Böyük Millət Məclisinin sədri Cəmil Çiçəyin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə Prezident İlham Əliyevi təbrik edən Volkan Bozkır dünyada və bölgədə ciddi problemlərin mövcud olduğu bir şəraitdə ölkəmizin BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsinin önəmli hadisə olduğunu dedi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Böyük Millət Məclisinin sədri Cəmil Çiçəyin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə, Baş nazirə və Böyük Millət Məclisinin sədrinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI REY MABUSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də ABŞ-ın Hərbi Dəniz Qüvvələrinin komandanı Rey Mabusu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin

müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, ölkələrimizin hərbi sahədə uzun illərdir ki, uğurla əməkdaşlıq etdiyi vurğulandı, bu sahədə əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

ABŞ-ın Hərbi Dəniz Qüvvələrinin komandanı Rey Mabus Azərbaycanın Əfqanıstandakı beynəlxalq sülhməramlı missiyanın tərkibində iştirakını və beynəlxalq sülhməramlı qüvvələrin fəaliyyəti ilə bağlı nəqliyyat təminatında ölkəmizin rolunu yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə ABŞ arasında təhlükəsizlik, enerji və nəqliyyat təhlükəsizliyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

RUMİNİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

Hörmətli cənab Prezident,

Rumıniyanın milli bayramı - Birlik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan-Rumıniya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Dövlətlərarası münasibətlərimizin inkişafı, eyni zamanda çoxşaxəli dostluq əlaqələrimizin daim möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin gündən-günə genişlənməsi ilə müşayiət olunur.

Əminəm ki, iqtisadi əməkdaşlıq çərçivəsində ikitərəfli qaydada müvəffəqiyyətlə həyata keçirdiyimiz təşəbbüslərimizi ardıcıl şəkildə davam etdirərək, regional enerji layihələrinin gerçəkləşməsi işinə bundan sonra da mühüm töhfələr verəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 noyabr 2011-ci il.

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Respublika günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Laos arasında təşəkkül tapmış münasibətlərin dostluq və əməkdaşlıq zəminində inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 noyabr 2011-ci il.

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD AL MƏKTUMA

Əlahəzrət,

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 noyabr 2011-ci il.

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYED AL NƏHYANA

Əlahəzrət,

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin daim möhkəmləndirilməsi, əməkdaşlıq əlaqələrimizin genişləndirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 noyabr 2011-ci il.

TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

Əlahəzrət,

Ölkənizin milli bayramı - Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Tailand münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 noyabr 2011-ci il.

BURKİNA-FASONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BLEZ KOMPAOREYƏ

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Respublika günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Burkina-Faso arasında təşəkkül tapmış dostluq münasibətləri daim inkişaf edərək əməkdaşlıq imkanlarımızı genişləndirəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 noyabr 2011-ci il.

"BAKUTEL-2011" 17-Sİ AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi - "BakuTel-2011" 17-ci Beynəlxalq sərgi və konfransının iştirakçılarını bu möhtəşəm tədbirin keçirilməsi münasibətilə təbrik edirəm.

Builki sərgi və konfransda 32 ölkədən 250 şirkətin təmsil olunması dünya İKT cəmiyyətlərinin bu tədbirə verdiyi qiymətin parlaq təzahürüdür.

Ölkəmizdə hər il keçirilən bu Beynəlxalq sərgi və konfrans müxtəlif ölkələrin informasiya cəmiyyətlərinin formalaşması üzrə təcrübə mübadiləsi, əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi, qabaqcıl texnologiyaların təqdimatı, şirkətlər arasında biznes əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradır.

Azərbaycanda İKT-nin inkişafına dövlət böyük qayğı göstərir. 2003-cü ildən İKT-nin inkişaf strategiyası və bu sahəyə dair bir neçə dövlət proqramı qəbul edilmiş, hüquqi baza formalaşmış, uyğun islahatlar həyata keçirilmiş və nəticədə normal rəqabət mühitinə malik olan, böyük həcmdə investisiya qəbul edən müasir İKT bazarı yaradılmışdır. Ölkəmiz regional və beynəlxalq İKT layihələrində fəal iştirak edir. Avrasiya transmilli informasiya magistralı, Avropa-Yaxın Şərq yüksəksürətli informasiya şəbəkəsi kimi layihələr buna misaldır.

İnanıram ki, "BakuTel-2011" 17-ci Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransı müasir texnoloji nailiyyətlərin nümayişi, şirkətlərin, hökumət və dövlət təşkilatlarının, alim və mütəxəssislərin birgə müzakirələri, biznes əlaqələrinin qurulması, regional və beynəlxalq əməkdaşlığın inkişafı, eləcə də Azərbaycanla yaxından tanışlıq üçün əlverişli mühit olacaqdır.

Sərgi və konfransın işinə uğurlar arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 noyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-YAPONİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ, İTOÇİ KORPORASİYASININ İCRAÇI VİTSE-PREZİDENTİ YOİÇİ KOBAYAŞİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Azərbaycan-Yaponiya Hökumətlərarası Komissiyanın həmsədri, İtoçi korporasiyasının icraçı vitse-prezidenti Yoiçi Kobayaşini qəbul edib.

Yoiçi Kobayaşi ölkəmizə bundan əvvəlki səfərini xatırlayaraq ötən dövr ərzində paytaxtda çox böyük dəyişikliklərin şahidi olduğunu vurğuladı.

Görüşdə Azərbaycan ilə Yaponiya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin müxtəlif sahələrdə genişləndirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Eyni zamanda, görüşdə Azərbaycan-Yaponiya Hökumətlərarası Komissiyanın uğurlu fəaliyyəti yüksək qiymətləndirildi, Yaponiya şirkətlərinin Azərbaycanın enerji sektorundakı və ölkəmizdə həyata keçirilən infrastruktur layihələrindəki fəaliyyətinin önəmi qeyd edildi, qeyri-neft sektorunda əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİN ƏMƏKDAŞLIQ PROQRAMININ BAKIDA KEÇİRİLƏN X YUBİLEY NAZİRLƏR KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Noyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzi Asiya Ölkələrinin Əməkdaşlıq Proqramının (CAREC) Bakıda keçirilən X yubiley Nazirlər Konfransının iştirakçılarını qəbul etmişdir.

Prezident İlham ƏLİYEV konfrans iştirakçılarını salamlayaraq dedi:

-Hörmətli qonaqlar, mən sizi Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

CAREC-in X yubiley Nazirlər Konfransının Azərbaycanda keçirilməsi böyük hadisədir, ölkəmiz üçün böyük şərəfdir. Bilirsiniz ki, Azərbaycan bu mötəbər beynəlxalq proqram təşkilatının fəal üzvüdür. Azərbaycan proqram çərçivəsində öz üzərinə düşən vəzifələrini icra etməyə çalışır. Əminəm ki, bu proqramın uğurlu inkişafı regional əməkdaşlığın dərinləşməsinə xidmət edəcək, bölgədə sülhün, əmin-amanlığın, rifahın təmin edilməsi işinə çox önəmli töhfə verəcəkdir.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar gözəl nəticələr verməkdədir. CAREC-in üç əsas istiqaməti üzrə Azərbaycanda çox ciddi proqramlar icra edilir. Ticarət, nəqliyyat, enerji məsələlərinə ölkəmizdə çox böyük diqqət göstərilir və tərəfimizdən irəli sürülmüş təşəbbüslər, eyni zamanda, regional əməkdaşlığın genişlənməsinə də xidmət göstərir. Son 8 il ərzində Azərbaycanda iqtisadi inkişaf çox yüksək templərlə ölçülürdü, ümumi daxili məhsul üç dəfə, yəni 300 faiz artmışdır. Sənaye istehsalı təxminən üç dəfə artmışdır. Ölkə iqtisadiyyatına 10 milyardlarla dollar sərmayə qoyulmuşdur.

Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və xarici sərmayələrin cəlb edilməsi işində ölkəmiz böyük uğurlar qazanmışdır. Hazırda bu investisiyalar təkcə neft-qaz sektoruna deyil, qeyri-neft sektoruna da qoyulur və bu, bizim indiki siyasətimizdə prioritet təşkil edir. Qeyri-neft sektorunun inkişafı bu il də çox yüksəkdir, təxminən 9 faiz səviyyəsindədir. Əlbəttə, iqtisadi inkişafın nəticəsində insanların maddi vəziyyəti də yaxşılaşmaqdadır. Son 8 il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 9 faizə düşmüşdür. Xarici ticarət dövriyyəmiz də artmaqdadır. CAREC proqramının iştirakçılarının və Azərbaycan hökumətinin fəaliyyəti nəticəsində iqtisadi sahədə əlaqələrimiz ikitərəfli formatda da çox müsbət, uğurla inkişaf edir.

Azərbaycan tərəfindən nəqliyyat sektorunda irəli sürülmüş təşəbbüslər də beynəlxalq xarakter daşıyır. Son illər ərzində ən çox sərmayə bu sektora qoyulmuşdur və uğurlu coğrafi vəziyyətimiz bizə imkan verir ki, Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirək. Bu məqsədlə çox vacib addımlar atılmışdır. Son 7 il ərzində Azərbaycanda beş beynəlxalq hava limanı istifadəyə verilmişdir. Bu hava limanları istənilən ən ağır yük təyyarələrini qəbul edə bilər.

Dəmir yolu nəqliyyatında islahatlar aparılır və yeni dəmir yolu xətləri çəkilir. Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi uğurla gedir. Əminəm ki,

2013-cü ilin əvvəlində bu dəmir yolu layihəsi başa çatacaq və beləliklə, biz "Dəmir İpək yolu"nun bərpasını təşkil edəcəyik. Bu layihə bütün CAREC Proqramına üzv olan ölkələr üçün böyük əhəmiyyət daşıyacaqdır. Çünki bu yoldan istifadə etmək həm iqtisadi cəhətdən daha da əlverişli olacaq, eyni zamanda, regional əməkdaşlığımızı da böyük dərəcədə gücləndirəcəkdir.

Hava nəqliyyatı ilə bağlı yeni təyyarələr alınır. Azərbaycanda yük daşımaları üzrə fəaliyyət göstərən transmilli şirkətlər artıq dünyada çox müsbət imicə malikdir.

Dəniz nəqliyyatının inkişafı üçün əlavə tədbirlər görülür. Gəmilər, bərələr, tankerlər alınır. Artıq Azərbaycan bəzi Orta Asiya ölkələri üçün tranzit funksiyalarını icra edir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz ancaq və ancaq artacaqdır. Əlbəttə ki, burada söhbət təbii resursların tranzitindən gedir və qeyri-enerji mənşəli yüklərin Azərbaycan ərazisindən Qərb istiqamətinə çatdırılması üçün əlavə tədbirlər görülür. Xəzər dənizinin ən böyük beynəlxalq ticarət limanı hazırda tikilməkdədir. Bakıda yeni gəmiqayırma zavodu tikilməkdədir. Əlbəttə ki, bu gəmiqayırma zavodunun məhsulları bütün Xəzəryanı ölkələrin sərəncamında olacaq və eyni zamanda, Xəzər dənizi ilə bağlı Xəzəryanı olmayan ölkələrin təşəbbüslərinin icrası üçün də bu gəmiqayırma zavodunun böyük rolu olacaqdır.

Enerji sektoru da CAREC Proqramının tərkib hissəsidir. Bu sahədə də, əlbəttə, biz böyük işlər görmüşük. Azərbaycan qədim neft ölkəsidir. Hazırda Azərbaycan özünü dünyaya qaz ölkəsi kimi təqdim edir. Bizim son bir il ərzində aşkar etdiyimiz qaz ehtiyatları təqribən 600-700 milyard kubmetr səviyyəsindədir. Beləliklə, bizim ümumi təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetr səviyyəsindədir. Mən heç şübhə etmirəm ki, gələcəkdə əlavə kəşfiyyat və qazma işlərinin aparılması sayəsində bu həcm ancaq artacaqdır.

Hazırda Azərbaycanı beynəlxalq bazarlarla birləşdirən 7 neft və qaz kəməri vardır. Onların hamısı işlək vəziyyətdədir. Biz neft və qazımızı bütün istiqamətlər üzrə ixrac edirik. Bu sahədə şaxələndirmə məqsədlərimizə tam şəkildə çatmışıq. Hazırda tranzit ölkələrlə, istehlakçılarla və potensial istehlakçılarla danışıqlar aparılır ki, gələcəkdə Azərbaycan zəngin neft-qaz potensialını maksimum dərəcədə işə sala bilsin.

Yeni investisiya layihələri hazırlanır və dünyanın ən böyük qaz yataqlarından biri olan "Şahdəniz" qaz yatağının ikinci fazasının işlənilməsi ilə bağlı hazırlıq işləri aparılır. Təkcə "Şahdəniz" yatağının qaz ehtiyatları 1,2 trilyon kubmetr səviyyəsindədir. Əlbəttə ki, biz indiki mərhələdə enerji səmərəliliyi ilə bağlı əlavə tədbirlər görürük. Alternativ və bərpa olunan enerji növlərinin yaradılması üçün işlər aparılır. Birinci pilot layihə icra edilmişdir. Hibrit külək-günəş elektrik stansiyası fəaliyyətdədir. Günəş batareyalarının istehsalı ilə bağlı işlər gedir. Alternativ və bərpa olunan enerjinin Azərbaycanda istehsalı gələcəkdə daha da böyük həcmlə ölçüləcəkdir. Bu, bizim üçün prioritet məsələdir.

Bilirsiniz, CAREC Proqramının əsas istiqamətləri üzrə Azərbaycanda çox böyük işlər aparılıb. Görülən bütün bu işləri sadalamaq üçün yəqin ki, bir neçə saat vaxt lazım olacaqdır. Sadəcə olaraq demək istəyirəm ki, Azərbaycan hər istiqamət üzrə üzərinə düşən vəzifələrini icra etməyə davam edəcəkdir. Biz proqrama üzv olan bütün ölkələrlə çox gözəl ikitərəfli münasibətlərə malikik. Əminəm ki, bu formatda keçirilən və keçiriləcək

fikir mübadiləsi əməkdaşlığımızı daha da gücləndirəcəkdir.

Mən çox şadam ki, CAREC Proqramının X yubiley Nazirlər Konfransı Bakıda keçirilir. Əminəm ki, konfransın yaxşı nəticələri olacaqdır və bizə qonaq gəlmiş dostlarımız da öz vətənlərinə xoş təəssüratlarla qayıdacaqlar. Bir daha xoş gəlmisiniz.

* * *

Sonra Asiya İnkişaf Bankının prezidenti Haruhiko KURADO çıxış edərək dedi:

-Zati-aliləri, cənab Prezident Əliyev!

Bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Biz Bakıda olmağımızdan çox məmnunuq. Təbii ki, səfərimiz nazirlər səviyyəsində keçirilən yubiley konfransı ilə bağlıdır.

Biz burada bir sıra sahələrə toxunacağıq. Tədbir zamanı enerji, nəqliyyat və digər sahələrdə mövcud olan məsələləri müzakirə edəcəyik. Biz əslində bu müzakirələri iki səviyyədə həyata keçirmək fikrindəyik. Nəqliyyat, enerji və ticarət bir tərəfdən. Bununla biz əməkdaşlıq çərçivəsinin sonrakı daha geniş əsaslarını da formalaşdıracağıq. Siz burada qeyd etdiniz ki, Azərbaycan bütün bu sahələrdə və əməkdaşlığın genişləndirilməsində əsas rol oynamaqdadır.

Cənab Prezident, mən Sizə səmimi minnətdarlığımı bildirirəm. Siz bu CAREC Proqramına davamlı şəkildə dəstəyinizi vermişdiniz. Biz həmkarlarımızla təbii ki, cari işləri müzakirə edəcəyik. Həmçinin, eyni zamanda, qarşımızda dayanan məsələlərin həllinə nail olmaq üçün perspektivləri də nəzərdən keçirəcəyik. Mən çox şadam ki, son 10 ildə əldə etdiyimiz nəticələrə əsaslanaraq, sonrakı onillikdə də CAREC Proqramı daha böyük uğurlar gətirəcək və Şərq-Qərb, Şimal-Cənub arasında olan əlaqələri daha da gücləndirəcəkdir. Əslində əgər bu baş tutarsa burada iqtisadiyyatın bütün sahələri bəhrələnə bilər.

Bir daha CAREC Proqramı nazirləri adından Sizə səmimi təşəkkürümü bildirmək istərdim. Biz Sizə və hökumətinizə minnətdarlığımızı bildiririk ki, belə bir tədbirin ölkənizdə keçirilməsi mümkün olmuşdur. Biz xüsusilə, cənab Prezident, Sizə təşəkkürümüzü bildiririk. Eyni zamanda, azərbaycanlı həmkarımıza da təşəkkürümüzü bildiririk. Çünki bütün üzv dövlətlərin nümayəndələri Bakı konfransı çərçivəsində aparılan əməkdaşlıqdan olduqca məmnundurlar.

Çox sağ olun.

* * *

"Azərbaycan CAREC Proqramının gücləndirilməsinə öz töhfəsini vermək əzmindədir", - deyən dövlətimizin başçısı bildirdi ki, təşkilata dəstək məqsədi ilə gələcəkdə bir sıra istiqamətlər, o cümlədən fəaliyyət və müəyyən ideyalarla bağlı məsələlər nəzərdən keçiriləcəkdir.

"Siz bizə arxalana bilərsiniz", - deyən Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz gələcəkdə də CAREC Proqramına dəstək verəcəkdir. Çünki Azərbaycanın bu proqramın üzvü olan dövlətlərlə yaxşı ikitərəfli münasibətləri var və ölkələrimiz müxtəlif iqtisadi proqramlar üzərində birgə işləyir.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, CAREC Proqramının üzvü olan dövlətlərlə mövcud ikitərəfli münasibətlər gələcəkdə geniş regional əməkdaşlığa çevriləcəkdir.

Prezident İlham Əliyev Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında etibarlı tərəfdaşlığın qurulduğunu və bu təşkilat ilə ölkəmizin sıx əməkdaşlıq etdiyini də diqqətə çatdırdı. Dövlətimizin başçısı vurğuladı ki, bir sıra beynəlxalq təşkilatların üzvü olan Azərbaycan enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayır və bu sahədə hasilatçı, tranzit və istehlakçı ölkələr arasında sıx əməkdaşlığın yaradılması vacibdir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan inkişaf etmək, güclü və çevik iqtisadi struktura çevrilmək məqsədini qarşıya qoyan CAREC Proqramına üzv dövlətlər və onların müvafiq strukturları ilə əməkdaşlığını bundan sonra da davam etdirəcəkdir.

Dövlətimizin başçısı çıxışının sonunda bir daha Bakıda keçirilən yubiley konfransının iştirakçılarına uğurlar arzuladı.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN AVROPA İQTİSADİ KOMİSSİYASININ İCRAÇI BAŞ KATİBİ YAN KUBİŞİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı baş katibi Yan Kubişi qəbul etmişdir.

Yan Kubiş Slovakiyanın xarici işlər naziri və Avropa Şurası Nazirlər Komitəsinin sədri vəzifəsində çalışarkən Azərbaycana səfər etdiyini xatırlayaraq ötən dövr ərzində ölkəmizdə çox böyük dəyişikliklərin şahidi olduğunu dedi və qazanılan uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Azərbaycanın enerji siyasətini və regional nəqliyyat layihələrini yüksək qiymətləndirən Yan Kubiş BMT-nin xüsusi qətnaməsi və Azərbaycanın koordinatorluğu ilə həyata keçirilən Avrasiya informasiya magistralı layihəsinin icrasına görə BMT rəhbərliyi adından dövlətimizin başçısına minnətdarlığını bildirdi. BMT-nin müxtəlif sahələr üzrə beynəlxalq mərkəzlər yaratdığını vurğulayan qonaq ölkəmizdə informasiya texnologiyaları sektorunun sürətli inkişafını nəzərə alaraq təmsil etdiyi qurumun bu sahə üzrə beynəlxalq mərkəzin Azərbaycanda yaratmağa maraqlı olduğunu dedi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan enerji və regional nəqliyyat layihələrinin həyata keçirilməsi işində artıq özünü etibarlı tərəfdaş kimi göstərib. Ölkəmizdə informasiya texnologiyaları sektorunun sürətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının gələcək inkişafında bu sahənin rolunu yüksək qiymətləndirdi. BMT-nin həyata keçirdiyi müxtəlif layihələrin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı BMT-nin informasiya texnologiyaları sahəsi üzrə beynəlxalq mərkəzin Azərbaycanda yaradılması fikrinin də önəmli olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TELEKOMMUNİKASİYA TƏŞKİLATININ BAŞ KATİBİ HAMADUN TURENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Beynəlxalq Telekommunikasiya Təşkilatının baş katibi Hamadun Tureni qəbul etmişdir.

Beynəlxalq Telekommunikasiya Təşkilatının baş katibi Hamadun Ture ölkəmizdə "BakuTel-2011" 17-si Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransının təşkilini yüksək qiymətləndirdi. İnformasiya təhlükəsizliyinin dünyada aktual məsələlərdən biri olduğunu vurğulayan Hamadun Ture bu sahədə Azərbaycanda görülən işlərdən məmnunluğunu bildirdi. Ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sahəsinin sürətlə inkişaf etdiyini qeyd edən qonaq Azərbaycanın Beynəlxalq Telekommunikasiya Təşkilatının Afrika ölkələrinin yardım kampaniyasına qoşulmasının önəmini qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev neft-qaz sahəsi ilə yanaşı, informasiya və kommunikasiya texnologiyaları sektorunun dövlətin önəm verdiyi prioritet sahələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev enerji sahəsində olduğu kimi, Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları ilə bağlı regional layihələrdə iştirakı istiqamətində fəaliyyətini daha da artıracağını qeyd etdi.

Dövlətimizin başçısı Beynəlxalq Telekommunikasiya Təşkilatının fəal üzvü kimi Azərbaycanın qurumun təklif etdiyi bütün layihələrdə uğurla iştirak edəcəyini dedi.

Görüşdə Azərbaycanın Beynəlxalq Telekommunikasiya Təşkilatı ilə əməkdaşlığının perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ HARUHİKO KURADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Asiya İnkişaf Bankının prezidenti Haruhiko Kuradonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Mərkəzi Asiya ölkələrinin Əməkdaşlıq Proqramının 10-cu yubiley Nazirlər Konfransının Bakıda keçirilməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev qarşılıqlı regional əməkdaşlığın və tərəfdaşlıq əlaqələrinin önəmini qeyd etdi. Son illər Azərbaycanda genişmiqyaslı sosial və infrastruktur layihələrinin icrası istiqamətində mühüm işlərin görüldüyünü vurğulayan dövlətimizin başçısı elektrik enerjisinin istehsalı, xüsusilə alternativ və bərpa olunan enerji layihələrinin icrası, müasir tələblərə cavab verən yol-nəqliyyat infrastrukturunun yaradılması, yeni hava limanlarının tikintisi və dəniz nəqliyyatının inkişafı, Bakı şəhərində yeraltı nəqliyyat şəbəkəsinin genişləndirilməsi, su təchizatı və kanalizasiya sistemlərinin yaradılması və yenidən qurulması istiqamətində həyata keçirilən proqramların əhəmiyyətini qeyd etdi.

Asiya İnkişaf Bankının prezidenti Haruhiko Kurado Azərbaycanda, o cümlədən Bakı şəhərində həyata keçirilən abadlıq və quruculuq tədbirlərini yüksək qiymətləndirdi. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla həyata keçirilən sosial

infrastruktur layihələrinin rəhbərlik etdiyi banka üzv ölkələrin inkişaf strategiyasına tamamilə uyğun olduğunu vurğuladı. Haruhiko Kurado Asiya İnkişaf Bankının ölkəmizdə həyata keçirilən bu layihələrdə daha yaxından iştirak etməkdə maraqlı olduğunu dedi. O, dünyada baş verən maliyyə böhranının Asiya ölkələrinə təsirinin azaldılması istiqamətində rəhbərlik etdiyi qurumun gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Görüşdə Bankın ölkəmizdə həyata keçirdiyi layihələr müzakirə edildi, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

BAKIDA "BAKUTEL-2011" XVII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSI AÇILMIŞDIR

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏRGİ İLƏ TANIŞ OLMUŞDUR

Noyabrın 23-də Bakı Sərgi Mərkəzində "BakuTel-2011" XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransı açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgi ilə tanış olmuşlar.

Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov dövlətimizin başçısına sərgi barədə məlumat verdi. Bildirildi ki, informasiya-kommunikasiya texnologiyalarının bütün seqmentlərini əhatə edən "BakuTel-2011" XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransı Azərbaycanda rabitənin yaranmasının 130 illiyi ilə üst-üstə düşür. BMT və Beynəlxalq Telekommunikasiya İttifaqı kimi beynəlxalq qurumların dəstəyi, həmçinin Dünya Sərgi Sənayesi Assosiasiyasının "BakuTel" sərgisini "Keyfiyyət nişanı"na layiq görməsi tədbirə beynəlxalq səviyyədə verilən əhəmiyyətin göstəricisidir.

Dövlətimizin başçısı sərgi ilə tanışlığa Azərbaycanın ilk mobil operatorlarından olan "Bakcell" şirkətinin pavilyonundan başladı.

Azərbaycan Prezidentinə şirkətin təklif etdiyi 3G və 4G, həmçinin digər xidmətlər barədə ətraflı məlumat verildi.

"DELTA Telecom" şirkətinin pavilyonu ilə tanışlıq zamanı qeyd olundu ki, qurum respublikamızın İKT bazarında xüsusi mövqeyi ilə seçilir. Şirkət region səviyyəsində mühüm əhəmiyyət kəsb edən bir neçə uğurlu layihə həyata keçirir. Dünyanın ən iri rabitə operatorlarının qoşulduğu EPEG layihəsini, paytaxt Bakıda böyük DATA mərkəzinin qurulmasını və digər layihələri buna misal göstərmək olar. "DELTA Telekom"un reallaşdırdığı layihələrin hamısı region əhəmiyyətlidir.

Respublikamızda "Aztelekom" İstehsalat Birliyinin CDMA - simsiz telefon şəbəkəsi 2005-ci ilin sentyabrında istifadəyə verilmişdir. Bu xidmətin regionlarda tətbiqi istiqamətində qısa müddətdə ardıcıl tədbirlər görülüb. Hazırda ölkəmizin 22 rayonunun və 4

şəhərinin ərazisində "Aztelekom"un 32 baza stansiyasından ibarət simsiz telefon şəbəkəsi təşkil olunmuşdur. Bu xidmətin digər bölgələrdə də tətbiqi üçün konkret tədbirlər həyata keçirilir.

"Ultra" şirkəti də Azərbaycan bazarında uğurla təmsil olunur. Qurumun elektron sənəd dövriyyəsi, elektron təhsil, elektron imza, elektron bankinq, elektron bələdçi və digər xidmətlərindən müştərilər geniş istifadə edirlər.

"Sazz" şirkəti də internet və digər ən müasir İKT xidmətlərinin təklifi baxımından respublikamızın perspektivli iqtisadi qurumlarından sayılır.

Azərbaycan Futuroloqlar Cəmiyyəti ölkəmizdə 2006-cı ildən fəaliyyət göstərir. Bu cəmiyyət "Minilliyin layihəsi" çərçivəsində uzunmüddətli qlobal strategiyaların erkən xəbərdarlıq və təhlili üçün gələcəyin tədqiqatları ilə məşğul olan beyin mərkəzidir.

"BakuTel-2011" XVII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində 18 ölkənin milli ekspozisiyası da fəaliyyət göstərir.

İsrailin milli pavilyonunda NGSoft, NFC və digər şirkətlərin yenilikləri təqdim olunur. Burada İsrail şirkətlərinin proqram təminatı, mobil ödəmə sistemləri, Kontentlərin İdarə Edilməsi Sistemi, mobil və internet bankinq, həmçinin digər xidmətləri barədə ətraflı informasiya almaq mümkündür.

"Gələcəyin məktəbi" ekspozisiyasında 261 nömrəli məktəb-liseyin 5-ci sinif şagirdləri "multitouch" monitor və ağıllı lövhə vasitəsilə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya İKT sahəsində biliklərini nümayiş etdirdilər.

"BakuTel-2011" sərgisində ilk dəfə Kanadanın altı şirkəti təmsil olunur. Bu şirkətlər də Azərbaycan ilə sıx əməkdaşlıqda maraqlıdırlar.

Türkiyənin milli pavilyonu ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, qardaş ölkənin şirkətləri müstəqilliyimizin ilk illərindən Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları bazarında geniş təmsil olunurlar. Hazırda Azərbaycan və Türkiyə İKT sektorunda sıx əməkdaşlıq edir və respublikamızda ən son elmi-texniki yeniliklərin tətbiqi üçün birgə ardıcıl iş aparırlar.

Latviya da Azərbaycan ilə İKT sektorunda əlaqələrini ilbəil genişləndirir. Sərgidə bu ölkənin "DPA" və digər şirkətləri silsilə yenilikləri ilə təmsil olunurlar.

Avstriya şirkətləri də respublikamızın İKT bazarına ciddi maraq göstərirlər. Bu, ilk növbədə, ölkəmizdə istər yerli, istərsə də xarici iqtisadi qurumlar üçün yaradılan əlverişli biznes mühitindən qaynaqlanır. Avstriyanın "Skidata" və digər şirkətləri artıq respublikamızda "Şahdağ" qış kurortu kimi bir sıra iri layihələrə qoşulmuşlar.

Sərgidə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ən son elmi-texniki yeniliklərə əsaslanan videokonfrans sistemi nümayiş etdirildi. Bildirildi ki, bu sistem vasitəsilə eyni vaxtda bir neçə məkanla canlı videobağlantı yaratmaq mümkündür.

Azərbaycanın strateji tərəfdaşı olan Rumıniya iki ölkə arasında imzalanan sənədlərə əsasən, respublikamızın İKT sektorunda da fəaliyyətini genişləndirmək niyyətindədir. "SİVECO Romania SA" şirkəti Azərbaycanın "Milli təhsil sisteminin idarə edilməsi və elektron tədris" kimi mühüm əhəmiyyətli layihələrə qoşulmuşdur.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya 2012-ci ildə respublikamızda

keçiriləcək 17 yaşlı qadınlar arasında futbol üzrə dünya çempionatına hazırlıq işlərinin gedişi barədə geniş məlumat verildi.

Dövlətimizin başçısına dünya çempionatına biletlərin onlayn qaydada satışı sistemi nümayiş etdirildi. Qeyd olundu ki, istənilən xarici vətəndaş bu sistem vasitəsilə ölkəmizdə keçiriləcək futbol üzrə dünya çempionatına bilet əldə edə bilər.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 17 yaşlı qadınlar arasında futbol üzrə dünya çempionatının start sayğacını işə saldı.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin ekspozisiyası da zənginliyi ilə seçilir. Nazir Əli Abbasov dövlətimizin başçısına respublikamızda İKT sektorunun əsaslı inkişafı ilə bağlı həyata keçirilən silsilə layihələr barədə məlumat verdi. Rəsmi məlumatlara görə, Azərbaycanda İKT sektoru təxminən hər üç ildə iki dəfə genişlənir. Təxminən 10-15 ildən sonra bu sahədən əldə ediləcək gəlirlər neft sektorundan əldə ediləcək gəlirlərə yaxınlaşacaqdır.

Azərbaycan ilə Fransa informasiya-kommunikasiya texnologiyaları sahəsində, o cümlədən kosmik proqram üzrə sıx əməkdaşlıq edirlər. Gələn ilin dördüncü rübündə məhz Fransa Azərbaycanın ilk telekommunikasiya peykini orbitə çıxaracaqdır.

Dövlətimizin başçısına respublikamızda poçt rabitəsi üzrə xidmətlərin daha da genişləndirilməsi üçün həyata keçirilən tədbirlər barədə də məlumat verildi.

"BakuTel-2011" XVII Beynəlxalq sərgidə İran şirkətləri də ilbəil geniş təmsil olunur, öz yeniliklərini təqdim edirlər.

Belarusun pavilyonu da zənginliyi ilə fərqlənir. Azərbaycan bu ölkə ilə də İKT sektorunda əməkdaşlığını genişləndirir. Bu baxımdan "BakuTel" sərgiləri mühüm rol oynayır.

İnformasiya-kommunikasiya texnologiyaları sahəsində Azərbaycanın sıx əməkdaşlıq etdiyi ölkələrdən biri də Estoniyadır. Sərgidə bu ölkənin şirkətləri iqtisadi qurumların fəaliyyətinə hərtərəfli nəzarəti və şəffaflığı təmin edən sistemlərin nümayişinə də geniş yer vermişdir.

MDB məkanında bir sıra ən qabaqcıl İKT xidmətlərini Azərbaycanda tətbiq edən şirkətlərdən biri də "Azərfon" MMC-dir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı şirkətin ekspozisiyasında "Nar Mobile" mobil operatorunun simaları, "Eurovision-2011" mahnı müsabiqəsinin qaliblə-ri Nigar Camal və Eldar Qasımov qarşıladılar.

Məlumat verildi ki, 2012-ci ilin aprelindən şirkətin təklif etdiyi yeni xidmət sayəsində "Azərbaycan Hava Yolları" QSC-nin reysləri zamanı təyyarədə mobil telefon xidmətindən istifadə etmək mümkün olacaqdır. Şirkət respublikamızda 3G mobil rabitəsinin sosial sahələrə tətbiqi ilə bağlı və digər istiqamətlərdə konkret layihələr həyata keçirir.

"Azercell Telecom" MMC-nin pavilyonu ilə tanışlıq zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, şirkət ölkəmizdə fəaliyyətini durmadan genişləndirir. Sərgidə şirkətin bir sıra yenilikləri təqdim edildi.

Sərgi ilə yaxından tanış olan Prezident İlham Əliyev iştirakçılara uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.

* * *

Xəzər və Qafqaz regionlarının ən iri telekommunikasiya tədbiri olan "BakuTel-2011" sərgisi Britaniyanın "ITE Group" şirkətinin Qafqazdakı tərəfdaşı olan "Iteca Caspian" şirkətinin təşkilatçılığı ilə təşkil olunmuşdur. Bu il sərgidə 29 ölkədən 250-yə yaxın şirkət iştirak edir. Sərginin 40 faizdən çox hissəsini yerli informasiya texnologiyaları şirkətləri, mobil operatorlar, distribüterlər, rabitə operatorları və servis şirkətləri təşkil edir. Sərgi yerli İKT müəssisələrinin hərtərəfli inkişafına təkan verir və onların dünya standartları səviyyəsində məhsul istehsalına əlavə imkanlar yaradır. Sərgidə təqdim edilən yeniliklər innovasiyalı məhsul, xidmət və texnologiyaların milli bazarda təşviqinə, həmçinin ölkəmizin qlobal informasiya məkanına daha sıx inteqrasiyasına da təkan verir.

Sərgi noyabrın 26-da başa çatacaqdır.

ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN III QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri və qonaqlar!

Sizi öz tarixi Vətəninizin müstəqilliyinin bərpa edilməsinin 20 illiyinin bayram edildiyi ildə keçirilən Ümumrusiya Azərbaycan Konqresinin III qurultayında səmimi salamlayıram.

Azərbaycan bu yubileyi müxtəlif sahələrdə sanballı nailiyyətlərlə qarşılayır. Davamlı inkişaf sahəsində uğurlarımız nüfuzlu beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir. Biz öz tarixi-mədəni irsimizi qoruyub saxlamaqla və ona qayğıkeş münasibət sahəsində çoxəsrlik ənənələri inkişaf etdirməklə yanaşı, eyni zamanda, milli mənəvi dəyərlərimizin ümumbəşəri ideallarla harmonik əlaqəsində varisliyi təmin edə bilmişik. Biz Azərbaycan cəmiyyətinin tolerantlığının və açıqlığının yüksək səviyyəsi ilə haqlı olaraq fəxr edirik. Respublikanın sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni həyatının bütün sahələrində təmsil olunmuş Azərbaycanın 120 minlik rus icmasının fəaliyyəti ölkəmizdə millətlərarası münasibətlər sahəsində yaranmış vəziyyətin parlaq təzahürüdür.

Bu gün Rusiya Federasiyası ilə siyasi, iqtisadi, mədəni və digər sahələrdə strateji tərəfdaşlığın səviyyəsi olduqca yüksək qiymətə layiqdir. Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətə çoxlu sübutlar göstərmək, o cümlədən bu faktı vurğulamaq olar ki, bu il Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçilərkən dost Rusiya da bizim namizədliyimizi dəstəkləmişdir.

İkitərəfli münasibətlərimizin inkişafında və dərinləşməsində Rusiyada yaşayan azərbaycanlıların rolu böyükdür. Sevindirici haldır ki, onlar çoxmillətli Rusiya cəmiyyətinin ayrılmaz hissəsidir, Rusiya Federasiyasının inkişafına və tərəqqisinə layiqli töhfə verirlər.

Azərbaycanlıların diaspor təşkilatları və ilk növbədə Ümumrusiya Azərbaycan Konqresi Rusiya vətəndaş cəmiyyətinin ayrılmaz hissəsinə çevrilmişlər. Ölkənin demək olar ki, bütün regionlarında öz strukturlarını yaratmış Konqres qısa müddətdə nüfuzlu ictimai birliklərdən birinə çevrilə bilmişdir. Bununla bərabər, Dünya Azərbaycanlılarının qurultayında göstərildiyi kimi, xalqımızın tarixinin və mədəniyyətinin təbliği, Azərbaycan haqqında həqiqətin Rusiya ictimaiyyətinə çatdırılması da onun işinin prioritet istiqamətlərindən biridir.

Əziz dostlar!

Əminəm ki, III qurultay Ümumrusiya Azərbaycan Konqresinin, eləcə də bütün Azərbaycan diasporunun fəaliyyətində mühüm hadisə olacaq, hərtərəfli Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə və inkişafına kömək edəcəkdir. Qurultayın bütün iştirakçılarına uğurlu iş, xoşbəxtlik, cansağlığı və firavanlıq arzu edirəm.

Hörmətlə

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2011-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİ HÜSEYN DİRİÖZÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də NATO baş katibinin müavini Hüseyn Diriözü qəbul etmişdir.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Hüseyn Diriöz ölkəmizdə keçirəcəyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. Bakıda "Sərhəd təhlükəsizliyi və narkotik vasitələrin yayılmasına qarşı mübarizə" mövzusunda beynəlxalq seminarın təşkil olunmasının əhəmiyyətli hadisə olduğunu qeyd edən Hüseyn Diriöz bu tədbiri Avratlantik məkanda ümumi təhlükəsizliyə töhfə kimi dəyərləndirdi. O, NATO ilə Azərbaycan arasında əməkdaşlığın geniş sahələri əhatə etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Sərhədlərin təhlükəsizliyi ilə bağlı məsələlərin ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev NATO ilə geniş əməkdaşlıq çərçivəsində Bakıda "Sərhəd təhlükəsizliyi və narkotik vasitələrin yayılmasına qarşı mübarizə" mövzusunda beynəlxalq seminarın keçirilməsinin önəmini qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMRUSİYA DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ ŞİRKƏTİNİN "FORMULA VLASTİ" (HAKİMİYYƏT FORMULU) PROQRAMININ MÜƏLLİFİ VƏ APARICISI MİXAİL QUSMANA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Ümumrusiya Dövlət Teleradio Verilişləri Şirkətinin "Formula Vlasti" (Hakimiyyət Formulu) proqramının müəllifi və aparıcısı Mixail Qusmana müsahibə vermişdir.

Dövlətimizin başçısı müsahibədə Azərbaycanın son illər müxtəlif sahələrdə keçdiyi inkişaf yolu, ulu öndər Heydər Əliyevin irsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın xarici siyasəti, regionların inkişafı və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ

Hörmətli cənab Prezident,

Qambiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-Qambiya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Qambiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 28 noyabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İZMİR VİLAYƏTİNİN VALİSİ MUSTAFA CAHİT KIRACIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Türkiyə Respublikası İzmir vilayətinin valisi Mustafa Cahit Kıracın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İzmir şəhərindən böyük nümayəndə heyəti ilə Bakıya səfər etdiyini deyən Mustafa Cahit Kırac paytaxtımızda həyata keçirilən abadlıq və quruculuq işlərinin onlarda çox böyük təəssürat yaratdığını bildirdi. O, Azərbaycan Prezidentinin rəhbərliyi ilə Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdə olduğunu qeyd etdi. Mustafa Cahit Kırac Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə İzmirdə keçirilən tədbirin ölkəsi və eləcə də İzmir şəhəri üçün böyük önəm daşıdığını vurğuladı.

Bakı ilə İzmirin qardaşlaşmış şəhər olduğunu vurğulayan dövlətimizin başçısı hazırda bu əlaqələri daha da inkişaf etdirmək üçün yaxşı imkanların olduğunu qeyd etdi. Prezident İlham Əliyev İzmirə səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı İzmir valisi Mustafa Cahit Kıracın Bakıya səfərindən sonra bu əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TBİLİSİ ŞƏHƏRİNİN MERİ QİQİ UQULAVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Tbilisi şəhərinin meri Qiqi Uqulavanı qəbul etmişdir.

Tbilisi şəhərinin meri Qiqi Uqulava Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin salamla-

rını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfəri zamanı Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu bildirdi.

Prezident İlham Əliyev ölkəmizdə, o cümlədən paytaxtımızda abadlıq və quruculuq işlərinə, eyni zamanda, tarixi binaların əvvəlki görkəmini qoruyub saxlamaqla əsaslı şəkildə bərpa olunmasına böyük önəm verildiyini qeyd etdi.

Dövlətimizin başçısı Prezident Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Rumıniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanunun etimadnaməsini qəbul etmişdir.

Səfir Daniel Kristian Çiobanu fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Daniel Kristian Çiobanu etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə Rumıniya arasında siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi üçün güclü hüquqi bazanın olduğunu dedi. Prezident İlham Əliyev Rumıniyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan NATO əlaqələrinin inkişafındakı rolunu qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı. Səfirə fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev Daniel Kristian Çiobanunun ölkəmizdəki diplomatik fəaliyyəti müddətində əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu bildirən Daniel Kristian Çiobanu ölkələrimizin ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini vurğuladı. Diplomat ölkələrimiz arasında strateji tərəfdaşlığın həyata keçirilməsi üçün Azərbaycan və Rumıniya prezidentləri tərəfindən imzalanan birgə Fəaliyyət Planının önəmini qeyd etdi. Daniel Kristian Çiobanu ölkəsinin Azərbaycan ilə iqtisadi sahədə, o cümlədən enerji sektorunda əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. Rumıniyalı diplomat ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRAZİLİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Braziliya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Paula Antonio Pereire Pintonun diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə Braziliya Federativ Respublikası arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğu bildirildi, ölkələrimizin əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən müasir texnologiyaların tətbiqi sahəsində genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN ŞƏHƏRİNİN MERİ SERGEY BOJENOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Rusiya Federasiyasının Həştərxan şəhərinin meri Sergey Bojenovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Həştərxan şəhərinin meri Sergey Bojenov böyük nümayəndə heyəti ilə Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O, Həştərxan şəhər dumasının qərarı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Həştərxan şəhərinin fəxri vətəndaşı" diplomuna layiq görüldüyünü dedi və "Həştərxan şəhərinin fəxri vətəndaşı" diplomunu və medalını dövlətimizin başçısına təqdim etdi. Sergey Bojenov "Həştərxan şəhərinin fəxri vətəndaşı" diplomuna bu yaxınlarda Rusiya Federasiyasının Baş naziri Vladimir Putinin də layiq görüldüyünü vurğulayaraq Azərbaycan Prezidentinin və Rusiyanın Baş nazirinin rəhbərlik etdiyi şəhərin fəxri vətəndaşı olmasından qürur hissi keçirdiyini dedi.

Dövlətimizin başçısı "Həştərxan şəhərinin fəxri vətəndaşı" diplomu ilə təltif edilməsi ilə bağlı qəbul olunan qərara görə Həştərxan Şəhər Dumasına və şəhər rəhbərliyinə təşəkkürünü bildirdi. Azərbaycan ilə Rusiya Federasiyası arasında münasibətlərin, o cümlədən ölkələrimizin şəhərləri arasında əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bu baxımdan Bakı ilə Həştərxan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı Həştərxana səfərini və xalqımızın ümummilli lideri Heydər Əliyevə Həştərxan şəhər sakinlərinin ehtiramının əlaməti olaraq ucaldılan abidənin açılışında iştirakını xatırladı. Həştərxan şəhər təsərrüfatının və infrastrukturun yenidən qurulmasında, təhsil sahəsinin inkişaf etdirilməsində Azərbaycandan olan iş adamlarının iştirakını qeyd edən Prezident İlham Əliyev bütün bu tədbirlərin ölkələrimiz və şəhərlərimiz arasında əlaqələrin daha da yaxşılaşması işinə xidmət etdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradkeni (ABŞ), Fransadan olan sabiq həmsədr Bernar Fasyeni və yeni həmsədr Jak Foru, həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN "VTB" BANKININ PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Rusiya Federasiyası "VTB" bankının prezidenti, idarə heyətinin sədri Andrey Kostini qəbul etmişdir.

Görüşdə MDB-yə üzv olan dövlətlərin "MDB-nin maliyyə bazarları: qlobal qeyri-sabitlik şəraitində sabit inkişaf yolları" mövzusunda IV Bakı Beynəlxalq Bank konfransının önəmi qeyd olundu, Andrey Kostinin Azərbaycana səfərinin onun rəhbərlik etdiyi bankla ölkəmizin maliyyə qurumları arasında əməkdaşlığının genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə edildi.

PREZİDENT İLHAM ƏLİYEV VYETNAMIN AZƏRBAYCANDAKI SƏFİRİ FAM SUAN ŞONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Vyetnam Sosialist Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fam Suan Şonun etimadnaməsini qəbul etmişdir.

Səfir Fam Suan Şon fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fam Suan Şon etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq əlaqələrinin böyük tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin hazırda yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Vyetnam ilə münasibətlərin daha da genişləndirilməsində maraqlı olduğunu dedi.

Səfir Fam Suan Şon Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük ehtiramla yad edildiyini qeyd edən vyetnamlı diplomat ulu öndərlə Türkiyədə səfir olarkən görüşdüyünü məmnunluqla xatırladı. O, Azərbaycanla ilə Vyetnam arasında əlaqələrin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Prezident Çıonq Tan Şanqın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vyetnam dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DANİMARKANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ RUBEN MADSENİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Danimarka Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ruben Madsenin etimadnaməsini qəbul etmişdir.

Səfir Ruben Madsen fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Ruben Madsen etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Danimarka Krallığı arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı baxımından hazırda ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı səfir Ruben Madsenin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə bu əlaqələrin uğurla inkişaf etməkdə davam edəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Ruben Madsen Danimarka Kraliçası Ülyahəzrət Marqretenin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Ruben Madsen Azərbaycan Respublikası ilə Danimarka Krallığı arasında yaxşı əməkdaşlığın mövcud olduğunu qeyd etdi. Danimarkalı diplomat Azərbaycan iqtisadiyyatının Avropada sürətli artım tempinə malik iqtisadiyyat olduğunu vurğuladı. Ruben Madsen səfir kimi ölkəmizdəki fəaliyyəti dövründə əlaqələrimizin daha da inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Ülyahəzrət Marqretenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Danimarka Kraliçasına çatdırmağı xahiş etdi.

PREZİDENT İLHAM ƏLİYEV HƏBƏŞİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ MULATU TEŞOMENİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Həbəşistan Federativ Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mulatu Teşomenin etimadnaməsini qəbul etmişdir.

Səfir Mulatu Teşomen fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mulatu Teşomen etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə bağlı keçirilən səsvermə zamanı Azərbaycana verdiyi dəstəyə görə Həbəşistan hökumətinə təşəkkür etdi. Səfirə fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev onun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Həbəşistan arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Mulatu Teşomen Həbəşistan Prezidenti Girma Volde-Giorgisin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün qarşılıqlı maraqların olduğunu dedi.

Dövlətimizin başçısı Prezident Girma Volde-Giorgisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Həbəşistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BANQLADEŞİN ÖLKƏMİZDƏKİ SƏFİRİ ZULFİQUR RƏHMANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Banqladeş Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zulfiqur Rəhmanın etimadnaməsini qəbul etmişdir.

Səfir Zulfiqur Rəhman fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Zulfiqur Rəhman etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Banqladeş Xalq Respublikası arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, ölkələrimizin BMT və digər beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq etdiyini vurğuladı. Ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Banqladeş arasında ikitərəfli əlaqələrin bütün sahələrdə genişləndirilməsi üçün səyləri daha da artırmağın zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı səfir Zulfiqur Rəhmanın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə yaxşı nəticələr əldə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Zulfiqur Rəhman Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, ölkəsinin Azərbaycanı bütün məsələlərdə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələdə dəstəkləməkdə davam edəcəyini dedi. Zulfiqur Rəhman Azərbaycanın Banqladeşi müxtəlif beynəlxalq forumlarda dəstəklədiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı qəbul olunmuş qətnaməyə və BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə bağlı keçirilən səsvermə zamanı ölkəmizə verdiyi dəstəyə görə Banqladeş hökumətinə minnətdarlığını bildirdi.

PREZİDENT İLHAM ƏLİYEV PORTUQALİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ XANIM LUİSA BASTOS DE ALMEİDANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Portuqaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Luisa Bastos de Almeidanın etimadnaməsini qəbul etmişdir.

Səfir Luisa Bastos de Almeida fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Xanım Luisa Bastos de Almeida etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan Respublikası ilə Portuqaliya Respublikası arasında əlaqələrin inkişaf etdi-

rilməsi üçün geniş imkanların olduğunu qeyd edən xanım Luisa Bastos de Almeida ölkəmizə gələrkən özü ilə iş adamlarından ibarət nümayəndə heyətini də gətirdiyini dedi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsinin zəruriliyini bildirdi. Prezident İlham Əliyev xanım Luisa Bastos de Almeidanın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə bu əlaqələrin genişlənəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏLCƏZAİRİN ÖLKƏMİZDƏKİ SƏFİRİ MOULOUD HAMAİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mouloud Hamainin etimadnaməsini qəbul etmişdir.

Səfir Mouloud Hamai fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mouloud Hamai etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə Əlcəzair arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də yüksək səviyyədə əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə bağlı keçirilən səsvermə zamanı Azərbaycana verdiyi dəstəyə görə Əlcəzair hökumətinə təşəkkürünü bildirdi. Ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev Mouloud Hamainin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə bu əlaqələrin daha da genişlənəcəyinə əminliyini bildirdi.

Səfir Mouloud Hamai Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında ikitərəfli əlaqələrin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Prezident Əbdüləziz Buteflikanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QANA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Qana Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Set Korantenqin etimadnaməsini qəbul etmişdir.

Səfir Set Korantenq fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Set Korantenq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Set Korantenq Qana Respublikasının Prezidenti Con Evans Atta Millsin salamlarını dövlətimizin başçısına çatdırdı, Azərbaycanda diplomatik fəaliyyətə başlamasından məmnunluğunu bildirdi. O, ölkəsinin Azərbaycan ilə yaxından əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğuladı. Set Korantenq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan quruculuq işlərini Prezident İlham Əliyevin uğurla davam etdirdiyini qeyd etdi. Azərbaycanda gedən inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını deyən qanalı diplomat iqtisadi inkişafla bağlı Azərbaycanın təcrübəsindən bəhrələnməyin önəmini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın da Qana ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə bağlı keçirilən səsvermə zamanı Azərbaycana verdiyi dəstəyə görə Qana hökumətinə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Prezident Con Evans Atta Millsin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qana dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇ KRALLIĞININ ÖLKƏMİZDƏKİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də İsveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mikael Erikssonun etimadnaməsini qəbul etmişdir.

Səfir Mikael Eriksson fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mikael Eriksson etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan Respublikası ilə İsveç Krallığı arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində sıx əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin Azərbaycan-NATO əməkdaşlığı baxımından önəmini qeyd etdi. İsveç şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində iştirakında ölkəmizin maraqlı olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İsveç Krallığı arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Mikael Eriksson ölkəsinin Azərbaycan Respublikası ilə ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlı olduğunu dedi. Ötən həftə İsveç Krallığından olan iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfərini xatırlayan Mikael Eriksson ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün işlərin aparıldığını dedi.

PREZİDENT İLHAM ƏLİYEV XORVATİYANIN AZƏRBAYCANDAKI SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Xorvatiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Drajen Hrastiçin etimadnaməsini

qəbul etmişdir.

Səfir Drajen Hrastiç fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Drajen Hrastiç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkəmizin ikitərəfli əlaqələri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı sərmayə qoyuluşunun əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı ikitərəfli münasibətlərin gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Drajen Hrastiç Azərbaycanın Xorvatiya üçün dost və mühüm ölkə olduğunu vurğulayaraq səfir kimi ölkəmizdə fəaliyyətə başlamasından məmnunluğunu bildirdi. Diplomat Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin salamlarını dövlətimizin başçısına çatdırdı. Drajen Hrastiç ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasında əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Prezident İvo Yosipoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Federal Məclisinin Dövlət Dumasına keçirilən seçkilərdə siyahısına Dmitri Medvedevin başçılıq etdiyi "Yedinaya Rossiya" Partiyasının qələbəsi münasibətilə Rusiya Prezidentini təbrik etmişdir.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluqlarını bildirmiş, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etmişlər.

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ, "YEDİNAYA ROSSİYA" PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç,

Rusiya Federasiyasının Federal Məclisinin Dövlət Dumasına seçkilərdə "Yedinaya Rossiya" Partiyasının qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin başçılıq etdiyiniz partiyanın seçkilərdə qələbəsi rusiyalıların Sizə yüksək etimadı-

nın, Sizin yürütdüyünüz, dinamik sosial-iqtisadi inkişafa, bütün sahələrdə demokratik dəyişikliklərin həyata keçirilməsinə, ölkədə qanunçuluğun və hüquqi qaydanın möhkəmlənməsinə yönəlmiş fəaliyyət xəttinə onların sadiqliyinin təsdiqidir.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətləri, hərtərəfli əməkdaşlıq xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə, "Yedinaya Rossiya" Partiyasının bütün üzvlərinə xoşbəxtlik, uğurlar və firavanlıq diləyirəm.

Hörmətlə,

Ilham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 5 dekabr 2011-ci il.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç,

Rusiya Federasiyasının Federal Məclisinin Dövlət Dumasına seçkilərdə siyahısına Sizin başçılıq etdiyiniz "Yedinaya Rossiya" Partiyasının qələbəsi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbə Sizin həyata keçirdiyiniz, ölkədə dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsinə, cəmiyyətin həyatının bütün sahələrinin modernləşməsinə, dünya birliyində Rusiyanın mövqelərinin və nüfuzunun möhkəmlənməsinə yönəlmiş fəaliyyət xəttinin dost Rusiya xalqı tərəfindən dəstəklənməsini bir daha nümayiş etdirdi.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasında ənənəvi dostluq, mehriban qonşuluq münasibətləri, çoxtərəfli əməkdaşlığımız və strateji tərəfdaşlığımız xalqlarımızın mənafeyi, regionda sülh, təhlükəsizlik və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Rusiya xalqına tərəqqi və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 5 dekabr 2011-ci il.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Baş naziri Vladimir Putinə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Federal Məclisinin Dövlət Dumasına keçirilən seçkilərdə Vladimir Putini başçılıq etdiyi "Yedinaya Rossiya" Partiyasının əldə etdiyi qələbə münasibətilə təbrik etmişdir.

Rusiya Federasiyasının Baş naziri Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Prezident İlham Əliyev və Baş nazir Vladimir Putin Yeni Azərbaycan Partiyası ilə "Yedinaya Rossiya" Partiyası arasında əməkdaşlığın yaxşı səviyyədə olduğunu məmnunluqla qeyd etmişlər.

Telefon söhbəti zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Baş naziri Vladimir Putin ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulamış və bu əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini bildirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NƏSİMİ RAYONUNDAKI 96 NÖMRƏLİ UŞAQ BAĞÇASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Nəsimi rayonundakı 96 nömrəli uşaq bağçasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, bağçanın binası 1963-cü ildə inşa olunub. Bu, Bakı şəhərində ən böyük uşaq bağçalarından biridir. Dövlət başçısı bağçanın binasında görülən işlərlə, ayrı-ayrı otaqlarda yaradılmış şəraitlə yaxından tanış oldu. Qeyd edildi ki, 240 yerlik bağçada 12 qrup fəaliyyət göstərir. İkimərtəbəli üç korpusdan və bir inzibati binadan ibarət olan bağçanın həyətyanı sahəsi hektar yarımdır. Bağçada əsaslı təmir və yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Əsaslı yenidənqurma işləri ilə yanaşı, bağçanı daimi olaraq isti su ilə təchiz etmək üçün əlavə qazanxana da inşa edilib. Bağçada yanğın əleyhinə xüsusi sistem yaradılıb. Bağçada təhlükəsizlik kameraları quraşdırılıb. Burada uşaqların istirahəti üçün hər cür şəraitin yaradıldığı qeyd olundu. Bağçanın əsas binasında aparılan yenidənqurma işləri ilə yanaşı, həyətyanı sahədə də abadlıq və quruculuq tədbirləri görülüb. Uşaqların əylənməsi üçün xüsusi guşələr yaradılıb. Binanın və ərazinin işıqlandırma sistemi tamamilə yenidən qurulub, işıq dirəkləri yeniləri ilə əvəz edilibdir.

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ

Zati-aliləri cənab Nursultan Nazarbayevə

Hörmətli Nursultan Abişeviç,

Qazaxıstan Respublikasının müstəqilliyinin 20 illiyi münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ötən illər ərzində Qazaxıstan hərtərəfli və dinamik inkişaf yolu keçmişdir. Siyasi, iqtisadi və humanitar sahələrdə həyata keçirilən islahatlar, dünya birliyinə inteqrasiya istiqamətində atılmış mühüm addımlar müasir Qazaxıstanın simasını formalaşdırmış, ölkənizə beynəlxalq aləmdə böyük nüfuz qazandırmışdır.

Ortaq mənəvi dəyərlərdən qaynaqlanan Azərbaycan-Qazaxıstan münasibətləri bu gün özünün ən yüksək səviyyəsi ilə səciyyələnir. Tarixən möhkəm dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olmuş xalqlarımızın yekdil iradəsi ilə bu münasibətlər daim inkişaf etməkdə və zənginləşməkdədir.

Məmnunluqla qeyd etmək istərdim ki, qarşılıqlı etimada və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz bütün digər sahələrdə səmərəli əməkdaşlığımız üçün münbit zəmindir. Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq və regional təşkilatlar çərçivəsində birgə işimizi müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə, hörmətli Nursultan Abişeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına sülh və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 10 dekabr 2011-ci il.

QƏTƏR DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD AL TANİYƏ

Əlahəzrət,

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Qətər dostluğu və əməkdaşlığının inkişafı və möhkəmlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 10 dekabr 2011-ci il.

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİYƏ

Əlahəzrət,

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin xoş ənənələri mövcuddur. Əminəm ki, bu ənənələri daim yaşatmaq, əlaqələrimizi hərtərəfli genişləndirmək yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qətər xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 10 dekabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MEKSİKA SENATININ ÜZVÜ KARLOS XİMENES MASİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Meksika Senatının üzvü Karlos Ximenes Masiasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın Meksika ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Prezident İlham Əliyev əlaqələrimizin inkişafı üçün əməkdaşlığımızı bütün istiqamətlərdə, o cümlədən parlamentlər səviyyəsində genişləndirməyin zəruriliyini qeyd etdi. Meksika Senatı nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi baxımından önəmini vurğulayan dövlətimizin başçısı bundan sonra bu cür qarşılıqlı səfərlərin bir ənənəyə çevriləcəyinə ümidvar olduğunu bildirdi.

Karlos Ximenes Masias Meksika Senatının müxtəlif siyasi partiya təmsilçilərindən ibarət nümayəndə heyəti ilə ölkəmizə səfər etdiklərini bildirdi. O, ölkəmizin sürətli inkişafı barədə məlumatlı olduqlarını dedi. Karlos Ximenes Masias bildirdi ki, Meksika parlamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəkləyir və bundan sonra da dəstəkləməkdə davam edəcəkdir. Meksikalı qonaq ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Karlos Ximenes Masias Azərbaycanın energetika sahəsində zəngin təcrübəyə malik olduğunu vurğulayaraq Meksikanın bu sahədə ölkəmizlə əməkdaşlıq etməsinin önəmini də qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI UİLYAM FREYZERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı Uilyam Freyzeri qəbul etmişdir.

ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı Uilyam Freyzer bu vəzifəyə təyin olunduqdan sonra ilk səfərini Azərbaycana etdiyini vurğuladı. 12 dekabrın Azərbaycan xalqı üçün xüsusi bir gün olduğunu deyən Uilyam Freyzer bu gün Fəxri xiyabana gedərək

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edəcəyini bildirdi. Beynəlxalq terrorizmə qarşı mübarizədə ölkəmizin fəaliyyətinə toxunan Uilyam Freyzer Əfqanıstandakı sülhməramlı missiyanın fəaliyyəti ilə bağlı nəqliyyat təminatında Azərbaycanın rolunu yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı ABŞ Silahlı Qüvvələrinin nəqliyyat komandanı Uilyam Freyzerin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi. Azərbaycanın ilk gündən Əfqanıstandakı beynəlxalq sülhməramlı missiyanın tərkibində fəaliyyət göstərdiyini vurğulayan Prezident İlham Əliyev missiya ilə bağlı humanitar sahədə əməkdaşlığın getdikcə genişləndiyini qeyd etdi.

Görüşdə Azərbaycan ilə ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizədə birgə fəaliyyəti, təhlükəsizlik, enerji sahələrində və digər sahələrdə əməkdaşlığın bundan sonra da davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.

Prezident İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana cərrahiyyə əməliyyatının uğurla keçməsi ilə əlaqədar xoş arzularını çatdırmış, dost və qardaş Türkiyə xalqının firavanlığı və tərəqqisi naminə dövlətçilik fəaliyyətində bundan sonra da yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM EVELİNE VİDMER-ŞLUMPFA

Hörmətli xanım Prezident,

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Biz Azərbaycan-İsveçrə əlaqələrinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq münasibətləri, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ

Hörmətli cənab Prezident,

Tunis Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Tunis xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ

Hörmətli cənab Prezident,

Tunis Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, dost Tunis xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA

Əlahəzrət,

Malayziyanın Ali Başçısı seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Malayziya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümid-

varam ki, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Malayziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN SABİQ HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da ATƏT-in Minsk qrupunun Fransadan olan sabiq həmsədri Bernar Fasyeni qəbul etmişdir.

Dövlətimizin başçısı Bernar Fasyenin fəaliyyətini yüksək qiymətləndirdiyini vurğuladı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesində fəal işinə görə təşəkkürünü bildirdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Bernar Fasye onun fəaliyyətinə verdiyi qiymətə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirdi.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç,

"Kolskaya" qazma qurğusunun qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına başsağlığımı qəbul edin, zərərçəkənlərin hamısının halına ürəkdən acıdığımı bildirirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

Hörmətli cənab Prezident,

Çexiya Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Vatslav Havelin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Çexiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI ALİ XALQ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM YEN NAMA

Hörmətli cənab Sədr,

Koreya Xalq Demokratik Respublikasının Ali rəhbəri, Dövlət Müdafiə Komitəsinin Sədri, görkəmli dövlət xadimi Kim Çen İrin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqımıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

Hörmətli cənab Sədr,

Kuba Respublikasının milli bayramı - Azadlıq günü münasibətilə Sizi və Sizin simanızda bütün Kuba xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Kuba münasibətləri, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı, 19 dekabr 2011-ci il.

SƏFƏR BAŞA ÇATDI

Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Moskvanın Vnukovo-2 Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtmışdır.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Xüsusi müxbirimiz xəbər verir ki, dekabrın 20-də Rusiyanın paytaxtı Moskvada, Böyük Kreml sarayında MDB Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclası keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və iclasın digər iştirakçılarını qarşıladı.

Prezident Dmitri Medvedev iclası açaraq görüşdə iştirak etdiklərinə görə Birliyin üzvü olan ölkələrin dövlət başçılarına təşəkkürünü bildirdi.

Sonra Birliyin sədri, Tacikistan Prezidenti Emoməli Rəhmon, Azərbaycan Prezidenti İlham Əliyev və MDB-nin üzvü olan digər ölkələrin dövlət başçıları çıxış etdilər.

İclasın yekunlarına dair Birgə Bəyanat qəbul olundu.

MOSKVANIN VNUKOVO-2 BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün dekabrın 20-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə gəlmişdir.

MDB-nin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Vnukovo-2 Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün dekabrın 20-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTAN PREZİDENTİ ALMAZBEK ATAMBAYEVİN GÖRÜŞÜ

Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Moskvada Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev ilə görüşmüşdür.

Görüşdə dövlətimizin başçısı Almazbek Atambayevi Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi, ona uğurlar arzuladı.

Dövlətlərimiz arasında münasibətlərin yaxşı perspektivlərə malik olduğunu deyən Prezident İlham Əliyev əminliyini bildirdi ki, ölkələrimiz bir-birini daim dəstəkləyəcəkdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gördüyü işləri xatırladan Almazbek Atambayev Prezident İlham Əliyevin ulu öndərin layiqli davamçısı olduğunu dedi, Azərbaycanda, paytaxt Bakıda son 20 ildə böyük dəyişikliklərin baş verdiyini vurğuladı.

İqtisadi əməkdaşlığın və humanitar əlaqələrin genişləndirilməsi üçün böyük işlərin həyata keçirilməsi imkanlarından danışan Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini dedi.

Dövlətimizin başçısı Qırğızıstan Respublikasının Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ PREZİDENT İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Xəbər verdiyimiz kimi, dekabrın 20-də Rusiyanın paytaxtı Moskvada MDB Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclası keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və iclasda iştirak edən digər dövlət başçılarını qarşıladı.

Yubiley iclasını açan Rusiya Prezidenti Dmitri Medvedev MDB-nin 20-ci ildönümünün qeyd edildiyi bir vaxtda keçirilən tədbirdə iştirak etdiklərinə görə Birliyin üzvü olan ölkələrin dövlət başçılarına təşəkkürünü bildirdi. Dmitri Medvedev qeyd etdi ki, bu cür qeyri-rəsmi görüşlərin keçirilməsi MDB-nin təcrübəsində bir ənənəyə çevrilmişdir.

Sonra Birliyin sədri, Tacikistan Prezidenti Emoməli Rəhmon çıxış edərək əmin olduğunu bildirdi ki, aparılan müzakirələr və qəbul edilən qərarlar üzv ölkələr arasında əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət edəcəkdir.

Daha sonra çıxış edən Özbəkistan Prezidenti İslam Kərimov iclasın əhəmiyyətini qeyd

edərək bildirdi ki, bu, MDB çərçivəsində əməkdaşlığa mühüm töhfə verəcəkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin MDB qarşısındakı xidmətlərindən danışan Prezident İslam Kərimov dedi ki, Birlik yaradılan dövrdə Heydər Əliyev ən tanınmış liderlərdən biri, bütün baş verənləri görən və yaşayan ən müdrik insanlardan idi. Heydər Əliyevin təcrübəsi təkcə Azərbaycan xalqı üçün deyil, həm də çox mənalı və əziyyətli yol keçən insanlar üçün parlaq nümunədir.

İclasda çıxış edən Qırğızıstan Prezidenti Almazbek Atambayev MDB xalqları arasındakı tarixi əlaqələrdən bəhs etdi. O, xalqının Böyük Vətən müharibəsindəki iştirakını vurğulayaraq yaşlı nəsillərin keçmiş Sovet İttifaqının inkişafındakı rolundan da danışdı.

Sonra Qırğızıstan Prezidenti Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi.

Azərbaycan Prezidenti İlham ƏLİYEV iclasda çıxış edərək dedi:

-Hörmətli Dmitri Anatolyeviç!

Əvvəla Moskvanı ziyarət etmək və bizi iclasda iştirak etmək üçün dəvətinizə görə təşəkkürümü bildirirəm. İndi aparılan qeyri-formal və səmimi diskussiya təşkilatımızın nə qədər mühüm olduğunun parlaq göstəricilərindən biridir. Həmçinin İslam Əbdüqəniyeviçə və Qırğızıstan Prezidentinə atam Heydər Əliyev haqqında dedikləri xoş sözlərə görə təşəkkür etmək istərdim. Bu, yəqin ki, ikiqat rəmzidir. Belə ki, o, bu binada xeyli illər keçirib. O, Azərbaycanın, Sovet İttifaqının rifahı naminə işləyib. 1970-ci illərdə Bakıda işləyərkən Azərbaycanın rifahı naminə, 1980-ci illərdə Sovet İttifaqı hökumətində işləyərkən Sovet İttifaqının rifahı naminə çalışaraq, müstəqil Azərbaycanın Prezidenti kimi 10 il ərzində dövlətçiliyin təməlini qoymaqla bizə inamla, uğurla irəliləməyə imkan verdi. Buna görə də onun dostlarına təşəkkür etmək istərdim. Ona görə ki, MDB-nin 20 illiyinin qeyri-formal şəraitdə keçirildiyi bu görüşdə onu xatırlayırlar. 20 il böyük müddətdir, eyni zamanda, tarixi nöqteyi-nəzərdən o qədər də böyük müddət deyildir. Bu gün artıq həmkarlarım 1980-1990-cı illər arasında baş verən prosesləri qiymətləndirdilər. Bəziləri dəyişikliklərdə özləri də iştirak edərək ölkələrinin dövlətçiliyinin bünövrəsini qoyublar. Əlbəttə, mən də razıyam ki, 1990-cı illərin əvvəllərində baş verənlərin əsas yekunu bu oldu ki, yeni dövlətlərin yaranması nisbətən dinc yolla həll edildi. Əlbəttə, bu, hamı üçün dinc keçmədi. Bizim ölkəmizə gəlincə, hələ Sovet İttifaqının dağılması ərəfəsində torpaqlarımız işğala məruz qaldı. Amma bütövlükdə MDB-nin üzvü olan əksər ölkələr arasındakı bugünkü münasibətlər - dostluq, tərəfdaşlıq münasibətləridir. 20 il ərzində biz büsbütün dəyişmişik. İqtisadi sistemi tamamilə dəyişmişik.

Siyasi sistem də dəyişdi. Xaos, qarşıdurma, qarşılıqlı ittihamlar şəraitində bütün bunlar mümkün olmaya bilərdi, yaxud çox çətin başa gələrdi. Bu gün 20 il ötəndən sonra keçmiş Sovet İttifaqı respublikalarının əksəriyyətinin iştirak etdiyi bu tərkibdə biz irəliyə necə getmək barədə danışırıq. Bu da çox mühümdür. Mən həmkarlarımın tarixi keçmiş barədə fikirləri ilə tam razıyam. Müxtəlif, ziddiyyətli fikirlər mövcuddur. Yəqin ki, bu cür ziddiyyətli fikirlərin mövcud olmağa haqqı vardır. Yaxşı işlər də olub, narahatlıq doğuran məsələlər də. Ən başlıcası necə irəliləməkdir. Bu gün ölkəmizin MDB-nin üzvü olan demək olar ki, bütün ölkələrlə çox gözəl ikitərəfli, etimad doğuran dostluq münasibətləri mövcuddur.

Müstəqillik illərində Azərbaycan müasir ölkəyə çevrildikdən sonra da Rusiya ilə Azərbaycan arasındakı münasibətlər bizim üçün həmişə xüsusi əhəmiyyət kəsb edib. Bu gün mənim üçün qeyd etmək xoşdur ki, ikitərəfli planda heç bir həll edilməmiş problem qalmayıb. MDB-nin gələcəyi ilə bağlı onu deyə bilərəm ki, Azərbaycan bütün proseslərdə konstruktiv, fəal iştirak edəcəkdir.

Biz humanitar sahədə əməkdaşlığı çox fəal dəstəkləyirik. Bu məsələdə bizim hazırladığımız tədbirlər də humanitar əlaqələrin hərtərəfli və çoxtərəfli inkişafı üçün yaxşı əsasdır. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə bu ilin sonlarında Bakıda birinci Beynəlxalq Humanitar Forum keçirildi. Bu da artıq ənənəyə çevrilib. Biz hər il bu tədbiri keçirəcəyik. Bizim münasibətlərimizin təməli humanitar amildir. Bunsuz heç bir inteqrasiya və iqtisadi kooperasiya prosesi bizim istədiyimiz kimi gedə bilməz. Biz gələcəkdə də MDB məkanında humanitar əməkdaşlığın inkişaf etməsinə çalışacağıq. Gənc nəslin bu prosesə cəlb olunmasına səy göstərəcəyik. Əlbəttə biz növbəti nəslə onilliklər ərzində yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini ötürmək istərdik. Bu gün həmkarlarım veteranları da xatırladılar. Mən də bu gün həmin tezisə qoşularaq, bütün veteranlarımızı salamlamaq istəyirəm. Onlar vətənin azadlığı uğrunda öz sağlamlıqlarını veriblər, çoxları həyatlarını itiriblər. Bu, hamı üçün Vətən müharibəsi idi. Azərbaycanın İkinci Dünya müharibəsində iştirak edən hər iki sakinindən biri qayıtmayıb. Azərbaycanın və Bakının ümumi qələbəyə töhfəsi isə kifayət qədər əhəmiyyətli olub. Tanklarımıza və təyyarələrimizə doldurulan neft məhsullarının 90 faizi Azərbaycanın idi, Bakıda istehsal edilən sovet neft məhsulları idi. Bu, bizim ümumi tariximizdir. Biz tarixi saxtalaşdırmağa yol verməməliyik. İkinci Dünya müharibəsinin hadisələrinin təhrif edilmiş şəkildə təqdiminə yol vermək olmaz. Məsələ ondadır ki, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması özünü göstərir.

Gələcək üçün mühüm məsələlərdən danışarkən hesab edirəm ki, informasiya-kommunikasiya texnologiyaları mövzusuna müraciət indi tamamilə yerinə düşərdi.

Bir daha demək istərdim ki, Azərbaycan MDB çərçivəsində öz iştirakına və fəal əməkdaşlığa sadiqdir, gələcəkdə də münasibətlərimizi möhkəmləndirmək üçün səy göstərəcəkdir. Sağ olun.

* * *

İclasın digər iştirakçıları çıxışlarında bəyan etdilər ki, MDB-nin üzvü olan hər bir dövlətin milli mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlığın davamlı inkişafı üçün şəraitin yaradılması Birliyin 20 ildə fəaliyyətinin başlıca vəzifəsi olmuşdur.

Gələcəyə nikbinliklə baxdıqlarını təsdiq edən iclas iştirakçıları Birliyin nüfuzlu regional dövlətlərarası təşkilat kimi səmərəliliyinin artırılmasına və gələcək inkişafına səy göstərəcəklərini bildirdilər.

İclasda rabitə və informasiya-kommunikasiya texnologiyaları istiqamətində işbirliyi MDB-nin üzvü olan ölkələrin 2012-ci ildə iqtisadi sahədə əməkdaşlığının əsas prioriteti kimi müəyyənləşdirildi.

İştirakçılar tərəfindən birlik ölkələrində prezident və parlament seçkiləri, eləcə də referendumlarda iştirak edən MDB-nin müşahidə missiyalarının rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında qərar və iclasın yekunlarına dair Birgə Bəyanat qəbul olundu.

Sonda iclas iştirakçıları xatirə şəkli çəkdirdilər.

* * *

Dekabrın 20-də Böyük Kreml sarayında MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasının iştirakçıları birgə nahar etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ XANIMI MEHRİBAN ƏLİYEVA AVROPA PARLAMENTİNİN DEPUTATI, PARİSİN 7-Cİ RAYONUNUN MERİ XANIM RƏŞİDƏ DATİ İLƏ GÖRÜŞMÜŞLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 21-də Avropa Parlamentinin deputatı, Parisin 7-ci rayonunun meri xanım Rəşidə Dati ilə görüşmüşlər.

Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında əlaqələrin geniş sahələri əhatə etdiyini bildirdi. Fransa Prezidenti Nikola Sarkozinin Azərbaycana səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev fransalı nazirlərin və iş adamlarının da mütəmadi olaraq ölkəmizə səfərlər etdiklərini vurğuladı. İqtisadi sahədə əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın ilk telekommunikasiya peykinin Fransa şirkəti tərəfindən səmaya qaldırılacağını qeyd edərək Fransa şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiklərini dedi. Mədəniyyət sahəsində də əməkdaşlığın son vaxtlar sürətlə inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu baxımdan Heydər Əliyev Fondunun Parisdə keçirdiyi tədbirlərin önəmini vurğuladı. Bir neçə ildən sonra Bakıda fransız məktəbinin fəaliyyət göstərəcəyini qeyd edən Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında bütün sahələrdə yaxşı nəticələr əldə olunduğunu dedi.

Avropa Parlamentinin deputatı, Parisin 7-ci rayonunun meri xanım Rəşidə Dati Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə Parisdə keçirdiyi görüşü məmnunluqla xatırladı. Azərbaycan mədəniyyət günlərinin Parisdə böyük uğurla keçirildiyini vurğulayan xanım Rəşidə Dati mədəniyyətimizin təbliği baxımından tədbirin mühüm əhəmiyyət daşıdığını qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA DÖVLƏT TELEVİZİYA KANALININ "VESTİ V SUBBOTU" VERİLİŞİNİN APARICISI SERGEY BRİLYOVA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Rusiya Dövlət Televiziya kanalının "Vesti v subbotu" verilişinin aparıcısı Sergey Brilyova müsahibə vermişdir.

Müsahibədə dövlətimizin başçısı xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin irsi, Müstəqil Dövlətlər Birliyinin fəaliyyəti, beynəlxalq vəziyyət və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA XALQLARI PARTİYASININ PREZİDENTİ UİLFRİD MARTENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Avropa Xalqları Partiyasının prezidenti Uilfrid Martensin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizin Avropa institutları ilə əlaqələrinin sürətlə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu ilin sentyabrında Polşada "Şərq Tərəfdaşlığı" Proqramına qoşulan ölkələrin uğurla keçən sammitinin önəmini qeyd etdi. Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun Azərbaycana və özünün Brüsselə səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bütün bu tədbirlərin ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı baxımından əhəmiyyətli olduğunu dedi. Dövlətimizin başçısı Uilfrid Martensin ölkəmizə səfərinin Avropa Xalqları Partiyasının Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığının daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Avropa Xalqları Partiyasının prezidenti Uilfrid Martens "Avropa: Mən mübarizə aparıram, mən qalib gəlirəm" kitabının Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini dövlətimizin başçısına təqdim etdi. Uilfrid Martens Yeni Azərbaycan Partiyasında keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. O, rəhbərlik etdiyi Avropa Xalqları Partiyasının Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığının genişləndirilməsinə maraqlı olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MONTENEQRONUN SABİQ PREZİDENTİ VƏ BAŞ NAZİRİ, MONTENEQRO SOSİALİSTLƏRİNİN DEMOKRATİK PARTİYASININ SƏDRİ MİLO ÇUKANOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Monteneqro Respublikasının sabiq Prezidenti və Baş naziri, Monteneqro Sosialistlərinin Demokratik Partiyasının sədri Milo Çukanoviçi qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Monteneqro Respublikası arasında ikitərəfli münasibətlərin son illər inkişaf edərək yaxşı səviyyəyə çatdığını dedi. Bu yaxınlarda Monteneqronun dövlət başçısının ölkəmizə, Azərbaycan nümayəndə heyətinin isə Monteneqro Respublikasına səfər etdiklərini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Qısa vaxt ərzində əməkdaşlığımızın fəal şəkildə genişləndiyini deyən Prezident İlham Əliyev Milo Çukanoviçin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Monteneqro Respublikasının sabiq Prezidenti və Baş naziri, Monteneqro Sosialistlərinin Demokratik Partiyasının sədri Milo Çukanoviç sonuncu dəfə 2006-cı ildə Prezident İlham Əliyevlə konfransda çıxışlar etdiklərini məmnunluqla xatırladı. Azərbaycanda gedən sürətli inkişaf proseslərini diqqətlə izlədiyini deyən Milo Çukanoviç ölkə daxilində əldə olunan böyük uğurlara və Azərbaycanın beynəlxalq aləmdə tutduğu mövqeyə görə dövlətimizin başçısını təbrik etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN SABİQ PREZİDENTİ, "ZATLERSİN İSLAHATLARI PARTİYASI"NIN SƏDRİ VALDİS ZATLERSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Latviya Respublikasının sabiq Prezidenti, "Zatlersin İslahatları Partiyası"nın sədri Valdis Zatlersi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Latviya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Prezident İlham Əliyevlə Valdis Zatlersin bundan əvvəlki görüşləri məmnunluqla xatırlandı, ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

MODERNLƏŞMƏ SİYASƏTİ: YENİ İQTİSADİ VƏ SOSİAL ÇAĞIRIŞLAR" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Bakı şəhərində "Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar" mövzusunda təşkil edilmiş beynəlxalq konfransın iştirakçılarını səmimi qəlbdən salamlayıram

Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Bakı şəhərində "Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar" mövzusunda təşkil edilmiş beynəlxalq konfransın iştirakçılarını səmimi qəlbdən salamlayıram.

XXI əsrin ilk onilliyi insan cəmiyyətinin öz inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu ortaya çıxarmış oldu. Hamılıqla etiraf olunmaqdadır ki, bəşəriyyətin üzləşdiyi qlobal problemlər ənənəvi iqtisadi və sosial inkişaf modelinə yenidən baxmağı tələb edir. Gələcək nəsillərin inkişaf və rifah içində yaşaması bugünkü çağırışlara düzgün cavabların tapılmasından çox asılıdır. Bu səbəbdən dünyanın 30-dan artıq ölkəsindən gəlmiş nümayəndələrin iştirakı ilə sözügedən çağırışlar ətrafında fəal dialoqun təşkil edilməsini təqdirəlayiq hadisə sayıram.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 20 illiyi bu yaxınlarda qeyd olundu. Dövrümüzün aktual problemlərinə çevrilən yeni iqtisadi və sosial çağırışlara dair fikir mübadiləsi aparmaq niyyəti ilə Bakıya toplaşan siyasətçilər, alimlər, ictimai xadimlər ölkəmizdə həyata keçirilən islahatlar və onların nəticələrini əyani olaraq görmək imkanına malikdir. Müasirləşmək, yeniləşmək siyasətimizin əsas mənasını, bizi inkişafa aparan yolun baş xəttini təşkil edir. Bu mənada Azərbaycanı "Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar" mövzusunda müzakirələrin aparılması üçün uğurlu məkan hesab etmək olar. İnanıram ki, müxtəlif milli təcrübələr barəsində təqdimatlar müasir cəmiyyəti düşündürən problemlərin həllinə yönəlmiş səylərə əhəmiyyətli dəstək ola biləcək.

Konfrans iştirakçılarına faydalı müzakirələr, cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Mixeil Saakaşviliyə telefonla zəng etmişdir. Dövlətimizin başçısı Mixeil Saakaşvilini ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır

Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Mixeil Saakaşviliyə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Mixeil Saakaşvilini ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Gürcüstan Prezidenti təbrikə və diqqətə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.

Dövlət başçıları Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildirmişlər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli İlham Heydər oğlu! Tatarıstanlılar adından və şəxsən öz adımdan Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm

Çox hörmətli İlham Heydər oğlu!

Tatarıstanlılar adından və şəxsən öz adımdan Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz görkəmli atanız, çox hörmətli Heydər Əliyevin layiqli davamçısısınız, onun "İnsanın nəbzi Vətənin nəbzi ilə sinxron döyünməlidir" müdrik sözlərinə müvafiq olaraq yaşayır və işləyirsiniz. Siz əsası onun tərəfindən qoyulmuş möhkəm dövlətçilik ənənələri və sarsılmaz milli mənəvi dəyərlər əsasında, doğma xalqınızla vəhdətdə və onun qeyd-şərtsiz dəstəyi ilə müasir dövlət qurursunuz. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi, beynəlxalq nüfuzunun möhkəmləndirilməsi yolu ilə dinamik şəkildə irəliləyir. Səmərəli dövləti fəaliyyətinizin nəticələri uzaqgörən siyasi xadim, güclü rəhbər, öz ölkəsinin əsl vətənpərvəri kimi Sizin nüfuzunuzu möhkəmlətmişdir. Arzum budur ki, qəlbiniz gələcəkdə də doğma ölkənizin həyat ahəngi ilə birgə döyünsün, Sizə xas olan ruh yüksəkliyi, quruculuq əzmi və qarşıya qoyulmuş məqsədlərə nail olmaq qətiyyəti Azərbaycan Respublikasının inkişafının bütün strateji planlarını həyata keçirməyə kömək etsin.

Bu xoş fürsətdən istifadə edərək Sizə Tatarıstana göstərdiyiniz diqqətə görə, xalqlarımız arasında qarşılıqlı anlaşma və etimada əsaslanan qarşılıqlı fəaliyyət ənənələrinin möhkəmlənməsinə Sizin böyük şəxsi töhfənizə görə təşəkkür edirəm. Ümid edirik ki, biz bundan sonra da Tatarıstan-Azərbaycan əməkdaşlığının genişləndirilməsinin praktiki məsələlərinin həllində Sizin dəstəyinizə güvənə bilərik, ümumi səylərimizlə ikitə-

rəfli əlaqələrə yeni məzmun verə biləcəyik, bu əlaqələr Rusiya-Azərbaycan tərəfdaşlığının dərinləşməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə tatarıstanlıların Sizə səmimi rəğbət və hörmət hisslərini, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik və firavanlıq arzularını qəbul edin.

Hörmətlə,

Rüstəm Minnixanov

Tatarıstan Respublikasının Prezidenti

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət,

Yaponiyanın milli bayramı - Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Azərbaycan-Yaponiya münasibətlərinin hazırkı yüksək səviyyəsi böyük məmnunluq doğurur. Xalqlarımızı bir-birinə yaxınlaşdıran möhkəm dostluq əlaqələri siyasi, iqtisadi və humanitar zəmində səmərəli əməkdaşlığımız ilə öz məzmununu zənginləşdirir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, qarşılıqlı maraq kəsb edən əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda atdığımız addımlar bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu, Sizin əlli yaşınız tamam olan gündə ən səmimi və hərarətli təbriklərimi və ən xoş arzularımı - cansağlığı, xoşbəxtlik, bütün niyyətlərinizin və təşəbbüslərinizin həyata keçməsi diləklərimi qəbul edin

Hörmətli İlham Heydər oğlu,

Sizin əlli yaşınız tamam olan gündə ən səmimi və hərarətli təbriklərimi və ən xoş arzularımı - cansağlığı, xoşbəxtlik, bütün niyyətlərinizin və təşəbbüslərinizin həyata keçməsi diləklərimi qəbul edin.

Mən qəti əminəm ki, Sizə xas olan istedadlı siyasətçi və rəhbər keyfiyyətləri, dövlət başçısı kimi yüksək və məsul vəzifədə Sizin səmərəli fəaliyyətiniz bundan sonra da

Azərbaycan Respublikasının fasiləsiz inkişafına, ölkənizin həyata keçirdiyi daxili və xarici siyasətdə prioritet məqsədlərə uğurla nail olmağa xidmət edəcəkdir.

Əmin olduğumu bildirirəm ki, biz birgə səylərimizlə ənənəvi dostluq, qarşılıqlı anlaşma və konstruktiv əməkdaşlıq prinsiplərinə əsaslanan Moldova-Azərbaycan münasibətlərinə lazımi dinamizm gətirməyə nail olacağıq.

Hörmətli cənab Prezident, icazə verin bir daha Sizə, yaxınlarınıza uzun ömür, uğurlar və firavanlıq diləyim.

Hörmətlə,

Marian Lupu

Moldova Respublikası Prezidentinin vəzifəsini icra edən

RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Sizi 50 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Qardaş Azərbaycanın sosial-iqtisadi sahədə, dövlət quruculuğunda, beynəlxalq arenada sanballı uğurları Sizə böyük nüfuz və ümumxalq dəstəyi qazandırmışdır.

Əminəm ki, Qazaxıstan ilə Azərbaycan arasında yaranmış çoxəsrlik dostluq və qardaşlıq münasibətləri, qarşılıqlı anlaşmaya əsaslanan ənənələr xalqlarımızın rifahı naminə fəal inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu fürsətdən istifadə edib, Sizə möhkəm cansağlığı və şərəfli fəaliyyətinizdə uğurlar diləyirəm.

Səmimi arzularla,

Nursultan Nazarbayev

Qazaxıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri,

Sizin yubileyiniz münasibətilə təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və öz ali vəzifənizdə bundan sonrakı fəaliyyətinizdə də bol-bol uğurlar arzulayıram.

Bununla yanaşı, arzu edirəm ki, Slovakiya Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf etsin.

Zati-aliləri, Sizi öz dərin ehtiramıma əmin etmək istəyirəm.

Hörmətlə,

İvan Qaşparoviç

Slovakiya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

İcazə verin Sizi əlli illik yubileyiniz münasibətilə ürəkdən təbrik edim.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ardıcıl fəaliyyət xətti və Sizin məqsədyönlü, qurucu siyasətiniz sayəsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, Azərbaycan xalqının rifahının artırılması, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsi yolunda həqiqətən genişmiqyaslı sıçrayış etmiş qardaş Azərbaycanın uğurlarına Özbəkistanda ürəkdən sevinirlər.

Əminəm ki, çoxillik möhkəm dostluq, etimad və qarşılıqlı faydalı əməkdaşlıq telləri Sizin şəxsən iştirakınız və birgə səylərimiz hesabına bundan sonra da uğurla inkişaf edəcək, Özbəkistan və Azərbaycan xalqlarının rifahı naminə yeni məzmun qazanacaqdır.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, ailə səadəti və ali dövləti fəaliyyətinizdə böyük uğurlar, dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzu etmək istəyirəm.

Dərin hörmətlə,

İslam Kərimov

Özbəkistan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV

Hörmətli cənab Prezident!

Fürsətdən istifadə edərək, Çexiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi bu əlamətdar gün, əlli illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Bu ilin may ayında ölkənizə dövlət səfərimi və 2009-cu ildə Praqada keçirilən "Şərq tərəfdaşlığı" Sammitində Sizin iştirakınızı böyük məmnuniyyətlə xatırlayıram.

Azərbaycan Respublikasına səfər mənim üçün bir sıra cəhətdən əlamətdar oldu. Belə ki, özünəməxsusluğu ilə seçilən Cənubi Qafqazla ilk tanışlığım, o cümlədən Bakı Slavyan Universitetində doğma çex dilimi öyrənən gənclərin say çoxluğu məni yaxşı mənada təəccübləndirdi. Bundan əlavə, müasir paytaxtınızda və Şəki şəhərinə səfərim zamanı məni misli görünməmiş qonaqpərvərliklə qəbul etdilər. Mən şadam ki, Şizin Çexiya Respublikasına növbəti səfəriniz zamanı ölkələrimiz arasında əlaqələrin gələcək inkişafına töhfə vermək imkanımız olacaqdır.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, ailə həyatınızda və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Hörmətlə,

Vatslav Klaus

Çexiya Respublikasının Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Can Yanyanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə, ölkələrimizin siyasi, iqtisadi və digər sahələrdə fəal əməkdaşlığının genişlənəcəyinə ümidvar olduğunu bildirdi. Səfir Can Yanyanın Azərbaycandakı diplomatik fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev ona gələcək işlərində uğurlar arzuladı.

Səfir Can Yanyan qeyd etdi ki, son illər Çin Xalq Respublikasının Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkələrimiz arasında əlaqələr bütün sahələrdə inkişaf edir. Ölkələrimizin müxtəlif səviyyələrdə sıx əlaqələr yaratdığını deyən Can Yanyan Azərbaycan ilə Çin arasında qarşılıqlı siyasi etimadın və dostluq ənənələrinin möhkəmləndiyini, işgüzar əməkdaşlığın daha da genişləndiyini qeyd etdi. O, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikasının mühüm məsələlərdə bir-birlərinə dəstək vermələrinin, beynəlxalq və regional məsələlərdə birgə fəaliyyət göstərmələrinin önəmini qeyd etdi. Çinli diplomat bildirdi ki, ölkəsi Azərbaycanı özünün həqiqi dostu və etibarlı tərəfdaşı hesab edir. O, ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq Azərbaycan-Çin münasibətlərini uzunmüddətli və davamlı şəkildə daha da genişləndirməyin zəruriliyini bildirdi. Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin yaradılmasının 20 illiyinin gələn il qeyd olunacağını vurğulayan Can Yanyan ölkəsinin Azərbaycan ilə ikitərəfli münasibətləri və dostluq əlaqələrinin daha da möhkəmləndirilməsində və sürətlə inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Çinli diplomat ölkəmizdəki diplomatik fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

"ROSSİYA" DÖVLƏT TELEKANALINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ HƏSR EDİLMİŞ "HAKİMİYYƏT FORMULU" PROQRAMI GÖSTƏRİLMİŞDİR

Dekabrın 23-də "Rossiya" Dövlət Telekanalında Mixail Qusmanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr edilmiş "Hakimiyyət formulu" müəllif

proqramı göstərilmişdir. AzərTAc həmin proqramın mətnini təqdim edir.

Prezident İlham Əliyev: Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika quran, ilk demokratik parlament yaradan, qadınlara səsvermə hüququ verən ilk ölkədir. Yəni, müasirlik və maarifçilik ənənələri bizim ölkəmizdə çox dərin köklərə malikdir. Biz də müasir dövlətimizi bu bünövrə üzərində qururuq. Mən ölkəmizi müasir, demokratik, ali qanunvericilik və çox güclü sosial siyasətə malik, iqtisadi cəhətdən inkişaf etmiş və regionda güclü mövqe tutan ölkə kimi görürəm. Mənim dediklərimin əksəriyyətinə artıq nail olunub.

Müəllifdən: İlham Heydər oğlu Əliyev. 1961-ci il dekabrın 24-də Bakıda anadan olub. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. 1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti olub. 2003-cü il avqustun 4-dən ölkənin Baş naziri vəzifəsini icra edib. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib.

Mixail Qusman: Azərbaycanın həm sənayedə, həm iqtisadiyyatda, həm kənd təsərrüfatında, həm də beynəlxalq aləmdə uğurları xoş təəssürat yaradır. Sizin fikrinizcə, bu uğurların özəyi nədədir?

Prezident İlham Əliyev: Mən Prezident vəzifəsinə başlayanda, hətta ondan əvvəl, seçiqabağı dövrdə də bildirmişdim ki, əgər mənə etimad göstərilərsə atamın siyasətini davam etdirəcəyəm. Atam Azərbaycanı xaotik hadisələr, hakimiyyətsizlik və faktiki olaraq parçalanma girdabından çıxarmışdır. Qəbul olunan mühüm qərarlara gəlincə, mən Azərbaycanın strateji inkişafına təsir göstərənləri qeyd etmək istərdim. Bu, ilk növbədə, ölkənin regional inkişaf proqramıdır. Bu, mənim ilk siyasi addımlarımdan, təşəbbüslərimdən biri idi. Çünki paytaxtla regionlar arasında fərqi azaltmaq və aradan qaldırmaq zərurətə çevrilmişdi.

Müəllifdən: Son 8 il ərzində Azərbaycanın iqtisadiyyatı 300 faiz, sənaye istehsalı 300 faiz artıb, 950 min yeni iş yeri açılıb.

Prezident İlham Əliyev: Nəhəng artım prosesi başlayan kimi, inersiya qüvvəsi də işə qoşuldu. Yəni artıq yerlərdən yeni təşəbbüslər meydana çıxdı, cəmiyyətdə tamamilə nadir yaradıcılıq ruhu yarandı. Yəni belə bir ictimai canfəşanlıq bizə çox kömək edir.

Mehriban xanım Əliyeva: İnsan, siyasətçi və dövlət başçısı arasındakı belə bir əlaqə şübhəsiz ki, göz qabağındadır. Bu mənada əlbəttə ki, regionlara səfərlər, İlhamın ən müxtəlif peşə sahibi olan insanlarla səmimi söhbətləri barədə danışmaq olar. Həmin adamların İlhama olan səmimiliyi, sevgi duyğuları əlbəttə ki, ürəkdən gəlir. Bu, tam səmimi duyğulardır.

Müəllifdən: 2011-ci il. Azərbaycan... Adambaşına düşən ümumi daxili məhsul 6 min dollar təşkil edir. Əhalinin pul gəlirləri 19 faiz artıb. Pensiyaların məbləği orta əməkhaqqının 40 faizinə bərabərdir.

Mixail Qusman: Bu yaxınlarda Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Siz Azərbaycanın Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi vəzifələrini, imkanlarını nədə görürsünüz?

Prezident İlham Əliyev: Bu qələbə müstəqil Azərbaycanın bütün tarixi ərzində bəlkə də

ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir. Bu qələbə bizim həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyümüz bütün işləri əks etdirir. Müstəqilliyin 20 ili ərzində biz buna nail olmuşuq ki, 155 ölkə gərgin mübarizədə bizim namizədliyimizi dəstəkləyib. Əminəm ki, nüfuz, imic xarakterindən əlavə, bizim Təhlükəsizlik Şurasında üzvlüyümüzün praktiki səmərəsi olacaqdır. Özü də təkcə ölkəmizin maraqlarını təmin etmək üçün yox, o cümlədən bizim üçün ən mühüm və çətin məsələ olan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində maraqlarımızı təmin edəcəkdir. Biz bu mövzunu daim Təhlükəsizlik Şurasının diqqət mərkəzində saxlayacağıq. Lakin biz həm də sülhün, təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsi işinə töhfəmizi verməyə çalışacağıq.

Mixail Qusman: Başa düşdüyümə görə, Siz ağrılı, ən çətin siyasi problemə - Dağlıq Qarabağ probleminə toxundunuz. Fikrinizcə, bu problemin düyününü açmaq mümkündür, yaxud bütün ipləri kəsib-doğramaq daha məqbuldur?

Prezident İlham Əliyev: Siz sualınızı verərkən çox düzgün olaraq diqqəti mövcud yollar üzərində cəmləşdirdiniz. Həqiqətən də yalnız iki yol vardır. Münaqişənin nizamlanması yolu yalnız beynəlxalq hüquq normaları, indi bizim üzv olduğumuz BMT Təhlükəsizlik Şurası qərarlarının yerinə yetirilməsi üzərindən keçir. Bu qərarlar yerinə yetirilməlidir. Dörd belə qərar vardır. Hamısı da eyni tələb irəli sürür: Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu, bizim suveren hüququmuzdur. Dövlətimizin ərazi bütövlüyünün təkcə siyasi vasitələrlə deyil, açıq desək, hərbi vasitələrlə də bərpa edilməsinə bizim suveren hüquqlarımız var. Bu, BMT nizamnaməsinə tam uyğundur. Sadəcə olaraq, biz bundan istifadə etmək istəmirik.

Mixail Qusman: Siz ölkənin bölgələrinə tez-tez baş çəkirsiniz. Məncə, hər həftə regionlardan birində olursunuz. Başa düşürəm ki, bu regional siyasətə neft rentası kömək edir. Bəs bu gün magistral hədəf nədən ibarətdir?

Prezident İlham Əliyev: Əlbəttə, neft amili bizə çox kömək edib. Axı bu da bizim xidmətimizdir. Neft çox yerlərdə var. Bəzi ölkələrdə bizdəkindən də qat-qat çoxdur, lakin resurslardan düzgün istifadə edilməsi, xalqın sərvətinin ədalətli bölgüsü, habelə vəsaitlərin xərclənməsində və akkumulyasiyasında maksimum şəffaflıq elə vəziyyətə nail olmağa imkan verib ki, valyuta ehtiyatlarımız ilbəil artır və 8 ildə yoxsulluq səviyyəsi 5 dəfə azalaraq 49 faizdən 9 faizə düşüb. Gələn il biz Azərbaycanın ilk telekommunikasiya peykini buraxacağıq. Biz kosmik sənaye yaradırıq. Yəni biz bəzilərinin fikrincə, Azərbaycanın baxmalı olduğundan çox-çox uzağa baxırıq.

Müəllifdən: 2011-ci il... Azərbaycanın valyuta ehtiyatları 11 milyard artaraq 40 milyard dolları keçdi. Qeyri neft iqtisadiyyatı 8,2 faiz, kənd təsərrüfatı 7,8 faiz artdı.

Mixail Qusman: Azərbaycan müstəqilliyinin bərpa edilməsinin 20 illiyini "Eurovision"da qazandığı böyük uğurla bayram etdi...

Prezident İlham Əliyev: Yəni bu, həqiqətən də böyük qələbədir. Bütün Avropa bizə səs verdi. Biz də böyük bir fərqlə qalib gəldik. Əlbəttə, bu, bizim ifaçılarımızın qələbəsidir. Amma burada həmin qələbə həm də daha geniş mənada qəbul olunur və xalqı səfərbər edir.

Mehriban xanım Əliyeva: Canlı yayım gedirdi və Bakının küçələri göstərilirdi, təkcə

gənclər deyil, ən müxtəlif yaşlardan olan insanlar bayraqlarla küçələrdə idilər, gözlərində sevinc görünürdü. İndi biz artıq zirvəni fəth etmişik, qalib gəlmişik. Amma bu, o demək deyil ki, biz dayanmalıyıq. İndi biz 2012-ci ilin "Eurovision"unu Bakıda keçirməyə hazırlaşırıq.

Prezident İlham Əliyev: Mən, həmçinin idmandakı qələbələri qeyd edərdim. Bu sahədə idmançılarımızın hər bir qələbəsi böyük milli bayrama çevrilir. Bizim Olimpiya, dünya çempionlarımız var. İdman sahəsindəki qələbələr sanki bütün cəmiyyətdə irəliyə doğru bir təkan yaradır.

Leyla xanım Əliyeva: Təəccüblüdür ki, o, Azərbaycanın iştirak etdiyi hər bir yarışda qələbəyə elə sevinir, yaxud məğlub olanda elə məyus olur ki, bəlkə də heç idmançılar özləri belə məyus olmurlar.

Prezident İlham Əliyev: Mənim dediyim qələbələrin çox böyük əhəmiyyəti vardır. Bütün bunlar yeni yol, yeni məktəb, süni peyk, yeni qaz kəməri və sair deməkdir.

Mixail Qusman: Düşünürəm ki, Siz bunu heç vaxt görməmisiniz, hərçənd, Sizə həsr olunub. Bu, tələbə İlham Heydər oğlu Əliyevin şəxsi işidir. Düşünmürəm ki, Siz onu nə vaxtsa görmüsünüz.

Prezident İlham Əliyev: Bu, məxfi sənəddir.

Mixail Qusman: Burada Sizin barənizdə maraqlı, bütövlükdə müsbət olan çox məlumatlar vardır. Bilirsiniz ki, hər bir kursdan sonra xüsusi attestasiya verirdilər. Ümumiyyətlə, Sizi həmişə tərifləyiblər. Amma müəllimlər birinci kursda Sizin tez-tez dərs buraxmağınızdan şikayətlənirdilər. Ona görə də Sizə belə bir adi sual vermək istəyirəm: tələbə İlham Əliyev Moskvada, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun hələ köhnə binasından hara gedirmiş?

Prezident İlham Əliyev: Qeyd etdiyiniz kimi, bu, yalnız birinci kursda olub.

Mixail Qusman: İkinci kursda daha yaxşıdır. Düzünü deyirəm, burada hər şey yazılıb.

Burada rəsmi sənədlər, möhürlər, imzalar, müəllimlərin soyadları var.

Prezident İlham Əliyev: Zənnimcə, 10 il Bakıda oxuyan gənc insan üçün Moskva kimi böyük bir şəhərdə yeni mühitə düşərkən, xüsusən birinci kursda görməli yerlərlə tanışlıq üçün öz vaxtından səmərəli istifadə etməsi təbiidir. Amma sizin qeyd etdiyiniz kimi, bu hadisə Moskvada, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun köhnə binasında baş verdiyinə görə, hara getdiyim anlaşılar. Bilirsiniz ki, küçənin o biri tərəfində Qorki adına mədəniyyət və istirahət parkı yerləşirdi. Biz də oraya...

Mixail Qusman: Yəni ora Moskvada ən sevimli yer idi.

Prezident İlham Əliyev: Bəli, bu, instituta ən yaxın yer idi.

Mixail Qusman: Oraya qaçmaq olardı.

Prezident İlham Əliyev: Oraya qaçmaq və qayıtmaq olardı. Buna görə sağ olun.

Mixail Qusman: Bilirəm ki, gənclik illəriniz yaddaşınızdan silinməyib. Siz bugünkü gənc nəsli də görürsünüz. Fikrinizcə, bugünkü gənc nəsli Sizin gənclik illərinizlə müqayisə etsək, hansı müsbət və mənfi cəhətlər var?

Prezident İlham Əliyev: Hesab edirəm ki, indiki gənclik, əlbəttə, daha müstəqil, daha motivasiyalı və daha peşəkardır. Bizim ölkədə baş verənlərə əsasən görürəm ki, indiki gənclərin uğur qazanmaq arzusu çox böyükdür. Onlar tamamilə başa düşürlər ki, bu, yalnız yaxşı təhsil almaqla mümkündür. Mənə çox xoşdur ki, bizim gənclər öz köklərinə çox bağlıdırlar. Qloballaşmaya, bütün yeni fikirlərə baxmayaraq, bizim gənclərin çox böyük qismi Azərbaycan musiqisini dinləyir.

Mehriban xanım Əliyeva: Muğam mütləq olaraq xüsusi maraq doğurur. Çünki bu, zəngin musiqidir. Bu musiqidə bəlkə də çox çətin izah edilə biləcək ruh vardır. Xalqın, tarixin, ənənələrin ruhu... Bax, belə. Biz muğam konsertləri, muğam müsabiqələri keçirməyə başladıq. Getdikcə daha çox gənc bu musiqi ilə maraqlanmağa başladı.

Mixail Qusman: Bu qovluq sizə tanışdır?

Prezident İlham Əliyev: Yox.

Mixail Qusman: Bu, sizin dissertasiyanızdır. Bu, onun referatıdır. Bu dissertasiya Böyük Britaniyada ilkin mərhələdə müharibə əleyhinə hərəkata və siyasi partiyaların ona münasibətinə həsr olunub.

Prezident İlham Əliyev: Bu mövzu yadımdadır.

Mixail Qusman: Bununla əlaqədar hər halda sualım Sizə peşə cəhətdən yaxın olan xarici siyasətlə bağlıdır. Azərbaycan nadir geosiyasi mövqeyə malikdir. Geosiyasi amillər Sizin siyasətinizə necə təsir edir?

Prezident İlham Əliyev: Əlbəttə, biz regionun bir hissəsiyik və əlbəttə ki, istər-istəməz regionda baş verən proseslər bizə təsir edir. Amma Prezident kimi mənim vəzifəm region xarakterli hadisələrin Azərbaycana təsirini azaltmaq və əksinə, Azərbaycanın regional proseslərə təsir imkanlarını maksimum dərəcədə artırmaqdır. İqtisadiyyata gəlincə, Azərbaycanın iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 83 faizini təşkil edir. Gələcəkdə də bu rəqəm yalnız artacaqdır. Bu gün Azərbaycanın iştirakı olmadan heç bir layihə mümkün deyildir. Nə enerji, nə nəqliyyat, nə də xarici siyasət.

Mixail Qusman: Rusiya Azərbaycanın qonşusudur. Sizin Rusiyanın həm keçmiş

Prezidenti Putinlə və hazırkı Prezident Dmitri Medvedevlə çox yaxşı siyasi, peşəkar əlaqələriniz vardır. Bu mövzuda Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu kimi zəngin təcrübəniz vardır. Rusiya ilə Azərbaycan arasında hansı əməkdaşlıq perspektivlərini görürsünüz? Burada hansı ağrılı nöqtələr, açılmayan düyünlər var, digər tərəfdən bu inkişafın perspektivləri nədədir?

Prezident İlham Əliyev: Mənə elə gəlir ki, perspektivlər çox müsbətdir. Qeyd etdiyiniz kimi, mənim həm Rusiya Prezidenti ilə, həm də Baş nazirlə çox sıx əlaqələrim vardır. Deməliyəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi məhz 2000-ci illərin əvvəlində, Rusiyaya Vladimir Putin başçılıq edəndə başlayıb. Elə o vaxt Rusiya Prezidenti Azərbaycana ilk rəsmi səfər edib. Bu 10 il ərzində çox iş görülüb. İkitərəfli münasibətlərin bütün ağrılı və çətin məsələləri həll olunub. Hamısı. Sonuncu problem Prezident Dmitri Anatolyeviç Medvedevin Azərbaycana son səfəri zamanı həll olunub. Həmin vaxt dövlət sərhədi haqqında sənəd imzalanıb.

Mixail Qusman: Qeyd etdiyimiz kimi, Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər

İnstitutunda çox gözəl təhsil almısınız. Amma siyasət, diplomatiya, həyata baxış, dünyaya baxış sahəsində əsas dərsləri Siz Heydər Əliyevdən almısınız desəm, yəqin ki, səhv etmərəm. Necə deyərlər, Siz Heydər Əliyevin hansı dərslərindən bu gün istifadə edirsiniz?

Prezident İlham Əliyev: Hər kəs üçün ata yaxın, doğma insandır. Mən bu insana, eyni zamanda, sonsuz hörmət, etimad və iftixarla yanaşırdım. Çünki onun bütün həyatı, mübarizəsi, taleyi və dəyanəti hamı üçün əsl nümunədir. Yəqin hamı xatırlayır ki, həyatının son dövründə kursantlar qarşısında çıxış edərkən halı pisləşdi, yıxıldı, sonra çıxdı, qayıtdı, çıxış etdi, yenə yıxıldı, yenə çıxdı və yenə üçüncü dəfə qayıtdı. Öz nitqini də başa çatdırdı. Düşünmürəm ki, onun yaşda və vəziyyətdə olan daha kimsə bunu edə bilərdi. Axı 80 yaşlı bu insanın 8 qabırğası sınmışdı. Amma fikrimcə, o, başqa cür edə bilməzdi. Onun iradəsi də elə bundadır. Bu mərdlik, dəyanət və əlbəttə ki, bizim hamımız üçün nümunədir. Həm mənim üçün, həm də bütün azərbaycanlılar üçün.

Mixail Qusman: Əgər təsəvvür etsək ki, Siz hansısa zaman maşınında keçmiş hadisələrə qayıda bilərsiniz, onda hansı hadisələri bir daha duymaq istərdiniz?

Prezident İlham Əliyev: Düşünürəm ki, yəqin mən istəməzdim. Çünki yaşanan hadisələr hətta nə qədər sevincli olsa da əvvəlki təsiri göstərməyəcək. Əgər imkan olsaydı, mən irəli, deyək ki, heç olmasa 10 il irəli gedərdim. Baxardım ki, düşündüklərim baş tutub, yoxsa yox və nə dərəcədə alınıb? Bax bunu böyük məmnuniyyətlə edərdim. Keçmişə gəlincə isə, əgər mümkün olsaydı, mən anamın və atamın yanına qayıdardım.

Mehriban xanım Əliyeva: Tezliklə İlhamla birlikdə olmağımızın 29 ili tamam olacaqdır. Təbii ki, hər bir ailədəki kimi bizim həyatımızda da xeyli xoşbəxt, sevincli, parlaq hadisələr olub. Problemlər və çətinliklər, ağrılı itkilər, kədər və qüssə də olub. Əsas o idi ki, biz bütün bunları birlikdə yaşamışıq və yaşayırıq. Biz eyni istiqamətə baxır və irəli gedirik.

Prezident İlham Əliyev: Bu, yəqin ki, adi səslənir. Bu halda yəqin ki, mən Yer üzündəki insanların əksəriyyətindən fərqlənmirəm. Gün ərzində istirahətdə yox, axşam ailə içində olmaq ən gözəl vaxtdır. Axşam mən evin kandarından içəri keçəndə tamamilə başqa, onilliklər ərzində olduğum mühitə düşürəm.

Mehriban xanım Əliyeva: Belə çətin işlə məşğul ola-ola səmimiliyini, həssaslığını, açıqlığını və xeyirxahlığını qorumaq çox böyük ləyaqətdir. Buna görə mən ona çox minnətdaram. Onun necə ata olduğu barədə danışsam... yəqin bu barədə də qızları danışarlar. Amma qızları, ilk növbədə, onun dostlarıdırlar.

Leyla xanım Əliyeva: Baxmayaraq ki, o, çox nadir hallarda danlayır, heç bir fikrini sınmır, mənim üçün həyatda ən başlıcası onu heç bir cəhətdən məyus etməməkdir.

Arzu xanım Əliyeva: Bilirəm ki, hər necə olsa da, o, həmişə məni eşidəcək, dəstəkləyəcəkdir. Onun hər bir məsləhəti mənim üçün son dərəcə mötəbərdir.

Leyla xanım Əliyeva: Əlbəttə, böyük məsuliyyət vardır. Yəqin ki, mən daha çox atamın qarşısında məsuliyyət hiss edirəm.

Arzu xanım Əliyeva: Bütün ailə - mən, Leyla, balaca Heydər, nəvələr birlikdə olanda, görürəm ki, atam belə anlarda həqiqətən böyük sevinc hissi keçirir, bunu görəndə bizim

də hamımızın ürəyi fərəhlə dolur.

Mixail Qusman: Bu günlərdə Sizin həyat yoldaşınız, ölkənin birinci xanımı Mehriban Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondu Romada, Vatikanda Azərbaycanın təbliği üzrə genişmiqyaslı tədbirlər həyata keçirib. Hamı Mehriban xanımın ictimai fəaliyyətinə yaxşı bələddir. O, nəhəng işlər görür. UNESCO-nun xoşməramlı səfiridir, parlamentin deputatıdır. Bütün bunlar çox gözəldir. Amma başa düşdüyümə görə bu, həftəsonu fəaliyyətdir. Bilirəm ki, o, həmişə evə can atır. Bəs nisbət necədir və onun vəzifələri sizinkinə necə uyğun gəlir?

Prezident İlham Əliyev: Əlbəttə, onun çox böyük ictimai yükü vardır. Hətta, birinci xanım vəzifəsi, protokol tədbirləri və sairə böyük səylər tələb edir. Deyək ki, il ərzində bizim birlikdə olmadığımız anlar çox deyildir. Amma hansısa tədbirlərdə iştirak etmək lazım gələndə, belə hallar olur. Buna görə də biz bir yerdə olmaq üçün bir-birimizə qarşı can atırıq. Əlbəttə, o, hər cəhətdən çox istedadlı insandır. Buna görə də o, işinin öhdəsindən gəlir. Bütün işləri yüksək səviyyədə görür.

Mixail Qusman: İlham Heydər oğlu, istər-istəməz artıq 50 yaşa çatmısınız. Çox iş görülüb. Uğurlara güvənmək olardı. Sizi tanıdığıma görə deyə bilərəm ki, bu, Sizin təbiətinizə uyğun deyildir. Şəxsən Siz öz qarşınızda növbəti yarım əsr üçün hansı vəzifələri qoyursunuz?

Prezident İlham Əliyev: Açığını deyim ki, həyatda mən qabaqcadan qarşıma heç bir vəzifə qoymuram. Amma Prezident kimi bunu özümə rəva görə bilmərəm, çünki əgər gələcəyi düşünməsəm, bu günün problemlərini həll etmək çox çətin olacaqdır. Bizim bu gün həll etdiyimiz problemlər gələcəyə yönəlibdir. Dünya tərəqqi edir. Biz də ona çatmalıyıq. Yaxın onilliklər ərzində dünyanı kimlər idarə edəcək? Yəqin ki, ağıllı insanlar.

Mixail Qusman: Bəs Sizin fikrinizcə, gələcəkdən danışarkən keçmişdən nə götürmək istərdiniz və Sizi həmişə nə müşayiət edərdi?

Prezident İlham Əliyev: Ləyaqəti keçmişdə qoymaq olmaz. Heç bir halda. Ədəb-ərkan hissini, insanlara xoş münasibət hissini, vətənpərvərlik hissini. Mənə elə gəlir ki, hər bir kəs, hamı bu əsas məqamları özü ilə irəli aparmalıdır. Həmişə öz Vətənini sevmək lazımdır.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 23-də Polşa Respublikasının Prezidenti Bronislav Komorovski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Polşa Prezidenti dövlətimizin başçısını anadan olmasının 50 illiyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Bronislav Komorovskiyə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları Azərbaycanla Polşa arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluqlarını ifadə etmiş, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildirmişlər.

Telefon söhbəti zamanı Polşa Prezidenti Bronislav Komorovskinin Azərbaycana rəsmi səfərinin uğurla keçdiyi bir daha vurğulanmış, dövlət başçıları səviyyəsində görüşlərin gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu.

Sizi 50 illik yubileyiniz münasibətilə Dağıstan Respublikası Xalq Məclisi adından və şəxsən öz adımdan hərarətlə və ürəkdən təbrik edirəm.

Dağıstanlılar Sizi siyasi və dövlət xadimi kimi yaxşı tanıyır, respublikalarımızın xalqları arasında ənənəvi qardaşlıq, dostluq və əməkdaşlığın möhkəmlənməsinə, sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş səylərinizi yüksək qiymətləndirirlər.

Uzun ömür, möhkəm cansağlığı, tükənməz güc və enerji, Azərbaycan Respublikasının tərəqqisi naminə çoxşaxəli fəaliyyətinizdə gələcək uğurlarla bağlı ən xoş arzularımı qəbul edin.

Dərin hörmətlə,

Maqomed-Sultan Maqomedov

Dağıstan Respublikası Xalq Məclisinin sədri

RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu.

Sizi anadan olmağınızın 50 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Bu gün Sizin səmərəli həyat yolunuzun mühüm mərhələsidir.

Siz Azərbaycan Respublikasının rəhbəri kimi bütün güc və enerjinizi onun gələcək inkişafına sərf edərək, atanız - görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin həyatının məramı olmuş işi layiqincə davam etdirən əsl xalq liderinə çevrilmisiniz. Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətçiliyin möhkəmlənməsində, sosial-iqtisadi, mənəvi və mədəni inkişafda yeni təkan almışdır. Bu gün Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında hərtərəfli əməkdaşlıq yüksək səviyyəyə çatmışdır. Azərbaycan ilə Dağıstan arasında mehriban qonşuluq əlaqələri inkişaf edir və dərinləşir. Qəti əmin olduğumu bildirirəm ki, xalqlarımızı birləşdirən, zəngin həyat təcrübəsinə söykənən mehriban dostluq, qonşuluq və əməkdaşlıq ənənələri bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və Azərbaycan xalqının rifahı naminə çoxşaxəli və məsuliyyətli fəaliyyətinizdə gələcək uğurlar barədə səmimi arzularımı qəbul edin.

Hörmətlə,

Maqomedsalam Maqomedov

Dağıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident, əziz dostum!

Xahiş edirəm əlamətdar yubileyiniz münasibətilə səmimi və dost təbriklərimi, gözəl ölkənizin gələcək inkişafı naminə məqsədlərinizin yerinə yetirilməsində ən xoş arzularımı qəbul edin. Digər ölkələrin maliyyə resursları çatışmazlığının yaratdığı çətinliklərlə üzləşdiyi, vətəndaşlara daha az maliyyə vəsaiti ayırmaqla problemləri həll etməyə çalışdığı və gələcək inkişaf naminə xərcləri azaltmaq məcburiyyətində qaldığı bir vaxtda Azərbaycana səfərim zamanı vətəndaşlarınızın yaşayış standartlarının yüksəldilməsi ilə bağlı Sizin uğurlu fəaliyyətinizdən tam əmin olmaq fürsəti qazandım. Mən çox şadam ki, Siz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın sürətli inkişafının əsasını qoyan Prezidentin - sələfiniz və atanızın siyasətini davam etdirirsiniz. Mən şəxsən özüm şahidi oldum ki, təkcə paytaxt Bakıda deyil, ölkənizin digər regionlarında da milli iqtisadiyyatın bütün sahələrində inkişaf davam edir.

Hörmətli cənab Prezident, əziz dostum!

Səmərəli həyatınızın gələcək illərində və Azərbaycan Respublikasının Prezidenti kimi çətin və məsuliyyətli işinizdə Sizə uğurlar arzu edirəm.

Sizə möhkəm cansağlığı, ailə səadəti və xoşbəxtlik diləyirəm.

Hörmətlə,

Rudolf Şuster

Slovakiya Respublikasının sabiq Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 2011-ci il dekabrın 24-də 50 yaşı tamam olur. Biz, ona möhkəm cansağlığı və xoşbəxtlik dolu uzun ömür diləyir, ad gününü təbrik edirik.

Qardaş Azərbaycan Respublikasının dəyərli Prezidenti səkkiz ildir bu vəzifəni yerinə yetirir. Müvəffəqiyyətlə yerinə yetirir. Biz, ona uğurlarla dolu daha neçə-neçə illər arzulayırıq.

Hörmətli İlham Əliyev Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən on il keçəndən, Böyük Lider, dövlətin qurucusu, mərhum Heydər Əliyev vəfat edəndən sonra Azərbaycan xalqı tərəfindən bu ali vəzifəyə ilk dəfə seçilmişdir. Beş il sonra keçirilən seçkilərdə də yenidən Azərbaycan Prezidenti seçilmişdir. Göründüyü kimi, çox mürəkkəb bir dövrdə çox çətin bir işi öhdəsinə götürmüş və bunu müvəffəqiyyətlə yerinə yetirmişdir. Uğurlarının təsdiqi bu gün Azərbaycanda gördüklərimizdir.

Azərbaycan çox mühüm inkişafa nail olmuşdur. Bir tərəfdən çoxpartiyalı siyasi sistem qurulmuş, digər tərəfdən, ölkə iqtisadi və sosial baxımdan sürətlə inkişaf etmişdir. On il ərzində Azərbaycanı iki dəfə görən insanlar inkişafın fərqindən heyrətlərini gizlətmir-

lər.

Vəzifə çətindir. 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünyada tərəddüdlər var idi. 1918-ci ilin mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin aqibəti unudulmamışdı.

Türkiyə Respublikasının Baş naziri olaraq 1992-ci ilin mayında Azərbaycan parlamentindəki nitqimdə ölkənin qarşısındakı çətinliklərə işarə etmişdim.

Bir transformasiya olacaqdı: kommunist rejimindən demokratik sistemə, marksist iqtisadiyyatdan bazar iqtisadiyyatına keçiləcəkdir. Dövlət yenidən qurulacaq, xalq yenidən təşkilatlanacaqdır. Bu çətin vəzifəni dəyərli dostum, Böyük Lider Heydər Əliyev cəsarətlə öz üzərinə götürmüşdü. Daha doğrusu, Azərbaycan xalqı onu təkidlə bu vəzifəyə dəvət etmişdi. Dövləti ayağa qaldırmaq, ölkədaxili məsələləri nizama salmaq, sistemi qurmaq, işlətmək və dünya ilə əlaqələri yaratmaq lazım idi. Bunları yerinə yetirmək vacib idi.

Ötən 20 il ərzində, on ili ataya, on ili oğula aid olmaqla göstərilən səylər nəticəsində bir çox çətinliklər aradan qaldırılmış, müharibə dayandırılmış, sülh danışıqlarına başlanılmış, qarşıya qoyulan məqsədə nail olunmuşdur. Bu, parlaq bir nailiyyətdir.

Bu gün Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. Avropadakı təşkilatların üzvüdür. Regionda əməkdaşlığa səy göstərməkdədir. Dünya ilə ticarət əlaqələri qurmuşdur. Təbii resurslarını dünya bazarlarına çatdırmaqdadır. Azərbaycanın iş adamları artıq başqa ölkələrə də sərmayə qoymağa qadirdirlər. Dünyanın müxtəlif ölkələrindən sərmayədarlar Azərbaycanda iş görməkdədirlər. Azərbaycan qlobal rəqabətə açıq bir sistemdə fəaliyyətdədir. Daha doğrusu, müasir dünyaya inteqrasiya olunmuşdur. Adambaşına düşən 10 min dollar gəlir səviyyəsini keçmişdir. İnkişaf, abadlıq-quruculuq və inşaat işləri sürətlə davam etməkdədir.

Oktyabrın 9-dan 11-dək Bakıda Beynəlxalq Humanitar Forum keçirilmişdir. Dünyanın müxtəlif ölkələrindən görkəmli insanlar bu Forumda iştirak etmişlər. Azərbaycan mesajını bütün dünyaya çatdırmaq fürsəti əldə etmişdir. Bu Forumda iştirak etmək üçün Bakıda səfərdə olduğum müddətdə dəyərli dostum, qardaşım Heydər Əliyevin məzarını ziyarət etdim. Ruhuna dualar oxudum.

Dedim ki, "Əziz qardaşım, qalx bir gör, nələr olmuşdur? Gözəl Azərbaycanın etibarlı əllərdədir. İlham Əliyev vəzifəsini fəxr edəcəyin şəkildə yerinə yetirir. Rahat ol! Rahat uyu!"

Əlli yaşlı dəyərli Prezident İlham Əliyev möhtəşəm uğurlara imza atan, xalqının rifahı və xoşbəxtliyi üçün çalışan nüfuzlu bir liderdir. Ona bu gözəl ölkəyə və bu böyük millətə xidmət işində uğurlar arzulayıram.

Onun ən yaxın silahdaşı, hörmətli xanımı Mehriban Əliyevanın Prezidentin fəaliyyətini dəstəkləməsini yüksək qiymətləndirirəm.

Süleyman Dəmirəl

Türkiyə Respublikasının IX Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri, Əlamətdar yubileyiniz münasibətilə Sizə böyük məmnuniyyətlə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaq istərdim. Sizə uzun ömür, möhkəm cansağlığı, dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm

Dərin hörmətlə,

II Abdullah ibn Al Hüseyn

İordaniyanın Kralı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident cənab Əliyev.

İcazənizlə Sizi 50 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm, Sizə möhkəm cansağlığı və şəxsi həyatınızda xoşbəxtlik arzulayıram.

Əminəm ki, Siz gələcəkdə də ölkənizə müvəffəqiyyətlə rəhbərlik edəcəksiniz və Serbiya-Azərbaycan dostluq münasibətlərinin inkişafı naminə hərtərəfli əməkdaşlığımızı birgə səylərlə davam etdirəcəyik.

Zati-aliləri, fürsətdən istifadə edərək, Sizə öz dərin ehtiramımı bildirmək istəyirəm.

Boris Tadiç

Serbiya Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Əziz İlham.

Sizin 50 illik yubileyiniz münasibətilə mənim ürəkdən gələn təbriklərimi, möhkəm cansağlığı, şəxsi və ailə səadəti, çox məsuliyyətli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər barədə ən səmimi arzularımı qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək, Bolqarıstan-Azərbaycan münasibətləri ideyası, habelə dinamik və səmərəli inkişaf uğrunda Sizinlə birlikdə işləmək imkanından məmnunluğumu ifadə etmək istərdim. Əminəm ki, nəzərdə tutulmuş mühüm təşəbbüsləri birgə fəal səylərlə reallaşdıra biləcək və ikitərəfli əməkdaşlıq qarşısında daha əlverişli perspektivlər açacağıq.

Həmçinin, Bolqarıstan və Azərbaycan arasında hərtərəfli dialoqun möhkəmlənməsinə, dost xalqlarımızın həqiqətən yaxınlaşmasına görə Sizin şəxsi səylərinizə verdiyim müstəsna əhəmiyyəti vurğulayıram. İnanıram ki, biz ölkələrimizə tərəqqi və əmin-amanlıq gətirəcək yaxın şəxsi əlaqələri bundan sonra da dəstəkləyəcəyik.

Hörmətli Prezident, icazə verin, Sizi bir daha əlamətdar yubileyiniz münasibətilə səmimi təbrik edim. Sizə yüksək ehtiram bəslədiyimə əmin ola bilərsiniz.

Dərin hörmətlə,

Georgi Pırvanov

Bolqarıstan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident, əziz cənab Əliyev.

Sizi 50 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Sizin ad gününüz ölkənizin Almaniya tərəfindən ilk gündən dəstəklənən müstəqilliyinin 20-ci ildönümünə təsadüf edir.

Mən Sizə öz bayramınız olan ad gününüzdə möhkəm cansağlığı arzu edirəm.

Hörmətlə,

Angela Merkel

Almaniya Federativ Respublikasının Federal Kansleri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident,

Sizi anadan olmağınızın 50 illiyi münasibətilə təbrik edirəm. Keçən ilin avqust ayında 50 illiyimlə bağlı göndərdiyiniz təbrik məktubundan məmnun oldum. Bu, həqiqətən də mühüm yubileydir və ümidvaram ki, Siz də mənim kimi bu doğum gününüzü ailənizlə, yaxın dostlarınızla birlikdə qeyd edəcəksiniz.

Ölkələrimiz arasında ümumi maraqlara və qarşılıqlı hörmətə əsaslanan güclü əlaqələr qurulmuşdur və mən həyati əhəmiyyətli tərəfdaşlığımızın möhkəmləndirilməsinə tam sadiqəm. Biz ölkələrimizin səyləri ilə Avropanın enerji təchizatının şaxələndirilməsi, demokratik və iqtisadi islahatların aparılması, regional təhlükəsizliyin gücləndirilməsi, xüsusilə də, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tam həllinə nail olunması kimi bir çox məsələlərdə bundan sonra da sıx əməkdaşlığımızı davam etdirəcəyik.

Sizi bir daha ad gününüz münasibətilə təbrik edir, Sizə və ailənizə Yeni İldə ən xoş arzularımı diləyirəm.

Səmimiyyətlə,

Barak Obama

Amerika Birləşmiş Ştatlarının Prezidenti

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 23-də Türkiyə Respublikasının keçmiş Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Əhməd Necdət Sezər dövlətimizin başçısına anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırmış, ona dövlətçilik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Əhməd Necdət Sezərə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev və Əhməd Necdət Sezər keçirdikləri görüşləri və danışıqları məmnunluqla yad etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN XARİCİ İŞLƏR NAZİRİ HOŞYAR ZEBARİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də İraq Respublikasının xarici işlər naziri Hoşyar Zebarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nazir Hoşyar Zebari İraq Prezidenti Cəlal Tələbaninin, Baş nazir Nuri əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı. Hoşyar Zebari beynəlxalq sülhməramlı missiyanın tərkibində Azərbaycan sülhməramlılarının İraqdakı fəaliyyətinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Xalqlarımızın uzun illər yaxın dostluq əlaqələrinə və birgə mədəniyyətə malik olduğunu vurğulayan İraqın xarici işlər naziri hazırda bu əlaqələri fəal şəkildə daha da genişləndirməyin zəruriliyini qeyd etdi. İraqda Azərbaycanın səfirliyinin fəaliyyət göstərməsinə ehtiyac olduğunu deyən nazir bunun əlaqələrimizin inkişaf etdirilməsi baxımından önəmini vurğuladı.

Dövlətimizin başçısı ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin yaradılması üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev yaxın vaxtlarda İraqda Azərbaycanın səfirliyinin açılacağına əminliyini qeyd etdi. Xalqlarımız arasındakı əlaqələrin həmişə səmimi dostluq münasibətlərinə əsaslandığını deyən dövlətimizin başçısı İraqdakı əməliyyatlarda Azərbaycan sülhməramlılarının iştirakını dost İraq xalqına ölkəmizin göstərdiyi yardım kimi qiymətləndirdi. Dövlət başçısı bu günlərdə İraqda törədilən terror aktları nəticəsində çoxsaylı insan tələfatından kədərləndiyini bildirdi, bununla əlaqədar İraq xalqına başsağlığı çatdırmağı xahiş etdi. Ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlığından məmnunluğunu bildirən Prezident İlham Əliyev BMT-nin Baş Məclisində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı keçirilən müzakirələrdə və Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçildiyi zaman keçirilən səsvermədə İraqın ölkəmizə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı İraq Respublikasının xarici işlər naziri Hoşyar Zebarinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev İraq Prezidenti Cəlal Tələbaninin, Baş nazir Nuri əl-Malikinin

salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın dövlət başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 23-də Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Eduard Şevardnadze dövlətimizin başçısını anadan olmasının 50 illiyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Eduard Şevardnadzeyə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı Eduard Şevardnadzenin ulu öndərlə dostluq münasibətləri məmnunluqla xatırlanmışdır.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 24-də Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Süleyman Dəmirəl dövlətimizin başçısına anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırmış, ona dövlətçilik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Süleyman Dəmirələ minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı dövlətimizin başçısı və Türkiyə Respublikasının IX Prezidenti ulu öndər Heydər Əliyevlə Süleyman Dəmirəlin dostluq münasibətlərini böyük məmnunluqla yad etdilər.

MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLDƏN

Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu! Sizin həyatınızda əlamətdar tarix - anadan olmağınızın 50 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Siz bu yubileyi gücünüzün aşıb-daşdığı bir dövrdə qarşılayırsınız, Sizin rəhbərlik etdiyiniz

dövlət isə indi iqtisadi və mədəni yüksəliş dövrü yaşayır.

Siz uzun illər boyu Azərbaycan Respublikasına rəhbərlik etməklə öz həmvətənlərinizin məhəbbətini və dünya birliyində hörmət qazanmısınız. Sizin ölkənin pravoslav sakinlərinin ehtiyac və çətinliklərinə göstərdiyiniz qayğıya, Bakı yeparxiyası ilə faydalı əməkdaşlığa görə Sizə xüsusi təşəkkür edirəm.

Bu da fərəhlə qeyd edilməlidir ki, Azərbaycanın müsəlman icması dinlərarası dialoq kimi mühüm sahədə Rus Pravoslav Kilsəsinin ənənəvi tərəfdaşıdır.

Sizə ruhani və cismani möhkəmlik, Sizin xalqınıza çox faydalı, məsuliyyətli xidmətinizdə Tanrıdan kömək diləyirəm. Ulu Tanrı Sizə və ailənizə yar olsun.

Dərin hörmətlə,

Kirill

Moskvanın və Bütün Rusiyanın Patriarxı

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKODAN

Hörmətli İlham Heydər oğlu,

Sizi anadan olmağınızın 50 illiyi münasibətilə Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm!

Federasiya Şurasında Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizi yüksək qiymətləndirir və Azərbaycanın iqtisadiyyatda, mədəniyyətdə, ölkənin ictimai həyatında və dünya məkanında mövqelərinin möhkəmlənməsində sanballı nailiyyətlərini böyük məmnuniyyətlə qeyd edirlər.

Dost və konstruktiv Rusiya-Azərbaycan dialoqunun, onun ayrılmaz tərkib hissəsi olan Federasiya Şurası və Azərbaycan Milli Məclisi arasında əməkdaşlığın davam etdirilməsinə əminliyimi ifadə edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə gələcək uğurlar arzulayıram.

Hörmətlə,

Valentina Matviyenko

Rusiya Federasiyası Federal Məclisinin

Federasiya Şurasının sədri

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VLADİMİR FİLATDAN

Hörmətli cənab Prezident!

Yubileyiniz münasibətilə mənim ən səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Fürsətdən istifadə edib qeyd etmək istərdim ki, Azərbaycan Respublikası Sizin rəhbərliyiniz altında dövlətçiliyin möhkəmlənməsi, daxili islahatların səmərəli həyata keçirilməsi, xarici siyasi məqsədlərin müvəffəqiyyətlə reallaşdırılması yolunda sanballı uğurlar nümayiş etdirir.

Ölkələrimiz arasında əməkdaşlığın böyük potensiala malik olduğuna əminliyimi ifadə edərək, Moldova tərəfinin Azərbaycan Respublikası ilə dialoqu ikitərəfli gündəliyin bütün spektri üzrə, Moldova-Azərbaycan münasibətlərinə xas olan dostluq və qarşılıqlı anlaşma ruhunda fəallaşdırmağa və bundan sonra da möhkəmləndirməyə hazır olduğunu vurğulamaq istəyirəm.

Zati-aliləri, icazə verin, Sizə möhkəm cansağlığı, uzun ömür, uğurlar və fəravanlıq arzulayım.

Hörmətlə,

Vladimir Filat

Moldova Respublikasının Baş naziri

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Sizin 50 illiyiniz münasibətilə ən hərarətli və səmimi təbriklərimi qəbul edin!

Ölkənizin 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi Sizin rəhbərliyiniz altında həyata keçirilən siyasi və iqtisadi dəyişikliklərin uğurlu olmasının, Azərbaycanın beynəlxalq nüfuzunun artmasının təsdiqi olmuşdur.

Biz xalqlarımız arasında tarixi dostluq və əməkdaşlıq tellərini yüksək qiymətləndirir, prioritet sahələrdə Qırğızıstan-Azərbaycan münasibətlərinin dərinləşməsinə böyük əhəmiyyət veririk.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, tükənməz enerji və dost Azərbaycan xalqının firavanlığı və tərəqqisi naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Almazbek Atambayev

Qırğız Respublikasının Prezidenti

LİTVA RESPUBLİKASININ PREZİDENTİ DALYA QRİBAUSKAYTEDƏN

Hörmətli cənab Prezident!

Anadan olmağınızın əlli illiyi münasibətilə səmimi təbriklərimi lütfən qəbul edin. Sizə və ailənizə böyük xoşbəxtlik, qüvvət və möhkəm cansağlığı arzulayıram. Azərbaycanı sülh, rifah və təhlükəsizlik yolu ilə irəli aparmaqda Sizə böyük uğurlar diləyirəm.

Bu ilin may ayında Azərbaycana səfərimi və apardığımız səmimi söhbəti böyük ehtiramla xatırlayaraq, qəti şəkildə ümidvar olduğumu bildirmək istəyirəm ki, ikitərəfli əməkdaşlıq dövlətlərimizin rifahı naminə davam edəcək, ölkələrimizin, eləcə də xalqlarımızın firavanlığına və təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə verəcəkdir. Mən, həmçinin Litva ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə yetirdiyiniz şəxsi diqqətə və verdiyiniz dəstəyə görə minnətdaram. Bu dəstək olmadan qazandığımız böyük nəticələrin əldə edilməsi çox çətin olardı.

Yaxşı bilirəm ki, Litva ilə Azərbaycanın işgüzar dairələrinin, alimlərinin və ictimai xadimlərinin ikitərəfli təmasların daha da inkişaf etdirilməsi ilə bağlı bir çox maraqlı ideyaları vardır. Ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni dialoqun təşviq edilməsini arzulayaraq, fürsətdən istifadə edib, Sizi lütfən Litvaya səfərə dəvət edirəm.

Ad gününüz münasibətilə Sizi bir daha təbrik edir və Yeni il münasibətilə ən xoş arzularımı çatdırıram.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Dalya Qribauskayte

Litva Respublikasının Prezidenti

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKODAN

Hörmətli İlham Heydər oğlu!

Sizin 50 illik yubileyiniz münasibətilə ən hərarətli və səmimi təbriklərimi qəbul edin.

Siz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin işini layiqincə davam etdirərək Vətənə yorulmadan xidmət etmək nümunəsinə çevrilmisiniz. Sizin biliklәriniz, möhkəm iradəniz və siyasi müdrikliyiniz sayəsində iqtisadi cəhətdən güclü və mütərəqqi Azərbaycan Respublikası bu gün gələcəyə inamla baxır, beynəlxalq münasibətlərin nüfuzlu iştirakçısıdır.

Belarus-Azərbaycan dialoqunun inkişafına Sizin şəxsi töhfənizi və bizim aramızda yaranmış, etimada əsaslanan münasibətləri yüksək qiymətləndirirəm, bunlar olmadan həqiqi tərəfdaşlıq mümkün deyildir.

Əminəm ki, səmərəli Belarus-Azərbaycan əməkdaşlığı bundan sonra da dostluq və qarşılıqlı anlaşma əsasında inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, tükənməz enerji və məsul vəzifənizdə uğurlar arzulayıram.

Hörmətlə,

Aleksandr Lukaşenko

Belarus Respublikasının Prezidenti

PREZİDENTİ VİKTOR YANUKOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Sizi 50 illiyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası uğurlu inkişafını davam etdirir, ölkə həyatının bütün sahələrində yüksək nailiyyətlər nümayiş etdirir, beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirir.

Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına Sizin şəxsi töhfənizi yüksək qiymətləndirərək, əminəm ki, Siz qarşılıqlı fəaliyyətin bütün sahələrində bundan sonra da Ukrayna-Azərbaycan əməkdaşlığının dərinləşməsinin səmimi tərəfdarı olaraq qalacaqsınız.

Əminəm ki, qarşılıqlı anlaşma, mehriban qonşuluq və konstruktiv dialoq ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinin dəyişməz tərkib hissəsi olacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və ölkənizin rifahı naminə yeni

nailiyyətlər, dost Azərbaycan xalqına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

Viktor Yanukoviç

Ukraynanın Prezidenti

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 24-də Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Abdullah Gül dövlətimizin başçısına anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırmış, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Abdullah Gülə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev və Prezident Abdullah Gül ölkələrimiz arasında dostluq münasibətlərinin bütün sahələrdə bundan sonra da daim inkişaf edəcəyinə əmin olduqlarını bildirmişlər.

FRANSA RESPUBLİKASININ PREZİDENTİ NİKOLA SARKOZİDƏN

Cənab Prezident, əziz İlham.

Mən 50 illik yubileyiniz münasibətilə Sizə şəxsi səadət arzularımı çatdırıram. Bu arzuları, eyni zamanda, Sizin həyat yoldaşınıza və mənim oktyabrın 7-də Bakıya rəsmi səfərim zamanı qonaqpərvərliyindən və işgüzarlığından məmnun qaldığım Azərbaycan xalqına da aid edirəm.

Sizin və xanım Əliyevanın məni qarşılamağınızdan ən gözəl xatirələrim qalıb. Bizim aramızda olan şəxsi münasibətlər Azərbaycan və Fransa arasında qurmaq istədiyimiz xüsusi əlaqələr üçün çox qiymətli amildir. Biz regional stabillik, Avropanın enerji sahəsində gələcəyi, cəmiyyətdə dinlərin tutduğu yer və əlbəttə ki, sülh yolu ilə həll edilməsi hər iki tərəf üçün çox əhəmiyyətli olan və Fransanın da tamamilə bu prosesə qatıldığı Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi apardıq. Biz bütün bu mövzular üzrə ümumi razılıq əldə etdik və mən istərdim ki, bu mövzular bizim ölkələr arasında strateji əməkdaşlıq haqqında razılaşma üçün müzakirələrin başlanğıcı olsun və bu proses bizim diplomatlar tərəfindən davam etdirilsin.

Sizin diplomatiyanızın uğuru olan və bu münasibətlə Sizi təbrik etdiyim Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasında növbəti iki il ərzində yer alması faktı çoxşaxəli siyasətin bütün mövzuları üzrə bizim aramızda əlaqələrin çoxsahəli və intensiv olması imkanı yaratmalıdır. Sizi inandırıram ki, Fransa tam səmimi olaraq hər dəfə münasib bildiyiniz zaman Sizinlə öz təcrübəsini paylaşmaq üçün əlindən gələni edəcəkdir.

Bakıda tikiləcək fransız liseyinin ilk təməl daşını qoymaqla, biz rəmzi olaraq Fransa-Azərbaycan ikitərəfli münasibətlərini möhkəm bünövrə üzərində qurduq və buna görə Sizə təşəkkür edirəm.

Cənab Prezident, əziz İlham, yubileyinizin Sizin və yaxınlarınız üçün ailə səadəti, ölkəniz üçün isə uğur və çiçəklənmənin sinonimi olmasını arzulayaraq, Sizə ən dərin dostluq hörmətimi bildirirəm.

Nikola Sarkozi

Fransa Respublikasının Prezidenti

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ VLADİMİR PUTİNDƏN

Əziz İlham Heydər oğlu!

Anadan olmağınızın 50 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və Azərbaycan Respublikasının rəhbəri kimi məsuliyyətli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Azərbaycan dövlətinin inkişafının sosial-iqtisadi, mədəni sahələrdə sanballı uğurlar qazanılması və beynəlxalq mövqeyinin möhkəmlənməsi ilə əlamətdar olan ən mühüm dövrü bilavasitə Sizin adınızla bağlıdır. Siz öz xalqınızın əsl lideri, onun amal və istəklərinin ifadəçisisiniz. Sizin həm ölkədə, həm də onun hüdudlarından kənarda yüksək siyasi nüfuzunuz şəksizdir.

Səmərəli Rusiya-Azərbaycan əməkdaşlığının inkişafına Sizin şəxsi töhfənizi xüsusi qeyd etmək istərdim. Sizin yaradıcı səyləriniz sayəsində ölkələrimizin tərəfdaşlığı durmadan genişlənir, keyfiyyətcə yeni səviyyəyə çıxır.

Sizinlə ünsiyyətdə olmaq mənə həmişə böyük məmnunluq bəxş edir. Əminəm ki, bizim çoxlu görüşlərimiz və əlaqələrimiz olacaq, onların gedişində biz dost Rusiya və Azərbaycan xalqlarının mənafeyi naminə birgə konstruktiv işimizi davam etdirəcəyik.

Səmimi hörmət və ən xoş arzularla,

Vladimir Putin

Rusiya Federasiyası Hökumətinin sədri

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm!

Sizin rəhbərliyiniz altında öz sanballı iqtisadi potensialının reallaşdırılmasında nəzərəçarpacaq uğurlar qazanmış Azərbaycan ciddi sosial dəyişikliklər həyata keçirir, bənzərsiz mədəniyyətini və milli ənənələri qayğı ilə qoruyub saxlayır. Dövlətin qarşısında duran məsələlərin səmərəli həlli, respublikanın beynəlxalq aləmdə nüfuzunun ardıcıl möhkəmlənməsi Sizə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim reputasiyası qazandırmışdır.

Aramızda yaranmış səmimi şəxsi münasibətləri yüksək qiymətləndirirəm. Bizim konstruktiv səmimiyyət şəraitində keçən müntəzəm təmaslarımız, dinamik inkişaf edən ticari-iqtisadi münasibətlər, mədəni-humanitar mübadilələr, səmərəli regionlararası əlaqələr Rusiya-Azərbaycan strateji tərəfdaşlığının genişlənməsinin mühüm amilləri-

dir. Hər iki tərəfin çoxsahəli ikitərəfli əməkdaşlığı hərtərəfli möhkəmlətmək əzmi sayəsində dövlətlərarası qarşılıqlı əlaqələrin geniş palitrası ilbəil yeni genişmiqyaslı layihələr və təşəbbüslərlə zənginləşir.

Əminəm ki, çoxəsrlik mehriban qonşuluq ənənələrinə əsaslanan Rusiya-Azərbaycan münasibətləri birgə səylərimiz sayəsində bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəkdir. Bu, ölkələrimizin vətəndaşlarının mənafelərinə, Qafqazda və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin təmin edilməsi vəzifələrinə tam cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı arzulayır və dost Azərbaycan xalqı naminə yeni uğurlar diləyirəm.

Sizə və yaxınlarınıza xoşbəxtlik, firavanlıq və uğurlar.

Hörmətlə,

Dmitri Medvedev

Rusiya Federasiyasının Prezidenti

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 24-də Gürcüstan Prezidenti Mixeil Saakaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Mixeil Saakaşvili Prezident İlham Əliyevə anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırmış, ona dövlətçilik fəaliyyətində uğurlar arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Mixeil Saakaşviliyə minnətdarlığını bildirmişdir.

Prezidentlər Azərbaycanla Gürcüstan arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əmin olduqlarını vurğulamışlar.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 24-də Rusiya Federasiyasının Baş naziri Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Vladimir Putin Prezident İlham Əliyevi anadan olmasının 50 illiyi münasibətilə təbrik etmiş, ona dövlətçilik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Vladimir Putinə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı ikitərəfli münasibətlərimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 24-də Ukrayna Prezidenti Viktor Yanukoviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Viktor Yanukoviç dövlətimizin başçısına anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırmış, ona prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.

Dövlətimizin başçısı təbrikə və diqqətə görə Viktor Yanukoviçə minnətdarlığını bildirmişdir.

Prezidentlər Azərbaycanla Ukrayna arasında müxtəlif sahələrdə uğurla inkişaf edən əlaqələrin bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildirmişlər.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Dekabrın 24-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Dmitri Medvedev dövlətimizin başçısını anadan olmasının 50 illiyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.

Prezident İlham Əliyev təbrikə və diqqətə görə Dmitri Medvedevə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulamış, yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əməkdaşlığımızın inkişafı baxımından önəmini qeyd etmiş, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildirmişlər.

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMALİ RƏHMONDAN

Hörmətli İlham Heydər oğlu!

Həyatınızın şanlı tarixi - 50 illik yubileyiniz münasibətilə ürəkdən gələn ən səmimi təbriklərimi qəbul edin.

Bu çox gözəl gündə xüsusi qeyd etmək istərdim ki, Sizin həyat yolunuz, Azərbaycan xalqının səadəti naminə fəal və fədakar əməyiniz ölkəyə hədsiz vicdanla xidmətin parlaq nümunəsidir.

Əminəm ki, Tacikistan ilə Azərbaycan arasında bir çox cəhətdən Sizin fəal mövqeyinizlə təşəkkül tapmış dostluğa və etimada söykənən qarşılıqlı münasibətlər bundan sonra da xalqlarımızın bir-birinə qarşılıqlı hörməti ruhunda inkişaf edəcəkdir.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə firavanlıq və çiçəklənmə arzulayıram.

Səmimiyyətlə,

Emomali Rəhmon

Tacikistan Respublikasının Prezidenti

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMÜHƏMMƏDOVDAN

Hörmətli İlham Heydər oğlu!

50 illik yubileyiniz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi qəlbdən möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik, həmçinin dost Azərbaycan xalqı naminə bü-

tün təşəbbüslərinizdə və istəklərinizdə uğurlar diləyirəm.

Hörmətlə,

Qurbanqulu Berdimühəmmədov

Türkmənistan Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTAR-TASS-IN BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA İTAR-TASS AGENTLİYİ VƏ "ROSSİYA 24" TELEKANALI ÜÇÜN MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İTAR-TASS-ın baş direktorunun birinci müavini Mixail Qusmana İTAR-TASS agentliyi və "Rossiya 24" telekanalı üçün müsahibə vermişdir. AzərTAc həmin müsahibənin mətnini təqdim edir.

- Cənab Prezident, Sizinlə görüşmək imkanına görə çox sağ olun.

İcazə versəniz, söhbətimizi adətən bizim "Hakimiyyət formulu" adlanan proqramın sonunda verilən sual ilə - hakimiyyət haqqında sual ilə başlamaq istərdim. Siz səkkiz ildir ki, hakimiyyətdəsiniz. Hakimiyyətin ləzzətini və onun bütün cəhətlərini artıq bilirsiniz. Bu gün, Prezident vəzifəsində səkkiz il işlədikdən sonra Sizin üçün hakimiyyət nədir və Sizin fikrinizcə, hakimiyyətin hansı alətləri daha vacibdir?

-İlk növbədə deməliyəm ki, mən Prezident hakimiyyətini və gördüyüm işləri xalq qarşısında böyük məsuliyyət və ölkənin taleyi üçün məsuliyyət kimi qəbul edirəm. Prezident respublikalarında bu hakimiyyət yəqin ki, ikiqat məsuliyyətli olmalıdır. Bundan əlavə, hakimiyyət, əlbəttə dövləti qurmaq və yaratmaq, möhkəmlətmək, siyasi təsisatları inkişaf etdirmək, insanların günbəgün daha yaxşı yaşaması üçün şərait yaratmaq imkanı verir. Mən xalqın mənə verdiyi səlahiyyətləri məhz bu baxımdan - böyük məsuliyyət kimi və öz ölkəsi üçün bəlkə hər kəsdən artıq iş görmək imkanı kimi qəbul edirəm. Deməliyəm ki, bu vəzifədə olduğum səkkiz ildə mənim hakimiyyət haqqında təsəvvürlərim dəyişməmişdir. Deyim ki, mən bu qiymətləri özümün prezidentliyimin ilk dövrlərində də söyləmişəm. Bu gün hakimiyyət haqqında bu anlayış məndə yalnız möhkəmlənmişdir.

- Amma hər halda yada salmağa çalışın, bu səkkiz ildə hansı qərarları qəbul etmək Sizin üçün daha çətin olmuşdur, belə qərarlar isə yəqin ki, olmuşdur. Məsələn, hansı qərarların qəbul edilməsi Prezident İlham Əliyevə yuxusuz gecələr bahasına başa gəlmişdir?

-Deməliyəm ki, yuxusuz gecələrim olmamışdır. Dövlətimizin inkişafında mürəkkəb dövrlər olmuşdur. Xüsusən mən Prezident vəzifəsinə seçiləndə mürəkkəb dövr idi, müəyyən qüvvələr şəraitin sabitliyini pozmağa cəhdlər göstərirdi. Prezident seçkilərindən sonra, 2005-ci ildə keçirilən ilk parlament seçkiləri və istər ölkənin daxilində, istərsə də onun hüdudlarından kənarda müəyyən dairələrin sabitliyi pozmağa cəhdləri. Bu iki mürəkkəb dövrdən başqa tarixi prosesin qalan hissəsi kifayət qədər sakit, rəvan keçmişdir. Buna görə də mən elə bir mürəkkəblik hiss etməmişəm.

Qəbul edilmiş mühüm qərarlara gəldikdə isə, mən onların arasında Azərbaycanın strateji inkişafına təsir göstərənləri qeyd etmək istərdim. Bu, ilk növbədə ölkənin regional in-

kişafı proqramıdır. Bu, mənim ilk ciddi siyasi addımlarımdan, təşəbbüslərimdən biri idi. Çünki aydın idi ki, paytaxt ilə regionlar arasında qeyri-mütənasibliyi azaltmaq və tamamilə aradan qaldırmaq zəruridir. Bu proqram konkret maliyyə resursları ilə, əlbəttə, qəbul edilmiş qərarların icrasının idarə edilməsi və onlara nəzarət üzrə çox səmərəli siyasətlə dəstəklənmişdi. Lakin bu proqram dövlətin ümumi inkişafı, Azərbaycanın artıq postsovet ölkəsindən gələcək üçün çox böyük perspektivləri olan, dinamik inkişaf edən ölkəyə rəvan transformasiyasının və strateji inkişafının proqramına çevrildi. Əslində Azərbaycanın bütün gələcək inkişafı məhz 2004-cü ildə qəbul edilmiş bu proqramla müəyyən olunmuşdur.

Əlbəttə, həyat bir yerdə dayanmır və bu gün biz elə layihələr haqqında düşünürük ki, səkkiz il bundan əvvəl onları bəlkə heç xəyala da gətirmək mümkün deyildi. Bu, onu göstərir ki, ölkə irəliyə doğru inkişaf edir. Beləliklə, keçən dövrü mən belə səciyyələndirərdim. Əlbəttə, həm daxili həyatda, həm də xarici siyasət sahəsində qəbul edilməli qərarlar çox idi. Bu illərdə Azərbaycan öz müstəqil fəaliyyət xəttini həyata keçirən ölkə kimi möhkəmlənmişdir. Bu, çox xoşdur, lakin heç də həmişə asan deyil. Buna görə də xarici siyasi təşəbbüslər, ətrafımızda baş vermiş və baş verən hadisələrə münasibət, əlbəttə, dürüst ölçülüb-biçilmiş xarici siyasət kursu, habelə bizim milli mənafelərin qorunmasında kifayət qədər cəsarət tələb edir.

- Siz dəf edilməli çətinliklərdən danışdınız. Amma hər halda hamı etiraf edir ki, Azərbaycanın uğurları çox güclü təsir bağışlayır - sənayedə, iqtisadiyyatda, kənd təsərrüfatında, beynəlxalq aləmdə. Sizin fikrinizcə, bu uğurların rəhni, əsas amili nə olmuşdur? Siz necə hesab edirsiniz, bu uğuru təmin edərkən nəyə güvənirdiniz?

-Şübhəsiz, bu uğurun və bütövlükdə Azərbaycanın bu uğurlu tarixinin rəhni, ilk növbədə siyasi kursun varisliyidir. Mən prezident vəzifəsində işə başlayanda və hətta ondan əvvəl, seçkiqabağı dövrdə elan etmişdim ki, mənə etimad göstəriləcəyi təqdirdə atamın siyasətini davam etdirəcəyəm. Zaman sübut etmişdir ki, bu, yeganə düzgün siyasətdir. Bu siyasət Azərbaycanı hərc-mərclik, nizamsızlıq və faktiki parçalanma dövründən çıxarmışdır. Bu siyasətə sadiqlik yeganə düzgün seçim idi və Azərbaycan xalqı, o cümlədən 2003-cü ildə də bu seçimi dəstəklədi.

Bununla yanaşı, hakimiyyətin varisliyi və rəvan tərzdə keçməsi faktı Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən dəstəkləndi və həm də bu fakt müasir Azərbaycanın tarixində yeni məqam oldu. Buna görə də bu, uğurun əsas rəhni idi. Lakin təbii ki, həyat bir yerdə dayanmır. Yerində saymaq və yalnız bugünkü günlə yaşamaq olmazdı. Buna görə də Azərbaycanın hərtərəfli inkişafı strategiyası işlənib hazırlandı. Qarşıya olduqca iddialı məqsədlər qoyuldu. Birinci mərhələdə onlar bəlkə də həyata keçirilməsi mümkün olmayan, hətta qeyri-real və vaxtından əvvəl müəyyənləşdirilmiş məqsədlər kimi görünürdü. Mən isə belə hesab edirdim ki, məhz əlçatmaz görünən hədəfə daha asanlıqla nail olmaq mümkündür. Ölkənin inkişafının düzgün seçilmiş strategiyası, əlbəttə, Azərbaycandakı şəraitin bütün müsbət və mənfi cəhətləri ilə bərabər, düzgün təhlilinə, habelə dövlətin səmərəli idarə edilməsinə və qəbul olunmuş qərarların həyata keçirilməsinə çox təsirli nəzarətə əsaslanırdı. Əlbəttə, gizli deyil, çox vaxt elə olur ki, düzgün qərarlar qəbul edilir, sonra onlar unudulur, ya da bürokratiya onları bir növ pərdələyir. Buna görə də qərarların qəbul edilməsi, onların yerinə yetirilməsi, nəzarət mexanizmi, ən başlıcası, bizim bütün proqramlar və qərarlar həm maliyyə bazası ilə, həm də reallaş-

dırılma mexanizmi ilə möhkəmləndirilmişdi. Uğurlu inkişaf üçün imkan yaradan da bunlar olmuşdu. Güclü artım prosesi başlanan kimi inersiya qüvvəsi işə düşdü. Yəni, artıq yerlərdən yeni təşəbbüslər irəli sürülməyə başlandı, onlar bizim proqramları tamamlayır, gücləndirirdi. Cəmiyyətdə tamamilə nadir quruculuq ruhu yaranmışdı, hər bir vətəndaş öz sahəsində, öz həyətində, öz küçəsində həyatı daha yaxşı və daha gözəl etməyə çalışır. Bax, bu cür ictimai ruh yüksəkliyi bizə çox kömək edir. Əvvələn, biz bütün təşəbbüslərimizin dəstəklənməsini hiss edirik, digər tərəfdən, bu proseslərdə bütün cəmiyyətin iştirakı olmadan uğur qazanmaq mümkün deyil. Düşünürəm ki, mənim qeyd etdiyim bu strateji istiqamətlər bu gün belə deməyə imkan verir ki, Azərbaycan həqiqətən çox dinamik və səmərəli inkişaf edir.

- Siz Azərbaycanın beynəlxalq aləmdə uğurunu xatırlatdınız. Bu yaxınlarda Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, çox böyük nailiyyətdir. Özü də çox dramatik, bir neçə turdan ibarət mübarizə gedirdi - məncə 16 tur oldu. Azərbaycana azarkeşlik edənlərin hamısı bu mübarizəni onlayn rejimdə izləyirdi. Lakin reputasiya hissəsindən əlavə, praktiki baxımdan Siz Azərbaycanın Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi vəzifələrini, imkanlarını nədə görürsünüz?

-Əvvələn, deməliyəm ki, bu qələbə müstəqil Azərbaycanın bütün tarixi ərzində bəlkə də ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir. Bu qələbə bizim həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyümüz bütün işləri əks etdirir. Müstəqilliyin 20 ili ərzində biz buna nail olmuşuq ki, 155 ölkə, sizin dediyiniz kimi, gərgin mübarizədə bizim namizədliyimizi dəstəkləmişdir. Lakin deməliyəm ki, Azərbaycan bu mübarizədə ilk turdan başlayaraq liderlik edirdi və bütün mərhələlərdə böyük fərqlə irəlidə gedirdi. Nəticədə biz beynəlxalq birliyin çox böyük dəstəyini qazandıq. Məhz beynəlxalq birliyin - çünki yalnız bu cür format elə dünya birliyi, beynəlxalq birlik deməkdir. Bu, çox böyük siyasi qələbə, diplomatik qələbə, çox böyük məsuliyyət, həm də ölkəmizə, siyasətimizə hörmətin ifadəsidir.

Açığını deyim ki, bu 155 ölkənin heç də hamısı ilə bizim çox fəal münasibətlərimiz yoxdur. Əksəriyyəti ilə var, lakin bəzi ölkələr sadəcə olaraq bizə inanmış və etimad göstərmişdir. Onlar inanmışlar ki, Azərbaycan Təhlükəsizlik Şurasında və bütövlükdə xarici siyasətdə müstəqil xətt yeridəcəkdir. Onlar inanmışlar ki, biz orada ədalət ideallarını müdafiə edəcəyik. Mənim fikrimcə, ilk növbədə buna çox böyük zərurət var - bugünkü aləmdə ədalət və beynəlxalq hüquq ideallarını müdafiə etmək lazımdır. Əlbəttə, bu məsuliyyət bizim üzərimizə yeni funksiyalar qoyur. Bu, ilk təcrübədir, biz hələ başlamamışıq, biz yenicə hazırlaşırıq. Əminəm ki, sizin dediyiniz kimi, reputasiya, imic xarakterindən əlavə, bizim Təhlükəsizlik Şurasında üzvlüyümüzün praktiki səmərəsi olacaqdır. Özü də təkcə ölkəmizin maraqlarını təmin etmək üçün yox. Hərçənd, əlbəttə, biz çalışırıq ki, qarşıdakı iki ildən maksimum səmərə ilə istifadə edək, maraqlarımızı, o cümlədən bizim üçün ən mürəkkəb və çətin məsələdə - Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində maraqlarımızı təmin edək. Əlbəttə, biz bu mövzunu daim Təhlükəsizlik Şurasının diqqət mərkəzində saxlayacağıq. Lakin biz həm də qlobal miqyasda sülhün, təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsi işinə töhfəmizi verməyə çalışacağıq. Bu gün beynəlxalq birliyin bu yeri bizə etibar etməsi faktının özü ona dəlalət edir ki, Azərbaycan dünyada baş verən qlobal proseslərə töhfə verən və daha çox töhfə verə biləcək bir ölkə kimi qəbul edilir.

- Siz, mənim başa düşdüyümə görə, ən ağrılı problemə - Dağlıq Qarabağ probleminə toxundunuz. Siyasi problemlərin, əlbəttə, həlli tələb olunan mürəkkəb düyününə. Sizin fikrinizcə, bu, ipləri bir-bir dartmaqla açmaq mümkün olan düyündür, yaxud kəsib doğramaq mümkün olan qordi düyünüdür?

-Siz öz sualınızda diqqəti məhz mövcud yollar üzərində çox düzgün cəmləşdirdiniz. Doğrudan da yalnız iki yol vardır. Sizin dediyiniz yol beynəlxalq hüquqa əsaslanan qarşılıqlı məqbul həll tapmaq cəhdidir. Ya da yenə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində başqa vasitələrdən istifadə edilməlidir. Azərbaycan buna çox ciddi tərəfdardır. Üçüncü yol yoxdur və bunu hamı başa düşməlidir - həm qarşı tərəf, həm də, əlbəttə, əminəm ki, vasitəçilər də bunu başa düşürlər. Üçüncü yol - staqnasiya, konservasiya, dondurulma yoludur. Bu, mümkün deyil və elə şey yoxdur. Bu gün biz Minsk qrupunun həmsədr ölkələrinin, - bunlar isə Təhlükəsizlik Şurasının üç daimi üzvüdür, - rəhbərlərinin ən yüksək tribunalardan çıxışlarında eşitdiyimiz status-kvonun qəbuledilməz olması və onun dəyişdirilməməsi barədə fikirlər belə ümid doğurur ki, siyasi tənzimləmə yolları vardır. Biz bu yolun tərəfdarıyıq. Əks halda Azərbaycan 20 ilə yaxın müddətdə, 1992-ci ildən danışıqlar prosesində olmazdı. Münaqişənin tənzimlənməsi yolları beynəlxalq hüquq müstəvisindədir. Bizim indi iştirak edəcəyimiz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi təmin edilməlidir. Bu cür dörd qətnamə vardır. Onlar Ermənistanın işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri vardır. Onların hamısı eyni şeyi tələb edir - Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bu, bizim suveren hüququmuzdur, dövlətimizin ərazi bütövlüyünün siyasi vasitələrlə deyil, açıq deyək, hərbi vasitələrlə bərpa edilməsi də bizim suveren hüququmuzdur. BMT Nizamnaməsinə uyğun olaraq bizim belə hüququmuz vardır. Biz sadəcə olaraq bundan istifadə etmək istəmirik. Ümid edirik ki, sağlam düşüncə qalib gələcək, Ermənistan tərəfi, nəhayət qəti başa düşəcəkdir ki, münaqişə tənzimlənməsə onların bu regionda olması getdikcə mürəkkəbləşəcəkdir. Biz həm də vasitəçilərin - Minsk qrupunun, həmsədrlərin səylərinin fəallaşacağına, münaqişənin mümkün qədər tezliklə həll edilməsinə və vətəndaşlarımızın öz torpaqlarına qayıda biləcəyinə ümid edirik.

-Siz dediniz ki, lap əvvəldən öz siyasətinizin əsas xətlərindən biri olan regional siyasəti seçmisiniz. Siz ölkədə çox səfərdə olursunuz. Mənim fikrimcə, Siz hər həftə regionların birində, uzaq kəndlərdə, sənaye obyektlərində, humanitar sahəyə aid obyektlərdə olursunuz. Bunu hamı görür. Mən başa düşürəm ki, bu regional siyasətə neft rentası kömək edir. Bu, aşkardır. Amma hər halda indiki mərhələdə, regionların diqqətə ehtiyacı olduğu, qarşıda isə yeni məqsədlər durduğu bir vaxtda magistral hədəf, strateji xətt nədən ibarətdir?

-Çox qısa desək, bu, Azərbaycanı tam transformasiya etmək və onu inkişaf etmiş ölkəyə çevirməkdir. Yəni, bizim qarşımızda duran məqsəd budur. O, olduqca çoxşaxəlidir, bütün sahələri əhatə edir. Bizim həyata keçirdiyimiz modernləşmə də məhz bütün sahələri əhatə edir. İqtisadiyyat öz yerində, Azərbaycan iqtisadi inkişaf üzrə böyük uğurlar qazanmışdır və bütün aparıcı beynəlxalq iqtisadi qurumlar bunu etiraf edir. Siyasi transformasiya da belədir. Əgər siyasi islahatlar iqtisadi islahatlardan geri qalarsa, biz inkişaf etmiş ölkə ola bilmərik. Buna görə də məqsədimiz siyasi və iqtisadi islahatları paralel ola-

raq həyata keçirmək, regionda, habelə qlobal miqyasda, dünyada qonşularımızla əlaqələri möhkəmlətməkdir.

Bunun üçün bizim imkanlarımız vardır. Son səkkiz ildə biz iqtisadiyyatı üç dəfə artıra bilmişik, ÜDM 300 faiz artmışdır. Bunlar onu göstərir ki, potensial vardır. Bu gün bizim qarşımızda başqa məsələlər durur. Əlbəttə, neft amili bizə çox kömək etmişdir. Lakin bu da bizim xidmətimizdir. Axı, çox ölkələrin nefti vardır. Nefti bizdəkindən qat-qat çox olan ölkələr də çoxdur. Lakin resurslardan düzgün istifadə edilməsi, xalqın sərvətinin ədalətli bölgüsü, habelə vəsaitlərin xərclənməsində və akkumulyasiyasında maksimum şəffaflıq elə vəziyyətə nail olmağa imkan vermişdir ki, valyuta ehtiyatlarımız ilbəil artır və 8 ildə yoxsulluq səviyyəsi 5 dəfə azalaraq 49 faizdən 9 faizə düşmüşdür. Yəni, neft amili bu gün sabitləşdirici amildir, lakin artıq, məsələn, beş il əvvəl olduğu dərəcədə əhəmiyyətli deyildir. Bu gün müasir texnologiyaların inkişafı, informasiya-kommunikasiya texnologiyaları sahəsi prioritetdir. Gələn il biz Azərbaycanın ilk telekommunikasiya peykini buraxacağıq. Biz kosmik sənaye yaradırıq. Yəni, biz bəzilərinin fikrincə, Azərbaycanın baxmalı olduğundan çox-çox uzağa baxırıq. Bizim planlarımız kimlərinsə düşünə biləcəyi kimi Azərbaycanın malik olduğu imkanlardan bəlkə də qat-qat geniş və əhatəlidir. Qlobal mənada bu, yüksək həyat səviyyəsinə, inkişaf etmiş sənayeyə və regionda daha da möhkəmlənmiş mövqelərə malik olan müasir, dinamik inkişaf etmiş ölkədir.

- Zənnimcə, ölkənin uğurla inkişaf etməsi üçün daxili aləm çox vacibdir. Azərbaycan ənənəvi olaraq multimilli, multimədəni ölkədir. Hərçənd multikulturalizm mövzusunun özü siyasi lüğətdə 25 il əvvəl yer almışdır. Elə bu yaxınlarda Sizin həmkarlarınız Kansler Merkel, Prezident Sarkozi, - bir az əvvəl Hollandiyanın Baş naziri Ryutte ilə söhbət etmişəm, - onların hamısı əlbir olub multikulturalizm anlayışının özünü "dəfn" etməyə başladılar. Sizcə, bu anlayışdan imtina etməyin vaxtı nə dərəcədə çatmışdır? Ümumiyyətlə, multikulturalizm Azərbaycana nə dərəcədə xasdır?

- Bizim üçün bu, yüz illər, min illər boyu təşəkkül tapmış təbii mühitdir. Müasir Azərbaycanın ərazisində həmişə müxtəlif dinlərə etiqad edən müxtəlif etnik mənşəli insanlar yaşamışlar. Bütün tariximiz ərzində ictimai-siyasi vəziyyətdən və ya yaşadığımız quruluşdan asılı olmayaraq ölkəmizdə məskunlaşan xalqlar arasında həmişə sülh olmuşdur. Bu, Azərbaycan Rusiya imperiyasının bir hissəsi olmamışdan əvvəl də, həmin dövrdə də, Sovet İttifaqı zamanında da belə idi və müasir dillə desək, multikulturalizmin həmin ənənələri müstəqillik dövründə daha da möhkəmlənmişdir. Yəni bu, bizim üçün təbii həyat tərzidir və biz bunu başqa cür təsəvvür etmirik. Sadəcə, müəyyən mərhələdə başa düşdük ki, bu, heç də hər yerdə belə deyildir və çox təəccübləndik. Yəqin ki, elə bu məqsədlə, bunun mümkünlüyünü göstərmək üçün biz müxtəlif beynəlxalq tədbirlər təşəbbüsü ilə çıxış etdik. Azərbaycanda dünya dinlərinin liderlərinin zirvə görüşü böyük müvəffəqiyyətlə keçdi. Rusiya-Azərbaycan Humanitar Forumu çox böyük uğurla keçdi və bu yaxınlarda keçirilən Beynəlxalq Humanitar Foruma çevrildi. Bütün bu tədbirlər gözdən pərdə asmaq üçün keçirilmir, onların böyük praktiki əhəmiyyəti və mütərəqqi ictimaiyyətin multikulturalizmə təbii yaşayış mühiti kimi baxan hissəsinin səylərini birləşdirmək əhəmiyyəti vardır.

Əgər Azərbaycan tarixinə nəzər salsaq, - dünyada belə ölkələr az deyildir, - birmənalı

şəkildə deyə bilərəm ki, multikulturalizm yaşayır. Belə hesab edirəm ki, Azərbaycan yalnız onun daha məşhur ünvanlarından biridir. Digər tərəfdən, bu prosesləri və sizin danışdığınız məsələni - Avropa ictimaiyyətinin həmin proseslərdə iştirakının müəyyən məyusluq doğurduğunu təhlil edərkən soruşmaq lazımdır ki, "bəs alternativ nədir?". Multikulturalizmin alternativi varmı? Əgər onu "dəfn" edirlərsə, deməli, alternativ olmalıdır. Bəs bu hansı alternativdir? Əgər bu, multikulturalizm deyilsə, bəs nədir? Əgər məntiqi düşünsək, deməli, özünütəcriddir. Deməli, ictimaiyyətin qəbul etmədiyi müxtəlif dinlərin, xalqların nümayəndələrinin deportasiyası, rədd edilməsidir. Bu, heç bir yerə aparmayan yoldur. Bu yol çox təhlükəlidir. Təəssüf ki, bəşəriyyət tarix boyu, o cümlədən XX əsrdə belə səhv siyasətin və mən deyərdim ki, cinayətkar diqqətsizliyin, yaxud da irqi, etnik və dini zəmində ədavət toxumlarının şüurlu şəkildə səpilməsinin nəticələri ilə üzləşmişdir. Bu, çox təhlükəli meyildir. Hesab edirəm ki, humanitar xarakterli beynəlxalq tədbirlərin məhz Bakıda və əlbəttə ki, digər yerlərdə keçirilməsi ona gətirib çıxaracaqdır ki, bizim kimi multikulturalizmin yaşadığını, onu qorumaq, müdafiə və çox təbliğ etmək lazım gəldiyini düşünən insanların siyasi elitada çox olmasına və bunun ictimai şüurda üstünlük təşkil etməsinə kömək edəcəkdir. Ona görə də bəzən, deyək ki, multikulturalizmin qəbul edilməməsi üzrə siyasi təşəbbüslər ictimaiyyət tərəfindən qəbul edilməmək kimi inspirasiya olunur. İctimaiyyət tərəfindən qəbul edilməmə öz növbəsində bəzi kütləvi informasiya vasitələri tərəfindən təbliğ olunur. Həmin KİV-lər xeyirxahlığı təbliğ etmək əvəzinə, irqi dözümsüzlüyü, nifrəti, müxtəlif fobiyaları təbliğ edir. Bu, çox təhlükəli yoldur. Tarixən, əsrlər boyu təşəkkül tapmış multimədəni, çoxmillətli, çoxkonfessiyalı bir ölkə olan Azərbaycan üçün belə təhlükəli meyillər, sadəcə, milli təhlükəsizliyimizə təhdiddir. Əlbəttə, dünyada nələr baş verdiyinə baxmayaraq, biz həm öz siyasətimiz, həm də təşəbbüslərimizlə həmin proseslərdə Azərbaycanda multikulturalizmi möhkəmləndirəcəyik. Çalışacağıq ki, ölkəmizdə bütün dinlərin və etnik qrupların nümayəndələri bundan sonra da özlərini vahid ailə kimi hiss etsinlər, mehribanlıq, qardaşlıq və qarşılıqlı anlaşma şəraitində yaşasınlar. Yenə də təkrar edirəm ki, bizim üçün bu, təbii yaşayış mühitidir və qoruyacağımız dəyərlərimizdir.

- Müstəqil Azərbaycanın 20 illiyidir. Bu, çox böyük hadisədir. Bütün ölkə tərəfindən təntənə ilə qeyd edilmişdir. Lakin tarixi planda, əlbəttə, bir göz qırpımıdır. Sizcə, müstəqil Azərbaycanın hansı dövlət təsisatlarını möhkəmləndirmək, inkişaf etdirmək tələb olunur. Sirr deyildir ki, kimsə bir dövlət mexanizmində, fərz edək, korrupsiyanın, digərində süründürməçiliyin baş alıb getməsindən şikayətlənir. Bütün bunlar gənc dövlət üçün bir növ normal haldır. Ölkədə real dövlət hakimiyyəti təsisatlarının möhkəmləndirilməsi vasitələri, yolları haradadır?

- Hər şey siyasi iradədən və qəbul edilən qərarların düzgünlüyündən asılıdır. Əgər siyasi iradə varsa, hər şeyə nail olmaq mümkündür. Ölkəmizə gəldikdə isə axı, 20 il əvvəl Azərbaycanın inkişaf yollarını əvvəlcədən görmək mümkün deyildi.

- Xaotik idi.

- Tamamilə doğrudur. Müstəqilliyin ilk illəri hamımızın yaddaşında faciəli illər, itkilər, müəyyən mənada milli rüsvayçılıq illəri kimi qalmışdır. Yəni, müstəqilliyimizin ilk iki ilində, təəssüf ki, hakimiyyətdə olanlar bütün bu məsuliyyəti başa düşməmiş və bəlkə də başa düşmək istəməmişlər, əslində, ölkəmizi fəlakətə, demək olar, parçalanmaya

doğru sürükləmişlər. Heydər Əliyevin ölkəyə başçılıq etdiyi 1993-cü ildən Azərbaycanın davamlı inkişafı başlanmışdır. Lakin elə o vaxt da ölkənin necə inkişaf edəcəyi əhalinin böyük əksəriyyətinə bəlkə də aydın deyildi. Onda yollar və seçimlər olduqca çox idi. Azərbaycan hansı yolla gedəcəkdir? Azərbaycan necə bir ölkəyə çevriləcəkdir? Məhz siyasi təsisatların təşəkkülünə, siyasi sistemin yaradılmasına, demokratik təsisatların, bazar iqtisadiyyatının möhkəmləndirilməsinə söykənən düzgün strateji seçim və müasir inkişaf, əslində, bu gün ona gətirib çıxarmışdır ki, Azərbaycan artıq dünyada daha dinamik inkişaf edən ölkə kimi qəbul edilir. Növbəti 20 il üçün qarşıda duran vəzifələr bundan ibarət olacaqdır ki, dediyim kimi, bu müsbət təcrübəyə əsaslanan inkişaf etmiş dövlət yaradaq. Demokratikləşmə, şəffaflıq, qanunun aliliyi olmadan inkişaf etmiş ölkə yaratmaq qeyri-mümkün olacaqdır. Əlbəttə, Azərbaycanın iqtisadi potensialı, təbii ehtiyatları, insan potensialı və coğrafi vəziyyəti elədir ki, siyasi yolun seçimindən asılı olmayaraq, Azərbaycan həmişə inkişaf edəcəkdir. Buna heç bir şübhəm yoxdur. Lakin məsələ bundadır ki, necə? Hansı sürətlə? Biz bu inkişafın nəticəsində nə əldə edəcəyik? Mən ölkəmizi qanunun aliliyinin bərqərar olduğu, çox güclü sosial siyasəti, inkişaf etmiş iqtisadiyyatı və regionda möhkəm mövqeləri olan müasir və demokratik bir ölkə kimi görürəm. Dediklərimin böyük hissəsi artıq əldə edilmişdir. Lakin, necə deyərlər, təkmilləşmə sərhəd tanımır. Gözümüzün qarşısında inkişaf etmiş ölkələrin müsbət təcrübəsi vardır və əlbəttə, biz bu təcrübəni öyrənirik, lazım gəldikdə tətbiq edirik. Açığını deyim ki, kor-koranə istifadə etmirik, məhz bizə uyğun gələni və doğru saydığımızı tətbiq edirik. Buna görə də əminəm ki, yaxın perspektivdə qarşıya qoyduğumuz məqsəd və vəzifələr həyata keçiriləcəkdir. Əgər 8 ildə ümumi daxili məhsulun üç dəfə artırılmasına nail olmuşuqsa, indi artıq üçqat artırılmış ÜDM-i 2013-2023-cü illərdə iki dəfə artırmaq vəzifəsini qarşımıza qoyur və ona hazırlaşırıq. Yəni, bu vəzifə artıq qarşıya qoyulmuşdur. Hazırda hökumətdə həmin vəzifənin konsepsiyasının hazırlanması və həyata keçirilməsi istiqamətində iş gedir. Əgər üçqat artırılmış ÜDM-i iki dəfə artırmaq kimi iddialı bir vəzifə qarşıya qoyulursa, onda həm ehtiyatlar, həm vasitələr, həm elmi fikir, həm də intellektual potensial - hər şey bu vəzifəyə uyğun səfərbərliyə alınır. Odur ki, belə gözəl iqtisadi göstəricilərə malik olduğumuz halda, biz siyasi sistemin transformasiya edilməməsini özümüzə rəva görə bilmərik və biz bunu edirik. Axı, Azərbaycan 10 il əvvəl Avropa Şurasına təsadüfən daxil olmamışdır. Axı, həmin quruma daxil olanda başa düşürdük ki, bu, üzərimizə böyük məsuliyyət qoyur və biz sərt tənqid atəşinə məruz qalacağıq.

- Avropa baxışı altında...

- Bəli, monitorinq ilə və bu tənqid heç də həmişə xoş, heç də həmişə ədalətli deyildir. Biz buna şüurlu surətdə getdik. Bu təşkilatın üzvü olmayan çox ölkələr vardır, lakin bu, onların seçimidir. Biz ölkəmizi transformasiya etmək istəyirik. İstəyirik ki, həm ictimai şüurun səviyyəsi, həm də mövcud tarixi təcrübə siyasi sistemin bizim düşündüyümüz meyarlarına cavab versin. Çünki Azərbaycan müsəlman Şərqində demokratik respublika qurmuş, demokratik parlament yaratmış, bir çox Avropa ölkələrindən xeyli əvvəl qadınlara seçmək hüququ vermiş ilk ölkədir. Yəni ölkəmizdə müasirlik və maarifçilik ənənələrinin dərin kökləri vardır. Biz müasir dövlətimizi bu baza üzərində qururuq və onu mütləq quracağıq.

- Azərbaycan müstəqilliyinin 20 illiyini "Eurovision"da qazandığı böyük uğurla bayram

etdi. Bu, həqiqətən böyük qələbə idi. Həmin gecə, demək olar, bütün gənclərin küçəyə axışdığını müşahidə etmək olardı. Yeri gəlmişkən, elə Moskvada da gənclər - Azərbaycandan olan tələbələr bayram edirdilər. Əlbəttə, belə hadisələr cəmiyyəti çox birləşdirir. Onlar ölkəyə bayram gətirir və bir növ əhval-ruhiyyəni daha da yaxşılaşdırır. Belə hadisələr nə dərəcədə vacibdir. Axı, prinsipcə, heç nə göydən düşmür, bu, böyük zəhmətin nəticəsidir. İnsanları birləşdirən belə bayramları, hadisələri yaratmaq üçün hazırda hansı istiqamətlərdə işlər aparılır?

- Bilirsiniz ki, bu, həqiqətən də böyük qələbədir. Bu, ilk növbədə Azərbaycanın tanınmasıdır. Mənə çox xoşdur ki, ictimai səsvermənin nəticələri bizim üçün daha əlverişli olmuşdur. Çünki bildiyiniz kimi, "Eurovision"da qələbə iki komponentdən - münsiflər heyətinin səs verməsindən və ...

- Demək olar, bütün tamaşaçıların səs verməsindən asılıdır.

- Bəli. Yəni, bütün Avropa bizə səs vermişdir. Demək olar, bütün Avropa. Biz böyük fərqlə qalib gəldik. Bu, olduqca vacib məqamdır. Əlbəttə, bu, bizim ifaçıların qələbəsidir. Gözəl mahnı, gözəl ifa və ifaçılarımızın obrazı - məhz gənc, müasir dövlətimiz kimi müasir, gənc obraz. Lakin eyni zamanda, həmin qələbə burada, əlbəttə, daha geniş mənada qələbə kimi qəbul edilir. Heç şübhəsiz, belə qələbələr birləşdirir.

Deməliyəm ki, biz, əslində, hər ay qələbələr əldə edirik. Lakin bəzən onlar görünmür, çünki cüzi və ya quru, cansıxıcı statistik məlumatların arxasında gündəlik həyatımızda ölkənin inkişafında nail olduğumuz böyük qələbələr dayanır. Lakin elə qələbələr də var ki, onları hamı görür. İndiki halda musiqi müsabiqələrində qələbələrin, əlbəttə, xüsusi əhəmiyyəti vardır. Mən, həmçinin idmandakı qələbələri qeyd edərdim. Burada idmançılarımızın hər bir qələbəsi böyük milli bayrama çevrilir. Bizim Olimpiya çempionlarımız, dünya çempionlarımız vardır. Bizdə hər bir idman qələbəsi cəmiyyətdə müsbət emosional təkan yaradır. Həmçinin BMT-nin Təhlükəsizlik Şurasına seçilməyi qeyd edərdim. Çünki iqrisadiyyatdakı qələbələri də təbii ki, idmandakı kimi olmasa da, amma hər halda həm görmək və toxunmaq, həm də ailə büdcəsində hiss etmək olar. Lakin xarici siyasətdə bu, gözdən sanki daha uzaqdır. Mən həmişə deyirəm ki, Azərbaycan milli mənafeyə söykənən olduqca səmərəli, çevik xarici siyasət yeridir. Təbii ki, bunlar arxasında çox işlərin dayandığı sözlərdir. Lakin Təhlükəsizlik Şurasına seçilmək həm ölkə daxilində, həm də xaricdə hamıya göstərdi ki, bu, bizim layiq olduğumuz qələbədir. Təhlükəsizlik Şurasına seçilmək Azərbaycanın necə bir ölkə olduğu barədə bütün dünyaya siqnaldır. Bir çoxları üçün bu qələbə gözlənilməz oldu. Ancaq bizim üçün yox. Biz buna inanırdıq və əmin idik. Odur ki, belə əlamətdar hadisələr, heç şübhəsiz, birləşdirir, müsbət enerji verir. Lakin həyatda olduğu kimi, belə enerjinin ömrü də çox qısadır. Onu vaxt məhdudlaşdırır.

- Yeni qələbələr tələb olunur.

- Əlbəttə, dünya çempionatında və ya Olimpiya oyunlarında qələbədən sonra bir-iki həftə, bəlkə də bir ay ərzində eyforiya yaşanır, sonra hər şey normal həyata qayıdır. Belə qələbələr cəmiyyətin birləşməsi üçün vacibdir, lakin barəsində danışdığım qələbələr heç də az əhəmiyyətli deyildir. Bu, gündəlik, həftəlik, aylıq zəhmətdir. Yeni yol, yeni məktəb, süni peyk, yeni qaz kəməri və sair və ilaxır. Yəni, əslinə baxanda, elə bu qələbələr haqqında danışdığımız görünən, necə deyərlər, əks-sədalı, əlamətdar qələbələrə

aparır.

- Cənab Prezident, Sizə bir neçə şəxsi sual da vermək istərdim. Burada bir qovluq var. Düşünürəm ki, Siz bunu heç vaxt görməmisiniz, halbuki bütünlüklə Sizə həsr olunub. Bu, tələbə Əliyev İlham Heydər oğlunun şəxsi işidir.

- Bəli, maraqlıdır.

- Düşünmürəm ki, Siz bunu nə vaxtsa görmüsünüz.

- Bu, məxfi sənəddir?

- Məxfi deyildir. Mən onu söhbətimiz üçün Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Vasili Torkunovdan iki günlüyə xahiş edib götürmüşəm. O, bunu mənə verdi. Mən onunla tanış olmuşam. Burada Sizin barənizdə maraqlı, bütövlükdə müsbət olan çox şeylər vardır. Qəbul olunmaq haqqında əmrdən tutmuş Sizə MDBMİ-nin məzununun müvafiq ixtisasının verilməsi barədə əmrədək. Maraqlı sənədlər, arayışlar, şərhlər çoxdur. Siz bilirsiniz ki, MDBMİ-də hər bir kursdan sonra xüsusi attestasiya verirdilər. Ümumiyyətlə, Sizi həmişə tərifləyirlər, tərifləmişlər. Açıq deyirəm. Burada diqqət yetirdim ki, birinci kursda müəllimləriniz Sizin dərslərdən qaçdığınızdan şikayətlənirlər. Bununla belə, qiymətlər yaxşıdır, dərslərdən isə qaçırdınız. Ona görə də Sizə belə bir sadə sualım vardır. Tələbə İlham Əliyev Moskvada MDBMİ-nin hələ köhnə binasından hara qaçırdı? Birinci kurs tələbəsinin qaçıb getdiyi o sirli yerlər hara idi?

-Lakin qeyd etdiyiniz kimi, bu, yalnız birinci kursda olmuşdur.

- İkinci kursda daha yaxşıdır. Düzünü deyirəm, burada hər şey yazılmışdır. Burada rəsmi sənədlər, möhürlər, imzalar, müəllimlərin soyadları vardır.

- Özünüz düşünün. Bakıda, məktəbdə oxuyan gənc üçün...

- 6 nömrəli məktəbdə. Burada, yeri gəlmişkən, Sizin attestatınız vardır. Orada yalnız fizikadan dörddür, qalanları beşdir.

- Mən yaxşı oxuyurdum.

- Yaxşı, şikayətlənmək günahdır. Çünki əgər bu sənədlər pedaqoji sənədlər olmasaydı, mən sadəcə gülərdim. Lakin bunlar əsl pedaqoji sənədlərdir və oradakı qiymətlərin hamısı yaxşıdır...

- Baxın, indi mən əsaslandırmaq istəyirəm. Hərçənd düzünü desəm, tez-tez qaçdığımı bir o qədər də xatırlamıram. Lakin...

- Yox, burada var. Rəsmi surətdə, açıq-aydın. Hətta rəy də vardır. Bir neçə dərs buraxmısınız.

- O vaxt deyildiyi kimi, fakt toplamaq.

- Lakin yaxşı sözlər danışırlar. Xasiyyətcə şən, yumor hissinə malik, ünsiyyətcildir, qrupun hörmətini və məhəbbətini qazanmışdır, ictimai işləri yaxşı yerinə yetirir. Burada hər şey yazılmışdır.

- Zənnimcə, 10 il Bakıda, 6 nömrəli doğma məktəbdə oxuyan, atası Azərbaycan Kom-

munist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan gənc insanın Moskva kimi gözəl və böyük bir şəhərdə yeni mühitə düşərək, xüsusən, birinci kursda görməli yerlərlə tanışlıq üçün öz vaxtından maksimum istifadə etməsi tamamilə təbiidir.

- Yeri gəlmişkən, bir detalı qeyd etmək istəyirəm. Burada Sizin əlinizlə doldurulmuş bir anket var. Siz doğru dediniz ki, o vaxt Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi idi. Lakin Siz onun birinci katib olduğunu yazmırsınız. Siz yazırsınız: Azərbaycan KP MK-da işləyir. Onun MK-da birinci şəxs olmasını heç xatırlatmırsınız.

-Elədir, ümumiyyətlə, mən həmişə bu məsələni qabartmamağa və özümü maksimum sadə aparmağa çalışmışam. Lakin sizin qeyd etdiyinizdən belə başa düşdüm ki, bu hadisə MDBMİ-nin köhnə binasında olmuşdur...

- Bəli, Moskvanın mərkəzində.

-Yəqin onda başa düşmək çətin deyil mən hara qaçırdım. Bilirsiniz ki, Qorki adına mədəniyyət və istirahət parkı yolun o tərəfində yerləşir. Biz də oraya....

- Yəni, ora Moskvada sevimli yer idi.

-Bəli, bu, instituta ən yaxın yer idi...

- Oraya qaçmaq olardı.

-Oraya qaçmaq və qayıtmaq olardı. Buna görə sağ olun.

- Lakin bu, hədiyyə deyil. Mən onu qaytarmalıyam, qol çəkib götürmüşəm.

-Başa düşürəm ki, siz bunu qaytaracaqsınız, amma heç olmasa verin baxım.

- Burada ciddi şərhlər var. Burada hətta Sizin fotoşəkillərniz də var. Bilirsinizmi, mən bu sualı Sizə hədər yerə vermədim. Bilirdim ki, gənclik illəriniz yaddaşdan silinməyib. Əlbəttə, bu gün gənc nəsil başqadır. O, kompyuter gəncliyi, internet gəncliyidir - başqadır. Siz kifayət qədər gəncsiniz, bu mənada ki, həmin gənc nəsli yaxşı xatırlayırsınız, bugünkü gənc nəsli də görürsünüz. Sizin fikrinizcə, bugünkü gənc nəsli Sizin gənclik illərinizlə müqayisə etsək, onun müsbət və mənfi cəhətləri nədədir?

-Əvvələn, deməliyəm ki, müqayisə etmək mənim üçün yəqin çətin olacaqdır. Ona görə ki, bu gün verdiyim qiymət artıq mənim təcrübəmə əsaslanır. O vaxt baş verənlərə gəldikdə isə, təbii ki, mən özüm indi haqqında nəsə deməli olduğum həmin gəncliyin bir hissəsi idim. Lakin çalışaram ki, maksimum obyektiv olum. Mən belə hesab edirəm ki, indiki gənclik, əlbəttə, daha müstəqil, daha motivasiyalı və daha peşəkardır. Bizim ölkədə baş verənlərə əsasən görürəm ki, indiki gənclərin uğur qazanmaq arzusu çox böyükdür. Onlar tamamilə başa düşürlər ki, bu, yalnız yaxşı təhsil olduqda mümkündür. Artıq diplom, yaxud hansısa sertifikat, yaxud hansısa qohumluq əlaqələri həmişə kömək edə bilmir. Yəni, əgər sənin potensialın yoxdursa, əgər sən peşəkar deyilsənsə həyatda çətin olacaqdır. Əgər sən istedadlısansa, yaxşı qabiliyyətlərin, vərdişlərin vardırsa, yaxşı oxumusansa, onda təbii ki, yerini tapacaqsan və yaxşı yaşayacaqsan. Zənnimcə, bu anlayış hələ o vaxt bizim gənclərdə yox idi. Əlbəttə, o vaxt da oxumaq istəyənlər vardı. Lakin elələri də vardı ki, onlar sadəcə diploma sahib olmaq istəyirdilər ki, anketlərində bu yazılsın. Sonrası isə artıq heç kəsi maraqlandırmırdı.

Həm də düşünürəm ki, indiki gənclər daha vətənpərvərdir. Bu, təbiidir, çünki Azərbaycanın indiki gəncləri müstəqillik şəraitində yaşayır və böyüyür, onlar müstəqil Azərbaycan dövlətinin bir hissəsidir. Mənə çox xoşdur ki, bu belədir. Bu da mənə çox xoşdur ki, qloballaşmaya, bütün yeni fikirlərə baxmayaraq, bizim gənclər öz köklərinə çox bağlıdır. Mənə xoşdur ki, bizim gənclərin əsas hissəsi, böyük əksəriyyəti Azərbaycan musiqisini dinləyir. Yəqin ki, bu çox mühüm göstəricidir. Bu gənclər Azərbaycan xalqının ənənələri, mənəvi dəyərlərimiz, mədəniyyətimiz, tariximiz əsasında tərbiyə olunmuşlar. Yəni, mən deyərdim ki, bizim gənclərin milli ruhu çox güclüdür. Bu mənə çox xoşdur və mən Prezident olaraq bu milli ruhun daha da möhkəmlənməsi üçün hər şeyi etməyə çalışıram. Əlbəttə, qlobal dünyada yaşamağımızı, bizim bu dünyanın bir hissəsi olduğumuzu başa düşməli, təbii ki, ən yaxşı nə varsa hamısını və ən mütərəqqi texnologiyaları Azərbaycana gətirməliyik. Ümumiyyətlə, biz bunu edirik. Buna görə də mən bugünkü gəncləri ideallaşdırmadan bu amilləri qeyd edərdim. Bundan əlavə, bugünkü gənclər bizim nəsil ilə müqayisədə daha çox risklərə, təhdidlərə məruz qalır və ümumiyyətlə bəşəriyyətin müasir coşqun inkişafının mənfi cəhətləri yəqin ki, bunlardır. Lakin keyfiyyət baxımından, bir daha demək istəyirəm, mənə belə gəlir ki, indiki gənclər bizim nəsli qabaqlayır. Yəqin ki, belə də olmalıdır. Lakin növbəti nəsil...

- Dialektika, yəqin ki, Siz onu öyrənmisiniz...

-İndiki nəsli qabaqlamalıdır.

- Mən yenə Sizin şəxsi işinizə qayıtmaq istəyirəm. Burada çox maraqlı məsələlər var. İlham Heydər oğlu, Siz qəbul imtahanında yazdığınız inşanın mövzusunu xatırlayırsınızmı?

-Yox, xatırlamıram.

- Mən yadınıza salaram. "Puşkinin "Yevgeni Onegin" poemasında rus zadəganlığı və onun nümayəndələri" mövzusu. Beş. Əla yazılmışdır. Burada Siz Aleksandr Sergeyeviçdən bütöv bəndləri əzbərdən sitat gətirirsiniz.

-O vaxt hər şeyi əzbərləməyə məcbur edirdilər.

- Bəli, bəli, əla inşadır. Özü də şifrlənmişdir, yəni onu yoxlayan müəllim müəllifin kim olduğunu bilmirdi. Bəs zadəganlıq nədir? Mən belə başa düşürəm ki, zadəganlıq cəmiyyətin elitasıdır. Bilmirəm, təsadüfdür, yoxsa nəyi rəhbər tutaraq Siz "Rus cəmiyyətində elitanın rolu" mövzusunu seçmisiniz. Zadəganların rolu. Sizin fikrinizcə, müasir cəmiyyətin elitası nədir və Azərbaycan cəmiyyətinin elitasının bütövlükdə Şərq elitasına münasibəti necədir?

-Əlbəttə, bütövlükdə elitalar mövzusunda çox deyilmiş, çox müdrik sözlər yazılmış və təhlillər aparılmışdır. Hər hansı fəlsəfi mühakimələr yürütmək istəmirəm, hərçənd elitanın nə demək olması və ölkələrin, xalqların, bütövlükdə bəşəriyyətin inkişafında onun rolu haqqında öz təsəvvürüm vardır. Yəni, bu, hər bir ölkə üçün tərəqqinin hərəkətverici qüvvəsidir. Ölkənin uğurlarını müəyyən dərəcədə, bəzən həlledici dərəcədə onun elitası müəyyən edir. Cəmiyyətin inkişafı da elitanın hazırlıq və motivasiya dərəcəsindən asılıdır. Mənim fikrimcə, əsas məsələ odur ki, tarazlıq, çox düzgün tarazlıq gözlənilsin və elita özünü bütövlükdə cəmiyyətdən təcrid olunmuş hiss etməsin. Ona görə ki, elita bu cəmiyyətin bir hissəsidir. Ən peşəkar, hazırlıqlı, istedadlı hissəsidir və

buna görə ən məsuliyyətli hissə olmalıdır. Hesab edirəm ki, bizim cəmiyyətdə tarazlığa riayət olunmuşdur. Əvvələn, bizdə istər siyasi idarəçilikdə, istər biznes strukturlarında, istərsə də hər hansı başqa sahədə ayrı-seçkilik yoxdur. Biz maksimum dərəcədə çalışırıq ki, hamı bərabər olsun - həm qanun, həm də cəmiyyət qarşısında. Buna görə də tarazlıq pozulmamışdır. Toxunulmazlar yoxdur. Xüsusi statusa malik adamlar da yoxdur. Elitanın davranışına gəldikdə isə onun ideya və tərəqqi daşıyıcısı kimi yerinə yetirdiyi funksiyadan əlavə, mənim fikrimcə, əsas məsələ budur ki, o özünü cəmiyyətdən ayrılmış hiss etməsin, özündən bədgüman olmasın, yetərincə təvazökar və vətənpərvər olsun. Bu halda bütövlükdə cəmiyyətin elitaya münasibəti müsbət olacaqdır. Mənim fikrimcə, görürəm ki, Azərbaycanda vəziyyət belədir. Yəni, bizim cəmiyyətdə uğur qazananlara münasibət əsasən müsbətdir. Hər hansı böyük maddi nemətlərə nail olmuş, yaxud çoxlu pul qazanmış adamlara, yaxud işləri uğurla gedən biznesmenlərə münasibət müsbət ehtiramlıdır. Əlbəttə, hisslər çox rəngarəngdir. Lakin mənim fikrimcə, bu hisslər arasında paxıllıq hissi Azərbaycan cəmiyyətində birinci yerdə deyildir.

Mənə belə gəlir. Bəlkə də hörmət hissi birinci yerdədir. Hərçənd müxtəlif adamlar, müxtəlif yanaşmalar vardır. Elitanın nümayəndələri də müxtəlifdir. Qınanmağa, bəzən cəzalandırılmağa layiq olanlar da var və bu, təbii ki, qanun çərçivəsində olur. Buna görə bütün bunlar üzvi şəkildə əlaqəli olmalıdır, elita təkəbbürlü olmamalıdır və belə deyək, hələ elita olmayanların da mənfi və narazılıq hissləri olmamalıdır.

- Siz beynəlxalq münasibətlər üzrə təhsil almısınız. Bu, Sizin diplomunuzda göstərilmişdir və mən deyə bilərəm ki, Siz, həqiqətən bu sahənin mütəxəssisisiniz. Sizin bütün həyatınız bunu göstərmişdir. Burada əlimdə daha bir kiçik qovluq var. Mən söhbətə hazırlaşmışam. Bu qovluğu tanıyırsınız? Yox?

-Yox.

- Bu, Sizin dissertasiyanızdır. Burada onun referatı var. Bu dissertasiya müasir mərhələdə Böyük Britaniyada müharibə əleyhinə hərəkata və siyasi partiyaların ona münasibətinə həsr edilmişdir.

-Bu ad yadımdadır.

- Bəli, bu həmin dissertasiyadır. Yeri gəlmişkən, ona tələbat olmuşdur. Burada mənim əlimdə kitabxana kartı var. Mən onu MDBMİ-nin kitabxanasından götürmüşəm. Sizin dissertasiyanı oxumaq üçün tez-tez götürmüşlər. Görünür, iş aktual olub, onunla maraqlanıblar. Yeri gəlmişkən, bundan əvvəl Siz Leyboristlərin parçalanması haqqında diplom işi yazmısınız.

-Tamamilə doğrudur. Mən Folklend münaqişəsi haqqında da yazmışdım.

- Bununla əlaqədar, mənim Sizə xarici siyasətlə bağlı bir sualım var. Belə başa düşürəm ki, o, peşəkarlıq baxımından Sizə yaxındır. Əlbəttə, Azərbaycan nadir geosiyasi məkanda yerləşir. Burada çox müxtəlif tarixi amillər vardır. Sizin üçün öz ölkənizə tətbiqən geosiyasət nə deməkdir? Geosiyasi amillər Sizin siyasətə necə təsir göstərir?

-Bu, bizim təbii varlığımızın, mövcudluğumuzun tərkib hissəsidir. Yəqin ki, bu sözlər bəlkə qonşuları olmayan adalar istisna olmaqla hər bir ölkə üçün aktualdır, lakin onlar da siyasətə cəlb olunur.

- Siz onlar haqqında da iş yazmısınız. Folklend adaları haqqında.

-Əlbəttə, biz regionun bir hissəsiyik və regionda baş verən proseslər istədik-istəmədik bizə təsir göstərir. Lakin prezident kimi mənim vəzifəm regional xarakterli proseslərin Azərbaycana mənfi təsirini minimuma endirmək və əksinə, Azərbaycanın regional proseslərə təsir göstərmək imkanlarını maksimum artırmaqdır. Əlbəttə, buna nail olmaq üçün xarici siyasət oriyentirlərini çox dürüst başa düşmək, xarici siyasət təşəbbüslərini düzgün seçmək zəruridir. Bəzən onlar iqtisadi, nəqliyyat xarakterli olur. Lakin son nəticədə bu, bizim xarici siyasət proqramının və ya paketinin bir hissəsidir. Azərbaycanın beynəlxalq miqyasda rolunu və yerini möhkəmlətməliyik. Regional formata gəldikdə isə deməliyəm ki, bu gün bizim regionla məşğul olan mütəxəssislərin, analitiklərin əksəriyyəti artıq başa düşür ki, Azərbaycan regional planda xüsusi yer tutur. İqtisadiyyata gəldikdə, Azərbaycan iqtisadiyyatı bütün Cənubi Qafqaz iqtisadiyyatının 83 faizini təşkil edir. Gələcəkdə bu rəqəm yalnız artacaqdır, çünki bizim planları, investisiyaları və iqtisadi inkişaf proqramlarını nəzərə alsaq, yəqin ki, bu rəqəm haçansa 90-na da çatacaqdır. Lakin əsas məqsəd bu deyil. Biz heç vaxt qarşıya belə məqsəd qoymamışıq. Sadəcə, gördüyümüz işlər avtomatik olaraq buna gətirib çıxarmışdır.

Regional təşəbbüslərə gəldikdə, biz nəqliyyat, energetika, təhlükəsizlik məsələləri ilə əlaqədar əsas, ən mühüm regional proqramların təşəbbüsçüləri olmuşuq. Bu gün Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə mümkün deyildir. İstər energetika, istər nəqliyyat, istərsə də xarici siyasət sahəsində. Nisbətən yaxın keçmişdə baş vermiş hadisələr göstərmişdir ki, kimin nə qədər səy göstərməsindən asılı olmayaraq, Azərbaycanın mənafeləri nəzərə alınmadan regionda xarici siyasi layihələr həyata keçirilə bilməz. Biz buna nail olmuşuq. Fikrimcə, indi artıq hamı bunu başa düşür. Əlbəttə, hər bir ölkə çalışır ki, onun ölkə hüdudlarından kənarda təsiri daha çox olsun. Biz bu məsələyə həm də regional əməkdaşlığın möhkəmlənməsi baxımından yanaşırıq. Yəni, biz ölkənin xarici siyasət təşəbbüslərinə və geosiyasi mövqeyinə müsbət yanaşırıq. Təzyiq göstərmək, şantaj, mənfi münasibət vasitəsilə deyil, müsbət münasibət vasitəsilə. Biz həmhüdud ölkələrdə investisiya qoyuluşunu həyata keçiririk. Qonşu ölkələrdən qaynaqlanan, məqbul hesab etdiyimiz təşəbbüsləri müəyyən qədər dəstəkləyirik. Bizim iqtisadi təşəbbüslərimiz və Azərbaycanın hüdudlarından kənarda realaşdırdığımız investisiyalar sərmayə qoyulan ölkələrə kömək edir. Bununla da Azərbaycanın rolu daha da artır. Təsadüfi deyildir ki, həm regionda, həm də Avropada dostlarımızın və tərəfdaşlarımızın çoxu Azərbaycanı özlərinin strateji sərmayədarları sırasında görmək istəyir. Bizə sənayenin strateji sahələrinə, energetikaya, nəqliyyata sərmayə qoyuluşunda iştirak etmək təklif olunur və biz bu təklifləri çox diqqətlə nəzərdən keçiririk. Yəni, bunlar bizə etimadın dərəcəsinə dəlalət edir. Bu, o deməkdir ki, Azərbaycan etibarlı dost, tərəfdaş kimi qəbul edilir. Bununla da biz regionda öz mənafelərimizi geniş mənada təmin edirik və gələcəkdə bizim iqtisadi potensialın bir hissəsi bu gün Azərbaycanın hüdudlarından kənarda qoyduğumuz sərmayələr hesabına formalaşacaqdır. Bu, bizim artıq həyata keçməkdə olan yeni iqtisadi siyasətimizin tərkib hissəsidir. Son dövrün bəlkə də ən xoş mövzusuna - Təhlükəsizlik Şurasına seçilməyimizə qayıdaraq demək istəyirəm ki, bu da məhz bizim həyata keçirdiyimiz siyasətin bir hissəsi və dünyada Azərbaycanın rolunun başa düşülməsi göstəricisidir. Biz regionda, Xəzər regionunda, Qafqaz regionunda və daha geniş regionda real sabitləşdirici amilik. Güman edirəm və əminəm ki, gələcəkdə nüfuzumuz yalnız artacaqdır.

- Biz artıq bu barədə danışmışıq. Siz həyatınızın müəyyən hissəsini Moskvada yaşamısınız. Sovet İttifaqının paytaxtı, indi isə Rusiyanın paytaxtı Moskvada oxumusunuz. Siz institutdan sonra da orada yaşamısınız. Hazırda rəsmi və qeyri-rəsmi səfərlərlə tez-tez Rusiyada olursunuz. Rusiya Azərbaycanın qonşusudur. Sizin Rusiya Federasiyasının həm keçmiş prezidenti Vladimir Putinlə, həm də hazırkı Prezidenti Dmitri Medvedevlə müəyyən siyasi, peşəkar əlaqələriniz yaranmışdır. Siz də MDBMİ-də bu movzu ilə bağlı deyildiyi kimi, "personal chemistry" vardır. Rusiya-Azərbaycan əməkdaşlığının perpektivlərini necə görürsünüz? Orada ağrılı nöqtələr və ya hansısa açılmayan düyünlər varmı? Digər tərəfdən, bu inkişafın hansı perspektivləri vardır?

- Perspektivlər mənə çox müsbət görünür. Münasibətlərin tarixi, həmçinin. Son on ilin tarixi, belə deyək, çox müsbətdir. Qeyd etdiyiniz kimi, mənim Rusiyanın həm Prezidenti, həm də Baş naziri ilə çox sıx qaşılıqlı əlaqələrim, münasibətim vardır. Əlbəttə, bu şəxsi münasibətlər də ikitərəfli və regional xarakterli bir çox məsələlərin həll olunmasına kömək edir. Deməliyəm ki, Rusiya və Azərbaycan arasında münasibətlərin inkişafının yeni mərhələsi elə 2000-ci illərin əvvəlində - Vladimir Putin Rusiyaya başçılıq edəndə başlanmışdır. O, Rusiya Prezidenti kimi ilk rəsmi səfərini Azərbaycana etmişdir. Bununla da 1990-cı illərin heç də həmişə bizim istədiyimiz kimi alınmayan münasibətləri dövrünə yekun vurulmuş və münasibətlərin yeni səhifəsi açılmışdır. Bu 10 il ərzində çox iş görülmüşdür. Lakin əgər lap müxtəsər desək, ikitərəfli münasibətlərdə bütün ağrılı və ya mürəkkəb məsələlər həll edilmişdir. Hamısı. Biri də qalmamışdır. Sonuncu məsələ Prezident Dmitri Anatolyeviç Medvedevin Azərbaycana son səfəri zamanı həll edilmişdir. Dövlət sərhədi haqqında müqavilə imzalanmışdır. Bu, tarixi sənəddir. Zənnimcə, həmin sənəd bu illər ərzində razılaşdırılmış və imzalanmış bütün sənədlərin zirvəsidir. Bizim gözəl qarşılıqlı siyasi fəaliyyətimiz, siyasi əlaqələrimiz vardır. Əmtəə dövriyyəsi 10 faizlərlə artmaqdadır. Zənnimcə, bu il az qala 50-60 faiz olmuşdur. Mədəniyyət sahəsində, humanitar əməkdaşlıqda vəziyyət, deyərdim ki, idealdır. Bu həm bizim, həm də Rusiya tərəfinin qiymətidir. İstisnasız olaraq bütün hüquq mühafizə strukturları arasında əməkdaşlıq çox səmərəli və təsirlidir. Bu da bizim ümumi qiymətimizdir. Əgər soruşsanız ki, daha nə etmək lazımdır, mənə cavab vermək çətin olacaqdır, çünki biz hər şeyi həll etmişik. Əlbəttə, növbəti mərhələdə müsbəti artırmaq, əməkdaşlığı maksimum möhkəmləndirmək, regionda təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərinə maksimum kömək etmək lazım gələcəkdir. Biz iki qonşu ölkə, sizin də qeyd etdiyiniz kimi, iki Xəzər ölkəsi, iki Qafqaz ölkəsiyik. Yəni, bunlar bizim ümumi problematikamızdır. Biz ikimiz də elektrik enerjisi, neft və qaz hasilatçısıyıq. Təbii ki, təchizatçı kimi maraqlarımız üst-üstə düşür. Biz burada da əməkdaşlıq yolları tapırıq. Rəqabət deyil, məhz əməkdaşlıq.

- Qarşıdurma deyil.

- Tamamilə doğrudur, məhz əməkdaşlıq. Bu isə tamamilə mümkündür və biz buna artıq nail olmuşuq. Odur ki, mən perspektivləri bugünkü kimi müsbət görürəm. Hesab edirəm ki, əgər 20 illik bütün qarşılıqlı fəaliyyət dövrünü təhlil etsək, görərik ki, bu gün Rusiya ilə Azərbaycan arasındakı münasibətlər daha səmərəli və daha yüksək səviyyədədir. Bu da, həmçinin özlüyündə beynəlxalq siyasətin mühüm amilidir.

- Siz Rusiya MDBMİ-də gözəl təhsil almısınız. Lakin Sizin siyasətdə, diplomatiyada, həyata, dünyaya baxışda əsas dərsləri hər halda Azərbaycanın ümummilli lideri Heydər Əliyevdən aldığınızı desəm, çətin ki, səhv edərəm. Biz Sizinlə bu barədə danışmışıq. Hətta sırf praktiki planda götürsək, bu gün Siz Heydər Əliyev məktəbinin hansı əsas dərslərindən istifadə edirsiniz?

- Əgər sadalamağa başlasam, bu, çox vaxt aparacaqdır. Çünki hər bir adam üçün atası necə yaxın və əzizdirsə, mənim üçün də atam elə yaxın və əziz insan idi. Eyni zamanda, o, mənim üçün elə bir insandır ki, ona sonsuz hörmət, etimad və heyranlıqla yanaşmışam və yanaşıram. Çünki onun bütün həyatı, mübarizəsi, taleyi, yenilməzliyi bir örnəkdir. Onun ömrünün son illərini yəqin ki, çoxları xatırlayır: gənc kursantlar qarşısında çıxış edəndə vəziyyəti pisləşdi, müvazinətini itirərək yıxıldı, sonra getdi, qayıtdı və yenə yıxıldı, yenə də getdi, qayıtdı və nitqini bitirdi. Düşünmürəm ki, onun yaşında və belə vəziyyətdə olan kimsə, - demək olar, səksən yaşı olan insanın səkkiz qabırğası sınmışdı, - eyni cür hərəkət edərdi. Lakin o, bunu etdi. O, başqa cür edə bilməzdi. Bu, onun bütün xarakterinin göstəricisidir. Onun mərdliyi və yenilməzliyidir. Əlbəttə, bu, hamımız üçün - həm mənim üçün, həm də bütün azərbaycanlılar üçün örnəkdir. Mənim xoşbəxtliyim sadəcə bundadır ki, onun yanında olmuşam. Mənim belə yaxın formatda ondan öyrənmək, ən mürəkkəb məqamlarda yanında olmaq imkanım olmuşdur. Bu, heç şübhəsiz, bir məktəbdir. Sadəcə, onu məktəb kimi qəbul etmirsən. Axı, bu tədris prosesi deyildir. Əlbəttə, barəsində danışdığım bütün keyfiyyətlərlə yanaşı, bu, varmaqdır, qavramaqdır, misilsiz təcrübədir və üstəgəl həm də siyasi müdriklikdir. Axı, onu əzən və təqib edən böyük bir sistemə, aparata qarşı o, əslində, təkbaşına müqavimət göstərirdi. Hələ 1990-cı ildə Azərbaycana qayıdanda, hər tərəfdən hücumlara və parlamentdə obstruksiyaya məruz qalanda təkbaşına idi. Həmin parlament ki, bir neçə aydan sonra onu ayaq üstə alqışlamışdı. Bütün bunlar mənim gözlərim qarşısında olmuşdur. Onun ölkəni xaosdan, anarxiyadan necə çıxarması da, güclü dövlət yaratması da bir örnəkdir. Ona görə də azərbaycanlıların qəlbində onun daim öz yeri olacaqdır. Mənim sadəcə bəxtim gətirmişdir ki, o mənim atam, mən isə onun oğluyam. Bu, mənim üçün fəxrdir və bu gün praktiki baxımdan etdiyim hər şey onun başladıqlarının davamıdır. Əlbəttə, yeni formalar, yeni çağırışlar, dünya dəyişmişdir, mahiyyət isə olduğu kimi qalmışdır. Bu, layiqli siyasətdir, mərd siyasətdir, lazım gəldikdə cəsarətli siyasətdir. Əgər qəbul etdiyin qərarın düzgünlüyünə əminsənsə, heç nəyə baxmayaraq, onu həyata keçirmək lazımdır.

- Cənab Prezident, bizim bütün söhbətimiz, Sizin danışdığınız hər şey sanki gələcəyin ssenarisidir. Təsəvvürünüzə gətirin ki, Siz zaman maşınında keçmişə qayıda bilərsiniz. Siz keçmişin hansı hadisələrini bir daha hiss etmək istərdiniz? Keçmişin hansı hadisələrini bir daha yaşamaq istərdiniz?

- Zənnimcə, mən bunu istəməzdim. Çünki əgər bu, artıq bir dəfə yaşanmışsa, hətta ən fərəhli hadisə də baş verdiyi vaxtdakı effekti ikinci dəfə verməyəcəkdir. Odur ki, keçmişə qayıtmaq imkanı olsaydı, mən yəqin ki, getməzdim. Əgər imkan olsaydı, gələcəyə gedərdim. Fərz edək, 10 il qabağa. Planlarımın baş tutub-tutmadığına və nə dərəcədə alındığına, əgər alınmamışsa, bunun üçün nə etmək lazım gəldiyinə baxmaq istərdim. Bax, bunu çox böyük məmnuniyyətlə edərdim. Keçmişə gəldikdə isə, ora qayıtmaq imkanı olsaydı, əlbəttə, anamın və atamın yanına qayıtmaq istərdim.

- Bilirsiniz, İlham Heydər oğlu, mən heç yerdə rast gəlməmişəm ki, Sizin hansısa ənənəvi xobbiniz vardır. Mən heç yerdə oxumamışam ki, haradasa tilovla oturmusunuz, yaxud marka və ya kəpənək toplayırsınız. Bəs, öz psixoloji gücünüzü haradan alırsınız? Psixoloji baxımdan necə bərpa olunursunuz, ümumiyyətlə, necə dincəlirsiniz?

- Fiziki gücümü idman zalında bərpa edirəm. İdmanla məşğul olmaq mənə özümü 20-30 il əvvəlki kimi hiss etmək imkanı verir. Psixoloji cəhətdən isə evdə və yalnız evdə yaxınlarımın əhatəsində, ailəm arasında. Yəqin ki, bayağı səslənir. Əslində, Yer kürəsindəki insanların böyük əksəriyyətindən fərqlənmirəm. Lakin bu, heç də təkcə istirahət üçün ən yaxşı vaxt deyildir. Gün ərzində ən yaxşı vaxt axşam evdə, ailəmlə birlikdə olmaqdır.

- Prezidentin işinin harada başa çatdığının və şəxsi həyatının harada başlandığının bölgüsünü aparmaq olarmı? Yoxsa, bunlar bir-birinə qarışmışdır? Bilirsinizmi, bəzilərində belədir: vəssalam, ofisi bağladım, sonra evə, səhər isə yenə də işə.

-Qismən. Məsələn, iş heç vaxt qurtarmır. Yəqin ki, bu, təkcə məndə deyil, bütün prezidentlərdə belədir. Ona görə ki, evdə də işdəsən, evdə də işlə əlaqə saxlayırsan, təbii ki, bir hadisə baş versə, sutkada 24 saat işləyirsən. Buna görə də işin qurtardığını və indi şəxsi həyatın başladığını demək, sadəcə olaraq mümkün deyil. Lakin əlbəttə, işlə şəxsi həyat bir-birinə qarışmır. Axşam evimin kandarından içəri keçəndə, əgər heç bir fövqəladə hadisə, zəng yoxdursa, bütünlüklə, tamam başqa mühitə - onilliklər boyu olduğum ailə həyatı mühitinə düşürəm. Mən problemləri, narahatlıqları, iztirabları, əsəbiliyi evə gətirmirəm, yaxınlarımı qoruyuram. Evdə də hər şey 20-25 il əvvəlki kimidir, dəyişiklik yoxdur.

- Məhz indi, Sizinlə söhbət etdiyimiz bu vaxtda Sizin həyat yoldaşınız, ölkənin birinci xanımı Mehriban Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondu Romada, Vatikanda Azərbaycanın təbliği üzrə genişmiqyaslı tədbirlər keçirir. Mehriban xanımın fəal ictimai işlərindən hamının xəbəri vardır. O, möhtəşəm iş aparır, UNESCO-nun, İSESCO-nun xoşməramlı səfiri, Gimnastika Federasiyasının prezidenti, parlamentin deputatıdır. Bütün bunlar çox gözəl. Lakin mən belə başa düşürəm ki, bu, total məşğulluqdur. İndicə Siz də dediniz, mən də bilirəm ki, o özü hər dəfə evə can atır. Siz necə hesab edirsiniz, bu prioritetlər necə bölünür və onun prioritetləri sizinkilərə nə dərəcədə uyğundur?

-Biz axşamlar, yaxud bazar günü vaxtımızı evdə keçirməyi hər şeydən çox xoşlayırıq. Bizim üçün bu, vaxt keçirməyin ən yaxşı yoludur. Əlbəttə, öhdəliklər var. O, sizin qeyd etdiyiniz çox mühüm funksiyaları yerinə yetirir. Hazırda İtaliyada keçirilən bu günlər müstəqilliyimizin 20 illiyinə həsr edilmiş silsilə tədbirlərdir. Dünyanın bütün iri paytaxtlarında Azərbaycan günləri keçirilir. Moskvada, Parisdə, Berlində Azərbaycan günləri keçirilmişdir, indi Romada keçirilir. Yəni, bu, tədbirlər silsiləsidir. Əlbəttə, onun ictimai yükü çox böyükdür. Hətta birinci xanımın funksiyaları da - protokol tədbirləri və s. çox böyük qüvvə tələb edir. Bütün bunlar onu sevimli məşğuliyyətindən, evdə, uşaqların və nəvələrin əhatəsində olmaq, sadəcə divanda əyləşmək və söhbət etmək, adi ömür sürmək imkanından ayırır. Lakin belə deyək, bizim bir yerdə olmadığımız hallar il ərzində çox olmur. Tədbirlərdə iştirak etmək lazım gələndə belə olur. Biz həmişə bir-birimizə can atırıq, yanaşı olmaq istəyirik. O, çox istedadlı adamdır, hər işdə istedad-

lıdır. Buna görə də o, hər işi görməyə, özü də yüksək səviyyədə görməyə macal tapır.

- İlham Heydər oğlu, Siz istəsəniz də, istəməsəniz də əlli yaşın astanasındasınız. Çox iş görülmüşdür. Sadəcə Sizin söhbətinizdən görünür ki, xidmətləriniz çox olub. Ümumiyyətlə, indiyə qədər qazanılmış uğurlardan həzz almaq və bu baqaja arxalanaraq irəli getmək olar. Lakin Sizi yaxşı tanıdığımdan bilirəm ki, bu, Sizin xarakterinizə uyğun gəlmir. Siz növbəti yarım əsrdə şəxsən özünüz üçün qarşınıza hansı məsələləri qoyursunuz?

-Sizə səmimi deyim, mən həyatda heç vaxt heç nəyi qabaqcadan ürəyimdə tutmuram. Çalışıram, tutmayım. Çünki əminəm ki, bunun heç bir yaxşı nəticəsi olmayacaq.

- Belə bir məsəl var, deyərlər, Allahı güldürmək istəyirsənsə, sabahkı planların barədə ona danış.

-Tamamilə doğrudur. Lakin mən Prezident olaraq, bunu özümə rəva görə bilmərəm. Ona görə ki, gələcək haqda düşünməsək, bugünkü məsələləri həll etmək çox çətin olacaqdır. Əlbəttə, gündəlik məsələlərlə, Prezidentin mütəmadi işləri ilə kifayətlənmək, yaxud bunlara siyasi mübarizə və ya müəyyən siyasi səmərə prizmasından baxmaq olar. Lakin mən buna məhz sizin dediyiniz kimi, yarım əsr qabağa baxıram. Ona görə yox ki, 50 ildən sonra sizinlə burada əyləşib söhbət etmək fikrindəyəm.

- Mən etiraz etmirəm.

-Buna görə demirəm. Bu barədə, necə deyərlər, fikirləşmək də gülməli olardı. Məhz ona görə ki, 50 ildən sonra bizim ölkədə yaşayacaq insanların həyatını yüngülləşdirən işləri bu gün görmək üçün. Bizim həyata keçirdiyimiz təşəbbüslərin çoxu gələcəyə yönəlmişdir. Energetika sahəsində yüz illik planlarımız var. Yəni ən azı 100 il Azərbaycan beynəlxalq enerji bazarında əvəzedilməz və çox mühüm oyunçu olacaqdır. Bunun təməli bu illər ərzində qoyulmuşdur. Nəqliyyat sahəsində biz elə infrastruktur yaradırıq ki, o, əsrlər boyu ölkəmizin rifahına xidmət edəcəkdir. Bizim ölkənin coğrafi şəraiti nəzərə alınmaqla güclü logistik, nəqliyyat infrastrukturu külli məbləğdə vəsait qazanmağımıza, habelə ölkəmizin geosiyasi əhəmiyyətini möhkəmlətməyə imkan verəcəkdir. Məsələn, təhsil sahəsində gördüyümüz işlər də bir neçə onilliyi əhatə edir. Kadrlar hazırlanması, informasiya texnologiyaları məsələlərində də belədir.

- Bunlar gələcək üçün investisiyalardır.

-Əlbəttə, yəni mənim planlarımda Azərbaycan-2050 və ya Azərbaycan-2060 perspektivləri vardır. Lakin bu gün Azərbaycan-2023 proqramları ilə daha çox məşğul oluram. Bu proqram iki ildən sonra başlanacaqdır. Onun uğurla həyata keçirilməsi Azərbaycan-2060, 2070 və sonrakı dövrləri təmin edəcəkdir. Hətta bu gün, məsələn, su təchizatı üzrə həyata keçirdiyimiz infrastruktur layihələri 2035-ci ilə qədər hesablanmışdır. Əhalinin, iqtisadiyyatın, müəssisələrin artması nəzərə alınmaqla. Yəni, bu gün biz 2035-ci ilə qədər nəzərdə tutulan işləri görürük ki, bizdən sonra gələnlər 2030-cu ildə artıq 2067-ci ilə qədər lazım olan işləri görsünlər. Ölkə yalnız bu cür inkişaf edə bilər. Əgər sonra nə olacağı barədə strateji təsəvvür yoxdursa, idarə etmək olar, lakin bütün bunlar dayana bilər, halbuki dayanmamalıdır. Dünya irəliyə doğru hərəkət edir. Biz də onunla ayaqlaşmalıyıq. Yaxın onilliklərdə dünyada kimlər üstünlük təşkil edəcəkdir? Kimin biliyi çoxdursa onlar. Yalnız onlar. Energetika, yaxud deyək ki, hərbi sahə mü-

asir texnologiyaların, nanotexnologiyaların, müasir istehsalatların, elmə investisiyaların inkişafı nəzərə alınmaqla dünyada baş verən hadisələrdə intellekt kimi aparıcı rol oynamayacaqdır. Əlbəttə, bir müddətdən sonra yüksək texnologiyalar sahəsində Azərbaycanın birinci yerdə olacağını gözləmək çətindir. Lakin biz harada olmalıyıq? Biz həmin texnologiyaları yaradanlardan bir addım arxada olmalıyıq. Bir şey yaradıblarsa, biz burada olmalıyıq, nə isə yeni bir şey istehsal ediblərsə, biz onu mənimsəməliyik. Bunu etmək üçün təkcə vəsaitə malik olmaq kifayət deyil, kadrlara, infrastruktura, konsepsiyaya, strategiyaya malik olmaq lazımdır. Vaxt gələcək, biz də dünya əhəmiyyətli məhsullar istehsal edəcəyik. Bəzən biz elə ambisiyalı planlarla yaşayırıq ki, onlar həyata keçirilə bilməyəcək planlar təsiri bağışlayır. Lakin söhbətimizin əvvəlində dediyim kimi, onlar reallaşır. Əgər istək, siyasi iradə və yaxşı təşəbbüskarlıq olsa, çox şey etmək olar.

- Bununla bağlı sonuncu sualım var. 1961-ci il, əlbəttə, ailənizin həyatında Sizin dünyaya gəlməyinizlə əlamətdar oldu. Düşünürəm ki, 1961-ci il bəşəriyyət tarixində Yuri Qaqarinin kosmosa uçuşu ilə yadda qaldı desəm, incimərsiniz. Bu, tarixə belə düşdü. Azərbaycan artıq 50 ildən sonra öz peykini orbitə çıxaracaqdır. Dünya əsaslı şəkildə dəyişmişdir. Yeni kompyuterlər, yeni texnologiyalar. Köhnəliklə, vaxtı ötənlərlə artıq vidalaşmışıq. Sizin fikrinizcə, gələcək haqqında, bu gün haqqında danışarkən, özümüzlə keçmişdən nəyi götürməliyik ki, bu, bizi həmişə müşaiyət etsin?

- Mənim fikrimcə, bu sualın cavabı ilk növbədə insanın sırf mənəvi keyfiyyətləri müstəvisində olacaqdır. Tərəqqiyə, texnologiyalara, qloballaşmaya, insan amilinin müəyyən dərəcədə nivelirlənməsinə baxmayaraq, mənəvi dəyərlər olmasa, bəşəriyyət inkişaf edə bilməz. Axı biz robotların gələcəyinə doğru getmirik. Hər halda biz bəşəriyyətin - daha çox inkişaf etmiş və daha müasir bəşəriyyətin gələcəyinə doğru gedirik. Minilliklər boyu dünyanı dəyərlər idarə etmişdir. Yəqin ki, elə belə də olmalıdır. Buna görə də heç bir şəraitdə ləyaqət hissini keçmişdə qoymaq olmaz. Abır-həya və insanlara xeyirxah münasibət hissi həmişə olmalıdır. Sözün yaxşı mənasında vətənpərvərlik hissi inkişaf üçün əsas motivlərdən biri kimi daim olmalıdır. Mən vətənpərvərlik hissini ölkəmizin inkişafı üçün əsas motivlərdən biri hesab edirəm. Bu, öz ölkəsinə görə qürur hissi, onu daha yaxşı etmək arzusudur. Qoy o, daha yaxşı səslənsin, daha yaxşı görünsün, daha yaxşı olsun. Yəqin ki, bunun əsası vətənpərvərlik hissidir. Heç bir halda öz Vətənini sevməmək olmaz. Vətəni həmişə sevmək lazımdır. Mənim fikrimcə, hər kəs bu əsas məqamları həmişə özü ilə irəli aparmalıdır.

- Çox sağ olun, cənab Prezident.

-Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMAT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 92 məhkumun əfv olunması haqqında 2011-ci il dekabrın 26-da Sərəncam imzalamışdır.

Sərəncam əsasında 75 məhkum azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən, 1 şəxs şərti cəzadan, 2 nəfər islah işləri cəzasından, 14 şəxs isə cərimə cəzasından azad edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti əmin olduğunu bildirmişdir ki, əfv edilən şəxslər bu humanist aktdan düzgün nəticə çıxararaq Azərbaycan dövlətinin qanunlarına gələcəkdə dönmədən əməl edəcəklər.

Sərəncamın mətni mətbuatda dərc ediləcəkdir.

İTAR-TASS-IN BAŞ DİREKTORU VİTALİ İQNATENKODAN, İTAR-TASS-IN BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANDAN

Hörmətli İlham Heydər oğlu!

Olduqca əlamətdar, dostcasına müşahidə etdiyimizə görə Sizin üçün olduqca əziz bir gündə, yaxınlarınız, dostlarınız və həmkarlarınız Sizi gözəl kişi yubileyi - anadan olmağınızın 50 illiyi münasibətilə təbrik etdiyi bir vaxtda İTAR-TASS-ın kollegiyası, jurnalistlər, agentliyin bütün əməkdaşları bizim sözlərimizə qoşulurlar. Ad gününüz Azərbaycan xalqının Sizin rəhbərliyiniz altında sabitlik, iqtisadi inkişaf, yüksək mənəvi şəraitdə yaşadığı ilin sonuna təsadüf edir. Sizin respublikaya necə güclü enerji ilə, işinizi parlaq, peşəkar bilməklə, ardıcıllıq və əzmlə rəhbərlik etdiyinizi, Azərbaycanın tərəqqisinə təminatlı şəkildə nail olmağınızı biz yaxşı bilirik. Respublikanın Prezidenti vəzifəsində Sizin məqsədyönlü və fədakarcasına çalışdığınız bütün səkkiz il Azərbaycan ilə Rusiya arasında münasibətlərin möhkəmlənməsi, dostluq əlaqələrinin və hərtərəfli qarşılıqlı faydalı əməkdaşlığın inkişafı ilə səciyyəvidir.

Biz bu təntənəli gündə Sizi səmimi qəlbdən təbrik edərək Sizinlə artıq ənənəyə çevrilmiş görüşlərimizi ən xoş duyğularla və Sizin Bakıda göstərdiyiniz qonaqpərvərliyə görə xüsusi minnətdarlıqla xatırlayırıq.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, çətin işinizdə yorulmazlıq və uğurlar, Sizə və gözəl ailənizə xoşbəxtlik və firavanlıq diləyirik. Qoy Sizin səyləriniz bundan sonra da Azərbaycan xalqı naminə, ölkələrimiz arasında dostluq və əməkdaşlıq naminə öz bəhrələrini versin.

Hörmətlə,

Vitali İqnatenko

İTAR-TASS-ın Baş direktoru

Mixail Qusman

İTAR-TASS-ın Baş direktorunun birinci müavini

DƏRBƏND RAYON ADMİNİSTRASİYASININ BAŞÇISI QURBAN QURBANOVDAN

Möhtərəm İlham Heydər oğlu!

Sizin yubileyiniz münasibətilə Dağıstan Respublikasında yaşayan azərbaycanlılar adından ürəkdən gələn təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Biz qəlbən yaxın saydığımız, Sizin rəhbərliyiniz altında sürətlə inkişaf edən və daimi qürur mənbəyimiz olan Azərbaycanın bu gün necə bir yüksəliş yaşadığını görürük.

Möhtərəm İlham Heydər oğlu, Siz dünya miqyaslı müdrik və təcrübəli dövlət xadimi və lider Heydər Əliyevin işinin layiqli davamçısı kimi ölkədə sülhün, təhlükəsizliyin və sabitliyin inkişafında böyük uğurlar qazanmısınız. Azərbaycan müasir dünyada sabitliyi və əmin-amanlığı ilə fərqlənən az sayda dövlətlərdən biridir.

İcazə verin, Azərbaycan və Dağıstan arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi istiqamətində çoxşaxəli fəaliyyətinizə, Dağıstanda yaşayan biz azərbaycanlılara dəstək və diqqətinizə görə Sizə çox böyük minnətdarlığımı bildirim.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı və qardaş Azərbaycanın tərəqqisi və ərazi bütövlüyü naminə yeni uğurlar arzulayırıq.

Dərin hörmətlə,

Qurban Qurbanov

Dərbənd Rayon Administrasiyasının başçısı

ŞİMALİ OSETİYA-ALANİYA RESPUBLİKASININ BAŞÇISI TAYMURAZ MAMSUROVDAN

Hörmətli İlham Heydər oğlu!

Sizi 50 illiyiniz münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanda olduğum günlər və Sizin müstəsna qonaqpərvərliyiniz ümidvar olmağa imkan verir ki, aramızdakı dostluq və əməkdaşlıq illər keçdikcə maraqlı və qarşılıqlı faydalı işlərlə yalnız möhkəmlənəcək və qüvvətlənəcəkdir. Bunun təminatı Rusiya və Qafqaz xalqlarının birgə sülh, həmrəylik və sabitlik səyləridir.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, ailə səadəti, firavanlıq və günəşli Azərbaycan sakinlərinin rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Hörmətlə,

Taymuraz Mamsurov

Şimali Osetiya-Alaniya Respublikasının başçısı

QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVDAN

Hörmətli İlham Heydər oğlu,

Sizi ad gününüz münasibətilə çoxmillətli Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Müasir və dinamik inkişaf edən dövlət olan Azərbaycanın yeni uğurlarını haqlı olaraq Sizin adınızla bağlayırlar. Əminəm ki, Azərbaycanın və Qaraçay-Çərkəz Respublikasının ikitərəfli əməkdaşlığı respublikalarımızın sosial-iqtisadi inkişafına imkan yaradacaq, xalqlarımızın maraqlarına xidmət edəcəkdir.

Sizə ürəkdən Azərbaycan Prezidenti kimi yüksək vəzifədə gələcək uğurlar, habelə doğmalarınıza və yaxınlarınıza xoşbəxtlik, möhkəm cansağlığı və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

Rəşid Temrezov

Qaraçay-Çərkəz Respublikasının başçısı

İNQUŞETİYA RESPUBLİKASININ BAŞÇISI YUNUSBEK YEVKUROVDAN

Hörmətli İlham Heydər oğlu,

Sizi 50 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin ömür yolunuz, dövlətinizin maraqlarına sadiqliyiniz, fəal həyat mövqeyiniz Azərbaycana hədsiz sədaqətlə xidmətin parlaq nümunəsidir. Bu gün Siz bütün gücünüzü, təcrübə və biliklərinizi xalqın rifahına sərf edərək çalışır, planları məharətlə real işlərə çevirirsiniz. Sizin yüksək peşəkarlığınız, məqsədyönlü işiniz çox cəhətdən ölkənin sosial-iqtisadi inkişafına, sakinlərinin həyat səviyyəsinin və firavanlığının yüksəlməsinə kömək edir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, bütün işlərinizdə və təşəbbüslərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Yunusbek Yevkurov

İnquşetiya Respublikasının başçısı

ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN KADIROVDAN

Hörmətli İlham Heydər oğlu!

Əziz dostum və qardaşım!

Sizi ad gününüz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Mən xoşbəxtəm ki, Siz 50 illik yubileyinizi gücünüzün və enerjinizin aşıb-daşdığı bir şəraitdə, doğmalarınızın və yaxınlarınızın, həmfikirlərinizin və silahdaşlarınızın əhatəsində qarşılayırsınız.

Azərbaycan xalqının dəstəyi, möhkəm, sıx birləşmiş komanda Sizin öz Vətəninizə xidmət işində böyük uğurlar qazanmağınıza imkan vermişdir. Biz Azərbaycanın uğurlarını müşahidə edirik.

Şübhəsiz, onlar Sizin qətiyyətinizin, əməksevərliyinizin və fədakarlığınızın bəhrəsidir. Sizin həyata keçirdiyiniz iqtisadi strategiya cəmi üç ildə yoxsulluq səviyyəsini azaltmağa imkan vermişdir. Azərbaycanda ÜDM-in artımı isə MDB ölkələrində ən yüksək göstəricilərdən biridir.

Sizin hakimiyyətdə olduğunuz ilk dörd ildə iqtisadiyyat irəliyə doğru sanballı sıçrayış etmişdir. Etiraf edirəm ki, bu, görkəmli siyasi xadim və öz xalqının müdrik lideri kimi Sizə heyranlıq və dərin ehtiram doğurur.

İlham Heydər oğlu! Siz həmişə çeçen xalqının və bütün Rusiyanın böyük dostu olmusunuz və dostu kimi qalırsınız. Əminəm ki, qardaş xalqlarımız arasında mehriban qarşılıqlı münasibətlər bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edirəm, Sizə xoşbəxtlik, cansağlığı, Azərbaycan xalqını sülh və firavanlıq yolu ilə daha irəli aparmaq üçün güc və səbir diləyirəm.

Ulu Tanrı Sizin bütün planlarınızın və nəcib təşəbbüslərinizin həyata keçməsinə kömək etsin.

Hörmətlə,

Ramzan Kadırov

Çeçenistan Respublikasının başçısı

ULYANOVSK VİLAYƏTİ HÖKUMƏTİNİN QUBERNATOR-SƏDRİ SERGEY MOROZOVDAN

Hörmətli cənab Prezident!

Sizi ad günü münasibətilə Ulyanovsk vilayətinin hökuməti adından və şəxsən öz adımdan təbrik edirəm! Sizə səmimi qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə məsuliyyətli fəaliyyətinizdə uğurlar, Sizə və Sizin yaxınlarınıza şəxsi səadət və əmin-amanlıq arzulayıram!

Dostların səmimi və hərtərəfli dəstəyi qoy həmişə sizinlə olsun.

Əminəm ki, dövlətlərimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri bundan sonra da xalqlarımızın rifahı naminə genişlənəcək və inkişaf edəcəkdir.

Sizə olan böyük hörmətimi qəbul edin.

Dərin hörmətlə,

Sergey Morozov

Ulyanovsk Vilayəti hökumətinin qubernator-sədri

STRAVROPOL DİYARININ QUBERNATORU VALERİ QAYEVSKİDƏN

Hörmətli cənab Prezident!

50 illik yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin! Sizin Qafqazda sülhün və həmrəyliyin qorunub saxlanmasına yönəlmiş səyləriniz ən dərin hörmətə layiqdir. Sizin yaradıcı enerjiniz və məqsədyönlü fəaliyyətiniz sayəsində Azərbaycan Respublikası dinamik inkişaf edir, sakinlərinin həyat səviyyəsi yüksəlir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, nəzərdə tutduğunuz planların həyata keçirilməsi üçün tükənməz enerji və məsuliyyətli vəzifənizdə Azərbaycan Respublikası və onun sakinləri naminə işinizdə uğurlar arzulayıram. Azərbaycan ilə Stavropol diyarı arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənəcəyinə və qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf edəcəyinə ümid edirəm.

Hörmətlə,

Valeri Qayevski

Stavropol Diyarının qubernatoru

HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Sizə çox dərin ehtiramımın səmimiliyinə inanın və icazə verin əlli illik yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edim!

Biz Sizi möhkəm əqidəli, öz ölkəsinə ürəkdən sadiq olan və onun firavanlığına nail olmağa çalışan bir insan kimi tanıyırıq. Siz, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarına və prinsiplərinə sadiq qalaraq atanızın müstəqil müasir dövlət yaratmaq işini uğurla davam etdirirsiniz.

Biz Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk. Azərbaycan Respublikasının Həştərxan Vilayəti ilə qarşılıqlı dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına Sizin daimi diqqət və dəstəyinizə görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Bunun sayəsində bizim regionda sosial yönümlü çox mühüm birgə layihələr həyata keçirilir. Ürəkdən inanıram ki, bizim aramızda yaranmış konstruktiv dialoq bundan sonra da Azərbaycan ilə Həştərxan Vilayəti arasında ikitərəfli əməkdaşlığın dərinləşməsinə tam həcmdə kömək edəcəkdir.

Sizin Azərbaycanın hər bir sakininin rifahına yönəlmiş enerjiniz və səmərəli işiniz bütün Azərbaycan xalqının səmimi etimadını qazanmışdır. Sizin peşəkarlığınız, prinsipiallığınız, təcrübəniz, insanlarla işləmək bacarığınız, xalqımızın mədəniyyətinə və tarixinə sevginiz Sizin öz dövlətinizin layiqli lideri olmasına dəlalət edir. 50 yaş çox böyük yaradıcı potensialın çiçəklənməsinin yalnız başlanğıcıdır. Bu yaşda bilik və təcrübə ehtiyatınız böyük, nəzərdə tutulanların hamısını həyata keçirmək üçün qüvvəniz və vaxtınız kifayət qədərdir.

Bu əziz gündə, hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, uzun illər boyu tükənməz enerji, nəzərdə tutduğunuz bütün planların reallaşmasını və məsuliyyətli fəaliyyətinizdə uğurlar diləyirəm.

Əminəm ki, Siz Azərbaycan Respublikasının şanlı salnaməsinə hələ çox parlaq səhifələr yazacaq, güclü və çiçəklənən bir ölkənin təşəkkülünə çox böyük töhfə verəcəksiniz.

Hörmətlə,

Aleksandr Jilkin

Həştərxan Vilayətinin qubernatoru

SANKT-PETERBURQUN QUBERNATORU GEORGİ POLTAVÇENKODAN

Hörmətli İlham Heydər oğlu!

Sizi 50 illiyiniz münasibətilə ürəkdən təbrik edirəm!

Siz, istedadlı və uzaqgörən siyasətçi, müdrik və enerjili rəhbər, doğma ölkənin rifahı və tərəqqisi naminə uzun illər səmərəli çalışırsınız. Sizin insanlara qayğınız, strateji təfəkkürünüz, ən mürəkkəb məsələləri səmərəli həll etmək bacarığınız Sizə xalqın dərin hörmətini və məhəbbətini, təkcə Azərbaycan Respublikasında deyil, həm də onun hüdudlarından çox uzaqlarda layiq olduğunuz nüfuzu qazandırmışdır.

Sankt-Peterburq ilə Azərbaycanı çoxdan bəri dostluq və tərəfdaşlıq münasibətləri bağlayır. Həmin münasibətlər bu gün uğurla inkişaf edir. Müntəzəm konstruktiv dialoqa, birgə layihələrin reallaşdırılmasına Sankt-Peterburq Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Əməkdaşlıq üzrə Komissiyanın fəaliyyəti kömək edir.

Əminəm ki, Sizin fəal dəstəyinizlə Sankt-Peterburq ilə Azərbaycan arasında qarşılıqlı faydalı işgüzar, elmi və mədəni əlaqələrin möhkəmləndirilməsi üzrə səmərəli iş davam edəcəkdir.

Əlamətdar yubiley günündə Sizə möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik, bütün işlərinizdə və təşəbbüslərinizdə uğurlar arzulayıram.

Dərin hörmətlə,

Georgi Poltavçenko

Sankt-Peterburqun qubernatoru

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOVDAN

Əziz İlham Heydər oğlu,

Yubileyiniz münasibətilə mənim ən səmimi təbriklərimi qəbul edin. Siz yaradıcı, məqsədyönlü fəaliyyətinizin bütün mərhələlərində öz istedadınızı, təcrübə və enerjinizi bütünlüklə Azərbaycan xalqının maraqlarına təmənnasız xidmətə həsr etmisiniz. Siz dahi atanız Heydər Əliyevin ənənələrini davam etdirərək, ölkənin inkişafının dönüş dövrlərindən birində onun rəhbəri tarixi missiyasını böyük məsuliyyət və müdrikliklə yerinə yetirirsiniz. Respublikada dövlətçiliyin gələcək təşəkkülü və möhkəmlənməsi, onun sosial-iqtisadi inkişafında sanballı uğurlar, Azərbaycan millətinin mənəvi-əxlaqi dirçəlməsi bu gün ayrılmaz surətdə Sizin adınızla bağlıdır. Azərbaycan Respublikasının həyat fəaliyyətinin bütün sahələrində irimiqyaslı dəyişikliklər Azərbaycanın hüdudlarından uzaqlarda, o cümlədən Rusiya Federasiyasında haqlı olaraq hörmət doğurur.

Bu gözəl əlamətdar gündə Sizə ürəkdən möhkəm cansağlığı, Qafqaz uzunömürlülüyü və Azərbaycan xalqının səadəti naminə gələcək uğurlar arzulayıram. Sizin Dağıstana və bizim ailəyə münasibətinizi çox qiymətləndirirəm.

Dərin hörmətlə,

İlyas Umaxanov

Rusiya Federasiyası Federal Məclisinin

Federasiya Şurası sədrinin müavini

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVADAN

Hörmətli İlham Heydər oğlu!

Əlamətdar yubileyiniz münasibətilə ürəkdən gələn ən səmimi təbriklərimi qəbul edin!

Siz bu əlamətdar yaş həddinə fəaliyyətinizin elə nəticələri ilə çatmısınız ki, onlarla hər bir ölkənin lideri fəxr edə bilər! Azərbaycan sabit inkişaf edir, genişmiqyaslı sosial-iqtisadi inkişaf layihələrini ardıcıl reallaşdırır, beynəlxalq arenada, energetika sahəsində qlobal əməkdaşlıq layihələrinin həyata keçirilməsində öz rolunu gücləndirir.

Rusiya və Azərbaycan xalqları arasında əlaqələr durmadan inkişaf edir və bu, Sizin çox böyük şəxsi töhfənizdir! Sizin parlaq fərdi xüsusiyyətləriniz və gözəl insani keyfiyyətləriniz həmişə yeni tərəfdarlar cəlb etmişdir və cəlb etməkdədir, çoxsaylı insanları Azərbaycana dost edir.

Sizə Azərbaycan xalqının rifahı naminə, xalqlarımızın və ölkələrimizin səmimi və möhkəm münasibətləri naminə səmimi qəlbdən uzun ömür, səmərəli fəaliyyət arzulayıram!

Sizin gözəl, günəşli diyarınıza sülh və firavanlıq, Sizə və yaxınlarınıza xoşbəxtlik və sevgi diləyirəm!

Hörmətlə,

Svetlana Orlova

Rusiya Federasiyası Federal Məclisinin

Federasiya Şurası sədrinin müavini

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞDƏN

Zati-aliləri,

Sizi doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə ən xoş arzularımı çatdırır, cansağlığı, ali dövləti vəzifənizdə uğurlar diləyirəm.

Latviya ilə Azərbaycan arasında mövcud əməkdaşlığın möhkəm əsası olan qarşılıqlı maraq və səmimi dostluq münasibətlərinə söykənməsi məni məmnun edir. Ümid edirəm ki, bizim gələcək əməkdaşlığımız xalqlarımızın rifahı naminə daha da yüksək səviyyəyə çatacaqdır.

Cənab Prezident, ad gününüz münasibətilə Sizi bir daha təbrik edir, dərin ehtiramımı çatdırıram.

Hörmətlə,

Andris Berzinş

Latviya Respublikasının Prezidenti

PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN AZƏRBAYCANDAKI SƏFİRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mətyu Brayzəni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Səfir Mətyu Brayzə dövlətimizin başçısına anadan olmasının 50 illiyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycan Prezidenti İlham Əliyevin anadan olmasının 50 illiyi münasibətilə ABŞ Prezidenti Barak Obamanın dövlətimizin başçısına ünvanladığı təbrik məktubunu Birləşmiş Ştatların Azərbaycan ilə tərəfdaşlıq əlaqələrinə nə dərəcədə yüksək qiymət verməsinin göstəricisi kimi dəyərləndirdi. Azərbaycandakı diplomatik fəaliyyəti dövründə müxtəlif regionlara səfərlər etdiyini vurğulayan Mətyu Brayzə bu səfərlər zamanı ölkəmizin gözəl təbiətə, zəngin mədəniyyətə və müxtəlif dini-mənəvi dəyərlərə malik olduğunu müşahidə etdiyini dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirdi. Mətyu Brayzənin ölkəmizdəki diplomatik fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi, gələcək fəaliyyətində ona uğurlar arzuladı.

RUSİYA FEDERASİYASI KEMEROVO VİLAYƏTİNİN QUBERNATORU AMAN TULEYEVDƏN

Hörmətli cənab Prezident!

Sizin əlamətdar yubileyiniz - anadan olmağınızın 50 illiyi münasibətilə ən səmimi təbriklərimi qəbul edin!

Sizin bütün həyat yolunuz doğma ölkənizə fədakarlıqla xidmət etməyin yüksək nümunəsidir. Siz Azərbaycan Respublikasının Prezidenti vəzifəsində Azərbaycan xalqının rifahına qayğını və onun milli mənafelərinin qorunmasını öz həyat və fəaliyyətinizin əsas məqsədinə çevirmisiniz.

Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan indiyə qədər görünməmiş inkişaf sürəti nümayiş etdirir, güclü iqtisadi tərəqqini sosial xərclərin artırılması və xalqın maddi rifahının yüksəldilməsi ilə uzlaşdırır. Ölkənizin beynəlxalq nüfuzu da artır - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına seçilməsi yenilənmiş, müasir, güclü Azərbaycanın sülh və tərəqqi yolu ilə inamla irəlilədiyini bütün dünyaya göstərir.

Azərbaycanın son illərdə qazandığı uğurlar Sizin seçdiyiniz fəaliyyət xəttinin düzgünlüyünə, siyasi müdrikliyinizə və dövlət xadimi istedadınıza ən yaxşı sübutdur.

Hörmətli İlham Heydər oğlu, Sizə sibirlilərə xas olan möhkəm cansağlığı, doğma Vətənin rifahı naminə yeni şanlı işlər görmək üçün tükənməz yaradıcılıq enerjisi, etibarlı məsləkdaşlar arzulamaq istəyirəm.

Arzum budur ki, Siz həmişə sədaqətli dostların əhatəsində olasınız, evinizdən yaxınlarınızın hərarəti və diqqət əskik olmasın.

Sizə əziz olan hər kəsə firavanlıq və xoşbəxtlik diləyirəm!

Dərin hörmətlə,

Aman Tuleyev

Rusiya Federasiyası Kemerovo Vilayətinin qubernatoru

RUMİNİYANIN PREZİDENTİ TRAYAN BESESKUDAN

Cənab Prezident!

Yubileyiniz münasibətilə Sizə ən səmimi arzularımı çatdırır, xoşbəxtlik və uğurlar arzulayıram. Bu xoş gündə Sizə ölkənizin və xalqınızın rifahı naminə var qüvvə ilə çalışmağınız üçün möhkəm cansağlığı diləyirəm.

Zati-alilərı, Rumıniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin, eyni zamanda, şəxsi dostluğumuzun bundan sonra da inkişaf edəcəyinə əminliyimi bildirərək, Sizə dərin ehtiramımı çatdırmaq istərdim.

Hörmətlə,

Trayan Besesku

Rumıniyanın Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SEYNT-VİNSENT VƏ QRENADİNİN BAŞ NAZİRİ RALF QONZALVESİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Seynt-Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalvesi qəbul etmişdir.

Baş nazir Ralf Qonzalves Prezident İlham Əliyevə anadan olmasının 50 illiyi və ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə təbriklərini çatdırdı. Bakıda gedən sürətli inkişaf prosesinin şahidi olduğunu deyən qonaq ölkəsinin Azərbaycan ilə əlaqələri təhsil, turizm, sərmayə qoyuluşu, infrastruktur və digər sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi.

Dövlətimizin başçısı Seynt-Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalvesin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı.

MİLLİ MƏCLİSDƏ KEÇİRİLMİŞ GÖRÜŞLƏR

Yanvarın 13-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərovun ölkəmizdə rəsmi səfərdə olan Bosniya və Herseqovinanın xarici işlər naziri Sven Alkalayla görüşü oldu.

Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov qonağa Azərbaycan parlamentinin strukturu, fəaliyyəti, beynəlxalq qurumlardakı təmsilçiliyi, ikitərəfli münasibətləri barədə məlumat verərək iki ölkənin millət vəkillərinin əməkdaşlığının möhkəmləndirilməsinin vacibliyini qeyd etdi. Bildirdi ki, dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri, zəngin karbohidrogen ehtiyatlarına sahib olan Azərbaycan Avropa ilə sıx əməkdaşlıq edir. Ermənistanın işğalçılıq siyasətindən, Dağlıq Qarabağ münaqişəsindən danışan birinci vitse-spiker dedi ki, ölkəmizdə 1 milyon qaçqın və məcburi köçkün var. Ziyafət Əsgərov Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə bağlı BMT, Avropa Şurası və digər beynəlxalq qurumların qətnamə və qərarlarını xatırladaraq Ermənistanın həmin sənədlərə, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmədiyini qonağın diqqətinə çatdırdı.

Bakıda olduğu iki gün müddətində mühüm və səmərəli görüşlər keçirdiyini deyən Sven Alkalay Bosniya və Herseqovinanın Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Qonaq ümumdünya maliyyə böhranı şəraitində ölkəmizin sürətli iqtisadi inkişafından danışaraq diqqətə çatdırdı ki, Azərbaycanda neft və qaz sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına böyük önəm verilməsi çox gözəl və düzgün bir siyasətdir. Dağlıq Qarabağ münaqişəsindən danışan qonaq öz ölkəsinin də qaçqın problemi ilə üzləşdiyini vurğulayaraq, "ona görə biz sizi yaxşı başa düşürük", dedi. Əlavə etdi ki, Bosniya və Herseqovina Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Azərbaycan hər zaman BMT-də bu məsələ ilə bağlı Bosniya və Herseqovinanın dəstəyinə arxalana bilər.

Görüşdə hər iki tərəfin əməkdaşlığın inkişafı üçün mövcud potensialdan səmərəli istifadə edəcəyinə əminlik ifadə olundu.

Yanvarın 25-də Milli Məclislə USAİD-in birgə həyata keçirdiyi "Xoş gəldiniz" proqramı çərçivəsində IV çağırış Milli Məclisin yeni seçilmiş deputatları və Parlament Aparatının rəhbər işçiləri arasında görüş keçirildi.

Milli Məclisin Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi ilə birgə təşkil etdiyi bu görüşü açan Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov bildirdi ki, IV çağırış Milli Məclisə yeni seçilmiş deputatlarla təşkil olunan bu görüş parlament tarixində daha bir ənənənin təməlini qoydu. Ziyafət Əsgərov diqqətə çatdırdı ki, qanunvericilik fəaliyyəti və bu sahəyə aid digər istiqamətlərdə fikir mübadiləsi məqsədini daşıyan, Milli Məclisdə ilk dəfə keçirilən bu görüş millət vəkillərinin Parlament Aparatı strukturunda çalışanlarla daha səmərəli əməkdaşlığına yaxşı imkan yaradacaq. Birinci vitse-spiker parlamentin səlahiyyətləri, beynəlxalq əlaqələri, qanun layihələrinin müzakirəsi, deputatların yerlərdə seçicilərlə işi və digər məsələlərdən danışaraq dedi ki, bu gün parlamentin qəbul etdiyi qanun və qərarlar Avropa dəyərlərini də özündə əks etdirir. Qanun yaradıcılığı ilə məşğul olan Milli Məclis üzvləri həm də ölkəmizi nüfuzlu beynəlxalq qurumlarda təmsil edir. Milli Məclis 70-ə yaxın parlamentlərarası dostluq

qrupu ilə əməkdaşlıq edir.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirinin səlahiyyətlərini icra edən Adam Sterlinq Beynəlxalq İnkişaf Agentliyinin 2007-ci ildən Milli Məclislə əməkdaşlıq etdiyini və tərəfdaşlığa çevrilən münasibətlərdən məmnun olduqlarını söylədi. O, bu proqramın seçicilərlə millət vəkilləri arasında münasibətlərin möhkəmləndirilməsi və qanunverici orqanın fəaliyyətinin gücləndirilməsi üçün mövcud potensialdan yaxşı istifadəyə təkan vermək məqsədi daşıdığını diqqətə çatdırdı.

Çıxış edən Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev parlamentarizm, onun mahiyyəti, təşəkkül tarixi, dünyada mövcud olan parlament formaları, onların iş prinsipləri və Milli Məclisin hakimiyyət bölgüsündə yeri barədə ətraflı məlumat verdi. Səfa Mirzəyev dünyanın ən qədim parlamentləri, onların müasir parlamentarizmin inkişafındakı rolu barədə fikirlərini bölüşdü.

Beynəlxalq İnkişaf Agentliyinin Parlament Proqramının icraçı direktoru Aybəniz Məmmədova bu layihə çərçivəsində indiyədək ölkəmizdə görülmüş işlər, hazırlanmış kömək vəsaitlər və onların əhəmiyyəti barədə danışdı.

Çıxış edən Milli Məclisin İqtisadi siyasət Komitəsinin sədri Ziyad Səmədzadə, komissiya sədri Mübariz Qurbanlı, deputat Məlahət İbrahimqızı parlamentdə fəaliyyət göstərən 11 daimi komitənin və 2 komissiyanın fəaliyyətinin hüquqi əsaslarından, funksiyalarından, səlahiyyətlərindən, millət vəkillərinin statusundan, hüquq və vəzifələrindən, qanunların qəbulu prosedurlarından və digər məsələlərdən danışdılar.

Milli Məclis sədrinin müavini Bahar Muradova deputatın seçicilərlə işinin təşkili, seçki dairəsində problemlərin həlli, seçici maraqlarının müdafiəsi və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıqdan danışaraq bildirdi ki, deputat köməkçisi institutunun təsis edilməsi sayəsində seçicilərin istək və problemləri əsasən yerlərdə həll olunur ki, bu da parlamentə edilən müraciətlərin xeyli azalması ilə nəticələnib. O da qeyd olundu ki, son illər seçicilərin rəy və təkliflərini, ictimaiyyətin parlamet barəsində düşündüklərini öyrənmək məqsədilə keçirilən çoxsaylı tədbirlər yaxşı nəticələr verib.

Sonra Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev Parlament Aparatının funksiyası, onun işinin təşkili, srtukturu, deputatlarla birgə fəaliyyəti, onların lazımi məlumatlarla təmin olunması, ekspertlərin xidmətindən istifadə, deputat köməkçiləri institutu və digər məsələlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, bu işlərin həyata keçirilməsində Milli Məclisin İşlər İdarəsinin də xüsusi rolu vardır. Qeyd olundu ki, Milli Məclisin Aparatında 201 nəfər, İşlər İdarəsində isə 195 nəfər çalışır. Aparatda 12 şöbə, 1 katiblik, 1 xidmət və 28 sektor fəaliyyət göstərir.

Daha sonra Milli Məclis Aparatının şöbə müdirləri rəhbərlik etdikləri srtukturların qarşılarında duran vəzifələr, onların iş prinsipləri barədə deputatlara ətraflı məlumat verdilər.

Tədbirin sonunda deputatları maraqlandıran suallara aydınlıq gətirildi. Deputatlar belə görüşlərin keçirilməsinin faydasından danışdılar, bu tədbirin onların gələcək fəaliyyətlərinə müsbət təsir edəcəyini diqqətə çatdırdılar. Millət vəkilləri belə əhəmiyyətli görüşlərin təşkilinə görə Milli Məclisin Sədri Oqtay Əsədova təşəkkürlərini bildirdilər.

Görüşə yekun vuran Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev tədbirin əhəmiyyətindən, parlamentə yeni seçilmiş deputatlarla Aparatın işçiləri arasında qarşılıqlı əməkdaşlığın inkişafına müsbət təsirindən danışdı, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Yanvarın 25-də Milli Məclislə USAİD-in birgə həyata keçirdiyi "Xoş gəldiniz" proqramı çərçivəsində IV çağırış Milli Məclisin yeni seçilmiş deputatları və Parlament Aparatının rəhbər işçiləri arasında görüş keçirildi.

Milli Məclisin Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi ilə birgə təşkil etdiyi bu görüşü açan Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov bildirdi ki, IV çağırış Milli Məclisə yeni seçilmiş deputatlarla təşkil olunan bu görüş parlament tarixində daha bir ənənənin təməlini qoydu. Ziyafət Əsgərov diqqətə çatdırdı ki, qanunvericilik fəaliyyəti və bu sahəyə aid digər istiqamətlərdə fikir mübadiləsi məqsədini daşıyan, Milli Məclisdə ilk dəfə keçirilən bu görüş millət vəkillərinin Parlament Aparatı strukturunda çalışanlarla daha səmərəli əməkdaşlığına yaxşı imkan yaradacaq. Birinci vitse-spiker parlamentin səlahiyyətləri, beynəlxalq əlaqələri, qanun layihələrinin müzakirəsi, deputatların yerlərdə seçicilərlə işi və digər məsələlərdən danışaraq dedi ki, bu gün parlamentin qəbul etdiyi qanun və qərarlar Avropa dəyərlərini də özündə əks etdirir. Qanun yaradıcılığı ilə məşğul olan Milli Məclis üzvləri həm də ölkəmizi nüfuzlu beynəlxalq qurumlarda təmsil edir. Milli Məclis 70-ə yaxın parlamentlərarası dostluq qrupu ilə əməkdaşlıq edir.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirinin səlahiyyətlərini icra edən Adam Sterlinq Beynəlxalq İnkişaf Agentliyinin 2007-ci ildən Milli Məclislə əməkdaşlıq etdiyini və tərəfdaşlığa çevrilən münasibətlərdən məmnun olduqlarını söylədi. O, bu proqramın seçicilərlə millət vəkilləri arasında münasibətlərin möhkəmləndirilməsi və qanunverici orqanın fəaliyyətinin gücləndirilməsi üçün mövcud potensialdan yaxşı istifadəyə təkan vermək məqsədi daşıdığını diqqətə çatdırdı.

Çıxış edən Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev parlamentarizm, onun mahiyyəti, təşəkkül tarixi, dünyada mövcud olan parlament formaları, onların iş prinsipləri və Milli Məclisin hakimiyyət bölgüsündə yeri barədə ətraflı məlumat verdi. Səfa Mirzəyev dünyanın ən qədim parlamentləri, onların müasir parlamentarizmin inkişafındakı rolu barədə fikirlərini bölüşdü.

Beynəlxalq İnkişaf Agentliyinin Parlament Proqramının icraçı direktoru Aybəniz Məmmədova bu layihə çərçivəsində indiyədək ölkəmizdə görülmüş işlər, hazırlanmış kömək vəsaitlər və onların əhəmiyyəti barədə danışdı.

Çıxış edən Milli Məclisin İqtisadi siyasət Komitəsinin sədri Ziyad Səmədzadə, komissiya sədri Mübariz Qurbanlı, deputat Məlahət İbrahimqızı parlamentdə fəaliyyət göstərən 11 daimi komitənin və 2 komissiyanın fəaliyyətinin hüquqi əsaslarından, funksiyalarından, səlahiyyətlərindən, millət vəkillərinin statusundan, hüquq və vəzifələrindən, qanunların qəbulu prosedurlarından və digər məsələlərdən danışdılar.

Milli Məclis sədrinin müavini Bahar Muradova deputatın seçicilərlə işinin təşkili, seçki dairəsində problemlərin həlli, seçici maraqlarının müdafiəsi və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıqdan danışaraq bildirdi ki, deputat köməkçisi institutunun təsis

edilməsi sayəsində seçicilərin istək və problemləri əsasən yerlərdə həll olunur ki, bu da parlamentə edilən müraciətlərin xeyli azalması ilə nəticələnib. O da qeyd olundu ki, son illər seçicilərin rəy və təkliflərini, ictimaiyyətin parlamet barəsində düşündüklərini öyrənmək məqsədilə keçirilən çoxsaylı tədbirlər yaxşı nəticələr verib.

Sonra Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev Parlament Aparatının funksiyası, onun işinin təşkili, srtukturu, deputatlarla birgə fəaliyyəti, onların lazımi məlumatlarla təmin olunması, ekspertlərin xidmətindən istifadə, deputat köməkçiləri institutu və digər məsələlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, bu işlərin həyata keçirilməsində Milli Məclisin İşlər İdarəsinin də xüsusi rolu vardır. Qeyd olundu ki, Milli Məclisin Aparatında 201 nəfər, İşlər İdarəsində isə 195 nəfər çalışır. Aparatda 12 şöbə, 1 katiblik, 1 xidmət və 28 sektor fəaliyyət göstərir.

Daha sonra Milli Məclis Aparatının şöbə müdirləri rəhbərlik etdikləri srtukturların qarşılarında duran vəzifələr, onların iş prinsipləri barədə deputatlara ətraflı məlumat verdilər.

Tədbirin sonunda deputatları maraqlandıran suallara aydınlıq gətirildi. Deputatlar belə görüşlərin keçirilməsinin faydasından danışdılar, bu tədbirin onların gələcək fəaliyyətlərinə müsbət təsir edəcəyini diqqətə çatdırdılar. Millət vəkilləri belə əhəmiyyətli görüşlərin təşkilinə görə Milli Məclisin Sədri Oqtay Əsədova təşəkkürlərini bildirdilər.

Görüşə yekun vuran Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev tədbirin əhəmiyyətindən, parlamentə yeni seçilmiş deputatlarla Aparatın işçiləri arasında qarşılıqlı əməkdaşlığın inkişafına müsbət təsirindən danışdı, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.

Yanvarın 26-da Milli Məclisin Elm və təhsil komitəsində ölkəmizdə səfərdə olan Misir Elm və Təhsil Araşdırmaları Ümumhəmkarlar İttifaqının Prezidenti Elsaid Abou Elmagd Hamzanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş oldu.

Komitə sədrinin müavini Bəxtiyar Əliyev qonaqları salamladı və Milli Məclisin fəaliyyəti, qanunvericilik bazasının inkişafı, təmsil etdiyi komitənin işi, insan hüquq və azadlıqlarının qorunması, mövcud mətbuat və din azadlığı barədə ətraflı məlumat verdi. Bildirildi ki, Azərbaycan 20 ilə yaxındır ki, öz dövlət müstəqilliyini bərpa edib və sürətlə inkişaf edir. Bəxtiyar Əliyev qeyd etdi ki, Azərbaycan hökuməti və parlamenti Misirlə əlaqələrin inkişafına xüsusi önəm verir. O, orta məktəblərdə ərəb dilinin tədrisini, Abşeron rayonunda xüsusi ərəb dili təmayüllü məktəbin fəaliyyətini xalqlarımız arasındakı dostluğun bariz nümunəsi kimi dəyərləndirdi.

Sonra komitə sədrinin müavini qonaqlara xalqımızın ağrılı yeri olan Dağlıq Qarabağ problemindən söz açdı. Qeyd edildi ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır, 1 milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşayır. Dövlət tərəfindən bu insanlara hər cür yardım edilsə də, bütövlükdə münaqişə regionun inkişafına ciddi maneə törədir. Eyni zamanda bu, sülhə və təhlükəsizliyə ciddi təhdiddir.

Səmimi görüşə və ətraflı məlumata görə minnətdarlıq edən Elsaid Abou Elmagd Hamza bildirdi ki, ölkənizin sürətli inkişafı göz qabağındadır. İqtisadi inkişaf tempinə, regiondakı roluna görə başqalarından əsaslı surətdə fərqlənən Azərbaycan Misir üçün önəmli

ölkədir. Qonaq ölkəmizdə təhsilə və elmə olan münasibətdən razı qaldıqlarını xüsusi vurğuladı. Öz ölkəsinin Azərbaycanla möhkəm dostluq münasibətlərini daha da genişləndirmək niyyətini qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Fevralın 3-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Şurası Parlament Assambleyasının təşkilata üzv dövlətlər tərəfindən öhdəliklərin yerinə yetirilməsi üzrə Komitəsinin (Monitorinq Komitəsi) Azərbaycan üzrə həmməruzəçiləri Pedro Aqramunt Font de Moranı və Cozef Debono Qrexi qəbul etmişdir.

Spiker qonaqları səmimi salamlayaraq onları Azərbaycan parlamentində görməkdən məmnun olduğunu bildirdi. Qeyd edildi ki, ölkəmiz Avropa Şurası və onun Parlament Assambleyası ilə əməkdaşlığın inkişafına son dərəcə böyük əhəmiyyət verir. Biz Azərbaycanda demokratik təsisatların inkişafında və demokratik proseslərin dərinləşməsində AŞPA-nın rolunu əhəmiyyətli hesab edirik.

Söhbətdə Sədr vurğuladı ki, Avropa dəyərləri Azərbaycanda dövlət və cəmiyyət həyatının bütün sahələrinə nüfuz etmişdir. Bu il ölkəmiz quruma üzv olmasının 10 illiyini qeyd edir. Ötən dövrdə Azərbaycan Avropa ideallarına sadiqliyini real addımlarla nümayiş etdirmişdir. İndiyədək ölkəmiz Avropa Şurasının 49 sənədinə qoşulmuş və onları milli qanunvericilik sisteminə daxil etmişdir. Azərbaycan təşkilat qarşısında götürdüyü öhdəliklərə həmişə hörmətlə yanaşmış və onları sistemli şəkildə həyata keçirmişdir. Bu öhdəliklərin böyük əksəriyyəti artıq yerinə yetirilmişdir.

Biz gələcəkdə də təşkilatın müvafiq qurumları ilə əlaqələrimizi davam etdirmək niyyətindəyik. İnanırıq ki, AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçilərinin ölkəmizə budəfəki səfəri Azərbaycan haqqında ədalətli və qərəzsiz fikrin formalaşmasına öz müsbət təsirini göstərəcəkdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Pedro Aqramunt Font de Mora nümayəndə heyətinin üzvləri barədə Spikerə məlumat verdi. Qeyd edildi ki, Azərbaycana səfərin məqsədi ölkədəki ictimai-siyasi vəziyyəti yerində öyrənmək, ölkəmiz haqqında obyektiv informasiya almaq üçün maraqlı tərəflərlə fikir mübadiləsi aparmaqdır.

Qonaq Azərbaycandakı inkişafı yüksək qiymətləndirərək təmsil etdiyi təşkilatın ölkəmizdə demokratik təsisatların daha da möhkəmlənməsi işinə dəstək vermək niyyətində olduğunu vurğuladı.

Söhbətdə qonaqları maraqlandıran suallara ətraflı cavablar verildi.

Görüşdə ölkəmizdə demokratik proseslərin daha da dərinləşməsi, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Qəbulda Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, parlamentin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və digər rəsmi şəxslər iştirak edirdilər.

Fevralın 3-də Milli Məclisdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti üzvlərinin Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin ölkəmiz üzrə həmməruzəçiləri Pedro Aqramunt Font de Mora və Cozef Debono Qrex ilə görüşü keçirildi.

Ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qonaqları salamlayaraq, AŞPA-da nümayəndə heyətimizin yeni tərkibini təqdim etdi.

Nümayəndə heyətinin rəhbəri Avropa Şurası Parlament Assambleyasının bu günlərdə keçirilmiş qış sessiyasını xatırlayaraq tədbirin əhəmiyyətli və vacib hadisələrlə yadda qaldığını vurğuladı. Bildirildi ki, sessiya çərçivəsində qurumun Büro iclasında Dağlıq Qarabağ üzrə Alt Komitənin fəaliyyətinin yenidən bərpa edilməsi məsələsi müzakirə olundu. Sessiyada keçən ilin noyabrında ölkəmizdə keçirilmiş parlament seçkiləri ilə bağlı məruzə təqdim edildi və seçkilərin beynəlxalq standartlara uyğun olduğu bildirildi. Söhbətdə Səməd Seyidov dedi ki, bu il Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasından 10 il ötür və bu əlamətdar hadisəyə həsr olunmuş bir sıra tədbirlər təşkil olunub.

Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin məruzəçisi Pedro Arqamunt Font de Mora səfərin təşkilinə və səmimi qəbula görə nümayəndə heyəti adından təşəkkürünü bildirdi. Qonaq Azərbaycanın AŞPA-da təmsil olunan deputatlarının fəaliyyəti barədə xoş sözlər söylədi. Bildirildi ki, nümayəndə heyətinin üzvləri qurumun sessiyalarında, komitələrinin iclaslarında fəal iştirak edir, müzakirə olunan məsələlərə obyektiv münasibət bildirirlər.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, ölkəmizdə hazırkı ictimai-siyasi durum barədə fikir mübadiləsi aparıldı.

Fevralın 3-də Milli Məclisdə siyasi partiyaların təmsilçiləri və bitərəf deputatların ölkəmizdə səfərdə olan AŞPA-nın quruma üzv dövlətlər tərəfindən öhdəliklərin yerinə yetirilməsi üzrə komitəsinin (Monitorinq Komitəsi) həmməruzəçiləri Pedro Arqamunt Font de Mora və Cozef Debono Qrexlə görüşü oldu.

YAP-dan olan deputat Mübariz Qurbanlı qonaqları səmimi salamladı. Bildirdi ki, Milli Məclisin yeni tərkibi Azərbaycanın siyasi palitrasını əks etdirir. Parlamentdə 10-a yaxın siyasi partiya təmsil olunur. Ölkənin ən böyük siyasi partiyası olan YAP-ın 71 üzvü parlamentə mandat alıb. Heç bir siyasi mənsubiyyəti olmayan bitərəf deputatların sayı 40-dan artıqdır. Sonra o, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsindən söz açdı.

Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı çıxışında Azərbaycan parlamentinin qəbul etdiyi qanunların beynəlxalq standartlara uyğunlaşdırıldığını vurğuladı. Bildirildi ki, Venesiya Komissiyası və Avropa Şurasının digər təsisatları ilə qarşılıqlı əməkdaşlığımız yüksək səviyyədədir. Parlamentdə qanun layihələri hazırlanarkən bu qurumlardan gələn bütün təkliflərə həssaslıqla yanaşılır.

Vətəndaş Həmrəyliyi Partiyasının üzvü Rəfail Hüseynov bu günlərdə Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsinin 10 ili tamam olduğunu qeyd etdi.

Azərbaycanın ictimai-siyasi mühitində bu nüfuzlu təşkilatla əlaqələrin böyük faydası olduğu fikri formalaşıb. Deputat yeni həmməruzəçilərə fəaliyyətlərində uğurlar arzuladı və monitorinq altında olan Azərbaycana daim obyektiv və ədalətli mövqedən yanaşacaqlarına ümidvar olduğunu bildirdi.

Görüşdə iştirak edən deputat Azay Quliyev müzakirə olunan məsələlərə bitərəf deputatların mövqeyini açıqladı.

Pedro Arqamunt Font de Mora səmimi görüşə görə minnətdarlığını ifadə etdi. AŞPA-da İspaniya Senatını təmsil etdiyini deyən qonaq ölkəmizə ictimai-siyasi vəziyyətə dair fikir mübadiləsi aparmaq məqsədi ilə gəldiklərini bildirdi. O, Azərbaycanda müşahidə olunan dinamik inkişafı yüksək qiymətləndirdi.

Sonra görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, regionda və dünyada sülhün bərqərar olması üçün atılan addımlar, bu istiqamətdə səylərin gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Fevralın 7-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Fransa-Azərbaycan işçi qrupunun üzvlərini qəbul etmişdir.

Spiker qonaqları səmimi salamlayaraq müstəqil Azərbaycanın dostlarını Milli Məclisdə görməyindən məmnun olduğunu vurğuladı. Bildirildi ki, bu cür səfərlər münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir. Sədr Avroatlantik məkana inteqrasiyanı ölkənin xarici siyasətində prioritet istiqamətlərdən olduğunu söylədi.

Qeyd edildi ki, Azərbaycan və Fransa xalqları arasında dostluq əlaqələrinin qədim tarixi kökləri var. Vaxtilə məşhur fransız yazıçısı Aleksandr Düma Qafqaza səyahət edərkən Azərbaycanda gördüklərini böyük ustalıqla qələmə alaraq Fransa oxucularına çatdırmışdır. O dövrlərdə yaşayan Azərbaycan mütəfəkkirlərinin əsərləri də Fransa mətbuatında mütəmadi dərc olunurdu. İkinci Dünya müharibəsində azərbaycanlılar fransızlarla yanaşı onların azadlıq mücadiləsinə öz töhfələrini vermişlər. Həmyerlilərimizdən Əhmədiyyə Cəbrayılov bu mübarizədə göstərdiyi şücaətə görə Fransanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Azərbaycan müstəqillik əldə etdikdən sonra münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Avropanın bu ölkəsi ilə əlaqələrin hərtərəfli inkişafına böyük önəm verir. Heç də təsadüfi deyildir ki, 2009-cu ildə dünya iqtisadiyyatı böhranla üzləşdiyi bir dövrdə Azərbaycanla Fransa arasında ticarət dövriyyəsi 2 milyard avroya yaxınlaşmışdı. Fransa şirkətləri Xəzərin karbohidrogen ehtiyatlarının hasil edilməsində yaxından iştirak edirlər.

Spiker daha sonra qeyd etdi ki, əməkdaşlığımızın daha da dərinləşməsi üçün möhkəm hüquqi baza mövcuddur. Bu günədək ölkələrimiz arasında 35 sənəd imzalanmışdır. Dövlətlərarası münasibətlər sistemində özünəməxsus yeri olan parlamentlərarası əlaqələrimiz də inkişaf etməkdədir. Təqdirəlayiq haldır ki, hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Bu qruplar təcrübə və informasiya mübadiləsi baxımından əhəmiyyətlidirlər.

Söhbətdə Spiker bu gün dinamik inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi prob-

lemi olduğunu diqqətə çatdırdı. O, senator Natali Quleyə müraciət edərək dedi: "Fürsətdən istifadə edərək biz Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar həqiqətləri Fransa Senatında səsləndirdiyinizə görə Sizə öz minnətdarlığımızı bildiririk. Bu məsələ ilə əlaqədar Xarici İşlər Nazirliyinə ünvanladığınız sualları biz yüksək dəyərləndiririk. Ümidvarıq ki, əməkdaşlığımız gələcəkdə də uğurla davam etdiriləcək."

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq təmsil etdiyi qrupun üzvlərini Spikerə təqdim etdi. Bildirildi ki, Fransa-Azərbaycan işçi qrupunda senatorlarla yanaşı müxtəlif peşə sahibləri təmsil olunmuşdur. Söhbətdə qonaq dedi: "Niyyətimiz heç də parlamentdə yaradılmış dostluq qrupu ilə rəqabət aparmaq deyil. Məqsədimiz Fransa-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə yeni töhfə verməkdir."

Azərbaycandakı inkişafdan məmnun qaldığını vurğulayan xanım Natali Qule iki ölkə arasında münasibətlərin böyük gələcəyi olduğuna inamını ifadə etdi.

Söhbətdə ikitərəfli əməkdaşlığın bu günü və gələcək inkişaf perspektivləri, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, senator Andre Vilie, Fransanın ölkəmizdəki keçmiş səfiri Jan-Pyer Qinyut və digər rəsmi şəxslər iştirak edirdilər.

Fevralın 8-də Milli Məclisin Spikeri Oqtay Əsədov Litva Seyminin Sədri xanım İrena Dyaqutyenenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Sədr Litva nümayəndə heyətini Azərbaycan parlamentində görməkdən məmnun olduğunu söyləyərək, dəvəti qəbul edib ölkəmizə rəsmi səfər etdiyinə görə xanım İrena Dyaqutyeneyə öz təşəkkürünü bildirdi. Spiker belə bir inamı ifadə etdi ki, bu səfər ikitərəfli əlaqələrimizin inkişafına öz töhfəsini verəcək. Oqtay Əsədov 2009-cu ildə Litvaya səfəri zamanı orada təşkil olunmuş parlament sədrlərinin görüşündə iştirakını xatırlayaraq bu cür tədbirlərin parlamentlərarası əlaqələrin inkişafında mühüm rol oynadığını qeyd etdi.

Söhbətdə bildirildi ki, Azərbaycan-Litva əlaqələri dinamik inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə təkan vermişdir. Siyasi, iqtisadi sahələrdə əlaqələrimizin daha da dərinləşməsi üçün geniş imkanlar vardır. Ancaq ölkələrimiz arasındakı bugünkü ticarət dövriyyəsi mövcud potensiala cavab vermir. Bu gün Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə sərmayə qoyuluşu üçün əlverişli imkanlar mövcuddur. Təkcə neft sahəsində deyil, kənd təsərrüfatı, turizm, humanitar sahələrdə də əlaqələrimizi genişləndirmək xalqlarımızın ümumi mənafeyinə uyğundur.

Sədr özünün iqtisadi inkişaf səviyyəsinə görə yerləşdiyi bölgədə söz sahibi olan Azərbaycanın Dağlıq Qarabağ kimi problemi olduğunu qonağın diqqətinə çatdırdı. Bildirildi ki, biz Litvanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndiririk. Ümid edirik ki, bu il ATƏT-ə sədrlik edən Litva problemin ədalətli həllinə öz töhfəsini verəcək.

Spiker qeyd etdi ki, Azərbaycan ATƏT-in Minsk qrupundan qeyri-adi heç nə istəmir.

Biz məsələyə beynəlxalq hüququn tələblərinə uyğun, qərəzsiz mövqedən yanaşmanın tərəfdarıyıq. Azərbaycanın 20 faiz ərazisini işğal etmiş Ermənistan BMT-nin 4 qətnaməsinə, problemlə bağlı nüfuzlu beynəlxalq qurumların qərarlarına məhəl qoymayaraq işğalçılıq siyasəti yeritməkdə davam edir. Biz beynəlxalq ictimaiyyəti bu məsələdə obyektiv olmağa çağırırıq.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq Azərbaycan parlamentində olmaqdan məmnunluğunu dilə gətirdi. Qeyd edildi ki, Azərbaycan qısa zaman kəsiyində böyük inkişaf yolu keçmişdir. Cənubi Qafqazın bu ölkəsi Litva üçün çox maraqlıdır. Sabah Bakıda keçiriləcək Litva-Azərbaycan Biznes Forumu da əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım olacaq.

Xanım İrena Dyaqutyene ölkələrimiz arasında tələbə mübadiləsinin, hüquq-mühafizə orqanları və parlament aparatları arasında əlaqələrin genişləndirilməsinin yaxın zaman üçün perspektiv planda olduğunu ifadə etdi. Bildirildi ki, Avropa İttifaqının müxtəlif layihələri çərçivəsində gələcəkdə də əməkdaşlığımız davam etdiriləcək.

Azərbaycan Litvanın enerji təhlükəsizliyi baxımından çox əhəmiyyətli ölkədir. Xəzərin karbohidrogen ehtiyatlarının hasilatı, Avropaya, o cümlədən Litvaya çatdırılması diqqət mərkəzində olan məsələlərdəndir.

Söhbətdə Dağlıq Qarabağ problemindən söz açan qonaq Litvanın Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyini bir daha bəyan etdi. O, qarşıdan gələn yaz sessiyasında Litva Seymində Dağlıq Qarabağ məsələsi ilə əlaqədar qətnamənin qəbul olunacağını diqqətə çatdırdı.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, sədr müavinləri Bahar Muradova, Valeh Ələsgərov, ölkəmizin Litvadakı səfiri Nairə Şahtaxtinskaya, Litvanın fövqəladə və səlahiyyətli səfiri Kestutis Kudzmanas və digər rəsmi şəxslər iştirak edirdilər.

Fevralın 12-də Milli Məclisin Sədri Oqtay Əsədov ATƏT PA-nın vitse-prezidenti Volfqanq Qrossrukun başçılığı ilə qurumun seçki sonrası missiyasının üzvlərini qəbul etdi.

Parlamentin Sədri qonaqları səmimi salamlayaraq müstəqil Azərbaycanın ATƏT və onun qurumları ilə əlaqələrin inkişafına böyük önəm verdiyini söylədi. Spiker Volfqanq Qrossrukla Azərbaycandakı parlament seçkilərindən öncə görüşünü xatırlayaraq ölkənin qanunvericilik orqanının fəaliyyətə başladığını və ATƏT PA-da Milli Məclis Sədrinin müavini Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyətinin formalaşdığını diqqətə çatdırdı.

Sədr seçki prosesi ilə əlaqədar qonağa obyektiv mövqeyinə görə minnətdarlığını bildirdi. Qeyd edildi ki, onun hazırladığı hesabatda müsbət məqamlarla yanaşı, bir sıra qüsurlar da öz əksini tapmışdır. Demokratiya yolunda addımlayan Azərbaycanda seçkilərin beynəlxalq standartlara uyğunluğu və seçki texnologiyalarından səmərəli istifadə qeyd edilmişdir. Biz gələcəkdə hesabatda göstərilən iradları aradan qaldırmağa çalışacağıq.

Söhbətdə Sədr təəssüflə qeyd etdi ki, ATƏT-in bəzi qurumları seçki prosesinə qeyri-obyektiv və qərəzli mövqedən yanaşırlar. Belə bir fikir vurğulandı ki, müşahidə missiyası

seçki prosesini müşahidə etmək üçün yaradılmışdır. Ancaq ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu müşahidə əvəzinə təftiş aparmaqla məşğul olur. Hətta bu zaman hesabatındakı qərəzlilik və birtərəfli mövqe özünü aydın şəkildə büruzə verir.

Spiker qeyd etdi ki, qurumun təmsilçisi ilə keçirilən görüşdə də bildirilmişdir ki, əgər onlar həmişəki kimi məsələyə birtərəfli yanaşacaqlarsa, bu, ancaq təəssüf doğuracaq. Hadisələrin sonrakı gedişi göstərdi ki, Büronun təmsilçiləri seçki prosesi zamanı ancaq müxalifət nümayəndələri ilə görüşmüş, hesabatı hazırlayarkən onların əsassız fikirlərinə istinad etmişlər.

Maraqlıdır ki, Ermənistanda insan tələfatı və həbslərlə müşayiət olunan seçkiləri irəliyə doğru addım adlandıran DTİH Bürosu Azərbaycandakı irəliləyişi görmək istəməmişdir. Bu isə bizdə bu qurumun obyektivliyinə böyük şübhələr yaratmışdır. İnanırıq ki, ATƏT-in növbəti sessiyasında Azərbaycandakı parlament seçkiləri ilə bağlı məsələ müzakirə olunarkən prosesə obyektiv münasibətin şahidi olacağıq.

Sədr Avropaya inteqrasiyanın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olduğunu bir daha qonağın diqqətinə çatdırdı. Qeyd edildi ki, bəzi qüvvələr bu inteqrasiyaya, ölkəmizin Avropa dəyərlərinin mənimsəməsinə maneçilik törətməyə çalışırlar. Çox təəssüf ki, ATƏT kimi nüfuzlu bir təşkilatda yüksək vəzifədə təmsil olunan bəzi şəxslər özlərinin qeyri-obyektiv, qərəzli mövqeləri ilə bu kimi hallara rəvac verirlər. Bu səbəblərdən də bu qurumların hazırladıqları rəylər birtərəfli, çox vaxt isə həqiqətdən uzaq olur.

Spiker ATƏT-in daxilindəki bu kimi halların müzakirə olunmasının və anlaşılmazlıqların aradan qaldırılmasının vaxtı çatmış məsələ olduğunu söylədi. Bildirildi ki, Avropanın enerji təhlükəsizliyi sistemində özünəməxsus yer tutan, Avratlantik məkana inteqrasiya yolu seçmiş Azərbaycanın obyektiv, qərəzsiz münasibətə haqqı vardır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq Azərbaycan parlamentində olmağından məmnunluğunu ifadə etdi. Volfqanq Qrossruk yeni seçilmiş Azərbaycan parlamentinin fəaliyyətə başlaması münasibəti ilə öz xoş arzularını çatdırdı. Qeyd edildi ki, ATƏT seçkiləri müşahidə edərkən əsas məqsəd həmin ölkədə demokratiyanın hərtərəfli inkişafına yardımçı olmaqdır. Proses barədə vahid rəyin formalaşması üçün missiyaya daxil olan nümayəndə heyətlərinin hamısı ilə fikir mübadiləsi aparmaq çox əhəmiyyətlidir. Çünki bu, seçki kimi mühüm bir siyasi prosesə vahid qiymət vermək nöqteyi-nəzərindən çox önəmlidir. ATƏT PA-nın vitse-spikeri qurumun DTİH Bürosu ilə bu məsələ ilə əlaqədar gərgin müzakirələr keçirildiyini söylədi.

Qonaq xüsusi vurğuladı ki, Azərbaycanda apardığı müşahidələr onda belə bir fikir formalaşdırmışdır ki, seçki prosesi irəliyə doğru addım olub, proses zamanı həm müsbət, həm də qüsurlu hallar qeydə alınmışdır. Bildirildi ki, ATƏT öz tövsiyələrini hazırlayarkən hansısa ölkəyə hazır demokratiya resepti verməkdən uzaqdır. Bu, sadəcə olaraq, həmin ölkədə demokratik təsisatların inkişaf etməsinə yardım xarakteri daşıyır.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə vitse-spiker Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, ATƏT PA-nın Vyanadakı xüsusi nümayəndəsi Andreas Notelle və digər rəsmi şəxslər iştirak edirdilər.

Fevralın 11-də Milli Məclis Sədrinin müavini Bahar Muradova ölkəmizdə səfərdə olan ATƏT PA-nın Sədr müavini Volfqanq Qrossrukla görüşdü.

Vitse-spiker qonağı səmimi salamlayaraq bu səfərin münasibətlərimizin inkişafı baxımından əhəmiyyətli olduğunu vurğuladı. O, qonağa Azərbaycanda parlament seçkilərinə göstərdiyi diqqətə və müşahidə missiyasının əlaqələndiricisi kimi səylərinə görə təşəkkürünü ifadə etdi. Bildirildi ki, Azərbaycan tərəfi onun seçkilərə verdiyi dəyəri, o cümlədən bir sıra beynəlxalq qurumların tutduğu mövqe ilə əlaqədar tənqidi fikirlərini yaxşı xatırlayır. Bu isə öz növbəsində Volfqanq Qrossrukun obyektivliyindən xəbər verir.

Parlament sədrinin müavini qeyd etdi ki, seçkilərlə əlaqədar bir sıra təşkilatların, o cümlədən qonağın rəyi ilə tanışdır. Çox təəssüf ki, təşkilatın müşahidə missiyası ilə ayrı-ayrı deputatların fikirləri üst-üstə düşmür. Bəziləri müəyyən nöqsanları həddən artıq şişirtməyə çalışır. Bahar Muradova qeyd etdi ki, seçki prosesində müəyyən qüsurlar olmasına baxmayaraq bu, seçkilərin nəticələrinə təsir göstərməmişdir. Ölkədə istənilən siyasi kampaniyanın şəffaf, demokratik keçirilməsində ilk növbədə Azərbaycan tərəfi özü maraqlıdır.

Söhbətdə vitse-spiker belə bir fikir söylədi ki, ATƏT-in bəzi təmsilçilərinin məsələ ilə əlaqədar tutduqları qeyri-konstruktiv mövqe ilə əlaqədar qonağın qurum rəhbərliyinə ünvanladığı məktublardan xəbərdardır və buna görə ona təşəkkür edir.

Bahar Muradova qeyd etdi ki, ATƏT məkanında dünyanın müxtəlif bölgələrindəki ictimai-siyasi proseslər, münaqişələr müzakirə edilir. Amma təşkilatın içərisində bu cür hallar nəzərdən keçirilmir. Görünür, qurumun özündə strukturlar arasındakı əlaqələrə yenidən baxılmalıdır. Bu sahədəki uyğunsuzluq ATƏT-in öz nüfuzuna da xələl gətirir.

Bildirildi ki, ATƏT PA-nın qarşıdakı sessiyasında Azərbaycanda keçirilmiş parlament seçkilərinin nəticələrinə dair müzakirələr aparılacaq. Vitse-spiker Vyanada konstruktiv əməkdaşlığa əsaslanan obyektiv müzakirələr keçiriləcəyinə inandığını diqqətə çatdırdı.

Volfqanq Qrossruk Azərbaycanda onlara göstərilən xoş münasibətdən razılığını ifadə edərək bildirdi ki, onun təmsil etdiyi qurum hər hansı bir ölkədə seçkiləri müşahidə edərkən məqsəd demokratiyanın inkişafına yardım etməkdir. Azərbaycan sürətlə inkişaf edir, həm iqtisadi, həm də demokratiya sahələrində uğurlar var. Azərbaycan beynəlxalq ictimaiyyətin dəstəyinə layiq olan bir ölkədir.

Söhbətdə qonaq belə bir fikri vurğuladı ki, ölkədəki proseslərə qiymət verərkən onun yerləşdiyi regiondakı vəziyyəti nəzərdən qaçırmaq olmaz. Bu, çox vacib amildir.

Sonra görüşdə parlament seçkilərinin nəticələri, əməkdaşlığın gələcək inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Fevralın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov Kubanın xarici işlər naziri Bruno Rodriges Pariyanı qəbul etmişdir.

Sədr qonağı səmimi salamlayaraq onu Azərbaycan parlamentində görməyindən məmnun olduğunu söylədi. O, ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək. Spiker ölkə başçısı cənab İlham Əliyevin Azərbaycanın dünya dövlətləri, o cümlədən Kuba ilə əlaqələrin inkişafına önəm verdi-

yini söylədi. Qeyd edildi ki, elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığımız uğurlu nəticələr verməkdədir. Vaxtilə Azərbaycanda minə yaxın kubalı tələbə təhsil alıb. Kubada Azərbaycanda təhsil almış tələbələrin assosiasiyasının yaradılması təqdirəlayiq haldır.

Sədr qeyd etdi ki, iqtisadi sahədə əməkdaşlığımızın daha da dərinləşməsi üçün geniş imkanlar vardır. Bu sahəni ölkələrimizin potensialına uyğun səviyyəyə qaldırmaq üçün Hökumətlərarası Komissiyada məqsədyönlü addımlar atılmaqdadır. Bu günədək ölkələrimiz arasında imzalanmış 8 sənəd münasibətlərimizin hüquqi bazasını təşkil edir.

Spiker vurğuladı ki, əlaqələrimizin daha da dərinləşməsində parlamentlərin rolu əhəmiyyətlidir. Qanunvericilik orqanlarında əlaqələr üzrə dostluq qruplarının yaradılması informasiya mübadiləsi baxımından çox önəmlidir. Deputatların qarşılıqlı səfərləri, beynəlxalq qurumlarda müxtəlif məsələlər üzrə fikir mübadiləsi aparması ümumi işin xeyrinə olar.

Söhbətdə Milli Məclisin Sədri vurğuladı ki, bu gün Azərbaycan neft və qaz hasil edən ölkə kimi tanınır. Hələ sovetlər dönəmində Bakıda neft və qaz sahələri üzrə təhsil alan tələbələr bu gün dünyanın müxtəlif bölgələrində, o cümlədən Kubada müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Azərbaycan Neft Akademiyasının tələbələri vaxtilə keçmiş İttifaqın rəhbərliyində məsul vəzifələrdə çalışmışlar. Bu gün də Azərbaycan neftçiləri dünyanın diqqətini özlərinə cəlb etməkdədirlər. Bizim mütəxəssislər kubalı həmkarları ilə faydalı təcrübə mübadiləsi apara bilərlər.

Spiker bildirdi ki, müstəqillik əldə etdikdən sonra ölkəmiz bütöv bir regionun iqtisadi simasını dəyişə biləcək qlobal layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Azərbaycan sürətlə inkişaf etməkdədir. Bununla yanaşı, ölkəmizin Dağlıq Qarabağ kimi problemi vardır. Biz münaqişənin həllində Kubanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndiririk.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Kubanın xarici işlər naziri Azərbaycanda keçirilən görüşlərin əlaqələrimizin inkişafına müsbət təsir edəcəyinə inamını ifadə etdi. Bruno Rodriges Pariya Kubanın Cənubi Qafqazın sürətlə inkişaf edən ölkəsi - Azərbaycanla münasibətlərin dərinləşməsinə böyük önəm verdiyini söylədi. O, səfər zamanı aparılan danışıqlar barədə Spikerə məlumat verdi, əməkdaşlığımızın gələcək inkişaf perspektivləri barədə fikirlərini açıqladı. Qeyd edildi ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, təhsil, tibb, neft və qaz sənayesi sahələrində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar mövcuddur.

Bildirildi ki, regionun hərtərəfli inkişafına maneçilik törədən Dağlıq Qarabağ probleminin həllində onun ölkəsi beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunmasının tərəfdarıdır. Kuba Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Qonaq Azərbaycan həqiqətlərini Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrinə çatdırılmasında bizə yardımçı olacağını diqqətə çatdırdı.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin Kubadakı səfiri Aqşin Mehdiyev, Kubanın ölkəmizdəki səfiri Marselo Torres və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 2-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanov ilə görüşdü.

Qonağı səmimi salamlayan parlamentin Sədri bu səfərin qarşılıqlı əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə inamını ifadə etdi. Spiker qonağa Tatarıstanın Prezidenti kimi fəaliyyətində uğurlar arzuladı. Qeyd edildi ki, xalqlarımız arasında əlaqələrin qədim tarixi kökləri var. Mədəniyyət, elm-təhsil sahəsindəki əməkdaşlığımız buna parlaq misaldır. Azərbaycan Rusiya Federasiyası, o cümlədən onun subyektləri ilə əməkdaşlığın dərinləşməsinə böyük əhəmiyyət verir.

Spiker iqtisadi sahədə əlaqələrimizin möhkəmlənməsində Hökumətlərarası Komissiyanın əhəmiyyətini vurğuladı. Qeyd edildi ki, Azərbaycanla Tatarıstan arasındakı ticarət dövriyyəsinin həcmi bir sıra dövlətlərlə müqayisədə çoxdur. Bununla yanaşı, biz mövcud potensialdan səmərəli istifadə etmək niyyətindəyik. Maşınqayırma, neft-kimya və digər sahələrdə bunun üçün geniş imkanlar var.

Sədr parlamentlərin dövlətlərarası münasibətlər sistemində əhəmiyyətli rol oynadığını diqqətə çatdırdı. Bildirildi ki, Milli Məclisdə Rusiya parlamenti ilə əlaqələr üzrə işçi qrupu mövcuddur. Belə bir qrup Rusiya parlamentində də yaradılıb. Zənnimizcə, qrupun tərkibində Tatarıstan parlamenti ilə də əlaqələrimizi inkişaf etdirə bilərik. Təcrübə və informasiya mübadiləsi baxımından bu cür əməkdaşlıq çox əhəmiyyətlidir.

Spiker vaxtilə Azərbaycan və Tatarıstan ziyalıları arasında sıx əlaqələrin mövcudluğundan söhbət açaraq bu ənənəni davam etdirməyin əhəmiyyətindən danışdı. Bildirildi ki, tatar xalqının böyük şairi H.Tukayın 125 illik yubileyi cari ildə Bakıda da böyük təntənə ilə qeyd ediləcəkdir. Tatarıstanda Azərbaycan günlərinin keçirilməsi də mədəniyyət sahəsində əməkdaşlığımızın dərinləşməsindən xəbər verir.

Söhbətdə Dağlıq Qarabağ münaqişəsinin regionun inkişafına böyük maneçilik törətdiyini söyləyən Sədr Azərbaycan tərəfinin problemin ədalətli həllinə inandığını qeyd etdi. O, ümidvar olduğunu bildirdi ki, bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya münaqişənin həllinə obyektiv yanaşacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Tatarıstan Prezidenti Rustam Minnixanov Azərbaycana səfərindən məmnun qaldığını söylədi. O, ölkəmizə ikinci dəfə səfər etdiyini və Azərbaycandakı inkişafa heyran qaldığını ifadə etdi. Bildirildi ki, Milli Məclisin inzibati binasında deputatlar üçün yaradılmış şəraitə yüksək inkişaf etmiş ölkələrin parlamentariləri də həsəd apara bilərlər. Bütün bunlar Azərbaycanın günbəgün artan iqtisadi qüdrətindən xəbər verir.

Qonaq Rusiya Federasiyasının subyekti kimi Tatarıstanın Azərbaycanla həyatın müxtəlif sahələrində əməkdaşlığa böyük maraq göstərdiyini qeyd etdi. Bildirdi ki, Tatarıstanın bir sıra müəssisələri Azərbaycanda fəaliyyətlərini genişləndirmək niyyətindədirlər. Dünyada tanınmış KAMAZ avtomobil zavodunun artıq bu sahədə Azərbaycanda müsbət təcrübəsi vardır.

Tatarıstan Prezidenti parlamentlər səviyyəsində əlaqələrin inkişafını önəmli hesab edərək bu sahənin daha da inkişafı üçün zəruri addımların atılmasının vacibliyini söylədi. Qeyd edildi ki, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri xalqlarımızın rifa-

hı naminə ümumi işə öz müsbət töhfəsini verər.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, parlamentin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə, Rusiya Federasiyasının Azərbaycandakı səfiri Vladimir Doroxin, Tatarıstanın ölkəmizdəki daimi nümayəndəsi Nail Zaripov və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 10-da Milli Məclisin Sədri Oqtay Əsədov Albaniya Baş nazirinin müavini və xarici işlər naziri Edmond Hacinastonla görüşdü.

Spiker qonağı səmimi salamlayaraq onu Milli Məclisdə görməyindən məmnun olduğunu söylədi. Sədr belə bir inamını ifadə etdi ki, Albaniya nümayəndə heyətinin bu səfəri əlaqələrimizin inkişafına yeni töhfə verəcək. Bildirildi ki, dövlət başçılarının görüşləri və aparılan danışıqlar əməkdaşlığımızın dərinləşməsində mühüm rol oynayır. Azərbaycan Albaniya ilə əlaqələrin inkişafında maraqlıdır.

Ölkələrimiz arasında imzalanmış sənədlər gələcək münasibətlərimizin daha da dərinləşməsi üçün hüquqi baza yaradır. Sədr iqtisadi sahədə əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini, bu sahədə böyük potensial imkanlar olduğunu diqqətə çatdırdı.

Qeyd edildi ki, ölkələrimiz arasında əlaqələrin dərinləşməsində parlamentlərin rolu əhəmiyyətlidir. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirə layiqdir. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir. Sədr qeyd etdi ki, deputatlarımız nüfuzlu beynəlxalq qurumlarda tez-tez görüşür, prinsipial məsələlərdə bir-birini dəstəkləyirlər.

Spiker söhbətdə sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı problemi olduğunu qonağın nəzərinə çatdırdı. Bildirildi ki, erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, 1 milyondan çox insan öz ata-baba yurdundan qovulmuşdur. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq. İnanırıq ki, beynəlxalq birliyin dəstəyi ilə münaqişə tezliklə öz məntiqi həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Albaniya Baş nazirinin müavini və xarici işlər naziri Edmond Hacinaston Azərbaycanda gördüyü qonaqpərvərlikdən məmnun qaldığını söylədi. O, ölkəmizin sürətlə inkişaf etdiyini və Albaniyanın Azərbaycanla həyatın müxtəlif sahələrində əməkdaşlığa maraq göstərdiyini qeyd etdi. Bildirildi ki, ticarət və iqtisadiyyat sahələrində mövcud potensialdan istifadə olunması xalqlarımızın mənafeyinə cavab verir.

Qonaq dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolunu xüsusi vurğulayaraq qanunverici orqanlar arasında yaranmış münasibətlərin gələcəkdə davam etdirilməsinin əhəmiyyətli olduğunu ifadə etdi.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə ölkəmizin Albaniyadakı səfiri Rəhman Mustafayev və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 11-də Milli Məclisin Sədri Oqtay Əsədov ABŞ-ın ölkəmizdə yeni təyin olunmuş səfiri Metyu Brayzanı qəbul etdi.

Parlamentin Spikeri qonağı səmimi salamlayaraq ona yeni diplomatik fəaliyyətində uğurlar arzuladı. Sədr ümidvar olduğunu bildirdi ki, yeni səfir ABŞ-Azərbaycan münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcək.

Söhbətdə qeyd edildi ki, Avroatlantik məkana inteqrasiya hüquqi, dünyəvi dövlət quruculuğunda mühüm nailiyyətlər əldə etmiş Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Bu gün ölkəmiz dünyanın aparıcı dövlətləri ilə həyatın müxtəlif sahələrində əməkdaşlıq edir. Biz ABŞ-la münasibətlərimizi daha da inkişaf etdirmək niyyətindəyik. İqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız təqdirə layiqdir. ABŞ şirkətləri Azərbaycanda həyata keçirilən genişmiqyaslı layihələrdə iştirak edirlər.

Görüşdə Sədr parlamentlərin dövlətlərarası münasibətlər sistemində mühüm rol oynadığını diqqətə çatdırdı. Qeyd edildi ki, Milli Məclisdə ABŞ Konqresi ilə əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və müxtəlif beynəlxalq qurumlarda görüşləri qanunverici orqanlar arasında əlaqələrin dərinləşməsi baxımından çox önəmlidir. Biz gələcəkdə də bu sahədə fəaliyyəti davam etdirmək niyyətindəyik.

Bu gün müstəqil Azərbaycan bütöv bir bölgənin iqtisadi simasını dəyişə biləcək böyük enerji layihələrinin fəal iştirakçısı və təşəbbüskarıdır. Bununla yanaşı, bölgədə öz həllini gözləyən Dağlıq Qarabağ problemi ümumi inkişafa maneçilik törədir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq və beynəlxalq birliyin bu məsələyə obyektiv yanaşmasına ümid edirik.

Səmimi qəbul və ünvanına deyilən xoş sözlər üçün minnətdarlığını bildirən səfir Metyu Brayza iki ölkə arasında əməkdaşlığın daha da inkişafı üçün qüvvə və bacarığını əsirgəməyəcəyini söylədi. Bildirildi ki, ABŞ Qafqazın bu bölgəsinə böyük maraq göstərir və Azərbaycanla əlaqələri gələcəkdə də inkişaf etdirməkdə maraqlıdır.

Səfir əlaqələrimizin daha da dərinləşməsi üçün geniş potensial imkanlar olduğunu ifadə etdi. Bildirildi ki, iqtisadi, ticarət, mədəni sahələrdəki uğurlu əməkdaşlıq parlamentlər səviyyəsində də davam etdirilir. Bu baxımdan nümayəndə heyətlərinin qarşılıqlı səfərləri əhəmiyyətlidir.

Metyu Brayza ABŞ-ın USAİD təşkilatının Milli Məclislə birlikdə həyata keçirdiyi "Azərbaycan Parlament layihəsi"ni yüksək dəyərləndirdi və layihənin davamlı olmasında maraqlı olduqlarını qeyd etdi.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Martın 14-də Milli Məclisin Sədri Oqtay Əsədov ATƏT-in fəaliyyətdə olan Sədri, Litvanın Xarici işlər naziri Audronyus Ajubalisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Parlamentin Sədri qonağı səmimi salamlayaraq bu səfərin ikitərəfli əməkdaşlığın inkişafına yeni töhfə verəcəyinə inamını ifadə etdi. Qeyd edildi ki, Azərbaycan tərəfi ATƏT-ə təkcə dialoq forumu kimi yox, həm də mövcud problemlərin həllinə yardımçı olan bir qurum kimi baxır.

Avroatlantik məkana inteqrasiya müstəqil Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Dünyəvi, demokratik yolla addımlayan Azərbaycanda Avropa dəyərlərinə söykənən sivil cəmiyyət quruculuğunda xeyli nailiyyətlər əldə edilmişdir. Biz beynəlxalq təşkilatlar qarşısında götürdüyümüz öhdəliklərin yerinə yetirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstəririk.

Bu gün sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi problemi var. Münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olsa da, uzun illərdir ki, bu sahədə real nəticə yoxdur. Səbəb isə Ermənistanın BMT, ATƏT, AŞ PA kimi beynəlxalq qurumların qətnamə və qərarlarına, beynəlxalq hüquq normalarına məhəl qoymamasıdır. Azərbaycanın 20 faiz torpağını işğal etmiş Ermənistan işğalçılıq siyasətini davam edir. 1 milyon ölkə vətəndaşı öz ata-baba yurdlarından qovulmuşdur.

Biz problemin beynəlxalq hüququn prinsipləri əsasında obyektiv həllinə tərəfdarıq. Ümid edirik ki, cənab Audronyus Ajubalisin ATƏT-ə sədrliyi dövründə bu sahədə müsbət addımlar atılacaqdır. Problemin həllinin yubanması təkcə Azərbaycanın deyil, bütövlükdə bölgənin inkişafına və Avropa strukturlarına inteqrasiyasına böyük maneçilik törədir.

Söhbətdə Spiker qeyd etdi ki, bu gün ölkəmiz nüfuzlu beynəlxalq qurumlar, dünya ölkələri, o cümlədən Litva ilə əlaqələrini genişləndirir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin hüquqi bazasını təşkil edir. Hər iki ölkənin parlamentləri səviyyəsində təqdirəlayiq əməkdaşlıq mövcuddur. Azərbaycan parlamentində Litvanın qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində parlamentlərimiz arasında müvəffəqiyyətlə həyata keçirilən TVİNNİNQ layihəsi münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və deputatlarımızın beynəlxalq qurumlarda görüşləri informasiya mübadiləsi baxımından çox əhəmiyyətlidir. Spiker ümidvar olduğunu bildirdi ki, gələcəkdə də bu əməkdaşlıq yüksələn xətlə davam etdiriləcəkdir.

Görüşdə Azərbaycanda keçirilən parlament seçkilərində ATƏT-in müşahidə missiyasının iştirakından söz açan Sədr seçkilərin nəticələri barədə qurumun strukturları arasında müəyyən fikir ayrılıqlarının olmasından təəssüfləndiyini bildirdi. Qeyd edildi ki, ATƏT PA, AŞ PA və digər nüfuzlu müşahidə missiyalarının fikirləri ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları İnstitutunun (DTİHİ) hesabatı ilə üst-üstə düşməmişdir. Bu institut seçki prosesinə qeyri-obyektiv, birtərəfli yanaşmış, müvafiq qurumlar, o cümlədən Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlıqdan yayınmışdır. Bunun nəticəsi kimi institutun hazırladığı hesabat digərlərindən fərqlənmiş və qərəzli xarakter daşımışdır. Söhbətdə Spiker belə bir fikri vurğuladı ki, biz tənqidə açığıq. Ancaq bu tənqid mahiyyət etibarilə şər və böhtandan ibarət olmamalıdır. Azərbaycan tərəfi demokratiyanın ölkədə daha da dərinləşməsi naminə ATƏT-lə gələcəkdə də əməkdaşlığı davam etdirmək niyyətindədir.

Görüşdə müzakirə olunan məsələ ilə əlaqədar çıxış edən Milli Məclis Sədrinin müavini, ATƏT PA-da nümayəndə heyətimizin rəhbəri Bahar Muradova öz fikirlərini açıqladı. Bildirildi ki, parlament seçkilərinin nəticələri ilə əlaqədar DTİHİ-nin qeyri-obyektiv

hesabatı təkcə Azərbaycan tərəfinin deyil, ATƏT PA-nın vitse-prezidenti Volfqanq Qrossrukun da narazılığına səbəb olmuş, bu məsələ ilə əlaqədar o, qurumun fəaliyyətdə olan o dövrkü sədrinə müraciət etmişdir. ATƏT PA, AŞ PA kimi mötəbər qurumların nümayəndələri ilə saatlarla keçirilən müzakirələrdə əldə edilmiş yekdil qərardan kənara çıxaraq öz subyektiv hesabatını açıqlamış DTİHİ rəhbərliyinin bu mövqeyi prosesi izləyən digər müşahidə missiyaları tərəfindən də pislənilmişdir. ATƏT-in qurumları arasında belə ziddiyyətli fikirlərin mövcudluğu təşkilatın öz nüfuzuna xələl gətirir. Gələcəkdə belə halların aradan qaldırılması, zənnimizcə, zamanın tələbidir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq səfərdən məqsədin Azərbaycanda demokratiyanın inkişafı sahəsində əldə edilmiş nailiyyətlər barədə və Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar müzakirələr aparmaq olduğunu söylədi. Qeyd edildi ki, sürətlə inkişaf edən Azərbaycanda demokratik cəmiyyət quruculuğunda məqsədyönlü addımlar atılmaqdadır. Bu proseslərin daha da dərinləşməsi üçün ATƏT Azərbaycana hər cür dəstək göstərmək niyyətindədir.

Qonaq qeyd etdi ki demokratiya yolu heç də asan deyildir. O, öz ölkəsinin timsalında müxtəlif qurumlar tərəfindən bu prosesin uzun illər müşahidə edildiyini və onlardan tövsiyələr aldıqlarını diqqətə çatdırdı. Qeyd edildi ki, bəzən bu qurumların iradları kəskin olurdu. Bu baxımdan biz Azərbaycan tərəfini başa düşür və onun ədalətli tənqidə açıq ölkə olmasını alqışlayırıq. O, burada səslənən fikirlərin nəzərə alınacağını söyləyərək demokratiyanın Azərbaycanın öz seçimi olmasını yüksək dəyərləndirdi.

Audronyus Ajubalis Dağlıq Qarabağ münaqişəsinin həli ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti ilə əlaqədar səslənən fikirləri diqqətlə dinlədiyini və bu sahədə real nəticənin əldə edilməsi üçün səylərin artırılacağını söylədi. Qonaq Prezidentlərin Soçi görüşünü yüksək dəyərləndirərək problemin tezliklə sülh yolu ilə öz məntiqi həllini tapacağına inamını ifadə etdi. Bildirildi ki, xalqlar uzun müddət davam edən bu münaqişədən usanıblar. Qafqazın bu bölgəsində sülhə böyük ehtiyac var.

Görüşdə ATƏT-in Bakı ofisinin rəhbəri Bilge Cankorel, qurumun fəaliyyət olan sədrinin şəxsi nümayəndəsi Andjey Kasprjik çıxış edərək ikitərəfli əməkdaşlığın inkişafı, regional münaqişələrin həlli yolları barədə fikirlərini açıqladılar.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş müzakirə aparıldı.

Görüşdə Milli Məclis Sədrinin müavini Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin Litvada səfiri Nairə Şahtaxtinskaya, Litvanın ölkəmizdəki səfiri Kestutis Kudzmanas və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 14-də Milli Məclisin Sədri Oqtay Əsədov İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Rey ilə görüşmüşdür.

Sədr qonağı səmimi salamlayaraq bu cür görüşlərin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət etdiyini vurğuladı. O, ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəkdir. Qeyd edildi ki, dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyəsindən xəbər verir.

Bu günədək Azərbaycanla İsveçrə arasında imzalanmış 22 sənəd siyasi, iqtisadi, ticarət

və digər sahələrdə əlaqələrimizin möhkəm hüquqi təməlini yaratmışdır. İqtisadi sahədə əlaqələrimizin daha da genişləndirilməsi üçün əlverişli imkanlar vardır. Bu baxımdan Ticarət və iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın fəaliyyəti təqdirə layiqdir.

Sədr bildirdi ki, Azərbaycan böyük neft və qaz ehtiyatlarına malik bir ölkədir. Avropa bazarlarına çıxış üçün neft və qaz kəmərləri mövcuddur. Biz İsveçrəni özümüz üçün potensial tərəfdaş hesab edirik. Cari ilin yanvarında Avropa Komissiyasının sədri Joze Manuel Barrozonun ölkəmizə səfəri zamanı imzalanmış "Cənub qaz dəhlizi haqqında" sənəd böyük siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Sədr əlaqələrimizin inkişafında parlamentlərin mühüm rol oynadığını qonağın diqqətinə çatdırdı. O, hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini yüksək qiymətləndirdi. Bildirildi ki, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri münasibətlərimizin daha da dərinləşməsinə öz müsbət təsirini göstərir. Deputatlarımız nüfuzlu beynəlxalq qurumlarda faydalı əməkdaşlıq edirlər.

Spiker regiondakı mövcud münaqişələrin Azərbaycanın, o cümlədən bölgənin Avropaya inteqrasiya proseslərinə böyük maneçilik törətdiyini diqqətə çatdırdı. Qeyd edildi ki, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ən ağrılı problemidir. Münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olsa da, hələlik bu istiqamətdə müsbət nəticə əldə edilməmişdir. Biz beynəlxalq birliyin, o cümlədən İsveçrənin də dəstəyi ilə problemin tezliklə öz ədalətli həllini tapacağına inanırıq.

Səmimi görüşdən məmnunluğunu bildirən İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Rey Azərbaycanda gördüyü inkişafa heyran qaldığını söylədi. Səfər çərçivəsində keçirdiyi görüşlərin, aparılan danışıqların əlaqəlimizin gələcək inkişafına müsbət təsir edəcəyinə inamını ifadə etdi. O, siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin daha da dərinləşməsi üçün mövcud potensialdan istifadə edilməsinin əhəmiyyətini vurğuladı. Qeyd edildi ki, təkcə neft sektorunda deyil, digər sahələrdə də əməkdaşlıq üçün geniş imkanlar vardır. Onun ölkəsi Azərbaycanla əməkdaşlığa böyük maraq göstərir.

Qonaq İsveçrə şirkətlərinin Azərbaycanda bank və maliyyə sahələrində uğurlu fəaliyyət göstərdiklərini diqqətə çatdıraraq, Azərbaycanın bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında bir sıra layihələri həyata keçirmək niyyətində olduqlarını söylədi.

Xanım Mişelin Kalmi-Rey ölkənin xarici siyasətinin formalaşmasında parlamentin rolunu xüsusi dəyərləndirərək bu sahədə əlaqələrimizin inkişafından və gələcək inkişaf perspektivlərindən danışdı. Qeyd edildi ki, deputatlarımızın mütəmadi görüşləri ümumi işin xeyrinədir.

Dağlıq Qarabağ münaqişəsinin həll olunmasının region üçün böyük əhəmiyyət daşıdığını ifadə edən İsveçrə Prezidenti münaqişənin tezliklə sülh yolu ilə həll olunması üçün ölkəsinin hər cür dəstək göstərməyə hazır olduğunu söylədi.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədr müavini, Azərbaycan-İsveçrə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Bahar Muradova,

vitse-spiker Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycanın İsveçrədəki səfiri Murad Nəcəfbəyli, İsveçrə Konfederasiyasının ölkəmizdəki səfiri xanım Sabine Ulman Şaban və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 14-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərovun ölkəmizdə səfərdə olan Mərakeşin ədliyyə naziri Məhəmməd Nəsiri ilə görüşü oldu.

Ziyafət Əsgərov bildirdi ki, dövlətlərimizin başçıları arasındakı dostluq münasibətləri və möhkəm siyasi iradə əlaqələrimizin hərtərəfli inkişafı üçün zəmin yaradır. Bugünədək ölkələrimiz arasında 10-dək sənəd imzalanmış, daha 20 sənəd imzalanmaq üçün hazırlanır. Parlamentlərimiz, eləcə də digər dövlət və hökumət qurumlarımız yaranmış imkandan səmərəli istifadə edərək ikitərəfli əməkdaşlığı daha da genişləndirməlidirlər.

Ziyafət Əsgərov beynəlxalq qurumlarda Azərbaycanın ədalətli mövqeyini müdafiə etdiyinə görə Mərakeş tərəfinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması, eləcə də 2014-cü ildə İslam Konfransı Təşkilatının zirvə toplantısının Bakıda keçirilməsi məsələləri müzakirə olunacaqdır. Ümid edirik ki, Mərakeş bu məsələlərdə də bizim təşəbbüslərimizi dəstəkləyəcəkdir.

Ölkələrimiz arasındakı ikitərəfli münasibətləri yüksək qiymətləndirən Məhəmməd Nəsiri diqqətə çatdırdı ki, qanunverici orqanların əməkdaşlığının inkişafı xalqlarımızın münasibətlərinin daha da möhkəmlənməsinə yaxşı töhfə verir. Bu gün Azərbaycanın və Mərakeşin ədliyyə, hüquq strukturları arasında mühüm sənədlər imzalanmışdır. Bütün bunlar bizi daha da yaxınlaşdırır. Azərbaycanla Mərakeş Krallığı arasında əlaqələrin qədim tarixi kökləri vardır. Dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri zamanı aparılmış danışıqlar, imzalanmış sənədlər ikitərəfli münasibətlərimizin inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Rəsmi Bakının Mərakeşə ölkə əhəmiyyətli məsələlərin həllində göstərdiyi dəstəyi yüksək qiymətləndirən mərakeşli nazir bildirdi ki, onun ölkəsi beynəlxalq qurumlarda Azərbyacana dəstəyini bundan sonra da davam etdirəcəkdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Martın 14-də Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Yevda Abramov ABŞ-ın antisemitizmin monitorinqi və ona qarşı mübarizə üzrə xüsusi elçisi xanım Hanna Rozentalın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Deputat Yevda Abramov qonaqlara Azərbaycanın iqtisadi uğurları, bölgədəki nüfuzlu mövqeyi, ABŞ-la strateji müttəfiqliyi barədə ətraflı məlumat verdi. Bildirdi ki, ölkəmizdə antisemitizm əlamətləri heç vaxt olmayıb. Azərbaycan tolerant dövlətdir, burada məscid, kilsə və sinaqoqlar yanaşı fəaliyyət göstərir, hər üç dinə etiqad edənlər öz inanclarında azaddırlar. Dövlətimizin başçısının təşəbbüsü ilə burada yaşayan 20 mindən çox dağ yəhudisi üçün paytaxtın mərkəzində yeni sinaqoq inşa olunub.

Bakıya səfərin məramını açıqlayan nümayəndə heyətinin başçısı xanım Hanna Rozental Azərbaycanın dini müxtəlifliyinə, buradakı tolerantlığa heyran qaldıqlarını bildirdi. Zəngin tolerantlıq adət-ənənələrinə malik ölkələrə səfər etdiklərini dedi. Bu sahədə Azərbaycanı model ölkə kimi gördüklərini və buradakı təcrübəni öyrənib bütün dünya-

ya yaymaq istədiklərini vurğuladı.

Sonra ABŞ-ın müsəlman icmaları ilə iş üzrə xüsusi nümayəndəsi xanım Fərəh Pandit qeyd etdi ki, onların missiyası dünyada müsəlman icmalarına qarşı artan xoşagəlməz münasibəti aradan qaldırmaqdır. Bu məqsədlə yeni kampaniyaya başlayıblar. Xüsusilə gənclərə tolerantlığın aşılanması uğurlu nəticəyə zəmin yarada bilər.

Dünyada əmin-amanlıq və insansevərlik naminə bu mühüm missiyanı öhdəsinə götürmüş xanımlar - ABŞ nümayəndə heyətinin üzvləri başlatdıqları kampaniyanın ölkəmizdə dəstəklənməsini xahiş etdilər.

Söhbət əsnasında Ermənistanın təcavüzkarlığına da toxunuldu, işğal altında olan Azərbaycan torpaqlarında bütün məscidlərin, qəbiristanlıqların vəhşicəsinə məhv edildiyi qonaqların nəzərinə çatdırıldı. Təəssüflə bildirildi ki, hələ də dünyada ikili standartlar hökm sürür və indiyədək Ermənistanın cəzalandırılmamasında xristian təəssübkeşliyi mühüm rol oynayır.

Görüşdə bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Martın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov Ukraynanın Müdafiə naziri Mixail Yejelin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Parlamentin Sədri qonağı səmimi salamlayaraq onu Milli Məclisdə görməyindən məmnun olduğunu söylədi. Qeyd edildi ki, xalqlarımız arasındakı dostluq münasibətləri möhkəm təməl üzərində qurulmuşdur. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızın hüquqi bazasını təşkil edir. Bu günədək Azərbaycanla Ukrayna arasında müxtəlif sahələr üzrə 114 sənəd imzalanmışdır.

Spiker siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrimizin günbəgün inkişaf etdiyini vurğuladı. Bildirildi ki, ötən il ölkələrimiz arasındakı ticarət dövriyyəsi 1 milyard 400 min ABŞ dolları həcmində olmuşdur. Bu, yüksək göstərici olsa da, onu daha da artırmaq üçün hər iki ölkənin potensial imkanları çox genişdir.

Qeyd edildi ki, parlamentlərimiz dövlətlərarası münasibətlərin inkişafına öz töhfələrini verməkdədir. Hər iki ölkənin qanunvericilik orqanlarında parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir. Deputatlarımız nüfuzlu beynəlxalq qurumlarda səmərəli əməkdaşlıq edir, prinsipial məsələlərin müzakirəsində bir-birini dəstəkləyirlər.

Sədr Azərbaycanın sürətlə inkişaf etdiyini, ancaq Dağlıq Qarabağ probleminin bölgənin tərəqqisinə və inteqrasiya proseslərinə böyük maneçilik törətdiyini qonağın diqqətinə çatdırdı. Bildirildi ki, Azərbaycan tərəfi münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdardır. Spiker bu məsələdə Ukraynanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini və beynəlxalq qurumlarda ölkəmizin mövqeyini müdafiə etməsini yüksək qiymətləndirdi.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Ukraynanın Müdafiə naziri Mixail Yejel səfər çərçivəsində Azərbaycanda keçirdiyi görüşlərdən söz açdı. Bildirildi ki, aparılan danışıqlarda faydalı əməkdaşlığın bu günü və inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır.

Qonaq ölkəmizdəki inkişafı yüksək qiymətləndirdi. Qeyd edildi ki, ölkə iqtisadiyyatının ən müxtəlif sahələrində bu tərəqqi aydın görünməkdədir. O, Azərbaycanın hərbi sənaye kompleksinin qısa bir zamanda böyük nailiyyətlər əldə etdiyini vurğulayaraq bu sahədə əməkdaşlıq üçün geniş imkanlar olduğunu söylədi.

Mixail Yejel münasibətlərimizin daha da dərinləşməsində parlamentlərin mühüm rol oynadığını ifadə edərək, deputatların bu istiqamətdəki fəaliyyətini təqdir etdi. Qonaq Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə həllinə inamını ifadə edərək bu məsələdə öz ölkəsinin mövqeyini bir daha təsdiqlədi.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Ukrayna səfirliyinin müvəqqəti işlər vəkili Miroslav Blaşşuk və digər rəsmi şəxslər iştirak edirdilər.

Martın 28-də Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri ilə Ankara şəhəri Keçiörən bələdiyyəsi nümayəndə heyətinin görüşü keçirilib.

Komitə sədri Arif Rəhimzadə qonaqları səmimi salamlayaraq, görüşdə iştirak edən deputat həmkarlarını təqdim etdi. Səfərin əlamətdar vaxta - ölkəmizin çiçəklənən, sürətlə inkişaf edən dövrünə, eyni zamanda Novruz bayramı günlərinə təsadüf etdiyi qeyd edildi. Bildirildi ki, Heydər Əliyev vaxtilə Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxararaq müstəqilliyin qorunub saxlanılmasını, dövlətimizin möhkəmlənməsini təmin etdi. Bu gün ölkə başçısı İlham Əliyev ulu öndərin siyasi xəttini uğurla davam etdirir. Azərbaycanda siyasi, iqtisadi, sosial sahələrdə əhəmiyyətli nailiyyətlər əldə olunub.

Komitə sədri ölkəmizdə yerli özünüidarə institutunun əvvəllər də sovetlər formasında mövcud olduğunu, müstəqillik illərində isə yaradılmış bələdiyyələrin tamamilə sərbəst bir qurum kimi fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Bildirildi ki, Azərbaycanda bələdiyyələrin iş prinsiplərini tənzimləyən qanunvericilik aktları qəbul olunub. Bu sahənin təkmilləşdirilməsi məqsədi ilə bələdiyyə üzvləri üçün müxtəlif seminarlar təşkil olunur. Eyni zamanda, digər ölkələrin, bələdiyyələrinin təcrübəsi öyrənilir, qarşılıqlı əlaqələr qurulur. Bu baxımdan Türkiyənin qabaqcıl bələdiyyələri ilə əlaqələrimiz təqdirəlayiqdir.

Görüşdə iştirak edən Regional məsələlər komitəsinin sədr müavini Fəttah Heydərov vaxtilə Ankarada olarkən bir sıra bələdiyyə başçıları ilə keçirdiyi görüşləri məmnunluq hissi ilə xatırladı. Qeyd edildi ki, Türkiyə hər zaman bizimlə olub, bu münasibətlərin daha da gücləndirilməsi günün tələbidir. Bu baxımdan qarşılıqlı səfərlər dostluq əlaqələrinin genişləndirilməsində əhəmiyyətli rol oynayır.

Ankara şəhəri Keçiörən bələdiyyəsinin başçısı Mustafa Ak səmimi görüşə görə minnətdarlığını bildirdi. Səfərin Sumqayıt şəhər bələdiyyəsinin dəvəti ilə baş tutduğunu deyən Mustafa Ak, bu iki qardaşlaşmış şəhər bələdiyyələrinin birgə layihələr üzərində çalışdıqlarını bildirdi. Qeyd edildi ki, Keçiörən bələdiyyəsinin ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb. Bununla yanaşı, bələdiyyə ərazisində ölkəmizlə bağlı yeni parkların salınması da nəzərdə tutulub. Qonaq azərbaycanlı həmkarları ilə iqtisadi, sosial, mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyindən danışdı. Ölkəmizdəki inkişafın yüksək səviyyəsindən danışan bələdiyyə başçısı

Azərbaycanın güclü dövlət kimi formalaşmasının Türkiyə üçün önəmli olduğunu xüsusi vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

Martın 28-də Milli Məclis Sədrinin birinci müavini, parlamentin Təhlükəsizlik və müdafiə Komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanda səfərdə olan Koreya Respublikası Milli Assambleyasının Torpaq, Nəqliyyat və Dəniz İşləri Komissiyasının sədri Sonq Kvanq Honun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Ziyafət Əsgərov bildirdi ki, Azərbaycanla Koreya arasında bir sıra sahələrdə, o cümlədən parlamentlər arasında əməkdaşlıq yüksək templə inkişaf edir. Əməkdaşlığın inkişafında hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərlərinin xüsusi rolunu qeyd edən Ziyafət Əsgərov bu səfərlər çərçivəsində imzalanmış sənədlərin əməkdaşlığın inkişafı üçün hüquqi baza yaratdığını diqqətə çatdırdı. Bildirdi ki, bu gün Azərbaycanda Koreyanın bir sıra tanınmış şirkətləri uğurla fəaliyyət göstərir. Koreyanın bir sıra sahələrdə, o cümlədən inşaat, nəqliyyat sektorunda böyük təcrübəyə malik olduğunu deyən birinci vitse-spiker Azərbaycanda energetika sahəsində həyata keçirilən nəhəng layihələr və Milli Məclisdə nəqliyyat sahəsinə dair qəbul olunmuş qanunlar barədə məlumat verdi.

Milli Məclisin Sədri Oqtay Əsədovun 2007-ci ildə Koreyaya səfərini xatırladan Ziyafət Əsgərov bu səfərin iki ölkə parlamentləri arasında münasibətlərin inkişafına stimul verdiyini dedi.

Söhbət zamanı birinci vitse-spiker Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun regionun inkişafına mənfi təsiri barədə faktları qonaqların nəzərinə çatdırdı.

Səmimi görüş üçün təşəkkürünü bildirən Sonq Kvanq Ho Azərbaycanın Koreya üçün maraqlı ölkə olduğunu qeyd etdi. Qonaq Azərbaycanın bugünkü inkişafında ulu öndər Heydər Əliyevin böyük əməyindən və Azərbaycan xalqının sülhpərvərliyindən danışdı. Sonq Kvanq Ho Koreyanın da tarixən işğaldan əziyyət çəkdiyini qeyd etdi və bildirdi ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını tezliklə geri qaytarmalıdır.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, qanunvericilik sahəsində təcrübə mübadiləsi, qarşılıqlı səfərlərin əhəmiyyəti və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Aprelin 1-də Milli Məclisin Sədri Oqtay Əsədov Gürcüstanın Azərbaycanda yeni təyin olunmuş səfiri Teymuraz Şaraşenidzeni qəbul etdi.

Parlamentin Sədri qonağı səmimi salamlayaraq ona diplomatik fəaliyyətində uğurlar arzuladı. Spiker ümidvar olduğunu bildirdi ki, səfir iki ölkə arasında münasibətlərin daha da inkişafında səylərini əsirgəməyəcək. Qeyd edildi ki, iqtisadi, elm, təhsil, mədəni sahələrdə əlaqələrimiz ölkələrimiz müstəqillik əldə etdikdən sonra keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Bu gün Azərbaycanla Gürcüstanı strateji əməkdaşlıq birləşdirir. Dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri münasibətlərimizin daha da dərinləşməsində mühüm rol oynamışdır.

Sədr vurğuladı ki, əlaqələrimizin inkişafında parlamentlərin rolu əhəmiyyətlidir. Hər

iki ölkənin qanunvericilik orqanında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Deputatlarımız nüfuzlu beynəlxalq qurumlarda səmərəli əməkdaşlıq edirlər. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri təcrübə mübadiləsi baxımından önəmlidir.

Biz Cənubi Qafqazda baş verən hadisələri diqqətlə izləyirik. Bölgədəki münaqişələr regionun iqtisadi tərəqqisinə böyük maneçilik törədir. Biz bu cür problemlərin beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdarıq. İnanırıq ki, tezliklə Cənubi Qafqazda əminamanlıq yaranacaq, ədalət zəfər çalacaq.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Teymuraz Şaraşenidze ünvanına deyilən xoş sözlər üçün təşəkkürünü ifadə etdi. Bildirildi ki, səfir gələcək fəaliyyətində ölkələrimizarası münasibətlərin daha da dərinləşməsinə çalışacaq. O, həyatın müxtəlif sahələrində əməkdaşlığın gələcək inkişafı üçün geniş imkanlar olduğunu söylədi. Qeyd edildi ki, parlamentlərarası əlaqələrin inkişafı hər iki dövlətin və xalqlarımızın mənafelərinə cavab verir.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Aprelin 4-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Şurasının Bakıdakı ofisinin yeni rəhbəri Konstantin Yerokostopulosu qəbul etdi.

Sədr qonağı səmimi salamlayaraq onu Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri təyin edilməsi münasibəti ilə təbrik etdi, gələcək fəaliyyətində uğurlar arzuladı. Qeyd edildi ki, Konstantin Yerokostopulosun ölkəmizdə diplomatik fəaliyyətə başlaması əlamətdar günlərə təsadüf edir. Bu il Azərbaycanın Avropa Şurasına üzvlüyünün 10 ili tamam olur. Ötən dövrdə Avropa dəyərləri ölkəmizdə cəmiyyət və dövlət həyatının bütün sahələrinə nüfuz etmişdir. Demokratik prinsiplərin bərqərar olması və hüquqi dövlət quruculuğu yolunda düşünülmüş tədbirlər görülür. Azərbaycanın Avropa standartlarına uyğun qanunvericilik bazası formalaşmışdır. Ölkəmiz təşkilat qarşısında götürdüyü öhdəliklərə həmişə hörmətlə yanaşmış və bu öhdəliklərin böyük əksəriyyətini artıq yerinə yetirmişdir.

Spiker bildirdi ki, qurumun Parlament Assambleyasında Azərbaycanla bağlı 7 qətnamə qəbul olunmuşdur. Təşkilatın Dağlıq Qarabağ probleminə xüsusi diqqət yetirməsi təqdirə layiqdir. Bu məsələ ilə əlaqədar qurumun qəbul etdiyi qətnamədə Ermənistanın işğalçılıq siyasəti öz əksini tapmışdır. Sədr belə bir inamı ifadə etdi ki, Avropa Şurası bütöv bir regionun təhlükəsizliyini təhdid edən bu problemin ölkəmizin ərazi bütövlüyü prinsipləri əsasında həllinə öz töhfəsini verəcəkdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Konstantin Yerokostopulos yeni vəzifədə Avropa Şurası ilə ölkəmiz arasında münasibətlərin inkişafında səylərini əsirgəməyəcəyini vurğuladı. O, təmsil etdiyi təşkilatın demokratiya, hüquqi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycana hər cür köməklik etməyə hazır olduğunu söylədi. Bildirildi ki, təşkilatın Parlament Assambleyası və onun müvafiq strukturları ölkəmizlə sıx əlaqələr saxlayır və gələcəkdə də bu əməkdaşlığı dərinləşdirmək niyyətindədir.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Aprelin 5-də Milli Məclisin Sədri Oqtay Əsədov Polşanın ölkəmizdəki səfiri Mixal Labendanı qəbul etdi.

Sədr qonağı səmimi salamlayaraq onu Azərbaycanda səfir təyin olunması münasibəti ilə təbrik edib, uğurlar arzuladı. Bildirildi ki, müstəqil Azərbaycan Avropa İttifaqının önəmli üzvlərindən olan Polşa ilə hərtərəfli əməkdaşlığın inkişafında maraqlıdır. Xalqlarımız arasında əlaqələrin qədim tarixi var. Vaxtilə polşalı ziyalılar Bakıda yaşayıb fəaliyyət göstərmişlər. Azərbaycan xalqı onları böyük ehtiramla xatırlayır.

Dövlət başçılarının qarşılıqlı səfərləri münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsində əhəmiyyətli rol oynamışdır. Bu günədək ölkələrimiz arasında 26 sənəd imzalanmışdır ki, onlar əməkdaşlığımızın hüququ bazasını təşkil edir. İqtisadi sahədə əlaqələrimiz intensiv inkişaf etməkdədir. Bu baxımdan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti təqdirə layiqdir. Zənnimizcə, Komissiya çərçivəsində biznes-forumların, sərgilərin və seminarların daimi xarakter alması məqsədəmüvafiq olardı.

Bu gün Azərbaycan Avropa enerji təhlükəsizliyi sistemində mühüm rol oynayır. Ölkəmiz Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərinin çəkilişini dəstəkləyir. Avroatlantik strukturlara inteqrasiya xarici siyasətimizin prioritet istiqamətidir. Polşa kimi ölkəmiz də beynəlxalq terrorizmə, transmilli cinayətkarlığa qarşı mübarizədə fəal iştirak edir.

Spiker söhbətdə qeyd etdi ki, parlamentlərimiz arasında əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və müxtəlif beynəlxalq qurumlarda birgə fəaliyyəti informasiya mübadiləsi baxımından çox önəmlidir.

Söhbətdə Sədr sürətlə inkişaf edən Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsindən söz açdı. Bildirildi ki, Azərbaycan problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdardır. Biz bu həssas məsələdə Polşanın obyektiv mövqeyinə ümid edirik.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq diplomatik fəaliyyəti dövründə ölkələrimizarası əlaqələrin daha da dərinləşməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı. Bildirildi ki, Polşa Azərbaycanla iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindədir. Bunun üçün kifayət qədər potensial imkanlar vardır. Qonaq dövlətlərarası münasibətlərin daha da möhkəmlənməsində parlamentlərin rolunu yüksək dəyərləndirərək nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd etdi.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Həmin gün Milli Məclisin Sədri Oqtay Əsədov Latviyanın Azərbaycandakı səfiri Hardiys Baumanisi qəbul etdi.

Görüşdə parlamentin Sədri bildirdi ki, ölkəmizlə Latviya arasındakı münasibətlər pozitiv xarakter daşıyır. Biz bundan sonra da ikitərəfli əlaqələrimizin inkişaf etdirilməsində maraqlıyıq. Qeyd edildi ki, münasibətlərimizin genişləndirilməsində hər iki ölkə başçılarının qarşılıqlı səfərləri və görüşləri mühüm rol oynamışdır. Azərbaycanla Latviya

arasında bu günədək 28 sənəd imzalanmışdır. İqtisadi münasibətlərimiz inkişaf etməkdədir. Lakin bu əlaqələr mövcud potensiala cavab vermir. Bu baxımdan hər iki ölkənin iş adamları arasında qarşılıqlı əlaqələrin qurulması, müxtəlif tədbirlərin keçirilməsi faydalı olardı. Qarşılıqlı münasibətlərimizin genişləndirilməsində Hökumətlərarası Komissiyanın fəaliyyəti böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Avropa İttifaqının Şərq tərəfdaşlığı layihəsi çərçivəsində təşkilatın önəmli üzvü olan Latviya ilə uğurlu əməkdaşlıq edir. Avroatlantik məkana Latviyanın inteqrasiya təcrübəsi bizim üçün əhəmiyyətlidir. Azərbaycan Cənubi Qafqazda sabitliyin bərqərar olmasında, habelə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. İnanırıq ki, Avropa İttifaqı ilə ölkəmiz arasında imzalanmış "Cənubi Qafqaz dəhlizi haqqında" birgə bəyannamə qitə ölkələri ilə əlaqələrimizin dərinləşməsinə xidmət edəcək.

Ölkəmiz Latviya ilə parlamentlər səviyyəsində də əlaqələri inkişaf etdirmək əzmindədir. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirə layiqdir. Deputatlarımız beynəlxalq parlament təşkilatları çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini təcrübə mübadiləsi baxımından önəmli hesab edirik.

Görüşdə Spiker Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mövqeyini bir daha bəyan edərək, ümidvar olduğunu bildirdi ki, Latviya gələcəkdə də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyəcək.

Səfir Hardiys Baumanis ölkəsinin Azərbaycanla münasibətlərin dərinləşməsində maraqlı olduğunu söylədi. Bildirildi ki, Latviya Cənubi Qafqazın bu bölgəsində gedən prosesləri diqqətlə izləyir və Azərbaycanla iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələri daha da inkişaf etdirmək niyyətindədir. Qeyd edildi ki, onun ölkəsi təkcə neft-qaz sahəsində deyil, qeyri-enerji sektorunda da əməkdaşlığı genişləndirmək istəyindədir. Bu baxımdan yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri böyük əhəmiyyət daşıyır.

Görüşdə səfir parlamentlər səviyyəsində əlaqələrin möhkəmlənməsinin dövlətlərarası münasibətlərin daha da dərinləşməsinə xidmət etdiyini vurğuladı.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

177) AZƏRBAYCAN-YUNANISTAN ƏLAQƏLƏRİ İNKİŞAF EDİR

06/04/11

Aprelin 6-da Milli Məclisdə parlamentin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Yunanıstan Prezidenti Karolos Papulyas ilə görüşdü.

Spiker qonağı və onu müşayiət edən şəxsləri Milli Məclisdə görməkdən məmnun olduğunu söylədi. Bildirildi ki, yüksək səviyyəli dövlət rəsmilərinin qarşılıqlı səfərləri siyasi dialoqun inkişafına və münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir. Oqtay Əsədov belə bir inamı ifadə etdi ki, hər iki tərəfdən nümayiş etdirilən siyasi iradə ikitərəfli əlaqələrimizin bütün sahələrdə möhkəmlənməsinə yeni impuls verəcək.

Qeyd edildi ki, dövlət başçılarının qarşılıqlı səfərləri və aparılan danışıqlar əməkdaşlığı-

mızın dərinləşməsi üçün yaxşı zəmin yaratmışdır. Bu günədək ölkələrimiz arasında 21 sənəd imzalanmışdır. İqtisadi əlaqələrimizin inkişafında Hökumətlərarası Komissiyanın rolu böyükdür. Ölkələrimiz arasında ticarət dövriyyəsini daha da yüksəltmək üçün sərmayələrin təşviqi, biznes forumların, sərgilərin keçirilməsi və iş adamlarının təmasları vacibdir.

Bu gün ölkəmiz bütöv bir regionun iqtisadi simasını dəyişə biləcək qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Heç də təsadüfi deyildir ki, Yunanıstan Xəzər dənizindən çıxarılan qazın birbaşa nəql olunduğu Avropa İttifaqının ilk ölkəsidir.

Söhbətdə Spiker dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolundan danışdı. Bildirildi ki, əməkdaşlığın parlament ölçüsünün inkişafı, bu sahədə dialoqun davamı baxımından nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, dostluq qruplarının fəaliyyəti çox önəmlidir. Zənnimizcə, deputatlarımızın nüfuzlu beynəlxalq qurumların parlament assambleyaları çərçivəsində əməkdaşlığının gücləndirilməsi faydalı olardı. Yunanıstanın Avropa İttifaqına inteqrasiya sahəsindəki təcrübəsi bizim üçün çox önəmlidir.

Söhbətdə Dağlıq Qarabağ münaqişəsindən söz açan Sədr problemin regionun tərəqqisinə və Avroatlantik məkana inteqrasiyaya böyük maneçilik törətdiyini diqqətə çatdırdı. Spiker Yunanıstanın dövlətlərarası münasibətlərin inkişafında ölkələrin ərazi bütövlüyü prinsipini və suverenliyini əsas tutduğunu yüksək dəyərləndirdi. O, belə bir inamı ifadə etdi ki, Yunanıstan bu prinsipial mövqeyini Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə də qətiyyətlə bildirəcəkdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Yunanıstan Prezidenti Karolos Papulyas Azərbaycan parlamentində olmağından məmnunluğunu söylədi. Qonaq bildirdi ki, o, özü də vaxtilə deputat olmuş, ikitərəfli əlaqələrin inkişafında parlamentlərin rolunu yaxşı bilir. Karolos Papulyas Azərbaycan parlamentində müasir texnologiyaların tətbiqini alqışlayaraq, burada millət vəkilləri üçün yaradılmış şəraiti yüksək dəyərləndirdi. Bildirildi ki, hər iki ölkənin qanunvericilik orqanında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Bu qrupların fəaliyyətinin gücləndirilməsi qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi baxımından çox əhəmiyyətlidir.

Sonra qonaq səfər zamanı keçirdiyi görüşlərdən danışaraq əməkdaşlığımızın dərinləşməsi üçün siyasi iradənin olmasını vacib amil hesab etdi. O, Bakıda keçirilən Biznes forumda çoxsaylı iş adamlarının iştirakını iqtisadi münasibətlərimizin dərinləşməsinə hər iki tərəfin marağının təzahürü kimi dəyərləndirdi.

Söhbətdə Yunanıstan Prezidenti Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyini vurğulayaraq ölkəsinin bu məsələdəki prinsipial mövqeyini bir daha bəyan etdi.

Qəbulda tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədrin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, parlamentin komitə sədrləri Səməd Seyidov, Hadi Rəcəbli, ölkəmizin Yunanıstandakı səfiri Rəhman Mustafayev, Yunanıstanın ölkəmizdəki səfiri İoannis Metaksas və digər rəsmi

şəxslər iştirak edirdilər.

176) AZƏRBAYCAN və TÜRKİYƏ GƏNCLƏRİNİN ƏMƏKDAŞLIĞI VACİBDİR

06/04/11

Aprelin 6-da Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının - TürkPA-nın baş katibi Ramil Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin gənclər təşkilatlarının nümayəndələri ilə görüşdü.

Görüşdə qonaqlara TürkPA-nın hansı zərurətdən yarandığı, üzvləri və fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, TürkPA-nın əsas məqsədi eyni kökdən olan, ortaq milli-mədəni dəyərləri bölüşən türkdilli xalqların arasında parlament diplomatiyasının genişlənməsinə, siyasi dialoqun inkişafına yardım göstərməkdir. Bu beynəlxalq təşkilat qısa müddətdə dünyada öz layiqli yerini tutub və bölgələrimizin əmin-amanlıq və inkişaf zonasına çevrilməsinə çalışır.

Qurumun baş katibi bildirdi ki, TürkPA Azərbaycan və Türkiyə hökumətlərinin gənclər və gənclər təşkilatları arasında mübadilə proqramı çərçivəsində belə görüşlərin və qarşılıqlı səfərlərin keçirilməsini, birgə layihələrin icrasını dəstəkləyir. Həmçinin bu görüşlərə Qazaxıstan və Qırğızıstanın, digər türkdilli ölkələrin gənclərinin də qoşulması arzu olunur. Ramil Həsənov Türkiyənin ən müxtəlif gənclər təşkilatlarını, QHT-lərini təmsil edən gənclərin nəzərinə onu da çatdırdı ki, Qazaxıstan tərəfi türkdilli ölkələrin gənclər təşkilatları forumunun yaradılması təklifini irəli sürüb, hazırda bu istiqamətdə məsləhətləşmələr aparılır.

Sonra görüşdə iştirak edən Türkiyənin Baş Bakanlık Gənclər və İdman Genel Müdirliyində gənclər şöbəsinin düşərgələr üzrə şöbə müdiri Mustafa Cenk, Azərbaycanın Gənclər və İdman Nazirliyinin əməkdaşı Ramil Məmmədov gənclər təşkilatları arasındakı mövcud əlaqələrdən danışdılar, nəzərdə tutulan layihələrdən söz açdılar. Çıxışlarda vurğulandı ki, həm Azərbaycanda, həm də Türkiyədə gənclərə böyük inam var. Bu da onlara dostluq və qardaşlıq əlaqələrini daha da inkişaf etdirməyə, beynəlxalq səviyyəli layihələrini gerçəkləşdirməyə imkan yaradır.

Görüş zamanı qardaş ölkələrimizin gənclər təşkilatları arasında əlaqələrin inkişaf perspektivlərindən bəhs olundu, beynəlxalq tədbirlərdə birgə iştirakın vacibliyi vurğulandı, birgə layihələrin hazırlanmasında və ortaq problemlərin həllində gənclərin roluna dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

175) MİLLİ MƏCLİSDƏ QƏBUL

18/04/11

Aprelin 18-də Milli Məclisin Sədri Oqtay Əsədov Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Ambruaz Düponun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Sədr qonağı Milli Məclisdə görməkdən məmnunluğunu ifadə edərək, bu cür görüşlərin münasibətlərimizin inkişafında əhəmiyyətli rol oynadığını söylədi. Bildirildi ki, Azərbaycan Prezidenti İlham Əliyev çoxtərəfli əlaqələrimizin inkişafına xüsusi diqqət yeti-

rir. Dövlət başçılarının görüşü zamanı aparılan danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin daha da dərinləşməsi üçün möhkəm zəmin yaratmışdır.

Söhbətdə Sədr vurğuladı ki, Azərbaycan-Fransa əlaqələrinin çox zəngin tarixi vardır. Böyük fransız yazıçısı Aleksandr Düma özünün "Qafqaz" əsərində ölkəmiz və xalqımız haqqında dolğun təəssürat yaratmışdır. Vaxtilə Azərbaycan ziyalıları və mütəfəkkirləri Fransa mətbuatında məqalələrlə çıxış etmişlər. Azərbaycanlı Əhmədiyyə Cəbrayılov II Dünya müharibəsində Fransanın azadlığı uğrunda əsl qəhrəmanlıq nümunəsi göstərmişdir.

Görüşdə Spiker qeyd etdi ki, Avroatlantik məkana inteqrasiya ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan Avropa İttifaqının önəmli üzvlərindən hesab olunan Fransa ilə əməkdaşlıqda maraqlıdır. Biz Avropa İttifaqının bir sıra layihələrində birgə iştirak edirik.

Sonra Sədr ötən il ölkəmizdə keçirilmiş parlament seçkilərindən söz açdı. Bildirildi ki, IV çağırış Milli Məclisdə qadın və gənc deputatların sayı xeyli artmışdır. Milli Məclisdə Fransa parlamenti ilə əlaqələr üzrə dostluq qrupu fəaliyyət göstərir. Qeyd edildi ki, bu qrupa ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva rəhbərlik edir. Spiker parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin informasiya mübadiləsi baxımından önəmli olduğunu söylədi.

Görüşdə bildirildi ki, digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də əlaqələrimiz uğurla inkişaf edir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyi sistemində mühüm rol oynayır. Ancaq Dağlıq Qarabağ münaqişəsi bütöv bir bölgənin tərəqqisinə maneçilik törədir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq və bu məsələdə ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın obyektiv mövqeyinə ümid edirik.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Ambruaz Düpon ölkəmizə axırıncı səfərindən keçən müddət ərzində Azərbaycanda böyük dəyişikliklər olduğunu söylədi. O, Azərbaycandakı inkişafın ölkəmizin günbəgün artan iqtisadi qüdrətinin təcəssümü hesab etdi. Bildirildi ki, onun təmsil etdiyi ölkə və Fransa parlamenti müstəqil Azərbaycanla həyatın müxtəlif sahələrində əlaqələrin inkişafına böyük önəm verir. Qonaq Milli Məclisdə Fransa parlamenti ilə dostluq qrupuna Mehriban xanım Əliyevanın rəhbər seçilməsini sevindirici xəbər kimi dəyərləndirdi. Bildirildi ki, yaxın günlərdə Fransada Azərbaycanla bağlı sərginin keçirilməsi nəzərdə tutulmuşdur. Qonaq dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolunu xüsusi vurğuladı.

Söhbətdə Dağlıq Qarabağ münaqişəsindən danışan Ambruaz Düpon ölkəsinin problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu söylədi.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Fransa-Qafqaz dostluq qrupunun üzvü, senator Jaklin Pani və digər rəsmi şəxslər iştirak edirdilər.

174) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

18/04/11

Aprelin 18-də ölkəmizdə səfərdə olan Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Ambruaz Düpon Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşdü.

Komitənin sədri Səməd Seyidov bildirdi ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində Fransa ilə əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Hər iki ölkənin parlamentləri əməkdaşlığın genişləndirilməsinə dəyərli töhfələr verir. Səməd Seyidov rəhbərlik etdiyi komitənin fəaliyyəti barədə qonağa məlumat verərək iki ölkə arasındakı münasibətlərin inkişafında parlamentlərarası işçi qruplarının rolunu xüsusi vurğuladı.

Ambruaz Dupon ölkəmizdə olduğu beş gün müddətində təkcə paytaxtın mərkəzini deyil, Bakıətrafı qəsəbələri də gəzdiyini, ölkəmizin əldə etdiyi uğurlarla yaxından tanış olduğunu bildirdi. O, gördüyü dəyişiklikləri, Azərbaycanın sürətli inkişafını yüksək qiymətləndirdi.

Qonaq diqqətə çatdırdı ki, son bir neçə ildə Azərbaycan çox sürətli inkişaf yolu keçmiş, bir sıra mühüm uğurlara imza atmışdır. Bu həm Azərbaycanın iqtisadi qüdrətinin, həm də regiondakı yüksək nüfuzunun göstəricisidir.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

173) TRAYAN BESESKU: "RUMİNİYA AZƏRBAYCANIN YAXIN DOSTUDUR"

19/04/11

Aprelin 19-da Milli Məclisin Sədri Oqtay Əsədov Rumıniya Prezidenti Trayan Beseskunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Milli Məclisin Sədri Ali qonağı Azərbaycan parlamentində salamlayaraq Rumıniya nümayəndə heyətinin ölkəmizə səfərini yüksək dəyərləndirdi. Spiker ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında hər iki ölkə Prezidentlərinin mühüm rol oynadıqlarını söylədi. Qeyd edildi ki, Trayan Beseskunun Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev ordeni"nə layiq görülməsi məhz onun bu sahədəki xidmətlərinə verilən yüksək qiymətin parlaq nümunəsidir. Oqtay Əsədov qonağı bu münasibətlə Azərbaycan parlamenti adından təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzuladı.

Söhbətdə qeyd edildi ki, Azərbaycanla Rumıniyanı bir-birinə bağlayan dostluq telləri çox möhkəmdir. Hələ orta əsrlərdə Ağ Qoyunlu dövlətinin başçısı Uzun Həsənlə Böyük Ştefan arasında müttəfiqlik haqqında müqavilə bağlanmışdır. Bu gün Buxarestdə Ulu öndər Heydər Əliyevin, Bakıda isə məşhur rumın bəstəkarı Corce Eneskunun ucaldılmış büstləri xalqlarımızın müasir dövrdə dostluğunu təcəssüm etdirir.

Daha sonra Spiker dedi ki, dövlət başçılarımız arasındakı səmimi münasibətlər ikitərəfli əlaqələrimizin dinamik inkişafına öz müsbət təsirini göstərir. Bu günədək ölkələrimiz arasında 52 sənəd imzalanmışdır ki, bu da siyasi dialoqun dərinləşməsinə, iqtisadiyyat,

energetika, təhlükəsizlik sahələrində iş birliyinin möhkəmlənməsinə xidmət edir.

Sədr ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdiklərini vurğulayaraq, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin dərinləşməsində oynadığı rola görə Rumıniya dövlətinə öz təşəkkürünü ifadə etdi.

Bildirildi ki, dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolu olduqca əhəmiyyətlidir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları səmərəli fəaliyyət göstərirlər. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir.

Görüşdə Dağlıq Qarabağ münaqişəsindən söz açan Sədr işğalçı Ermənistanın beynəlxalq qurumların bu məsələ ilə əlaqədar qətnamələrinə məhəl qoymadığını qonağın diqqətinə çatdırdı. Bildirildi ki, bölgədə belə münaqişə ocağının mövcudluğu regional əməkdaşlıq və bütövlükdə Avropanın əmin-amanlığı üçün böyük təhlükədir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq. Parlamentin Sədri münaqişə ilə əlaqədar Rumıniyanın tutduğu prinsipial mövqeyə - Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə görə Trayan Beseskuya öz minnətdarlığını bildirdi.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Rumıniya Prezidenti ünvanına deyilən xoş sözlər üçün təşəkkür etdi. Trayan Besesku Azərbaycana səfərindən, burada keçirilən görüşlərdən və imzalanan sənədlərdən məmnun qaldığını ifadə etdi. Bildirildi ki, Rumıniya Azərbaycanın yaxın dostudur və bu münasibətlər gələcəkdə daha da möhkəmlənəcək.

Söhbətdə belə bir fikir vurğulandı ki, Rumıniya Azərbaycana təkcə neft-qaz ölkəsi kimi baxmır, Azərbaycanı özünün strateji tərəfdaşı hesab edir. Bildirildi ki, Rumıniya Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri kimi həmişə ölkəmizlə əlaqələrin dərinləşməsinə böyük maraq göstərmişdir.

Qonaq münasibətlərinizin müasir dövrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində Prezident İlham Əliyevin rolunu xüsusi vurğuladı. Bildirildi ki, təkcə ikitərəfli deyil, beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığımız yüksələn xətlə inkişaf edir. Avropa İttifaqının üzvü kimi Rumıniya Azərbaycanı qurumun tərəfdaşı kimi görür, ölkəmizin NABUKO və digər layihələrdə iştirakını yüksək dəyərləndirir, Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sisteminə verdiyi töhfəni önəmli hesab edir.

Görüşdə parlamentlərarası əlaqələrdən danışan qonaq nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin informasiya mübadiləsi baxımından əhəmiyyətli olduğunu söylədi.

Trayan Besesku Dağlıq Qarabağ münaqişəsinin həllində Rumıniyanın mövqeyinin dəyişməz olduğunu bir daha bəyan etdi. Bildirildi ki, problem ərazi bütövlüyü prinsipinə uyğun, beynəlxalq hüquq normaları çərçivəsində həllini tapmalıdır. Bu məsələdə Rumıniya Azərbaycanın mövqeyini dəstəkləyir.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədr müavinləri Bahar Muradova, Valeh Ələsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin Rumıniyadakı səfiri Eldar Həsənov, Rumıniyanın Azərbaycandakı səfiri Nikolae Ureçe və digər rəsmi şəxslər iştirak edirdilər.

172) MİLLİ MƏCLİSDƏ QƏBUL

22/04/11

Aprelin 22-də Milli Məclisin Sədri Oqtay Əsədov Avronestdə Avropa Parlamenti nümayəndə heyətinin rəhbəri Xristian Vigenini qəbul etdi.

Spiker qonağı salamlayaraq ümidvar olduğunu bildirdi ki, ölkəmizlə Avropa İttifaqı, xüsusilə də Avropa Parlamenti arasında mövcud olan əməkdaşlıq bundan sonra da dərinləşəcək və yeni məna kəsb edəcəkdir. Söhbətdə belə bir fikir vurğulandı ki, Avropa İttifaqı ilə əlaqələrin genişləndirilməsi müstəqil Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. İlk mərhələdə əgər əməkdaşlığımız Avropa İttifaqının ölkəmizə yardımları səviyyəsində idisə, bu gün ikitərəfli əməkdaşlıqdan söhbət gedir.

Spiker bildirdi ki, Milli Məclislə Avropa Parlamenti arasında əlaqələr mühüm əhəmiyyət kəsb edir. Biz Avropa İttifaqının "Şərq tərəfdaşlığı proqramı"nın münasibətlərimizin dərinləşməsində mühüm rol oynayacağına inanırıq. Heç də təsadüfi deyildir ki, bu baxımdan Azərbaycan Avronest Parlament Assambleyasının yaradılmasının fəal iştirakçılarından biridir. Biz ümid edirik ki, Avronest PA-nın təsis edilməsi əlaqələrimizin yeni səviyyəyə qalxmasına kömək edəcək. Qurumun prosedur qaydalarının ilkin variantına təklif etdiyimiz dəyişikliyin qəbulunu biz yüksək qiymətləndiririk. Zənnimizcə, siyasi dialoqun və çoxtərəfli etimadın yaranması baxımından bu önəmlidir.

İnanırıq ki, fəaliyyətə başlayacaq yeni qurum Avropa İttifaqına inteqrasiya, enerji təhlükəsizliyi, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında dialoqun aparılması baxımından çox dəyərli bir forum rolunu oynayacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Xristian Vigenin Avropa Parlamentinin Azərbaycanla əməkdaşlığın inkişafına böyük önəm verdiyini söylədi. Qeyd edildi ki, Avropa İttifaqının "Şərq tərəfdaşlığı proqramı" çərçivəsində Avronest PA-nın yaradılması əlaqələrimizi daha da möhkəmləndirəcək, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına yeni impuls verəcəkdir. Qonaq müstəqil Azərbaycanın Avronest PA-nın təşəkkül tapmasına öz layiqli töhfəsini verəcəyinə inamını ifadə etdi.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

171) AQRAR SİYASƏT KOMİTƏSİNDƏ GÖRÜŞ

26/04/11

Aprelin 26-da ölkəmizdə səfərdə olan Almaniyanın Ekoloji kənd təsərrüfatı humanitar təşkilatının (EED) eksperti Betra Feil Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovla görüşdü.

Eldar İbrahimov Milli Məclisin fəaliyyəti, strukturu, beynəlxalq əlaqələri, eləcə də qəbul olunmuş qanunlar barədə qonağa ətraflı məlumat verdi.

Görüş üçün təşəkkürünü bildirən Betra Feil diqqətə çatdırdı ki, EED uzun illərdir ki, Azərbaycanla əməkdaşlıq edir. Əvvəllər təşkilat azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardımlar göstərirdi, lakin sonradan bu yardım kənd təsərrüfatı sahələrinin maliyyələşdirilməsi və insanların ərzaq məhsulları təminatı ilə əvəz olunmuşdur. EED Azərbaycan hökumətinin aqrar sahənin inkişafı ilə bağlı həyata keçirdiyi layihələri,

Milli Məclisin qəbul etdiyi "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Qanunu yüksək qiymətləndirir. Bu görüşün də əsas məqsədi adı çəkilən Qanunla bağlı ətraflı məlumat almaqdır.

Eldar İbrahimov qonağın nəzərinə çatdırdı ki, "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Qanun ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalının həcminin artırılmasına, bazar münasibətlərinin tənzimlənməsinə xidmət edir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu sahəyə aid xüsusi dövlət proqramı da hazırlanır. Bizim əsas məqsədimiz əhalini ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir.

Sonra görüşdə Azərbaycanda aqrar sahənin inkişafı, bu sahə ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

170) PETROS EFTİMİU: "AZƏRBAYCAN TƏKCƏ ATƏT-in FƏAL ÜZVÜ DEYİL, HƏM DƏ REGİONDA ÖNƏMLİ DÖVLƏTDİR"

12/05/11

Mayın 12-də Milli Məclisin Sədri Oqtay Əsədov ATƏT Parlament Assambleyasının Sədri Petros Eftimiu ilə görüşdü.

Parlamentin Sədri qonağı salamlayaraq bildirdi ki, Milli Məclis ATƏT-in bütün qurumları, o cümlədən onun Parlament Assambleyası ilə əlaqələrə böyük önəm verir. Parlament nümayəndə heyətimiz qurum çərçivəsində keçirilən bütün tədbirlərdə fəal iştirak edir. Demokratik, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycanın xarici siyasətində Avroatlantik məkana inteqrasiya prioritet sahədir.

Biz ATƏT-ə yalnız siyasi dialoq forumu kimi baxmırıq. İstərdik ki, gələcəkdə qurum real təsir qüvvəsinə malik - əməli addımlar təşkilatı kimi fəaliyyətini gücləndirsin. Sədr belə bir inamı da ifadə etdi ki, ATƏT PA nümayəndə heyətinin bu səfəri tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparmaq və mövqeləri dəqiqləşdirmək baxımından önəmli olacaqdır.

Görüşdə parlament diplomatiyasının əhəmiyyətini vurğulayan Spiker Avropa məkanında gedən prosesləri müzakirə etmək baxımından deputatların geniş imkanları olduğunu söylədi. Bildirildi ki, bəzən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun bir sıra məsələlər, o cümlədən ölkədə keçirilən seçkilərlə əlaqədar verdiyi rəylər obyektiv vəziyyəti əks etdirmir. ATƏT-in bu strukturu çox vaxt qurumun Parlament Assambleyasının və AŞPA-nın müşahidə missiyalarının məsələ ilə əlaqədar fikirlərini nəzərə almır. Azərbaycandakı seçkiləri Ermənistanda keçirilmiş seçkilərlə eyniləşdirməyə cəhd göstərir. Bütün bunlar, əlbəttə ki, geniş ictimaiyyəti narahat edir. Zənnimizcə, ATƏT-in özündə də bir sıra islahatların aparılmasına ehtiyac duyulur. Gələcəkdə bu halların baş verməməsi üçün quruma üzv nümayəndə heyətlərinin və təşkilatın Parlament Assambleyasının fikri mütləq nəzərə alınmalıdır.

Söhbətdə Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsindən danışan Spiker ikili standartların məsələnin həllinə maneçilik törətdiyini qonağın diqqətinə çatdırdı. Bildirildi ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və nüfuzlu beynəlxalq qurumların qərarlarına məhəl qoymayan Ermənistan işğalçılıq siyasəti yeritməkdə davam edir. Problemin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olsa

da, hələlik real bir nəticə yoxdur. Biz bu sahədə ATƏT-in Parlament Assambleyasından münaqişənin ədalətli həlli istiqamətində səylərini artırmasını gözləyirik. Belə hesab edirik ki, Minsk qrupunun görülən işlər barədə təşkilatın Parlament Assambleyasına hesabat verməsi məqsədəmüvafiq olardı.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq Bakıda gördüyü inkişafdan və parlamentdə deputatlar üçün yaradılmış şəraitdən məmnun qaldığını bildirdi. Petros Eftimiu dedi ki, Azərbaycan sadəcə ATƏT-in fəal üzvü deyildir. O, həm də regionda önəmli dövlətlərdən biridir. Ona görə bu səfər bizim üçün çox önəmlidir. ATƏT Avropa məkanında vacib bir siyasi forumdur. Onun Parlament Assambleyasında olduqca səmərəli müzakirələr, təcrübə mübadiləsi aparılır. Heç şübhəsiz, qarşılıqlı səfərlərimiz və görüşlərimiz əlaqələrimizin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Görüşdə qonaq qeyd etdi ki, onun təmsil etdiyi təşkilatın əsas vəzifələrindən biri demokratiya, insan hüquqları və münaqişələrlə bağlı qarşıya çıxan məsələlər barədə siyasi dialoq aparmaq, problemlərin həllinə yardımçı olmaqdır. Seçkiləri müşahidə etmək ATƏT qurumlarının əsas funksiyalarından biridir. Çox təəssüf ki, bəzən Parlament Assambleyasının müəyyən məsələlərlə bağlı fikirləri qurumun digər strukturları ilə üst-üstə düşmür. Qonaq bunu deputatların öz fikirlərini sərbəst ifadə etmək imkanları ilə əlaqələndirdi.

Söhbətdə Dağlıq Qarabağ münaqişəsindən danışan Petros Eftimiu problemin sülh yolu ilə həllinin vacibliyini vurğuladı. Qeyd edildi ki, məsələnin Minsk qrupu çərçivəsində həlli problemin birdəfəlik aradan qalxmasına zəmanət ola bilər. Bununla yanaşı, məsələnin tezliklə çözülməsi təkcə region üçün deyil, bütün Avropa məkanı üçün çox önəmlidir. Bu baxımdan, ATƏT PA problemin həllinə öz səlahiyyətləri çərçivəsində gələcəkdə də dəstək vermək niyyətindədir.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin müavini, ATƏT PA-da nümayəndə heyətimizin başçısı Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak edirdilər.

169) ATƏT PA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ BARƏDƏ MÖVQEYİNİ ƏKS ETDİRƏN QƏTNAMƏ QƏBUL EDƏ BİLƏR ...

12/05/11

Mayın 12-də Milli Məclisdə ATƏT-in Parlament Assambleyasının sədri Petros Eftimiun Azərbaycan parlamentinin qurumdakı nümayəndə heyətinin üzvləri ilə görüşdü.

Qonaqları salamlayan Milli Məclis Sədrinin müavini, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova bildirdi ki, 90 ildən yuxarı parlament ənənələrinə malik olan ölkəmiz bu qurumla əməkdaşlığa böyük önəm verir. Müstəqillik dövründə ölkəmizin qazandığı uğurlardan ətraflı söhbət açan vitse-spiker vurğuladı ki, Azərbaycan bütün sahələrdə iqtisadi inkişafa nail olmaqla yanaşı, həm də həyatı müasirləşdirir. Ona görə də, dünya dövlətləri arasında islahatların sürətinə və məzmununa görə öndə gedən ölkə kimi tanınır. Hüquqi, siyasi, mədəni sahələrdə aparılan islahatların müsbət nəticələri demokratiyanın bərqərar olunması üçün çox gözəl baza rolunu oy-

nayır. Vətəndaş cəmiyyəti inkişaf etdirilir.

Bahar Muradova ATƏT PA sədrinin nəzərinə çatdırdı ki, qurumun fəal üzvlərindən biri olan ölkəmizdə insan haqlarına xüsusi önəm verilir, Azərbaycan bu sahədə çox vicdanlı bir dövlət və tərəfdaşdır. Ölkəmizdə gedən demokratik proseslər Azərbaycanla ATƏT-i daha da yaxınlaşdırır.

ATƏT PA sədrinin ölkəmizə səfərinin və keçirəcəyi görüşlərin əhəmiyyətini xüsusi vurğulayan Milli Məclis Sədrinin müavini bildirdi ki, qurumdakı parlament nümayəndə heyətimizi, Azərbaycan xalqını daha çox maraqlandıran odur ki, ATƏT PA-da Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qurumun özünün mövqeyini, ATƏT-in sənədlərindəki mövqeyini əks etdirən qətnamə layihəsi qəbul olunsun. Bahar xanım dedi ki, bunun çox çətin məsələ olduğunu bilirəm, amma ATƏT PA öz rolunu və nüfuzunu qaldırmaq istəyirsə, həll olunmamış münaqişələrin həllinə xüsusi diqqət yetirməlidir.

Görüşdə ATƏT PA-nın sədri Petros Eftimiun bu vəzifədə ölkəmizə ilk gəlişindən məmnunluğunu ifadə etdi, Azərbaycana səfərinin məramını açıqladı. Milli Məclisin nümayəndə heyətinin ATƏT PA-dakı fəaliyyətini yüksək dəyərləndirən sədr bir sıra məsələlərdə Bahar Muradova ilə həmfikir olduğunu bildirdi. Petros Eftimiun dedi ki, geniş miqyasda təhlükəsizliyin qorunmasına böyük ehtiyac duyulan müasir dünyada ATƏT mühüm əhəmiyyət kəsb edən təşkilatdır. Şərqi və Qərbi bir araya gətirən və Avropanı birləşdirən yeganə qurumdur. Bildirdi ki, parlament təşkilatı olaraq, xalqı təmsil edən təşkilat olaraq ATƏT PA cəmiyyətin bütün təbəqələrinə töhfə vermək istəyindədir.

ATƏT PA-nın sədri Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həllinə tərəfdar olduqlarını vurğuladı. Bu işdə qurumun düzgün platforma rolunu oynaya biləcəyini dedi. ATƏT-in Minsk qrupu həmsədrlərinin "Yol xəritəsi"nin həyata keçirilə bilməsi üçün onun mütləq ədalətli olması vacibliyini önə çəkdi. Qonaq nəzərə çatdırdı ki, Milli Məclis Sədrinin müavini Bahar Muradovanın dediyi qətnamənin qəbul olunması üçün həmin sənədin ATƏT Parlament Assambleyasının prosedurlarına uyğun hazırlanması və mərhələlərdən keçirilməsi vacibdir. Nəticə isə qurumdakı nümayəndə heyətlərinin siyasi iradəsindən asılı olacaq. Petros Eftimiun bu işdə ATƏT PA-nın sədri kimi imkanlarından istifadə edəcəyini söylədi.

Görüşdə Azərbaycan-Yunanıstan əlaqələrindən də bəhs olundu. Deputatlar Eldar İbrahimov, Rəbiyyət Aslanova, ATƏT PA Baş katibinin müavini Tina Şön müzakirə olunan məsələlərlə bağlı fikirlərini açıqladılar.

Görüşün yekununda ATƏT PA-nın sədri Petros Eftimiun bir fikri də qeyd etdi ki, ATƏT Avropanın Avrasiya hissəsində təhlükəsizlik mexanizmi rolunu oynaya bilər.

168) PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ MDB İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN PA-nın İCLASINDA

19/05/11

Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti MDB iştirakçısı olan dövlətlərin PA-nın 36-cı iclasında iştirak etmək üçün mayın 14-16-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində səfərdə olmuşdur.

Səfər çərçivəsində cənab Oqtay Əsədov Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Boris Qrızlovla görüşdü. Görüşdə Milli Məclisin Sədri bildirdi ki, Azərbaycan rəhbərliyi ölkələrimiz arasındakı əlaqələrin inkişafına xüsusi önəm verir və bu inkişafın intensiv xarakter almasını yüksək qiymətləndirir. Dövlət başçılarımızın qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin daha da dərinləşməsinə impuls verir və hər bir görüş münasibətlərimizin yüksəlişində yeni mərhələ açır. Qeyd olundu ki, bu vaxta qədər Azərbaycanla Rusiya arasında 160-dan çox dövlətlərarası və hökumətlərarası sənədlər imzalanıb ki, bu da əlaqələrimizin hüquqi bazasının möhkəmlənməsinə xidmət edir. Azərbaycan Rusiya ilə əlaqələrin bundan sonra da genişləndirilməsində maraqlıdır. Mehriban qonşuluq və dostluq münasibətləri xalqlarımızın mənafeyinə xidmət edir. Cənab Oqtay Əsədov ölkələrimiz arasında iqtisadi, ticarət, mədəni, humanitar və digər sahələrdə əlaqələri yüksək dəyərləndirdi və bu münasibətlərin daha da dərinləşməsinin vacibliyini vurğuladı.

Milli Məclisi Sədri qanunverici orqanlarımız arasında da əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini bildirdi. Hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyətinin əhəmiyyətini qeyd edən Oqtay Əsədov deputatlarımızın bir çox beynəlxalq parlament təşkilatlarında uğurlu fəaliyyətini yüksək qiymətləndirdi. Sonra Milli Məclisin Sədri Azərbaycan və Rusiya parlamentləri arasında əlaqələrin inkişafına göstərdiyi xidmətə görə Dumanın Sədri Boris Qrızlova təşəkkürünü bildirdi, onun Milli Məclisin fəxri medalı ilə təltif edildiyini diqqətə çatdırdı və medalı ona təqdim etdi.

Boris Qrızlov onun əməyinə verilən qiymətə görə Milli Məclisin Sədrinə minnətdarlığını ifadə etdi. O, bundan sonra da parlamentlərarası əlaqələrin inkişafına və dövlətlərarası münasibətlərin dərinləşməsinə xidmət edəcəyini söylədi. Duma Sədri Azərbaycanla Rusiya arasında əlaqələrin daha da genişlənməsi üçün yüksək potensial imkanlar olduğunu və bu imkanlardan istifadə etməyin vacibliyini vurğuladı. Qeyd olundu ki, Rusiya Azərbaycanla fəal ticarət əlaqələrini genişləndirməkdədir. Humanitar və digər sahələrdə də əlaqələrimiz yüksək xarakterizə olunur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonra Milli Məclisin Sədri Oqtay Əsədov MDB iştirakçısı olan dövlətlərin PA Şurasının Sədri, Rusiya Federasiyası Federal Məclisinin Sədri Sergey Mironovla görüşdü. MDB iştirakçısı olan dövlətlərin PA-nın növbəti iclasında onunla görüşdən məmnun olduğunu bildirən Milli Məclisin Sədri bu cür görüşlərin parlamentlərarası əlaqələrin dərinləşməsinə və möhkəmləndirilməsinə impuls verdiyini söylədi. Qeyd olundu ki, ikitərəfli əlaqələrimizin bugünkü vəziyyəti çox böyük razılıq hissi yaradır. Sevindiricidir ki, siyasi sahədə əməkdaşlığımız son illərdə daha fəal xarakter alıb. Yüksək səviyyədə qarşılıqlı səfərlər Azərbaycan-Rusiya münasibətlərinin inkişafına daha geniş perspektivlər açır. Oqtay Əsədov qeyd etdi ki, iqtisadi sahədəki əməkdaşlığımız da ürəkaçandır. Azərbaycanda 500-ə yaxın Rusiyanın müəssisə və təşkilatları qeydiyyatdan keçib və uğurla fəaliyyət göstərirlər. Dövlətlərimiz bir çox məsələlərdə - xüsusilə terrorizmə və beynəlxalq cinayətkarlığa, silahların və narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizədə eyni mövqedən çıxış edir.

Oqtay Əsədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində fəal iştirakına görə Rusiya tərəfinə təşəkkür etdi.

Bu görüşdən məmnun qaldığını bildirən Sergey Mironov ilk növbədə Avrovijn musiqi yarışmasında ən yüksək nəticə əldə edərək qalib gəldiyinə görə Azərbaycan xalqına öz təbriklərini çatdırdı. Qeyd olundu ki, bu, Azərbaycanın bugünkü hərtərəfli inkişafının təsdiqidir.

Federasiya Şurasının Sədri ikitərəfli əməkdaşlığımızdan bəhs edərək bildirdi ki, bu sahədə görülən işlər davam edir və nəticələr sevindiricidir. MDB iştirakçısı olan dövlətlərin PA çərçivəsində həyata keçirilən tədbirlər isə bu sahədə çox mühüm rol oynayır. Sergey Mironov bildirdi ki, dövlət başçılarının səfərləri və bu səfərlər zamanı aparılan danışıqlar, imzalanan sənədlər ikitərəfli əməkdaşlığın daha da dərinləşməsində özül rolunu oynayır. Ölkələrimiz öz siyasətini demokratik dəyərlər əsasında müəyyənləşdirib. Öz gəncliyi ilə qürur duymağa haqqı olan Azərbaycanla Rusiya arasında əlaqələrin bundan sonra da davam edəcəyinə inamını bildirən Sergey Mironov hər kəsin bu işə töhfə verməsini vacib saydı.

Milli Məclisin Sədri Oqtay Əsədovun Tavriya sarayında növbəti görüşü Ukrayna Ali Radasının Sədri Vladimir Litvinlə oldu. Ukraynalı həmkarı ilə görüşdən məmnunluğunu bildirən Milli Məclisin Sədri bu görüşlərin beynəlxalq təşkilatlar çərçivəsində ənənəvi xarakter aldığını söylədi. Qeyd edildi ki, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından bu görüşlər yüksək qiymətləndirilməlidir. Azərbaycan və Ukrayna xalqlarını ənənəvi dostluq əlaqələri birləşdirir. Bu əlaqələr ölkələrimiz müstəqillik əldə etdikdən sonra daha dərinləşmiş və məzmunca yeni xarakter almışdır.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Ukrayna ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Dövlət başçılarımızın qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar bu əlaqələri daha da möhkəmləndirir. Bu günə qədər Azərbaycanla Ukrayna arasında 120-ə yaxın dövlətlərarası sənəd imzalanıb. Əməkdaşlığımızın inkişafına iqtisadi əməkdaşlığa dair Hökumətlərarası komissiya böyük töhfələr verir.

Ukrayna və Azərbaycan arasında parlamentlər səviyyəsində yaratdığı əlaqələr yüksək qiymətləndirilməlidir. Parlamentarilərimiz ATƏT PA, MDB PA, NATO PA və digər beynəlxalq təşkilatlarda fəal iştirak edir və bir çox məsələlərin müzakirəsində eyni mövqedən çıxış edirlər.

Bu cür görüşləri yüksək qiymətləndirən Ukrayna Ali Radasının Sədri Vladimir Litvin tarixi ənənələrə söykənən əlaqələrimizin daha da inkişafına hər iki tərəfin önəm verməsini razılıq hissi ilə qeyd etdi. Bildirdi ki, ikitərəfli parlament əlaqələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də inkişaf etməkdədir. O, xüsusilə vurğuladı ki, parlamentlərimizin GUAM və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onların Parlament Assambleyalarında daha fəal əməkdaşlıq etməlidirlər. Ukrayna ilə Azərbaycan bütün sahələrdə əməkdaşlığa böyük önəm verir. Humanitar sahədəki səylərimizi daha da artırmaq bu sahədə yüksək uğurlar əldə etməyə imkan verər. Vladimir Litvin Azərbaycana səfərlə bağlı Milli Məclis Sədrinin rəsmi məktubuna müsbət münasibətini açıqladı. Bu səfərin əlverişli zamanda reallaşacağını diqqətə çatdırdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Milli Məclisin Sədri Oqtay Əsədovun Sankt-Peterburqda Qırğız Respublikası Jokorqu

Keneşinin Sədri Axmatbek Keldıbekovla görüşündə ölkələrimiz arasında əlaqələrin bir çox məqamları müzakirə olundu. Bu yaxınlarda TürkPA-nın Astanada keçirilən növbəti toplantısı zamanı Qırğız həmkarı ilə görüşünü məmnunluqla xatırlayan Milli Məclisin Sədri bu cür görüşlərin əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, belə görüşlərin intensiv xarakter alması vacibdir və önəmli məsələlərin müzakirəsi üçün geniş imkanlar açır. Qeyd olundu ki, bütün tarix boyu xalqlarımız bir-birinə qardaşlıq duyğuları nümayiş etdirib. Xalqlarımızı bir çox ortaq dəyərlər birləşdirir. Bunlar, ilk növbədə, bizim ümumi dilimiz və mədəniyyətimizdir. Bu gün qədim tarixi köklərə bağlı əlaqələrimizi daha da dərinləşdirmək üçün mövcud potensial imkanlardan istifadə olunmalıdır.

Qırğız parlamentinin rəhbəri Axmatbek Keldıbekov müstəqil Azərbaycan dövləti ilə, onun parlamenti ilə əməkdaşlığa böyük önəm verdiklərini söylədi. Qeyd etdi ki, Qırğızıstan Azərbaycanla münasibətlərin həm ikitərəfli formatda, həm də üzv olduğumuz beynəlxalq təşkilatlar çərçivəsində dinamik inkişafında maraqlıdır və bu istiqamətdə bütün addımları atmaq niyyətindədir. İqtisadi, ticarət, mədəni, humanitar və digər sahələrdə əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı, parlamentlərarası münasibətlər müzakirə edildi. Belə bir inam ifadə olundu ki, kökləri əsrlərin dərinliklərindən qaynaqlanan əlaqələrimiz daha da möhkəmlənəcək və xalqlarımıza daha böyük uğurlar gətirəcək.

Qırğız parlament nümayəndə heyətinin üzvləri mayın 10-da öz ölkəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum gününün təntənə ilə qeyd etdiklərini məmnunluqla diqqətə çatdırdılar və bunu dostluq və qardaşlığımızın nümunəsi kimi qiymətləndirdilər.

Sankt-Peterburqa səfəri çərçivəsində Milli Məclisin Sədri Oqtay Əsədovun növbəti görüşü Moldova parlamentinin rəhbəri Marian Lupu ilə oldu. Milli Məclisin Sədri qeyd etdi ki, Azərbaycanla Moldova arasında çox yaxşı əlaqələr mövcuddur. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra bu əlaqələr yeni məzmun kəsb etmiş və hərtərəfli xarakter almışdır. Parlamentlərimiz arasında yaranmış səmərəli əməkdaşlıq ölkələrarası əlaqələrə böyük töhfələr verir. Hər iki ölkənin qanunverici orqanında dostluq qrupları fəaliyyət göstərir.

Cənab Oqtay Əsədovla görüşdən məmnunluq duyduğunu deyən Moldova Parlamentinin rəhbəri Azərbaycan Parlamentinin 90 illik yubileyi ilə əlaqədar ölkəmizə səfərini xatırlatdı. Azərbaycanın dinamik inkişafının dünyanın bir çox ölkələrinə nümunə olduğunu söyləyən Marian Lupu aparılan daxili və xarici siyasəti yüksək qiymətləndirdi. O, Azərbaycanla Moldova arasında əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırdı.

Xatırladırıq ki, Milli Məclisin Sədri Oqtay Əsədovun keçirdiyi görüşlərdə ölkəmizin ən ağrılı problemi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bu münaqişə nəticəsində üzləşdiyimiz çətinliklər, Ermənistanın təcavüzkar siyasəti, problemin ədalətli, sülh yolu ilə həlli məsələsi diqqət mərkəzində oldu.

Burada keçirilən görüşlərdə Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Milli Məclisin MDB iştirakçısı olan dövlətlərin PA-da daimi nümayəndəsi Aydın Cəfərov və digər rəsmi şəxslər iştirak edirdilər.

Mayın 15-də Sankt-Peterburqdakı Tavriya sarayında MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurasının iclası keçirildi. Nümayəndə heyətləri rəhbərlərinin iştirakı ilə keçən iclası Şuranın Sədri Sergey Mironov açaraq gündəliyi təqdim etdi. Gündəlikdə Azərbaycanda, Moldovada parlament, Belarus və Qazaxıstanda isə prezident seçkilərinin nəticələri, beynəlxalq və milli seçki sistemləri, Rusiya parlamentarizminin 105 illiyi, yollarda təhlükəsizliklə bağlı keçirilmiş beynəlxalq konfransın sənədlərinin müzakirəsi və təşkilatı məsələlərə baxılması nəzərdə tutulmuşdu. Gündəlikdəki məsələlərin müzakirəsi zamanı onlara müsbət münasibət bildirildi.

İclasda Azərbaycanda parlament seçkilərinin nəticələri ilə bağlı məsələ xüsusilə diqqət mərkəzində oldu. Bununla əlaqədar olaraq, Parlamentlərarası Assambleya Şurasının qərarı açıqlandı. Qərarda göstərilənləri və çıxış edənlərin fikirlərini bir neçə kəlmə ilə ifadə etsək belə bir nəticə hasil olur ki, Azərbaycanda parlament seçkiləri demokratik prinsiplərə uyğun, şəffaf və beynəlxalq standartlara uyğun şəkildə keçirilib. Seçki prosesi zamanı xırda texniki səhvlər müşahidə olunub ki, bu da seçkinin nəticələrinə qətiyyən təsir etmir. Seçkiyə hazırlıq işlərindən başlayaraq səsvermə prosesi və onun nəticəsinədək bütün işlərin yüksək professionallıqla keçirildiyi bildirildi. Hətta, bunu nəzərə alaraq, MDB iştirakçısı olan dövlətlərin PA gələcəkdə səsvermə zamanı barmağın rənglənməsi prosesinin aradan qaldırılmasını tövsiyə edir və Azərbaycandakı seçki sisteminin digər ölkələr üçün nümunə olduğu bildirilir. Tədbir iştirakçıları bu münasibətlə Milli Məclisin Sədri Oqtay Əsədovu təbrik etdilər. Milli Məclisin Sədri isə müşahidə missiyasının ötən il noyabrın 7-də Azərbaycanda keçirilən parlament seçkilərinə verdiyi yüksək və obyektiv qiymətə görə öz təşəkkürünü bildirdi.

Mayın 16-da MDB iştirakçısı olan dövlətlərin PA-nın növbəti 36-cı iclası öz işinə başladı. İclasa Rusiya Federasiyası Federal Məclisinin və MDB iştirakçısı olan dövlətlərin PA Şurasının Sədri Sergey Mironov sədrlik edirdi. Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti iclasda iştirak edirdi. Sergey Mironov ötən iclasdan indiyədək Parlament Assambleyası çərçivəsində görülən işlər barədə məlumat verdi. Sonra Assambleya Şurasının iclasında müzakirə olunan məsələləri və qəbul olunan qərarları nümayəndə heyətlərinin diqqətinə çatdırdı. Bir sıra təşkilatı məsələlərə baxıldıqdan sonra nümayəndə heyətlərinin rəhbərləri çıxış edərək sessiyanın işinə uğurlar arzuladılar.

Sonra MDB iştirakçısı olan dövlətlərin PA-nın daimi komissiyalarının nümayəndələri tərəfindən müzakirəyə bir sıra model qanun layihələri təqdim olundu. Bu layihələrdə elm, təhsil, ekoloji təhlükəsizlik, aqrar sahə, dövlətlərin sosial siyasəti, seçkilər və referendum zamanı aparılan müşahidələrin nəticələri, verilən tövsiyələr və digər vacib məsələlər öz əksini tapmışdı. MDB-yə üzv olan dövlətlərin balıq təsərrüfatı Kodeksi model qanun kimi nəzərdə tutulub. Bu qanun layihəsini Azərbaycan Milli Məclisinin üzvü, MDB iştirakçısı olan dövlətlərin PA-nın Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya daimi komissiyasının sədr müavini Elton Məmmədov təqdim etdi. Müzakirə olunan bütün qanun layihələrinə müsbət münasibət bildirildi və müvafiq qərarlar qəbul edildi.

İclasın gündəliyindəki məsələlərin müzakirəsi başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə mətbuat konfransı keçirildi. Parlament rəhbərləri jurnalistlərin suallarını cavablandırdılar.

Bununla da MDB iştirakçısı olan dövlətlərin PA-nın 36-cı iclası öz işini başa çatdırdı.

167) YERJİ BUZEK: "AZƏRBAYCAN AVROPA İTTİFAQI ÜÇÜN ÖNƏMLİ ÖLKƏDİR"

20/05/11

Mayın 20-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Parlamentinin Sədri Yerji Buzeki qəbul etdi.

Sədr qonağı salamlayaraq ümidvar olduğunu bildirdi ki, bu səfər əlaqələrimizin inkişafı baxımından əhəmiyyətli olacaqdır. Qeyd edildi ki, Avroatlantik məkana inteqrasiya müstəqil Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Əgər əvvəllər münasibətlərimiz ölkəmizə yardımlar səviyyəsində idisə, bu gün münasibətlərimiz qarşılıqlı əməkdaşlıq səviyyəsindədir. Artıq Azərbaycan bütöv bir regionun iqtisadi simasını dəyişə biləcək qlobal layihələrin fəal iştirakçısı və təşəbbüskarıdır. Ölkəmiz Avropanın enerji təhlükəsizliyi sisteminə öz töhfəsini verir.

Avropa İttifaqı ilə imzalanmış "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" münasibətlərimizin hüquqi bazasını təşkil edir. Azərbaycan "Avropa qonşuluq siyasətinə" qoşulduqdan sonra siyasi əməkdaşlıq daha dinamik xarakter almışdır. "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əlaqələrimiz də yüksələn xətlə inkişaf etməkdədir. Ölkəmiz proqrama üzv ölkələrin parlament məclisinin - Avronest PA-nın təsisçilərindən biridir. Bu qurumun fəaliyyətə başlaması Avropa Parlamenti ilə əlaqələrimizdə yeni mərhələ açmışdır.

Spiker bildirdi ki, Azərbaycan insan hüquqlarının qorunması ilə bağlı bütün beynəlxalq sazişlərə qoşulmuşdur. Konstitusiyamızın üçdə bir hissəsi insan hüquqlarına həsr olunub, ölkədə Avropa standartlarına uyğun qanunvericilik bazası formalaşmışdır. İnsan haqlarının qorunması və demokratikləşmə sahəsində görülən işlər Azərbaycanın milli maraqlarına əsaslanır.

Biz 2010-cu il mayın 20-də Avropa Parlamentində "Cənubi Qafqaz üzrə Avropa İttifaqı strategiyasına ehtiyac" adlı qətnaməni və bu ilin aprelin 7-də qəbul edilmiş "Avropa qonşuluq siyasəti - Şərq ölçüsünün icmalı" adlı sənədləri yüksək qiymətləndiririk. Bu sənədlərdə Ermənistan qoşunlarının Dağlıq Qarabağdan geri çəkilməsi tələb olunmuş, qaçqınların öz doğma yurdlarına qayıtmasının vacibliyi vurğulanmışdır.

Söhbətdə Sədr dedi ki, münasibətlərimizin yüksək səviyyədə inkişaf etdiyi bir vaxtda bu ayın 12-də insan hüquqları ilə bağlı məsələnin Avropa Parlamentinin müzakirəsinə çıxarılması bizim üçün gözlənilməz olmuşdur. Bu məsələ ilə əlaqədar Milli Məclis Avropa Parlamentinə müraciət edərək öz narahatlığını ifadə etmişdir. Biz bu cür məsələlərin Avronest PA kimi təşkilat çərçivəsində müzakirəsinin tərəfdarıyıq. Demokratiya, Avropaya inteqrasiya Azərbaycan xalqının öz seçimidir. Hesab edirik, hətta inkişaf etmiş ölkələrdə rast gəlinə biləcək müəyyən qüsurlara baxmayaraq, biz tutduğumuz yolda əhəmiyyətli nailiyyətlər əldə etmişik. İnanırıq ki, Avropa Parlamenti ilə əlaqələrimiz bundan sonra da inkişaf edəcəkdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Avropa Parlamentinin Sədri Yerji Buzek ölkəmizə səfərindən məmnun qaldığını söylədi. O, belə bir fikri vurğuladı ki, qədim və zəngin tarixi ənənələrə malik Azərbaycan Avropanın çox dəyərli bir ölkəsidir. Burada

olmaq, azərbaycanlı həmkarları ilə fikir mübadiləsi aparmaq onun üçün çox xoşdur. Qonaq ölkəmizin yerləşdiyi bölgədəki proseslərlə səfər zamanı yaxından tanış olduğunu diqqətə çatdırdı və ümidvar olduğunu bildirdi ki, aparılan müzakirələr tərəflər üçün əhəmiyyətli olacaq.

Söhbətdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlardan Elxan Süleymanov, Avropa İttifaqı yanında nümayəndəliyimizin rəhbəri Emin Eyyubov, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Roland Kobia və digər rəsmi şəxslər iştirak edirdilər.

* * *

Görüşdən sonra Milli Məclisin Sədri Oqtay Əsədov və Avropa Parlamentinin Sədri Yerji Buzek kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirdilər. Brifinqdə jurnalistləri maraqlandıran suallara ətraflı cavablar verildi.

166) YERJİ BUZEK: "Çox gözəl görürük ki, Azərbaycan dözümlülüyün bərqərar olunduğu, korrupsiyaya qarşı mübarizə aparan və iqtisadiyyatı inkişaf edən ölkədir."

20/05/11

Ölkəmizdə səfərdə olan Avropa Parlamentinin prezidenti Yerji Buzek mayın 20-də Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri ilə görüşdü.

Görüşü hakim partiyanın nümayəndəsi, YAP icra katibinin müavini Mübariz Qurbanlı açdı. Öncə Azərbaycan parlamentində 11 siyasi partiyanın təmsil olunduğu barədə qonağa məlumat verildi. Sonra ölkəmizin ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsindən, işğal altında qalan torpaqlarımızdan söz açıldı.

Söhbət zamanı nəzərə çatdırıldı ki, Avroatlantik məkanı ilə əməkdaşlıq Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətində əsas yerlərdən birini tutur. Bu baxımdan 2010-cu ilin may ayının 20-də Avropa Parlamentində qəbul olunmuş "Cənubi Qafqaz üzrə Avropa İttifaqı strategiyası ehtiyacı" adlı qətnamə Azərbaycanın maraqlarını, həmçinin ədaləti, beynəlxalq hüququn norma və prinsiplərini ifadə edən sənəd kimi bizim üçün mühüm əhəmiyyət kəsb edir. Avropa Parlamentinin bu ilin 12 may tarixli qətnaməsi isə ölkəmizdə etiraz doğurub, sənəddə razılaşmadığımız məqamlar olduğuna görə Milli Məclis bununla bağlı Müraciət qəbul edib.

Görüşdə iştirak edən digər siyasi partiyaların təmsilçiləri də həmin sənədə münasibətlərini qurumun prezidenti Yerji Buzekin diqqətinə çatdırdılar. Çıxışlarda vurğulandı ki, Avropa və Qərb Cənubi Qafqazda baş verənlərə, Azərbaycanla Ermənistana ikili standartlarla yanaşır. Təcavüzkar Ermənistana təzyiq göstərən, doğma yurd-yuvasından didərgin düşmüş 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa təşəbbüs edən yoxdur. Bütün bunlar beynəlxalq təşkilatlara qarşı etimadı azaldır.

Açıq fikir mübadiləsində deputatlar Sabir Rüstəmxanlı (VHP), İlyas İsmayılov (ƏP), İqbal Ağazadə (ÜP), Xanhüseyn Kazımlı (SRP), Qüdrət Həsənquliyev (BAXCP), Fəzail Ağamalı (AVP), Fərəc Quliyev (MDHP) qonağı maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirdilər. Dağlıq Qarabağ münaqişəsinin həllində Avropa Parlamentini fəal və ədalətli mövqe tutmağa çağırdılar.

Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar başçılıq etdiyi qurumun mövqeyini bir daha açıqlayan Yerji Buzek bildirdi ki, Avropa Parlamenti Azərbaycanın müstəqilliyini, suverenliyini, dünya səviyyəsində qəbul olunmuş sərhədləri çərçivəsində ərazi bütövlüyünü tanıyır və ona hörmətlə yanaşır. Dağlıq Qarabağ münaqişəsi də məhz bu prinsiplərə əsasən həll olunmalıdır. Biz çox gözəl görürük ki, Azərbaycan dözümlülüyün bərqərar olunduğu, korrupsiyaya qarşı mübarizə aparan və iqtisadiyyatı inkişaf edən ölkədir. Bakı çox gözəl şəhərdir. Bütün bu nailiyyətləri əldə etmək asan deyil.

Görüşün yekununda "Eurovision" mahnı müsabiqəsində Azərbaycan nümayəndələrinin birincilik qazanması münasibətilə təbriklərini çatdıran Yerji Buzek vurğuladı ki, bu, məhz Azərbaycanın qədim tarixi və mədəniyyəti ilə bağlı qələbədir.

165) MİLLİ MƏCLİSDƏ QƏBUL

26/05/11

Mayın 26-da Milli Məclisin Sədri Oqtay Əsədov Böyük Britaniya-Azərbaycan Parlament qrupunun sədri Mark Fildin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Spiker qonaqları salamlayaraq ölkəmizlə Birləşmiş Krallıq arasında əlaqələrin zəngin tarixi olduğunu bildirdi. Qeyd edildi ki, Azərbaycan onun dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri kimi Böyük Britaniya illə əməkdaşlığa böyük önəm verir. Heç də təsadüfi deyildir ki, həyatın müxtəlif sahələrində münasibətlərimizin inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin mühüm istiqamətlərindən biridir. Prezident İlham Əliyevin Birləşmiş Krallığa rəsmi səfərləri zamanı aparılan danışıqlar əlaqələrimizin daha da dərinləşməsinə yeni impuls vermişdir. Bu günədək ölkələrimiz arasında 21 sənəd imzalanmışdır.

Sədr bildirdi ki, hələ XIX əsrin sonu - XX əsrin əvvəllərində İngiltərə kapitalı Azərbaycanda səmərəli fəaliyyət göstərib. Eyni mənzərəni bu gün də müşahidə edirik. Ölkəmizdə Birləşmiş Krallığın 123 şirkəti fəaliyyət göstərir. Azərbaycanın neft-qaz ehtiyatlarının istifadəyə verilməsində və dünya bazarlarına çatdırılmasında BP şirkəti mühüm rol oynayır.

Söhbətdə Spiker qeyd etdi ki, dövlətlərimizarası əlaqələrin inkişafında parlamentlər yaxından iştirak edir. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları səmərəli fəaliyyət göstərirlər. Deputatlarımız müxtəlif beynəlxalq qurumlarda faydalı əməkdaşlıq edirlər.

Avroatlantik məkana inteqrasiya və Avropa İttifaqı ilə əlaqələrin gücləndirilməsi Azərbaycan rəhbərliyinin daim diqqət mərkəzindədir. Biz Avropa İttifaqının "Şərq Tərəfdaşlığı Proqramı" çərçivəsində də münasibətlərimizin genişlənməsini əhəmiyyətli hesab edirik.

Görüşdə Sədr bildirdi ki, regionda Avropaya inteqrasiya proseslərinə mane olan ən mühüm amillərdən biri Dağlıq Qarabağ münaqişəsidir. Biz problemin həllində Birləşmiş Krallığın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndiririk. Münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü-

nün qorunması prinsipi əsasında həll olunmasında Birləşmiş Krallığın səylərini bundan sonra daha da artıracağına ümid edirik.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq ölkəmizdə gördüyü inkişafdan məmnun qaldığını söylədi. Mark Fild bildirdi ki, o, Bakıda ikinci dəfədir səfərdə olur. Budəfəki səfərindən məqsəd Azərbaycandakı, o cümlədən bölgədəki vəziyyəti öyrənmək və bu məlumatları Britaniya parlamentinə, geniş ictimaiyyətə çatdırmaqdır.

Qonaq səfər müddətində keçirdikləri görüşləri yüksək dəyərləndirərək ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsində siyasi iradənin mövcudluğunu xüsusi qeyd etdi. Bildirildi ki, Britaniya parlamentindəki dostluq qrupunun üzvləri Azərbaycanda olmaqdan, ölkəmizə səfər etməkdən məmnundurlar. Qrupun üzvləri ilə yanaşı, əlaqələrimizin daha da dərinləşməsində Avropa-Azərbaycan Cəmiyyətinin İngiltərə nümayəndəliyinin əməkdaşları da fəal iştirak edirlər. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir.

Mark Fild ölkəsinin Azərbaycanla təkcə energetika sahəsində deyil, qeyri-neft sahələrində də əməkdaşlığa böyük maraq göstərdiyini vurğuladı. Bildirildi ki, kənd təsərrüfatı, ticarət, turizm və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar vardır.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Çingiz Əsədullayev və digər rəsmi şəxslər iştirak edirdilər.

164) AZƏRBAYCAN-ÖZBƏKİSTAN ƏLAQƏLƏRİ İNKİŞAF EDİR

14/06/11

İyunun 14-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Özbəkistanın müdafiə naziri, general-mayor Kabul Berdiyevi qəbul etmişdir.

Görüşdə Sədr demişdir ki, xalqlarımız arasında qədim mədəni, dini, tarixi dostluq əlaqələri mövcuddur. Hər iki ölkə müstəqilliyini bərpa etdikdən sonra münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Bu gün əlaqələrimizin strateji tərəfdaşlıq dərəcəsinə çatmasında dövlətlərimizin başçılarının xüsusi rolu vardır. Prezidentlərimizin qarşılıqlı səfərləri zamanı əməkdaşlığımızın hərtərəfli inkişafına dair çoxsaylı sənədlər imzalanmışdır. Bu sənədlər, həm də hərbi sahədə əlaqələrimizi genişləndirməyə imkan yaradır. İnanırıq ki, Sizin bu səfəriniz münasibətlərimizin daha da genişlənməsinə xidmət edəcəkdir.

Söhbətdə parlamentin Sədri Dağlıq Qarabağ münaqişəsi barədə də qonağa ətraflı məlumat verərək problemin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini diqqətə çatdırdı. Spiker ölkəmizin haqq səsini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyinə görə Özbəkistan xalqına və dövlətinə minnətdarlığını ifadə etdi.

Sədr parlamentlərarası əlaqələrin də yüksələn xətlə inkişaf etdiyini vurğulayaraq, hər iki ölkənin qanunverici orqanında dostluq qruplarının fəaliyyət göstərməsini yüksək qiymətləndirdi və bu sahədəki potensial imkanlardan daha səmərəli istifadə etməyin vacibliyini bildirdi.

Görüşdə Azərbaycana ilk dəfə 2009-cu ildə səfər etdiyini bildirən Kabul Berdiyev ötən müddət ərzində paytaxt Bakının çox sürətlə inkişaf etdiyini, çiçəkləndiyini qeyd etdi. O dedi ki, bu həm də bütövlükdə ölkənin inkişafının göstəricisidir.

Qonaq ölkəsində Heydər Əliyev Gənclər Mərkəzinin fəaliyyət göstərdiyini vurğulayaraq Özbəkistandakı Azərbaycan diasporunun gördüyü işləri əlaqələrimizin dərinləşməsi baxımından müsbət dəyərləndirdi. Qeyd edildi ki, xalqlarımız arasında etnik, mədəni, tarixi bağlılıq münasibətlərimizin böyük gələcəyindən xəbər verir.

Söhbətdə general-mayor belə bir fikri vurğuladı ki, Özbəkistan Azərbaycanla bütün sahələrdə, eləcə də hərbi sənaye potensialının inkişafı sahəsində əməkdaşlıq etməkdə maraqlıdır. İki ölkə arasında hərbi sahədə əməkdaşlığa dair hökumətlərarası Saziş də vardır. Səfərin əsas məqsədi əməkdaşlığımızın daha da genişləndirilməsi yollarını aramaqdır.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

163) BQXK İNSAN və HUMANİZM NAMİNƏ TƏQDİRƏLAYİQ FƏALİYYƏT GÖSTƏRİR

14/06/11

İyunun 14-də Milli Məclis Sədrinin müavini Bahar Muradova Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndə heyəti ilə görüşdü.

Azərbaycan parlamentinin rəhbərliyi adından qonaqları salamlayan vitse-spiker Bahar Muradova bildirdi ki, ölkəmizlə BQXK-nin əlaqələri yüksələn xətlə inkişaf edir. Komitənin Azərbaycandakı nümayəndəliyi həm hökumət qurumları, həm ictimaiyyət, həm də mətbuatla öz işini yaxşı qurub. Hüquq-mühafizə orqanları ilə, ədliyyə, müdafiə, mədəniyyət və turizm nazirlikləriylə birgə həyata keçirilən layihələr xüsusi qeyd olunmalıdır. Qurumun dünya miqyasındakı fəaliyyətini yüksək dəyərləndirən Bahar Muradova Qırmızı Xaç Komitəsi işçilərinin fədakarlığını önə çəkdi. Qaçqın və məcburi köçkünlərə, əsir və itkin düşənlərə göstərdikləri qayğıdan danışdı.

Sonra Milli Məclis Sədrinin müavini diqqəti işğal olunmuş ərazilərdə qalan maddi-mədəniyyət abidələrinin aqibətinə və həmin bölgədə yaşayan insanların psixoloji durumuna yönəltdi. Onların reabilitasiyası istiqamətində BQXK-nin gördüyü işləri qeyd etdi. Bildirdi ki, itkin düşmüş şəxslərlə bağlı qanun layihəsinin hazırlanması da Beynəlxalq Qırmızı Xaç Komitəsinin diqqətindədir və bu istiqamətdə Milli Məclisdə bir sıra görüşlər, tədbirlər həyata keçirilib. Bahar xanım Muradova çətin və şərəfli işlərində BQXK-nin təmsilçilərinə uğurlar arzuladı.

Görüşdə BQXK-nin Beynəlxalq Humanitar Hüquq üzrə regional məsləhətçisi Mariya Tereza Dutli vurğuladı ki, ölkəmizdəki fəaliyyətlərində Azərbaycan hakimiyyətinin dəstəyindən məmnundurlar. Təmsil etdikləri qurumun itkin düşmüş şəxslərlə bağlı model qanun hazırladığını vurğulayan qonaq bildirdi ki, müvafiq qanun layihəsi Azərbaycanda da müzakirə olunub. Əsir və itkin düşmüş şəxslərə dair genetik məlumatın qorunması məsələsinin sənəddə öz əksini tapması məqsədəuyğun sayılıb.

Görüşdə BQXK-nin Bakı nümayəndəliyinin Müdafiə İşləri üzrə koordinatoru Silvi

Qrenişer Azərbaycanda gördükləri işlər barədə ətraflı məlumat verdi. Bildirdi ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə sıx əməkdaşlıq edirlər, həmin komissiyanın üzvlərindən 2 nəfərə lazımi treyninq keçilib. Antimortin məlumatların əldə edilməsində Azərbaycan hökumətinin və cəmiyyətin yardımı səmərəli nəticələr verir. Dağlıq Qarabağ münaqişəsiylə əlaqədar ehtiyacı olanlara müxtəlif növ yardımlar göstərilir. Cəbhə xəttində yerləşən Ağdam, Füzuli və Tərtər rayonlarının cəmi 7 kəndində suvarma və içməli su problemi həll olunur ki, bütün bunlar əhalinin təhlükəsizliyi məsələsinə də təsirsiz qalmır. Söhbət əsnasında S.Qrenişer itkin düşmüş şəxslərlə bağlı qanunvericiliyin vacibliyindən danışdı. Layihədə həmin şəxslərə dair DNT analizinin və eksqumasiya məsələlərinin öz əksini tapması zərurətini önə çəkdi.

Görüşün yekununda Milli Məclis Sədrinin müavini Bahar Muradova BQXK-nin həyata keçirdiyi proqramları yüksək dəyərləndirdi. Haqqında bəhs olunan qanun layihəsinin hazırlanması istiqamətində parlamentarilərin müzakirə və məsləhətləşmələrə hazır olduğunu dedi. BQXK-nin insan və humanizm naminə fəaliyyətinin təqdirəlayiq olduğunu vurğuladı.

Söhbət zamanı bir sıra digər aktual məsələlərə də toxunuldu. Sonda BQXK-nin hazırladığı, itkin düşmüş şəxslərin əşyalarını əks etdirən broşüralar Bahar Muradovaya təqdim olundu.

162) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

28/06/11

İyunun 28-də Milli Məclisdə İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə Baltik Assambleyası nümayəndə heyətinin üzvləri ilə görüşdü.

Görüşdə Ziyad Səmədzadə qonaqları parlamentdə görməyindən məmnun olduğunu bildirdi. O, ölkəmizin öz müstəqilliyini yenidən bərpa etdikdən sonra bir çox problemlərlə rastlaşdığını dedi. Sovetlər birliyi dağıldıqdan sonra iqtisadi çətinliklər, erməni təcavüzü ilə qarşılaşan xalqımızın yalnız ümummilli lider Heydər Əliyevin apardığı siyasət nəticəsində bu günkü inkişafa nail olduğunu qeyd etdi. Bu gün dövlətmizin nüfuzlu beynəlxalq qurumlarla yüksək səviyyədə əlaqələri olduğunu deyən komitə sədri, Baltikyanı ölkələrlə də əməkdaşlıq etdiyimizi nəzərə çatdırdı. Söhbətdə qonaqlara Azərbaycanın iqtisadi inkişafı barədə geniş məlumat verildi.

Nümayəndə heyyətinin rəbəri Yanis Reirs səmimi görüşə görə komitə sədrinə öz minnətdarlığını bildirdi. Ölkələrimiz arasında tarixi oxşarlıqların olduğunu vurğulayan qonaq, Şəhidlər xiyabanını ziyarət edərkən buna bir daha əmin olduğunu söylədi. Azərbaycana səfərinin əsas məqsədi GUAM-la Baltik Assambleyası arasında təcrübə mübadiləsi aparmaq, əlaqələri inkişaf edirmək olduğunu qeyd etdi. Söhbətdə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Nabukko qaz layihəsinin əhəmiyyətindən danışıldı. Qonaq Azərbaycanın bölgədə oynadığı rolu yüksək qiymətləndirdi. GUAM-la BA arasında çox sıx əlaqələrin yaradılacağına ümüd etdiklərini bildirdi.

Görüşdə qonaqları maraqlandıran digər məsələlər müzakirə olundu.

161) AZƏRBAYCAN-LATVİYA PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİNİN İNKİŞAFI VACİBDİR

28/06/11

İyunun 28-də Milli Məclisin Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rövşən Rzayev ölkəmizdə səfərdə olan Baltik Assambleyasındakı Latviya nümayəndə heyətinin üzvləri ilə görüşdü.

Görüşdə qonaqlara məlumat verildi ki, Milli Məclis dostluq qruplarının işinə ciddi əhəmiyyət verir. Parlamentlər arasındakı əməkdaşlığın möhkəmlənməsi qarşılıqlı faydalı təcrübə mübadiləsinə şərait yaradır. Bu baxımdan hazırki səfər latviyalı parlamentarilərin Azərbaycan xalqının zəngin mədəniyyəti və qədim tarixi ilə yaxından tanış olması üçün yaxşı fürsətdir. Söhbət zamanı işçi qrupun rəhbəri Rövşən Rzayev Azərbaycanın müstəqillik dövründə qazandığı nailiyyətlərə və qarşılaşdığı Dağlıq Qarabağ münaqişəsinə toxundu. İşğal altında olan rayonlarımızın aqibətindən danışdı. Regionda təhlükəsizliyin vacibliyini vurğuladı. Dağlıq Qarabağın Azərbaycanlı İcmasının İdarə Heyətinin üzvü kimi məcburi köçkünlərin problemlərindən bəhs etdi. Latviyalı parlamentariləri Dağlıq Qarabağ probleminin həllinə diqqət yönəltməyə səslədi.

Baltik Assambleyasının vitse-prezidenti, BA-dakı Latviya nümayəndə heyətinin rəhbəri Yanis Reirs ötən əsrin 90-cı illərindən etibarən ölkəsinin keçdiyi yoldan və qarşılaşdığı çətinliklərdən söz açdı. O çətin günlərdə müstəqilliyi və Avropaya inteqrasiyanı seçən Latviyanın Avropa İttifaqı daxilində inkişafından bəhs etdi. Parlamentlərimiz arasında əlaqələrin möhkəmlənməsinin hər iki tərəf üçün faydalı olduğunu dedi.

Sonra deputat Fuad Muradov çıxış edərək Azərbaycanla Latviya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün səy göstərməyin vacibliyini vurğuladı. Azərbaycanın üzləşdiyi təcavüz aktı, Dağlıq Qarabağ münaqişəsi barədə Baltik Assambleyasında məsələ qaldırılmasının əhəmiyyətindən danışdı. Regional təhlükəsizlik baxımından bu problemin BA-da müzakirəsinin vacibliyini əsaslandırdı. Latviyalı deputatları haqqın tərəfini saxlamağa, Azərbaycanın ədalətli mövqeyini dəstəkləməyə dəvət etdi.

Görüşdə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində, eyni zamanda GUAM, BA və digər qurumlarla əməkdaşlığın vacibliyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

160)

28/06/11

İyunun 28-də Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov Baltik Assambleyasının vitse-prezidenti, Latviyanın bu qurumda nümayəndə heyətinin rəhbəri Yanis Reirsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Ziyafət Əsgərov qonaqları Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirərək parlamentdə keçirdikləri görüşləri xüsusi dəyərləndirdi.

Baltik Assambleyasının vitse-prezidenti Yanis Reirs ölkəmizə səfərindən, keçirdiyi görüşlərdən razılığını ifadə etdi. O, Fəxri xiyabanda Azərbaycanın ümummilli lideri Hey-

dər Əliyevin, eyni zamanda Şəhidlər xiyabanında 1990-cı il 20 yanvar faciəsi zamanı həlak olmuş insanların məzarlarını ziyarət etdiklərini bildirdi. Qonaq qeyd etdi ki, bizi birləşdirən oxşar cəhətlər çoxdur. 1918-ci və 1990-cı illərdə xalqlarımızın müstəqillikləri uğrunda apardıqları mübarizə buna bariz nümunədir.

Yanis Reirs bildirdi ki, ölkələrimiz arasında əlaqələr getdikcə daha da möhkəmlənir. Dünyada gedən iqtisadi böhran zamanı ölkəniz dinamik inkişafını davam etdirdi. Azərbaycan bizim əməkdaşlıq etmək istədiyimiz ölkədir. Biz burada investisiya yatırımlarını artırmaq niyyətindəyik, Azərbaycan tərəfinin də Latviyada investisiya qoymaq imkanları genişdir.

Qonaq cari ilin oktyabrında keçiriləcək GUAM-ın forumu barədə danışdı, Azərbaycanın bu qurumun aparıcı qüvvəsi olduğunu vurğuladı. Baltik Assambleyası ilə GUAM arasında əlaqələrin genişlənməsinin əhəmiyyətini qeyd etdi.

Görüşdə Dağlıq Qarabağ münaqişənin tarixi, problemin sülh yolu ilə həllinin gedişatı barədə məlumatların geniş ictimaiyyətə çatdırılmasının vacibliyi qeyd edildi. Bildirildi ki, Baltik Assambleyasında Cənubi Qafqazda gedən proseslər diqqət mərkəzində saxlanılır. Belə ki, 2009-cu ildə təşkilatda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə qəbul olunmuşdur.

Yanis Reirs söylədi ki, Latviya üçün vacib məsələlərdən biri enerji təhlükəsizliyidir. Biz istərdik ki, ölkəmizdə Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndəliyi açılsın.

Vitse-spiker Ziyafət Əsgərov ölkəmizin Baltik Assambleyası ilə əməkdaşlıqda maraqlı olduğunu bildirdi. Belə bir inam ifadə edildi ki, GUAM-ın bu ilin oktyabrında Bakıda keçiriləcək forumu GUAM-la Baltik Assambleyası arasında əməkdaşlığa təkan verəcək. Biz forumun yüksək səviyyədə keçirilməsi üçün səylərimizi əsirgəməyəcəyik.

Ziyafət Əsgərov vurğuladı ki, dünyada gedən iqtisadi böhrana baxmayaraq Azərbaycan dinamik inkişaf edir. Biz Avropa ölkələri, o cümlədən Latviya ilə yaxşı münasibətlər qurmağa çalışırıq. Azərbaycanda çoxlu neft və qaz yataqları var. Bu bizə imkan verir ki, energetika sahəsində daha çox Avropa ölkələri ilə əməkdaşlıq edək. Parlamentlərimiz də bu sahənin hüquqi bazasının yaradılmasına öz töhfəsini verir.

Dağlıq Qarabağ məsələsinə toxunan vitse-spiker bildirdi ki, problemin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olur. Çox təəssüf ki, bu istiqamətdə hələlik konkret nəticə əldə olunmayıb. Ziyafət Əsgərov Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyinə görə Baltik Assambleyasına təşəkkürünü ifadə etdi.

Görüşün sonunda Baltik Assambleyasının vitse-prezidenti, Latviyanın bu qurumda nümayəndə heyətinin rəhbəri Yanis Reirs Latviya parlamentinə həsr olunmuş kitabı Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərova xatirə olaraq hədiyyə etdi.

159) AXMATBEK KELDİBEKOV "QIRĞIZISTAN AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK MARAQ GÖSTƏRİR"

04/07/11

İyulun 4-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Qırğızıstan Respublikası Joqorku Keneşinin (Parlamentinin) Sədri Axmatbek Keldibekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Parlamentin Sədri qonaqları səmimi salamlayaraq bu cür görüşlərin münasibətlərimizin inkişafı baxımından önəmli olduğunu söylədi. Qeyd edildi ki, xalqlarımız arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq əlaqələri müstəqillik əldə etdikdən sonra yeni məna kəsb etmişdir. Əlaqələrimizin dərinləşməsində hər iki ölkə rəsmilərinin qarşılıqlı səfərləri və görüşləri əhəmiyyətli rol oynamışdır.

Bu günədək Azərbaycanla Qırğızıstan arasında münasibətlərimizin hüquqi bazasını təşkil edən 28 hökumətlərarası sənəd imzalanmışdır. Bildirildi ki, əlaqələrimizin genişlənməsi Cənubi Qafqazda, o cümlədən Mərkəzi Asiyada sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edir. İqtisadi sahədə əməkdaşlığın daha da dərinləşməsi üçün böyük imkanlar mövcuddur. Bu mənada ölkələrarası ticarət dövriyyəsinin potensial imkanlara cavab verməsi üçün müvafiq işlərin görülməsi zəruridir.

Sədr bu səfərin parlamentlərarası əlaqələrin dərinləşməsinə mühüm töhfə olacağına inamını ifadə etdi. Bildirildi ki, səfər çərçivəsində imzalanacaq Əməkdaşlıq haqqında Memorandum əlaqələrimizin inkişafına xidmət edəcəkdir. Spiker hər iki ölkə parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini yüksək dəyərləndirdi. Qeyd edildi ki, deputatlarımız beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirlər, prinsipial məsələlərdə bir-birinin mövqeyini dəstəkləyirlər.

Söhbətdə Sədr vurğuladı ki, Cənubi Qafqazda Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bütün layihələr uğurla icra edilir. Ölkənin dünya birliyinə inteqrasiya, səmərəli əlaqələr yaratmaq istiqamətində strateji xətti dəyişməz olaraq qalır. Bununla yanaşı, sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi ağrılı problemi var. Beynəlxalq təşkilatların qətnamələrinə məhəl qoymayan Ermənistan işğalçılıq siyasəti yeritməkdə davam edir. İnanırıq ki, problemin həllində Qırğızıstan Azərbaycanın beynəlxalq hüquq normaları, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan mövqeyini dəstəkləyəcəkdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Qırğızıstan parlamentinin sədri Axmatbek Keldibekov Azərbaycana səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını bildirdi. O, böyük deputat heyəti ilə Bakıya gəlməsinin səbəbini Qırğızıstan parlamentarilərinin Azərbaycana olan marağı ilə izah etdi.

Söhbətdə bildirildi ki, beynəlxalq parlament təşkilatlarında, o cümlədən TürkPA çərçivəsində Milli Məclisin nümayəndə heyəti ilə keçirilən görüşlərdə parlamentlər səviyyəsində münasibətlərin bu günü və gələcək inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılır. Bu səfər də qanunverici orqanlar arasında əməkdaşlığın dərinləşməsi məqsədi daşıyır. Qeyd edildi ki, yaxın vaxtlarda geniş tərkibli Qırğızıstan hökumət nümayəndə heyəti Azərbaycana səfər edəcək. Səfər zamanı iqtisadi, humanitar, mədəni sahələrdə əlaqələrin dərinləşməsi barədə danışıqlar aparılacaq.

Qırğızıstan Spikeri ölkəsinin sürətlə inkişaf edən Azərbaycanla həyatın müxtəlif sahələrində əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırdı. Qonaq səfər çərçivəsində Dünya Azərbaycanlılarının III qurultayında iştirak edəcəyini də vurğuladı.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, parlament Aparatının

rəhbəri Səfa Mirzəyev, Qırğızıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Rafiq Məmmədhəsənov, qrupun üzvləri Nizami Cəfərov, Rauf Əliyev, Qırğızıstanın Milli Məclislə dostluq qrupunun rəhbəri Kurmanbek Dıykanbayev, ölkənin Azərbaycandakı fəxri konsulu Ziyada Hüseynov və digər rəsmi şəxslər iştirak edirdilər.

158) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

05/07/11

İyulun 5-də Milli Məclis Sədrinin birinci müavini, Təhlükəsizlik və müdafiə komitəsinin sədri, NATO Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərov qurumun Baş Katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayla görüşdü.

Görüşdə Ziyafət Əsgərov NATO-Azərbaycan münasibətlərinin dinamik inkişaf etdiyini söylədi. Bildirildi ki, ölkəmiz qurumla Sülh Naminə Əməkdaşlıq və Fərdi Tərəfdaşlıq proqramları çərçivəsində siyasi, diplomatik, islahatlar, terrorizmə qarşı mübarizə sahələrində uğurla əməkdaşlıq edir. Azərbaycan sülhməramlı hərbçiləri Əfqanıstanda nümunəvi xidmət aparırlar. Terrorizmə qarşı mübarizədə ölkəmiz hər zaman müttəfiqlərinin yanındadır və dünyanın müxtəlif bölgələrində sülhün, təhlükəsizliyin bərpasında iştirak edir.

Söhbətdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov Ermənistanın işğalçılıq siyasəti, Dağlıq Qarabağ problemi, 1 milyona yaxın azərbaycanlının pozulmuş hüquqlarından danışaraq NATO-nu bu məsələdə ədalətli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsində fəal olmağa çağırdı.

NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay qurumla ölkəmizin münasibətlərini yüksək qiymətləndirdi. Əfqanıstanda göstərdiyi dəstəyə görə xalqımıza təşəkkür etdi. Qonaq Azərbaycanın regionda strateji baxımdan NATO üçün vacib ölkə olduğunu vurğuladı. Bildirildi ki, münasibətlərin dərinləşməsi, əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar vardır. O, belə bir fikri vurğuladı ki, regionda terrorizmə qarşı mübarizədə Azərbaycan çox önəmli rol oynayır. Qonaq əməkdaşlığın daha da dərinləşməsi naminə NATO-nun xüsusi nümayəndəsi kimi səylərini əsirgəməyəcəyini söylədi.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə ölkəmizin NATO yanında daimi nümayəndəsi Xəzər İbrahim və digər rəsmi şəxslər iştirak edirdilər.

157) BMT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

08/07/11

İyulun 8-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində Azərbaycanda səfərdə olan Asiyanın, Afrikanın və Okeaniyanın 11 ölkəsinin BMT yanında daimi nümayəndəliklərinin əməkdaşları ilə görüş keçirildi.

Komitə sədri Səməd Seyidov qonaqları salamlayaraq, onları parlamentdə görməyindən məmnun olduğunu bildirdi. O, inkişaf etməkdə olan Azərbaycanın regionda böyük rol oynadığını vurğuladı. Qonşu dövlətlər Rusiya, Gürcüstan, İranla iqtisadi, siyasi əlaqələ-

rimizin olduğunu dedi. Deputatımız ölkəmizin iyirmi faiz ərazisinin Ermənistan tərəfindən işğalı, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar, o cümlədən, prezidentlərin Kazan görüşü barədə iclas iştirakçılarını ətraflı məlumatlandırdı.

Deputatlardan komitə sədrinin müavini Sevinc Fətəliyeva, Qənirə Paşayeva, Cavanşir Feyziyev, Asim Mollazadə və başqaları çıxış edərək regionda baş verən proseslər və Dağlıq Qarabağ münaqişəsi barədə danışdılar. Millət vəkilləri erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz boşaldılmasına dair BMT Təhlükəsizlik Şurasının qətnamələrinin uzun illər yerinə yetirilməməsindən təəssüfləndiklərini bildirdilər. Milli Məclisin deputatları Asiyanın, Afrikanın və Okeaniyanın 11 ölkəsinin BMT yanında daimi nümayəndəliklərinin əməkdaşlarının Azərbaycana səfərlərini yüksək qiymətləndirərək, bu cür səfərlərin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın inkişafına təkan verəcəyinə əminliklərini ifadə etdilər.

Dominikan Birliyinin BMT-dəki daimi nümayəndəsi qonaqlar adından çıxış edərək, səfərin yüksək səviyyədə təşkilinə görə, Azərbaycan Prezidentinə və hökumətinə minnətdarlıq etdi. O, Azərbaycana gələn nümayəndə heyətinin bu ölkə ilə əyani tanışlığını yüksək qiymətləndirərək dedi: "Biz Azərbaycanın siyasi, iqtisadi, mədəni, sosial həyatı ilə yaxından tanış olduq. Düşünürük ki, bu cür səfərlərin təşkili Azərbaycanın bu ölkələrlə ikitərəfli münasibətlərinin inkişafında mühüm rol oynayacaqdır. Azərbaycan sürətlə inkişaf edir. Biz hesab edirik ki, Azərbaycanın üzləşdiyi problem - Dağlıq Qarabağ münaqişəsi də tezliklə öz ədalətli həllini tapacaqdır".

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

156) AZƏRBAYCAN-RUMİNİYA PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİ İNKİŞAF EDİR

11/07/11

İyulun 11-də Milli Məclisdə Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvlərinin Buxarest şəhərinin 2-ci sektorunun meri, Rumıniya Bələdiyyələr Assosiasiyasının sədr müavini Nekulay Ontsanunun başçılığı etdiyi nümayəndə heyəti ilə görüşü keçirildi.

Milli Məclisin deputatı Mirkazım Kazımov qrupun üzvləri adından qonaqları salamladı, görüşdə iştirak edən millət vəkillərini onlara təqdim etdi. Deputatımız ölkəmizlə Rumıniya arasında siyasi, iqtisadi, humanitar və mədəni sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söylədi. O, Azərbaycan parlamentinin fəaliyyəti, beynəlxalq əlaqələri barədə qonaqlara ətraflı məlumat verdi. Bildirildi ki, Milli Məclisdə 70-dən çox işçi qrupu fəaliyyət göstərir. Bu qruplar təkcə qanunverici orqanlar arasında deyil, dövlətlər və xalqlar arasındakı münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm rol oynayırlar.

Rumıniya nümayəndə heyətinin rəhbəri Nekulay Ontsanu Azərbaycan parlamentində olmağından məmnun qaldığını bildirdi. O, görüşdə ölkəsinin siyasi, elm, təhsil, mədəniyyət və digər sahələrin tanınmış insanlarının təmsil olunduğunu söylədi. Qeyd edildi ki, son iyirmi il ərzində bir çox istiqamətlərdə əlaqələrimiz yüksələn xətlə inkişaf edir.

Qonaq Bakıda və ölkənin bölgələrində müxtəlif sahələrdə müşahidə olunan inkişaf barədə danışaraq, dövlət başçısının bu istiqamətdə göstərdiyi səyləri yüksək qiymətləndirdi.

Nekulay Ontsanu ölkələrimiz arasındakı əlaqələrin genişlənməsində siyasi partiyaların və parlamentlərin rolunun böyük olduğunu bildirdi. O dedi ki, vətəndaş cəmiyyətinin və xalqın təmsilçiləri öz fəaliyyətləri ilə dövlətlərarası münasibətlərin möhkəmlənməsinə töhfə verirlər.

Söhbətdə millət vəkilləri Fəzail İbrahimli, Asəf Hacıyev çıxış edərək ölkəmizdə iqtisadi, elm, təhsil, humanitar sahələrdə görülən işlərdən söz açdılar, Azərbaycanın Cənubi Qafqaz regionunda lider dövlət olduğunu vurğuladılar.

Görüşdə deputatların və siyasi partiya nümayəndələrinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən bəhs olundu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Rumın xalqı və dövləti Azərbaycanın haqq səsini dəstəkləyir və problemin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tərəfdardır.

155) Nekulay Ontsanu: "RUMİNİYA AZƏRBAYCANIN DOSTUDUR"

11/07/11

İyulun 11-də Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Rumıniyanın hakim Demokrat Liberal Partiyasının nümayəndə heyəti ilə görüşdü.

Görüşdə bildirildi ki, Azərbaycanla Rumıniya arasındakı dostluq əlaqələrinin qədim tarixi vardır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra münasibətlərimiz yeni müstəvidə inkişaf etməyə başlayıb. Azərbaycanın Avropaya inteqrasiya etdiyini vurğulayan Ziyafət Əsgərov bu sahədə Rumıniyanın təcrübəsinin bizim üçün önəmli olduğunu bildirdi. Söhbətdə Azərbaycanın Rumıniya ilə əlaqələrin hərtərəfli inkişafına böyük maraq göstərdiyi qeyd edildi, hər iki ölkənin hakim partiyaları arasındakı münasibətlərin genişləndirilməsinin əhəmiyyətindən danışıldı.

Ziyafət Əsgərov Azərbaycanın iqtisadi inkişafı, uğurla həyata keçirilən neft strategiyası, bölgənin ümumi inkişafına mane olan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verdi. Bu münaqişənin həllində rəsmi Buxarestin Azərbaycanın rəsmi mövqeyini və ərazi bütövlüyünü dəstəklədiyinə görə rumın xalqına minnətdarlığını bildirdi.

Görüşdə nümayəndə heyətinin rəhbəri, Buxarest şəhərinin 2-ci sektorunun meri, Rumıniya Bələdiyyələr Assosiasiyasının sədr müavini Nekulay Ontsanu qeyd etdi ki, Rumıniya Azərbaycanın dostudur. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əlaqələrimiz keyfiyyətcə yeni səviyyədə inkişaf etməyə başlamışdır. Sevindirici haldır ki, Prezident İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir və münasibətlərimiz daha da möhkəmlənir.

2004-2011-ci illərdə dövlətlərimiz arasında 50-ə yaxın sənədin imzalandığın qeyd edən, mədəni sahədə əlaqələrimizin inkişafını yüksək qiymətləndirən qonaq, Buxarestin görkəmli yerində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün olmasından şərəf duyduğunu bildirdi.

Nekulay Ontsanu ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini, Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tərəfdar olduğunu söylədi.

Sonra o, Azərbaycanın və Rumıniyanın hakim partiyaları arasında da əlaqələrin inkişafının vacibliyini vurğulayaraq bunun ümumi işin xeyrinə olduğunu bildirdi.

Görüşdə siyasi partiyalar, parlamentlər, eləcə də vətəndaş cəmiyyəti institutları arasında əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı səfərlərin əhəmiyyəti barədə fikir mübadiləsi aparıldı.

154)

15/07/11

İyulun 15-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Parlamentinin nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları salamlayaraq ümidvar olduğunu bildirdi ki, birgə səylər nəticəsində ölkəmizlə Avropa İttifaqı və Avropa Parlamenti arasında mövcud olan əməkdaşlıq daha da dərinləşəcək, yeni məna kəsb edəcəkdir. Əgər əvvəllər əlaqələrimiz Avropa İttifaqı tərəfindən yardımlar səviyyəsində qurulmuşdursa, bu gün münasibətlərimiz qarşılıqlı, faydalı əməkdaşlıq səviyyəsinə yüksəlmişdir.

Sədr xüsusi vurğuladı ki, Avropa İttifaqı və quruma üzv olan ölkələrlə əlaqələrin daha da dərinləşməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Biz Avropa qurumları ilə iş birliyini bundan sonra da genişləndirmək niyyətindəyik. Əlaqələrimiz "Avropa Qonşuluq Siyasəti" və bu siyasətin tərkib hissəsi olan Şərq Tərəfdaşlığı vasitəsi ilə yüksələn xətlə inkişaf edir. Bu proqramın parlament ölçüsü olan Avronest Parlament Assambleyasının təsis edilməsi əməkdaşlığımızın daha yüksək səviyyəyə qalxmasına kömək edəcəkdir. Sədr belə bir inamı ifadə etdi ki, Avronest PA ona bəslənən ümidləri doğruldacaq, Böyük Avropa ailəsinin üzvləri ilə sıx birliyin yaradılmasına dəyərli töhfələr verəcək.

Söhbətdə Spiker Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verdiyini diqqətə çatdıraraq bölgənin inkişafındakı rolundan danışdı. Qeyd edildi ki, Dağlıq Qarabağ münaqişəsi regionun iqtisadi tərəqqisinə mane olmaqla yanaşı, həm də Avropa təhlükəsizlik arxitekturası üçün təhlükədir. Biz problemin sülh yolu ilə beynəlxalq hüquq norma və prinsiplərinə uyğun həllinə tərəfdarıq.

Milli Məclisin Sədri Avropa Parlamentində Cənubi Qafqazda vəziyyətlə əlaqədar qəbul olunmuş qətnamədə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsini yüksək qiymətləndirdi. O, ümidvar olduğunu bildirdi ki, beynəlxalq birliyin səyləri nəticəsində problem tezliklə öz ədalətli həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Avropa Parlamentinin üzvü Franko Qaston Milli Məclisdə olmaqlarından şərəf duyduqlarını ifadə etdi. Bildirildi ki, Avropa Parlamenti Qafqazın bu ölkəsi ilə əlaqələrin inkişafına böyük önəm verir. Qurum təkcə enerji sahəsində deyil, parlamentlər səviyyəsində, mədəni, humanitar sahələrdə əməkdaşlıqda da maraqlıdır.

Avropa Parlamentinin üzvləri Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı proqramı çərçivəsində əlaqələrin inkişafı, Avronest PA-nın fəaliyyəti barədə fikirlərini bölüşdülər.

Söhbətdə ikitərəfli əlaqələrin inkişaf perspektivləri, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparıldı.

Görüşdə Milli Məclisin Avronest PA-da nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov, Avropa Parlamentinin üzvləri Ferreira Fernandez Xose Manuel, Alain Desteks və digər rəsmi şəxslər iştirak edirdilər.

153) AZƏRBAYCAN REGİONDA ƏN DİNAMİK İNKİŞAF EDƏN ÖLKƏDİR

10/08/11

Avqustun 10-da Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov ölkəmizdə səfərdə olan Dominika Birliyinin Baş naziri Ruzvelt Skerrit ilə görüşdü.

Qonağı səmimi salamlayan sədr müavini Valeh Ələsgərov iki ölkə arasında əməkdaşlığın belə yüksək səviyyəli nümayəndə heyəti ilə başlamasından məmnunluğunu ifadə etdi. Bildirdi ki, bu səfər və keçirilən görüşlər səmərəli əməkdaşlığın möhkəm bünövrəsini qoyur. Sədr müavini gələcəkdə iki ölkə arasındakı münasibətlərin inkişafına parlamentlərarası əməkdaşlığın da öz töhfələrini verəcəyini diqqətə çatdırdı.

Görüş zamanı Valeh Ələsgərov ölkəmizdə gedən sürətli iqtisadi inkişaf barədə danışdı. Bildirdi ki, Azərbaycan regionda ən dinamik inkişaf edən ölkədir və xarici dövlətlərlə iqtisadi əməkdaşlığı real səviyyədə təmin etmək imkanına malikdir. Qeyd olundu ki, hazırda Azərbaycan bir çox ölkələrə iri həcmli sərmayələr qoymağa davam edir.

Sədr müavini Azərbaycanın iqtisadi inkişafı, uğurla həyata keçirilən neft strategiyası, ölkənin ümumi inkişafına mane olan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, biz problemin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinin tərəfdarıyıq.

Səmimi görüş üçün təşəkkür edən Ruzvelt Skerrit bildirdi ki, Azərbaycan parlamentində müxtəlif siyasi partiyaların təmsil olunması demokratiyanın bariz nümunəsidir. Belə bir nailiyyətin əldə olunması düzgün siyasətin və strategiyanın nəticəsidir.

Qonaq səfər çərçivəsində Azərbaycanın böyük iqtisadi inkişafına şahid olduğunu vurğuladı və dünyadakı iqtisadi böhranın Azərbaycana təsir etmədiyinə əminliyini ifadə etdi.

Dağlıq Qarabağ münaqişəsinə toxunan Ruzvelt Skerrit qeyd etdi ki, bu sahədə onun ölkəsi hər zaman Azərbaycana dəstək verməyə hazırdır.

Söhbət zamanı parlamentlərarası əlaqələr, qarşılıqlı təcrübə mübadiləsi, ikitərəfli səfərlərin həyata keçirilməsi və digər mövzularda müzakirələr aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev iştirak edirdi.

152) BMT-yə üzv ölkələrin daimi nümayəndələri Azərbaycanın regionda və dünyada gedən proseslərdə iştirakını yüksək qiymətləndirirlər

25/08/11

Bakıda səfərdə olan BMT-yə üzv 13 ölkənin daimi nümayəndəsi avqustun 25-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşdülər.

Komitənin sədri Səməd Seyidov qonaqlara Azərbaycanın dövlətçilik tarixi, Milli Məclisin fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat verdi. Bildirdi ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə sıx əməkdaşlıq edir. Ölkəmiz Avropa Şurasının tam hüquqlu üzvü kimi Avropa İttifaqının bütün proqramlarında fəal iştirak edir. Belə bir inam ifadə edildi ki, BMT-də də rəsmi Bakının mövqeyi daha da möhkəmlənəcək, fəaliyyəti genişlənəcəkdir. Səməd Seyidov BMT-yə üzv ölkələrin daimi nümayəndələrinin bundan əvvəl də ölkəmizə səfər etdiklərini xatırladı, bu cür səfərlərin əlaqələrimizin hərtərəfli inkişafında mühüm rol oynadığını qeyd etdi.

Görüşdə komitə üzvləri Sevinc Fətəliyeva, Asim Mollazadə, Qənirə Paşayeva və Ceyhun Osmanlı Azərbaycanın müstəqillik tarixi, sosial-iqtisadi inkişafı, eləcə də üzləşdiyi problemlərdən danışdılar. Qeyd olundu ki, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizdən çoxunu işğal etməsi, bir milyondan çox insanın 20 ildən çoxdur ki, qaçqın və məcburi köçkün həyatı yaşaması, BMT Təhlükəsizlik Şurasının bununla əlaqədar qəbul etdiyi 4 qətnamənin hələ də kağız üzərində qalması haqlı narazılıq doğurur.

Benin dövlətinin BMT yanındakı daimi nümayəndəsi Jan-Fransis Reqis Zinsou Bakıya səfərin əhəmiyyətini yüksək qiymətləndirdi, bu cür səfərlərin təşkilinə görə nümayəndə heyəti adından Azərbaycan hökumətinə minnətdarlıq etdi. O bildirdi ki, bu cür səfərlər həm ikitərəfli münasibətlərin inkişafı, həm də insanlıq naminə daha çox iş görülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Söhbət zamanı diqqətə çatdırıldı ki, Karib dənizi hövzəsi ölkələri xarici siyasətdə vahid mövqedən çıxış etmək barədə razılıq əldə etmişlər. Bu 14 ölkə BMT-də Azərbaycanın mövqeyini müdafiə edəcəkdir.

Görüş zamanı qonaqlar Bakıya səfərdən məmnun qaldıqlarını bildirdilər, Azərbaycanın regionda və dünyada gedən proseslərdəki iştirakını yüksək qiymətləndirdilər.

151) Kristos Pirqurides: "İşğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır"

02/09/11

Sentyabrın 2-də Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Hüquq məsələləri və insan hüquqları komitəsinin sədri Kristos Pirqurideslə görüşdü.

Qonağı salamlayan Oqtay Əsədov bildirdi ki, rəsmi Bakı ölkəmizin Avropa Şurası ilə əməkdaşlığından razıdır. Artıq 10 ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bu müddət ərzində Azərbaycan öz qanunlarının Avropa qanunlarına uyğunlaşdırılması istiqamətində mühüm addımlar atmış, AŞPA-nın 50-dən çox sənədinə qoşulmuşdur. Azər-

baycanda demokratik təsisatlar, institutlar sürətlə inkişaf edir, insan hüquq və azadlıqlarının müdafiəsinə xüsusi diqqət yetirilir. Bütün bu proseslərdə Avropa Şurasının müstəsna rolu danılmazdır. Sədr bütün bu uğurlara görə Avropa Şurasına minnətdarlığını ifadə etdi.

Milli Məclisin sədri bununla yanaşı, AŞPA-da mövcud olan ikili standartlardan da söhbət açdı, Azərbaycana qarşı ikili münasibətlərə son qoyulacağına inandığını dedi.

Kristos Pirqurides 5 il əvvəl də Bakıda olduğunu, ötən müddət ərzində Azərbaycanın sürətlə inkişaf etdiyini bildirdi. O, Azərbaycanın iqtisadi inkişafını, insan hüquq və azadlıqlarının qorunması istiqamətində görülmüş işləri yüksək qiymətləndirdi.

Söhbət zamanı qonaq Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını pislədiyini diqqətə çatdırdı. Bildirdi ki, işğal Avropa dəyərlərinə, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə ziddir. O, belə bir fikir vurğuladı: "Hesab edirəm ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır."

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və parlamentin deputatı, Avronestdə Azərbaycan nümayəndə heyətinin başçısı Elxan Süleymanov iştirak edirdilər.

Görüşdən sonra AŞPA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin sədri Kristos Pirqurides jurnalistlər üçün brifinq keçirdi.

150) AVROPA STRUKTURLARINA İNTEQRASİYA AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİNDƏNDİR

05/09/11

Sentyabrın 5-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefortun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Qonağa təbriklərini çatdıran Milli Məclisin Sədri ona yeni təyin olunduğu bu vəzifədə uğurlar arzuladı. Bildirdi ki, Azərbaycan Avropa strukturları ilə münasibətlərin inkişafına böyük önəm verir. Milli Məclis də Avropa İttifaqının Parlament Assambleyası ilə yaxından əməkdaşlıq edir. Sədr Avronest təşkilatının yaradılmasının qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsi baxımından mühüm hadisə olduğunu qeyd etdi. Diqqətə çatdırdı ki, Avropa Parlamentinin 2010-cu ilin mayında Cənubi Qafqazda vəziyyətə dair qəbul etdiyi qətnamədə Ermənistan silahlı birləşmələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması və dövlətlərin ərazi bütövlüyünün tanınması müddəalarının əks olunması ölkəmizdə yüksək qiymətləndirilir. Belə hesab edirik ki, təcavüzkarla təcavüzə məruz qalana bərabər münasibət göstərilməməli, onlara fərq qoyulmalıdır.

Görüş üçün minnətdarlığını bildirən Filipp Lefort səmimi sözlərə görə təşəkkürünü bildirdi. Qonaq ölkə rəhbərliyi ilə keçirdiyi görüşlərin və aparılan danışıqların onun üçün çox əhəmiyyətli olduğunu xüsusi vurğuladı. Qeyd etdi ki, real vəziyyəti öyrənmək baxımından bu görüşlər mühüm əhəmiyyət kəsb edir.

Qonaq Cənubi Qafqazda münaqişələrin tezliklə aradan qaldırılması üçün əlindən gələni edəcəyini diqqətə çatdırdı.

Söhbət zamanı Milli Məclisin Sədri Oqtay Əsədov bu sahədə parlamentin də öz üzərinə düşən vəzifələri yüksək səviyyədə həyata keçirəcəyinə əminliyini ifadə etdi, qonağa bu məsuliyyətli işdə uğurlar arzuladı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev iştirak edirdi.

149) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

13/09/11

Sentyabrın 13-də Milli Məclis Sədrinin müavini Bahar xanım Muradova ölkəmizdə səfərdə olan UNİCEF-in Mərkəzi və Şərqi Avropa, MDB ölkələri üzrə regional nümayəndəliyinin direktor müavini xanım Kirsi Madi ilə görüşdü.

Bahar Muradova ölkəmizin UNİCEF-lə əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Bildirdi ki, Milli Məclis UNİCEF-lə münasibətlərinə xüsusi önəm verir. Bu təşkilatın xətti ilə Azərbaycanda bir sıra maraqlı layihələr uğurla həyata keçirilmiş və bu sahədə işlər davam etdirilir.

Qeyd olundu ki, bu gün dünyadakı səhiyyə problemlərinin mövcudluğu şəraitində Azərbaycanda səhiyyə sahəsində ciddi işlər görülüb. Sədr müavini ölkəmizdə uşaqların təhsili, onların sağlamlığının qorunması, Milli Məclislə UNİCEF arasında qanun yaradıcılığı sahəsində əməkdaşlıq istiqamətlərində həyata keçirilmiş tədbirləri yüksək qiymətləndirdi. Bahar Muradova bu təşkilatla Azərbaycanın qarşılıqlı əməkdaşlığının gələcəkdə hər iki tərəfə daha əhəmiyyətli töhfələr verəcəyinə əminliyini ifadə etdi.

Səmimi sözlər üçün təşəkkürünü bildirən xanım Kirsi Madi diqqətə çatdırdı ki, təmsil etdiyi təşkilatla Azərbaycan arasında qarşılıqlı əməkdaşlıq şəraitində bugünədək həqiqətən də böyük işlər görülüb. Qonaq hazırlanma mərhələsində olan "Sosial xidmətlər haqqında" qanun layihəsinin qəbulundan sonra Azərbaycanda mövcud sahədə vəziyyətin daha da yaxşılaşacağına inandığını dedi. Qeyd olundu ki, UNİCEF əməkdaşlıq etdiyi ölkələrdə parlament qurumlarına xüsusi önəm verir və onlarla sıx əməkdaşlıq edir.

Söhbət zamanı görüşdə iştirak edən Milli Məclisin Sosial siyasət Komitəsinin sədri Hadi Rəcəbli yaxın gələcəkdə sosial sahədə qəbul olunması nəzərdə tutulan qanun layihələri barədə məlumat verdi. Bildirdi ki, ölkəmizin körpələrin qidalanması ilə bağlı qanununun BMT-də model qanun kimi qəbul edilməsi UNİCEF-lə uğurlu əməkdaşlığımızın nəticəsidir.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

148) ABŞ SENATORLARI MİLLİ MƏCLİSDƏ

26/09/11

Ölkəmizdə səfərdə olan Amerika Birləşmiş Ştatlarının Kaliforniya Senatının qanunvericilərindən ibarət nümayəndə heyəti sentyabrın 26-da Milli Məclisdə Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvləri ilə görüşdülər.

İşçi qrupun rəhbəri Səməd Seyidov yüksək səviyyədə olan ikitərəfli münasibətlərdən

danışaraq bildirdi ki, Birləşmiş Ştatlar Azərbaycan üçün vacib ölkələrdəndir. Xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında bu ölkənin rolu əhəmiyyətlidir. Birləşmiş Ştatlar Azərbaycanın ərazi bütövlüyünü və haqq səsini yüksək səviyyədə dəstəkləyən ölkələrdəndir. Azərbaycan da hər zaman, xüsusilə də terrora qarşı mübarizədə Birləşmiş Ştatların yanındadır.

Səməd Seyidov diqqətə çatdırdı ki, Cənubi Qafqazda aparıcı rola malik olan ölkəmiz regionun iqtisadi gücünün 75 faizinə sahibdir. Azərbaycan həm də çoxmilli və tolerantlıq nümayiş etdirən bir ölkədir. İşçi qrupun rəhbəri Kaliforniyadakı Azərbacan diasporunun fəaliyyətini də yüksək qiymətləndirdi.

Azərbaycana səfərlərindən məmnunluq ifadə edən nümayəndə heyətinin başçısı, Ətraf mühitin keyfiyyəti üzrə Senat Komitəsinin sədri Cozef Simitian dedi ki, əsas məqsəq Azərbaycan haqqında, buradakı reallıqlar barədə geniş məlumatlar əldə etmək və seçicilərə çatdırmaqdan ibarətdir. O, diqqətə çatdırdı ki, görüşdə iştirak edən dörd senatorun hər biri təxminən 1 milyon seçicini təmsil edir. Qonaq əlavə etdi ki, 40 nəfərlik senatda Azərbaycana münasibətdə yekdil konsensus mövcuddur. O, Kaliforniyanın yerləşdiyi regionda, Azərbaycanın isə Cənubi Qafqazda əhəmiyyətli rolunu xüsusi qeyd etdi.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparıldı.

147) ARGENTİNA İLƏ PARLAMENTLƏRARASI ƏLAQƏLƏR GENİŞLƏNİR

27/09/11

Sentyabrın 27-də Milli Məclisdə Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvləri ölkəmizdə səfərdə olan Argentina-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşdülər.

Öncə Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupun sədri Rüstəm Xəlilov qonaqlara ölkəmizin müstəqilliyi dövründə genişlənən beynəlxalq və iqtisadi əlaqələrindən, son 20 ildə qazanılmış nailiyyətlərdən danışdı. Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinə toxundu. Qeyd etdi ki, dövlətlərarası və millətlərarası münasibətlərin möhkəmləndirilməsində parlamentarilər körpü rolunu oynamalıdırlar. Bu baxımdan dostluq qrupları arasındakı əlaqələr daha da inkişaf etdirilməlidir.

Görüşdə Argentina Milli Konqresi nümayəndə heyətinin başçısı, Deputatlar Palatasında Argentina-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, deputat Roberto Mario Mouilleron bildirdi ki, ölkəsində Azərbaycanla əməkdaşlığa böyük maraq var. Ona görə də, iki palatalı sistemdə fəaliyyət göstərən qanunverici orqanın həm Senatında, həm də Deputatlar Palatasında Azərbaycanla dostluq qrupu yaradılıb. Milli Konqresdə təmsil olunan bütün siyasi bloklar Azərbaycanla əməkdaşlığın dərinləşməsini istəyir. Söhbət zamanı ölkəmizə səfərdən məmnunluq ifadə edən cənab Mouilleron onu da vurğuladı ki, Azərbaycan müstəqilliyin 20 ili ərzində çox böyük nailiyyətlər əldə edib və hazırda sosial-iqtisadi inkişafının çox uğurlu bir mərhələsini yaşayır.

Sonra hər iki tərəfdən dostluq qrupunun üzvləri fikirlərini bölüşdülər. Senatorlar Jose Maria Roldan və Arturo Vera da Azərbaycanın uğurlarını xüsusi qeyd etdilər. Bakıda gördükləri tərəqqini, Azərbaycan həqiqətlərini, xüsusilə Dağlıq Qarabağ münaqişəsi

ilə bağlı reallığı həmkarlarına və seçicilərinə çatdıracaqlarını bildirdilər. Argentina Milli Konqresinin təmsilçiləri olaraq Dağlıq Qarabağ məsələsində ölkəmizin mövqeyini dəstəklədiklərini dedilər. Vurğuladılar ki, Azərbaycanın mövqeyi tam ədalətli və qanuna uyğundur. Söhbətdə Milli Məclisin deputatı Yevda Abramov ölkəmizdə azsaylı xalqlara göstərilən qayğıdan, xalqımızın tolerantlığından bəhs etdi.

Görüşdə Azərbaycanın Argentinadakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əhmədzadə iştirak edirdi.

146) Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır

27/09/11

Azərbaycanda səfərdə olan Argentina-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Deputatlar Palatasında Əmək qanunvericiliyi daimi komissiyasının sədr müavini Roberto Mario Mouilleronun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 27-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşdü.

Komitənin üzvü, Milli Məclisin deputatı Asim Mollazadə bildirdi ki, bu gün Azərbaycan ilə Argentina arasında müxtəlif sahələrdə münasibətlər inkişaf edir. Azərbaycanın qədim dövlətçilik tarixindən danışan Asim Mollazadə diqqətə çatdırdı ki, dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz sürətli inkişaf yolu keçmişdir. Komitə üzvü Azərbaycanın sosial-iqtisadi inkişafı, regiondakı mövqeyi, eləcə də bölgədə həyata keçirilən irimiqyaslı layihələrdəki birbaşa iştirakı barədə qonaqlara ətraflı məlumat verdi.

Asim Mollazadə Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də qonaqlara geniş məlumat verdi, terrorun Ermənistanda dövlət səviyyəsində dəstəkləndiyini konkret faktlarla qeyd etdi. O əlavə etdi ki, bütün bunlara baxmayaraq, dünya ölkələri hələ də Ermənistanın təcavüzkar dövlət olduğunu birmənalı şəkildə bəyan etmirlər.

Komitə üzvü Argentinanın bu məsələdə rəsmi Bakının ədalətli mövqeyini dəstəkləyəcəyinə ümidvar olduğunu bildirdi.

Görüş üçün təşəkkür edən Roberto Mario Mouilleron argentinalı deputatların səfər çərçivəsində çox səmərəli görüşlər keçirdiyini, Azərbaycan ilə bağlı olduqca zəngin məlumatlar əldə etdiklərini nəzərə çatdırdı.

Qonaq dedi ki, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra, qısa bir müddətdə - 20 ildə əldə etdiyi uğurlar həqiqətən də təqdirəlayiqdir. İnanırıq ki, bizim qarşılıqlı səfərlərimiz, keçirdiyimiz görüşlər təkcə parlamentlərimiz deyil, xalqlarımız arasında da münasibətlərin genişlənməsinə təkan verəcəkdir.

Roberto Mario Mouilleron bəyan etdi ki, onlar Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ problemini başa düşür və bu işğalı pisləyirlər. Çünki Argentinanın da torpaqlarına qəsd edilmişdir. Ona görə də bu cür münaqişələr yalnız dövlətlərin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Görüşdə ölkəmizin Argentinadakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əhmədzadə iştirak edirdi.

145) MİLLİ MƏCLİSDƏ QƏBUL

27/09/11

Sentyabrın 27-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan ABŞ-ın Kaliforniya Senatının Ətraf mühitin keyfiyyəti üzrə komitəsinin sədri senator Cozef Simitianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları səmimi salamlayaraq Azərbaycan xalqının və ölkə rəhbərliyinin ABŞ-la münasibətlərin inkişafına böyük önəm verdiyini bildirdi. Qeyd edildi ki, siyasi, iqtisadi sahədə əməkdaşlığımız uğurla inkişaf edir. Ölkələrimiz arasında bu günədək 73 sənəd imzalanmışdır. Təkcə cari ilin 6 ayı ərzində Azərbaycan ABŞ arasında ticarət dövriyyəsi 1 milyard 200 milyon ABŞ dolları həcmində olmuşdur.

Bu gün iki ölkə arasındakı münasibətlər strateji əməkdaşlıq səviyyəsinədək yüksəlmişdir. Ölkələrimiz terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyi məsələlərində səmərəli əməkdaşlıq edirlər. Söhbətdə Spiker əməkdaşlığın dərinləşməsində qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Kaliforniya Senatı üzvlərinin ölkəmizə səfərinin uğurlu olacağına inamını bildirən Sədr bu səfərin Azərbaycanla yaxından tanışlıq üçün onlara yaxşı imkan yaradacağını söylədi.

Görüşdə qeyd edildi ki, ölkəmiz ABŞ-ın təkcə Federal hökuməti ilə deyil, ayrı-ayrı ştatları, o cümlədən Kaliforniya ilə əməkdaşlığın dərinləşməsinə maraq göstərir. Heç də təsadüfi deyildir ki, 2007-ci ildə ştatın nümayəndə heyəti ölkəmizdə səfərdə olmuş, sonralar isə Milli Məclisin deputatları Kaliforniyaya səfər etmişlər. Sədr ümidvar olduğunu bildirdi ki, indiki səfər müddətində senatorlar ölkəmizin iqtisadiyyatı, mədəniyyəti, regiondakı ictimai-siyasi durum barədə ətraflı məlumat əldə edəcəklər.

Spiker Avroatlantik məkana inteqrasiyanın Azərbaycanın xarici siyasətində önəmli yer tutduğunu xüsusi vurğulayaraq qeyd etdi ki, Azərbaycan regionda ən dinamik inkişaf edən ölkədir. Ancaq Dağlıq Qarabağ problemi bölgənin hərtərəfli inkişafına böyük maneələr yaradır. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdarıq. İnanırıq ki, beynəlxalq birliyin, o cümlədən ABŞ-ın dəstəyi sayəsində münaqişə sülh yolu ilə öz məntiqi həllini tapacaq.

Görüşdə senator Cozef Simitian Kaliforniya nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən məmnunluğunu ifadə etdi. O, Azərbaycanı yaxından tanımaq baxımından səfərin əhəmiyyətini yüksək dəyərləndirdi. Qeyd edildi ki, qonağın təmsil etdiyi ştat ABŞ-ın ən böyük ştatı olmaqla yanaşı, Cənubi Qafqazın bu bölgəsi ilə əlaqələr qurmaqda maraqlıdır. Azərbaycanın həyatın müxtəlif sahələrində əldə etdiyi nailiyyətlər göz önündədir. Onun başçılıq etdiyi nümayəndə heyətinin üzvləri bölgəyə xoş məramla səfər etmişlər və onlar müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün mövcud imkanları yüksək dəyərləndirirlər.

Söhbətdə regional münaqişələrdən söz açan senator Dağlıq Qarabağ probleminin tezliklə ədalətli həllinə inamını ifadə etdi.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, ABŞ ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov, qrupun üzvü Fuad Muradov, ABŞ-ın ölkəmizdəki səfiri Metyu Brayza və digər rəsmi şəxslər iştirak edirdilər.

144) ARGENTİNA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR

27/09/11

Sentyabrın 27-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Argentina Milli Konqresinin Azərbaycanla dostluq qrupunun sədri Roberto Mario Mouilleronun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları salamlayaraq bu cür görüşlərin dövlətlərarası münasibətlərə, xüsusən parlamentlərarası əlaqələrin daha da inkişafına xidmət etdiyini vurğuladı. Bildirildi ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra münasibətlərimiz yeni əhəmiyyət kəsb etmişdir. Cənubi Amerikada ilk dəfə olaraq Argentinada Azərbaycan səfirliyinin açılması ölkəmizin qarşılıqlı münasibətlərimizin inkişafına necə bir önəm verdiyinin göstəricisidir.

Bu gün Azərbaycan yerləşdiyi bölgədə ən dinamik inkişaf edən ölkədir. Təsadüfi deyildir ki, Cənubi Qafqazda Ümumi Daxili Məhsulun 75 faizi Azərbaycanın payına düşür. İqtisadiyyatın kənd təsərrüfatı, neft-qaz hasilatı, kimya, əczaçılıq kimi sahələrində əməkdaşlıq üçün geniş imkanlar vardır. İnanırıq ki, ölkəmizə səfəriniz əlaqələrimizin gələcək inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Biz Milli Məclislə Argentina parlamenti arasında münasibətlərin bundan sonra da inkişaf etdirilməsində maraqlıyıq. Əminik ki, Azərbaycanla bağlı həqiqətlərin Argentina Senatının və Deputatlar Palatasının üzvlərinin diqqətinə çatdırılmasında səylərinizi əsirgəməyəcəksiniz. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Bu, informasiya və təcrübə mübadiləsi baxımından çox önəmlidir.

Azərbaycan dünya ölkələri ilə əməkdaşlıq etməkdə maraqlıdır. Uğurlu neft strategiyası, aparılan iqtisadi islahatlar ölkənin dinamik inkişafında mühüm rol oynayır. Azərbaycan regionda həyata keçirilən qlobal layihələrin fəal iştirakçısıdır. Ancaq Dağlıq Qarabağ münaqişəsi dünya birliyinə inteqrasiya proseslərinə, bölgənin inkişafına maneçilik törədir. Ölkənin 20 faiz ərazisini işğal etmiş Ermənistan münaqişə ilə əlaqədar nüfuzlu beynəlxalq qurumların qətnamələrinə məhəl qoymur. Xaricdəki erməni diasporun dəstəyi və təkidi ilə işğalçılıq siyasəti yeritməkdə davam edir. Biz problemin ölkələrin ərazi bütövlüyü prinsipi əsasında, beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdarıq. İnanırıq ki, məsələ sülh yolu ilə öz ədalətli həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Roberto Mario Mouilleron ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söylədi. O, Azərbaycanın dövlət müstəqilliyinin 20 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdə Prezident İlham Əliyevin nitqini dərin maraqla dinlədiyini xüsusi qeyd etdi. Bildirdi ki, bu səfər Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatı, üzləşdiyi çətinliklər haqqında məlumatlar əldə etmək baxımından önəmli olmuşdur.

Qonaq ölkəsinin Azərbaycanla həyatın müxtəlif sahələrində əməkdaşlığa maraq gös-

tərdiyini vurğuladı. O, dövlətlərarası münasibətlərin dərinləşməsində parlamentlərin rolunu yüksək dəyərləndirərək qarşılıqlı səfərlərin həyata keçirilməsini əhəmiyyətli hesab etdi.

Qonaq qeyd etdi ki, Azərbaycanda yüksək inkişaf gedir. Azərbaycan demokratik, dünyəvi dövlətdir. Biz ölkənizlə bağlı çox yaxşı təəssüratla gedəcəyik və öz təəssüratımızı Argentina ictimaiyyətinə çatdıracağıq.

Söhbətdə regional münaqişələrdən söz açan Roberto Mario Mouilleron bu cür münaqişələrin ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdar olduğunu söylədi. Qonaq həm də qeyd etdi ki, Dağlıq Qarabağ məsələsində biz Azərbaycanın mövqeyini dəstəkləyirik və məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Argentina ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun başçısı Rüstəm Xəlilov, ölkəmizin Argentinadakı səfiri Məmməd Əhmədzadə və digər rəsmi şəxslər iştirak edirdilər.

143) REGİONAL ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

10/10/11

Oktyabrın 10-da Milli Məclisdə GUAM Parlament Assambleyasındakı milli nümayəndə heyətləri ilə Baltik Assambleyası nümayəndə heyəti arasında görüş keçirildi.

GUAM PA-dakı nümayəndə heyətimizin rəhbəri Elton Məmmədov qonaqları salamlayaraq, onları Bakıda yenidən görməkdən məmnun olduğunu bildirdi.

Görüşdə Baltik dövlətləri ilə qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulandı. Bu münasibətlərin GUAM-a üzv ölkələrin Avropaya inteqrasiyası sahəsində əhəmiyyətli rol oynayacağı qeyd edildi.

Baltik Assambleyasının Vitse-Prezidenti, Latviya nümayəndə heyətinin rəhbəri Yanis Reirs ikitərəfli əlaqələrin inkişafını Baltik ölkələrinin enerji təhlükəsizliyini təmin etməsi baxımından da əhəmiyyətli hesab etdi.

Söhbətdə regional əməkdaşlığa xüsusi önəm verən Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artığı qeyd edilərək, ölkənin iqtisadi, mədəni, parlamentlərarası əlaqələrin inkişafı sahələrində əldə etdiyi uğurlar xüsusi vurğulandı.

Görüş səmimi söhbətlə davam etdirildi.

142) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

12/10/11

Oktyabrın 12-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avstriya Respublikasının Prezidenti Haynts Fişerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Sədr qonaqları səmimi salamlayaraq bildirdi ki, ölkələrimiz arasında təşəkkül tapmış ikitərəfli əməkdaşlıq sürətlə inkişaf edir. Münasibətlərimizin yüksək səviyyəyə çatmasında dövlət başçılarının rolu böyükdür. Spiker ATƏT-in Astana sammitində Prezident

İlham Əliyevlə Ali qonağın görüşünün münasibətlərimizin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Bildirildi ki, siyasi, iqtisadi sahələrdə əlaqələrimiz getdikcə inkişaf etməkdədir. Bununla yanaşı, səmərəli əməkdaşlıq üçün iqtisadiyyatın müxtəlif sahələrində geniş imkanlar mövcuddur. Qeyd edildi ki, qarşılıqlı biznes-forumlar, sərgilər, iş adamlarının görüşlərinin keçirilməsi işgüzar əlaqələrin qurulması baxımından əhəmiyyətlidir. Heç də təsadüfi deyildir ki, bu gün Azərbaycanda 40-a yaxın Avstriya şirkəti fəaliyyət göstərir.

Spiker söhbətdə parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynadığını vurğuladı. Bildirildi ki, yüksək səviyyəli parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri qanunverici orqanlar arasında əməkdaşlığın möhkəmləndirilməsi baxımından vacibdir. Sədr bu məqsədlə Avstriya Parlamenti Milli Şurasının Sədrini ölkəmizə rəsmi səfərə dəvət etdiyini söylədi. Qeyd edildi ki, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir.

Söhbətdə Milli Məclisin Sədri Azərbaycanın Avropa təhlükəsizlik arxitekturasına böyük töhfələr verdiyini dedi. Spiker belə bir fikri vurğuladı ki, öz həllini gözləyən Dağlıq Qarabağı problemi regionun tərəqqisinə və Avropaya inteqrasiya proseslərinə mane olmaqla yanaşı, Avropanın təhlükəsizliyini də təhdid edir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq. İnanırıq ki, beynəlxalq birliyin, o cümlədən Avstriyanın səyləri nəticəsində problem tezliklə öz məntiqi həllini tapacaq.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Avstriya Prezidenti Haynts Fişer ölkəmizdə keçirdiyi görüşlərdən və Azərbaycan parlamentində olmağından məmnunluğunu ifadə etdi. Ali qonaq parlamentlərin dövlətlərarası əlaqələrin inkişafında xüsusi rol oynadığını qeyd etdi. O, deputat olduğu dövrdə parlamentarizm ənənələrinin inkişafının necə böyük əhəmiyyət kəsb etdiyinin şahidi olduğunu söylədi.

Görüşdə çıxış edən Avstriya Milli Şurasının vitse-spikeri Fritz Noyqebauer Milli Məclisdə deputatlar üçün yaradılmış şəraiti yüksək dəyərləndirdi. Qonaq Avstriya parlamentinin Azərbaycanın qanunverici orqanı ilə əlaqələrin inkişafına böyük maraq göstərdiyini söylədi. Qeyd edildi ki, hər iki ölkənin deputatları nüfuzlu beynəlxalq qurumlar çərçivəsində tez-tez görüşür, maraqlı fikir mübadiləsi aparırlar.

Söhbətdə Azərbaycanda parlamentarizm ənənələrinin inkişafı və Milli Məclisin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verildi.

Görüşdə Milli Məclis Sədrinin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Kərimli, ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov, Avstriyanın ölkəmizdəki səfiri Silvia Mayer-Kaybiç və digər rəsmi şəxslər iştirak edirdilər.

141) AZƏRBAYCAN CƏNUBİ QAFQAZDA SÜLHÜN TƏMİNATI ÜÇÜN VACİB ÖLKƏDİR

14/10/11

Oktyabrın 14-də Milli Məclisdə Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan İtaliya Senatının İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun nümayəndə heyəti ilə görüşdülər.

Görüşdə Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Azər Kərimli qonaqlara ölkəmiz barədə ətraflı məlumat verdi. Müstəqilliyinin 20 ili ərzində ölkəmizin keçdiyi inkişaf yoluna nəzər salaraq bildirdi ki, memarı ümummilli lider Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti qısa müddətdə yüzilliklərə bərabər irəliləyişə nail olub, regionun və dünyanın ən dinamik inkişaf edən ölkələri sırasına çıxıb. Sonra o, Azərbaycan-İtaliya münasibətlərindən söz açdı. Digər sahələrdə olduğu kimi, parlamentlərimiz arasında da gözəl münasibətlər qurulduğunu vurğuladı. Cənubi Qafqazdakı vəziyyətə dair ötən il İtaliya Senatında qəbul edilən qətnaməyə, həmçinin İtaliya Deputatlar Palatasının Xarici əlaqələr komissiyasında bu il qəbul edilən sənədə görə, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü və ədalətli mövqeyini dəstəklədikləri üçün İtaliya parlamentarilərinə minnətdarlıq bildirildi. Bu problemin sülh yolu ilə həllinə tərəfdar olduğumuz bir daha nəzərə çatdırıldı.

İtaliya Senatı nümayəndə heyətinin başçısı, İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri senator Rossana Boldi öncə Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyi münasibətilə Milli Məclisin deputatlarına təbriklərini çatdırdı. Ölkəmizin bu müddətdə əldə etdiyi uğurların göz qabağında olduğunu dedi. Məlum qətnamədən bəhs edərək söylədi ki, Azərbaycanda sülhün və sabitliyin bərpası, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli bir çox dövlətlərin istəyidir.

Senator Rossana Boldi qeyd etdi ki, İtaliya hökuməti Azərbaycanı Cənubi Qafqazda sülhün və sabitliyin təminatı üçün vacib ölkə sayır. Bu baxımdan əlaqələrimizin daha da genişlənməsi, Azərbaycan mədəniyyətinin İtaliyada tanıdılması zəruridir. Qonaq məlumat verdi ki, ölkəmizə olan böyük marağa görə, İtaliya parlamentindəki Azərbaycanla dostluq qrupunun üzvləri daim artır, hazırda bu qrupun 60 nəfər üzvü var.

Görüşdə senatorlar Alberto Maritati, Pyerciorcio Stiffoni və Alberto Filippi, deputatlar İlham Əliyev və Jalə Əliyeva fikirlərini bölüşdülər. Qonaqların çıxışlarında Azərbaycanın sürətli tərəqqisinə, tikinti sahəsindəki uğurlarına, iqtisadi inkişaf templərinə heyranlıq ifadə olundu. Geniş fikir mübadiləsində tərəfləri maraqlandıran bir sıra suallara aydınlıq gətirildi.

Görüşdə Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov və İtaliyanın ölkəmizdəki səfiri Mario Baldi iştirak edirdilər.

140) SENATOR ROSSANA BOLDİ: "BİZ PARLAMENTLƏRARASI MÜNASİBƏTLƏRİMİZİ DAHA GENİŞ MÜSTƏVİDƏ İNKİŞAF ETDİRMƏK NİYYƏTİNDƏYİK"

17/10/11

Oktyabrın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov İtaliya Senatının Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları səmimi salamlayaraq dedi ki, Azərbaycan ilə İtaliya arasında əlaqələr yüksələn xətlə inkişaf edir. İnanırıq ki, bu səfər də ikitərəfli əməkdaşlığın genişləndirilməsinə yaxşı töhfə verəcək. Spiker qeyd etdi ki, ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artır. Parlamentlərarası münasibətlər də yüksək səviyyədədir. Deputatlarımız beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq edirlər. Bu baxımdan dostluq qruplarının fəaliyyəti təqdirəlayiqdir. Biz nümayəndə heyətinin Bakıda keçirdiyi görüşlərdə səslə-

nən bir fikri dəstəkləyirik ki, əməkdaşlığımız daha yüksək səviyyədə davam etdirilməlidir.

Görüşdə Sədr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açaraq İtaliya Senatının ötən il Cənubi Qafqazda vəziyyətə dair qəbul etdiyi qətnamənin Dağlıq Qarabağ probleminin həllinə fayda verəcəyinə ümidvar olduğunu vurğuladı.

İtaliya Senatının Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri, xanım senator Rossana Boldi səmimi qəbul üçün minnətdarlığını bildirərək söylədi ki, Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edən ölkədir. Bakıda şahidi olduğumuz inkişaf, əlverişli investisiya mühiti barədə İtaliya ictimaiyyətinə və əlaqədar qurumlara geniş məlumatlar çatdıracağıq.

İkitərəfli əlaqələrdən söz açan qonaq dedi ki, biz parlamentlərarası münasibətlərimizi dostluq qrupları səviyyəsindən daha geniş müstəvidə inkişaf etdirmək niyyətindəyik. Bunun üçün əlimizdən gələni etməyə hazırıq.

Senator Dağlıq Qarabağ münaqişəsindən söz açaraq problemin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll olunmasında İtaliyanın bundan sonra da Azərbaycana dəstək verəcəyini bildirdi.

Qəbulda Azərbaycan-İtaliya Forumunun təşkili, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycan-İtaliya parlamentlərarası dostluq qrupun rəhbəri Azər Kərimli, ölkəmizin İtaliyadakı səfiri Vaqif Sadıqov, İtaliyanın Azərbaycandakı səfiri Mario Baldi və digər rəsmi şəxslər iştirak edirdilər.

139) SENATOR ROSSANA BOLDİ: "BİZ PARLAMENTLƏRARASI MÜNASİBƏTLƏRİMİZİ DAHA GENİŞ MÜSTƏVİDƏ İNKİŞAF ETDİRMƏK NİYYƏTİNDƏYİK"

17/10/11

Oktyabrın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov İtaliya Senatının Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları səmimi salamlayaraq dedi ki, Azərbaycan ilə İtaliya arasında əlaqələr yüksələn xətlə inkişaf edir. İnanırıq ki, bu səfər də ikitərəfli əməkdaşlığın genişləndirilməsinə yaxşı töhfə verəcək. Spiker qeyd etdi ki, ölkələrimiz arasında ticarət dövriyyəsi ildən-ilə artır. Parlamentlərarası münasibətlər də yüksək səviyyədədir. Deputatlarımız beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq edirlər. Bu baxımdan dostluq qruplarının fəaliyyəti təqdirəlayiqdir. Biz nümayəndə heyətinin Bakıda keçirdiyi görüşlərdə səslənən bir fikri dəstəkləyirik ki, əməkdaşlığımız daha yüksək səviyyədə davam etdirilməlidir.

Görüşdə Sədr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açaraq İtaliya Senatının ötən il Cənubi Qafqazda vəziyyətə dair qəbul etdiyi qətnamənin Dağlıq Qarabağ probleminin həllinə fayda verəcəyinə ümidvar olduğunu vurğuladı.

İtaliya Senatının Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri, xanım senator

Rossana Boldi səmimi qəbul üçün minnətdarlığını bildirərək söylədi ki, Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edən ölkədir. Bakıda şahidi olduğumuz inkişaf, əlverişli investisiya mühiti barədə İtaliya ictimaiyyətinə və əlaqədar qurumlara geniş məlumatlar çatdıracağıq.

İkitərəfli əlaqələrdən söz açan qonaq dedi ki, biz parlamentlərarası münasibətlərimizi dostluq qrupları səviyyəsindən daha geniş müstəvidə inkişaf etdirmək niyyətindəyik. Bunun üçün əlimizdən gələni etməyə hazırıq.

Senator Dağlıq Qarabağ münaqişəsindən söz açaraq problemin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll olunmasında İtaliyanın bundan sonra da Azərbaycana dəstək verəcəyini bildirdi.

Qəbulda Azərbaycan-İtaliya Forumunun təşkili, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycan-İtaliya parlamentlərarası dostluq qrupun rəhbəri Azər Kərimli, ölkəmizin İtaliyadakı səfiri Vaqif Sadıqov, İtaliyanın Azərbaycandakı səfiri Mario Baldi və digər rəsmi şəxslər iştirak edirdilər.

138) VƏLİD MUSAİD ƏL-TABTABAYİ: "KÜVEYT HƏR ZAMAN AZƏRBAYCANIN HAQLI MÖVQEYİNİ DƏSTƏKLƏYİB"

17/10/11

Oktyabrın 17-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Küveyt Dövləti Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşdü.

Sədr bildirdi ki, Azərbaycanla Küveyt arasında çox yaxın dostluq münasibətləri vardır. İnanırıq ki, qarşılıqlı səfərlər, keçirilən görüşlər münasibətlərimizin inkişafını daha da sürətləndirəcəkdir. Neft ölkəsi kimi tanınan Azərbaycanla Küveyt yerləşdikləri coğrafi ərazilərdə mühüm rola malikdirlər. Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Bunlar iqtisadi sahədə də əməkdaşlığımızı genişləndirmək üçün perspektivlər açır.

Parlamentin Sədri beynəlxalq qurumlardakı əməkdaşlığımızı da yüksək dəyərləndirdi. Spiker Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Küveytin ölkəmizin mövqeyini dəstəklədiyinə görə minnətdarlığını bildirdi.

Görüşdə Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Vəlid Musaid Əl-Tabtabayi ölkələrimizin yaxın tarixinə nəzər salaraq qeyd etdi ki, xalqlarımızı müştərək dəyərlər, dostluq münasibətləri birləşdirir. İki ölkə arasında qarşılıqlı inam və etimad vardır. Bu da münasibətlərin inkişafında mühüm əhəmiyyətə malikdir.

Qonaq Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini pisləyərək Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Küveytin hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini söylədi.

Söhbətdə qarşılıqlı səfərlərin, keçirilən görüşlərin vacibliyindən danışıldı, beynəlxalq qurumlarda ümumi maraqlara xidmət edən məsələlərdə deputatlarımızın eyni mövqedən çıxış etmələrinin əhəmiyyəti vurğulandı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Küveytlə parlamentlərarası əlaqələr üzrə işçi qrupun başçısı Hüseynbala Mirələmov, ölkəmizin Küveytdəki səfiri Tural Rzayev və digər rəsmi şəxslər iştirak edirdilər.

137) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

19/10/11

Oktyabrın 19-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Baş katibi, qurumun Daimi komitəsinin həmsədri Çunq Eu-Yonqu qəbul etmişdir.

Spiker qonağı səmimi salamlayaraq müstəqil Azərbaycanın dünyanın nüfuzlu beynəlxalq qurumları ilə sıx əməkdaşlıq etdiyini söylədi. Bildirildi ki, Azərbaycanda iqtidar partiyası olan və Milli Məclisə seçkilər zamanı parlamentdə yerlərin çoxunu qazanmış Yeni Azərbaycan Partiyası müxtəlif ölkələrdəki siyasi qurumlarla əlaqələrə böyük maraq göstərir. Asiya qitəsində yerləşən ölkələrdəki siyasi partiyalarla münasibət getdikcə genişlənir. Demokratik, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycanda demokratik, hüquqi, iqtisadi islahatlar uğurla davam etdirilir. İqtisadi inkişaf dinamikasına görə Azərbaycan yerləşdiyi regionda lider dövlətə çevrilmişdir.

Biz öz ölkələrində kifayət qədər nüfuza malik partiya nümayəndələri ilə görüşüb qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmağı əhəmiyyətli hesab edirik. Bu baxımdan 2012-ci ildə Bakıda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasının keçirilməsi barədə qərarı alqışlayırıq.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq Azərbaycana səfərindən və burada gördüyü qonaqpərvərlikdən məmnun qaldığını ifadə etdi. Bildirildi ki, qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanla əlaqələrin inkişafı təmsil etdiyi təşkilat üçün çox əhəmiyyətlidir. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Yeni Azərbaycan Partiyası ilə sıx əlaqə saxlayır. Biz Qafqazın bu bölgəsində baş verən prosesləri diqqətlə izləyirik. Bölgəyə olan marağı nəzərə alaraq, təşkilatın növbəti Baş Assambleyasının Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir. Biz belə hesab edirik ki, bu tədbir partiyalararası münasibətlərin inkişafına yeni təkan verməklə yanaşı, bölgə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında da əhəmiyyətli rol oynayacaq.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Sədr müavini və icra katibi, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Daimi komitəsinin İdarə heyətinin üzvü Əli Əhmədov və digər rəsmi şəxslər iştirak edirdilər.

136) MİLLİ MƏCLİSDƏ QƏBUL

19/10/11

Oktyabrın 19-da Milli Məclisin Sədri Oqtay Əsədov Ekvador Respublikasının xarici işlər, ticarət və inteqrasiya naziri Rikardo Armando Patinyo Arokanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Spiker qonağı səmimi salamlayaraq Azərbaycanın müstəqillik əldə etdikdən sonra dünya dövlətləri ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini bildirdi. Qeyd edildi

ki, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri dövlətlərarası əməkdaşlığın inkişafında mühüm rol oynayır. Parlamentin Sədri belə bir inamı ifadə etdi ki, Ekvadorun yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə xidmət edəcək.

Söhbətdə Spiker müstəqil Azərbaycanın qazandığı uğurlardan söz açaraq Azərbaycanın keçmiş SSRİ məkanında ən dinamik inkişaf edən ölkələrdən olduğunu vurğuladı. Sədr belə bir fikri söylədi ki, siyasi, iqtisadi, sosial sahələrdə əldə edilmiş nailiyyətlər dünya dövlətlərinin diqqətini Qafqazın bu bölgəsinə yönəltmişdir.

Bu gün Azərbaycan qlobal layihələrin fəal iştirakçısıdır. Ancaq Dağlıq Qarabağ problemi bölgənin tərəqqisinə, dünya birliyinə inteqrasiya proseslərinə böyük maneçilik törədir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdarıq.

Görüşdə Spiker söylədi ki, biz Ekvadorla həyatın müxtəlif sahələrində, o cümlədən parlamentlər səviyyəsində əməkdaşlıq etməyə hazırıq. Gələcəkdə Milli Məclisdə Ekvadorla əlaqələr üzrə işçi qrupu yaratmaq niyyətindəyik. Ekvador tərəfindən də belə bir addımın atılması, zənnimizcə, ümumi işin xeyrinə olardı.

Ekvadorun xarici işlər, ticarət və inteqrasiya naziri Rikardo Armando Patinyo Aroka səmimi qəbul üçün minnətdarlığını bildirərək ölkəmizdəki inkişafı yüksək dəyərləndirdi. O, səfərin ölkənin yenidən müstəqillik qazanmasının 20 illik yubileyi tədbirlərinə təsadüf etməsinə rəmzi məna verərək Azərbaycanın qısa zamanda böyük uğurlara imza atdığını söylədi. Nazir ölkəsinin Azərbaycanla iqtisadi, ticarət, investisiya yatırımları sahələrində əməkdaşlığa böyük maraq göstərdiyini və səfər zamanı əlaqələrin gələcək inkişaf perspektivləri barədə söhbətlər aparıldığını dedi. Qonaq parlamentlər səviyyəsində münasibətlərin yaranmasının dövlətlərarası əlaqələrin dərinləşməsinə təsiri barədə fikirlərini açıqladı.

Görüşdə ekvadorlu nazir ölkəsinin bundan sonra da beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləyəcəyini qeyd edərək Dağlıq Qarabağ probleminin həllində beynəlxalq hüquq normalarına əməl olunmasının vacibliyini vurğuladı.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak edirdilər.

135) MİLLİ MƏCLİSDƏ QƏBUL

21/10/11

Oktyabrın 21-də Milli Məclisin Sədri Oqtay Əsədov İndoneziya Respublikasının Konstitusiya Məhkəməsinin sədri Məhəmməd Mahfudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları salamlayaraq bu səfərin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Bildirildi ki, İndoneziya Cənubi-Şərqi Asiya bölgəsində geostrateji mövqeyinə, davamlı inkişafına və artan beynəlxalq nüfuzuna görə mühüm mövqe tutur. Azərbaycan Asiyanın bu ölkəsi ilə əməkdaşlığın dərinləşməsini önəmli hesab edir.

Söhbətdə Spiker dedi ki, bu gün siyasi, iqtisadi, mədəni, hüquqi əlaqələrimiz, habelə beynəlxalq təşkilatlar çərçivəsindəki münasibətlərimiz intensiv xarakter daşıyır. Azərbaycanla İndoneziya arasında ticarət dövriyyəsinin həcmi ildən ilə artır. Təkcə cari ilin 9 ayı ərzində bu göstərici 585 milyon ABŞ dollarından çox olmuşdur. Böyük neft və qaz ehtiyatlarına malik ölkəmiz regional əməkdaşlığa, bölgə üçün böyük əhəmiyyətə malik layihələrin reallaşmasına mühüm əhəmiyyət verir. Azərbaycanda qeyri-neft sektoruna investisiya qoyuluşu üçün geniş imkanlar vardır.

Biz İndoneziya ilə həyatın bütün sahələrində, o cümlədən parlamentlər səviyyəsində əlaqələrimizi inkişaf etdirmək əzmindəyik. Təqdirəlayiq haldır ki, hər iki ölkənin qanunverici orqanında parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. İndoneziya nümayəndə heyəti ölkəmizə bir neçə dəfə səfər etmişdir. Deputatlarımızın görüşləri, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri parlamentlərimizin işinə təcrübə mübadiləsi baxımından səmərə verməklə yanaşı, dövlətlərarası münasibətlərin inkişafına da təkan verir. Nüfuzlu beynəlxalq qurumlarda nümayəndə heyətlərimiz səmərəli fəaliyyət göstərir, prinsipial məsələlərdə bir-birlərinin mövqeyini dəstəkləyirlər.

Söhbətdə Sədr sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi problemi olduğunu diqqətə çatdırdı. Bildirildi ki, ölkəmiz münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdardır. Biz BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməyə İndoneziya tərəfinin göstərdiyi dəstəyə görə minnətdarlığımızı bildiririk. Ümidvarıq ki, İndoneziya bundan sonra da Azərbaycanın haqlı mövqeyini müdafiə edəcəkdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İndoneziya Konstitusiya Məhkəməsinin sədri Məhəmməd Mahfud müstəqilliyimizin bərpa olunmasının 20-ci ildönümü münasibəti ilə xalqımızı və Milli Məclisin Sədrini təbrik edib, xoş arzularını çatdırdı. O, Azərbaycana səfərindən, burada keçirdiyi görüşlərdən məmnun qaldığını söylədi.

Qonaq ölkəsinin Azərbaycanla həyatın müxtəlif sahələrində əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini vurğuladı. Qeyd edildi ki, Azərbaycandakı inkişaf, burada görülən işlər barədə İndoneziya rəhbərliyinə və ictimaiyyətinə məlumat veriləcəkdir.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev, İndoneziya Konstitusiya Məhkəməsinin hakimi xanım Mariya Farida İndrati və digər rəsmi şəxslər iştirak edirdilər.

134) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

26/10/11

Oktyabrın 26-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Avropa İdman Jurnalistləri İttifaqı İcraiyyə Komitəsinin üzvləri ilə görüşmüşdür.

Spiker qonaqları səmimi salamlayaraq bu cür görüşlərin əhəmiyyətini vurğuladı. Qeyd edildi ki, bu günlərdə Azərbaycan öz dövlət müstəqilliyinin 20 illiyini qeyd edir. Bu dövrdə həyatın bütün sahələrində olduğu kimi, idmanda da xeyli nailiyyətlər əldə edilmişdir.

1997-ci ildə indiki ölkə Prezidenti cənab İlham Əliyev Milli Olimpiya Komitəsinə Sədr seçildikdən sonra bu sahədə ciddi dönüş yaranmışdır. Ölkədə yeni-yeni idman qurğuları, Olimpiya kompleksləri inşa edilmiş, Azərbaycanın idman siyasətinin əsas hədəfləri müəyyənləşdirilmişdir. Bu gün ölkə idmançıları mötəbər beynəlxalq turnirlərdə, olimpiadalarda uğurla çıxış edirlər. Azərbaycan beynəlxalq səviyyəli idman tədbirlərinin keçirilməsinə ev sahibliyi edir.

Biz Avropa idman jurnalistlərinin, o cümlədən bu sahədə mütəxəssisləşmiş dünya jurnalistlərinin Bakıya səfərlərini müsbət qiymətləndirir, ölkəmizin idmandakı uğurlarının geniş ictimaiyyətə çatdırılması baxımından əhəmiyyətli hesab edirik.

Tədbirdə iştirak edən Dünya İdman Jurnalistləri İttifaqının rəhbəri Cannin Merko və Avropa İdman Jurnalistləri İttifaqının İcraiyyə Komitəsinin prezidenti Yannis Daras Azərbaycanda gördükləri inkişafdan məmnun qaldıqlarını söylədilər. Bildirildi ki, ölkəmizin qısa zaman kəsiyində idman sahəsində əldə etdiyi nailiyyətlər təcrübə mübadiləsi baxımından çox əhəmiyyətlidir. Bu nailiyyətlərlə yerində tanış olmaq, Azərbaycanda keçirilən idman tədbirlərini müşahidə etmək jurnalistlər üçün çox önəmlidir.

Qonaqlar Avropa İdman Jurnalistləri İttifaqı İcraiyyə Komitəsinin toplantısının Bakıda keçirilməsini və gələcəkdə dünya jurnalistləri üçün belə bir konqresin ölkəmizdə təşkilini əhəmiyyətli hesab etdilər. Bildirildi ki, bu, idman sahəsində ixtisaslaşmış jurnalistlərin ölkəmizə olan böyük marağından xəbər verir.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov və digər rəsmi şəxslər iştirak edirdilər.

133) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

27/10/11

Oktyabrın 27-də Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Filip Lefortun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü.

Qonaqları parlamentdə salamlamaqdan məmnunluğunu ifadə edən Səməd Seyidov Avropa İttifaqı ilə ölkəmiz arasında əlaqələrin dinamik inkişaf etdiyini vurğuladı. Komitə sədri Azərbaycanın qədim dövlətçilik ənənələri olduğunu deyərək, Prezidentimizin uğurlu siyasəti nəticəsində bu gün ölkəmizin regionun ən inkişaf etmiş dövləti olduğunu nəzərə çatdırdı.

Görüşdə qonaqlara Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verildi. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini xüsusi qeyd edən komitə sədri, bunu uğurlu siyasətin nəticəsi kimi dəyərləndirdi.

Səmimi qəbula görə minnətdarlığını bildirən Filip Lefort, ölkəmizi BMT-dəki uğuru münasibəti ilə təbrik etdi. O, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacib olduğunu dedi.

Qonaq dövlətimizin Avropa İttifaqı ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırdı, ölkəmizdə demokratiyanın inkişafı istiqamətində atılan addımları yüksək qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanın iqtisadi inkişafı, regional layihələrdə iştirakı barədə də fikir mübadiləsi aparıldı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin rolu qeyd edildi.

132) MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV: "DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ ƏLAQƏDAR STATUS-KVO DƏYİŞMƏLİDİR"

27/10/11

Oktyabrın 27-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Sədr qonaqları salamlayaraq bu cür görüşlərin münasibətlərimizin dərinləşməsinə xidmət etdiyini söylədi. Bildirildi ki, Avropa İttifaqının bölgəyə xüsusi diqqəti regiondakı münaqişələrin ədalətli həllinə inamı artırır.

Söhbətdə Spiker dedi ki, Azərbaycan Avropaya inteqrasiya prosesinin fəal iştirakçılarındandır. Avropa İttifaqı ilə əməkdaşlıq ölkənin xarici siyasətinin prioritet istiqamətlərindəndir. Biz Avropa Parlamenti ilə də əlaqələrin genişlənməsində maraqlıyıq. Bu baxımdan, Avropa Qonşuluq Siyasəti proqramının Cənubi Qafqazda təhlükəsizliyin qorunmasına töhfə verəcəyinə inanırıq. Şərq Tərəfdaşlığı layihəsi çərçivəsində də əlaqələrimiz yüksək səviyyədədir. Bununla yanaşı, istərdik ki, Avropa İttifaqının qonşu ölkələrlə siyasəti daha tarazlı olsun. Qarşılıqlı şəkildə tərəflərin öz üzərilərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsi vacib məsələlərdəndir. Qarşı tərəfin Azərbaycanın ərazi bütövlüyünün qorunmasına dəstək verməsi, bu baxımdan, bizim üçün çox önəmlidir.

Görüşdə Sədr vurğuladı ki, sürətlə inkişaf edən Azərbaycan demokratik, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlayır. Ölkəmiz regionda lider və etibarlı tərəfdaş imici qazanmışdır. Azərbaycan bütöv bir bölgənin iqtisadi tərəqqisinə xidmət edə biləcək qlobal layihələrin fəal iştirakçısıdır. Regiondakı strateji əhəmiyyətli heç bir layihə bu gün Azərbaycansız gerçəkləşə bilməz. Ölkəmiz Avropanın enerji təhlükəsizliyi sisteminə öz layiqli töhfəsini verməkdədir.

Bütün bunlarla yanaşı, Dağlıq Qarabağ münaqişəsi regionun inkişafına və Avropaya inteqrasiya proseslərinə böyük maneçilik törədir. Münaqişənin uzun müddət həll olunması Avropa təhlükəsizliyini də təhdid edir. Biz problemin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdarıq. 20 ilə yaxındır ki, problemin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olur. Təəssüflər olsun ki, məsələnin həllində hələ ki, real bir nəticə yoxdur. Bu qeyri-müəyyənlik doğma yurd-yuvalarından didərgin düşmüş insanları, bütün ölkə vətəndaşlarını çox narahat edir. Bəzən bizə deyirlər ki, münaqişəyə cəlb olunmuş tərəflər öz aralarında razılığa gəlsinlər, biz də bunu dəstəkləyərik. Onda sual olunur, belə halda vasitəçilik missiyasına nə ehtiyac var?

BMT-nin, Avropa Şurasının, digər nüfuzlu qurumların qətnamə və qərarlarına məhəl qoymayan Ermənistan bu gün də işğalçılıq siyasətini yeritməkdə davam edir. Bəzən BMT-nin müəyyən məsələ ilə bağlı qəbul etdiyi qərar çox tez bir zamanda dünya dövlətləri tərəfindən həyata keçirilir. Nədənsə, Dağlıq Qarabağ problemi ilə bağlı biz bu qətiyyəti müşahidə etmirik.

Ancaq bir həqiqət var ki, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar status-kvo dəyişməlidir. Problem uzun müddət öz həllini gözləyə bilməz. Təəccüblü deyil ki, nüfuzlu beynəlxalq qurumların məsələyə bu cür münasibəti işğalçı Ermənistanı daha da ruhlandırır. İqtisadiyyatı bərbad olan Ermənistan indi də işğal olunmuş Azərbaycan torpaqlarından keçməklə Ermənistana yol çəkmək istəyir. Onlar anlamalıdırlar ki, Azərbaycana sərmayə yatırırlar, çünki gec-tez bu ərazilər bizə qaytarılacaq. Bu, beynəlxalq hüququn tələbidir. Göründüyü kimi, danışıqlar prosesini pozmaq üçün rəsmi Yerevan təxribat xarakterli hərəkətlərindən əl çəkmir.

Biz 2010-cu ildə Avropa İttifaqının Cənubi Qafqaz üzrə strategiyasına dair qəbul etdiyi qətnaməni yüksək qiymətləndirir, bunu pozitiv addım hesab edirik. Sənədə səs vermiş siyasətçilər, əslində, Azərbaycanın haqq səsinə, beynəlxalq hüquqa və ədalətə səs vermişlər. İnanırıq ki, beynəlxalq birliyin səyi nəticəsində Dağlıq Qarabağ münaqişəsi tezliklə öz məntiqi həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort ölkəmizin BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibəti ilə xalqımızı və Milli Məclisin Sədrini təbrik etdi. O, belə bir fikri vurğuladı ki, bu, Azərbaycan diplomatiyasının qələbəsidir, aparılan düzgün xarici siyasətin nəticəsidir.

Qeyd edildi ki, Avropa İttifaqı Qafqazın bu bölgəsi ilə əlaqələrin inkişafına böyük önəm verir. Regionda baş verən proseslər diqqətlə izlənilir. Filip Lefort söylədi ki, biz Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni yüksək qiymətləndirir və onun bölgədə oynadığı rolu yaxşı başa düşürük. Bu baxımdan, Avropa İttifaqı regiondakı münaqişələrin sülh yolu ilə ədalətli həllində maraqlıdır.

Söhbətdə ikitərəfli əlaqələrin inkişafı, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin başçısı Roland Kobia və digər rəsmi şəxslər iştirak edirdilər.

131) MƏCLİSDƏ QƏBUL

02/11/11

Noyabrın 2-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Türkiyənin ədliyyə naziri Sadullah Erginin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Görüşdə Spiker qonağa və türk xalqına bu yaxınlarda törədilmiş qanlı terror aktı və Van vilayətində baş vermiş təbii fəlakətlə əlaqədar dərin hüznlə başsağlığı verib, həlak olanların ailələrinə səbir dilədi. Bildirildi ki, xalqımız türk xalqının yaşadığı bu kədəri yaşayır, dərdinə şərik olur. Biz, həmişə olduğu kimi, bu gün də Türkiyənin yanındayıq. Əsrlər boyu xalqlarımız bir yerdə olmuş, bir-birlərinə dayaq durmuşlar. Bu dostluq, qardaşlıq bundan sonra da əbədi yaşayacaq.

Sonra Sədr Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsindən söz açaraq, seçkilərdə Azərbaycana göstərdiyi dəstəyə görə Türkiyəyə minnətdarlığını ifadə etdi. Qeyd edildi ki, bu təkcə Azərbaycanın deyil, qardaş Türkiyənin də diplomatik uğurudur.

Bildirildi ki, ölkələrimiz arasındakı əməkdaşlıq bütün sahələrdə gözəl nəticələr verir. Müstəqilliyinin 20-ci ildönümünü qeyd edən Azərbaycan bu illər ərzində daim Türkiyənin dəstəyini və diqqətini hiss etmişdir. Bu gün güclənən, inkişaf edən Azərbaycan da Türkiyə üçün dayaqdır.

Biz siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələrimizin gün-gündən dərinləşməsindən məmnunuq. İnanırıq ki, digər dövlətlər üçün nümunə ola biləcək bu əməkdaşlıq gələcəkdə də yüksələn xətlə davam etdiriləcəkdir. Azərbaycan bütöv bir bölgənin iqtisadi simasını dəyişə biləcək qlobal layihələrin reallaşmasında fəal iştirak edir. Bu sahədə Türkiyə ilə iş birliyini biz yüksək dəyərləndiririk. Qarşılıqlı sərmayə yatırımları sahəsində də uğurlarımız göz önündədir.

Spiker türkdilli dövlətlərin əməkdaşlığının dərinləşməsini də önəmli hesab etdi. Bildirildi ki, dövlətlərimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin də mühüm rolu vardır. Hər iki ölkənin qanunverici orqanında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir.

Sədr Türkiyənin Ədliyyə Nazirliyi ilə ölkəmizin müvafiq qurumları arasında yaranmış əməkdaşlığı yüksək qiymətləndirərək bu cür əlaqələrin hər iki ölkə xalqlarının mənafeyinə cavab verdiyini söylədi.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Türkiyənin ədliyyə naziri Sadullah Ergin ilk öncə dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd edən xalqımızı və Milli Məclis Sədrini təbrik etdi. O, bu günlərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini təkcə Azərbaycanın deyil, Türkiyənin də uğuru hesab etdi.

O, Vanda baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasında Azərbaycan yetkililərinin iştirakını dostluğumuzun, qardaşlığımızın sarsılmaz nümunəsi kimi dəyərləndirdi. Daha sonra qonaq dedi ki, Bakıda Şəhidlər xiyabanını ziyarət edərkən Vandan gəlmiş bir əsgərin vaxtilə Azərbaycanın istiqlalı uğrunda şəhid olduğunu öyrənib, bu gün isə azərbaycanlılar Vanda bu şəhidin nəvə-nəticələrini xilas edirlər. Bu, dostluğumuzun necə möhkəm təməllər üzərində qurulduğunun göstəricisidir.

Sadullah Ergin Türkiyə ilə Azərbaycan arasında həyatın bütün sahələrində, o cümlədən ədliyyə orqanları səviyyəsində əməkdaşlığın günbəgün inkişafından məmnun qaldığını ifadə etdi. O, gələcəkdə birgə layihələri reallaşdırmaq üçün münasibətləri daha da dərinləşdirmək niyyətində olduqlarını söylədi.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, ədliyyə nazirinin müavini Toğrul Musayev və digər rəsmi şəxslər iştirak edirdilər.

130) OQTAY ƏSƏDOV: "GÜCÜMÜZ BİRLİYİMİZDƏDİR"

03/11/11

Noyabrın 3-də Milli Məclisin Sədri Oqtay Əsədov Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA-nın) Beynəlxalq əlaqələr komissiyasının üzvlərini qəbul etdi.

Spiker qonaqları salamlayaraq komissiyanın Bakıda keçirilmiş birinci iclasının nəticələ-

rini yüksək dəyərləndirdi. Söhbətdə Sədr TürkPA-nın yaranma tarixindən danışdı, təşkilatın gələcəyinə böyük ümidlər bağladığını söylədi. Qeyd edildi ki, keçmiş SSRİ-yə daxil olan respublikalar müstəqillik əldə etdikdən sonra dünyanın siyasi xəritəsində yeni türk dövlətləri yarandı. Zaman bu dövlətləri ümumi mənafelər baxımından birləşdirə biləcək bir qurumun yaradılmasını diktə edirdi. 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının Ankara sammitində belə bir təşkilatın yaradılması məqsədəuyğun hesab edildi və tezliklə İstanbulda TürkPA-nın təsis konfransı keçirildi.

2009-cu ilin sentyabrında Bakıda qurumun ilk plenar iclasının keçirilməsi həqiqətən böyük hadisə idi. Bu gün Azərbaycan paytaxtında yerləşən TürkPA-nın Katibliyi uğurla fəaliyyət göstərir. O dövrdən ötən müddət ərzində quruma üzv ölkələr arasında dostluq, qardaşlıq əlaqələri daha da güclənmişdir.

Sədr qeyd etdi ki, ortaq kökə, tarixə, mədəniyyətə malik xalqlarımız əsrlər boyu bir yerdə yaşamış, bir-birinə dayaq olmuşlar. Təqdirəlayiq haldır ki, bu gün ölkələrimiz müstəqil dövlətlər kimi bütün sahələrdə əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyirlər.

Görüşdə "Türk dünyası böyük dünyadır" söyləyən Sədr daha sonra dedi ki, vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozuldu. Əgər o tarixi ədalətsizlik törədilməsə idi bu gün türk dünyası coğrafi baxımdan da vahid bir məkan kimi yaşayacaqdı. Bütün bunlara baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyil, aramızdakı münasibətlər, ortaq keçmişimiz və bu günümüzdür. Bizim gücümüz birliyimizdədir.

Sədr Azərbaycanın bu yaxınlarda BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsindən söz açaraq bunu təkcə Azərbaycanın deyil, bütün türk dünyasının diplomatik uğuru kimi qiymətləndirdi. Qeyd edildi ki, ötən il ATƏT-ə Qazaxıstan sədrlik edirdi, qardaş Türkiyənin beynəlxalq nüfuzu günbəgün artır. Bütün bunlar türk dünyasının gücləndiyini bir daha sübut edir. Artıq heç kəs şübhə etmir ki, bu prosesin qarşısı alınmazdır.

Sədr TürkPA-nın beynəlxalq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırdı. Bildirildi ki, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı daha da möhkəmləndirmək məqsədi ilə təşkilatın Beynəlxalq əlaqələr komissiyası yaradılmışdır. Bu komissiyanın fəaliyyəti qurumun daha da möhkəmlənməsi və dünya miqyasında tanınması baxımından çox önəmlidir. İnanırıq ki, gələcəkdə digər türk dövlətləri də TürkPA-ya üzv olacaq, türk dünyasını düşündürən problemlərin həllində yaxından iştirak edəcəklər.

Səmimi qəbul üçün minnətdarlığını bildirən türkiyəli millət vəkili Mühərrəm İncə TürkPA-nın xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində rolunu yüksək dəyərləndirdi. Qeyd edildi ki, vaxt gələcək türk xalqları ortaq bir dildə anlaşıb münasibət qura biləcəklər. Bunu yaşadığımız dövr tələb edir.

Görüşdə çıxış edən TürkPA-nın Beynəlxalq əlaqələr komissiyasının üzvləri Azərbaycandakı inkişafdan məmnun qaldıqlarını söylədilər. Bildirildi ki, türk dövlətlərinin gün-gündən güclənməsi türk dünyasının beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət edir. Bu isə, öz növbəsində, qarşıya çıxan problemlərin həllində öz müsbət rolunu oynayacaqdır.

Söhbətdə TürkPA-nın Beynəlxalq əlaqələr komissiyasının Bakıda keçirilmiş birinci iclasında müzakirə olunmuş məsələlər və təşkilatın gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Qəbulda Türkiyə təmsilçisi Ülkər Gözəl, Qazaxıstan nümayəndə heyətinin üzvü Valihan Konurbayev və digərləri çıxış edərək komissiyanın fəaliyyəti barədə öz fikirlərini açıqladılar.

Görüşdə TürkPA-nın Beynəlxalq əlaqələr komissiyasının sədri, millət vəkili Əhliman Əmiraslanov, deputat İlham Əliyev, TürkPA-nın Baş katibi Ramil Həsənov, Qırğız nümayəndə heyətinin üzvü Urmat Amanbayeva və digər rəsmi şəxslər iştirak edirdilər.

129) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

11/11/11

Noyabrın 11-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmitin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Spiker ali qonağı səmimi salamlayaraq xalqlarımız arasında əlaqələrin qədim tarixi köklərə malik olduğunu söylədi. Bildirildi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra münasibətlərimiz keyfiyyətcə yeni xarakter almışdır. Dövlət başçılarımızın qarşılıqlı səfərləri, görüşləri zamanı aparılan danışıqlar və imzalanmış sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmlənməsinə xidmət etmişdir. Sədr ümidvar olduğunu bildirdi ki, Macarıstan nümayəndə heyətinin budəfəki səfəri zamanı imzalanan 5 sənəd əməkdaşlığımızın inkişafına yeni impuls verəcəkdir.

Görüşdə Milli Məclisin Sədri iqtisadi əlaqələrimizin daha da möhkəmlənməsini önəmli hesab etdi. Belə bir fikir vurğulandı ki, Dövlətlərarası komissiyada görülən işlər, biznes-forumlar, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu sahədə əməkdaşlığımızın daha da dərinləşməsi baxımından əhəmiyyətlidir.

Spiker dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolunu qeyd edərək, hər iki ölkənin qanunvericilik orqanında dostluq qruplarının fəaliyyət göstərməsini təqdirəlayiq hesab etdi.

Söhbətdə bildirildi ki, dinamik inkişaf edən Azərbaycan Avropaya inteqrasiya istiqamətində əməli addımlar atır. Ancaq Dağlıq Qarabağ münaqişəsi bu prosesə maneçilik törədir. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq. Münaqişənin aradan qaldırılması ilə məşğul olan ATƏT-in Minsk qrupu uzun illərdir ki, bu sahədə müsbət nəticə əldə edə bilmir. BMT, ATƏT, AŞ PA kimi nüfuzlu beynəlxalq qurumların qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan işğalçılıq siyasəti yeritməkdə davam edir. Biz inanırıq ki, beynəlxalq birliyin səyi ilə problem tezliklə öz məntiqi həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Macarıstan Prezidenti Pal Şmit xalqımızı və parlamentin Sədrini müstəqilliyimizin bərpasının 20-ci ildönümü münasibəti ilə səmimi qəlbdən təbrik etdi. O, səfər zamanı keçirdiyi görüşlərin əhəmiyyətini vurğulayaraq ölkəsinin Cənubi Qafqazın bu bölgəsi ilə əməkdaşlığa böyük maraq göstərdiyini söylədi.

Ali qonaq vaxtilə deputat olduğunu xatırlayaraq dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin mühüm rol oynadığını vurğuladı. O, Macarıstan parlamentinin fəaliyyəti və strukturu barədə ətraflı məlumat verərək parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini informasiya mübadiləsi baxımından önəmli hesab etdi.

Qonaq Azərbaycanın müstəqillik illərində həyatın müxtəlif sahələrində qazandığı nailiyyətləri yüksək dəyərləndirdi. O, ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini önəmli hesab etdi. Bildirildi ki, bu, regionun tərəqqisinə mane olan Dağlıq Qarabağ probleminin aradan qaldırılması üçün yeni imkanlar açа bilər.

Söhbətdə siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrin inkişafı, parlamentlərarası münasibətlərin dərinləşdirilməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədrin müavini Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin Macarıstanda səfiri Vilayət Quliyev, Macarıstanın Azərbaycandakı səfiri Zsolt Csutora və digər rəsmi şəxslər iştirak edirdilər.

128) MİLLİ MƏCLİSDƏ UŞAQ HÜQUQLARINA HƏSR OLUNMUŞ DƏYİRMİ MASA KEÇİRİLDİ

18/11/11

Noyabrın 18-də Milli Məclisdə Avropa Birliyinin Uşaqların Xilası (Save the Children) Beynəlxalq təşkilatı ilə birgə "Milli qanunvericilikdə uşaq hüquqları: reallıqlar və perspektivlər" mövzusunda dəyirmi masa keçirildi.

Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli tədbirin keçirilməsində göstərilən dəstəyə görə Milli Məclis rəhbərliyinə minnətdarlığını bildirdi. Komitə sədri bu ictimai müzakirənin əlamətdar bir dövrə - 22 noyabr BMT-nin uşaq hüquqları üzrə xüsusi konvensiyasının ildönümünə təsadüf etdiyini vurğuladı. Hadi Rəcəbli Milli Məclisdə uşaq hüquqları ilə bağlı qəbul edilmiş qanun və qərarlar barədə geniş məlumat verdi. Qeyd edildi ki, dəyirmi masanın təşkili ölkəmizdə uşaq və gənclərin hüquqlarının müdafiəsinin, sosial-iqtisadi inkişafının daha da təkmilləşdirilməsinə xidmət edir.

Toplantıda iştirak edən Uşaqların Xilası (Save the Children) təşkilatının Azərbaycan və Gürcüstan üzrə direktoru Lesile Vilson bildirdi ki, 90 il əvvəl yaranan qurum məhz uşaqların hüquqlarının müdafiəsi sahəsində qanunvericilikdə mövcud olan boşluqların aradan qaldırılması məqsədi daşıyır. Təşkilat rəhbəri fəaliyyətlərinin daha da genişləndirilməsi sahəsində aparılan işlər barədə danışdı. Bildirildi ki, Azərbaycan parlamentində keçirilən bu tədbir uşaq və gənclərin peşə hazırlığını artırmaq, onların həyat bacarıqlarını inkişaf etdirmək, yaşadıqları müvəqqəti yaşayış müəssisələrini tərk etdikdən sonra müstəqil fəaliyyət sahəsində mövcud problemlərin aradan qaldırılmasına yardım göstərmək məqsədilə ictimai qəyyumluq fəaliyyətinin aparılmasına öz töhfəsini verə biləcək.

Sonra tədbirdə çıxış edən millət vəkili, "Lider qadınlar" İctimai Birliyinin sədri Məlahət İbrahimqızı ölkəmizdə cəmiyyətin həssas təbəqəsi olan uşaqlara dövlət tərəfindən göstərilən qayğıdan danışdı. Millət vəkili Heydər Əliyev Fondunun bu sahədəki danılmaz xidmətlərindən, fondun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın uşaqlara göstərdiyi diqqətdən söhbət açdı.

Dəyirmi masada iştirak edən Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, millət vəkilləri Sədaqət Vəliyeva, Sevinc Hüseynova, Rauf Əliyev, beynəlxalq təşkilatların və QHT-lərin nümayəndələri uşaqların müdafiəsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqları, uşaq və internat evlərinin hazırkı durumu, əldə olunan nailiyyətlər, beynəlxalq təcrübə barədə fikirlərini bildirdilər, təkliflərini səsləndirdilər.

127) Volkan Bozkır: "Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər Türkiyə-Ermənistan sərhədləri açılmayacaq"

21/11/11

Noyabrın 21-də Milli Məclisin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici işlər komissiyasının sədri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Parlamentin Sədri qonaqları səmimi salamlayaraq "bir millət iki dövlət" olan Türkiyə-Azərbaycan münasibətlərinin bugünkü səviyyəsindən danışdı. Spiker Prezident İlham Əliyevin sözlərini xatırlayaraq dedi ki, dünyada iki belə bir dövlət tapmaq mümkün deyildir ki, onlar bir-birlərinə Türkiyə-Azərbaycan kimi bu qədər bağlı olsunlar.

Oqtay Əsədov dedi ki, əlaqələrimiz bütün istiqamətlərdə yüksələn xətlə inkişaf edir və dünyada bizim qardaşlığımızın, dostluğumuzun analoqu yoxdur, bu əlaqələr digər dövlətlər üçün nümunədir. Bu günədək ölkələrimiz arasında 170-ə qədər hüquqi sənəd imzalanmışdır. Ötən il Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə imzalamışlar. Bu bizim münasibətlərimizin ən yüksək səviyyədə olduğunun nümunəsidir.

Bu gün sürətlə inkişaf edən Türkiyə dünya siyasətində öz sözünü deyir və bu bizi çox sevindirir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına (TŞ) üzv olmasında Türkiyənin dəstəyini gördük və bunu yüksək dəyərləndiririk.

Sədr parlamentlərarası əlaqələrimizin səviyyəsindən razılığını ifadə edərək, deputatlarımızın beynəlxalq təşkilatlardakı birgə, faydalı əməkdaşlığını təqdirəlayiq hesab etdi.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dəyişməz mövqeyinə görə Türkiyə tərəfinə bir daha minnətdarlığını bildirən Sədr dedi: "Biz ümid edirik və inanırıq ki, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət və Türkiyənin fəal dəstəyi ilə münaqişə tezliklə öz həllini tapacaqdır."

Volkan Bozkır TBMM sədrinin salamlarını Oqtay Əsədova çatdıraraq söylədi ki, Türkiyə ilə Azərbaycan qardaşlığının bugünkü səviyyəsi dünyaya "bir millət, iki dövlət" olduğumuzu bir daha sübut edir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20 illik yubileyi münasibətilə xalqımızı və parlamentin Sədrini təbrik edən qonaq ölkəmizin BMT TŞ-na qeyri-daimi üzv seçilməsini bu yubileyə bir hədiyyə kini dəyərləndirdi. Azərbaycanın bugünkü inkişafını yüksək qiymətləndirən Volkan Bozkır bu inkişafın türk xalqını da çox sevindirdiyini vurğuladı.

Qəbulda Dağlıq Qarabağ münaqişəsindən söz açan qonaq dedi ki, münaqişə həll olunmayana qədər Türkiyə-Ermənistan sərhədləri açılmayacaq. Bununla yanaşı, Sürix protokolları da Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komissiyasında müzakirəyə çıxarılmayacaq.

Görüşdə TBMM-nin komissiya sədri Van vilayətində baş vermiş zəlzələdən əziyyət çəkənlərə göstərilən diqqət və qayğıya görə, bir daha Azərbaycan xalqına və dövlətinə minnətdarlığını bildirdi.

Söhbətdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, beynəlxalq əməkdaşlıq, terrorizmə qarşı mübarizə və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, TürkPA-nın baş katibi Ramil Həsənov, Türkiyənin ölkəmizdəki səfiri Hulusi Kılıç və digər rəsmi şəxslər iştirak edirdilər.

126) TÜRKİYƏ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ REGİONDA İNKİŞAF VƏ SABİTLİK RƏMZİDİR

21/11/11

Noyabrın 21-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində Türkiyə Böyük Millət Məclisinin xarici işlər komissiyasının üzvləri ilə görüş keçirildi.

Komitə sədri Səməd Seyidov qonaqları salamlayaraq, parlamentlərarası əlaqələrimizin yüksək səviyyədə olduğunu söylədi. O, Azərbaycan - Türkiyə münasibətlərinin regionda inkişaf, sabitlik rəmzi olduğunu qeyd edərək, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini bildirdi. Qardaş ölkəylə eyni dəyərlərə malik olduğumuzu, bugünkü inkişafımızın bütün dünya üçün nümunə olduğunu dedi. Qeyd edildi ki, xalqlarımız daim sülh, barış tərəfdarı olmasına baxmayaraq, əsrlər boyu terrorla, haqsızlıqla üzləşib, amma bir-birimizə həmişə dəstək olub bütün çətinliklərin öhtəsindən uğurla gəlmişik. Səməd Seyidov Ermənistanla bağlanan protokolların bu günə qədər ratifikasiya edilmədiyinə görə həmkarlarına minnətdarlıq etdi.

Görüşdə nümayəndə heyətinin rəhbəri, TBMM-nin Xarici işlər komissiyasının sədri Volkan Bozkır səmimi qəbula görə minnətdarlığını bildirərək, Azərbaycanın Türkiyə üçün ən önəmli strateji tərəfdaş olduğunu vurğuladı. Uğurlu siyasət nəticəsində Azərbaycanın müstəqilliyinin 20-ci ildönümündə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul edilməsinin çox böyük uğur olduğunu xüsusi qeyd etdi. Səfərin məqsədinin dövlətlərimiz arasında əlaqələri daha da inkişaf etdirmək olduğunu söylədi.

Qonaq Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmadığı təqdirdə Ermənistanla sərhədlərin heç vaxt açılmayacağını bir daha vurğuladı. Son zamanlar ölkəsində baş verən təbii fəlakətlərdə göstərdiyi yardıma görə xalqımıza və dövlətimizə minnətdarlığını bildirdi.

Çıxış zamanı deputatlarımız Vanda baş verən zəlzələ və PKK terrorçularının hücumu nəticəsində həlak olan vətəndaşlara görə üzüldüklərini bildirdilər. Terrora qarşı mübarizədə qüvvələrimizi birləşdirməyin vacibliyi vurğulandı.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparıldı.

125) MİLLİ MƏCLİSDƏ QƏBUL

21/11/11

Noyabrın 21-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Komissiyasının vitse-prezidenti, nəqliyyat üzrə komissar Siim Kallası qəbul etdi.

Spiker qonağı səmimi salamlayaraq bu səfərin ölkəmizlə Avropa İttifaqının qurumları arasında münasibətlərin daha da dərinləşməsinə yardım edəcəyini söylədi. Qeyd edildi ki, Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan biz Avropa Komissiyası ilə işbirliyini bundan sonra da genişləndirmək niyyətindəyik. Əgər əvvəllər Avropa İttifaqı ilə əlaqələrimiz qurumun yardımları səviyyəsində idisə, bu gün bu münasibətlər faydalı əməkdaşlıq xarakteri daşıyır. Avropa İttifaqının yüksək səviyyəli nümayəndə heyətlərinin ölkəmizə səfərləri bu fikri bir daha təsdiqləyir.

Spiker Siim Kallasın 1996-cı ildə Estoniya nümayəndə heyətinin tərkibində ölkəmizə səfərini xatırlayaraq ötən müddət ərzində ikitərəfli əlaqələrin inkişafında xeyli irəliləyiş əldə edildiyini söylədi. Bildirildi ki, Azərbaycan tərəfi Avropa Şurası Parlament Assambleyasına tam hüquqlu üzv kimi qəbulu zamanı Estoniyanın dəstəyini yaxşı xatırlayır.

Spiker bu gün Azərbaycanın Avropa strukturlarına sürətlə inteqrasiya etdiyini, ölkənin regionda qlobal layihələrin reallaşmasında təşəbbüskar və fəal iştirakçı olduğunu diqqətə çatdırdı. Bildirildi ki, bütün bunlarla yanaşı, dinamik inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi ağrılı problemi vardır. Münaqişənin həllinin uzanması Avropanın özü üçün də mühüm əhəmiyyət kəsb edən enerji və nəqliyyat dəhlizlərini təhdid etməklə yanaşı, inteqrasiya proseslərinə də böyük maneçilik törədir. Sədr Avropa Parlamentinin Cənubi Qafqazda vəziyyətlə əlaqədar qəbul etdiyi qətnamədə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək dəyərləndirdi. Parlamentin Spikeri bildirdi ki, biz beynəlxalq birliyin, o cümlədən Avropa İttifaqının dəstəyi ilə bu problemin sülh yolu ilə, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında ədalətli həllinə inanırıq.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Avropa Komissiyasının vitse-prezidenti, nəqliyyat üzrə komissar Siim Kallas səfər zamanı onlara göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi. O, xalqımızı və Milli Məclisin Sədrini müstəqilliyimizin bərpasının 20-ci ildönümü münasibəti ilə təbrik edərək son dövrdə Azərbaycanın inkişafını yüksək dəyərləndirdi. Qonaq Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini ölkəmizin dünyada artan nüfuzu ilə əlaqələndirdi.

Siim Kallas bildirdi ki, son vaxtlar Azərbaycanın əldə etdiyi nailiyyətlərin siyahısı olduqca zəngindir. Bura bölgədəki qlobal enerji və nəqliyyat layihələrinin reallaşması istiqamətində qazanılan uğurlarla yanaşı, "Eurovision" mahnı müsabiqəsində gənclərimizin qələbəsi də daxildir.

Sonra o, Şərq nəqliyyat dəhlizinin reallaşması ilə əlaqədar görüləcək işlərdən söz açaraq bu layihədə Azərbaycanın xüsusi yer aldığını söylədi.

Söhbətdə regional münaqişələrin həlli yolları, parlamentlərarası əlaqələrin inkişafı,

yük daşımalarında ölkəmizin oynadığı rol və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin Avropa İttifaqında səfiri Emil Eyyubov, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Roland Kobia və digər rəsmi şəxslər iştirak edirdilər.

124) Adil Muheydər Razi Əl-Maliki: "Azərbaycan dünyada böyük nüfuz qazanmışdır"

24/11/11

Noyabrın 24-də Milli Məclis Sədrinin birinci müavini, Təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov İraq Respublikasının bələdiyyələr və ictimai işlər naziri Adil Muheydər Razi Əl-Malikinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ziyafət Əsgərov qonaqları salamlayaraq ölkələrimiz arasındakı əlaqələrin qədim tarixi köklərə malik olduğunu söylədi. Qeyd edildi ki, İraq Azərbaycanda ilk səfirlik açan ölkələrdən biridir. Hələ sovet vaxtında ölkəmizdə İraq konsulluğu fəaliyyət göstərib. Mədəni, humanitar sahələrdə əməkdaşlığımızla yanaşı, siyasi əlaqələrimiz də inkişaf edir. Münasibətlərimizi daha da genişləndirmək üçün potensial imkanlar mövcuddur.

Birinci vitse-spiker Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilərkən İraqın göstərdiyi dəstəyə görə təşəkkürünü çatdırdı. Qeyd edildi ki, ölkələrimiz Birləşmiş Millətlər Təşkilatı ilə yanaşı İslam Konfransı Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq edirlər.

Söhbət zamanı Ziyafət Əsgərov bildirdi ki, Azərbaycan gənc dövlətdir. 20 il əvvəl müstəqilliyini elan edib. Bu dövr ərzində sürətlə inkişaf edən ölkəmizin ən ağrılı problemi Dağlıq Qarabağ münaqişəsidir. O, Azərbaycanın problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinin tərəfdarı olduğunu söylədi. Bu məsələdə İraqın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirdi.

Birinci vitse-spiker dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolunu xüsusi vurğuladı. Hər iki ölkənin qanunverici orqanında parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının fəaliyyət göstərməsini təqdirəlayiq hesab etdi. Qeyd edildi ki, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri təcrübə və informasiya mübadiləsi baxımından önəmlidir.

Görüşdə Ziyafət Əsgərov bir çox çətinliklərə məruz qalmış İraq dövlətinin bütün problemlərin öhdəsindən layiqincə gələcəyinə inamını ifadə edərək, İraq xalqına sabitlik və əmin-amanlıq arzuladı.

İraqın bələdiyyələr və ictimai işlər naziri Adil Muheydər Razi Əl-Maliki qonaqpərvərliyə görə minnətdarlığını bildirdi, həm səfərdən, həm keçirdiyi görüşlərdən məmnun olduğunu söylədi. Nazir qeyd etdi ki, o, həm də İraq-Azərbaycan hökumətlərarası komitəsində İraq tərəfini təmsil edir. Diplomatik əlaqələrə toxunan qonaq İraqda Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının siyasi və iqtisadi sahələrdə əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.

Görüşdə qonaq daha sonra dedi: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra sürətli inkişaf yolu keçmiş, qısa bir zamanda dünyada böyük nüfuz qazanmışdır. Təbii ki, bu da praqmatik dövlət başçısının uzaqgörən, dərindən düşünülmüş siyasətinin bəhrəsidir. İraq hökuməti belə bir qüdrətli dövlətlə əlaqələrin inkişafında çox maraqlıdır."

Görüşdə iraqlı nazir öz ölkəsindəki vəziyyətdən söz açdı. Qeyd edildi ki, iş adamlarının fəaliyyəti, sərmayə qoyuluşu üçün İraqda lazımi şərait yaradılıb. Yaxın vaxtlarda İraq rəsmilərinin, o cümlədən parlament nümayəndə heyətinin Azərbaycana gəlişi gözlənilir.

Adil Muheydər Razi Əl-Maliki İraqın Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu bildirdi. O, ölkəmizdə bütün sahələrdə müşahidə olunan güclü inkişaf templərindən, əldə edilmiş nailiyyətlərdən xoş təəssüratlarını dilə gətirdi, İraqın Azərbaycanın təcrübəsindən bəhrələnməli olduğunu söylədi.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

123) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

15/12/11

Dekabrın 15-də Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsi üzvlərinin İsrailin Xarici İşlər Nazirliyinin Baş direktoru Rafael Barakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü keçirildi.

Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov qonaqları parlamentdə salamlamaqdan məmnunluğunu ifadə etdi. Azərbaycan və İsrail arasında münasibətlərin yüksək səviyyədə olduğu bildirildi. Qeyd edildi ki, xalqlarımız arasında səmimi dostluq münasibətləri mövcuddur. Azərbaycanın ictimai həyatında yəhudi icmasının rolu böyükdür. Komitə sədri yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin münasibətlərimizin inkişafında vacib rol oynadığını söylədi.

Görüşdə Ziyafət Əsgərov parlamentlər arasında əlaqələrin əhəmiyyətindən danışdı. Həm Milli Məclisdə, həm İsrail Knessetində dostluq qruplarının fəaliyyətini, deputatların qarşılıqlı səfərlərini yüksək qiymətləndirdi.

Söhbətdə qeyd edildi ki, Azərbaycan beynəlxalq enerji təhlükəsizliyi sisteminə öz töhfələrini verməkdədir. Dünyada baş verən iqtisadi böhrana baxmayaraq, ölkəmizdə yüksək inkişaf templəri müşahidə olunur.

Birinci vitse-spiker Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsi və məsələ ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr, ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə söhbət açdı, Ermənistanın problemin həllində destruktiv mövqeyini təəssüflə qeyd etdi. O, münaqişənin həllində İsrail tərəfinin öz dəstəyini daha da artıracağına inamını ifadə etdi.

İsrail Xarici İşlər Nazirliyinin Baş direktoru Rafael Barak səmimi qəbula görə təşəkkürünü bildirdi. O, dövlətlərimiz arasında münasibətlərin ildən ilə daha da inkişaf etdiyini söylədi. Qeyd edildi ki, Azərbaycan İsraildə dost, strateji partnyor və tolerant ölkə kimi tanınır.

Nümayəndə heyətinin rəhbəri Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə təbriklərini çatdırdı, bu əlamətdar hadisənin vacibliyini

vurğuladı. O, eyni zamanda 2012-ci ildə ölkəmizdə baş tutacaq "Eurovision" mahnı müsabiqəsi barədə fikirlərini açıqladı.

Söhbətdə parlamentlərarası əlaqələrin inkişafı, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, regional münaqişələrin həlli yolları barədə fikir mübadiləsi aparıldı.

122) MİLLİ MƏCLİSDƏ QƏBUL

19/12/11

Dekabrın 19-da Milli Məclisin Sədri Oqtay Əsədov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının həmsədri Xose Klaveriya de Venesiyanı qəbul etdi.

Görüşdə qonağa müstəqil Azərbaycanın son iyirmi ildə əldə etdiyi uğurlar barədə məlumat verildi. Parlamentin Spikeri bildirdi ki, müstəqil xarici siyasət yeridən Azərbaycan dünya ölkələri, o cümlədən Filippinlə əlaqələrin inkişafına maraq göstərir. Ölkəmiz dünyanın nüfuzlu beynəlxalq qurumları ilə də faydalı əməkdaşlıq edir. Bu baxımdan Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı ilə Yeni Azərbaycan Partiyası arasındakı əlaqələr təqdirəlayiqdir. Azərbaycanın iqtidar partiyasının 200-ə yaxın siyasi qurumu özündə birləşdirən belə bir nüfuzlu təşkilatın Daimi Komitəsinin üzvü olması bizim üçün çox önəmlidir.

Biz siyasi qurumlar arasında münasibətlərin inkişafını bölgə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli hesab edirik. Sədr Azərbaycanla Filippin arasında münasibətlərin dərinləşməsində parlamentlərin önəmli rol oynaya biləcəyini söylədi.

Qəbul üçün minnətdarlığını bildirən Xose Klaveriya de Venesiya müxtəlif vaxtlarda Filippində beş dəfə Nümayəndələr Palatasına sədrlik etdiyini diqqətə çatdırdı. Bildirildi ki, o, dövlətlərarası əməkdaşlığın inkişafında parlamentlərin rolunu yaxşı başa düşür və bu istiqamətdə səyləri təqdir edir. Qonaq təmsil etdiyi qurumla YAP arasında yaranmış əlaqələri yüksək qiymətləndirdi. Gələcəkdə əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində birgə layihələr həyata keçirmək fikrində olduğunu söylədi.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

120) Məclisin Sədr müavini Bahar Muradova Qarabağ bölgəsində seçicilərlə görüşmüşdür

20/12/11

Dekabrın 17-də Milli Məclis Sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova partiyanın Ağcabədi rayon təşkilatının VIII konfransında iştirak etmişdir. Həmin gün vitse-spiker bu bölgədə məskunlaşmış Füzuli rayonundan olan məcburi köçkünlərlə görüşmüşdür. Rayon İcra Hakimiyyətində keçirilən görüşdə bildirilmişdir ki, Ağcabədidə Füzuli rayonundan 67 məcburi köçkün ailəsi məsmkunlaşmışdır. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi istiqamətində ölkə rəhbərliyinin tapşırıqları burada da uğurla həyata keçirilməkdədir. Tədbirdə məcburi köçkünlərin problemləri ilə bağlı çıxışlar dinlənilmiş və müvafiq tədbir görülməsi üçün görüşdə iştirak edən Ağcabədi və Füzuli Rayon İcra Hakimiyyətlərinin rəhbərliyi tərəfindən qaldırılan məsələlər

nəzarətə götürülmmüşmdür.

Bahar Muradova tədbirdə çıxış edərək Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan qurumcumluq işlərindən və sosial iqtisadi siyasətin uğurlu nəticələrindən söhbət açmış, məcburi köçkünlərin problemlərinin dövlət başçısının daim diqqət mərkəzində olduğunu vurğulamışdır. Vitse-spiker görüş iştirakçılarına IV çağırış Milli Məclisin qanunvericilik fəaliyyəti barədə məlumat vermiş, Dağlıq Qarabağ probleminin həlli istiqamətində görülən işlərdən danışmışdır. Çıxışının sonunda Bahar Muradova görüş iştirakçılarını qarşıdan gələn Dünya Azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibəti ilə səmimi qəlbdən təbrik etmişdir.

Tədbirə toplaşmış seçicilər onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına hədsiz minnətdar olduqlarını söyləmiş, seçimcilər adından Prezidentə səmimi təşəkkürlərini çatdırmağı xahiş etmişlər.

Görüşdə Qarabağ bölgəsindən seçilmiş millət vəkili Aqil Abbas çıxış edərək sözügedən məsələlərə dair öz fikirlərini bildirmişdir.

Dekabrın 18-də Füzuli rayonuna gələn vitse-spiker rayon rəhbərliyi ilə birgə Mahmudlu-1 kəndində və Zobucuq-1 qəsəbəsində seçicilərlə görüş keçirmişdir. Bahar Muradova əhalinin sosial qayğıları ilə yaxından tanış olmuş, bu yaşayış məntəqələrinin qazlaşdırılması, kənddə uşaq bağçasının inşası, içməli su ilə təchizatı, daxili yolların təmiri ilə bağlı təklifləri diqqətlə dinləmiş, bu problemlərlə əlaqədar müvafiq orqanlar qarşısında məsələ qaldıracağına söz vermişdir.

Vitse-spiker görüşdə ölkədə gedən siyasi proseslərdən, abadlıq-quruculuq işlərindən söz açaraq Füzuli rayonunun da bu mənada istisna təşkil etmədiyini və bölgədəki hər bir məntəqənin Azərbaycan rəhbərliyinin qayğısı ilə əhatə olunduğunu söyləmişdir. Tədbirdə seçicilər tərəfindən qaldırılmış bir çox məsələlərin həlli üçün Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilmişdir.

Son illər ölkə rəhbərliyinin göstərişi ilə regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində, xüsusilə cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrinin təbii qazla təmin olunması istiqamətində işlər sürətlə davam etməkdədir. Füzuli rayonunun Horadiz şəhər, Babı, Arayatılı, Molla Məhərrəmli, Kərimbəyli, Böyük Bəhmənli və Şükürbəyli kəndlərində artıq bu proses başa çatmışdır. Alıxanlı kəndinə isə hal-hazırda qaz xətləri çəkilməkdədir.

Dekabrın 18-də Azərbaycan Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi təmsilçilərinin və rayon ictimaiyyətinin iştirakı ilə 400 evdən ibarət Əhmədalılar kəndinə qaz verilməsi mərasimi keçirilmişdir. Mərasimdə iştirak edən Bahar Muradova bu münasibətlə kənd sakinlərini təbrik etmiş və bu hadisənin ölkə başçısının məcburi köçkünlərin sosial problemlərinin həllinə göstərdiyi diqqətin nümunəsi kimi dəyərləndirmişdir.

Sonra kəndə təbii qazın verilməsi münasibəti ilə məşəl yandırılmışdır. Kənd sakinləri adından çıxış edənlər onlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını ölkə rəhbərliyinə çatdırmağı xahiş etmişlər. Onlar cəbhə xəttinə daha çox yaxın olan bu kəndin ehtiyaclarını nəzərə alaraq hər bir evə qaz sobası hədiyyə etdiyinə görə "Azəriqaz" İB-nin rəhbərmliyinə və bu məsələnin həllində göstərdiyi köməkliyə görə Bahar Muradovaya minnətdarlıqlarını ifadə etmişlər.

119) MİLLİ MƏCLİSDƏ QƏBUL

21/12/11

Dekabrın 21-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Parlamentinin üzvü xanım Rəşidə Datini qəbul etdi.

Parlamentin Sədri qonağı salamlayaraq belə bir inamı ifadə etdi ki, bu cür görüşlər Milli Məclislə Avropa Parlamenti arasında əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edir. Spiker qeyd etdi ki, biz ikitərəfli səfərlərin həyata keçirilməsini önəmli hesab edirik. Artıq ikinci dəfədir ki, Siz ölkəmizə səfər edirsiniz. Qafqazın bu bölgəsinə olan diqqətinizin dostluğa çevrilməsi bizi çox sevindirir.

Söhbətdə Sədr bildirdi ki, Avropa İttifaqı ilə əməkdaşlıq ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindəndir. Biz bu nüfuzlu Avropa qurumu ilə iş birliyini bundan sonra da möhkəmləndirmək niyyətindəyik. Avropa İttifaqı rəsmilərinin ölkəmizə yüksək səviyyəli səfərləri münasibətlərimizin göstəricisidir.

Avropa Parlamentinin prezidenti Yerzi Buzekin, Avropa Komissiyasının prezidenti Joze Manuel Barrozonun və digər yüksək rütbəli rəsmi şəxslərin ölkəmizə səfərləri əməkdaşlığımızın daha da dərinləşməsi baxımından əhəmiyyətli olmuşdur. Cənab J.M.Barrozonun səfəri çərçivəsində imzalanmış Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə çox böyük siyasi və iqtisadi məna kəsb edir. Biz əvvəldən bu enerji dəhlizinə dəstək vermişik. Azərbaycanın Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin çəkilməsindəki rolu bu fikri bir daha təsdiqləyir.

Söhbətdə Sədr dedi ki, biz Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramında və qurumun digər layihələrində fəal iştirak edirik. Belə zənn edirik ki, bütün bunlar Azərbaycanı Avropaya daha da yaxınlaşdırır.

Görüşdə Sədr Azərbaycanın Avropanın önəmli ölkəsi olan Fransa ilə əməkdaşlığın dərinləşməsinə də böyük önəm verdiyini söylədi. Bildirildi ki, siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimiz uğurla davam etdirilir. Spiker belə bir inamı ifadə etdi ki, Fransanın "Total" və "Gaz de France" şirkətlərinin Azərbaycanda yeni qaz yatağını aşkarlaması həm ölkəmizin enerji potensialını gücləndirəcək, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə də müsbət təsirini göstərəcəkdir.

Sədr sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ problemi olduğunu qonağın diqqətinə çatdırdı. Qeyd edildi ki, münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olsa da, hələlik konkret bir nəticə yoxdur. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinin tərəfdarıyıq və bu məsələdə Minsk qrupunun həmsədri kimi Fransanın səylərini artıracağına ümid edirik.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq Azərbaycana səfərindən məmnun qaldığını söylədi. Xanım Rəşidə Dati Azərbaycana budəfəki gəlişində ölkədə baş vermiş müsbət dəyişikliklərin, quruculuq işlərinin şahidi olduğunu söylədi. O, bildirdi ki, Avropa Parlamenti, o cümlədən Fransa Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır. Biz gələcəkdə əməkdaşlığımızı daha da dərinləşdirmək niyyətindəyik. Onun təmsil etdiyi təşkilat və Fransa hökuməti qarşıya çıxan problemlərin həllində Azərbaycana köməklik etməyə hazırdır.

Söhbətdə Azərbaycan-Avropa Parlamenti münasibətlərinin gələcək inkişaf perspektivləri, parlamentlərarası əlaqələrin dərinləşməsi, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

118) MİLLİ MƏCLİSİN İCLASINDA

23/12/11

Dekabrın 23-də Milli Məclisin növbəti iclası keçirildi. İclası açan Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, sabah Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin doğum günü, 50 illik yubileyidir.

Möhtərəm Prezidentimiz Azərbaycanın bugünkü inkişafını təmin etmək və xoşbəxt gələcəyini qurmaq yolunda göstərdiyi xidmətlərinə görə Azərbaycan xalqının dərin hörmət və məhəbbətini qazanmışdır. Biz Prezidentimizə xüsusən ona görə minnətdarıq ki, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini yeni çağırışlar şəraitində yaradıcı şəkildə məharətlə inkişaf və davam etdirir. Cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına gətirib çıxarmışdır.

Müasir dünyada dövləti lazımi səviyyədə idarə etmək üçün, geosiyasi təlatümlərdən, gizli axınlardan, iqtisadi böhranlardan çıxarmaq üçün çox yüksək səriştə və siyasi iradə lazımdır. Azərbaycan xalqı üçün tarixi bir şansdır ki, bu gün ölkəmizə İlham Əliyev kimi dərin zəkaya, analitik təfəkkür tərzinə malik olan, dünyada gedən siyasi və iqtisadi prosesləri yaxşı bilən siyasətçi və dövlət xadimi rəhbərlik edir. Cənab İlham Əliyev öz Vətənini sevən, xalqını sevən, Azərbaycançılıq amalını qəlbində daşıyan bir rəhbərdir.

Dünya siyasətində belə bir məfhum vardır ki, "Xarici siyasətin başlıca prinsipi ölkə daxilində yaxşı idarəçilikdir". Azərbaycanın ötən illər ərzində apardığı uğurlu xarici siyasət, geniş bir bölgədə söz sahibi olması, tarixdə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi məhz ölkə daxilində möhtərəm Prezidentimizin həyata keçirdiyi müdrik siyasətin məntiqi davamı olmuşdur.

Biz hamımız əminik ki, Azərbaycan ildən-ilə daha da irəli gedəcək, daha da inkişaf edəcək və dünyanın inkişaf etmiş dövlətləri arasında layiq olduğu yerini tutacaqdır. Bu gün xalqımızı düşündürən problemlər, xüsusən torpaqlarımızın erməni işğalından azad edilməsi, qaçqın və köçkün soydaşlarımızın öz yurd-yuvalarına qayıtması məsələsi həll ediləcəkdir.

Möhtərəm Prezidentimizin həyata keçirdiyi siyasət buna təminat verir. Bu işdə dövlət başçısına kömək göstərmək, ölkəmizin qanunvericilik bazasını daha da möhkəmləndirmək və təkmilləşdirmək yolunda Milli Məclis bundan sonra da öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Milli Məclisin Sədri çıxışının sonunda 50 illik yubileyi münasibəti ilə Prezident İlham Əliyevi deputatlar adından ürəkdən təbrik etdi, ona dəyərli fəaliyyətində yeni-yeni uğurlar arzuladı!

Sonra Parlament Sədrinin birinci müavini Ziyafət Əsgərov Milli Məclisin Prezidentə ünvanlanmış təbrikinin mətnini oxudu. Təbrikdə deyilir:

"Əziz və möhtərəm cənab Prezident!

Sizi anadan olmağınızın 50 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı arzulayır, Azərbaycanın qüdrətli dünya dövlətləri sırasına çıxarılması, xalqımızın xoşbəxt gələcəyinin təmin olunması naminə dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik!

Ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasətini yeni çağırışlar şəraitində yaradıcı şəkildə məharətlə davam etdirməyiniz sabit və ardıcıl yüksəlişi və yeniləşməni gündəlik həyatımızın reallığına çevirmişdir. Müasir dövrün tələbləri səviyyəsində qurulmuş sosial-iqtisadi inkişaf strategiyası hər gün yeni bəhrələr verir. İndi Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən biri və Cənubi Qafqaz bölgəsinin lider dövlətidir.

Ölkəmizin ildən-ilə daha da zənginləşməsi qarşıya qoyulan ən mürəkkəb və çətin vəzifələrin öhdəsindən gəlməyə imkan yaradır. Sənaye və kənd təsərrüfatı potensialının gücləndirilməsinə, regionların sosial-iqtisadi inkişafına yönələn möhtəşəm dövlət proqramları icra olunur, xalqımızın rifah halının yüksəlməsinə xidmət edən tədbirlər həyata keçirilir, əmək haqları, müavinətlər, pensiyalar artırılır, elm və təhsilin, mədəniyyət və incəsənətin, səhiyyə və idmanın tərəqqisi üçün lazımi işlər görülür.

Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi məqsədi ilə geniş miqyaslı islahatlar davam etdirilir. İnsan hüquqları və azadlıqları etibarlı surətdə təmin edilir, ölkəmizin Avropa xalqları ailəsində nüfuzu artır.

Elmi əsaslar üzərində qurulmuş xarici siyasətiniz Azərbaycanın dünya siyasətinə təsirinin dönmədən artmasına gətirib çıxarır. Dövlətimizin beynəlxalq mövqelərinin möhkəmlənməsi BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi yüksək zirvənin fəth edilməsində öz parlaq ifadəsini tapmışdır.

Azərbaycanın haqq səsinin dünya birliyinə çatdırılması üçün həyata keçirilən düşünülmüş tədbirlər müsbət nəticələr verir. Xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ərazi bütövlüyü prinsipi beynəlxalq təşkilatlar və xarici ölkələr tərəfindən təməl prinsip kimi qəbul olunur. Şübhə yoxdur ki, qısa zamanda Siz dövlətimizin bu probleminin də həllinə nail olacaqsınız.

Əziz və möhtərəm cənab Prezident!

Xalqımızın maraqları və tələbatı üzərində qurulan siyasətiniz, müasir idarəçilik üslubunuz Sizə ölkəmizdə və xaricdə böyük hörmət və nüfuz qazandırmışdır. Azərbaycanın xoşbəxt gələcəyi bu gün Sizin əzmlə həyata keçirdiyiniz quruculuq və inkişaf strategiyası ilə bağlıdır.

Müasir dünyanın çox mürəkkəb bölgəsində yerləşən ölkəmizi layiqli şəkildə idarə etmək üçün dövlət başçısından tələb olunan yüksək erudisiya və intellekt, siyasətə, iqtisadiyyata, incəsənətə, tarixə, başqa sahələrə dərindən bələdlik kimi xüsusiyyətlərlə yanaşı, Siz Vətənə dərin məhəbbət, səmimilik, sadəlik, təvazökarlıq, insanların qayğılarına həssas münasibət kimi yüksək mənəvi keyfiyyətlərə maliksiniz. Sizin nümunəvi insani keyfiyyətləriniz gözəl ailə başçısı olmağınızda da təcəssümünü tapmışdır. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, övladlarınız ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir, xalqımızı düşündürən problemlərin həllinə kömək göstərmək üçün mümkün olan hər şeyi edirlər.

Əziz cənab Prezident!

Biz əminik ki, Sizə xas olan siyasi bəsirət və səriştə dövlətimizin müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcəkdir. Bu işdə biz Sizə yeni uğurlar arzulayırıq. Sizi əmin edirik ki, xalqımızın və dövlətimizin işıqlı sabahı naminə həyata keçirdiyiniz quruculuq işlərinin qanunvericilik bazasını möhkəmləndirmək və təkmilləşdirmək üçün parlament öhdəsinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir."

Təbrik məktubu diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Gündəliyin müzakirəsinə keçməzdən əvvəl deputatlar çıxış edərək Fransa parlamentinin qondarma "erməni soyqırımı"nı inkar edənlərin cinayət məsuliyyətinə cəlb olunmasını nəzərdə tutan qanun layihəsini qəbul etməsini kəskin pislədilər. Bildirildi ki, bu məsələ cəmiyyətdə çox ciddi hiddətlə qarşılanır. Çünki olmayan bir məsələni Avropa dövlətinin öz parlamentində müzakirə etməsi və belə bir qərar qəbul etməsi Avropa dəyərlərinin əleyhinə olan addımdır. Bu məsələnin araşdırılması tarixçilərin işidir. Azərbaycanın bu məsələdə Türkiyənin yanında olduğunu deyən deputatlar Azərbaycanın bu qərarın qəti əleyhinə olduğunu və Türkiyə ilə eyni mövqedən çıxış etdiyini diqqətə çatdırdılar.

Çıxış edən Milli Məclis Sədrinin müavini Bahar Muradova Türkiyədə yaşayan bütün soydaşlarımıza, türk siyasətçilərinə və rəsmilərinə səslənərək Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının, parlamentinin, Azərbaycan dövlətinin həmişə onların yanında olduğunu diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan bütün haqq işinizdə hər zaman sizi dəstəkləyib bundan sonra da dəstəkləyəcək. Bahar Muradova Avropa İttifaqına və ona daxil olan ölkələrə də müraciətlə bu qərarın təkcə Fransada yaşayan türklərə və yaxud da azərbaycanlılara qarşı yönəlmədiyini vurğuladı. Çünki Avropa İttifaqına daxil olan ölkələrdə kifayət qədər rəsmi şəxslər və sıravi vətəndaşlar var ki, onlar tarixdə belə bir hadisənin olmadığını və yaxud da belə hadisələrə görə insanların azadlıqlarını məhdudlaşdıran belə bir qərarın yolverilməz olduğunu bilirlər. Bahar Muradovanın sözlərinə görə, bu addım təkcə Türkiyənin Şərqdə, eləcə də ərəb dünyasında söz sahibi olmasının qarşısını almağa deyil, həm də Türkiyənin Avropa İttifaqına girişinin qarşısının alınmasına yönəlib. Bu qərar qəbul ediləcəyi təqdirdə, Türkiyə çox ciddi cavab tədbirləri görəcək.

Bahar Muradova onu da bildirdi ki, Fransa parlamentinin bu qərarı bu günə qədər Avropanın əldə etdiyi nailiyyətləri, dəyərləri təhlükə altında qoyur. Bu demokratiyanın beşiyi olan Avropada söz, ifadə azadlığına, fikir plüralizminə qarşı yönəldilmiş addımdır. Bundan sonra Fransanın və yaxud da onun bu addımını dəstəkləyən dairələrin nə haqqı ola bilər ki, hansısa ölkədə ifadə azadlığının pozulduğunu söyləsinlər.

Fransa parlamentinin qərarını pisləyən Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov dedi ki, 5 respublika qurmuş Fransa demokratiyasına bu cür hərəkətlər yaraşmır. Birinci vitse-spiker qeyd etdi ki, bu cür qərarın qəbul olunmasının məsuliyyətini

bütün Fransa xalqına aid etmək olmaz. Bu, bir qrup vəzifə azarkeşinin, vəzifə hərisinin hakimiyyətdə qalmaq naminə ortaya atdığı bir məsələdir. Bu, birinci mərhələdir. İkinci mərhələdə Türkiyənin qarşısına məsələ qoyacaqlar ki, bu qərarı ya qəbul edirik, ya da siz özünüz "erməni soyqırımı"nı qəbul etməlisiniz. Yəni bu siyasətdə artıq bazarlıq ediləcək. Məqsəd isə Türkiyənin Avropa İttifaqına qəbul edilməməsidir. Çünki Türkiyə Avropa İttifaqının bütün şərtlərini qəbul etsə belə, axırda deyəcəklər ki, "erməni soyqırımı"nı qəbul et, sonra biz sizi bu birliyə qəbul edək. Təbii ki, Türkiyə də buna getməyəcək. Ziyafət Əsgərov əlavə etdi ki, bu məsələ tarixçilərin işidir. Onda biz də adekvat bir addım atmalıyıq. Əgər Azərbaycana gəlmiş hər hansı bir fransız Xocalı soyqırımını qəbul etmirsə, o zaman ona qarşı biz cinayət işi qaldırmalıyıq. Burada deyilən fikirlərin hamısına qoşuluram və bu qərarın heç bir hüquqi, mənəvi, əxlaqi əsası yoxdur və bu məsələdə hər zaman Türkiyənin yanında olacağıq.

Müzakirələrə yekun vuran Milli Məclisin Sədri Oqtay Əsədov dedi ki, Fransa parlamentinin aşağı palatasının qəbul etdiyi sənəd erməni diasporunun dəstəyi ilə bu ölkədə hakimiyyətdə qalmaq istəyən qüvvələrin çox cılız bir siyasətidir. Bu qərar təkcə Türkiyəyə qarşı yox, Fransanın və Ermənistanın özünə də qarşı yönəlib. Oqtay Əsədov qeyd etdi ki, Türkiyənin Avropa İttifaqına ehtiyacı yoxdur. Çünki Türkiyə inkişaf edən, güclü iqtisadiyyata malik olan ölkədir. Ona görə də, bu dövlətə belə üsullarla təsir etmək mümkün deyil. Spikerin sözlərinə görə, Azərbaycan xalqı həmişə qardaş Türkiyənin yanında olub və olacaq.

Milli Məclis Sədri onu da bildirdi ki, baş verən hadisələr erməni diasporunun fəaliyyəti ilə bağlıdır. Bu fəaliyyət erməni xalqının faciəsidir. Ermənilər yazıq xalqdır. Çünki özü-özünü idarə etmir, onu diaspor və kənardan olan dövlətlər idarə edir. Bu isə o deməkdir ki, erməni xalqının ixtiyarı öz əlində deyil. Erməni xalqı öz gələcəyini fikirləşməlidir, onların dövlətinin iqtisadiyyatı acınacaqlı vəziyyətdədir. Bunu fikirləşmək əvəzinə özlərini daha da pis vəziyyətə salırlar. Mən inanmaq istəyirəm ki, Fransa Senatı 2006-cı ildə olduğu kimi aşağı palatanın qəbul etdiyi qanuna öz etirazını bildirəcək. İnanıram ki, Senat bu sənədi təsdiqləsə də, Fransa prezidenti ona qol çəkməyəcək. Biz çalışmalıyıq ki, Fransa Senatında bu sənəd öz təsdiqini tapmasın. Azərbaycan Xarici İşlər Nazirliyi məsələ ilə bağlı qəti mövqeyini bildirib. Biz bu məsələdə təmkinli olmalıyıq. Azərbaycan tərəfi olaraq Senatda bu qanun layihəsinin təsdiq olunmaması üçün qarşı tərəflə işləməliyik.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlandı. Milli Məclisin Sosial siyasət Komitəsinin sədri Hadi Rəcəbli "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanun layihəsini birinci oxunuşda deputatlara təqdim etdi. Bildirdi ki, dünyada 2,5 milyon adam bu xəstəlikdən əziyyət çəkir. Bu xəstəliyə düçar olmuş şəxslərə dövlət qayğısının təşkili üçün Azərbaycan üzrə dağınıq skleroz xəstələrinin statistikası aparılmalıdır. Qeyd olundu ki, bu qanun dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyən edəcək, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyəcəkdir.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda təsdiqləndi.

Sonra iclasda Şəhərsalma və Tikinti Məcəlləsinin layihəsi birinci oxunuşda müzakirə edildi.

Məcəllə layihəsi barədə məlumat verən Milli Məclisin Hüquq siyasəti və dövlət quru-

culuğu komitəsinin sədri Əli Hüseynli layihənin hazırlanması prosesinə müvafiq qurumların, həmçinin Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti mütəxəssislərinin cəlb olunduğunu, bu sahədə dünya təcrübəsinin öyrənildiyini qeyd etdi. Bildirildi ki, ölkədə aparılan islahatlar, investisiya mühitinin yaxşılaşdırılması və tikinti sektorunun inkişafı bu sahənin tənzimlənməsində təkmil qanunvericilik bazasının formalaşdırılması zərurətini yaradır. Şəhərsalma və Tikinti Məcəlləsi bu fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini, eləcə də dövlət orqanlarının və vətəndaşların bu sahədə hüquq və vəzifələrini müəyyənləşdirəcək.

Qeyd olundu ki, Məcəllə 3 bölmədən ibarətdir. İlk bölmədə şəhərsalma və tikinti qanunvericiliyinin təyinatı, bu sahədə dövlətin və bələdiyyələrin səlahiyyəti, normativ-texniki sənədlər, informasiya təminatı sistemləri əksini tapıb. Sənədin ikinci bölməsi şəhərsalma, üçüncü bölməsi isə tikinti fəaliyyətini əhatələyir. 99 maddədən ibarət qanun layihəsində ərazi planlaşdırılması, tikinti fəaliyyətinin subyektləri, tikintiyə dair ümumi tələblər, mühəndis-axtarış işləri, tikinti obyektlərinin təhlükəsiz istismarı, tikintiyə icazənin verilməsi üçün icraat, icazənin qüvvədə olma müddəti, texniki şərtlər, layihələrin ekspertizası, tikintilərin dövlət reyestri və digər məsələlər ətraflı şərh edilib.

Layihə barədə danışan Milli Məclisin İqtisadi siyasət komitəsinin sədr müavini Çingiz Əsədullayev də məcəllənin ölkə iqtisadiyyatının inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı.

Məlumat dinlənildikdən sonra layihə geniş müzakirə olundu. Deputatlar ölkəmizdə sürətli tikinti-quruculuq işlərinin getdiyi bir vaxtda belə bir Məcəllənin qəbuluna çox ehtiyac olduğunu diqqətə çatdırdılar.

Axşam iclasında Şəhərsalma və Tikinti Məcəlləsinin layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edildi.

Sonra parlament Sədrinin birinci müavini, Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov gündəlikdəki "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanun layihəsinin ikinci oxunuşu barədə məlumat verdi. Bildirdi ki, sənəddə ölkənin silahlı qüvvələrində hərbi vəzifələrin və xidmətkeçmənin hüquqi tənzimlənməsi qaydaları müəyyənləşdirilib. 9 fəsil, 54 maddədən ibarət olan qanun layihəsində vətəndaşların hərbi qeydiyyatı, gənclərin hərbi xidmətə hazırlanması və çağırılması, ehtiyatda xidmət və başqa məsələlər öz əksini tapıb. Qeyd olundu ki, sənəddə parlamentdə birinci oxunuşda səslənən bir sıra məsələlər nəzərə alınıb və redaktə xarakterli dəyişikliklər edilib.

Çıxış edən deputatlar qanun layihəsini yüksək qiymətləndirdilər, müharibə şəraitində olan ölkəmiz üçün bu sənədin əhəmiyyətini xüsusi vurğuladılar. Millət vəkillərinin fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci və üçüncü oxunuşlarda təsdiq edildi.

Bununla da Milli Məclisin iclası başa çatdı.

117) MİLLİ MƏCLİSDƏ QƏBUL

24/12/11

Dekabrın 24-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan İraq Respublikasının xarici işlər naziri Hoşyar Zebarinin başçılıq etdiyi nümayəndə heyətini qə-

bul etdi.

Görüşdə Sədr dedi ki, ölkələrimiz arasında mövcud olan ümumi, tarixi, dini və mədəni köklər xalqlarımızı bir-birinə sıx bağlayır. Azərbaycan İraqla əlaqələrin bundan sonra da inkişafını önəmli hesab edir. İraq nümayəndə heyətinin bu səfəri ölkələrimiz arasında mövcud əməkdaşlığın gələcək perspektivlərini müzakirə etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlətlər və xalqlar arasında münasibətlərin dərinləşməsində qanunverici orqanların rolunu xüsusi qeyd edən Spiker dedi ki, Milli Məclisdə İraqla parlamentlərarası əlaqələr üzrə işçi qrup yaradılmışdır. Biz əlaqələrimizin hərtərəfli inkişafını dəstəkləyirik.

Sədr vurğuladı ki, vaxtilə azərbaycanlı hərbçilər İraqda sülhyaratma missiyasında fəal iştirak etmişlər. Bu gün isə bizim iş adamlarımız İraq iqtisadiyyatının dirçəlməsinə yardım göstərməyə hazırdırlar.

Milli Məclisin Sədri Azərbaycanın dinamik inkişafı, beynəlxalq münasibətlərdəki yeri və rolu, Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat verdi. İraqın bu məsələdə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini yüksək dəyərləndirdi.

Oqtay Əsədov Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi zamanı göstərdiyi dəstəyə görə İraq hökumətinə və xaqlına minnətdarlığını bildirdi.

Sədr dedi ki, gələn il Azərbaycanın İraqda səfirliyinin açılması planlaşdırılır. Bu addım münasibətlərimizin daha da genişlənməsində mühüm rol oynayacaqdır.

Hoşyar Zebari göstərilən qonaqpərvərliyə və xoş sözlərə görə minnətdarlığını ifadə etdi. Nazir dedi ki, İraq dövləti və xalqı qardaş və dost Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Səfərin əsas məqsədi bu və digər məsələlər ətrafında fikir mübadiləsi aparmaqdır.

Hoşyar Zebari onu da vurğuladı ki, İraq dövləti də iqtisadi cəhətdən inkişaf edir. Amma demokratiya yolunda hələ gəncdir. Bu sahədə Azərbaycanın təcrübəsinə ehtiyac duyulur.

Sonra görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı səfərlərin təşkili, iqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Qəbulda İraqın ölkəmizdəki səfiri Heydər Şiya Əl-Barrak və digər rəsmi şəxslər iştirak edirdilər.

NAZİRLƏR KABİNETİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞLƏR

Yanvarın 12-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Bosniya və Herseqovinanın xarici işlər naziri Sven Alkalayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları səmimiyyətlə salamlayan Baş nazir onların Bakıya ilk səfərinin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini söyləmiş, bunun üçün ən əvvəl lazımi hüquqi bazanın yaradılmasının vacibliyini bildirmişdir. Fəaliyyətlərimizin gücləndirilməsi üçün tövsiyələrini dilə gətirmişdir.

Artur Rasi-zadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də qonaqlara məlumat vermişdir.

Nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edən Sven Alkalay demişdir ki, Bakıya səfərinin məqsədi Azərbaycan ilə Bosniya və Herseqovina arasında münasibətlərin inkişaf perspektivlərini müzakirə etmək, gələcək əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirməkdir. Onun ölkəsi belə bir əməkdaşlığın qurulmasında maraqlıdır.

Sven Alkalay ölkəsinin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəklədiyini də vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu birgə işçi nahar etmişlər

Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu birgə işçi nahar etmişlər

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və Azərbaycanda rəsmi səfərdə olan Avropa Komissiyasının sədri Xose Manuel Barrozu yanvarın 14-də birgə işçi nahar etmişlər.

Səmimi söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır.

Fevralın 8-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

İki ölkə arasındakı münasibətlərin inkişafından məmnunluğunu ifadə edən Baş nazir siyasi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu demiş, iqtisadi əlaqələrin də genişləndirilməsinin vacibliyini vurğulamışdır. Səfər çərçivəsində keçiriləcək Azərbaycan-Litva biznes forumunun iqtisadi perspektivlərə töhfə verəcəyinə əminliyini bildirən Baş nazir Artur Rasi-zadə gələcəkdə də belə tədbirlərin keçirilməsini arzu etmişdir.

Litva Seyminin sədri xanım İrena Dequtiene Azərbaycana səfərindən və ölkəmizlə yaxından tanış olmaq imkanından məmnunluğunu söyləmişdir. O demişdir ki, Bakıda ke-

çiriləcək biznes forumda ölkəsini təmsil edəcək 40-a yaxın şirkətin əksəriyyəti Azərbaycanın qeyri-neft sektorunda, xüsusən də, informasiya texnologiyaları və qida sənayesi sahələrində əməkdaşlıq qurmaqda maraqlıdır. Qonaq 2008-ci ildən Azərbaycanın Cənubi Qafqaz regionunda Litvanın əsas ticarət tərəfdaşı olduğunu da xatırlatmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Fevralın 17-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Kubanın xarici işlər naziri Bruno Eduardo Rodriqes Parrilyanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edən Baş nazir siyasi sahədə qarşılıqlı əməkdaşlığın yaxşı səviyyədə olduğunu demiş, iqtisadi, mədəni əlaqələrin də genişləndirilməsinin vacibliyini vurğulamışdır. Bütün sahələrdə əlaqələrin inkişafında Azərbaycan hökumətinin maraqlı olduğunu deyən Artur Rasi-zadə bunun üçün qüvvələrimizin səfərbər edilməsinin əhəmiyyətini dilə gətirmişdir. Baş nazir Azərbaycan-Kuba Hökumətlərarası Komissiyanın fəaliyyətini də müsbət qiymətləndirmişdir.

Nazir B.Rodriqes Parrilya Kubanın dövlət başçısının xoş arzularını Artur Rasi-zadəyə çatdırmışdır. Kubalı nazir Azərbaycana səfərindən və ölkəmizlə yaxından tanış olmaq imkanından məmnunluğunu bildirmişdir. Qonaq vurğulamışdır ki, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrimizin inkişafı üçün Kuba hökuməti əlindən gələni edəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Martın 10-da Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Albaniya Baş nazirinin müavini və xarici işlər naziri Edmond Hacinaston ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Baş nazir Artur Rasi-zadə E.Hacinastonun Bakıya səfərinin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini söyləmiş, əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu bildirmişdir.

Artur Rasi-zadə qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat vermişdir.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Edmond Hacinaston Bakıda aparılan tikinti-quruculuq işlərini yüksək qiymətləndirərək, bunu Azərbaycanın inkişafının bariz nümunəsi kimi dəyərləndirmişdir. Albaniya ilə Azərbaycan dost dövlətlərdir deyən qonaq, təmsil etdiyi ölkənin Baş nazirinin salamlarını Artur Rasi-zadəyə çatdırmışdır.

Bakıya səfərinin məqsədinin Azərbaycan ilə Albaniya arasında münasibətlərin inkişaf perspektivlərini müzakirə etmək, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirmək olduğunu vurğulayan Edmond Hacinaston bildirmişdir ki, ölkəsi bütün sahələrdə əlaqələrin inkişafında maraqlıdır.

Albaniya Baş nazirinin müavini və xarici işlər naziri ölkəsinin Dağlıq Qarabağ münaqi-

şəsində Azərbaycanın ədalətli mövqeyini birmənalı şəkildə dəstəklədiyini də vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

Martın 17-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Ukraynanın müdafiə naziri Mixail Yejelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə Azərbaycan ilə Ukrayna arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulamışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qonaqlara məlumat verən Artur Rasi-zadə bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü diqqətə çatdırmışdır.

Ukraynanın müdafiə naziri Mixail Yejel ölkəsinin bu münaqişənin həlli ilə bağlı məsələdə Azərbaycanın mövqeyini dəstəklədiyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas aprelin 5-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür.

Yunanıstan Prezidenti Bakıya səfərinin qarşılıqlı münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini söylədi. Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşünün səmərəli keçdiyini, bir sıra mühüm sənədlərin imzalandığını deyən Prezident Karolos Papulyas iki dövlət arasında münasibətlərin inkişafı üçün böyük potensialın mövcudluğunu bildirdi və qarşıda görüləcək işlərin hələ çox olduğunu vurğuladı.

Ali qonağı ölkəmizdə görməkdən məmnunluğunu söyləyən Baş nazir Artur Rasi-zadə dedi ki, Azərbaycan Yunanıstanı dost ölkə hesab edir. Ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan Baş nazir Yunanıstan Prezidentinin bu səfərinin ikitərəfli münasibətlərə yeni töhfə verəcəyini bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Aprelin 6-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Amerika Birləşmiş Ştatlarının ölkəmizə yeni təyin olunmuş səfiri Metyu Brayzanı onun xahişi ilə qəbul etmişdir.

Qəbula görə respublikamızın Baş nazirinə minnətdarlığını bildirən Metyu Brayza Azərbaycana səfir təyin olunmasından şərəf duyduğunu vurğuladı, Amerika hökumətinin ölkələrimiz arasında əlaqələrə və tərəfdaşlığa böyük önəm verdiyini nəzərə çatdırdı.

Sonra Azərbaycanla ABŞ arasında ikitərəfli əlaqələrin perspektivi, qarşılıqlı faydalı əməkdaşlığın daha da intensivləşdirilməsi, xüsusən, Dağlıq Qarabağ məsələsinə dair Ermənistan - Azərbaycan münaqişəsinin həlli yolları barədə müzakirələr oldu.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Aprelin 12-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə İordaniya Haşimilər Krallığının sənaye və ticarət naziri Hani Əl-Mülkinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

İordaniyanın Azərbaycana dost ölkə olduğunu diqqətə çatdıran Artur Rasi-zadə bildirmişdir ki, ölkələrimiz arasında çoxşaxəli əlaqələr mövcuddur və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün hazırda böyük imkanlar mövcuddur. Son vaxtlar İordaniya ilə bütün sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığın intensivləşdiyini deyən Baş nazir bu gün Bakıda keçirilmiş Azərbaycan-İordaniya Hökumətlərarası Komissiyasının 2-ci iclasının buna əyani sübut olduğunu vurğulamışdır.

Hani Əl-Mülki Azərbaycana ilk dəfə səfər etdiyini bildirmiş, ölkəsinin Baş nazirinin salamını Artur Rasi-zadəyə çatdırmışdır. Nazir Azərbaycan Prezidenti İlham Əliyevin onu qəbul etdiyini, iki ölkə arasındakı əlaqələrin genişləndirilməsi üçün Azərbaycan Prezidentindən tövsiyələr aldığını diqqətə çatdırmışdır. Yaxın Şərqdəki siyasi hadisələrə toxunan Hani Əl-Mülki İordaniyada vəziyyətin sabit olduğunu vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Rumıniya Prezidenti Trayan Besesku aprelin 18-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür.

Rumıniya Prezidenti Trayan Besesku Bakıya növbəti səfərinin qarşılıqlı münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini söyləmiş, ötən illərdə əldə olunan razılaşmaların bu gün öz bəhrəsini verdiyinin əlamətdar fakt olduğunu vurğulamış, əməkdaşlığın inkişafında Azərbaycanın əvəzolunmaz rolunu diqqətə çatdırmışdır.

Ali qonağı ölkəmizdə görməkdən məmnunluğunu bildirən Baş nazir Artur Rasi-zadə demişdir ki, Azərbaycan Rumıniyanı dost ölkə hesab edir. Ölkələrimiz arasında bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı sahəsində əməkdaşlığın sürətlə inkişaf etdiyini vurğulayan Baş nazir Rumıniya Prezidentinin bu səfərinin ikitərəfli münasibətlərə yeni töhfə verəcəyini bildirmişdir. Baş nazir onu da qeyd etmişdir ki, Rumıniyanın beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləməsini yüksək qiymətləndirir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Aprelin 19-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Çernobıl qəzasının 25 illiyinə həsr olunmuş sammitdə iştirak etmək üçün Kiyev şəhərinə yola düşmüşdür.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Kiyev sammitində dünya ictimaiyyətini Ermənistandakı Metsamor AES-in bağlanmasına kömək etməyə çağırmışdır

Aprelin 19-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Çernobıl AES-də baş vermiş qəzanın 25 illiyinə həsr olunmuş sammitdə iştirak etmək üçün Kiyevə səfərə gəlmişdir.

"Ukrayna evi"ndə nüvə enerjisindən təhlükəsiz və innovasiyalı istifadə edilməsi məsələlərinə dair Kiyev sammiti işə başlamışdır. Azərbaycan Respublikasının Baş naziri sammitdə çıxış etmişdir.

Kiyev sammitində 60-dan çox nümayəndə, o cümlədən 17 nəfər dövlət və hökumət

başçısı, dünyanın bir sıra ölkələrinin ali vəzifəli şəxsləri, beynəlxalq təşkilatların rəhbərləri iştirak edir. Baş nazir Artur Rasi-zadə öz çıxışında ən dəhşətli texnogen fəlakətin - Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması zamanı həlak olanların ailələrinə və yaxınlarına başsağlığı vermişdir. O vurğulamışdır ki, Azərbaycan həmişə, o cümlədən bu faciə baş verən vaxtda da Ukraynanın yanında olmuşdur.

Artur Rasi-zadə onu da qeyd etmişdir ki, Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak etmiş 8 min azərbaycanlı öz sağlamlığını itirmişdir. Azərbaycanda bu insanlar sosial qayğı və dövlətin diqqəti ilə əhatə olunmuşlar. Baş nazir sammit iştirakçılarının diqqətini Ermənistandakı Metsamor AES-in seysmik təhlükəli zonada yerləşən bir obyekt kimi Türkiyə, İran, Gürcüstan və Azərbaycan üçün çox böyük təhlükə mənbəyi olmasına cəlb etmişdir. Artur Rasi-zadə dünya birliyini artıq dağıdıcı zəlzələlərin baş verdiyi Ermənistandakı AES-in bağlanmasına kömək etməyə çağırmışdır.

Sammitin nəticələrinə əsasən Yüksək Səviyyəli Bəyannamə qəbul edilmişdir.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə sammit çərçivəsində Argentinanın xarici işlər naziri Ektor Timerman ilə görüşmüşdür. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

Elə həmin gün Baş nazir Artur Rasi-zadə Bakıya yola düşmüşdür.

Aprelin 20-də Azərbaycan Respublikaının Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstanın Milli Kəşfiyyat Xidmətinin direktoru general-leytenant Kirço Kirovu qəbul etmişdir.

Qonağı səmimi salamlayan Baş nazir Artur Rasi-zadə Azərbaycanla Bolqarıstan arasında siyasi-iqtisadi və mədəni əlaqələrin daim yüksələn xətlə inkişaf etdiyini vurğuladı. Sonra müasir dünya üçün aktual olan təhlükəsizlik problemləri, terrorçuluqla mübarizə, etnik separatizm və digər məsələlər barədə danışarkən, diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəltdi. Baş nazir qeyd etdi ki, bu münaqişənin tezliklə həlli həm də ümumən regional təhlükəsizlik baxımından zəruridir.

Bakıda gördüyü yüksək qonaqpərvərlikdən məmnun olduğunu deyən Kirço Kirov keçirtdiyi görüşlər və apardığı müzakirələr barədə Azərbaycanın Baş nazirinə ətraflı məlumat verdi. Qonaq xüsusilə Azərbaycanlı həmkarları ilə səmərəli danışıqları xatırlayaraq bu cür məhsuldar görüşlərin, təcrübə mübadilələrinin hər iki ölkənin müvafiq strukturları arasında əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirdi.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi oldu.

Milli Təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov qəbulda iştirak edirdi.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və Ukrayna Prezidenti Viktor Yanukoviç birgə işçi nahar etmişlər

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Viktor Yanukoviç aprelin 28-də birgə işçi nahar etmişlər.

Səmimi söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Litva Prezidenti Dalya Qribauskayte birgə işçi nahar etmişlər

Mayın 3-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskayte birgə işçi nahar etmişlər.

Səmimi söhbət zamanı Azərbaycan ilə Litva arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır.

İstanbulda BMT-nin az inkişaf etmiş ölkələrə yardımla bağlı konfransı keçirilmişdir

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə konfransda iştirak etmişdir

İstanbulda Lütfi Kırdar Konqres Mərkəzində BMT-nin Az İnkişaf Etmiş Ölkələrin IV Konfransı (LDC-IV) keçirilmişdir.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə konfransda iştirak etmişdir.

Avropa Komissiyasının sədri Xose Manuel Barrozu, İran və Əfqanıstanın prezidentləri Mahmud Əhmədinejad və Həmid Kərzai konfransın iştirakçıları arasında olmuşlar.

Konfransın açılışından əvvəl deputatların, ziyalıların və vətəndaş cəmiyyəti qurumlarının forumları keçirilmişdir. Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş katibi Elşad İsgəndərov vətəndaş cəmiyyəti qurumlarının forumunda iştirak etmişdir.

Açılış mərasimində çıxış edən Türkiyə Prezidenti Abdullah Gül bildirmişdir ki, on ildən bir keçirilən bu tədbirdə müxtəlif ölkələrdən gəlmiş 60 dövlət və hökumət başçısı, 100-ə yaxın nazir iştirak edir. Konfransda siyasi bəyannamə qəbul ediləcəkdir. Prezident demişdir ki, ən az inkişaf etmiş ölkələrdə 1 milyarda yaxın insan yaşayır. Əgər 1971-ci ildə bu ölkələrin sayı 25 idisə, indi bu rəqəm 48-ə çatmışdır.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə çıxışında bildirmişdir ki, Ermənistanın təcavüzü nəticəsində ölkəmizdə 1 milyona yaxın qaçqın və məcburi köçkün vardır. Azərbaycan hökuməti bu insanlara yardım üçün lazımi tədbirləri həyata keçirir. Dövlətimiz BMT çərçivəsində yoxsul ölkələrə yardım layihələrində də fəal iştirak edir. Azərbaycan humanitar yardımlar, yoxsul insanlara səhiyyə və təhsil məsələlərində təcrübəsini bu ölkələrlə paylaşmağa hazırdır.

BMT-nin baş katibi Pan Gi Mun bildirmişdir ki, on il əvvəl dünyada yoxsulluğun azaldılmasına dair təsdiq olunmuş planın yerinə yetirilməsinin müzakirəsi aparılacaqdır. İnkişaf etməkdə olan və inkişaf etmiş ölkələr az inkişaf etmiş ölkələrin iqtisadiyyatının dirçəldilməsində fəal iştirak etməlidirlər. İstanbul konfransında yeni onillik fəaliyyət planı qəbul olunacaqdır.

"Çırağan" sarayında Türkiyə Prezidentinin adından konfrans iştirakçılarının şərəfinə ziyafət verilmişdir.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Çexiya Prezidenti Vatslav Klaus birgə işçi nahar etmişlər

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və ölkəmizdə rəsmi səfərdə olan Çexiya Respublikasının Prezidenti Vatslav Klaus mayın 17-də birgə işçi nahar etmişlər.

Səmimi söhbət zamanı Azərbaycan ilə Çexiya arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır.

İyunun 28-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Dövlət Sosial Müdafiə Fondunun, Beynəlxalq Sosial Təminat Assosiasiyasının və Beynəlxalq Pensiya və Sığorta Fondları Assosiasiyasının birgə təşkilatçılığı ilə "Əmək miqrantlarının sosial müdafiəsi və qloballaşma" mövzusunda beynəlxalq seminarda iştirak etmək üçün Bakıya gəlmiş Beynəlxalq Sosial Təminat Assosiasiyasının Baş Katibi Hans-Horst Konkolevskini qəbul etmişdir.

Qəbul zamanı Bakıda Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avrasiya regionu üzrə əlaqələndirmə Mərkəzinin açılmasını yüksək qiymətləndirən qonaq, bu faktın ölkəmizdə sosial məsələlərə xüsusi diqqət yetirildiyinə daha bir sübut olduğunu nəzərə çatdırdı. Qeyd olundu ki, həmin regional Mərkəz dünyanın bir çox sosial müdafiə qurumları arasında əlaqələrin daha da yaxşılaşdırılması, məlumatlara birbaşa çıxışın əldə edilməsi, sosial müdafiə sistemlərinin beynəlxalq təcrübədən yararlanması baxımından ölkəmiz üçün də səmərəli olacaqdır. Daha sonra bildirildi ki, Almaniya, Rusiya, Hollandiya, Albaniya, Polşa, Moldova, Qazaxıstan, Tacikistan, İspaniya, İsveç və b. ölkələrin sığorta-pensiya fondlarının rəhbər şəxslərinin, habelə bir sıra nüfuzlu qurumların nümayəndələrinin iştirakı ilə iki gün davam edəcək beynəlxalq tədbirdə dünya üzrə sosial təminatın əhatə dairəsinin genişləndirilməsi, Avrasiyada miqrantların sosial müdafiəsi, əmək miqrantlarının hüquqlarının qorunması üçün məqbul modellərin tapılması və s. məsələlər ətrafında müzakirələr aparılacaqdır.

Görüşdə tərəfləri maraqlandıran bəzi məsələlərə dair fikir mübadiləsi oldu. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov qəbulda iştirak edirdi.

İyunun 30-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Argentina Respublikası Gömrük İdarəsinin Baş direktoru xanım Maria Siomara Ayeranı qəbul etmişdir.

Səmimi qəbula görə Azərbaycanın Baş nazirinə təşəkkürünü bildirən Argentinalı qonaq regionun ən inkişaf etmiş dövlətlərindən biri olan Azərbaycana gəlişindən şərəf duyduğunu deyərək, ölkəmizdə müşahidə etdiyi böyük quruculuq işlərindən, iqtisadi inkişafın səviyyəsindən, o cümlədən, dövlət qayğısı sayəsində qurulmuş müasir gömrük xidməti sistemindən və onun yüksək texniki təchizatından məmnunluqla danışdı.

Daha sonra görüşdə Azərbaycanla Argentina arasında gömrük sahəsində əlaqələrin möhkəmləndirilməsinin zəruriliyi nəzərə çatdırılaraq qeyd edildi ki, Argentinanın kontrafakt mallar üzrə təcrübəsindən və Azərbaycan gömrükçülərinin "bir pəncərə" sisteminin effektiv tətbiqindən, habelə risklərin idarə olunması sahəsində təcrübəsindən qarşılıqlı surətdə bəhrələnmək hər iki tərəf üçün faydalı olardı.

Qəbul zamanı iki ölkə arasında ticarət dövriyyəsinin vəziyyəti və iqtisadi əlaqələrin daha da genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev qəbulda iştirak edirdi.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə iyulun 1-də İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Əli Laricaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əvvəlcə təkbətək görüş olmuşdur.

Sonra geniş tərkibdə davam edən görüşdə Baş nazir Artur Rasi-zadə iki ölkə arasındakı əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirmiş, siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin gücləndiyini, irimiqyaslı layihələrin həyata keçirilməsindən məmnunluğunu ifadə etmişdir. Hökumətlərarası komissiyanın fəaliyyətini təqdirəlayiq hesab etdiyini deyən Baş nazir iqtisadi əlaqələrin gücləndirilməsi baxımından Azərbaycanın hər zaman açıq olduğunu diqqətə çatdırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Baş nazir Artur Rasi-zadə İran İslam Respublikası hökumətinə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkürünü bildirmişdir.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə Əli Laricaninin ölkəmizə səfərinin uğurlu olacağını vurğulamış və bunun əlaqələrin inkişafı baxımından əhəmiyyətini qeyd etmişdir.

Əli Laricani İran-Azərbaycan münasibətlərinin tarixi köklərə malik olduğunu demiş, mövcud əlaqələri inkişaf etdirməyin vacibliyini diqqətə çatdırmışdır. Bunun üçün geniş imkanların olduğunu bildirən qonaq dövlətinin strategiyasının məhz bu istiqamətdə qurulduğunu söyləmişdir. İran İslam Şurası Məclisinin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində İranın hər zaman Azərbaycana dəstək olduğunu diqqətə çatdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

İyulun 4-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə Axmatbek Keldibekovun ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin gələcək inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir. O demişdir ki, bizə yaxın və dost ölkə olan Qırğız Respublikasında baş verən bütün hadisələr Azərbaycanda diqqətlə izlənilir.

Baş nazir Artur Rasi-zadə ölkələrimiz arasında siyasi, mədəni, humanitar sahələrdə münasibətlərin inkişaf etdiyini, lakin iqtisadi-ticarət əlaqələrinin istənilən səviyyədə olmadığını və hər iki ölkənin potensialını əks etdirmədiyini demişdir. İqtisadi münasibətlərin inkişafı baxımından Azərbaycan-Qırğız Hökumətlərarası Komissiyanın fəaliyyətinin canlandırılmasının vacibliyini vurğulamışdır.

Azərbaycanın enerji sektoru və ümumilikdə iqtisadiyyatı barədə məlumat verən Artur Rasi-zadə demişdir ki, hökumət neft sərvətlərindən istifadə edərkən qeyri-neft sektoru-

nun inkişafına xüsusi diqqət yetirir. Azərbaycan hökuməti irimiqyaslı infrastruktur layihələri həyata keçirir, məktəblər, səhiyyə ocaqları, yollar inşa olunur. Mühüm layihələrdən biri olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi 2012-ci ilin sonunadək yekunlaşacaqdır.

Regionun inkişafına ciddi mane olan Ermənistan-Azərbaycan, Daşlıq Qarabağ münaqişəsi barədə məlumat verən Baş nazir Artur Rasi-zadə Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlının öz ölkəsində qaçqın və məcburi köçkün düşdüyünü qonağın diqqətinə çatdırmışdır. O demişdir ki, Azərbaycan dövləti məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm layihələr həyata keçirmiş, bütün çadır düşərgələri ləğv olunmuş, onlar üçün hər cür şəraiti olan yeni qəsəbələr salınmışdır.

Baş nazir münaqişənin ədalətli həlli ilə bağlı aparılan sülh danışıqları, Azərbaycanın haqlı və ədalətli mövqeyi barədə danışmış və demişdir ki, bu münaqişə hələ də öz həllini tapmamışdır. Sülh danışıqları sonsuzluğa qədər davam edə bilməz. Bu baxımdan da Azərbaycan problemin digər yollarla həlli üstünlüyünü özündə saxlayır və istənilən vaxt torpaqlarını geri qaytarmaq iqtidarındadır.

Axmatbek Keldibekov Bakıya səfərindən məmnunluğunu ifadə etmiş və demişdir ki, ölkəsi dinamik inkişaf edən Azərbaycan ilə münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsində maraqlıdır.

O bildirmişdir ki, iqtisadi sahədə də əlaqələrin inkişaf etdirilməsi üçün müvafiq hüquqi baza mövcuddur, lakin onun reallaşması gecikir. Buna da səbəb son bir ildə Qırğız Respublikasında baş verən siyasi hadisələrdir. Qırğız Parlamentinin sədri həmin hadisələr nəticəsində xalqının öz siyasi iradəsini göstərdiyini və seçimini etdiyini söyləmişdir.

Qonaq Qırğız Respublikasının Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, Dağlıq Qarabağı birmənalı şəkildə Azərbaycan ərazisi kimi tanıdığını diqqətə çatdırmışdır.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə iyulun 8-də ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının Baş naziri Mixail Myasnikoviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əvvəlcə Baş nazirlərin təkbətək görüşü olmuşdur. Sonra görüş geniş tərkibdə davam etdirilmişdir.

Baş nazir Artur Rasi-zadə demişdir ki, Belarus Azərbaycana dost ölkədir. Ölkələrimiz arasında əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirən A.Rasi-zadə siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin güclənməsindən, birgə layihələrin həyata keçirilməsindən məmnunluğunu ifadə etmişdir. Baş nazir A.Rasi-zadə Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun qarşılıqlı səfərlərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafındakı xüsusi rolunu vurğulamış və bildirmişdir ki, bizim indiki münasibətlərimiz gələcək əlaqələrimizin perspektiv inkişafının əsasını təşkil edir.

Dünyada baş verən maliyyə böhranının Azərbaycana az təsir etdiyini vurğulayan Baş nazir buna Prezident İlham Əliyevin yürütdüyü düzgün siyasət sayəsində nail olunduğunu bildirmişdir. Azərbaycanda müasir infrastrukturun yaradılmasına xüsusi diqqət yetirildiyini deyən A.Rasi-zadə qeyri-neft sektorunun və kənd təsərrüfatının inkişaf etdiril-

məsinin ölkəmizdə həyata keçirilən siyasətin əsas məqsədi olduğunu diqqətə çatdırmışdır. Baş nazir bu sahədə Azərbaycan ilə Belarus arasında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətinə toxunmuş, ölkələrimiz arasında əməkdaşlığın inkişafında birgə layihələrin həyata keçirilməsinin vacibliyini bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə belaruslu həmkarına ətraflı məlumat verən Baş nazir A.Rasi-zadə bir milyondan artıq azərbaycanlının öz ölkəsində qaçqın və məcburi köçkün düşdüyünü diqqətə çatdırmışdır. Baş nazir demişdir ki, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi mühüm layihələr nəticəsində bütün çadır düşərgələri ləğv olunmuş, onlar üçün hər cür şəraiti olan yeni qəsəbələr salınmışdır.

Azərbaycanın son illərdə bütün sahələrdə sürətlə inkişaf etdiyini vurğulayan Belarusun Baş naziri Mixail Myasnikoviç bildirmişdir ki, səfər çərçivəsində ticarət və iqtisadiyyat, eləcə də investisiya sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. M.Myasnikoviç Belarus ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirmişdir.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında diplomatik nümayəndəliklərin yerləşdirilməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında təhsil sənədlərinin qarşılıqlı tanınması haqqında Saziş" və "2011-2012-ci illər üzrə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Belarus Respublikası Xarici İşlər Nazirliyi arasında tematik məsləhətləşmələr Planı" imzalanmışdır. Sənədləri Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov və Belarus Respublikasının xarici işlər nazirinin birinci müavini İqor Petrişenko imzalamışlar.

* * *

Səfər başa çatdı

Belarus Respublikasının Baş naziri Mixail Myasnikoviçin Azərbaycan Respublikasına rəsmi səfəri iyulun 8-də başa çatmışdır.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus Respublikasının Baş naziri Mixail Myasnikoviçi hava limanında Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və digər rəsmi şəxslər yola saldılar.

Bakıda səfərdə olan Kamboca, Benin, Ekvatorial Qvineya, Mavriki, Namibiya, Sent Lusiya, Sent Vinsent Qrenadin, Seyşel adaları, Syerra-Leone, Şri-Lanka, Yamayka və Zimbabvenin BMT yanında daimi nümayəndələri avqustun 24-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ilə görüşmüşlər.

Qonaqları səmimi salamlayan Baş nazir BMT çərçivəsində fəaliyyət göstərən səfirlərin Azərbaycanda olmasının böyük əhəmiyyətini qeyd etmişdir.

Artur Rasi-zadə bu səfərin diplomatlara Azərbaycan haqqında dolğun məlumat əldə etməyə imkan verəcəyinə, səfirlərin BMT-nin iclaslarında Azərbaycan ilə bağlı ədalətli

mövqedən çıxış edəcəklərinə əmin olduğunu bildirmişdir.

Baş nazir Azərbaycanın öz xarici siyasətini ölkələrin böyüklüyündən, kiçikliyindən asılı olmayaraq normal, ikitərəfli əlaqələrin üzərində qurduğunu söyləmişdir.

Ölkəmizin bu il müstəqilliyinin 20 illiyini qeyd etdiyini deyən Artur Rasi-zadə son 7-8 ildə Azərbaycanın yüksək iqtisadi inkişafa nail olduğunu vurğulamışdır. O demişdir ki, son illərdə Azərbaycanda ümumi daxili məhsul 3 dəfə, dövlət büdcəsi isə 10 dəfə artmış, regional əhəmiyyətli böyük infrastruktur layihələri həyata keçirilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Baş nazir münaqişənin tarixi barədə ətraflı məlumat vermişdir.

Baş nazir demişdir ki, müstəqilliyinin ilk illərində ölkəmizin düşdüyü çətin vəziyyətdən istifadə edən Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində 1 milyondan çox azərbaycanlı öz ölkəsində məcburi köçkünə çevrilmişdir. Ermənistanın işğalçı siyasəti bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT tərəfindən pislənilmiş, lakin bu təşkilatın Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə indiyədək icra olunmamışdır. Artur Rasi-zadə münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətinin də indiyədək nəticəsiz qaldığını söyləmişdir.

Azərbaycanın yüksək iqtisadi inkişafını vurğulayan səfirlər ölkəmizin xarici siyasəti, Dağlıq Qarabağ münaqişəsi barədə maraqlanmışlar. Səfirlər öz ölkələrinin Azərbaycan ilə ikitərəfli əlaqələrin qurulmasında maraqlı olduqlarını söyləmişlər.

Sonda Baş nazir Artur Rasi-zadə səfirlərin suallarını cavablandırmışdır.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə sentyabrın 1-də Serbiya Respublikasının xarici işlər naziri Vuk Yeremiç ilə görüşmüşdür.

Azərbaycanın Baş naziri iki ölkə arasında siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğundan məmnunluğunu ifadə etmişdir. Artur Rasi-zadə qeyd etmişdir ki, Azərbaycan tərəfi bu əməkdaşlığa böyük önəm verməklə onun davamlı inkişafında maraqlıdır.

İqtisadi sahədəki münasibətlərə toxunan Baş nazir burada iki ölkənin potensialından lazımi qədər istifadə olunmadığını vurğulamışdır. Bunun müvəqqəti xarakter daşıdığını deyən Artur Rasi-zadə iqtisadi əlaqələrin genişləndirilməsi üçün qüvvələri səfərbər etməyin vacibliyini diqqətə çatdırmışdır. O demişdir ki, hökumətlərarası komissiyanın yaradılması və onun gələcək fəaliyyəti bu baxımdan faydalı olacaqdır. Komissiyanın ilk işi müvafiq qanunverici bazanın yaradılması və prioritet layihələrin hazırlanması olmalıdır. Baş nazir bu səfərin əlaqələrimizin inkişafında əhəmiyyətli rol oynadığını və ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində yaxşı zəmin yaratdığını da söyləmişdir.

Serbiyanın xarici işlər naziri Vuk Yeremiç Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya səfərini xatırladaraq, onu mövcud əlaqələrin inkişafında yeni mərhələ adlandırmışdır. Nazir xüsusilə vurğulamışdır ki, Serbiya beynəlxalq aləmdə Azərbaycanın mövqeyini daim dəstəkləyir. Azərbaycan ilə Serbiya arasında həm diplomatik sahədə, həm də parlamentlərarası münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən qonaq onların fəaliyyətinin razılıq doğurduğunu demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sentyabrın 3-də Düşənbədə Müstəqil Dövlətlər Birliyinin (MDB) 20 illiyi ilə əlaqədar Dövlət Başçıları Şurasının yubiley Sammiti keçirilmişdir.

Tədbirdə Azərbaycanı Baş nazir Artur Rasi-zadə təmsil etmişdir.

Sammitdə Rusiya, Qazaxıstan, Qırğız Respublikası, Türkmənistan, Ukrayna, Tacikistan və Ermənistanın prezidentləri Dmitri Medvedev, Nursultan Nazarbayev, Roza Otunbayeva, Qurbanqulu Berdiməhəmmədov, Viktor Yanukoviç, Emomәli Rəhmon və Serj Sarkisyan, Moldova Prezidentinin səlahiyyətlərini icra edən Marian Lupu, Özbəkistan və Belarusun baş nazirləri Şavqat Mirziyayev və Mixail Myasnikoviç iştirak etmişlər.

Qonaqları Tacikistan Prezidenti Emomәli Rəhmon salamlamış, MDB ölkələri arasında inteqrasiya sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi məsələlərinə toxunmuşdur.

Sammitin geniş tərkibdə keçirilən iclasında dövlət başçıları, Azərbaycanın və Özbəkistanın baş nazirləri çıxış etmişlər.

Artur Rasi-zadə salona toplaşanları təbrik edərək demişdir ki, MDB-nin formalaşdığı ötən illər ərzində böyük işlər görülmüşdür. Birliyin imkanları genişdir və bu potensialdan maksimum dərəcədə səmərəli istifadə etmək üçün hərtərəfli iş aparılmalıdır. MDB məkanında bir çox məsələlər hələ də həllini tapmayıb. Baş nazir demişdir ki, MDB məkanında münaqişələrin həlli məsələlərinə diqqəti artırmağın vaxtı çatıb.

Ermənistan prezidenti Serj Sarkisyan yenə də təhrikçi çıxış edərək Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi hüququndan danışmışdır.

Çıxışlar başa çatdıqdan sonra Baş nazir Artur Rasi-zadə yenidən söz alaraq Ermənistan prezidentinə tutarlı cavab vermişdir.

Baş nazir demişdir: "Ermənistan prezidentinin çıxışı məni məcbur etdi ki, bu haqda danışım. Düşünürəm ki, bu Sammitdə iştirak edənlərin əksəriyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə az-çox tanışdırlar. Ermənistan prezidenti Dağlıq Qarabağ münaqişəsi haqqında belə yalanlar danışırsa, onda ATƏT-in Minsk qrupu və digər təşəbbüslər nəyə lazımdır. Məsələ burasındadır ki, MDB-nin üzvü olan bir dövlət digərinə qarşı təcavüz edib, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bunun nəticəsində bir milyon qaçqın və məcburi köçkün öz ev-eşiklərindən qovulmuşdur. Bir daha xatırladım ki, BMT Təhlükəsizlik Şurası işğalçı Ermənistanın silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Ancaq bu sənədlər hələ də yerinə yetirilmir. Bu gün Ermənistan münaqişənin həlli ilə əlaqədar qeyri-konstruktiv mövqeyini bir daha ortaya qoydu".

Artur Rasi-zadə bildirmişdir ki, Azərbaycan münaqişənin sülh yolu ilə həlli istiqamətində bundan sonra da ATƏT-in Minsk qrupu ilə birgə işləyəcək və bu problemin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə tərəfdardır.

Dövlət başçılarının Şura iclasında MDB ölkələrinin gələcək inkişaf Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planının yerinə yetirilməsi mexanizmi, Rusiya Hökuməti ilə MDB ölkələri arasında Rusiya ərazisində Sərhəd Qoşunları Komandanları Şurası Əlaqələndirmə Xidmətinin fəaliyyətinin şərtləri haqqında saziş, MDB Daxili İşlər

Nazirləri Şurası haqqında Əsasnaməyə dəyişikliklər və əlavələr edilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Sammitdə 1941-1945-ci illər Böyük Vətən Müharibəsində şücaət göstərmiş MDB ölkələri xalqları nümayəndələrinin xatirəsinin əbədiləşdirilməsi haqqında Saziş, 2012-2014-cü illərdə qeyri-qanuni miqrasiyanın qarşısının alınması üzrə əməkdaşlıq Proqramı, MDB dövlətlərində təyyarələrin ələ keçirilməsi (qaçırılması) xəbəri alındıqda hava müdafiəsi üzrə növbətçilərin fəaliyyəti haqqında sənədlər imzalanmışdır.

Sammit iştirakçıları təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlığın inkişaf perspektivləri, humanitar sahədə əlaqələrin genişləndirilməsi haqqında da razılığa gəlmişlər.

Ümumiyyətlə, tədbirdə 10-dan artıq sənəd imzalanmışdır.

Sammiti Tacikistan Prezidenti Emomәli Rəhmon bağlı elan etmiş, gələn il yanvarın 1-dən MDB-də sədrliyin Türkmənistana keçdiyini bildirmişdir.

Azərbaycanda rəsmi səfərdə olan Monteneqro Prezidenti Filip Vuyanoviç sentyabrın 16-da Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür.

Ali qonağı ölkəmizdə görməkdən məmnun olduğunu deyən Baş nazir dövlətlərimiz arasında əlaqələrin bu səfərdən sonra daha da genişlənəcəyinə, eləcə də Azərbaycan-Monteneqro münasibətlərinin yeni mərhələyə yüksəlməsinə təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Baş nazir Artur Rasi-zadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də Monteneqro Prezidentinə ətraflı məlumat verdi.

Monteneqro Prezidenti Filip Vuyanoviç regionun nüfuzlu dövləti olan Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduqlarını vurğuladı və Bakıya səfərinin qarşılıqlı münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini söylədi. Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşünün səmərəli keçdiyini, bir sıra mühüm sənədlərin imzalandığını deyən ali qonaq iki dövlət arasında münasibətlərin inkişafı üçün böyük potensialın olduğunu vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə qeyd etmişdir ki, Rusiyanın böyük nümayəndə heyətinin səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərin dərinləşməsi üçün yaxşı stimul olacaqdır. Azərbaycan Şimali Qafqazla əməkdaşlığın genişlənməsinə maraq göstərir, bu diyarla ölkəmizi dərin tarixi tellər birləşdirir.

Artur Rasi-zadə Ermənstan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək bildirmişdir ki, Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması nəticəsində 1 milyon nəfərdən çox adam qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ölkənin Baş naziri, həmçinin Azərbaycanın sürətli iqtisadi inkişafı barə-

də məlumat vermişdir.

Rusiya nümayəndə heyətinin başçısı Aleksandr Xloponin Şimali Qafqazda layihələrin həyata keçirilməsində Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın perspektivlərini qeyd etmişdir. O bildirmişdir ki, bu regionda turizmin və biznesin digər sahələrinin inkişafı üçün böyük imkanlar vardır. A.Xloponin qeyd etmişdir ki, investorlara əlverişli şərait yaratmaq üçün yaxın gələcəkdə sərmayələrin qorunması haqqında saziş imzalanacaqdır.

Azərbaycanda rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişer oktyabrın 12-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür.

Avstriya Prezidenti Haynts Fişer ölkəmizə səfərindən məmnun qaldığını bildirmişdir. Prezident İlham Əliyevlə apardığı danışıqları yüksək qiymətləndirən Avstriyanın dövlət başçısı bu müzakirələrin bütün sahələrdə ikitərəfli əlaqələrin inkişafına zəmin yaradacağına əmin olduğunu demişdir. Səfər zamanı imzalanan sənədlərə toxunan ali qonaq bunun hər iki ölkə arasında xüsusilə enerji məsələləri və turizm sahəsində əməkdaşlığa təkan verəcəyini vurğulamışdır.

Prezident Haynts Fişer Avstriya-Azərbaycan iqtisadi əməkdaşlığının perspektivlərindən söhbət açaraq iki ölkənin işgüzar dairələri arasında mövcud əlaqələrin inkişaf etdirilməsi üçün münbit əlverişli şəraitin olduğunu diqqətə çatdırmışdır.

Baş nazir Artur Rasi-zadə qonağa ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar barədə ətraflı məlumat vermişdir. Əmin olduğunu bildirmişdir ki, Avstriya dövləti başçısının Azərbaycana rəsmi səfəri iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə təkan verəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.

Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri İsmet Yılmaz oktyabrın 13-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür.

Baş nazir demişdir ki, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələri bütün sahələrdə, o cümlədən hərbi sahədə daim inkişaf edir. Türkiyə Azərbaycanda ordu quruculuğuna daim dəstək göstərmişdir. İnanırıq ki, sizin bu səfəriniz, aparılan danışıqlar və qəbul olunmuş qərarlar münasibətlərimizin daha yüksək səviyyəyə çatmasına təkan verəcəkdir.

Baş nazir Artur Rasi-zadə demişdir ki, dünyada gedən proseslər bizim daha güclü olmağımızı tələb edir və biz buna nail olmalıyıq.

İsmet Yılmaz göstərilən qonaqpərvərliyə və xoş sözlərə görə Azərbaycan hökumətinin başçısına minnətdarlığını bildirmiş, Türkiyənin Baş nazirinin salamlarını Artur Rasi-zadəyə çatdırmışdır.

Azərbaycana əvvəlki səfərlərini xatırladan qonaq Bakıda müşahidə etdiyi inkişafı yüksək qiymətləndirmişdir.

Türkiyənin milli müdafiə naziri Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə Baş naziri və xalqımızı təbrik etmişdir.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün sahələrdə inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Oktyabrın 19-da Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Ekvador Respublikasının xarici işlər, ticarət və inteqrasiya naziri Rikardo Armando Patinyo Arokanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Baş nazir Artur Rasi-zadə Ekvadorun xarici işlər, ticarət və inteqrasiya nazirinin Bakıya ilk səfərinin Azərbaycanı tanımaq, əməkdaşlıq imkanlarını araşdırmaq baxımından önəmli olduğunu bildirmişdir. Bu səfərin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini söyləyən Artur Rasi-zadə Azərbaycanın son illərdəki uğurları, həyata keçirilən islahatlar, dövlətimizin xarici siyasətinin əsas istiqamətləri barədə ətraflı məlumat vermişdir. Qeyd etmişdir ki, Avropa ilə Asiya arasında körpü olan Azərbaycan inkişaf sürətinə görə dünya ölkələri arasında birincilər sırasına çıxmışdır. Respublikada enerji daşıyıcılarının nəqli ilə bağlı iri layihələr həyata keçirilmiş, ölkə daxilində infrastruktur inkişaf etdirilmişdir.

Baş nazir Artur Rasi-zadə qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat vermişdir.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Rikardo Armando Patinyo Arokan Bakıda aparılan tikinti-quruculuq işlərini yüksək qiymətləndirərək, bunu Azərbaycanın inkişafının bariz nümunəsi kimi dəyərləndirmişdir. Bakıya səfərinin məqsədinin Azərbaycan ilə Ekvador arasında münasibətlərin inkişaf perspektivlərini müzakirə etmək, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirmək olduğunu vurğulayan qonaq bildirmişdir ki, ölkəsi bütün sahələrdə əlaqələrin inkişafında maraqlıdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə oktyabrın 26-da Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə qeyd etmişdir ki, strateji tərəfdaşlıq səviyyəsində olan Azərbaycan-Gürcüstan münasibətləri bütün istiqamətlər üzrə fəal inkişaf edir. Baş nazir iki ölkə arasında xüsusilə iqtisadi sahədə əlaqələri yüksək qiymətləndirmiş və demişdir ki, münasibətlərimizin bu səviyyəyə çatmasında dövlətlərimizin başçılarının mühüm rolu olmuşdur. Azərbaycan hökumətinin başçısı ikitərəfli əlaqələrin inkişafının regionun ümumi vəziyyətinə də müsbət təsir göstərdiyini vurğulamışdır.

Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadze Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətlə ölkənin Baş nazirini təbrik etmiş və bunu respublikanın diplomatik həyatında vacib hadisə adlandırmışdır. "Bu üzvlük Azərbaycanın nüfuzunun bariz göstəricisidir", - deyən xarici işlər naziri belə uğurların davamını arzulamışdır. Qriqol Vaşadze Azərbaycan-Gürcüstan əlaqələrinin, birgə həyata keçirilən iri regional layihələrin böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırmışdır.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə noyabrın 11-də ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmitt ilə görüşmüşdür.

Macarıstan Prezidenti Azərbaycana rəsmi səfərindən məmnunluğunu ifadə etmişdir. Prezident Pal Şmitt birgə əməkdaşlığın inkişafının böyük maraq kəsb etdiyini, bunun üçün hər iki ölkənin geniş imkanlara malik olduğunu diqqətə çatdırmışdır. Ali qonaq qeyd etmişdir ki, Macarıstan Azərbaycanı özünə strateji tərəfdaş hesab edir.

Baş nazir Artur Rasi-zadə söyləmişdir ki, iki ölkə arasındakı əlaqələrin, xüsusilə iqtisadi sahədə əməkdaşlığın inkişafı Prezident Pal Şmittin Azərbaycana səfərindən sonra yeni mərhələyə qədəm qoyacaqdır.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə noyabrın 15-də ölkəmizdə səfərdə olan Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko ilə görüşmüşdür.

Baş nazir qeyd etmişdir ki, strateji tərəfdaşlıq səviyyəsində olan Azərbaycan-Belarus münasibətləri bütün istiqamətlər üzrə fəal inkişaf edir. Baş nazir Artur Rasi-zadə iki ölkənin münasibətlərinin inkişafında, xüsusən parlamentlərarası əlaqələrin möhkəmlənməsində qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verən Baş nazir Artur Rasi-zadə söyləmişdir ki, bu problem yalnız beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Belarus parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko ölkələrimiz arasındakı səmimi münasibətlərin yüksələn xətlə inkişafından məmnunluğunu ifadə etmişdir. Qonaq Bakıda şahid olduğu genişmiqyaslı quruculuq işlərinin onda məmnunluq doğurduğunu diqqətə çatdıraraq demişdir ki, bütün bunlar Azərbaycanın iqtisadi yüksəlişinin bariz göstəricisidir.

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə noyabrın 16-da Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə xanım Ketrin Eştonun ölkəmizə səfərinin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənəcəyinə təkan verəcəyini demişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Artur Rasi-zadə söyləmişdir ki, bu problem yalnız beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Xanım Ketrin Eşton Azərbaycana səfərindən məmnunluğunu bildirmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Noyabrın 21-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Avropa Komissiyasının vitse-prezidenti, nəqliyyat üzrə komissar Siim Kallasın başçılığı ilə nümayəndə heyətini qəbul etmişdir.

Səmimi qəbula görə nümayəndə heyəti adından Baş nazir Artur Rasi-zadəyə təşəkkürünü bildirən Siim Kallas dövlət müstəqiliyinin bərpasının 20-ci ildönümü ərəfəsində ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və "Evrovision" mahnı müsabiqəsində parlaq qələbə münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı müstəqil Azərbaycanın dünya birliyinə inteqrasiyası, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlığın uğurla inkişaf etməsi məmnunluqla vurğulandı. Qeyd olundu ki, Avropanın enerji təhlükəsizliyi məsələlərinin həllində olduğu kimi, digər sahələr, xüsusən qeyri-neft sektorunun inkişafı üçün də geniş imkanlar mövcuddur. Daha sonra Azərbaycan ilə Avropa İttifaqı arasında TRASEKA proqramı çərçivəsində əməkdaşlığın uğurla davam etdiyi nəzərə alınmaqla, ölkəmizin digər iri layihələrə qoşulmaq imkanları barədə fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Avropa Komissiyasının nəqliyyat məsələləri üzrə vitse-prezidenti Siim Kallasın Bakıya səfəri aviasiya sahəsində "Birgə hava məkanı" layihəsinə dair danışıqların başlanması üçün mühüm mərhələ olacaqdır.

Qəbulda regionun iqtisadi-siyasi durumu, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Noyabrın 23-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin vitse-prezidenti Kiyoşi Koderanı qəbul etmişdir.

Azərbaycana ilk dəfə səfərə gəldiyini qeyd edən qonaq regionda belə yüksək inkişaf etmiş bir ölkə ilə tanışlıqdan məmnun qaldığını vurğuladı. Daha sonra səmimi söhbət zamanı Yaponiya hökuməti ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu. Bildirildi ki, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Azərbaycana ayırdığı kreditlər və qrantlar hesabına həyata keçirilən layihələrin səmərəliliyi əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi üçün yaxşı zəmin yaradır. İqtisadiyyatın bir çox sahələri üzrə, xüsusən elektroenergetika, alternativ və bərpa olunan enerji mənbələri, kənd təsərrüfatı və digər istiqamətlərdə qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsi hər iki ölkənin mənafeyi baxımından məqsədəuyğun sayıldı.

Qəbulda tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Noyabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qırğızıstan Respublikasının yeni seçilmiş Prezidenti Almazbəy Atambayevin andiçmə mərasimində iştirak etmək üçün Qırğızıstanın paytaxtı Bişkek şəhərinə yola düşmüşdür.

Noyabrın 30-da Qırğızıstan Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Bişkekə gələn Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə bu ölkənin yeni seçilmiş dövlət başçısı Almazbek Atambayev ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə Almazbek Atambayevi bu yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etmiş, ölkələrimizin əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyini

vurğulamışdır.

Almazbek Atambayev Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevi xatırlamış, onun türk dünyasının böyük oğlu olduğunu söyləmişdir.

Görüşdə Qırğızıstan ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur.

Almazbek Atambayev Azərbaycandan neft məhsullarının alınması məsələsinə toxunmuşdur. Qərara alınmışdır ki, Qırğızıstana neft məhsullarının ayrılması ilə bağlı kvota məsələsinə baxılsın. Danışıqlar zamanı ticari-iqtisadi, investisiya, mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri də diqqət mərkəzində olmuşdur.

Qırğızıstanın yeni Prezidenti Azərbaycanın iqtisadiyyatının uğurla inkişafından məmnun olduğunu bildirmişdir.

Baş nazir Artur Rasi-zadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bunun nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkünün yaranması, onların problemlərinin həlli və digər məsələlər haqqında məlumat vermişdir.

Görüşdə Azərbaycanın Qırğızıstandakı səfiri Arif Ağayev iştirak etmişdir.

Dekabrın 1-də Toktoqul Satılqanov adına Qırğızıstan Milli Filarmoniyasında bu ölkənin yeni seçilmiş Prezdenti Almazbek Atambayevin andiçmə mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə iştirak etmişdir.

Türkiyə və Gürcüstan prezidentləri Abdullah Gül və Mixeil Saakaşvilinin, Qazaxıstanın və Tacikistanın Baş nazirləri Kərim Məsimov və Akil Akilovun, Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinin, Belarusun, Türkmənistanın və bir sıra digər dövlətlərin yüksək vəzifəli nümayəndələrinin, beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri tədbirdə Qırğızıstan Prezidenti Roza Otunbayeva yeni seçilmiş dövlət başçısı Almazbek Atambayevi təbrik etmiş, ona fəaliyyətində uğurlar arzulamışdır.

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Tuyqunalı Abraimov Almazbek Atambayevin Qırğızıstan Prezidenti seçilməsi haqqında MSK-nın qərarını oxumuş, dövlət başçısını təbrik etmişdir. MSK-nın sədri demişdir ki, Almazbek Atambayev oktyabrın 30-da keçirilən prezident seçkilərində seçicilərin 62,52 faizinin səsini qazanmışdır.

Sonra o Prezident vəsiqəsi, döş nişanı və standartı dövlət başçısına təqdim etmişdir.

Yeni dövlət başçısı Almazbek Atambayev çıxış edərək, ona etimad göstərdiklərinə görə Qırğızıstanda yaşayan xalqlara minnətdarlığını bildirmişdir. Prezident demişdir ki, bu gündən Qırğızıstanın yeni tarixi başlayır, xalqımız sabitlik və birliyi seçmişdir.

Almazbek Atambayev demişdir: "Allah və xalq qarşısında and içirəm ki, dövlət başçısı kimi mənim üzərimə düşən vəzifələri ədalətlə yerinə yetirəcəyəm. Mən hər bir insanın və vətəndaşın hüquqlarını müdafiə edəcək, demokratik prinsipləri, xalqın birliyi və təhlükəsizliyini qoruyacağam".

Sonra Prezident Ağ Evin qarşısına gəlmiş, Ali Baş Komandan kimi Milli Qvardiyanın hərbi paradını qəbul etmişdir.

Bununla da Qırğızıstan Prezidentinin andiçmə mərasimi başa çatmış, dövlət başçısı rəsmi olaraq vəzifəsinin icrasına başlamışdır.

Almazbek Atambayev 1980-ci ildə Moskva İdarəetmə İnstitutunu bitirmiş, Qırğızıstanda müxtəlif vəzifələrdə işləmiş, iki dəfə Baş nazir olmuşdur.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə Gürcüstana yola düşmüşdür

Dekabrın 20-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Gürcüstan-Azərbaycan hökumətlərarası iqtisadi komissiyanın növbəti iclasında iştirak etmək üçün Tbilisi şəhərinə yola düşmüşdür.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadənin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 20-də Gürcüstanın paytaxtı Tbilisiyə gəlmişdir.

Nümayəndə heyəti Gürcüstan-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyanın iclasında iştirak edəcəkdir.

Nümayəndə heyətini Tbilisi Beynəlxalq Aeroportunda Gürcüstanın bölgələrin inkişafı və infrastruktur naziri Ramaz Nikolaişvili, xarici işlər nazirinin müavini David Calaqoniya, Azərbaycanın Tbilisidəki səfiri Azər Hüseyn, Gürcüstanın ölkəmizdəki səfiri Teymuraz Şaraşenidze, Kvemo Kartli-Borçalı bölgəsinin qubernatoru David Kirkitadze və digər rəsmi şəxslər qarşılamışlar.

Tbilisidə Gürcüstan-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyanın növbəti iclası keçirilmişdir

Dekabrın 20-də Tbilisidə Gürcüstan- Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyanın 7-ci iclası keçirilmişdir.

İclasda Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadənin rəhbərliyi ilə geniş tərkibdə nümayəndə heyəti iştirak etmişdir.

Komissiyanın iclasından əvvəl Azərbaycanın Baş naziri adından Gürcüstanın ərazi bütövlüyü uğrunda şəhid olanların abidəsi önünə əklil qoyulmuşdur. Sonra nümayəndə heyəti Tbilisidə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə ilə Gürcüstanın Baş naziri Nika Qilaurinin təkbətək görüşü olmuşdur.

Sonra Gürcüstan-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyanın plenar iclası öz işinə başlamışdır. İclası Gürcüstanın Baş naziri Nika Qilauri açaraq demişdir: "Gürcüstan ilə Azərbaycan arasında əlaqələr strateji baxımdan olduqca önəmlidir. Gürcüstan Azərbaycanın ən böyük sərmayə yatırdığı ölkələrdəndir. Qardaş ölkənin şirkətləri Gürcüstanda ən böyük vergi ödəyicilərdir. Biz artıq regional səviyyəni aşmış tarixi layihələrə imza atmışıq və həmin layihələri gerçəkləşdirməkdəyik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum həqiqətən tarixi layihələrdir və tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti də bu qəbildən olan layihələrdən biridir. Biz Asiya və Avropa, həmçinin Türkiyə ilə Orta Asiya arasında birgə körpü rolunu oynayırıq və bu körpünün möhkəm olmasına çalışırıq. Belə görüşlər birliyimizi, gücümüzü daha da artırır."

N.Qilauri Gürcüstana belə geniştərkibli nümayəndə heyətinin gəlişinə görə azərbay-

canlı həmkarına təşəkkür etmişdir.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə demişdir: "Azərbaycan-Gürcüstan əməkdaşlığı həqiqətən başqaları üçün nümunədir. Biz Gürcüstan ilə əməkdaşlığı çox yüksək qiymətləndirir və əlaqələrimizin inkişafına böyük əhəmiyyət veririk. Xüsusi vurğulamaq istəyirəm ki, son illər əlaqələrimiz çox yüksək sürətlə inkişaf edir. Görülən işlər barədə söhbət aparılır. Bütün istiqamətlərdə - siyasətdə, iqtisadiyyatda, humanitar sahədə əməkdaşlıq sahəsində böyük nailiyyətlər qazanılmışdır. Onu da qeyd edim ki, Gürcüstan Azərbaycan üçün strateji tərəfdaş, dost və qardaş ölkədir.

Komissiyanın sənədləri çox işlərin görüldüyünü təsdiq edir. Lakin deməliyəm ki, həyat davam edir və biz də o inkişafı, dünyada gedən prosesləri nəzərə almaqla ikitərəfli əlaqələrimizi daha da dərinləşdirib genişləndirməliyik. Gürcüstanın son illər qazandığı uğurlar bizi sevindirir. Şübhəsiz, siz də bizim iqtisadi durumumuzla tanışsınız. Ölkələrimiz bu il müstəqilliklərinin 20 illiyini qeyd etmişlər. Bu, tarixi baxımdan uzun müddət olmasa da, ötən dövr ərzində çox böyük işlər görülmüşdür. Xalqların, ölkələrin taleyində müstəqillik ən ümdə məsələlərdəndir. Hər iki ölkə bu arzusuna çatdıqdan sonra böyük inkişaf yoluna qədəm qoymuş və uğurlarımız getdikcə artır. Müstəqilliyimizi qorumaq üçün bizim birliyimiz çox vacibdir. Bu baxımdan daha sıx əlaqədə işləməliyik".

Artur Rasi-zadə qarşıdan gələn Yeni il münasibətilə Gürcüstan xalqını təbrik etmişdir.

Sonda Gürcüstan-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyanın 7-ci iclasının protokolu imzalanmışdır.

Komissiyanın iclasında Azərbaycanın Tbilisidəki səfiri Azər Hüseyn və Gürcüstanın ölkəmizdəki səfiri Teymuraz Şaraşenidze iştirak etmişlər.

İclas başa çatdıqdan sonra jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir. Baş nazirlər sualları cavablandırmışlar. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşasında işlərin vəziyyəti ilə bağlı sualı cavablandıran hökumət başçıları tikintinin sabit davam etdirildiyini və dəmir yolunun 2012-ci ilin sonu, yaxud 2013-cü ilin əvvəlində istifadəyə veriləcəyini qeyd etmişlər.

Gürcüstan Prezidenti Mixeil Saakaşvili Azərbaycanın Baş naziri Artur Rasi-zadəni qəbul etmişdir.

Bununla da səfər başa çatmış, rəsmi nümayəndə heyəti Bakıya yola düşmüşdür.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə Monteneqronun sabiq Prezidenti və Baş naziri, Monteneqro Sosialistlərinin Demokratik Partiyasının sədri Milo Çukanoviç ilə görüşmüşdür

Azərbaycanın Baş naziri Artur Rasi-zadə dekabrın 22-də ölkəmizdə səfərdə olan Monteneqro Respublikasının sabiq Prezidenti və Baş naziri, Monteneqro Sosialistlərinin Demokratik Partiyasının sədri Milo Çukanoviç ilə görüşmüşdür.

Artur Rasi-zadə ölkələrimiz arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin önəmini qeyd etmiş, Azərbaycanın iqtisadi inkişafı barədə məlumat vermişdir. Baş nazir son illər qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildiyini, bu sahə üzrə 9 faiz artımın əldə olunduğunu vurğulamışdır.

Azərbaycanın Baş naziri ölkəmizin əsas problemi Ermənistan-Azərbaycan, Dağlıq Qa-

rabağ münaqişəsi haqqında da danışmış, respublikamızın məsələnin beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə həllinin tərəfdarı olduğunu vurğulamışdır. Baş nazir qeyd etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir.

Monteneqro Respublikasının sabiq Prezidenti və Baş naziri, Monteneqro Sosialistlərinin Demokratik Partiyasının sədri Milo Çukanoviç sonuncu dəfə Azərbaycana etdiyi səfəri xatırlamışdır. Azərbaycanı Monteneqronun dostu adlandıran sabiq prezident ölkədə gedən sürətli inkişaf proseslərini diqqətlə izlədiyini demişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın Baş naziri Artur Rasi-zadə dekabrın 23-də İraqın xarici işlər naziri Hoşyar Zebarinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə Azərbaycanın İraqı dost ölkə hesab etdiyini, hələ sovetlər birliyi dövründə İraq konsulluğunun məhz Bakıda yerləşdiyini diqqətə çatdırdı. Rəsmi Bakının İraqdakı siyasi gündəmi daim izlədiyini deyən Baş nazir ölkənin yeni inkişaf yolunda Azərbaycanın hər cür köməyə hazır olduğunu da vurğuladı. Artur Rasi-zadə Hoşyar Zebarinin səfərinin ölkələrimizin inkişafına yeni təkan verəcəyinə əminliyini ifadə etdi.

Nazir Hoşyar Zebari İraq Prezidenti Cəlal Tələbaninin, Baş nazir Nuri əl-Malikinin salamlarını Azərbaycanın Baş nazirinə çatdırdı, səfərin əhəmiyyətini qeyd etdi. O, Azərbaycan ilə İraqın tarixi köklərə əsaslanan əlaqələrinin daha da genişləndirilməsinin zəruriliyini vurğuladı.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə dekabrın 29-da ölkəmizdə səfərdə olan Seynt-Vinsent və Qrenadin adalarının Baş naziri Ralf Qonzalves ilə görüşmüşdür.

Baş nazir Artur Rasi-zadə R. Qonzalvesin səfərinin ölkələrimizin əlaqələrinin inkişafına yeni təkan verəcəyinə əminliyini ifadə etdi. Artur Rasi-zadə bildirdi ki, Azərbaycan böyüklüyündən kiçikliyindən asılı olmayaraq bütün ölkələrlə uğurlu əməkdaşlıq qurmağın tərəfdarıdır. O, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv seçilməsində Azərbaycana verdiyi dəstəyə görə Seynt-Vinsent və Qrenadin adalarının Baş nazirinə təşəkkürünü bildirdi. Qeyd edildi ki, mövcud iqtisadi əlaqələri genişləndirmək üçün Azərbaycanın nümayəndə heyətinin gələn ilin fevralında Qrenadinə səfəri planlaşdırılmışdır.

Azərbaycanın Baş naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qonağa məlumat verdi. O bildirdi ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ərazilərimizin 20 faizi işğal olunub, 1 milyondan çox azərbaycanlı doğma el-obasından didərgin düşüb. Azərbaycan tərəfi münaqişənin ölkənin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinin tərəfdarıdır.

Baş nazir Ralf Qonsalveş ölkəsinin Azərbaycan ilə iqtisadi sahədə əlaqələrin inkişafında maraqlı, investisiyalara açıq olduğunu diqqətə çatdırdı.

Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyən Seynt-Vinsent və Qrenadin adalarının Baş naziri bu məsələ barədə öz ölkəsində, həmçinin BMT çərçivəsində məlumat verəcəyini qeyd etdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN KEÇİRDİYİ GÖRÜŞLƏR

ÇIXIŞLAR

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun İndoneziya səfəri çərçivəsində 25 may 2011-ci il tarixində "Qoşulmama Hərəkatının 16-cı Nazirlər Konfransı və Yubiley görüşü"nün açılış mərasimində etdiyi çıxışı

Hörmətli cənab Sədr,

Xanımlar və cənablar,

İcazə verin, əvvəlcə bizim bu gözəl Bali şəhərinə gəldiyimizdən bəri mənə və nümayəndə heyətimizə göstərilən isti münasibət və gözəl qonaqpərvərliyə görə İndoneziya Respublikasına öz təşəkkürümü bildirim. İndoneziya Azərbaycan Respublikasının artıq tərəfdar olmaq istəyini təsdiqlədiyi və hörmət etdiyi tarixi Bandunq Prinsiplərinin yarandığı yerdir.

Mən həmçinin nümunəvi rəhbərliyə və mənim ölkəmin bu vacib siyasi foruma daxil olmaq prosesinə verdiyi töhfəyə görə Qoşulmama Hərəkatının sədri qismində Misir Hökumətinə dərin hörmətimi izhar edirəm.

Həmçinin təbii olaraq, mən Azərbaycanın üzvlüyünə verildiyi qiymətli dəstəyə görə Hərəkatın bütün üzvlərinə öz dərin minnətdarlığımı bildirirəm.

Qoşulmama Hərəkatına üzvlük Azərbaycan Respublikasına qoşulmamış ölkələr ilə müxtəlif sahələrdə səmərəli əməkdaşlığa və daha ədalətli, bərabər və beynəlxalq hüquqa əsaslanan beynəlxalq duruma nail olmaq məqsədilə Hərəkatın beynəlxalq əlaqələrdə konstruktiv rol oynamasına töhfə verməyə imkan yaradacaq.

Azərbaycan çox şaxəli və balanslaşdırılmış xarici siyasət yürüdərək, özünü etibarlı tərəfdaş və həmçinin Xəzər-Qafqaz regionunda əməkdaşlıq üçün güclü, stabil və geniş anlayışda həlledici bir ölkə kimi təsbit etmişdir.

1992-ci ilin 2 mart tarixində BMT-yə üzv olduqdan bəri Azərbaycan sülh içində olan, firavan və ədalətli dünyanın qurulmasının əsasını təşkil edən BMT-nin Əsasnaməsi və beynəlxalq hüququn məqsəd və prinsiplərinə sadiqliyini davamlı şəkildə nümayiş etdirmişdir.

Azərbaycan hər zaman müxtəlif din, etnik qrup və fəlsəfələrin birgə yaşayış və tolerantlıq məkanı olmuşdur. Mədəniyyətlər arasında körpü və Sivilizasiyalar Alyansının Dostluq qrupunun fəal üzvü kimi Azərbaycan qarşılıqlı hörmət və anlayışa əsaslanan dinlər və mədəniyyətlər arası dialoqu təşviq etmək məsuliyyətini hiss edir.

Bu il Qoşulmama Hərəkatının 50-ci ildönümüdür və təşkilat necə ki təsis edildiyi gündə bu gündə aktualdır. Soyuq Müharibənin bitməsi heç də qoşulmamış ölkələrinin siyasi əlaqələndirici mexanizmi kimi fəaliyyət göstərən Qoşulmama Hərəkatının rolunu zəiflətməmişdir. 2003-cü il fevral ayında Malayziya, Kuala-Lumpurda keçirilən 13-cü Zirvə Görüşündə və sonralar bir sıra tədbirlər zamanı razılaşdırıldığı kimi Qoşulmama Hərəkatının yenidən canlandırılmasında daha da qətiyyətli olmalıyıq.

Sürətlə dəyişən beynəlxalq mühitlə effektiv şəkildə üzləşmək iqtidarında ola biləcək daha yaxşı əlaqələndirilən və effektiv bir Hərəkatı reallaşdırmaq üçün biz yeni yolları və vasitələri araşdırmalıyıq. Bu həm mövcud mexanizmlərin, o cümlədən Əlaqələndirici Büro, İşçi və ya digər Qrupların gücləndirilməsi və həm də Beynəlxalq Təşkilatların Ali orqanlarına bir-birimizin namizədliklərimizin dəstəklənməsi və bu orqanlarda fəaliyyətlərimizin və qərarlarımızın əlaqələndirilməsi kimi yeni yolların araşdırılması ola bilər.

Azərbaycan Hərəkatın son 50 il ərzində öz üzvləri üçün həyati xarakter daşıyan məsələlərin həllində mühüm və dinamik rolunu yüksək qiymətləndirir və mən tam əminəm ki, üzvlərinin baxışlarını birləşdirən forumdan ədalət, sülh və firavanlıq forumunadək yüksəlmiş Qoşulmama Hərəkatı gələn 50 ildə də bu gün kimi güclü olacaq və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərəcəkdir.

Azərbaycan yoxsulluğun aradan qaldırılması və iqtisadi artımın balanslaşdırılmış inteqrasiyası, sosial inkişafın və ətraf mühitin mühafizəsi davamlı inkişafın üç ən mühüm hissəsini təşkil etdir. Mənim ölkəm BMT çərçivəsində razılaşdırılmış məqsəd və vəzifələrin inkişafının həyata keçirilməsinə töhfə verməkdə qərarlıdır. Azərbaycan hamı üçün önəmli olan yoxsulluğun aradan qaldırılmasına və davamlı iqtisadi artımın təşviq edilməsinə, davamlı inkişaf və qlobal çiçəklənməyə tam dəstəyini nümayiş etdirir və mütəmadi səylər göstərir; belə ki, inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrin, həmçinin təbii fəlakətlərdən zərər çəkmiş ölkələrin bərpası üçün onların xüsusi ehtiyaclarının qarşılanmasına və həssas məqamlara xüsusi əhəmiyyət veririk. Son 5 ildə Azərbaycan müxtəlif regionların bir neçə ölkəsinə geniş humanitar yardım göstərmiş və onların milli inkişaf strategiyalarının həyata keçirilməsinə öz töhfəsini vermişdir.

Hörmətli Sədr, icazə verin bu sözlərlə nitqimi tamamlayım və sonda bir daha Qoşulmama Hərəkatının üzvlərinə Azərbaycanın tam üzvlüyünə dəyərli dəstəyə görə öz dərin minnətdarlığımı bir daha bildirim.

Sağ olun.

25 May 2011-ci il, Bali, İndoneziya

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun cari ilin 27-28 iyun tarixlərində Qazaxıstan Respublikasının paytaxtı Astanada keçirilən İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyasında etdiyi çıxışı

Hörmətli cənab Sədr,

Hörmətli cənab Baş Katib,

Zati-aliləri, xanımlar və cənablar,

Mən şəxsən Prezident Nursultan Nazarbayevə, Qazaxıstan Respublikasının hökumətinə və dost xalqına səmimi qonaqpərvərliyinə və Xarici İşlər Nazirlərinin 38-ci sessiyasının gözəl təşkilinə görə öz təşəkkürümü bildirirəm. Xarici İşlər Nazirlərinin sədrliyini öz üzərinizə götürməyinizdə sizi təbrik etmək mənim üçün böyük şərəfdir və əminəm ki, sizin sədrliyiniz müddətində biz qarşıda duran məqsədlərə nail olacağıq.

Eyni zamanda mən hal-hazırki İKT-nin Tacikistan sədrinə Təşkilatı bacarıqlı idarə etdiyinə və sədrliyi müddətində gözəl işlər gördüyünə görə öz minnətdarlığımı bildirirəm. Mənim ehtiram sözlərim həmçinin İKT-nin Baş Katibi Prof. Ekmeleddin İhsanoğluna və bizim Təşkilatın gündəlik fəaliyyətində göstərdiyi professionalizmə görə onun yüksək sədaqətli komandasına da aiddir.

Zati-aliləri,

Xanımlar və Cənablar,

Bu il bütün dünyada çox hissəsi İslam dünyasına təsir edən əhəmiyyətli siyasi proseslərlə və dramatik hadisələrlə səciyyəvi idi. Çoxsaylı çağırışlar və təhdidlərlə üzləşən bir sıra İKT üzv ölkələrinin hazırki vəziyyəti bizdə dərin narahatçılıq doğurur. Xüsusən də biz bəzi qardaş Ərəb ölkələrində baş verən siyasi hadisələrdən narahatıq, lakin biz inanırıq ki, Ərəb xalqının bütün bu çağırışları dəf etmək üçün kifayət qədər siyasi iradəsi və müdrikliyi vardır. Biz həmçinin İKT formatı daxilində, o cümlədən ən yüksək səviyyədə, bu proseslərin müzakirələrinin vacibliyinə inanırıq. Biz bu təhdidlərə cavab verməkdən çəkinməməliyik və daha çox görüşlər keçirməliyik.

Biz Fələstində olan vəziyyətdən narahatıq. Azərbaycan bir daha qardaş Fələstin xalqına onların sülh, stabillik və paytaxtı Qüds şəhəri olmaqla müstəqil Fələstin dövləti yaratmaq səylərini dəstəklədiyini bildiririk. Biz Fələstin xalqının ehtiyaclarının təmin edilməsində bizim təşkilatı birləşdirdiyi üçün İKT-nin baş katibinin və onun heyətinin işini yüksək qiymətləndiririk.

Mən Kəşmir mübahisəsinin həlli üçün edilən cəhdləri dəstəklədiyimi və Kiprli türklərin hələ də davam edən ədalətsiz təcridindən narahat olduğumu bildirmək istərdim.

Azərbaycan həm də İraq, Əfqanıstan, Sudan, Somali dövlətlərinin və digər İKT-yə üzv ölkələrin bu ölkələrdə sülh, təhlükəsizlik, və stabilliyin bərpasına dair etdiyi cəhdləri dəstəkləyir.

Milyonlarla Müsəlmanlara ağır emosional və psixoloji zərbə vurmuş İslamafobiya təəssüf ki, dünyanın bir sıra ölkələrində qalxmaqdadır. Yaxın illərdə bəzi ölkələrdə dözülməzliyə, ayrı seçkiliyə və İslama qarşı hücumlarla bağlı ciddi faktlar sübut edir ki, dini böhtanın və dinə nifrətin qızışdırılmasına qarşı mübarizə aparmaq lazımdır. Söz azadlığı bəhanəsiylə dinə qarşı atılan böhtan ayrı seçkiliyin və dözülməzliyin yeni və müasir formasıdır. Sivil cəmiyyətlər olaraq, biz öz azadlığımızı ehtiyatla və beynəlxalq normalarla qəbul olunmuş parametrlər çərçivəsində həyata keçirməliyik. Biz İKT-nin bütün dinlərə qarşı böhtanın qarşısının alınmasında zəruri beynəlxalq çərçivənin yaradılması imkanlarını axtarmaq cəhdlərini ciddi dəstəkləyirik.

Hörmətli Sədr,

Mən həmçinin İslam Dünyasına və İKT-nin Baş Katibinə Azərbaycanın iyirmi faiz ərazisinin Ermənistanın işğalı altında qalması ilə nəticələnən, Ermənistan ilə davam edən silahlı münaqişədə, Azərbaycana göstərdikləri güclü dəstəyə görə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim. Təxminən bir milyon azərbaycanlı öz torpaqlarından etnik təmizləmə nəticəsində qovulmuş və həmçinin İslam irsindən olan minlərlə Azərbaycan mədəni və tarixi abidələri məhv edilmiş və talan olunmuşdur.

Azərbaycan Dövləti beynəlxalq hüququn norma və prinsiplərinə, müvafiq BMT Təhlükəsizlik Şurasının və İKT qətnamələrinin yerinə yetirilməsinə və həmçinin Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və Avropa Parlamenti tərəfindən qəbul edilmiş müvafiq sənədlərə və qərarlara hörmətlə əsaslanaraq uzadılmış bu konfliktin sülh yolu ilə tənzimlənməsinə sadiq qalmaqdadır.

Bütün bu sənədlər yekdilliklə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistana mənim ölkəmin işğal edilmiş torpaqlarından qoşunlarını geri çəkmək, qaçqın və məcburi köçkünlərin öz evlərinə qayıtmasına dair güclü çağırışlardan ibarətdir.

Zati-aliləri,

Bildiyiniz kimi, BMT Baş Assembleyasının 2011-ci ildə 66-cı sessiyasında keçirilmiş seçkilərdə Azərbaycan BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü il müddəti üçün qeyri-daimi üzvlüyünə namizədliyini irəli sürmüşdür İslam dünyasının Təhlükəsizlik Şurasında təmsil olunması vacibliyi anlayışından irəli gələrək, biz İKT üzv Dövlətlərin Azərbaycanın namizədliyinə verəcəyi daimi dəstəyə inanırıq. Azərbaycan Şərqi Avropa Dövlətləri Qrupundan BMT Təhlükəsizlik Şurasına namizəd olan ölkələr arasında yeganə ölkədir ki, Avropa İttifaqının üzvü deyildir və heç bir siyasi və ya hərbi ittifaqa mənsub deyildir. Biz Qoşulmama Hərəkatının tam hüquqlu üzvüyük və BMT Nizamnaməsinin prinsip və məqsədlərinə tam əsaslanaraq müstəqil xarici siyasət yürüdürük.

Mən əziz həmkar və qardaşlarımızdan bu oktyabr Nyu-yorkda BMT Təhlükəsizlik Şurasına keçiriləcək seçki zamanı Azərbaycanın namizədliyinə dəstək verməyi və BMT-dəki hörmətli səfirlərinizə müvafiq təlimatlar verilməsini xahiş edirəm.

Təşəkkürlər.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab E.Məmmədyarov Qoşulmama Hərəkatının Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 50 illik yubiley tədbirində etdiyi çıxışı 06 sentyabr 2011-ci il

Cənab Sədr,

Xanımlar və cənablar,

İlk öncə Serbiya Hökumətinə Qoşulmama Hərəkatının dünyaya göz açdığı yerlərdən biri olan Belqrad şəhərinə gəldiyimiz andan bəri mənə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Bu il biz Qoşulmama Hərəkatının yaradılmasının 50 illiyini qeyd edirik və qeyd olunmalıdır ki, Qoşulmama Hərəkatı bu gün də yarandığı gün olduğu qədər əhəmiyyətlidir. Soyuq müharibənin bitməsi qoşulmama xətti tutan ölkələrin siyasi koordinasiyası üçün mexanizm olan Qoşulmama Hərəkatının rolunu zəiflətməmişdir.

Bu yaxınlarda Qoşulmama Hərəkatına tam hüquqlu üzv olan Azərbaycan Respublikası Hərəkatın prinsiplərinə və məqsədlərinə bağlılığını bəyan etmişdir.

Qoşulmama Hərəkatının daha yaxşı və dinc dünyanın yaradılması uğrunda 1955-ci ildə qəbul etdiyi "On Bandunq Prinsipi" bütün ölkələri suverenliyə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət etməyə, eyni zamanda, hər hansı bir ölkənin ərazi

bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zorakılıqdan və təhlükə törətməkdən çəkinməyə səsləyir.

Təəssüflə qeyd olunmalıdır ki, Azərbaycan hələ də qonşu Ermənistanın təcavüzündən əziyyət çəkir və torpaqlarımızın 20 %-i hələ də işğal altındadır. Təqribən bir milyon qaçqın və məcburi köçkün həmin torpaqlardan etnik təmizlənməyə məruz qalmışdır. Təəssüf ki, BMT TŞ-nın münaqişə ilə bağlı dörd qətnaməsinin olmasına baxmayaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmaqdan imtina edir və bununla da regionda davamlı sülh və stabilliyin bərqərar olmasına mane olur.

Azərbaycan Qoşulmama Hərəkatının bir çox üzvlərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı tutduqları prinsipial mövqeyi yüksək qiymətləndirir. Torpaqlarımızın işğalına son verilməsi istiqamətində göstərdiyimiz səylər və tutduğumuz mövqe ilə bağlı sizin ortaya qoyduğunuz həmrəyliyin davamlı olacağına ümid edirik.

Cənab Sədr,

Azərbaycan Respublikası Qoşulmama Hərəkatının Fələstinlə bağlı tutduğu mövqeyə bağlılığını bir daha vurğulayır və Fələstin xalqı və rəhbərliyi ilə davamlı həmrəy olduğunu bir daha təkrar edir. Biz inanırıq ki, uzun müddətdir davam edən bu məlum məsələdə nailiyyət əldə olunması vaxtı yetişmişdir.

Azərbaycan BMT sistemi daxilində razılaşdırılmış inkişaf məqsədlərinin və vəzifələrinin həyata keçirilməsinə tövhəsini vermək niyyətindədir. Azərbaycan davamlı inkişaf və qlobal çiçəklənməyə, yoxsulluğun aradan qaldırılmasına və davamlı iqtisadi inkişafa tam dəstək göstərir və cəhdlər edir, xüsusən də inkişaf etməkdə olan və az inkişaf etmiş, həmçinin təbii fəlakətlərdən sonra dirçələn ölkələrin ehtiyac və zəifliklərinin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Son illər ərzində Azərbaycan ehtiyacı olan bir neçə ölkəyə hərtərəfli texniki və humanitar yardımlar göstərmiş və onların milli inkişaf siyasətlərinin və strategiyalarının həyata keçirilməsinə kömək etmişdir.

Beynəlxalq sülhün, təhlükəsizliyin, stabilliyin, və inkişafın qorunub saxlanmasına daha da köməklik göstərmək arzusunda olan Azərbaycan 2012-2013 illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmaq üçün öz namizədliyini irəli sürmüşdür. Seçkilər 13 oktyabr 2011-ci il tarixində BMT Baş Assambleyasının 66-ci sessiyası zamanı keçiriləcəkdir.

2012-ci ildə Azərbaycanın BMT-yə üzvlüyünün 20-ci ildönümü qeyd ediləcəkdir, lakin buna baxmayaraq, digər Şərqi Avropa ölkələrinin namizədlərindən fərqli olaraq, Azərbaycan heç vaxt Təhlükəsizlik Şurasının üzvü olmaq imkanını əldə etməmişdir.

Bizim regional qrupdan olan namizədlər arasında Azərbaycan Qoşulmama Hərəkatına tam üzv olan yeganə ölkədir. Azərbaycanın Təhlükəsizlik Şurasına seçilməsi kiçik inkişaf etməkdə olan ölkələrin aşağı səviyyəli təmsilçiliyinə yeni görünüş verəcək və Təhlükəsizlik Şurasına daha çox balanslaşdırılmış üzvlük anlayışını gətirəcəkdir. Sizi əmin edirəm ki, Qoşulmama Hərəkatı Azərbaycanın BMT-nin nüfuzlu alt-qurumu olan Təhlükəsizlik Şurasına üzvlüyü sayəsində daha güclü təmsilçilikdən faydalanacaqdır.

Sağ olun.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun BMT Baş Assambleyasının 66-cı Sessiyasında etdiyi çıxışı
Nyu-York, 23 sentyabr 2011-ci il

23 sentyabr 2011-ci il, Nyu York

Cənab Sədr,

Cənab Baş katib,

Zati-aliləri, xanımlar və cənablar,

İlk öncə cənab Sədr, Sizə və İƏT-in Baş katibi Professor Ekmələddin İhsanoğluna İƏT xarici işlər nazirlərinin bu illik əlaqələndirmə görüşünün təşkilinə görə təşəkkür edirəm.

Mən, eyni zamanda, Qazaxstan Respublikasına Astanada İƏT xarici işlər nazirlərinin 38-ci Sessiyasına uğurla ev sahibliyi etdiyinə və Nyu Yorkda İƏT Qrupuna rəhbərliyi qəbul etdiyinə görə təşəkkür edirəm. Mən Sizi əmin edirəm ki, fəaliyyətinizə yardımçı olmaq istiqamətində mənim ölkəm tam şəkildə əməkdaşlıq edəcəkdir.

Hörmətli həmkarlar,

Biz tarixi əhəmiyyəti sosial, mədəni və siyasi proseslərdə baş verən ziddiyətlərlə xarakterizə olunan bir zamanda yaşayırıq. Analitik mühakimə bəzən proseslərin dinamikasından geridə qalır.

Qloballaşan dünyamız sürətlə dəyişir. Bunun davamı olaraq, dünya nizamı və beynəlxalq münasibətlər sistemi də dəyişir. Bu günlərdə dünyanın müxtəlif regionlarında baş vermiş siyasi hadisələr istənilən regionun geosiyasi vəziyyətini dəyişməyə qadirdir. Bu hadisələr elə bir sürətlə baş verir ki, güclü ölkələr də buna mane ola bilmir və bu, qloballaşmanın özüdür.

Tarixən İslam bəşəriyyətin zəngin mədəniyyətini və nəcib məqsədlərini daşımış və yaymışdır. Orta əsrlərdə Avropa Şərqin dəyərlərindən faydalanmış və bu faktor sayəsində müxtəlif sahələrdə tərəqqi əldə etmişdir. İslam dünyada sülh və tolerantlığa sadiq qalaraq, inanclarından asılı olmayaraq, bütün xalqların bir-birinə uyğunlaşması və rifahına böyük tövhə vermişdir. Buna baxmayaraq, günümüzdə İslam Ümməti çoxsaylı çağırış və təhlükələrlə üzləşir.

Günümüzdə dünyada bir sıra münaqişələr mövcuddur, təəssüf ki, onların əksəriyyəti İslam Ümmətində baş verir və bu münaqişələr zərər çəkmiş regionların təkcə geosiyasi və geoiqtisadi inkişafına deyil, eyni zamanda, bu regionların demokratik inkişafına da mane olur.

Geosiyasi proseslərə çox həssas olan bir sıra regionlar mövcuddur. Yaxın və Orta Şərq regionunda baş verən sonuncu siyasi proseslər beynəlxalq ictimaiyyətə sülh və stabilliyin necə kövrək olduğunu nümayiş etdirdi.

Bir sıra qardaş müsəlman ölkələrində baş verən demokratikləşmə prosesləri xalqların demokratik cəmiyyətlərdə yaşamaq istəyi və iradələrini bir daha vurğuladı. Şübhəsiz ki, sabitliyə və rifaha aparan yol demokratiyadan keçir və Azərbaycan bu haqq işinin güclü müdafiəçisi olaraq qalır.

Azərbaycan bütün üzv ölkələri İslam dünyasında baş verən münaqişələrin həlli istiqamətində göstərilən səyləri beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq davam etdirməyə təşviq edir.

Bizim Fələstindəki vəziyyətlə bağlı narahatlığımız davam edir. Azərbaycan qardaş Fələstin xalqına sülh və sabitliyə nail olunması, paytaxtı Şərqi Qüds olmaqla, suveren və müstəqil Fələstin dövlətinin yaradılması istiqamətində atdığı addımları dəstəklədiyini bir daha bəyan edir və Fələstinin BMT-nin tam hüquqlu üzv olmaq istəyini tam dəstəkləyir. Biz İƏT-in Baş katibi və onun işçi heyətinin Təşkilatın möhkəmləndirilməsi və Fələstin xalqına lazım olan yardımın təmin edilməsi istiqamətində gördükləri işi yüksək qiymətləndiririk.

Cənab Sədr,

Biz qardaş Somalidəki humanitar vəziyyətlə bağlı narahatıq. Dəhşətli aclıq və quraqlığın ölkə ərazisinin böyük hissəsini əhatə etməsi nəticəsində on minlərlə insan həyatını itirmiş və yüz minlərlə Somali vətəndaşı kütləvi şəkildə qonşu ölkələrə köçmüşdür. BMT-nin sonuncu hesabatlarına əsasən 12 mln. insan hələ də böhran içərisindədir və 750 min insan ölüm riski ilə üz-üzədir. Bu, bəşəriyyətin son 100 ildə üzləşdiyi və presedenti olmayan bir faciədir və bütün ölkələr bu fəlakətin acı nəticələrinin aradan qaldırılması üçün tövhələr verməkdədir.

Bununla əlaqədar olaraq, biz, İƏT-in və müsəlman ölkələrin Somalidəki humanitar fəlakətin qarşısının alınması üçün zəruri olan yardımın təmin edilməsi istiqamətində tam potensialımı reallaşdırmalıyıq. Azərbaycan bu qardaş ölkəyə artıq humanitar yardım göstərmişdir. Son illərdə Azərbaycan bir sıra İƏT ölkələrinə humanitar yardım proqramları sahəsində həm İƏT, həm də BMT çərçivəsində aktiv iştirakını davam etdirmişdir və biz bundan sonra da bu səylərimizi davam etdirəcəyik.

Qlobal çağırışlar qlobal reaksiyaların verilməsini tələb edir. BMT bu çağırışlara reaksiya verilməsi üçün ən uyğun təşkilatdır. Bunun ən effektiv yolu BMT-nin öz mandatını yerinə yetirməsi, eyni zamanda, ənənəvi və yeni meydana gələn risk və təhlükələrin öhdəsindən gəlməsi üçün bu təşkilatda islahatlar apararaq, onu gücləndirməkdir. Beynəlxalq iqtisadi nizamda bu qloballaşmış, bir-birindən asılı və bağlı olan dünyanın meydana çıxardığı çağırışlara cavab vermək və bizim ölkələrdəki milyonlarla insana təsir edə biləcək böhranları aradan qaldırmaq üçün islahat aparılması vacibdir.

BMT Təhlükəsizlik Şurasında (TŞ) islahatlar aparılması bütün üzv ölkələri ciddi narahat edən bir məsələdir. İƏT-in BMT TŞ-da təmsil olunmaq və müsəlman ölkələrin maraqlarını müdafiə etmək üçün legitim tələb irəli sürməyə haqqı vardır. Biz TŞ-nın üzv ölkələr üçün daha təmsilçi, demokratik, effektiv, şəffaf və məsul bir quruma çevrilməsi üçün hərtərəfli islahatların aparılmasını dəstəkləyirik.

Bununla əlaqədar olaraq, mən hörmətli həmkarlarımı məlumatlandırıram ki, Azərbaycan BMT Baş Assambleyasının 66-cı Sessiyası zamanı keçiriləcək seçkilərdə 2012-2013-cü illər üçün BMT TŞ-nın qeyri-daimi üzvlüyünə öz namizədliyini irəli sürmüşdür. İƏT-in TŞ-da təmsilçiliyinin olması zərurətindən çıxış edərək, üzv ölkələrin Azərbaycana davamlı dəstəyinə güvənirik.

Zati-aliləri, xanımlar və cənablar,

Mən bir daha İslam Ümmətinə və İƏT-in Baş katibinə Azərbaycan ərazilərinin 20%-nin hələ də işğal altında qalması, bir milyona yaxın insanın doğma torpaqlarından etnik təmizlənməyə məruz qalması və Azərbaycanın, o cümlədən İslam irsinə də aid olan minlərlə mədəni və tarixi abidəsinin viran və qarət edilməsi ilə nəticələnmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini müdafiə etdiyi üçün Azərbaycan tərəfinin səmimi minnətdarlığını bildirirəm.

Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı İƏT tərəfindən qəbul edilmiş çoxsaylı qərar və qətnamələr, eyni zamanda, İƏT-ə üzv ölkələrin dəstəyi beynəlxalq ictimaiyyətin, xüsusilə də BMT Baş Assambleyasının və TŞ-nın Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı mövqeyinin formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycan Hökuməti bu uzun sürən münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT TŞ və İƏT qətnamələrinin yerinə yetirilməsi, eyni zamanda, ATƏT, AŞ və Avropa Parlamenti tərəfindən qəbul edilmiş müvafiq sənədlər və qərarlar əsasında sülh yolu ilə həllinə sadiq qalır.

Cənab Sədr,

Yekun olaraq, Baş Assambleyaya ən xoş arzularımızı bildirirəm və uğurlu fəaliyyət arzulayıram. İƏT-in Baş katibi Professor Ekmələddin İhsanoğluna İslam Ümməti naminə gördüyü işlərə görə səmimi təşəkkürlərimi bildirirəm.

Təşəkkür edirəm.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun BMT Baş Assambleyasının 66-cı sessiyası çərçivəsində Afrika Buynuzundakı Humanitar yardımla bağlı Nazirlərarası görüşündə etdiyi çıxışı
24 sentyabr 2011-ci il

Xanım Baş katibin müavini,

Zati-aliləri,

Xanımlar və cənablar,

İlk öncə mən yaxın tarixdə Afrika Buynuzundakı dağıdıcı quraqlıqla nəticələnən humanitar böhranla bağlı Azərbaycan tərəfinin dərin narahatlıq hissi keçirdiyini ifadə edərək, Somali, Keniya, Efiopiya, Cibuti hökumətlərinə və xalqlarına səmimi həmrəylik ismarıclarımızı çatdırıram.

Biz Baş Assambleya çərçivəsində keçirilən bu tədbiri Afrika Buynuzundakı quraqlığın baş verdiyi ərazilərdə yardım tədbirlərinin maliyyələşdirilməsinin dəstəklənməsi üçün zəruri maliyyə mənbələrin cəlb edilməsi istiqamətində əsas səy kimi qiymətləndiririk.

Mən, zərər çəkmiş ölkələrin xalqlarının zəruri ehtiyacları üçün maliyyə resurslarının səfərbər edilməsi istiqamətində BMT və onun müvafiq təşkilatları, həmçinin Afrika İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, üzv ölkələr və tərəfdaşların bu günədək gördükləri işləri yüksək qiymətləndirirəm.

Son illərdə Azərbaycan yoxsulluğun aradan qaldırılması, davamlı inkişafın təşviq edilməsi və qlobal rifahın dəstəklənməsinə yönəlmiş beynəlxalq və milli səyləri dəstəkləmək məqsədilə humanitar yardımları artırmış, inkişaf etməkdə olan və ən az inkişaf et-

miş, həmçinin təbii fəlakətlərdən sonra dirçələn ölkələrin ehtiyac və zəifliklərinin aradan qaldırılmasına xüsusi diqqət yetiririk.

Bu səbəbdən Azərbaycan beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi Afrika Buynuzundakı iztirablara son qoyulmasında beynəlxalq səylərə qoşulmaqda mənəvi öhdəçilik hiss edir.

2011-ci il avqustun 11-də Azərbaycan Hökuməti və BMT İnkişaf Proqramı arasında Somalidə Ortaq Humanitar Fond üçün Standart İnzibati Tədbirlər sənədi imzalanmışdır. Bu sənədi imzalamaqla biz Somali Respublikası Hökumətinin, BMT və başqa beynəlxalq təşkilatların, regionda ən çox zərər çəkmiş ölkə kimi Somalidə aclığın aradan qaldırılması və Somali xalqının iztirabının azaldılması yolunda gedən cəhdlərə edilən təcili yardım müraciətlərini öz dəstəyimizlə cavablandırmış olduq. Somalidə Ortaq Humanitar Fond üçün Standart İnzibati Tədbirlər sənədinə əsasən Azərbaycan Hökuməti BMT-nin Çox-Tərəfdaşlı Etimad Fondu vasitəsilə 100,000 ABŞ dolları həcmində yardım etmişdir. Azərbaycan Hökumətinin bu yardımına əlavə olaraq, Azərbaycan vətəndaşları və özəl sektor tərəfindən göstərilən birbaşa yardımın həcmi 250 000 ABŞ dollarını ötmüşdür.

Bundan başqa, Azərbaycan Respublikasının 100 milyon ABŞ dolları həcmində yardım etdiyi Afrika, Latın Amerikası və Karib hövzəsi üçün Beynəlxalq Maliyyə Korporasiyası Fondu Keniya üçün bir sıra yatırımları təsdiqləmişdir və biz onların tez bir zamanda həyata keçirilməsini gözləyirik.

Azərbaycan Hökuməti Afrika Buynuzundakı böhranın orta və uzun müddətli davamlı həllinə nail olmaq istiqamətində beynəlxalq ictimaiyyətin humanitar yardım sahəsində səylərinin artırılmasını dəstəkləmək üçün əlavə vəsaitin ayrılması məsələsini nəzərdən keçirir.

Sağ olun.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində etdiyi çıxışı
Nyu York, 27 sentyabr 2011-ci il

Cənab Prezident,

Xanımlar və cənablar,

Zati-Aliləri cənab Nasir Əbdüləziz Əl Naserin BMT Baş Assambleyasının 66-cı Sessiyasının Prezidenti seçilməsi ilə əlaqədar səslənmiş təbriklərə qoşuluram və ona bu yüksək məsuliyyətli vəzifədə uğurlar arzulayıram. Mən, eyni zamanda, onun sələfi Zati-Aliləri cənab Cozef Deysə də sonuncu Sessiyanın işi zamanı məhsuldar fəaliyyətinə görə təşəkkür edirəm.

Mən, həmçinin BMT-nin Baş katibi Zati-Aliləri cənab Ban Ki-Muna BMT-nin yenidən canlanmasına həsr olunmuş fəaliyyətinə və rəhbərliyinə görə öz dərin hörmət və minnətdarlığımı bildirirəm.

Cənab Sədr,

Bu ilki Ümumi Müzakirələrin mövzusu ilə əlaqədar bildiririk ki, biz Baş Assambleyanın

65-ci Sessiyasında münaqişələrin sülh yolu ilə nizamlanması, münaqişələrin qarşısının alınması və həlli üçün vasitəçilik rolunun gücləndirilməsinə dair qəbul edilmiş qətnaməni alqışlayırıq. Bu sənəddə Baş Assambleyanın bütün üzv ölkələrin BMT Xartiyasında qeyd olunduğu kimi öz öhdəliklərinə ciddi şəkildə sadiq qalmalı olduğu bir daha bəyan edilmiş və beləliklə də, bütün ölkələrin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət öhdəliyi bir daha təsdiq edilmişdir.

Azərbaycan qətnamədə qeyd olunduğu kimi, daha effektiv vasitəçilik üçün müvafiq təlimata ümid edir və biz bunun işlənib hazırlanmasına töhvə vermək üçün hazırıq.

Təəssüflə etiraf etməliyik ki, heç də bütün ölkələr öz beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmır və beynəlxalq hüququn hamı tərəfdən qəbul edilmiş norma və prinsiplərinə əməl etmirlər.

Təqribən 20 ildir ki, biz BMT Xartiyasının və beynəlxalq hüququn digər sənədlərinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı zorakılıq tətbiq etmiş Ermənistan Respublikası tərəfindən kobud şəkildə pozulması ilə qarşı-qarşıyayıq. Bu zorakılığın nəticəsi olaraq, Azərbaycan torpaqlarının 20%-i hələ də işğal altındadır və təqribən 1 milyon Azərbaycanlı qaçqın və köçkün öz torpaqlarına qayıda bilmir.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam şəkildə və şərtsiz olaraq çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdi və Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etdi. Bu kimi müraciətlər həmçinin digər beynəlxalq təşkilatlar tərəfindən də edilmişdi. Təəssüf ki, Ermənistan dünya ictimaiyyətinin çağırışlarına məhəl qoymamaqda davam edir.

Ən narahatedici məqam odur ki, öz xalqını sülh, rifahlı və stabil gələcəyə, qonşu ölkələrlə əməkdaşlığa hazırlamaq əvəzinə, Ermənistan rəhbərliyi gənc nəsilləri yeni müharibələrə, zorakılıq və təcavüzə açıq şəkildə təhrik edir, eyni zamanda, tək Azərbaycana deyil, regionun digər xalqlarına qarşı da düşmənçilik və nifrətin təhlükəli ideyalarını bütün vasitələrlə yayır.

Azərbaycanın işğal edilmiş ərazilərində etnik ermənilərin köçürülərək yerləşdirilməsi, eyni zamanda, tarixi və mədəni irsin məhv edilməsi və mənimsənilməsi kimi qanunsuz fəaliyyətlər daha bir ciddi narahatlıq mənbəyidir. Bu kimi fəaliyyətlər işğalın mövcud vəziyyətini daha da möhkəmləndirmək və etnik təmizləmənin nəticələrini və işğal edilmiş ərazilərin kaloniyalaşdırılmasını təmin etmək məqsədi daşımaqla yanaşı, münaqişənin həlli perspektivlərinə də ciddi maneçilik törədir. Daha əvvəl biz Ermənistan Prezidentinin çox aqressiv və qeyri-konstruktiv çıxışının şahidi olduq. O, Ermənistanın destruktiv siyasətini açıq şəkildə təsdiq etdi.

Azərbaycanın işğal edilmiş ərazilərində ötən ilin oktyabrında ATƏT-in Minsk Qrupu tərəfindən keçirilmiş Sahə Dəyərləndirmə Missiyası xüsusilə vurğuladı ki, işğalın mövcud vəziyyəti qəbuledilməzdir və Ermənistan bu ərazilərdə qanunsuz işlərə son qoymalıdır.

Ərazisinin işğalından və yüz minlərlə vətəndaşının zor gücünə köçürülməsindən əziyyət çəkən bir ölkə olaraq, Azərbaycan münaqişənin ən qısa zamanda danışıqlar yolu ilə

nizamlanmasında ən çox maraqlı olan tərəfdir. Bizim mövqeyimiz beynəlxalq ictimaiyyətə məlumdur və beynəlxalq hüququn ərazinin güclə alınmasının yolverilməz olduğu, eyni zamanda, qəti və şərtsiz şəkildə rədd olunduğu vurğulanan norma və prinsiplərinə ciddi bağlılıq üzərində qurulmuşdur.

Həm Azərbaycanın işğal edilmiş ərazilərində, həm də öz ərazilərində azərbaycanlıların tam etnik təmizlənməsini həyata keçirmiş Ermənistan rəhbərliyinin öz müqəddəratını təyin etmə prinsipini tətbiq etmək cəhdləri tamamilə məntiqsizdir. Aydın məsələdir ki, etnik əsasda əhalini öz evindən qovan heç kəs yerdə qalan əhalinin öz müqəddəratını təyin etməsindən danışa bilməz.

Azərbaycan qəbul edir ki, xalqların öz müqəddəratını təyin etmək hüququ yalnız və yalnız BMT Xartiyasının məqsəd və prinsiplərinə, eyni zamanda, Helsinki Yekun Aktında öz əksini tapdığı kimi, dövlətlərin ərazi bütövlüyünün də daxil olduğu beynəlxalq hüququn müvafiq normalarına uyğun şəkildə tətbiq edilə bilər.

Biz əminik ki, münaqişənin nizamlanması Ermənistan silahlı qüvvələrinin müəyyən olunmuş vaxt çərçivəsində işğal edilmiş ərazilərdən çıxarılması ilə başlamalıdır və kommunikasiyaların bərpası, qaçqın və köçkünlərin öz torpaqlarına geri qayıtması və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağda azərbaycanlıların və ermənilərin sülh şəraitində birgə yaşamaları üçün şərtlərin yaradılması ilə davam etdirilməlidir. Vasitəçilər tərəfindən təklif olunmuş və təəssüf ki, Ermənistan rəhbərliyindən başqa beynəlxalq ictimaiyyətin digər üzvləri tərəfindən qəbul edilmiş bu mərhələli yanaşma regiona davamlı sülh, sabitlik və müəyyənlik gətirə bilər.

Azərbaycan hələ də bu çox çətin və həssas danışıqlar prosesinə olan marağını, stimulunu və səbrini qoruyub saxlayır. Biz inanırıq ki, beynəlxalq ictimaiyyət Ermənistan tərəfini beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş norma və prinsiplərinə hörmət etməyə və azərbaycanlıların Dağlıq Qarabağ regionu da daxil olmaqla öz torpaqlarında yaşamaq hüquqlarını pozmalarını dayandırmağa inandıracaqdır. Biz öz növbəmizdə bu regiona Azərbaycan Respublikasının tərkibində olmaqla, özünü idarənin ən yüksək formasını təmin etməyə hazırıq.

Cənab Prezident,

Mən çıxışımda beynəlxalq gündəlikdə olan digər bir mühüm məsələyə - Fələstin məsələsinə də toxunmaq istəyirəm. Azərbaycan BMT-yə üzv ölkələrin əksəriyyəti tərəfindən ifadə olunmuş mövqeyə bağlılığını bir daha bəyan edir. Biz Fələstin xalqı və rəhbərliyi ilə davamlı həmrəy olduğumuzu bir daha bəyan edirik və inanırıq ki, çox vacib və uzun müddətdir davam edən bu məsələdə nailiyyət əldə olunmasının vaxtı çatmışdır. Fələstinin BMT-də tam şəkildə təmsil olunmasının vaxtı yetişmişdir.

Cənab Prezident,

Azərbaycan BMT çərçivəsində razılaşdırılmış məqsəd və vəzifələrin reallaşdırılmasına bundan sonra da töhvə verməkdə qərarlıdır. Son illərdə Azərbaycan yoxsulluğun aradan qaldırılması, davamlı inkişafın təşviq edilməsi və qlobal rifahın dəstəklənməsinə yönəlmiş beynəlxalq və milli səyləri dəstəkləmək məqsədilə humanitar yardımları artırmışdır. Biz inkişaf etməkdə olan və ən az inkişaf etmiş, həmçinin təbii fəlakətlərdən sonra dirçələn ölkələrin ehtiyac və zəifliklərinin aradan qaldırılmasına, xüsusilə də iqlim dəyişikliyindən əziyyət çəkən kiçik ada dövlətlərin problemlərinə xüsusi diqqət yetiririk.

Afrika buynuzunda baş vermiş sonuncu böhran bir daha qlobal həmrəyliyin əhəmiyyətini nümayiş etdirdi. Azərbaycan bu regionda aclığın aradan qaldırılması istiqamətində göstərilən səyləri dəstəkləmək məqsədilə təcili yardım etmişdir. Azərbaycan Hökuməti Afrika Buynuzundakı böhranın orta və uzun müddətli davamlı həllinə nail olmaq istiqamətində beynəlxalq ictimaiyyətin humanitar yardım sahəsində səylərinin artırılmasını dəstəkləmək üçün əlavə vəsaitin ayrılması məsələsini nəzərdən keçirir.

BMT ilə Azərbaycan Hökuməti arasında mövcud olan məhsuldar əməkdaşlığın nəticəsi olaraq, Azərbaycan tərəfindən irəli sürülmüş "Trans-Avrasiya İnformasiya Magistralı vasitəsilə əlaqənin qurulması" adlı qətnamə BMT BA-nın 21 dekabr 2009-cu il tarixində keçirilmiş 64-cü Sessiyasında qəbul edilmişdir (A/RES/64/186).

Layihənin əsas əlaqələndiricisi olan Azərbaycan layihənin həyata keçirilməsi mümkünlüyü barədə araşdırma aparmış və Katibliyin maliyyələşdirilməsini təmin etmişdir. Biz regionun əsas böyük telekommunikasiya operatorlarından ibarət konsorsiumun yaradılması istiqamətində bir sıra addımlar atmışıq.

Cənab Prezident,

Azərbaycanda hər zaman müxtəlif inancların, etnik qrupların və fəlsəfələrin tolerant formada birgə mövcud olması ilə yanaşı, Azərbaycan müxtəlif mədəniyyətlərin və sivilizasiyaların Şimalla Cənubun və Şərqlə Qərbin kəsişməsində görüşdüyü unikal yerlərdən biridir.

Mədəniyyətlər arasında körpü rolunu oynayan və Sivilizasiyalar İttifaqının Dostlar Qrupunun aktiv bir üzvü kimi Azərbaycan, qarşılıqlı hörmət və anlayışa söykənən dinlərarası və mədəniyyətlərarası dialoqun təşviq olunmasında məsuliyyət hiss edir. Belə ki, biz son illərdə Dünya Dini Liderlərinin Sammiti (aprel 2010), Dünya Mədəniyyətlərarası Dialoq Forumu (7-9 aprel 2011) kimi bir sıra yüksək səviyyəli və fəaliyyətyönümlü tədbirlərə ev sahibliyi etmişik.

Cənab Prezident,

Beynəlxalq sülh, təhlükəsizlik, sabitlik və inkişafın qorunub saxlanılması üçün bundan sonra da töhvə vermək arzusunda olan Azərbaycan BMT TŞ-da 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyə öz namizədliyini irəli sürmüşdür. Seçkilər cari ilin 21 oktyabr tarixində BMT BA-da keçiriləcəkdir.

2012-ci il Azərbaycanın BMT-yə üzvlüyünün 20-ci ildönümü olması ilə əlamətdardır, lakin buna baxmayaraq, digər Şərqi Avropa ölkələri Qrupunun namizədlərindən fərqli olaraq, Azərbaycan heç vaxt TŞ-nın üzvü olmaq imkanını əldə etməmişdir.

Azərbaycanın Təhlükəsizlik Şurasına seçilməsi kiçik və inkişaf etməkdə olan ölkələrin aşağı səviyyəli təmsilçiliyinə yeni görünüş verəcək və bu BMT orqanına daha çox balanslaşdırılmış üzvlük anlayışını gətirəcəkdir.

Azərbaycan Respublikası Hökuməti BMT-nin bütün üzv ölkələrinə Azərbaycanın BMT TŞ-da qeyri-daimi üzvlük üçün irəli sürdüyü namizədliyə göstərəcəkləri dəstəyə görə minnətdar olacaqdır.

Sağ olun.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxışı 07 dekabr 2011-ci il

Cənab Sədr,

Xanımlar və cənablar,

Mən Nazirlər Şurasının iclasının yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Litvanın Xarici İşlər Naziri cənab Audronius Azubalisə və onun komandasına öz təşəkkürümü bildirmək istərdim. Cənab Eamon Gilmoru ATƏT-in növbəti Sədri kimi təbrik edirəm və ona işində uğurlar arzulayıram.

Əziz həmkarlar,

Azərbaycan ATƏT-in tam hüquqlu üzvü kimi, ATƏT-i regionda təhlükəsizliyin təmin edilməsi üçün yeganə hərtərəfli və regional təşkilat kimi qiymətləndirir. Biz inanırıq ki, bu Təşkilat iştirakçı ölkələr arasında açıq dialoqun aparılması, onların ərazilərində olan münaqişələrin həll edilməsi və razılaşdırılmış prinsiplər, birgə dəyərlər və öhdəliklər əsasında təhlükəsizlik məsələlərində əməkdaşlığa rəvac verir. ATƏT özünün əsas prinsipi olan təhlükəsizliyin bölünməzliyi və separatçı təhlükəsizlik birliyinin bölünməsinin qarşısının alınmasına sadiq qalmalıdır. Hər bir iştirakçı ölkənin təhlükəsizliyi digərlərinin təhlükəsizliyinə ayrılmaz tellərlə bağlıdır. Bu, bizim təhlükəsizlik birliyimizi təsdiqləyən mövqedir.

ATƏT-in prinsiplərini təşviq edərkən, 1992-ci il Helsinki Sənədinin III bölməsinə və 1994-cü il Budapeşt Sənədinə müvafiq olaraq ATƏT-ə verilmiş mandat əsasında erkən xəbərdarlıq, münaqişələrin qarşısının alınması, böhranlı vəziyyətin idarə olunması, fakt araşdırıcı, məruzəçi missiyalar, ATƏT-in polis qüvvələri və sülhməramlı əməliyyatlarda iştirakı və münaqişələrin həlli sahəsində Təşkilatın imkanlarının inkişaf etdirilməsi istiqamətində fəal iştirak etməliyik.

Cənab Sədr,

Müstəqilliyin ilk illərində yaşadığımız böyük çətinliklərə baxmayaraq, bu günlərdə Azərbaycan etibarlı tərəfdaş kimi tanınır və son bir neçə ildə ardıcıl olaraq, dünyada ən yüksək iqtisadi artım göstəriciləri nümayiş etdirməklə yanaşı, təhlükəsizlik qəbuledicisindən təhlükəsizlik təmin edən bir ölkəyə çevrilmişdir. Son 5 ildə biz ölkənin ÜDM-ni 3 dəfə, büdcəni isə təqribən 10 dəfə artıra bilmişik.

Azərbaycan ATƏT çərçivəsində təhlükəsizlik sahəsində əməkdaşlığa dair öz müsbət təcrübəsi və biliyini, o cümlədən enerji təhlükəsizliyi, ərazilərin minalardan təmizlənməsi, terrorizmlə mübarizə, mütəşəkkil cinayətkarlıq və narkotik vasitələrin daşınmasına qarşı mübarizə və Əfqanıstanda təhlükəsizlik, sabitlik və inkişafa tövhə sahələrində təcrübəsini paylaşmağa hazırdır.

Azərbaycan gənc demokratik bir ölkə kimi, insan hüquqları və fundamental azadlıqlara hörmətlə yanaşmağa, ölkədə qanunun aliliyini təmin etməkdə və iqtisadi islahatları təş-

viq etməkdə davam edir. Biz qətiyyətlə inanırıq ki, bu səylər hərtərəfli inkişafı və Azərbaycanın dünyanın demokratiya ailəsinə daha da inteqrasiyasını möhkəmləndirəcəkdir.

Cənab Sədr,

Azərbaycan Avropada enerji təhlükəsizliyinin qorunmasında başlıca rol oynayan və əsas regionlararası layihələri dəstəkləyən ölkələrdən biri olaraq, Cənubi Qafqaz regionunun gələcəyində müəyyənedici rol oynayır, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə yönəlmiş hər hansı bir təhlükənin təkcə Azərbaycanın və Cənubi Qafqaz kontekstində deyil, eyni zamanda Avropanın təhlükəsizliyinə, sabitliyinə və inkişafına yönəlmiş təhlükə kimi dəyərləndiriləcəyini gözləməkdə haqlıdır.

Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi Cənubi Qafqazın bütövlükdə inkişafının qarşısını alır və ATƏT-in əhatə etdiyi regionda uzunmüddətli sabitliyi və təhlükəsizliyi sarsıdır.

Sülh prosesi çox mühüm bir mərhələdədir. Biz inanırıq ki, status-kvonun davam etməsi regionda qeyri-müəyyən və gözlənilməz təhlükəsizlik şəraiti yaradır. ATƏT-in Minsk Qrupuna üzv ölkələrin başçıları açıq-aydın şəkildə regionda status-kvonun mövcudluğunun qəbuledilməz olduğunu bəyan etmişlər. Üç həmsədr ölkələr tərəfindən tərtib edilmiş yenilənmiş Madrid Prinsipləri adlanan sonuncu təklif tərəflərə təqdim edilmiş və bununla əlaqədar Azərbaycan danışıqları davam etməyə, o cümlədən Hərtərəfli Sülh Sazişi üzərində çalışmağa başlamağa hazır olduğunu bəyan etmişdir. Təəssüf ki, bu təklif Ermənistan tərəfindən rədd edilmişdir.

Danışıqlarda irəliləyişin əldə edilməsi yalnız regionda deyil, eyni zamanda öz ölkəsində də davamlı sülhə, təhlükəsizliyə və sabit inkişafa nail olunmasına yönəlmiş bu gün ki status kvonun dəyişdirilməsinə dair Ermənistanın iradəsindən asılıdır. Bu gün münaqişənin həllində üzləşdiyimiz ən böyük məsuliyyət Ermənistan və Azərbaycan arasında etimadın yenidən yaradılmasıdır. Bunu əldə etmək üçün bir çox cəhdlər göstərməliyik.

Bir milyon qaçqın və məcburi köçkünü olan və ərazisinin 20%-i erməni işğalı altında olan Azərbaycan üçün bu asan deyil. Biz inanırıq ki, bu istiqamətdəki addımlardan biri Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında birbaşa təmasların və görüşlərin təşkili ola bilər. Yaranmış bu durumda insanlar arasındakı birbaşa təmaslar fərqli mühit yarada bilər.

Mehriban qonşuluq yaxşı inkişafın pillələrindən biridir. Ermənistan Azərbaycan ərazisini işğal etməklə özünün daxili siyasi, sosial və iqtisadi həyatına təsir edən və büdcəsində hərbi xərcləri sürətlə artmasına səbəb oldu. Təsəvvür edin, Ermənistanın Azərbaycan torpaqlarından tədricən çəkilən kimi nə qədər imkanlar yaranacaqdır. Münaqişədən zərər çəkmiş ərazilərin bərpa edilməsi, kəsilmiş kommunikasiyaların bərpası, iqtisadi və biznes imkanlarının açılması, investisiyalar, ticarətin artması və ən əsası müəyyənlik və təhlükəsiz şəraitin yaradılması tərəfləri qane edə biləcək vəziyyətə gətirib çıxaracaqdır.

Azərbaycan bizim Təşkilatın əsas sənədi olan Helsinki Yekun Aktında əks olunduğu kimi beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsipləri əsasında zəruri kompromislər etməyə hazırdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yanaşı yaşayan azərbaycanlı və erməni icmaları özünü idarəetmə çərçivəsində bütün müvafiq hü-

quq və azadlıqlarla malik ola bilərlər.

Gələn il biz ATƏT-in Minsk Qrupunun vasitəçiliyi altında danışıqların 20-ci ildönümünü qeyd edəcəyik, lakin çox təəssüflər olsun ki, hələ də heç bir irəliləyiş qeydə alınmamışdır. Azərbaycan xalqı hələ də ümid edir ki, erməni xalqı bu münaqişənin davamlı və uzunmüddətli həllinin faydasını dərk edəcəkdir. Bu, regional əməkdaşlıq və ümumilikdə Cənubi Qafqazın inkişafı üçün real perspektivlər açacaqdır.

Cənab Sədr,

Sonda, Mən öz ölkəm adından, İsveçrə və Serbiyanın müvafiq olaraq 2014 və 2015-ci illərdə Sədrliyə dair namizədliklərinə dəstəyimizi ifadə etmək istərdim.

Təşəkkür edirəm.

BƏYANATLAR

Azərbaycan Respublikası, Türkiyə Respublikası və İran İslam Respublikasının Xarici İşlər Nazirlərinin Naxçıvan Bəyanatı
7 mart 2012-ci il

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun dəvətinə əsasən Türkiyə Respublikasının Xarici İşlər Naziri cənab Əhməd Davudoğlu və İran İslam Respublikasının Xarici İşlər Naziri cənab Əli Əkbər Salehinin (bundan sonra Tərəflər) iştirakı ilə Xarici İşlər Nazirlərinin Üçtərəfli Görüşünün İkinci Sessiyası 7 mart 2012-ci il tarixində Naxçıvan şəhərində keçirilmişdir.

Tərəflər,

Ortaq mədəni irs, tarixi köklər və dini dəyərlərə söykənən dostluq və yaxın qonşuluq münasibətlərinin hər üç ölkə xalqlarının əsas mənafelərinə cavab verməsinə və birgə səylərin müştərək maraqların həyata keçirilməsində, müasir təhdid və çağırışların aradan qaldırılmasında vacibliyinə inanaraq;

Hər üç ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edərək siyasi, iqtisadi, ticarət, mədəniyyət, humanitar, turizm və idman sahələrində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının araşdırılması qətiyyətlərini vurğulayaraq;

BMT Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla qəbul olunmuş əsas norma və prinsiplərinə sadiq olduqlarını bəyan edərək və bütün ölkələrin davamlı inkişafa nail olmaq, bilik və texnologiyalardan azad və bərabər şəkildə yararlanmaq hüquqlarına hörmət edilməsini vurğulayaraq;

Üç ölkə arasında əməkdaşlığın regional və beynəlxalq sülh və sabitlik, təhlükəsizlik və tərəqqiyə töhvə verdiyini qeyd edərək;

16 aprel 2011-ci il tarixində İran İslam Respublikasının Urumiye şəhərində keçirilmiş Xarici İşlər Nazirlərinin Üçtərəfli Görüşünün ilk iclası zamanı qəbul edilmiş Urumiye Bəyanatının əhəmiyyətini vurğulayaraq;

29 noyabr 2011-ci il tarixində İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş

Üçtərəfli İqtisadi Komitənin birinci iclasının tövsiyələrini təsdiq edərək;

Aşağıdakılar barədə razılığa gəldilər:

1. Tərəflər qarşılıqlı maraq doğuran mühüm regional və beynəlxalq məsələlərin xarici işlər nazirləri səviyyəsində, həmçinin, Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlığı Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirlərinə dair Konfrans və İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində məsləhətləşmələri davam etdirəcəklər.

2. Tərəflər Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinin regionun ortaq maraqlarına töhvə verəcəyinə inanırlar.

3. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət prinsipləri əsasında tezliklə həll olunmasının vacibliyini qeyd edir və regional əməkdaşlığın təşviqi vasitəsilə sülh və sabitliyin qorunub saxlanılmasının gücləndirilməsinin regional münaqişələrin sülh yolu ilə həllinə müsbət təsir göstərəcəyini və ümumi maraqlara xidmət edəcəyini vurğulayırlar.

4. Tərəflər öz ərazilərinin düşmənçiliyə gətirib çıxara bilən hər hansı bir təhdid və ya fəaliyyət üçün istifadə edilməsinə heç bir halda icazə verməyəcəkləri barədə qətiyyətli olduqlarını ifadə edirlər.

5. Tərəflər terrorizm, ekstremizm və onun bütün forma və təzahürləri, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin və qanunsuz silah alveri, həmçinin, insan alveri və qeyri-qanuni miqrasiyaya qarşı mübarizədə əməkdaşlığı gücləndirəcəklər.

6. Tərəflər üç ölkə xalqlarının rifah halının yaxşılaşdırılması, iqtisadi artım və inkişafın gücləndirilməsi məqsədi ilə, iqtisadi, enerji, ticarət, sənaye, nəqliyyat, telekommunikasiya, rabitə, mətbuat, mədəniyyət, idman və ətraf mühitin qorunması sahələrində əlaqələrin birgə layihə və əməkdaşlıq planları vasitəsi ilə daha da inkişaf etdirilməsini təşviq edəcəklər.

7. Tərəflər Üçtərəfli İqtisadi Komitənin tövsiyələrinə uyğun olaraq, iqtisadi və ticarət əlaqələrinin daha da gücləndirilməsi, həmçinin öz ölkələrində rifah halının və tərəqqinin təşviq edilməsi məqsədilə birgə fəaliyyət göstərməkdə davam edəcəklər.

8. Üçtərəfli İqtisadi Komitə tərəfindən yaradılmış alt komitələr əlavə edilmiş vaxt cədvəlinə uyğun olaraq, Komitənin 2012-ci ilin noyabr ayında Azərbaycanda keçirilməsi nəzərdə tutulan görüşündən əvvəl öz iclaslarını keçirəcəklər.

9. Tərəflər tarixi və mədəni irsin qorunması sahəsində əməkdaşlığı davam etdirəcəklər.

10. Tərəflər mərhələli şəkildə tədbirlərin görülməsi vasitəsilə öz vətəndaşlarının bir-birinin ərazisinə vizasız səyahət etmə imkanlarını nəzərdən keçirəcəklər.

11. Tərəflər Beynəlxalq Atom Enerjisi Agentliyinin normaların həyata keçirilməsi sahəsində yeganə səlahiyyətli qurum olduğunu nəzərə alaraq, Nüvə Silahının Yayılması haqqında Müqavilə çərçivəsində heç bir ayrı-seçkilik və qeyri-bərabərlik olmadan dövlətlərin sülh məqsədləri üçün nüvə enerjisi əldə etmək hüququnu dəstəkləyir.

12. Tərəflər Yaxın Şərqdə nüvə və digər kütləvi qırğın silahlarından azad zona yaradıl-

ması barədə 1995 saylı Yaxın Şərq üzrə Qətnamənin həyata keçirilməsi üçün fəaliyyət planının qəbul edildiyi 2010-cu il tarixli Nüvə Silahının Yayılmaması haqqında Müqavilənin yenidən nəzərdən keçirilməsi üzrə Konfransın yekun sənədini dəstəkləyir.

13. Tərəflər dövlət sərhədindən buraxılış məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsi və sərhəd və gömrük məsələlərində təcrübə mübadiləsi imkanlarını araşdıracaqlar.

14. Tərəflər Bakı - Tbilisi - Qars dəmiryolunun mövcud Naxçıvan - Culfa - Təbriz dəmiryoluna birləşdirilməsi imkanlarını araşdıracaqlar.

15. Növbəti görüş 2012-ci ilin sentyabr ayında Türkiyənin Van şəhərində keçiriləcəkdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Liviyadakı vəziyyətlə bağlı Bəyanatı
02 sentyabr 2011-ci il

Azərbaycan Respublikası Liviya xalqının iradəsinə hörmətlə yanaşır və Milli Keçid Şurasını Liviyanın hakimiyyət təmsilçisi kimi tanıdığını bəyan edir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin 26 avqust 2011-ci il tarixində Abxaziyada keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı Bəyanatı
02 sentyabr 2011-ci il

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəklədiyini bir daha bildirərək, Abxaziyada 26 avqust 2011-ci il tarixində keçirilmiş qondarma prezident seçkilərini tanımadığını bəyan edir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Cenevrə Müzakirələrini tam dəstəkləyir və münaqişənin həlli istiqamətində hazırkı nizamlama prosesinin konstruktiv şəkildə davam etdirilməsinin vacibliyinə inanır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Bəyanatı
15 senytabr 2011-ci il

Ermənistanın kütləvi informasiya vasitələrində yayılmış məlumatlara əsasən, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində bu il sentyabrın 18-də "yerli özünü idarəetmə orqanlarına" "seçkilər" keçirmək nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bir daha bəyan edir ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejim Ermənistan Respublikası tərəfindən bölgənin azərbaycanlı icmasına qarşı etnik təmizləmə siyasəti nəticəsində yaradılmış qanunsuz strukturdur. Qondarma "seçkilər" Ermənistanın işğalçı siyasətini ört-basdır etmək və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalının nəticələrini möhkəmləndirmək məqsədilə təşkil edilir.

Azərbaycan Respublikası Ermənistan tərəfini heç bir perspektiv vəd etməyən qanunsuz destruktiv addımlarını dayandırmağa və bunun əvəzində münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə davamlı nizama salınması üçün danışıqlar prosesində xoş niyyət və konstruktiv mövqe nümayiş etdirməyə çağırır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı
19 sentyabr 2011-ci il

Ərəb Dövlətləri Liqasının 13-15 sentyabr 2011-ci il tarixlərində keçirilmiş xarici işlər nazirlərinin 136-cı Şurasının iclasının gündəliyinə Azərbaycan Respublikasının BMT TŞ-nın 2012-2013-cü illər üzrə qeyri-daimi üzvlüyünə namizədliyinin ərəb dövlətləri tərəfindən dəstəklənməsi üçün bənd daxil edilmişdir.

Ərəb Dövlətləri Liqasının xarici işlər nazirlərinin 136-cı Şurasının iclasında ərəb dövlətləri tərəfindən Azərbaycanın BMT TŞ-nın qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsinə dair qərar qəbul edilmişdir.

Bu qərar Azərbaycanın ərəb dünyası ilə əlaqələrinin yüksək səviyyədə inkişaf etməsinin göstəricisidir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 13 noyabr 2011-ci il tarixində Gürcüstanın Tsxinvali regionunda - Cənubi Osetiyada keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı Bəyanatı
18 noyabr 2011-ci il

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 13 noyabr 2011-ci il tarixində Gürcüstanın Tsxinvali regionunda - Cənubi Osetiyada keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı Bəyanatı, 18 noyabr 2011-ci il

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəklədiyini bir daha bildirərək, Gürcüstanın Tsxinvali regionunda - Cənubi Osetiyada 13 noyabr 2011-ci il tarixində keçirilmiş qondarma prezident seçkilərini tanımadığını bəyan edir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi münaqişənin öz mümkün həllini tapması üçün hazırkı danışıqlar prosesinin konstruktiv şəkildə davam etdirilməsinin vacibliyinə qətiyyətlə inanır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı
22 dekabr 2011-ci il

Azərbaycan Respublikası Fransanın Milli Assambleyasında "Qanunla tanınmış soyqırımların mövcudluğunun təkzib edilməsinə görə cəza nəzərdə tutan" qanun layihəsinin qəbul edilməsini kəskin şəkildə pisləyir. Azərbaycan öz təəccübünü ifadə edərək, bu addımın Avropa məkanında demokratiyanın əsasını təşkil edən söz və ifadə azadlığı prinsiplərinə qətiyyən uyğun olmadığını, Fransanın götürdüyü insan hüquqları və əsas azadlıqlar kimi demokratik dəyərlərə hörmət etmək öhdəliyi ilə ziddiyyət təşkil etdiyini və qəbuledilməz olduğunu bəyan edir.

Azərbaycan Respublikası Fransa Milli Assambleyasının bu cür qanun layihəsi qəbul etdiyi halda, Azərbaycanın işğal olunmuş ərazilərində yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qalmasına, öz torpaqlarında məcburi köçkünə çevrilməsinə, həmçinin bu insanların hüquqlarının kobud şəkildə pozulmaqda davam etməsinə göz yummasını dərin təəssüflə qarşılayır.

XƏBƏRLƏR

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin 2010-cu il üçün yekun mətbuat buraxılışı 07 yanvar 2011-ci il

2010-cu ildə beynəlxalq münasibətlər müstəvisində inkişaf edən hadisələr getdikcə daha artmaqda olan qlobal problemlərin təsirinə məruz qalmışdır. Beynəlxalq sülh və təhlükəsizlik, həmçinin davamlı inkişafa qarşı yönələn qlobal problemlər, o cümlədən kütləvi qırğın silahlarının yayılmaması, terrorçuluqla mübarizə, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin dövriyyəsi, enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi, təbii fəlakətlər və iqlim dəyişiklikləri ilə bağlı kompleks məsələlərin həllinə əhəmiyyətli dərəcədə beynəlxalq səylər cəlb olunmuşdur.

Bu səylərə fəal şəkildə töhfə verən Azərbaycan maraqların nisbi balansını təmin etməklə, ən mühüm ümummilli məsələmiz olan ölkənin ərazi bütövlüyünün bərpasında irəliləyişin əldə edilməsi, habelə ölkənin mövqeyi və nüfuzunun güclənməsi, beynəlxalq aləmdəki etimadının artması və əməkdaşlıq əlaqələrinin genişlənməsi istiqamətində apardığı xarici siyasət fəaliyyətini daha da artırmışdır.

2010-cu il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar davam etdirilmişdir. İl ərzində davam etmiş danişiqlar 2009-cu ilin dekabrında Minsk Qrupu Həmsədrləri tərəfindən təqdim edilmiş yenilənmiş Madir prinsipləri əsasında aparılmışdır.

Aparılan danışıqlarda Azərbaycan ölkənin ərazi bütövlüyü və suverenliyinin bərpası, işğalçı qüvvələrin bütün işğal olunmuş ərazilərdən çıxarılması, yurdundan didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə qayıtması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışının təmin edilməsi, ərazilərin bərpası və kommunikasiyaların açılması və sonrakı mərhələdə hər iki icmanın iştirakı ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşməsi mövqeyindən çıxış etmişdir.

İl ərzində Rusiya Prezidenti Dmitri Medvedevin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Ermənistan Prezidenti S.Sarqsyan arasında 25 yanvar tarixində Soçidə, 17 iyun tarixində Sankt-Peterburqda və 27 oktyabr tarixində Həştərxanda üç görüş keçirilmişdir. Son görüşün nəticəsində tərəflər ATƏT-in Minsk Qrupu və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin vasitəçiliyi ilə hərbi əsir və girovların, həmçinin, atəşkəs rejiminin pozulması nəticəsində həlak olmuş şəxslərin cəsədlərinin qaytarılmasına dair birgə bəyanat qəbul etmişlər. Bunun nəticəsində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov və şəhid Fərid Əhmədovun cəsədlərinin vətənə qaytarmaqla, torpağa tapşırılması mümkün olmuşdur.

Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərin başçılarının cari ilin 26 iyun tarixində Kanadanın Muskoka şəhərində verdiyi birgə bəyanat olmuşdur. Sözügedən bəyanatda dövlət başçıları tərəfindən münaqişənin həlli üçün işğal edilmiş ərazilərin azad edilməsi, məcburi köçkünlərin

öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi və müvafiq hüquqi-siyasi qiymətləndirilməsinə nail olmaq istiqamətində həm ikitərəfli əsasda, həm də ATƏT, BMT, NATO, Avropa İttifaqı, Avropa Şurası və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində iş davam etdirilmişdir.

2010-cu ilin 19-20 noyabr tarixlərində Lissabonda keçirilmiş NATO-nun Zirvə görüşünün yekun Bəyannaməsində regional ölkələrin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi dəstəklənmiş və regional münaqişələrin məhz bu prinsipləri nəzərə almaqla həllinə çağırılmışdır.

1-2 dekabr tarixlərində Qazaxıstanın Astana şəhərində keçirilmiş ATƏT-in 7-ci Sammiti çərçivəsində qəbul edilmiş Astana Bəyannaməsində ATƏT məkanında həlli uzanan münaqişələrin BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktında təsbit olunmuş normalar öz əksini tapmışdır. Eyni zamanda, Sammit çərçivəsində ATƏT Minsk Qrupunun Həmsədr ölkələrinin nümayəndə heyətlərinin başçıları və Azərbaycan və Ermənistan Prezidentləri tərəfindən qəbul olunmuş birgə bəyanatda Ermənistan-Azərbaycan münaqişəsinin Minsk Qrupu Həmsədr Dövlət Başçılarının 2009-cu il İtaliya və 2010-cu il Kanadada keçirilmiş G-8 Zirvə toplantıları çərçivəsində qəbul edilmiş prinsiplər əsasında həllinin vacibliyi bir daha vurğulanmışdır.

Ümumilikdə qeyd edilməlidir ki, 2010-cu ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirilmişdir. Bu da 2008-ci ildə Moskvada Rusiya, Azərbaycan və Ermənistan Prezidentləri tərəfindən imzalanmış bəyanatda əks olunur.

Ötən ildə Avropa Parlamenti tərəfindən qəbul edilmiş "Avropa İttifaqının Cənubi Qafqaz üçün strategiya ehtiyacı" adlı qətnamədə Dağlıq Qarabağ, eləcə də onun ətrafındakı ərazilərin işğalı altında olması faktı təsdiq edilmiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın bütün işğal edilmiş ərazilərindən çıxarılması, öz doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin tezliklə öz daimi yaşayış yerlərinə qayıtması hüququnun təmin edilməsi tələb edilmişdir.

Azərbaycan tərəfi işğal edilmiş ərazilərdə təbii sərvətlərin və mədəni irsin talan edilməsi, qeyri-qanuni məskunlaşma və mülkiyyət hüquqlarının pozulması ilə bağlı vəziyyətin araşdırılması və müvafiq qiymətləndirilməsi məqsədi ilə işğal olunmuş ərazilərə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin rəhbərliyi altında beynəlxalq dəyərləndirmə missiyasının səfərinin təşkil edilməsinə nail olmuşdur. Dəyərləndirmə missiyasının hesabatının 2011-ci ilin yanvar ayında yayılması planlaşdırılır.

Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində dünya birliyinin daha qətiyyətli və ardıcıl mövqedən çıxış etməsi və Ermənistanı beynəlxalq birliyin nüfuzlu üzvləri olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təklif etdiyi başlıca prinsiplər əsasında münaqişənin bir dəfəlik həllini nəzərdə tutan yekun sülh sazişi üzərində işə başlamasına vadar etməsinə ümid bəsləyir.

2010-cu ildə Azərbaycan Respublikası mötəbər qlobal və regional təşkilatların işində fəal iştirakını və səmərəli əməkdaşlığını davam etdirmişdir. Ölkəmiz beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığın təminatında ən nüfuzlu beynəlxalq təsisat olan Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə əldə etdiyi yüksək əməkdaşlıq münasibətlərinin daha səmərəli irəliləyişi istiqamətində səylərini artırmışdır.

İl ərzində Azərbaycanın BMT və digər beynəlxalq təşkilatların seçki strukturlarında daha yaxşı təmsilçiliyinin təminatı üzrə iş aparılması diqqət mərkəzində olmuşdur. Azərbaycan ötən ildə YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Komitəsinə və BMT-nin Avropa İqtisadi Komissiyası nəzdində Ətraf Mühit və Səhiyyə Nazirləri Şurasına üzv seçilmişdir.

2010-cu ildə ölkəmiz digər mötəbər beynəlxalq təşkilat olan İslam Konfransı Təşkilatı (İKT) ilə də ənənəvi yüksək əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi önəm vermişdir.

İKT çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünü aradan qaldırılması üzrə Azərbaycanın tutduğu ədalətli mövqeyi bir daha bütün üzv ölkələri tərəfindən dəstəklənmiş və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi", həmçinin "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağıdılması" haqqında qətnamələr yekdilliklə qəbul edilmişdir.

İKT Xarici İşlər Nazirləri Şurasının 37-ci sessiyasında İslam Konfransı Gənclər Forumunun regional ofisinin Azərbaycanda yerləşməsinə dair Saziş imzalanmış, həmçinin il ərzində Bakıda İslam İnkişaf Bankının Direktorlar Şurasının illik toplantısı keçirilmişdir.

Eyni zamanda, Ərəb Dövlətləri Liqasının yüksək vəzifəli nümayəndə heyəti respublikamıza səfər etmiş və səfər çərçivəsində tərəflər arasında siyasi dialoqun intensivləşdirilməsi və çox şaxəli əməkdaşlığın inkişafına dair razılıq əldə olunmuşdur.

Dinlər və sivilizasiyalararası dialoqun təşviq edilməsində ənənəvi olaraq yüksək nüfuza malik Azərbaycan Respublikası 32 dövlətin dini liderlərinin və dini nümayəndələrinin iştirakı ilə Bakıda Din Liderlərinin Ümumdünya Sammitini keçirmişdir. Sammit çərçivəsində dini liderlər qloballaşma dövründə müasir cəmiyyət qarşısında duran problemlərin həllində dini dəyərlərin əhəmiyyəti və rolunu müzakirə etmiş və bu xüsusda birgə yanaşmaları müəyyən edərək, xalqlar, dinlər və sivilizasiyalar arası mədəniyyəti və dialoqu təşviq edən Bakı Bəyannaməsini qəbul etmişlər. Sammit çərçivəsində bütün Rusiya və Moskva patriarxı Kirilin vasitəçiliyi ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə və Bütün ermənilərin katolikosu II Qaregin arasında görüş keçirilmiş və tərəflər Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üzrə aparılan danışıqlara töhfə olaraq, birgə sənəd imzalamışlar.

Azərbaycanın xarici siyasət kursunda Avropa və avro-atlantik strukturları ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişafı prioritet sahələrdən birini təşkil etdiyindən, ölkəmiz bu istiqamətdə də uğurlu fəaliyyətini davam etdirmişdir.

2010-cu ildə Aİ-Azərbaycan Assosiasiya Sazişi üzrə danışıqlara başlamaq üçün mandat təsdiq edilmiş və il ərzində iki plenar iclas keçirilmişdir. Aİ-nin yüksək səviyyəli rəsmi-

lərinin ölkəmizə səfərləri və aparılan danışıqların nəticəsində Aİ-Azərbaycan münasibətlərində yeni bir mərhələyə keçidin təzahürü olan Azərbaycan ilə Aİ arasında Müasirləşmə üçün Tərəfdaşlıq sənədinin hazırlanmasına dair razılıq əldə edilmişdir.

Eyni zamanda, Aİ-Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində iki yeni Alt-komitənin - Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə Alt-komitə və Məşğulluq, sosial məsələlər, ictimai sağlamlıq, təlim, təhsil və gənclər, mədəniyyət, informasiya cəmiyyəti və audiovizual siyasət, elm və texnologiya üzrə Alt-komitə - yaradılması haqqında Protokol imzalanmışdır. Bu Alt-komitələr Avropa Qonşuluq Siyasətinin Fəaliyyət Planının həyata keçirilməsinin sürətləndirilməsi və monitorinqi, Aİ-nin Şərq Tərəfdaşlığı təşəbbüsünün məqsədlərinə səmərəli şəkildə nail olunması, həmçinin müvafiq sahələr üzrə ekspertlər səviyyəsində məlumat və müsbət təcrübələrin mübadiləsinə əsaslı töhfə vermək imkanı yaradacaqdır.

Azərbaycanın Avropa və avro-atlantik məkanın sülh və təhlükəsizliyini təmin edən ən nüfuzlu hərbi-siyasi təşkilatı NATO ilə də tərəfdaşlıq münasibətləri inkişaf etdirilmişdir. 2010-cu ildə NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının 2-ci fazası rəsmi olaraq başa çatdırılmış və bu çərçivədə nəzərdə tutulan tədbirlər Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən uğurla yerinə yetirilmişdir.

NATO ilə əməkdaşlıq mexanizmlərindən istifadə etməklə, Azərbaycan beynəlxalq təhlükəsizliyə töhfə vermək istiqamətində imkanlarını ardıcıl olaraq təkmilləşdirmiş və bu istiqamətdə real addımlar atılmışdır. NATO-nun Texniki Təminat və Təchizat Agentliyinin (NAMSA) həyata keçirdiyi "Gürcüstan III Etimad Fondu" adlı layihə çərçivəsində Gürcüstan ordusunun mühəndis bölüyünün humanitar mina təmizləmə, döyüş ərazisinin təmizlənməsi və böyük həcmli sursatların məhv edilməsi üzrə təlimlərin keçirilməsi bu sahədə yüksək təcrübə və müasir təlim təsisatlarına malik olan Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə həvalə edilmişdir.

Çoxtərəfli beynəlxalq əməkdaşlıq münasibətlərimiz bir sıra regional təşkilatlar, o cümlədən AQEM, MDB, GUAM, QDİƏT, İƏT və s. çərçivəsində də davamlı olaraq inkişaf etdirilmişdir. Regional təşkilatlarla qarşılıqlı öhdəlik, anlaşma və əməkdaşlıq ruhunda artan əməkdaşlığımızın gücləndirilməsi bu təsisatlar çərçivəsində ölkəmizin nüfuzunun təşviqi və maraqlarının təminatı ilə yanaşı, beynəlxalq ictimai rəyin düzgün formallaşdırılması və istiqamətləndirilməsi baxımından da faydalı olmuşdur.

2010-cu ildə başlanmış regional layihələr sırasında sərhəd təhlükəsizliyinin səmərəli təminatı istiqamətində Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı "Cənubi Qafqaz ölkələrində İnteqrə edilmiş Sərhəd İdarəetmə sistemlərinə dəstək" adlı layihənin icrası vacib önəm kəsb etmişdir. Dövlət sərhədinin təhlükəsizliyi ilə bağlı tarixi və siyasi əhəmiyyətə malik olan Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası üzrə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə" də cari ildə imzalanmışdır. Qeyd olunmalıdır ki, tarixdə ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arazında dövlət sərhədlərinin müəyyən edilməsi beynəlxalq hüquqda öz təsbitini tapmışdır.

Regional məsələlərin müzakirəsi və ölkələr arasında əməkdaşlığın daha da dərinləş-

dirlməsi məqsədilə 2010-cu ildə İstanbulda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Azərbaycan, Türkiyə və İran Xarici İşlər Nazirlərinin üçtərəfli görüşünün təşkil edilməsi təklifi irəli sürülmüşdür. 2011-ci ilin birinci rübündə növbəti üçtərəfli görüşün keçirilməsi nəzərdə tutulmuşdur.

Bütövlükdə, 2010-cu il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici dövlətlərə dövlət, rəsmi və işgüzar səfərləri, habelə xarici dövlətlərin başçılarının Azərbaycan Respublikasına rəsmi səfərləri, Azərbaycan Respublikasının xarici ölkələrlə müxtəlif sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyalarının iclasları, o cümlədən digər səviyyələrdə rəsmi səfərlər mübadiləsi nəticəsində 50-ə yaxın dövlətlə 100-ə dək ikitərəfli beynəlxalq sənədin razılaşdırılıb imzalanması və sonradan müvafiq qaydada hüquqi qüvvəyə minməsi təmin edilmişdir.

Bakıda keçirilmiş III Xəzər Zirvə Görüşündə ilk dəfə olaraq Xəzəryanı dövlətlər arasında təhlükəsizlik sahəsində sənədin imzalanması, Zirvə Görüşü sənədləri qismində həm Birgə Bəyanatın, həm müqavilənin, həm də Protokol Qərarın qəbul edilməsi tədbirin yüksək əhəmiyyət və məhsuldarlığının göstəricisi olmuşdur.

Digər mühüm sənəd Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın dövlət və hökumət başçılarının Bakı Enerji Zirvə Görüşündə imzalanmış Bakı Bəyannaməsi olmuşdur. Bəyannamə Azərbaycan təbii qazının nəqlinin diversifikasiya məqsədini güdmüşdür.

Enerji siyasətinin xidmət etdiyi iqtisadi diplomatiyamızın əsas vəzifəsi ötən illərdə olduğu kimi, bu ildə Azərbaycan Respublikasının dinamik və davamlı inkişafı istiqamətində ölkəmizin regional və beynəlxalq aləmdə artan nüfuzunun və milli maraqlarımıza cavab verən əlverişli mühitin təmin edilməsi olmuşdur. Azərbaycanın regionda aparıcı ölkə statusunun saxlanılmasına böyük önəm verilmişdir.

İl ərzində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən dövlətimizin uğurlu xarici siyasət kursunun həyata keçirilməsinin vacib istiqamətlərindən biri də xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiəsi və onlara göstərilən konsul xidmətinin səmərəliliyinin və intensivliyinin artırılması, ümumilikdə isə, bu istiqamətdə xarici dövlətlərlə diplomatik və konsulluq əlaqələrinin inkişafına təkan verilməsinə yönələn fəaliyyət təşkil etmişdir.

Milli maraqlarımızın təmin edilməsinə yönəlmiş ardıcıl xarici siyasət kursu çərçivəsində ikitərəfli əlaqələrin inkişafı dövlətimizin beynəlxalq səviyyədə nüfuzunun və mövqeyinin daha möhkəmləndirilməsinə xidmət etmişdir.

2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İsveçrə, Almaniya, Estoniya, Türkiyə, Rusiya, Ukrayna, Portuqaliya, ABŞ, Gürcüstan və Özbəkistana dövlət, rəsmi və işgüzar səfərləri, Bolqarıstan, Belarus, Serbiya, Sloveniya, Türkiyə, Rusiya, Rumıniya, Macarıstan, İordaniya və Mavritaniyanın ölkə və hökumət başçılarının Azərbaycana həyata keçirdikləri səfərlər, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları, XİN-lər arası siyasi məsləhətləşmələr ikitərəfli əməkdaşlığın dərinləşməsini təmin etmişdir.

Azərbaycanın diplomatik nümayəndəliklərinin əhatə dairəsi də genişlənmiş və il ərzində Xorvatiya, Estoniya, Serbiya, Liviya və Argentinada Azərbaycanın səfirlikləri, Rusi-

yanın Yekaterinburq və Gürcüstanın Batumi şəhərlərində Baş konsulluğu, həmçinin Almaniyanın Stutqart və ABŞ-ın Santa Fe şəhərlərində fəxri konsulluqları açılmışdır. Eyni zamanda cari il ərzində Azərbaycanda Avstriya, Niderland Krallığı, Fələstin və İndoneziyanın səfirlikləri, Gəncə şəhərində isə Türkiyənin baş konsulluğu fəaliyyətə başlamışdır.

Bununla yanaşı, 2010-cu ildə Azərbaycan Respublikasının Cənubi Afrika Respublikası, İraq, Vyetnam və Braziliyada səfirliklərinin açılması barədə müvafiq qərarlar qəbul olunmuşdur.

İl ərzində Azərbaycan Respublikası ilə Svazilend Krallığı, Marşal Adaları Respublikası, Sent Lusiya, Fici Respublikası və Qrenada arasında bu ölkələrlə imzalanmış Birgə Kommünikelər əsasında diplomatik əlaqələr qurulmuşdur.

Müasir dövrdə ölkələrarası münasibətlərin əvvəlki illərlə müqayisədə çox müxtəlif sahələri əhatə etdiyini nəzərə alsaq, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının həmsərhəd ölkələr başda olmaqla müxtəlif dövlət və onların regionları ilə çoxşaxəli əlaqələr qurması Azərbaycan Respublikasının xarici siyasət xəttinə mühüm töhfə təşkil etmişdir.

Peşəkar kadrların hazırlanmasında Azərbaycan Diplomatik Akademiyasının (ADA) apardığı səmərəli fəaliyyət təqdirə layiq olmuşdur. 2010-cu ildə ADA-nın Diplomatiya və Beynəlxalq Münasibətlər üzrə magistr proqramına 23 yerli və xarici tələbə qəbul olunmuşdur. Akademiyada icraedici qurumların nümayəndələri üçün təlim proqramları təşkil olunmaqla, 18 dövlət qurumundan iştirak edən 48 nəfər dövlət qulluqçusuna xaricdən dəvət olunan aparıcı mütəxəssislər tərifindən təlimlər keçirilmiş və müvafiq peşə bilikləri ilə təcrübənin artırılması, eləcə də idarələrarası əməkdaşlıq və əlaqələndirmənin təkmilləşdirilməsi məqsədinə nail olunmuşdur.

2010-cu ildə Azərbaycan diplomatiyası mürəkkəb və beynəlxalq münasibətlərdəki ziddiyyət dolu dövrdən keçmişdir. Qarşıda duran strateji vəzifələri məqsədyönlü və ardıcıl şəkildə həyata keçirməklə, xarici siyasətimiz prioritet hesab olunan fəaliyyət istiqamətləri üzrə yüksək tempi aşağı salmadan dünyada baş verən dinamik, o cümlədən gözlənilməz dəyişikliklərin çağırışlarını kifayət qədər müvəffəqiyyətlə cavablandıra bilmişdir.

2011-ci ilin xarici siyasət oriyentirlərinin ilk sırasında Azərbaycanın ərazi bütövlüyü əsasında Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması məsələsində yüksək səfərbərlik, Xəzəryanı bölgədə mehriban qonşuluq əlaqələrinin saxlanılması və yüksək etimadın qurulması, yüksələn fəal əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi, zəngin karbohidrogen ehtiyatlarının ixracı və nəqlində ən sabit və etibarlı ölkə qismində mövqeyimizin möhkəmləndirilməsi, sivilizasiyalararası dialoqa töhfə məqsədilə ölkənin unikal çoxmədəniyyətli xüsusiyyətləri və geosiyasi özəlliyindən səmərəli şəkildə istifadə olunması məsələləri yer alır.

Xarici siyasətimizin maraqlarına ənənələr və müasirlik, həmçinin prinsipiallıq və çevikliyin uzlaşdığı formula xidmət edəcəkdir.

Nazir E.Məmmədyarov Küveyt Dövlətinə işgüzar səfəri çərçivəsində bu ölkənin Vəliəhdi Əlahəzrət Şeyx Nəvvaf Əl-Əhməd Əl-Cabir Əl-Sabah ilə 10 yanvar 2011-ci ildə görüş keçirmişdir

Görüşdə Azərbaycan ilə Küveyt arasında ikitərəfli münasibətlərə dair müzakirələr aparılmışdır. Vəliəhdi Əlahəzrət Şeyx Nəvvaf Əl-Əhməd Əl-Cabir Əl-Sabah ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək, Azərbaycanda enerji sahəsində son inkişaf prosesi və xüsusilə də təbii qaz hasilatı və ixracı sahəsində aparılan işlərlə maraqlanmışdır. Nazir E.Məmmədyarov Küveyt Dövlətinin Vəliəhdinə ölkəmizin enerji sahəsində apardığı işlər, müxtəlif ölkələrlə bu sahədə əməkdaşlıq və həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində verdiyi töhfəsi barədə məlumat vermişdir.

Sonra tərəflər ikitərəfli, regional münasibətlər və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun rəhbərliyi altında Azərbaycanın nümayəndə heyəti Azərbaycan-Küveyt Hökumətlərarası Komissiyasının birinci iclasının işində iştirak etmək məqsədilə Küveyt Dövlətinə işgüzar səfərə yola düşmüşdü.

İki günlük səfər çərçivəsində nazir E.Məmmədyarovun Azərbaycan-Küveyt Hökumətlərarası Komissiyasının birinci iclasında iştirakı ilə yanaşı Küveyt Dövlətinin Vəliəhdi Əlahəzrət Şeyx Nəvvaf Əl-Əhməd Əl-Cabir Əl-Sabah və Küveyt Dövlətinin Baş Naziri Əlahəzrət Şeyx Nasser Əl-Məhəmməd Əl-Əhməd Əl-Cabir Əl-Sabah ilə görüşü nəzərdə tutulub.

Bununla yanaşı Azərbaycan-Küveyt Hökumətlərarası Komissiyasının birinci iclasının yekunlarına dair birgə press-konfransın keçirilməsi və nazir E.Məmmədyarovun Küveytin "Ər-Ray" qəzetinə, "Sabah" televiziya kanalına müsahibə verməsi planlaşdırılıb.

Nümayəndə heyəti 11 yanvar tarixində Azərbaycana dönəcək.

Nazir E.Məmmədyarov Küveyt Dövlətinə işgüzar səfəri çərçivəsində Küveyt Dövlətinin Baş Naziri Əlahəzrət Şeyx Nasser Əl-Məhəmməd Əl-Əhməd Əl-Cabir Əl-Sabah ilə görüş keçirmişdir

Görüşdə Azərbaycan ilə Küveyt arasında ilk Hökumətlərarası Komissiyasının iclasının nəticələri müzakirə olunmuşdur. Əlaqələrin genişləndirilməsi üçün mövcud potensialdan səmərəli istifadə edilməsinin zəruriliyindən danışan tərəflər komissiyanın qəbul etdiyi protokolda əldə edilmiş sahələr üzrə razılıqlar;n bu prosesə təkan verəcəyi bildirilmişdir. Şeyx Nasser ölkələr arasında uçuşların təşkil edilməsi vacibliyini söyləyərək, həmçinin neft şirkətləri arasında da əlaqələrin genişləndirilməsinə də ehtiyac olduğunu vurğulamışdır.

Sonra Baş Nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıq prosesi və Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlərlə maraqlanmışdır. Cavab olaraq nazir E.Məmmədyarov hər iki məsələyə dair ətraflı məlumat vermişdir.

Görüş zamanı tərəflər qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparmışlar.

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın birinci iclası keçirilmişdir 11 yanvar 2011-ci il

10 yanvar tarixində Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın birinci iclası keçirilmişdir. İclas zamanı siyasi və diplomatik, iqtisadiyyat və ticarət, investisiya və maliyyə, sənaye və energetika, hərbi, ali təhsil və elmi tədqiqatlar, nəqliyyat, rabitə və informasiya texnologiyaları, turizm, informasiya və mədəniyyət, səhiyyə və ekologiya, gənclərlə iş və idman sahələrində Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunmuşdur.

Tərəflər iki ölkə arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini qeyd etmişlər. Küveyt tərəfi Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulamışdır. İslam Konfransı Təşkilatının (İKT) Zirvə Görüşünün 2014-cü ildə Bakıda keçirilməsi ilə bağlı Azərbaycanın təklifi Küveyt tərəfindən alqışlanmış və Azərbaycanın 2013-cü il üçün BMT-in Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəkləyəcəyini bildirilmişdir.

Birinci iclasın sonunda Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında aşağıdakı sənədlər imzalanmışdır :

1. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın birinci iclasının Protokolu;

2. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq haqqında Saziş;

3. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında diplomatik / xüsusi pasportlara malik olan şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş.

Tərəflər əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədi ilə qarşılıqlı maraq doğuran müxtəlif mövzular ətrafında məsləhətləşmələr və müzakirələrin aparılmasının davam etdirilməsi barədə razılığa gəlmişlər.

Qeyd edilməlidir ki, iclasda Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının xarici işlər naziri cənab Elmar Məmmədyarov, Küveyt nümayəndə heyətinə isə Küveyt Dövlətinin xarici işlər naziri cənab Şeyx Məhəmməd əl-Sabah rəhbərlik etmişlər.

Cari ilin 13 yanvar tarixində Azərbaycan Respublikasında səfərdə olan Avropa Komissiyasının Prezidenti Xose Manuel Barrozo Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ilə birgə press-konfransda çıxışında digər məsələlərlə birlikdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə danışarkən Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir. X.M.Barrozo demişdir: (sitat) "İcazə verin, onu da bildirim ki, Avropa Birliyi, əlbəttə ki, tərəfdaşlarının, o cümlədən Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəkləyir. Biz ATƏT-in Minsk Qrupunun

səylərini tam dəstəkləyirik və etimad yaratma tədbirlərini maliyyələşdirməyə hazırıq." (Let me also stress that European Union of course supports the principle of territorial integrity of its partners including Azerbaijan. We are fully backing the efforts of the OSCE Minks Group andE we stand right to provide further support if agreed by all parties).

Xarici İşlər Nazirliyi dərin narahatlıqla bildirir ki, M.Barrozanın xarici və yerli kütləvi informasiya vasitələri qarşısında etdiyi çıxış, Avropa Komissiyasının rəsmi internet səhifəsində tam şəkildə yerləşdirilməmiş və çıxışın Azərbaycanın ərazi bütövlüyünə aid hissəsi çıxarılaraq digər fikirlərlə əvəz edilmişdir.

Xarici İşlər Nazirliyi bildirir ki, belə bir hal təəssüf və təəccüb doğuraraq Avropa İttifaqı ilə münasibətləri, qarşılıqlı etimad və əməkdaşlığı ciddi sual atına qoya bilər. Xarici İşlər Nazirliyi bir daha xatırladır ki, Azərbaycan Respublikası BMT, ATƏT və digər beynəlxalq təşkilatlara SSSR-i daxilində olduğu sərhədləri çərçivəsində üzv qəbul olunub və ölkənin ərazi bütövlüyü və suverenliyi dünyanın bütün dövlətləri tərəfindən (Ermənistan Respublikası istisna olmaqla) tanınır. Avropa Komissiyasının rəsmi internet səhifəsində M.Barrozanın çıxışına edilən düzəlişlər Avropa İttifaqının imicinə mənfi təsir edə biləcək addım kimi qiymətləndirilərək, eyni zamanda Aİ-ı ilə Azərbaycan Respublikası arasında 1999-cu ildə imzalanmış "Əməkdaşlıq və tərəfdaşlıq Sazişinin" ruhuna ziddir.

Nazir E. Məmmədyarovun 10-11 yanvar Küveytin "Əl-Ray" qəzetinə verdiyi müsahibənin tərcüməsi
21 yanvar 2011-ci il

- Ölkəyə səfəriniz əsnasında siyasi rəhbərliklə görüşdünüzmü, məsul şəxslərlə danışıqlar həyata keçirdinizmi?

- Səfər zamanı Vəliəhd Şeyx Nəvaf Əl-Əhmədlə görüşmək şərəfinə nail oldum və Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən Əlahəzrət Əmir Sabah Əl-Əhmədə ünvanlanmış məktubu ona təqdim etdim. Məktubda Əlahəzrət Əmirin Bakıya dəvəti yenilənmişdir ki, biz bu səfərin ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəyinə inanırıq.

Həmçinin, Əlahəzrət Vəliəhdi də ölkəmizə dəvət etmək şərəfinə nail oldum. Eyni zamanda, Baş nazir Şeyx Nasir Əl-Məhəmmədlə danışıqlar aparmaq fürsəti əldə etdim. Danışıqlar zamanı iki ölkə arasında müştərək mədəniyyət, dini və tarixi təmələ əsaslanan və öz dinamikliyi ilə seçilən mövcud münasibətlərlə əlaqədar məsələləri müzakirə etdik. Danışıqlarda əlaqələrin daha da yaxınlaşması və qüvvətləndirilməsi istiqamətində iş aparılması zərurəti də vurğulandı.

Bununla yanaşı, qarşılıqlı maraq kəsb edən bir sıra regional və beynəlxalq problemlərə də münasibətdə fikir oxşarlığının da olduğunu qeyd etmək lazımdır ki, danışıqlarda bu məsələlərə də toxunduq.

- Azərbaycan region ölkələri və xüsusilə də Küveytlə daha da sıx əlaqələrin əldə olunmasına çalışır. Siz Küveytin regionda və beynəlxalq məsələlərdə rolunu necə qiymətləndirirsiniz?

- Küveyt mühüm və şərəfli tarixə malik bir ölkədir. Biz müstəqillik əldə etdiyimiz ilk

günlərdən və xüsusilə də hər iki ölkənin enerji və qaz ixracatçısı olduğundan, bu ölkə ilə əlaqələrin daha da inkişaf etdirilməsinin, Küveytin tarixi təcrübəsindən faydalanmağın vacibliyini nəzərə almışıq. Burada hər iki ölkənin ortaq xüsusiyyətlərini, həmçinin Küveytin neft sərvətlərinin inkişaf və xalqın rifahına yönəldilməsi təcrübəsini də qeyd etmək lazımdır.

Küveyt regionda xüsusi çəkisi olan bir ölkədir və beynəlxalq arenada da müsbət nüfuza malikdir. Biz özündə bu ölkə ilə bütün sahələrdə əməkdaşlıq və xüsusi münasibətlərin inkişafını nəzərdə tutan bir gələcəyə inanırıq.

- Baş nazirinin müavini, Xarici İşlər Naziri Şeyx d-r Məhəmməd Əl-Sabah BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi üçün ölkənizin namizədliyinin Küveyt tərəfindən dəstəklənəcəyini bildirmişdir. Məsələ ilə əlaqədar dəstək əldə olunması məqsədilə digər İslam və ərəb dövlətlərinə də səfərlərin həyata keçirilməsi planlaşdırılırmı?

- Həqiqətən, biz Azərbaycanın 2013-2015-ci illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin Küveyt tərəfindən dəstəklənməsi məsələsini müzakirə etmişik. Ölkəmizin dəstəklənməsi məqsədilə bu il bir sıra dövlətlərə səfərlərim planlaşdırılır.

- Tərəflər arasında neft sahəsində əməkdaşlıq barədə nə deyə bilərsiniz? İnkişaf planının həyata keçirilməsində biz Azərbaycan şirkətlərini görəcəyikmi?

İlk öncə Müştərək Komissiyanın ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə və bütün istiqamətlərdə, o cümlədən kommunikasiya, neft və qaz sahələrində qarşılıqlı əməkdaşlığa öz töhfəsini verəcəyinə inanırıq. Ölkələrimizin enerji istehsalçısı və ixracatçısı olması bu sahədə möhkəm əməkdaşlıq münasibətlərinə şərait yaradır. Enerji sahəsində indiyədək sazişlərin imzalanmamağı heç də bu istiqamətdə tərəflər arasında əməkdaşlığın iflasa uğraması, yaxud danışıqların həyata keçirilmədiyi demək deyildir. Qeyd etmək lazımdır ki, Azərbaycan nümayəndə heyəti Küveyt Neft Kompaniyasından olan həmkarları ilə artıq görüşmüşdür.

Həmçinin qeyd etmək lazımdır ki, Əl-Küveyt, yaxud Bakıda müştərək layihələrin həyata keçirilməsi zərurəti yoxdur. Lakin hər hansı üçüncü bir ölkədə müştərək layihələrin həyata keçirilməsində əməkdaşlıq və tərəfdaşlıq mümkündür. Bu sahədə mövcud ideyaların müzakirəsi istiqamətində iş aparılır.

Biz Küveytdə həyata keçirilən inkişaf planını maraqla izləyir, xüsusilə tikinti və infrastruktur sahəsində təcrübəmizdən istifadə olunmasını təklif edirik.

- İki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq barədə nə deyə bilərsiniz?

Biz Küveyt ictimaiyyətinə, xüsusilə də 2009-cu ildə Azərbaycanda Küveyt mədəniyyət həftəsi keçirildikdən sonra, öz ölkəmizi, mədəniyyətimizi tanıtmaq arzusundayıq. Cari il ərzində Küveytdə Azərbaycan mədəniyyət həftəsinin keçirilməsi qərara alınmışdır.

- Sözünüzün əvvəlində Küveytlə Azərbaycan arasında bir sıra bənzərliklərin olmasını vurğuladınız. Məlumdur ki, hər iki ölkənin irticaya və işğala məruz qalmaq təcrübəsi vardır. Küveyt keçmişin izlərindən qurtarmağı bacarmışdır. Ərazilərin qaytarılması və işğala son qoyulması istiqamətində Azərbaycanın səyləri barədə nə deyə bilərsiniz?

Təbiidir ki, bu bənzərliyin bir hissəsini irticaya və işğala məruz qalmaq kimi müştərək tarix təşkil edir. Xoşbəxtlikdən o zaman beynəlxalq ictimaiyyət işğal olunmuş ərazilərin boşaldılması barədə BMT qərarları, həmçinin Küveytin öz torpaqlarını azad etmək hüququnu dəstəkləyərək bu ölkənin yanında olmuşdur.

Lakin Azərbaycana gəlincə, çox təəssüf ki, BMT-nin Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağla əlaqədar bizim ədalətli mövqeyimizi dəstəkləyən 4 qərarına baxmayaraq, həmin qərarlar həyata keçirilməmişdir və Ermənistan ərazilərimizin 20%-i işğal altında saxlamaqda davam edir. Bir milyondan artıq qaçqın və məcburi köçkünümüz var.

Məsələ ilə əlaqədar danışıqlar və hərbi qüvvələrin regiondan çıxarılması zərurətini təsdiqləyən və bizi dəstəkləyən böyük dövlətlər və Avropa İttifaqı vasitəsilə ardıcıl həyata keçirilən beynəlxalq səylər davam etməkdədir.

Biz torpaqlarımızı qaytaracağımıza var qüvvəmizlə inanır və bunun diplomatik yollarla həyata keçiriləcəyinə ümid bəsləyirik. Baxmayaraq ki, torpaqlar hərbi qüvvə vasitəsilə işğal olunmuşdur və bəzən adekvat addım atmaqdan başqa bir seçim qalmır.

- Bir neçə ay bundan öncə Ermənistan Dağlıq Qarabağa öz müqəddəratını təyin etmək hüququ verilməsini təklif etmişdir. Siz bunu provokasiya hesab etmirsinizmi? Bu halda siz hansı addımlar atacaqsınız?

Biz öz müqəddəratını təyin etmək və yaxud Dağlıq Qarabağa muxtariyyət verməkdən çəkinmirik. Bu, beynəlxalq hüququn aspektlərindən biridir və ölkədə yaşayan azlıqlara yerli hakimiyyət orqanlarının qanadı altında, misal üçün Rusiya Federasiyasında yaşayan tatarlar, çeçenlər və digərləri kimi, öz müqəddəratını təyin etmək hüququnun, yaxud muxtariyyətin verilməsi bir sıra proseslərin həyata keçirilməsini tələb edir.

Biz Dağlıq Qarabağın Vətənə qaytarılması üçün Azərbaycan və erməni xalqları ilə əməkdaşlığa hazırıq. Bu Azərbaycanın dünya ictimaiyyəti tərəfindən dəstəklənən mövqeyidir və heç kim güc tətbiq etməklə sərhədləri dəyişdirə bilməz.

- Sizin Küveytə səfəriniz Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın ölkəyə səfərilə eyni vaxta reallaşmışdır. Siz görüşdünüzmü? Dağlıq Qarabağ münaqişəsinin həllində Ankara hər-hansı bir rol oynaya bilərmi?

Səfər zamanı Baş nazir Ərdoğanla görüşdük və aramızda qısa söhbət oldu. Ankara regionda ümumiyyətlə mühüm rol oynayır. Biz bu rolun ildən-ilə artdığını görürük. Türkiyə regionda stabillik və müvazinət faktoru hesab olunan mühüm, qüdrətli və təcrübəli oyunçudur.

Dağlıq Qarabağ məsələsinə gəlincə, Türkiyə qonşularımızı danışıqlarda daha məntiqli olmağa qane etmək üçün cəhdlər göstərir. Belə ki, beynəlxalq hüquq normalarına görə işğal və davamlı hərbi əməliyyatlar qonşularla davranış metodu deyildir.

- Rusiyanın Xarici İşlər Naziri Siz və erməni həmkarınızın iştirakı ilə görüşün keçirilməsinin gözləndiyi bildirir. Bu görüşə hazırlıqlar harada aparılır? Bu görüşün müsbət nəticələr verəcəyinə inanırsınızmı?

Rusiya mühüm rol oynayır. O, Ermənistanla problemimizdə əsas vasitəçiləri özündə

birləşdirən Minsk qrupunun üzvüdür. Keçən iki il ərzində Rusiya Prezidenti danışıqlar vasitəsilə qabaqcıl rol oynamışdır. Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan prezidenti Serj Sarqsyan və Rusi Prezidenti Dmitri Medvedyevin iştirakı ilə 1+2 formatında danışıqlar keçirilmişdir.

Həmin məsələ ilə əlaqədar xarici işlər nazirləri səviyyəsində də, əksəriyyəti Moskvada olmaqla, bir sıra görüşlər keçirilmişdir. Biz problemin həlli istiqamətində işləməliyik.

Görüş barəsində təklif Rusiyanın Xarici İşlər Naziri S. Lavrov tərəfindən irəli sürülmüş və tərəflər bu təklifi qəbul etmişlər. Görüşün gələn ayın əvvəlində keçiriləcəyi gözlənilir.

- Avropa İttifaqı da sizin Ermənistanla münaqişənizin həllinə yardım etməyə hazır olduğunu bildirmişdir. Siz bu təklifi necə qiymətləndirirsiniz? Bu təklifin uğur qazanmaq şansı varmı?

Böyük dövlətlərin təklifləri və beynəlxalq təşkilatların töhfəsi bizim maraqlarımıza cavab verir. Biz yalnız bir tərəfin deyil, müxtəlif tərəflərin təkliflərini nəzərdən keçirməliyik.

- Beynəlxalq münasibətlərinizə gəlincə, rəsmi Bakı ərəb və İslam dövlətlərilə əlaqələr və İsrail ilə sıx diplomatik və iqtisadi əməkdaşlıq arasında orta mövqe tutmağı necə bacarır?

Bizim İslam dövlətləri ilə xüsusilə Türkiyə və İKT ilə özəl münasibətlərimiz var. Əgər biz BMT-də keçirilən səsvermələrə nəzər salsaq, Azərbaycanın daim İslam və ərəb dövlətlərinin problemlərilə əlaqədar dəstək mövqeyində durduğunu görərik.

İsrailə gəlincə, bizim bu ölkə ilə diplomatik əlaqələrimiz var və İsrailin Bakıda səfirliyi fəaliyyət göstərir. Belə ki, ölkəmizdə böyük yəhudi icması vardır. Bizim İsraillə möhkəm iqtisadi əlaqələrimiz də mövcuddur.

Lakin Fələstin problemindən danışdıqda, təbii ki, biz Fələstini dəstəkləyirik və bu istiqamətdə bizim mövqeyimiz aydındır.

Biz indiyədək Tel- Əvivdə səfirliyimizi açmamışıq. Çünki, biz iki dövlət - İsrail və Fələstin dövlətinin olmasının tərəfdarıyıq. Görək bu il nə əldə olunacaq. Mən Fələstinin BMT-də tam üzvlük və digər dövlətlərlə yanaşı tam mandat əldə etməsinin vacibliyinə inanıram.

- Lakin siz İsraillə təhlükəsizlik sahəsində də əməkdaşlıq edirsiniz. Sizcə bu məsələ qonşularınızla, xüsusilə də İranla münasibətlərinizə təsir göstərə bilər?

Bizim İsraillə təhlükəsizlik sahəsində əməkdaşlığımızın səbəbi işğala məruz qalmağımız, bəzən isə Azərbaycana silah satılması ilə əlaqədar bir sıra problemlərlə üzləşməyimiz olmuşdur. Məsələ silahlı qüvvələrimizin bərpa olunması istiqamətində Müdafiə Nazirliyinin xarici partnyorlara ehtiyacından doğmuşdur. Biz o zaman ordumuzun silahlandırılması ilə əlaqədar bir sıra dövlətlərə müraciət etmişdik və müraciətimizi ilk olaraq İsrail cavablandırmışdı.

İranla münasibətlərə gəlincə, bizim İsraillə əlaqələrimiz bu münasibətlərə heç vaxt təsir edə bilməz. Biz qonşuyuq, İranda eyni dildə danışdığımız böyük Azərbaycan icması

vardır, biz müştərək adət-ənənələrə malikik və mehriban qonşuluq siyasətinə inanırıq.

- Bəziləri Azərbaycanın İsraillə İran arasında platsdarma çevrildiyini hesab edirlər.

Mən bizim kimsə tərəfindən istifadə olunmağımızın mümkün olduğunu düşünmürəm. Biz iki ölkə arasında münasibətlərdə vəziyyəti idarə etmək imkanına malikik.

* * *

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov Küveyti ölkəsinə, xüsusilə də Dağlıq Qarabağ münaqişəsilə əlaqədar göstərdiyi humanitar, iqtisadi və siyasi dəstəyi yüksək qiymətləndirdiyini bildirdi. Nazir, "Biz Küveytin ölkəmizə göstərdiyi ardıcıl dəstəyə görə olduqca minnətdarıq. Mən görüş zamanı ölkəmin minnətdarlığını cənab Baş nazir Şeyx Nasir Əl-Məhəmmədə çatdırdım. Biz Küveytə yalnız problemimizlə əlaqədar beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin mövqeyini dəstəkləməsinə görə deyil, həmçinin Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkən qaçqın və məcburi köçkünlərimizin ehtiyaclarının ödənilməsində göstərdiyi yardıma görə də minnətdarıq" dedi.

Söhbət zamanı cənab Nazir Elmar Məmmədyarov Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşünü bir daha xatırlatdı və "mən Küveytdə ölkənin rəsmi qonağının şərəfinə verilən ziyafətə ölkənin digər qonaqlarının da dəvət olunması və bununla bir sıra görüşlər və müzakirələr üçün şərait yaradılması kimi çox gözəl bir adətlə rastlaşdım" dedi.

Küveyt Millət Məclisinin dörd qadın deputatının ölkəsinə səfərini şərh edən Nazir hər iki ölkədə qadınlarının rolunun bütün sahələrdə artmasının Küveyt və Azərbaycanda demokratik təcrübə və ənənələrlə əlaqədar olduğunu qeyd edərək, Qadın, ailə və uşaq Dövlət Komitəsinin sədri x-m Hicran Hüseynovanı və Azərbaycan Parlamentinin vitse-spikeri x-m Bahar Muradovanı Küveytə səfər etmələrini tövsiyə edəcəyinin bildirdi.

Cari ilin 27 yanvar tarixində nazir E. Məmmədyarov Avstriyanın Sənaye İttifaqının prezidenti Fayt Zorgeri qəbul etmişdir
28 yanvar 2011-ci il

Azərbaycanda olduğundan məmnunluq duyduğunu qeyd edən qonaq onu qəbul etdiyi üçün nazir E. Məmmədyarova dərin təşəkkürünü bildirmiş və ölkəmizdə gedən dinamik inkişafın şahidi olduğunu, habelə ölkə böyük iqtisadi potensialın mövcudluğunu qeyd etmişdir. Bunları nəzərə alaraq qarşılıqlı sərmayə qoyuluşlarını həyata keçirməyin mühümlüyünu vurğulamışdır.

Öz növbəsində nazir E.Məmmədyarov inkişaf edən ölkəmizdə həyata keçiriləcək bütün irimiqyaslı layihələrin dövlət tərəfindən dəstəkləndiyini, həmçinin ölkələrimizin Aİ və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etməsinin vacibliyini avstriyalı qonağın diqqətinə çatdırmışdır.

Görüşdə həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər də müzakirə olunmuşdur.

Nazir E.Məmmədyarov Münhendə keçirilən 47-ci Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində ABŞ-nın Dövlət Katibi X.Klintonla görüş keçirmişdir
06 fevral 2011-ci il

Bu gün nazir E.Məmmədyarov Münhendə keçirilən 47-ci Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində ABŞ-nın Dövlət Katibi X.Klintonla görüş keçirmişdir. Görüş zamanı tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsini ətraflı müzakirə etmişlər. E.Məmmədyarov münaqişənin həllinə dair Azərbaycan tərəfinin mövqeyini amerikalı həmkarına çatdırmış, öz növbəsində xanım Klinton məsələnin həllində irəliləyiş əldə edilməsi vaxtının çatdığını demişdir. X.Klinton Əfqanıstanda terror əleyhinə əməliyyatlarda verilən töhfəyə görə Azərbaycan tərəfinə ABŞ-nın minnətdarlığını bir daha çatdırmışdır. Sonra tərəflər ikitərəfli, regional, enerji məsələləri, Yaxın Şərqdə gedən proseslər və digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Nazir E.Məmmədyarov Münhen şəhərində keçirilən növbəti 47-ci Münhen Təhlükəsizlik Konfransında iştirak edir
06 fevral 2011-ci il

Azərbaycan Respublikasının Almaniyadakı Səfirliyindən verilən məlumata görə naziri E.Məmmədyarov Münhen şəhərində keçirilən növbəti 47-ci Münhen Təhlükəsizlik Konfransında iştirak edir. Təhlükəsizlik Konfransı çərçivəsində cənab Elmar Məmmədyrov 5 fevral tarixində Türkiyə Respublikasının Xarici İşlər Naziri cənab Əhməd Davudoğlu, Serbiya Xarici İşlər Naziri cənab Vuk Yeremiç, Avstraliyanın Xarici İşlər Naziri cənab Kevin Rud, Ukraynanın Xarici İşlər Naziri cənab Konstantin Qrişonko ilə ikitərəfli görüşlər keçirmişdir. Sözügedən görüşlər zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri də daxil olmaqla ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, habelə regional və beynəlxalq təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Fevralın 8-də Xarici İşlər Naziri ATƏT-in Parlament Assambleyasının sədri Qoran Lenmarkeri qəbul etmişdir

Fevral ayının 8-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov ATƏT-in Parlament Assambleyasının sədri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçi Qoran Lenmarkerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə tərəflər Azərbaycanla ATƏT arasındakı əlaqələrin qarşılıqlı faydalı şəkildə inkişaf etdirilməsi, ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinin hazırkı mərhələsi ətrafında müzakirələr aparmışlar. Nazir E.Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin fevral ayının 7-də Gürcüstana səfəri, səfər çərçivəsində keçirilmiş görüşlər haqqında qonaqlara ətraflı məlumat vermişdir. O, regionda həyata keçirilən beynəlxalq iqtisadi layihələrdən söz açaraq, bu əməkdaşlığın region ölkələri arasındakı əlaqələrin daha da inkişaf etməyinə, regionda sülhün bərpa edilməsinə və iqtisadi inkişafa önəmli töhfə verəcəyinə əmin olduğunu vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərini yüksək qiymətləndirən nazir Məmmədyarov,

Azərbaycan tərəfinin münaqişənin danışıqlar yolu ilə həll edilməsinə üstünlük verdiyini və sülh prosesinin davam etdirilməsinin tərəfdarı olduğunu qeyd etmişdir. Eyni zamanda o, xarici ölkələrdə yaşayan erməni diasporlarının öz dövlətlərinin xarici siyasət kursuna göstərdiyi mənfi təsirin regionda sabitlik və təhlükəsizliyə ciddi maneələr törətdiyini vurğulamışdır.

Görüşdə tərəflər qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında da ətraflı fikir mübadiləsi aparmışlar.

Nazir E.Məmmədyarov Azərbaycanda səfərdə olan Fransa Senatının üzvləri Natali Qule və Andre Vil - in başçılıq etdikləri nümayəndə heyətini qəbul etmişdir
08 fevral 2011-ci il

8 fevral 2011-ci il tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Fransa Senatının üzvləri Natali Qule və Andre Vil - in başçılıq etdikləri nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əməkdaşlığın inkişafı və regional məsələlər müzakirə olunmuşdur. Nazir E.Məmmədyarov bu əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu bildirmişdir.

Senator N.Qule Azərbaycanda olmasından məmnunluq duyduğunu bildirərək, ölkəmizdə sürətli iqtisadi inkişafın şahidi olduğunu vurğulamışdır. Fransalı rəsmi iki ölkə arasında bir sıra sahələrdə əməkdaşlıq imkanlarının genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. Qonaq Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Fransanın rəsmi mövqeyinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməkdən ibarət olduğunu qeyd etmişdir.

E.Məmmədyarov Fransa Senatının nümayəndə heyətinə Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tərəflər arasında aparılan danışıq prosesi barədə məlumat vermişdir.

Həmçinin görüş zamanı bir sıra qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
09 fevral 2011-ci il

Görüş zamanı tərəflər ölkələr arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etdiyini qeyd bildirmişlər. Turizm, enerji, kənd təsərrüfatı kimi sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd olunmuşdur.

Nazir E.Məmmədyarov regionda vəziyyət barədə danışaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsini regionun ümumi inkişafına mane olan hal kimi qiymətləndirmişdir. iyirmi birinci əsrdə Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal altında saxlanması, orada etnik təmizləmələrin aparılması və dinc əhalini zorakılıqla öz doğma evlərindən qovulması faktı ilə bağlı dünya ictimaiyyətinin öz birmənalı mövqeyini bildirməsinin vacibliyini vurğulamışdır.

Öz növbəsində xanım Dequtienen ölkəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyini birmənalı dəstəklədiyini deyərək, Litva Seymində 50-yə yaxın deputatın imzası altında münaqişə ilə bağlı qətnamənin hazırlandığını demişdir. Münaqişənin tezliklə və sülh yolu ilə həll olunmasını arzulayan Litvalı qonaq bunun üçün beynəlxalq strukturların səylərinin artmasının vacibliyini qeyd etmişdir.

Azərbaycan Respublikasının İtaliyadakı səfiri Vaqif Sadıqov öz etimadnaməsini Kurinale Sarayında İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanoya təqdim etmişdir
09 fevral 2011-ci il

Azərbaycan Respublikasının İtaliyadakı Səfirliyindən verilən məlumata əsasən cari ilin 8 fevral tarixində Azərbaycan Respublikasının İtaliyadakı səfiri Vaqif Sadıqov öz etimadnaməsini Kurinale Sarayında İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanoya təqdim etmişdir. Prezident C.Napolitano ilə keçirilmiş söhbət zamanı səfir V.Sadıqov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmimi salamlarını və Azərbaycana səfər etməyə dəvətini İtaliya Prezidentinə çatdırmışdır.

Daha sonra V.Sadıqov həmsöhbətinə ölkəmiz haqqında, onun xarici siyasəti, iqtisadi nailiyyətləri, regionda rolu, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı geniş məlumat vermişdir. V.Sadıqov ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini, İtaliyanın ölkəmizin əsas iqtisadi tərəfdaşlarından olduğunu vurğulayaraq, bundan sonra da mövcud əməkdaşlığın bütün sahələrdə genişləndirilməsinin önəmli olduğunu bildirmişdir.

Prezident C.Napolitano ətraflı məlumata görə təşəkkürünü bildirmiş, öz növbəsində İtaliyanın Azərbaycanla əməkdaşlığına böyük önəm verdiyini qeyd etmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanda səfərdə olan Avropa Parlamentinin üzvləri İvo Vaygel və Pino Arlaççini qəbul etmişdir
10 fevral 2011-ci il

Görüşdə Avropanın enerji təhlükəsizliyi və həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında Şərq Tərəfdaşlığı çərçivəsində proqramların həyata keçirilməsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Avropa Parlamentinin üzvləri İ.Vaygel və P.Arlaççi Azərbaycanda olmalarından məmnunluq duyduqlarını bildirmişlər. AP üzvləri Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini qeyd etmişlər.

Nazir E.Məmmədyarov AP üzvlərinə Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tərəflər arasında aparılan danışıq prosesi barədə məlumat vermişdir.

Həmçinin görüş zamanı bir sıra qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E. Məmmədyarovun Ukraynaya 23-24 fevral tarixlərində rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər haqqında

23 fevral 2011-ci il tarixində Nazir Elmar Məmmədyarov Ukraynaya səfəri çərçivəsində bu ölkənin Xarici İşlər Naziri Konstantin Qrişenko ilə görüş keçirmişdir. Görüş zamanı iki ölkə arasındakı siyasi münasibətlərin və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın yüksək səviyyədə aparıldığı bildirilmişdir. Xarici İşlər Nazirləri İqtisadi sahədə, xüsusilə enerji sahəsində əməkdaşlığın sürətlə genişləndiyini vurğulamışlar. Bununla yanaşı görüş zamanı humanitar sahədə də münasibətlərin inkişafı məsələsi diqqət mərkəzində olmuşdur.

Azərbaycanın Xarici İşlər Naziri azərbaycanlıların Liviyadan təxliyə edilməsinə şəraitin yaradılmasına görə Ukrayna tərəfinə təşəkkürünü bildirmişdir. Görüşdə tərəflər iki ölkə arasında hökumətlərarası komissiyanın növbəti iclasının keçirilməsi məsələsini müzakirə etmişlər.

Həmçinin görüş zamanı regional, qlobal və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

23 fevral 2011-ci il tarixində Nazir Elmar Məmmədyarov Ukraynanın Ali Radasının Sədri cənab Vladimir Litvin ilə görüşü keçirilmişdir. Görüş zamanı iki ölkə arasındakı siyasi və iqtisadi məsələlər müzakirə edilmişdir. Azərbaycan və Ukrayna Parlamentləri arasında əməkdaşlığın yüksək səviyyədə aparıldığı vurğulanmış və Parlament diplomatiyasının əhəmiyyəti xüsusi olaraq qeyd edilmişdir. Hər iki ölkənin parlamentlərarası dostluq qruplarının fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Həmin gün Nazir E.Məmmədyarov Ukraynanın Baş Naziri cənab Nikolay Azarov ilə görüşmüşdür. İkitərəfli münasibətlərin müzakirəsi ilə yanaşı Ukrayna Prezidentinin Azərbaycana səfərindən öncə Azərbaycan - Ukrayna Hökumətlərarası Komissiyanın iclasının keçirilməsi qərara alınmışdır. Buna əlavə olaraq, iki ölkə arasında kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə biznes forumun və müvafiq sərgilərin keçirilməsi ilə bağlı razılıq əldə edilmişdir.

Ukraynada rəsmi səfərdə olan Azərbaycanın Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov 24 fevral 2011-ci il tarixində Kiyevdə keçirilən GUAM Xarici İşlər Nazirlərinin növbəti toplantısında iştirak etmişdir. Toplantıda GUAM çərçivəsində aparılan işlərin nəticələri və perspektiv planlar, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə mövzusu olmuşdur. Tədbir çərçivəsində Nazir E.Məmmədyarov Moldova Baş Nazirinin müavini və Xarici İşlər Naziri cənab Yuri Leanka ilə görüş keçirmişdir. Görüşdə Azərbaycanla Moldova arasında ikitərəfli münasibətlər, enerji, ticarət və digər sahələrdə əməkdaşlıq perspektivlərini müzakirə edilmişdir.

24 fevral tarixində Nazir E.Məmmədyarov Ukraynanın Prezidenti cənab Viktor Yanukoviçlə görüşmüşdür. Ukrayna Prezidenti Azərbaycanla Ukrayna arasında münasibətlərin inkişaf etdiyini vurğulayaraq, iki ölkə arasında enerji sahəsində əməkdaşlığın genişləndiyini yüksək qiymətləndirmişdir. Prezident V.Yanukoviç Azərbaycanın Prezidenti cənab İlham Əliyevlə Davos İqtisadi Forumunda keçirdiyi görüşünün ona yüksək təəssürat bəxş etdiyini qeyd edərək, Azərbaycan Prezidenti ilə müştərək layihələr və təşəbbüsləri müzakirə etdiklərini bildirmişdir.

Xarici İşlər Nazirinin müavini cənab Xələf Xələfov Azərbaycanda səfərdə olan Macarıstanın Dövlət Katibi cənab Yolt Nemetin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
25 fevral 2011-ci il

Azərbaycanda Macarıstanın Səfirliyinin fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən Nazir müavini X.Xələfov həm ikitərəfli əsaslarda həm də beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında aparılan siyasi dialoqu və münasibətlərin inkişafını yüksək qiymətləndirmişdir.

Macarıstanın Dövlət Katibi Y.Nemet onun ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edərək, Azərbaycanın strateji əhəmiyyətə malik olduğunu və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi rol oynadığını vurğulamışdır. Bu baxımdan Azərbaycanla enerji sahəsində əməkdaşlığa və xüsusilə Cənub Dəhlizi layihəsinin reallaşmasına Macarıstanın böyük maraq göstərdiyini bildirmişdir. Y.Nemet yüksək səviyyədə səfərlər mübadiləsinin davam etdirilməsi vacibliyini qeyd etmişdir.

Görüş zamanı Y.Nemet Macarıstan tərəfinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini və buna Azərbaycan tərəfinin əmin ola biləcəyini bəyan etmişdir. O, ATƏT-in Minsk qrupunun qaçqın və məcburi köçkünlərin öz yaşayış yerlərinə qaytarılmasına xüsusi diqqət yetirməli olduğunu bildirmişdir. Həmçinin Macarıstan rəsmisi Avropa İttifaqının Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə daha da çox diqqət yetirməli olduğunu bildirmişdir. Azərbaycanın Avropa ölkəsi olduğunu bildirən Y.Nemet ölkəmizin Avropa İttifaqına inteqrasiyası üçün imkanlarının geniş olduğunu söyləmişdir.

Macarıstanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləməsinə görə Dövlət Katibi Y.Nemetə təşəkkürünü ifadə edən Nazir müavini X.Xələfov Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tək Azərbaycan üçün deyil həmçinin bütün region üçün təhlükəli olduğunu vurğulamışdır. X.Xələfov beynəlxalq ictimaiyyətin təzyiqləri olmadan Ermənistanın Azərbaycana qarşı işğalının davam etdiyini və rəsmi Yerevanın qeyri-konstruktiv mövqedə qalacağını qonağa bildirmişdir.

Həmçinin görüş zamanı regional, qlobal və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

Yunanıstan Respublikasında səfərdə olan Xarici İşlər Naziri E. Məmmədyarov 25 fevral 2011-ci il tarixində bu ölkənin Baş Naziri cənab Corc Papandreu ilə görüşmüşdür
25 fevral 2011-ci il

Azərbaycan və yunanıstan rəsmiləri iki ölkə arasındakı münasibətlərin inkişafı və xüsusilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə edilmişdir.

Həmin gün Nazir E.Məmmədyarov Yunanıstan Respublikası Parlamentinin Prezidenti cənab Filippos Petsalnikos ilə görüşmüşdür. Görüşdə parlamentlərarası dostluq qruplarının fəaliyyətlərinin xüsusi əhəmiyyət kəsb etdiyi qeyd edilmişdir. Nazir E.Məmmədyarov bu ilin fevral ayında Azərbaycan ilə Yunanıstanın hökumətlərarası komissiyasının iclasının uğurlu keçirildiyini vurğulamışdır.

Bununla yanaşı 25 fevral tarixində Nazir E.Məmmədyarov yunan həmkarı Xarici İşlər Naziri cənab Dimitris Droutsas ilə görüşmüşdür. Görüş zamanı iki ölkə arasındakı siyasi münasibətlərin inkişafı, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilmişdir. Xarici İşlər Nazirlərinin görüşündə həmçinin iqtisadi, mədəni və humanitar məsələlər də diqqət mərkəzində olmuşdur.

Nazir E.Məmmədyarov Belçika Krallığının Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luk Troyeni qəbul etmişdir
01 mart 2011-ci il

Etimadnamənin surətini təqdim edən L.Troyen ölkəmizə səfir təyin olunmasından məmnun olduğunu qeyd etmişdir. Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayan qonaq Belçika-Azərbaycan əlaqələrinin dərinləşməsi istiqamətində çalışacağını bildirmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov ölkəmizə səfir təyin olunması münasibətilə belçikalı diplomatı təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

Nazir E.Məmmədyarovun İran İslam Respublikasına səfəri
08 mart 2011-ci il

Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə istinadən Tehranda 7 mart 2011-ci il tarixində Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və hümanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın səkkizinci iclası keçirilmişdir. İclas Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarovun və İranın Xarici İşlər Naziri Əli Əkbər Salehinin həmsədrliyi ilə keçirilmişdir.

Nazir E.Məmmədyarov öz çıxışında Azərbaycan-İran münasibətlərinin sürətlə inkişaf etdiyini qeyd edərək, İranla Azərbaycan arasında mövcud məsələlərin müzakirə edilməsində və həllində heç bir çətinliyin olmadığını bildirmişdir.

Nazir Ə.Ə.Salehi regional iqtisadiyyatı inkişaf etdirməyin hər iki dövlətin ümumi maraqlarına uyğun olduğunu və bunun üçün geniş imkanların mövcudluğunu qeyd etmişdir. Tərəflər ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafını yüksək qiymətləndirmişlər.

İrana səfəri çərçivəsində Xarici İşlər Naziri E.Məmmədyarov İranın Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.

Azərbaycan Respublikası Hökuməti tərəfindən təbii fəlakətin nəticələrini aradan qaldırılması məqsədi ilə Yaponiyaya 1 milyon ABŞ dolları həcmində maliyə yardımı haqqında
18 mart 2011-ci il

Bununla nəzərinizə çatdırırıq ki Yaponiyada baş verən təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və ölkəyə dəymiş ziyanı nəzərə alaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 91-S saylı 18 mart 2011-ci il tarixli sərəncamına əsasən AR Hökuməti tərəfindən təbii fəlakətin nəticələrini aradan qaldırılması məqsədi ilə Yaponiyaya 1 milyon ABŞ dolları həcmində maliyə yardımı göstəriləcəkdir.

ATƏT-in Minsk Qrupunun həmsədrləri işğal edilmiş ərazilərdə ümumi vəziyyətin dəyərləndirilməsi məqsədilə 7-12 oktyabr 2010-cu il tarixlərində Sahə Qiymətləndirmə Missiyasını (SQM) həyata keçirmişlər
28 mart 2011-ci il

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan Respublikası tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən qanunsuz məskunlaşma təcrübəsi, iqtisadi istismar və bu ərazilərin viran edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının müraciəti əsasında ATƏT-in Minsk Qrupunun həmsədrləri Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ətrafında olan işğal edilmiş ərazilərdə ümumi vəziyyətin dəyərləndirilməsi məqsədilə 7-12 oktyabr 2010-cu il tarixlərində Sahə Qiymətləndirmə Missiyasını (SQM) həyata keçirmişlər.

Bu missiyanın həyata keçirilməsində ATƏT Sədrinin Xüsusi Nümayəndəsi və onun komandası, BMT-in Qaçqınlar üzrə Ali Komissarlığından iki mütəxəssis və ATƏT-in 2005-ci ildəki Fakt Araşdırıcı Missiyasının bir üzvü həmsədrlərə qoşulmuşlar.

Sahə Qiymətləndirmə Missiyası bir daha Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılma siyasətinin davam etdirildiyini, həmçinin infrastruktur dəyişikliklərin və iqtisadi fəaliyyətin həyata keçirildiyini aşkarlamışdır ki, bu da Ermənistanın 1993 ildə birləşdiyi 12 avqust 1949 tarixli Mülki Əhalinin Müharibə Zamanı Müdafiəsinə aid Dördüncü Cenevrə Konvensiyası və ona əlavə Protokollara ziddir. Əyani qiymətləndirmə və yerli əhali tərəfindən verilmiş məlumatlara əsasən Azərbaycanın işğal olunmuş yeddi rayonunda qeyri-qanuni şəkildə məskunlaşmış ermənilərin sayı Missiya tərəfindən təqribən 14000 şəxs təşkil edir. Bu köçkünlərin bir hissəsi bərpa edilmiş və ya yenidən inşa edilmiş evlərdə yaşayırlar. Sahə Qiymətləndirmə Missiyasının müşahidələrinə əsasən missiyanın baş çəkdiyi bir sıra inzibati, təhsil və tibbi binalar xaricdən göndərilmiş erməni diasporunun maddi yardımı ilə inşa olunmuş və avadanlıqlarla təchiz edilmişdir.

İnfrastruktur dəyişikliklərinə gəldikdə, Sahə Qiymətləndirmə Missiyasının əldə etdiyi nəticələr infrastrukturun inkişafı, xüsusilə elektrik və içməli su təminatının artırılması üçün səylərin həyata keçirildiyini göstərir. Sahə Qiymətləndirmə Missiyasının baş çəkdiyi bütün, ən ucqar məskunlaşmalar istisna olmaqla, yaşayış məntəqələri elektriklə təmin olunmuşlar. Laçın şəhərinin şimalında, Zabuxçay çayının dərəsində 2.2 meqavat su-elektrik stansiyası müşahidə edilmişdir. Bu stansiya buna bənzər 25 kiçik su-elektrik stansialarının inşa edilməsi ilə bağlı planın bir hissəsidir. Bir neçə məskunlaşma yerlərində istiliyin təmin olunması üçün kiçik qaz boruları mövcuddur ki, sakinlər bunların son beş il ərzində çəkildiyini qeyd etmişlər. 2005-ci ildən fərqli olaraq, missiyanın baş çəkdiyi əksər regionlarda mobil rabitə imkanları mövcuddur.

Sahə Qiymətləndirmə Missiyası həmçinin işğal olunmuş ərazilərin inzibati sərhədləri dəyişdirildiyini müşahidə etmişdir. Sərhədlərin yenidən çəkilməsi, bəzi rayonların adlarının dəyişdirilməsi həm də işğal altında olan ərazilərin inzibati aidiyyətinin dəyişdirilməsi ilə müşayiət edilmişdir. Ermənilər Azərbaycan ərazilərinin və yaşayış məntəqələrinin adlarını dəyişdirir və öz adlarını qoyurlar. Belə ki münaqişədən öncə əhalisinin 70000 insan təşkil etdiyi Ağdam şəhəri erməni xəritələri və yol nişanlarında heç göstərilməyibdir.

Azərbaycanın digər ərazilərində hazırda yaşayan məcburi köçkünlərin gələcəkdə öz torpaqlarına qaytarılmasının yalnız davam edən işğal deyil həmçinin bu bölgələrin dağıdılmış vəziyyəti ucbatından çətin olması ilə bağlı Sahə Qiymətləndirmə Missiyasının yekun rəyi xüsusi narahatçılıq doğurur. Demək olar ki keçmiş sakinlərin bütün şəxsi və ticarət əmlakları dağıdılıbdır. Onların geri qaytarılması üçün regionlarda münasib şərait mövcud deyil. Yerli əhalinin qaytarılması bu bölgələrdə evlərin və əsas infrastrukturun geniş miqyaslı inşası ilə müşayiət edilməlidir. Qeyd edilməlidir ki, vaxt məhdudiyyəti, personalın sayının az olması və ərazilərdə hərəkət üçün mövcud maneələr Missiyaya işğal olunmuş ərazilərdəki vəziyyəti daha ətraflı qiymətləndirməyə və dərin təhlil aparmağa imkan verməmişdir. Lakin buna baxmayaraq, mövcud faktlar o qədər dəhşətli və ağırdırlar ki, hətta üzləşdiyi problemlərlə belə missiyanın tapıntılarının hesabatda əks etdirilməsi qaçılmaz idi.

Sahə Qiymətləndirmə Missiyasının nəticələri işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətin aparılması ilə bağlı Azərbaycanın narahatçılığının əsaslı olduğunu təsdiqləmişdir. Missiyanın müşahidələri Ermənistanın əsas norma və prinsipləri, xüsusilə güc tətbiq etməmək prinsipini pozduğunu və işğal ilə bağlı status-quo (mövcud vəziyyət)-in möhkəmlətmək cəhdlərini bir daha təsdiqləmişdir.

Bu faktlar və müşahidələr həmsədrlər tərəfindən hələ 2005-ci ildə qeydə alınmış və o zaman öz tövsiyələrində onlar "bundan sonra işğal olunmuş əraziləri gələcək hər hansı məskunlaşmaya yol verilməməlidir" və "bu vəziyyətin davam etməsinin uzadılması fait accompli (baş vermiş fakt) gətirib çıxara bilər və bu da sülh prosesini ciddi əngəlləyə bilər" kimi çağırışlar etmişlər. Həmsədrlər öz indiki tövsiyələrində eyni narahatçılıqları və çağırışları etmişlər. Təəssüf ki, Ermənistan son altı il ərzində həmsədrlərin çağırışlarına əməl etməmiş və münaqişənin həlli prinsipinə hörmətsizlik nümayiş etdirməkdədir.

Azərbaycan Sahə Qiymətləndirmə Missiyanın status-quo saxlanılmasının qəbul olunmazlığı ilə bağlı əsas bəyanata diqqəti yönəldərək, Ermənistandan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətinə son qoymağa tələb edir. Azərbaycan aydın şəkildə bəyan edir ki, Ermənistanın bu istiqamətdə davamlı siyasətinə dözüm göstərilməyəcəkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşmaların mövcudluğu həyata keçirilən danışıq prosesinə əngəllər yaradır və münaqişənin davamlı həllinə nail olunması perspektivlərini ciddi sual altına qoyur. Buna görə də bu problemə çevik və xüsusi yanaşma tələb olunur.

Münaqişənin davamlı həlli işğal olunmuş ərazilərdən zorla qovulmuş bütün Azərbaycanlı əhalinin öz doğma yurdlarına qayıtması yolu ilə əldə edilə bilər. İşğal olunmuş ərazilərdəki hazırkı vəziyyət erməni hərbi qüvvələrinin bu ərazilərdən çıxarılmasının və orada bərpa işlərin aparılmasının ləngitməsinə hər hansı bir bəhanə kimi göstərilə bilməz.

Azərbaycan həmsədrlərin işğal olunmuş ərazilərdə münaqişənin təsir etdiyi sahələrdə demoqrafik, sosial və yaxud mədəni xüsusiyyətləri dəyişə biləcək (davam edən qeyri-qanunu məskunlaşma, infrastrukturun inkişafı, iqtisadi istismar və mədəni dəyişikliklər) hər bir fəaliyyətdən və yaxud status-quo-nu dəyişməyə və münaqişənin sülh yolu

ilə həllinə imkan verməyən addımlardan çəkinməyə dair müraciətini dəstəkləyir. ATƏT-in həmsədrlərinin Sahə Qiymətləndirmə Missiyası və həmsədrlərin tövsiyələri bu problemin gələcəkdə baxılması və tənzimlənməsi üçün əsas yaradır. Azərbaycan bu ərazilərin işğalına son qoymaqda beynəlxalq aləmin güclü dəstəyinə inanır. Azərbaycan, Ermənistanın silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasının və Azərbaycanın ərazi bütövlüyünün bərpasının regionda mövcud ciddi təhdid və riskləri azaldacağına və nəinki sülh şəraitində birgə yaşamağa, həmçinin hər bir insanın inkişaf və tərəqqisinə yol açacağına dair dünya miqyasında mövcud anlayışla qəbul edilməsi ilə razılaşır.

Xarici İşlər Nazirliyinin ATƏT-in Daimi Şurasının 7 aprel 2011-ci il tarixli iclasında səsləndirilmiş "Azərbaycanda fundamental azadlıqlarla bağlı vəziyyətə" dair bəyanatı
12 aprel 2011-ci il

11 aprel 2011-ci il tarixində Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin başçısı Səfir R.Kobia Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə dəvət olunmuş və Avropa İttifaqının ATƏT-in Daimi Şurasının 7 aprel 2011-ci il tarixli iclasında səsləndirilmiş "Azərbaycanda fundamental azadlıqlarla bağlı vəziyyətə" dair bəyanatı ilə əlaqədar Azərbaycan Hökumətinin narazılığı və təəssüfü qarşı tərəfə çatdırılmışdır. Qeyd olunmuşdur ki, bu bəyanat qeyri-obyektiv, yanlış məlumatlar əsasında tərtib olunmuş, yerlərdə olan reallıqları əks etmədən qərəzli səciyyə daşıyır. Həmin bəyanat Azərbaycan-Avropa İttifaqı münasibətlərinin mövcud ruhuna ziddir və qəbuledilməzdir. Qarşı tərəfin nəzərinə çatdırılmışdır ki, Azərbaycan Hökuməti demokratik inkişaf prinsiplərinə sadiq qalaraq, üzv olan beynəlxalq təşkilatlar qarşısında öz üzərinə götürdüyü müvafiq öhdəlikləri yerinə yetirir və bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığını davam edir.

Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarov Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Şeyx Abdulla bin Zayed Əl Nahyan ilə görüş keçirmişdir
22 mart 2011-ci il

Birləşmiş Ərəb Əmirliklərindəki Səfiliyimizdən verilən məlumata əsasən cari ilin 21 mart tarixində Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarov Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Şeyx Abdulla bin Zayed Əl Nahyan ilə görüş keçirmişdir.

Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində baş tutmuşdur.

Görüş zamanı hər iki nazir Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, humanitar, elmi-texniki, səhiyyə, təhsil, mədəniyyət, turizm sahələrində ikitərəfli münasibətlərin inkişaf etdiyini vurğulamışlar.

Nazir E.Məmmədyarov Azərbaycan Respublikasının xarici siyasətində Ərəb dünyası ilə əlaqələrə xüsusi önəm verildiyini, ərəb ölkələri ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycan rəhbərliyinin diqqət mərkəzində olduğunu vurğulayaraq, Azərbaycanın Ərəb Dövlətləri Liqası və Körfəz Əməkdaşlıq Şurası ilə əməkdaşlıqda maraqlı olduğunu, bu istiqamətdə ölkəmizin səylərinin BƏƏ tərəfindən dəstəklənməsi-

nin vacibliyini qarşı tərəfin diqqətinə çatdırmışdır.

Nazir Şeyx Abdulla bin Zayed Əl Nahyan öz növbəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında Azərbaycan tərəfinin mövqeyini yüksək qiymətləndirmiş və Azərbaycanın 2012-2013-cü illər üçün BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünə namizədliyinin BƏƏ tərəfindən dəstəkləndiyini bildirmişdir. Bununla yanaşı Şeyx Əl Nahyan Azərbaycan tərəfinin qısa bir müddət ərzində BƏƏ-in Azərbaycanda Səfirliyinin açılmasına icazə verdiyinə görə öz minnətdarlığını bildirərək yaxın zamanda Səfirin də təyin olacağını bildirmişdir.

Görüşün sonunda "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnsan alveri ilə Mübarizə üzrə Milli Komitəsi arasında insan alveri ilə mübarizə üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Nazir E.Məmmədyarov ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Tina Kaydanaunu qəbul etmişdir
25 aprel 2011-ci il

Azərbaycanda olmasından məmnunluğunu bildirən xanım T.Kaydanau ABŞ-ın Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini və ABŞ-ın Azərbaycanla münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd etmişdir.

T.Kaydanau ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həll olunmasında maraqlı olduğunu və bu istiqamətdə öz töhfəsini verməyə hazır olduğunu vurğulamış və ölkəsinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında müsbət irəliləyişin əldə olunmasına tərəfdar olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlar prosesi çərçivəsində 22 aprel 2011-ci il tarixində Moskvada Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Xarici İşlər Nazirlərinin görüşünün keçirildiyini qeyd etmişdir. Nazir E.Məmmədyarov mövcud status-kvonun saxlanılmasını yolverilməz kimi qiymətləndirmişdir. O, regionda davamlı sülhün və sabitliyin bərqərar olması üçün kommunikasiyaların bərpa olunması vacibliyini qeyd edərək, bunun üçün Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın silahlı qüvvələrinin çıxarılmasının əsas şərt olduğunu vurğulamışdır.

Görüşdə həmçinin birgə maraq kəsb edən digər müxtəlif ikitərəfli, regional və qlobal mövzular ətrafında da fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Küveytin Diplomatik Akademiyasının rəhbəri səfir Əbdüləziz Əl-Şarexi qəbul etmişdir
27 aprel 2011-ci il

Ə.Əl-Şarex Azərbaycanda olmaqdan məmnunluq hissi keçirdiyini bildirmiş, Azərbaycan Diplomatik Akademiyasının təsis edilməsini və fəaliyyət təcrübəsini yüksək qiymətləndirdiyini vurğulamışdır. O, Azərbaycanda təhsilə yüksək əhəmiyyət verildiyini qeyd etmişdir. Ə. Əl-Şarex Azərbaycan Respublikasının Xarici İşlər Naziri E. Məmmədyarova Küveytin Xarici İşlər Naziri Şeyx Məhəmməd Əl-Salem Əl-Sabah-ın salamlarını çatdırdığını bildirmişdir.

Nazir E.Məmmədyarov qonağı salamlayaraq, Azərbaycan-Küveyt arasında münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini demişdir. E.Məmmədyarov təhsilə qoyulan sərmayənin ən mühüm yatırım olduğunu da qeyd etmişdir. Bununla yanaşı Azərbaycan Respublikasının Xarici İşlər Naziri E. Məmmədyarov tərəflər arasında gənc diplomatların və ekspertlərin mübadiləsinin aparılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Söhbət əsnasında qarşılıqlı maraq kəsb edən ikitərəfli və regional məsələlər də müzakirə edilmişdir.

Nazir E.Məmmədyarov ABŞ-in Nümayəndələr Palatasının Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin rəhbərlik etdiyi Konqresin nümayəndə heyətini qəbul etmişdir
28 aprel 2011-ci il

ABŞ konqresmenləri görüşdə Azərbaycanla ABŞ arasında aparılan əməkdaşlıqdan məmnunluq ifadə etmiş və Azərbaycanın ABŞ-ın müttəfiqi kimi mühüm rolunu vurğulamışlar. Bununla yanaşı Azərbaycanın beynəlxalq terrorizmlə mübarizəyə verdiyi töhfə və dəstək, ölkəmizin qlobal enerji təhlükəsizliyində artan rolu, regional və qlobal sabitliyin təmin olunmasında iştirakı yüksək qiymətləndirilmişdir.

Nazir ABŞ Konqresində Ermənistan-Azərbaycan münaqişəsi barədə dolğun və dəqiq məlumatların yayılmasının əhəmiyyətini vurğulamışdır. E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü əsasında həllinin, regionda sülh və sabitliyin təmin olunması üçün işğalçı qüvvələrin Azərbaycanın ərazilərindən çıxarılmasının, Azərbaycanın ərazi bütövlüyünün bərpasının və məcburi köçkünlərin öz torpaqlarına qayıtmasının vacibliyini qeyd etmişdir.

Görüş zamanı Nazir E.Məmmədyarov Azərbaycanda və regionda cərəyan edən proseslər barədə məlumat vermiş, Cənubi Qafqaz regionun inkişafında və regional əməkdaşlığın genişləndirilməsində Azərbaycanın rolunu qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov İndoneziyanın Azərbaycandakı səfiri İ.Viranataatmacanı ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
6 may 2011-ci il

Nazir E.Məmmədyarov İqamətgahı Tehran şəhərində yerləşən İndoneziyanın Azərbaycandakı səfiri İvan Viranataatmacanı ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir.

Görüş zamanı səfir İ.Viranataatmaca Azərbaycanda İndoneziyanın səfiri olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən səfir bu istiqamətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir İvan Viranataatmacaya xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Xarici İşlər Naziri E.Məmmədyarov Azərbaycanda səfərdə olan Serbiya Respublikasının Xarici İşlər Nazirinin müavini Z.Vuyiçi qəbul etmişdir
11 may 2011-ci il

11 may 2011-ci il tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Serbiya Respublikasının Xarici İşlər Nazirinin müavini Zoran Vuyiçi qəbul etmişdir.

Nazir E.Məmmədyarov qonağı salamlayaraq bu günlərdə Serbiyada səfərdə olduğunu və bu səfərdən xoş təəssüratlarla ayrıldığını bildirmişdir. Azərbaycan ilə Serbiya arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən nazir E.Məmmədyarov bunun həm ikitərəfli məsələlərdə həm də beynəlxalq təşkilatlar çərçivəsində mövcud əməkdaşlıqda öz əyani təzahürünü tapdığını bildirmiş və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu qeyd etmişdir.

Öz növbəsində qonaq səfərinin Serbiya ilə Azərbaycan arasındakı əlaqələrin daha da genişləndirəcəyini bildirmiş və ölkəsinin Azərbaycanla yalnız neft sektorunda deyil eyni zamanda qeyri-neft sektorunda da əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd etmişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Xarici İşlər Naziri E.Məmmədyarov Azərbaycanda səfərdə olan ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım D. Miyatoviçi qəbul etmişdir
12 may 2011-ci il

12 may 2011-ci il tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviçi qəbul etmişdir.

Azərbaycanda olduğundan məmnunluq duyduğunu bildirən xanım Miyatoviç ölkəmizin onun rəhbərlik etdiyi qurumla əməkdaşlığını yüksək qiymətləndirmişdir.

Nazir E.Məmmədyarov Avropa strukturlarına inteqrasiyanın Azərbaycanın maraqlarına cavab verdiyini bildirmişdir. Nazir Azərbaycanda internet azadlığının təmin edildiyini, respublika üzrə məktəblərdə kompyuterləşdirilmə prosesinin getdiyini qonağın diqqətinə çatdırmış və təhsilə investisiyanın ən faydalı yatırım olduğunu qeyd etmişdir.

Nazir E.Məmmədyarov ATƏT-in Parlament Assambleyasının sədri P.Eftimiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
13 may 2011-ci il

Nazir Elmar Məmmədyarov ATƏT-in Parlament Assambleyasının sədri Petros Eftimiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonağı salamlayan Nazir E.Məmmədyarov ATƏT-in əhəmiyyətli beynəlxalq təşkilat olduğunu qeyd etmiş və Azərbaycanın bu təşkilatla əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu vurğulamışdır.

Görüş zamanı Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqları ətrafında fikir mü-

badiləsi aparılmışdır. Nazir E.Məmmədyarov erməni silahlı qüvvələrinin bu gün də Azərbaycanın ərazilərini işğal altında saxlaması və Ermənistan tərəfindən azərbaycanlı əhalinin həmin ərazilərdən qovulmasının münaqişənin həlli prosesini daha da mürəkkəb bir duruma gətirdiyini bildirmişdir. E.Məmmədyarov münaqişənin sülh yolu ilə həlli istiqamətində atılacaq ilk addımın erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasından ibarət olduğunu vurğulayaraq, erməni tərəfinin bu addımının regiondakı siyasi mühitə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirmişdir. Ermənistan rəhbərliyinin silah və zor hesabına sərhədlərin dəyişdirilməsi ilə bağlı mövqeyinin müasir dünyada mövcud beynəlxalq qanunvericiliyin norma və prinsiplərinə zidd və qəbul edilməz olduğunu qonağın diqqətinə çatdırılmışdır. P.Eftimiu Azərbaycanın əməkdaşlığını yüksək qiymətləndirərək, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş olmadığı və bu münaqişənin həllinin uzanmış olması fikri ilə tam razı olduğunu bildirmişdir. O, təmsil etdiyi təşkilatın bütün üzv ölkələrini bu münaqişənin tezliklə həllinə nail olması üçün töhfələrini verməkdə çağırmağa davam edəcəyini qeyd etmişdir.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Nazir E.Məmmədyarov BMT-nin Qaçqınlar üzrə Ali Komissarı A.Quterreşin başçılıq etdiyin nümayəndə heyətini qəbul etmişdir
19 may 2011-ci il

Nazir Elmar Məmmədyarov BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Antonio Quterreşin başçılıq etdiyin nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının beynəlxalq və regional səviyyələrdə fəaliyyəti müzakirə edilmişdir. A.Quterreş Azərbaycan Hökuməti tərəfindən qaçqınlarımızın durumunun yaxşılaşdırılması üçün mühüm işlərin görüldüyünü qeyd etmişdir. Ali Komissar Azərbaycanın inkişafından və müasir bir ölkəyə çevrilməsindən xeyli təəssüratlandığını vurğulamışdır.

Nazir E.Məmmədyarov Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesi barədə qonağa məlumat vermiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının sülh prosesinə müsbət təsir göstərəcəyini bildirmişdir. Nazir münaqişənin həllindən sonra regionun inkişafı üçün iqtisadi perspektivlərin mövcud olduğunu qeyd etmişdir. Öz növbəsində Ali Komissar münaqişə ilə bağlı hazırki vəziyyətin qəbuledilməz olduğunu söyləmişdir. Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası, Türkiyə Respublikası və İran İslam Respublikasının Xarici İşlər Nazirlərinin Naxçıvan Bəyanatı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun dəvətinə əsasən Türkiyə Respublikasının Xarici İşlər Naziri cənab Əhməd Davudoğlu və İran İslam Respublikasının Xarici İşlər Naziri cənab Əli Əkbər Salehinin (bundan sonra Tərəflər) iştirakı ilə Xarici İşlər Nazirlərinin Üçtərəfli Görüşünün İkinci Sessiyası 7 mart 2012-ci il tarixində Naxçıvan şəhərində keçirilmişdir.

Tərəflər,

Ortaq mədəni irs, tarixi köklər və dini dəyərlərə söykənən dostluq və yaxın qonşuluq münasibətlərinin hər üç ölkə xalqlarının əsas mənafelərinə cavab verməsinə və birgə səylərin müştərək maraqların həyata keçirilməsində, müasir təhdid və çağırışların aradan qaldırılmasında vacibliyinə inanaraq;

Hər üç ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edərək siyasi, iqtisadi, ticarət, mədəniyyət, humanitar, turizm və idman sahələrində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının araşdırılması qətiyyətlərini vurğulayaraq;

BMT Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla qəbul olunmuş əsas norma və prinsiplərinə sadiq olduqlarını bəyan edərək və bütün ölkələrin davamlı inkişafa nail olmaq, bilik və texnologiyalardan azad və bərabər şəkildə yararlanmaq hüquqlarına hörmət edilməsini vurğulayaraq;

Üç ölkə arasında əməkdaşlığın regional və beynəlxalq sülh və sabitlik, təhlükəsizlik və tərəqqiyə töhvə verdiyini qeyd edərək;

16 aprel 2011-ci il tarixində İran İslam Respublikasının Urumiye şəhərində keçirilmiş Xarici İşlər Nazirlərinin Üçtərəfli Görüşünün ilk iclası zamanı qəbul edilmiş Urumiye Bəyanatının əhəmiyyətini vurğulayaraq;

29 noyabr 2011-ci il tarixində İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş Üçtərəfli İqtisadi Komitənin birinci iclasının tövsiyələrini təsdiq edərək;

Aşağıdakılar barədə razılığa gəldilər:

1. Tərəflər qarşılıqlı maraq doğuran mühüm regional və beynəlxalq məsələlərin xarici işlər nazirləri səviyyəsində, həmçinin, Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlığı Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirlərinə dair Konfrans və İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində məsləhətləşmələri davam etdirəcəklər.

2. Tərəflər Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinin regionun ortaq maraqlarına töhvə verəcəyinə inanırlar.

3. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət prinsipləri əsasında tezliklə həll olunmasının vacibliyini qeyd edir və regional əməkdaşlığın təşviqi vasitəsilə sülh və sabitliyin qorunub saxlanılmasının gücləndirilməsinin regional münaqişələrin sülh yolu ilə həllinə müsbət təsir göstərəcəyini və ümumi maraqlara xidmət edəcəyini vurğulayırlar.

4. Tərəflər öz ərazilərinin düşmənçiliyə gətirib çıxara bilən hər hansı bir təhdid və ya fəaliyyət üçün istifadə edilməsinə heç bir halda icazə verməyəcəkləri barədə qətiyyətli olduqlarını ifadə edirlər.

5. Tərəflər terrorizm, ekstremizm və onun bütün forma və təzahürləri, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin və qanunsuz silah alveri, həmçinin, insan alveri və qeyri-qanuni miqrasiyaya qarşı mübarizədə əməkdaşlığı gücləndirəcəklər.

6. Tərəflər üç ölkə xalqlarının rifah halının yaxşılaşdırılması, iqtisadi artım və inkişafın

gücləndirilməsi məqsədi ilə, iqtisadi, enerji, ticarət, sənaye, nəqliyyat, telekommunikasiya, rabitə, mətbuat, mədəniyyət, idman və ətraf mühitin qorunması sahələrində əlaqələrin birgə layihə və əməkdaşlıq planları vasitəsi ilə daha da inkişaf etdirilməsini təşviq edəcəklər.

7. Tərəflər Üçtərəfli İqtisadi Komitənin tövsiyələrinə uyğun olaraq, iqtisadi və ticarət əlaqələrinin daha da gücləndirilməsi, həmçinin öz ölkələrində rifah halının və tərəqqinin təşviq edilməsi məqsədilə birgə fəaliyyət göstərməkdə davam edəcəklər.

8. Üçtərəfli İqtisadi Komitə tərəfindən yaradılmış alt komitələr əlavə edilmiş vaxt cədvəlinə uyğun olaraq, Komitənin 2012-ci ilin noyabr ayında Azərbaycanda keçirilməsi nəzərdə tutulan görüşündən əvvəl öz iclaslarını keçirəcəklər.

9. Tərəflər tarixi və mədəni irsin qorunması sahəsində əməkdaşlığı davam etdirəcəklər.

10. Tərəflər mərhələli şəkildə tədbirlərin görülməsi vasitəsilə öz vətəndaşlarının bir-birinin ərazisinə vizasız səyahət etmə imkanlarını nəzərdən keçirəcəklər.

11. Tərəflər Beynəlxalq Atom Enerjisi Agentliyinin normaların həyata keçirilməsi sahəsində yeganə səlahiyyətli qurum olduğunu nəzərə alaraq, Nüvə Silahının Yayılması haqqında Müqavilə çərçivəsində heç bir ayrı-seçkilik və qeyri-bərabərlik olmadan dövlətlərin sülh məqsədləri üçün nüvə enerjisi əldə etmək hüququnu dəstəkləyir.

12. Tərəflər Yaxın Şərqdə nüvə və digər kütləvi qırğın silahlarından azad zona yaradılması barədə 1995 saylı Yaxın Şərq üzrə Qətnamənin həyata keçirilməsi üçün fəaliyyət planının qəbul edildiyi 2010-cu il tarixli Nüvə Silahının Yayılmaması haqqında Müqavilənin yenidən nəzərdən keçirilməsi üzrə Konfransın yekun sənədini dəstəkləyir. 13. Tərəflər dövlət sərhədindən buraxılış məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsi və sərhəd və gömrük məsələlərində təcrübə mübadiləsi imkanlarını araşdıracaqlar.

14. Tərəflər Bakı - Tbilisi - Qars dəmiryolunun mövcud Naxçıvan - Culfa - Təbriz dəmiryoluna birləşdirilməsi imkanlarını araşdıracaqlar.

15. Növbəti görüş 2012-ci ilin sentyabr ayında Türkiyənin Van şəhərində keçiriləcəkdir.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun İndoneziya səfəri çərçivəsində 25 may 2011-ci il tarixində "Qoşulmama Hərəkatının 16-cı Nazirlər Konfransı və Yubiley görüşü"nün açılış mərasimində etdiyi çıxışı

Hörmətli cənab Sədr,

Xanımlar və cənablar,

İcazə verin, əvvəlcə bizim bu gözəl Bali şəhərinə gəldiyimizdən bəri mənə və nümayəndə heyətimizə göstərilən isti münasibət və gözəl qonaqpərvərliyə görə İndoneziya Respublikasına öz təşəkkürümü bildirim. İndoneziya Azərbaycan Respublikasının artıq tərəfdar olmaq istəyini təsdiqlədiyi və hörmət etdiyi tarixi Bandunq Prinsiplərinin yarandığı yerdir.

Mən həmçinin nümunəvi rəhbərliyə və mənim ölkəmin bu vacib siyasi foruma daxil ol-

maq prosesinə verdiyi töhfəyə görə Qoşulmama Hərəkatının sədri qismində Misir Hökumətinə dərin hörmətimi izhar edirəm.

Həmçinin təbii olaraq, mən Azərbaycanın üzvlüyünə verildiyi qiymətli dəstəyə görə Hərəkatın bütün üzvlərinə öz dərin minnətdarlığımı bildirirəm.

Qoşulmama Hərəkatına üzvlük Azərbaycan Respublikasına qoşulmamış ölkələr ilə müxtəlif sahələrdə səmərəli əməkdaşlığa və daha ədalətli, bərabər və beynəlxalq hüquqa əsaslanan beynəlxalq duruma nail olmaq məqsədilə Hərəkatın beynəlxalq əlaqələrdə konstruktiv rol oynamasına töhfə verməyə imkan yaradacaq.

Azərbaycan çox şaxəli və balanslaşdırılmış xarici siyasət yürüdərək, özünü etibarlı tərəfdaş və həmçinin Xəzər-Qafqaz regionunda əməkdaşlıq üçün güclü, stabil və geniş anlayışda həlledici bir ölkə kimi təsbit etmişdir.

1992-ci ilin 2 mart tarixində BMT-yə üzv olduqdan bəri Azərbaycan sülh içində olan, firavan və ədalətli dünyanın qurulmasının əsasını təşkil edən BMT-nin Əsasnaməsi və beynəlxalq hüququn məqsəd və prinsiplərinə sadiqliyini davamlı şəkildə nümayiş etdirmişdir.

Azərbaycan hər zaman müxtəlif din, etnik qrup və fəlsəfələrin birgə yaşayış və tolerantlıq məkanı olmuşdur. Mədəniyyətlər arasında körpü və Sivilizasiyalar Alyansının Dostluq qrupunun fəal üzvü kimi Azərbaycan qarşılıqlı hörmət və anlayışa əsaslanan dinlər və mədəniyyətlər arası dialoqu təşviq etmək məsuliyyətini hiss edir.

Bu il Qoşulmama Hərəkatının 50-ci ildönümüdür və təşkilat necə ki təsis edildiyi gündə bu gündə aktualdır. Soyuq Müharibənin bitməsi heç də qoşulmamış ölkələrinin siyasi əlaqələndirici mexanizmi kimi fəaliyyət göstərən Qoşulmama Hərəkatının rolunu zəiflətməmişdir. 2003-cü il fevral ayında Malayziya, Kuala-Lumpurda keçirilən 13-cü Zirvə Görüşündə və sonralar bir sıra tədbirlər zamanı razılaşdırıldığı kimi Qoşulmama Hərəkatının yenidən canlandırılmasında daha da qətiyyətli olmalıyıq.

Sürətlə dəyişən beynəlxalq mühitlə effektiv şəkildə üzləşmək iqtidarında ola biləcək daha yaxşı əlaqələndirilən və effektiv bir Hərəkatı reallaşdırmaq üçün biz yeni yolları və vasitələri araşdırmalıyıq. Bu həm mövcud mexanizmlərin, o cümlədən Əlaqələndirici Büro, İşçi və ya digər Qrupların gücləndirilməsi və həm də Beynəlxalq Təşkilatların Ali orqanlarına bir-birimizin namizədliklərimizin dəstəklənməsi və bu orqanlarda fəaliyyətlərimizin və qərarlarımızın əlaqələndirilməsi kimi yeni yolların araşdırılması ola bilər.

Azərbaycan Hərəkatın son 50 il ərzində öz üzvləri üçün həyati xarakter daşıyan məsələlərin həllində mühüm və dinamik rolunu yüksək qiymətləndirir və mən tam əminəm ki, üzvlərinin baxışlarını birləşdirən forumdan ədalət, sülh və firavanlıq forumunadək yüksəlmiş Qoşulmama Hərəkatı gələn 50 ildə də bu gün kimi güclü olacaq və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərəcəkdir.

Azərbaycan yoxsulluğun aradan qaldırılması və iqtisadi artımın balanslaşdırılmış inteqrasiyası, sosial inkişafın və ətraf mühitin mühafizəsi davamlı inkişafın üç ən mühüm hissəsini təşkil etdir. Mənim ölkəm BMT çərçivəsində razılaşdırılmış məqsəd və vəzifələrin inkişafının həyata keçirilməsinə töhfə verməkdə qərarlıdır. Azərbaycan hamı üçün önəmli olan yoxsulluğun aradan qaldırılmasına və davamlı iqtisadi artımın təşviq

edilməsinə, davamlı inkişaf və qlobal çiçəklənməyə tam dəstəyini nümayiş etdirir və mütəmadi səylər göstərir; belə ki, inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrin, həmçinin təbii fəlakətlərdən zərər çəkmiş ölkələrin bərpası üçün onların xüsusi ehtiyaclarının qarşılanmasına və həssas məqamlara xüsusi əhəmiyyət veririk. Son 5 ildə Azərbaycan müxtəlif regionların bir neçə ölkəsinə geniş humanitar yardım göstərmiş və onların milli inkişaf strategiyalarının həyata keçirilməsinə öz töhfəsini vermişdir.

Hörmətli Sədr, icazə verin bu sözlərlə nitqimi tamamlayım və sonda bir daha Qoşulmama Hərəkatının üzvlərinə Azərbaycanın tam üzvlüyünə dəyərli dəstəyə görə öz dərin minnətdarlığımı bir daha bildirim.

Sağ olun.

25 May 2011-ci il, Bali, İndoneziya

İndoneziyanın Bali adasında Qoşulmama Hərəkatı 16-cı Nazirlər Konfransında Xarici İşlər Naziri E.Məmmədyarov iştirak edir
26 may 2011-ci il

23-27 may 2011-ci ildə İndoneziyanın Bali adasında Qoşulmama Hərəkatı 16-cı Nazirlər Konfransında və Hərəkatın 50-illik yubileyinə həsr olunmuş görüşdə Azərbaycan Respublikası Xarici İşlər Naziri E.Məmmədyarov iştirak edir.

Azərbaycan Respublikasının İndoneziyada, eyni zamanda Filippin və Timor-Lestedəki daxil olan məlumata əsasən 25 may 2011-ci ildə Konfransda Azərbaycan Qoşulmama Hərəkatının tam hüquqlu üzvlüyünə qəbul edildikdən sonra xarici işlər naziri Elmar Məmmədyarov minnətdarlıq bildirərək, Azərbaycanın təşkilata üzv olmasına dəstək və yardım göstərmiş bütün üzv dövlətlərə, o cümlədən Hərəkatın sədri Misir hökuməti və xalqına və tədbirə ev sahibliyi edən İndoneziya hökuməti və xalqına dərin təşəkkürünü ifadə etmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyünün Təşkilata üzv dövlətlərlə səmərəli əməkdaşlığın genişləndirilməsinə xidmət edəcəyini, Hərəkatın beynəlxalq münasibətlər sistemindəki konstruktiv rolunun artırılmasında Azərbaycanın səylərini əsirgəməyəcəyini bildirmişdir.

İclasda iştirak edən nümayəndə heyətlərinin başçıları Azərbaycanın Hərəkata tam hüquqlu üzvlüyünə qəbul olunması ilə bağlı Naziri və nümayəndə heyətini təbrik etdilər.

Həmin gün Nazir E.Məmmədyarov plenar iclasda çıxış etmiş, İndoneziya, Misir, Əfqanıstan, İran və Sloveniyanın xarici işlər nazirləri, Türkiyə, Qazaxıstan, Belarus xarici işlər nazirlərinin müavinləri, Kambocanın dövlət katibi və Bukina-Fasonun BMT yanındakı daimi nümayəndəsi ilə ikitərəfli görüşləri keçirmiş, 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsini və maraq doğuran digər ikitərəfli məsələləri müzakirə etmişdir.

Plenar iclasdakı çıxışında E.Məmmədyarov Azərbaycanın 1992-ci ildə BMT-yə üzv qəbul olunmasından keçən müddət ərzində onun BMT Nizamnaməsində əksini tapan beynəlxalq hüququn prinsiplərinə məsuliyyətlə yanaşdığını, ölkəmizin Xəzər hövzəsi - Qafqaz regionunda davamlı əməkdaşlıq üçün sabit və etibarlı tərəfdaş olduğunu və Azərbaycanın müxtəlif din və mədəniyyətlər arasında körpü rolunu oynayaraq sivilizasiyalararası dialoqa öz səmərəli töhfəsini verdiyini qeyd etmişdir. Çıxışında Ermənistan

- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk günlərdən 20 % ərazisinin qonşu Ermənistanın işğalına məruz qaldığını, münaqişə nəticəsində ölkədə 1 milyondan artıq qaçqın və məcburi köçkünün olduğunu qeyd etmiş, münaqişənin region ölkələrinin inkişafına maneə törətdiyini vurğulamışdır. Nazir Qoşulmama Hərəkatının Nazirlər Konfransının yekununda qəbul edilməsi nəzərdə tutulan Bali Bəyannaməsində qeyd olunan beynəlxalq münaqişələrin sülh yolu ilə həlli fikrinə müsbət münasibət bildirərək Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında ədalətli həll olunmasının vacibliyinə diqqəti cəlb etmişdir.

İsrail - Fələstin münaqişəsinə toxunan nazir Şərqi Qüdsün paytaxt olması şərtilə 1967-ci il sərhədləri daxilində qurulacaq və BMT-yə üzv qəbul olunacaq müstəqil Fələstin dövlətinin yaradılması istiqamətindəki Azərbaycanın dəstəyini davam etdirəcəyini qeyd etmişdir.

ABŞ-a işgüzar səfəri çərçivəsində Xarici İşlər Naziri Elmar Məmmədyarov Nyu-Yorkda növbəti görüşünü Ərəb Dövlətləri Liqasının BMT yanında Daimi Nümayəndələri ilə keçirmişdir
01 iyun 2011-ci il

Nazir E. Məmmədyarov BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə oktyabrda keçiriləcək seçkilərədə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri iştirakçıların diqqətinə çatdırmış, seçkilərdə ölkəmizin namizədliyini dəstəkləməyə çağırmışdır.

Nazir E. Məmmədyarov Azərbaycanın apardığı uğurlu və müstəqil siyasəti barədə iştirakçılara məlumat vermiş, iqtisadiyyat sahəsində, xüsusilə enerji sahəsində əldə etdiyimiz nailiyyətləri diqqətə çatdırmışdır. O, Azərbaycanın regionda aparıcı dövlət olmasını,

Azərbaycanın da iştirak etdiyi irimiqyaslı beynəlxalq layihələr barədə danışmışdır. Eyni zamanda o, Azərbaycanın BMT çərçivəsində bir sıra vacib təşəbbüslərin müəllifi, İslam dünyasının tərkib hissəsi olduğunu, bu mənada və coğrafi baxımdan Avropa və Asiya arasında körpü rolunu oynadığını və sivilizasiyalararası dialoqa töhfə verdiyini qeyd etmişdir. Daha sonra Nazir E. Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesi haqqında geniş məlumat vermişdir.

Görüşdə Yaxın Şərq və Afrikada gedən proseslər barəsində fikir mübadiləsi aparılmışdır.

ABŞ-a işgüzar səfəri çərçivəsində Xarici İşlər Naziri Elmar Məmmədyarov Nyu-Yorkda BMT-nin Baş Qərargahında Baş Katib Ban Ki-mun ilə görüş keçirmişdir
01 iyun 2011-ci il

Nazir E. Məmmədyarovu salamlayan BMT-nin Baş Katibi Ban Ki-mun BMT ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirdiyinə görə məmnunluğunu bildirmişdir.

Nazir E. Məmmədyarov ilk öncə AR Prezidenti cənab İlham Əliyev adından salamlarını çatdırdı. Daha sonra o, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesi haqqında Baş Katibə ətraflı məlumat vermişdir.

Baş Katib Ban Ki-mun münaqişənin sülh yolu ilə tezliklə həll edilməsinə ehtiyacın olduğunu qeyd etmiş və bu istiqamətdə nəticələri gözlədiyini bildirmişdir.

Nazir E. Məmmədyarov BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə oktyabrda keçiriləcək seçkilərdə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri həmsöhbətinin diqqətinə çatdırmışdır.

Xarici İşlər Naziri E. Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 31 may tarixində Nyu-Yorkda BMT Baş Qərargahında İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin BMT yanında Daimi Nümayəndələrin səviyyəsində keçirilmiş İKT Qrupunun iclasında iştirak

İclasda sədrliyi həyata keçirən Tacikistanın BMT yanında Daimi Nümayəndəsi Nazir Məmmədyarovu salamlayaraq, Azərbaycanın İKT-nin fəal dövləti olduğunu qeyd etmiş, 2006-cı ildə İKT Nazirlər komitəsinin 33-cü iclasının Azərbaycanda müvəffəqiyyətlə keçirildiyini iştirakçıların diqqətinə çatdırmışdır.

Nazir Məmmədyarov BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə oktyabrda keçiriləcək seçkilərədə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri iştirakçıların diqqətinə çatdırmış və cari ilin oktyabrında keçiriləcək seçkilərdə İKT üzv-dövlətlərini ölkəmizin namizədliyini dəstəkləməyə çağırmışdır.

Azərbaycanda müstəqil siyasətin aparılması, regionda aparıcı dövlət olması, Xəzər-Qafqaz məkanında regional əməkdaşlığın inkişafında, xüsusən regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynaması, BMT və İKT çərçivəsində bir sıra vacib təşəbbüslərin müəllifi, ölkəmizin İslam dünyasının tərkib hissəsi olması, bu mənada və coğrafi baxımından Avropa və Asiya arasında körpü rolunun oynaması və sivilizasiyalararası dialoqa töhfənin verməsi qeyd edilmişdir. Eyni zamanda, Nazir Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesi haqqında geniş məlumat vermişdir. Nazir Məmmədyarov, BMT TŞ-nın 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərini azad etməsi ilə bağlı qəbul etdiyi 4 məlum qətnamənin Ermənistan tərəfindən indiyə qədər yerinə yetirilmədiyini təəssüflə qeyd edərək, BMT nizamnaməsinə əsasən, TŞ-nın bu cür qətnamələrinin BMT-yə üzv olan dövlətlər tərəfindən yerinə yetirilməsi öhdəliyinin olmasını vurğulamışdır.

Nitqdən sonra BMT yanındakı bir sıra İKT dövlətlərinin Daimi Nümayəndələri söz götürərək, Nazirin iştirakını və çıxışını yüksək qiymətləndirmişlər.

ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Nazir E.Məmmədyarov Nyu-Yorkda Asiya ölkələrinin BMT yanında Daimi Nümayəndələri ilə görüş keçirmişdir
02 iyun 2011-ci il

Nazir E. Məmmədyarov BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə oktyabrda keçiriləcək seçkilərdə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri iştirakçıların diqqətinə çatdırmış, seçkilərdə ölkəmizin namizədliyini dəstəklə-

məyə çağırmışdır.

Azərbaycanda müstəqil siyasətin aparılması, Azərbaycanın regionda aparıcı dövlət olması, Xəzər-Qafqaz məkanında regional əməkdaşlığın inkişafında, xüsusən regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynaması, BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində bir sıra vacib təşəbbüslərin müəllifi, ölkəmizin coğrafi baxımından Avropa və Asiya arasında körpü rolunun oynaması və sivilizasiyalararası dialoqa töhfənin verməsi qeyd edilmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesi barədə Asiya ölkələrinin Daimi Nümayəndələrinə məlumat verən Nazir E.Məmmədyarov BMT TŞ-nın 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərini azad etməsi ilə bağlı qəbul etdiyi 4 məlum qətnamənin Ermənistan tərəfindən indiyə qədər yerinə yetirilmədiyini təəssüflə qeyd etmiş və BMT nizamnaməsinə əsasən, TŞ-nin bu cür qətnamələrinin BMT-yə üzv olan dövlətlər tərəfindən yerinə yetirilməsi öhdəliyinin olmasını vurğulamışdır.

Görüşdə bir sıra qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Xarici İşlər Naziri E.Məmmədyarov Nyu-Yorkda Avropa ölkələrinin BMT yanında Daimi Nümayəndələri ilə görüş keçirmişdir
02 iyun 2011-ci il

Nazir E. Məmmədyarov BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə oktyabrda keçiriləcək seçkilərdə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri iştirakçıların diqqətinə çatdırmış, seçkilərdə ölkəmizin namizədliyini dəstəkləməyə çağırmışdır.

Nazir E. Məmmədyarov ölkəmizin regionda aparıcı dövlət olmasını, Azərbaycanın enerji strategiyası və iştirak etdiyi irimiqyaslı beynəlxalq layihələr barədə danışmışdır. Eyni zamanda Nazir Azərbaycanın BMT çərçivəsində bir sıra vacib təşəbbüslərin müəllifi olduğunu və sivilizasiyalararası dialoqa töhfə verdiyini qeyd etmişdir. Səfirlərlə görüş zamanı Nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesi barədə məlumat vermişdir.

Görüşdə bir sıra qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Nyu-York şəhərində ABŞ-ın Thompson Reuters, CNN, Associated Press, İnner City Press, Summit Energy kimi aparıcı KİV-lərinin nümayəndələri ilə görüş keçirmişdir.

Görüşdə Nazir E. Məmmədyarov Azərbaycanın xarici siyasətinin əsas prioritetləri haqda iştirakçılara geniş məlumat vermişdir. Azərbaycanın iqtisadi sahədə apardığı siyasət məsələsinə toxunaraq, dövlətimizin regionda aparıcı dövlət olması, enerji sahəsində əldə etdiyimiz uğurlar, regional layihələrdə fəal iştirak etməsi və bir çox beynəlxalq layihələrin müəllifi olduğunu jurnalistlərin diqqətinə çatdırmışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prose-

si haqqında geniş məlumat verən Nazir E. Məmmədyarov BMT TŞ-nın 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərini azad etməsi ilə bağlı qəbul etdiyi 4 məlum qətnamənin Ermənistan tərəfindən indiyədək yerinə yetirilmədiyini təəssüflə qeyd etmişdir.

Daha sonra Nazir E. Məmmədyarov Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərə toxunaraq, bir çox sahələrədə apardığımız uğurlu əməkdaşlıq barədə media nümayəndələrini məlumatlandırmışdır.

Nazir E. Məmmədyarov BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə cari ilin oktyabr ayında keçiriləcək seçkilərədə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri jurnalistlərin diqqətinə çatdırmışdır.

Sonra Nazir E. Məmmədyarov KİV nümayəndələrini maraqlandıran çoxsaylı sualları cavablandırmışdır.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 2 iyun tarixində Vaşinqtonun ən nüfuzlu və mötəbər araşdırma mərkəzlərindən biri olan Atlantik Şurada nitq söyləmişdir
03 iyun 2011-ci il

Tədbirdə ABŞ Administrasiyası, Dövlət Departamenti, Müdafiə Nazirliyi və digər hökumət qurumlarının əməkdaşları, region üzrə mütəxəssislər və KİV, eləcə ABŞ-da akkreditə edilmiş diplomatik nümayəndəliklərinin üzvləri iştirak etmişlər.

Nazir E.Məmmədyarov cari ildə Azərbaycanın müstəqillik əldə etməsinin 20 illiyinin olması, 20 il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlər, dünya miqyasında öz layiqli yerini tutması barədə geniş məlumat vermişdir. O, dövlətimizin regionda aparıcı dövlət olması, regional əməkdaşlığın inkişafında, xüsusən regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynamasını da iştirakçıların diqqətinə çatdırmışdır. Eyni zamanda Azərbaycanın iqtisadiyyat sahəsindəki uğurları, son bir neçə ildə ümumdaxili məhsulun həcminin üç dəfə artması qeyd edilmişdir.

Daha sonra Nazir E.Məmmədyarov, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunaraq, münaqişənin həlli ilə bağlı aparılan danışıqlar barədə iştirakçıları məlumatlandırmışdır.

Görüşün sonunda, Nazir E.Məmmədyarov iştirakçıları maraqlandıran çoxsaylı sualları cavablandırmışdır.

Nazir E.Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Vaşinqtonda Minsk Qrupunun ABŞ tərəfdən həmsədri Robert Bradke ilə görüşmüşdür
03 iyun 2011-ci il

Görüş zamanı Ermənista-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi müzakirə edilmişdir.

Səfər çərçivəsində 2 iyun tarixində Nazir E.Məmmədyarov region üzrə tanınmış mütəxəssislər - Brookinqs İnstitutunun (Brookings İnstitute) ABŞ və Avropa Mərkəzinin Direktoru xanım Fiona Hill, Corc Vaşinqton Universitetin Avropa, Rusiya və Avrasiya təd-

qiqatları üzrə Direktor müavini Kory Velt, Karneqi Beynəlxalq Sülh Fondunun Rusiya və Avrasiya proqramının aparıcı tədqiqatçısı Tomas de Val, Ceymstaun Fondunun direktoru Qlen Hovard ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov Azərbaycanda müstəqil siyasətin aparılması, regionda aparıcı dövlət olması, regional əməkdaşlığın inkişafında, xüsusən regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynaması barədə geniş məlumat vermişdir. Eyni zamanda, o, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar prosesi haqqında iştirakçıları məlumatlandırmışdır.

Nazir BMT-nin Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünə oktyabrda keçiriləcək seçkilərdə Azərbaycan Respublikasının namizədliyinin irəli sürüldüyünü, ölkəmizin namizədliyi ilə bağlı nəzərə çarpan üstünlükləri iştirakçıların diqqətinə çatdırmışdır.

Görüşdə regional və qlobal məsələlər ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Nazir Elmar Məmmədyarov 2 iyun tarixində Vaşinqtonda Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin Məşvərət Şurasının üzvü, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq müşaviri Jbiqniev Bzjejinski ilə görüşmüşdür. İlk növbədə Nazir E.Məmmədyarov həmsöhbətinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin salamlarını çatdırmış, Azərbaycanın apardığı daxili və xarici siyasəti haqda, ölkənin iqtisadi siyasətinə toxunaraq əldə edilmiş son nailiyyətlər barədə məlumat vermişdir.

Jbiqniev Bzjejinski Azərbaycan ilə bağlı xoş xatirələrini bölüşmüş, Nazir E.Məmmədyarov ilə regional və qlobal proseslər haqda fikir mübadiləsi aparmışdır.

Nazir E.Məmmədyarov Avropa Xarici Siyasət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə idarəedici direktoru Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
08 iyun 2011-ci il

Görüş zamanı Azərbaycan-Avropa İttifaqı münasibətlərinin cari vəziyyəti və perspektivləri barəsində fikir mübadiləsi aparılmışdır. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığın intensivləşdiyini qeyd edən tərəflər bu xüsusda "Şərq tərəfdaşlığı proqramı"nın əhəmiyyətini vurğulamışlar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də nizamlanmamış qaldığını deyən Nazir E.Məmmədyarov münaqişənin həllinə dair aparılan danışıq prosesi barədə məlumat vermiş, Azərbaycan ərazilərindən işğalçı qüvvələrin çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpası və doğma yurdlarından didərgin düşmüş azərbaycanlıların öz torpaqlarına qayıtmasının regionda sülh və sabitliyin təmin olunması üçün başlıca şərt olduğunu qeyd etmişdir.

Öz növbəsində M.Layçak Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll ediləcəyinə ümidvar olduğunu söyləmişdir.

Həmçinin görüşdə qarşılıqlı maraq kəsb edən müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir Elmar Məmmədyarov ABŞ Dövlət Katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarı qəbul etmişdir, 08 iyun 2011-ci il

Bakıda keçirilən ənənəvi Xəzər neft-qaz sərgisində iştirak etməsindən məmnun olduğunu bildirən qonaq, qlobal enerji təhlükəsizliyinin təmin olunmasında regionda gerçəkləşdirilən enerji layihələrinin əhəmiyyətini və onların perspektivlərini yüksək qiymətləndirmişdir.

Öz növbəsində, Nazir E.Məmmədyarov Azərbaycanın həyata keçirdiyi enerji strategiyasının uğurları barədə danışaraq bu xüsusda Azərbaycanın Avropanın enerjidaşıyıcılarla təchizində maraqlı olduğunu qeyd etmişdir.

Görüşdə həmçinin qlobal enerji məsələləri, regiondakı vəziyyət barədə də fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Əbdül Həmidi ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
08 iyun 2011-ci il

Görüş zamanı səfir Ə.Həmid Azərbaycanda Pakistanın səfiri olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən səfir bu istiqamətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir Əbdül Həmidə xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Cari ilin 15 iyun tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun İspaniyaya rəsmi səfəri başlayıb
16 yiun 2011 il

İspaniyanın aparıcı qəzetlərindən olan "El Mundo" qəzetinə Azərbaycan ilə İspaniya arasında mövcud olan əlaqələr və onların inkişaf perspektivləri barədə Nazir E.Məmmədyarovun verdiyi müsahibədən başlayan bu səfər, Azərbaycan müstəqilliyinin bərpa olunması günündən, iki ölkə arasında həyata keçirilən ilk rəsmi səfərdir.

16 iyun tarixində Nazir E.Məmmədyarov İspaniyanın Sənaye, Turizm və Ticarət Nazirliyinin Xarici ticarət üzrə Dövlət Katibi Alfredo Bonet ilə görüşdü. Görüşdə həmçinin AR İspaniyadakı Səfiri A.Əfəndiyev, yuxarıda qeyd olunan Nazirliyin qurumu olan İxrac Kreditlərinin Sığortalanması üzrə İspaniya Şirkətinin Baş Menecerinin müavini, İspaniya Xarici İşlər Nazirliyinin Beynəlxalq İqtisadi Əlaqələr Departamentinin Direktorunun müavini, İspaniyanın ən böyük şirkətlərindən biri olan "Tecnicas Reunidas" şirkətinin Prezidenti, İcraçı Vitseprezidenti, Baş Katibi və digər yüksək səviyyəli rəsmiləri iştirak etdi.

Görüş əsnasında Nazir E.Məmmədyarov ilə Dövlət Katibi A.Bonet ölkələr arasında olan əlaqələrin cari vəziyyəti, onların inkişaf etdirilməsi və yeni mərhələyə çıxarılması perspektivləri, bunun üçün mövcud olan potensial, o cümlədən Avropa İttifaqı çərçivəsində əməkdaşlığın incəlikləri və Azərbaycanda İspaniya Səfirliyinin açılması vacibliyi barədə fikir mübadiləsi aparıldı.

Görüş zamanı Nazir E.Məmmədyarov Respublikamızın son illərdəki iqtisadi artımı və əldə olunan nailiyyətləri, neft və qaz siyasəti, o cümlədən ixrac həcmləri və bu sahənin şəffaflığı, neftdən gələn gəlirlərin paylaşdırılması, ölkə iqtisadiyyatının diversifikasiyası prosesi, Respublikamızda həyata keçirilən iri layihələr və təşəbbüslər barədə qarşı tərəfə məlumat vermişdir.

Öz növbəsində İspaniyanın iqtisadi xarici siyasəti, əsas ticarət tərəfdaşları barədə məlumat verən, Latın Amerikasında sərmayələrin yatırılması üzrə ABŞ-dan sonra İspaniyanın ikinci yerdə olduğunu, eyni zamanda beynəlxalq bazarlara çıxmaq prosesinin gecikdirdiklərini bildirən Dövlət Katibi A.Bonet, Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlarını, bu sahədə ispan şirkətlərinin fəal olmasının vacibliyini qeyd etmişdir.

Görüşü yekunlaşdıran Nazir E.Məmmədyarov iki ölkə arasında Biznes Forumunun təşkil olunması vacibliyini, həmin Forumun məhz Azərbaycanda keçirilməsinin əhəmiyyətini, bu tədbirə önəm verilməsi üçün İspaniyanın yüksək vəzifəli rəsmisinin forum iştirakçıları ilə ölkəmizə səfər etməsinin vacibliyini xüsusi vurğulayaraq, həmin səfər zamanı iki ölkə arasında iqtisadi sahədə müvafiq hüquqi sənədlərin imzalanması mümkünlüyünü bildirmişdir.

Həmin tədbirin keçirilməsi vacibliyini birmənalı dəstəkləyən İxrac Kreditlərinin Sığortalanması üzrə İspaniya Şirkətinin Baş Menecerinin müavini, İspaniya XİN-in və "Tecnicas Reunidas" şirkətinin nümayəndələri bu məqsədlə Azərbaycana səfər etməyə hazır olduqlarını söyləmişlər.

Nazir E.Məmmədyarov İspaniya Krallığına rəsmi səfəri çərçivəsində 16 iyun 2011-ci il tarixində İspaniyanın Sahibkarlar Konfederasiyaları Təşkilatında (İSKT) bu ölkənin aparıcı şirkətlərinin nümayəndələri ilə görüşmüşdür
17 iyun 2011-ci il

Tədbirdə Konfederasiyanın Beynəlxalq Əlaqələr Komissiyasının prezidenti J.Banegas və İspaniya Xarici İşlər Nazirliyinin Qafqaz ölkələri üzrə xüsusi Səfiri M.V.Scola iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan J.Banegas Azərbaycanın surətlə inkişaf etdiyini, İspan şirkətlərinin bu yeni bazara çıxmasının vacibliyini, İSKT-nın bu sahədə lazımı köməkliyin göstərilməsinə hazır olduğunu bildimiş və Nazir E.Məmmədyarovun səfərinin iki ölkə arasında əməkdaşlığın inkişafı üçün yeni sahələrin tapılmasına öz töhfəsini verəcəyini əminliklə qeyd etmişdir.

İspaniyaya ilk dəfə olaraq rəsmi səfər etdiyini bildirən Nazir E.Məmmədyarov iqtisadi və siyasi sahədə iki ölkə arasında əməkdaşlığın aşağı səviyyədə olduğunu vurğulayaraq bu vəziyyətin tamamilə dəyişməsinin vacibliyini xüsusi qeyd etmişdir. Azərbaycan bazarında artıq fəaliyyət göstərən və buraya gəlmək istəyən bir neçə İspan şirkətləri barədə məlumat verən Nazir E.Məmmədyarov, Azərbaycanın neft-qaz sahəsinin vəziyyəti, ixrac prosesi və istiqamətləri, Respublikada xarici şirkətlər üçün böyük imkanların mövcud olduğunu xüsusi vurğulamışdır.

Ölkələr arasında imzalanması üçün ən vacib sazişlərdən olan ikiqat vergitutmanın aradan qaldırılması və sərmayələrin qarşılıqlı qorunması Sazişlərinin artıq hazır olduqlarını

bildirən Nazir, onların imzalanması vacibliyini, həmin sazişlərin adətən Nazir E.Məmmədyarovun səfəri zamanı deyil, ölkəmizin digər aidiyyəti qurumları tərəfindən imzalandığını və bunun üçün İspaniyanın əlaqədar qurumlarının Bakıya səfərlərinin təşkil olunmasının vacibliyini xüsusi vurğulamışdır.

Azərbaycanda həyata keçirilən iri layihələr barədə tədbir iştirakçılarına məlumat verən Nazir E.Məmmədyarov, Azərbaycanda müxtəlif ispan mallarının tapıldığını qeyd edərək, onların əsasən ikinci ölkələr vasitəsi ilə Azərbaycan bazarına çıxdığını bildirmiş, İspan şirkətlərini Azərbaycanla birbaşa əlaqələrin qurulmasına dəvət etmişdir. Daha sonra İspaniyanın Xarici İşlər və Əməkdaşlıq Nazirliyinin rəsmi nümayəndəsi M.V.Scola, Nazir E.Məmmədyarovun ilk səfərinin əlaqələrin inkişaf etdirilməsində xüsusi rol oynayacağını qeyd etmişdir.

Nazir E.Məmmədyarov İspaniyanın Sənaye, Turizm və Ticarət Nazirliyinin Xarici ticarət üzrə Dövlət Katibi Alfredo Bonet ilə keçirdiyi görüşə istinad edərək, Azərbaycan-İspaniya Biznes Forumunun keçirilməsi razılaşması barədə tədbir iştirakçılarına məlumat vermiş və onları həmin foruma qatılmağa dəvət etmişdir.

İSKT-nın prezidenti öz növbəsində sözügedən Biznes Forumun keçirilməsini dəstəkləmiş, Azərbaycana gəlmək dəvətini qəbul etmiş, səfərin təşkilatı məsələlərinin İSKT tərəfindən həyata keçiriləcəyini bildirmiş və səfərin tarixlərinin yaxın zamanda bildiriləcəyini vəd etmişdir.

Tədbirin sonunda ölkəmizlə artıq çalışan və ya buraya gəlmək fikrində olan bir neçə İspan şirkətinin sualları Nazir E.Məmmədyarov və Səfir A.Əfəndiyev tərəfindən cavablandırılmış və onlara ölkəmizdə həyata keçirilən iri layihələr, o cümlədən dəmir yolları, turistik və xüsusi ilə xizək kurortları, neft emalı, infrastruktur və bir çox digər sahələrdə həyata keçirilən iri miqyaslı layihələr barədə məlumat verilmişdir.

Nazir E.Məmmədyarov İspaniya Krallığına rəsmi səfəri çərçivəsində İspaniyanın Xarici İşlər və Əməkdaşlıq Naziri xanım Trinidad Ximenez ilə görüşmüşdür
17 iyun 2011-ci il

Nazir E. Məmmədyarov İspaniyaya ilk rəsmi səfərə dəvətə görə təşəkkürünü bildirmiş, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq üçün geniş potensialın olduğunu bildirmişdir. Xanım Ximenez öz növbəsində enerji, eləcə də digər sahələrdə əməkdaşlıq etməyə İspaniya şirkətlərinin hazır olduğunu bildirmişdir. Tərəflər iki dövlət arasında müqavilə-hüquq bazasının gücləndirilməsi, yaxın zamanlarda Azərbaycanda hər iki ölkənin şirkətlərinin iştirakı ilə biznes forumun keçirilməsi razılığına gəlmişdir. Daha sonra Nazir E. Məmmədyarov həmkarına Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar barədə ətraflı məlumat vermişdir. Görüş zamanı son zamanlar Şimali Afrika və Yaxın Şərqdə baş verən proseslər barədə fikir mübadiləsi aparmışlar.

Görüşün sonunda Nazir E. Məmmədyarov xanım Ximenezi rəsmi səfər ilə Azərbaycana dəvət etmiş, xanım Ximenez dəvəti böyük məmnuniyyətlə qəbul etdiyini və cari ilin sonunadək səfər edəcəyini vəd etmişdir.

Görüşdən sonra "Azərbaycan Respublikası ilə İspaniya Krallığı arasında diplomatik

pasportlara malik olan şəxslərin qısa müddətli vizadan azad edilməsi" haqqında sazişi imzalanmışdır.

Həmin gün Nazir E. Məmmədyarov səfər çərçivəsində İspaniya Deputatlar Konqresinin xarici əlaqələr üzrə komissiyasının prezidenti Duran ye Lleida və komissiyanın üzvləri ilə görüşmüşdür. Nazir Azərbaycanın müstəqillik əldə etdiyi 20 il ərzində qazandığı nailiyyətlər, apardığı müstəqil siyasət barədə geniş məlumat vermişdir. İspaniya ilə ikitərəfli münasibətlərə toxunan Nazir E. Məmmədyarov, bu ölkə ilə əməkdaşlığın geniş potensialı olduğunu diqqətə çatdırmışdır.

Görüşdə iştirak edən deputatlardan bir neçəsi NATO parlament assambleyasının üzvləri qismində Azərbaycanda səfərdə olduqlarını və Azərbaycanın yüksək templə inkişaf etdiyinin şahidi olduqlarını qeyd etmişlər. İştirakçılar Azərbaycanla yalnız enerji deyil, digər sahələr üzrə də əməkdaşlıq etməyə maraqlı olduqlarını ifadə etmişlər.

Daha sonra Nazir E. Məmmədyarov deputatları maraqlandıran sualları cavablandırmış, onlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan son danışıqlar barədə geniş məlumat vermişdir.

İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyasında Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun çıxışı.

Hörmətli cənab Sədr,

Hörmətli cənab Baş Katib,

Zati-aliləri, xanımlar və cənablar,

Mən şəxsən Prezident Nursultan Nazarbayevə, Qazaxıstan Respublikasının hökumətinə və dost xalqına səmimi qonaqpərvərliyinə və Xarici İşlər Nazirlərinin 38-ci sessiyasının gözəl təşkilinə görə öz təşəkkürümü bildirirəm. Xarici İşlər Nazirlərinin sədrliyini öz üzərinizə götürməyinizdə sizi təbrik etmək mənim üçün böyük şərəfdir və əminəm ki, sizin sədrliyiniz müddətində biz qarşıda duran məqsədlərə nail olacağıq.

Eyni zamanda mən hal-hazırki İKT-nin Tacikistan sədrinə Təşkilatı bacarıqlı idarə etdiyinə və sədrliyi müddətində gözəl işlər gördüyünə görə öz minnətdarlığımı bildirirəm. Mənim ehtiram sözlərim həmçinin İKT-nin Baş Katibi Prof. Ekmeleddin İhsanoğluna və bizim Təşkilatın gündəlik fəaliyyətində göstərdiyi professionalizmə görə onun yüksək sədaqətli komandasına da aiddir.

Zati-aliləri,

Xanımlar və Cənablar,

Bu il bütün dünyada çox hissəsi İslam dünyasına təsir edən əhəmiyyətli siyasi proseslərlə və dramatik hadisələrlə səciyyəvi idi. Çoxsaylı çağırışlar və təhdidlərlə üzləşən bir sıra İKT üzv ölkələrinin hazırki vəziyyəti bizdə dərin narahatçılıq doğurur. Xüsusən də biz bəzi qardaş Ərəb ölkələrində baş verən siyasi hadisələrdən narahatıq, lakin biz inanırıq ki, Ərəb xalqının bütün bu çağırışları dəf etmək üçün kifayət qədər siyasi iradəsi və müdrikliyi vardır. Biz həmçinin İKT formatı daxilində, o cümlədən ən yüksək səviyyədə, bu proseslərin müzakirələrinin vacibliyinə inanırıq. Biz bu təhdidlərə cavab verməkdən çəkinməməliyik və daha çox görüşlər keçirməliyik.

Biz Fələstində olan vəziyyətdən narahatıq. Azərbaycan bir daha qardaş Fələstin xalqına onların sülh, stabillik və paytaxtı Qüds şəhəri olmaqla müstəqil Fələstin dövləti yaratmaq səylərini dəstəklədiyini bildiririk. Biz Fələstin xalqının ehtiyaclarının təmin edilməsində bizim təşkilatı birləşdirdiyi üçün İKT-nin baş katibinin və onun heyətinin işini yüksək qiymətləndiririk.

Mən Kəşmir mübahisəsinin həlli üçün edilən cəhdləri dəstəklədiyimi və Kiprli türklərin hələ də davam edən ədalətsiz təcridindən narahat olduğumu bildirmək istərdim.

Azərbaycan həm də İraq, Əfqanıstan, Sudan, Somali dövlətlərinin və digər İKT-yə üzv ölkələrin bu ölkələrdə sülh, təhlükəsizlik, və stabilliyin bərpasına dair etdiyi cəhdləri dəstəkləyir.

Milyonlarla Müsəlmanlara ağır emosional və psixoloji zərbə vurmuş İslamafobiya təəssüf ki, dünyanın bir sıra ölkələrində qalxmaqdadır. Yaxın illərdə bəzi ölkələrdə dözülməzliyə, ayrı seçkiliyə və İslama qarşı hücumlarla bağlı ciddi faktlar sübut edir ki, dini böhtanın və dinə nifrətin qızışdırılmasına qarşı mübarizə aparmaq lazımdır. Söz azadlığı bəhanəsiylə dinə qarşı atılan böhtan ayrı seçkiliyin və dözülməzliyin yeni və müasir formasıdır. Sivil cəmiyyətlər olaraq, biz öz azadlığımızı ehtiyatla və beynəlxalq normalarla qəbul olunmuş paramctrlər çərçivəsində həyata keçirməliyik. Biz İKT-nin bütün dinlərə qarşı böhtanın qarşısının alınmasında zəruri beynəlxalq çərçivənin yaradılması imkanlarını axtarmaq cəhdlərini ciddi dəstəkləyirik.

Hörmətli Sədr,

Mən həmçinin İslam Dünyasına və İKT-nin Baş Katibinə Azərbaycanın iyirmi faiz ərazisinin Ermənistanın işğalı altında qalması ilə nəticələnən, Ermənistan ilə davam edən silahlı münaqişədə, Azərbaycana göstərdikləri güclü dəstəyə görə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim. Təxminən bir milyon azərbaycanlı öz torpaqlarından etnik təmizləmə nəticəsində qovulmuş və həmçinin İslam irsindən olan minlərlə Azərbaycan mədəni və tarixi abidələri məhv edilmiş və talan olunmuşdur.

Azərbaycan Dövləti beynəlxalq hüququn norma və prinsiplərinə, müvafiq BMT Təhlükəsizlik Şurasının və İKT qətnamələrinin yerinə yetirilməsinə və həmçinin Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və Avropa Parlamenti tərəfindən qəbul edilmiş müvafiq sənədlərə və qərarlara hörmətlə əsaslanaraq uzadılmış bu konfliktin sülh yolu ilə tənzimlənməsinə sadiq qalmaqdadır.

Bütün bu sənədlər yekdilliklə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistana mənim ölkəmin işğal edilmiş torpaqlarından qoşunlarını geri çəkmək, qaçqın və məcburi köçkünlərin öz evlərinə qayıtmasına dair güclü çağırışlardan ibarətdir.

Zati-aliləri,

Bildiyiniz kimi, BMT Baş Assembleyasının 2011-ci ildə 66-cı sessiyasında keçirilmiş seçkilərdə Azərbaycan BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü il müddəti üçün qeyri-daimi üzvlüyünə namizədliyini irəli sürmüşdür.

İslam dünyasının Təhlükəsizlik Şurasında təmsil olunması vacibliyi anlayışından irəli gələrək, biz İKT üzv Dövlətlərin Azərbaycanın namizədliyinə verəcəyi daimi dəstəyə

inanırıq. Azərbaycan Şərqi Avropa Dövlətləri Qrupundan BMT Təhlükəsizlik Şurasına namizəd olan ölkələr arasında yeganə ölkədir ki, Avropa İttifaqının üzvü deyildir və heç bir siyasi və ya hərbi ittifaqa mənsub deyildir. Biz Qoşulmama Hərəkatının tam hüquqlu üzvüyük və BMT Nizamnaməsinin prinsip və məqsədlərinə tam əsaslanaraq müstəqil xarici siyasət yürüdürük.

Mən əziz həmkar və qardaşlarımızdan bu oktyabr Nyu-yorkda BMT Təhlükəsizlik Şurasına keçiriləcək seçki zamanı Azərbaycanın namizədliyinə dəstək verməyi və BMT-dəki hörmətli səfirlərinizə müvafiq təlimatlar verilməsini xahiş edirəm.

Təşəkkürlər.

Qazaxıstan Respublikasının paytaxtı Astanada İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyası keçirilmişdir
28 iyun 2011-ci il

Cari ilin 27-28 iyun tarixlərində Qazaxıstan Respublikasının paytaxtı Astanada keçirilən İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyası çərçivəsində, Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov 28 iyun tarixində İraq, Əfqanıstan, Mərakeş, Seneqal, Qırğızıstan, Malayziya, İndoneziya və Qazaxıstanın xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirmiş, görüşlər zamanı 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsi, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

Nazir E.Məmmədyarov Qırğız Respublikasının Parlamentinin sədri Axmatbek Keldibekovu qəbul etmişdir
4 iyul 2011-ci il

Azərbaycanda sürətlə gedən inkişaf prosesinin müşahidə olunduğunu qeyd edən qonaq, qardaş Azərbaycan xalqının uğurlarının Qırğızıstanda sevinclə qarşılandığını qeyd etmişdir. İki xalq arasında dərin mədəni, tarixi, dini köklərin mövcudluğunu vurğulayan A.Keldibekov, ölkələrin biri-birinə dəstək olmalarının vacibliyini və Qırğız tərəfinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini qeyd etmişdir.

Öz növbəsində Nazir E.Məmmədyarov ölkələr arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq, iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulamışdır. Hər iki ölkənin Avropa ilə Asiyanı birləşdirən tarixi "İpək yolu"-nun üstündə olmasının, nəqliyyat layihələrinin əhəmiyyətini artırdığını qeyd etmişdir.

Sonra tərəflər Orta Asiya və Cənubi Qafqaz regionlarında cərəyan edən proseslər və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Nazir E.Məmmədyarov Səudiyyə Ərəbistanın Krallığının Diplomatik Akademiyasının rəhbəri, Abdulkərim al Daxayelini qəbul etmişdir
4 iyul 2011-ci il

Azərbaycanda səfərdə olmasında məmnunluq duyduğunu qeyd edən qonaq, ölkənin böyük inkişaf potensiyalının əyani şahidi olduğunu söyləmişdir. Rəhbərlik etdiyi Diplo-

matik Akademiyanın işindən məlumat verən Abdulkərim al Daxayel, AR XİN-in Diplomatik Akademiyası ilə sıx əlaqələrin yaradıldığını və bir sıra istiqamətlər üzrə birgə əməkdaşlıq planlarının mövcudluğunu vurğulamışdır.

Öz növbəsində Səudiyyəli qonağı salamlayan nazir E.Məmmədyarov, ölkələr arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək, əlaqələrin o cümlədən təhsil, xüsusən də peşəkar diplomatların hazırlanması sahəsində inkişaf etdirilməsi zəruriliyindən danışmışdır.

Sonra tərəflər Yaxın Şərqdə cərəyan edən proseslər və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Naziri E.Məmmədyarov Romada italiyalı həmkarı Franko Frattini ilə görüş keçirmişdir
6 iyul 2011-ci il

Görüşdə nazirlər ikitərəfli siyasi əlaqələrin yüksək səviyyədə inkişaf etdiyindən məmnunluqlarını bildirmişlər. Siyasi əlaqələrin inkişafının əsas göstəricisi kimi mütəmadi həyata keçirilən yüksək səviyyəli səfərlər, xüsusilə də Azərbaycan Prezidenti cənab İlham Əliyevin İtaliya Prezidenti Corcio Napolitanonun dəvəti ilə bu ilin 2 iyun tarixində İtaliyanın birləşdirilməsinin 150 illiyi münasibətilə Romada təşkil edilmiş rəsmi tədbirlərdə iştirakı qeyd edilmişdir.

İqtisadi əlaqələrə gəldikdə, F.Frattini ölkəsinin gələcək də Azərbaycanın birinci ticarət tərəfdaşı olaraq davam edəcəyinə inandığını və iki ölkə arasında iqtisadi əməkdaşlığın yalnız neft sahəsində deyil, eləcə də qeyri-neft sektorunda da genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır. Bundan əlavə tərəflər mədəniyyət və təhsil sahələrində əməkdaşlıq çərçivəsində həyata keçirilə biləcək bir sıra layihələr ətrafında fakir mübadiləsi aparmışlar.

Görüşdə həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilmişdir. Nazir E.Məmmədyarov həmkarına Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və danışıqlar prosesi barədə məlumat vermişdir. E.Məmmədyarov Dağlıq Qarabağ münaqişəsinin həllinin bütövlükdə regionda sülhün və sabitliyin bərqərar olması, habelə bölgənin çiçəklənməsi üçün zəruri olduğunu qeyd etmişdir.

F.Frattini azərbaycanlı həmkarı ilə razı olduğunu və ölkəsinin hazırkı danışıqlar prosesini dəstəklədiyini bildirmişdir.

Enerji təhlükəsizliyi məsələləri də müzakirə mövzularından olmuşdur. Bu xüsusda E.Məmmədyarov həmkarına regionda cari və perspektiv enerji layihələri barədə məlumat vermişdir. İtaliyalı nazir F.Frattini öz növbəsində Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artmaqda olan rolunu xüsusi vurğulamışdır.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər, xüsusilə də regional və Avropada təhlükəsizlik məsələləri, beynəlxalq terrorizmə qarşı mübarizə və s. barədə geniş fikir mübadiləsi aparılmışdır. Sonda hər iki nazir Azərbaycan-İtaliya əlaqələrinin inkişaf dinamikasının artıq strateji əməkdaşlıq mərhələsinə keçməsinə imkan verdiyini qeyd etmişdir.

Nazir E.Məmmədyarov Banqladeşin, Dominikan Respublikası, Burkina Fasonun, Konqonun, Qambiyanın, Lesotonun, Maldiv adalarının, Myanmanın, Naurunun, Somalinin, Trinidad və Tobaqonun və Toqonun BMT yanında Daimi Nümayəndələrini qəbul etmişdir
8 iyul 2011-ci

Görüş zamanı Nazir qonaqları salamlayaraq Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra keçdiyi yolu və bu il müstəqilliyinin bərpasının 20 illiyini qeyd etdiyini qonaqların nəzərinə çatdırmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan Cənubi Qafqaz regionunun lider ölkəsidir və ölkə rəhbərinin apardığı uğurlu siyasət nəticəsində bu bölgədə bütün iri layihə Azərbaycanın iştirakı olmadan həyata keçirilmir.

Nazir E.Məmmədyarov ölkənin enerji siyasəti, Avropa və dünya bazarının Azərbaycanın hidrokarbonat ehtiyatları ilə təchiz edilməsi, qədim İpək Yolu üzərində qurulmuş nəqliyyat layihələri və Azərbaycanın bu layihələrdə iştirakı, Şərq və Qərbi birləşdirməyi istiqamətləndirən Bakı-Tiflis-Qars dəmiryolu layihəsi və digər regional və beynəlxalq əhəmiyyətli layihələr haqqında söhbət aparmışdır. Azərbaycanın bir sıra beynəlxalq təşkilatlarda fəal üzv olduğunu qeyd edən nazir E.Məmmədyarov ölkəsinin keçən ay Qoşulmama Hərəkatına tam üzv olduğunu qonaqların nəzərinə çatdırmışdır.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi və onun son durumu barədə qonaqlara ətraflı məlumat verən nazir E.Məmmədyarov münaqişənin həllində artıq beynəlxalq aləm tərəfindən status-kvo-nun saxlanılmasının qəbul olunmaz olduğunun qeyd edildiyini və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması mümkünlüyünü vurğulamışdır.

Sonra nazir E.Məmmədyarov qonaqların Azərbaycanda və regionda baş verən proseslərlə bağlı bir sıra suallarını da cavablandırmışdır.

Nazir Elmar Məmmədyarov Avropa Parlamentinin üzvləri Franko Qaston, Ferreira Fernandez Xose Manuel və Belçika Parlamentinin üzvü Alen Desteks-i qəbul etmişdir
15 iyul 2011-ci il

Qonaqları salamlayan nazir E.Məmmədyarov Azərbaycanda bütün sahələrdə sürətlə gedən inkişaf prosesi və ölkənin gündən-günə artan regional rolu barədə məlumat vermişdir. Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlara toxunan Nazir, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən birmənalı olaraq çıxarılmasının zəruriliyini və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş və özündə bu tələbi əks etdirən bir sıra sənədlərin bunun üçün hüquqi əsas təşkil etdiyini vurğulamışdır.

Azərbaycanda olmalarından məmnunluq hissi keçirdiklərini deyən qonaqlar Azərbaycan Respublikası ilə Avropa Parlamenti arasında əlaqələrin inkişaf etdirilməsinin və əməkdaşlığın genişləndirilməsinin vacibliyini ifadə etmişlər. Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi ilə əlaqədə qonaqlar bu münaqişənin sülh yolu ilə həllinə ümidvar olduqlarını da bildirmişlər.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun Rusiya Federasiyasına iki günlük (17 - 18 iyul) rəsmi səfəri davam edir
18 iyul 2011-ci il

Səfər zamanı Nazir E.Məmmədyarovla Rusiya Federasiyasının Xarici İşlər Naziri S.Lavrov arasında keçirilmiş görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətləri əhatə edən müxtəlif məsələlər, iki ölkə arasında iqtisadiyyatın sürətlə inkişafı və ticarət dövriyyəsinin dünyada baş vermiş iqtisadi böhrandan əvvəlki səviyyəyə çatdırıldığı qeyd edilmişdir. Həmçinin oktyabr ayında Bakıda keçiriləcək Beynəlxalq Humanitar Forumun keçirilməsi məsələsi müzakirə edilmişdir.

Görüşün sonunda iki ölkə arasında "2011-ci ilin ikinci yarısı və 2012-ci il üçün XİN-lər arası məsləhətləşmələrin" fəaliyyət planı və 3 sentyabr 2010-cu il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə" nin Ratifikasiya Fərmanlarının mübadiləsi haqqında protokol imzalanmışdır.

Görüşdən sonra Mətbuat Konfransı keçirilmişdir. Mətbuat Konfransında Nazir E.Məmmədyarov Azərbaycan Respublikasının Prezidentinin məktubunun S.Lavrova təqdim edildiyini mətbuat nümayəndələrinin diqqətinə çatdırmışdır. Azərbaycanın Xarici İşlər Naziri Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın vasitəçilik rolunu yüksək qiymətləndirmişdir. Bundan əlavə Azərbaycanın Tovuz rayonunun Əlibəyli kəndində 13 yaşlı Aygün Şahmalıyevanın Ermənistan tərəfindən qətlə yetirilməsi və onun anasının xəsarət alması pislənmişdir.

Nazir E.Məmmədyarov Rumıniyanın Azərbaycandakı səfiri Nikolae Urekeni ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
21 iyul 2011-ci il

Görüş zamanı səfir N.Ureke Azərbaycanda Rumıniyanın səfiri olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən səfir bu istiqamətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov səfir Nikolae Urekeyə xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Nazir E.Məmmədyarov Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Karolin Braunu ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
22 iyul 2011-ci il

Görüş zamanı xanım K.Braun Azərbaycanda Böyük Britaniyanın səfiri olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən səfir bu istiqamətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov xanım Karolin Brauna xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Nazir Elmar Məmmədyarov GUAM-ın baş katibi Valeriy Çeçelaşvilini qəbul etmişdir
22 iyul 2011-ci il

Görüş zamanı tərəflər münasibətlərin cari vəziyyəti haqqında fikir mübadiləsi aparmış, habelə iqtisadi, humanitar, turizm, nəqliyyat, GUAM-ın beynəlxalq təşkilatlarla münasibətləri və digər sahələrdə əməkdaşlığın perspektivi məsələlərini müzakirə etmişlər.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir Elmar Məmmədyarov Böyük Britaniya Parlamentinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir
26 iyul 2011-ci il

Nazir Elmar Məmmədyarov Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü, Mühafizəkar Partiyadan olan Azərbaycanın Dostları qrupunun sədr müavini Kristofer Pinçerin başçılıq etdiyi Böyük Britaniya Parlamentinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları salamlayan nazir E.Məmmədyarov Azərbaycanda bütün sahələrdə sürətlə gedən inkişaf prosesi və ölkənin gündən-günə artan regional rolu barədə məlumat vermişdir. Müvəffəqiyyətlə irəliləyən Britaniya-Azərbaycan münasibətləri və Britaniya şirkətlərinin Azərbaycandakı aktiv fəaliyyəti barədə qonaqlara danışan Nazir Britaniya ilə əməkdaşlığın təkcə neft yox, həmçinin qeyri-neft sahəsində də inkişaf etdiyini vurğulamışdır.

Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlara toxunan Nazir, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən birmənalı olaraq çıxarılmasının zəruriliyini və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş və özündə bu tələbi əks etdirən bir sıra sənədlərin bunun üçün hüquqi əsas təşkil etdiyini vurğulamış, münaqişənin həllinin uzanmasının regiondakı gələcək inkişafı proqnozlaşdırmağa imkan vermədiyini qeyd etmişdir.

Azərbaycanda olmalarından məmnunluq hissi keçirdiklərini deyən qonaqlar Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında əlaqələrin inkişaf etdirilməsinin və əməkdaşlığın genişləndirilməsinin vacibliyini ifadə etmişlər. Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi ilə əlaqədə qonaqlar bu münaqişənin sülh yolu ilə həllinə ümidvar olduqlarını bildirmişlər.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini M.Məmməd-Quliyevin rəhbərliyi altında olan nümayəndə heyəti Cenevrə şəhərində səfərdə olmuşdur
01 avqust 2011-ci il.

Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini M.Məmməd-Quliyevin rəhbərliyi altında İqtisadi İnkişaf, Sənaye və Energetika, Kənd Təsərrüfatı Nazirlikləri və Dövlət Gömrük Komitəsinin nümayəndələrindən ibarət heyət cari ilin 25-29 iyul tarix-

lərində Cenevrə şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü prosesi çərçivəsində Avropa İttifaqı, Ekvador, İsveçrə, Braziliya və Çin ilə ikitərəfli danışıqlar keçirmişdir.

Eyni zamanda BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) ilə məsləhətləşmələr aparılmış və Cenevrədə yerləşən Ticarət və Davamlı İnkişaf üzrə Beynəlxalq Mərkəz (İCTSD) ilə ölkəmiz arasında əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində müzakirələr aparılmışdır.

Bununla yanaşı, nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar ilə əməkdaşlığı çərçivəsində, bir qrup BMT üzv-dövlətlərinin Cenevrədə akkreditə olunan nümayəndəliklərinin başçıları ilə də ikitərəfli formatda görüşlər keçirmişdir.

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Məhəmmədbağır Bəhrami Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə dəvət olunmuşdur
11 avqust 2011-ci il

İran İslam Respublikasının səfirini qəbul edən Xarici İşlər Nazirinin müavini cənab N.Hüseynov ona Azərbaycan tərəfinin etiraz notasını təqdim etmişdir.

Xarici İşlər Nazirliyinin Notasında İran rəsmisinin bu cür məsuliyyətsiz iftiralarına qəti etiraz bildirilir və İran mətbuatında Azərbaycan Respublikası xalqına və dövlətinə qarşı yönəldilmiş, milli mənafeyi və təhlükəsizliyinə zidd məlumatların yayımlanmasının, dövlətimizin daxili və xarici siyasətinin təhrif olunmasının ölkələrimiz arasında yaranmış dostluq və qarşılıqlı anlaşma və öhdəliklərlə ziddiyyət təşkil etdiyi vurğulanır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İran tərəfindən Azərbaycana qarşı qərəzli bəyanatların verilməsinin qarşısının alınması və bu kimi addımların bir daha təkrar olunmaması istiqamətində İran İslam Respublikası tərəfindən qısa müddət ərzində müvafiq tədbirlərin görülməsini və sözügedən məsələyə dair aydınlıq gətirilməsini tələb etmişdir.

Nazir E.Məmmədyarov Kamboca, Benin, Ekvatorial Qvineya, Mavriki, Namibiya, Sent Lusiya, Sent Vinsent və Qrenadin, Seyşel adaları, Syerra Leone, Şri Lanka, Yamayka və Zimbabvenin BMT yanında Daimi Nümayəndələrini qəbul etmişdir
25 avqust 2011-ci il

Görüş zamanı Nazir qonaqları salamlayaraq, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra keçdiyi yol və bu il müstəqilliyinin bərpasının 20 illiyinin qeyd edildiyini qonaqların nəzərinə çatdırmışdır. Nazir E.Məmmədyarov ölkənin enerji siyasəti, Avropa və dünya bazarının Azərbaycanın hidrokarbon ehtiyatları ilə təchiz edilməsi, qədim İpək Yolu üzərində qurulmuş nəqliyyat layihələri və Azərbaycanın bu layihələrdə iştirakı, Şərq və Qərbi birləşdirən Bakı-Tiflis-Qars dəmiryolu layihəsi və digər regional və beynəlxalq əhəmiyyətli layihələr haqqında qonaqları ətraflı məlumatlandırmışdır.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqi-

şəsi və onun son durumu barədə qonaqlara ətraflı məlumat verən nazir E.Məmmədyarov, münaqişənin həllində artıq beynəlxalq aləm tərəfindən status-kvonun saxlanılmasının qəbul olunmaz olduğunun qeyd edildiyini və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının mümkünlüyünü vurğulamışdır. Nazir E.Məmmədyarov Səfirlərin bu səfər zamanı ölkəmizin potensialı ilə yaxından tanış olmağa fürsət əldə etdiklərini vurğulayaraq, Azərbaycan Respublikasının 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü üçün irəli sürdüyü namizədliyinin dəstəklənməsinə çağırmışdır.

Sonra nazir E.Məmmədyarov qonaqlarla Azərbaycanda və regionda baş verən proseslərlə bağlı fikir mübadiləsi aparmışdır.

Nazir Elmar Məmmədyarov ATƏT-in Bakı ofisinin yeni rəhbəri Koray Tarqayı qəbul etmişdir
25 avqust 2011-ci il

Səfir K.Tarqay Azərbaycana yeni səfir təyin olunmasından məmnun olduğunu bildirmiş və fəaliyyət dövründə rəhbərlik etdiyi təşkilatın Azərbaycanın Xarici İşlər Nazirliyi ilə sıx və səmərəli əlaqələr quracağını bildirmişdir.

Öz növbəsində Nazir E.Məmmədyarov K.Tarqayı təyinatı münasibəti ilə təbrik etmiş, ATƏT-in Bakı ofisi ilə daim sıx və səmərəli əlaqələrin olduğunu qeyd edərək bu əməkdaşlığın daha da genişlənəcəyi və möhkəmlənəcəyinə ümidvar olduğunu bildirmiş və ona yeni iş yerində müvəffəqiyyətlər arzulamışdır.

Xarici İşlər Naziri E.Məmmədyarov Ukraynanın Xarici İşlər Naziri Konstantin Qrişenko ilə görüş keçirmişdir
26 avqust 2011-ci il

Görüş zamanı Ukrayna Prezidentinin Azərbaycana sonuncu səfəri zamanı tərəflər arasında əldə olunmuş razılıqların həyata keçirilməsi, iqtisadi və enerji sahələrində, eyni zamanda GUAM çərçivəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Vatikanın Azərbaycandakı nunsisi Klaudio Qucerottini ölkəmizdəki fəaliyyət müddətini başa vurması ilə əlaqədar qəbul etmişdir
02 sentyabr 2011-ci il

Görüş zamanı K.Qucerotti Azərbaycanda Vatikanın nunsisi olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini söyləyən nunsi bu istiqamətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov nunsi Klaudio Qucerottiyə xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Xarici İşlər Nazirinin müavini M.Məmməd-Quliyev Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortla görüş keçirmişdir, 05 sentyabr 2011-ci il

Görüşdə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və Avropa İttifaqının münaqişənin həllinə verə biləcəyi töhvə barədə fikir mübadiləsi aparılmışdır.

Filip Lefort eyni zamanda, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının üzvləri ilə də görüş keçirmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab E.Məmmədyarovun Qoşulmama Hərəkatının 50 illik yubileyi ilə bağlı çıxışı 6 sentyabr 2011-ci il, Belqrad, Serbiya

Cənab Sədr,

Xanımlar və cənablar,

İlk öncə Serbiya Hökumətinə Qoşulmama Hərəkatının dünyaya göz açdığı yerlərdən biri olan Belqrad şəhərinə gəldiyimiz andan bəri mənə və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Bu il biz Qoşulmama Hərəkatının yaradılmasının 50 illiyini qeyd edirik və qeyd olunmalıdır ki, Qoşulmama Hərəkatı bu gün də yarandığı gün olduğu qədər əhəmiyyətlidir. Soyuq müharibənin bitməsi qoşulmama xətti tutan ölkələrin siyasi koordinasiyası üçün mexanizm olan Qoşulmama Hərəkatının rolunu zəiflətməmişdir.

Bu yaxınlarda Qoşulmama Hərəkatına tam hüquqlu üzv olan Azərbaycan Respublikası Hərəkatın prinsiplərinə və məqsədlərinə bağlılığını bəyan etmişdir. Qoşulmama Hərəkatının daha yaxşı və dinc dünyanın yaradılması uğrunda 1955-ci ildə qəbul etdiyi "On Bandunq Prinsipi" bütün ölkələri suverenliyə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət etməyə, eyni zamanda, hər hansı bir ölkənin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zorakılıqdan və təhlükə törətməkdən çəkinməyə səsləyir.

Təəssüflə qeyd olunmalıdır ki, Azərbaycan hələ də qonşu Ermənistanın təcavüzündən əziyyət çəkir və torpaqlarımızın 20 %-i hələ də işğal altındadır. Təqribən bir milyon qaçqın və məcburi köçkün həmin torpaqlardan etnik təmizlənməyə məruz qalmışdır. Təəssüf ki, BMT TŞ-nın münaqişə ilə bağlı dörd qətnaməsinin olmasına baxmayaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmaqdan imtina edir və bununla da regionda davamlı sülh və stabilliyin bərqərar olmasına mane olur.

Azərbaycan Qoşulmama Hərəkatının bir çox üzvlərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı tutduqları prinsipial mövqeyi yüksək qiymətləndirir. Torpaqlarımızın işğalına son verilməsi istiqamətində göstərdiyimiz səylər və tutduğumuz mövqe ilə bağlı sizin ortaya qoyduğunuz həmrəyliyin davamlı olacağına ümid edirik.

Cənab Sədr,

Azərbaycan Respublikası Qoşulmama Hərəkatının Fələstinlə bağlı tutduğu mövqeyə bağlılığını bir daha vurğulayır və Fələstin xalqı və rəhbərliyi ilə davamlı həmrəy olduğunu bir daha təkrar edir. Biz inanırıq ki, uzun müddətdir davam edən bu məlum məsələdə nailiyyət əldə olunması vaxtı yetişmişdir.

Azərbaycan BMT sistemi daxilində razılaşdırılmış inkişaf məqsədlərinin və vəzifələrinin həyata keçirilməsinə töhvəsini vermək niyyətindədir. Azərbaycan davamlı inkişaf və qlobal çiçəklənməyə, yoxsulluğun aradan qaldırılmasına və davamlı iqtisadi inkişafa tam dəstək göstərir və cəhdlər edir, xüsusən də inkişaf etməkdə olan və az inkişaf etmiş, həmçinin təbii fəlakətlərdən sonra dirçələn ölkələrin ehtiyac və zəifliklərinin aradan

qaldırılmasına xüsusi diqqət yetirir. Son illər ərzində Azərbaycan ehtiyacı olan bir neçə ölkəyə hərtərəfli texniki və humanitar yardımlar göstərmiş və onların milli inkişaf siyasətlərinin və strategiyalarının həyata keçirilməsinə kömək etmişdir.

Beynəlxalq sülhün, təhlükəsizliyin, stabilliyin, və inkişafın qorunub saxlanmasına daha da köməklik göstərmək arzusunda olan Azərbaycan 2012-2013 illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmaq üçün öz namizədliyini irəli sürmüşdür. Seçkilər 13 oktyabr 2011-ci il tarixində BMT Baş Assambleyasının 66-ci sessiyası zamanı keçiriləcəkdir.

2012-ci ildə Azərbaycanın BMT-yə üzvlüyünün 20-ci ildönümü qeyd ediləcəkdir, lakin buna baxmayaraq, digər Şərqi Avropa ölkələrinin namizədlərindən fərqli olaraq, Azərbaycan heç vaxt Təhlükəsizlik Şurasının üzvü olmaq imkanını əldə etməmişdir.

Bizim regional qrupdan olan namizədlər arasında Azərbaycan Qoşulmama Hərəkatına tam üzv olan yeganə ölkədir. Azərbaycanın Təhlükəsizlik Şurasına seçilməsi kiçik inkişaf etməkdə olan ölkələrin aşağı səviyyəli təmsilçiliyinə yeni görünüş verəcək və Təhlükəsizlik Şurasına daha çox balanslaşdırılmış üzvlük anlayışını gətirəcəkdir. Sizi əmin edirəm ki, Qoşulmama Hərəkatı Azərbaycanın BMT-nin nüfuzlu alt-qurumu olan Təhlükəsizlik Şurasına üzvlüyü sayəsində daha güclü təmsilçilikdən faydalanacaqdır.

Sağ olun.

Nazir E.Məmmədyarov Qoşulmama Hərəkatının 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Serbiyada səfərdə olan xarici işlər nazirləri və nümayəndə heyətlərinin başçıları ilə ikitərəfli görüşlər keçirmişdir
06 sentyabr 2011-ci il

Qoşulmama Hərəkatının 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Serbiyada səfərdə olan Xarici İşlər Naziri E.Məmmədyarov Misir Ərəb Respublikası, Livan, Mali, Qana, Kamboca, Şri Lanka, Seyşel adaları, Cənubi Afrika Respublikası, Nigeriya, Konqo Demokratik Respublikası, Anqola, Myanma və Bruneyin xarici işlər nazirləri və nümayəndə heyətlərinin başçıları ilə ikitərəfli görüşlər keçirmişdir.

Görüşlər zamanı bu ölkələrlə ikitərəfli münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri diqqət mərkəzində olmuşdur.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov Serbiyanın Baş naziri Mirko Çvetkoviç ilə görüş keçirmişdir
06 sentyabr 2011-ci il

Görüş zamanı iki ölkə arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu qeyd olunmuş, eyni zamanda, tərəflər arasında iqtisadi, ticarət, investisiya, energetika, turizm və hava nəqliyyatı sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilmişdir.

Görüşdə eyni zamanda, Hökumətlərarası Komissiyanın iclasına hazırlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov Qoşulmama Hərəkatının Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 50 illik yubiley tədbirində çıxış etmişdir
06 sentyabr 2011-ci il

Serbiyanın Belqrad şəhərində Qoşulmama Hərəkatının 50 illik yubileyinə həsr olunmuş xarici işlər nazirləri səviyyəsində növbəti tədbir öz işinə başlamışdır
06 sentyabr 2011-ci il

Tədbirdə 106 ölkəni təmsil edən nümayəndə heyətləri iştirak edir. Tədbirdə Azərbaycan Respublikasını xarici işlər naziri E.Məmmədyarov təmsil edir.

Tədbir zamanı Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov Mavriki xarici işlər naziri Arvin Boolel və Əlcəzair Xalq demokratik Respublikasının xarici işlər naziri Murad Medelsi ilə ikitərəfli görüşlər keçirmişdir. Görüşlər zamanı ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov eyni zamanda Monteneqronun xarici işlər naziri Milan Roçen ilə də görüşmüşdür. Görüş zamanı əsasən Monteneqro prezidentinin Azərbaycan Respublikasına nəzərdə tutulan rəsmi səfərinə hazırlıq məsələləri və səfər zamanı imzalanması təklif edilən ikitərəfli sənədlər barədə ətraflı fikir mübadiləsi aparılmış, iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilmişdir.

Xarici İşlər Naziri E.Məmmədyarov 19 sentyabr tarixində BMT Baş Assambleyasının 66-cı Sessiyasında iştirak edəcək

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin 19 sentyabr tarixində BMT Baş Assambleyasının 66-cı Sessiyasında iştirak etmək məqsədilə Nyu Yorka səfər edəcəkdir.

Səfər zamanı Nazir E.Məmmədyarovun Baş Assambleyanın iclaslarında iştirakı ilə yanaşı bir sıra ikitərəfli görüşlərinin keçirilməsi planlaşdırılır.

Xarici İşlər Naziri E.Məmmədyarov BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
21 sentyabr 2011-ci il

İlk görüş Uruqvayın xarici işlər naziri Luis Almaqro ilə olmuşdur. Görüş zamanı iki ölkə arasında əməkdaşlığın hazırkı durumu və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Cənubi Qafqaz regionu, Azərbaycan Respublikasının regionda rolu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafındakı yeddi rayon da daxil olmaqla ərazisinin 20 faizinin işğal edildiyi, onun apardığı etnik təmizləmə nəticəsində bir milyonadək azərbaycanlı qaçqın və məcburi köçkünün olduğu, münaqişə ilə əlaqədar BMT TŞ-nin qəbul etdiyi qətnamələr, ATƏT və digər beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar, habelə münaqişənin həlli istiqamətində aparılan danışıqların hazırkı və-

ziyyəti barədə Uruqvayın xarici işlər nazirinə ətraflı məlumat vermişdir.

Uruqvayın xarici işlər naziri Uruqvay tərəfinin də Azərbaycan Respublikası ilə müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə maraqlı olduğunu bildirdi. Uruqvayın beynəlxalq hüququn norma və prinsiplərinə önəm verdiyini və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də beynəlxalq hüquqa uyğun olaraq həll olunmasının tərəfdarı olduğunu vurğulamışdır. L.Almaqro Uruqvay dövlətinin ədalətli mövqe tutması üçün məsələnin dərindən öyrənilməsində maraqlı olduğunu və hərtərəfli məlumat əldə edilməsinin vacib olduğunu qeyd etmişdir. Bununla əlaqədar olaraq iki ölkənin xarici işlər nazirlikləri arasında məsləhətləşmələrin aparılması məqsədi ilə qarşılıqlı səfərlər mübadiləsinin həyata keçirilməsi barədə razılıq əldə olunmuşdur.

Sonra Nazir E.Məmmədyarov ABŞ prezidenti B.Obamanın təşəbbüsü ilə təşkil edilmiş Açıq Hökumət Tərəfdaşlığı görüşündə iştirak etmişdir.

Nazir E.Məmmədyarov həmçinin Palaunun Prezidenti Conson Toribionq, Trinidad və Tobaqonun xarici işlər naziri Suracrattan Rambaçan və Kolumbiyanın xarici işlər naziri Maria Ancela Holguin ilə görüşmüşdür. Görüş zamanı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Kolumbiya xarici işlər naziri ilə görüş zamani Azərbaycan Respublikası hökuməti və Kolumbiya Respublikası hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı olaraq aradan qaldırılması haqqında Saziş və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Kolumbiya Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılması haqqında anlaşma memorandumu imzalanmışdır.

Xarici İşlər Naziri E.Məmmədyarov BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müəkirələrində iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
22 sentyabr 2011-ci il

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Rusiya Federasiyasının, İsrailin, Botsvananın, Ukraynanın, Gürcüstanın, Lüksemburqun, Ficinin, Fələstinin, İordaniyanın və Əlcəzairin Xarici İşlər Nazirləri ilə görüşlər keçirmişdir.

Görüşlərdə ikitərəfli münasibətlərin inkisaf etdirilməsi perspektivləri, xüsusilə də iqtisadi, enerji, turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanlarının dəyərləndirilməsi məqsədilə qarşılıqlı səfərlər mübadilələrinin həyata keçirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün biznes forumların təşkili məsələləri diqqət mərkəzində olmuşdur.

Bununla yanaşı Azərbaycanın həmin ölkələrlə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının möhkəmləndirilməsi məsələsi də müzakirə edilmişdir.

BMT Baş Assambleyasının 66-cı Sessiyası İslam Əməkdaşlığı Təşkilatına (İƏT) üzv olan ölkələrin xarici işlər nazirlərinin illik əlaqələndimə görüşü

Cənab Sədr,

Cənab Baş katib,

Zati-alilər, xanımlar və cənablar,

İlk öncə cənab Sədr, Sizə və İƏT-in Baş katibi Professor Ekmələddin İhsanoğluna İƏT xarici işlər nazirlərinin bu illik əlaqələndirmə görüşünün təşkilinə görə təşəkkür edirəm.

Mən, eyni zamanda, Qazaxstan Respublikasına Astanada İƏT xarici işlər nazirlərinin 38-ci Sessiyasına uğurla ev sahibliyi etdiyinə və Nyu Yorkda İƏT Qrupuna rəhbərliyi qəbul etdiyinə görə təşəkkür edirəm. Mən Sizi əmin edirəm ki, fəaliyyətinizə yardımçı olmaq istiqamətində mənim ölkəm tam şəkildə əməkdaşlıq edəcəkdir.

Hörmətli həmkarlar,

Biz tarixi əhəmiyyəti sosial, mədəni və siyasi proseslərdə baş verən ziddiyətlərlə xarakterizə olunan bir zamanda yaşayırıq. Analitik mühakimə bəzən proseslərin dinamikasından geridə qalır.

Qloballaşan dünyamız sürətlə dəyişir. Bunun davamı olaraq, dünya nizamı və beynəlxalq münasibətlər sistemi də dəyişir. Bu günlərdə dünyanın müxtəlif regionlarında baş vermiş siyasi hadisələr istənilən regionun geosiyasi vəziyyətini dəyişməyə qadirdir. Bu hadisələr elə bir sürətlə baş verir ki, güclü ölkələr də buna mane ola bilmir və bu, qloballaşmanın özüdür.

Tarixən İslam bəşəriyyətin zəngin mədəniyyətini və nəcib məqsədlərini daşımış və yaymışdır. Orta əsrlərdə Avropa Şərqin dəyərlərindən faydalanmış və bu faktor sayəsində müxtəlif sahələrdə tərəqqi əldə etmişdir. İslam dünyada sülh və tolerantlığa sadiq qalaraq, inanclarından asılı olmayaraq, bütün xalqların bir-birinə uyğunlaşması və rifahına böyük töhvə vermişdir. Buna baxmayaraq, günümüzdə İslam Ümməti çoxsaylı çağırış və təhlükələrlə üzləşir.

Günümüzdə dünyada bir sıra münaqişələr mövcuddur, təəssüf ki, onların əksəriyyəti İslam Ümmətində baş verir və bu münaqişələr zərər çəkmiş regionların təkcə geosiyasi və geoiqtisadi inkişafına deyil, eyni zamanda, bu regionların demokratik inkişafına da mane olur.

Geosiyasi proseslərə çox həssas olan bir sıra regionlar mövcuddur. Yaxın və Orta Şərq regionunda baş verən sonuncu siyasi proseslər beynəlxalq ictimaiyyətə sülh və stabilliyin necə kövrək olduğunu nümayiş etdirdi. Bir sıra qardaş müsəlman ölkələrində baş verən demokratikləşmə prosesləri xalqların demokratik cəmiyyətlərdə yaşamaq istəyi və iradələrini bir daha vurğuladı. Şübhəsiz ki, sabitliyə və rifaha aparan yol demokratiyadan keçir və Azərbaycan bu haqq işinin güclü müdafiəçisi olaraq qalır.

Azərbaycan bütün üzv ölkələri İslam dünyasında baş verən münaqişələrin həlli istiqamətində göstərilən səyləri beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq davam etdirməyə təşviq edir.

Bizim Fələstindəki vəziyyətlə bağlı narahatlığımız davam edir. Azərbaycan qardaş Fələstin xalqına sülh və sabitliyə nail olunması, paytaxtı Şərqi Qüds olmaqla, suveren və müstəqil Fələstin dövlətinin yaradılması istiqamətində atdığı addımları dəstəklədiyini bir daha bəyan edir və Fələstinin BMT-nin tam hüquqlu üzv olmaq istəyini tam dəstəkləyir. Biz İƏT-in Baş katibi və onun işçi heyətinin Təşkilatın möhkəmləndirilməsi və Fələstin xalqına lazım olan yardımın təmin edilməsi istiqamətində gördükləri işi yüksək qiymətləndiririk.

Cənab Sədr,

Biz qardaş Somalidəki humanitar vəziyyətlə bağlı narahatıq. Dəhşətli aclıq və quraqlığın ölkə ərazisinin böyük hissəsini əhatə etməsi nəticəsində on minlərlə insan həyatını itirmiş və yüz minlərlə Somali vətəndaşı kütləvi şəkildə qonşu ölkələrə köçmüşdür. BMT-nin sonuncu hesabatlarına əsasən 12 mln. insan hələ də böhran içərisindədir və 750 min insan ölüm riski ilə üz-üzədir. Bu, bəşəriyyətin son 100 ildə üzləşdiyi və presedenti olmayan bir faciədir və bütün ölkələr bu fəlakətin acı nəticələrinin aradan qaldırılması üçün tövhələr verməkdədir.

Bununla əlaqədar olaraq, biz, İƏT-in və müsəlman ölkələrin Somalidəki humanitar fəlakətin qarşısının alınması üçün zəruri olan yardımın təmin edilməsi istiqamətində tam potensialını reallaşdırmalıyıq. Azərbaycan bu qardaş ölkəyə artıq humanitar yardım göstərmişdir. Son illərdə Azərbaycan bir sıra İƏT ölkələrinə humanitar yardım proqramları sahəsində həm İƏT, həm də BMT çərçivəsində aktiv iştirakını davam etdirmişdir və biz bundan sonra da bu səylərimizi davam etdirəcəyik.

Qlobal çağırışlar qlobal reaksiyaların verilməsini tələb edir. BMT bu çağırışlara reaksiya verilməsi üçün ən uyğun təşkilatdır. Bunun ən effektiv yolu BMT-nin öz mandatını yerinə yetirməsi, eyni zamanda, ənənəvi və yeni meydana gələn risk və təhlükələrin öhdəsindən gəlməsi üçün bu təşkilatda islahatlar apararaq, onu gücləndirməkdir. Beynəlxalq iqtisadi nizamda bu qloballaşmış, bir-birindən asılı və bağlı olan dünyanın meydana çıxardığı çağırışlara cavab vermək və bizim ölkələrdəki milyonlarla insana təsir edə biləcək böhranları aradan qaldırmaq üçün islahat aparılması vacibdir.

BMT Təhlükəsizlik Şurasında (TŞ) islahatlar aparılması bütün üzv ölkələri ciddi narahat edən bir məsələdir. İƏT-in BMT TŞ-da təmsil olunmaq və müsəlman ölkələrin maraqlarını müdafiə etmək üçün legitim tələb irəli sürməyə haqqı vardır. Biz TŞ-nın üzv ölkələr üçün daha təmsilçi, demokratik, effektiv, şəffaf və məsul bir quruma çevrilməsi üçün hərtərəfli islahatların aparılmasını dəstəkləyirik.

Bununla əlaqədar olaraq, mən hörmətli həmkarlarımı məlumatlandırıram ki, Azərbaycan BMT Baş Assambleyasının 66-cı Sessiyası zamanı keçiriləcək seçkilərdə 2012-2013-cü illər üçün BMT TŞ-nın qeyri-daimi üzvlüyünə öz namizədliyini irəli sürmüşdür. İƏT-in TŞ-da təmsilçiliyinin olması zərurətindən çıxış edərək, üzv ölkələrin Azərbaycana davamlı dəstəyinə güvənirik.

Zati-aliləri, xanımlar və cənablar,

Mən bir daha İslam Ümmətinə və İƏT-in Baş katibinə Azərbaycan ərazilərinin 20%-nin hələ də işğal altında qalması, bir milyona yaxın insanın doğma torpaqlarından etnik təmizlənməyə məruz qalması və Azərbaycanın, o cümlədən İslam irsinə də aid olan minlərlə mədəni və tarixi abidəsinin viran və qarət edilməsi ilə nəticələnmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini müdafiə etdiyi üçün Azərbaycan tərəfinin səmimi minnətdarlığını bildirirəm.

Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı İƏT tərəfindən qəbul edilmiş çoxsaylı qərar və qətnamələr, eyni zamanda, İƏT-ə üzv ölkələrin dəstəyi beynəlxalq ictimaiyyətin, xüsusilə də BMT Baş Assambleyasının və TŞ-nın Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı mövqeyinin formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycan Hökuməti bu uzun sürən münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT TŞ və İƏT qətnamələrinin yerinə yetirilməsi, eyni zamanda, ATƏT, AŞ və Avropa Parlamenti tərəfindən qəbul edilmiş müvafiq sənədlər və qərarlar əsasında sülh yolu ilə həllinə sadiq qalır.

Cənab Sədr,

Yekun olaraq, Baş Assambleyaya ən xoş arzularımızı bildirirəm və uğurlu fəaliyyət arzulayıram. İƏT-in Baş katibi Professor Ekmələddin İhsanoğluna İslam Ümməti naminə gördüyü işlərə görə səmimi təşəkkürlərimi bildirirəm.

Təşəkkür edirəm.

Azərbaycan Respublikası və Hindistan Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir
23 sentyabr 2011-ci il

Azərbaycan tərəfindən nümayəndə heyətinə Xarici İşlər Nazirinin müavini X.Xələfov, Hindistan tərəfindən isə bu ölkənin Xarici İşlər Nazirliyinin Şərq ölkələri üzrə Dövlət Katibi Sancay Sinqh başçılıq etmişlər.Tərəflər müxtəlif sahələrdə, xüsusilə də siyasi, ticarət, iqtisadi, neft-kimya, kənd təsərrüfatı, əczaçılıq, mədəni, humanitar, təhsil və enerji sahələrində əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını qeyd etmişlər. Eyni zamanda qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparmışlar.

Nazir müavini X.Xələfov Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanması prosesi barədə Hindistan tərəfinə məlumat vermişdir. Azərbaycanın Hindistanla əlaqələrə önəm verdiyini və mövcud əlaqələrin daha da dərinləşdirilməsinin vacibliyini vurğulayan X.Xələfov, parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişaf etdirilməsində mühüm rol oynadığını bildirərək, parlamentlərarası dostluq qruplarının üzvlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının faydalı olacağını qeyd etmişdir.

Hindistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiq edən Xarici İşlər Nazirliyinin Şərq ölkələri üzrə Dövlət Katibi Sancay Sinqh Azərbaycan Respublikasının müstəqilliyinin 20-ci ildönümü münasibətilə Hindistan Hökumətinin təbriklərini çatdırmışdır.

Tərəflər 2012-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin yaranmasının 20 illiyi münasibətilə hər iki ölkədə birgə silsilə tədbirlərin keçirilməsi barədə yekdil olmuşlar. Bununla yanaşı qarşılıqlı olaraq Azərbaycanda Hindistan mədəniyyəti günlərinin və eyni zamanda Hindistanda Azərbaycan mədəniyyəti günlərinin, o cümlədən kinofestivalların keçirilməsinin faydalı olacağına inam ifadə etmişlər.

Məsləhətləşmələr zamanı informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın qurulması, cari ilin noyabr ayında Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının gündəliyi barədə fikir mübadiləsi aparmışlar.

Eyni zamanda iki ölkə arasında müqavilə hüquq bazasanın genişləndirilməsi məqsədilə hazırda müzakirə mərhələsində olan ikitərəfli sənədlərin razılaşdırılmasının tezləşdirilməsinə dair ümumi razılıq əldə etmişlər.

Tərəflər iqtisadi ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi məqsədilə iki ölkə arasında investisiyaların təşviqi və qorunması, eyni zamanda ikiqat vergitutmanın aradan qaldırılmasına dair saziş layihələrinin tezliklə razılaşdırılması, biznes forum və simpoziumların təşkili istiqamətində işlərin davam etdirilməsini münasib hesab etmişlər.

Tərəflər Şimal - Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi istiqamətində səylərin artırılmasını və müvafiq tədbirlərin görülməsini məqsədəuyğun hesab etmişlər.

Xarici İşlər Naziri E.Məmmədyarov BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirak etmək məqsədilə bir sıra ikitərəfli görüşlər keçirmişdir
23 sentyabr 2011-ci il

Nazir E.Məmmədyarov Şimali Kiprin Türk icmasının lideri Dərviş Eroğlu, Türkiyənin Baş naziri R.T.Ərdoğan, Tuvalunun Baş naziri Villi Telavi, Böyük Britaniyanın xarici işlər üzrə dövlət naziri Lord Hovel, Bolqarıstanın xarici işlər naziri Nikolay Mladenov, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort və Ərəb Dövlətləri Liqasının Baş katibi Nəbil Əl Ərəbi ilə görüşlər keçirmişdir.

Görüşlərdə ikitərəfli münasibətlərin hazırkı vəziyyəti ilə yanaşı, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, iqtisadi və enerji sahələri, eyni zamanda qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov eyni zamanda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin toplantısında da iştirak etmişdir.

BMT Baş Assambleyasının 66-cı sessiyası Afrika Buynuzundakı Humanitar yardımla bağlı Nazirlərarası görüş
Nyu York, 24 Sentyabr 2011-ci il

Xanım Baş katibin müavini,

Zati-aliləri,

Xanımlar və cənablar,

İlk öncə mən yaxın tarixdə Afrika Buynuzundakı dağıdıcı quraqlıqla nəticələnən humanitar böhranla bağlı Azərbaycan tərəfinin dərin narahatlıq hissi keçirdiyini ifadə edərək, Somali, Keniya, Efiopiya, Cibuti hökumətlərinə və xalqlarına səmimi həmrəylik ismarıclarımızı çatdırıram.

Biz Baş Assambleya çərçivəsində keçirilən bu tədbiri Afrika Buynuzundakı quraqlığın

baş verdiyi ərazilərdə yardım tədbirlərinin maliyyələşdirilməsinin dəstəklənməsi üçün zəruri maliyyə mənbələrin cəlb edilməsi istiqamətində əsas səy kimi qiymətləndiririk.

Mən, zərər çəkmiş ölkələrin xalqlarının zəruri ehtiyacları üçün maliyyə resurslarının səfərbər edilməsi istiqamətində BMT və onun müvafiq təşkilatları, həmçinin Afrika İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, üzv ölkələr və tərəfdaşların bu günədək gördükləri işləri yüksək qiymətləndirirəm.

Son illərdə Azərbaycan yoxsulluğun aradan qaldırılması, davamlı inkişafın təşviq edilməsi və qlobal rifahın dəstəklənməsinə yönəlmiş beynəlxalq və milli səyləri dəstəkləmək məqsədilə humanitar yardımları artırmış, inkişaf etməkdə olan və ən az inkişaf etmiş, həmçinin təbii fəlakətlərdən sonra dirçələn ölkələrin ehtiyac və zəifliklərinin aradan qaldırılmasına xüsusi diqqət yetiririk.

Bu səbəbdən Azərbaycan beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi Afrika Buynuzundakı iztirablara son qoyulmasında beynəlxalq səylərə qoşulmaqda mənəvi öhdəçilik hiss edir.

2011-ci il avqustun 11-də Azərbaycan Hökuməti və BMT İnkişaf Proqramı arasında Somalidə Ortaq Humanitar Fond üçün Standart İnzibati Tədbirlər sənədi imzalanmışdır. Bu sənədi imzalamaqla biz Somali Respublikası Hökumətinin, BMT və başqa beynəlxalq təşkilatların, regionda ən çox zərər çəkmiş ölkə kimi Somalidə aclığın aradan qaldırılması və Somali xalqının iztirabının azaldılması yolunda gedən cəhdlərə edilən təcili yardım müraciətlərini öz dəstəyimizlə cavablandırmış olduq. Somalidə Ortaq Humanitar Fond üçün Standart İnzibati Tədbirlər sənədinə əsasən Azərbaycan Hökuməti BMT-nin Çox-Tərəfdaşlı Etimad Fondu vasitəsilə 100,000 ABŞ dolları həcmində yardım etmişdir. Azərbaycan Hökumətinin bu yardımına əlavə olaraq, Azərbaycan vətəndaşları və özəl sektor tərəfindən göstərilən birbaşa yardımın həcmi 250 000 ABŞ dollarını ötmüşdür.

Bundan başqa, Azərbaycan Respublikasının 100 milyon ABŞ dolları həcmində yardım etdiyi Afrika, Latın Amerikası və Karib hövzəsi üçün Beynəlxalq Maliyyə Korporasiyası Fondu Keniya üçün bir sıra yatırımları təsdiqləmişdir və biz onların tez bir zamanda həyata keçirilməsini gözləyirik.

Azərbaycan Hökuməti Afrika Buynuzundakı böhranın orta və uzun müddətli davamlı həllinə nail olmaq istiqamətində beynəlxalq ictimaiyyətin humanitar yardım sahəsində səylərinin artırılmasını dəstəkləmək üçün əlavə vəsaitin ayrılması məsələsini nəzərdən keçirir.

Sağ olun.

BMT-nin Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində Xarici İşlər Naziri Elmar Məmmədyarov bir sıra tədbirlərdə iştirak etmiş və ikitərəfli görüşlər keçirmişdir
26 sentyabr 2011-ci il

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov bir sıra tədbirlərdə iştirak etmiş və ikitərəfli görüşlər keçirmişdir.Nazir

E.Məmmədyarov türkdilli ölkələrin Əməkdaşlıq Şurasının iclasında iştirak etmişdir. Bas Katib H.Akıncı katibliyin fəaliyyəti və qarşıda duran vəzifələri barədə məlumat vermişdir. İclasda Qazaxıstanda keçiriləcək Zirvə Görüşə hazırlıq məsələləri və qəbul olunacaq sənədlər ətrafında fikir mübadiləsi aparılmışdır. İclas zamanı türkdilli dövlətlərin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və mövqelərinin əlaqələndirilməsinin vacibliyi qeyd olunmuş, eyni zamanda, bu istiqamətdə mütəmadi fəaliyyət göstərilməsi, həmçinin üzv dövlətlərin müstəqilliyinin 20 illiyinin qeyd olunması ilə əlaqədar tədbirlər planının hazırlanması barədə müzakirələr aparılmışdır.

Daha sonra Nazir E.Məmmədyarov Afrika buynuzundakı humanitar vəziyyətlə bağlı keçirilmiş nazirlərarası görüşdə çıxış etmişdir. E.Məmmədyarov Afrika buynuzundakı humanitar böhranın aradan qaldırılması üçün bütün dövlətlərin həmrəyliyinin vacibliyini diqqətə çatdırmışdır. Humanitar fəlakətdən əziyyət çəkən Somali, Kenya, Efiopiya və Cibutiyə maliyyə dəstəyi göstərilməsi üçün BMT BA Sessiyası çərçivəsində belə bir tədbirin keçirilməsinin vacibliyini və yardımların artırılmasının zəruriliyini vurğulamışdır. Azərbaycanın da təbii fəlakətdən əziyyət çəkən bu ölkələrə dəstək vermək məqsədi ilə yardım etdiyini və bu yardımların gələcəkdə də davam etdiriləcəyini bildirmişdir.

Nazir E.Məmmədyarov həmçinin ASEAN və İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci nazirlərarası görüşündə də çıxış etmişdir. Nazir E.Məmmədyarov iki qurum arasında əməkdaşlığın davam etdirilməsinin bütün region dövlətlərinin maraqlarına cavab verdiyini qeyd etmiş, eyni zamanda, üzv ölkələr arasında müxtəlif sahələrdə əməkdaşlığın vacibliyini, bu məqsədlə konfransların, biznes forumların, turist turlarının təşkili və investisiya imkanlarının araşdırılması üçün qarşılıqlı missiyaların həyata keçirilməsini təklif etmişdir.

Nazir E.Məmmədyarov Antiqua və Barbudanın Baş naziri B.Spenser və Küveytin Xarici İşlər Naziri M.Əl-Sabahla ikitərəfli görüşlər də keçirmişdir. Görüşlərdə regional və beynəlxalq məsələlər, ikitərəfli münasibətlərin inkişaf perspektivləri, xüsusi ilə də iqtisadi, enerji, turizm, kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanlarının dəyərləndirilməsi üçün səfərlər mübadiləsi, biznes forumların təşkili və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov 23 sentyabr 2011-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən BMT Baş Assambleyasının 66-cı Sessiyası çərçivəsində İslam Əməkdaşlığı Təşkilatına (İƏT) üzv olan ölkələrin xarici işlər nazirlərinin illik əlaqələndirmə görüşündə çıxış etmişdir

Cənab Prezident,

Xanımlar və cənablar,

Zati-Aliləri cənab Nasir Əbdüləziz Əl Naserin BMT Baş Assambleyasının 66-cı Sessiyasının Prezidenti seçilməsi ilə əlaqədar səslənmiş təbriklərə qoşuluram və ona bu yüksək məsuliyyətli vəzifədə uğurlar arzulayıram. Mən, eyni zamanda, onun sələfi Zati-Aliləri cənab Cozef Deysə də sonuncu Sessiyanın işi zamanı məhsuldar fəaliyyətinə görə təşəkkür edirəm.

Mən, həmçinin BMT-nin Baş katibi Zati-Aliləri cənab Ban Ki-Muna BMT-nin yenidən

canlanmasına həsr olunmuş fəaliyyətinə və rəhbərliyinə görə öz dərin hörmət və minnətdarlığımı bildirirəm.

Cənab Sədr,

Bu ilki Ümumi Müzakirələrin mövzusu ilə əlaqədar bildiririk ki, biz Baş Assambleyanın 65-ci Sessiyasında münaqişələrin sülh yolu ilə nizamlanması, münaqişələrin qarşısının alınması və həlli üçün vasitəçilik rolunun gücləndirilməsinə dair qəbul edilmiş qətnaməni alqışlayırıq. Bu sənəddə Baş Assambleyanın bütün üzv ölkələrin BMT Xartiyasında qeyd olunduğu kimi öz öhdəliklərinə ciddi şəkildə sadiq qalmalı olduğu bir daha bəyan edilmiş və beləliklə də, bütün ölkələrin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət öhdəliyi bir daha təsdiq edilmişdir.

Azərbaycan qətnamədə qeyd olunduğu kimi, daha effektiv vasitəçilik üçün müvafiq təlimata ümid edir və biz bunun işlənib hazırlanmasına töhvə vermək üçün hazırıq.

Təəssüflə etiraf etməliyik ki, heç də bütün ölkələr öz beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmır və beynəlxalq hüququn hamı tərəfdən qəbul edilmiş norma və prinsiplərinə əməl etmirlər.

Təqribən 20 ildir ki, biz BMT Xartiyasının və beynəlxalq hüququn digər sənədlərinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı zorakılıq tətbiq etmiş Ermənistan Respublikası tərəfindən kobud şəkildə pozulması ilə qarşı-qarşıyayıq. Bu zorakılığın nəticəsi olaraq, Azərbaycan torpaqlarının 20%-i hələ də işğal altındadır və təqribən 1 milyon Azərbaycanlı qaçqın və köçkün öz torpaqlarına qayıda bilmir.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam şəkildə və şərtsiz olaraq çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdi və Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etdi. Bu kimi müraciətlər həmçinin digər beynəlxalq təşkilatlar tərəfindən də edilmişdi. Təəssüf ki, Ermənistan dünya ictimaiyyətinin çağırışlarına məhəl qoymamaqda davam edir.

Ən narahatedici məqam odur ki, öz xalqını sülh, rifahlı və stabil gələcəyə, qonşu ölkələrlə əməkdaşlığa hazırlamaq əvəzinə, Ermənistan rəhbərliyi gənc nəsilləri yeni müharibələrə, zorakılıq və təcavüzə açıq şəkildə təhrik edir, eyni zamanda, tək Azərbaycana deyil, regionun digər xalqlarına qarşı da düşmənçilik və nifrətin təhlükəli ideyalarını bütün vasitələrlə yayır.

Azərbaycanın işğal edilmiş ərazilərində etnik ermənilərin köçürülərək yerləşdirilməsi, eyni zamanda, tarixi və mədəni irsin məhv edilməsi və mənimsənilməsi kimi qanunsuz fəaliyyətlər daha bir ciddi narahatlıq mənbəyidir. Bu kimi fəaliyyətlər işğalın mövcud vəziyyətini daha da möhkəmləndirmək və etnik təmizləmənin nəticələrini və işğal edilmiş ərazilərin kaloniyalaşdırılmasını təmin etmək məqsədi daşımaqla yanaşı, münaqişənin həlli perspektivlərinə də ciddi maneçilik törədir. Daha əvvəl biz Ermənistan Prezidentinin çox aqressiv və qeyri-konstruktiv çıxışının şahidi olduq. O, Ermənistanın destruktiv siyasətini açıq şəkildə təsdiq etdi.

Azərbaycanın işğal edilmiş ərazilərində ötən ilin oktyabrında ATƏT-in Minsk Qrupu tərəfindən keçirilmiş Sahə Dəyərləndirmə Missiyası xüsusilə vurğuladı ki, işğalın möv-

cud vəziyyəti qəbuledilməzdir və Ermənistan bu ərazilərdə qanunsuz işlərə son qoymalıdır.

Ərazisinin işğalından və yüz minlərlə vətəndaşının zor gücünə köçürülməsindən əziyyət çəkən bir ölkə olaraq, Azərbaycan münaqişənin ən qısa zamanda danışıqlar yolu ilə nizamlanmasında ən çox maraqlı olan tərəfdir. Bizim mövqeyimiz beynəlxalq ictimaiyyətə məlumdur və beynəlxalq hüququn ərazinin güclə alınmasının yolverilməz olduğu, eyni zamanda, qəti və şərtsiz şəkildə rədd olunduğu vurğulanan norma və prinsiplərinə ciddi bağlılıq üzərində qurulmuşdur.

Həm Azərbaycanın işğal edilmiş ərazilərində, həm də öz ərazilərində azərbaycanlıların tam etnik təmizlənməsini həyata keçirmiş Ermənistan rəhbərliyinin öz müqəddəratını təyin etmə prinsipini tətbiq etmək cəhdləri tamamilə məntiqsizdir. Aydın məsələdir ki, etnik əsasda əhalini öz evindən qovan heç kəs yerdə qalan əhalinin öz müqəddəratını təyin etməsindən danışa bilməz.

Azərbaycan qəbul edir ki, xalqların öz müqəddəratını təyin etmək hüququ yalnız və yalnız BMT Xartiyasının məqsəd və prinsiplərinə, eyni zamanda, Helsinki Yekun Aktında öz əksini tapdığı kimi, dövlətlərin ərazi bütövlüyünün də daxil olduğu beynəlxalq hüququn müvafiq normalarına uyğun şəkildə tətbiq edilə bilər.

Biz əminik ki, münaqişənin nizamlanması Ermənistan silahlı qüvvələrinin müəyyən olunmuş vaxt çərçivəsində işğal edilmiş ərazilərdən çıxarılması ilə başlamalıdır və kommunikasiyaların bərpası, qaçqın və köçkünlərin öz torpaqlarına geri qayıtması və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağda azərbaycanlıların və ermənilərin sülh şəraitində birgə yaşamaları üçün şərtlərin yaradılması ilə davam etdirilməlidir. Vasitəçilər tərəfindən təklif olunmuş və təəssüf ki, Ermənistan rəhbərliyindən başqa beynəlxalq ictimaiyyətin digər üzvləri tərəfindən qəbul edilmiş bu mərhələli yanaşma regiona davamlı sülh, sabitlik və müəyyənlik gətirə bilər.

Azərbaycan hələ də bu çox çətin və həssas danışıqlar prosesinə olan marağını, stimulunu və səbrini qoruyub saxlayır. Biz inanırıq ki, beynəlxalq ictimaiyyət Ermənistan tərəfini beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş norma və prinsiplərinə hörmət etməyə və azərbaycanlıların Dağlıq Qarabağ regionu da daxil olmaqla öz torpaqlarında yaşamaq hüquqlarını pozmalarını dayandırmağa inandıracaqdır. Biz öz növbəmizdə bu regiona Azərbaycan Respublikasının tərkibində olmaqla, özünü idarənin ən yüksək formasını təmin etməyə hazırıq.

Cənab Prezident,

Mən çıxışımda beynəlxalq gündəlikdə olan digər bir mühüm məsələyə - Fələstin məsələsinə də toxunmaq istəyirəm. Azərbaycan BMT-yə üzv ölkələrin əksəriyyəti tərəfindən ifadə olunmuş mövqeyə bağlılığını bir daha bəyan edir. Biz Fələstin xalqı və rəhbərliyi ilə davamlı həmrəy olduğumuzu bir daha bəyan edirik və inanırıq ki, çox vacib və uzun müddətdir davam edən bu məsələdə nailiyyət əldə olunmasının vaxtı çatmışdır. Fələstinin BMT-də tam şəkildə təmsil olunmasının vaxtı yetişmişdir.

Cənab Prezident,

Azərbaycan BMT çərçivəsində razılaşdırılmış məqsəd və vəzifələrin reallaşdırılmasına

bundan sonra da töhfə verməkdə qərarlıdır. Son illərdə Azərbaycan yoxsulluğun aradan qaldırılması, davamlı inkişafın təşviq edilməsi və qlobal rifahın dəstəklənməsinə yönəlmiş beynəlxalq və milli səyləri dəstəkləmək məqsədilə humanitar yardımları artırmışdır. Biz inkişaf etməkdə olan və ən az inkişaf etmiş, həmçinin təbii fəlakətlərdən sonra dirçələn ölkələrin ehtiyac və zəifliklərinin aradan qaldırılmasına, xüsusilə də iqlim dəyişikliyindən əziyyət çəkən kiçik ada dövlətlərin problemlərinə xüsusi diqqət yetiririk.

Afrika buynuzunda baş vermiş sonuncu böhran bir daha qlobal həmrəyliyin əhəmiyyətini nümayiş etdirdi. Azərbaycan bu regionda aclığın aradan qaldırılması istiqamətində göstərilən səyləri dəstəkləmək məqsədilə təcili yardım etmişdir. Azərbaycan Hökuməti Afrika Buynuzundakı böhranın orta və uzun müddətli davamlı həllinə nail olmaq istiqamətində beynəlxalq ictimaiyyətin humanitar yardım sahəsində səylərinin artırılmasını dəstəkləmək üçün əlavə vəsaitin ayrılması məsələsini nəzərdən keçirir.

BMT ilə Azərbaycan Hökuməti arasında mövcud olan məhsuldar əməkdaşlığın nəticəsi olaraq, Azərbaycan tərəfindən irəli sürülmüş "Trans-Avrasiya İnformasiya Magistralı vasitəsilə əlaqənin qurulması" adlı qətnamə BMT BA-nın 21 dekabr 2009-cu il tarixində keçirilmiş 64-cü Sessiyasında qəbul edilmişdir (A/RES/64/186).

Layihənin əsas əlaqələndiricisi olan Azərbaycan layihənin həyata keçirilməsi mümkünlüyü barədə araşdırma aparmış və Katibliyin maliyyələşdirilməsini təmin etmişdir. Biz regionun əsas böyük telekommunikasiya operatorlarından ibarət konsorsiumun yaradılması istiqamətində bir sıra addımlar atmışıq.

Cənab Prezident,

Azərbaycanda hər zaman müxtəlif inancların, etnik qrupların və fəlsəfələrin tolerant formada birgə mövcud olması ilə yanaşı, Azərbaycan müxtəlif mədəniyyətlərin və sivilizasiyaların Şimalla Cənubun və Şərqlə Qərbin kəsişməsində görüşdüyü unikal yerlərdən biridir.

Mədəniyyətlər arasında körpü rolunu oynayan və Sivilizasiyalar İttifaqının Dostlar Qrupunun aktiv bir üzvü kimi Azərbaycan, qarşılıqlı hörmət və anlayışa söykənən dinlərarası və mədəniyyətlərarası dialoqun təşviq olunmasında məsuliyyət hiss edir. Belə ki, biz son illərdə Dünya Dini Liderlərinin Sammiti (aprel 2010), Dünya Mədəniyyətlərarası Dialoq Forumu (7-9 aprel 2011) kimi bir sıra yüksək səviyyəli və fəaliyyətyönümlü tədbirlərə ev sahibliyi etmişik.

Cənab Prezident,

Beynəlxalq sülh, təhlükəsizlik, sabitlik və inkişafın qorunub saxlanılması üçün bundan sonra da töhfə vermək arzusunda olan Azərbaycan BMT TŞ-da 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyə öz namizədliyini irəli sürmüşdür. Seçkilər cari ilin 21 oktyabr tarixində BMT BA-da keçiriləcəkdir.

2012-ci il Azərbaycanın BMT-yə üzvlüyünün 20-ci ildönümü olması ilə əlamətdardır, lakin buna baxmayaraq, digər Şərqi Avropa ölkələri Qrupunun namizədlərindən fərqli olaraq, Azərbaycan heç vaxt TŞ-nın üzvü olmaq imkanını əldə etməmişdir.

Azərbaycanın Təhlükəsizlik Şurasına seçilməsi kiçik və inkişaf etməkdə olan ölkələrin aşağı səviyyəli təmsilçiliyinə yeni görünüş verəcək və bu BMT orqanına daha çox ba-

lanslaşdırılmış üzvlük anlayışını gətirəcəkdir.

Azərbaycan Respublikası Hökuməti BMT-nin bütün üzv ölkələrinə Azərbaycanın BMT TŞ-da qeyri-daimi üzvlük üçün irəli sürdüyü namizədliyə göstərəcəkləri dəstəyə görə minnətdar olacaqdır.

Sağ olun.

Xarici İşlər Nazirinin müavini X.Xələfov Argentina Parlamentinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir
27 sentyabr 2011-ci il

Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunda yüksələn rolu barədə Argentina nümayəndə heyətinə məlumat verən X.Xələfov, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin regionun inkişafına mane olan başlıca faktor olduğunu vurğulamışdır. Xarici İşlər Nazirinin müavini müasir dövrdə bir ölkə tərəfindən digər ölkəyə qarşı zor işlətməklə işğalçılıq və etnik təmizləmə siyasəti aparmasının dünya ictimaiyyəti tərəfindən qəbul edilmədiyini və işğalın nəticələrinin tanınmadığını bildirmişdir.

Argentina nümayəndə heyəti Ermənistanın Azərbaycan ərazilərinin işğalı faktını pisləyərək, Azərbaycanla həmrəy olduqlarını və ölkəmiz haqqında həqiqətlərin Argentina cəmiyyətinə çatdırılacağını vurğulamışlar. Argentinalı parlamentarilər bu münaqişənin tezliklə ədalətli həllini tapacağına ümidvar olduqlarını bildirmişlər.

Görüş zamanı iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların və potensialın mövcud olduğu vurğulanmışdır. Argentinalı qonaqlar ölkəmizdə sürətli inkişafın şahidi olduqlarını qeyd edərək, Azərbaycanla Argentina arasında müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, enerji, sənaye, turizm kimi sahələrdə əməkdaşlıq imkanları barədə öz ölkələrinin müvafiq qurumlarını məlumatlandıracaqlarını bildirmişlər. X.Xələfov ölkəmizin regionda aparıcı rolunu qeyd edərək, Argentinanın regionla əlaqədar əməkdaşlıq məsələlərində Azərbaycanın potensialından yararlana biləcəyini qeyd etmişdir.

Səmimi qonaqpərvərliyə görə təşəkkür edən Argentina nümayəndə heyəti ölkəmizdən xoş təəssüratlarla ayrıldıqlarını diqqətə çatdırmışlar.

Xarici İşlər Nazirinin müavini X.Xələfov ABŞ-ın Kaliforniya Senatının ətraf mühitin keyfiyyəti üzrə komitəsinin sədri senator C.Simitianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
27 sentyabr 2011-ci il

Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edən Nazir müavini X.Xələfov, Azərbaycanın ABŞ-ın subyektləri ilə də əlaqələrə xüsusi əhəmiyyət verdiyini qonaqların diqqətini çatdırmışdır. X.Xələfov Kaliforniya ştatı ilə bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səy göstərildiyini vurğulamışdır. Cənubi Qafqazda və Xəzər hövzəsində Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə mühüm layihələrin həyata keçirildiyini bildirən X.Xələfov, ABŞ-la Azərbaycan arasında qlobal və regional məsələlərdə əməkdaşlığın davam etdirildiyini diqqətə çatdırmış və qeyd etmişdir ki, iki ölkə arasında beynəlxalq terrorizmlə mübarizə sahəsində əməkdaşlıq uğurla davam edir. X.Xələfov eyni zamanda, qanunverici orqan-

lar arasındakı əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafında körpü rolunu oynadığını bildirmişdir.

Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən X.Xələfov, Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğal edildiyini qeyd etmiş, qaçqın və köçkünlərin problemləri barədə söhbət açmış və bildirmişdir ki, bu ölkənin öz qonşularına qarşı ənənəvi olaraq, ərazi iddiaları ilə çıxış etməsi və təcavüzkar siyasət yeritməsi onun regional layihələrdən kənarda qalmasına səbəb olmuşdur. Ermənistanın inkişafdan ciddi şəkildə geri qaldığını bildirən X.Xələfov Ermənistanın siyasi rəhbərliyinin sülh yolu ilə Azərbaycan torpaqlarını işğaldan azad etməyə hazır olmaması və iradə nümayiş etdirə bilməməsi danışıqları uğursuzluğa düçar etmişdir. Nazir müavini Ermənistanın təcavüzkar siyasəti davam etdirməsinin bölgədə sülh və sabitliyin bərqərar olmasına əsas maneə kimi qiymətləndirmiş, təcavüzün nəticələrinin dünya ictimaiyyəti tərəfindən qəbul edilmədiyini bildirmişdir.

Kaliforniya senatorları Azərbaycanın strateji əhəmiyyətə malik olan bir ölkə olduğunu qeyd edərək, regiondakı rolunu yüksək qiymətləndirmişlər. Azərbaycanda gedən sürətli inkişafın xoş təəssürat yaratdığını qeyd edən Kaliforniya senatorları Azərbaycanın regiondakı gələcək rolu ilə yaxından maraqlanmışlar.

Nazir Elmar Məmmədyarov GUAM-ın Baş katibi Valeriy Çeçelaşvilini qəbul etmişdir
11 oktyabr 2011-ci il

Görüş zamanı GUAM ilə Azərbaycan arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi, humanitar, turizm və nəqliyyat sahələrində əməkdaşlıq və həmçinin GUAM-ın beynəlxalq təşkilatlarla münasibətləri müzakirə edilmişdir.

Bununla yanaşı görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası və Argentina Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir
14 oktyabr 2011-ci il

Azərbaycan tərəfindən nümayəndə heyətinə Xarici İşlər Nazirinin müavini Xələf Xələfov, Argentina tərəfindən isə bu ölkənin Xarici İşlər üzrə Dövlət Katibinin müavini xanım Norma Nasimbene de Dümont başçılıq etmişlər.

Tərəflər ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayaraq, müxtəlif sahələrdə, xüsusilə də siyasi, ticarət, iqtisadi, humanitar sahələrdə əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını qeyd etmişlər. Görüş zamanı yüksək səviyyəli səfər mübadilələrinin münasibətlərin inkişaf etdirilməsində mühüm rol oynadığı qeyd olunaraq, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

Nazir müavini X.Xələfov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanması prosesi barədə Argentina tərəfinə məlumat vermişdir. Azərbaycanın Argentina ilə əlaqələrə önəm verdiyini və mövcud əlaqələrin daha da dərinləşdirilməsinin vacibliyini vurğulayan X.Xələfov, parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlə-

rin inkişaf etdirilməsində mühüm rol oynadığını bildirmişdir.

Öz növbəsində xanım Norma Nasimbene de Dümont Argentinanın Azərbaycanın mövcud potensialını və həyata keçirdiyi irimiqyaslı layihələri yüksək qiymətləndirdiyini vurğulayaraq, ölkəsinin Azərbaycanla əlaqələrin hərtərəfli inkişafında maraqlı olduğunu xüsusilə qeyd etmişdir.

Tərəflər eyni zamanda, iki ölkə arasında müqavilə hüquq bazasının genişləndirilməsi istiqamətində müvafiq fəaliyyətin davam etdirilməsinin əhəmiyyətini vurğulamışlar.

Çexiya Parlamentinin Deputatlar Palatasının xarici əlaqələr komitəsi Azərbaycan Respublikasının müstəqilliyinin 20-ci ildönümü münasibətilə cari ilin 12 oktyabr tarixində yekdilliklə qətnamə qəbul etmişdir
15 oktyabr 2011-ci il

Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin

20-ci ildönümü münasibətilə qətnamə

Nəzərə alaraq ki, 28 may 1918-ci ildə müstəqilliyi bəyan edilmiş Azərbaycan Respublikası Türk və Müsəlman dünyasında ilk dünyəvi demokratik respublika və universal səsvermə hüququnu təmin edən ilk dünya dövlətlərindən olmuş və Çexoslovakiya da daxil olmaqla digər demokratik dövlətlər tərəfindən tanınmışdır;

Nəzərə alaraq ki, Azərbaycan Respublikası 1918-1920-ci illərdə müstəqil və 1922-1991-ci illərdə SSRİ tərkibində olmuş, 18 oktyabr 1991-ci il tarixində Azərbaycan Parlamenti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir;

Nəzərə alaraq ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, dövlət suverenliyi və müstəqilliyi Çexiya Respublikası tərəfindən qeyd-şərtsiz tanınmış və dəstəklənmişdir;

Nəzərə alaraq ki, yaradıcılarının qoyduğu rəhbər prinsiplərin və ümumbəşəri demokratik dəyərlərin təbliğinin davamı olaraq, Azərbaycan Respublikası Çexiya Respublikasının strateji tərəfdaşıdır;

Nəzərə alaraq ki, Azərbaycan Respublikası Avropanın enerji təchizatının diversifikasiyasında əhəmiyyətli rol oynayır, bununla da Avropanın enerji təhlükəsizliyinə böyük töhvə verir;

Nəzərə alaraq ki, Azərbaycan Respublikası NATO-nun Sülh naminə Tərəfdaşlıq və Avropa Birliyinin Şərq Tərəfdaşlığı proqramlarının aktiv üzvüdür;

Biz, Çexiya Parlamentinin Deputatlar Palatasının Xarici Əlaqələr Komitəsinin üzvləri, təmsil etdiyimiz xalq adından müstəqilliyini bərpa etməsinin 20-ci ildönümü münasibətilə Azərbaycan Respublikasını təbrik edirik

Azərbaycan Respublikası və Kolumbiya Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir
17 oktyabr 2011-ci il

Azərbaycan tərəfindən nümayəndə heyətinə Xarici İşlər Nazirinin müavini Xələf Xələfov, Kolumbiya tərəfindən isə bu ölkənin Xarici İşlər Nazirinin müavini xanım Patti Londonyo Xaramiyo başçılıq etmişlər.

Görüş zamanı yüksək səviyyəli səfər mübadilələrinin münasibətlərin inkişaf etdirilməsində mühüm rol oynadığı qeyd olunaraq, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılmışdır. Tərəflər ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayaraq, müxtəlif sahələrdə, xüsusilə də siyasi, ticarət, iqtisadi, enerji, humanitar sahələrdə əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını qeyd etmişlər. X.Xələfov ölkəmizdə və regionda həyata keçirilən irimiqyaslı layihələr barədə Kolumbiya tərəfini məlumatlandırmışdır.

Nazir müavini X.Xələfov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanması prosesi barədə Kolumbiya tərəfinə məlumat vermişdir. X.Xələfov Azərbaycanın Kolumbiya ilə əlaqələrə önəm verdiyini və mövcud əlaqələrin daha da dərinləşdirilməsinin vacibliyini vurğulamışdır. Tərəflər Azərbaycanla Kolumbiya arasında beynəlxalq təşkilatlar çərçivəsində mövcud olan əməkdaşlıqdan məmnunluq bildirmişlər. X.Xələfov BMT Təhlükəsizlik Şurasında Azərbaycanın 2012-2013-cü illərdə qeyri daimi üzvlük üçün namizədliyinin Kolumbiya tərəfindən dəstəklənməsini yüksək qiymətləndirmiş və Kolumbiya tərəfinə təşəkkür etmişdir.

Öz növbəsində xanım Patti Londonyo Xaramiyo Kolumbiyanın Azərbaycanın mövcud potensialının və həyata keçirdiyi irimiqyaslı layihələrin təqdirəlayiq olduğunu vurğulayaraq, ölkəsinin Azərbaycanla əlaqələrin hərtərəfli inkişafında, xüsusilə də enerji sahəsində əməkdaşlığın inkişafında maraqlı olduğunu vurğulamışdır

Azərbaycan Hökuməti Pakistan İslam Respublikasının cənubunda musson yağışları nəticəsində baş vermiş daşqın və dağıntılardan zərər çəkmiş insanlara humanitar yardım göstərilməsi məqsədilə vəsait ayırmışdır
27 oktyabr 2011-ci il

27 oktyabr 2011-ci il tarixində Azərbaycan Hökuməti Pakistan İslam Respublikasının cənubunda musson yağışları nəticəsində baş vermiş daşqın və dağıntılardan zərər çəkmiş insanlara humanitar yardım göstərilməsi məqsədilə 2 (iki) milyon ABŞ dolları məbləğində vəsait ayırmışdır

Xarici İşlər Naziri Elmar Məmmədyarov Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
27 oktyabr 2011-ci il

İlk növbədə Aİ nümayəndəsi Azərbaycan tərəfini BMT Təhlükəsizlik Şurasının 2012 - 2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsi münasibətilə təbrik etmiş və uğurlar arzulamışdır. Filip Lefort ölkəmizin bu mötəbər quruma qeyri-daimi üzv qismində seçilməsini Azərbaycan kimi gənc ölkə üçün böyük nailiyyət olduğunu vurğulamışdır.

Görüş zamanı F.Lefort həmçinin Aİ ilə Azərbaycan arasında əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu qeyd etmişdir.

Nazir Elmar Məmmədyarov Aİ nümayəndəsinə təbriklərə görə təşəkkür edərək, Azərbaycanın BMT TŞ-ya qeyri-daimi üzvlüyü müddətində qlobal və regional məsələlərin həllində effektiv və yaxından iştirak edəcəyinə əmin olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov bundan öncə Azərbaycanın müxtəlif humanitar missiyalarda iş-

tirak etdiyini və ümumiyyətlə beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verdiyini vurğulamışdır. Nazir Azərbaycanın zəngin mədəniyyətə malik olduğunu bildirərək, ölkəmizin dünyada multikulturalizmin inkişafına töhvə verəcəyinə əminliyini qeyd etmişdir.

Xarici İşlər Naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin xarici siyasətimizin ən yüksək prioritet təşkil edən məsələsi olduğunu vurğulayaraq, bu münaqişənin Azərbaycan üçün ən böyük problem olduğunu tərəf müqabilinin diqqətinə çatdırmışdır. Nazir bildirmişdir ki, münaqişənin nizamlanması üçün ən böyük maneə Azərbaycan torpaqlarının hələ də erməni silahlı qüvvələri tərəfindən işğal altında olması faktıdır.

Görüş zamanı tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır

Xarici İşlər Naziri Elmar Məmmədyarov Avstraliyanın iqamətgahı Ankara şəhəri olmaqla Azərbaycan Respublikasında akkreditə olunmuş Səfiri İan Biqsi qəbul etmişdir
27 oktyabr 2011-ci

Səfir ilk öncə Azərbaycan tərəfini BMT Təhlükəsizlik Şurasının 2012 - 2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsi münasibətilə təbrik etmiş və Azərbaycana uğurlar arzulamışdır.

Görüş zamanı nazir Elmar Məmmədyarov Azərbaycanın enerji strategiyası və ölkəmizin müxtəlif regional və beynəlxalq əhəmiyyətli layihələrdə iştirakı barədə Avstraliya Səfirinə məlumat vermişdir.

Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi və onun son durumu barədə danışan Nazir Elmar Məmmədyarov, münaqişənin həllində beynəlxalq ictimaiyyət tərəfindən yaranmış status-kvonun saxlanılmasının qəbul olunmaz olduğunu qeyd etmiş və münaqişənin nizamlanması üçün Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının zəruri olduğunu vurğulamışdır.

Səfir İan Biqs Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Azərbaycanın mövqeyini dəstəklədiyini bildirmiş və münaqişənin tezliklə sülh yolu ilə həll ediləcəyinə ümidvar olduğunu vurğulamışdır.

Tərəflər iki ölkə arasında hüquq - müqavilə bazasının genişləndirilməsi və habelə müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini bildirmişlər.

Xarici İşlər Naziri Elmar Məmmədyarov Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinqerlə görüş keçirmişdir
3 noyabr 2011-ci il

Görüş zamanı V.İşinqer Azərbaycan tərəfini BMT Təhlükəsizlik Şurasının 2012 - 2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsi münasibətilə təbrik etmiş və uğurlar arzulamışdır. V.İşinqer ölkəmizin bu mötəbər quruma qeyri-daimi üzv qismində seçilməsini Azərbaycan kimi gənc ölkə üçün böyük nailiyyət olduğunu vurğulamışdır. Azərbaycana səfərinin uğurla keçdiyini bildirən V.İşinqer ölkəmizin BMT Təhlükəsizlik Şurasındakı

fəaliyyətini uğurla həyata keçiriləcəyinə əmin olduğunu qeyd etmişdir.

Nazir Elmar Məmmədyarovla V.İşşinqer arasında Avropa İttifaqı məkanında cərəyan edən proseslər, xüsusən də iqtisadi proseslərə dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının BMT-dəki Daimi Nümayəndəliyi tərəfindən BMT Baş Katibinə məktub ünvanlanmışdır
05 noyabr 2010-cu il

Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın Ermənistan Diasporasının jurnalistləri ilə 16 oktyabr 2010 il tarixində keçirdiyi görüşdə açıq aşkar irqçilik ideologiyalarını və dini önyağılarını qeyd etməsi nəzərə alınaraq Azərbaycan Respublikasının BMT-dəki Daimi Nümayəndəliyi tərəfindən BMT Baş Katibinə məktub ünvanlanmışdır.Məktubda Ermənistan Prezidentinin öz çıxışında genetik tədqiqatlar nəticəsində Ermənistanın 8000 ilə yaxın bir müddətdə mövcud olduğunu qeyd etməsi vurğulanmışdır. Ermənistan Prezidentinin bu sözləri ölkəsinin yanlış tarixi faktlar üzərində qurulmasından başqa Ermənilərin özlərini digər xalqlardan o cümlədən "türk-müsəlman köçəri tayfa" adlandırdığı Azərbaycanlılar da daxil olaraq üstün gördükləri fikrini ifadə etmişdir.

Ermənistan Prezidentinin keçmişdə dünyanın belə "genetik tədqiqatların" qorxulu nəticələrindən nə qədər əziyyət çəkdiyini unutması təəssüratı yaranır.

Lakin ilk dəfə deyil ki, Ermənistanın yüksək vəzifəli nümayəndələri beynəlxalq hüquq və bəşəriyyətin etik prinsiplərinə zidd olan etnik təbəqələşmə ideologiyasını təbliğ edən bəyanatlarla çıxış edirlər.

Ermənistanın sabiq prezidenti Robert Koçaryanın "Ermənilər və Azərbaycanlılar arasında etnik uyğunsuzluq" barədə etdiyi bəyanat beynəlxalq ictimaiyyət tərəfindən haqlı qəzəbə səbəb olmuşdur. Bununla əlaqədə Avropa Şurasının Baş Katibi Volter Şvimmer Koçaryanın iradı müharibəyə təhrikçiliklə eyni, düşmənçilik və nifrət ritorikasının təzahürü kimi qiymətləndirmiş, Avropa Şurası Parlament Asambleyasının Prezidenti Piter Şider isə Avropa Şurası yarananndan "etnik uyğunsuzluq" termini ilə üzləşmədiyini bəyan etmişdir.

Serj Sarkisyanın çıxışında yer tapmış ifadələr, Ermənistanın dövlət siyasətində əsas yer irqi üstünlük və nifrət ideologiyası tutduğunun danılmaz sübutudur.

Azərbaycan Respublikası inanır ki, Cənubi Qafqazda uzunmüddətli sülhün, təhlükəsizliyin və sabitliyin təmin olması üçün beynəlxalq ictimaiyyət birgə səyləri ilə Ermənistan Respublikasını irqi və dini motivləri üzərində qurulmuş siyasətini dayandırmağa, Azərbaycan Respublikasının ərazilərini qeyri-qanuni işğalına son qoymağa, qonşu xalqlara etdiyi ərazi iddialarından əl çəkməyə və regiondakı bütün ölkələrlə sivil əlaqələr yaratmağa inandırılmalıdır.

Azərbaycan Respublikasının BMT-dəki Daimi Nümayəndəliyi tərəfindən BMT Baş Katibinə ünvanlanmış bu məktub rəsmi sənəd kimi təşkilat üzvləri arasında yayımlanmışdır.

Nazir E.Məmmədyarov İraq Respublikasının Bələdiyyələr və İctimai İşlər Naziri, Azərbaycan Hökuməti və İraq Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası komissiyanın sədri Adil Muheydər Razi Əl-Malikini qəbul etmişdir
23.11.2011

Qonağı salamlayan Nazir ilk növbədə İraqın xarici işlər nazirinə salamlarını çatdıraraq, Azərbaycanla İraq arasındakı diplomatik əlaqələrin hal-hazırda yüksək səviyyədə olduğunu qeyd etmiş, Nazir A.Əl-Malikinin ölkəmizə səfərinin bu əlaqələrin daha da inkişafına töhfə verəcəyini vurğulamışdır.

Öz növbəsində İraq hökuməti və xalqının səmimi salamlarını Nazir E.Məmmədyarova çatdıran qonaq ölkəmizi BMT Təhlükəsizlik Şurasının 2012 - 2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsi münasibətilə təbrik etmişdir. Azərbaycanda güclü inkişafın şahidi olduğunu bildirən Nazir A.Əl-Maliki keçən 20 il ərzində ölkəmizin həm daxili həm xarici siyasətdə yüksək nailiyyətlər əldə etdiyini və İraqın da bu inkişaf modelini nümunə kimi götürməsinin ölkəsi üçün çox faydalı olacağını dilə gətirmişdir. Azərbaycanla İraq arasında müştərək dəyərlərin olduğunu qeyd edən qonaq bir sıra sahələrdə əlaqələrin inkişafına Azərbaycan Hökuməti və İraq Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası komissiyanın töhfə verəcəyini də vurğulamışdır. Bu xüsusda Nazir Əl-Maliki İraq tərəfinin bu əməkdaşlığa təkan verə bilməsi üçün Azərbaycanın İraqda Səfirliyinin açılmasının vacib olduğunu qeyd etmişdir.

Cavab olaraq Nazir E.Məmmədyarov ölkələrimiz arasında hüquq-müavilə bazasının genişləndirilməsinin vacib olduğunu və bu bazanın inkişafının gələcəkdə iki ölkənin iş adamlarının fəaliyyətinə böyük töhfə verəcəyini bildirmişdir. Nazir ölkəmizin İraqla xüsusi ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətli olacağını qeyd etmişdir.

Sonda Nazir E.Məmmədyarov Azərbaycan Respublikasının İraqda Səfirliyinin açılması ilə bağlı Azərbaycan Milli Məclisinin qərar qəbul etdiyini və yaxın zamanlarda Səfirliyin fəaliyyətə başlayacağına ümidvar olduğunu bildirmişdir.

Xarici İşlər Naziri Elmar Məmmədyarov Almaniyanın Bonn şəhərində keçirilən Əfqanıstan üzrə Beynəlxalq Konfransda iştirak etmişdir
05 dekabr 2011-ci il

Nazir Elmar Məmmədyarov Konfransda iştirakı çərçivəsində çıxış etmiş və çıxışında Azərbaycanın Əfqanıstanda sülh və sabitliyin bərqərar olunması istiqamətində beynəlxalq ictimaiyyətin səylərini dəstəkləyən ilk ölkələrdən biri olduğunu vurğulamış və bu səylərə öz töhfəsini verdiyini qeyd etmişdir. Nazir ANAMA-nın Əfqanıstanlı mütəxəssislər üçün bir sıra təlimlər keçdiyini qeyd etmişdir. Nazir Elmar Məmmədyarov eyni zamanda, Azərbaycanın Əfqanıstanla ikitərəfli əlaqələrə mühüm əhəmiyyət verdiyini vurğulayaraq, Əfqanıstanda sülhün və rifahın bərpası, eyni zamanda Əfqanıstan iqtisadiyyatının inkişaf etdirilməsi üçün bundan sonra da səylərini əsirgəməyəcəyini qeyd etmişdir.

Nazir Elmar Məmmədyarov Bonna səfəri çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir.

Nazir Elmar Məmmədyarovun Türkmənistanın Xarici İşlər Naziri Rəşid Meredovla görüşündə ikitərəfli münasibətlərin hazırkı durumu və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Görüş zamanı iqtisadi və enerji sahələrində əməkdaşlığın genişləndirilməsi istiqamətində imkanlar barədə müzakirələr aparılmışdır.

Ukraynanın Xarici İşlər Naziri Konstantin Qrişenko ilə görüşən Nazir Elmar Məmmədyarov Ukraynalı həmkarı ilə Azərbaycan və Ukrayna arasındakı ikitərəfli əlaqələr, xüsusilə də iqtisadi, investisiya, enerji sahələrində həyata keçirilən əməkdaşlığın genişləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparmışdır. Görüşdə həmçinin GUAM təşkilatının inkişafı istiqamətində müzakirələr aparılmışdır.

Daha sonra Nazir Elmar Məmmədyarov İrlandiyanın ticarət və inkişaf üzrə Dövlət Naziri xanım Yan O'Sullivanla görüşmüşdür. Görüşdə ikitərəfli əlaqələrin dərinləşdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. ATƏT-ə sədrlik edəcəyi müddətdə İrlandiya ilə Azərbaycan arasında qarşılıqlı-faydalı əməkdaşlıq imkanları əsas müzakirə obyekti olmuşdur.

Nazir Elmar Məmmədyarov Portuqaliyanın Xarici İşlər Naziri Paulo Sacadura Cabral Portasla da görüş keçirmişdir. Portuqaliyalı Nazir Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi ilə bağlı Azərbaycanlı həmkarını təbrik etmiş və TŞ çərçivəsində iki ölkə arasında səmərəli əməkdaşlığın aparılacağına ümidvar olduğunu vurğulamışdır.

Portuqaliya tərəfi Azərbaycanla bir sıra sahələrdə, o cümlədən kənd təsərrüfatı, informasiya texnologiyaları sahələrində əməkdaşlıqda və həmçinin ölkəsinin Azərbaycana biznes missiyasının həyata keçirilməsində maraqlı olduğunu vurğulamışdır. Görüşdə qarşılıqlı səfərlərin həyata keçirilməsi vacibliyi qeyd edilmiş və bu səfərlər çərçivəsində müqavilə hüquq bazasının möhkəmləndirilməsi istiqamətində əməli addımların atılması zəruriliyi qeyd edilmişdir.

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxış etmişdir
06 dekabr 2011-ci il

Cənab Sədr,

Xanımlar və cənablar,

Mən Nazirlər Şurasının iclasının yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Litvanın Xarici İşlər Naziri cənab Audronius Azubalisə və onun komandasına öz təşəkkürümü bildirmək istərdim. Cənab Eamon Gilmoru ATƏT-in növbəti Sədri kimi təbrik edirəm və ona işində uğurlar arzulayıram.

Əziz həmkarlar,

Azərbaycan ATƏT-in tam hüquqlu üzvü kimi, ATƏT-i regionda təhlükəsizliyin təmin edilməsi üçün yeganə hərtərəfli və regional təşkilat kimi qiymətləndirir. Biz inanırıq ki, bu Təşkilat iştirakçı ölkələr arasında açıq dialoqun aparılması, onların ərazilərində olan münaqişələrin həll edilməsi və razılaşdırılmış prinsiplər, birgə dəyərlər və öhdəliklər

əsasında təhlükəsizlik məsələlərində əməkdaşlığa rəvac verir. ATƏT özünün əsas prinsipi olan təhlükəsizliyin bölünməzliyi və separatçı təhlükəsizlik birliyinin bölünməsinin qarşısının alınmasına sadiq qalmalıdır. Hər bir iştirakçı ölkənin təhlükəsizliyi digərlərinin təhlükəsizliyinə ayrılmaz tellərlə bağlıdır. Bu, bizim təhlükəsizlik birliyimizi təsdiqləyən mövqedir.

ATƏT-in prinsiplərini təşviq edərkən, 1992-ci il Helsinki Sənədinin III bölməsinə və 1994-cü il Budapeşt Sənədinə müvafiq olaraq ATƏT-ə verilmiş mandat əsasında erkən xəbərdarlıq, münaqişələrin qarşısının alınması, böhranlı vəziyyətin idarə olunması, fakt araşdırıcı, məruzəçi missiyalar, ATƏT-in polis qüvvələri və sülhməramlı əməliyyatlarda iştirakı və münaqişələrin həlli sahəsində Təşkilatın imkanlarının inkişaf etdirilməsi istiqamətində fəal iştirak etməliyik.

Cənab Sədr,

Müstəqilliyin ilk illərində yaşadığımız böyük çətinliklərə baxmayaraq, bu günlərdə Azərbaycan etibarlı tərəfdaş kimi tanınır və son bir neçə ildə ardıcıl olaraq, dünyada ən yüksək iqtisadi artım göstəriciləri nümayiş etdirməklə yanaşı, təhlükəsizlik qəbuledicisindən təhlükəsizlik təmin edən bir ölkəyə çevrilmişdir. Son 5 ildə biz ölkənin ÜDM-ni 3 dəfə, büdcəni isə təqribən 10 dəfə artıra bilmişik.

Azərbaycan ATƏT çərçivəsində təhlükəsizlik sahəsində əməkdaşlığa dair öz müsbət təcrübəsi və biliyini, o cümlədən enerji təhlükəsizliyi, ərazilərin minalardan təmizlənməsi, terrorizmlə mübarizə, mütəşəkkil cinayətkarlıq və narkotik vasitələrin daşınmasına qarşı mübarizə və Əfqanıstanda təhlükəsizlik, sabitlik və inkişafa tövhə sahələrində təcrübəsini paylaşmağa hazırdır.

Azərbaycan gənc demokratik bir ölkə kimi, insan hüquqları və fundamental azadlıqlara hörmətlə yanaşmağa, ölkədə qanunun aliliyini təmin etməkdə və iqtisadi islahatları təşviq etməkdə davam edir. Biz qətiyyətlə inanırıq ki, bu səylər hərtərəfli inkişafı və Azərbaycanın dünyanın demokratiya ailəsinə daha da inteqrasiyasını möhkəmləndirəcəkdir.

Cənab Sədr,

Azərbaycan Avropada enerji təhlükəsizliyinin qorunmasında başlıca rol oynayan və əsas regionlararası layihələri dəstəkləyən ölkələrdən biri olaraq, Cənubi Qafqaz regionunun gələcəyində müəyyənedici rol oynayır, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə yönəlmiş hər hansı bir təhlükənin təkcə Azərbaycanın və Cənubi Qafqaz kontekstində deyil, eyni zamanda Avropanın təhlükəsizliyinə, sabitliyinə və inkişafına yönəlmiş təhlükə kimi dəyərləndiriləcəyini gözləməkdə haqlıdır.

Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi Cənubi Qafqazın bütövlükdə inkişafının qarşısını alır və ATƏT-in əhatə etdiyi regionda uzunmüddətli sabitliyi və təhlükəsizliyi sarsıdır.

Sülh prosesi çox mühüm bir mərhələdədir. Biz inanırıq ki, status-kvonun davam etməsi regionda qeyri-müəyyən və gözlənilməz təhlükəsizlik şəraiti yaradır. ATƏT-in Minsk Qrupuna üzv ölkələrin başçıları açıq-aydın şəkildə regionda status-kvonun mövcudluğunun qəbuledilməz olduğunu bəyan etmişlər. Üç həmsədr ölkələr tərəfindən tərtib edilmiş yenilənmiş Madrid Prinsipləri adlanan sonuncu təklif tərəflərə təqdim edilmiş və bununla əlaqədar Azərbaycan danışıqları davam etməyə, o cümlədən Hərtərəfli Sülh

Sazişi üzərində çalışmağa başlamağa hazır olduğunu bəyan etmişdir. Təəssüf ki, bu təklif Ermənistan tərəfindən rədd edilmişdir.

Danışıqlarda irəliləyişin əldə edilməsi yalnız regionda deyil, eyni zamanda öz ölkəsində də davamlı sülhə, təhlükəsizliyə və sabit inkişafa nail olunmasına yönəlmiş bu gün ki status kvonun dəyişdirilməsinə dair Ermənistanın iradəsindən asılıdır. Bu gün münaqişənin həllində üzləşdiyimiz ən böyük məsuliyyət Ermənistan və Azərbaycan arasında etimadın yenidən yaradılmasıdır. Bunu əldə etmək üçün bir çox cəhdlər göstərməliyik.

Bir milyon qaçqın və məcburi köçkünü olan və ərazisinin 20%-i erməni işğalı altında olan Azərbaycan üçün bu asan deyil. Biz inanırıq ki, bu istiqamətdəki addımlardan biri Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında birbaşa təmasların və görüşlərin təşkili ola bilər. Yaranmış bu durumda insanlar arasındakı birbaşa təmaslar fərqli mühit yarada bilər.

Mehriban qonşuluq yaxşı inkişafın pillələrindən biridir. Ermənistan Azərbaycan ərazisini işğal etməklə özünün daxili siyasi, sosial və iqtisadi həyatına təsir edən və büdcəsində hərbi xərcləri sürətlə artmasına səbəb oldu. Təsəvvür edin, Ermənistanın Azərbaycan torpaqlarından tədricən çəkilən kimi nə qədər imkanlar yaranacaqdır. Münaqişədən zərər çəkmiş ərazilərin bərpa edilməsi, kəsilmiş kommunikasiyaların bərpası, iqtisadi və biznes imkanlarının açılması, investisiyalar, ticarətin artması və ən əsası müəyyənlik və təhlükəsiz şəraitin yaradılması tərəfləri qane edə biləcək vəziyyətə gətirib çıxaracaqdır.

Azərbaycan bizim Təşkilatın əsas sənədi olan Helsinki Yekun Aktında əks olunduğu kimi beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsipləri əsasında zəruri kompromislər etməyə hazırdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yanaşı yaşayan azərbaycanlı və erməni icmaları özünü idarəetmə çərçivəsində bütün müvafiq hüquq və azadlıqlarla malik ola bilərlər.

Gələn il biz ATƏT-in Minsk Qrupunun vasitəçiliyi altında danışıqların 20-ci ildönümünü qeyd edəcəyik, lakin çox təəssüflər olsun ki, hələ də heç bir irəliləyiş qeydə alınmamışdır. Azərbaycan xalqı hələ də ümid edir ki, erməni xalqı bu münaqişənin davamlı və uzunmüddətli həllinin faydasını dərk edəcəkdir. Bu, regional əməkdaşlıq və ümumilikdə Cənubi Qafqazın inkişafı üçün real perspektivlər açacaqdır.

Cənab Sədr,

Sonda, Mən öz ölkəm adından, İsveçrə və Serbiyanın müvafiq olaraq 2014 və 2015-ci illərdə Sədrliyə dair namizədliklərinə dəstəyimizi ifadə etmək istərdim.

Təşəkkür edirəm.

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
7 dekabr 2011-ci il

ATƏT-in Baş katibi Lamberto Tsannierlə keçirilmiş görüşdə ATƏT-lə Azərbaycan Respublikası arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Nazir Elmar Məmmədyarov ATƏT-in Baş katibinə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar barə-

də ətraflı məlumat vermişdir. Baş katib ATƏT-in Minsk qrupunun həmsədrlərinin, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatını yüksək qiymətləndirmişdir.

İrlandiya Respublikasının Xarici İşlər və Ticarət Naziri Eamon Gilmore ilə görüşən Nazir Elmar Məmmədyarov İrlandiyalı həmkarı ilə Azərbaycan və İrlandiya arasındakı ikitərəfli əlaqələr barədə fikir mübadiləsi aparmışdır. İrlandiyalı nazir Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi ilə bağlı Azərbaycanlı həmkarını təbrik etmişdir. Görüşdə qarşılıqlı səfər mübadilələrinin əhəmiyyəti vurğulanmışdır.

Daha sonra Nazir Elmar Məmmədyarov ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviç ilə görüşmüşdür. Xanım Dunya Miyatoviçlə görüşdə təmsil etdiyi təşkilatla Azərbaycan arasında əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxış etmişdir
06 dekabr 2011-ci il

Xarici İşlər Naziri Elmar Məmmədyarov 6 dekabr 2011-ci il tarixində Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxış etmişdir

Xarici İşlər Naziri Elmar Məmmədyarov Vilnüsdə keçirilən GUAM Xarici İşlər Nazirləri Şurasının 16-ci iclasında iştirak etmişdir
07 dekabr 2011-ci il

İclasda GUAM-a sədrlik edən Moldova təşkilatın 2011-ci ildəki fəaliyyəti və təşkilat çərçivəsində həyata keçirilən layihələr barədə iştirakçılara məlumat vermişdir.

Daha sonra iclasda GUAM-a Sədrliyin Azərbaycana keçəcəyi bildirilmişdir. GUAM məkanında həlli yubanmış münaqişələrlə əlaqədar BMT Baş Assambleyasının 66-cı sessiyasının gündəliyinin 35-ci bəndinə uyğun olaraq iştirakçı dövlətlərin qarşılıqlı fəaliyyətinin həyata keçirilməsinin zəruriliyi vurğulanmışdır. Nazirlər GUAM çərçivəsində əməkdaşlığın turizm, enerji, iqtisadiyyat, səhiyyə, nəqliyyat sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd etmişlər.

Bundan əlavə görüşdə BMT ilə əməkdaşlığın da mühümlüyü vurğulanmışdır.

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
07 dekabr 2011-ci il

Böyük Britaniyanın Xarici İşlər Naziri Uilyam Heyqlə keçirilmiş görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Görüş zamanı iki ölkə arasında iqtisadi və enerji sahələrində, həmçinin beynəlxalq təşkilatlar və BMT TŞ çərçivəsində perspektiv əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Görüşdə Britaniya tərəfi

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında qaz alqı-satqısı və tranziti məsələlərinə dair sənədlər paketinin imzalanmasından məmnunluq bildirmişdir.

Gürcüstanın Xarici İşlər Naziri Qriqol Vaşadze ilə görüşən Nazir Elmar Məmmədyarov Gürcüstanlı həmkarı ilə Azərbaycan və Gürcüstan arasındakı ikitərəfli əlaqələr və regionda mövcud olan münaqişələrin həlli perspektivlərini müzakirə etmişdir. Görüşdə həmçinin beynəlxalq təşkilatlar və GUAM çərçivəsində əməkdaşlıq, eyni zamanda enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Daha sonra Nazir Elmar Məmmədyarov Litva Respublikasının Xarici İşlər Naziri Audronius Ajubalislə görüşmüşdür. Litva tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatını yüksək qiymətləndirmişdir. Görüşdə iki ölkə arasında enerji sahəsində əməkdaşlıq, eyni zamanda, BMT çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Görüşün sonunda Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında diplomatik pasporta malik şəxslərin viza tələbindən azad edilməsi haqqında Saziş imzalamışdır.

Xarici İşlər Naziri E.Məmmədyarov Belçika Krallığının paytaxtı Brüssel şəhərində keçirilən ISAF-a töhfə verən ölkələrin xarici işlər nazirlərinin iclası çərçivəsində NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Apartura

Xarici İşlər Naziri Elmar Məmmədyarov dekabrın 8-də Belçika Krallığının paytaxtı Brüssel şəhərində keçirilən ISAF-a (Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri) töhfə verən ölkələrin xarici işlər nazirlərinin iclası çərçivəsində NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Aparturayla görüş keçirmişdir.

Görüşdə NATO ilə Azərbaycan arasında əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. C.Aparturay NATO-nun Azərbaycanın ISAF-ın (Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri) işinə verdiyi töhvəni yüksək qiymətləndirdiyini vurğulamışdır. C. Aparturay Nazir Elmar Məmmədyarovun ISAF-a (Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri) töhfə verən ölkələrin xarici işlər nazirlərinin iclasındakı çıxışını da yüksək qiymətləndirmişdir.

Nazir Elmar Məmmədyarov Belçika Krallığının paytaxtı Brüssel şəhərində keçirilən ISAF-a (Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri) töhfə verən ölkələrin xarici işlər nazirlərinin iclasında iştirak etmişdir
08 dekabr 2011-ci il

Nazir Elmar Məmmədyarov iclasda çıxış etmişdir. Çıxışın mətnini diqqətinizə təqdim edirik:

Əfqanıstandakı mövcud vəziyyət regional və qlobal təhlükəsizliyə ciddi şəkildə təsir edir. Təhlükəsizliyin bölünməzliyi prinsipindən çıxış edərək və Əfqanıstanla qardaş əlaqələri nəzərə alaraq, Azərbaycan Əfqanıstanda təhlükəsizliyin, sabitliyin və rifahın bərqərar olması üçün lap əvvəldən öz töhvəsini verməkdədir.

Coğrafi mövqeyimiz və mövcud infrastruktur Azərbaycanı regionun mühüm tranzit öl-

kəsinə çevirmişdir. ISAF əməliyyatları üçün zəruri olan mallar və canlı qüvvə həm Azərbaycanın quru ərazisindən həm də hava məkanından istifadə etməklə Əfqanıstana daşınır. Bu tranzitin həcmi ilbəil artmaqdadır.

Ötən onilliyin təcrübəsi sübut etdi ki, Əfqanıstanda davamlı sülh və sabitliyə nail olmaq üçün hərbi yardım kifayət deyildir. Bu mövqedən çıxış edərək, Azərbaycan Əfqanıstanla qeyri-hərbi sahədə əməkdaşlıq üçün tövhə verməkdədir. Əfqanıstanın mülki və hərbi qulluqçularına təlimlər vermək üçün praktiki layihələr həyata keçirilməkdədir. ANAMA ərazilərin minadan təmizlənməsi sahəsində Əfqanıstanlı mütəxəssislərə həm Əfqanıstanda, həm də Azərbaycanda təlimlər keçmişdir.

Azərbaycan Diplomatik Akademiyası hər il Əfqan diplomatlar və dövlət qulluqçuları üçün "Xalq Diplomatiyası", "Qanunun aliliyi", "Yaxşı idarəçilik" və "Keçid dövründə idarəetmə" mövzularında təlimlər təşkil edir. Milli Təhlükəsizlik Nazirliyi terrorizmə qarşı mübarizə sahəsində kurs, Dövlət Sərhəd Xidməti isə Əfqanıstan və Mərkəzi Asiya sərhəd xidmətlərinin iştirakı ilə seminar keçirmişlər. Azərbaycanın digər qurumları da Əfqan polis və hərbi qulluqçuları da daxil olmaqla Əfqanıstan rəsmiləri üçün müvafiq təlim proqramları həyata keçirməyə hazırdır.

Azərbaycan beynəlxalq ictimaiyyətin və Əfqanıstan Hökumətinin regionda narkotik vasitələrin axını ilə bağlı narahatlığını bölüşür. Əfqanıstan Hökumətinin koordinasiyası və maraqlı ölkələrin iştirakı ilə Azərbaycan narkotik vasitələrin axının qarşısının alınması üçün layihələrdə iştirak edə bilər.

Əfqanıstandakı keçid dövrünü qəti şəkildə dəstəkləyirik. Əfqanıstanın rəhbərliyinin səyləri və ortaya qoyulan iradə bu sahədə müvəffəqiyyətə aparacaqdır.

Biz düşünürük ki, milli barışıq ümumi sabitliyə nail olmağın əsas elementidir və buna nail olmaq üçün Əfqanıstan Hökuməti səylərini davam etdirməli, beynəlxalq ictimaiyyət isə bunu dəstəkləməlidir.

Biz ISAF-ı mülki şəxslərinin itkisinin azalması üçün səyləri artırmağa çağırırıq. Humanitar cəhətlə yanaşı, bunun siyasi əhəmiyyəti də vardır. Yerli mədəni və dini adət-ənənələrə uyğun olan davranış üçün səylərin artırılması həm Əfqanıstanda həm də ondan kənar ərazilərdə ISAF-ın ictimaiyyət tərəfindən qəbul edilməsini xeyli artıracaqdır.

Azərbaycan Əfqanıstanın iqtisadi inkişafında maraqlı olan bir ölkə kimi, Əfqanıstan Hökuməti tərəfindən təklif olunacaq investisiya layihələri üzərində işləyə bilər. Hal-hazırda Əfqanıstana investisiya qoyan və bu ölkədə fəaliyyət göstərən bir sıra özəl şirkətlərimiz vardır.

Yekun olaraq qeyd olunmalıdır ki, Əfqanıstanda mövcud olan təhlükəsizlik çağırışları həm regional, həm də beynəlxalq miqyasda çox mühüm məsələ kimi qəbul edilməlidir. Müharibələr və çətinliklə dolu onilliklərdən sonra Əfqan xalqı sülh və rifaha qovuşmaq üçün real şans əldə etmişdir. Əfqanıstandakı təhdid və çağırışlara cavab vermək üçün beynəlxalq ictimaiyyət həmrəylik nümayiş etdirməli və Əfqanıstan Hökumətinin səylərini dəstəkləməyə davam etməlidir.

Xarici İşlər Naziri Elmar Məmmədyarov ABŞ Müdafiə Nazirliyinin nəqliyyat Komandanı Uilyam Freyzerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
12 dekabr 2011-ci il

Görüşdə Azərbaycanla ABŞ arasında mövcud olan strateji tərəfdaşlıq əlaqələri, iki ölkə arasında müxtəlif sahələrdə münasibətlər, əməkdaşlıq perspektivləri və Azərbaycanın Əfqanıstanda sülh yaratma əməliyyatlarına tövhəsi məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.Nazir Elmar Məmmədyarov Əfqanıstanda sülh və sabitliyin bərqərar olunmasının Azərbaycan üçün əhəmiyyətli olduğunu vurğulamışdır.

Görüşdə eyni zamanda, qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər müzakirə edilmişdir.

Nazir E.Məmmədyarov Çinin Azərbaycandakı Səfiri Cjan Yannyanı ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir
14 dekabr 2011-ci il

Səfir işlədiyi dövrdə ölkələrimiz arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini vurğulayaraq, Çin - Azərbaycan münasibətlərinin səviyyəsindən məmnunluq ifadə etmiş və ikitərəfli münasibətlərin daha da genişlənəcəyinə ümidvar olduğunu qeyd etmişdir.

Səfir növbəti ildə iki ölkə arasında diplomatik əlaqələrin 20 illiyinin qeyd olunacağını vurğulamış və bu illər ərzində Azərbaycanla Çin arasında qarşılıqlı etimadın yarandığını bildirmişdir.

Nazir Elmar Məmmədyarov Azərbaycanla Çin arasında münasibətlərin inkişafından məmnunluğunu bildirmiş və qarşılıqlı səfərlər mübadiləsinin daha da genişlənməsinin vacibliyini vurğulamışdır. Həmçinin, Nazir Elmar Məmmədyarov ölkəmizin ərazi bütövlüyü ilə bağlı Çinin mövqeyini və sərhədlərin toxunulmazlığı prinsipinə hörmətlə yanaşmasını yüksək qiymətləndirmişdir. Nazir bu yanaşmanı iki ölkə arasındakı münasibətlərin söykəndiyi əsas amillərdən biri olduğunu vurğulamışdır.

Nazir Elmar Məmmədyarov Cjan Yannyana xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

Nazir E.Məmmədyarov Braziliyanın Azərbaycandakı Səfiri Paulo Antonio Pereira Pintonu ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir
14 dekabr 2011-ci il

Görüş zamanı P.A.Pereira Pinto Azərbaycanda Braziliyanın ilk səfiri olmasından məmnunluq ifadə edərək, işlədiyi dövrdə ölkələr arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini qeyd etmiş və faydalı əməkdaşlığa görə Xarici İşlər Nazirliyinə minnətdarlıq bildirmişdir.

Azərbaycanda çalışdığı dövrdə ölkəsi ilə Azərbaycan arasında bir sıra sahələrdə əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edən Səfir, ölkəsinin Azərbaycanın başlıca problemi olan Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində və beynəlxalq təşkilatların qətnamə və qərarları əsasında həllinin tərəfdarı olduğunu vurğulamışdır.

Öz növbəsində nazir E.Məmmədyarov P.A.Pereira Pintoya xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır

Xarici İşlər Naziri Elmar Məmmədyarov İsrail Xarici İşlər Nazirliyinin Baş Katibi Rafael Barakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
15 dekabr 2011-ci il

İsrailli rəsmi Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi ilə bağlı Nazir Elmar Məmmədyarovu təbrik etmişdir.R.Barak iki ölkə arasında qurulmuş diplomatik münasibətlərin 20 il öncəyə söykəndiyini bildirərək, əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğulamışdır.

Nazir Elmar Məmmədyarov Azərbaycanla İsrail arasında əlaqələrin böyük potensiala malik olduğunu qeyd edərək, siyasi dialoqun davam etdirilməsinin vacibliyini bildirmişdir.

Görüşdə Yaxın Şərq və Cənubi Qafqaz regionlarında cərəyan edən proseslər barədə fikir mübadiləsi aparılmışdır.

Nazir Elmar Məmmədyarov Çexiya Parlamentinin Nümayəndələr Palatasının sədr müavini Lyubomir Zauralenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
21 dekabr 2011-ci il

Nazir Elmar Məmmədyarov Azərbaycanın Çexiya ilə ikitərəfli münasibətlərin inkişafına əhəmiyyət verdiyini qeyd etmişdir.

Görüşdə Çexiya-Avropa İttifaqı münasibətləri, Azərbaycanın regional əhəmiyyəti və Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu barədə müzakirələr aparılmışdır.

Tərəflər həmçinin qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

ƏDLİYYƏ NAZİRLİYİNİN KEÇİRDİYİ GÖRÜŞLƏR

Fevralın 23-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Herbert Kvelle və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) məsul nümayəndələri ilə görüşmüşdür.

Azərbaycan və Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafını bildirən nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda aparılan islahatları, xüsusilə ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, bu sahədə mühüm rolu olan hakimlərin ən şəffaf qaydalarla seçimi və inzibati məhkəmələrinin yaradılması üzrə görülən işlər barədə məlumat vermiş, islahatlarda GİZ-in fəal iştirakını qeyd etmişdir.

Ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla bildirən səfir ümummilli lider Heydər Əliyevin hüquqi dövlətin quruculuğu üzrə ideyalarının uğurla icrasının şahidi olduğunu vurğulamış, GİZ-in ölkəmizə yeni təyin olunmuş layihə rəhbərlərini təqdim etmişdir. Qonaqlar GİZ ilə Azərbaycan arasında hüquqi əlaqələri təqdir etmiş, Ədliyyə Nazirliyi ilə uğurlu əməkdaşlığa görə minnətdarlıqlarını ifadə edərək, qarşılıqlı fəaliyyətin bundan sonra da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəklərini söyləmişlər.

Görüşdə həmçinin, gələcək fəaliyyətin prioritetləri müəyyən olunaraq konkret təkliflər irəli sürülmüşdür.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov fevralın 3-də Latviya ətraf mühitin mühafizəsi və regional inkişaf naziri Raymonds Veyonisin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan və Latviya arasında dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafını bildirən nazir ölkə başçılarının qarşılıqlı səfərlərini və geniş müqavilə hüquq bazasının mövcudluğunu, Azərbaycanda sürətli iqtisadi artımı, demokratik hüquqi dövlət quruculuğunda əldə olunan nəticələri, yerli özünüidarənin inkişafı üzrə görülən işləri, iki ölkənin bələdiyyə assosiasiyaları arasında səmərəli əlaqələri vurğulamışdır.

Latviyalı nazir oxşar tarixi olan ölkələrimiz arasında ikitərəfli əlaqələrin dərinləşdirilməsi üçün geniş imkanların olduğunu vurğulamış, Latviya Bələdiyyələr İttifaqı ilə Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları arasında əməkdaşlığı yüksək qiymətləndirmiş, rast gəlinən problemlərin həlli üzrə qarşılıqlı təcrübə mübadiləsinin faydasını qeyd etmişdir.

Söhbət zamanı qonaqların diqqəti Ermənistan tərəfindən torpaqlarımızın 20%-nin işğalı, bir milyon soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilmişdir. Görüşdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi, bu işdə regional ədliyyə şöbələrinin rolu, habelə ədliyyə və məhkəmə islahatları və digər qarşılıqlı maraq doğuran məsələlərə dair səmərəli fikir mübadiləsi aparılmış, əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət edən mühüm təkliflər irəli sürülmüşdür.

Qonaqlar nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri ilə tanış olmuşlar.

04/02/2011

Xəbər verildiyi kimi, Mərakeş Krallığının ədliyyə naziri Məhəmməd Nəsiri nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlmiş, ölkələrimiz arasında ilk dövlətlərarası hüquqi yardım haqqında müqavilələr imzalanmışdır.

Səfər çərçivəsində bir sıra rəsmi görüşlər keçirilmiş, penitensiar sistemdə həyata keçirilən islahatlarla maraqlanılaraq müasir Bakı istintaq təcridxanasına baş çəkilmiş, məhkumlar üçün yaradılmış şərait yüksək qiymətləndirmişdir.

Həmçinin qonaqlar bölgələrə səfər edərək regional ədliyyə qurumlarında ədliyyə işçiləri, hakimlər və prokurorlarla görüşmüş, hüquq sisteminin müasirləşdirilməsi, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə faydalı təcrübə mübadiləsi aparılmış, dövlətimizdə çoxşaxəli, o cümlədən regionların sosial-iqtisadi inkişafında əldə edilmiş nailiyyətlər yüksək dəyərləndirilərək, ölkələrində də islahatların aparılması nəzərdə tutulduğundan Azərbaycan təcrübəsindən bəhrələnmək istəyində olduqlarını bildirmişlər.

Mərakeşin Avropa ittifaqı ilə xüsusi tərəfdaş statusuna malik olması nəzərə alınaraq səfər çərçivəsində nümayəndə heyətinin zəngin təcrübəyə malik üzvləri hakimlər və prokurorlar üçün korrupsiyaya qarşı mübarizə mövzusunda Məhkəmə-Hüquq Şurasında keçirilən təlimlərdə iştirak etmiş, beynəlxalq antikorrupsiya tədbirləri, hüquq sistemində korrupsiyaya şərait yaradan hallar və onlarla mübarizə üzrə səmərəli fikir mübadiləsi və müzakirələr keçirilmişdir.

Beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi məqsədilə ölkəmiz tərəfindən xarici dövlətlərlə ikitərəfli münasibətlər qurulur. Bu məqsədlə Mərakeş və Azərbaycan Ədliyyə nazirliklərinin nümayəndə heyətləri arasında danışıqlar aparılaraq Təslim etmə, Mülki və ticarət işləri üzrə hüquqi əməkdaşlıq, Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında ilk dövlətlərarası müqavilələrin, habelə nazirliklərarası əməkdaşlıq haqqında Saziş layihələri razılaşdırılmışdır. Qeyd olunan sənədlərin imzalanması məqsədilə Mərakeş Krallığının ədliyyə naziri Məhəmməd Nəsiri nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlmişdir.

Mərakeşin ədliyyə naziri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişdir.

Martın 14-də nazir Məhəmməd Nəsiri respublikamızın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşdür.

Dövlətlərimiz arasında dostluq münasibətlərinin inkişafını qeyd edən F.Məmmədov ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Mərakeş Krallığına tarixi səfərini xatırladaraq, nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin səmərəli əməkdaşlığını, Mərakeşin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və beynəlxalq müstəvidə haqlı mövqeyini daim dəstəklədiyini vurğulamış, habelə ötən il keçirilmiş ikitərəfli görüşün bu səfərin reallaşmasında xüsusi rolunu, imzalanan sənədlərin cinayətkarlıqla mübarizəyə, insan hüquqlarının qorunmasına, iqtisadi və hüquqi əlaqələrin inkişafına xidmət edəcəyini qeyd etmişdir.

Respublikamızda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən

ədliyyə və məhkəmə islahatları barədə ətraflı məlumat verilmiş, iki ölkənin ədliyyə orqanları arasında əlaqələrin dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğu bildirilmişdir.

Dost və qardaş ölkə olan Azərbaycanla hərtərəfli əməkdaşlığa böyük önəm verdiyini bildirən nazir M.Nəsiri Azərbaycanın dinamik tərəqqisini, səfər zamanı bu inkişafın şahidi olduğunu vurğulamış, respublikamızda olmağından məmnun qalaraq, səfərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmişdir. Qonaq Mərakeşdə hüquqi islahatların aparıldığını bildirərək ölkəmizin bu sahədə müsbət təcrübəsindən faydalanacağını vurğulamışdır.

Görüşdə korrupsiya ilə mübarizə məsələlərinə toxunularaq cari ilin payızında Mərakeşdə qlobal antikorrupsiya tədbirlərinin keçiriləcəyi qeyd olunmuş, həmçinin, hüquqşünasların treninqi məsələsi müzakirə olunaraq, Mərakeş tərəfi Azərbaycanlı hakimləri həmin ölkəyə təcrübə keçməyə dəvət etmişdir.

Tədbirdən sonra yuxarıda göstərilən müqavilələrin və sazişin imzalanma mərasimi keçirilmişdir.

Nümayəndə heyəti nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri, habelə Azərbaycan-Mərakeş münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olmuş, qonaqlara Azərbaycan dövləti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən DVD disklər, müasir ədliyyə fəaliyyətini və iki ölkə arasında hüquqi əlaqələri əks etdirən xüsusi jurnallar təqdim edilmişdir. Elə həmin gün mərakeşli nazir ölkəmizin penitensiar sahədə aparılan islahatları ilə yaxından tanış olmaq üçün beynəlxalq standartlara uyğun inşa olunmuş yeni Bakı istintaq təcridxanasına baş çəkmişdir.

Azərbaycan və Rusiya arasında səmərəli hüquqi əməkdaşlıq həyata keçirilərək, hüquqi yardım və məhkumların verilməsi haqqında dövlətlərarası müqavilələr, həmçinin Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş bağlanmış, bir sıra mühüm beynəlxalq konvensiyalara qoşulmuşdur. Bu istiqamətlərdə birgə əməkdaşlıqdan irəli gələn məsələlər üzrə məsləhətləşmələr aparmaq məqsədilə bu ilin mart ayında Azərbaycanda səfərdə olmuş Rusiya Federasiyası Ədliyyə Nazirliyinin nümayəndə heyəti ölkəmizin ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşmüşlər.

Dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını vurğulayan nazir müavini hüquqi sahədə müqavilə-hüquq bazasının genişləndirildiyini məmnunluqla qeyd etmiş, iki ölkənin ədliyyə orqanları arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğunu bildirmişdir.

Görüşdə ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, yeni məhkəmələrin yaradılması, hakimliyə namizədlərin seçimi və tədrisi, habelə ədliyyə, o cümlədən penitensiar infrastrukturun müasirləşdirilməsi üzrə görülən məqsədyönlü işlər barədə məlumat verilmiş, qarşılıqlı səfərlər çərçivəsində təcrübə mübadiləsinin daha da genişləndirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

Azərbaycana səfərindən məmnun qaldığını bildirən Rusiya Ədliyyə Nazirliyi nümayəndə heyətinin rəhbəri Yuriy Kiriçenko dövlətimizin hərtərəfli, o cümlədən hüquqi sahədə nailiyyətlərinə böyük maraq göstərək, səfər zamanı baş çəkdikləri müasir Bakı istintaq təcridxanasında yaradılmış şəraiti təqdir etmiş, ölkəsində bu sahədə köklü islahatla-

rın aparılması nəzərdə tutulduğundan respublikamızla hüquqi əlaqələrin daha da inkişaf etdirilməsinə hazır olduğunu vurğulamışdır. Səmimi söhbət şəraitində keçən görüşdə gələcək əməkdaşlığın prioritetləri, habelə korrupsiya ilə mübarizə, sahibkarlıq sahəsində yoxlamaların təkmilləşdirilməsi ilə bağlı və digər məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

03/03/20

Martın 1-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Xorvatiya Ali Məhkəməsinin sədri Branko Hrvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan və Xorvatiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını qeyd edən nazir iki dövlətin məhkəmə və ədliyyə orqanları arasında əlaqələrin genişləndirilməsində səfərin böyük əhəmiyyətini vurğulamışdır. Nazir ölkəmizdə məhkəmə sisteminin müasirləşdirilməsi, o cümlədən yeni regional məhkəmələrin yaradılması, ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsində və korrupsiya ilə mübarizədə mühüm rolu olan hakimlərin sayının artırılması və maddi təminatının yaxşılaşdırılmasını, hakimliyə namizədlərin ən şəffaf prosedurlarla seçilməsini və digər tədbirləri qeyd etmişdir.

Oxşar tarixi və böyük gələcəyi olan dövlətlərimiz arasında əlaqələrin dərinləşdirilməsinə mühüm önəm verən qonaq öz ölkəsinin məhkəmə sistemindən və mövcud problemlərdən danışaraq, Azərbaycanla müqayisədə hakimlərin 8 dəfə çox olmasına baxmayaraq məhkəmələrdə baxılan işlərin sayının hədsiz yüksək olduğunu bildirmiş, təcrübə mübadiləsinin vacibliyini qeyd etmişdir. Xorvatiya Ali Məhkəməsinin sədri Azərbaycanda əhalinin məhkəmələrə inamının artmasına yönələn məqsədyönlü tədbirləri təqdir etmiş, respublikamızda olmağından məmnunluğunu ifadə edərək, ikitərəfli münasibətlərin inkişafı üçün geniş imkanların olduğunu və səfərinin uğurlu keçdiyini vurğulamışdır.

Görüşdə əməkdaşlığın prioritetləri, o cümlədən inzibati ədliyyə, hakimlərin müstəqilliyi, toxunulmazlığı və məsuliyyəti, ilkin və davamlı tədrisin əhəmiyyəti, Məhkəmə-Hüquq Şuralarının fəaliyyəti və digər məsələlər müzakirə olunmuşdur.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

Azərbaycanda səfərdə olan Gürcüstanın ədliyyə naziri Zurab Adeişvili aprelin 29-da ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür.

Ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərini qeyd edən nazir dövlət başçılarımızın bu əlaqələrin inkişafına daim diqqət göstərdiyini vurğulamış, respublikamızda aparılan demokratik islahatlar, məhkəmə və ədliyyə sisteminin müasirləşdirilməsi, bu sahədə müsbət təcrübə barədə məlumat vermiş, səfərin hüquqi əməkdaşlığa təkan verəcəyini bildirmişdir.

Gürcüstanın Azərbaycanla hərtərəfli, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduğunu bildirən qonaq respublikamızda aparılan mütərəqqi dəyişikliklərlə tanışlıqdan məmnunluğunu ifadə edərək

qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətini vurğulamışdır. Z.Adeişvili ədliyyə infrastrukturunun yeniləşməsi və fəaliyyətdə müasir texnologiyaların tətbiqi barədə məlumat verərək, gələn ay Batumi Ədliyyə Nazirliyinin yeni inşa olunmuş binasının açılış mərasiminin keçiriləcəyini bildirmişdir.

Görüşdə əməkdaşlığa dair bir sıra konkret təkliflər irəli sürülmüş, maraq doğuran məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaqlar nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri ilə tanış olmuşlar.

Aprelin 22-də ədliyyə naziri Fikrət Məmmədov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Metyu Brayza ilə görüşmüşdür.

Tanışlıq məqsədi daşıyan görüşdə ABŞ-ın Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verdiyi bildirilmiş, respublikamızın hərtərəfli dinamik inkişafı, o cümlədən demokratiyanın möhkəmlənməsinə xidmət edən məhkəmə-hüquq islahatları qeyd edilmiş, bu sahədə əldə olunmuş nailiyyətlər yüksək qiymətləndirilmişdir. Qazanılmış uğurların beynəlxalq ictimaiyyətə daha geniş çatdırılmasının vacibliyi vurğulanmışdır.

Söhbət zamanı həmçinin, ədliyyə sahəsində əməkdaşlığın perspektivləri və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

Aprelin 19-da ATƏT Katibliyinin Siyasi dəstək mərkəzinin direktor müavini Paskal Heyman ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşmüşdür.

ATƏT-in ölkəmizlə əməkdaşlığını qeyd edən nazir müavini dövlətimizin siyasi iradəsinin təzahürü olaraq ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən tədbirlər, ədliyyə islahatları barədə məlumat vermişdir.

Təmsil etdiyi qurumun Azərbaycanla hüquqi əlaqələrin inkişafına böyük önəm verdiyini söyləyən qonaq məhkəmə və ədliyyə sahəsində nailiyyətləri, insan hüquqlarının qorunması sahəsində səmərəli ictimai nəzarət mexanizminin tətbiqini təqdir etmiş, təşkilatın Bakı ofisi ilə Ədliyyə Nazirliyi arasında faydalı qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə etmiş, hüquqi əməkdaşlığın daha da genişləndirilməsində marağını bildirərək, konkret təkliflər irəli sürmüşdür.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən qanunun aliliyinin qorunması sahəsində əməkdaşlığın gələcək perspektivləri, habelə qeyri-hökumət təşkilatlarının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

19/04/2011

Aprelin 18-də ədliyyə naziri Fikrət Məmmədov İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mario Corco Stefano Baldi ilə görüşmüşdür.

Ölkəmizin İtaliya ilə hərtərəfli səmərəli əməkdaşlığını qeyd edən nazir iki ölkənin Ədliyyə nazirlikləri arasında 2005-ci ildə Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasının və qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamışdır. Nazir ölkə Pre-

zidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsini, o cümlədən yeni məhkəmə və penitensiar infrastrukturun yaradılmasını, bu islahatlarda həm də italiyalı mütəxəssislərin iştirakını qeyd etmişdir.

Azərbaycanın İtaliya üçün vacib ölkə olduğunu bildirən səfir bir çox oxşar xüsusiyyətlərə malik xalqlarımız arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafını, ölkələrimiz arasında hərtərəfli, o cümlədən hüquqi sahədə əməkdaşlığın böyük prespektivlərinin olduğunu qeyd etmiş, Ədliyyə nazirlikləri arasında əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləmişdir.

Görüşdə həmçinin, əməkdaşlığın prioritetləri müzakirə olunmuş, qarşılıqlı fəaliyyətə dair bir sıra konkret təkliflər irəli sürülmüşdür.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

18/04/2011

Aprelin 14-də ədliyyə naziri Fikrət Məmmədov Avstriyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Silvia Mayer-Kaybiç ilə görüşmüşdür.

Azərbaycan və Avstriya arasında dostluq və əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirən nazir hüquqi sahədə də səmərəli əlaqələrin qurulduğunu vurğulamışdır. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə və ədliyyə sisteminin müasirləşdirilməsini, o cümlədən penitensiar infrastrukturun təkmilləşdirilməsini, bu islahatlarda həm də avstriyalı mütəxəssislərin iştirakını qeyd etmişdir.

Avstriyanın respublikamızla hərtərəfli, o cümlədən hüquqi əməkdaşlığın inkişafında maraqlı olduğunu söyləyən qonaq iki ölkənin Ədliyyə nazirlikləri arasında səmərəli əlaqələri təqdir etmiş, bu münasibətlərin dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirərək, Azərbaycanın ədliyyə nazirini Avstriyaya səfərə dəvət etmiş, qarşılıqlı fəaliyyətə dair bir sıra konkret təkliflər irəli sürmüşdür.

Görüşdə inzibati ədliyyə, məhkəmə qərarlarının icrası, alternativ cəzaların tətbiqi, xüsusi notariusların fəaliyyəti və hakimlərin tədrisi məsələləri müzakirə olunmuşdur.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

14/04/2011

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə Bakıda səfərdə olan Fransanın sabiq ədliyyə naziri, Avropa Parlamentinin deputatı xanım Raşida Dati aprelin 8-də ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür.

Ölkələrimiz arasında dostluq münasibətlərinin, o cümlədən hüquqi əlaqələrin inkişafını vurğulayan nazir dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsini, xüsusilə hakimlərin sayının iki dəfə artırılmasını, hakimliyə namizədlərin ən şəffaf prosedurlarla seçimini qeyd etmiş, Azərbaycanın bu sahədə müsbət təcrübəsinin Avropa Şurası tərəfindən yayılmasının qərara alındığını söyləmişdir.

Qonaq respublikamızda həyata keçirilən hərtərəfli, o cümlədən məhkəmə-hüquq islahatlarından xəbərdar olduğunu qeyd edərək, bu sahənin daim təkmilləşdirilməsinin vacibliyini vurğulamışdır. Xanım R.Dati Azərbaycanla hüquqi əlaqələri daha da genişlən-

dirməkdə marağını bildirmiş və insan hüquqlarının təşviqi, inzibati məhkəmələrin fəaliyyəti və digər məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Görüşdə ölkəmizin Fransadakı səfiri Elçin Əmirbəyov iştirak etmişdir.

Aprelin 7-də ədliyyə naziri Fikrət Məmmədov Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jolt Çutora ilə görüşmüşdür.

Azərbaycan və Macarıstan arasında hərtərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirən nazir, iki ölkənin Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu layihəsinin hazırlandığını qeyd edərək, əlaqələrin genişləndirilməsinin və təcrübə mübadiləsinin əhəmiyyətini vurğulamışdır. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu məhkəmə və ədliyyə, o cümlədən penitensiar islahatlara beynəlxalq marağın artdığını söyləmişdir.

Oxşar tarixi köklərə malik xalqlarımız arasında dostluq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edən səfir Macarıstanın respublikamızla hərtərəfli, o cümlədən hüquqi əlaqələrin genişləndirilməsinə böyük önəm verdiyini qeyd etmiş, ədliyyə sahəsində əməkdaşlığa dair sənədin imzalanması üçün Macarıstan nazirinin ölkəmizə bu il səfər etmək arzusunda olduğunu bildirmişdir. Görüşdə qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunaraq, maraq kəsb edən digər məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

07/04/2011

Aprelin 4-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Avropa Şurasının (AŞ) Bakı ofisinin yeni rəhbəri səfir Konstantin Yerokostopulosla görüşmüşdür.

Ölkəmizin Avropa Şurası ilə səmərəli əməkdaşlığını qeyd edən nazir, K.Yerokostopulosu yeni vəzifədə uğurlar arzulayaraq qarşılıqlı fəaliyyətin daha da genişlənəcəyinə əminliyini bildirmişdir. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu məhkəmə-hüquq islahatlarını, o cümlədən hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf qaydalarla seçiminin artıq digər ölkələr üçün model kimi göstərildiyini vurğulamış, habelə penitensiar infrastrukturun müasirləşdirilməsindən danışmış, həyata keçirilən islahatlarda AŞ-nın yaxından iştirakını yüksək qiymətləndirmişdir.

Avropa Şurasına üzvlüyünün 10 illiyi tamam olan Azərbaycanın regionda ən önəmli tərəfdaş olduğunu bildirən qonaq AŞ-nın ölkəmizlə əlaqələrin daha da dərinləşdirməsində marağını vurğulamışdır. Ədliyyə Nazirliyi ilə səmərəli və işgüzar münasibətləri təqdir edən səfir qarşılıqlı fəaliyyətin inkişafı üçün səylərini əsirgəməyəcəyini söyləmişdir.

Görüşdə həmçinin, inzibati məhkəmələrin təsis edilməsi insan hüquqlarının müdafiəsi baxımından dəyərləndirilmiş, hakimlərin tədrisi və Avropa Məhkəməsi presedentlərinin öyrənilməsi və s. aktual məsələlərə dair faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

04/04/2011

Azərbaycan və Gürcüstan arasında strateji tərəfdaşlığa əsaslanan əlaqələr müxtəlif istiqamətlərdə, o cümlədən hüquqi sahədə uğurla inkişaf edir. Zəngin müqavilə-hüquq bazası əsasında Ədliyyə nazirlikləri arasında səmərəli əməkdaşlıq qurulmuş, qarşılıqlı səfərlər bu əlaqələrin daha da genişlənməsinə böyük təkan verməkdədir.

Gürcüstanın Müstəqillik günü ərəfəsində Acarıstan Muxtar Respublikasının Batumi şəhərində yeni Ədliyyə Evinin - Dövlət Xidmətləri binasının açılışı olmuşdur. Açılış mərasimində Gürcüstanın Prezidenti Mixeil Saakaşvili, hökumət üzvləri və diplomatik korpusun nümayəndələri iştirak etmişlər.

Gürcüstan ədliyyə naziri Zurab Adeişvilinin dəvətinə əsasən ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev və Ədliyyə Nazirliyinin məsul əməkdaşlarından ibarət nümayəndə heyəti həmin tədbirdə iştirak etmək üçün qonşu ölkəyə səfər etmişdir.

"Bir pəncərə" prinsipi əsasında əhaliyə göstərilən bütün ədliyyə xidmətlərini birləşdirən və konseptual baxımdan yeni olan bina müasir memarlıq üslubuna uyğun inşa olunmuş, əhaliyə çevik, səmərəli və məhsuldar xidmətlər göstərmək üçün binada ən qabaqcıl informasiya-kommunikasiya texnologiyaları tətbiq edilmiş və yüksək şərait yaradılmışdır.

Bina ilə tanışlıqdan sonra Prezident Mixeil Saakaşvili Azərbaycanın nümayəndə heyəti ilə görüşmüş, iki ölkə arasında əməkdaşlıq münasibətlərinin inkişafı yüksək qiymətləndirilmişdir.

Elə həmin gün yeni binada ilk beynəlxalq görüş olaraq Z.Adeişvili və Gürcüstanın Cəzaların icrası, probasiya və hüquqi yardım üzrə naziri xanım Xatuna Kalmaxelidze Azərbaycanın ədliyyə naziri F.Məmmədov arasında səmərəli danışıqlar aparılmışdır. Görüşdə əməkdaşlığın perspektivləri müzakirə edilmiş, hüquqi yardım və məhkumların verilməsi məsələsinə toxunulmuş, ölkəmizin ədliyyə, o cümlədən penitensiar sistemində aparılan genişmiqyaslı islahatlara, müasir infrastrukturun yaradılmasında və məhkumlara göstərilən tibbi xidmət sahəsində qazanılmış nailiyyətlərə böyük maraq göstərilmişdir.

Səfər çərçivəsində nümayəndə heyəti Batumidə Azərbaycanın Baş Konsulluğunda olmuş, həmvətənlərimizin qayğıları ilə maraqlanmışlar.

Eyni zamanda, Gürcüstanın ədliyyə naziri ilə birgə ölkənin bəzi bölgələrinə baş çəkilmiş, habelə azərbaycanlıların kompakt yaşadığı Kvemo-Kartli vilayətinin mərkəzi olan Rustavi şəhərinə səfər edilərək, onun sosial-iqtisadi inkişafı, o cümlədən yeni inşa olunan ədliyyə kompleksi ilə tanış olunmuşdur.

Səfər zamanı Azərbaycan nümayəndə heyətinə yüksək qonaqpərvərlik və xüsusi diqqət göstərilmiş, işgüzar danışıqlar aparılaraq qarşılıqlı fəaliyyətin sürətli inkişafından məmnunluq ifadə olunmuşdur.

Səfərdən ölkəmizə qayıdarkən yolüstü Gədəbəy rayonunda Dünya Bankı ilə birgə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" Layihəsi çərçivəsində inşa olu-

nan müasir rayon məhkəməsi binasına baş çəkilmiş, tikintinin gedişatı ilə maraqlanılmışdır.

31/05/2011

Respublikamız nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən 100-dən çox dövləti birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli əməkdaşlıq edərək, 1998-ci ildən Təşkilatın rəhbər orqanı - İcraiyyə Komitəsində fəal təmsil olunur. Ölkəmiz BPA-nın rus dilində internet saytının aparılmasını, dünya prokurorları üçün praktiki əhəmiyyətə malik rəhbər tövsiyələrinin rus və Azərbaycan dillərinə tərcümə olunaraq yayılmasını təmin edir. Qurumun ötən İllik Konfransında uzun illər İcraiyyə Komitəsinin üzvü olmuş ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov Assosiasiyanın Senatına seçilmişdir.

Azərbaycanla əməkdaşlığa böyük önəm verən BPA-nın prezidenti, İrlandiya prokurorluq xidmətinin rəhbəri Ceyms Hamilton ölkəmizə səfəri zamanı nümayəndə heyəti ilə mayın 23-də ədliyyə naziri, Assosiasiyanın senatoru Fikrət Məmmədovla görüşmüşdür.

Ölkəmizin Assosiasiyanın yarandığı vaxtdan fəal əməkdaşlıq etdiyini vurğulayan nazir təşkilatın İcraiyyə Komitəsinin Bakıda keçirilmiş uğurlu iclasını xatırlatmış, ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində və cinayətkarlıqla mübarizə üzrə dünya prokurorlarının səylərinin birləşdirilməsində Assosiasiyanın rolunu vurğulayaraq, ikitərəfli əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini söyləmişdir. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin güclü siyasi iradəsi ilə ölkəmizin hərtərəfli tərəqqisinə xidmət edən demokratik islahatlar, o cümlədən ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi barədə məlumat vermişdir.

Söhbət zamanı qonaqların diqqəti Ermənistan tərəfindən torpaqlarımızın 20%-nin işğalı, bir milyon soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilmişdir.

C.Hamilton Azərbaycana 10 ildən sonra yenidən səfər etdiyindən məmnunluğunu bildirərək, ölkəmizdə sürətli mütərəqqi dəyişikliklərin və regionların hərtərəfli dinamik inkişafının şahidi olduğunu söyləmişdir.

Qonaq Ermənistanın hərbi təcavüzünə baxmayaraq, Azərbaycanın bu cür yüksək nailiyyətlər əldə etməsini, habelə BPA ilə səmərəli əməkdaşlığını vurğulamış, dövlətimizin Assosiasiyanın İcraiyyə Komitəsində uzun illər onun inkişafına verdiyi dəyərli töhfələri xüsusi qiymətləndirərək, Komitədə ölkəmizin yenidən təmsil olunmasının təşkilat üçün faydalı olduğunu qeyd etmişdir.

Tədbirdə ölkəmizin yeni bir töhfəsi - hakimlər, prokurorlar və digər hüquqşünaslar üçün əvəzolunmaz vəsait olan Assosiasiyanın İnsan hüquqları üzrə yeni tövsiyələrinin və BPA haqqında məlumat kitabçasının rus dilinə tərcümə olunmuş versiyaları təqdim olunmuşdur. Həmin vəsaitlərin tərcüməsini təqdir edən qonaqlar, onların bu ilin iyununda Koreyada keçiriləcək İllik Konfransda yayılmasının əhəmiyyətini vurğulamışlar.

Görüşdə əməkdaşlığın perspektivləri, hakimlərin, prokurorların peşəkarlığının artırılması, BPA Standartlarının və tövsiyələrinin tətbiqi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

23/05/2011

Qabaqcıl Avropa dövlətləri ilə hüquqi əlaqələrin inkişafına böyük önəm verilərək, 2009-cu ildə Almaniya federal ədliyyə nazirinin dəvəti ilə ədliyyə naziri Fikrət Məmmədov bu ölkədə səfərdə olmuş, Ədliyyə nazirlikləri arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanat imzalanmışdır. Bəyanatın implementasiyası ilə bağlı Federal Ədliyyə Nazirliyi yanında Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun direktorunun ölkəmizə səfəri zamanı konkret tədbirlərə, o cümlədən notariusların Almaniyada təcrübə keçməsinə dair müzakirələr aparılmışdır.

2010-cu ildə Fondun dəstəyi ilə Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin rəhbərliyi Berlində beynəlxalq konfransda iştirak etmiş, bundan əlavə, baş idarənin əməkdaşlarından, dövlət notariuslarından və notarius vəzifəsinə namizədlərdən ibarət nümayəndə heyəti Almaniyaya səfər edərək, bu ölkənin notariat institutunun fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Birgə Bəyanat çərçivəsində bu il may ayının 18-22-də Fondun dəstəyi ilə Almaniya Federal Notariat Palatasının vitse-prezidenti Rixard Bokun rəhbərliyi ilə nümayəndə heyəti Bakıda səfərdə olmuş, Ədliyyə Nazirliyində respublika notariuslarının iştirakı ilə seminarlar keçirilmişdir. Seminarlarda alman mütəxəssislər "Notariat peşəsi hüququnun əsasları", "Notariat sənədləri", "Hüquqi şəxslər hüququnda alman notariusunun təsdiqetmə səlahiyyəti", "Daşınmaz əmlak hüququ sahəsində alman notariusunun səlahiyyətləri", "Almaniyada notariat peşəsi ilə bağlı xərclər" və "Notariat hərəkətlərinin aparılması təcrübəsi" mövzuları üzrə çıxış etmişlər. Qonaqlar həmçinin Dövlət notariat arxivinin işi və istifadədə olan informasiya sistemləri ilə tanış olmuşlar.

Səfər zamanı ədliyyə nazirinin müavini Toğrul Musayev Almaniyanın nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə dövlətlərimiz arasında hərtərəfli, xüsusilə hüquqi sahədə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunmuş, bu əlaqələrin daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğu vurğulanmış, ədliyyənin müxtəlif istiqamətləri üzrə səmərəli fikir mübadiləsi aparılmışdır. Tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə, o cümlədən notariat sahəsində aparılan islahatlar barədə məlumat verilmiş, qanunvericiliyin təkmilləşdirilməsi, notariat sənədlərinin elektron məlumat bankı informasiya sisteminin yaradılması, şəffaf müsabiqə əsasında yeni notariuslar korpusunun formalaşdırılması üzrə görülmüş konkret işlər qeyd olunmuşdur.

Qonaqlar ölkəmizin bu sahədə əldə etdiyi yüksək nailiyyətlərə böyük maraq göstərmiş, səfərin məhsuldar və səmərəli olduğunu qeyd edərək, Azərbaycanda notariat institutunun müasir tələblər səviyyəsində qurulmasını, ən qabaqcıl texnologiyaların tətbiqini yüksək qiymətləndirmiş, qarşılıqlı münasibətlərin bundan sonra da uğurla inkişaf etdirilməsinə hazır olduqlarını bildirmişlər.

Ölkəmiz tərəfindən Avropa strukturları, xüsusilə Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilərək, Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində mühüm layihələr, o cümlədən ədliyyə sisteminin inkişafına dair proqramlar icra olunur. Belə ki, Avropa Komissiyası ilə səmərəli əməkdaşlıq qurularaq qanunun aliliyi və insan hüquqlarının qorunmasına xidmət edən lAzərbaycanda ədliyyə is-

lahatlarına dəstək» proqramı razılaşdırılaraq həyata keçirilir. 2011-2013-cü illər üzrə Ədliyyə Akademiyasının və regional ədliyyə şöbələrinin potensialının gücləndirilməsi, penitensiar sistemin müasirləşdirilməsi istiqamətlərini əhatə edən bu layihə vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, məhkumların islah olunması, onlara göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması, probasiya təcrübəsinin öyrənilməsi, müxtəlif maarifləndirmə və tədris tədbirlərinin keçirilməsi ilə bağlı işlərin görülməsini nəzərdə tutur.

Həmin layihələrin icrası vəziyyətinin müzakirə olunması məqsədilə ədliyyə naziri Fikrət Məmmədov ölkəmizə səfər edən Avropa İttifaqının məsul nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq münasibətləri vurğulanmış, beynəlxalq təşkilatlar tərəfindən ölkəmizdə aparılan demokratik islahatların təqdir edilməsi, birgə həyata keçirilən proqramların əhəmiyyəti və faydası qeyd olunaraq, bu mühüm layihələrin uğurla icra olunacağına əminlik ifadə olunmuşdur.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaqlar Avropa İttifaqının Azərbaycanla əlaqələrin daha da genişləndirilməsi niyyətində olduğunu bildirmiş, layihələrin daha da zənginləşdirilməsi üçün ölkəmizdə uğurla aparılan ədliyyə və məhkəmə islahatlarının son nailiyyətləri ilə maraqlanmışlar.

Eyni zamanda, qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunmuş, Hərtərəfli İnstitusional Quruculuq birgə proqramı üzrə qarşıda duran işlərdən danışılmış, habelə layihələrin səmərəsinin artırılmasına dair konkret təkliflər irəli sürülmüş və digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan və Fransa arasında əməkdaşlıq münasibətləri bütün istiqamətlərdə, o cümlədən hüquqi sahədə də uğurla inkişaf edir. 2004-cü ildə ölkə Prezidenti cənab İlham Əliyevin Fransaya səfəri zamanı iki ölkənin Ədliyyə Nazirlikləri arasında əməkdaşlığa dair Saziş imzalanmış, bir sıra birgə tədbirlər həyata keçirilmişdir.

Ədliyyə sahəsində qarşılıqlı fəaliyyətin yeni prioritetlərini müəyyən etmək məqsədilə Azərbaycana səfərə gəlmiş Fransa Ədliyyə və Azadlıqlar Nazirliyinin Avropa və beynəlxalq məsələlər xidmətinin rəisi Erik Metrpyer mayın 18-də ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür.

Fransa və Azərbaycan arasında səmərəli hüquqi münasibətləri qeyd edən nazir dövlət başçısının rəhbərliyi ilə məhkəmə və ədliyyə, o cümlədən penitensiar sistemin müasirləşdirilməsi üzrə görülən işlərdən danışaraq, bu işdə fransalı mütəxəssislərin fəal iştirakını təqdir etmiş, səfərin hüquqi əlaqələrin inkişafına əlavə təkan verəcəyinə əminliyini bildirmişdir.

Fransanın Azərbaycanla hüquqi əməkdaşlığın inkişafında maraqlı olduğunu söyləyən qonaq respublikamıza bir neçə dəfə səfər etdiyini bildirərək Azərbaycanın hərtərəfli dinamik tərəqqisinin, ədliyyə və məhkəmə sistemində əldə edilmiş nailiyyətlərin şahidi olduğunu vurğulamış, xüsusilə hakimlərin Avropada ən mütərəqqi qaydalarla seçimi və tədrisi prosesini yüksək qiymətləndirmiş, qarşılıqlı fəaliyyətə dair konkret təkliflər irəli sürmüşdür.

Görüşdə Fransa Milli Hakimlər Məktəbi ilə əməkdaşlıq, hakimlərin və digər hüquqşü-

nasların tədris səfərlərinin təşkili, həmçinin inzibati məhkəmələrin fəaliyyəti, Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, məhkəmə qərarlarının icrası, xüsusi notariatın inkişafı, məhkəmələrdə müasir texnologiyaların tətbiqi, habelə korrupsiya ilə mübarizə və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq həmçinin, Məhkəmə-Hüquq Şurasında olmuş, Şuranın və Hakimlərin Seçki Komitəsinin üzvləri ilə görüşmüşdür. Görüşdə Məhkəmə-Hüquq Şurasının fəaliyyəti və onun hüquq sisteminin inkişafında rolu, hakimlərin müstəqilliyinin təmin edilməsi, peşəkar tədrisi məsələlərinə toxunulmuş, məhkəmə və prokurorluq orqanlarına, vəkillik xidmətinə keçirilən müsabiqələr barədə qonağa məlumat verilmişdir.

Azərbaycanda son illər hüquq sisteminin inkişafında əldə edilmiş nailiyyətlərə valeh olduğunu bildirən qonaq, hüquqi sahədə əməkdaşlığın hər iki tərəf üçün faydasını vurğulamışdır. Hüquq sistemində kadrların obyektiv seçim prosedurlarına böyük maraq göstərən qonaq, həmin gün prokurorluq orqanlarına işə qəbulla bağlı keçirilən test imtahanını müşahidə etmiş, şəffaf qaydaların tətbiqindən məmnunluğunu bildirmişdir.

Eyni zamanda, E.Metrpyer Ali Məhkəmənin sədri Ramiz Rzayev tərəfindən qəbul edilmiş, məhkəmənin möhtəşəm binası ilə tanış olmuşdur.

Səfər çərçivəsində fransalı qonağın dövlətimizdə aparılan çoxşaxəli islahatlara maraq göstərərək bölgələrə səfəri, regionların sosial-iqtisadi inkişafı, yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti, Dünya Bankı ilə həyata keçirilən birgə layihə çərçivəsində yaradılan müasir məhkəmə infrastrukturu, habelə inşa olunan yeni penitensiar komplekslərlə tanışlığı, həmçinin, hakim, prokuror və ədliyyə işçiləri ilə görüşü nəzərdə tutulur.

18/05/2011

Azərbaycanda səfərdə olan Özbəkistanın Baş prokuroru Rəşitjan Kodirov mayın 3-də ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür.

Ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin inkişafında mühüm əhəmiyyətini vurğulamış, mövcud zəngin müqavilə-hüquq bazasının mövcudluğunu qeyd etmiş, demokratiyanın möhkəmlənməsinə xidmət edən məhkəmə və ədliyyə sahəsində islahatlar barədə məlumat vermişdir.

Qonaq ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli dinamik tərəqqiyə nail olduğunu heyranlıqla qeyd etmiş, Azərbaycan və Özbəkistan arasında əməkdaşlığa dair imzalanmış sənədlərin uğurla həyata keçirildiyini bildirmiş, səfərin iki ölkənin hüquq-mühafizə orqanları arasında əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə olacağına ümidvar olduğunu vurğulamışdır. R.Kodirov respublikamızın Avropa Şurasının 10 ildən artıq fəal üzvü olduğunu nəzərə alaraq, Azərbaycanın hüquqi sahədə təcrübəsinə maraq göstərmişdir.

Görüşdə qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə olunaraq, inzibati və yuvenal ədliyyə, habelə korrupsiya ilə mübarizə, sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi və digər maraq kəsb edən məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

03/05/2011

Avropa məkanında hüquq sistemlərinin təkmilləşdirilməsi və inkişafında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Məhkəməyə ildə 60 mindən çox şikayət daxil olur, insan haqlarının müdafiəsində mühüm presedentlər yaradılır, milli qanunvericiliklərin təkmilləşməsinə töhfələr verilir.

Bununla belə Avropa Məhkəməsinə şikayətlərin sayı son illər kəskin artsa da onların 90 faizi Konvensiyaya uyğun olmadığından icraata qəbul edilmir və məhkəmənin iş yükünün əsassız artımı ilə nəticələnir. Həmçinin, Azərbaycandan məhkəməyə daxil olan şikayətlər orta Avropa rəqəmindən 2 dəfə az olmasına baxmayaraq, onların da böyük əksəriyyəti rədd edilir.

Avropa Məhkəməsinin fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliyinin artırılması məqsədilə Avropa Şurası tərəfindən ötən həftə Türkiyənin İzmir şəhərində məhkəmənin gələcəyinə dair yüksək səviyyəli Konfrans keçirilmişdir.

Tədbirdə Azərbaycanı ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, dövlətimizin Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov, Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynov və ədliyyə nazirinin köməkçisi Adil Əbilov təmsil etmişlər.

Avropa Şurasının üzv və müşahidəçi dövlətlərinin ədliyyə və xarici işlər nazirlərinin, digər yüksək səviyyəli rəsmi şəxslərinin iştirak etdiyi bu mötəbər konfransın açılışında Türkiyənin xarici işlər naziri Ahmet Davutoğlu və ədliyyə naziri Ahmet Kahraman, Avropa Şurasının Baş katibi Turbyorn Yaqland, AŞPA-nın sədri Mevlüt Çavuşoğlu, Avropa Məhkəməsinin sədri Jan-Pol Kosta, İnsan Hüquqları üzrə Avropa Komissarı Tomas Hammarberq çıxış etmiş, Avropa Məhkəməsinin səmərəsinin artırılması, mövcud problemlər və onların həlli ilə bağlı müzakirələr keçirilmişdir.

Tədbirdə çıxış edən ölkəmizin ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Avropa Məhkəməsinin restrukturizasiyası, daha effektiv mexanizmlərin tətbiqi ilə bağlı təkliflər vermiş, ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə insan haqlarının müdafiəsi üzrə həyata keçirilən mütərəqqi islahatları qeyd etmişdir .

Həmçinin, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın beşdə birinin işğal olunması, 1 milyon soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşməsi, bununla da Avropa Konvensiyası ilə qorunan insan haqlarının kobud pozulması Konfrans iştirakçılarının xüsusi diqqətinə çatdırılmışdır. Belə mötəbər tribunadan Azərbaycan həqiqətlərinin səslənməsi erməni nümayəndə heyətinin böyük narahatlığına səbəb olmuşdur. İngilis dilində olan çıxışın, həm də rus dilində mətnləri tədbir iştirakçıları arasında yayılmışdır.

Konfransın sonunda Avropa Məhkəməsinin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə müvafiq fəaliyyət planı nəzərdə tutan Bəyannamə qəbul olunmuşdur.

Tədbir çərçivəsində həmçinin Avropa Şurasının baş katibi, İnsan hüquqları üzrə komissarı, habelə bir sıra dövlətlərin ədliyyə nazirləri ilə görüşlər keçirilmiş, insan hüquqlarının təşviqi və əməkdaşlığa dair faydalı müzakirələr aparılmışdır.

İyunun 21-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin 11-ci iclasında iştirak etmək məqsədilə ölkəmizə səfərə gəlmiş Avropa Parlamentinin üzvləri ilə görüşmüşdür.

Ölkəmizin Avropa İttifaqı (Aİ) ilə tərəfdaşlıq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı çərçivəsində mühüm layihələr, o cümlədən ədliyyə sisteminin inkişafına dair birgə proqram həyata keçirildiyini vurğulamışdır. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan ədliyyə və məhkəmə islahatları, o cümlədən hakimliyə namizədlərin ən mütərəqqi üsullarla seçimi və tədrisi, yeni regional məhkəmələrin yaradılması, habelə penitensiar infrastrukturun müasirləşdirilməsi barədə məlumat vermişdir.

Avropa İttifaqının Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük önəm verdiyini bildirən qonaqlar Aİ prezidentinin, Avropa Parlamenti sədrinin bu il ölkəmizə edilmiş əhəmiyyətli səfərlərini xatırlatmışlar. Avropalı deputatlar respublikamızın hərtərəfli dinamik inkişafını təqdir edərək, ölkəmizin dünyada ən sabit ölkələrdən olduğunu və baş verən mütərəqqi prosesləri yaxından izlədiklərini vurğulamışlar.

Görüşdə maraq doğuran məsələlər müzakirə olunmuş, o cümlədən insan hüquqlarının müdafiəsi, vətəndaş cəmiyyətinin inkişafı, antikorrupsiya fəaliyyəti barədə faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

İyunun 8-də ədliyyə naziri Fikrət Məmmədov Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidze ilə görüşmüşdür.

Görüşdə Azərbaycan və Gürcüstan arasında dostluq və səmərəli əməkdaşlığın dinamik inkişafı qeyd olunaraq, iki ölkənin ədliyyə nazirlərinin bu aylarda edilmiş qarşılıqlı səfərlərinin, keçirilmiş rəsmi görüşlərin, aparılmış faydalı danışıqların və təcrübə mübadiləsinin hüquqi sahədə əlaqələrin genişləndirilməsinə böyük təkan verdiyi vurğulanmışdır.

Səfir Azərbaycan ədliyyə nazirinin ötən ay Batumidə müasir Ədliyyə Evinin açılışında iştirak etdiyinə görə Gürcüstan tərəfinin təşəkkürünü çatdırmışdır.

Söhbət zamanı dövlətlərimizin ədliyyə orqanları arasında əlaqələrin daha da genişləndirilməsi, o cümlədən hüquqi yardım, məhkumların verilməsi və digər maraq doğuran məsələlər müzakirə olunmuşdur.

Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinlə görüşmüşdür.

Azərbaycan və Rusiya arasında ən zəngin müqavilə-hüquq bazasına söykənən dostluq və tərəfdaşlıq münasibətlərinin, o cümlədən hüquqi əməkdaşlığın inkişafını vurğulayan nazir, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla aparılan hüquqi islahatlar, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat vermişdir.

Respublikamıza səfərindən məmnunluğunu ifadə edən qonaq, yeni yaradılmış Rusiya İstintaq Komitəsinin fəaliyyətindən və aparılan islahatlardan danışmış, ədalət mühakimə-

məsinin həyata keçirilməsi sahəsində Azərbaycanın təcrübəsinə, o cümlədən bu il fəaliyyətə başlamış inzibati ədliyyənin və məhkəmə ekspertizası fəaliyyətinə maraq göstərmiş, iki ölkə arasında hüquqi əlaqələrin genişləndirilməsi ilə bağlı niyyətini söyləmişdir.

Görüşdə faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

20/08/2011

Sentyabrın 27-də ədliyyə nazirinin müavini Toğrul Musayev BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı Ofisinin yeni təyin olunmuş İnsan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikovla görüşmüşdür.

Ədliyyə Nazirliyinin Ali Komissarlıqla səmərəli əməkdaşlığını qeyd edən nazir müavini insan hüquqlarının etibarlı təmin olunmasının dövlətimizin ali məqsədi olduğunu bildirərək, bu sahədə ölkəmiz tərəfindən konvension öhdəliklərin icrasının təmin olunmasını və beynəlxalq normaların milli qanunvericiliyə implementasiyasını vurğulamış, əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu söyləmişdir.

V.Şkolnikov təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiyini bildirmiş, ədliyyənin fəaliyyət istiqamətləri barədə məlumatları maraqla qarşılayaraq, konkret təkliflər irəli sürmüşdür.

Görüşdə Ermənistan tərəfindən torpaqlarımızın 20%-nin işğalı nəticəsində qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın pozulmuş insan hüquqlarının təmin olunmasına beynəlxalq təşkilatlar tərəfindən diqqət artırılaraq bərpasının vacibliyi xüsusi qeyd olunmuş, BMT-nin müvafiq qurumlarına təqdim olunan ölkəmizin dövri məruzələrinin hazırlanmasında metodoloji yardımın göstərilməsi, əməkdaşlığın prioritetlərinə dair, o cümlədən məhkəmə qərarlarının icrası, Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, ədliyyə işçilərinin, hakimlərin və digər hüquqşünasların tədrisi, Ali Komissarlıqla tanışlıq səfərlərinin təşkili barədə müzakirələr aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

28/09/2011

Ədliyyə naziri Fikrət Məmmədov Ukraynanın ölkəmizdəki səfiri Aleksandr Mişenko ilə görüşmüşdür.

Dövlətlərimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərini qeyd edən nazir zəngin müqavilə-hüquq bazasına söykənən bu əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin xüsusi rolunu vurğulamışdır. Həmçinin, Ədliyyə nazirlikləri arasında imzalanmış əməkdaşlığa dair Sazişin hüquqi əlaqələrin genişləndirilməsi üçün böyük zəmin yaratdığı, qarşılıqlı fəaliyyətin həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla həyata keçirildiyi bildirilərək, onun inkişafı üçün geniş imkanların olduğu söylənilmişdir.

Səfir Azərbaycanla əlaqələrin inkişaf etdirilməsində Ukrayna Prezidentinin güclü siyasi iradəsini qeyd edərək, bu məsələnin ölkəsinin xarici siyasətində əsas prioritetlərdən olduğunu, regional təhlükəsizliyin qorunmasında dövlətlərimizin mühüm rolunu vurğula-

mışdır. Ukrayna və Azərbaycan arasında müxtəlif sahələri əhatə edən dinamik inkişafı, o cümlədən ticarət dövriyyəsinin yüksəlişini, ölkəsində Azərbaycan icmasının uğurlu fəaliyyət göstərdiyini bildirən qonaq münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini söyləmişdir.

Görüşdə həmçinin, bu yaxınlarda Ukraynada keçiriləcək mühüm beynəlxalq konfranslarda ölkəmizin Ədliyyə Nazirliyinin məsul nümayəndələrinin iştirakı qeyd olunmuş, qarşılıqlı maraq doğuran məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

19/09/2011

Sentyabrın 7-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Niderland Krallığının ölkəmizdəki səfiri Aryen Uyterlinde ilə görüşmüşdür.

Azərbaycan və Niderland arasında səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir 2002-ci ildə Ədliyyə nazirlikləri arasında imzalanmış Anlaşma Memorandumunun əməkdaşlıq üçün zəmin yaradaraq hüquqi sahədə əlaqələrimizin inkişaf etdiyini, Niderland ədliyyə nazirinin ötən il Azərbaycana səfərinin, keçirilmiş görüşlərin və danışıqların əhəmiyyətini vurğulamış, respublikamızda aparılan mütərəqqi məhkəmə və ədliyyə islahatları barədə məlumat vermişdir.

Niderlandın ölkəmizlə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirən səfir hüquqi əməkdaşlığın getdikcə inkişaf etdiyini və qarşılıqlı səfərlərin buna mühüm təkan verdiyini vurğulamış, ədliyyə və məhkəmə islahatlarının uğurlu nəticələrini təqdir etmiş, əməkdaşlığa dair konkret təkliflər irəli sürmüşdür.

Görüşdə maraq kəsb edən məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

07/09/2011

Sentyabrın 1-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyası Hüquq məsələləri və insan hüquqları komitəsinin sədri Kristos Purqurides və komitənin üzvü Elza Papadimitriu ilə görüşmüşdür.

Azərbaycanın Avropa Şurası ilə sıx əməkdaşlıq etdiyini bildirən nazir ölkə Prezidenti cənab İlham Əliyevin güclü siyasi iradəsi ilə insan hüquqlarının etibarlı qorunmasına xidmət edən genişmiqyaslı islahatlardan danışmış, məhkəmə sisteminin müasirləşdirilməsi, vətəndaş - dövlət münasibətlərində mühüm rolu olan inzibati məhkəmələrin yaradılması, habelə ədliyyə, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi üzrə görülən işlər barədə məlumat vermişdir.

Respublikamızda ikinci dəfə olan qonaq səfərindən məmnunluğunu ifadə etmiş, son 5-6 ildə ölkəmizdə müxtəlif sahələrdə qazanılmış böyük nailiyyətləri təqdir etmiş, Azərbaycanın müsbət demokratik dəyişikliklərə görə qonşu dövlətlərdən xeyli irəlidə olduğunu vurğulamışdır.

Görüşdə həmçinin, penitensiar infrastrukturun müasirləşdirilməsi, insan hüquqlarının etibarlı təminatı, ədliyyə işçilərinin treninqi və digər maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

Səfər zamanı qonaqlar beynəlxalq tələblər səviyyəsində inşa olunmuş müasir tipli Bakı istintaq təcridxanasına baş çəkmiş, məhkumların saxlanma şəraiti, onlara göstərilən tibb xidmətləri və ərzaq təminatı ilə yaxından tanış olaraq yüksək qiymətləndirmişlər.

Elə həmin gün K.Purqurides və E.Papadimitriu penitensiar sistemin fəaliyyətinə ictimai nəzarəti həyata keçirən İctimai Komitənin üzvləri ilə görüşmüşdür. Söhbət zamanı İctimai Komitənin fəaliyyəti ilə maraqlanılmış, Komitənin vətəndaş cəmiyyəti və hüquq-mühafizə orqanları arasında səmərəli əməkdaşlığın nümunəsi olduğu qeyd olunmuş, geniş müzakirələr aparılmışdır.

01/09/2011

Mərakeş Krallığının ədliyyə naziri M.T.Nasirinin dəvəti ilə Azərbaycan Respublikasının ədliyyə naziri F.Məmmədov bu ölkədə səfərdədir.

Azərbaycanın ədliyyə naziri nümayəndə heyəti ilə Rabatda Kral V Məhəmmədin və Kral II Həsənin xatirələrini ehtiramla yad etmiş, məzarları önünə əklil qoymuşdur.

Mərakeş Ədliyyə Nazirliyində keçirilmiş görüşdə M.T.Nasiri bu ilin mart ayında Azərbaycana səfərini və dövlət başçısı cənab İlham Əliyev tərəfindən qəbul edildiyini məmnunluqla xatırlamış, ölkəmiz ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu, ədliyyə sahəsində təcrübə mübadiləsinə böyük əhəmiyyət verdiyini bildirmişdir.

Səmimi qonaqpərvərliyə və ölkəmiz haqqında xoş sözlərinə görə mərakeşli həmkarına minnətdarlığını ifadə edən F.Məmmədov hüquqi əməkdaşlığa dair ölkələrimiz arasında imzalanmış ilk dövlətlərarası sənədlərin əhəmiyyətini qeyd etmişdir.

Görüşdə Dağlıq Qarabağ və Cənubi Səhra münaqişələrinə toxunularaq, bu məsələlərdə qaşılıqlı dəstək ifadə edilmiş, Azərbaycanın və Mərakeşin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmələri ilə əlaqədar qarşılıqlı təbriklər səsləndirilmişdir.

Sonda iki ölkənin Ədliyyə nazirlikləri arasında Sazişin icrası məqsədilə ədliyyə və məhkəmə sistemi ilə tanışlığa, elektron ədliyyə və müasir texnologiyaların tətbiqinə, birgə tədris tədbirlərə dair 2012-ci il üçün İşçi Proqram imzalanmışdır.

Azərbaycan nümayəndə heyətinin səfərinə böyük diqqət göstərilərək, Mərakeşin Mərkəzi Televiziyası Azərbaycanın ədliyyə nazirindən müsahibə götürmüşdür.

Səfər çərçivəsində Mərakeş Krallığı Parlamenti Nümayəndələr Palatasının Sədri A.Radi ilə görüş keçirilmişdir. Səmimi qəbula görə minnətdarlığını ifadə edən F.Məmmədov bir neçə gün əvvəl Beynəlxalq Parlament Birliyinin Sədri seçilməsi münasibətilə A.Radini təbrik etmiş, iki ölkə arasında əlaqələri yüksək qiymətləndirərək, noyabrın 25-də keçiriləcək parlament seçkilərində Mərakeş xalqına uğurlar arzulamışdır.

A.Radi təbrikə görə təşəkkürünü bildirmiş, 2010-cu ilin sentyabr ayında ölkəmizə uğurlu səfərini xatırlamışdır. O, Mərakeş və Azərbaycan parlamentləri arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edərək, adı çəkilən beynəlxalq qurumun prezidenti seçilməsində Azərbaycan Parlamentinin dəstəyinə görə minnətdarlığını bildirmişdir.

Azərbaycan nümayəndə heyəti Mərakeşin Ali Məhkəməsinə baş çəkərək, Məhkəmənin sədri M.Faress və Baş prokuroru M.Maddah ilə görüşmüş, bu qurumun fəaliyyəti ilə

tanış olunmuş, faydalı fikir mübadiləsi aparılmışdır. Ölkəmizdə həyata keçirilən nəhəng quruculuq işlərindən xəbərdar olduğunu, Azərbaycanın sürətli inkişafına heyran qaldığını bildirən M.Faress Ali məhkəmələr arasında əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərmişdir.

Ölkəmizdə məhkəmə-hüquq islahatının aparılması, xüsusilə yeni məhkəmə infrastrukturunun yaradılması nəzərə alınaraq, Kasablanka, Tanjer, Meknes apellyasiya və birinci instansiya məhkəmələrinin fəaliyyəti ilə tanış olunmuş, habelə Mərakeşdə yeni seçilmiş hakimlərə xidməti vəsiqələrin təqdimetmə mərasimində iştirak edilmişdir.

Tədbirlərdə ölkəmizin Mərakeş Krallığındakı səfiri S.Ağabəyov iştirak etmişdir.

Səfər çərçivəsində ölkəmizin Rabatdakı səfirliyində Mərakeş Parlamentinin Sədri, ədliyyə naziri və Azərbaycan nümayəndə heyətinin iştirakı ilə rəsmi ziyafət təşkil edilmişdir.

28/10/20

Oktyabrın 20-də ədliyyə nazirinin müavini Toğrul Musayev ölkəmizdə səfərdə olan İndoneziya Konstitusiya Məhkəməsinin sədri Məhəmməd Mahfudun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın İndoneziya ilə mövcud dostluq əlaqələrini, ölkələrimiz arasında əməkdaşlığın həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla həyata keçirildiyini qeyd edən nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan köklü hüquq islahatları nəticəsində məhkəmə sisteminin təkmilləşdirilməsi, hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf hesab edilən qaydalarla seçimi, habelə ədliyyə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən geniş miqyaslı işlər barədə məlumat vermiş, münasibətlərimizin inkişafı üçün geniş perspektivlərin olduğunu vurğulamışdır.

Oxşar tarixə malik ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinə mühüm önəm verən qonaq ədliyyə və məhkəmə sistemində əldə olunmuş nailiyyətlərə böyük maraq göstərmiş, hüquqi əlaqələrin inkişaf etdirilməsinin və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini qeyd etmişdir.

Görüşdə həmçinin, inzibati ədliyyə, vətəndaş cəmiyyətinin inkişafı, antikorrupsiya fəaliyyəti, sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi, elektron xidmətlərin tətbiqi və maraq doğuran digər məsələlər barədə faydalı fikir mübadiləsi aparılmışdır.

Tədbirdə İndoneziyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Aqus Trimartono iştirak etmişdir.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşlar.

21/10/2011

Oktyabrın 20-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov respublikamızda səfərdə olan Avropa Şurası (AŞ) Baş katibinin təşkilati inkişaf və islahatlar üzrə xüsusi nümayəndəsi Jerar Ştudmanla görüşmüşdür.

Azərbaycanın Avropa Şurası ilə səmərəli əməkdaşlıq etdiyini bildirən nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə və ədliyyə, o cümlədən penitensiar

sistemin müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat vermiş, həyata keçirilən tədbirlərdə nüfuzlu beynəlxalq təşkilatların, xüsusilə Avropa Şurasının fəal iştirakını və ölkəmizdə hakimlərin ən şəffaf seçiminin bu mötəbər qurum tərəfindən müsbət təcrübə kimi qiymətləndirildiyini vurğulamış, əməkdaşlığın inkişafı üçün böyük perspektivlərin olduğunu qeyd etmişdir.

Respublikamızda növbəti dəfə olmaqdan məmnunluğunu ifadə edən qonaq, Azərbaycana əvvəlki səfərlərini xoş təəssüratlarla xatırlatmış, son illər ərzində ölkəmizin hərtərəfli dinamik inkişafını, müxtəlif sahələrdə qazanılmış böyük nailiyyətləri təqdir etmişdir. J.Ştudman Avropa Şurasının Azərbaycanla əlaqələrin daha da dərinləşməsində maraqlı olduğunu bildirərək əməkdaşlığın yeni prioritetlərinə dair Fəaliyyət Planının hazırlandığını bildirmiş, ölkəmizdə korrupsiya ilə sərt mübarizənin aparıldığı nəzərə alınaraq bu Plana həmin məsələnin əsas prioritet kimi daxil ediləcəyini qeyd etmişdir.

Görüşdə həmçinin, inzibati ədliyyə, məhkəmə qərarlarının icrası, hakimlərin və hakimliyə namizədlərin tədrisi, elektron xidmətlərin tətbiqi kimi qarşılıqlı fəaliyyətə dair konkret prioritetlər müzakirə olunmuş, korrupsiya ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığa böyük əhəmiyyət verilərək, Azərbaycan nümayəndə heyətinin bu günlərdə Mərakeşdə keçiriləcək mötəbər beynəlxalq forumlarda iştirak edəcəyi bildirilmişdir.

Tədbirdə AŞ-nın Bakı ofisinin rəhbəri səfir Konstantin Yerokostopulos iştirak etmişdir.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

20/10/2011

Noyabrın 22-də Ədliyyə Nazirliyi ilə Dünya Bankı arasında Ədliyyə sisteminin müasirləşdirilməsi Layihəsinin əlavə maliyyələşdirilməsinə dair yeni kredit sazişinin imzalanması mərasimi keçirilmişdir. Sazişi Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov, Dünya Bankı tərəfindən Bankın ölkə meneceri vəzifəsini icra edən Səadət Bağırlı imzalamışdır.

Mərasimdə çıxış edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin və infrastrukturunun müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat vermiş, ötən həftə ölkə başçısının Oğuz rayonunda Layihə çərçivəsində inşa olunmuş ilk məhkəmə binasının açılışında iştirakını və görülən işləri təqdir etməsini bu sahəyə böyük diqqətin və etimadın əyani təzahürü olduğunu vurğulamışdır.

Dünya Bankının təmsilçisi çıxış edərək, Bankın Ədliyyə Nazirliyi ilə əməkdaşlığını, Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi üzrə həyata keçirilən tədbirləri yüksək qiymətləndirmiş, qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsinə hazır olduğunu vurğulamışdır.

Bildirilmişdir ki, Azərbaycanda aparılan məhkəmə islahatları nüfuzlu beynəlxalq qurumlar tərəfindən də dəstəklənir. Dünya Bankı bizə maliyyə və texniki dəstəyin göstərilməsi qərarına gəlmiş, Ədliyyə sisteminin müasirləşdirilməsi üzrə birgə Layihənin icrasına başlanılmışdır. Layihə çərçivəsində 20-dən çox yeni məhkəmə binaları və məhkəmə komplekslərinin layihələri hazırlanmış, habelə Bakı şəhəri Yasamal, Gəncə şəhəri Nizami, Gədəbəy rayon məhkəmələri üçün yeni binaların inşası başa çatmaq üzrədir. Həmçinin, Konstitusiya və Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi müasir informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə təmin olunmuş,

məhkəmə sisteminin vahid internet portalı yaradılmışdır.

Hazırkı sənədə əsasən Dünya Bankı ilə birgə layihə çərçivəsində yeni məhkəmə və məhkəmə komplekslərinin tikintisi, qabaqcıl İKT-lərin geniş tətbiqi, məhkəmə qərarlarının icrası işinin və hüquqi yardım sisteminin təkmilləşdirilməsi, Ədliyyə Akademiyasının və Vəkillər Kollegiyasının potensialının gücləndirilməsi, ədliyyə işçiləri və hakimlərin peşəkarlığının artırılması və digər tədbirlərin həyata keçiriləcəyi vurğulanmış, birgə səylər nəticəsində bundan sonra da yüksək uğurlar əldə ediləcəyinə əminlik ifadə olunmuşdur.

22/11/2011

Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun ATƏT-lə birgə təşkil etdiyi "Azərbaycanda vəkillik institutunun daha da inkişaf etdirilməsi və məhkəməyə müraciət etmək imkanlarının səmərəliliyinin artırılması" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün respublikamızda səfərdə olmuş qurumun Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun idarə rəisi Tomas Vennen noyabrın 15-də ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşmüşdür.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ədliyyə və məhkəmə islahatlarının müsbət nəticələrini qeyd edən nazir müavini hələ 2000-ci ilin əvvəllərində Avropa İttifaqının TACİS proqramı çərçivəsində Azərbaycanda bu sahədə islahatların aparılması və təkmilləşdirilməsi üzrə layihənin T.Vennenin iştirakı ilə uğurla həyata keçirildiyini xatırladaraq, hazırkı əməkdaşlığın ATƏT-in xətti ilə davam etdirilməsindən məmnunluğunu ifadə etmişdir. T.Musayev həmçinin, hakimlərin, hakimliyə namizədlərin və digər hüquqşünasların tədrisi, vətəndaşların hüquqi maarifləndirilməsi, regionlarda əhaliyə təmənnasız hüquqi xidmətlər göstərən məsləhət mərkəzlərinin yaradılması üzrə görülən işlərdən danışmışdır.

Azərbaycanda ötən dövr ərzində böyük dəyişiklərin baş verdiyini, sürətli sosial-iqtisadi inkişafın şahidi olduğunu vurğulayan qonaq vaxtilə məhkəmə-hüquq sisteminin inkişafına yönələn layihələrin artıq reallığa çevrildiyini, bu sahədə qazanılmış nailiyyətləri, o cümlədən müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təqdir etmişdir. T.Vennen Ədliyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyətin səmərəliliyini qeyd edərək, əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu söyləmiş, əhalinin hüquqi yardım almaq imkanlarının asanlaşdırılması barədə faydalı fikir mübadiləsi aparmışdır.

15/11/2011

Macarıstan Prezidenti Pal Şmittin Azərbaycana rəsmi səfəri zamanı iki ölkənin Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Ədliyyə işçilərinin tədrisini, nazirliklərin fəaliyyəti üzrə təcrübə mübadiləsini, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı məlumatın verilməsini, ekspertlərin qarşılıqlı səfərlərini nəzərdə tutan Memorandumu Macarıstanın ədliyyə üzrə dövlət naziri Robert Repassi və Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov imzalamışdır.

Səfər çərçivəsində noyabrın 11-də iki ölkənin ədliyyə nazirlərinin görüşü keçirilmişdir.

Qonağı Ədliyyə Nazirliyində səmimi salamlayan F.Məmmədov oxşar tarixə malik ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd etmiş, hüquqi əlaqələrimizin genişləndirilməsində imzalanmış Anlaşma Memorandumun əhəmiyyətini vurğulamışdır. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla aparılan məhkəmə-hüquq islahatları, o cümlədən hakimliyə namizədlərin ən şəffaf seçimi, habelə ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat vermişdir.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən qonaq Avropada böyük nüfuzu olan respublikamızın hərtərəfli dinamik tərəqqisinin şahidi olduğunu vurğulamış, Macarıstanın dövlət başçısının Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə güclü təkan verəcəyini qeyd etmişdir. R.Repassi ölkəsində aparılan məhkəmə-hüquq islahatlarına toxunaraq, Anlaşma Memorandumu çərçivəsində qarşılıqlı fəaliyyətin daha da inkişaf etdiriləcəyinə əminliyini vurğulamışdur.

Görüşdə əməkdaşlığın gələcək perspektivləri, o cümlədən təcrübə mübadiləsi, hakimlərin və digər hüquqşünasların tədrisi, konkret işlər üzrə hüquqi yardımla bağlı və digər maraq doğuran məsələlər müzakirə olunmuşdur.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

11/11/2011

Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı çərçivəsində hüquqi əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verilir. 2001-ci ildə ulu öndər Heydər Əliyevin Türkiyəyə səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Protokol imzalanaraq, hüquqi əməkdaşlığın genişləndirilməsinə təkan verilmiş, müqavilə-hüquq bazası möhkəmləndirilmiş, ədliyyə nazirlərinin qarşılıqlı səfərləri və birgə tədbirlər keçirilmişdir.

Noyabrın 1-də ölkəmizə nümayəndə heyəti ilə səfərə gələn Türkiyənin ədliyyə naziri Sadullah Ergin respublikamızın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşdür.

Tarixən qədim köklərə bağlı olan dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə, o cümlədən hüquqi sahədə uğurla inkişaf etdiyini bildirən F.Məmmədov dövlətlərimizin rəhbərlərinin müntəzəm qarşılıqlı səfərlərinin bu əlaqələrin inkişafında xüsusi rolunu qeyd etmiş, ötən ay Ankarada "Türkdilli respublikaları müstəqilliklərinin 20-ci ilində" mövzusunda keçirilmiş beynəlxalq konfrans dövründə səmimi ikitərəfli görüşü məmnunluqla xatırlatmışdır. Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ədliyyə və məhkəmə islahatları barədə məlumat vermiş, həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyini vurğulamışdır. F.Məmmədov qardaş ölkənin ərazisində baş vermiş zəlzələ ilə əlaqədar S.Erginə dərin hüznlə başsağlığı vermişdir.

S.Ergin 61-ci Hökumətin ədliyyə naziri kimi ilk xarici səfərini Azərbaycana etməsindən böyük məmnunluğunu ifadə edərək, regionda lider olan ölkəmizin hərtərəfli - iqtisadi, siyasi və hüquqi sahədə yüksək nailiyyətlərini, xalqlarımız arasında dostluq və qardaşlıq, əməkdaşlıq münasibətlərinin dinamik inkişafını qeyd etmiş, ölkə başçısı cənab İlham Əliyevin ötən ay İzmirə səfərinin tarixi əhəmiyyətini vurğulamış, Azərbay-

canın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə xoş arzularını bildirərək, bu ərəfədə Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ilə bağlı ölkəsinin sevincini bölüşmüşdür. Türkiyəli nazir respublikamızın məhkəmə-hüquq sistemində aparılan islahatları təqdir edərək, qazanılmış nailiyyətlərin Avropa Şurasında qabaqcıl örnək kimi qəbul olunduğunu vurğulamış, ölkələrimizin ədliyyə orqanları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd etmiş, bu münasibətlərin daha da dərinləşdirilməsi niyyətində olduğunu söyləmişdir. S.Ergin ölkəsində baş vermiş dəhşətli təbii fəlakət zamanı qardaş Azərbaycanın göstərdiyi fəal dəstəyə görə minnətdarlığını bildirmişdir.

Nümayəndə heyəti nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri, habelə Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olmuş, qonaqlara müasir ədliyyə fəaliyyətini və iki ölkə arasında hüquqi əlaqələri əks etdirən xüsusi jurnallar təqdim edilmişdir.

Səfər çərçivəsində Türkiyə ədliyyə nazirinin bir sıra rəsmi görüşləri, habelə ədliyyə sahəsində aparılan islahatlarla yaxından tanış olmaq üçün məhkəmələrə və penitensiar müəssisələrə baş çəkməsi nəzərdə tutulur.

Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Hüseyn Yıldırım başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdədir.

Səfər çərçivəsində nümayəndə heyəti Fəxri Xiyabanda ulu öndərimiz Heydər Əliyevin əziz xatirəsini yad etmiş, Şəhidlər Xiyabanını və türk əsgərinin məzarını ziyarət etmişdir. Həmçinin, qonaqlar Azərbaycanda məhkəmə-hüquq islahatlarına dair beynəlxalq konfransda iştirak etmiş, Baş Prokurorluqda, Ali Məhkəmədə, Məhkəmə-Hüquq Şurasında, Hakimlərin Seçki Komitəsində və Bakı Dövlət Universitetində görüşlər keçirmişlər.

Dekabrın 15-də nümayəndə heyəti ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov ilə görüşmüşdür.

Dövlətlərimiz arasında strateji tərəfdaşlıq və sıx dostluq münasibətlərini qeyd edən nazir zəngin müqavilə-hüquq bazasına söykənən hüquqi əlaqələrin yüksək səviyyədə olduğunu bildirmiş, ədliyyə nazirlərinin müntəzəm, o cümlədən ötən aylarda qarşılıqlı səfərlərini, ədliyyənin müxtəlif sahələri üzrə hər iki ölkədə birgə tədbirlərin həyata keçirildiyini vurğulamışdır.

Respublikamızda dövlət başçısının siyasi iradəsi və bilavasitə rəhbərliyi ilə aparılan hüquqi islahatlar, o cümlədən ədliyyə və məhkəmə sisteminin inkişafı, yeni məhkəmə infrastrukturunun yaradılması, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, hakimlərin tədrisi üzrə işlər qeyd olunaraq, bu tədbirlərdə türkiyəli mütəxəssislərin iştirakı, qardaş ölkənin dəstəyi ilə 80 nəfər hakimliyə namizədin Ankara və İstanbulda iki həftəlik nəzəri və praktiki təlimlər keçdiyi təqdir edilmişdir.

Təməli bütün türk dünyasının lideri Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatlarının ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini vurğulayan qonaq bu islahatların Azərbaycanın müasir dünyaya inteqrasiyasına təkan verəcəyinə inamını ifadə etmiş, Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) tərəfindən Avropa dövlətləri üçün örnək kimi dəyərləndirilən

Azərbaycanın hakimlərin seçim proseduru ilə bağlı müsbət təcrübəsinin ölkəsində tətbiq edəcəyinə dair niyyətini bildirmişdir. H.Yıldırım Türkiyə Ədliyyə Akademiyasının fəaliyyəti barədə məlumat verərək, azərbaycanlı hakimlərin və digər hüquqşünasların rəhbərlik etdiyi qurumda tədris keçmələri üçün hər zaman hazır olduğunu söyləmiş, konkret təkliflər irəli sürmüşdür.

Görüş zamanı Azərbaycan və Türkiyə Ədliyyə akademiyaları arasında əməkdaşlığa dair İşçi Proqram imzalanmışdır. Həmin Proqram çərçivəsində hüquq sahəsində elmi və təcrübi mübadilənin aparılması, hakimlərin, hakimliyə namizədlərin, prokurorluq, ədliyyə və məhkəmə aparatı işçilərinin təhsilinin qarşılıqlı dəstəklənməsi və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Hər iki tərəf bu mühüm sənədin uğurla icra olunacağına və qarşılıqlı fəaliyyətə əlavə dəyərli töhfələr verəcəyinə əminliyini ifadə etmişdir.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

15/12/2011

MÜNDƏRİCAT

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA 3
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN NEFT NAZİRİ SEYİD MƏSUD MİRKAZİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 3
HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ 4
AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM KVENTİN BRAYSA 4
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ SVEN ALKALAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 4
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV EURONEWS TELEKANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİ PYER LUİCİ MALEZANİNİ VƏ TELEKANALIN BAŞ İCRAÇI DİREKTORU FİLİP KAYLANI QƏBUL ETMİŞDİR 5
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN TƏKBƏTƏK GÖRÜŞÜ 5
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 6
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN MƏTBUAT KONFRANSI 6
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 6
AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN BƏYANATI 8
HÖRMƏTLİ QONAĞIN ŞƏRƏFİNƏ 11
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZERİ QƏBUL ETMİŞDİR 12
PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2010-CU İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2011-Cİ İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI KEÇİRİLMİŞDİR 12
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ 12
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ 27
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYAYA RƏSMİ SƏFƏRİ 35
RİQANIN HAVA LİMANINDA QARŞILANMA 35
RƏSMİ QARŞILANMA MƏRASİMİ 35
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 36
BİRGƏ MƏTBUAT KONFRANSI 36
LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN BƏYANATI 36
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 36
AZƏRBAYCAN-LATVİYA SƏNƏDLƏRİNİN İMZALANMASI 40
"AZADLIQ" ABİDƏSİNİ ZİYARƏT 40
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN TƏKBƏTƏK GÖRÜŞÜ 41
BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DİLMA ROUSSEFFƏ 41

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 42
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYA SEYMİNİN SƏDRİ XANIM SOLVİTA ABOLTİNA İLƏ GÖRÜŞÜ 42
AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU 43
LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN ÇIXIŞI 43
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 45
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ 49
LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN ÇIXIŞI 49
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 50
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYANIN BAŞ NAZİRİ VALDİS DOMBROVSKİS İLƏ GÖRÜŞÜ 52
ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ 52
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR 53
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI NECDET ÖZƏLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 53
PREZİDENT İLHAM ƏLİYEV İSVEÇRƏNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 53
PREZİDENT İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 54
QANLI YANVAR FACİƏSİNİN 21-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ÜMUMXALQ ZİYARƏTİ 55
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞININ ÖLKƏMİZDƏKİ SƏFİRİ FİLİP JOTTARDI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 56
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ RƏŞİD CAVANŞİRİ QƏBUL ETMİŞDİR 57
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 57
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ TANER YILDIZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 58
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 59
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 59
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ 59
PREZİDENT İLHAM ƏLİYEV İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR 59
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "SK GROUP" ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ ÇEY TAE-VON İLƏ GÖRÜŞÜ 60
PREZİDENT İLHAM ƏLİYEVİN "STATOİL ASA" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞÜ 60

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "HUAWEİ TECHNOLOGİES" KORPORASİYASININ SƏDRİ XANIM SUN YAFANQ İLƏ GÖRÜŞÜ 61
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "TELİASONERA EURASİA" ŞİRKƏTİNİN PREZİDENTİ TERO KİVİSAARİ İLƏ GÖRÜŞÜ 61
PREZİDENT İLHAM ƏLİYEVİN "EDİSON" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU UMBERTO KUADRİNO İLƏ GÖRÜŞÜ 61
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYANIN "LUKOİL" ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞÜ 61
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ REYİN GÖRÜŞÜ 62
PREZİDENT İLHAM ƏLİYEV AVSTRİYA-İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ BİRGƏ NAHAR MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 62
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 63
PREZİDENT İLHAM ƏLİYEVİN TOTAL ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU KRİSTOF DE MARJERİ İLƏ GÖRÜŞÜ 65
PREZİDENT İLHAM ƏLİYEVİN BP ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ VƏ QEYRİ-İCRAÇI DİREKTORU KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞÜ 65
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "MİCROSOFT" KORPORASİYASININ VİTSE-PREZİDENTİ VƏ "MİCROSOFT İNTERNATİONAL" ŞİRKƏTİNİN PREZİDENTİ JAN-FİLİP KURTUA İLƏ GÖRÜŞÜ 65
PREZİDENT İLHAM ƏLİYEVİN AVSTRİYANIN AVROPA VƏ BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ NAZİRİ MİXAEL ŞPİNDELEQQER İLƏ GÖRÜŞÜ 66
DAVOS İQTİSADİ FORUMU İŞİNİ DAVAM ETDİRİR 66
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN GÖRÜŞÜ 66
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYANIN YORK HERSOQU, ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞÜ 67
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN GÖRÜŞÜ 67
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RWE ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSMAN İLƏ GÖRÜŞÜ 68
PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA 69
PREZİDENT İLHAM ƏLİYEV "AVROPANIN ENERJİ GƏLƏCƏYİ" MÖVZUSUNDA SESSİYADA İŞTİRAK ETMİŞDİR 69
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MİLLİ İSTİHBARAT TƏŞKİLATININ RƏHBƏRİ HAKAN FİDANI QƏBUL ETMİŞDİR 70
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 70
İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA 71
SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS TADİÇ 71
LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ 72
ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ 72

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA 72
KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA 73
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 73
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN NƏQLİYYAT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ TYERİ MARİANİNİ QƏBUL ETMİŞDİR 74
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KONKİSÜRMƏ İTTİFAQININ PREZİDENTİ OTTAVİO ÇİNQVANTONU QƏBUL ETMİŞDİR 74
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "MİR" DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNƏ MÜSAHİBƏSİ 74
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİR" DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNƏ MÜSAHİBƏ VERMİŞDİR 82
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KUBANIN XARİCİ İŞLƏR NAZİRİ BRUNO EDUARDO RODRİQES PARRİLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 82
PREZİDENT İLHAM ƏLİYEV GÜRCÜSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 83
PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 83
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN İNFORMASİYA TEXNOLOGİYALARI VƏ KOMMUNİKASİYA NAZİRİ REZA TAĞIPUR ƏNVƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 84
ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ 84
YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON KİYƏ 85
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ HAMAD KALKABA MALBOUMU QƏBUL ETMİŞDİR 85
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 85
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİNİ QƏBUL ETMİŞDİR 86
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİ QƏBUL ETMİŞDİR 86
TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ 86
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN "NİRO İNVESTMENT GROUP" ŞİRKƏTİNİN RƏHBƏRİ NİKOLAE DUMİTRUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 87
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XORVATİYA ALİ MƏHKƏMƏSİNİN SƏDRİ BRANKO HRVATİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 87
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUSTAM MİNNİXANOVU QƏBUL ETMİŞDİR 88

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVENİYANIN MÜDAFİƏ NAZİRİ XANIM LYUBİTSA YELUŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 88
İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MERİ MAKALİSƏ 89
PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ 89
BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA 89
YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA 90
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 90
SOÇİNİN "ADLER" BEYNƏLXALQ AEROPRTUNDA QARŞILANMA 90
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ 91
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİ SOÇİDƏ DAĞ XİZƏKSÜRMƏ MƏRKƏZİNDƏ OLMUŞLAR 91
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ OLMUŞDUR 91
SƏFƏR BAŞA ÇATDI 91
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİ BİRGƏ BƏYANAT QƏBUL ETMİŞLƏR 92
AZƏRBAYCAN RESPUBLİKASININ, ERMƏNİSTAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANATI 92
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ JOZE PERURENANI QƏBUL ETMİŞDİR 93
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALBANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ EDMOND HACİNASTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 93
PREZİDENT İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 94
PREZİDENT İLHAM ƏLİYEV QVATEMALANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 94
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PARAQVAYIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 95
PREZİDENT İLHAM ƏLİYEV SLOVENİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 95
PREZİDENT İLHAM ƏLİYEV TAİLANDIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 96
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ARGENTİNANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 97
PREZİDENT İLHAM ƏLİYEV SUDANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 97
PREZİDENT İLHAM ƏLİYEV AVSTRALİYA İTTİFAQININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YAN DEVVİD QREYNQ BİQOSUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 98

PREZİDENT İLHAM ƏLİYEV İSPANİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KRİSTOBAL QONSALES-ALLER XURADONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 98
YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA 99
İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM MİŞELİN KALMİ-REYİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 99
RƏSMİ QARŞILANMA MƏRASİMİ 99
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ-REYİN TƏKBƏTƏK GÖRÜŞÜ 100
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 100
AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 101
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 101
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 102
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 102
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRAKEŞİN ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏD NƏSİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 103
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 103
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN MÜDAFİƏ NAZİRİ MİXAİL YEJELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 103
BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA 104
QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ 104
DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ 105
SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ 105
ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ 106
İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ 106
YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ RƏSMİ QARŞILANMA MƏRASİMİ 106
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN TƏKBƏTƏK GÖRÜŞÜ 107
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 107
AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 108
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 108
YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN BƏYANATI 110
AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 111

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 111
YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYASIN BƏYANATI 112
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 113
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 116
YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 117
IV AZƏRBAYCAN-YUNANISTAN BİZNES FORUMU 117
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ SABİQ BAŞ KATİBİ, DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ VALTER ŞVİMMERİ QƏBUL ETMİŞDİR 120
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 121
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KRANS MONTANA FORUMUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ JAN POL KARTERONU QƏBUL ETMİŞDİR 121
BAKIDA ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU ÖZ İŞİNƏ BAŞLAMIŞDIR 122
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FORUMUN AÇILIŞ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 122
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 122
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN VƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN YÜKSƏK SƏVİYYƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 132
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLUNU QƏBUL ETMİŞDİR 132
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR 133
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÜMUMRUSİYA DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ YAYIM ŞİRKƏTİNİN "ROSSİYA-24" - RUSİYA İNFORMASİYA TELEKANALINA MÜSAHİBƏSİ 133
ON DÖRDÜNCÜ AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA 138
BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA 139
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYANIN SƏNAYE VƏ TİCARƏT NAZİRİ, AZƏRBAYCAN-İORDANİYA HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN HƏMSƏDRİ HANİ ƏL-MULKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 140
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 140
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SENATININ FRANSA-QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 140
NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ 141
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRATFOR ÖZƏL ELMİ KORPORASİYASININ YARADICISI, İCRAÇI DİREKTORU VƏ BAŞ ANALİTİKİ GEORGE FRİDMANI QƏBUL ETMİŞDİR 141

PREZİDENT İLHAM ƏLİYEV LATVİYA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ XANIM LİNDA MURNİESENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB 142
RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 143
DÖVLƏT BAŞÇILARININ TƏKBƏTƏK GÖRÜŞÜ 143
AZƏRBAYCAN-RUMİNİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 143
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI 144
AZƏRBAYCAN VƏ RUMİNİYA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 145
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 145
RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI 146
ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ 147
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 148
POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 151
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI ERDAL CEYLANOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 151
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN KEÇMİŞ BAŞ NAZİRİ, "VAE CONTROLS" ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ MİREK TOPOLANEKİ QƏBUL ETMİŞDİR 152
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN DAXİLİ İŞLƏR NAZİRİ RAYMUNDAS PALAYTİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 152
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ ANDREY KLYUYEVİ QƏBUL ETMİŞDİR 152
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVRONEST ASSAMBLEYASININ PREZİDENTİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ KRİSTİAN VİGENİNİ QƏBUL ETMİŞDİR 153
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ ATÇILIQ FEDERASİYASININ PREZİDENTİ ÜLYAHƏZRƏTLƏRİ HAYA BİNT ƏL HÜSEYNİ QƏBUL ETMİŞDİR 153
BAKIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ATÇILIQ TURNİRİ BAŞA ÇATMIŞDIR 154
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR 155
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ, ÜMUM- HƏMKARLAR İTTİFAQLARI BEYNƏLXALQ KONFEDERASİYASININ PREZİDENTİ MİXAİL ŞMAKOVU QƏBUL ETMİŞDİR 156
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MƏHƏMMƏD MEHDİ AXUNDZADƏNİ QƏBUL ETMİŞDİR 156

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİNİ QƏBUL ETMİŞDİR 157
UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ... 157
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 158
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNDƏ AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 158
AZƏRBAYCAN-UKRAYNA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 158
AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ ÜÇÜNCÜ İCLASI 159
AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI .. 160
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 160
UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN BƏYANATI 161
ALİ QONAĞIN ŞƏRƏFİN 165
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 165
UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN NİTQİ 167
AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA 169
MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ 169
BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ 170
RƏSMİ QARŞILANMA MƏRASİMİ 170
AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 170
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ DALYA QRİBAUSKAYTENİN TƏKBƏTƏK GÖRÜŞÜ 173
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 174
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 175
NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA 175
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİNİN SƏDRİ VADİM ZAYTSEVİ QƏBUL ETMİŞDİR 175
BƏHREYNİN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA AL XƏLİFƏYƏ 175
KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏL-SABAHA 176
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 176
İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLAH İBN AL HÜSEYNƏ 176
ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ 177
GÜRCÜSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ 177
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR 178

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA MİLLİ ASSAMBLEYASI MÜDAFİƏ KOMİSSİYASININ SƏDR MÜAVİNİ MİŞEL VUAZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 178
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN KİV AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 179
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASININ SƏDRİ PETROS EFTİMİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 179
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANİ GENERAL DUNKAN MAK NABBIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 179
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 179
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ BAÇANA AXALAYANİ QƏBUL ETMİŞDİR 180
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN REGİONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRİ RAMAZ NİKOLAŞVİLİLİNİ QƏBUL ETMİŞDİR 180
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA KEÇİRİLMİŞ QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ HESABAT KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 180
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 186
ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 186
RƏSMİ QARŞILANMA MƏRASİMİ 186
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN TƏKBƏTƏK GÖRÜŞÜ 187
AZƏRBAYCAN-ÇEXİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 187
AZƏRBAYCAN VƏ ÇEXİYA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 187
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 188
ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN BƏYANATI 189
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI 190
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 191
BAKIDA AZƏRBAYCAN-ÇEXİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 191
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 196
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 197
ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUSUN NİTQİ 198
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 199
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSSİ QƏBUL ETMİŞDİR 199
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERREŞİ QƏBUL ETMİŞDİR 200
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 200

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEKİ QƏBUL ETMİŞDİR 200
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MOHAMMAD REZA RAUF ŞEYBANİNİ QƏBUL ETMİŞDİR 201
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN YUNESKO-DAKI DAİMİ NÜMAYƏNDƏSİ, ŞAİR, YAZIÇI OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR 201
İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA 202
İSVEÇİN KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA 202
PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA 203
FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA 203
BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ 203
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 204
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU ƏSƏD ALAMI QƏBUL ETMİŞDİR 204
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 205
PREZİDENT İLHAM ƏLİYEV SERBİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 205
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRİTANİYA-AZƏRBAYCAN PARLAMENT QRUPUNUN SƏDRİ MARK FİELDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 206
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 206
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 207
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 207
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ 208
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ QARDAŞIM İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ 208
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 208
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 209
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 209
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 210
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 210

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 210
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 210
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 211
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 211
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 211
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 212
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 212
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 212
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ 212
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 213
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 214
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 214
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 214
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 215
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 215
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 216
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ, QARDAŞIM İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ 216
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ, RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ ALEKSANDR JUKOVU QƏBUL ETMİŞDİR 216
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 217
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 217
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 217
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 218

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 218
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 218
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 219
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 219
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 220
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 220
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 221
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 221
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 221
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 222
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 222
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 222
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 223
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 223
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 223
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 224
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 224
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV 225
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 225
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 226
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 226
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN QURU QOŞUNLARI TƏLİM VƏ DOKTRİNA KOMANDANI SALDIRAY BERKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 226

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 227
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 227
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 227
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 228
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 228
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 228
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 229
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ 229
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 230
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 230
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 230
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 231
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 231
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 232
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 232
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 232
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 233
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 233
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 233
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 234
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 234
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 234
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 235

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 235
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 236
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 236
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 236
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 237
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 237
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV 238
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR 238
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 239
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 239
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 239
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 240
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA SƏFƏRİ 240
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİNİN VƏZİFƏSİNİ İCRA EDƏN MARİAN LUPUNUN GÖRÜŞÜ 240
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN "EDİSON" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BRUNO LESKÖRÜ QƏBUL ETMİŞDİR 241
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TECHNİP-İTALY (TEKNİP İTALİYA) ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MARKO VİLLANI QƏBUL ETMİŞDİR 241
BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ (FİFA) PREZİDENTİ CƏNAB YOZEF BLATTERƏ 241
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN BİRLƏŞMƏSİNİN 150 İLLİYİNƏ VƏ RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ BAYRAM MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 242
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA PREZİDENTİ CİORCİO NAPOLİTANONUN ADINDAN VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK ETMİŞDİR 242
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİFA-NIN PREZİDENTİ YOZEF BLATTERİ VƏ UEFA PREZİDENTİ MİŞEL PLATİNİNİ QƏBUL ETMİŞDİR 243
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 243
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 243

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA XARİCİ SİYASƏT XİDMƏTİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ İDARƏEDİCİ DİREKTORU MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 244
NORVEÇ KRALLIĞI VƏLİƏHDİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR 244
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ KRALLIĞININ VƏLİƏHDİ HOOKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 244
BAKIDA XVIII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFT EMALI, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR 245
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 245
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 251
LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ 252
XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ 252
SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TÜRKƏ 252
LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ 253
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 253
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 254
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 254
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 255
XVIII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 257
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SERBİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 261
BELQRADIN "NİKOLA TESLA" HAVA LİMANINDA QARŞILANMA 261
RƏSMİ QARŞILANMA MƏRASİMİ 262
AZƏRBAYCAN-SERBİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 262
AZƏRBAYCAN VƏ SERBİYA PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 263
SERBİYA PREZİDENTİ BORİS TADİÇİN BƏYANATI 263
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 265
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SERBİYA PREZİDENTİ BORİS TADİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 268
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 268
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SERBİYA MİLLİ ASSAMBLEYASININ SƏDRİ SLAVİTSA DJUKİÇ-DEYANOVİÇ İLƏ GÖRÜŞÜ 268

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELQRADDA TAŞMAYDAN PARKININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 269
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 269
SERBİYA PREZİDENTİ BORİS TADİÇİN ÇIXIŞI 270
PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN SERBİYADAKI SƏFİRLİYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR 272
SERBİYANIN BAŞ NAZİRİ MİRKO TSVETKOVİÇİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ İŞÇİ NAHAR VERİLMİŞDİR 274
SERBİYANIN NOVİ SAD ŞƏHƏRİNDƏ ÜZEYİR HACIBƏYLİNİN BÜSTÜ AÇILMIŞDIR .. 274
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYA PREZİDENTİ BORİS TADİÇ İLƏ İŞÇİ NAHAR ETMİŞDİR 274
SƏFƏR BAŞA ÇATDI 274
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 275
"JOZE PUÇNİK" HAVA LİMANINDA QARŞILANMA 275
RƏSMİ QARŞILANMA MƏRASİMİ 275
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN TƏKBƏTƏK GÖRÜŞÜ 275
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 276
AZƏRBAYCAN-SLOVENİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 276
AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI . 276
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYA MİLLİ ASSAMBLEYASININ PREZİDENTİ PAVEL QANTAR İLƏ GÖRÜŞÜ 276
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LYUBLYANA ŞƏHƏR MERİYASINDA OLMUŞDUR 277
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 278
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYANIN BAŞ NAZİRİ BORUT PAHOR İLƏ GÖRÜŞÜ 278
AZƏRBAYCAN-SLOVENİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 279
SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN ÇIXIŞI 279
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 280
PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ DANİLO TÜRK BİRGƏ NAHAR ETMİŞLƏR 283
SƏFƏR BAŞA ÇATDI 283
SLOVENİYANIN NOVO QORİTSA ŞƏHƏRİNDƏ SOVET İTTİFAQI QƏHRƏMANI MEHDİ HÜSEYNZADƏNİN MEMORİAL MUZEYİ AÇILMIŞDIR 283
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 284
TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA 284
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMAT 285
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 285
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 285

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR 286
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ 286
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZUNUN BİRGƏ MƏTBUAT KONFRANSI 286
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ İŞÇİ NAHARI OLMUŞDUR 286
BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA 286
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ GÖRÜŞÜ 287
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEYİN GÖRÜŞÜ 287
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLENİN GÖRÜŞÜ 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEKİN BİRGƏ MƏTBUAT KONFRANSI 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "EURONEWS" TELEKANALINA MÜSAHİBƏSİ 288
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞANIN GÖRÜŞÜ 291
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA BAŞ NAZİRİNİN MÜAVİNİ, MALİYYƏ NAZİRİ DİDİER REYNDERS İLƏ GÖRÜŞÜ 291
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSA PREZİDENTİNİN TERRORİZMLƏ MÜBARİZƏ ÜZRƏ XÜSUSİ VƏ ŞƏXSİ MÜŞAVİRİ JAN-LUİ BRUQUYE İLƏ GÖRÜŞÜ 292
SƏFƏR BAŞA ÇATDI 292
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ 292
BRÜSSELDƏ KRANS MONTANA FORUMUNUN RƏSMİ AÇILIŞI OLMUŞDUR 292
PREZİDENT İLHAM ƏLİYEV FORUMDA İŞTİRAK ETMİŞDİR 292
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN OMV VƏ RWE ŞİRKƏTLƏRİNİN İDARƏ HEYƏTLƏRİNİN SƏDRLƏRİ GERHARD ROİSSİ VƏ YURGEN QROSMAN İLƏ GÖRÜŞÜ 293
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN KRANS MONTANA FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ İŞÇİ NAHAR VERİLMİŞDİR 293
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ TATARISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR 293
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 293
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ "KAZAN VERTOLYOT ZAVODU" ASC İLƏ TANIŞLIQ 294

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ OLMUŞDUR ... 294
PREZİDENT İLHAM ƏLİYEV 2013-CÜ İLDƏ KAZANDA KEÇİRİLƏCƏK XXVII UNİVERSİADANIN KƏNDİ İLƏ TANIŞ OLMUŞDUR ... 294
KAZANIN "İT-PARK" - YÜKSƏK TEXNOLOGİYALAR PARKI İLƏ TANIŞLIQ ... 295
KAZANDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ OLMUŞDUR ... 295
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ NAHARI ... 296
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ OLMUŞDUR ... 296
AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANAT QƏBUL ETMİŞLƏR ... 296
SƏFƏR BAŞA ÇATDI ... 297
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLANIN "İNTER" FUTBOL KLUBUNUN PREZİDENTİ VƏ SAHİBİ MASSİMO MORATTİNİ QƏBUL ETMİŞDİ ... 297
KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CONSTONA ... 297
BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA ... 297
AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA ... 298
MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA ... 299
MONTENEQRONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇ ... 299
FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ ... 299
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN DAXİLİ İŞLƏR NAZİRİ RAŞİD NURQALİYEVİ QƏBUL ETMİŞDİR ... 300
PREZİDENT İLHAM ƏLİYEV PAKİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ ƏBDUL HƏMİDİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR ... 300
FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 301
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FƏLƏSTİN PREZİDENTİ MAHMUD ABBASIN TƏKBƏTƏK GÖRÜŞÜ ... 301
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI ... 301
AZƏRBAYCAN VƏ FƏLƏSTİN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR ... 302
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 302
FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN BƏYANATI ... 304
ALİ QONAĞIN ŞƏRƏFİNƏ ... 305
FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ... 305
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ ... 305
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ ƏLİ LARİCANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 306

BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU XANIM KRİSTİN LAQARDA ... 307
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZ RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ AXMATBEK KELDİBEKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 308
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVA RESPUBLİKASI QAQAUZ YERİNİN BAŞQANI MİXAİL FORMUZALI QƏBUL ETMİŞDİR ... 308
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN BAŞ NAZİRİ ANDRİUS KUBİLİUSU QƏBUL ETMİŞDİR ... 309
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAYI QƏBUL ETMİŞDİR ... 309
DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYI ... 309
MÜASİR, MÜSTƏQİL AZƏRBAYCAN BÜTÜN AZƏRBAYCANLILARIN VƏTƏNİDİR ... 316
PREZİDENT İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ AZƏRBAYCANDAKI SƏFİRİ XANIM KAROLİN BRAUNU ÖLKƏMİZDƏ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR ... 324
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINA ÜZV OLAN BİR SIRA DÖVLƏTLƏRİN BU TƏŞKİLATDAKI DAİMİ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR ... 325
BELÇİKANIN KRALI ƏLAHƏZRƏT II ALBERTƏ ... 326
MİSİR ƏRƏB RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ ALİ ŞURASININ SƏDRİ FELDMARŞAL MƏHƏMMƏD HÜSEYN TANTAVİYƏ ... 326
MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ ... 327
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN BAŞ NAZİRİ MİXAİL MYASNİKOVİÇİ QƏBUL ETMİŞDİR ... 327
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO-NUN BAŞ KATİBİNİN MÜAVİNİ QABAR İKLODİNİ QƏBUL ETMİŞDİR ... 328
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİNİ QƏBUL ETMİŞDİR ... 328
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVU QƏBUL ETMİŞDİR ... 328
TÜRKMƏNİSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDİMƏHƏMMƏDOVA ... 329
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ ... 329
UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ ... 329
ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ ... 330
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP-AZƏRBAYCAN" ŞİRKƏTİNİN RƏHBƏRİ RƏŞİD CAVANŞİRİ QƏBUL ETMİŞDİR ... 330
PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLYANTA MOYSES UMALA TASSOYA ... 330
MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ ... 331

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 331
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASININ PREZİDENTİ TOMAŞ AYANI QƏBUL ETMİŞDİR 331
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN KOMMERSİYA NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN-ÇİN HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ CONQ ŞANI QƏBUL ETMİŞDİR 332
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 332
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 333
PREZİDENT İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 334
ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA 336
NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA 337
POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 337
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 338
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI 338
AZƏRBAYCAN-POLŞA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 339
AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİ BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR 339
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 339
POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN BƏYANATI 341
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR 345
İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MİŞELİN KALMİ-REYƏ 345
MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GYORGE İVANOVA 346
AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA 346
SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMANATANA 347
İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA 347
ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ 348
POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 348
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 348

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN ÇIXIŞI 351
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 353
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 354
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİ QƏBUL ETMİŞDİR 356
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 357
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ 357
MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ 357
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 358
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BİRGƏ MƏTBUAT KONFRANSI 359
PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI 359
BAŞ NAZİR RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 361
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 363
UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ 366
VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA 367
UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ 367
MOLDOVA RESPUBLİKASI PREZİDENTİNİN VƏZİFƏSİNİ MÜVƏQQƏTİ İCRA EDƏN ZATİ-ALİLƏRİ CƏNAB MARİAN LUPUYA 368
MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA 368
QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ROZA OTUNBAYEVAYA 368
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 369
SOÇİNİN BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA 369
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ 369
SƏFƏR BAŞA ÇATDI 371
PREZİDENT İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR 371
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DOMİNİKA BİRLİYİNİN BAŞ NAZİRİ RUZVELT SKERRİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 375
ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA 375
VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA 376
BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DİLMA ROUSSEFFƏ 376

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA 377
KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ 377
SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ XANIM MARİYA LUİZA BERTİ VƏ CƏNAB FİLİPPO TAMANİNİYƏ 377
BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA 378
MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA 378
NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QUDLAK CONATANA 379
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAKI OFİSİNİN YENİ RƏHBƏRİ KORAY TARQAYI QƏBUL ETMİŞDİR 379
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 379
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇİ QƏBUL ETMİŞDİR 380
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN ÖLKƏMİZDƏKİ NUNSİSİNİ FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 380
ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ 380
SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KEN YAMA 381
YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YOŞİHİKO NODAYA 381
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA 382
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN KOMİTƏ SƏDRİ KRİSTOS PİRQURİDESİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 382
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ VİTSE-PREZİDENTİ, MALİYYƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ XANIM EVELİN VİDMER-ŞLUMPFİ QƏBUL ETMİŞDİR 382
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 383
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 383
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 384
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 384
MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA 385
MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA 385

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AMADU TUMANİ TUREYƏ 386
İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA 386
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA 387
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 387
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOVU QƏBUL ETMİŞDİR 387
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ MAYKL BORRELLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 388
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XƏZƏRİN "ABŞERON" BLOKUNDA YENİ BÖYÜK QAZ YATAĞININ KƏŞFİ MÜNASİBƏTİLƏ MƏTBUATA AÇIQLAMASI 388
BAKIDA DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA REGİONAL KOMİTƏSİNİN 61-Cİ SESSİYASI ÖZ İŞİNƏ BAŞLAMIŞDIR 390
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SESSİYANIN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 390
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 391
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN NƏQLİYYAT ÜZRƏ DÖVLƏT KATİBİ TİERRİ MARİANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 397
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞERİ QƏBUL ETMİŞDİR 397
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU XANIM MARQARET ÇANİ QƏBUL ETMİŞDİR 397
PREZİDENT İLHAM ƏLİYEV MONTENEQRONUN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ RAMO BRALİÇİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 398
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 398
MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 399
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 399
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI 399
AZƏRBAYCAN-MONTENEQRO SƏNƏDLƏRİ İMZALANMIŞDIR 400
AZƏRBAYCAN VƏ MONTENEQRO PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 401
MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN BƏYANATI 402
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 403
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 404
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DEMOKRAT QRUPUNUN SƏDRİ ROBERT VOLTERİ QƏBUL ETMİŞDİR 405

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTANIN İQTİSADİYYAT, ENERGETİKA VƏ TURİZM NAZİRİ TRAYÇO TRAYKOVU QƏBUL ETMİŞDİR 406
ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ 406
ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA 406
KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA 407
ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA 407
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN SABİQ PREZİDENTİ ARNOLD RUUTELİ QƏBUL ETMİŞDİR 408
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VUNU VƏ BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 408
BAKIDA BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 409
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN KALİFORNİYA SENATININ ƏTRAF MÜHİTİN KEYFİYYƏTİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ SENATOR COZEF SİMİTİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 412
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOBEL MÜKAFATÇILARI ERİK MASKİNİ, FİNN ERLİNQ KİDLANDI VƏ KRİSTOFER ANTONİU PİSSARİDESİ QƏBUL ETMİŞDİR 412
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALLIĞININ ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 413
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ 413
VARŞAVANIN "ŞOPEN" BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA 413
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ 413
MOLDOVANIN BAŞ NAZİRİ VLADİMİR FİLAT İLƏ GÖRÜŞ 413
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ 414
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 414
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ KETRİN EŞTON İLƏ GÖRÜŞÜ 414
VARŞAVADA AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" SAMMİTİNDƏ İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ ÜÇÜN İŞÇİ ŞAM YEMƏYİ VERİLMİŞDİR 415
PREZİDENT İLHAM ƏLİYEV İŞÇİ ŞAM YEMƏYİNDƏ İŞTİRAK ETMİŞDİR 415
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA İŞGÜZAR SƏFƏRİ 415
PREZİDENT İLHAM ƏLİYEV VARŞAVADA AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR 415
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MALTANIN BAŞ NAZİRİ LOURENS QONZİ İLƏ GÖRÜŞÜ 416

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ RESPUBLİKASININ AİLƏ VƏ SOSİAL SİYASƏT NAZİRİ XANIM FATİMA ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 416
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İSLAMİ İRŞAD NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYNİ QƏBUL ETMİŞDİR 416
İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA 417
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, RUSİYA PREZİDENTİNİN ŞİMALİ QAFQAZ FEDERAL DAİRƏSİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ ALEKSANDR XLOPONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 417
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNTERPOLUN BAŞ KATİBİ RONALD NOBLU QƏBUL ETMİŞDİR 418
SƏNAYEÇİLƏR VƏ SAHİBKARLAR BEYNƏLXALQ KONQRESİNİN İŞGÜZAR KONFRANSININ İŞTİRAKÇILARINA 418
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARI KONFRANSININ 14-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 419
FRANSA RESPUBLİKASININ PREZİDENTİ NİKOLA SARKOZİNİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 420
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 421
DÖVLƏT BAŞÇILARININ BİRGƏ İŞÇİ LANÇI 421
AZƏRBAYCANIN BİRİNCİ XANIMININ FRANSA RESPUBLİKASININ "ŞƏRƏF LEGİONUNUN ZABİTİ" DÖVLƏT ORDENİ İLƏ TƏLTİF OLUNMASI MƏRASİMİ 421
TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA 423
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 423
BAKIDA FRANSIZ LİSEYİNİN TƏMƏLQOYMA MƏRASİMİ OLMUŞDUR 423
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 427
BAKIDA KEÇİRİLƏN BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATI BAŞA ÇATMIŞDIR 427
BAKIDA "XXI ƏSR: ÜMİDLƏR VƏ ÇAĞIRIŞLAR" DEVİZİ İLƏ BEYNƏLXALQ HUMANİTAR FORUM ÖZ İŞİNƏ BAŞLAMIŞDIR 428
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 429
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 439
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİ QƏBUL ETMİŞDİR 439
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN KEÇMİŞ PREZİDENTİ RUDOLF ŞUSTERİ QƏBUL ETMİŞDİR 440
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLUNU QƏBUL ETMİŞDİR 440
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, UNESCO-NUN VƏ İSESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA UNESCO-NUN KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞMÜŞLƏR 440

BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT VERİLMİŞDİR 441
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏL-CƏZİRƏ TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR 442
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN KALİFORNİYA TEXNOLOGİYA İNSTİTUTUNUN FİZİKİ BİOLOGİYA MƏRKƏZİNİN DİREKTORU, KİMYA ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI, KİMYA VƏ FİZİKA ELMLƏRİ ÜZRƏ PROFESSOR ƏHMƏD ZEVAYLI QƏBUL ETMİŞDİR 442
AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNTS FİŞERİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 442
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ HAYNTS FİŞERİN TƏKBƏTƏK GÖRÜŞÜ ..443
AZƏRBAYCAN VƏ AVSTRİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 443
AZƏRBAYCAN-AVSTRİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ OLMUŞDUR..444
AZƏRBAYCAN VƏ AVSTRİYA PREZİDENTLƏRİ BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR..... 445
PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI 445
PREZİDENT HAYNTS FİŞERİN BƏYANATI..... 446
TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVLƏ GÖRÜŞMÜŞDÜR..... 450
BAKIDA DAHİ BƏSTƏKAR VOLFQANQ MOTSARTIN ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ OLMUŞDUR 451
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 453
PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ HAYNTS FİŞER AZƏRBAYCAN-AVSTRİYA BİZNES FORUMUNDA İŞTİRAK ETMİŞLƏR 454
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 459
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 460
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İSMET YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 461
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ ATLANTİK ŞURASININ PREZİDENTİ FREDERİK KEMPİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 462
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 462
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ, SENATOR XANIM ROSSANA BOLDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR .463
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DİYANƏT İŞLƏRİ BAŞQANI MEHMET GÖRMEZİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 463
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN "ƏL-CƏZİRƏ" TELEVİZİYA KANALINA MÜSAHİBƏSİ 464
NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA 472

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 472
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ 473
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ QARDAŞIM İLHAM HEYDƏR OĞLU ƏLİYEVƏ 473
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYANI VƏ BMT-NİN VYANA OFİSİNİN RƏHBƏRİ, NARKOTİK VƏ CİNAYƏTKARLIQ ÜZRƏ İDARƏSİNİN İCRAÇI DİREKTORU YURİ FEDOTOVU QƏBUL ETMİŞDİR 474
TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA 474
ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA 475
TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ..... 475
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 476
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 476
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 477
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV EKVADORUN XARİCİ İŞLƏR, TİCARƏT VƏ İNTEQRASİYA NAZİRİ RİKARDO ARMANDO PATİNYO AROKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 477
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 478
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ UİLYAM BÖRNSÜ QƏBUL ETMİŞDİR 478
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 478
TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA 479
TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ..... 479
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMÜŞDÜR 480
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMATIDA RƏSMİ QARŞILANMA MƏRASİMİ OLMUŞDUR..... 480
ALMATININ BEYNƏLXALQ HAVA LİMANINDA QARŞILANMA..... 480
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR VERİLMİŞDİR..... 481
AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR..... 481
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR..... 481
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ..... 482
AZƏRBAYCAN-QAZAXISTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR..... 483

ALMATIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ I ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR 483
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR 483
PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ 484
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR 488
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİNİ QƏBUL ETMİŞDİR 489
İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA 489
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 489
TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA 490
TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ . 490
AZƏRBAYCAN GƏNCLƏRİNİN VI FORUMUNUN İŞTİRAKÇILARINA 490
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN ƏTRAF MÜHİT, ENERJİ VƏ İQLİM DƏYİŞİKLİYİ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 491
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 492
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏYƏ SƏFƏRƏ YOLA DÜŞMÜŞDÜR 492
PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR 492
PREZİDENT İLHAM ƏLİYEV VƏ BAŞ NAZİR RƏCƏB TAYYİB ƏRDOĞAN BİRGƏ NAHAR ETMİŞLƏR 492
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İZMİR ŞƏHƏRİNDƏ "PETKİM" ŞİRKƏTİNİN "STAR" NEFT EMALI ZAVODUNUN, HEYDƏR ƏLİYEV ADINA PEŞƏ TƏHSİLİ LİSEYİNİN TƏMƏLQOYMA, AYPE-T ZAVODUNUN AÇILIŞ MƏRASİMLƏRİNDƏ İŞTİRAK ETMİŞDİR 492
İZMİRDƏ TÜRKİYƏ-AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ BİRİNCİ İCLASI OLMUŞDUR 495
AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİ İMZALANMIŞDIR 495
BİRGƏ MƏTBUAT KONFRANSI 497
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 497
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 498
SƏFƏR BAŞA ÇATDI 500
AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTS FİŞERƏ 500
TÜRKMƏNİSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDİMƏHƏMMƏDOVA 501
ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA . 501
ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA 502

PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCANIN BMT TƏHLÜKƏSİZLİK ŞURASINA ÜZV SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ BƏYANATI 502
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 503
ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ 504
PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ 504
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUSUN TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİNİ QƏBUL ETMİŞDİR 504
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 505
TÜRKDİLLİ ÖLKƏLƏRİN VƏ TOPLUMLARIN II MEDİA FORUMUNUN İŞTİRAKÇILARINA 505
XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR" BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNİN İŞTİRAKÇILARINA 506
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKIDA KEÇİRİLƏN XXXI İCLASINDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 507
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ NORVEÇLİ SƏYYAH VƏ ALİM TUR HEYERDALIN AİLƏ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 508
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOREYANIN SK ŞİRKƏTLƏR QRUPU SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 509
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ HESABLAMA PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 510
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 510
BOLQARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİYEVƏ 511
AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ ZATİ-ALİLƏRİ XANIM HİLLARİ KLİNTONA 511
PREZİDENT İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 511
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ARGENTİNANIN ELM, TEXNOLOGİYA VƏ PRODUKTİV İNNOVASİYA NAZİRİNİ QƏBUL ETMİŞDİR 512
LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL SÜLEYMANA 512
LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ 513
OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ 513
QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ 514

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜNXEN TƏHLÜKƏSİZLİK KONFRANSININ SƏDRİNİ QƏBUL ETMİŞDİR ... 514
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORUNU QƏBUL ETMİŞDİR ... 514
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ ... 515
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN "STATOİL" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORUNU QƏBUL ETMİŞDİR ... 515
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİNİ QƏBUL ETMİŞDİR ... 516
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ ... 516
BAKIDA AZƏRBAYCAN-MACARISTAN BİZNES FORUMU KEÇİRİLMİŞDİR ... 517
ALİ QONAĞIN ŞƏRƏFİNƏ ... 522
AZƏRBAYCAN VƏ MACARISTAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR ... 523
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 524
MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL ŞMİTTİN BƏYANATI ... 525
AZƏRBAYCAN-MACARISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ OLMUŞDUR ... 526
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR ... 527
TƏKBƏTƏK GÖRÜŞ ... 528
MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ PAL ŞMİTTİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ ... 528
RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 528
ALİ QONAĞIN ŞƏRƏFİNƏ ... 529
AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR ... 530
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 530
BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN BƏYANATI ... 532
ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ ... 535
AZƏRBAYCAN-BOLQARISTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR ... 537
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR ... 538
AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ ... 538
BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 539
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN İQTİSADİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR ... 539
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ ENERJİ, ƏTRAF MÜHİT, RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR ... 540
BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO KOMŞİÇƏ ... 540
MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ ... 541
ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ ... 541

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ, AVROPA İTTİFAQININ XARİCİ ƏLAQƏLƏR VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XANIM KETRİN EŞTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 541
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR ... 542
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR ... 542
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR ... 543
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EURONEWS" KANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİNİ VƏ İCRAEDİCİ ŞURANIN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR ... 543
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ, NƏQLİYYAT ÜZRƏ KOMİSSAR SİİM KALLASI QƏBUL ETMİŞDİR ... 543
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PARLAMENTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 544
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI REY MABUSU QƏBUL ETMİŞDİR ... 544
RUMİNİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA ... 545
LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ ... 545
BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD AL MƏKTUMA ... 546
BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYED AL NƏHYANA ... 546
TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ ... 547
BURKİNA-FASONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BLEZ KOMPAOREYƏ ... 547
"BAKUTEL-2011" 17-Sİ AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA ... 547
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-YAPONİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ, İTOÇİ KORPORASİYASININ İCRAÇI VİTSE-PREZİDENTİ YOİÇİ KOBAYAŞİNİ QƏBUL EDİB ... 548
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİN ƏMƏKDAŞLIQ PROQRAMININ BAKIDA KEÇİRİLƏN X YUBİLEY NAZİRLƏR KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR ... 549
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN AVROPA İQTİSADİ KOMİSSİYASININ İCRAÇI BAŞ KATİBİ YAN KUBİŞİ QƏBUL ETMİŞDİR ... 552
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TELEKOMMUNİKASİYA TƏŞKİLATININ BAŞ KATİBİ HAMADUN TURENİ QƏBUL ETMİŞDİR ... 553
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ HARUHİKO KURADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 553

BAKIDA "BAKUTEL-2011" XVII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSI AÇILMIŞDIR 554
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏRGİ İLƏ TANIŞ OLMUŞDUR 554
ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİNİN III QURULTAYININ İŞTİRAKÇILARINA 557
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİ HÜSEYN DİRİÖZÜ QƏBUL ETMİŞDİR 558
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMRUSİYA DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ ŞİRKƏTİNİN "FORMULA VLASTİ" (HAKİMİYYƏT FORMULU) PROQRAMININ MÜƏLLİFİ VƏ APARICISI MİXAİL QUSMANA MÜSAHİBƏ VERMİŞDİR 558
QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ 559
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İZMİR VİLAYƏTİNİN VALİSİ MUSTAFA CAHİT KIRACIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 559
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TBİLİSİ ŞƏHƏRİNİN MERİ QİQİ UQULAVANI QƏBUL ETMİŞDİR 559
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 560
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BRAZİLİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 560
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN ŞƏHƏRİNİN MERİ SERGEY BOJENOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 561
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 561
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN "VTB" BANKININ PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİNİ QƏBUL ETMİŞDİR 562
PREZİDENT İLHAM ƏLİYEV VYETNAMIN AZƏRBAYCANDAKI SƏFİRİ FAM SUAN ŞONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 562
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DANİMARKANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ RUBEN MADSENİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 562
PREZİDENT İLHAM ƏLİYEV HƏBƏŞİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ MULATU TEŞOMENİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 563
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BANQLADEŞİN ÖLKƏMİZDƏKİ SƏFİRİ ZULFİQUR RƏHMANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 564
PREZİDENT İLHAM ƏLİYEV PORTUQALİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ XANIM LUİSA BASTOS DE ALMEİDANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 564
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏLCƏZAİRİN ÖLKƏMİZDƏKİ SƏFİRİ MOULOUD HAMAİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 565
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QANA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 565
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇ KRALLIĞININ ÖLKƏMİZDƏKİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 566

PREZİDENT İLHAM ƏLİYEV XORVATİYANIN AZƏRBAYCANDAKI SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 566
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 567
RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ, "YEDİNAYA ROSSİYA" PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ 567
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 568
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 568
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NƏSİMİ RAYONUNDAKI 96 NÖMRƏLİ UŞAQ BAĞÇASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞ OLMUŞDUR 569
QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ 569
QƏTƏR DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD AL TANİYƏ 570
QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ AL TANİYƏ 570
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MEKSİKA SENATININ ÜZVÜ KARLOS XİMENES MASİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 571
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI UİLYAM FREYZERİ QƏBUL ETMİŞDİR 571
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 572
İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM EVELİNE VİDMER-ŞLUMPFA 572
TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ 573
TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUNSEF ƏL-MƏRZUQİYƏ 573
MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA 573
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN SABİQ HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR 574
RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ 574
ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA 574
KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI ALİ XALQ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM YEN NAMA 575
KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA 575
SƏFƏR BAŞA ÇATDI 575
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK ETMİŞDİR 576
MOSKVANIN VNUKOVO-2 BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA 576
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 576

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTAN PREZİDENTİ ALMAZBEK ATAMBAYEVİN GÖRÜŞÜ 577
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ PREZİDENT İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK ETMİŞDİR 577
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ XANIMI MEHRİBAN ƏLİYEVA AVROPA PARLAMENTİNİN DEPUTATI, PARİSİN 7-Cİ RAYONUNUN MERİ XANIM RƏŞİDƏ DATİ İLƏ GÖRÜŞMÜŞLƏR 580
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA DÖVLƏT TELEVİZİYA KANALININ "VESTİ V SUBBOTU" VERİLİŞİNİN APARICISI SERGEY BRİLYOVA MÜSAHİBƏ VERMİŞDİR 580
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA XALQLARI PARTİYASININ PREZİDENTİ UİLFRİD MARTENSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 581
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MONTENEQRONUN SABİQ PREZİDENTİ VƏ BAŞ NAZİRİ, MONTENEQRO SOSİALİSTLƏRİNİN DEMOKRATİK PARTİYASININ SƏDRİ MİLO ÇUKANOVİÇİ QƏBUL ETMİŞDİR 581
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN SABİQ PREZİDENTİ, "ZATLERSİN İSLAHATLARI PARTİYASI"NIN SƏDRİ VALDİS ZATLERSİ QƏBUL ETMİŞDİR 582
MODERNLƏŞMƏ SİYASƏTİ: YENİ İQTİSADİ VƏ SOSİAL ÇAĞIRIŞLAR" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA 582
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 583
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 583
YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA 584
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV 584
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 585
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 585
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 586
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEV 586
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 587
"ROSSİYA" DÖVLƏT TELEKANALINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ HƏSR EDİLMİŞ "HAKİMİYYƏT FORMULU" PROQRAMI GÖSTƏRİLMİŞDİR 587
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 593
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 594
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 594
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 595

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 595
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 597
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 597
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 597
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 598
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ 598
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 599
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN XARİCİ İŞLƏR NAZİRİ HOŞYAR ZEBARİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 599
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 600
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 600
MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLDƏN 600
RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKODAN 601
MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VLADİMİR FİLATDAN 601
QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEVDƏN 602
LİTVA RESPUBLİKASININ PREZİDENTİ DALYA QRİBAUSKAYTEDƏN 602
BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKODAN 603
PREZİDENTİ VİKTOR YANUKOVİÇDƏN 603
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 604
FRANSA RESPUBLİKASININ PREZİDENTİ NİKOLA SARKOZİDƏN 604
RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ VLADİMİR PUTİNDƏN 605
RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVDƏN 605
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 606
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 606
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 606
PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 607
TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMALİ RƏHMONDAN 607
TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMÜHƏMMƏDOVDAN 607
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTAR-TASS-IN BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA İTAR-TASS AGENTLİYİ VƏ "ROSSİYA 24" TELEKANALI ÜÇÜN MÜSAHİBƏSİ 608
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMAT 625
İTAR-TASS-IN BAŞ DİREKTORU VİTALİ İQNATENKODAN, İTAR-TASS-IN BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANDAN 626
DƏRBƏND RAYON ADMİNİSTRASİYASININ BAŞÇISI QURBAN QURBANOVDAN 626

ŞİMALİ OSETİYA-ALANİYA RESPUBLİKASININ BAŞÇISI TAYMURAZ MAMSUROVDAN 627
QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVDAN 627
İNQUŞETİYA RESPUBLİKASININ BAŞÇISI YUNUSBEK YEVKUROVDAN 628
ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN KADIROVDAN 628
ULYANOVSK VİLAYƏTİ HÖKUMƏTİNİN QUBERNATOR-SƏDRİ SERGEY MOROZOVDAN 629
STRAVROPOL DİYARININ QUBERNATORU VALERİ QAYEVSKİDƏN 629
HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNDƏN 630
SANKT-PETERBURQUN QUBERNATORU GEORGİ POLTAVÇENKODAN 630
RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOVDAN 631
RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVADAN 632
LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERZİNŞDƏN 632
PREZİDENT İLHAM ƏLİYEV ABŞ-IN AZƏRBAYCANDAKI SƏFİRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 633
RUSİYA FEDERASİYASI KEMEROVO VİLAYƏTİNİN QUBERNATORU AMAN TULEYEVDƏN 633
RUMİNİYANIN PREZİDENTİ TRAYAN BESESKUDAN 634
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SEYNT-VİNSENT VƏ QRENADİNİN BAŞ NAZİRİ RALF QONZALVESİ QƏBUL ETMİŞDİR 634
MİLLİ MƏCLİSDƏ KEÇİRİLMİŞ GÖRÜŞLƏR 635
YANVARIN 13-DƏ MİLLİ MƏCLİS SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ZİYAFƏT ƏSGƏROVUN ÖLKƏMİZDƏ RƏSMİ SƏFƏRDƏ OLAN BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ SVEN ALKALAYLA GÖRÜŞÜ OLDU. 635
YANVARIN 25-DƏ MİLLİ MƏCLİSLƏ USAİD-İN BİRGƏ HƏYATA KEÇİRDİYİ "XOŞ GƏLDİNİZ" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ IV ÇAĞIRIŞ MİLLİ MƏCLİSİN YENİ SEÇİLMİŞ DEPUTATLARI VƏ PARLAMENT APARATININ RƏHBƏR İŞÇİLƏRİ ARASINDA GÖRÜŞ KEÇİRİLDİ. 635
YANVARIN 25-DƏ MİLLİ MƏCLİSLƏ USAİD-İN BİRGƏ HƏYATA KEÇİRDİYİ "XOŞ GƏLDİNİZ" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ IV ÇAĞIRIŞ MİLLİ MƏCLİSİN YENİ SEÇİLMİŞ DEPUTATLARI VƏ PARLAMENT APARATININ RƏHBƏR İŞÇİLƏRİ ARASINDA GÖRÜŞ KEÇİRİLDİ. 637
YANVARIN 26-DA MİLLİ MƏCLİSİN ELM VƏ TƏHSİL KOMİTƏSİNDƏ ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN MİSİR ELM VƏ TƏHSİL ARAŞDIRMALARI ÜMUMHƏMKARLAR İTTİFAQININ PREZİDENTİ ELSAİD ABOU ELMAGD HAMZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLDU. 638
FEVRALIN 3-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ TƏŞKİLATA ÜZV DÖVLƏTLƏR TƏRƏFİNDƏN ÖHDƏLİKLƏRİN YERİNƏ YETİRİLMƏSİ ÜZRƏ KOMİTƏSİNİN (MONİTORİNQ KOMİTƏSİ) AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ PEDRO AQRAMUNT FONT DE MORANI VƏ COZEF DEBONO QREXİ QƏBUL ETMİŞDİR 639
FEVRALIN 3-DƏ MİLLİ MƏCLİSDƏ AZƏRBAYCANIN AŞPA-DAKI NÜMAYƏNDƏ HEYƏTİ ÜZVLƏRİNİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ MONİTORİNQ KOMİTƏSİNİN ÖLKƏMİZ ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ PEDRO AQRAMUNT FONT DE MORA VƏ COZEF DEBONO QREX İLƏ GÖRÜŞÜ KEÇİRİLDİ. 640

FEVRALIN 3-DƏ MİLLİ MƏCLİSDƏ SİYASİ PARTİYALARIN TƏMSİLÇİLƏRİ VƏ BİTƏRƏF DEPUTATLARIN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN AŞPA-NIN QURUMA ÜZV DÖVLƏTLƏR TƏRƏFİNDƏN ÖHDƏLİKLƏRİN YERİNƏ YETİRİLMƏSİ ÜZRƏ KOMİTƏSİNİN (MONİTORİNQ KOMİTƏSİ) HƏMMƏRUZƏÇİLƏRİ PEDRO ARQAMUNT FONT DE MORA VƏ COZEF DEBONO QREXLƏ GÖRÜŞÜ OLDU. 640
FEVRALIN 7-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN FRANSA-AZƏRBAYCAN İŞÇİ QRUPUNUN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR. 641
FEVRALIN 8-DƏ MİLLİ MƏCLİSİN SPİKERİ OQTAY ƏSƏDOV LİTVA SEYMİNİN SƏDRİ XANIM İRENA DYAQUTYENENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETDİ. 642
FEVRALIN 12-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ATƏT PA-NIN VİTSE-PREZİDENTİ VOLFQANQ QROSSRUKUN BAŞÇILIĞI İLƏ QURUMUN SEÇKİ SONRASI MİSSİYASININ ÜZVLƏRİNİ QƏBUL ETDİ. 643
FEVRALIN 11-DƏ MİLLİ MƏCLİS SƏDRİNİN MÜAVİNİ BAHAR MURADOVA ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN ATƏT PA-NIN SƏDR MÜAVİNİ VOLFQANQ QROSSRUKLA GÖRÜŞDÜ. 645
FEVRALIN 17-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV KUBANIN XARİCİ İŞLƏR NAZİRİ BRUNO RODRİGES PARİYANI QƏBUL ETMİŞDİR. 645
MARTIN 2-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUSTAM MİNNİXANOV İLƏ GÖRÜŞDÜ. 647
MARTIN 10-DA MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ALBANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ XARİCİ İŞLƏR NAZİRİ EDMOND HACİNASTONLA GÖRÜŞDÜ. 648
MARTIN 11-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ABŞ-IN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ METYU BRAYZANI QƏBUL ETDİ. 649
MARTIN 14-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR. 649
MARTIN 14-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM MİŞELİN KALMİ-REY İLƏ GÖRÜŞMÜŞDÜR. 651
MARTIN 14-DƏ MİLLİ MƏCLİS SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ZİYAFƏT ƏSGƏROVUN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN MƏRAKEŞİN ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏD NƏSİRİ İLƏ GÖRÜŞÜ OLDU. 653
MARTIN 14-DƏ MİLLİ MƏCLİSİN İNSAN HÜQUQLARI KOMİTƏSİNİN SƏDR MÜAVİNİ YEVDA ABRAMOV ABŞ-IN ANTİSEMİTİZMİN MONİTORİNQİ VƏ ONA QARŞI MÜBARİZƏ ÜZRƏ XÜSUSİ ELÇİSİ XANIM HANNA ROZENTALİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDÜ. 653
MARTIN 17-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV UKRAYNANIN MÜDAFİƏ NAZİRİ MİXAİL YEJELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB. 654
MARTIN 28-DƏ MİLLİ MƏCLİSİN REGİONAL MƏSƏLƏLƏR KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ ANKARA ŞƏHƏRİ KEÇİRƏN BƏLƏDİYYƏSİ NÜMAYƏNDƏ HEYƏTİNİN GÖRÜŞÜ KEÇİRİLİB. 655
MARTIN 28-DƏ MİLLİ MƏCLİS SƏDRİNİN BİRİNCİ MÜAVİNİ, PARLAMENTİN TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZİYAFƏT ƏSGƏROV AZƏRBAYCANDA SƏFƏRDƏ OLAN KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ TORPAQ, NƏQLİYYAT VƏ DƏNİZ İŞLƏRİ KOMİSSİYASININ SƏDRİ SONQ KVANQ HONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDÜ. 656

APRELİN 1-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV GÜRCÜSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ TEYMURAZ ŞARAŞENİDZENİ QƏBUL ETDİ. . . . 656
APRELİN 4-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV AVROPA ŞURASININ BAKIDAKI OFİSİNİN YENİ RƏHBƏRİ KONSTANTİN YEROKOSTOPULOSU QƏBUL ETDİ. . . . 657
APRELİN 5-DƏ MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV POLŞANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ MİXAL LABENDANI QƏBUL ETDİ. . . . 658
177) AZƏRBAYCAN-YUNANISTAN ƏLAQƏLƏRİ İNKİŞAF EDİR 659
176) AZƏRBAYCAN VƏ TÜRKİYƏ GƏNCLƏRİNİN ƏMƏKDAŞLIĞI VACİBDİR 661
175) MİLLİ MƏCLİSDƏ QƏBUL 661
174) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 663
173) TRAYAN BESESKU: "RUMİNİYA AZƏRBAYCANIN YAXIN DOSTUDUR" 663
172) MİLLİ MƏCLİSDƏ QƏBUL 665
171) AQRAR SİYASƏT KOMİTƏSİNDƏ GÖRÜŞ 665
170) PETROS EFTİMİU: "AZƏRBAYCAN TƏKCƏ ATƏT-İN FƏAL ÜZVÜ DEYİL, HƏM DƏ REGİONDA ÖNƏMLİ DÖVLƏTDİR" 666
169) ATƏT PA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ BARƏDƏ MÖVQEYİNİ ƏKS ETDİRƏN QƏTNAMƏ QƏBUL EDƏ BİLƏR 667
168) PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ MDB İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN PA-NIN İCLASINDA. 668
167) YERJİ BUZEK: "AZƏRBAYCAN AVROPA İTTİFAQI ÜÇÜN ÖNƏMLİ ÖLKƏDİR" . . . 673
165) MİLLİ MƏCLİSDƏ QƏBUL 675
164) AZƏRBAYCAN-ÖZBƏKİSTAN ƏLAQƏLƏRİ İNKİŞAF EDİR. 676
163) BQXK İNSAN VƏ HUMANİZM NAMİNƏ TƏQDİRƏLAYİQ FƏALİYYƏT GÖSTƏRİR 677
162) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 678
161) AZƏRBAYCAN-LATVİYA PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİNİN İNKİŞAFI VACİBDİR. 679
160) 679
159) AXMATBEK KELDİBEKOV "QIRĞIZISTAN AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK MARAQ GÖSTƏRİR". 680
158) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 682
157) BMT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 682
156) AZƏRBAYCAN-RUMİNİYA PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİ İNKİŞAF EDİR . 683
155) NEKULAY ONTSANU: "RUMİNİYA AZƏRBAYCANIN DOSTUDUR" 684
154) 685
153) AZƏRBAYCAN REGİONDA ƏN DİNAMİK İNKİŞAF EDƏN ÖLKƏDİR 686
152) BMT-YƏ ÜZV ÖLKƏLƏRİN DAİMİ NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANIN REGİONDA VƏ DÜNYADA GEDƏN PROSESLƏRDƏ İŞTİRAKINI YÜKSƏK QİYMƏTLƏNDİRİRLƏR 687
151) KRİSTOS PİRQURİDES: "İŞĞAL ALTINDA OLAN ƏRAZİLƏR AZƏRBAYCANA QAYTARILMALIDIR" 687
150) AVROPA STRUKTURLARINA İNTEQRASİYA AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİNDƏNDİR. 688

149) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 689
148) ABŞ SENATORLARI MİLLİ MƏCLİSDƏ 689
147) ARGENTİNA İLƏ PARLAMENTLƏRARASI ƏLAQƏLƏR GENİŞLƏNİR 690
146) DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLLİNİ TAPMALIDIR 691
145) MİLLİ MƏCLİSDƏ QƏBUL 692
144) ARGENTİNA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR 693
143) REGİONAL ƏMƏKDAŞLIQ GENİŞLƏNİR. 694
142) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 694
141) AZƏRBAYCAN CƏNUBİ QAFQAZDA SÜLHÜN TƏMİNATI ÜÇÜN VACİB ÖLKƏDİR 695
140) SENATOR ROSSANA BOLDİ: "BİZ PARLAMENTLƏRARASI MÜNASİBƏTLƏRİMİZİ DAHA GENİŞ MÜSTƏVİDƏ İNKİŞAF ETDİRMƏK NİYYƏTİNDƏYİK" 696
139) SENATOR ROSSANA BOLDİ: "BİZ PARLAMENTLƏRARASI MÜNASİBƏTLƏRİMİZİ DAHA GENİŞ MÜSTƏVİDƏ İNKİŞAF ETDİRMƏK NİYYƏTİNDƏYİK" 697
138) VƏLİD MUSAİD ƏL-TABTABAYİ: "KÜVEYT HƏR ZAMAN AZƏRBAYCANIN HAQLI MÖVQEYİNİ DƏSTƏKLƏYİB" 698
137) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 699
136) MİLLİ MƏCLİSDƏ QƏBUL 699
135) MİLLİ MƏCLİSDƏ QƏBUL 700
134) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 701
133) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 702
132) MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV: "DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ ƏLAQƏDAR STATUS-KVO DƏYİŞMƏLİDİR" 703
131) MƏCLİSDƏ QƏBUL 704
130) OQTAY ƏSƏDOV: "GÜCÜMÜZ BİRLİYİMİZDƏDİR" 705
129) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 707
128) MİLLİ MƏCLİSDƏ UŞAQ HÜQUQLARINA HƏSR OLUNMUŞ DƏYİRMİ MASA KEÇİRİLDİ 708
127) VOLKAN BOZKIR: "DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ HƏLL OLUNMAYANA QƏDƏR TÜRKİYƏ-ERMƏNİSTAN SƏRHƏDLƏRİ AÇILMAYACAQ" 709
126) TÜRKİYƏ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ REGİONDA İNKİŞAF VƏ SABİTLİK RƏMZİDİR 710
125) MİLLİ MƏCLİSDƏ QƏBUL 711
124) ADİL MUHEYDƏR RAZİ ƏL-MALİKİ: "AZƏRBAYCAN DÜNYADA BÖYÜK NÜFUZ QAZANMIŞDIR". 712
123) MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 713
122) MİLLİ MƏCLİSDƏ QƏBUL 714
120) MƏCLİSİN SƏDR MÜAVİNİ BAHAR MURADOVA QARABAĞ BÖLGƏSİNDƏ SEÇİCİLƏRLƏ GÖRÜŞMÜŞDÜR 714
119) MİLLİ MƏCLİSDƏ QƏBUL 716
118) MİLLİ MƏCLİSİN İCLASINDA 717

117) MİLLİ MƏCLİSDƏ QƏBUL 721
NAZİRLƏR KABİNETİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞLƏR 723
Yanvarın 12-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Bosniya və Herseqovinanın xarici işlər naziri Sven Alkalayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 723
Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu birgə işçi nahar etmişlər 723
Fevralın 8-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 723
Fevralın 17-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Kubanın xarici işlər naziri Bruno Eduardo Rodriqes Parrilyanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 724
Martın 10-da Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Albaniya Baş nazirinin müavini və xarici işlər naziri Edmond Hacinaston ilə görüşmüşdür. 724
Martın 17-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Ukraynanın müdafiə naziri Mixail Yejelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 725
Azərbaycan Respublikasında rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas aprelin 5-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür 725
Aprelin 6-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Amerika Birləşmiş Ştatlarının ölkəmizə yeni təyin olunmuş səfiri Metyu Brayzanı onun xahişi ilə qəbul etmişdir 725
Aprelin 12-də Azərbaycanın Baş naziri Artur Rasi-zadə İordaniya Haşimilər Krallığının sənaye və ticarət naziri Hani Əl-Mülkinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 726
Azərbaycan Respublikasında rəsmi səfərdə olan Rumıniya Prezidenti Trayan Besesku aprelin 18-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür. 726
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Kiyev sammitində dünya ictimaiyyətini Ermənistandakı Metsamor AES-in bağlanmasına kömək etməyə çağırmışdır 726
Aprelin 20-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstanın Milli Kəşfiyyat Xidmətinin direktoru general-leytenant Kirço Kirovu qəbul etmişdir. 727
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və Ukrayna Prezidenti Viktor Yanukoviç birgə işçi nahar etmişlər 727
Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Litva Prezidenti Dalya Qribauskayte birgə işçi nahar etmişlər 728
İstanbulda BMT-nin az inkişaf etmiş ölkələrə yardımla bağlı konfransı keçirilmişdir 728
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə konfransda iştirak etmişdir 728
Azərbaycanın Baş naziri Artur Rasi-zadə və Çexiya Prezidenti Vatslav Klaus birgə işçi nahar etmişlər. 729
İyunun 28-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Dövlət Sosial Müdafiə Fondunun, Beynəlxalq Sosial Təminat Assosiasiyasının və Beynəlxalq Pensiya və Sığorta Fondları Assosiasiyasının birgə təşkilatçılığı ilə "Əmək miqrantlarının sosial müdafiəsi və qloballaşma" mövzusunda beynəlxalq seminarda iştirak etmək üçün Bakıya gəlmiş Beynəlxalq Sosial Təminat Assosiasiyasının Baş Katibi Hans-Horst Konkolevskini qəbul etmişdir 729
İyunun 30-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Argentina Respublikası Gömrük İdarəsinin Baş direktoru xanım Maria Siomara Ayeranı qəbul etmişdir. 729

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə iyulun 1-də İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Əli Laricaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 730
İyulun 4-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qırğız Respublikası Parlamentinin sədri Axmatbek Keldibekovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 730
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə iyulun 8-də ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının Baş naziri Mixail Myasnikoviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 731
Səfər başa çatdı. 732
Bakıda səfərdə olan Kamboca, Benin, Ekvatorial Qvineya, Mavriki, Namibiya, Sent Lusiya, Sent Vinsent Qrenadin, Seyşel adaları, Syerra-Leone, Şri-Lanka, Yamayka və Zimbabvenin BMT yanında daimi nümayəndələri avqustun 24-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ilə görüşmüşlər. 732
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə sentyabrın 1-də Serbiya Respublikasının xarici işlər naziri Vuk Yeremiç ilə görüşmüşdür. 733
Sentyabrın 3-də Düşənbədə Müstəqil Dövlətlər Birliyinin (MDB) 20 illiyi ilə əlaqədar Dövlət Başçıları Şurasının yubiley Sammiti keçirilmişdir. 734
Azərbaycanda rəsmi səfərdə olan Monteneqro Prezidenti Filip Vuyanoviç sentyabrın 16-da Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür. 735
Oktyabrın 4-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya Prezidentinin Şimali Qafqaz Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Aleksandr Xloponin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 735
Azərbaycanda rəsmi səfərdə olan Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişer oktyabrın 12-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür. 736
Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri İsmet Yılmaz oktyabrın 13-də Baş nazir Artur Rasi-zadə ilə görüşmüşdür. 736
Oktyabrın 19-da Azərbaycanın Baş naziri Artur Rasi-zadə ölkəmizdə rəsmi səfərdə olan Ekvador Respublikasının xarici işlər, ticarət və inteqrasiya naziri Rikardo Armando Patinyo Arokanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 737
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə oktyabrın 26-da Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 737
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə noyabrın 11-də ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Respublikasının Prezidenti Pal Şmitt ilə görüşmüşdür. 738
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə noyabrın 15-də ölkəmizdə səfərdə olan Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko ilə görüşmüşdür. 738
Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə noyabrın 16-da Avropa Komissiyası sədrinin müavini, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Ketrin Eştonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 738
Noyabrın 21-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Avropa Komissiyasının vitse-prezidenti, nəqliyyat üzrə komissar Siim Kallasın başçılığı ilə nümayəndə heyətini qəbul etmişdir. 739
Noyabrın 23-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin vitse-prezidenti Kiyoşi Koderanı qəbul etmişdir. 739

Noyabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qırğızıstan Respublikasının yeni seçilmiş Prezidenti Almazbəy Atambayevin andiçmə mərasimində iştirak etmək üçün Qırğızıstanın paytaxtı Bişkek şəhərinə yola düşmüşdür. 739

Dekabrın 1-də Toktoqul Satılqanov adına Qırğızıstan Milli Filarmoniyasında bu ölkənin yeni seçilmiş Prezdenti Almazbek Atambayevin andiçmə mərasimi keçirilmişdir. 740

Azərbaycanın Baş naziri Artur Rasi-zadə Gürcüstana yola düşmüşdür 741

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadənin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 20-də Gürcüstanın paytaxtı Tbilisiyə gəlmişdir. 741

Tbilisidə Gürcüstan-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyanın növbəti iclası keçirilmişdir 741

Azərbaycanın Baş naziri Artur Rasi-zadə Monteneqronun sabiq Prezidenti və Baş naziri, Monteneqro Sosialistlərinin Demokratik Partiyasının sədri Milo Çukanoviç ilə görüşmüşdür 742

Azərbaycanın Baş naziri Artur Rasi-zadə dekabrın 23-də İraqın xarici işlər naziri Hoşyar Zebarinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 743

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə dekabrın 29-da ölkəmizdə səfərdə olan Seynt-Vinsent və Qrenadin adalarının Baş naziri Ralf Qonzalves ilə görüşmüşdür. 743

XARİCİ İŞLƏR NAZİRLİYİNİN KEÇİRDİYİ GÖRÜŞLƏR 744

ÇIXIŞLAR 744

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun İndoneziya səfəri çərçivəsində 25 may 2011-ci il tarixində "Qoşulmama Hərəkatının 16-cı Nazirlər Konfransı və Yubiley görüşü"nün açılış mərasimində etdiyi çıxışı 744

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun cari ilin 27-28 iyun tarixlərində Qazaxıstan Respublikasının paytaxtı Astanada keçirilən İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyasında etdiyi çıxışı 745

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab E.Məmmədyarov Qoşulmama Hərəkatının Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 50 illik yubiley tədbirində etdiyi çıxışı 06 sentyabr 2011-ci il 747

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun BMT Baş Assambleyasının 66-cı Sessiyasında etdiyi çıxışı Nyu-York, 23 sentyabr 2011-ci il 749

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun BMT Baş Assambleyasının 66-cı sessiyası çərçivəsində Afrika Buynuzundakı Humanitar yardımla bağlı Nazirlərarası görüşündə etdiyi çıxıxı 24 sentyabr 2011-ci il 751

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovun BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində etdiyi çıxışı Nyu York, 27 sentyabr 2011-ci il 752

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxışı 07 dekabr 2011-ci il 756

BƏYANATLAR. 758

Azərbaycan Respublikası, Türkiyə Respublikası və İran İslam Respublikasının Xarici İşlər Nazirlərinin Naxçıvan Bəyanatı 7 mart 2012-ci il 758

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Liviyadakı vəziyyətlə bağlı Bəyanatı 02 sentyabr 2011-ci il 760

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin 26 avqust 2011-ci il tarixində Abxaziyada keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı Bəyanatı 02 sentyabr 2011-ci il 760

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Bəyanatı 15 senytabr 2011-ci il 760

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı 19 sentyabr 2011-ci il 761

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 13 noyabr 2011-ci il tarixində Gürcüstanın Tsxinvali regionunda - Cənubi Osetiyada keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı Bəyanatı 18 noyabr 2011-ci il 761

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı 22 dekabr 2011-ci il 761

XƏBƏRLƏR 762

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin 2010-cu il üçün yekun mətbuat buraxılışı 07 yanvar 2011-ci il 762

Nazir E.Məmmədyarov Küveyt Dövlətinə işgüzar səfəri çərçivəsində bu ölkənin Vəliəhdi Əlahəzrət Şeyx Nəvvaf Əl-Əhməd Əl-Cabir Əl-Sabah ilə 10 yanvar 2011-ci ildə görüş keçirmişdir 768

Nazir E.Məmmədyarov Küveyt Dövlətinə işgüzar səfəri çərçivəsində Küveyt Dövlətinin Baş Naziri Əlahəzrət Şeyx Nasser Əl-Məhəmməd Əl-Əhməd Əl-Cabir Əl-Sabah ilə görüş keçirmişdir 768

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın birinci iclası keçirilmişdir 11 yanvar 2011-ci il 769

Nazir E. Məmmədyarovun 10-11 yanvar Küveytin "Əl-Ray" qəzetinə verdiyi müsahibənin tərcüməsi 21 yanvar 2011-ci il 770

Cari ilin 27 yanvar tarixində nazir E. Məmmədyarov Avstriyanın Sənaye İttifaqının prezidenti Fayt Zorgeri qəbul etmişdir 28 yanvar 2011-ci il 774

Nazir E.Məmmədyarov Münhendə keçirilən 47-ci Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində ABŞ-nın Dövlət Katibi X.Klintonla görüş keçirmişdir 06 fevral 2011-ci il 775

Nazir E.Məmmədyarov Münhen şəhərində keçirilən növbəti 47-ci Münhen Təhlükəsizlik Konfransında iştirak edir 06 fevral 2011-ci il 775

Fevralın 8-də Xarici İşlər Naziri ATƏT-in Parlament Assambleyasının sədri Qoran Lenmarkeri qəbul etmişdir. 775

Nazir E.Məmmədyarov Azərbaycanda səfərdə olan Fransa Senatının üzvləri Natali Qule və Andre Vil - in başçılıq etdikləri nümayəndə heyətini qəbul etmişdir 08 fevral 2011-ci il 776

Nazir E.Məmmədyarov Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir 09 fevral 2011-ci il 776

Azərbaycan Respublikasının İtaliyadakı səfiri Vaqif Sadıqov öz etimadnaməsini Kurinale Sarayında İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanoya təqdim etmişdir 09 fevral 2011-ci il 777

Nazir E.Məmmədyarov Azərbaycanda səfərdə olan Avropa Parlamentinin üzvləri İvo Vaygel və Pino Arlaççini qəbul etmişdir 10 fevral 2011-ci il 777

Nazir E. Məmmədyarovun Ukraynaya 23-24 fevral tarixlərində rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər haqqında 778

Xarici İşlər Nazirinin müavini cənab Xələf Xələfov Azərbaycanda səfərdə olan Macarıstanın Dövlət Katibi cənab Yolt Nemetin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
25 fevral 2011-ci il 779

Yunanıstan Respublikasında səfərdə olan Xarici İşlər Naziri E. Məmmədyarov 25 fevral 2011-ci il tarixində bu ölkənin Baş Naziri cənab Corc Papandreu ilə görüşmüşdür
25 fevral 2011-ci il 779

Nazir E.Məmmədyarov Belçika Krallığının Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luk Troyeni qəbul etmişdir
01 mart 2011-ci il 780

Nazir E.Məmmədyarovun İran İslam Respublikasına səfəri
08 mart 2011-ci il 780

Azərbaycan Respublikası Hökuməti tərəfindən təbii fəlakətin nəticələrini aradan qaldırılması məqsədi ilə Yaponiyaya 1 milyon ABŞ dolları həcmində maliyə yardımı haqqında
18 mart 2011-ci il 780

ATƏT-in Minsk Qrupunun həmsədrləri işğal edilmiş ərazilərdə ümumi vəziyyətin dəyərləndirilməsi məqsədilə 7-12 oktyabr 2010-cu il tarixlərində Sahə Qiymətləndirmə Missiyasını (SQM) həyata keçirmişlər
28 mart 2011-ci il 781

Xarici İşlər Nazirliyinin ATƏT-in Daimi Şurasının 7 aprel 2011-ci il tarixli iclasında səsləndirilmiş "Azərbaycanda fundamental azadlıqlarla bağlı vəziyyətə" dair bəyanatı
12 aprel 2011-ci il 783

Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarov Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Şeyx Abdulla bin Zayed Əl Nahyan ilə görüş keçirmişdir
22 mart 2011-ci il 783

Nazir E.Məmmədyarov ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Tina Kaydanaunu qəbul etmişdir
25 aprel 2011-ci il 784

Nazir E.Məmmədyarov Küveytin Diplomatik Akademiyasının rəhbəri səfir Əbdüləziz Əl-Şarexi qəbul etmişdir
27 aprel 2011-ci il 784

Nazir E.Məmmədyarov ABŞ-in Nümayəndələr Palatasının Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin rəhbərlik etdiyi Konqresin nümayəndə heyətini qəbul etmişdir
28 aprel 2011-ci il 785

Nazir E.Məmmədyarov İndoneziyanın Azərbaycandakı səfiri İ.Viranataatmacanı ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
6 may 2011-ci il 785

Xarici İşlər Naziri E.Məmmədyarov Azərbaycanda səfərdə olan Serbiya Respublikasının Xarici İşlər Nazirinin müavini Z.Vuyiçi qəbul etmişdir
11 may 2011-ci il 786

Xarici İşlər Naziri E.Məmmədyarov Azərbaycanda səfərdə olan ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım D. Miyatoviçi qəbul etmişdir
12 may 2011-ci il 786

Nazir E.Məmmədyarov ATƏT-in Parlament Assambleyasının sədri P.Eftimiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
13 may 2011-ci il 786

Nazir E.Məmmədyarov BMT-nin Qaçqınlar üzrə Ali Komissarı A.Quterreşin başçılıq etdiyin nümayəndə heyətini qəbul etmişdir
19 may 2011-ci il 787

Azərbaycan Respublikası, Türkiyə Respublikası və İran İslam Respublikasının Xarici İşlər Nazirlərinin Naxçıvan Bəyanatı 787

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun İndoneziya səfəri çərçivəsində 25 may 2011-ci il tarixində "Qoşulmama Hərəkatının 16-cı Nazirlər Konfransı və Yubiley görüşü"nün açılış mərasimində etdiyi çıxışı 789

İndoneziyanın Bali adasında Qoşulmama Hərəkatı 16-cı Nazirlər Konfransında Xarici İşlər Naziri E.Məmmədyarov iştirak edir
26 may 2011-ci il 791

ABŞ-a işgüzar səfəri çərçivəsində Xarici İşlər Naziri Elmar Məmmədyarov Nyu-Yorkda növbəti görüşünü Ərəb Dövlətləri Liqasının BMT yanında Daimi Nümayəndələri ilə keçirmişdir
01 iyun 2011-ci il 792

ABŞ-a işgüzar səfəri çərçivəsində Xarici İşlər Naziri Elmar Məmmədyarov Nyu-Yorkda BMT-nin Baş Qərargahında Baş Katib Ban Ki-mun ilə görüş keçirmişdir
01 iyun 2011-ci il 792

Xarici İşlər Naziri E. Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 31 may tarixində Nyu-Yorkda BMT Baş Qərargahında İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin BMT yanında Daimi Nümayəndələrin səviyyəsində keçirilmiş İKT Qrupunun iclasında iştirak 793

ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Nazir E.Məmmədyarov Nyu-Yorkda Asiya ölkələrinin BMT yanında Daimi Nümayəndələri ilə görüş keçirmişdir
02 iyun 2011-ci il 793

ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Xarici İşlər Naziri E.Məmmədyarov Nyu-Yorkda Avropa ölkələrinin BMT yanında Daimi Nümayəndələri ilə görüş keçirmişdir
02 iyun 2011-ci il 794

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 2 iyun tarixində Vaşinqtonun ən nüfuzlu və mötəbər araşdırma mərkəzlərindən biri olan Atlantik Şurada nitq söyləmişdir
03 iyun 2011-ci il 795

Nazir E.Məmmədyarov ABŞ-a işgüzar səfəri çərçivəsində 1 iyun tarixində Vaşinqtonda Minsk Qrupunun ABŞ tərəfdən həmsədri Robert Bradke ilə görüşmüşdür
03 iyun 2011-ci il 795

Nazir E.Məmmədyarov Avropa Xarici Siyasət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə idarəedici direktoru Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
08 iyun 2011-ci il 796

Nazir Elmar Məmmədyarov ABŞ Dövlət Katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarı qəbul etmişdir, 08 iyun 2011-ci il 797

Nazir E.Məmmədyarov Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Əbdül Həmidi ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir 08 iyun 2011-ci il 797

Cari ilin 15 iyun tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun İspaniyaya rəsmi səfəri başlayıb
16 yiun 2011 il 797

Nazir E.Məmmədyarov İspaniya Krallığına rəsmi səfəri çərçivəsində 16 iyun 2011-ci il tarixində İspaniyanın Sahibkarlar Konfederasiyaları Təşkilatında (İSKT) bu ölkənin aparıcı şirkətlərinin nümayəndələri ilə görüşmüşdür
17 iyun 2011-ci il 798

Nazir E.Məmmədyarov İspaniya Krallığına rəsmi səfəri çərçivəsində İspaniyanın Xarici İşlər və Əməkdaşlıq Naziri xanım Trinidad Ximenez ilə görüşmüşdür
17 iyun 2011-ci il 799

İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyasında Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun çıxışı. 800

Qazaxıstan Respublikasının paytaxtı Astanada İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 38-ci sessiyası keçirilmişdir
28 iyun 2011-ci il 802

Nazir E.Məmmədyarov Qırğız Respublikasının Parlamentinin sədri Axmatbek Keldibekovu qəbul etmişdir
4 iyul 2011-ci il 802

Nazir E.Məmmədyarov Səudiyyə Ərəbistanın Krallığının Diplomatik Akademiyasının rəhbəri, Abdulkərim al Daxayelini qəbul etmişdir
4 iyul 2011-ci il 802

Naziri E.Məmmədyarov Romada italiyalı həmkarı Franko Frattini ilə görüş keçirmişdir
6 iyul 2011-ci il 803

Nazir E.Məmmədyarov Banqladeşin, Dominikan Respublikası, Burkina Fasonun, Konqonun, Qambiyanın, Lesotonun, Maldiv adalarının, Myanmanın, Naurunun, Somalinin, Trinidad və Tobaqonun və Toqonun BMT yanında Daimi Nümayəndələrini qəbul etmişdir
8 iyul 2011-ci 804

Nazir Elmar Məmmədyarov Avropa Parlamentinin üzvləri Franko Qaston, Ferreira Fernandez Xose Manuel və Belçika Parlamentinin üzvü Alen Desteks-i qəbul etmişdir
15 iyul 2011-ci il 804

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarovun Rusiya Federasiyasına iki günlük (17 - 18 iyul) rəsmi səfəri davam edir
18 iyul 2011-ci il 805

Nazir E.Məmmədyarov Rumıniyanın Azərbaycandakı səfiri Nikolae Urekeni ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
21 iyul 2011-ci il 805

Nazir E.Məmmədyarov Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Karolin Braunu ölkəmizdə diplomatik fəaliyyətini başa vurması ilə əlaqədar qəbul etmişdir
22 iyul 2011-ci il 805

Nazir Elmar Məmmədyarov GUAM-ın baş katibi Valeriy Çeçelaşvilini qəbul etmişdir
22 iyul 2011-ci il 806

Nazir Elmar Məmmədyarov Böyük Britaniya Parlamentinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir
26 iyul 2011-ci il 806

Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini M.Məmməd-Quliyevin rəhbərliyi altında olan nümayəndə heyəti Cenevrə şəhərində səfərdə olmuşdur
01 avqust 2011-ci il 806

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Məhəmmədbağır Bəhrami Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə dəvət olunmuşdur
11 avqust 2011-ci il 807

Nazir E.Məmmədyarov Kamboca, Benin, Ekvatorial Qvineya, Mavriki, Namibiya, Sent Lusiya, Sent Vinsent və Qrenadin, Seyşel adaları, Syerra Leone, Şri Lanka, Yamayka və Zimbabvenin BMT yanında Daimi Nümayəndələrini qəbul etmişdir
25 avqust 2011-ci il 807

Nazir Elmar Məmmədyarov ATƏT-in Bakı ofisinin yeni rəhbəri Koray Tarqayı qəbul etmişdir
25 avqust 2011-ci il 808

Xarici İşlər Naziri E.Məmmədyarov Ukraynanın Xarici İşlər Naziri Konstantin Qrişenko ilə görüş keçirmişdir
26 avqust 2011-ci il 808

Nazir E.Məmmədyarov Vatikanın Azərbaycandakı nunsisi Klaudio Qucerottini ölkəmizdəki fəaliyyət müddətini başa vurması ilə əlaqədar qəbul etmişdir
02 sentyabr 2011-ci il 808

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab E.Məmmədyarovun Qoşulmama Hərəkatının 50 illik yubileyi ilə bağlı çıxışı 6 sentyabr 2011-ci il, Belqrad, Serbiya 809

Nazir E.Məmmədyarov Qoşulmama Hərəkatının 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Serbiyada səfərdə olan xarici işlər nazirləri və nümayəndə heyətlərinin başçıları ilə ikitərəfli görüşlər keçirmişdir
06 sentyabr 2011-ci il 810

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov Serbiyanın Baş naziri Mirko Çvetkoviç ilə görüş keçirmişdir
06 sentyabr 2011-ci il 810

Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov Qoşulmama Hərəkatının Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 50 illik yubiley tədbirində çıxış etmişdir
06 sentyabr 2011-ci il 811

Serbiyanın Belqrad şəhərində Qoşulmama Hərəkatının 50 illik yubileyinə həsr olunmuş xarici işlər nazirləri səviyyəsində növbəti tədbir öz işinə başlamışdır
06 sentyabr 2011-ci il 811

Xarici İşlər Naziri E.Məmmədyarov 19 sentyabr tarixində BMT Baş Assambleyasının 66-cı Sessiyasında iştirak edəcək 811

Xarici İşlər Naziri E.Məmmədyarov BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
21 sentyabr 2011-ci il 811

Xarici İşlər Naziri E.Məmmədyarov BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
22 sentyabr 2011-ci il 812

BMT Baş Assambleyasının 66-cı Sessiyası İslam Əməkdaşlığı Təşkilatına (İƏT) üzv olan ölkələrin xarici işlər nazirlərinin illik əlaqələndirmə görüşü 813

Azərbaycan Respublikası və Hindistan Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir
23 sentyabr 2011-ci il 815

Xarici İşlər Naziri E.Məmmədyarov BMT Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirak etmək məqsədilə bir sıra ikitərəfli görüşlər kecirmişdir
23 sentyabr 2011-ci il 816

BMT Baş Assambleyasının 66-cı sessiyası Afrika Buynuzundakı Humanitar yardımla bağlı Nazirlərarası görüş
Nyu York, 24 Sentyabr 2011-ci il 816

BMT-nin Baş Assambleyasının 66-cı sessiyasının ümumi müzakirələrində iştirakı çərçivəsində Xarici İşlər Naziri Elmar Məmmədyarov bir sıra tədbirlərdə iştirak etmiş və ikitərəfli görüşlər keçirmişdir 26 sentyabr 2011-ci il 817

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov 23 sentyabr 2011-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən BMT Baş Assambleyasının 66-cı Sessiyası çərçivəsində İslam Əməkdaşlığı Təşkilatına (İƏT) üzv olan ölkələrin xarici işlər nazirlərinin illik əlaqələndirmə görüşündə çıxış etmişdir 818

Xarici İşlər Nazirinin müavini X.Xələfov Argentina Parlamentinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir
27 sentyabr 2011-ci il 822

Xarici İşlər Nazirinin müavini X.Xələfov ABŞ-ın Kaliforniya Senatının ətraf mühitin keyfiyyəti üzrə komitəsinin sədri senator C.Simitianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
27 sentyabr 2011-ci il 822

Nazir Elmar Məmmədyarov GUAM-ın Baş katibi Valeriy Çeçelaşvilini qəbul etmişdir
11 oktyabr 2011-ci il 823

Azərbaycan Respublikası və Argentina Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir
14 oktyabr 2011-ci il 823

Çexiya Parlamentinin Deputatlar Palatasının xarici əlaqələr komitəsi Azərbaycan Respublikasının müstəqilliyinin 20-ci ildönümü münasibətilə cari ilin 12 oktyabr tarixində yekdilliklə qətnamə qəbul etmişdir
15 oktyabr 2011-ci il 824

Azərbaycan Respublikası və Kolumbiya Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir
17 oktyabr 2011-ci il 824

Azərbaycan Hökuməti Pakistan İslam Respublikasının cənubunda musson yağışları nəticəsində baş vermiş daşqın və dağıntılardan zərər çəkmiş insanlara humanitar yardım göstərilməsi məqsədilə vəsait ayırmışdır
27 oktyabr 2011-ci il 825

Xarici İşlər Naziri Elmar Məmmədyarov Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
27 oktyabr 2011-ci il 825

Xarici İşlər Naziri Elmar Məmmədyarov Avstraliyanın iqamətgahı Ankara şəhəri olmaqla Azərbaycan Respublikasında akkreditə olunmuş Səfiri İan Biqsi qəbul etmişdir
27 oktyabr 2011-ci 826

Xarici İşlər Naziri Elmar Məmmədyarov Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinqerlə görüş keçirmişdir
3 noyabr 2011-ci il 826

Azərbaycan Respublikasının BMT-dəki Daimi Nümayəndəliyi tərəfindən BMT Baş Katibinə məktub ünvanlanmışdır
05 noyabr 2010-cu il 827

Nazir E.Məmmədyarov İraq Respublikasının Bələdiyyələr və İctimai İşlər Naziri, Azərbaycan Hökuməti və İraq Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası komissiyanın sədri Adil Muheydər Razi Əl-Malikini qəbul etmişdir
23.11.2011 828

Xarici İşlər Naziri Elmar Məmmədyarov Almaniyanın Bonn şəhərində keçirilən Əfqanıstan üzrə Beynəlxalq Konfransda iştirak etmişdir
05 dekabr 2011-ci il 828

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxış etmişdir
06 dekabr 2011-ci il 829

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
7 dekabr 2011-ci il 831

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında çıxış etmişdir
06 dekabr 2011-ci il 832

Xarici İşlər Naziri Elmar Məmmədyarov Vilnüsdə keçirilən GUAM Xarici İşlər Nazirləri Şurasının 16-ci iclasında iştirak etmişdir
07 dekabr 2011-ci il 832

Xarici İşlər Naziri Elmar Məmmədyarov Litvanın paytaxtı Vilnüs şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 18-ci iclasında iştirakı çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir
07 dekabr 2011-ci il 832

Xarici İşlər Naziri E.Məmmədyarov Belçika Krallığının paytaxtı Brüssel şəhərində keçirilən ISAF-a töhfə verən ölkələrin xarici işlər nazirlərinin iclası çərçivəsində NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Apartura 833

Nazir Elmar Məmmədyarov Belçika Krallığının paytaxtı Brüssel şəhərində keçirilən ISAF-a (Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri) töhfə verən ölkələrin xarici işlər nazirlərinin iclasında iştirak etmişdir
08 dekabr 2011-ci il 833

Xarici İşlər Naziri Elmar Məmmədyarov ABŞ Müdafiə Nazirliyinin nəqliyyat Komandanı Uilyam Freyzerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
12 dekabr 2011-ci il 835

Nazir E.Məmmədyarov Çinin Azərbaycandakı Səfiri Cjan Yannyanı ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir
14 dekabr 2011-ci il 835

Nazir E.Məmmədyarov Braziliyanın Azərbaycandakı Səfiri Paulo Antonio Pereira Pintonu ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir
14 dekabr 2011-ci il 835

Xarici İşlər Naziri Elmar Məmmədyarov İsrail Xarici İşlər Nazirliyinin Baş Katibi Rafael Barakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
15 dekabr 2011-ci il 836

Nazir Elmar Məmmədyarov Çexiya Parlamentinin Nümayəndələr Palatasının sədr müavini Lyubomir Zauralenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir
21 dekabr 2011-ci il 836

ƏDLİYYƏ NAZİRLİYİNİN KEÇİRDİYİ GÖRÜŞLƏR 837

Fevralın 23-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Herbert Kvelle və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) məsul nümayəndələri ilə görüşmüşdür. .. 837

Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov fevralın 3-də Latviya ətraf mühitin mühafizəsi və regional inkişaf naziri Raymonds Veyonisin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 837

Xəbər verildiyi kimi, Mərakeş Krallığının ədliyyə naziri Məhəmməd Nəsiri nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlmiş, ölkələrimiz arasında ilk dövlətlərarası hüquqi yardım haqqında müqavilələr imzalanmışdır. 838

Martın 1-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Xorvatiya Ali Məhkəməsinin sədri Branko Hrvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. 840

Azərbaycanda səfərdə olan Gürcüstanın ədliyyə naziri Zurab Adeişvili aprelin 29-da ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür. 840

Aprelin 19-da ATƏT Katibliyinin Siyasi dəstək mərkəzinin direktor müavini Paskal Heyman ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşmüşdür. 841

Aprelin 18-də ədliyyə naziri Fikrət Məmmədov İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mario Corco Stefano Baldi ilə görüşmüşdür. 841

Aprelin 14-də ədliyyə naziri Fikrət Məmmədov Avstriyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Silvia Mayer-Kaybiç ilə görüşmüşdür..... 842

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə Bakıda səfərdə olan Fransanın sabiq ədliyyə naziri, Avropa Parlamentinin deputatı xanım Raşida Dati aprelin 8-də ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür..... 842

Aprelin 7-də ədliyyə naziri Fikrət Məmmədov Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jolt Çutora ilə görüşmüşdür..... 843

Aprelin 4-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Avropa Şurasının (AŞ) Bakı ofisinin yeni rəhbəri səfir Konstantin Yerokostopulosla görüşmüşdür..... 843

Azərbaycan və Gürcüstan arasında strateji tərəfdaşlığa əsaslanan əlaqələr müxtəlif istiqamətlərdə, o cümlədən hüquqi sahədə uğurla inkişaf edir. Zəngin müqavilə-hüquq bazası əsasında Ədliyyə nazirlikləri arasında səmərəli əməkdaşlıq qurulmuş, qarşılıqlı səfərlər bu əlaqələrin daha da genişlənməsinə böyük təkan verməkdədir..... 844

Respublikamız nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən 100-dən çox dövləti birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli əməkdaşlıq edərək, 1998-ci ildən Təşkilatın rəhbər orqanı - İcraiyyə Komitəsində fəal təmsil olunur. Ölkəmiz BPA-nın rus dilində internet saytının aparılmasını, dünya prokurorları üçün praktiki əhəmiyyətə malik rəhbər tövsiyələrinin rus və Azərbaycan dillərinə tərcümə olunaraq yayılmasını təmin edir. Qurumun ötən İllik Konfransında uzun illər İcraiyyə Komitəsinin üzvü olmuş ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov Assosiasiyanın Senatına seçilmişdir..... 845

Azərbaycanda səfərdə olan Özbəkistanın Baş prokuroru Rəşitjan Kodirov mayın 3-də ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür..... 848

Avropa məkanında hüquq sistemlərinin təkmilləşdirilməsi və inkişafında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Məhkəməyə ildə 60 mindən çox şikayət daxil olur, insan haqlarının müdafiəsində mühüm presedentlər yaradılır, milli qanunvericiliklərin təkmilləşməsinə töhfələr verilir..... 849

İyunun 8-də ədliyyə naziri Fikrət Məmmədov Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidze ilə görüşmüşdür..... 850

Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinlə görüşmüşdür..... 850

Sentyabrın 27-də ədliyyə nazirinin müavini Toğrul Musayev BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı Ofisinin yeni təyin olunmuş İnsan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikovla görüşmüşdür..... 851

Ədliyyə naziri Fikrət Məmmədov Ukraynanın ölkəmizdəki səfiri Aleksandr Mişenko ilə görüşmüşdür..... 851

Sentyabrın 7-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Niderland Krallığının ölkəmizdəki səfiri Aryen Uyterlinde ilə görüşmüşdür..... 852

Sentyabrın 1-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyası Hüquq məsələləri və insan hüquqları komitəsinin sədri Kristos Purqurides və komitənin üzvü Elza Papadimitriu ilə görüşmüşdür..... 852

Mərakeş Krallığının ədliyyə naziri M.T.Nasirinin dəvəti ilə Azərbaycan Respublikasının ədliyyə naziri F.Məmmədov bu ölkədə səfərdədir..... 853

Oktyabrın 20-də ədliyyə nazirinin müavini Toğrul Musayev ölkəmizdə səfərdə olan İndoneziya Konstitusiya Məhkəməsinin sədri Məhəmməd Mahfudun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür..... 854

Oktyabrın 20-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov respublikamızda səfərdə olan Avropa Şurası (AŞ) Baş katibinin təşkilati inkişaf və islahatlar üzrə xüsusi nümayəndəsi Jerar Ştudmanla görüşmüşdür..... 854

Noyabrın 22-də Ədliyyə Nazirliyi ilə Dünya Bankı arasında Ədliyyə sisteminin müasirləşdirilməsi Layihəsinin əlavə maliyyələşdirilməsinə dair yeni kredit sazişinin imzalanması mərasimi keçirilmişdir. Sazişi Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov, Dünya Bankı tərəfindən Bankın ölkə meneceri vəzifəsini icra edən Səadət Bağırlı imzalamışdır..... 855

Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun ATƏT-lə birgə təşkil etdiyi "Azərbaycanda vəkillik institutunun daha da inkişaf etdirilməsi və məhkəməyə müraciət etmək imkanlarının səmərəliliyinin artırılması" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün respublikamızda səfərdə olmuş qurumun Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun idarə rəisi Tomas Vennen noyabrın 15-də ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşmüşdür..... 856

Macarıstan Prezidenti Pal Şmittin Azərbaycana rəsmi səfəri zamanı iki ölkənin Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Ədliyyə işçilərinin tədrisini, nazirliklərin fəaliyyəti üzrə təcrübə mübadiləsini, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı məlumatın verilməsini, ekspertlərin qarşılıqlı səfərlərini nəzərdə tutan Memorandumu Macarıstanın ədliyyə üzrə dövlət naziri Robert Repassi və Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov imzalamışdır..... 856

Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı çərçivəsində hüquqi əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verilir. 2001-ci ildə ulu öndər Heydər Əliyevin Türkiyəyə səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Protokol imzalanaraq, hüquqi əməkdaşlığın genişləndirilməsinə təkan verilmiş, müqavilə-hüquq bazası möhkəmləndirilmiş, ədliyyə nazirlərinin qarşılıqlı səfərləri və birgə tədbirlər keçirilmişdir..... 857

Dekabrın 15-də nümayəndə heyəti ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov ilə görüşmüşdür..... 858

"Season" MMC

Yığılmağa verilmişdir : 08.09.2014
Çapa imzalanmışdır : 10.10.2014
Format : 70x100 1/16
Fiziki ç.v. : 57
Tirajı : 500